# VEDİBASAR MAHALI



# OXUCULARIN NƏZƏRİNƏ!

ƏZİZ OXUCULAR! "Qərbi Azərbaycan" oncildliyinin Vedibasar, Zəngibasar, Gərnibasar və Qırxbulaq mahallarını əhatə edən I (1-ci nəşri 2000-ci ildə, 2-ci nəşri 2003-cü ildə) və II (2002-ci ildə) cildləri artıq nəşr olunub Sizin mühakimənizə verilmişdir. Bütövlükdə Qərbi Azərbaycan (indiki "Ermənistan") ərazisini əhatə edəcək digər cildlər üzərində isə iş davam etdirilir. Vaxtilə özü və ya ata-babaları bu qədim Türk-Oğuz yurdunda yaşamış, öz əslinə-kökünə biganə olmayan bütün qeyrətli soydaşlarımıza müraciət edir, o torpaqlar, o torpaqların şəxsiyyətləri barədə bildiklərini, artıq nəşr olunmuş cildlər haqqında isə qeyd, mülahizə və əlavələrini bizə çatdırmalarını xahiş edirik.

Əlaqə telefonu: 8-50-337-37-03, "Ağrıdağ" nəşriyyatı, Əziz Ələkbərli.

## Növbəti 8 cilddə əhatə olunacaq rayonlar

– Qaraqoyunlu-Göyçə (Şəmşəddin, Karvansaray, Çəmbərək rayonları)
– Göyçə (Basarkeçər, Qaranlıq, Kəvər, Yelenovka rayonları)
– Ağbaba-Şörəyel (Amasiya, Qızılqoç, Düzkənd, Artik, Ağin rayonları)
– Lori-Pəmbək (Barana, Allahverdi, Calaloğlu, Vorontsovka, Böyük Qarakilsə, Hamamlı rayonları)
– Zəngəzur (Sisian, Gorus, Qafan, Meğri rayonları)
– Dərələyəz (Keşişkənd, Paşalı rayonları)
– Sərdarabad, Karbibasar, Talın, Seyidli-Axsaxlı, Abaran, Dərəçiçək (Sərdarabad, Üçkilsə, Talın, Əştərək, Abaran, Axta rayonları)
– İrəvan şəhəri

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NİZAMİ adına ƏDƏBİYYAT İNSTİTUTU
DƏDƏ QORQUD adına FOLKLOR ELMİ-MƏDƏNİ MƏRKƏZİ

ƏZİZ ƏLƏKBƏRLİ

# QƏRBİ AZƏRBAYCAN

10 CİLDDƏ

BAKI – "AĞRIDAĞ" – 2003

2429

63.3(5Az)
Ə-44

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NİZAMİ adına ƏDƏBİYYAT İNSTİTUTU
DƏDƏ QORQUD adına FOLKLOR ELMİ-MƏDƏNİ MƏRKƏZİ

ƏZİZ ƏLƏKBƏRLİ

# QƏRBİ AZƏRBAYCAN

I CİLD

## VEDİBASAR MAHALI

## (VEDİ VƏ QARABAĞLAR RAYONLARI)

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN
İŞLƏR İDARƏSİNİN
KİTABXANASI

BAKI – "AĞRIDAĞ" – 2003

Az
Ə-44

MƏSLƏHƏTÇİ: AYDIN EYLAS OĞLU QASIMOV
general-mayor

REDAKTORLAR: VAQİF ŞADLİNSKİ
professor;
SÜLEYMAN MƏMMƏDOV
tarix elmləri doktoru, professor.

RƏYÇİLƏR: NİZAMİ CƏFƏROV
filologiya elmləri doktoru, professor,
Azərbaycan MEA-nın müxbir üzvü;
ABBAS SƏFƏROV
Azərbaycan Qaçqınlar Cəmiyyətinin sədri.

**ƏZİZ ƏLƏKBƏRLİ. Qərbi Azərbaycan, I cild, Vedibasar mahalı (Vedi və Qarabağlar rayonları), İkinci nəşri,** Bakı, "Ağrıdağ" nəşriyyatı, 2003, 736 səh.

Filologiya elmləri namizədi **Əziz Ələkbərli** xeyli vaxtdır ki, Qərbi Azərbaycan (indiki "Ermənistan") torpaqlarının tarixi, coğrafiyası, mədəniyyəti və s. ilə bağlı silsilə kitablar üzərində işləyir. Bu sıradan "Qədim Türk-Oğuz yurdu – "Ermənistan" (1994), "Abbasqulu bəy Şadlinski" (1996), "Qərbi Azərbaycan" - I cild (2000), "Qərbi Azərbaycan" - II cild (2002) kitabları nəşr edilib oxuculara çatdırılmışdır.

"Qərbi Azərbaycan" oncildliyinin Vedibasar mahalına (Vedi və Qarabağlar rayonlarına) həsr olunmuş I cildinin bu ikinci nəşrinə bölgə ilə bağlı bir sıra əlavə və dəyişikliklər edilmiş, cild daha da təkmilləşdirilmişdir.

Kitab mütəxəssis alimlər və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

Ə $\frac{0503020907}{064-2003}$ **Qrifli nəşr**

**© "Ağrıdağ" nəşriyyatı, 2000.**
**© "Ağrıdağ" nəşriyyatı, 2003.**

***"QƏRBİ AZƏRBAYCAN" adlı bu oncildliyi Vedi həsrəti ilə dünyadan vaxtsız köçmüş atam Yusif Əziz oğlu Ələkbərovun və Qərbi Azərbaycan torpaqlarının üstünü tərk etməyə məcbur olmuş bizlərdən fərqli olaraq, o torpaqların altını hələ də düşmənlərdən qorumaqda davam edən bütün mərhumlarımızın müqəddəs ruhlarına ithaf edirəm.***

Ə. Ə.

# *MÜƏLLİFDƏN**

***Əziz oxucu! Biz Səninlə çətin və şərəfli bir yolun başlanğıcındayıq – "Qərbi Azərbaycan" çoxcildliyinin ilk kitabı artıq qarşımızdadır.***

***Əslində, Azərbaycanda Qərbi Azərbaycanın tarixi coğrafiyasına dair nəşr edilmiş ilk kitab olan "Qədim Türk-Oğuz yurdu – "Ermənistan"" kitabı ilə biz bu işin bünövrəsini hələ 1994-cü ildə qoymuşuq. İndi isə onu davam etdirərək daha mükəmməl şəkildə – təxminən hər biri 46 çap vərəqi (736 səh.) həcmində olmaqla 10 cilddə nəşrinə nail olmaq əzmindəyik.***

***Təbii ki, xüsusilə indiki iqtisadi çətinliklər dövründə bu, kimin üçün isə qeyri-real görünə bilər. Lakin heç bir səbəb bizi ruhdan sala, əlimizi bu vacib işdən soyuda bilməz. Şəxsən mənim fikrimcə, Qərbi Azərbaycan adlı o cənnət Vətəndən didərgin salınan hər insanın: "Mən babalarımın məzarları uyuyan, erməni tapdağı altında qalıb inləyən o doğma elim, yurdum üçün nə etmişəm və ya nə edə bilərəm?" – deyə, ayda-ildə bircə dəfə özünə sual verməsi yetər ki, bir yox, bir neçə belə oncildliklər yazılıb nəşr etdirilsin. Bu, bizim hamımızın borcudur. Hər bir Qeyrətli Vətən övladının Namus və Şərəf işidir. Babaların bizə miras qoyub getdiyi yurdları övladlarımıza miras verməli olan, lakin bunu bacarmayan bizlər heç olmasa həmin torpaqlar haqqında bilgilərimizi gələcək nəsillərə çatdırmaq üçün əlimizdən gələni etməklə Tarix, Vətən və Millət qarşısında öz borcumuzu yerinə yetirməliyik. Bu, bizim həm də ata-babalarımızın didərgin ruhları qarşısında övladlıq, övladlarımız önündə atalıq borcumuzdur!..***

*Əziz ƏLƏKBƏRLİ*

---

** Bu, müəllifin "Qərbi Azərbaycan" oncildliyinin I cildinin 1-ci nəşrinə (Bakı, 2000) yazdığı müəllif sözüdür ki, həmin cildin bu – 2-ci nəşrində də olduğu kimi saxlamışıq. Kitabın Qərbi Azərbaycanın Zəngibasar, Gərnibasar və Qırxbulaq mahallarından bəhs edən II cildi 2002-ci ildə nəşr olunmuşdur.*



# *ÖN SÖZ ƏVƏZİ*

***Əlverişli coğrafi-siyasi mövqeyinə və təbii ehtiyatlarına görə Böyük Azərbaycan ölkəsi tarix boyu mübarizələr və müharibələr meydanına çevrilmişdir. Bu mübarizələrdən və müharibələrdən dəfələrlə qalib çıxan xalqımız – bu qədim məmləkətin əzəli sakinləri olan Azərbaycan türkləri özlərinin mövcud olmaq, yaşamaq haqqını qoca tarixin iradəsinə diqtə etmişlər. Həmin mübarizə və müharibələrdən keçib gələn xalqın xarakterində isə Mərdlik, Kişilik, Mübarizlik və Qəhrəmanlıq keyfiyyətləri əsas milli xüsusiyyətlər kimi formalaşmışdır. Ayrı-ayrı dövrlərdə hiylə, məkr ilə bu xalqı içindən qırmağa, bu xalqda özünə inam hissini öldürməyə nə qədər çalışsalar da, süni şəkildə yaradılmış eybəcər mühitin şikəst etdiyi tək-tək ünsürləri axtarıb, tapıb, ortaya çəkib, bu xalqdan ekstremist, alverçi, satqın, cinayətkar obrazı yaratmağa çalışsalar da, qoca Tarix kimin kim olduğunu gec-tez həmişə sübut etmişdir.***

***Keçib gəldiyimiz bu ağır və ağrılı yolda, çox təəssüf ki, itkilərimiz də az olmayıb. Çoxlu şəhidlər vermişik. Bu mübarizələrdə təkcə övladlarımız yox, həm də torpaqlarımız şəhid olub. Qanlı caynaqlarını köksümüzə sancan imperiya şəhid torpaqlarımızın üzərində düşmən dövlət və vilayətləri, şəhid övladlarımızın müqəddəs məzarları üstündə isə park və xiyabanlar yaradıbdır. Bizi isə regionlara, rayonlara, məhəllə və dalanlara bölməklə, ümumizin olan birimizin dərdini o birimizə, o birimizin göz yaşlarını bu birimizə unutdurmaqla birimizi digərimizə yad, yabançı etmişlər. Bundan sonra bu "yad və yabançılar" arasında istədikləri vaxt düşmənçilik toxumu səpmək o qədər də çətin olmayıb. Nəticə... göz qabağında və acınacaqlıdır. Tikə-tikə doğranıb-parçalanmış böyük bir məmləkətin bu gün sıxışdırılıb-sığışdırıldığı, tarixi torpaqlarımızdan azı dörd dəfə kiçik bir ərazinin – 86,6 min kv. km-lik məkanın da 20 faizi işğal olunmuş, 40 milyonluq bir xalqın bu kiçik ərazidə məskunlaşmış 8 milyonluq nümayəndəsinin 1 milyonu dədə-baba torpaqlarından qaçqın-didərgin düşmüşdür.***

***Deyirlər, tarix onun dərslərindən ibrət götürmədikdə – təkrar olunur! Bizim bu günkü faciələrimizin kökü də çox-çox qədimlərə gedib çıxır. Lakin bu faciələrin yaxın tarixi XIX yüzilin***

*əvvəllərindən başlanır. Son iki yüz ildə Azərbaycanın məruz qaldığı iki ən böyük faciədən birini 1813-cü ildə Gülüstan bağlaşması ilə Azərbaycanın iki yerə bölünməsi təşkil edirsə, ikincisi, əlbəttə, 1828-ci ildə Türkmənçay bağlaşması ilə İrəvan və Naxçıvan xanlıqlarının ruslar tərəfindən işğal edilməsi, de-fakto bu ərazilərin Azərbaycandan qoparılması və de-yure orada "erməni vilayəti" yaradılması oldu. Həmin iki siyasi bağlaşma Azərbaycan xalqının son iki yüz ildəki bütün tarixi faciələrinin bünövrəsində dayanır. Bu gün belə öz şərəfsiz missiyasını yerinə yetirməkdə davam edir.*

*Bəli, 1988-ci ildə Qarabağ münaqişəsi ona görə başlandı ki, Azərbaycan tarixində Gülüstan və Türkmənçay bağlaşmaları kimi qara səhifələr mövcud idi. Bu münaqişə isə Qarabağ müharibəsinə ona görə çevrildi ki, son iki yüz ildə imperiya siyasəti həmin Türkmənçay bağlaşmasını – İrəvan xanlığının erməni caynağına keçməsini Azərbaycan xalqına ancaq irəvanlıların faciəsi kimi həzm etdirə bilmişdi. Millətin şair oğulları "Gülüstan" poeması, "Cənub şerləri" yazanda belə, "Türkmənçay" poeması, "İrəvan şerləri" yazmaq heç kəsin yadına düşmədi. Bir sözlə, "Məndən ötsün, qardaşıma dəysin" mərəzinə yoluxdurulmuş xalq ayrı-ayrı tarixi faciələrimizi ümummilli faciə kimi yaşamadı, irəvanlıların faciəsi kimi yaşadı, gəncəlilərin, qarabağlıların, bakılıların, naxçıvanlıların, borçalıların... faciəsi kimi yaşadı. Daha doğrusu, hər bölgə öz faciəsini özü yaşamağa məhkum edildi. 1988-ci ildə Qərbi Azərbaycan torpaqlarından 200 min nəfərdən çox soydaşımız didərgin salınan zaman da biz bu ögeyliyin şahidi olduq... Qarabağ torpaqlarının itirilməsində də həmin dəhşətli amil az rol oynamadı...*

*Nəhayət, XX yüzilin sonlarında Azərbaycan özünün dövlət müstəqilliyini ikinci dəfə qazandı. Bu gün xalq bu müstəqilliyi qorumaq, saxlamaq və yaşatmaq üçün milli birliyini yaratmağa məhkum və borcludur. Bunun üçün isə vacib şərtlərdən biri tarixin ibrət götürüləsi dərslərini yaxşı-yaxşı öyrənmək və ondan yararlanmaq, digəri bir-birimizin ağrı-acısını şəxsi ağrı-acı kimi duymaq, yaşamaqdır.*

*"Qərbi Azərbaycan" adlı bu çoxcildliyi yaratmaqda məqsədimiz də milli tariximizin və taleyimizin bir parçası olan İrəvan torpaqlarının dünəni və bu günü ilə bağlı əsl həqiqətləri dünya*



*ictimaiyyətinə bir daha, bütün çılpaqlığı ilə, sistemli şəkildə çatdırmaqdır. Hər kəs bilməlidir ki, tarixi Azərbaycan torpaqları olan, İrəvan xanlığı zamanında 15 mahal, Sovet hakimiyyəti illərində 30-dan çox rayon arasında bölüşdürülmüş, adını azərbaycanlı qoyan hər bir qeyrətli insanın tam haqla Vətənim, Anayurdum deyə biləcəyi 29,8 min kv. km-lik bu geniş ərazi tarixən başdan-başa azərbaycanlılardan – Azərbaycan türklərindən ibarət olmuşdur. Yalnız XIX yüzilin əvvəllərində Çar Rusiyasının Qafqaz siyasətinin tərkib hissəsi kimi, bu torpaqlar Azərbaycandan qoparılmış və bu işdə ruslara bələdçilik, casusluq edən ermənilərə köpək sadiqlikləri əvəzində ruslar tərəfindən hədiyyə edilmişdir.*

*Hər bir azərbaycanlı bunu bilməli, tarixi ədalətin bərpa olunması, Qarabağ torpaqları ilə yanaşı, Qərbi Azərbaycan torpaqlarının da erməni işğalçılarından azad edilməsi uğrunda MÜQƏDDƏS MÜBARİZƏYƏ qoşulmalıdır. Bu Mübarizə hərbi müstəviyə keçənə qədər digər – mədəni, iqtisadi, ideoloji, siyasi və s. bütün mümkün müstəvilərdə aparılmalı və hər bir qeyrətli azərbaycanlı bu Mübarizəyə öz payını verməlidir. "Qərbi Azərbaycan" adlanan bu çoxcildliklə biz də bu müqəddəs işə öz payımızı – əli qələm tutan bir ziyalının verə biləcəyi payı verməyə çalışmışıq.*

* * *

*Kitabın (və ümumiyyətlə bu çoxcildliyin) strukturu, burada gözlədiyimiz (və gələcək cildlərdə gözləyəcəyimiz) prinsiplər barədə bəzi məqamları açıqlamağı da özümüzə borc bilirik.*

*Öncə xatırladım ki, kitab bütövlükdə tarixi mənbələr, özümüzəqədərki elmi ədəbiyyat, çoxlu canlı xatirələr və bütün bunların son dərəcə ciddi müqayisəli təhlili əsasında qələmə alınmışdır. Xüsusilə Azərbaycanın islamaqədərki dövr tarixi haqqında dəyərli tədqiqatlar müəllifi olan Y.Yusifovun, Q.Qeybullayevin, F.Ağasıoğlunun və b. görkəmli mütəxəssislərin araşdırmaları Vedibasar mahalının qədim tarixi ilə bağlı bir sıra qaranlıq və mübahisəli məsələlərin aydınlaşdırılmasında yardımçımız olmuşdur.*

*İkincisi. Heç şübhəsiz, bir mahal və ya bir rayon, hətta bir kənd haqqında da cild-cild kitablar yazmaq olar. Lakin bizim*

*üçün çoxcildliyin hər cildinə (deməli, həm də bu cildə) görə həcm məhdudiyyəti (45 ç.v.) mövcuddur və biz mahal haqqında yazarkən hər şeyi yox, məhz lazım, mümkün və vacib olanı yazmaq prinsipini əsas götürmüşük. Bu, xüsusilə mahalın ayrı-ayrı kəndləri və bu kəndlərin yetirməsi olan şəxsiyyətlər haqqındakı qısa bölmələrdə özünü daha qabarıq şəkildə göstərir.*

*Kitaba daxil edilən şəxsiyyətlərə gəldikdə isə, etiraf edirik ki, Vedibasar mahalında belə şəxsiyyətlər kitaba daxil edilənlərdən qat-qat çoxdur. Lakin təəssüf ki, bir kitabda onların hamısını əhatə etmək həm müəllifin, həm də kitabın fiziki imkanları xaricindədir.*

*Üçüncüsü. Şəxsiyyətlər haqqında məlumatların kitaba daxil edilməsi zamanı aşağıdakı prinsipə sərt şəkildə əməl etmişik: 1) kənd azərbaycanlılarını kənd və kolxoz rəhbərliyində birinci vəzifədə (sovet sədri və kolxoz sədri) təmsil etmiş və ya onlara bərabər tutula bilən adamların şəkli kəndlər haqqındakı yazıların içində verilmiş, bəzən bu sıraya rayon rəhbərliyində çalışmış aparıcı azərbaycanlı kadrlar da aid edilmişdir; 2) öz elini, xalqını rayon və respublika səviyyəli rəhbər vəzifələrdə təmsil edənlər, az-çox xidmət sahib olan ziyalılar, sənət adamları və alimlər isə nisbətən daha geniş formada – öz şəkil və ətraflı tərcümeyi-halları ilə kitaba daxil edilmişlər; 3) xalqımıza xas olan ağsaqqala, böyüyə hörmət Vedibasarda da ən əsas əxlaqi dəyərlərdən olduğundan kitaba daxil edilmiş şəxsiyyətlərin sıralanmasında yaş göstəricisini (ağsaqqaldan cavana) əsas götürmüşük.*

*Dördüncüsü. Qərbi Azərbaycanın hər bir bölgəsi kimi, Vedibasar mahalı da folklorla son dərəcə zəngindir və biz həmin xəzinədən bir neçə nümunəni oxuculara təqdim etməklə kifayətləndik. Bu folklor nümunələrinin bir hissəsi vaxtilə unudulmaz yazıçımız F.Kərimzadə tərəfindən yazıya alınmışdır. Son zamanlar "Vedibasar" qəzetində də belə nümunələr özünə yer alır. Bu kitabın müəllifi də uzun illərdir ki, Vedibasar folklorunu toplamaqla məşğuldur. Gələcəkdə isə həmin materialların "Vedibasar folkloru" adı ilə tam şəkildə nəşrinə nail olmağa çalışacağıq.*

*Hələlik bu qədər!*



## 1948-1953-cü İLLƏRDƏ AZƏRBAYCANLILARIN ERMƏNİSTAN SSR ƏRAZİSİNDƏKİ TARİXİ-ETNİK TORPAQLARINDAN KÜTLƏVİ SURƏTDƏ DEPORTASİYASI hAQQINDA

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN

### FƏRMANI

Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırım siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən – min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir.

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli və 1948-ci il 10 mart tarixli 754 nömrəli qərarları Azərbaycan xalqına qarşı növbəti tarixi cinayət aktı olmuşdur. Bu qərarlar əsasında 1948-1953-cü illərdə yüz əlli mindən çox azərbaycanlı Ermənistan SSR ərazisindəki dədə-baba yurdlarından kütləvi surətdə və zorakılıqla sürgün olunmuşdur. Adi hüquq normalarına zidd olan bu qərarların icrası zamanı avtoritar-totalitar rejimin mövcud repressiya qaydaları geniş tətbiq edilmiş, minlərlə insan, o cümlədən qocalar və körpələr ağır köçürülmə şəraitinə, kəskin iqlim dəyişikliyinə, fiziki sarsıntılara və mənəvi genosidə dözməyərək həlak olmuşlar. Bu işdə erməni şovinist dairələrinin və SSRİ rəhbərliyinin siyasəti ilə yanaşı, o dövrkü Azərbaycan rəhbərliyinin öz xalqının taleyinə zidd mövqeyi, soydaşlarımıza qarşı törədilən cinayətlərin təşkilində və həyata keçirilməsində iştirakı da az rol oynamamışdır.

Təəssüf ki, 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindən deportasiya olunması faktı ötən 50 il ərzində lazımınca araşdırılmamış, bu hadisələrə hüquqi-siyasi qiymət verilməmişdir.

Yuxarıda göstərilənləri nəzərə alaraq **QƏRARA ALIRAM:**

1. 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyasının

hərtərəfli tədqiq edilməsi, Azərbaycan xalqına qarşı dövlət səviyyəsində keçirilmiş bu tarixi cinayətə hüquqi-siyasi qiymət verilməsi və onun beynəlxalq ictimaiyyətə çatdırılması məqsədi ilə aşağıdakı tərkibdə dövlət komissiyası yaradılsın:

**Dövlət komissiyasının sədri:**
**Heydər Əliyev** – Azərbaycan Respublikasının prezidenti

**Dövlət komissiyası sədrinin müavini:**
**Artur Rasizadə** – Azərbaycan Respublikasının Baş naziri

**Dövlət komissiyasının üzvləri:**
**Ramiz Mehdiyev** – Azərbaycan Respublikası Prezidenti İcra Aparatının rəhbəri
**Vasif Talıbov** – Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri
**İzzət Rüstəmov** – Azərbaycan Respublikası Baş nazirinin müavini
**Elçin Əfəndiyev** – Azərbaycan Respublikası Baş nazirinin müavini
**Həsən Həsənov** – Azərbaycan Respublikası xarici işlər naziri
**Namiq Abbasov** – Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri
**Ramil Usubov** – Azərbaycan Respublikasının daxili işlər naziri
**Eldar Həsənov** – Azərbaycan Respublikasının Baş prokuroru
**Südabə Həsənova** – Azərbaycan Respublikası ədliyyə nazirinin birinci müavini
**Xanlar Hacıyev** – Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri
**Sirus Təbrizli** – Azərbaycan Respublikasının mətbuat və informasiya naziri
**Vəfa Quluzadə** – Azərbaycan Respublikasının xarici siyasət məsələləri üzrə dövlət müşaviri
**Hidayət Orucov** – Azərbaycan Respublikasının milli siyasət məsələləri üzrə dövlət müşaviri
**Fatma Abdullazadə** – Azərbaycan Respublikası Prezidenti İcra Aparatının humanitar siyasət şöbəsinin müdiri
**Şahin Əliyev** – Azərbaycan Respublikası Prezidenti İcra Aparatının qanunvericilik və hüquq ekspertizası məsələləri şöbəsinin müdiri
**Fuad Ələsgərov** – Azərbaycan Respublikası Prezidenti İcra Aparatının dövlət-hüquq şöbəsinin müdiri



**Yusif Hümbətov** – Azərbaycan Respublikası Prezidenti İcra Aparatının ərazi idarəetmə orqanları ilə iş şöbəsinin müdiri
**Əli Həsənov** – Azərbaycan Respublikası Prezidenti İcra Aparatının ictimai-siyasi şöbəsinin müdiri
**Rafael Allahverdiyev** – Bakı şəhər icra hakimiyyətinin başçısı
**Nizami Xudiyev** – Azərbaycan Respublikası Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin sədri
**Fəraməz Maqsudov** – Azərbaycan Elmlər Akademiyasının prezidenti
**Anar Rzayev** – Azərbaycan Yazıçılar Birliyinin sədri
**Cəmil Quliyev** – Azərbaycan Elmlər Akademiyası ictimai elmlər bölməsinin akademik-katibi əvəzi
**İqrar Əliyev** – Azərbaycan Elmlər Akademiyası Tarix İnstitutunun direktoru
**Budaq Budaqov** – Azərbaycan Elmlər Akademiyası Coğrafiya İnstitutunun direktoru
**Ataxan Paşayev** – Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Baş Arxiv İdarəsinin rəisi
**Yusif Yusifov** – N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetinin ümumi tarix kafedrasının müdiri

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu fərmanın icrası ilə bağlı məsələləri həll etsin.

**HEYDƏR ƏLİYEV,**
**Azərbaycan Respublikasının prezidenti**
Bakı şəhəri, 18 dekabr 1997-ci il.

## AZƏRBAYCANLILARIN SOYQIRIMI HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN

## FƏRMANI

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edilmişdir. Uzun illər gizli saxlanılan, üzərində qadağa qoyulmuş həqiqətlər açılır, təhrif edilmiş hadisələr özünün əsl qiymətini alır.

Azərbaycan xalqına qarşı dəfələrlə törədilmiş və uzun illərdən bəri öz siyasi-hüquqi qiymətini almamış soyqırımı da tarixin açılmamış səhifələrindən biridir.

1813-cü və 1828-ci illərdə imzalanan Gülüstan və Türkmənçay müqavilələri Azərbaycan xalqının parçalanmasının, tarixi torpaqlarımızın bölünməsinin əsasını qoydu. Azərbaycan xalqının bu milli faciəsinin davamı kimi onun torpaqlarının zəbti başlandı. Qısa bir müddətdə bu siyasət gerçəkləşdirilərək ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirildi. Soyqırımı Azərbaycan torpaqlarının işğalının ayrılmaz bir hissəsinə çevrildi.

İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində məskunlaşdırılan ermənilər orada yaşayan azərbaycanlılarla müqayisədə azlıq təşkil etmələrinə baxmayaraq öz havadarlarının himayəsi altında "Erməni vilayəti" adlandırılan inzibati bölgünün yaradılmasına nail oldular. Belə süni ərazi bölgüsü ilə, əslində, azərbaycanlıların öz torpaqlarından qovulması və məhv edilməsi siyasətinin bünövrəsi qoyuldu. "Böyük Ermənistan" ideyaları təbliğ olunmağa başlandı. Bu uydurma dövlətin Azərbaycan torpaqlarında yaradılmasına "bəraət qazandırmaq məqsədilə" erməni xalqının tarixinin saxtalaşdırılmasına yönəlmiş genişmiqyaslı proqramlar reallaşdırıldı. Azərbaycanın və ümumən Qafqazın tarixinin təhrif olunması həmin proqramların mühüm tərkib hissəsini təşkil edirdi. "Böyük Ermənistan" yaratmaq xülyasından ruhlanan erməni qəsbkarları 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə genişmiqyaslı qanlı aksiyalar həyata keçirdilər. Ermənilərin Bakıdan başlanan vəhşilikləri Azərbaycanı və indiki Ermənistan ərazisindəki azərbaycanlı kəndlərini əhatə etdi. Yüzlərlə yaşayış məntəqəsi dağıdılıb yerlə yeksan edildi, minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirildi. Bu hadisələrin təşkilatçıları məsələnin mahiyyətinin açılmasına, ona düzgün hüquqi-siyasi qiymət verilməsinə maneçilik törədərək azərbaycanlıların mənfi obrazlarını yaratmış, özlərinin avantürist torpaq iddialarını pərdələmişlər.



Birinci dünya müharibəsi, Rusiyada baş vermiş 1917-ci il fevral və oktyabr çevrilişlərindən məharətlə istifadə edən ermənilər öz iddialarını bolşevik bayrağı altında reallaşdırmağa nail oldular. 1918-ci ilin mart ayından etibarən əksinqilabçı ünsürlərlə mübarizə şüarı altında Bakı kommunası tərəfindən ümumən Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən mənfur plan həyata keçirilməyə başlandı. Həmin günlərdə ermənilərin törətdikləri cinayətlər Azərbaycan xalqınm yaddaşına əbədi həkk olunmuşdur. Minlərlə dinc azərbaycanlı əhali yalnız milli mənsubiyyətinə görə məhv edilmişdir. Ermənilər evlərə od vurmuş, insanları diri-diri yandırmışlar. Milli memarlıq incilərini, məktəbləri, xəstəxanaları, məscid və digər abidələri dağıtmış, Bakının böyük bir hissəsini xarabalığa çevirmişlər.

Azərbaycanlıların soyqırımı Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və Azərbaycanın başqa bölgələrində xüsusi qəddarlıqla həyata keçirilmişdir. Bu ərazilərdə dinc əhali kütləvi surətdə qətlə yetirilmiş, kəndlər yandırılmış, milli mədəniyyət abidələri dağıdılıb məhv edilmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət yetirmişdir. Nazirlər Şurası 1918-ci il iyulun 15-də bu faciənin tədqiqi məqsədilə fövqəladə istintaq komissiyasının yaradılması haqqında qərar qəbul etdi. Komissiya mart soyqırımını, ilkin mərhələdə Şamaxıdakı vəhşilikləri, İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri ağır cinayətləri araşdırdı. Dünya ictimaiyyətinə bu həqiqətləri çatdırmaq üçün Xarici İşlər Nazirliyi nəzdində xüsusi qurum yaradıldı. 1919 və 1920-ci ilin mart ayının 31-i iki dəfə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümummilli matəm günü kimi qeyd edilmişdir. Əslində bu, azərbaycanlılara qarşı yürüdülən soyqırımı və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı proseslərinə tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi idi. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bu işin başa çatmasına imkan vermədi.

Zaqafqaziyanın sovetləşməsindən öz çirkin məqsədləri üçün istifadə edən ermənilər 1920-ci ildə Zəngəzuru və Azərbaycanın bir sıra torpaqlarını Ermənistan SSR-in ərazisi elan etdilər. Sonrakı dövrdə bu ərazilərdəki azərbaycanlıların deportasiya edilməsi siyasətini daha da genişləndirmək məqsədilə yeni vasitələrə əl atdılar. Bunun üçün onlar SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" xüsusi qərarına və 1948-

1953-cü illərdə azərbaycanlıların öz tarixi torpaqlarından kütləvi surətdə deportasiyasına dövlət səviyyəsində nail oldular.

Erməni millətçiləri öz havadarlarının köməyi ilə 50-ci illərdən etibarən Azərbaycan xalqına qarşı mənəvi təcavüz kampaniyasına başladılar. Keçmiş sovet məkanında müntəzəm şəkildə yayılan kitab, jurnal və qəzetlərdə milli mədəniyyətimizin, klassik irsimizin, memarlıq abidələrimizin ən nəfis nümunələrinin erməni xalqına mənsub olduğunu sübut etməyə çalışırdılar. Eyni zamanda onlar tərəfindən bütün dünya azərbaycanlılarının mənfi obrazını formalaşdırmaq cəhdləri də güclənirdi. "Yazıq, məzlum erməni xalqı"nın surətini yaradaraq əsrin əvvəlində regionda baş verən hadisələr şüurlu surətdə təhrif olunur, azərbaycanlılara qarşı soyqırımı törədənlər soyqırımı qurbanları kimi qələmə verilirdi.

Əsrin əvvəlində əksər əhalisi azərbaycanlı olan İrəvan şəhərindən və Ermənistan SSR-in digər bölgələrindən soydaşlarımız təqiblərə məruz qalaraq kütləvi surətdə qovulur. Azərbaycanlıların hüquqları ermənilər tərəfindən kobudcasına pozulur, ana dilində təhsil almasına əngəllər törədilir, onlara qarşı repressiyalar həyata keçirilir. Azərbaycan kəndlərininin tarixi adları dəyişdirilir, toponimika tarixində misli görünməyən qədim toponimlərin müasir adlarla əvəzolunma prosesi baş verir.

Saxtalaşdırılmış erməni tarixi gənc ermənilərin şovinist ruhunda böyüməsinə zəmin yaratmaq üçün dövlət siyasəti səviyyəsinə qaldırılır. Böyük humanist ideallara xidmət edən Azərbaycan ədəbiyyatı və mədəniyyəti ruhunda tərbiyə olunmuş yeni nəslimiz ekstremist erməni ideologiyasının təqiblərinə məruz qalır.

Azərbaycan xalqının mənəviyyatına, milli qüruruna və mənliyinə yönəlmiş böhtanlar siyasi və hərbi təcavüz üçün ideoloji zəmin yaradırdı. Xalqımıza qarşı aparılan soyqırımı siyasəti özünün siyasi-hüquqi qiymətini tapmadığı üçün tarixi faktlar sovet mətbuatında ermənilər tərəfindən təhrif olunur və ictimai fikir çaşdırılırdı. Ermənilərin sovet rejimindən bəhrələnərək həyata keçirdikləri və 80-ci illərin ortalarında daha da güclənən antiazərbaycan təbliğatına Azərbaycan Respublikasının rəhbərliyi vaxtında lazımi qiymət vermədi.

1988-ci ildən ortaya atılan qondarma Dağlıq Qarabağ konfliktinin ilkin mərhələsində yüz minlərlə azərbaycanlının öz tarixi torpaqlarından qovulmasına da respublikada düzgün siyasi qiymət verilmədi. Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-in tərkibinə daxil edilməsi haqqında ermənilərin qeyrikonstitusion qərarını və Moskvanın əslində bu vilayəti Xüsusi İdarəetmə Komitəsi vasitəsilə Azərbaycanın tabeliyindən çıxarmasını xalqımız ciddi narazılıqla qarşıladı və mühüm siyasi aksiyalara əl atmaq məcburiyyəti qarşısında qaldı. Respublikada keçirilən mitinqlər zamanı torpaqlarımızın işğalı siyasəti qətiyyətlə pislənsə də, Azərbaycan rəhbərliyi öz passiv mövqeyindən əl çəkmədi. Məhz elə bunun nəticəsi olaraq 1990-cı ilin yanvar ayında getdikcə güclənən xalq hərəkatını boğmaq məqsədilə Bakıya qoşunlar yeridildi, yüzlərlə azərbaycanlı məhv və şikəst edildi, yaralandı, digər fiziki təzyiqlərə məruz qoyuldu.



1992-ci ilin fevralında ermənilər Xocalı şəhərinin əhalisinə misli görünməyən divan tutdu. Tariximizə Xocalı soyqırımı kimi həkk olunan bu qanlı faciə minlərlə azərbaycanlının məhv edilməsi, əsir alınması, şəhərin yerlə-yeksan edilməsi ilə qurtardı.

Millətçi-separatçı ermənilərin Dağlıq Qarabağda başladığı avantürist hərəkətin nəticəsi olaraq bu gün bir milyondan artıq soydaşımız erməni qəsbkarları tərəfindən öz doğma yurd-yuvalarından didərgin salınmış, çadırlarda yaşamağa məhkum edilmişdir. Ərazimizin 20 faizinin erməni silahlı qüvvələri tərəfindən işğalı zamanı minlərlə vətəndaşlarımız şəhid olmuş, xəsarət almışdır.

Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarının zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir. Bu hadisələrin yalnız birinə – 1918-ci il mart qırğınına siyasi qiymət vermək cəhdi göstərilmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi Azərbaycan Respublikası bu gün onun axıra qədər həyata keçirə bilmədiyi qərarların məntiqi davamı olaraq soyqırım hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul edir.

Azərbaycan xalqına qarşı törədilmiş bütün soyqırım faciələrini qeyd etmək məqsədilə **qərara alıram:**

1. 31 mart azərbaycanlıların soyqırımı günü elan edilsin.
2. Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə olunsun ki, azərbaycanlıların soyqırımı ilə bağlı hadisələrə həsr olunmuş xüsusi sessiyanın keçirilməsi məsələsinə baxsın.

**HEYDƏR ƏLİYEV,**
**Azərbaycan Respublikasının prezidenti**
Bakı şəhəri, 26 mart 1998-ci il.

2429
AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN
İŞLƏR İDARƏSİNİN
KİTABXANASI

## AĞRI DAĞI VEDİDƏN BELƏCƏ GÖRÜNÜRDÜ...



**"...Bir də gördü ki, düz-dünya işıqlanır. Bir də gördü ki, bu düz-dünyanın torpağı da, daşı da ona tanışdır: bir də gördü ki, gözlərinin qabağındakı Ağrı dağıdır. Gözlərini dünyaya açandan tanıdığı, tapındığı Ağrı dağı. Ağrı dağı Vedidən də beləcə görünürdü. Əl-ətəyi dumanlı, qarlı başı bulud içində... Və ən qəribəsi o idi ki, bütün gecəni taqqataraqla yol gedən qatar Ağrı dağından aralana bilməmişdi və elə bil bu dağın kölgəsiylə gedirdi. Bu xəbəri arvadıyla bölüşdü:**

**– Ağrı dağı görünür, Sona, – dedi, – Ağrı dağı görünür.**

**– Ağrı dağı?**

**– Hə, Ağrı dağı... – Və Almuradın ürəyindən keçdi ki, Sonanı da çuvalların üstünə qaldırsın. Sona da Ağrı dağını görsün, amma utandı... Bu vaqondakı yad adamlardan utandı.**

**O, beləcə Ağrı dağına baxa-baxa öz ev-eşiyini görürdü. Hovasapın ümidinə qoyub gəldiyi ev-eşiyini.**

**– Ağrı dağı görünür, ay Əvəz, – dedi, – istəyirsən gəl bax... – Əvəz gəlib Ağrı dağına baxmadı, amma dedi ki, hələ Ağrı dağı çox görünəcək gözümüzə..."**

***Məmməd Oruc. "Köçürülmə" romanından, Bakı, 1992.***



## GÖRKƏMLİ ŞƏXSİYYƏTLƏR VƏ MƏNBƏLƏR ERMƏNİLƏR (HAYLAR) HAQQINDA

## ИЗВЕСТНЫЕ ЛИЧНОСТИ И ИСТОЧНИКИ ОБ АРМЯН (О ХАЯХ)

## WELL KNOWN PERSON AND SOURCES ABOUT ARMENIANS (HAYES)

* * *

Atın kolasına, itin tulasına, erməninin balasına etibar yoxdur. ("Həs bi qulə, səyə tulə, məriflə etibar tünnü").

***Kürd xalq məsəli***

Не доверься жеребенку, щенку и армянскому сынку.

***Курдская пословица***

There is no trust on horse's short horned, dog's puppy, Armenian's child.

***Kurdish people saying***

* * *

Erməni gəldi, təzə bəla gətirdi. ("Movida somexi – moytana sxva mexi").

***Gürcü xalq məsəli***

Пришел армянин и принес новую беду.

***Грузинская пословица***

Armenian came bringing a new trouble with him.

***Georgian people saying***

* * *

Ermənistanda Anaitis hiyerodulları (Qədim Yunanımianda və yunan koloniyalarında məbədlərdə fahişəliklə məşğul olan qul qadınlar), Korinfdə Afroditlər, habelə Hindistanın məbədlərdə

xidmət edən dini rəqqasələri ilk fahişələr idi.

***F.Engels. Ailənin, xüsusi mülkiyyətin və dövlətin mənşəyi. Moskva. 1982, səh.74.***

Гиеродулы (в Древней Греции и греческих колониях рабыни, принадлежащие храмам, которые занимались проституцией - ред.) Анаитис в Армении, Афродиты в Коринфе, а также состоящие при храмах религиозные танцовищицы Индии были первыми проститутками.

***Ф.Энгельс. Происхождение семьи, частной собственности и государства, Москва, 1982, стр.74.***

In Armenia Anaitis hiyeroduls (slave women being prostitutes in praying-house in old Greece and Greek colonies), Aphrodites in Korinf and religious dancers serving in Indians' temples were first prostitutes.

***F.Engels. The source of family, private property and government. Moscow. 1982, p.74.***

* * *

Ermənilər haqqında qədimdən pis fikir yaranıb və bu, söz yox ki, əsassız deyil, belə olmasaydı, bu fikir bir çox xalqlarda və həm də müxtəlif vaxtlarda yarana bilməzdi.

...Bizim onlara ürəyimiz nə qədər çox yansa da, ...ermənilərin fitnəkar, bic, hiyləgər, araqarışdıran, vicdansız tayfa başçıları gözlərimiz önündə bir o qədər iyrənc şəkildə canlanır.

***V.L.Veliçko. Qafqaz, SPB, 1904, səh.64***

Об армянах издревле сложилось плохое мнение, – и это, само собою разумеется, не лишено основания, так как иначе оно не могло бы возникнуть у целых народов и притом в разные времена.

...Чем больше мы будем ей сочувствовать, ...темь более отвратительными явятся в наших глазах ее бездушные соплеменные вожаки, политиканствующие угнетатели и смутьяны.

***В.Л.Величко. Кавказ, СПБ, 1904, стр.64***

From the ancient times a bad idea of Armenians were formed and this, without any doubt, is not groundless. If it wasn't so, this view couldn't be formed in different peoples and also at different times.

...How much cunning, hypocrite, mixer, stock leaders are standing before our eyes.

***V.I.Velichko. The Caucasus. S.-Peterburg, 1904, p.64***

* * *

Ermənilərdə başqa xalqlarla məcburi, zorakı cütləşmə də olub. İran qoşunları da, Azərbaycan tatarları da, türklər də, gürcülər də, dağlılar da, ehtimal ki, dövlət quruluşunu və bu səbəbdən də özünümüdafiə qabiliyyətlərini çoxdan itirən bir xalqın qadınlarının nazı ilə oynamırdılar.

Və belə əyləncələrdən aydın olur ki, ermənilərin damarlarında hər cür qan var. Qorxaqlığı Ön Asiyada zərb-məsələ çevrilmiş xalqdan vaxtaşırı, qaranlıq fonda parlaq istisna kimi istedadlı və igid sərkərdələrin yetişməsi bununla izah olunur. Aydındır ki, onlarda başqa cəngavər xalqların qanı qaynayır, normal, əsl erməni isə bir neçə yerli dildə olan ümumqafqaz zərbməsəlində deyildiyi kimi, "dovşandan qorxandır".

***V.L.Veliçko. Qafqaz, SPB, 1904, səh.66-67***

Были у армянь и невольные, насильственные скрещивания с другими народами. И персидская полчища, и азербайджанские татары, и турки, и грузины, и горцы, очевидно, не церемонились с женщинами народа, давно утратившего государственность и связанные с нею способы гордой, мужественной самозащиты.

При таких условиях ясно, что в жилах у армян есть всякая кров. Этимь и объясняется то обстоятельство, что у народа,

трусост которого в Передней Азии вошла в пословицу, выдвигаются по временам талантливые и мужественные полководцы, как яркие исключения на темном фоне: ясно, что в них говорит кров других, воинственных народов, нормальный же, чистокровный армянин, согласно обще-кавказской пословице, имеющейся на нескольких местных языках, "боится зайцев".

***В.Л.Величко.***
***Кавказ, СПБ, 1904, стр.66-67***

There were obligatory, forced coupling of Armenians with other peoples. Iranian armies, Azerbaijan tartars, Turks, Georgians, mountain-dwellers perhaps didn't tend the women of the people which had lost its government structure and capacity of self-security. And from such kind of entertainment, it occurs that, there are different kinds of bloods in Armenian's vessel. Periodically coming out of capable and heroic leaders from the people that were popular of their cowardice in Front Asia as bright exception in dark fond can be explained with it.

It's clear that the blood of other knight peoples had mixed with, but normal, pure Armenian «is a person that frightens a rabbit» as it was said in common Caucasian sayings.

***V.I.Velichko. The Caucasus.***
***S.-Peterburg, 1904, p.66-67***

* * *

Tasit ikinci kitabı **"Ab excessu Augisti"**-nin 53-cü paraqrafında ermənilər haqqında belə deyir: **"Ambigua Gens ea antiguitus hominum ingeniis et siti terrerum"** – bu xalq istər xasiyyətinə, istərsə də coğrafi vəziyyətinə görə qədimdən ikiüzlü və riyakardır: **"saepius discordes sunt adversus Romanos odio it in Parthum invidia"** – bu xalq aramsız olaraq romalılara nifrətdən, parfiyalılara həsəddən az qala partlayır. 12-ci kitabın 46-cı paraqrafında o, "ermənilərin hamıya məlum olan namərdliyini və xəyanətini" göstərir: **Satis cognitam Armeniovum perfadiam**.

***V.L.Veliçko. Qafqaz,***
***SPB, 1904, səh.71-72***



Тацить... говорит об армаянахь во 2-ой книге Ab excessu Auqisti, в параграф 53, нижеследующее: Ambiqua gens ea antiquitus hominum ingeniis et situ terrarum, - этот искони двуличный народ, как по характеру, так и по географическому положению; saepius discordes sunt, afversus Romanos odio et in Parthum invidia, т. е. безпрестанно разрываются ненавистю к римлянам и завистю к парфянам. В книге 12-й, в параграфе 46, он указывает на "достаточно известное вероломство армян", satis cognitam Armeniorum perfidiam.

***В.Л.Величко. Кавказ,***
***СПБ, 1904, стр.71-72***

Tasit in 53 item of his second book titled «Ab excessu Augisti» speaks about armenians as fellows; «this people both for character and for its geographical position is hypocrite and dishonest from ancient times», the heart of this people burst out from the hate to Romanians and from envy to parfiyas. In 46th item of 12th book he shows dishonest of armenian that's familiar to everybody.

***V.I.Velichko. The Caucasus.***
***S.-Peterburg, 1904, p.71-72***

* * *

"Sən qorxaqsan, sən kölesən, deməli, sən ermənisən!"

***A.S.Puşkin***
***(V.L.Veliçko. Qafqaz,***
***SPB, 1904, səh.72)***

"Ты трус, ты раб, ты армянин!"

***А.С.Пушкин***
***(В.Л.Величко. Кавказ,***
***СПБ, 1904, стр.72)***

«You are coward, you slave, you thief means, you are an armenian.»

***A.S.Pushkin***
***(V.I.Velichko. The Caucasus.***
***S.-Peterburg, 1904, p.72)***

* * *

"Bağırmaq" sözü olduqca səciyyəvidir: ermənilər məhz hər cür bəhanə tapıb bağırmağa bir candırlar. Onları yad evə buraxmırlarsa, onların hər hansı bir fitnəsinin, hiyləsinin üstünü açırlarsa, yaxud da aralarında xırda əşya oğrularını məhkəməyə verirlərsə, ermənilər nəinki bağırırlar, həm də başqa xalqdan olan adamları, axmaq, ya da satqın adamları hay-küy qaldırmağa məcbur edirlər.

***V.L.Veliçko.***
***Qafqaz, SPB, 1904, səh.72***

Слово "кричать" чрезвычайно типично: они именно склонны кричать по всякому поводу. Не пустять их в чужой дом, или раскроют какие-либо их шашни, или отдадут под суд воришек из ихней среды, – и они не только кричать, но и заставляют кричать иноплеменников, глупых или продажных дюдей.

***В.Л.Величко.***
***Кавказ, СПБ, 1904, стр.72***

The word of «to yell» is quite characteristic. Armenians are ready to yell finding any kind of reasons. If they are not let to foreign home, if any of their intrigue, cunning are made known or thieves of them are taken into court, Armenians not only yell but also make humans of other peoples, stupid and sly humans make noisy.

***V.l.Velichko.***
***The Caucasus. S.-Peterburg, 1904, p.72***

* * *

Ermənilərin yoxsulluğuna və əzab-əziyyət çəkməsinə yazığım gəlməsinə baxmayaraq, onların haramzadalığı, kələkbazlığı o dərəcədə iyrənc, alçaqlıqları son dərəcədə biabırçı, o qədər hiddətləndirici idi ki, məni heç zaman heç bir şey onlara bağlaya bilmədi.

***Qraf de-Şole***
***Fransız səyyahı***
***(V.L.Veliçko. Qafqaz, SPB, 1904, səh.73)***



И тем не менее, не взирая на огромное сострадание, которое порождали во мне их бедности и их мучения, мне никогда не удавалось привязаться к ним, так отвротительно их плутовство, так постыдна их низость и возмутительна их подлост.

***Граф де Шоле***
***Француззкий путешественник***
***(В.Л.Величко. Кавказ,***
***СПБ, 1904, стр.73)***

Despite of my pity on Armenians poverty and sufferings, their cunning, craftiness was so disgusting, their lawless so furious that nothing could unit me with them.

***Count de Shole***
***French treveller***
***(V.l.Velichko. The Caucasus.***
***S.-Peterburg, 1904, p.73)***

* * *

İndi olduğu kimi, keçmişdə də qədim ermənilərin elmə və şifahi xalq mahnılarına sevgisi olmayıb. Ona görə də bu şüursuz, kəmağıl və vəhşi adamlar haqqında danışmaq mənasızdır.

***Musa Xorenli.***
***Armaniya tarixi, M., 1893, səh. 4.***

...Как теперь, так и прежде у древних армян (хайах - А.А.) не было любви к науке и сборникам устно-передававшихся песен. И потому излишне говорить о людях не разумных, слабоумных и диких.

***Моисей Хоренский.***
***История Армении, М., 1893, стр.4.***

As it's nowadays, so in the past, ancient Armenians had no love to science and folk-lore music. That's why it's meaningless to speak about such a thoughtless, unreasonable and wild humans.

***Musa Xorenli.***
***Armenia history, M., 1893, p.4.***

* * *

Ermənilərin nə vaxtsa milli rəqsləri olubsa da, lakin bu gün, milli musiqiləri kimi, onu da itiriblər. Bu xalqın indiki rəqsləri tatarlardan (azərbaycanlılardan – Ə.Ə.) və dağlılardan götürülmədir.

***İ.Şopen. Erməni vilayətinin Rusiya İmperiyasına birləşdirildiyi dövrdəki vəziyyətinin tarixi abidəsi, SPB, 1852, səh. 898***

Армяне если и имели когда-нибудь национальные танцы, то ныне утратили их, так же как и национальную музыку свою; нынешние танцы этого народа заимствованы от татар и горцев

***И.Шопен. "Исторический памятник состояния Армянской области в эпоху присоединения к Российской Империй", СПБ, 1852, стр.898***

If ever Armenians had their national dances, nowadays they had lost it as their national music. Present dances of this people was taken from tartars (the Azerbaijanis - A.A.) and mountain-dwellers.

***I.Shopen. «Historical Monument Condition of Armenians Province in the Epoch of Joining to Russian Empire», S-Peterburg, 1852, p. 898***

* * *

Ermənilər şən xalq deyillər: ehtiyatlılıq və tarixən köləlilik onlarda təxəyyülün bütün şuxluğunu öldürüb. İranda və Türkiyədə yaşayan, milli xarakterlərinin bütün əlamətlərini itirmiş olan sadə erməni ancaq öz ağasının əhval-ruhiyyəsinə uyğun gülür və şənlənir. Bir qəzəbli baxış bəsdir ki, o, həmin anda bayaq gülüb-şənləndiyi səmimiyyətlə də dərhal ağlamağa başlasın.

***İ.Şopen. Erməni vilayətinin Rusiya İmperiyasına birləşdirildiyi dövrdəki vəziyyətinin tarixi abidəsi, SPB, 1852, səh.896***

Армяне народ невеселый: расчеты и прежнее порабощение подавили в них всю игривость воображения. В Персии и Турции армянский простолюдин, утративший последний характер национальности, веселится и смеется не иначе, как смотря по расположению духа своего повелителя: достаточно одного грозного взгляда, чтобы тут же заставить его плакать с тою же искренностию, как пред тем он смеялся и веселился"

***И.Шопен. "Исторический памятник состояния Армянской области в эпоху присоединения к Российской Империй", СПБ, 1852, стр.896***

The Armenians aren't cheerful people: carefulness and historical slavery killed all the liveliness of their imagination. Simple Armenian living in Iran and Turkey, lost all the features of national characters, laughs and makes merry only due to his owner's mood. An angry look is enough that he would begin weeping immediately with that laughing-merrying sincerity.

***I.Shopen. «Historical Monument Condition of Armenians Province in the Epoch of Joining to Russian Empire», S-Peterburg, 1852, p. 896***

* * *

Ermənilər Ərməniyənin qədim sakinləri deyillər, onlar Asuriyadan gəlmədirlər.

***İ.Şopen. Erməni vilayətinin Rusiya İmperiyasına birləşdirildiyi dövrdəki vəziyyətinin tarixi abidəsi, SPB, 1852, səh.95***

Армяне – не первобытные обитатели Армении, а только пришельцы из Ассирии.

***И.Шопен. "Исторический памятник состояния Армянской области в эпоху присоединения к Российской Империй", СПБ, 1852, стр.95***

The Armenians aren't ancient habitants of Armenia, they are come from Asuriya.

***I.Shopen. «Historical Monument Condition of Armenians Province in the Epoch of Joining to Russian Empire», S-Peterburg, 1852, p.95***

# VEDİBASAR MAHALI

## ƏRAZİSİ VƏ COĞRAFİYASI

**Vedibasar mahalı*** (Vedi və Qarabağlar rayonları) Qərbi Azərbaycanın (indiki Ermənistanın) tarixinə görə ən qədim, coğrafi-siyasi mövqeyinə görə ən strateji, təbiətinə görə ən zəngin bölgələrindən biridir. İndiki Ermənistan Respublikası ərazisində, Ermənistan, Azərbaycan, Türkiyə və İranın bu günkü dövlət sərhədlərinin kəsişdiyi yerdə, Araz çayının şərq sahilində, Ağrıdağ vadisinin (Ararat düzənliyinin) Böyük Ağrı və Kiçik Ağrı dağ zirvələri ilə üzbəüz hissəsində yerləşir. Bir tərəfdən Ağrı dağlarının ətəyindən axan Araz çayı ilə Göyçə və Dərələyəz mahalları, digər tərəfdən isə Şərur mahalı ilə Gərnibasar mahalı arasında barlı-bərəkətli, aranlı-dağlı böyük bir ərazini əhatə edir.

Vaxtilə qədim Sak çarlığının, Armaniya ölkəsinin, Şəddadilər, Atabəylər, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvilər kimi qüdrətli dövlətlərin bir bölgəsi, XVIII yüzilin ortalarından etibarən İrəvan xanlığının tərkibindəki 15 mahaldan biri, xanlıq əraziləri Rusiya tərəfindən işğal olunduqdan sonra İrəvan quberniyasının İrəvan qəzasının Vedibasar nahiyəsi, 1930-1988-ci illərdə Ermənistan SSR-in Vedi (1968-ci ildən – Ararat) və Qarabağlar (1937-1948) rayonları kimi mövcud olan bu ərazi-inzibati vahid son (1988-ci il) durumuna görə cənub-qərbdən Araz çayı vasitəsilə Türkiyə dövləti ilə, cənub-şərqdən Naxçıvan MR-in Şərur və Ermənistan Respublikasının Keşişkənd (Yeğeqnadzor), şimal-şərqdən Ermənistanın Qaranlıq (Martuni), şimaldan Ellər (Abovyan), şimal-qərbdən Qəmərli (Artaşat) rayonları ilə həmsərhəd idi.

---

*Vedibasar mahalı tarixən daha geniş ərazini əhatə etmişdir. Qədim Azərbaycan torpağı olan bu mahalın əraziləri hazırda üç dövlətin (Ermənistan, Azərbaycan, Türkiyə) arasında bölüşdürülmüş, təkcə Ermənistanın tərkibində qalan əsas hissə (təxminən 80 faiz) beş rayon (Vedi, Qarabağlar, Qəmərli, Ellər, Qaranlıq) arasında paylaşdırılmışdır. Biz bu kitabda əsasən indi Ermənistan ərazisində qalan Vedibasar torpaqlarını tədqiq etməyə, hətta Vedi və Qarabağlar rayonlarının ərazisi ilə məhdudlaşmağa çalışmışıq.



Ərazisi 1399,25 kv. km, rayon mərkəzi İrəvan şəhərindən 49 kilometrlik məsafədə yerləşən şəhər tipli Böyük Vedi (1946-cı ildən – Vedi) qəsəbəsi idi.

1988-ci ilin məlumatına görə rayonda 1 rayon tabeli şəhər (Dəvəli), 1 şəhər tipli qəsəbə (Böyük Vedi), 13 kənd soveti, cəmi 32 yaşayış məntəqəsi olmuşdur. Lakin bu, Vedibasar mahalı (rayonu) ərazisində tarixən və hətta yaxın onillərə qədər mövcud olmuş yaşayış məntəqələrinin sayından bir neçə dəfə azdır. Kitabda həmin kəndlərin hər biri haqqında ətraflı bəhs edəcəyik.

Vedibasar mahalı relyefinə görə bir-birindən kəskin şəkildə fərqlənən dağlıq və düzənlik (aran) hissələrinə ayrılır. Dağlıq hissə sərt qayalıqlı çılpaq və meşə zolaqları ilə örtülü yaşıl dağ, dərə və yamaclardan ibarətdir. Burada yay sərin, qış qarlı-şaxtalı keçir.

Düzənlik hissə isə (dəniz səviyyəsindən 850-100 m yüksəklikdə) iqliminə görə dağlıq hissə ilə təzad təşkil edir. Temperatur yayda çox vaxt +30 dərəcədən yuxarı, qışda nadir hallarda -10 dərəcədən aşağı olur. Lakin havası dəyişkəndir, qəfildən qışda temperatur –30 dərəcəyədək aşağı düşə, yayda +20 dərəcəyədək enə bilir. Mart-aprel aylarında qarın yağdığı olub. Yazda tez-tez dolu düşür, göydə şimşəklər çaxır, ildırımlar şaqqıldayır, leysan yağış tökür.

Vedibasarda adətən üç cür yel (burada "külək" sözü işlədilmir) əsir: şimal-qərbdən – İrəvan tərəfdən soyuq **Ələyəz yeli**, cənub-şərqdən – Naxçıvan tərəfdən isti **Şəril (Şərur) yeli**, qərbdən – Ağrıdağ tərəfdən (bu dağın Türkiyə tərəfdəki üzündə Koroğlunun oylağı olan Çənlibel yerləşdiyindən adamlar "Koroğludan" da deyirdilər) **Koroğlu yeli**. Hərdən yeri-göyü lərzəyə gətirən tufan qopar, qara yel əsər, hətta neçə illik iri ağacları kökündən çıxarıb yerə qoyardı.

Vedibasar mahalında təbiətin bu dərəcədə şıltaqlığı yəqin ki, məhz onun coğrafi mövqeyi ilə bağlı idi. Belə ki, mahal qərbdən **Böyük Ağrı** və **Kiçik Ağrı** kimi iki nəhəng dağ zirvələri, şərqdən isə Kiçik Qafqaz sıra dağları ilə əhatələndiyindən həm şimaldan, həm də cənubdan bu dağ silsilələrini bir-birindən ayıran iki böyük "koridor-düzənlik" uzanıb gedirdi. Elə ona görə də mahala həmin iki "koridor" vasitəsilə hava axını dolurdu ki, şimal korido-

rundan gələn hava axını Ağrıdağ vadisinin şimal qurtaracağı tərəfdə yerləşən ən uca zirvə – Ələyəz dağının (h. 4095 m) adı ilə, yuxarıda dediyimiz kimi, Ələyəz yeli, Ağrıdağ düzənliyinin qurtarıb, Şərur düzənliyinin başladığı cənub koridorundan gələn hava axını isə Şərur düzənliyinin adı ilə Şəril yeli adlanırdı.

Vedibasar axşamlarının da qəribə mənzərəsi vardı. Günəş Ağrı dağının arxasında qūrub etməyə başladımı, dağın kölgəsi sürətlə Vedibasarın üzərinə yeriyərdi. Kəndlərin, dağların, təpələrin üstü ilə sürətlə irəliləyən kölgə ən axırda **Kotuz dağının** üstünə "hücum" çəkərdi. Sonda dağın zirvəsi qızarar, kölgə tam örtdükdən sonra dağ göy rəngə boyanar, qırmızılıq isə göy üzündəki buludlara çökərdi.

Vedibasar mahalının həm dağlıq, həm də aran torpaqları **Vedi çayı** tərəfindən iki hissəyə bölünürdü. Başlanğıcını Vedibasar mahalının şərq yamaclarındakı buz bulaqlardan götürən bu çay Cığın dərəsi boyunca qərbə doğru axaraq çoxlu bulaq və irmaqları özünə birləşdirib, aşağılarda **Küsüs** və **Şahablı** adlı daha iki dağ çayı ilə qovuşub, mahalın düzənlik hissəsini də kəsib keçərək onun qərb qurtaracağında – qədim Şidli kəndi yaxınlığında Araz çayına tökülürdü.

Lakin burada bir cəhətə aydınlıq gətirmək istəyirik. İ.Şopenin məlumatlarında Vedi çayı Şidli kəndi yox, Xorvirab kəndi yanından axaraq Araza tökülür. Bu, çayın yatağının əvvəllər fərqli olduğunu və bizim fikrimizcə, Qaralar kəndinin şimal torpaqlarındakı **Qumarx** deyilən qədim çay yatağından keçdiyini təsdiqləyir.

Bundan başqa, mənbələr Vedi çayının əvvəllər çox sulu çay olduğunu göstərir. Bunu çayın böyük yatağı və çay üzərindəki çoxlu dəyirmanlar da sübut edir. Vaxtilə **Arxaşan çayı** da bura axırmış, sonralar Göyçə gölünə üz tutub. İ.Şopenin yazdığına görə, İrəvan xanlığının sonuncu sərdarı Hüseynqulu xan bu çayı təzədən Vedibasar çuxuruna qaytarmaq üçün tədbirlər görsə də, bölgəyə rus qoşunlarının hücumu ilə bağlı hərbi əməliyyatlar buna imkan verməmişdi.

Belə bir rəvayət də var ki, qədimdə bir azərbaycanlı qız (bəzi ehtimallara görə – Şirin) Vedibasarı abadlaşdırmaq və içməli su ilə təmin etmək üçün Əyri çayın suyunu Həconun yurdundan Məngük dərəsinə aşırmaq istəyir, iri bir arx çəkdirir, lakin bu işi



başa çatdıra bilmir. Ona görə də ona Arxaşan adı verirlər.

Yeri gəlmişkən, Cığın dərəsi ilə axdığına görə Vedi çayı bir çox mənbələrdə **Cığınsu çayı,** Kolanlı tərəfdən axıb gəldiyi üçün bəzən **Kolanlı çayı,** el arasında Fərhad-Şirin əfsanəsinin yerli variantına görə **Fərhad çayı,** Vedi kənd camaatı tərəfindən isə **Goraban çayı** da adlanmışdır.

Elə mahalın adı da (**Vedi-basar**) Vedi çayının adından götürülmüşdür və Vedi çayının yatağı – tutduğu ərazi anlamındadır. Vedi çayının adına gəldikdə isə, o da özlüyündə bu adı ərazinin qədim adından (**Eti//Veti**) alınışdır. Ümumiyyətlə isə, Vedi adının etimologiyası ilə bağlı müxtəlif versiyalar var. Bu versiyalar sırasında Vedi sözünün ərəbcə **"vadi"** şəklində izahı nisbətən üstünlük təşkil edir. Doğrudan da, əgər "vadi" sözünün mənası "iki dağ arasında böyük, uzun çuxur, düzənlik"dirsə (bu yerlərin orta yüzillərdəki "Çuxur-Sakat" adını xatırla), onda mahalın coğrafi mövqeyi onun Vedi (Vadi) adına tamamilə uyğun gəlir. "Vedi çayı" isə "Vadi çayı", yəni "Vadidən (oxu: Vedidən) axıb gedən çay" kimi başa düşülür. Və o da faktdır ki, Vedibasar mahalındakı iki Vedi kəndinin (Böyük Vedi və Kiçik Vedi) hər ikisi mahalın məhz vadi hissələrində (Böyük Vedi kəndi kiçik vadidə, Kiçik Vedi kəndi böyük vadidə) yerləşir. Bu mənada, "Vedi" adının "vadi" şəklində izahı özünü daha çox doğruldur.

Heç şübhəsiz, bu izah **"Vedi"** adının ərazinin təbii-coğrafi əlamətlərinə görə yozumudur və aydındır ki, bu mənada həmin ad (Vedi) bölgənin eramızın 7-ci yüzilində ərəblər tərəfindən işğalından sonra meydana gəlməsi mümkün olan bir addır. Lakin bu adın həmin ərazinin daha qədim tarixi ilə bağlı maraqlı izahları da var və biz bu barədə Vedibasar mahalının qısa tarixi haqqındakı söhbətimizdə bəhs edəcəyik.

Vedibasar mahalının dağlıq hissəsi mahalın mərkəzi olan Böyük Vedi qəsəbəsindən başlayaraq Göyçə, Dərələyəz və Gərnibasar mahallarına doğru uzanan üç böyük dərə – mərkəzdə **Cığın dərəsi (Cığındərə),** sağda **Çanaxçı dərəsi (Çanaxçıdərə),** solda **Milli dərəsi (Millidərə)** boyu yerləşən kəndlərdən ibarət idi. Bu dərələrdən ən böyüyü olan **Cığındərə** Vedi çayı boyunca, bu çayın mənbəyinə, yəni Vedibasarın Göyçə sərhədinə doğru uzanıb gedirdi. Böyük Vedidən Cığındərə kəndlərinə apa-

ran yeganə yol Vedi çayının kənarı ilə bu dərədən keçir və bu dərənin adı ilə **Cığındərə yolu** da adlanırdı. Bu yol çətin keçilən sıldırım qayalar və kol-kosla müşayiət olunurdu. Vedibasar kəndlərini Əyricə yaylağına qaldıran bu yol Sovet dövründə nisbətən genişləndirilsə də (1937-ci ildə Vedibasarın dağlıq ərazisində Qarabağlar rayonu yaradıldıqdan sonra Çimənkənddən Kolanlıya qədər 40 km-lik asfalt yol çəkilmişdi), yenə də hər sürücü bu yolla yaylağa qalxmağa cəsarət etməzdi. Bu, həmin yoldur ki, 1930-cu ildə Ağsu çayının Qarıuçan deyilən yerində Abbasqulu bəylə Xəlilin qarşısı kəsilib, qətlə yetirilmişdilər.

Böyük Vedidən başlayıb Kolanlıya qədər getdiyi üçün bu yolu **Kolanlı yolu** da adlandırırdılar. Bu yol aşağıdakı məntəqələrdən keçirdi: **Böyük Vedi-Gavur qalası-Sarı dolama-Daşlı-Kəhriz-Güdüyün düzü-Ağrı görünməz-Çimən-Kərkab-Qarabağlar-Dəhnəz-Kardaş-Dəvəboynu-Qarıuçan-Camışbasan-Əzizkənd-Kiçik Bağçacıq-Qaraqoyunlu-Kolanlı-Təkarmud-Əyricə (Məmməd bəyin obası).** Həmin yolda Qarabağlar kəndindən sonra sola bir yol ayrılır, Keşişdağ kəndindən keçib, Millidərəyə qalxırdı. Camışbasan kəndinə çatmamış isə Qarıuçan deyilən yerdən sola ikinci bir yol ayrılıb, Məngük tərəfdən Xosrov kəndini keçib, digər yol Məngük kəndindən və Məngük meşəsindən ötüb, Əyricə yaylağına aparırdı. Qaraqoyunlu kəndindən ayrılan tamam başqa bir yol isə **Bağlar-Təzəkənd-Qanlı göl-Qızılqaya-Ağbulaq** istiqamətində Əyricənin **Sultan bəyin yurdu** deyilən hissəsinə gedirdi.

Vedibasarın **Cığındərə** bölgəsinə aşağıdakı kəndlər daxil idi: **Ağasıbəyli, Ağbulaq, Ağkilsə, Almalı, Aşağı Qarabağlar, Aşağı Ərmik, Bağçacıq, Böyük bağ, Bunut, Qaraqoyunlu, Qaratorpaq, Qızılverən, Daşlı, Daşnov, Dəhnəz, Əzizkənd, Ələyəz, Əngiz, Ərmik, Zimmi, İnqala, Yeddiqardaş, Yuxarı Qarabağlar, Keşişdağ, Kərkab, Kiçik Bağçacıq, Kolanlı, Kom, Küsüs, Gölcığın, Lök, Məngük, Rəşoğlu, Telli Baba, Təzəkənd, Xartlıq, Xıdıreylas, Xunut, Haqverdi, Haxıs, Heyranıs, Həsənqala, Çardaqlı, Çimənkənd, Camışbasan, Cığın Qaraqoyunlu** və s.

Vedibasar mahalının **Çanaxçıdərə** bölgəsi Çimən kəndindən ayrılıb, Dərələyəz mahalına doğru uzanan dərə boyu əraziyə aid edilirdi. Vedi çayının Şahablı qolu bu dərədən axırdı. Qaraquzey



dağına doğru bu dərə boyu uzanan yol **Çanaxçıdərə kəndlərinə** aparıb çıxarırdı. Həmin kəndlər aşağıdakılar idi: **Ağviran, Birəli, Qarabağ, Qaraxaç, Qaşqa, Qədirli, Zəncirli, Keşişverən, Köhnə Şahablı, Günnüt, Talasavan, Hortun, Çanaxçı, Çobandərə, Cəfərli, Şahablı.**

Vedibasar mahalının **Millidərə** bölgəsi isə Gərni çayı boyunca yerləşən kəndləri əhatə edirdi. Böyük Vedidən gedərkən **Qotur bulağından** keçən yol Kotuzun üstündən keçib Millidərəyə qalxırdı. Qədim türk-arman xristian məbədi olan məşhur **Gərni kilsəsi** (sonradan erməniləşdirilmişdi) yaxınlığındakı bu dərə şərq tərəfdən Qaranlıq rayonu, cənub-qərb tərəfdən İrəvan-Ellərlə qonşuluqda yerləşirdi, bir sıra tarixi abidələri, o cümlədən **Koroğlu qalası** ilə də məşhur idi. Bu bölgənin başı həmişə bəlalı olmuş, hətta 1918-ci ildə Vedibasar mahalı üzərinə ilk mütəşəkkil daşnak hücumu məhz buradan – Baş Gərni istiqamətində Milli dərəsindən başlamışdı.

Sovet hakimiyyəti illərində isə bu ərazini dəfələrlə bir rayondan alıb o birinə qatmışlar. Belə ki, əvvəl Vedi rayonu tərkibində olan Milli dərəsi sonra Qəmərli rayonu, ondan sonra Ellər (Kotayk, Abovyan, Kənəkir) rayonu tərkibinə daxil edilmiş, daha sonra Vediyə qaytarılmış, 30-40-cı illərdə Qarabağlar rayonunun tərkibində olmuş, sonra yenidən Vedi və Qəmərli rayonları arasında bölüşdürülmüşdür.

Millidərə kəndlərinə ancaq dağ yolları ilə gedib-gəlmək mümkün idi. Buradakı kəndlərin bəziləri, məsələn, Seyid Kotanlı, Şuğayıb, Gölaysor və b. Vedi rayon mərkəzi olan Böyük Vedi qəsəbəsindən 40-45 km-lik məsafədə idisə, Alqırıq, Almərdan kəndləri 65-70 km-lik məsafədə yerləşirdi.

Millidərə toponiminin yaranması ilə bağlı adamlar arasında belə bir rəvayət var ki, vaxtilə **Şahvələd, Şahnəzər** və **Topacan** adlı üç qardaş olmuşdur. Onlar Mildə bəyi öldürüb, Türkiyəyə qaçmışlar. Orada da işləri tərs gətirib, yenidən adam öldürüblər. Milə qayıda bilmədiklərindən bu xəlvət yerdə kənd salıb çoxalıblar.

**Millidərə kəndləri** aşağıdakılar idi: **Ağkənd, Bayburt, Böyük Gilanlar, Qazançı, Qaladibi, Harunburun, Qulaqsız, Alqırıq, Əlimərdan, Əhmədli, İmirzik, Yappa, Yellicə, Kiçik**

**Gilanlar, Kotuz, Körpükənd, Gölaysor, Molla Əhmədli, Musacıq, Kotanlı, Tərəkəmələr, Xaraba Kotanlı, Xaçlı, Xosrov, Hand, Hacımirzə, Çatma, Çəngli, Şəhriyar, Şırran, Şuğayıb** və s.

Vedibasar mahalının dağlıq hissəsi onun coğrafiyasının ayrılmaz hissəsi olan bir sıra dağ, dərə, yaylaq, çay, bulaq, qala, aşırım və s. ilə də zəngindir. Mahalın cənub-şərqində – Çanaxçıdərə bölgəsində qara rəngli dağ silsiləsi – **Qaraquzey dağı** yerləşirdi. Araza, Ağrıdağa doğru uzandıqca Qaraquzey silsiləsi tədricən alçalıb, düzə qarışırdı. "Kitibi-Dədə Qorqud"da Aladağ adlanan Ağrıdağla üzbəüz ucalan bu hündür qara dağ həmin mənbədəki Aladağ-Qaradağ paralelinə tamamilə uyğun gəlir və Qaraquzey dağının əvvəllər rənginə görə məhz Qara dağ adlanması ehtimalını ortaya qoyur. (Xatırladırıq ki, Vedibasar ərazisində "Dədə Qorqud"la bağlı yüzdən çox toponim qeydə alınmışdır).

Mahalın şimal – Qəmərli tərəfində yumru, zərvəsiz, ağ-narıncı rəngli nəhəng **Ağdağ** yerləşirdi. Bu, həmin dağdır ki, 1918-1920-ci illərdə Qəmərli tərəfdən Böyük Vediyə hücum edən ermənilər burada düşərgə salıb kəndi top atəşinə tutmuşdular. Xatırladırıq ki, Orta Asiyada eyniadlı bir neçə dağ mövcuddur.

Ağdağla Qaraquzey dağının arasındakı qat-qat uzanan mavi rəngli nəhəng dağ silsiləsindəki hündür göyümsov dağ isə **Kotuz** adlanırdı. Bu adın etimologiyasından Kotuz kəndindən danışarkən bəhs edəcəyik.

Böyük Vedidən yuxarıda **Süzəni dölləyindən** keçib Milli dərəsinə doğru qalxanda bir az aralıda **Allah-Əkbər** (buna **Ələkbər** də deyirdilər) **dağı** ucalırdı. Millidərəyə doğru uzanan yolda Allah-Əkbər dağından sonra əzəmətli **Kəhkəşan dağı** gəlirdi.

Bu yerlərdə **Kəpəz** adlı iki dağ da vardı – biri Daşnovun aşağısında, digəri Qanlı gölün üstündə.

Böyük Vedinin üstündəki **Sarı dolama** təpəsini aşandan sonra Vedi çayının sağ sahilindəki iri qonur rəngli qaya **Əli daşı**, sol sahilindəki eyni belə daş **Ömər daşı**, Ömər daşının yanından Qaraquzeyə qədər uzanan dağ silsiləsi isə **Talasavan** adlanırdı.

Vedibasarda aşağıdakı digər məşhur dağlar da var idi: **İlanlı dağı, Gölaysor dağı, Qaladibi dağı, Qızıl ziyarət, Kotan, Qap dağı, Qız dağı, Qız qalası, Aylı, Üçtəpə, Zarıncı, Qızıltəpə,**



**Qızılqaya, Ətlidağ, Ağyal dağı, Dumanlı dağı, Çığırqan dağı, Kardaş, Ətəkuçan dağı, Topdağ** (ona **Didvan dağı** da deyirlər), **Öküzuçan, Şişdağ, Şıxlar dağı, Sarıqaya, Sarıbaba, Sarıdolama, Qılçıqlının qayası, Buzqaya, Demin qayası, Həsən qayası, Kiçik Kərsən, Böyük Kərsən, Qır, Dorrax, Çardaqlı dağı, Oğlan qalası** və s.

Bu sıraya çoxlu dərə adlarını da əlavə etmək olar: **Cığın dərəsi, Milli dərəsi, Çanaxçı dərəsi, Bağırsaq dərəsi, Cəhənnəm dərəsi, Aygörməz, Ağdərə, Əhməd dərəsi, Muradların dərəsi, Civirliyin dərəsi, Ocağın dərəsi, Dərin yarğan, Almalığın dərəsi, Vəliuşağının dərəsi, Xartdığın dərəsi, Devzağasının dərəsi, Xınıt dərəsi, Komun dərəsi, Cabbarın dərəsi, Postuğun dərəsi, Qanatmalığın dərəsi, Ağcaölən** və s.

Bu dərələrdən əvvəlki üçü haqqında bəhs etmişik. Daha üçü – Bağırsaqdərə, Aygörməz və Cəhənnəm dərələri haqqında da qısaca məlumat verməklə kifayətlənirik.

**Bağırsaqdərə** – Vedibasar mahalı ərazisində ən böyük dərələrdən biri idi. Bağırsaq kimi uzanıb, qıvrılıb gedən bu dərə, yəqin ki, adını da özünün təbii-coğrafi quruluşuna görə almışdı. Armaniya və Atropatenanı Albaniya ilə birləşdirən qədim karvan yolu da Arazdəyən kəndi yaxınlığından başlayıb Dərələyəz mahalına qədər gedib çıxan həmin dərədən keçirdi. Bu dərədəki qədim **Kərki** şəhəri karvan yolu üzərindəki əsas dayanacaq məntəqələrindən biri idi. Bağırsaq dərədən axan çay da **Bağırsaqdərə çayı** adlanırdı, 33 km uzunluğunda olan bu çay axıb qonşu Şərur rayonu ərazisində Araz çayına qovuşurdu.

**Aygörməz** – Dəvəli və Şahablı kəndləri arasında yerləşən həmin dərənin dərinliyinə və quruluşuna görə bura heç vaxt ay işığı düşmədiyi üçün həmin adı almışdı. Bu dərənin adına **Aydoğmaz** da deyirdilər. 1918-ci ilin iyulunda Vedibasar igidlərinin bu dərədə 17 nəfər daşnak mauzerçisini gecə ikən qətlə yetirməsi bölgədə əməlli-başlı münaqişə yaratmışdı. Bu hadisəni bəhanə edən erməni-daşnak hökuməti general Dronun, Aram paşanın, Dəli Kazonun və Bek-Pirimovun birləşmiş hərbi qüvvələrini Vedibasar üzərinə hücuma göndərmiş, xeyli çəkən qanlı döyüşlərdən sonra vedibasarlılar erməniləri darmadağın edib geri oturda bilmişdilər.

**Cəhənnəm dərəsi** – görkəminə görə bu adı almışdı. Bu elə bir dərə idi ki, ora böyük bir qoşun girdimi, hər tərəfdə bir-iki adam dayanmaqla hamısını qırıb-çata bilərdi. Çanaxçı dərəsində yerləşən bu dərənin başında Çanaxçı, Qaşqa, Keşişverən kəndləri yerləşirdi.

Vedibasar mahalının dağlıq bölgəsində xeyli meşə zolaqları da vardı. Meşələrdən ən böyüyü Cığındərə bölgəsindəki məşhur **Xosrov meşəsi** idi. Arman hökmdarı II Xosrov eramızın 350-ci ilində Armaniyanın paytaxtını Vedibasar ərazisindəki Dvin şəhərinə köçürərkən mahalın dağlıq hissəsində palıd meşəliyi də saldırmışdı. Mənbələrin şahidliyinə görə, guya Xosrov şahın bu meşəliyi saldırmaqda məqsədi ovçuluq olmuşdur. Lakin bizcə, qədim karvan yolu olan Cığındərənin Göyçə ağzında salınmış bu meşə daha çox ölkənin (Armaniyanın) Albaniya sərhədlərinin təhükəsizliyi məqsədi güdmüşdür.

Bununla yanaşı, Vedibasarda digər meşələr də vardı: **Qardaxlı meşəsi, Qaçaq meşəsi, Ağkənd meşəsi, Dərbənd meşəsi, Zülfü meşəsi, Qaladibi meşəsi, Zimmi meşəsi, Ayıqıran meşəsi, İlanlı meşəsi** və s.

Belə bir faktı da xatırlatmaq istərdik ki, keçən yüzildə İrəvan qəzasında cəmi üç dövlət meşə mülkü olub və onların üçü də Vedibasar ərazisində yerləşib. Bunlar Milli, Cığın və Bağırsaqdərə meşə zolaqlarıdır. Milli zolağı 10 min desyatin ərazini əhatə edirdi ki, onun tam yarısı – 5 mini ancaq meşə altında idi. Cığın zolağının ərazisi 22 min desyatin idi və onun 6 min desyatinini meşəlik təşkil edirdi. Ən böyük meşə zolağı isə Bağırsaqdərədə yerləşirdi – 600 min desyatin ərazi. Bunun da 50 min desyatini meşə altında idi.

Meşə zolaqlarının hər üçünün bazasında sovet dövründə Ermənistanda ən böyük qoruqlardan biri olan **Xosrov qoruğu** yaradılmışdı.

Vedibasar mahalında bir sıra çaylar, göllər və çoxlu sayda bulaqlar vardı. Çaylardan **Vedi, Əyriçay, Dəliçay, Güleyman, Ağsu, Dəvəgözü, Ayı dərəsi, Gilənar, Kolanlı, Qarasu, Küsüs, Mil, Böyükçay, Asnı çayı, Çopanarx, Almalığın çayı, Komun çayı, Dərbənd çayı** və s. adlarını çəkmək olar.

İ.Şopen Vedibasarın çayları haqqında danışarkən bizim Kolanlı dediyimiz **Cığın-Cirmanis çayı** barədə aşağıdakı məlumatı verir: Çayın iki qolu var: **Cığın** və **Cirmanis**. Mənbəyini Göyçə mahalı ilə Vedibasar arasındakı dağlardan götürən bu iki qol birləşib cənub-qərbə üz tutur, Həsənqala yanından axıb keçən **Həsənsu** və Camışbasan torpaqlarının suvarıldağı **Teşbulaq** çaylarını da qəbul edib, Qarabağlar kəndi yaxınlığında Vedi çayına tökülür.

**Əyri çay** Əyricə yaylağından keçib, Göyçə gölünə axıb tökülürdü. Bu çayda çoxlu dadlı qızıl-ala balıqlar olurdu.

**Asnı çayı** isə Vedibasar ərazisindən axaraq, Dəvəli və Sədərək arasından keçib Araza üz tuturdu.

**Çopanarx** mənbəyini Qədirli dağlarından götürüb, Çanaxçı, Qaraxaç, Kərki sularını qəbul edib, Araza doğru axırdı.

Təbii ki, bu çayların əksəriyyəti suvarma üçün istifadə olunur, çox vaxt heç Araza gedib çatmırdı da.

Millidərə bölgəsi kəndlərinin əksəriyyəti isə **Ağdağdan (Alyoldaş** adlı yurd yerindən) axıb gələn **Dəvəgözü çayı**, Xosrov meşəsindən gələn **Dərbənd çayı** sahilində yerləşirdi. Hər iki çay Qaladibi kəndindən bir qədər yuxarıda (**Çayqovşağı** deyilən yerdə) birləşir, Bayburt yaxınlığında kənddən keçib gələn **Ludərən çayını**, Tərəkəmələr kəndinin aşağısında isə **Nərmi çayını** qəbul edirdi. Dəvəgözü çayı bu çayların hamısından əzəmətli idi.

Göllərdən isə ən məşhuru **Qanlı göl** idi. Qanlı göl Kolanlı kəndi ilə Məngük kəndi arasında yerləşirdi. Eni 30 m, uzunluğu 50 m olan bu gölün suyu çox soyuq olduğundan orada çimmək təhlükəli idi. Suda bir az çox qalanda adam qəfildən qıc olurdu. Görünür, çoxlu qanlara bais olduğu üçün bu adı almışdı. Bu gölün aşağısında **Gülbulaq** və **Ağbulaq** adlı iki bulaq da vardı. Onların suyu aşağıda birləşib, Vedi çayına axırdı.

Daha sonra **Ağgöl (Şirin gölü), Qaragöl, Selimin gölü, Qaraçalı gölü, Musanın gölü, Alçalığın gölü, Quru göl, Alagöllər, Rəşoğlunun gölü** vardı.

Bulaqlardan isə **Şorbulaq Sultan bulağı, Mıstıxlıbulaq, Yeddibulaq, Teşbulaq, Daşlı bulağı, Yastıbulaq, Qırxbulaq, Bozbulaq, Güllübulaq** və s. qeyd etmək olar.

**Əyricə yaylağı** – Vedibasar ellərinin qədimdən hər yay yayladığı ən böyük yaylaq idi. Kəndlərin əksəriyyətinin burada

yurd yerləri vardı. Göyçə, Dərələyəz və Vedibasar mahallarının arasında yerləşən bu yaylaqda Şərur-Dərələyəz ellərinin camaatı da istirahət edərdi.

Əyricə yaylağında yerləşən yurdlar sırasında **Dibyurd** (və ya **İstiyurd**), **Arxaşan, Qırxbulaq yurdu, Ağasıbəyli yurdu, Qanlıca, Dikdaş (Bədir bəyin yurdu), Hacı Mirzə Məcnun, Hand** yurdları, **Alırzalar, Alyoldaş, Taplar, Ayıqıran, Tikanlı yurd (Usuboğlu İsmayılın yurdu,** Əyri çayın sahilində son dərəcə səfalı yerdə yerləşirdi), **Kərbəlayı İsmayılın yurdu, Aynalı, Xanım yurdu, Dəvəli yurdu, Səfkarlı (Kiçik Vedi yurdu), Alməmməd, Gümüşün yurdu, Sultan yurdu, Məmməd bəyin yurdu, Xudu bəyin yurdu (Böyük Vedi yurdları,** Qaragöl deyilən təpənin ətrafında yerləşirdilər), **Cığın gölü yurdu, Cığın dərəsi, Goraban yurdu, Kolanı yurdu, Dəmirçi, Ovşar, Dumanlı (Taytanlı Əli bəyin yurdu), Yelli yurdu** və s yurdların adlarını çəkmək olar. **"Axsaq toyuq"** isə Əyri çayın sahilində yerləşir, Qızıl Xarabadan Ağdağın ətəyinə qədər uzanırdı.

Cığın dərəsəndən Əyricəyə uzanan yol Kolanlı kəndindən sağa və sola olmaqla Xartlıq və Xınıt istiqamətlərindən yaylağa qalxardı. Yaylağa çatmamış burada böyük bir gədik – **Selim (Səlim) gədiyi** yerləşirdi. Göyçə, Dərələyəz, Vedi, Şərur ellərini birləşdirən bu yolayrıcında 14-cü yüzildə Əbu Səid Bahadur xan tərəfindən bir karvansaray da tikdirilmişdi. Lakin çox güman ki, əvvəllər Əyricə yaylağınnın və Əyricə kəndinin adı ilə **Əyricə karvansarası** adlanan bu karvansara sonralar Sultan Səlimin bu yerlərə yürüşü ilə bağlı **Selim (Səlim) karvansarası,** Şah Abbasın onu yenidən bərpa etməsi ilə əlaqədar isə **Şah Abbas karvansarası** adını almış, bu adlarla da tanınmışdır.

Professor Həsən Mirzəyevin belə bir fikri ilə şərikik ki, Əyricə yaylağı türk tayfalarından birinin adını daşıyır. Bunu bölgədə eyniadlı toponimlərin çoxluğu da təsdiqləyir. Belə ki, "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) də Şərur camaatının yayladığı yaylaq yeri kimi **Əyricə gədik** və **Qoçu (Qorçu** – **Ə.Ə)** yaylaqlarının adı çəkilir. Hələ ondan da əvvəl "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) Məzrə və Sürməli nahiyələrində Əyricə adlı kəndlər qeydə alınmışdır. Göyçənin Qaranlıq rayonunun və Azərbaycan Respublikasının Bərdə rayonu-



nun hər birində iki Əyricə kəndi olmuşdur.

Vedibasar mahalının aran hissəsi şərqdə mahalın mərkəzi olan Böyük Vedi qəsəbəsi də daxil olmaqla bu qəsəbədən qərbdə Türkiyə sərhədindəki Araz çayına qədər və şimalda Gərnibasar mahalından cənubda Şərur mahalına qədər geniş bir düzənliyi əhatə edirdi. Bu aran hissə şərqdən qərbə doğru axıb gedən Vedi çayı vasitəsilə iki hissəyə bölündüyü kimi, şimaldan cənuba doğru da İrəvandan Naxçıvana (oradan da Bakıya) uzanan Cənubi Qafqaz (Zaqafqaziya) dəmiryol xətti və İrəvan-Naxçıvan şosse yolu vasitəsilə yenə iki hissəyə bölünürdü. Məşhur **Sarıbaba dağı** da burada – Avşar, Xalisa və Dəvəli kəndləri arasındakı düzənlikdə yerləşirdi.

Reyhanlı və Şirazlı kəndləri arasındakı uca təpə isə **Gəlinsarayı** adlanırdı. Bu yerin keçmişdə Armaniya şahzadəsi Şirinlə evlənən Xosrov Pərviz tərəfindən Şirinə hədiyyə olaraq tikilmiş qala yeri olduğu əfsanə şəklində bu gün də yaddaşlarda yaşamaqdadır. Maraqlıdır ki, Dəvəli yaxınlığındakı **Ağgöl** də vaxtilə el arasında **Şirin gölü** adlandırılırdı.

Mahalın **aran kəndləri** aşağıdakılar idi: **Abbasabad, Avşar, Arazdəyən, Böyük Vedi, Vəlican, Qaralar, Dvin, Dəvəli k., Dəvəli şəh., Əliabad, Əliqızıl, Alməmməd, Yaycı, Yeni yol, Yeni həyat, Yengicə, Karvansara, Kiçik Vedi, Kirov qəsəbəsi, Külağıl, Goravan, Güneyyurd, Məmmədrəsul, Nəsibli, Ortuk, Əfşarlı, Reyhanlı, Saray, Sarıxanlı, Səfəralı, Taytan, Xalisa, Xorvirap, Haramlı Şətli, Hacı Baba, Çəmbərək, Çinçavat, Cadqıran, Şampan, Şidli, Şirazlı, Şıxlar, Şorsu** və s.

* * *

Biz Vedibasar mahalının coğrafiyası ilə bağlı məlumatlara antik, xüsusilə orta yüzillər tarixçi, səyyah və coğrafiyaşünaslarının əsərlərində də rast gəlirik. Bu, öncə onunla əlaqədardır ki, Vedibasar mahalı tarixən böyük Azərbaycan ölkəsinin şimalı ilə cənubunu, başqa sözlə, Albaniya (Arran) ilə Atropatenanı (Azərbaycanı) və Ərməniyəni (Armaniyanı) birləşdirən qədim karvan yollarının üstündə yerləşibdir. Hətta qədim və erkən orta yüzillərdə bu ərazinin mərkəzi olan Dvin (ərəb mənbələrində: Dəbil) şəhəri həmin karvan yoları üçün tranzit rolu oynamış,

istər şimaldan, istərsə də cənubdan gələn karvanlar Dvində dayanaraq çox vaxt burada özlərinin mal mübadilələrini edib, geri qayıtmışlar. Buna görə də tarixi mənbələrdə ticarət yolları bir qayda olaraq **"Bərdədən Dəbilə"** və **"Marağadan Dəbilə"** şəklində göstərilmişdir.

X yüzil ərəb tarixçisi əl-İstəxri "Kitab məsalik əl-məmalik" ("Məmləkətlərin yolları kitabı") əsərində Marağadan Dəbilə olan karvan yolunu aşağıdakı şəkildə təqdim edir: Marağa-Urmiya-Səlmas-Xuvey-Nəşavə (**yəni Naxçıvan – Ə.Ə**)-Dəbil. Və Nəşavədən Dəbilə olan yolun dörd mərhələdən ibarət olduğunu qeyd edir.

Ərəb coğrafiyaşünasları İbn-Hövqəl, əl-Müqəddəsi, əl-İdrisi və başqalarının da həmin karvan yolu barədəki məlumatları üst-üstə düşür və hamısında da Naxçıvandan Dəbilə qədər olan məsafə "4 mənzil" şəklində təqdim olunur. Araşdırmalarımız sübuta yetirir ki, Naxçıvanla Dəbil arasındakı həmin 4 mənzil aşağıdakılardır: 1.Noraşen; 2.Sədərək; 3.Qaynar (Dəvəli); 4.Dəbil.

Bərdədən Dəbilə gələn şimal karvan yolu isə əl-İstəxri, əl-Müqəddəsi, İbn-Xordadbeh, əl-Kudama, əl-İdrisi və b. tarixçi-coğrafiyaşünasların əsərlərində 7 mənzildən ibarət göstərilir. Yəni bu yol 7 yaşayış məntəqəsində dayanmaqla qət edilib. Lakin həmin yolun böyük bir hissəsi Vedibasar mahalı ilə bağlı olduğundan biz həmin mənbələrdəki bir yanlışlığa aydınlıq gətirməyi zəruri sayırıq. Məsələ ondadır ki, əl-İstəxrinin yazdığına görə Bərdə-Dəbil karvan yolu Bərdə-Kalkatus-Matris-Davmis-Kil Kuya-Sisəcan-Dəbil məntəqələrindən keçir. Əl-İdrisi də bu yolu təxminən təsdiq edir: Bərdə-Kalkatus-Mayris-Kaylakavsər-Sisəcan-Dəbil. Həmin yaşayış məntəqələri arasındakı məsafəyə gəldikdə isə, əl-İstəxriyə görə, Davmislə Kil Kuya, Kil Kuya ilə Sisəcan və Sisəcanla Dəbil arasındakı məsafələrin hər biri 16 fərsəx, yəni təxminən 90-100 km-dir. Əl-İdrisi isə Kaylakavsər, Sisəcan və Dəbil aralarındakı məsafələrin hər birinin cəmi 48 mil, yəni 70-80 km olduğunu yazır. Halbuki tarixi Sisəcan (Zəngəzurdakı Sisiyan) ilə Araz çayı sahilindəki qədim Dəbil şəhərinin xarabalıqları arasındakı məsafə ən azı iki dəfə çoxdur (180-190 km). Göründüyü kimi, uyğunsuzluq göz qabağındadır. Əslində, Kil Kuyadan Sisəcana qədərki 90-100



km-lik məsafə, əslində Sisəcandan Vedibasar ərazisindəki bu günkü Kərki kəndinə qədərki məsafədir. Sisəcandan Dəbilə qədər güman edilən yenə də 90-100 km-lik məsafə isə Kərkidən Dəbilə qədərki məsafədir. Belə olan surətdə Kil Kuya yaşayış məntəqəsinin bu günkü Kərki kəndi yaxınlığındakı qədim Kərki şəhəri olduğu gümanı ortaya çıxır və tarixi Bərdə – Dəbil karvan yolundakı yaşayış məntəqələrinin sırası aşağıdakı düzəlişə məruz qalır: Bərdə-Kalkatus-Matris-Davmis-Sisəcan-Kil Kuya (Kərki)-Dəbil.

Tədqiqatçı Nailə Vəlixanlı Bərdə-Dəbil (Dvin) karvan yolundan bəhs edərkən bu yoldakı yaşayış məntəqələrinin sıralanmasında məlum mənbələrin səhvini təkrar etsə də, son anda intuitiv olaraq özünü təkzib edib, Kil Kuyanın ("Kilkuy") məhz Sisəcandan sonra gəldiyini, "Qarabağ, Kəlbəcər, daha sonra Zəngəzurdan keçən bu yol"un Sisəcandan ötərək Kilkuy yaşayış yerinə daxil olduğunu göstərir. Lakin təəssüflə onu da bildirir ki, ərəb tarixçisi və coğrafiyaşünaslarının Kaylakvin, Kalkəva, Kilvay, Kaylakavsər və s. adlandırdığı bu yerin əsl adı katiblərin səhvi üzündən dövrümüzə qədər təqribi gəlib çatmışdır. Və o, tərtib etdiyi VIII-IX yüzillər Azərbaycan xəritəsində həmin yaşayış məntəqəsinin yerini indiki Kərki kəndindən xeyli aralıda – Naxçıvandakı Arpa çayının üstündə göstərir. Müəllifin tarixi Sisəcanı Arpa çayınının Araz çayına töküldüyü yerə, indiki Şərur rayonunun İbadulla kəndinin yaxınlığına aparıb çıxarması da müəmmalı görünür.

Və nəhayət, Vedibasar mahalının coğrafiyası Kil Kuyanın (Kilkuyun) Kərki olduğunu sübuta yetirməkdən ötrü gətirilən bütün bu dəlillərə daha tutarlı bir fakt əlavə etmək imkanı da verir. O da ondan ibarətdir ki, tarixçilərimiz belə bir incə məqamı yaddan çıxarırlar ki, söhbət Sisəcan-Dəbil yolundan gedirsə, bu yol mütləq Vedibasar mahalı ərazisində yerləşən və bu mahalın Şərur mahalı ilə sərhədindən keçən Bağırsaq dərəsi boyunca uzanmalıdır. Bu, həmin Bağırsaqdərədir ki, sərt dağ zirvələri arasından keçərək Dəbil şəhərinin yerləşdiyi Arazqırağı Ağrıdağ vadisini Dərələyəz mahalı vasitəsilə qədim Zəngəzur mahalı ilə birləşdirir. Kərki kəndi də məhz bu dərədə, təxminən Sisəcanla Dəbil arasındakı orta məsafədə yerləşirdi. Qədim kar-

van yolu olan və Bağırsaqdərə boyu uzanan həmin bu yol bu gün də Vedi rayonunun Arazdəyən kəndindən başlayaraq, həmin rayonun Keşişverən, Çanaxçı, Dərələyəz mahalının Yelpin, Rind, Eynəzir, Göytur, Keşişkənd yaşayış məntəqələrindən keçib, Sisiyan rayonu ərazisinə daxil olur, Bazarçay, Saybalı, Məliklər və b. kəndlərdən ötüb, qədim Sisəcana çatır. Sisəcanla Dəbili birləşdirən bu qədər kəsə və sərfəli ikinci bir yol yoxdur.

Bəs necə olub ki, qədim türk tayfaları qarqarların adını yaşadan (bu gün Azərbaycanda və Ermənistanda Qarqar, Gərgər, Xarxar, Herher adlı çoxlu toponim var) **Kərki (Gərgi)** toponimi **Kil Kuya** şəklinə düşüb? Tədqiqatçı Q.Qeybullayev göstərir ki, türkcə **kiya** – **"dik"**, **"sıldırım"**, **"yalçın yamac"**, **"çətinliklə gedilə bilən qayalı yamac"**, **"eniş"**, **kin** isə **"qala"** anlamındadır. Beləliklə, **Kil Kuya** və ya **Kin Kuya,** yəni **"sıldırım qala"**, **"qalaya bənzər yer"** adı tarixi Kərki kəndinin coğrafi mövqeyinə tamamilə uyğun gəlir və görünür ki, Kil Kuya coğrafi mövqeyinə görə kəndə verilmiş ikinci addır. Kərki kəndinin cənubunda eradan əvvəl II minilliyə aid iri qaya parçalarından tikilmiş müdafiə istehkamının, kəndin qərbində qədim nekropolun (qədim şəhərlərin kənarında böyük qəbiristan) aşkarlanması, burada daş qutu qəbirlərin, gil qablarm tapılması və s. Kərki kəndinin qədim şəhər yeri olduğunu bir daha təsdiqləyir.

Yeri gəlmişkən, bu, həmin Kərkidir ki, Şah İsmayıl Xətai körpə vaxtından həddi-buluğa çatanadək Vedibasarın bu kəndində Əli adlı şəxsin malikanəsində gizlədilərək saxlanmışdır.*

Milli dərəsinin adına da ilk dəfə XIV yüzil mənbəyində rast gəlirik. Həmdullah Qəzvini "Nüzhətül-qülub" əsərində Qarabağdan Əhər yolu ilə Təbrizə qədərki məsafədən bəhs edərkən burada "Gögcə Mil dərəsi ilə keçməklə" deyə şərt qoyur. Doğrudan da, Qarabağı Təbrizə birləşdirən bu yolda həmin dərə yo-

------------------------

* **QEYD:** 1920-ci ildə Qərbi Azərbaycan ərazisində qondarma "Ermənistan SSR" yaradılarkən bir çox ana torpaqlarımız kimi, təəssüf ki, Vedibasar mahalı da bu qondarma respublikanın tərkibinə qatıldı. Kərki isə o vaxt bu bəladan qurtarıb, Şərur rayonunun tərkibində qala bildi. Lakin 1988-ci ildə Qarabağ üstündə başlanan Ermənistan-Azərbaycan müharibəsi bu kəndi də erməni-bayquş yuvasına çevirdi – qədim türk şəhəri olan Kərki ermənilər tərəfindən işğal edildi.



lu qısaltmaq baxımından mühüm əhəmiyyət kəsb edirdi.

XVII əsr fransız səyyahı Jan Şardənin "Səyahətnamə"sində də Vedibasar mahalının coğrafiyası ilə bağlı məlumata rast gəlirik. İrəvandan Naxçıvana səfərə çıxan səyyah 8 aprel 1673-cü il tarixli qeydində yazır: "Keçib getdiyim ölkə, şəhər çiçəklərlə dolu idi. Çox böyük və çox gözəl bir şəhərdə yerləşdim. Onun adı Dvin idi". 9 aprel tarixdə isə artıq o yazır: "Çox düzən və barlı-bəhərli bir ölkə ilə beş lyö (**22,5 km – Ə.Ə**) getdik. O, dağlarla əhatə olunmuşdu. Sağdakı dağları Nuh dağı (**Ağrı dağı – Ə.Ə**) adlandırırlar. Biz Qaynar (**çox güman ki, indiki Dəvəli yaşayış yerində – Ə. Ə**) adlı kiçik bir şəhərdə mənzil saldıq". J.Şardən 10 aprel tarixli qeydində davam edir: "Biz həmin yolla gedib səkkiz lyö (**36 km – Ə.Ə**) qət etdik. Yolun yarısmda, sol tərəfdə Sədərək adlı böyük şəhərciyin yanından ötüb keçdik..."

Yuxarıda qeyd etdiyimiz kimi, Vedibasar mahalı həm də Ağrı dağlarının ətəyində və Araz çayının sahilində yerləşdiyindən bu iki coğrafi adın məna tutumu və etimoloji izahı haqqında bir qədər geniş məlumat verməyi zəruri sayırıq.

**Ağrı dağları** – **Böyük Ağrı** (hündürlüyü 5165 m) və **Kiçik Ağrı** (hündürlüyü 3925 m) adlı, gövdələri bitişik iki konusvari sönmüş vulkandan, çevrəsinin uzunluğu 130 km olan, 1200 **kv.** km-lik geniş bir sahə üzərində yüksələn iki zirvədən ibarətdir. Üstəlik, Böyük Ağrıdağın zirvəsi 4250 m yüksəklikdə il boyu qarla örtülüdür və 30 buzlağı var. Bu iki dağ 2700 m yüksəklikdə **Sərdarbulaq beli** ilə bir-birinə bağlanır. Azərlər (azərbaycanlılar) onu Ağrıdağ, türklər Eyridağ (Əyridağ), farslar Nuh dağı, ermənilər Masis, ruslar Ararat adlandırırlar. Beynəlxalq terminologiyada məhz sonuncu ad ("Ararat") işlədilir. Türklər Mustafa Kamal Atatürkün şərəfinə bu dağa **Kamal dağı** da deyirlər.

Tədqiqatlar sübut edir ki, Ağrıdağın qədim adı məhz **Ararat** olmuşdur. Qədim asuriyalıların **"Urartu"** adlandırdığı, əslində türkcə **Ararat** və ya **Ayrıart** adlanan ölkənin adı "Bibliya"da məhz **"Ararat ölkəsi"** kimi yazılmışdır. V yüzil arman tarixçisi M.Xorenlidə bu dağın adı **Aray-arat**dır. Tədqiqatçı Rəşid Təhməzoğlunun fikrincə, **"Ararat"** sözü iki hissədən (**"ara"+"art"**) ibarətdir və **"art"** sözünün qədim türklərdə **"dağ"** anlamını da

nəzərə alsaq, deməli, **"Ararat" (Araart) – "Aradağ"** deməkdir. Bu mülahizəyə dağın ilkin adının **"Ayrıart"** olması fikrini də əlavə etmək istərdik. Həmin ərazilərin bəzi mənbələrdə **Ayrarat vilayəti** adlanması da bu fikri təsdiqləyir. Hər iki yozum isə dağın coğrafi quruluşuna (bir-birindən aralanmış, ayrılmış iki dağ) tamamilə uyğundur. "Ağrıdağ" isə çox güman ki, həmin sözlərdən törəmədir. Belə ki, "ayrı" sözü "ara" sözünün sinonimi olmaqla (qədim variantında – "arqo", indiki dilimizdə "ayrılıq" sözləri də "aralı olmaq" məzmunu daşıyır) **"Ararat"** (yəni **"Ara-art"**) tədricən **"Ara-dağ" – "Ayrı-dağ" – "Eğri-dağ" ("Əyri-dağ") – "Ağrı-dağ"** və **"Arqu-dağ" – "Arqı-dağ" – "Aqrıdağ" – "Ağrı-dağ"** şəklinə düşmüşdür. Xatırladırıq ki, Vedibasar mahalı camaatının tələffüzündə **"ağrı"** sözü elə **"arğı", Ağrı dağının** adı isə **"Arğı dağı"** şəklində tələffüz olunur.

Maraqlıdır ki, Quranda da Nuh rəvayəti ilə bağlı xatırlanan bu dağın adı **"Cudi dağı"** kimi qeyd edilir. "Cudi" sözünün farsca anlamı isə "ayrı" mənasındadır. Başqa sözlə, "Cudi dağı" ifadəsi "Aradağ" ("Ayrıdağ"), sözünün hərfi tərcüməsindən başqa bir şey deyildir. Yeri gəlmişkən, Nizami Gəncəvi də "Xosrov və Şirin" poemasında Nuh tufanına işarə edərkən Ağrı dağlarını "Cudi dağları" kimi qeyd edir:

**Ondan əta umsa göyün tağları,**
**Səxasında batar Cudi dağları.**

XIV-XV yüzil Azərbaycan alimi Əbdürrəşid əl-Bakuvi də özünün məşhur "Abidələrin xülasəsi və qüdrətli hökmdarın möcüzələri" əsərində Ərminiyədən bəhs edərkən bu ərazidə **"Böyük Əyri dağı və Kiçik Əyri dağı"** anlamında olan **"əl-Xəris və əl-Xuvayris dağları var"** deyə göstərir.

Tədqiqatçı R.Təhməzoğlunun "Kitabi-Dədə Qorqud"da tez-tez rast gəldiyimiz **"Arqu beli"** ifadəsinin Ağrı dağı ilə bağlı olduğu fikrini də bütünlüklə dəstəkləyirik. Doğrudan da, "Dədə-Qorqud" boylarında işlədilən **"Arqu beli Alatağı avlıyuban, quşluyuban", "Arqu beli Alatağdan dünin aşdın", "Arqubeli Alatağı avlıyuban aşdığım yox"** deyimlərindəki "Arqubeli" ifadələrinin Ağrı dağlarını birlişdirən "Arğıbeli" olması tamamilə aydındır. "Arğıbeli"nin sonradan **Sərdarbulaq beli** adlanması isə buranın xanlıq dövründə İrəvan sərdarlarının yaylaq yeri olması ilə bağlıdır. Bizcə, həmin deyimlərdəki **"Aladağ"** toponimi isə məhz **Böyük Ağrı** dağına işarədir. Çünki Böyük Ağrı Dədə Qorqud məkanında yeganə dağdır ki, onun zirvəsindən il boyu qar əskik olmur. Yəni dağın başında həmişə ala-qaşqa mövcud olduğundan onun "Aladağ" adlanması da tamamilə mümkündür. Ümumiyyətlə, Vedibasar mahalınm Dədə Qorqud məkanına daxil olması heç bir şübhə doğurmur və bunu təsdiq edən faktları da istənilən qədər artırmaq mümkündür.

Ararat sözünün etimologiyası ilə bağlı mülahizələrə yekun vuraraq demək istərdik ki, dağın Aradağ//Ayrıdağ (Ara-art// Ayrı-art) adı kimi, birbaşa Ararat adı da ilkindir və elmi izaha möhtacdır. Əslində, bu iki ad ayrı-ayrı türk boyları tərəfindən dağa verilən adlardır. Bizcə, Ararat qədim türklərin Arar (Ərlər) boyunun adını daşıyır. Qədim Qarqarlardan qalan bu ad sonralar Urartu, Armaniya, Albaniya, Arran ölkə adlarında da yaşamış və hamısında **Ərlər, Alplar, İgidlər** anlamını vermişdir.

Bütün hallarda Ağrı dağı adı ilə bağlı mülahizələrimizə belə bir yekun vura bilərik ki, Ağrıdağ (Ararat) tarixən Türk dağı olmuş və bu gün də olaraq qalır. Heç şübhəsiz, bu dağın adlarından hər hansı biri (xüsusilə Ararat) türkcə olmasaydı, ermənilər onun adını dəyişib "Masis" qoymazdılar.

**Araz çayı** – Türkiyənin Bingöl silsiləsinin yamaclarından (təqribən 3 min m. yüksəklikdən) başlayıb, Azərbaycanda Sabirabad şəhəri yaxınlığında Kür çayına qovuşan bu çay suyunun çoxluğuna görə Cənubi Qafqazda ikinci böyük çaydır. Uzunluğu 1072 km, hövzəsinin sahəsi 102 min kv. km-dir. Türkiyə ərazisində tipik dağ çayı olan Araz sonra Ağrıdağ düzənliyindən, Sədərək, Şərur, Böyükdüz, Naxçıvan düzlərinin cənubundan axıb, Kür-Araz ovalığına çıxır. Yol boyu Araza Türkiyə, İran, Qərbi Azəraycan və Azərbaycan Respublikası ərazilərindən aşağıdakı qollar (çaylar) birləşir: Arpaçay, Zəngi, Gərni, Vedi, Arpa, Naxçıvan, Qarasu, Maku, Həkəri, Əlincə, Gilan, Ordubad, Mığrı, Oxçu, Qotur, Qırsu, Quruçay, Köndələnçay, Selin və b.

Tarix boyu qismətinə aralaq çayı olmaq, yəni ölkələri, xalqları, hətta doğmaları bir-birindən ayırmaq düşən Araz çayı haq-

qında qədim və orta yüzillər mənbələrində dönə-dönə məlumatlar verilmişdir. Məsələn, Strabon "Coğrafiya" kitabında: "Araks əvvəlcə şərqə Atropatenə qədər, sonra şimali-qərbə dönüb, öncə Azarı yanından, sonra Artaksat arman şəhəri yanından axır. Nəhayət, Araksena ovasından keçib Kaspi dənizinə tökülür", – deyə yazır.

Əl-İstəxri isə özünün "Kitab məsalik əl-məmalik" əsərində yazır: "Araz çayı (**o, hər yerdə "ər-Ras" işlədir – Ə.Ə**) xoş (dadlı), şirin suludur, o, Ərminiyədə başlayır və Bab Varsana (**Daşburun dəmiryol dayanacağı yaxınlığında xarabalıqları durur** – Ə.Ə) çatanacan axır, sonra Muğan tərəfdə Kür çayının məcrasına yetişir və birlikdə dənizə tökülürlər."

Başqa bir yerdə əl-İstəxri "ər-Ras (Araz) çayı sahilində Naxçıvan adlı yer"dən danışır. Yaqut əl-Həməvi Azərbaycan və Arran arasındakı çayın "ar-Ras" adlandığını qeyd edir. J.Şardən də Arazı "İrəvanı Midiyadan ayıran məşhur çay" kimi təqdim edir.

Bəs "Araz" sözü nə deməkdir, bu söz haradan yaranmışdır? Xatırladaq ki, bu toponimə ərəb, yunan, türk, rum, gürcü, erməni, rus və s. mənbələrdə **Araz, Aras, Arras, Araks, Arakes, Raxsi, Arezi, Ros, Rus, Oros, Eres, Araçes, Yeraxs** və s. şəkillərdə rast gəlmək mümkündür. Lakin bütün bunlar **"Araz"** sözünün müxtəlif dillərdəki fonetik variantlarından başqa bir şey deyil. Biz bu variantlardan ikisinə üstünlük veririk. **"Araz"** və **"Araks"**. Birincisi ("Araz") **"ar"** və **"az"** komponentlərindən ibarət olub, bu çay boyunca yerləşən **az//aks//oğuz** tayfalarının adını daşıyır. İkincisi (Araks) tədqiqatçı R.Təhməzoğlunun fikrincə, **"Ara"** və **"ax"** komponentlərindən ibarətdir ki, bu da **"Araçay"** anlamındadır. Dilimizin lüğət tərkibindəki **"arx"**, **"axmaq"**, **"axar"** və s. sözlər də "çay" mənası verən **"ax"** sözündəndir. Volqanın sağ qolu Oka, Anqaranın sol qolu Axa çay adlarının da həmin kökdən olduğu güman edilir.

Fakt budur ki, hər iki yozum "Araz" adının türkmənşəli olduğunu təsdiqləyir.



## QISA TARİXİ

Hər bir ərazinin, xalqın minillərin o üzündən yol alıb gələn ən qədim tarixi barədə ilkin bilgilər mifik təfəkkürdə, bu təfəkkürün daşlaşdığı mifik mətnlərdə, bu mətnlərin bədiiləşdirilmiş formaları olan rəvayət, əfsanə, nağıl, dastan və s.-də yer almış, günümüzə qədər gəlib çıxmışdır. Vedibasar mahalı da bu mənada istisna təşkil etmir.

Doğrudan da, əgər Nuhun gəmisi ilə bağlı məşhur rəvayətin Ağrı dağları ilə əlaqədar olduğunu və Vedibasar mahalının da bu dağlarla qabaq-qənşər, Böyük və Kiçik Ağrı dağları ilə Kiçik Qafqaz sıra dağları arasında böyük bir çökək–düzənlikdə (vadidə) yerləşdiyini nəzərə alsaq ("Nuh çıxan" anlamında olan Naxçıvan şəhəri də bu düzənliyin şimal-şərq tərəfindədir), onda Nuhun gəmisində xilas olan qədim insanların tufandan sonra dağdan enib həm də Vedibasar mahalı ərazisində məskunlaşdığı fikrini söyləyə bilərik. Dünya tufanı və Nuhun gəmisi ilə bağlı müxtəlif əfsanələrin məhz bu bölgədə geniş yayılması da, görünür, təsadüfi deyil. Firidun bəy Köçərlinin məşhur "Azərbaycan ədəbiyyatı" əsərində xatırlatdığı kimi, belə rəvayətlərdən birində də elə söhbət Nuhun və xilas etdiklərinin Ağrıdağ vadisində məskunlaşmalarından gedir: "Bəzi rəvayətə görə, Nuh Nəbinin gəmisi tufandan sonra Ağrı dağının qülləsində dayanıbdır və **"ya ərz übləi maəki" ("ey yer, öz suallarını ud" – Ə.Ə.)** hökmü sadir olduqdan sonra yer üzündən tezlikdə sular çəkilib, ətrafü-əknaf səbzəzar olubdur və Nuh peyğəmbər gəmidən çıxıb, qadiri-zülcəlala səcdə edib, şükrü sənaları yerinə yetirdikdən sonra haman yeri xoşlayıb, orada məskən salıbdır" (F.Köçərli. Göstərilən əsəri, II cild, B., 1981, səh.201).

Vedi yer adının daha qədim izlərinə də qədim dünya tarixi ilə bağlı rəvayətlərdə rast gəlirik. Tədqiqatçı Nailə Vəlixanlının "Ərəb xilafəti və Azərbaycan" kitabında bəhs etdiyi ərəb rəvayətlərindən birinə görə, dünyanın ilk sakini Adəm vəfat etdikdən sonra onu Hindistandakı Nauz adlı bir dağın mağarasında dəfn edirlər. Zaman keçir, yer üzündə insanlar artıb-çoxalmağa başlayırlar. Adəmin oğlu Qabilin tayfasından Vadd, Suva, Yaqus, Yauk və Nasr adlı beş mömin şəxs eyni ayda vəfat edir. Qa-

bilin nəslindən olan bir nəfər adamlara deyir ki, istəsəniz, mən sizin üçün onlara bənzəyən bütlər düzəldərəm, lakin onlara can vermək mənim gücümdə deyil. Həmin şəxs ölənlərin oxşarı olan, insan tarixində ilk beş bütü düzəldir. İnsanlar nəsil-nəsil o bütlərə sitayiş edirlər. Bütpərəstlik yayılır. Nəhayət, Allah 480 yaşlı Nuhu öz rəsulu kimi onların yanına göndərir. Nuh 120 il peyğəmbərlik edir, insanları Allaha inama çağırır. Lakin insanlar Nuha qulaq asmırlar. Onda Allahın əmri ilə Nuh gəmi düzəldir, bu vaxt Nuhun 600 yaşı olur. Dünya üzünü su alır. Bu, eradan 2500 il əvvəl baş verir. Nuh daha 350 il yaşayır. Sular Nauz dağındakı bütləri də aşırır, onları ölkədən-ölkəyə səpələyir, nəhayət, Cuda (Ağrı dağı) sahilinə gətirir. Tufan çəkildikdən sonra insanlar dağdan enir, boş düzənliklərdə məskunlaşırlar. Bir gün insanlar həmin bütlərdən birini torpaqdan tapıb çıxarırlar, məlum olur ki, bu, beş müqəddəsdən Vaddın bütüdür və **Vadd** adı ilə ona sitayiş etməyə başlayırlar.

Göründüyü kimi, Vadd adlı həmin bütün indiki Vedibasar ərazisindən tapılması artıq göz önündədir və "Vadd" adının "Vedi" adına oxşarlığı təsadüfdən çox-çox uzaq təsir bağışlayır. Üstəlik, "Vedi" adının sonralar ərazinin coğrafi mövqeyinə uyğun olaraq ərəblər tərəfindən "vadi" şəklində deformasiyası ehtimalını ortaya çıxarır.

Nuhun tufanı ilə bağlı məşhur əfsanənin ermənisayağı interpretasiyasında isə Vedi adının qəribə yozumu vardır. Firidun bəy Köçərli bu faktı belə qələmə almışdır: "Erməni müvərrixləri dəxi bu rəyə – yəni Nuh gəmisinin Ağrı dağı üzərində dayanmasına müvafiqət edib deyirlər ki, Nuh gəmidən çıxanda əvvəlcə İrəvan şəhərinin yeri onun gözünə sataşdı və o öz dilində kəsrəti-fərəhdən səda etdi: – **Vidi,** yəni görünür... Buna binaən ermənilər öz millətini Nuha mənsub qılıb, onu uluq babaları hesab edirlər."

Əlbəttə, ermənilərin nə düşündükləri onların özünə qalsın, amma Nuhun Ağrıdağdan düşüb gördüyü əraziyə **Vidi** deməsi bu ərazinin oxşar adı (**Vadd, Vidi, Vedi** və s.) qədimdən daşıması fikrini doğurur.

Vedi toponiminin izahı ilə bağlı digər mülahizə qədim **uti//eti** tayfa adının əvvəlinə türk dillərinin qanunauyğunluqlarına xas olaraq **v** səsinin artırılmasıdır. Urartu mənbələrində Göyçə gölünün cənub (o cümlədən Vedibasar) torpaqlarının ümumi adının **Etiuni** olması da yuxarıdakı mülahizəni təsdiqləyən çox ciddi dəlildir. Belə ki, **-uni** Urartu mənbələrində yer adlarına artırılan şəkilçidir, məsələn, Göyçə mahalının qədim **Gölək** adı mənbələrdə **Gelakuni, Gögər** adı **Gögərkuni**, İrəvandakı qədim **Erbi** (**Ərlər boyu**) qalası **Erbiuni//Erebuni** şəklində yazılmışdır və s.

Vedibasar mahalının Qafqazın qədim yaşayış məskənlərindən olmasını şərtləndirən əlamətlərdən biri də onun coğrafi mövqeyi ilə bağlıdır. Başqa sözlə, qədim karvan yollarının üstündə yerləşməsi bu ərazinin erkən məskunlaşmasına səbəb olmuşdur. Bunu bölgədəki daş, qaya üzərindəki təsvirlər, qazıntılar zamanı üzə çıxan qədim qəbiristanlıqlar, müxtəlif daş heyvan fiqurları, mis, dəmir üstündəki oymalar, naxışlar, qala, kənd xarabalıqları və s. də təsdiq edir.

Yazılı mənbələr də Vedibasar mahalı ərazisinin qədim tarixi barədə maraqlı bilgilər verir. Əvvəla, onu deyək ki, e. ə. 1200-cü ilə aid Asuriya mixi yazılarında adı çəkilən türkdilli Qarqar// Xarxar ölkəsinə həm də indiki Vedibasar mahalı daxil idi. Vedibasar ərazisinə dair növbəti bilgilərdən biri də er. əv. 782-ci ildə Urartu çarı **I Argiştinin (Arquztunun – Ə.Ə.)** indiki Ermənistan ərazisinin böyük bir hissəsini işğal etməsi ilə bağlıdır. Er. əv. 870-860-cı illərdə türkdilli hurrilər (subarlar) tərəfindən Van gölü ətrafında yaradılan Urartu türk dövləti məhz I Argiştinin hakimiyyəti dövründə sərhədlərini mənbələrdə **Aza** adlanan indiki Ermənistan ərazisinə doğru genişləndirmiş və bu qüdrətli hökmdar Ağrıdağ vadisində **Qanlıtəpə** (ermənicə **Arin-berd**) adlanan təpədə İrpuni (Erebuni) və Argiştihinili (Sərdarabad rayonu ərazisində) qalalarını tikdirmişdi. I Argiştinin oğlu **II Sardurun (Asarturun – Ə.Ə.)** (er. əv. 760-730) Ağrıdağ vadisinə və Göyçə gölü ətrafı ərazilərə hücumları daha davamlı şəkil almışdır. Ümumiyyətlə, urartulular Ağrıdağ vadisinin inkişafı baxımından böyük işlər görmüş, burada qala, məbəd və saraylar ucaltmış, bağçılıq və üzümçülüyü xeyli genişləndirmişdilər. Urartuluların işğal etdikləri Ağrıdağ vadisini **Eriaxi** və **İşteluani** adlandırdıqları barədə də Urartu mənbələrində mə-

lumatlar var. Professor F.Cəlilovun fikrincə, Urartu mənbələrində İrəvan çuxurunun **Kuarli çuxuru** adlanması, **Kuar** sözünün isə hunlarda **Tanrı** adı bildirməsi bu yerlərin qədim türk yurdları olmasını bir daha təsdiqləyir.

Er.əv. 715-ci ildə qədim türk tayfaları **qamərlər** (kimmerlər) Urartu çarı **I Rusanın** (**Arusun – Ə.Ə.**) ordusunu darmadağın edərək, indiki Ermənistan ərazisində məskunlaşırlar.

Az sonra – er. əv. VII yüzilin əvvəllərində şimaldan gələn yeni türk tayfaları – **saklar** qamərləri Qərbi Azərbaycan ərazisindən sıxışdırıb çıxararaq burada özlərinin dövlətini – qüdrətli **Sak çarlığını** yaradırlar. Tədqiqatçı Q.Qeybullayev "Bibliya"da **Aşkenaz** adlanan türk mənşəli bu **Sak (Skif) padşahlığının** indiki Ermənistan ərazisində ilk müstəqil dövlət qurumu olduğunu qeyd edir. Bu dövlətin əsasını qoyan **Paruyr** adlı hökmdar isə qədim erməni mənbələrində **"Skaordi"** (**"Sak oğlu"**) adlandırılır. Əslində isə, bu dövlətin adı **İşquz**, yəni **İç Oğuz** idi və maraqlıdır ki, bəzi mənbələr **işquzları** elə **iskidlər (skiflər)** də adlandırır.

Vedibasar da daxil olmaqla Ağrıdağ vadisinin **Arman//Ərmən** adlanmasının isə uzun və həm də tam aydınlaşdırılmamış bir tarixi var. Armaniya ölkə adının tarix səhnəsinə gəlişi də məhz bu dövrə – Urartu dövlətinin süqutu, onun ərazilərinə Qamər-Sak boylarının qayıdışı dövrünə təsadüf edir. Er. əv. 590-cı ildə Urartu türk dövləti digər türk dövləti – Maday (Midiya) tərəfindən işğal ediləndə artıq Urartunun böyük bir hissəsində, xüsusilə şimal torpaqlarında hegemonluq Qamər-Sak boylarının əlində idi və bu vaxt həmin ərazilərdə Arman dövlətinin yaranmasında həmin boyların həlledici rolu olmuşdur. Lakin Armaniyanın təşkilində Qamər-Sak boyları çoxluq təşkil etsələr də, üstünlük yerli – Urartu (Bian eli) türk, xüsusilə **Ərlər//Ərər** (**Qarqar//Gərgər**) boylarında qalmaqda idi. Ölkənin Armaniya adına gəldikdə isə, bu da **Ərlər** anlamındakı **Urartu** (**Ararat//Ərərat**) adının həmin anlamda yeni ifadə formasından başqa bir şey deyildi.

Nəhayət, Makedoniyalı İsgəndərin Şərqə yürüşü ilə bağlı er. əv. IV yüzilin 2-ci yarısında Sak padşahlığı süqut edir və bu nəhəng Türk dövlətinin şimalı ilə cənubu arısında kəskin ayrılma baş verir, şimalda və cənubda bir sıra yeni Türk dövlətləri (Atropatena, Albaniya, Sisakan, Sakasena və s.) yaranır. Ağrıdağ



vadisinin daxil olduğu indiki Ermənistan ərazisinin bir hissəsində isə er. əv. 321-ci ildə türksoylu **Oruzlar (Orontlar)** sülaləsi (onlar er. əv. 520-ci ildən İran Əhəmənlər dövlətinin Armaniyada canişinləri idilər) hakimiyyət başına gəlir.

Er. əv. 321-ci ildə bu ərazilər yunan mənşəli Selevkilər dövlətinin tərkibinə qatılır. Er. əv. 202-ci ildə Selevkilər dövlətinin hökmdarı III Antiox Oruzları Armaniyada hakimiyyətdən götürüb, ərazini ölkənin bir canişinliyinə çevirir, əslən midiyalı, yəni türksoylu **Artaşı** (yunanca **"Artakses"**, ermənicə **"Artaşes"**) isə ora canişin təyin edir. Hakimiyyətin Oruzlardan alınmasında Alban türk ordusu Artaşa yardımçı olur.

Selevkilər dövlətinin süqutu ilə er. əv. 183-cü ildə Artaş Armaniyanı müstəqil dövlət elan edir. Er. əv. 165-ci ildə isə ölkənin hüdudlarını indiki Ermənistan boyu genişləndirir, Alban çarının qızı ilə evlənir, Vedibasar ərazisində, Araz çayının sahilində **Artaşad (Artaşat)** şəhərini saldırır, Arman ölkəsinin paytaxtını bura köçürür. Elə o vaxtdan da Böyük Ərməniyə dövlətinin əsası qoyulur.

Artaşdan sonra Armanda hakimiyyət başına onun oğlu **Artabas** (ermənicə **Artavazd**), sonra Artabasın oğlu **II Tiqaran//Tiqərən** (ermənicə **Tiqran**) gəlir. Beləcə, Artaşlar sülaləsi eramızın I yüzilinin 51-ci ilinə qədər Armanda hakimiyyətdə olurlar. Xüsusilə II Tiqaran Armaniyanın qüdrətini daha da artırır. Bu işdə o, qonşu soydaş dövlətlərin gücünə arxalanır. Məsələn, Artaşad şəhəri yaxınlığında Roma qüvvələrini darmadağın edərkən II Tiqaranın əsas köməyi Atropatena qoşunları olur. Roma senatı Lukullu II Tiqaranın üstünə göndərəndə isə nəinki atropatenalılar, həm də madaylar, albanlar və Arazsahili digər türk tayfaları Arman sərkərdəsinin köməyinə çatırlar.

Plutarxın "romalılar Midiyanı Armaniyadan ayıran Araz çayına çatdılar" fikri təsdiq edir ki, er. əv. 1-ci yüzilin sonlarında Armaniya artıq Arazın sol sahilinə – indiki Qərbi Azərbaycan ərazisinə sığınmışdı.

Eramızın 51-ci ilində Armaniyada hakimiyyət başına təzədən türk saklar – Parfiya Arsaklar sülaləsindən hökmdar Vologezin (onun əsl adı Valarsak//Valarşak idi) qardaşı, Arman Arsaklar sülaləsinin banisi **I Turadat** (erməni mənbələrində **"Tiridad// Trdad"**) gəlir. (**Əslində bu böyük hökmdar-sərkərdənin əsl**

rincisi, Sasanilərin Arman üzərinə əsas hücumları bu istiqamətdə olduğundan paytaxtın bura köçürülməsi bölgənin müdafiə qabiliyyətini xeyli gücləndirəcək idi. İkincisi, bu ərazi Armanda xristianlığın beşiyi olduğundan (Müqəddəs Qriqori məhz burada – qədim Artaşadda zühur etmişdi) onun müdafiəsində kilsə də mühüm rol oynayacaqdı. Onda sual ortaya çıxır: əgər bu bölgənin Armaniya üçün strateji əhəmiyyəti belə böyük idisə, niyə Armaniyanın bu bölgəsindəki qədim paytaxtı Artaşad yenidən paytaxt seçilmədi? Məsələ ondadır ki, İran hökmdarı II Şapurun aramsız hücumları qədim Artaşadı artıq viran etmişdi və yeni şəhər salınması qaçılmaz idi, lakin yuxarıdakı səbəblər üzündən bu yer qədim Artaşada mümkün dərəcədə yaxında salınmalı idi. Dvin bütün bu şərtlərə cavab verirdi.

Sasanilərlə Armanlar arasında olan döyüşlərdən birində – 364-cü ildə Arman türk sərkərdəsi Vasak Ağrıdağ düzənliyində II Şapurun ordusunu ağır məğlubiyyətə uğradır. 482-ci ildə təkrarlanan belə hücumlardan birində yenə də **Vasak** adlanan başqa bir Arman sərkərdəsi Artaz (Vedibasar) mahalında fars qoşunlarını darmadağın edir.

Fars xanədanına müqaviməti gücləndirmək üçün 527-ci ildə Arman kilsəsinin təşəbbüsü ilə Albaniya, İberiya və Armaniya kilsələrinin Dvin şəhərində yığıncağı keçirilir və onların kilsə birliyi elan edilir. Əslində Sasanilərə qarşı bu müqavimət həm də dini mahiyyət kəsb edirdi. Sasanilərin dövlət dini zərdüştilik idi və bu mübarizə həm də iki dini ideologiyanın mubarizəsi idi.

Lakin tədricən artıq yerli Arman hökmdarlarını İran Sasanilər dövlətinin mərzbanları əvəz etməyə başlayırlar. Amma bu, bölgədə davamlı sabitliyi heç də tam təmin edə bilmir. Bir tərəfdən yerli Arman sərkərdələri (eramızın əvvəllərində Çin Türküstanından Armana köçüb gəlmiş türksoylu cinli, yəni çinli tayfası içərisindən çıxan və **mamiqun//mamihun** adlanan bu sərkərdələri erməni mənbələri, adətən, **mamikon** adlandırır) farssoylu Sasanilər xanədanına boyun əymək istəmir, digər tərəfdən qonşu Albaniya türk dövləti də yadsoylu Sasanilərin Armanda türk hakimiyyətini devirməsini həzm edə bilmirdi. Bütün bunların nəticəsi olaraq Arman sərkərdəsi **Vardan Mamiqun** 571-ci ildə albanların hərbi yardımı ilə Dvin şəhərinə daxil olub, hakimiyyətə gəlir.



Armaniya və Albaniya üçün belə həlledici vaxtda Sasanilər Sünik hakimi Vaqayı ələ alaraq onun armanlara qarşı üsyan qaldırmasına nail olurlar. Armaniyadan ayrıldığını elan edən Vaqay İran şahı I Xosrovdan onların ərazisinin İranın hakimiyyəti altında olan Atropatenanın tərkibinə qatılmasına razılıq verməsini və Sünikin arxivinin Dvin şəhərindən Paytakaran (Beyləqan) şəhərinə köçürülməsinə kömək etməsini xahiş edir. Bu məsələlərin həllində I Xosrov onlara yardımçı olur.

Bu ayrılıq ona gətirir ki, 607-ci ildə Alban, İberiya və Arman kilsələrinin rəhbərləri yenidən Dvində görüşür və 527-ci ildə elan etdikləri kilsə birliyini ləğv edirlər. Meydanda tək qalan Arman sərkərdələri İran səltənətinə qarşı mübarizələrini bundan sonra da davam etdirir, onları tanımaq istəmirlər.

Həmin hadisələri bir qədər də dəqiqləşdirmək, farslara qarşı döyüşən Arman sərkərdələrinin milli mənsubiyyətinə aydınlıq gətirmək üçün məşhur ərəb tarixçisi əl-Yəqubiyə müraciət etmək maraqlı olardı. O, yazır: "Xəzərlər bütün Armaniya torpaqlarını tutanlara deyilir. Onlara xaqan adlanan padşah başçılıq edir. Onun Arran, Curzan, Basfurcan və Sisəcan üzərində Yəzid Balaş adlı cinişini vardı. Bu əyalətlər dördüncü Armaniya adlanır ki, vaxtilə İran şahı Qubad tərəfindən işğal edilmiş və Bab əl-Lanadək min fərsəx uzanıb üç yüz altmış şəhəri olan bu ərazi onun oğlu Ənuşirəvana **(Sasani şahı I Xosrova – Ə.Ə)** keçmişdir".

Ziya Bünyadovun təsdiq etdiyi kimi, sonra xəzərlər vaxtilə iranlıların onlardan (xəzərlərdən) aldıqları torpaqları yenidən iranlılardan tutub aldılar və bu yerlər uzun müddət onların əlində qaldı. O vaxta qədər ki, 610-cu ildə Bizans taxtına çıxan İrakli 623-cü ildə bu yerlərə hucum edib, Dvin şəhərini, sonra ətraf ölkələri işğal etdi. Lakin Xəzərlər ölkəsinin Böyük Xaqanının qəzəbindən qorxan İrakli özünün bacarıqlı əyanlarından birini Xaqanın sarayına göndərib, ona çoxlu var-dövlət və İrana qarşı müttəfiqlik təklif edir. İraklinin bu təklifini qəbul edən Böyük Xaqan qardaşı Cebu Xaqanı və onun oğlu Şadı cənuba göndərir. Cebu Xaqanla İraklinin Tiflis kənarında görüşü olur.

Məşhur alban tarixçisi Musa Kağankataylının "Albaniya tarixi" kitabından öyrənirik ki, 626-cı ilin yayında **Şad** Albaniyanın

bütün vilayətlərini və Atropatenanın bir hissəsini yağmaladıqdan, çoxlu xristian və bütpərəstləri qılıncdan keçirdikdən sonra "düşərgəsini Araz çayının sahilində salaraq" İran hökmdarı Xosrov Pərvizlə danışıqlara başlayır. Tarixi araşdırmalarımız sübut edir ki, həmin yerə məhz Vedibasar mahalı ərazisində, Araz çayının sahilində yerləşən, adında Şadın adını yaşadan və "Şad tayfası" anlamını verən **Şadlı (Şidli)** kəndi uyğun gəlir. Həmin hadisələr haqqında "Abbasqulu bəy Şadlinski" kitabımızda ətraflı bəhs etdiyimizdən əlavə təfərrüata varmırıq.

"Albaniya tarixi"ndən onu da öyrənirik ki, həmin danışıqlar zamanı Xəzər sərkərdəsi ilə Xosrov şah arasında anlaşma olduğu üçün Şad İranla müharibəyə girməyib geri – öz ölkəsinə qayıdır. Yeri gəlmişkən, bu anlaşmada Xosrov şahın Armaniya və Albaniya hökmdarları ilə qohumluğu mühüm rol oynayır. Belə ki, Arman türk şahzadəsi Şirinlə evlənmiş olan Xosrov Pərviz Şada xatırladır ki, "sizin sülaləniz mənim cəddlərim və mənim tərəfimdən əsrlər boyu həmişə hörmətlə, sevimli qardaşın sülaləsi kimi qarşılanıb və biz oğul-qızlarımız vasitəsilə bir-birimizə qohum olmuşuq. İndi sənə heç yaraşmaz ki, sən mənim azmış Bizans qulumun sözlərinə məhəl qoyasan".

Bu fakt xəzər Şadla arman Şirinin eyni soydan, yəni türk olduqlarını bir daha sübut edir.

Şad bir də Xosrov şahın ölümündən sonra – 629-cu ilin yazında həmin yerlərə qoşun çəkir. Atası Cebu Xaqanla birlikdə öncə İberiyaya yürüş edən Şad iki aylıq mühasirədən sonra güclü hücumla Tiflis şəhərini tutur, əldə etdikləri külli miqdarda qənimətlə bir yerdə atasını geri – Xəzər Xaqanlığına göndərib, onun məsləhəti ilə özü Albaniyanın içərilərinə doğru irəliləyir. Albaniyanı, Armaniyanı fəth edir. Az sonra Xəzər Xaqanlığında hakimiyyət dəyişikliyi və atasının ölkəni tərk etmək məcburiyyətində qalması xəbərini alır. Bundan sonra bir daha geri qayıtmayan Şad mənbələrdə "ucu-bucağı görünməyən hun qoşunu" kimi təsvir olunan öz ordusu ilə Cənubi Qafqazda qalaraq, **Şadlılar** adlandırılan tərəfdarları ilə bölgənin ictimai-siyasi həyatında fəal iştirak edir.

Şadlılar tayfasının adı ilə bu gün Azərbaycanda bir sıra yaşayış məntəqələri vardır: Goranboyda Şatar şəhər xarabalıqları və Şadılı kəndi, Bərdədə Şatarlı kəndi, Naxçıvanda Şada kəndi,



Şada çayı, Cənubi Azərbaycanda Şadiabad kəndi və s.*

Vedibasar mahalı ərazisində Şadlı (Şidli) kəndinin, Şadlı tayfasının mövcudluğu sübut edir ki, Şadlıların bir hissəsi də məhz burada – Atropatena (Azərbaycan), Albaniya (Arran) və Armaniya (Ərməniyə) sərhədində yurd salıb yaşamışlar.

Cənubi Qafqazın ərəblər tərəfindən işğalı ilə əlaqədar yazılı mənbələrdə Vedibasar ərazisinin tarixinə dair məlumatlara daha sıx-sıx rast gəlirik. Armaniyanın (bölgənin ərəb işğalından sonra bu ad ərəb tələffüzü ilə Ərməniyə adlanmağa başlayır), eyni zamanda onun Ararat (Ayrarat) vilayətinin paytaxtı olan Dvin (ərəb mənbələrində "Dəbil") şəhərinin Vedibasar ərazisində yerləşməsi və bu şəhərin bütün regionda mühüm strateji mövqeyə malik olması, xüsusilə Qafqaza ayaq basan gündən ərəblərin oranı özlərinə inzibati mərkəz seçməsi bölgəni yenidən bir çox tarixi hadisələrin fəal iştirakçısına çevirir.

Mənbələrdən öyrənirik ki, 640-cı ildə Armaniyanı işğal edən ərəblər onun paytaxtı Dvini yalnız 644-cü ildə (bəzi mənbələrdə 642-ci ildə) fəth edə bilirlər. Ərəb sərkərdəsi Həbib ibn Məsləmə əvvəl Dvin yaxınlığında Araz sahilində Artaşad (ərəb tələffüzündə "Ərdəşət") kəndini tutur, sonra isə Dvin şəhərini mühasirəyə alır və fəth edir. 12 min nəfər şəhər sakini qılıncdan keçirilir, 35 min nəfər əsir aparılır.

Həbib ibn Məsləmə Dvin əhalisi ilə aşağıdakı müqaviləni bağlayır: "...Mərhəmətli və rəhmdil Allahın xatirinə. Bu fərman Həbib ibn Məsləmə tərəfindən Dəbil şəhərinin xristianlarına, onun məcus (atəşpərəst) və yəhudilərinə, onun şahid və qayiblərinə verilir ki, mən sizə, sizin şəxsiyyətiniz və mülkiyyətinizin, sizin kilsələrin və məbədlərin, sizin şəhərin divarının toxunulmazlığı üçün zəmanət verirəm. Sizə aman verilir və biz sizinlə olan müqaviləni o vaxtadək yerinə yetirməyi öhdəyə götürürük ki, siz də ona əməl edəcək, cizyə və xərac ödəyəcəksiniz; bu deyilənlər üçün Allahın şahidliyi ən etibarlı şahidlikdir. Fərman Həbib ibn Məsləmənin möhürü ilə təsdiq edildi".

---

* Qeyd. Professor Firidun Cəlilovun son araşdırmalarına görə, ən qədim türk boylarından biri **Şadlılar** adlanmış, şad, şadlı sözləri isə titul, boyadı kimi Şumer mətnlərində, Asur və Urartu mixi yazılarında, Orxon-Yenisey kitabələrində də müşahidə olunmaqdadır.

Ərəb canişinliyinin qərargahını Dvin (Dəbil) şəhərində yerləşdirən ərəblər sonra yaxınlıqdakı Nəşavə (Naxçıvan) şəhərini, daha sonra isə Albaniya və Gürcüstanı fəth edirlər. Ərməniyə (Armaniya) toponimini ərazi-inzibati ad kimi qəbul etmiş ərəblər bütün İran və Cənubi Qafqaz torpaqlarını bu ölkənin (Armaniyanın) paytaxtı olan Dəbildən idarə etdiklərindən həmin torpaqları da ayrı-ayrı vahidlər şəklində (I-IV Ərməniyələr) vahid Ərməniyə inzibati bölgüsünə daxil edirlər. Bu bölgədə Naxçıvanla bir yerdə Dəbil (Vedibasar) Əməvilər dövründə 4-cü, Abbasilər dövründə isə 3-cü Ərməniyənin tərkibinə daxil olur.

Yeri gəlmişkən, xatırladaq ki, işğal etdikləri İran və Cənub Qafqaz torpaqlarına tətbiq etdikləri bu ərazi-inzibati bölgü, bəzi tarixçilərin iddia elədikləri kimi, heç də ərəblərin öz kəşfi deyildi. İran hələ ərəblərdən əvvəl də 4 inzibati vahiddən ibirət idi. Məsələn, İsfahan, Qum, Cibəl, Azərbaycan və Armaniya bir inzibati vahid idi və onlar ayrıca rəis tərəfindən idarə olunurdu. Ət-Təbərinin məlumatına görə, imperiyanın 4 əyalətə bölünməsi hələ Sasani hökmdarı I Xosrovun hakimiyyət başına gəlişindən (531-ci il) əvvəl mövcud idi. Belə ki, I Xosrov taxta çıxandan sonra dərhal "İranın dörd ölkəsini idarə edən dörd Sepəhbudə məktub göndərdi". Məktublardan biri "Azərbaycan, Ermənistan (**Armaniya** – **Ə.Ə**) və qonşu ölkələrin Sepəhbudu Zədüyyə ibn ən-Nahiracana göndərilmişdi". Maraqlıdır ki, bu ölkənin baş rəisini – Sepəhbudunu Təbəri "Azərbaycan və qonşu torpaqlar, yəni Xəzərlər Sepəhbudu" deyə təqdim edir. Göründüyü kimi, Təbəri də Armaniyanı Xəzərlər ölkəsi hesab etmişdir.

İranın tərkibindəki bu 4 əyalətin hər biri də kiçik inzibati vahidlərə bölünürdü. Məsələn, şimal əyalətinə daxil olan 13 vilayət sırasında Azərbaycan, İberiya, Balasakan, Sisakan, Arran və s. ilə yanaşı, Arman da var idi.

Beləliklə, deməli, ərəblər ərazinin mövcud inzibati bölgüsünü saxlamış, müəyyən dəyişikliklərlə yenidən tətbiq etmişdilər.

Lakin yerli əhali ərəb işğalçılarının zülmünə asanlıqla boyun əymək istəmir. Şimal xəzərləri cənubdakı qardaşlarının köməyinə gələrək 685-ci ildə Armaniya, İberiya və Albaniyanı ələ keçirirlər. Bundan qəzəblənən ərəblər – xəlifə Abdulməlikin qardaşı Məhəmməd ibn Mərvan Ərməniyədən və Albaniyadan



keçərək Çola üzərinə yeriyir. Bundan istifadə edən ərmənlər (armanlar) 697-698-ci illərdə üsyan qaldırıb, bizansların köməkliyi ilə ərəbləri Dəbil şəhərində mühasirəyə alır, onların 62 min nəfərini qılıncdan keçirirlər. Çox təəssüf ki, tarixçilərimiz və xüsusilə tarixi mənbələri dilimizə tərcümə edənlər həmişə olduğu kimi, bu dəfə də Dəbildə üsyan edən ərmənləri "ermənilər" (haylar) deyə təqdim edirlər. Bəs, əslində Dəbildə üsyan qaldırıb, ərəblərə divan tutan yerli əhali kimlər idilər? Bu suala Dəbildəki həmin hadisədən bəhs edən ərəb tarixçisi ibn Əsam əl-Kufi aydın cavab verir: "Məhəmməd ibn Mərvan Übeydallah ibn Abi Şeyx əl-Əviyy adlı silahdaşını çağırıb ona on min Şam döyüşçülərindən tabe etdirib əmr etdi ki, o, Ərməniyəyə basqın edib, orada olan xəzərlərlə və allahsızların başqa nümayəndələri ilə (**deməli, söhbət Xəzər türklərindən və digər allahsızlardan, yəni qeyri-müsəlman və qeyri-xristian əhalidən gedir; onlar isə, şübhəsiz ki, bölgədə yaşayan müxtəlif türk tayfaları idilər – Ə.Ə.**) hərbi əməliyyata girişsin. Übeydallah ibn Abi Şeyx də öz qoşunları ilə Ərməniyə ölkəsinə daxil oldu. Bundan xəbərdar olan ərmənlər müsəlmanların (**ərəblərin – Ə.Ə.**) əleyhinə yüz mindən artıq olan nəhəng bir qoşun çıxardılar. Onlar müsəlmanların (**ərəblərin – Ə.Ə.**) hamısını qırıb, heç birisini sağ qoymadılar və sonra da onların mallarına və silahlarına sahib oldular. Onlar müsəlmanların (**ərəblərin – Ə.Ə.**) bütün mallarını əllərinə keçirdilər".

Bundan qəzəblənən Məhəmməd ibn Mərvan Çoladan geri dönərək üç il "su ilə əhatə olunmuş adada yerləşən Sevan qalasını" mühasirədə saxlayaraq, nəhayət, onu işğal edir. Musa Kağankataylının "Albaniya tarixi" kitabında deyildiyi kimi, "orada kimə rast gəlirsə, hamısını qılıncdan keçirir". Oradan Ərməniyəyə keçərək Bizans və Ərmən qoşunlarını məğlub edir. Əsir edə bilmədiyi Ərmən başçılarını isə yalan andlarla, vəd və xəyanətlə aldadır, onları Naxçıvana toplayaraq, 800 nəfəri kilsəyə yığıb, qapısını bağlatdırıb, hamısını diri-diri yandırtdırır.

913-cü ildə Ərməniyəni fəth edən **Sacilər** sülaləsinin görkəmli nümayəndəsi **Yusif ibn Əbu-s-Sac** az vaxtda "qərbdə Ani və Dvin şəhərlərindən şərqdə Xəzər dənizinədək, cənubda Zəncandan şimalda Dərbənd şəhərinədək" bütün Azərbaycan

torpaqlarını tarixdə ilk dəfə olaraq vahid və müstəqil bir dövlətdə birləşdirir. O, bu birliyə dəfələrlə əngəl törədən I Sumbatı 914-cü ildə Dvində dar ağacından asır.

942-ci ildə Sacilər dövləti süqut edir və həmin dövlətin sərhədləri daxilindəki torpaqlar **Salarilər** sülaləsinin (942-981) hakimiyyəti altına keçir. Lakin tezliklə o vaxt Salarilər dövlətinin ərazisinə daxil olan indiki Vedibasar torpağında, daha doğrusu, Dvində yeni dövlət meydana gəlir. Belə ki, Salari hakimi Mərzubanın əsirlikdə olması (948-953) nəticəsində dövlətin zəifləməsindən istifadə edən başqa yerli feodallar kimi, **Məhəmməd ibn Şəddad** da müstəqillik fikrinə düşür və əvvəllər Müsafiri əmirlərinin hakimiyyəti altında olan Dvin şəhərini 951-ci ildə ələ keçirərək onu özünün paytaxtı elan edir. Bununla da X-XII yüzillərdə Cənubi Qafqazda ən güclü feodal dövlətlərindən biri olan **Şəddadilər** dövlətinin əsası qoyulur. 971-ci ildə Gəncəni ələ keçirən Şəddadilər burada öz dövlətlərinin Dvin əmirliyindən sonra ikinci – Gəncə əmirliyini yaradırlar. Az vaxtda Arran, Sünik, Naxçıvan bu dövlətin tərkibinə qatılır.

Şəddadilərin Ağrıdağ vadisinin şimal qurtaracağında yerləşən Ani çarlığına hücum edib, onun bir hissəsini tutmasından qəzəblənən Bizans imperatoru 1045-ci ildə Dvin üzərinə böyük qoşun çəksə də, Şəddadilər Dvin yaxınlığında onları darmadağın edirlər. 1072-ci ildə Şəddadilər dövlətinin üçüncü əmirliyi olan Ani əmirliyinin bünövrəsi qoyulur.

Şəddadilər kim idi və Məhəmməd ibn Şəddad hansı tayfanın, xalqın övladı idi? Bu suallara cavab vermək X-XII yüzillərdə Vedibasar ərazisində yaşayan tayfaların etnik mənsubiyyətini müəyyənləşdirmək baxımından da önəmlidir. Lakin təəssüf ki, Azərbaycan tarixşünaslığında məsələyə heç vaxt obyektiv yanaşılmamışdır. İlk dəfə olaraq "Abbasqulu bəy Şadlinski" kitabında məsələyə tam aydınlıq gətirdiyimizdən burada təfərrüata varmadan təkcə onu deməklə kifayətlənirik ki, bəli, "Şəddad oğlu" anlamında olan "ibn Şəddad" kəlməsi ilk növbədə Məhəmmədin tayfa (həm də sahib olduğu kənd) mənsubiyyətini bildirir. Bunun belə olduğunu təsdiq edən bir cəhət də odur ki, Məhəmməd ibn Şəddad özü, mənbələrdə göstərildiyi kimi, "Dvin şəhəri ətrafından" olmuşdur. Həmin qədim Dvin şəhəri



ki, xarabalıqları Vedibasar mahalı ərazisində, Şadlı (Şidli, yaxud xalq arasında deyildiyi kimi, Şiddi) kəndi ilə Şıxlar kəndi arasında, Araz çayı sahilində son illərə qədər də qalmaqda idi. Belə olan surətdə aydın deyilmi ki, "Dvin ətrafından" olan Məhəmməd ibn Şəddad həmin Şadlı (Şidli) kəndindən və kəndin Şadlı tayfası içərisindən çıxmışdır? Maraqlıdır ki, bu fakt 626-cı ildə Cənubi Qafqaza yürüş edən Xəzər sərkərdəsi Şadın Araz sahilində saldığı düşərgəyə də tam uyğun gəlir.

Digər tərəfdən **"Şadlı"** sözü ərəbcə **"Şədd"** kimi tələffüz olunduğundan, **"at"** isə ərəbcədə başqa dillərdən alınma sözlərə cəm şəkilçisi kimi artırıldığından, əslində, **"Şəddad"** özü də **"Şadlılar"** sözündən başqa bir şey deyildir.

Beləliklə, Şəddadilərin Şadlılar olduğu şəksizdir və Vedibasar ərazisində əsası qoyulmuş bu dövlətin Xəzər-türk dövləti olduğuna zərrə qədər də şübhə yeri qalmır.

Üstəlik, Şəddadilərin Vedibasar ərazisindəki izlərinə təkcə bölgənin toponimik yaddaşında (Şadlı, Şadılı və s.) rast gəlmirik, bu döyüşkən, mübariz, igid, bir qədər də tərs, inadkar, zalım sülalə ilə bağlı yaddaşlarda da bəzi tutarlı məqamlar günümüzə qədər gəlib çıxmışdır. Məsələn, bu gün də Vedibasar camaatı sərt, qəddar adama **"lap şəddaddır"** (yəni şəddadidir) deyirlər.

Şəddadilər dövlətinin süqutundan sonra Vedibasar ərazisi **Səlcuqlar imperiyasının** tərkibində mövcud olur. 1136-cı ildə tarix səhnəsinə çıxan Azərbaycan **Atabəylər dövləti** həm də Dvin şəhərini əhatə edirdi. Xüsusilə dövlətin paytaxtının Naxçıvan olması yaxınlıqdakı Dvin şəhərinin çiçəklənməsinə təkan verir. Lakin Atabəylər dövləti ilə düşmənçilik münasibətində olan gürcü çarı III Georgi 1161-ci ilin yayında Dvin üzərinə 30 min nəfərlik qoşunla hücüm edir. Ərəb tarixçisi İbn əl-Əsir gürcülərin bu hücumu haqqında yazır: "Gürcülər 30 minə qədər əsgəri qüvvə toplayıb Dvin (Dəbil) şəhərinə gəldilər. O şəhəri qarət etdilər. Şəhər əhalisindən on minə qədərini öldürdülər, arvadları cariyəliyə (qarabaşlığa) götürdülər və çox əsir aldılar".

Şübhəsiz ki, Atabəy Şəmsəddin Eldəniz bundan çox qəzəblənir və 1163-cü ildə 60 min nəfərlik qoşunla gürcülərin üzərinə gedib, bir ay davam edən döyüş nəticəsində gürcüləri darmadağın edir.

Sonralar Dvin və ətrafı yenidən gürcülərin işğalına məruz qalır. Belə ki, Azərbaycan Atabəylər dövlətinin yeni hökmdarı Əbu Bəkrin vaxtını eyş-işrətlə keçirməsindən istifadə edən gürcülər 1202-ci ildə "Azərbaycan mahallarından olan Dvin şəhərini" mühasirəyə alırlar. Şəhər camaatı kömək üçün Əbu Bəkrə müraciət etsələr də, bu köməyi ala bilmirlər və Dvin gürcülərin əlinə keçir. Tarixçilərin yazdığına görə, həmin hadisələr zamanı "gürcülər Dvini qarət edir, orada elə qırğın törədirlər ki, bütün bunlardan insan bədənində tüklər ürpəşirdi".

1225-ci ildə Azərbaycanı fəth edən **Sultan Cəlaləddinin** gürcülər üzərinə yürüşü həmin il Dvindən başlayır. Bu barədə İbn əl-Əsir yazır: "Cəlaləddin onların üstünə gedib, Dvin şəhərini aldı. Gürcülər vaxtilə oranı müsəlmanlardan almışdılar".

1236-cı ildə isə Dvin şəhəri amansız **monqol hücumlarına** məruz qalaraq darmadağın edilir. Bundan sonra Dvin özünün tarixi əhəmiyyətini itirməyə başlayır.

Sonrakı dövrlərdə Vedibasar mahalı Azərbaycanda tarix səhnəsinə çıxan dövlətlərin, xüsusilə **Hülakuların** tərkibində mövcud olur.

1387-ci ildə Əlincə qalasına yaxınlaşan Teymur qoşunları Naxçıvanı ələ keçirir, Sürməli, Gərni istehkamlarını dağıdır, Vedibasarı fəth edir.

Vedibasar mahalı bir müddət **Teymurilərin** (xüsusilə Teymurun oğlu Miranşahın) hakimiyyəti altında yaşayır. XIV yüzilin sonlarında Ağrıdağ vadisində yaşayan türkdilli tayfalar **Qaraqoyunlu** sülaləsindən **Əmir Səidin** hakimiyyəti altında birləşərək özlərinin inzibati birliyini yaratmağa çalışırlar.

Qaraqoyunlu hakimi Qara Yusifin mühüm döyüşləri Çuxur-Sakat ərazisində olur. 1407-ci ildə o, burada Teymurun nəvəsi Əbu-Bəkiri darmadağın edir.

Yeri gəlmişkən, Qaraqoyunlu sülaləsindən Əmir Səidin hakimiyyətə gəlişi ilə bağlı tarixşünaslıqda belə bir fikir formalaşıb ki, guya bu ərazinin (İrəvan çuxurunun, yəni Ağrıdağ vadisinin) ikinci adı olan Çuxur-Səd məhz Əmir Səidin adından götürülmüşdür və **Səidin çuxuru** anlamındadır. Təbii ki, ərazinin inzibati adı – **Çuxur-Səd əmirliyi**, sonra **Çuxur-Səd bəylərbəyliyi** də bu cür izah olunur.



Əslində isə, yuxarıda da yazdığımız kimi, həmin ərazilər Sak türklərinin qədim anayurdları olmuşdur və təsadüfi deyil ki, İrəvan çuxurunun ikinci adı olan Çuxur-Səd də burada çoxluq təşkil edən **Sak (sakatlı//sakadlı, saadlı)** tayfalarının adını daşımışdır, yəni: **Çuxur-Saad. Saad**-ın **Səd** və ya **Saadlunun Sədlu** kimi tələffüzü isə ərəb dilinin xüsusiyyətlərindən irəli gəlirdi. Nəhayət, o da nəzərə alınmalıdır ki, sonralar İrəvan xanlığı tərkibindəki 15 mahaldan ikisi (Saadlı və Seyidli-Axsaxlı) məhz həmin tayfanın adını yaşatmışdır. O da maraqlıdır ki, erməni mənbələri bu yerin adını Çuxur-Səd yox, məhz **Sakatın ölkəsi ("Yerkrin Sakatu")**, **Sakatın çuxuru** (**"Sakata pos"**) kimi yazırlar.

XV yüzilin əvvəllərində isə Səidin taxtında onun oğlu **Pir Hüseyn** əyləşir. Səidin ətrafında toplaşan tayfalar xüsusi çəkiyə malik olduğundan istər Əmir Səidin, istərsə də oğlu Pir Hüseynin hakimiyyəti illərində bu bölgəyə xüsusi diqqət yetirilirdi.

Qaraqoyunluların hakimiyyət başına gəlməsi ilə əlaqədar Vedibasar mahalı əvvəl Qaraqoyunlu dövlətinin (Vedibasarda bir neçə qaraqoyunlu kəndi olmuş, onlardan ikisi elə Qaraqoyunlu da adlanmışdır), **Ağqoyunluların** hakimiyyəti dövründə isə Ağqoyunlu dövlətinin tərkibinə daxil edilmişdir.

**Səfəvilərin** hakimiyyəti dövründə bütövlükdə İrəvan- Naxçıvan bölgəsi həmişə mühüm strateji ərazi kimi diqqət mərkəzində olmuş və bir çox həlledici tarixi hadisələrin iştirakçısına çevrilmişdir. Məsələn, 1499-1500-cü ilin qışını Astara yaxınlığındakı "Ərcüvan adlı yerdə" keçirən İsmayıl 1500-cü ilin yazında Kiçik Asiyaya getmək qərarına gələrkən "Araz çayının şimalındakı dağlıq rayona, Göyçə gölünün cənub sahillərinə doğru" hərəkət edir və "Çuxursədi keçdikdən sonra" cənuba üz tutur.

Sonralar Şah İsmayılın əmri ilə onun sevimli sərkərdəsi Rəvanqulu xan Əmir Teymurun sevimli adamlarından olan tacir Xoca xan Lahicaninin 1407-1408-ci illərdə saldırdığı şəhərin xarabalıqları yerində möhtəşəm qala ucaldır. Şah İsmayıl bu qalaya Rəvanqulu xanın adını verir. Beləliklə, Vedibasar yaxınlığındakı Rəvan (İrəvan) qalası Çuxur-Sakat bəylərbəyliyinin inzibati mərkəzi olur.

1514-cü ilin iyul ayının 26-da isə Şah İsmayılla döyüşə gedən

Sultan Səlimin 60 minlik qoşununun Vedibasar mahalı ərazisində – bir-birindən 15 km-lik məsafədə yerləşən Böyük Vedi və Kiçik Vedi kəndləri arasmdakı böyük düzənlikdə düşərgə saldıqları məlumdur. Bu kəndlərin adına da ilk dəfə həmin faktın qeydə alındığı "Sultan Səlimin səfər ruznaməsi"ndə rast gəlirik.

Şah İsmayılın qış aylarını Naxçıvan torpaqlarında keçirməsi onun bu bölgəyə xüsusi əhəmiyyət verdiyini bir daha təsdiq edir.

Vedibasar hakimi **Əbdi bəy Şamlı** Səfəvi dövlətinin sütunlarından sayılırdı. Təsadüfi deyil ki, Çaldıran döyüşündə sevimli arvadı Taclı bəyimi itirən Şah İsmayıl sonradan Əbdi bəyin qızı Bəhruzə xanımla ailə qurmuşdur. Üstəlik, araşdırmalarımız təsdiqləyir ki, Şah İsmayıl uşaq vaxtı uzun illər məhz Vedibasar mahalı ərazisində – Bağırsaq dərəsindəki qədim Kərki şəhərində Əli adlı şəxsin malikanəsində gizlədilmişdir. Buna görə də Şah İsmayılın Vedibasar mahalına və buranın adamlarına özəl bir münasibəti olmuşdur.

Qızılbaşlarla osmanlılar arasında növbəti döyüşlərdən biri də 1518-1520-ci illərdə **Div Sultanla** Mənuçöhr arasında Dvin ərazisində olur və bu döyüşdə Div Sultan Osmanlı qoşunlarını darmadağın edir.

Belə bir döyüş 1552-ci ildə yenə də Dvində, bu dəfə Səfəvi hökmdarı I Şah Təhmasibin sərkərdələri Bayram bəy Qacar və Toygün bəy Qacarla Ərzurum hakimi İskəndər paşa arasında olur. Yenə də qızılbaşlar osmanlılara qalib gəlirlər.

1555-ci ildə qızılbaşlarla osmanlılar arasında bağlanmış Amasiya sülh bağlaşmasına görə Vedibasar mahalı bütün Çuxur-Sakat torpaqları ilə birgə Səfəvilər dövlətinin tərkibində qalır.

Ümumiyyətlə, Səfəvilər dövlətinin əsas mahallarından biri olan Çuxur-Sakat torpaqları burada çoxluq təşkil edən və Səfəvilər dövlətinin əsas dayaqlarından olan **rumlu** və **ustaclı** tayfaları tərəfindən idarə olunurdu. XVI yüzilin əvvəllərində Şah İsmayıl mahalın idarəçiliyini rumlu Div Sultana verir. Şah İsmayılın ölümündən sonra Çuxur-Sakat bəylərbəyliyinə hakimlik uğrunda rumlu tayfası ilə ustaclılar arasında mübarizə güclənir.

1527-ci ildə Kapuk Sultan Ustaclı İrəvan üzərinə yürüş edir. Ustaclılarla rumlular arasında qanlı döyüş gedir və bu döyüşdə ustaclılar məğlub olur. 1554-cü ilə qədər rumlular Çuxur-Sakat



bəylərbəyliyinə başçılıq edir. Həmin il Sultan Süleyman İrəvan üzərinə hücum edəndə burada **Hüseyn xan Rumlu** bəylərbəyi idi. Osmanlıların qabağından qaçdığı üçün Şah I Təhmasib onun yerinə **Şahqulu Sultan Ustaclını** bəylərbəyi təyin edir. Daha sonra **Məhəmməd xan Toxmaq Ustaclı** bəylərbəyi olur. Bir sözlə, 1590-cı ilə qədər ustaclılar Çuxur-Sakatə hakimlik edir. 1590-cı ildə bağlanmış İstambul sülh bağlaşmasına görə Çuxur-Sakat Osmanlı dövləti tərkibinə verilir.

Səfəvi taxtında öz yerini möhkəmləndirən I Şah Abbas 1604-cü ildə İrəvan bəylərbəyliyi əyalətini yenidən İrana birləşdirməyə nail olur. Ağqoyunlu tayfalarından olan **Əmirgünə xan Qacar** Çuxur-Sakat hakimi (bəylərbəyi) təyin olunur. Bəylərbəylik o vaxt şah tərəfindən təyin edilmiş bəylərbəyi tərəfindən idarə olunurdu. Bəylərbəyinə tabe olan vilayət hakimləri **qolbəyi**, bir qədər kiçik inzibati bölgünün hakimi **sultan** adlanırdı. Vedibasar mahalı da, ayrıca inzibati vahid kimi sultan tərəfindən idarə edilirdi. Təsadüfi deyil ki, XIX yüzilin əvvəllərində İrəvan xanlığına rus generallarmm hücumu başlayanda Vedibasar mahalının hakiminin Abbasqulu bəy Şadlinskinin babası **Aslan Sultan Şadlı** olduğu aşkarlanır.

1656-1663-cü illərdə İrəvan əyalətinin bəylərbəyi **şamlı** tayfasından **Nəcəfqulu bəy** olur.

1724-cü ilin sentyabrında İrəvan çuxuru Osmanlılar tərəfindən yenidən ələ keçirilir. 1728-ci ildə tərtib olunmuş "İrəvan əyalətinin müfəssəl dəftəri"nə görə əyalət yenə iki sancağa (İrəvan və Naxçıvan) bölünür və Vedibasar mahalı 16 nahiyədən biri kimi, **İrəvan sancağının** tərkibinə daxil edilir.

XVI-XIX yüzillərdə Azərbaycan və "Ermənistanın" **(Çuxur Sədin – Ə.Ə)** feodal münasibətlərini tədqiq edən İ.P. Petruşevskinin belə bir qeydi maraqladır ki, XVIII yüzildə "Çuxur-Səd bəylərbəyliyinin **Şadılı tayfası ölkəsinin"** **(yəni Vedibasar mahalının – Ə.Ə.)** 200.000 dinar illik gəliri və 30 hərbçisi olmuşdur.

**Nadir şahın** hakimiyyəti illərində isə (1736-1747) İrəvan torpaqları təzədən İranın tərkibinə qatılır. Nadir şah Səfəvi dövlətinə son qoyduğu kimi, ondan miras qalan inzibati bölgü sistemində də islahat apararaq bəylərbəylikləri ləğv edir, əvəzində

Azərbaycan adlı vahid inzibati bölgü yaradır. Çuxur-Sakat bəylərbəyliyinə də beləcə son qoyulur.

Nadir şahın ölümündən sonra Azərbaycanda yeni kiçik dövlət qurumları – xanlıqlar yaradılmağa başlanır. Vedibasar mahalı İrəvan xanlığını təşkil edən 15 mahaldan biri kimi, bu ölkənin tərkibinə daxil olur. **Həsənəli xan Qacar** (1755-1762), **Hüseynəli xan** (1762-1783), **Qulaməli xan** (1783-1784), **Məhəmməd xan** (1784-1805), **Mehdiqulu xan** (1805-1806), **Məhəmməd xan** (1806-1807), **Hüseynqulu xan** və qardaşı **Həsən xan** (1807-1827) bu xanlığın başında durur. Vedibasar mahalı isə Şadlı sultanları tərəfindən idarə olunurdu.




Ümumiyyətlə, hələ Səfəvilər vaxtından Səfəvi şahları ilə Osmanlı sultanları arasında daim mövcud olan düşmənçilikdən həmişə məharətlə istifadə edən ermənilər Yaxın Şərqdə öz mövqelərini tədricən möhkəmləndirməyə çalışırdılar. Belə ki, Osmanlı dövləti əleyhinə Avropa ölkələri ilə ittifaqa can atan Səfəvi hökmdarları ermənilərin osmanlılarla tarixi düşmənçiliyindən istifadə edərək, erməni tacir və din xadimlərini tez-tez Avropaya göndərir, əvəzində isə Səfəvi dövləti ərazisində onlara ticarət və dini icma yaratmaqda yardımçı olur, imtiyazlar verirdilər. Xüsusilə, I Şah Abbasın bu yöndə "xidmətləri" nəzərə çarpandır.



Səfəvilərə Avropada bu cür müttəfiq axtarışında olan Xoca Səfər, katolikos Stepanos və b. erməni millətçiləri bu dövlətlərdə həm də özlərinə "xaç atası" axtarmaqda idilər. Nəhayət, Xoca Zakar, Stepan Mişşekov, Baqdan Saltanov, İsrail Ori, Minas Vardaped və b.-nın "xidmətlər"i nəticəsində Rusiyanın şəxsində həmin "xaç atası" tapılır. Erməni tacirləri müxtəlif vasitələrlə – rüşvət, hiylə, casusluq, qadınlarını işə keçirmək və s. ilə Rusiyanın yuxarı dairələrinə yol tapır, rus çarlarının etibarını qazanmağa nail olurlar. Ermənilərin çirkin niyyətlərinə dəstək verən ilk rus çarı I Pyotr olur. Hətta 1722-1723-cü illərdə ermənilərin təkidi ilə o, Cənubi Qafqaza ilk hərbi yürüşünü edir. 1726-cı il fevralın 22-də I Yekaterina ermənilərin "yüksək mərhəmətə və himayəyə layiq görülmələri" barədə fərman verir. 1797-ci il oktyabrın 1-də çar fərmanı ilə iranlı erməni məliklərinin və onların itaətində olan 2 min nəfər erməninin Rusiyanın təbəəliyinə qəbul edilməsi, Qafqaz xətti boyunca yerləşdirilməsi haqqında qərar imzalanır və s.

Bütün bunlar tarix boyu Qafqaza heç bir dəxli olmayan, bu əraziyə ancaq tacir kimi gəlib gedən, aylarla qalıb alver edən ermənilərin Cənubi Qafqazda kök atıb yerləşmək üçün zaman-zaman gördükləri işlərin cüzi bir hissəsidir. Bu işdə VII yüzildən başlayaraq bölgədə müsəlmanlığın yayılması ilə əlaqədar imkanları məhdudlaşan, yaxın xaricdən göndərilən keşiş emissarların fəaliyyəti nəticəsində müsəlman-türk torpaqlarında qara yaraya – erməni-qriqorian dini mərkəzlərinə çevrilən kilsələrin də rolu az olmamışdır. Məsələn, XV yüzilə aid sənədə görə təkcə bir kilsə, daha doğrusu, Üçkilsə (Eçmiədzin) kilsəsinin katolikosu Qriqor Makulu Ağqoyunlu hökmdarı Sultan Yaqubun nümayəndəsi Əmir Rüstəmdən 525 min Təbriz dinarına 7 kənd – Vağarşabad, Əştərək, Bətrinc, Noraqovit, Ağunatun, Kirəcli, Muğni kəndlərini satın almışdı.

Bütün bunlar İrəvan xanlığının, o cümlədən Vedibasar mahalının gələcək taleyində mühüm rol oynayacaq hadisələr – Cənubi Qafqazın Rusiya tərəfindən işğalına aparan yolun başlanğıcı idi. 1804-cü il iyulun 3-də bu yol möhtəşəm İrəvan qalasının di-



varları önünə gəlib çatdı. Rus **general-leytenantı P.D.SİSİANOV** İrəvan qalasını iki ay mühasirədə saxladıqdan sonra çoxlu itki verərək həmin il sentyabrın 4-də biabırçı məğlubiyyətlə geri çəkilməyə məcbur oldu. İşğalçı rus qoşunlarına qarşı həmin müharibədə İrəvan xanı **Məhəmməd xanın** və İran şahzadəsi **Abbas Mirzənin** başçılığı ilə xanlığın bütün mahalları kimi, Vedibasar igidləri də qəhrəmanlıqla vuruşmuşdu.



Rusların İrəvan qalasına ikinci hücumu da uğursuzluqla nəticələndi. 1808-ci il oktyabrın 3-də İrəvan qalasını mühasirəyə alan çar **general-feldmarşalı İ.V.QUDOVİÇ** İrəvan sərdarı **Hüseynqulu xanın** iradəsini qıra bilməyib, həmin il noyabrın 30-da geri çəkilməyə məcbur oldu.

İ.V.Qudoviçin İrəvan qalasına hücumu ilə bağlı tarixi mənbələrdə Vedibasar mahalının və bu mahalın o vaxtkı hakimi, **Şadlı Aslan Sultanın** da adı tez-tez çəkilir. Belə ki, İrəvan qalasını mühasirəyə alan rus canişini qalanın divarları yaxınlığındakı hərbi düşərgəsindən xanlığın güclü mahallarının hakimlərinə xüsusi məktublar göndərib, onları öz tərəfinə çəkməyə çalışır. Belə məktublardan biri də (№ 448) 8 oktyabr 1808-ci ildə "Aslan Sultana, Hacı Baba bəyə, kəndxudalara və Vedi çuxurunun bütün Şadlı əhalisinə" ünvanlanır.

İ.V.Qudoviç həmin məktubunda Rusiya ordusunun məğlubedilməzliyindən, İrəvan qalasını əgər təslim olarsa – dinc, müqavimət göstərərsə – güc yolu ilə alacağından, İrəvan sərdarı Hüseynqulu xanın Əştərək yaxınlığında necə məğlub edildiyindən, daha sonra qoşun göndərib onu qüvvə toplamaq üçün üz tutduğu Vedi çuxurundan vurub çıxardığından bəhs edir. O, Aslan Sul-



**Vedibasar bəyləri,**
XIX yüzil.



**Soltan bəy**



**Mehdi bəy**



**Soldan: Məhəmməd bəy və Mirzə Nəsrulla bəy Şadlinskilər**

tanı inandırmağa çalışır ki, məğlub olan Hüseyn xan dinc vedibasarlıları öz dədə-baba yurdlarından qoparıb Arazın o tayına – Cənubi Azərbaycana aparmaqla, düşmən əlinə keçməmək üçün kəndlərə, adamların kəndlərdə qalan əmlakına, taxıl ehtiyatına od vurub yandırmaqla əslində Vedibasar əhalisinə böyük xəyanət etmiş, zərər vurmuşdur. İ.V.Qudoviç Aslan Sultana və həmyerlilərinə çarın mərhəmətini, himayəsini vəd edir, onları geriyə – el-obalarına qayıtmaq üçün dilə tutur.

Yeri gəlmişkən, bu məzmunlu məktublar Sədərəkdən "Məmməd Sultana, kəndxuda və əhaliyə" (№450), Uluxanlıdan "Əli bəyə, Məmmədhüseyn bəyə, Ağa bəyə, kəndxuda və bütün Uluxanlı əhalisinə" (№452) də ünvanlanmışdı. Həmin sıradan 451 saylı məktub isə yenə də Vedibasar mahalına – Dəvəlidən Hümbət yüzbaşıya, Səfərəliyə, Hüseynəliyə, Nurməmmədə, kəndxuda və bütün Dəvəli əhalisinə" göndərilmişdi.

Vedibasar hakimi Aslan Sultana göndərdiyi birinci məktubdan iki gün sonra – 1808-ci il oktyabrın 10-da İ.V. Qudoviç "Vedi çuxurunun rəisi Aslan Sultana" ünvanlanmış 455 saylı ikinci məktubunu yollayır. Bu fakt rus canişinin İrəvan xanlığını işğal etmək üçün Vedibasar sultanının müqavimətini qırmağa, onu öz tərəfinə çəkməyə nə qədər üstünlük verdiyini aşkarlayır. İ.V.Qudoviç bu məktubunda Aslan Sultanı şəxsən görüşmək və bir çox məsələlərdə anlaşmaq üçün öz iqamətgahına dəvət edir. Məktub yenə də çağırış və vədlərlə doludur.

Məlum olduğu kimi, nə İ.V.Qudoviçə, nə də ondan sonra Rusiyanın Qafqazda və Cənubi Qafqazdakı digər bir neçə canişininə İrəvan qalasını işğal etmək nəsib olmur. Lakin 1813-cü ildə Rusiya ilə İran arasında bağlanmış Gülüstan müqaviləsinə görə, İrəvan və Naxçıvan xanlıqları istisna olmaqla bütün Şimali Azərbaycan Rusiyanın işğalı altına keçir. Bu, İranın Qafqazdakı dayaqlarını, İrəvan və Naxçıvan xanlıqlarının isə mövqelərini xeyli dərəcədə sarsıdır.

1826-cı il iyulun 26-da Rusiya ilə İran arasında yenidən başlanan müharibə rusların İrəvan üzərinə üçüncü hücumu və nəhayət, 1827-ci il oktyabrın 1-də İrəvan qalasının işğalı ilə sonuclanır. İranın içərilərinə doğru irəliləyən rus qoşunları 1828-ci il fevralın 10-da İran dövlətini Türkmənçay bağlaşmasını imzalamağa, İrəvan və Naxçı





van xanlıqlarını Rusiyaya güzəştə getməyə məcbur edir. 1827-ci il martın 29-dan Rusiyanın Qafqaz canişini və deməli, həm də Qafqazda rus qoşunlarının baş komandanı təyin olunmuş **general İ.F.PASKEVİÇ** bu qələbəyə görə **"Paskeviç-İrəvanski"** titulu qazanır.

Çar Rusiyasının İrəvan üzərinə bu sonuncu hücumu ilə əlaqədar tarixi sənədlərdə Vedibasar mahalının və onun hakimi Aslan Sultan Şadlının adı yenidən tez-tez çəkilməyə başlanır.

Hələ 29 may 1827-ci il tarixdə çar zabiti A.Y.Seversemidze mühasirədə olan İrəvan qalası yaxınlığındakı hərbi düşərgədən Baş Qərargaha – K.X.Bekkendorfa yazdığı 89 saylı raportunda Aslan Sultan Şadlı və Mehdiqulu xan Qarabağlının Rusiyanın himayəsini qəbul etmək niyyətində olduqlarını bildirir. Heç şübhəsiz, həm Aslan Sultan, həm də Mehdiqulu xan bu qərara o vaxtkı tarixi reallıqdan çıxış edərək gəlmişdilər. Onlar Rusiya ilə İran kimi iki nəhəng dövlətin müharibə meydanına çevrilmiş İrəvan xanlığının süqut ərəfəsində olduğunu aydın görür, tarixi prosesi dayandırmağın, yaxud geri qaytarmağın artıq mümkünsüzlüyünü bütün dəhşəti ilə dərk edirdilər. **İran şahzadəsi ABBAS MİRZƏNİN** qoşunları artıq rus ordusu qarşısında duruş gətirə bilmir, dalbadal məğlubiyyətə uğradılıb, geri – Araz çayına doğru sıxışdırılırdı. Belə bir həlledici mərhələdə müqavimət göstərməyin mənasızlığını dərk edən Aslan Sultan, 1808-ci ildə olduğu kimi, dinc əhalini Arazın o tayına – İrana ke-



çirməyi də çıxış yolu hesab etmirdi. Çünki bu yolun geriyə qayıdışı görünmürdü, bu gediş Vedibasar elinin həmişəlik dağılması demək olacaqdı. Ona görə də Aslan Sultan əhalinin təhlükəsizliyinə təminat şərti ilə Rusiya tabeçiliyini qəbul etmək qərarına gəlmişdi. Aslan Sultanla birgə İrəvan xanlığının **Əhməd ağa, Hümbət ağa, Əliyar bəy, Pir Murad, Kürd Sultan** kimi hörmətli adamları da bu yolu seçirlər.

Bu xəbəri eşidən İ.F.Paskeviç Aslan Sultanla şəxsən görüşmək təşəbbüsündə olur və ona bu vaxt Aslan Sultanın artıq Paskeviçin ordusunda qulluq edən kiçik qardaşı vasitəsi ilə məktub göndərib, onu yanına dəvət edir. Üç gün sonra Aslan Sultan böyük bir dəstə – Şadlılar tayfasının 200 ailəni təmsil edən nümayəndələri və Vedibasar mahalında yaşayan Qarapapaqlar tayfasının on nəfər nümayəndəsi ilə İrəvan ətrafına gəlib çıxır.

Çar generalı görüşə gələn Aslan Sultanı böyük hörmətlə qarşılayır. Bu görüşdən böyük təəssürat alan İ.F. Paskeviç qeydlərində Aslan Sultanı "mərd və diribaş ağsaqqal" adlandırmaqdan özünü saxlaya bilmir və onun səmimiyyətindən, sözübütövlüyündən dönə-dönə bəhs edir. Əslində, bu görüşdən İ.F.Paskeviçin bir gizli məqsədi də vardı. O, Vedibasarda məskunlaşan olduqca döyüşkən, əyilməz Qarapapaqlar tayfası arasında Aslan Sultanın böyük nüfuz sahibi olduğunu bilir, onun vasitəsi ilə qarapapaqları yola gətirmək istəyirdi. Fürsətdən istifadə edərək Aslan Sultanın oğlunu qərargahında girov saxlayan ruslar özlərinin dörd nümayəndəsini (bir rus və üç gürcü zadəganını) Vedibasar əhalisi, xüsusilə Qarapapaqlar arasında təbliğat aparmağa göndərirlər.

Aslan Sultanın İ.F.Paskeviçlə rus himayəsini qəbul etmək barədəki danışıqları Vedibasar dəliqanlılarının heç də hamısının ürəyincə olmur. İ.F.Paskeviçin 27 iyun 1827-ci il tarixli yazılı raportundan bəlli olur ki, 60 nəfər Şadlı və 50 nəfər Qarapapaq silahlı igidi Aslan Sultandan üz döndərərək dağlara çəkilir. Əhali arasında təbliğat aparmaq üçün Aslan Sultanla Vedibasara gələn dörd nəfər rus nümayəndəsi isə (Aslan Sultan özü də sonradan bilmişdi ki, onlardan "gürcü zadəganı" adı altında gələn üç nəfərdən ikisi erməni imiş: rus poruçik Korqanov, gürcü Vaçnadze, ermənilər Minas bəy və Yusifməlik) bir neçə gün sonra dağ kəndlərində həmin silahlılar tərəfindən qəfil əsir alınırlar.



Bu xəbərdən hiddətlənən İ.F.Paskeviç özü şəxsən Vedibasar üzərinə qoşun çəkmək, günahkarlara divan tutmaq qərarına gəlir. Vəziyyətin son dərəcə gərginləşdiyini, əhalinin heç nədən qırğına gedəcəyini, qız-gəlinin rus atlarının dırnaqları altında qalacaqlarını görən Aslan Sultan çar generalını qabaqlamaq niyyəti ilə 1827-ci il iyunun 21-də Vedibasar mahalının ağsaqqalları, hörmətli adamları və 150 Qarapapaq igidi ilə birgə Vedi çayı sahilində İ.F.Paskeviçin qarşısına çıxır, münaqişəni dinc yolla nizama salmağa müvəffəq olur.

Yeri gəlmişkən, tarix üçün önəmli belə bir faktı qeyd etmək lazımdır ki, hətta o vaxt Paskeviçin özü belə etiraf etmişdir ki, Rusiyanın Qafqazda imperiya siyasəti ədalətdən kənardır və yerli xalqlara zülm, zillət gətirir. 27 iyun 1827-ci il tarixi raportunda o yazırdı: "Etiraf edirəm ki, əgər mövcud siyasət (**Rusiyanın imperiya siyasəti nəzərdə tutulur** – **Ə.Ə**) olmasaydı, onda mənim şəxsi hisslərim məni məcbur edərdi ki, Vedi və Gərni ovalıqlarındakı, o cümlədən Şərur mahalındakı bu günahsız, dinc, sakit camaatı müdafiə edim".

İrəvan xanlığının Rusiya tərəfindən işğalını rəsmiləşdirən Türkmənçay bağlaşmasına əsasən Vedibasar mahalı da Rusiya tabeçiliyinə keçirilir. 10 fevral 1828-ci ildə bağlanmış bu müqaviləni 20 mart 1828-ci ildə təsdiq edən I Nikolay bir gün sonra – martın 21-də həmin ərazilərdə "Erməni vilayəti" yaradılması barədə fərman verir: "Rusiyaya birləşdirilən İrəvan və Naxçıvan xanlıqlarını bundan sonra "Erməni vilayəti" adlandırmağı hökm edir və titulumuza daxil edirik".

Vedibasar ayrıca mahal kimi "Erməni vilayəti"nin İrəvan əyaləti tərkibində saxlanılır.

Türkmənçay bağlaşmasının bu redaktə ilə hazırlanmasında Rusiyanın İrandakı səfiri ermənipərəst Qriboyedovun xüsusi səyi olmuşdur. Elə buna görə də sonralar ermənilər Qriboyedovun alını böyük məmnuniyyətlə əbədiləşdirdilər. Həm də rus və erməni şovinizminə xas bir tərzdə – İrəvandakı Körpüqulağı məscidi yerlə yeksan edilərək 1960-cı illərdə Qriboyedovun heykəli ucaldıldı.

1826-1828-ci illər Rusiya-İran və 1828-1829-cu illər Rusiya-Osmanlı müharibələri nəticəsində İrəvan xanlığının, o cümlədən Vedibasar mahalımn hansı dağıntılara məruz qaldığını İ.Şo-

penin 1829-1832-ci illərdə "Erməni vilayəti"ndə apardığı siyahıyaalmadan öyrənirik. Həmin siyahıyaalmaya görə, İrəvan əyalətində mövcud olan 521 kənddən 310-u xaraba qalmışdır. Vedibasarın isə adı çəkilən 54 kəndindən 33-ü xaraba kəndlər siyahısında verilmişdir. Ümumiyyətlə isə, həmin müharibələr zamanı təkcə İrəvan xanlığı ərazisində 310, İrəvan və Naxçıvan xanlıqları ərazisində bir yerdə 559 türk-müsəlman kəndi ruslar tərəfindən məhv edilmişdi.

Məlum olduğu kimi, İrəvan və Naxçıvan xanlıqlarını işğal edən ruslar bu işğalda onlara müttəfiqlik edən ermənilərin arzusuna uyğun olaraq Türkmənçay müqaviləsinə həmin ərazilərə ermənilərin yerləşdirilməsi barədə xüsusi maddə də salmışdılar.

Türkmənçay müqaviləsinin imzalanmasından cəmi 16 gün sonra – 1828-ci il fevralın 26-da Qafqaz korpusunun komandanı ermənilərin İrəvan xanlığı ərazisində boşaldılmış türk-müsəlman evlərində yerləşdirilməsi barədə xüsusi sərəncam verir. Bu məqsədlə xüsusi komitə yaradılır. N.N.Şavrov da təsdiq edir ki, 1828-1830-cu illər arasında İrandan və Türkiyədən 200 min nəfərdən çox erməni köçürülərək Yelizavetpol və İrəvan qəzalarında yerləşdirilmişdi.

Yerli xan və bəylərin müqavimətinə baxmayaraq, həmin köçürülənlərdən Vedibasarın da qismətinə düşmüşdü.

1840-cı ildə "Erməni vilayəti" inzibati vahidi ləğv edilərək, yerində Gürcü-İmeretiya quberniyası tərkibində İrəvan qəzası, 1849-cu ildə isə İrəvan, Naxçıvan, Ordubad, Aleksandropol, Yeni Bayazid, Şərur-Dərələyəz və Sürməli qəzalarından ibarət İrəvan quberniyası yaradılır. Hər iki inzibati vahiddə Vedibasar mahalı İrəvan qəzasının Vedi nahiyəsi şəklində mövcud olur.

Nahiyə mərkəzləri Böyük Vedi və Dəvəli kəndləri olmaqla əsasən iki kiçik inzibati vahiddən ibarət idi. Nahiyə qlava (rəis), pristav (yerli polis rəisi), uryadnik (sahə müvəkkili) tərəfindən idarə olunurdu. Uryadnik və onun 20-25 nəfərlik atlı dəstəsi (kazaklar) mütləq rus olmalı idilər. Kəndlərdə isə hakimiyyət kəndxudaya məxsus idi.

Rusiyanın tərkibinə qatıldıqdan sonra Vedibasarın bəy-xan övladlarının çar ordusunda qulluq etdiyini görürük. Məsələn, 1853-cü ilin Krım müharibəsində İrəvan süvari alayının komandanı general Vrangelin o vaxtkı raportlarından məlum olur ki, döyüşlərdə fərqlənənlər sırasında dördüncü müsəlman alayının kapitanı **Hüseyn Sultan Şadlinski,** bəy drujinasından isə praporşiklər **Əli xan** və **Paşa xan Şadlinskilər** də olmuşlar. Həmin bəy drujinasının tərkibindəki iki yüzlükdən (rotadan) birinə – İrəvan, **Böyük Vedi,** Sərdarabad və **Dəvəli** kəndlərinin əhalisindən təşkil olunmuş rotaya Şadlinskilərin digər nümayəndəsi – "Böyük Vedi kəndindən **Bala Sultan Fəti xan oğlu"** başçılıq etmişdir.

Döyüşlərdə fərqlənmiş dördüncü süvari alayının özü isə beş yüzlükdən (rotadan) ibarət olmuşdu. Naxçıvan qəzası kəndlərinin və Vedibasarın **Qarabağlar kəndinin** əhalisindən təşkil edilmiş birinci yüzlüyə **Murad ağa Məhəmməd oğlu, Nəcəf İsmayıl oğlu, Ağababa Məşədi Allahverdi oğlu, Qafar Əliməmməd oğlu** başçılıq etmişdilər. Naxçıvan, Ordubad, Dərələyəz və Vedibasarın **Şirazlı** və **Qarabağlar** kəndlərindən təşkil olunmuş ikinci yüzlüyə isə **Səfərəli Vəli oğlu, Ağabəy Hüseynbəy oğlu, Cəfər Hacı Zeynal oğlu, Bayram bəy Məmmədəli oğlu** başçılıq etmişdilər. **Böyük Vedidən** və Zəngibasar kəndlərindən təşkil olunmuş üçüncü yüzlüyə isə irəvanlı **Həsən bəy Vəzirov** və b.-ları başçılıq etmişdilər.

1860-cı ildə İrəvan quberniyası zadəganlarının İrəvan şəhərində birgə çəkdirdikləri fotoşəkildə Bala Sultan Şadlinskinin də şəkli vardır.

1890-cı ildə Tiflis şəhərində erməni Daşnaksütyun partiyasının təsis edilməsi ilə bölgədə gələcək yeni fəlakətlərin bünövrəsi qoyulur. Bu fəlakətlərin növbəti dalğası 1905-ci ildə bütün Cənubi Qafqazı bürüyür. Naxçıvanda, İrəvanda, Cəbrayılda, Şuşada, Zəngəzurda, Bakıda, Tiflisdə, Qazaxda və s. bölgələrdə qan su yerinə axır. Vaxtilə İrandan, Türkiyədən köçürülüb gətirilmiş ermənilər əlinə silah alıb, top-tüfəng götürüb, dinc müsəlman əhalini qətlə yetirir, evlərə, kəndlərə od vurub yandırır, qocalara, qadınlara, uşaqlara amansızcasına divan tuturlar.

Həmin hadisələri "Qanlı illər" əsərində təsvir edən Məmməd Səid Ordubadi 1905-ci ilin mayında İrəvanda baş verən müsibət və dəhşətləri qələmə almaqdan yorularaq, nəhayət, fikrinə belə yekun vurur: "Müxtəsər, İrəvan mahalı bir yanar dağa, vulkana dönüb nəcib islam millətini yandırmaqda və boğmaqda idi".



**İrəvan quberniyasının zadəganları. 1980-ci il. 1.Abdulla xan Makinski. 2. Şükür xan Makinski. 3. Abbasqulu xan İrəvanski. 4. Pənah xan Makinski. 5. Ağamal ağa Məlik Ağamalov. 6. Mirzə Cabbar bəy Qaziyev. 7. Qriqori Yegiazarov. 8. Ordubadski (Əlixanov). 9. Mirzə İsmayıl. 10. Hacı bəy Bağırbəyov (Abbasqulu bəyin cangüdəni). 11. Əsəd bəy (Şükür bəyin cangüdəni). 12. Bala Sultan Şadlinski.**

Bu faciə, şübhəsiz ki, Vedibasar mahalından da yan ötməmişdi. Vedibasar mahalının elliklə müdafiəsinə qalxan vedibasarlılar İrəvandakı və Naxçıvandakı soydaşlarına kömək əli uzatmağı da yaddan çıxarmırdılar.

1914-cü ildə Birinci Dünya müharibəsinin başlanması Vedibasar mahalına yeni-yeni fəlakətlər gətirir. Doğrudur, o vaxtlar çar hökuməti azərbaycanlıları məcburi hərbi xidmətə cəlb etmirdi, lakin kimin atı-arabası və s. vardısa, onları biyara aparırdı. Buna görə də, müharibənin Qafqaz cəbhəsinin bu bölgəyə yaxınlığı, xüsusilə Qars, Ərdəhan, Sarıqamış, Ağrı dağı ətrafında gedən döyüşlər Vedibasar camaatına böyük maddi ziyan vururdu. Buradan cəbhə xəttinə durmadan ərzaq, mal-qara, minik və qoşqu heyvanları, vasitələri daşınmaqda idi.

Birinci Dünya müharibəsi ilə bağlı yaranmış vəziyyətdən suiistifadə edən ermənilərin Türkiyədə silahlı qiyam qaldırması, türkləri bu müharibədə uduzdurmaq üçün onlara arxadan zərbə






vurması, bu işdə maraqlı olan Rusiyanın erməniləri silah-sursatla təmin etməsi bölgədə vəziyyəti daha da gərginləşdirir.

Yaranmış vəziyyəti müzakirə etmək üçün ermənilər 1915-ci il fevralın 15-dən 19-dək Tiflis şəhərində Daşnaksütun partiyasının IX qurultayını çağırırlar. Birbaşa cəbhə xəttindən gələn Andronik tribunaya qalxıb, erməni silahlı drujinalarının fəaliyyəti və onun gələcək istiqamətləri barədə məruzə ilə çıxış edir,

"Ya indi, ya da heç vaxt!" şüarını irəli sürür. Qurultay Andronikin təklifi ilə bütün erməni silahlı drujinalarını bir mərkəzdə birləşdirmək haqqında qərar qəbul edir ki, bu da əslində nizami erməni ordusu yaratmaq demək idi.

Lakin ermənilərin Türkiyə planlarının baş tutmaması, Türkiyədə uğradıqları məğlubiyyətlər və 1917-ci il fevral burjua inqilabından sonra Rusiyada yaranmış yeni hərbi-siyasi şərait daşnakları Qafqaza üz tutmağa şirnikləndirir.

1917-ci ilin oktyabr ayında Tiflis şəhərində Daşnaksütyun partiyasının təşəbbüsü ilə erməni milli qurultayı çağırılır və burada "Rus Ermənistanı"nın bütün Qafqazla birlikdə Rusiya Federativ Respublikasının tərkibinə daxil olması məqsədəuyğun hesab edilir, bu istiqamətdə mübarizə aparmaq qarşıya məqsəd qoyulur.

Lakin 1917-ci il dekabrın 5-də imzalanan Ərzincan bağlaşmasına görə rus qoşunları Qarsı və Ərzurumu tərk etməli olurlar. Dekabrın 19-da Qafqazdakı rus ordusunun buraxılması barədə sərəncam imzalanır. Dekabrın 26-da isə bu ordunun tərkibində türklərə qarşı döyüşən erməni könüllü dəstələrinin buraxılması haqqında baş komandanın əmri elan olunur. Bu gözlənilməz məğlubiyyətdən hiddətlənən daşnak millətçiləri "dənizdən-dənizə Ermənistan" xülyası ilə müstəqil fəaliyyətə keçir, Türkiyədən geri çəkildikcə qarşılarına çıxan bütün kəndləri məhv etməyə başlayırlar. 180 min nəfərlik quduzlaşmış bu vəhşi ordu üç diviziyaya bölünüb, hər birinin qarşısına konkret bölgələrdə türk-müsəlman əhalinin soyqırımını həyata keçirmək vəzifəsi qoyulur. General Andronikin diviziyası Naxçıvan, Zəngəzur, Qarabağ zonasını, generallar Arişyanın və Dronun rəhbərlik etdiyi 2-ci diviziya İrəvan, Zəngibasar, Üçkilsə, Gərnibasar, Vedibasar ərazilərini, polkovnik Silikyanın komandiri olduğu 3-cü diviziya Göyçə gölünün ətrafındakı rayonları işğal etməli idi. Bakı və Bakı ətrafı ərazilər isə daşnak S.Şaumyanın öhdəsinə buraxılmışdı. Bu hadisədən az sonra erməni silahlı quldur dəstələrinin Bakı, Gəncə, Tiflis və İrəvan quberniyalarında özbaşınalığı görünməmiş miqyas alır.

Belə bir vəziyyətdə yerlərdə əhali öz təhlükəsizliyini təmin etmək üçün özünümüdafiə dəstələri yaratmaq məcburiyyətində qalır. Bu vaxt İrəvan quberniyasının İrəvan qəzasının Vedi nahi-





yəsinin (IV milis sahəsinin) rəisi vaxtilə Vedi hakimi olmuş Aslan Sultan Şadlının nəticəsi, 32 yaşlı **ABBASQULU BƏY ŞADLİNSKİ** idi. O, qısa vaxtda Vedibasar igidlərindən ibarət müqavimət ordusu – "Mübariz dəstə" yaradıb, bölgənin müdafiə qabiliyyətini gücləndirir. Bununla kifayətlənməyən Abbasqulu bəy 1917-ci ilin dekabrında Böyük Vedi kəndində geniş müşavirə çağırır. Müşavirədə:

I. Vedibasar nahiyəsini idarə etmək üçün Vedibasar müsəlmanlarının 11 nəfərdən ibarət **Milli Komitəsi** yaradılır və Komitənin tərkibinə aşağıdakılar daxil edilir: Abbasqulu bəy Şadlinski, Şəmsəddin bəy Mahmudbəyov, Əli Eyvazov, İlyas Aboyev, Hacı Təhmasib Şadlinski, Sultan xan Mərəndi, Seyfulla Süleymanov, Mirzə Nəsrulla Şadlinski, İlyas bəy Mahmudbəyov, Cahanbəxş bəy, Məhərrəm Oruc oğlu.

II. Vedibasar Komitəsinin silahlı qüvvələrinin yaradılması və bu qüvvələrin Vedibasarın hər bir kəndində bölmələrinin (bölüklərinin) təşkil edilməsi qərara alınır.

III. Komitənin sədrliyi və silahlı qüvvələrinin komandanlığı Abbasqulu bəy Şadlinskiyə həvalə edilir.

IV. Komitənin tərkibində aşağıdakılardan ibarət inzibati heyət yaradılır:

1. Fərəməz bəy Mahmudbəyov, İlyas Aboyev və Məhərrəm Oruc oğlundan ibarət **Məhkəmə Heyəti.**

2. Seyfulla Süleymanov, Ağa Şadlinski və Zeynalabdin Şıxəli oğlundan ibarət **Xarici İşlər bölməsi.**

V. Böyük Vedidəki ikisinifli rus-tatar məktəbi binasının bir hissəsi Milli Komitə və onun silahlı qüvvələrinin qərargahı üçün ayrılır.

VI. Bakı və Naxçıvanla müntəzəm əlaqə yaratmaq Şəmsəddin bəy Mahmubdəyova, Ağa Şadlinskiyə və Seyfulla Süleymanova tapşırılır.

VII. Mirzə Nəsrulla Şadlinski Milli Komitənin Noraşendə

yerləşən həbsxanasına rəis təyin edilir.

VIII. Vedibasar mahalının ağsaqqal və nüfuzlu adamlarından ibarət **Ağsaqqallar Məclisi** (Şurası) yaradılır və onun vaxtaşırı çağırılacaq yığıncaqlarında Komitənin hesabatını dinləmək qərara alınır.

Onu da xatırlatmaq yerinə düşər ki, Vedibasarda yaradılmış bu Milli Komitə inzibati idarəetmə strukturuna görə **Milli Hökumət** modelinə tamamilə uyğun olmaqla, o vaxt Naxçıvan-İrəvan bölgəsində yaradılan ilk milli türk-müsəlman hökuməti idi. Bölgədəki digər iki hökumət – Qars Respublikası və Araz-Türk Respublikası ondan təxminən bir il sonra yaradılmışdılar.

Yeri gəlmişkən, Vedibasar Komitəsinin formalaşmasında Azərbaycandakı "Hümmət" təşkilatının İrəvan şöbəsi olan "Firqeyi-məzluman"ın Vedibasar bölməsi üzvləri də fəal iştirak edirdilər. Bu təşkilat 1914-cü ildə İrəvan müsəlmanlar Seminariyasını bitirib, Böyük Vedidəki rus-tatar məktəbində işləyən Əli Əzim oğlu İbrahimov tərəfindən 1917-ci ildə təşkil edilmişdi. Vedibasar Komitəsinin 11 nəfər hökumət üzvündən biri, xarici işlər bölməsinin rəhbəri Seyfulla Ağa oğlu Süleymanov həmin təşkilatın ən fəal üzvlərindən biri idi.

Xalq arasındakı böyük nüfuzundan istifadə edən Abbasqulu bəy Şadlinski tezliklə mükəmməl bir xalq ordusu yaradır, mahalda əmin-amanlığı təmin edir. Lakin, 1918-ci ilin əvvəllərində İrəvan vilayətində erməni daşnaklarının daha da fəallaşması Vedibasar mahalında da sabitliyin pozulmasına səbəb olur, ümumi vəziyyəti ağırlaşdırır. Daşnak quldur dəstələrinin vilayətin müsəlman kəndlərinə basqmları artıq sistemli şəkil alır. Erməni silahlıları kəndlərə qəfildən hücum edir, dinc əhaliyə vəhşicəsinə divan tutur, onları qılmcla doğrayır, var-dövlətlərini çalıb-çapıb aparır, evlərinə, mülklərinə od vurub yandırırlar. Faciənin miqyasını təsəvvür etmək üçün belə bir faktı xatırlatmaq yetərincədir ki, İrəvan hadisələri qısa vaxtda Zaqafqaziya Seyminin bir neçə – 5 fevral, 7 fevral, 19 fevral və 20 fevral 1918-ci il tarixli iclaslarında böyük narahatlıqla müzakirə olunmuş və Seym vəziyyətlə yerindəcə tanış olmaq üçün İrəvana nümayəndə heyətləri göndərmişdi.

Bu barədə C.Zeynaloğlunun 1924-cü ildə qələmə aldığı "Müxtəsər Azərbaycan tarixi" kitabında oxuyuruq: "Bu heyətlər



təhqiqat apararaq qayıtdı və İrəvan vilayətində 211 türk köyünün təxrib və 100 minə qədər əhalisinin məhv edildiyini isbat etdilər. Seym tərəfindən mühacirlər üçün 15 milyon manat yardım təyin edildisə də, 3 milyon verildi və biçarələrin ehtiyacatı tamamilə dəf edilmədi. Beləcə, İrəvan vilayətində olan müsəlman və türklər məhv edildilər və çarizm zamanında İrəvan vilayətində üç yüz min türkdən indi üç min belə qalmamışdır".

Həmin dövrün əks-sədası olan hesabatlardan biri də A.Novatskinin rəhbərliyi ilə hadisə yerində olmuş Fövqəladə İstintaq Komissiyası tərəfindən hazırlanmış arayış-məlumatdır. "1918-ci ilin martınadək İrəvan quberniyasında dağıdılmış və əhali tərəfindən tərk edilmiş müsəlman kəndlərinin siyahısı" adı ilə təqdim olunan bu tarixi sənəddə İrəvan quberniyasının təkcə 4 – İrəvan, Sürməli, Üçkilsə və Yeni Bayazid qəzalarında ermənilər tərəfindən darmadağın edilmiş 197 müsəlman kəndinin adbaad siyahısı verilmişdir. Bu kəndlərdə 16 minə qədər təsərrüfatda 135 min nəfərə qədər əhali yaşayırmış ki, onların əksəriyyəti ermənilər tərəfindən qətlə yetirilmiş, sağ qalanları isə qaçıb ətraf bölgələrə – Azərbaycanın digər torpaqlarına, yaxud qonşu İrana, Türkiyəyə sığınmışdılar.

Həmin siyahıdan anlaşılır ki, tərkibində Vedibasar mahalının da olduğu təkcə İrəvan qəzasında dağıdılmış kəndlərin sayı 30-a çatmışdır. Lakin üzərində düşünməli və son dərəcə maraqlı cəhət odur ki, bu kəndlərin sırasında Vedibasarın bir kəndinin belə adı yoxdur. Halbuki bu ərazi İrəvandan cəmi 30-35 km-lik məsafədə və erməni-daşnak hökumətinin taleyinə həlledici təsir göstərə biləcək dərəcədə strateji əhəmiyyətə malik coğrafi mövqedə yerləşirdi. Heç şübhəsiz, Vedibasarın bu siyasi durumu – erməni daşnaklarından özünü müdafiə gücündə olması ilk növbədə Abbasqulu bəy Şadlinskinin və onun başçılığı altında bütün Vedibasar camaatını yumruq kimi birləşdirən Vedibasar Komitəsinin xidməti idi.

Lakin erməni-daşnak hökuməti, nəyin naminə olur-olsun, Vedibasarın müqavimətini qırmağa çalışırdı. İrəvanla Naxçıvan və İrəvanla Dərələyəz-Zəngəzur arasında yerləşən Vedibasar mahalı İrəvandakı daşnak qoşunları ilə Naxçıvan, Dərələyəz və Zəngəzur bölgələrindəki daşnak qüvvələrinin birləşməsinə bö-

yük əngəl idi. Bunsuz isə ermənilərin Naxçıvan, Zəngəzur və Qarabağı işğal etmək planları alt-üst olurdu.

Buna görə də Vedibasarla danışıqlara girmək üçün edilən bütün cəhdlər puça çıxdıqdan sonra İrəvan daşnak hökuməti Vedibasara güc tətbiq etmək qərarına gəlir. 1918-ci il mayın 18-də daşnakların Vedibasar kəndlərinə ilk mütəşəkkil hücumu Millidərədən başlayır. Bu vaxt Vedibasarın Gərnibasar mahalı ilə sərhədində – Millidərə dərəsində 18 azərbaycanlı kəndi yerləşirdi. Daşnak Artuşun başçılıq etdiyi bu hücum zamanı Millidərə kəndlərindən 7-nin əhalisi (Molla Əhmədli, Əhmədli, Əliqırıq, Əlimərdan, Bayburt Güldərviş, Alırzalar) ermənilər tərəfindən tamamilə məhv edilir, 11-nin əhalisi isə Vedibasar Komitəsinin silahlı dəstələrinin köməyə çatması, erməni hücumunun qabağını saxlaya bilməsi nəticəsində Gölaysor-Güldərviş, Alırzalar-Kotuz yolları ilə çox çətinliklə qaçıb canlarını qurtara bilirlər.

Millidərə kəndlərinə təzədən qayıtmağın təhlükəsiz olmadığını, erməni hücumlarının hər an təkrar oluna biləcəyini nəzərə alan həmin əhali Vedibasarın Cığındərə və aran kəndlərində məskunlaşmağa məcbur olur.

Millidərə faciəsinin canlı şahidi olan Gölaysor kəndinin aysoru sakinləri ermənilərin vəhşiliklərini sonralar belə xatırlayırdılar: "Biz Alqırıqla Bayburt kəndləri arasında ermənilərin qətlə yetirdiyi 14 kişi, 8 qadın meyidi gördük. Kişilərin hamısının başı kəsilmişdi." Və ya: "Ermənilər azərbaycanlıları özlərindən 300-400 m aralıda ağaca sarıyıb, mərc gəlib, nişan atırdılar. Mərc yolu ilə ağaca bağlanmış qız-oğlanları kim gözündən vursa, ona 5 qiymət və 10 patron, göz, ağız, burun arasına vuran 4 qiymət və 10 patron, başdan aşağı, bədən hissəsinə vuran 3 qiymət və 5 patron alırdı. Gülləsi boşa çıxana lağ ilə "türklərin dostu" adını verirdilər". (**Ətraflı məlumat üçün bax: Talıb Musayev. Göstərilən əsəri – Ə.Ə.**)

Zaqafqaziya Seyminin dağılmasının sonucu olaraq 1918-ci ilin 28 mayında "Ermənistan" (Ararat) daşnak hökumətinin yaranması və o vaxtkı ADC rəhbərliyinin tarixi səhvi – 1918-ci il mayın 29-da Azərbaycan Milli Şurasının iclasında İrəvan şəhərinin və İrəvan qəzasının ermənilərə güzəştə gedilməsi (Baş nazir Fətəli xan Xoyski yazmışdı: "Biz ermənilərlə bütün mübahisələri həll etdik. Onlar ultimatumu qəbul edəcək və müharibəni



qurtaracaqlar. Biz İrəvanı onlara güzəştə getdik") və "Ermənistan" (Ararat) Respublikası paytaxtının Gümrüdən İrəvana köçürülməsi Vedibasarın vəziyyətini bir az da ağırlaşdırır.

Azərbaycan tərəfindən İrəvan qəzasına sahiblik mandatı alan erməni daşnak hökuməti 1918-ci il may ayının son günlərində Vedibasar mahalı üzərinə növbəti, mahalın mərkəzi Böyük Vedi kəndi üzərinə isə ilk güclü hücuma keçir. Böyük Vedinin şimalından – Ağdağ tərəfdən kəndə top mərmiləri yağdırılması ilə başlayan bu hücumda Qəmərli-Dəvəli stansiyaları arasında hərəkət edən ermənilərə məxsus zirehli qatar da iştirak edir. O, Vedibasarın dəmiryol xətti boyu yerləşən müsəlman kəndlərini pulemyot atəşinə tutur. Bununla belə, Abbasqulu bəyin güclü sərkərdəlik bacarığı sayəsində ermənilərin bu planlı hücumu onların tam məğlubiyyəti ilə başa çatır. Həm əsgəri hissəsi, həm də zirehli qatarı Vedibasar qüvvələri tərəfindən mühasirəyə alınmış daşnaklar bu döyüşdə xeyli itkiyə məruz qalırlar.

Az sonra – 1918-ci ilin iyulunda ermənilər Vedibasar üzərinə yenidən hücuma keçirlər. Buna bəhanə mahal ərazisində gecə ikən quldurluq əməliyyatına çıxmış 17 erməni mauzerçisinin mahalın Dəvəli və Şahablı kəndləri arasındakı Aydoğmaz adlanan yerdə öldürülməsi olur. Bölgədə böyük hay-küyə səbəb olan bu hadisədən dərhal sonra daşnak hökuməti Vedibasarın üstünə xüsusi təlim görmüş silahlı cəza dəstələri və zirehli qatar göndərir. Kəndləri mühasirəyə alan daşnak qoşunları Vedibasar hökumətinə ultimatum verərək, öldürülən hər mauzerçinin əvəzinə 17 min manat pul və qisas almaq üçün 1 nəfər adam (cəmi 17 nəfər) tələb edirlər. Təbii ki, daşnakların tələbləri vedibasarlılar tərəfindən qətiyyətlə rədd edilir.

Vedibasarlıların belə mövqeyindən hiddətlənən daşnaklar ciddi hazırlaşdıqdan sonra Böyük Vedi kəndi üzərinə ikinci, bu dəfə daha böyük hücuma keçirlər. Bu döyüşdə erməni tərəfdən Dronun, Aram paşanın, Dəli Kazonun mauzerçiləri, milliyyətcə erməni olan polkovnik Doluxanovun və erməni generalı Bek-Pirimovun daşnak polkları iştirak edirlər. Vedibasarın bir sıra aran kəndləri – Qaralar, Şirazlı, Avşar və s. darmadağın edilir. Böyük Vedi ətrafında yenidən qanlı döyüşlər gedir və yenə də Abbasqulu bəyin sərkərdəlik bacarığı və şəxsi igidliyi sayəsin-

də Vedibasar qüvvələri ermənilər üzərində yenidən qələbə çalırlar. Düşmən nizamsız şəkildə geri çəkilərək döyüş meydanında bir neçə top, səkkiz pulemyot, çoxlu sayda tüfəng, patron və başqa hərbi sursat qoyub qaçır.

Bu döyüş Vedibasarın Reyhanlı və Dəvəli kimi erməni kəndlərinin də taleyini həll edir. Belə ki, bu kəndlərin illərlə quzu cildinə girmiş erməni əhalisi daşnaklar bölgəyə hücum edən kimi əllərinə silah alıb onlara kömək etməyə başlayır. Ermənilərin məğlubiyyətindən sonra onlar cəzalanacaqlarmdan qorxub, daşnaklarla çıxıb gedirlər. Tək-tük qalan erməniləri isə Abbasqulu bəy dərhal kənddən köçürtdürür.

1918-ci il noyabrın sonlarında Naxçıvan şəhəri mərkəz olmaqla bölgədə Araz Türk Respublikası yaradılır. Vedibasar hökuməti Abbasqulu bəyin başçılığı ilə bu respublikanın tərkibinə daxil olduğunu bəyan edir.

Türkiyədə məğlub olub, Arazın bu tayına keçən qisasçı daşnak "Van" və "Sasun" polkları qulağıkəsik Andronik paşanın başçılığı ilə Naxçıvan, Zəngəzur, Dərələyəz və s. bölgələrdə misli görünməmiş cinayətlər törədir, dinc müsəlman əhalini qılıncdan keçirir, arvad-uşağı iri damlara doldurub, od vurub yandırırlar.

1918-ci ilin dekabrında həmin polklar Vedibasar mahalına da gəlib çıxır və Şahablı, Qədirli, Qaraxaç, Birəli və b. kəndlərdə dinc əhalini vəhşicəsinə, misli görünməmiş qəddarlıqla qətlə yetirirlər. Belə ki, əvvəl kəndlər mühasirəyə alınır, sonra dinc əhali silah gücünə iri damlara doldurulub, diri-diri yandırılır, qaçmağa cəhd edənlər güllə ilə, süngü ilə vurulub öldürülür, körpə uşaqlar tüfənglərin süngülərinə keçirilir. Həmin qırğın vaxtı şahablı Aşıq Cəlilin əvvəl dili dibindən qoparılır, sonra da üstünə neft tökülüb, sazı ilə birgə kərmə qalağı içərisində diri-diri yandırılır.

Erməni daşnaklarının Vedibasar ərazisində törətdikləri bu vəhşiliklər barədə o vaxtkı mənbələrdə dönə-dönə yazılmışdır. Məsələn, Naxçıvan Müsəlman Milli Komitəsinin o vaxtkı katibi Mirzə Bağır Əliyevin gündəliklərində oxuyuruq: "...Erməni qoşunu Vedibasar nahiyəsində bulunan müsəlman göylərinə, məsələn, Kərkab, Ağasıbəyli, Keşişdağı, Dəhnəz, Qaraxaç, Qədirli, Şahablı və Çimən kəndlərinə hücum edib 20 mindən ziyadə müsəlman əhalisini kəsib, balaca balaları, qadmları və əlil kişiləri evlərə toplayıb, tamamən bıçaq və xəncər ilə kəsib, nizəpuş ediblər... Xülasə, Vedibasar tərəfində müsəlmana olmazın zülmlər və cəfalar ermənilər tərəfindən olundu".



Bu faciə barədə Paris Sülh Konfransının sədrinə ünvanlanmış 16-19 avqust 1919-cu il tarixli sənəddə isə oxuyuruq: ""Van" və "Sasun" adları altında müxtəlif erməni hərbi hissələri müsəlman əhalisini qılıncdan keçirtdi, kəndləri toplardan və zirehli qatardan atəşə tutdular, öldürülənlərin qarnını yırtıb, gözlərini oydular, bəzi cəsədləri yandırdılar, əhalini taladılar, ümumiyyətlə, eşidilməmiş vəhşiliklər etdilər. Yeri gəlmişkən, Vedibasar rayonunda belə bir dəhşətli fakt da baş verdi ki, Qaraxaç, Qədirli, Qarabağlar, Ağasıbəyli, Dəhnəz kəndlərinin kişiləri sonuncu nəfərə qədər qətlə yetirildilər."

Lakin Vedibasar qüvvələri tərəfindən geri oturdulan daşnakların mahalı işğal etmək planları bu dəfə də alt-üst olur. Çıxış yolu arayan erməni hökuməti ingilis missiyasını qabağa verir. İrəvan, Naxçıvan və Bakı da daxil olmaqla bütün Azərbaycana qoşun çıxaran ingilislər Vedibasara daxil ola bilmirlər. Yerli əhalinin etirazlarına baxmayaraq, 1919-cu il mayın 3-də Vedibasar mahalı ingilislər tərəfindən "Ermənistan" daşnak respublikasının tərkib hissəsi elan olunur. Naxçıvan, Ordubad, Şərur, Vedibasar və ətraf kəndlərin erməni hökuməti idarəçiliyinə verilməsini tələb edən ingilislərin bu özbaşınalığını Abbasqulu bəy qətiyyətlə rədd edir. "Ermənistan"ın o vaxtkı baş naziri Q.Xatisov bu faktı xatırlayarkən sonralar dəhşətlə yazırdı ki, mən ona (yəni Abbasqulu bəyə) xatırladanda ki, Vedibasar mahalı Ermənistan hökumətinə ingilislər tərəfindən verilib, Abbasqulu bəy hirslənib qışqırdı: "İngilislərinizlə bərabər cəhənnəm olun!"

1919-cu il iyunun sonlarında yenidən qızışan hərbi münaqişə ermənilərin Böyük Vedi üzərinə üçüncü hücumu ilə nəticələnir. Vedibasarın bir sıra kəndlərini dağıdan ermənilər Böyük Vedidə güclü müqavimətə rast gəlib, bir neçə uğursuz hücum cəhdindən sonra, nəhayət, biabırçı məğlubiyyətlə yenə də qaçmağa üz qoyurlar. Bu döyüşdə vedililər 4 pulemyot, 400 tüfəng və çoxlu hərbi sursat qənimət götürürlər. Ermənilər isə 200 nəfərdən çox əsgər, on nəfərdən çox zabit, 2 top, 8 pulemyot itirirlər.

Həmin döyüş haqqında İrəvandan Bakıya – Azərbaycan hö-

kumətinə məlumat verən səlahiyyətli nümayəndə Məhəmməd xan Təkinski böyük qürurla yazırdı: "Böyük Vedililər erməni polkunu tamamilə darmadağın etdilər və polk, demək olar ki, bütün heyətini itirdi".

Bu görünməmiş məğlubiyyətdən sonra erməni hərbi komandanlığı Vedibasar üzərinə yeni hücum hazırlamaq və həyata keçirmək üçün müdafiə nazirinin köməkçisi general Droya xüsusi tapşırıq və lazımi səlahiyyət verir. Dro yaxşı təlim görmüş və silahlanmış nizami qoşunlarla yanaşı, peşəkar daşnak mauzerçilərini də hücuma cəlb edir. Böyük Vedi üzərinə daşnakların dördüncü hücumu belə başlayır. İyulun 12-də daşnaklar Çimənkənd, Goravan, Daşlı və digər kəndləri mühasirəyə alıb artilleriya atəşinə tuturlar. Azərbaycan hökuməti ermənilərin Vedibasara bu hucumu ilə əlaqədar "Ermənistan"a rəsmi nota verirsə də, ermənilər bunu qulaqardına vururlar.

Ermənilərin hərbi gücü qarşısında durmağın çətinliyini görən Abbasqulu bəy onları Böyük Vedi kəndinin içərisinə buraxıb, qəfil əks-hücumla darmadağın edir. Ermənilərdən beş ədəd təkərli "Maksim" pulemyotu, 6 ədəd yüngül əl pulemyotu, 500-dən artıq əl qumbarası, 8 ədəd hərbi əmlakla dolu atsız araba, külli miqdarda patron, top mərmisi, 100 ədədə yaxın tüfəng və s. qənimət götürülür.

1919-cu ilin iyun-iyul döyüşlərindəki məğlubiyyətdən sonra ermənilər Vedibasarı işğal etməkdən ötrü daha bir hiyləyə əl atır. müttəfiq qoşunlarının Cənubi Qafqazda ali komissarı polkovnik Vilyam Haskelin 1919-cu ilin 1 sentyabrında Azərbaycan Cümhuriyyəti Nazirlər Şurasının sədri N.Usubbəyova ermənipərəst layihə təqdim etməsinə nail olurlar. Həmin layihədə V.Haskel Naxçıvan və Şərur-Dərələyəz (o, Vedibasarı da bura daxil edirdi) ərazilərini "neytral zona" hesab etməyi, bu "zona"nın idarə olunmasını isə onun özü (yəni polkovnik Haskel) tərəfindən təyin olunan general-qubernatora həvalə eləməyi təklif edir.

Polkovnik V.Haskelin bu layihəsində Vedibasara aid ayrıca bir – 14-cü maddə də vardı. Həmin maddədə "Vedibasarın tatar əhalisinin" amerikalı general-qubernatorun nəzarəti altında həmin "neytral zona"ya daxil olan digər şəhərə **(məsələn, Naxçıvana - Ə.Ə)** köçürülməsi nəzərdə tutulurdu. 14-cü maddəyə guya Vedibasar camaatının xeyrinə belə bir cümlə də daxil edilmişdi: "Özünün bütün əmlakını özü ilə kötürməyə icazə veriləcəkdir".

Bu, o demək idi ki, Vedibasarın müsəlman əhalisinin birdəfəlik köçürülməsi nəzərdə tutulurdu. Ermənilərə də elə bu lazım idi. Təbii ki, Haskelin bu layihəsi ancaq kağız üzərində qaldı.

Vedibasar mahalının Ermənistanla Azərbaycan arasında "neytral zona" hesab olunmasına gəldikdə isə, bu, doğrudan da belə idi. Azərbaycan Demokratik Cümhuriyyəti xarici işlər nazirliyinin əməkdaşı A.Şepotyevin "Öz müqəddəratını həll etmiş Azərbaycan türklərinin haqqı çatan Qafqazın mübahisəli əraziləri haqqında məruzə"sində də Böyük Vedi "Naxçıvan rayonu daxilində mübahisəli ərazi" kimi qeyd olunmuşdu.

Böyük Vedi üzərinə ermənilərin beşinci mütəşəkkil hücumu 1919-cu il noyabr aymın sonlarında başlayır. Tarixə "qaraçuxalıların" hücumu kimi daxil olan bu döyüş də vedibasarlıların qələbəsi ilə başa çatır.

Lakin ermənilərin hücumları ara vermək bilmir. Nəhayət, Naxçıvanın çox hissəsi daşnaklar tərəfindən işğal edildikdən sonra Vedibasar tam mühasirədə qalır. 1920-ci ilin iyulunda daşnak mühasirəsini yaran Vedibasar qüvvələri ermənilərlə döyüşə-döyüşə dinc əhalini dağ yolları ilə sağ-salamat Şərura, oradan isə Şahtaxtı körpüsü ilə Cənubi Azərbaycana keçirirlər.

Ermənilər tərəfindən tam işğal olunmuş Vedibasar mahalının həmin dövrdəki durumunu 1921-ci ilin yazında Azərbaycan Hərbi İnqilab Komitəsinə edilən məruzədən öyrənmək olar. Həmin məruzədə göstərilirdi ki, "Ermənistan SSR-də olan Azərbaycan kəndləri – ...Vedidə 118 kəndin əhalisi qılıncdan keçirilmiş və od vurulub yandırılmışdır".

Bununla belə, 1918-1920-ci illərdə daşnakların Vedibasardakı məğlubiyyətləri öz tarixi rolunu oynamışdı. Bunu Ermənistan (Ararat) daşnak respublikasının keçmiş baş naziri Ov.Kaçaznuninin 1923-cü ilin aprelində Daşnaksütun partiyasının Parisdə keçirilən konfransına təqdim etdiyi məruzədən də görmək olur. Daşnak lideri erməni-daşnak hökumətinin məğlubiyyəti səbəbləri sırasında Vedibasar, Şərur və Naxçıvan kimi bölgələri silah gücünə belə ələ keçirə bilməmələrini xüsusi olaraq qeyd etmişdir: "Vedibasar, Şərur, Naxçıvan kimi vacib məntəqələrdə öz

hakimiyyətimizi hətta silah gücünə belə qura bilmədik, məğlub olduq və geri çəkildik". Bu, tarixi etiraf idi!

Beləliklə, dinc əhalini Cənubi Azərbaycanın Xoy, Mərənd ətrafı kəndlərində yerləşdirən Abbasqulu bəy Şadlinski bir neçə ay sonra Naxçıvanda hakimiyyət başına gəlmiş bolşeviklər tərəfindən geri çağırılır. 1920-ci il sentyabrın ortalarında bir dəstə döyüşçü ilə Naxçıvana qayıdan Abbasqulu bəy "Qırmızı tabor" adı ilə öz ordusunu yenidən bərpa edərək Naxçıvan, Şərur, Vedibasar, İrəvan, Dərələyəz, Zəngəzur bölgələrinin daşnak işğalından azad edilməsi uğrunda döyüşlərə atılır və çox böyük uğurlar qazanır. Bu şücaətlərinə görə "Qırmızı tabor"un komandiri Abbasqulu bəy və onun 18 nəfər taborçu döyüşçüsü "Qırmızı bayraq" ordeni ilə təltif olunurlar. Bütün bu hadisələr barədə "Abbasqulu bəy Şadlinski" kitabımızda ətraflı yazdığımızdan bir daha təkrar etmək istəmirik.

Tarix isə öz hökmünü verir: 1920-ci il noyabrın 29-da Qərbi Azərbaycan torpaqlarında bu torpaqlara Rusiya imperiyası tərəfindən əsasən XIX yüzilin əvvəllərindən etibarən köçürülüb gətirilmiş ermənilər üçün qondarma bir dövlət – "Ermənistan SSR" təşkil edilir. 1921-ci il oktyabrın 13-də isə Rusiya, Azərbaycan, Gürcüstan, "Ermənistan" və Türkiyə arasında imzalanmış məşhur Qars bağlaşmasına görə, Naxçıvan muxtar ərazi kimi Azərbaycanın tərkibində qalır və onun sərhədləri qəti olaraq müəyyənləşdirilir. Təəssüf ki, bu sərhəd Şərur mahalı ilə Vedibasar mahalı arasından keçir və böyük Azərbaycan məmləkətinin tarixi torpaqlarının bir parçası olan Vedibasar mahalı rusların Azərbaycanın bağrında yaratdıqları qondarma erməni dövlətinin tərkibinə qatılır.

Təəssüf ki, Vedibasar mahalının taleyini həll edərkən bu torpaq uğrunda dörd ilə yaxın müharibə aparan vedililərin fikri ilə heç kəs hesablaşmır. Azərbaycan Demokratik Cümhuriyyəti dövründə ADC-yə müraciətləri səmərəsiz qalan vedililər bir də 1921-ci ildə Böyük Vedidə geniş iclas keçirib, bu yerlərin Azərbaycan torpağı olduğunu xatırladaraq Azərbaycan sovet respublikası tərkibinə daxil olmaq arzu və xahişlərini bildirirlər. İclasa **Ağamirzə Mahmudbəyov** sədrlik, **Əlihüseyn Kələşov** katiblik edib, imza atırlar. Lakin bu rəsmi sənəd o vaxt Ermənistan rəhbərliyi tərəfindən gizlədilir. Həmin iclasın protokolu isə İrəvan dövlət arxivində son illərə qədər dururmuş.





İrəvanda yaradılmış ilk partiya təşkilatının üzvlərindən biri olan **SALEH GÜLLÜCİNSKİ** 1921-ci ilin əvvəllərində Vedi rayon Hərbi İnqilab Komitəsinin ilk sədri vəzifəsinə göndərilir. O, İrəvandakı Puşkin adına şəhər məktəbini bitirmiş və Ermənistan Fövqəladə Komissiyasının ilk müstəntiqlərindən olmuşdu. **Saleh Güllücinski** erməni daşnaklarından yenicə geri alınmış Vedibasar rayonunun dinc həyata qayıtması, Arazın o tayında mühacirətdə olan əhalinin doğma yurd-yuvasına geri dönməsi üçün əlindən gələni edirdi. Adamlar yavaş-yavaş geri, daşnaklar tərəfindən yandırılmış, talan edilmiş doğma kəndlərinə qayıdır, uçurulub-dağıdılmış evlərini bərpa edir, yaxud yenidən tikir, sönmüş ocaqlarını yandırmağa başlayırlar.

Əhali var-yoxdan çıxdığından iqtisadi cəhətdən əziyyət çəkir, çoxları yeməyə doyunca yavan çörək də tapmırdı. Aclıq adamları əldən salır, əhədini kəsirdi. 1921-22-ci illərdə rayonda torpaq bölgüsü aparılır. Lakin torpağı şumlamağa qoşqu heyvanı, torpağa səpməyə toxum tapılmırdı. Belə çətin bir vaxtda digər tərəfdən də "Ermənistan SSR" rəhbərliyi İrandan, Türkiyədən axışıb gələn qaçqın erməniləri başqa rayonlarla yanaşı, həm də və xüsusilə Vedibasarın azərbaycanlı kəndlərində məskunlaşdırmağa çalışır. Erməni hökumətinin bu siyasətinə kəskin etiraz edən yerli əhali S.Güllücinskinin şəxsində özünün müdafiəçisini tapır. Onun ermənilərin Vedibasarda məskunlaşmasını əngəlləyən hərəkətləri, təbii ki, erməni rəhbərliyini heç cür təmin etmirdi. Odur ki, onlar S.Güllücinskini Vedi rayonundan uzaqlaşdırmaq üçün bəhanə axtarırdılar. Nəhayət, belə bir bəhanə tapılır. O, 1922-ci ilin sonlarında Tiflisdə yeni açılmış Zaqafqaziya Kommunist Universitetinə təhsilini davam etdirməyə "göndərilir".

Bununla belə, rayonun Araz sahilində, Türkiyə sərhədindəki Alməmməd və Şidli kəndlərindən başqa, Kiçik Vedidən başlamış Çimənkəndədək, demək olar ki, bütün aran kəndlərində az-az da olsa erməni ailələri yerləşdirilir. Saleh Güllücinskini

RİK sədri vəzifəsində əvəz edən milliyyətcə osmanlı türkü **Camal Ömərovun** vaxtında adamların ermənilərin Vedibasar kəndlərinə köçürülməsinə etirazı bir qədər də artır. Buna görə də bir neçə ay sonra C.Ömərov vəzifədən çıxarılıb yerinə 19 yaşlı erməni dığası – Tiqran Osepyan təyin edilir. Lakin böyük əksəriyyəti azərbaycanlılar olan rayonda onun uzun müddət işləməsi mümkün olmur və yenə də bir neçə ay sonra rayon rəhbərliyinə 1922-ci ilin ortalarından rayonda təlimatçı işləyən **Əli Əkərəkli** təyin edilir.

Respublikanın erməni rəhbərliyinin Vedibasardakı siyasətindən xüsusilə dağ kəndlərində böyük narazılıq vardı. Bu, həmin vaxtlar idi ki, illərlə erməni daşnaklarına qarşı mərdliklə vuruşmuş keçmiş "Mübariz dəstə"çilər, yeni "Qırmızı tabor"çular da yavaş-yavaş geri – doğma kəndlərinə qayıdırdılar. Onların Vedibasara bir qədər gec dönmələrinin səbəbi o idi ki, 1921-ci il aprelin 4-də Naxçıvan Respublikasının yeni hökuməti təşkil edilərkən bu hökumətin 10 nəfər üzvündən biri olaraq Abbasqulu bəy Şadlinskiyə Naxçıvan qarnizonunun rəisi vəzifəsi tapşırılmış və "Qırmızı tabor"çular vətəndaş müharibəsindən sonra da bir müddət Naxçıvanda qalıb, Naxçıvan sərhədlərinin mühafizəsini təmin etməli olmuşdular.

1922-ci ilin sonlarında ordudan tərxis olunan "Qırmızı tabor"çular Vedibasara qayıdıb, yavaş-yavaş dinc həyata başlayır, yerli hakimiyyət orqanlarında, xüsusilə kənd inqilab komitələrində, milis idarələrində, dəmiryol sistemində, şəxsi təsərrüfatlarında çalışırdılar.

Abbasqulu bəyin özü isə 1923-cü ilin əvvəllərində İrəvan qəza İcraiyyə Komitəsi qarşısında Vedibasar ərazisində Dəvəli kəndinin kənarındakı kirəc təpələrinin inşaat üçün istifadə edilməsi haqqında məsələ qaldırır və tezliklə Dəvəli kirəc mədəninə müdir təyin edilir.

İllərlə erməni daşnak quldur dəstələri ilə döş-döşə gəlmiş, erməni vəhşiliyini bütün dəhşəti ilə görüb ona qarşı vuruşmuş bəzi Vedibasar oğulları isə yeni hökuməti heç cürə qəbul etmək istəmir, dəstə-dəstə dağlara qalxır, bölgədə ermənilərin hakimiyyətini təsbit edən bu hökumətə inanmırdılar. Belə dəstələrdən birinə də 1918-1920-ci illərdə Vebdibasar müdafiəçiləri arasında ermənilərə qarşı mərdliklə vuruşmuş Qəmlo başçılıq edirdi. O vaxt Vedi rayon milis şöbəsinin rəisi "Ermənistan"ın ilk azərbaycanlı bolşeviklərindən olan Yusif Abbasov, onun müavini Vağarşak adlı erməni idi. Milis işçilərinin Qəmlonun qaçaq dəstəsini tərksilah etmək cəhdi dəfələrlə boşa çıxdıqdan sonra dövlət onun özünə və silahdaşlarına toxunulmazlıq təminatı verməyə məcbur olur. Yalnız bundan sonra Qəmlo geri qayıdaraq könüllü surətdə silahını hökumətə təhvil verib dinc həyata başlayır.



1923-cü ilin sentyabrında öz xahişi ilə Vedidə işdən azad edilən Əli Əkərəkli Ermənistan K(b)P MK-nın sərəncamına qayıdır. Rayon İcraiyyə Komitəsinin sədri vəzifəsində onu "Ermənistan"ın ilk bolşeviklərindən olan **İsa Muğanlinski** əvəz edir.

Az sonra onu 1921-ci ildən Böyük Vedi kənd inqilab komitəsinin sədri işləyən, əslən Zəngibasardan olan **Abbas Salahov** əvəz edir. O, 1924-1925-ci illərdə bu vəzifədə olur.

Vedibasarın dinc günləri çox çəkmir. SSRİ-də olduğu kimi, Ermənistan SSR-də, onun Vedi rayonu ərazisində də 1928-ci ildən etibarən kənd təsərrüfatının "yenidən qurulması" – kollektivləşdirilməsi prosesi başlayır. Ortabab və varlı kəndlilərin bütün şəxsi omlakını, o cümlədən torpağını, mal-mülkünü əlindən alıb, hamının, əslində isə heç kimin olan kolxoz təsərrüfatları yaradırlar.

Vedibasar ərazisində də kolxozlaşdırma əvvəllər sakit, hay-küysüz, daha çox könüllülük əsasında aparılır. Lakin 1929-cu ildən başlayaraq kolxozlaşdırmanın daha da genişləndirilməsi, yəni yuxarıdan təzyiq, güc vasitəsi ilə həyata keçirilməsi SSRİ-nin bir çox regionlarında olduğu kimi, Vedibasarda da partlayışla nəticələnir. Lakin "Ermənistan"da bu proseslər bir qədər fərqli şəkildə cərəyan edirdi. Belə ki, burada Sovet hakimiyyəti qurulduqdan sonra bolşevik cildinə girib rəhbər vəzifələrdə, xüsusilə milis, təhlükəsizlik orqanlarında çalışan daşnak nümayəndələri ölkə üçün belə qarışıq zamanda öz qisasçılıq niyyətlərini qəddarlıqla həyata keçirir, vaxtilə erməni daşnaklarına qarşı cəsarətlə vuruşmuş müsəlmanlara "siyasi yolla" divan tutur, müxtəlif bəhanələrlə onları güllələyir, yaxud Sibirə göndərilmələrinə nail olurdular.

Vedibasarlıların əlindən yanıqlı olan erməni daşnakları çox çəkmir ki, burada da adamlar arasında kütləvi narazılıq yaratma-

ğa, onları dövlət əleyhinə qiyama qaldırmağa müvəffəq olurlar. Belə ki, Çimən kəndində və bütün mahalda hörmət və nüfuz sahibi olan, ağsaqqal kimi həmişə yolu gözlənilən **Kərbəlayı İsmayıl** ona qarşı edilən haqsızlıqlara, xüsusilə hörmətsizlik və təhqirlərə dözməyərək və artıq düşmən hədəfinə çevrildiyini, kolxoz məsələsinin ermənilərin əlində bir vasitə olduğunu, gec-tez onu və oğlanlarını aradan götürəcəklərini başa düşərək tərəfdarlarını başına yığıb, rayonun dağlıq hissəsinə – Cığın dərəsi boyu kəndlərə qalxır və belə hökuməti tanımaqdan imtina edir. Mahalın vaxtilə daşnaklara qarşı qəhrəmanlıqla vuruşmuş Məhərrəm Pənah oğlu, Qəmlo, Vəli, Kürd Sultan, Tat Məmməd, İbiş, Kəlba Əhməd, kərkablı Bəhlul kimi igidləri də Kərbəlayı İsmayılın ətrafına toplaşırlar.



**"Axırıncı aşırım" filmindən bir fraqment: Kərbəlayı İsmayıl və Qəmlo**

Tezliklə məsələ böyüyür, Moskvaya qədər gedib çatır. Oradan alınan təlimata görə, 1930-cu il martın 1-də İrəvandan məsul partiya və dövlət işçiləri – Ermənistan KP MK-nın üzvü, respublikanın ictimai təminat komissarı **Əli Tağızadə**, İrəvan qəza



komitəsinin azlıqda qalan xalqlar şöbəsinin müdiri **Əhməd Əhmədov**, **Zakaryan** soyadlı bir nəfər və Zaqafqaziya üzrə banditizmə qarşı mübarizə komitəsinin Ermənistan şöbəsinin müdiri **Şabanbeqov** (bəzi mənbələrdə **Şabanbəyov**) Vediyə gəlir. Rayona gələn nümayəndə heyətinin tələbi ilə qaçaqların içinə danışığa Abbasqulu bəy Şadlinski göndərilir. Çox böyük hiyləgərliklə qurulmuş bu oyunda Abbasqulu bəy və silahdaşı Mehdi Xəlil oğlu yolda qətlə yetirilirlər. Bununla da ermənilər ən azı üç mühüm məqsədlərinə yetişirlər. Birincisi, Abbasqulu bəy kimi nüfuzlu şəxsiyyət aradan götürülür. İkincisi, Kəbəlayı İsmayıl və tərəfdarları Abbasqulu bəyin qatilləri kimi nüfuzdan salınaraq xalqın dayağından məhrum edilir və məğlubiyyətə sürüklənirlər. Üçüncüsü, bu qətl faktından məharətlə istifadə edən ermənilər rayonda repressiyaya başlayırlar. Vedibasarın hörmətli adamları olan **Mir Həsən ağa**, **Kərbəlayı Məhərrəm**, **İqbal** və **Bilal** qardaşları, **Ağababa Kazımov**, **İsmayıl Usub oğlu** və yüzlərlə başqaları həbs edilib Sibirə, Qazaxıstana sürgün olunurlar. Qiyamda iştirak etməyənləri belə, "qaçaqlara çörək veribsən", "qaçaqlara kömək edibsən", "qaçaqlara yol göstəribsən" kimi bəhanələrlə həbs edir, ya güllələyir, ya da sürgünə yollayırdılar.*

1930-cu il sentyabrın 9-da "Ermənistan SSR" ərazisinin yeni ərazi-inzibati bölgüsü – rayonlaşdırılması prosesi başlayır. Həmin vaxt Vedibasar mahalı ərazisində mövcud olan Vedi nahiyəsi ərazi-inzibati vahidi "Ermənistan SSR-in Vedi rayonu" şəklində yenidən təşkil olunur. Respublikanın tanınmış kadrlarından biri – "Ermənistan SSR" MİK-nin sədr müavini, respublika ictimai təminat komissarı, 1906-cı ildən bolşeviklər partiyasının üzvü (sonralar – 1959-1963-cü illərdə Azərbaycan SSR Ali Sovetinin sədri) **Əli Tağızadə** Vedi rayonuna birinci şəxs – partiya təşkilatının katibi vəzifəsinə təyin olunur.

Vedi rayonunun keçmiş rəhbəri, Moskvada Qırmızı Professura İnstitutunda təhsil alıb qayıtmış Əli Əkərəkli ÜİK(b)P MK tə-

*Abbasqulu bəy Şadlinskinin qaçaqların yanına göndərilməsi və yolda qətlə yetirilməsi barədə mərhum yazıçımız Fərman Kərimzadənin "Qarlı aşırım" romanında və bizim "Abbasqulu bəy Şadlinski" kitabımızda (Bakı, 1996) ətraflı bəhs edilmişdir.

rəfindən səfərbərliyə alınaraq 1933-cü ilin iyununda Vedi rayonuna MTS siyasi şöbəsinin rəisi vəzifəsinə göndərilir.

Bu vaxt rayonda Azərbaycan dilində **"Zərbəçi kolxozçu"** qəzeti nəşr olunurdu. Qəzetin ilk redaktoru **Ələmdar Həşimov** Böyük Vətən müharibəsinə getdikdən sonra (o, müharibədə qəhrəmanlıqla həlak olur) bu vəzifədə onu **Əziz Nağıyev** əvəz edir. Taytan kəndindən **Fərman İsmayılov** isə on il bu qəzetin redaktoru olmuşdur.

1935-ci il yanvarın 3-dən etibarən ermənilərin "Ermənistan" ərazisində həyata keçirməyə başladıqları daha bir tarixi cinayətin – türk mənşəli yer-yurd adlarının rəsmi dövlət qərarları ilə kütləvi şəkildə dəyişdirilməsi aksiyası Vedi rayonundan da yan keçmir. Məsələn, Dəvəli kəndinin adı dəyişdirilib "Ararat", Keşişverən kəndinin adı Zovaşen qoyulur və s.

1937-ci ilin məlum repressiyaları "Ermənistan"da, o cümlədən Vedi rayonunda yerli azərbaycanlı əhalisinə qarşı təqib və təzyiqlər üçün erməni rəhbərliyinin əlində yeni bir vasitə olur.

Xeyli adam həbs edilir, güllələnir, yaxud baş götürüb Türkiyəyə, İrana gedir və ya Azərbaycan SSR-də sığınacaq tapır.

1937-ci ilin dekabrında "Ermənistan SSR"-in ərazi-inzibati bölgüsündə dəyişikliklər edilməsi ilə bağlı Vedi rayonu da iki yerə bölünərək rayonun dağlıq hissəsində **Qarabağlar** adlı yeni rayon yaradılar. Əslində bu hərəkətlə ermənilər bir tərəfdən o vaxtadək "Ermənistan"da mövcud olan 25 kənd rayonunun sayını artırmaqla (həmin il onların sayı 31-ə çatdı) bu respublikanı SSRİ məkanında



çoxsaylı rayonlara malik bir respublikaya çevirmək məqsədi güdürdülərsə, digər tərəfdən bu addım Vedi kimi böyük azərbaycanlı rayonlarını iki yerə parçalamaqla onları zəif salmaq, asanlıqla erməniləşdirmək siyasətindən irəli gəlirdi.

Vedi rayonunun Cığındərə, Millidərə və Çanaxçıdərə adlanan dağlıq zonalarında yerləşən 32 kənddən (onlardan 21-i Millidərə kəndləri idi) ibarət bu yeni **Qarabağlar rayonunun** mərkəzi Çimənkənd idi. Vedi rayon partiya komitəsinin ikinci katibi, təcrübəli təşkilatçı **İBİŞ ABBASOV** yeni rayonun partiya



təşkilatının birinci katibi, köhnə partiyaçı və təcrübəli maliyyəçi **MUSA VƏLİBƏYOV** isə Qarabağlar rayon İcraiyyə Komitəsinin sədri vəzifələrinə təyin edilirlər.

Az vaxtda Qarabağlar rayonunda xeyli işlər görülür. Çimən kəndində bir neçə inzibati bina, 25 yerlik xəstəxana, ambulatoriya, aptek binası tikilir. 24 mənzilli iki yaşayış binası, ticarət ob-yektləri inşa edilib istifadəyə verilir. Rayonun altı kəndində məktəb binası tikilir. Cığındərə boyunca Çiməndən Kolanlıya qədər 35 km, Çiməndən Çanaxçıya qədər isə 28 km uzunluğunda avtomobil yolları çəkilir.

Lakin tezliklə Böyük Vətən müharibəsi başlayır. Və müharibə dövrünə xas bütün çətinlik və məhrumiyyətləri Vedibasar mahalının – Vedi və Qarabağlar rayonlarının əhalisi də yaşamalı olur. Kəndlərin əli silah tutan bütün kişiləri səfərbər edilib müharibəyə göndərilirlər. Hər kənd müharibəyə özünün onlarla şəhidini verir.



1942-ci ildə "Ermənistan"ın Tədarük və Təminat Komitəsini etibarlı və bacarıqlı kadrlarla təmin etmək məqsədilə İbiş Abbasovu Qarabağlar rayonunun birinci katibi vəzifəsindən azad edib, həmin komitəyə sədrin birinci müavini təyin edirlər. O vaxt Basarkeçər rayon İcraiyyə Komitəsinin sədri işləyən **TALIB MUSAYEVİ** isə Qarabağlar rayon partiya komitəsinə birinci katib vəzifəsinə gətirirlər.

İbiş Abbasovun Qarabağlar rayonu ərazisindəki kəndlərin dirçəldilməsi yönündə apardığı böyük işləri **Talıb Musayev** davam və inkişaf etdirir. Ağır müharibə dövrünü camaat mərdliklə başa vurur. T.Musayevlə çiyin-çiyinə **Musa Vəlibəyov** (RİK sədri), **Bəhram Bünyatov** (raykomun 2-ci katibi), **Həsən Ələsgərov** (milis rəisi), **Hüseyn Babayev** (prokuror), **Cabbar Babayev** (məhkəmənin

sədri), **Əhməd Əhmədov, Qəşəm Şahbazov** (RPK 3-cü katibləri), **Ağamalı Məmmədov, İsfəndiyar Hüsey-nov** (raykomun şöbə müdirləri) və b. azərbaycanlı kadrlar da Qarabağların rifahı üçün böyük əmək sərf edirlər.



Qarabağlar rayonunun ictimai həyatında **ƏLİ HƏSƏNOVUN** da özünəməxsus xidməti olmuşdur. O, İrəvan pedaqoji məktəbini bitirib, Haxıs kənd məktəbində müəllim işləmiş, sonra partiya-hökumət işlərinə irəli çəkilərək Qarabağlar RİK katibi, RPK təlimatçısı, rayon qəzetinin redaktoru, RPK-nin şöbə müdiri vəzifələrində işləmişdir.

Vedi rayonunun ictimai həyatında isə özünəməxsus yeri və xidmətləri olan azərbaycanlı kadrlardan isə biri də əslən Qəmərli rayonunun Qaradağlı kəndindən olan **ŞÜKÜR HƏSƏN OĞLU MƏMMƏDOV** idi. O, 1902-ci ildə anadan olmuş, 1926-29-cu illərdə Zəngibasar rayonunun Haçaparaq kənd məktəbinin direktoru, 1929-30-cu illərdə Vedi rayon maarif şöbəsinin müdiri, 1931-32-ci illərdə Vedi rayonunda səlahiyyətli nümayəndə, 1932-1937-ci illərdə Amasiya rayon prokuroru, 1938-ci ildə İrəvan şəhər Kirov rayon prokuroru, 1938-1941-ci illərdə Ermənistan Ali Məhkəməsində prokuror, 1941-1947-ci illərdə Vedi rayon prokuroru, 1947-1952-ci illərdə yenidən Ali Məhkəmədə prokuror vəzifələrində işləmişdi. 1952-ci ildə Azərbaycana deportasiya olunmuş, 1963-cü ildə – təqaüdə çıxana qədər burada Gəncə şəhər prokurorunun müavini, Daşkəsən rayon prokuroru, Gəncə şəhər prokuroru vəzifələrində çalışmışdır. O, 1941-ci ildə Moskva Ali Hüquq Akademiyasını, 1945-ci ildə İrəvan Dövlət Universitetinin hüquq fakültəsini bitirmişdi. Ş.Məmmədov 1982-ci il aprelin 14-də Gəncə şəhərində vəfat etmişdir.





İndiki Ermənistan ərazisini erməniləşdirmək, Azərbaycanın digər torpaqlarını, öncə Dağlıq Qarabağı və Naxçıvanı "Ermənistan"a birləşdirib "Böyük Ermənistan" yaratmaq iddiasından heç vaxt əl çəkməyən ermənilər 1945-ci ildə Böyük Vətən müharibəsinin qurtarmasından istifadə edərək dərhal Stalinə müraciət edirlər. O vaxtkı Ermənistan KP-nın birinci katibi Q.Arutyunov Stalinə ünvanladığı noyabr 1945-ci il tarixli məktubunda Dağlıq Qarabağda 137 min nəfər erməni yaşadığını iddia edir, onların milli dildə öz ədəbiyyatını inkişaf etdirmək, kadrlarını yetişdirmək və s. "bu kimi milli tələblərini ödəmək üçün" Dağlıq Qarabağın Azərbaycandan alınıb "Ermənistan"a verilməsini xahiş edir.

Məktubun tam mətnini veririk:

***"RK(b)P MK-ya***
***Yoldaş Stalinə***

***İosif Vissarianoviç!***

**Ermənistan ərazisinə bitişik olan Dağlıq Qarabağ Muxtar Vilayəti 1923-cü ildən Azərbaycan SSR-nin tərkibinə daxildir. Bu vilayətin əhalisi əsasən ermənilərdir. 153 min nəfər əhalidən 137 mini ermənidir.**

**Dağlıq Qarabağın kənd təsərrüfatı Ermənistanın dağlıq hissəsinin təsərrüfatı ilə eyniyyət təşeil edır. Dağlıq Qarabağın Ermənistanın tərkibinə daxil edilməsi onun inkişafına xeyli köməklik göstərər, təsərrüfata rəhbərlik işini yaxşılaşdırardı. Ermənistanın respublika orqanları tərəfindən rəhbərlik şəraitində əhaliyə ana dilində mədəni-kütləvi və siyasi xidmət işi daha da güclənərdi.**

**Dağlıq Qarabağ vilayətinin Ermənistanın tərkibinə qatılması yerli kadrlara Ermənistanın ali məktəblərində öz təhsillərini davam etdirməyə imkan verərdi. Digər tərəfdən, Ermənistan SSR Dağlıq Qarabağdan öz işgüzarlığı ilə seçilən milli kadrlar əldə edə bilərdi. Halbuki hazırda onlardan Azərbaycanda, təbii ki, tam istifadə olunması mümkün deyil.**

**Dağlıq Qarabağ əhalisinin bu istəyindən çıxış edərək, Ermənistan MK-sı və Xalq Komissarları Soveti Azərbaycan SSR-nin Dağlıq Qarabağ Muxtar Vilayətinin Qarabağ vilayəti şəklində Ermənistan SSR-nin tərkibinə qatılması təklifini ÜİK(b)P MK-nın və İttifaq Hökumətinin müzakirəsinə təqdim edir.**

**Bu məsələnin müsbət həlli halında Ermənistan MK-sı və Xalq**

Komissarları Soveti Qarabağın keçmiş mərkəzi olan və Sovet hakimiyyətinin qurulması ərəfəsində dağıdılmış Şuşa şəhərinin bərpası təklifi ilə Hökumətə müraciət edəcəkdir.

*Ermənistan K(b)P MK-nın katibi Qr.Arutyunov*
*Noyabr 1945-ci il"*

İ.Stalin həmin məktubu ÜİK(b)P-nin katibi Malenkova, o isə öz növbəsində Azərbaycan K(b)P MK-nın katibi M.C.Bağırova ünvanlayır. Malenkovun məktubunun mətni:

*"Azərbaycan K(b)P MK-nın katibi*
*Bağırov yoldaşa*

Ermənistan K(b)P MK-nın katibi Arutyunov yoldaş hazırda Azərbaycan SSR-nin tərkibində olan Dağlıq Qarabağ vilayətinin Ermənistan SSR-nin tərkibinə qatılması haqqında təklifi ÜİK(b)P MK-nın müzakirəsinə təqdim edib.

Arutyunov yoldaş öz məktubunda bu barədə aşağıdakıları yazır: (Bu yerdə Ermənistan K(b)P MK-nın katibi Qr.Arutyunovun yuxarıdakı "Noyabr 1945-ci il" tarixli iəktubunun tam mətni verilir – Ə.Ə.).

Ermənistan K(b)P MK-nın təklifi ilə əlaqədar Sizin rəyinizi bilmək istərdik.

*ÜİK(b)P MK katibi MALENKOV*
*NR 17, Moskva, 28.XI.1945-ci il."*

Rəy üçün Azərbaycana göndərilən həmin məktuba cavabında M.C.Bağırov o vaxt üçün çox risqli addım ataraq, Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olduğunu xatırladır və Dağlıq Qarabağın Ermənistana veriləcəyi təqdirdə Azərbaycanın Rusiya, Gürcüstan və Ermənistan ərazilərindəki və bu gün əksər əhalisi azərbaycanlılardan ibarət olan tarixi torpaqlarının da ona qaytarılmalı olduğunu bildirir.

M.C.Bağırovun da məktubunun tam mətnini veririk:

*"Tam məxfidir*
*Malenkov yoldaşa*

Ermənistan Kommunist (bolşeviklər) Partiyası MK-nın katibi Arutyunov yoldaşın Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-nin tərkibinə daxil edilməsi haqqında təklifi ilə əlaqədar



Sizin teleqramınıza cavab olaraq məlumat verirəm:

Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisi qədim zamanlardan, mərkəzi 1747-ci ildə Qarabağlı Pənah xan tərəfindən qala kimi tikdirilmiş Pənahabad şəhəri olan Qarabağ xanlığının tərkibində olmuşdur.

1826-cı ildə Qarabağ çar Rusiyasına birləşdirilmişdir. Sonralar indiki Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisi Yelizavetpol quberniyasının Şuşa, Cavanşir, Qaryagin və Qubadlı qəzalarının tərkibində olmuşdur.

1918-1920-ci illərdə müsavatçıların Azərbaycanda və daşnakların Ermənistanda ağalığı dövründə müsavat hökuməti tərəfindən mərkəzi Şuşa (keçmiş Pənahabad) şəhəri olan general-qubernatorluq təşkil etmişdir.

Müsavatçılar və daşnaklar tərəfidən təşkil olunmuş millətlərarası qırğının nəticəsində Azərbaycanın və Ermənistanın bir çox şəhərləri kimi Şuşa da dağıdılmış və xarabalığa çevrilmişdir.

1920-ci ildə Azərabycanda Sovet hakimiyyəti qurulduqdan sonra ilk dövrlərdə bütün Qarabağın təsərrüfat-siyasi həyatına rəhbərlik vahid Vilayət İnqilab Komitəsi tərəfindən həyata keçirilirdi.

1923-cü ildə Qarabağın əsasən ermənilərin məskunlaşdığı dağlıq hissəsinin Ermənistan SSR-ə birləşdirilməsi məsələsi qaldırıldı. Lakin bu ərazinin Ermənistan SSR ilə ümumi sərhədlərinin olmaması və Ermənistandan yalnız azərbaycanlıların yaşadığı Qubadlı, Laçın, Kəlbəcər və Dəstəfur rayonları ilə ayrılması səbəbindən, partiya orqanlarının göstərişi əsasında Azərbacan Mərkəzi İcraiyyə Komitəsinin 7 iyul 1923-cü il tarixli dekreti ilə mərkəzi Xankəndi, indi Stepanakert adlanan Dağlıq Qarabağ Muxtar Vilayəti yaradıldı.

Beləliklə, Dağlıq Qarabağ Muxtar Vilayəti ərazi cəhətdən heç vaxt Ermənistan SSR-ə bitişik olmamışdır və hazırda da bitişik deyildir.

Azərbaycanda Sovet hakimiyyəti illərində Dağlıq Qarabağda vilayətin təsərrüfat-siyasi və mədəni inkişafı sahəsində böyük işlər görülmüşdür. Bu inkişafın ən parlaq nümunələrindən biri – DQMV-nin hazırki mərkəzi Stepanakert şəhərinin başlı-başına buraxılmış və dağıdılmış bir kənddən Azərbaycanın ən gözəl, abad və mədəni şəhərlərindən birinə çevrilməsidir.

Azərbaycan SSR-nin bütün ali təhsil məktəbləri və texnikumları tələbələrinin 20,5%-ni əksəriyyəti Dağlıq Qarabağ Muxtar Vilayətindən olan ermənilər təşkil edir.

Respublikanın partiya, sovet, təsərrüfat rəhbərləri – Azərbaycan K(b)P MK-nın katibləri, müavinləri, xalq komissarları, xalq

komissarları müavinləri və s. arasında Dağlıq Qarabağdan olan yoldaşlar da az deyildir.

Bununla belə, biz Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-nin tərkibinə qatılmasına etiraz etmirik, lakin Dağlıq Qarabağ Muxtar Vilayətinin tərkibində olmasına baxmayaraq, hazırda da əsasən azərbaycanlıların yaşadığı Şuşa rayonunun Ermənistan SSR-ə verilməsinə razı deyilik.

Şuşa şəhəri bina edildiyi gündən Qarabağın inzibati-siyasi və mədəni mərkəzi olmaqla yanaşı, həm də Azərbaycan xalqının öz müstəqilliyi uğrunda İran işğalçıları ilə apardığı mübarizədə müstəsna rol oynamışdır.

Ən qaniçən fatehlərdən biri, Zaqafqaziya xalqlarının cəlladı Ağa Məhəmməd şah Qacar məhz Şuşada öldürülmüşdür.

Azərbaycan xalqının zəngin musiqi mədəniyyəti bu şəhərdə formalaşmışdır. İbrahim xan, Vaqif, Natəvan və digər bu kimi görkəmli siyasət və mədəniyyət xadimlərinin adları onunla bağlıdır.

Eyni zamanda, ÜİK(b)P MK-nın nəzərinə çatdırmağı zəruri hesab edirik ki, DQMV-nin Ermənistan SSR-in tərkibinə daxil edilməsi məsələsinə baxılarkən, Ermənistan SSR-nin Azərbaycan respublikasına bitişik olan və əsasən azərbaycanlılarm yaşadığı Əzizbəyov, Vedi və Qarabağlar rayonlarının Azərabycan SSR-in tərkibinə daxil edilməsi məsələsinə də baxılmalıdır.

Bu rayonların mədəni və iqtisadi cəhətdən son dərəcə geri qalmasını nəzərə almaqla, bunların Azərbaycana verilməsi əhalinin maddi-məişət şəraitini və ona mədəni-siyasi xidmət işini yaxşılaşdırmağa imkan yaradardı.

ÜİK(b) MK-dən yuxarıda göstərilənlərdən əlavə aşağıdakı məsələlərə baxılmasını xahiş edirik:

Gürcüstanlı yoldaşlar Azərbaycan SSR-nin Balakən, Zaqatala və Qax rayonlarının Gürcüstan SSR-nin tərkibinə daxil edilməsi məsələsini qoyurlar.

Göstərilən rayonlarda əhalinin ümumi sayı 79.000 nəfər olduğu halda, cəmi 9.000 gürcü-inqiloyun yaşamasına baxmayaraq, biz bu məsələyə baxılmasma etiraz etmirik, lakin bu məsələ ilə bir zamanda Gürcüstan SSR-nin demək olar yalnız azərbaycanlıların yaşadığı və bilavasitə Azərbaycan SSR-ə bitişik olan Borçalı rayonunun Azərbaycan SSR-nin tərkibinə daxil edilməsi məsələsinə də baxılmalıdır.

Və nəhayət biz, Dağıstan SSR-nin keçmişdə Azərbaycanın bir hissəsi kimi Bakı quberniyası tərkibinə daxil olan və hazırda Azərbaycan SSR-ə bitişik olan Dərbənd və Qasımkənd rayonları ərazilərinin Azərabycan SSR tərkibinə qatılması məsələsini nəzərdən keçirmənizi xahiş edirik. Bu rayonların əhalisi əsasən azərbaycanlılardan ibarətdir, özü də maldarlıqla məşğul olan bu əhalinin yarıdan çoxu ilin 9 ayını Azərbaycan ərazisində keçirir.

Qaldırılmış bütün məsələlər üzrə təkliflərin hazırlanması üçün tərkibinə marağı olan hər bir respublikadan nümayəndələr daxil edilməklə ÜİK(b)P MK komissiyasının yaradılmasını məqsədəuyğun hesab edirik.

*Azərabycan K(b)P MK katibi (M.C.Bağırov)*
*10 dekabr 1945-ci il*
*№330, Bakı şəhəri.“*

Beləliklə, Dağlıq Qarabağı Azərbaycandan qoparmaq kimi murdar niyyətləri o vaxt boşa çıxan ermənilər, nəhayət, xaricdən ermənilərin gətirilib "Ermənistan"da yerləşdirilməsinə SSRİ rəhbərliyinin rəsmi razılığını alırlar. İ.Stalin 1945-ci il noyabrın 21-də “Ermənilərin xaricdən Sovet Ermənistanına qayıtmalarına (? – Ə.Ə) dair tədbirlər haqqında” sərəncam imzalayır. İ.Stalinin imzaladığı həmin sənədin iyrəncliyi öncə onda idi ki, burada xaricdə yaşayan ermənilərin Ermənistan SSR-ə məhz qayıtmalarından söz açılırdı. Nə özləri, nə də ulu babaları Qafqazın üzünü görməyən bu ermənilər guya ki, nə vaxtsa onların olan bir əraziyə qayıdırmışlar.

Bu sənədin ermənilər üçün nə demək olduğunu o vaxtkı Ermənistan rəhbəri Qr.Arutyunyanın 1946-cı il fevralın 2-də İrəvan seçiciləri ilə görüşündəki çıxışından da aydın görmək olar. Həmin çıxışında o bu fərmanı “ermənilərin birləşmək arzusunun gerçəkləşməsinə imkan verən sənəd“ kimi dəyərləndirir və onu “böyük Stalinin bütün erməni xalqına mehriban atalıq qayğısının təzahürü“ hesab edir.

Qr.Arutyunyamn məlumatına görə, qısa vaxtda Cənubi Amerikadan 32 min, Suriya və Livandan 50 min, Yunanıstandan 8 min, Tehrandan 17 min, Təbriz ermənilərinin 98 faizi, o cümlədən Fransa, Rumıniya, Bolqarıstan, Türkiyə və b. dövlətlərdən çoxlu sayda ermənilər Sovet Ermənistanı ərazisinə köçmək üçün müraciət etmişlər. Ümumiyyətlə isə, köçüb gəlmək istəyənlərin sayı 1 milyona yaxındır. Heç şübhəsiz, bunu SSRİ rəhbərliyindəki er-

mənilər və ermənipərəst qüvvələr və xaricdəki daşnaklar təşkil edirdilər. Lakin Qr.Arutyunun yuxarıdakı çıxışında bir məkrli məqam da var ki, o da köçüb gəlmək istəyənlərlə (1 milyon) Ermənistanın gələnləri qəbul edə bilmək imkanı (350-400 min) arasındakı fərqdir. Ona görə də Qr.Arutyunyan sual qoyur: "Bəs biz yerdə qalan 500-600 min nəfərlə nə etməliyik?" Özü də cavab verir: "Biz Türkiyə tərəfindən işğal olunmuş erməni vilayətlərinin Sovet Ermənistanına qaytarılması məsələsini qoyuruq".

Həqiqətən də o vaxt Ermənistan rəhbərliyi İttifaq hökuməti qarşısında belə bir məsələ də qaldırmışdı. Deməli, 1945-ci ildə ermənilər üç istiqamətdə fəaliyyət göstərirdilər: 1) Dağlıq Qarabağı istəyirdilər, 2) ermənilərin xaricdən köçürülüb gətirilməsi uğrunda çalışırdılar, 3) Türkiyədən torpaq tələb edirdilər.

Həmişə olduğu kimi, bu dəfə də ermənilər regionda yaranmış yeni siyasi vəziyyətdən öz xeyirlərinə istifadə etməyə, 2-ci dünya müharibəsindən qalib çıxmış ölkələrin əli ilə öz ərazilərini genişləndirməyə çalışırdılar. Dünya ermənilərinin o vaxtkı katolikosu IV Gevorkun SSRİ XKS sədri Stalinə, ABŞ prezidenti Trumenə və Böyük Britaniyanın baş naziri Ettliyə ünvanladığı 27 noyabr 1945-ci il tarixli məktub bu baxımdan ermənilərin bütün iç üzünü açıb ortaya qoyur.

1946-cı ildən Ermənistana köçürülməyə başlanan ermənilərin bir hissəsi də Vedi rayonunun azərbaycanlı kəndlərinə paylaşdırılır. Onların, demək olar ki, əksəriyyəti azərbaycanlıların tövlələrində, istifadəsiz uçuq-sökük damlarında yerləşdirilirlər.

Bunun ardınca ermənilər daha məkrli bir plana əl atır, xaricdən "köçüb gələn" ermənilərin məskunlaşdırılmasındakı çətinlikləri guya aradan qaldırmaq məqsədilə Ermənistanda yaşayan azərbaycanlı əhalinin bir hissəsinin Azərbaycanın Kür-Araz ovalağına köçürülməsi ideyasını ortaya atırlar. Bu işdə onlara Moskvada nüfuz sahibi olan A.Mikoyan, L.Beriya və Deqanazov (Deqanazyan) böyük köməklik göstərirlər. Azərbaycanda Mingəçevir SES-in tikilməsi ilə əlaqədar 600 min hektar suvarılacaq yeni torpağın istismarı zərurətini bəhanə gətirərək M.C.Bağırovu da bu işə razılıq verməyə sövq edirlər. Beləliklə, Ermənistan KP MK-nın birinci katibi Q.Arutunyov və Azərbaycan rəhbəri M.C.Bağırov 10 dekabr 1947-ci il tarixli aşağıdakı məktubla İ.V.Stalinə müraciət edirlər:



***"İ.V.Stalin yoldaşa***

**Son illər Azərbaycan və Ermənistan Respublikalarında baş vermiş təsərrüfat dəyişiklikləri nəticəsində meydana çıxmış bir sıra məsələlələr üzrə fikir mübadiləsi etdikdən sonra aşağıdakı təkliflərlə Sizə müraciət edirik.**

**Mingəçevir sisteminin həyata keçirilməsi zamanı suvarılma nəticəsində yeni torpaq sahələrinin meydana gəlməsi və pambıqçılıq rayonlarının mövcud kolxozlarında işçi qüvvəsinin çatışmaması, habelə pambıq məhsuldarlığının yüksəldilməsi vəzifəsi Azərbaycan SSR-nin bu rayonlardakı əhalisinin artırılması məsələsini ortaya çıxarır.**

**Ermənistanda yaşayan azərbaycanlı əhalinin 130 min nəfər miqdarında həmin rayonlara köçürülməsi bu məsələnin real həlli ola bilərdi.**

**Azərbaycanlı əhalinin Ermənistandan Azərbaycana köçürülməsi xarici ölkələrdən öz vətənlərinə qayıdan ermənilərin qəbul edilməsi və yerləşdirilməsi vəzifəsini xeyli asanlaşdırmış olardı.**

**Azərbaycanlı əhilinin köçürülməsi nəticəsində boşalan torpaqlar və mənzillər Ermənistana qayıdan xarici ermənilər sırasından olan kəndlilərin məskunlaşdırılması üçün istifadə oluna bilərdi.**

**Bu mülahizələrə əsaslanmaqla Sizin sanksiyanızı xahiş edirik:**

**1. Ermənistan SSR-də yaşayan azərbaycanlı əhalinin Azərbaycan SSR-nin əhalisi az olan pambıqçılıq rayonlarına köçürülməsinə və boşalmış torpaqları və mənzilləri xarici ölkələrdən Ermənistan SSR-ə qayıdan ermənilərin qəbul edilməsi və yerləşdirilməsi üçün istifadə olunmasına;**

**2. Azərbaycan SSR və Ermənistan SSR Nazirlər Sovetinə köçürülmə qaydalarının işlənib hazırlanmasına, habelə köçürülmənin həyata keçirilməsinə rəhbərlik edilməsi üçün birgə komissiyanın yaradılmasına icazə verilməsinə;**

**3. Bu tədbirlərlə əlaqədar xərclərin İttifaq büdcəsinə götürülməsinə.**

***Azərbaycan K(b)P MK katibi (M.C.Bağırov)***
***Ermənistan K(b)P MK katibi (G.A.Arutyunov)***
***10 dekabr 1947-ci il"***

Bir neçə gün sonra – 23 dekabr 1947-ci il tarixdə İ.V.Stalin həmin məktub əsasında "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" aşağıdakı qərarı imzalayır:

*"SSRİ NAZİRLƏR SOVETİ*
*QƏRAR № 4083*

*23 dekabr 1947-ci il* *Moskva, Kreml.*

***Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi haqqında***

SSRİ Nazirlər Soveti QƏRARA ALIR:

1. 1948-1950-ci illərdə Ermənistan SSR-dən 100 min kolxozçu və başqa azərbaycanlı əhali könüllülük əsasında Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülsün; onlardan: 10 min nəfər – 1948-ci ildə, 40 min nəfər – 1949-cu ildə və 50 min nəfər – 1950-ci ildə.

2. Azərbaycan SSR Nazirlər Sovetinə və Ermənistan SSR Nazirlər Sovetinə tapşırılsın:

a) kolxozçular və digər azərbaycanlı əhali arasında Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülənlərə dövlətin yaratdığı şərait və verdiyi güzəştlər barədə izahetmə işləri təşkil edilsin;

b) kolxozların köçkün-kolxozçulara, onların yola düşməsinə 10 gün qalmasından gec olmayaraq, qazandıqları əmək günlərinin kolxozların istehsalat planları ilə nəzərdə tutulmuş ölçülərdə haqq-hesabı təmin edilsin;

v) köçkünlərin şəxsi istifadəsində olan bütün əmlakın, mal-qaranın və quşların daşınması təmin edilsin.

3. Nazirliklərin və baş idarələrin, idarə və müəssisələrin rəhbərlərinə bir vəzifə olaraq tapşırılsın ki, Ermənistan SSR-dən Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçən şəxsləri işdən azad etsinlər.

4. Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürüləcək azərbaycanlı əhali üçün aşağıdakı güzəştlər müəyyən edilsin:

a) köçürülən hər ailəyə 2 ton ev əşyası və kənd təsərrüfatı heyvanlarını aparması üçün dövlət hesabına pulsuz gediş təmin edilsin;

b) Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürüləcək kolxozçulara, məcburi süd tədarükü üzrə güzəşt istisna olmaqla, «Kənd təsərrüfatında köçürmə işləri üzrə güzəştlər haqqında» SSRİ Mərkəzi İcraiyyə Komitəsi və SSRİ Xalq Komissarları Sovetinin 1937-ci il 17 noyabr tarixli 115/2043 nömrəli qərarı şamil edilsin;

v) köçmə zamanı köçkünlərin ailələrinə qaytarılmamaq şərti ilə ailə başçısına 1000 manat və ailənin hər bir üzvünə 300 manat məbləğində müavinət verilsin;

q) Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülmüş ailələrin məskunlaşdığı yerlərdə ailə başçısına 1,5 sentner və hər



bir ailə üzvünə 0,5 sentner nəğd hesabla ərzaq taxılı satılsın.

5. Ermənistan SSR-dən Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülən azərbaycanlı əhaliyə, məskunlaşacağı yerlərdə mübadilə qəbzi əsasında həmin miqdarda məhsul və mal-qara almaq hüququnu saxlaması ilə, tərk etdikləri yerlərdə tədarük təşkilatlarına kənd təsərrüfatı məhsullarını (taxıl, kartof), habelə karantin şərtlərinə görə daşınması qadağan edilmiş mal-qaranı təhvil verməsinə icazə verilsin.

6. Kənd təsərrüfatbanka tapşırılsın;

a) Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülənlərdən ehtiyacı olanlara ev tikmək və həyətyanı tikinti üçün 20 min rubl məbləğində, kreditin alındığından 3 il sonra başlayaraq 10 il müddətində ödəməklə kredit verilsin;

b) ehtiyacı olan köçkünlərə hər ailəyə, ssuda alındıqdan sonra, üçüncü ilindən başlayaraq ödənilməklə mal-qara almaq üçün 3 min rubl məbləğində uzunmüddətli ssuda verilsin.

7. Dəmir Yolları Nazirliyinə bir vəzifə olaraq tapşırılsın:

a) Ermənistan SSR Nazirlər Sovetinin sifarişləri əsasında azərbaycanlı əhalinin, onların əmlakının və mal-qarasının Azərbaycan SSR-ə daşınması xüsusi düzəldilmiş eşalonla dezinfeksiya edilmiş və avadanlıqla təchiz olunmuş vaqonlarda təmin edilsin;

b) köçkünlərin köçdükləri yerlərdə vaqonlara görə ödəniş tutulmadan Dəmir Yollar Nazirliyinin, Azərbaycan SSR Nazirlər Sovetinin təsdiq etdikləri qrafik üzrə Yollar İdarəsi vaqonların göndərilməsini həyata keçirsin. Azərbaycanlı əhalinin daşınmasına görə pul hesabı Dəmir Yol İdarəsi tərəfindən təqdim edilmiş, hesabdan mərkəzləşdirilmiş şəkildə həyata keçirilsin.

8. SSRİ Səhiyyə Nazirliyinə tapşırılsın ki, çıxış yerlərində bütün köçkünlərin tibbi müayinədən keçirilməsini və onlara yol boyunca tibbi-sanitar xidməti göstərilməsini təmin etsin.

Eşalonu müşayiət etmək üçün tibbi personal və lazımi dərman ayrılsın.

9. SSRİ Maliyyə Nazirliyinə tapşırılsın ki, Azərbaycan SSR-nin 1948-ci il büdcəsində Ermənistan SSR-dən azərbaycanlı əhalinin Azərbaycan SSR-ə köçürülməsini təmin etmək üçün lazımi xərcləri nəzərdə tutsun.

10. Azərbaycan SSR Nazirlər Sovetinə və Ermənistan SSR Nazirlər Sovetinə tapşırılsın ki, Ermənistan SSR-dən köçürülən əhalinin Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsini və yerləşdirilməsini təmin etmək üçün bu qərarın icrası ilə əlaqədar olaraq bir ay müddətində birgə konkret tədbirlər planı işləyib hazırlasınlar və

onlar haqqında SSRİ Nazirlər Sovetinə məlumat versinlər.

11. Ermənistan SSR Nazirlər Sovetinə icazə verilsin ki, azərbaycanlı əhalinin Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar onların boşaltdıqları tikililəri və yaşayış evlərini xaricdən Ermənistana gələn erməniləri yerləşdirmək üçün istifadə etsinlər.

*SSRİ Nazirlər Sovetinin sədri:* *İ.Stalin.*
*SSRİ Nazirlər Soveti İşlər İdarəsinin rəisi:* *Y.Çadayev."*

1948-ci il martın 10-da isə həmin qərarın yerinə yetirilməsinə dair tədbirlər planı barədə ikinci qərara imza atılır.

Həmin qərarın da tam mətnini oxuculara təqdim edirik:

*"SSRİ NAZİRLƏR SOVETİ*
*QƏRAR №754*

*10 mart 1948-ci il* *Moskva, Kreml.*

*Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında*

SSRİ Nazirlər Soveti «Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi haqqında» 23 dekabr 1947-ci il 4083 №-li Qərarına əlavə olaraq QƏRARA ALIR:

1. Azərbaycan SSR-nin Kür-Araz ovalığına tam heyətdə köçürülən kolxozlara köməkçi müəssisələrdən (dəyirmanlar, yarma maşınları, elektrik stansiyaları) və başqa mədəni-məişət tikililəri istisna olmaqla, istifadələrində olan bütün istehsal vasitələrini (kənd təsərrüfatı maşınlarını, inventarı, canlı və mexaniki qoşquları, bütün növdən olan mal-qaranı və quşları, arı ailələrini, nəqliyyat vasitələrini və digər əmlakı, habelə, natural və digər fondları) özləri ilə aparmalarına icazə verilsin.

2. Müəyyən edilsin ki, kolxozçuları Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülən Ermənistan SSR kolxozları, köçmə anına qədər onların payına düşən daşınar əmlakı (kənd təsərrüfatı maşınlarını, inventarı, canlı və mexaniki qoşquları, bütün növdən olan mal-qaranı və quşları, arı ailələrini, nəqliyyat vasitələrini, natural və digər fondları) köçkünlərin daxil olduğu kolxozlara verir, onların payına düşən əmlak (çoxillik ağaclar, dəyirmanlar, elektrostansiyalar və digər təsərrüfat və məişət tikililəri) payının dəyərini Azərbaycan SSR Nazirlər Sovetinin və Ermənistan SSR Nazirlər Sovetinin təyin etdiyi vaxtda onların yerləşdikləri kolxozların hesablarına köçürürlər.

3. Azərbaycan SSR Nazirlər Sovetinə və Ermənistan SSR Nazirlər Sovetinə bir vəzifə olaraq tapşırılsın ki, Ermənistan SSR-dən Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçən kolxozlar, kolxozçular və digər azərbaycanlı əhali ilə onların Ermənistan SSR-də qoyduqları daşınmaz əmlaka görə bir ay müddətində haqq-hesab qaydalarını müəyyən etsinlər.

4. Azərbaycan SSR Nazirlər Sovetinə və Ermənistan SSR Nazirlər Sovetinə bir vəzifə olaraq tapşırılsın ki, Ermənistan SSR-dən Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülən köçkün-kolxozçulara, eyni zamanda fəhlə və xidmətçilərə çıxdıqları yerdə onlara məxsus evləri satmaqda kömək etsinlər.

5. Azərbaycan SSR Nazirlər Soveti yanındakı Kolxoz təsərrüfatlarının köçürülməsi və əhalinin təxliyəsinin təsərrüfat quruluşu üzrə şöbəsinin Azərbaycan SSR Nazirlər Soveti yanında Köçürmə İdarəsinə çevrilməsi məqsədəuyğun hesab edilsin.

6. Kür-Araz Ovalığı Suvarılan Torpaqların İstifadə İdarəsinə köçürülən kolxozlara və köçürülən kolxozçulara tikinti materiallarının təminatında kömək, eyni zamanda göstərilən köçkünlərin yaxşı yerləşdirilməsi üçün lazım olan köməkçi müəssisələrin tikintisində texniki kömək göstərməsi tapşırılsın.

7. Azərbaycan SSR Nazirlər Sovetinə və SSRİ Kənd Təsərrüfatı Nazirliyinə «Azərköçürmətinki» kontoru əsasında Kür-Araz ovalığı Suvarılan Torpaqların İstifadəsi İdarəsi tabeliyində «Azərköçürmətikinti» tresti yaratmasına və eyni zamanda həmin trestin nəzdində Salyan, Əli-Bayramlı, Sabirabad və Puşkin məntəqələrində tikinti-quraşdırma kontorları təşkil etməsinə icazə verilsin.

8. Azərbaycan SSR Nazirlər Sovetinə icazə verilsin:

a) Ermənistan SSR-dən kolxozçular və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürüləcəyi müddətdə Ermənistan SSR-də (Yerevan ş.) nümayəndəliyini təşkil etsin;

b) 1948-ci ildə Ermənistan SSR-dən Azərbaycan SSR-nin Kür-Araz ovalığına azərbaycanlı əhalinin köçürülməsi ilə əlaqədar olaraq hazırlıq işlərinin (layihələşdirmə, köməkçi müəssisələrin tikintisi, meşəsənayetəsərrüfatının təşkil edilməsi, nəqliyyat vasitələri, tikinti avadanlıqları və materiallar alınması) həyata keçir-

mək üçün 1948-ci ildə respublika üzrə mərkəzləşdirilməmiş (limitdənkənar) kapital işləri üçün nəzərdə tutulmuş vəsaitdən 11 mln. rubl xərclənilsin;

v) 1948-ci ildə Molotov vilayətində ağac tədarükü işlərinə və Kür-Araz Ovalığı Suvarılan Torpaqların İstifadəsi İdarəsinin apardığı işlərə respublikanın kənd əhalisindən 700 nəfərdən ibarət mütəşəkkil yığım həyata keçirilsin.

9. Kür-Araz Ovalığı Suvarılan Torpaqların İstifadəsi İdarəsinə icazə verilsin:

a) 1948-ci ildə qurğular, binalar və yardımçı müəssisələrin tikintisi işləri, eyni zamanda köçürülən tikintisinin, Kənd təsərrüfatı bankı ilə razılaşdırılmış smeta-maliyyə haqq-hesabı üzrə daha da genişləndirilməsi üçün hazırlıq tədbirləri həyata keçirilsin;

b) 1948-1950-ci illərdə Molotov vilayətindəki meşə sənayesi təsərrüfatının istehsalat gücü ildə 100 min kubmetr işlək taxta həcmində artırılsın.

SSRİ Meşə Təsərrüfatı Nazirliyi Molotov vilayətinin üçüncü qrup meşələrindəki meşə-xammal bazasını müvafiq olaraq Azərbaycan SSR-nin Kür-Araz Ovalığı Suvarılan Torpaqların İstifadəsi İdarəsinə müvafiq olaraq təhkim edilsin.

10. SSRİ Dövlət Təchizat Komitəsinə, Avtomobil və Traktor Sənayesi Nazirliyinə, Maşınqayırma və Cihazqayırma Nazirliyinə, Elektrosənaye Nazirliyinə, SSRİ Ət və Süd Sənayesi Nazirliyinə bir vəzifə olaraq tapşırılsın ki, 1948-ci ildə Azərbaycan SSR Nazirlər Sovetinə Kür-Araz Ovalığı Suvarılan Torpaqların İstifadə İdarəsi üçün Əlavəyə müvafiq olaraq avadanlıqlar və materiallar göndərsinlər.

11. Azərbaycan SSR Nazirlər Soveti ilə razılaşdırmaqla Mərkəzittifaqa bir vəzifə olaraq tapşırılsın ki, Ermənistan SSR-dən Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülən kolxoz və kolxozçulara satmaq üçün Azərbaycan SSR-ə tikinti materialları və avtomaşınlar gətirsinlər.

12. Nəqliyyat Nazirliyinə bir vəzifə olaraq tapşırılsın ki, 1948-ci ildə Azərbaycan SSR-nin Kür-Araz Ovalığı Suvarılan Torpaqların İstifadə İdarəsi üçün Azərbaycan SSR-nin Lənkəran, Salyan, Saracalar, Saatlı, Qırmızıkənd, Daykənd, Papanin, Yeni Osmanlı, Daşburun, Ucar və Masallı dəmiryol stansiyalarında, dəmir yolunun ixtiyarında olan sahələr hüdudlarında yükboşaltma və rels anbarları üçün yükləmə-boşaltma meydançalarına dalanların çəkilməsi ilə hər biri 600 metr uzunluğunda sahə ayrılmasını təmin etsin.



Göstərilən işlərin həyata keçirilməsi Azərbaycan SSR Kür-Araz Ovalığı Suvarılan Torpaqların İstifadə İdarəsinə həvalə edilsin.

13. SSRİ Kənd Təsərrüfatı Nazirliyinə 1948-ci ildə Azərbaycan SSR-nin Nazirlər Soveti üçün Azərbaycan SSR ağac tədarükü təşkilatlarına satmaq üçün at zavodlarında çıxdaş edilmiş 50 at ayırmağa icazə verilsin.

14. SSRİ Nazirlər Soveti yanında Dövlət ştat komissiyasına tapşırılsın ki, bir ay müddətində Azərbaycan SSR Nazirlər Soveti yanında Köçürmə İdarəsinin, «Azköçürmətikinti» trestinin və onun tikinti-quraşdırma kontorlarının, eyni zamanda Ermənistan SSR Yerevan şəhərindəki Azərbaycan SSR Nazirlər Sovetinin nümayəndəliyinin ştat cədvəlinə baxsın və təsdiq etsin.

*SSRİ Nazirlər Sovetinin sədri* *İ.Stalin.*
*SSRİ Nazirlər Soveti İşlər İdarəsinin rəisi* *Y.Çadayev."*

Bu qərarlarda Ermənistanda yaşayan azərbaycanlıların könüllülük əsasında köçürülməsi xüsusi qeyd olunsa da, əslində, bu, gözdən pərdə asmaq üçün idi. Xüsusilə strateji məntəqələrdə adamlar köçürülməyə Stalin dövrünə xas qəddarlıqla məcbur edilirdilər. Belə məntəqələr sırasına şəhər və şəhərətrafı, dəmiryol stansiyalarına yaxın, magistral avtomobil yollarının üstündəki yaşayış məntəqələri daxil idilər. Erməni daşnaklarına qarşı mübarizə tarixi ilə fərqlənən azərbaycanlı bölgələri də ilkin olaraq ermənilərin qara siyahılarına düşmüşdü. Təsadüfi deyil ki, bütün Ermənistanda ermənilər 1948-ci il köçürülməsinə Vedibasar ma-



halından – Qarabağlar rayonundan başladılar. Rayonun birinci katibi Talıb Musayev 1946-cı ildə Basarkeçər rayonunun birinci katibi vəzifəsinə dəyişdirildiyindən həmin vaxt- dan rayonda onu **Cəfər Vəlibəyov** əvəz edirdi. Cəfər Vəlibəyovun bu vəzifəyə təyin edilməsi ilə bağlı onun yaxın qohumu – 1937-ci ildən RİK sədri işləyən Musa Vəlibəyov işdən azad olunub, yerinə Qazar Akopyan adlı bir erməni təyin edilmişdi. Vedi rayonunun birinci katibi vəzifəsində isə **ƏLİ MƏMMƏDOV,**

RİK sədri vəzifəsində **Mirzə Bəşirov** idi.

1948-ci ildə Qarabağlar rayonu qeyri-rəsmi ləğv edilib, təzədən Vedi rayonuna birləşdirildi. Hər iki rayonun azərbaycanlı rəhbərləri tutduqları vəzifələrdən kənarlaşdırılıb, erməni kadrla əvəz edildilər. R.Azgeldyan Vedi rayonuna birinci katib, Ə.Məmmədov RİK sədri təyin olundular. Həmin il rayonda prokuror, səhiyyə şöbəsinin müdiri, maarif müdiri, milis rəisinin müavini və s. rəhbər vəzifələrdə çalışan bütün azərbaycanlılar işdən çıxarıldı və həmin vəzifələrə bir daha azərbaycanlılar yaxın buraxılmadı. Başçısız və başsız qalan Qarabağlar rayonu ərazisinin, demək olar ki, bütün müsəlman kəndləri, Vedi rayonu kəndlərinin isə əksəriyyəti köçürülmə aksiyasının qurbanı oldu. Qarabağlar rayonu rəsmi olaraq isə 1951-ci il martın 19-da ləğv edildi və onun kəndləri əsasən Vedi, qismən də Qəmərli və Ellər rayonlarına birləşdirildi.

Yeri gəlmişkən xatırlatmağa dəyər ki, yerli azərbaycanlı əhalinin öz dədə-baba yurdlarından deportasiyası aksiyasında erməni şovinistləri ilə yanaşı, Azərbaycandan bu məqsədlə göndərilən nümayəndə heyətləri də xüsusi fəallıq göstərirdilər. Məsələn, 1948-ci ildə təbliğat məqsədilə Bakıdan o zamankı Nazirlər Sovetinin sədr müavini Əzizbəyov, Mədəni-maarif komitəsinin sədr müavini Talıblı və Azərbaycan radiosunun diktoru Aydın Qaradağlıdan ibarət bir qrup da Böyük Vediyə göndərilmişdi. Vedi rayon partiya komitəsinin o vaxtkı ikinci katibi Bilal Eyvazovun rəhbərliyi ilə rayon mərkəzindəki mədəniyyət evində yığıncaq keçirilmiş, Aydın Qaradağlı məlahətli səsi ilə gözəl mühazirə oxumuşdu. Gələn nümayəndələr belə bir fikir irəli sürmüşdülər ki, Azərbaycanda Mingəçevir deyilən bir SES tikilir və buranın böyük gələcəyi var. Məsləhətdir ki, xüsusi nümayəndə heyəti yaradılıb, ora göndərilsinlər və baxıb, bəyənib, gəlib bütün Vedibasar camaatını mütəşəkkil halda ora köçürsünlər. Beləliklə, rayon İcraiyyə Komitəsinin sədri **Mirzə Bəşirov**, keçmiş RİK sədri, Vedibasar üzrə köçürmə komissiyasının sədri **Qasım Məmmədov** və daha bir nəfər Azərbaycana yola salınırlar.

Lakin Azərbaycana göndərilənlər bir daha geri qayıtmırlar. Niyəsi məlumdur: Mirzə Bəşirov o vaxtkı Kirovabad (indi Gəncə) şəhərində yağ-piy kombinatının direktoru, Qasım Məmmədov isə Bərdə Rayon İcraiyyə Komitəsinin sədri vəzifələrinə



təyin olunurlar. Əslində bu, Vedibasar camaatının başını pozmaq, onların mütəşəkkilliyini dağıtmaq üçün idi. Doğrudan da, bu gün baxıb görürük ki, həmin illərdə Qarabağlar-Vedi rayonlarında kəndlərin əksəriyyəti eyni və ya yaxın vaxtlarda köçürülsə də, onları, demək olar ki, bütün Azərbaycan Respublikası boyu səpələyiblər. Görünür, 1918-1921-ci illərdə Abbasqulu bəyin, 1928-1931-ci illərdə isə Kərbəlayı İsmayılın başçılığı altında vedibasarlıların nümayiş etdirdiyi mütəşəkkilliyin qorxusu hələ də ermənilərin canından çıxmayıbmış.

Beləliklə, öncə Goravan kəndi əvvəl Dağlıq Qarabağın Martuni rayonuna, bir il sonra oradan da Xanlar rayonuna köçürülüb məskunlaşdırılır. Bunun ardınca Vedibasar camaatı Şəmkir, Ağstafa, Bərdə, Salyan, Beyləqan, Sabirabad, Əli Bayramlı, İmişli, Biləsuvar, Ucar, Ağcabədi, Göyçay və başqa rayonlara köçürülürlər.

1948-1953-cü illər köçürülməsinin Vedibasar mahalı üçün nəticələrindən biri də bu oldu ki, həmin aksiyadan sonra mahal ərazisində 48 azərbaycanlı kəndi həmişəlik xarabalığa çevrildi. Əksəriyyəti dağlıq olan bu kəndlərə xaricdən gətirilən ermənilər getmədi, onlar daha çox aran, şəhər və şəhərətrafı yaşayış məntəqələrinə toplaşdılar. Bu, bir daha sübut edir ki, Ermənistandan azərbaycanlıların köçürülməsində başlıca məqsəd heç də xaricdən gətirilən ermənilərin yerləşdirilməsi yox, əksinə, Ermənistanın azərbaycanlısızlaşdırılması, yəni türksüzləşdirilməsi idi.

1953-cü ildə türk-müsəlman xalqlarının cəlladı Stalinin vəfatından sonra Ermənistan azərbaycanlılarının Azərbaycana köçürülməsi prosesi sürətlə zəifləməyə başlayır və az sonra əks-prosesə çevrilir. Təkcə belə bir faktı xatırlatmaq kifayətdir ki, 1954-cü ilin aprelinə qədərki bir neçə ay ərzində 1155 təsərrüfat köçürüldükləri rayonlardan geriyə – "Ermənistan"dakı öz dədə-baba yurdlarına qayıdırlar. Bunların arasında vedibasarlılar da az deyildi. Yuxarı dağ kəndləri artıq tamam ləğv edildiyindən geri qayıdanlar aşağı aran kəndlərində məskunlaşmağa məcbur olurlar.

Əhalinin bu cür kütləvi geri qayıtmasından təşvişə düşən Ermənistan rəhbərləri dərhal buna öz etirazlarını bildirirlər. Azərbaycan rəhbərləri ilə birlikdə bu prosesin qarşısını almaq barədə tədbirlər planlaşdırılır. Azərbaycan rayonlarının rəhbərlərinə təcili təlimatlar göndərilir, görülən tədbirlər nəticəsində geriyə

qayıdışın qarşısı xeyli alınır.

Lakin bunsuz belə ermənilər artıq öz istəklərinə nail olmuşdular. Bu köçürülmədən sonra "Ermənistan"da azərbaycanlı kadrların sayı xeyli azalmış, əksər rayonlarda əsas vəzifələr ermənilərin əlinə keçmişdi. Məsələn, Vedi və Qarabağlar rayonlarının 1-ci katibləri, "Ermənistan"ın 7 rayonunda olan 7 ikinci və üçüncü katiblər, 6 rayonunda olan RİK sədrləri, mərkəzi orqanlarda çalışan digər onlarla azərbaycanlı vəzifədən kənarlaşdırılmışdı. 1928-ci ildən fəaliyyət göstərən İrəvan Azərbaycan Dram Teatrı respublikanın ucqar Basarkeçər rayonuna köçürülərək əyalət teatrı səviyyəsinə endirilmiş, Azərbaycan dilində nəşr olunan 13 rayon qəzetindən 9-u bağlanmış, qalan 4-də isə azərbaycancaya çox az yer saxlanmışdı. Yaranmış vəziyyət həm də yerlərdə müsəlman-türk əhalinin addımbaşı sıxışdırılması ilə müşaiyət olunurdu. Ermənilər yerlərdə azərbaycanlıları sıxışdırmaq üçün Moskvanın gözü qarşısında hətta inzibati oyunbazlıqlardan belə çəkinmirdilər. Vedibasar mahalı artıq 1937 və 1948-ci illərdə belə oyunbazlığın şahidi olmuşdu. 1964-cü ildə isə respublikanın erməni rəhbərliyi növbəti bir gediş etdi – Vedi rayonunu ləğv edib, erməniləşmiş qonşu Qəmərli (Artaşat) rayonuna birləşdirməklə Vedidəki olan-qalan azərbaycanlı rəhbər kadrları da sıradan çıxardı. Sonuncu azərbaycanlı RİK sədri (Talıb Musayev) də elə o vaxt vəzifədən uzaqlaşdırıldı. Az sonra yenidən bərpa olunmuş Vedi rayon rəhbərliyinə daha azərbaycanlılardan heç kim təyin olunmadı. Bütün bunların nəticəsi idi ki, həmin illərdən başlayaraq 1988-ci ilə qədər Ermənistandan azərbaycanlıların köçüb Azərbaycana gəlməsi dönməz proses kimi gündən-günə güclənmişdi. A.Mikoyan SSRİ Ali Sovetinin Rəyasət Heyəti sədrinin birinci müavini (1964-cü ilə qədər) və SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri (1964-1965-ci illər) olduğu vaxtlarda "Ermənistan"da millətçilik, Azərbaycana və azərbaycanlılara qarşı düşmənçilik daha da güclənmiş, milli zəmində toqquşmalar baş vermişdi.

Belə toqquşmalar Vedi rayonunda da olmuşdu. 1965-ci ilin 24 aprelində yalançı "erməni genosidi"nin 50 illiyini geniş qeyd edən erməni rəhbərliyinin əsas məqsədi bir tərəfdən ermənilərdə millətçilik hisslərini dərinləşdirmək idisə, digər tərəfdən azərbaycanlılar arasında vahimə yaratmaqla onların daha sürətlə



köçüb Azərbaycana getmələrinə nail olmaq idi.

Həmin 1965-ci ildə rayon, kənd rəhbərlərinə tapşırılmışdı ki, aprelin 15-dən 30-a kimi ermənilərlə azərbaycanlılar bir yerdə işləməsin, aprelin 22-dən 27-ə kimi isə ümumiyyətlə azərbaycanlılar heç yerdə işə çıxmasınlar. Şənlik-toy keçirmək qəti qadağan edilmişdi. Buna baxmayaraq, aprelin 24-də ermənilər Dəvəlidə Sədərək kəndindən olan bir nəfər azərbaycanlını qətlə yetirdilər. Aprelin 25-də bu hadisə azərbaycanlı əhali ilə ermənilərin üz-üzə dayanmasına səbəb oldu. Çox böyük çətinliklə, İrəvandan və qonşu rayonlardan rəhbər işçilərin hadisə yerinə gəlməsi, bu cinayəti törədən erməni "dığa"larının həbs edilib cəzalandırılacağına dönə-dönə söz verilməsi nəticəsində azərbaycanlıları sakitləşdirmək mümkün oldu.

Lakin artıq gec idi. Ermənistanda başlanan millətçilik azarı getdikcə şiddətlənməkdə, erməni yazıçı və alimləri "erməni xəstəliyi"nin ən qorxunc virusları ilə yoluxdurulmuş mənəvi cəhətdən şikəst bir gənclik yetişdirməkdə idi.

Bu proses 1985-ci ildə ermənipərəst M.S.Qorbaçovun SSRİ rəhbərliyinə gətirilməsinə qədər davam etdi. 1985-ci ildə öz çirkin niyyətlərini həyata keçirmək üçün yeni bir fürsət qazanan ermənilər iki il yarımlıq hazırlıqdan sonra konkret əməli fəaliyyətə başladılar. İlk addım olaraq, bu yolda onlar qarşılarında ən böyük manea kimi dayanan Heydər Əliyevin 1987-ci ilin oktyabrında Moskvada vəzifədən götürülməsinə nail oldular. Az sonra – həmin ilin noyabrında Aqanbekyan Fransanın "Humanite" qəzetində "Qarabağ problemi"ni ortaya atdı və 1988-ci ilin fevralında Qarabağ münaqişəsi başladı.

O vaxtkı Azərbaycan rəhbərliyinin qətiyyətsizliyi və tam gözləmə mövqeyi tutması, nəinki "Ermənistan"dakı azərbaycanlıların, heç öz ərazisindəki vətəndaşlarının əmin-amanlığını və respublikanın ərazi bütövlüyünü qorumaq iqtidarında olmaması "Ermənistan" azərbaycanlılarında öz təhlükəsizliklərinə bir inamsızlıq yaradırdı. Günbəgün və açıq-aşkar silahlanan ermənilərin qarşısında özünü əliyalın və köməksiz görən azərbaycanlı əhali ev-eşiklərini atıb-getməyə məcbur edilirdi. Müqavimət göstərənlər müxtəlif bəhanələrlə həbs edilir, işgəncələrə məruz qalır, təhqir olunur, döyülür, söyülür, öldürülürdülər.

Ermənilər azərbaycanlılarm silahsız olduqlarını bildiklərindən ayaqları daha da yer alır, quduzlaşırdılar. Belə ki, bir il əvvəl rayon rəhbərləri, milis, prokurorluq camaatda olan bütün silahları yığmışdılar.

Vedi rayonunda azərbaycanlıların yaşadığı kəndlərə ilk kütləvi hücumlar 1988-ci ilin aprelində Kiçik Vedi kəndindən başladı. Aprelin 26-da qonşu erməni kəndlərindən, Qəmərli, Zəngibasar rayonlarından, İrəvan şəhərindən axışıb gələn xeyli erməni kəndin azərbaycanlılar yaşayan məhəlləsinə doldular. Dəmir çubuq, ağac, lom, balta, bel, daş, tüfəng, bıçaqla silahlanmış 400 nəfərdən çox erməni azərbaycanlı evlərinin qapı-pəncərələrini, damların şiferlərini daşa tutdular, sındırıb-dağıtdılar. Amma evlərə girməyə cəsarət etmədilər. Əslində, bu, ilk xəbərdarlıq idi, azərbaycanlıları qorxudub, doğma yurdlarından qovub çıxartmaq məqsədi güdürdü.

Həmin hadisədən sonra bütün rayonda azərbaycanlılara təzyiqlər bir az da artdı. Az-çox rəhbər vəzifələrdə, dövlət müəssisələrində çalışanları daha artıq gözümçıxdıya salmağa, işdən çıxarıb azərbaycanlı camaatı başsız qoymağa başladılar.

Artıq azərbaycanlı uşaqları məktəbə buraxılmır, dükan-bazarda azərbaycanlılara ərzaq və s. satılmır, azərbaycanlılarm işığı, telefonu, suyu, qazı kəsilir, onların həyat şəraiti dözülməz vəziyyətə gətirilirdi. Bu, əsl mənəvi, psixoloji terror idi ki, aradabir fiziki terrorla da əvəz olunurdu.

Vedibasar kəndlərində növbəti kütləvi iğtişaş 1988-ci ilin 11 mayında baş verdi. Həmin gün rayonun Şirazlı kəndi erməni millətçilərinin irimiqyaslı planlı hücumuna məruz qaldı.

Dörd böyük dəstəyə bölünmüş və hər dəstədə 400-500 nəfər erməni qulduru azərbaycanlı evlərinə hücum etdi. Həmin hücum zamanı ermənilər 64 azərbaycanlı evini dağıdıb sıradan çıxartdılar, onlardan 8-ə od vurub yandırdılar. 330 ailənin əmlakı talan edildi, 80-dən çox azərbaycanlı döyülərək bədən xəsarəti aldı. Bu kənddə yaşayan Seyid Ağbal ağanın ocağı dağıdıldı, özü döyüldü.

Ən dəhşətlisi o idi ki, Şirazlıya edilən bu hücuma rayonun erməni rəhbərlərinin özləri başçılıq edirdilər. Yerdən-göydən əli üzülən şirazlılılar gecə ikən axışıb Türkiyə sərhədinə pənah apardılar. Həmin gecə rayonun başqa azərbaycanlı kəndləri də qorxu altında saxlandı. Xüsusilə Xalisa səhərə qədər gülləyə tutuldu.



Üç ay çadır qurub Araz qırağında, Türkiyə sərhədində yaşayan şirazlılılar səslərini bütün dünyaya yaydılar. Vedibasarın qeyrətli yazıçı oğlu Fərman Kərimzadə 20 nəfərlik dəstə ilə Bakıya, Moskvaya üz tutdu. Lakin şirazlılılarm yarasına məlhəm qoyan olmadı. Sərhəd qırağında şirazlılılar Vedibasarın ilk şəhidlərini – 90 yaşlı Seyid Ağbal ağanı (Nağıyev İqbal Miryaqub oğlunu) və Əkbərin iki aylıq oğlunu torpağa tapşırdılar.

Şirazlı faciəsindən sonra rayonda azərbaycanlı əhalinin dövlətə inamı kökündən sarsıldı. Nə Ermənistanın daşnak rəhbərliyinə, nə Azərbaycanın o vaxtkı satqın başçılarına, nə də bu faciəni körükləməkdə olan Moskva ermənipərəstlərinə ümid olub, bel bağlamaq artıq mənasız idi... Bununla belə, heç kəs öz kəndini, ev-eşiyini tərk eləmək istəmirdi. Lakin ermənilər azərbaycanlı evlərinə əvvəl-əvvəl cüzi qiymət qoyur, sonra hədə-qorxu gəlir, bir şey çıxmayanda ev sahibini döyür, hücum edib ev-eşiyini dağıdır, od-vurub yandırırdılar. Artıq başqa yol görünmürdü. Beləcə, rayonun azərbaycanlı kənd və məhəllələri ev-ev boşalır, erməniləşirdi. Xüsusilə ermənilərin qat-qat çoxluq təşkil etdiyi kəndlərdə azərbaycanlıların vəziyyəti dözülməz idi. Adamlar səhərə qədər bel, yaba, balta və s. ilə "silahlanıb" tonqal yandırıb küçələrdə keşik çəkirdilər.

Bəzi kəndlərin azərbaycanlı əhalisi bir-birindən ayrı düşməmək üçün Azərbaycandakı ermənilər yaşayan kəndlərlə sövdələşir, kəndi kəndə dəyişmək istəyirdilər. Çox qəribədir ki, Azərbaycandakı bəzi rayonların ermənipərəst başçıları buna imkan vermir, azərbaycanlıları erməni kəndlərinə buraxmırdılar. Məsələn, Xanlar və Tərtər rayonlarının o vaxtkı satqın və ermənipərəst rəhbərləri belələrindən idi. Buna görə də Vedi camaatı bütün Azərbaycan boyu səpələnməli oldular. Kim harada bacarırdı, orada özünə sığınacaq tapırdı.

Təkcə Xalisa və Şidli kəndlərinin əhalisi kənddən çıxmaq istəmirdi. Onlar Vedibasarda azərbaycanlıların çoxluq təşkil etdiyi (Xalisa) və yalnız azərbaycanlıların yaşadığı (Şidli) yeganə kəndlər idi. Lakin noyabrın sonu ermənilər bütün Ermənistan üzrə azərbaycanlılara qarşı qəti hücuma keçdilər. Noyabrın 30-da rayonun, demək olar ki, bütün rəhbərlərinin iştirakı ilə yüzlərlə erməni "saqqallı"sı Xalisa kəndinə basqın etdilər. Görün-

məmiş soyğunçuluq, qarət başlandı. Yalnız hərbçilərin qəfil gəlişi əhalini kütləvi qətldən xilas edə bildi. Hərbçilər əhalini tanklarla daşıyıb qonşu Şərur rayonuna çatdırdılar.

Mühasirədə qalan Şidli kəndi də yalnız Naxçıvan tərəfdən tanklarla gələn hərbçilərin köməyi ilə xilas ola bildi. Erməni millətçiləri o dərəcədə quduzlaşmışdılar ki, sovet hərbçiləri azərbaycanlı əhalini hətta tankların içində belə erməni kəndlərinin içi ilə aparmağa cəsarət etmədilər. Şidli camaatı Araz çayının kənarı, sərhəd dirəklərinin arxası ilə Şərur rayonuna daşındı. Bu oldu 1988-ci il dekabrın 3-də. Həmin tarixdə sonuncu azərbaycanlı Vedibasar mahalını tərk etdi. Qədim Türk-Oğuz yurdu, əzəli Azərbaycan torpağı olan Vedibasar diyarı beləcə murdar ermənilərin tapdağı altında qaldı.

## ƏHALİSİ

Vedibasar mahalı ərazisinin qədim Türk-Oğuz tayfalarının məskəni olduğunu təsdiqləyən çoxlu tarixi faktlar, maddi və mənəvi mədəniyyət nümunələri var.

Qədim türk tayfalarından olan armanların (ərmənlərin) bu ərazilərdə məskunlaşması barədə ilkin məlumata Urartu çarı I Argiştinin er. əv. 782-ci ilə dair kitabəsində rast gəlirik. Bu kitabədən məlum olur ki, I Argişti indiki İrəvan şəhəri yaxınlığında tikdirdiyi İrpuni (Erebuni) qalasında 6600 arman döyüşçüsü yerləşdirmişdir.

Er. əv. VIII yüzildə burada qamər türklərinin məskunlaşması, VII yüzildə isə sak türklərinin həmin ərazidə öz padşahlıqlarını yaratması barədə artıq bəhs etmişik. Er. əv. I minillikdə və eramızın ilk yüzillərində Vedibasar mahalının da daxil olduğu indiki Ermənistan ərazisində quqar, şirak, bulqar, pasian, cinli, kəngər, peçeneq, avar, qıpçaq, xəzər və s. türk tayfalarının məskunlaşdığı barədə son illərin tədqiqatlarında (Y.Yusifov, Q.Qeybullayev, S.Əliyarov, F.Cəlilov, B.Budaqov və b.) artıq dönə-dönə qeyd edilmişdir.

Xüsusilə tarix səhnəsinə er.əv. IV yüzildə Albaniya türk dövlətinin gəlməsi və bu dövlətin tərkibinə daxil olan 24 aparıcı türk etnosunun bir siyasi-inzibati vahiddə – dövlət halında birləşməsi, bu tayfaların hamısı üçün müştərək olan yazılı ədəbi dilin – alban türk dilinin formalaşması, bu dildə bədii ("Kitabi-Dədə Qorqud") və tarixi kitabların (Musa Kağankataylı, Muxtar Qoç və b.-nın əsərləri) yazılıb ortaya qoyulması Azərbaycan tarixində misilsiz hadisələr idi.

Lakin təəssüf ki, VII yüzildə bölgənin ərəblər tərəfindən işğalı bu tarixi prosesin qarşısını saxladı, maddi və mənəvi mədəniyyət abidələrimiz ərəb işğalçıları tərəfindən misli-bərabəri olmayan təcavüzə məruz qaldı. Bununla belə, türk tayfalarının qüdrətli mənəvi-siyasi birliyini məhv etmək ərəblərə heç də asan başa gəlmədi. Zəngəzur dağlarında – tarixi Sisakan dövlətinin ərazisində sak türklərinin törəmələri qüdrətli Babəkin başçılığı altında iyirmi il ərəb sərkərdələrinə qan uddurdu. Babək hərəkatı yatırıldıqdan sonra ərəblərin bölgədə türk tayfalarına qarşı amansızlığı bir az da vüsət tapdı. Alban-türk dilində olan bütün yazılı abidə və daş kitabələr məhv edildi. Onlardan yalnız bir qismi – qədim erməni dili (qrabar) adlandırdığımız, əslində isə qədim arman-türk dilində olan mətnlər dövrümüzə qədər gəlib çıxmışdır. Alban dilində bizə məlum olan yeganə abidə isə Albaniya dövlətini təşkil edən məlum 24 türk tayfa birliyinin siyasi tarixinin bədii salnaməsi olan "Kitabi-Dədə Qorqud" dastanıdır ki, hansı fövqəlqüvvələrin möcüzəsi sayəsindəsə salamat qalmış və gedib Drezdenə, Vatikana çıxmışdır.*

---

* Qeyd: Biz qəti olaraq bu fikirdəyik ki, qədim erməni dili – **qrabar** adlandırılan dilin haylara heç bir dəxli yoxdur. Əslində, bu dil türksoylu qədim armanların yazılı dilidir ki, 301-ci ildə armanlar xristianlığı qəbul etdikdən sonra həmin dil həm də armanların kilsə dilinə çevrilmişdir. Xalq dilindən fərqli olaraq, bu yazılı – kilsə dilinə xristianlığın təsiri ilə yunan dilindən, arman keşişlərinin əsas təbəqəsini təşkil edən hayların təsiri ilə isə bəzi hay sözləri daxil edilmişdir. Buna görə də sonralar bu dil nə türk armanlar, nə də haylar üçün sərf eləməmiş, ancaq yazılı mətnlərin dili olaraq qalmışdır. Bunun üçün də XIX yüzildə meydana çıxan ilk hay ziyalıları yazılı dil, əlifba zərurəti ilə üz-üzə qalanda **qrabar** (yazı dili) adlandırdıqları qədim arman türklərindən qalma dilin əlifbası əsasında dünya tarixində ermənilərin ilk yazılı dili olan **aşxarabarı** (dünyəvi dil) yaratmışlar. Budur "qədim erməni dilinin", "erməni əlifbasının" əsl tarixi! Əslində, bu tarixi həqiqəti hay yazıçısı X.Abovyan özü də etiraf etmişdir. O yazırdı: "Mənə elə bir müasir dil məlum deyildir ki, o, yeni erməni dilinin qədim erməni dilindən fərqləndiyi qədər bir-birindən fərqlənsin..." Keşiş Nerses isə yazırdı: "Köhnə erməni dilinin quruluşu əksəriyyət etibarilə tatar dilinə uyğundur". Bəs necə olub ki, özlə-

Sonrakı yüzillərdə Vedibasar ərazisində səlcuq türklərinin bir sıra tayfaları, daha sonralar isə Ağqoyunlu və Qaraqoyunlu tayfaları məskunlaşmışlar. Hətta Məhəmməd Həsən Baharlının məşhur "Azərbaycan" tarixi kitabında belə bir qeyd də var ki, "Naxçıvan vilayətinin Vedibasar dairəsi Səlcuq türklərindəndir". Səfəvilər dövlətinin dayağı olan Ustaclu, Bayandur tayfaları da Vedibasar ərazisində geniş yayılmış türk tayfalarıdırlar.

Tarixi faktlar bir daha sübut edir ki, Qərbi Azərbaycan ərazisində qədim dövrlərdə heç bir erməni (hay) yaşamamışdır. Bu mənada tarixçilərin, xüsusilə Azərbaycan tarixçilərinin qədim yazılı mənbələri tərcümə edərkən arman//ərmən ifadəsini erməni, Armaniya//Ərməniyə ölkə adını "Ermənistan" kimi yazması bizdə qəzəb və hiddət doğurur. Bu, Azərbaycan torpaqlarını işğal etmək hesabına qondarma erməni dövləti yaratmış erməni-hay millətçilərinin əlinə onların Cənubi Qafqazda hələ eradan əvvəl məskunlaşmaları barədə saxta mandat vermək deməkdir.

Halbuki erməni alimlərinin özü etiraf edir ki, "Erməni xalqının əsli nədir, necə və nə vaxt, haradan və hansı yollarla o buraya gəlib, erməni olmazdan **(yanlış olaraq erməni adlanmazdan – Ə.Ə)** əvvəl və sonra hansı tayfalarla əlaqədə olub, onun dilinə, etnik tərkibinə kim necə təsir göstərib? Bizim əlimizdə bunları sübuta yetirən aydın və dəqiq dəlillər yoxdur" **(Manuk Abeqyan. Erməni ədəbiyyatı tarixi, İrəvan, 1975, səh. 11)**.

Əslində isə aydın və dəqiq olan ondan ibarətdir ki, indi erməni adlandırdığımız etnik toplum er. əv. XII yüzildə friq tayfaları tərkibində Balkanlardan Aralıq dənizi sahillərinə köçüb-gəlmiş və burada Frikiya padşahlığının tərkibində olmuşlar. Er. əv. VIII-VII yüzillərdə Midasın (erməni şəxs adı Minas, güman ki, bu addan törəmədir) hökmdarlığı dövründə Frikiyanın Asuriyaya münasibətdə ikiüzlülüyü Asur hökmdarı II Sarqonu Frikiya üzərinə dönə-dönə yürüşə sövq edir. Həmişə qalib gələn asurlar

--------------------

rini dünyanın ən qədim, ən mədəni xalqı hesab edən hayların bu qədər vaxt hətta öz yazı mədəniyyəti olmayıb? Ona görə ki, əslində qullardan törəmə bu toplum – haylar minillər boyu insani yaşayışdan xeyli uzaq olublar. Bunu V yüzil tarixçisi Musa Xorenli də etiraf etmişdir: "İndi olduğu kimi, keçmişdə də qədim hayların elmlərə, şifahi mahnılara həvəsləri olmayıb. Ona görə də kəmağıl, nadan və vəhşi adamlar haqqında danışmaq artıqdır".



hər dəfə də çoxlu friq tayfalarını əsir götürüb, onları gətirib əsasən özlərinin Hayasa vilayətindəki qul koloniyalarında yerləşdirirlər. Buradakı qul-friqlər özlərinin hay adını həmin vilayətin adından götürürlər. Sonralar qamərlər Frikiyaya dağıdıcı hücumlar edir, onun varlığına son qoyur (er. əv. VII yüzil) və təbii ki, onlar da xeyli friq əhalisini qul edib aparırlar. Digər tərəfdən də Urartu dövləti Mannaya, Asuriyaya qarşı müharibəyə qalxır, az-çox ələ keçirdiyi friq haylardan öz ərazisində qul kimi istifadə edir. Friq-hayların Urartu ərazisində yeni qul koloniyası bu dövlətin cənubunda – Arme vilayətində yaranır. Bu həmin Arme vilayətidir ki, Şərqi Anadoluda Hayasa əyalətinin qonşuluğunda yerləşirdi və er. əv. VIII yüzilin əvvəllərində Urartu tərəfindən işğal edilmişdi.

Qədim Urartu dövlətinin Arme vilayətinin əksər əhalisi türk tayfaları olsa da, buraya Hayasa vilayətinin qul koloniyalarından da çoxlu qullar köçürülüb gətirilmişdi və onlar vilayətin adı ilə haylar adlandırılırdılar. "Armedə yaşayanlar" anlamında olan Armean//Arman adı bu vilayətdə yaşayanlara olduğu kimi, hətta sonralar buradakı qul-haylara da şamil edilmişdir. Burada hay-qul koloniyalarının yerləşdiyini mənbələr də təsdiq edir. Məsələn, mənbələrdən öyrənirik ki, er. əv. 820-ci ildə Asur hökmdarı V Şamşi-Adad Aşağı Zab çayını keçib Kullar (**Qullar – Ə.Ə.**) dağını aşır və Nairi ölkələrinə daxil olur.

Qul münasibətlərinin getdikcə yumşalması, qula ailə saxlamaq hüququ verilməsi, ona kiçik torpaq sahəsi ayrılması tədricən hay-qulların insani yaşayışa keçməsinə imkan verir. Lakin yüzillər ərzində ixtisaslaşmış qul əməyinə öyrəşmiş haylar sonralar da bu vərdişdən əl çəkə bilmədilər. Qul əməyi onları sənətkar xalqa, qul psixologiyası isə onları kölə və xidmətçi, kinli və qisasçı, oğru və hiyləgər, yaltaq və etibarsız millətə çevirdi. Tarixi vətənsizlik "günüm harda xoş keçirsə, ora vətəndir" prinsipi ilə onları bütün dünyaya səpələdi.

Beləliklə, o vaxt qul əməyindən ucuz istifadə nəticəsində Arme vilayəti iqtisadi cəhətdən o qədər inkişaf etdi və tədricən Urartunun hər yerinə yayılan armanlar bu dövlətdə elə bir nüfuz qazandılar ki, Urartunun süqutundan sonra bu ölkə mənbələrdə həm də Armaniya, yəni armanların ölkəsi adlanmağa başlandı. Bütün Urartu ərazisinə aid edilən bu ad eyni zamanda urartulular

tərəfindən işğal olunub bu dövlətin tərkibinə qatılmış indiki Ermənistan ərazisinə aid edilirdi. Keçmiş Urartunun – yeni Armaniyanın sərhədləri cənubdan və qərbdən daraldıqca ölkənin paytaxtı və sərhədləri də tədricən şimala doğru çəkilir. Bu ölkə və onun yeni paytaxtları (Artaşad, Valarsakabad, Dvin) Ağrıdağ vadisinə sığınır. Lakin unutmaq olmaz ki, nə qədim Arme vilayətində, nə də Armaniyada haylar heç vaxt çoxluq və ya üstünlük təşkil etməyiblər. Bunu Arman dövlət başçıları və sərkərdələrinin heç birinin hay mənşəli olmaması, əksinə, istisnasız olaraq hamısının türksoylu olması da təsdiqləyir. Hətta qonşu tayfalar Armeli türk tayfaları kimi, bu vilayətdən axışıb gələn hayları da arman adlandırsalar da, onlar özlərinin əsl adını daim qoruyub saxlamışlar. O da faktdır ki, türk armanlardan fərqli olaraq, hay armanlar Arazın sol sahilinə – Qafqaza uzun müddət sərbəst ayaq basa bilməmiş, yalnız qul kimi müəyyən işləri görmək üçün gətirilmişlər. Armaniyaya tacir kimi gəlib-gedənlər arasında tək-tək haylar da ola bilərdi. Buna görə də hayların indiki Ermənistan ərazisinə ilk gəlişini bölgədə xristianlığın yayılması dövrünə aid etmək olar. Belə ki, xristianlar bu dinin Qafqazda yayılmasına yunanlara etnik yaxınlığı çatan friq tayfalarının törəməsi olan hayların əli ilə məhz Armaniyadan başlayırlar. Onlar bu işdə Armaniya ilə İran arasındakı düşmənçilikdən məharətlə istifadə edirlər. Bu məqsədlə o vaxtkı Arman paytaxtı Artaşada gələn Qriqorinin Yunanıstandan göndərildiyini "Albaniya tarixi"ndə Musa Kağankataylı da təsdiq edir. Lakin armanlar bu dini əvvəllər qəbul etmirlər və Qriqori çar Tiridat tərəfindən qədim Artaşad şəhərində dərin quyuya salınaraq illərlə burada saxlanır.

301-ci ildə Armaniyada xristianlığın rəsmi din kimi qəbul olunmasından sonra hayların bu əraziyə gəlişi artıq həm də kilsə xadimi – keşiş kimi həyata keçirilir. Bu vəziyyət yüzillər boyu belə də davam edir, haylar kilsədən və bazardan kənarda nüfuz sahibi olmurlar. Bu dövrdə Armaniyanın paytaxtı artıq Valarsakabad olduğundan və sonralar Qriqorinin sürsümüyü gətirilib burada basdırıldığından Valarsakabad-Vağarşabad-Üçkilsə-Eçmiədzin adlanan bu yer ermənilərin əsas dini mərkəzinə çevrilir. Paytaxtın Dvinə köçməsi ilə (350-ci il) əlaqədar bura ermənilərin həm də dini mərkəzi sayılsa da, Dvinin dağıdılmasından sonra Eçmiədzin kilsəsi dini mərkəz rolunu özünə qaytarır və hayların bu qədim türk diyarına axıb gəlməsi üçün çalışmalarını davam etdirir.



Maraqlıdır ki, bölgənin ərəblər tərəfindən işğalından sonra islamı qəbul etmiş arman türkləri müsəlman adlansa da, xristian armanlar ərəb tələffüzündə ərmən adını qoruyub saxlayırlar. Onların əksəriyyəti isə kilsələrdəki haylar idi. Bölgəyə yeni türk – Səlcuq tayfalarının axınından sonra hay və türk ərmənlərin bir-birindən ayrılması prosesi qəti şəkildə başa çatır. O türk ərmənlər ki, başqa müsəlman türk soydaşları ilə qaynayıb-qarışırlar, onlar öz dini (müsəlman) və etnik (türk) adları ilə tanınırlar. Xristianlıqdan imtina etməyən tək-tük türk ərmənlər isə tədricən hay ərmənlərin təsiri altında haylaşaraq bölgədəki haylarla birlikdə qonşu xalqlar tərəfindən **ərməni** kimi çağırılırlar. Lakin erməni keşişlərinin bütün cəhdlərinə baxmayaraq, İrəvan çuxurunda onların sayı uzun müddət son dərəcə cüzi olaraq qalır. Bunu Çuxur-Sakat bəylərbəyi Rəvanqulu xanın Şah İsmayıla ünvanladığı, İrəvan əyalətinin 1519-cu il tarixli icmal dəftərinə daxil edilmiş tarixi məktubu da təsdiqləyir: "Ulu şahım, ...Beynənnəhreyndən (**Mesopotamiyadan – Ə.Ə**) Van gölü sahillərinə, oradan da Qafa – oğuz-türk torpaqlarına 5-5, 10-10 gələn ermənilər saziş şərtlərinə görə sənətkarlıqla məşğul olmaq əvəzinə məskunlaşmağa can atır, ufacıq kilsələr tikdirir, beləliklə, bu tayfanın Qafda qədim mövcudiyyəti təsəvvürünü yaradırlar ki, bu da istiqbalda nəsillərimizə başağrısı verəcək...

Bu işləri indi Ağkilsə (Eçmiədzin) kəndlərində əyləşən dünya ermənilərinin katolikosu II Qriqori maliyyələşdirir. Qarışıq nikahlar məni qorxudur, Şahim! Mənə səlahiyyət ver, cəmi 15 min gəlməni mövsümi işçilər kimi – qisim-qisim qaytarım vətənin dışarına. Sənin qulun Rəvan xan".

Tarix özü də təsdiq edir ki, Qərbi Azərbaycan ərazisinə ermənilərin kütləvi axını 1828-1830-cu illərdə – bölgənin Rusiya tərəfindən işğalından sonra olmuşdur. Bunu N.Şavrovun məlum fikri bir daha təsdiqləyir: "1828-ci ildən 1830-cu ilədək Zaqafqaziyaya 40 min İran, 84.600 Türkiyə ermənisi köçürmüş, onları Yelizavetpol və İrəvan quberniyalarının ən yaxşı torpaqlarında yerləşdirmişik ki, orada erməni əhalisi cüzi idi... 124 min rəsmi köçürülən ermənilərlə yanaşı, qeyri-rəsmi şəkildə köçənlər də

çox olmuşdur və ümumiyyətlə, köçənlərin sayı 200 min nəfərdən xeyli artıqdır".

Sonrakı rus-türk müharibələri zamanı bu köçürülmələrin sayı bir az da artmışdır. Məsələn, 1877-1879-cu illər rus-türk müharibəsi zamanı Cənubi Qafqaza 50.000 erməni, 40.000 yunan köçürülüb gətirilmişdi. Bununla yanaşı, general Ter-Qukasov da 35 min ailə ermənini ayrıca Türkiyədən Ağrıdağ vadisinə köçürmüşdü. Türkiyədən Cənubi Qafqaza gələn ermənilərin sayı 1894-cü ildə 90.000, 1897-ci ildə 10.000 və s. olmuşdur. Təkcə 1897-1908-ci illərdə Cənubi Qafqaza gətirilən ermənilərin sayı 300 mindən artıq təşkil etmişdir.

N.Şavrov hesablamalarına belə yekun vurur: "XX əsrin başlanğıcında Zaqafqaziyada yaşayan 1.300.000 ermənının bir milyondan artığı bu rayonun yerli əhalisi deyildir, onlar buraya bizim (**rusların – Ə.Ə**) tərəfimizdən köçürülmüşlər."

Konkret Vedibasar mahalı ərazisinə gəldikdə isə, XIX yüzilə qədər burada bir nəfər də olsun erməni (hay) yaşamamışdır. Erməni vilayəti əhalisinin 1829-1832-ci illərdə İ.Şopenin rəhbərliyi ilə məşhur siyahıya alınmasına görə, həmin dövrdə Vedibasar mahalında mövcud olan 21 kənddə (33 müsəlman kəndi isə 1826-1829-cu illər Rusiya-İran, Rusiya-Osmanlı müharibələri zamanı tamam dağıdılmışdı) cəmi 4533 nəfər (776 ailə) yaşayırdı. Onlardan 3449 nəfəri (574 ailə) müsəlmanlar, 15 nəfəri (2 ailə) "yerli" ermənilər, 1069 nəfəri (200 ailə) isə İrandan köçürülən ermənilər idilər. İ.Şopenin siyahısında Vedibasar ərazisində Türkiyədən gəlmə erməni qeydə alınmamışdır.

İ.Şopenin Vedibasar mahalında qeydə aldığı həmin 2 ailə erməni (9 kişi, 6 qadın) isə Böyük Vedi kəndində yaşamış, müsəlman bəylərinə nökərçilik etmişlər.

Həmin siyahıyaalmadan göründüyü kimi, 1828-ci ildə bölgənin Rusiyaya birləşdirilməsindən sonra Vedibasar ərazisinə ilk 200 erməni ailəsi köçürülmüşdür. Rusiya himayəsini qəbul etmiş yerli müsəlman xan və bəylərin Rusiyanın İrandakı səlahiyyətli səfiri Qriboyedova təkidli şikayəti nəticəsində köçürülən ermənilərin yerləşdirilməsində ilk vaxtlar müəyyən məhdudiyyətlər tətbiq olunmuşdu. Həmin məhdudiyyətlər sırasında ermənilərin müsəlmanlardan ayrı, nisbətən az məhsuldar olan torpaqlarda və



qədim alban kilsələrindən kənarda yerləşdirilməsi tələbləri də vardı. Bu şərtlər Vedibasarda gözlənildi və burada qeyri-məhsuldar bir ərazidə Reyhanlı və Dəvəli kimi ilk erməni kəndləri yarandı. Sonralar mahalın Zəncirli, Çanaxçı, Qaşqa, Keşişverən kəndlərində də ermənilərin sayı çoxalmağa başladı.

Sonrakı rus mənbələrinin özü də Vedibasar ərazisində XIX yüzilə qədər ermənilərin yaşamadığını təsdiq edir. Məsələn, "Qafqaz" qəzeti 22 iyul 1853-cü il tarixli 53-cü sayının 6-cı səhifəsində yazır: "Böyük Vedi kifayət qədər iri kənddir. Orada tatarlar (azərbaycanlılar – Ə.Ə.) və ermənilər yaşayırlar. Ermənilər Türkmənçay bağlaşmasından sonra İrandan köçüb gəlmişlər. Bu gün Azərbaycanda yaşayan, demək olar ki, bütün ermənilər bu məşhur bağlaşma nəticəsində bizim ərazilərə köçüb gəlmiş, erməni vilayətində (Qərbi Azərbaycan ərazisində – Ə.Ə.) və Qarabağ əyalətində məskunlaşmışlar. Təkcə İrəvan əyalətinə 5.000-ə qədər ailə erməni köçüb gəlmişdir.

İ.Şopendə Vedibasar mahalının sosial və etnik tərkibi ilə bağlı da maraqlı məlumatlar var ki, onların bəzilərini qeyd etməyi vacib bilirik. Bir daha xatırladırıq ki, bu məlumatlar Vedibasarın 1832-ci ildəki durumunu əks etdirir:

– Vedibasarda xan olmayıb. 16 bəy və sultan ailəsinin 126 nəfər (65 kişi, 61 qadın) üzvü olub. Vedibasarda bir nəfər də erməni əsilzadəsi qeydə alınmayıb.

– Vedibasarda axund və molla ailələrinin sayı 5, bu ailələrdə yaşayanların sayı 52 nəfər (28 kişi, 24 qadın) olub. Bundan əlavə, burada 2 mirzə ailəsi (10 nəfər), 1 seyid ailəsi (5 nəfər) yaşayıb. Dərviş qeydə alınmayıb. Vedibasarda cəmi 1 keşiş ailəsi (7 nəfər) qeydə alınıb.

– Burada 49 dəyirman olub. Onlardan 9-nun dövlətə məxsusluğu barədə qeyd var.

– Vedibasarda aşağıdakı köçəri tayfalar da yaşayıb:

- Şeyxlər, 34 ailə (232 nəfər);
- Qarabağlı, 11 ailə (67 nəfər);
- Cəfərli, 16 ailə (82 nəfər);
- Qarapapax, 3 ailə (17 nəfər);
- Cam-milli, 10 ailə (65 nəfər);
- Daşanlı, 22 ailə (117 nəfər);

– Asnı, 76 ailə (324 nəfər);
– Qaraçorlu, 20 ailə (140 nəfər);
– Əzizanlı, 19 ailə (80 nəfər).

1873-cü ildə Vedi nahiyəsində artıq 16560 nəfər müsəlman, 4022 nəfər erməni yaşamışdır. Bu nisbət 1886-cı ildə 20957 nəfər müsəlman və 6055 nəfər erməni, 1897-ci ildə 29372 nəfər müsəlman və 8665 nəfər erməni şəklində dəyişilmişdir.

1919-cu ilə aid bir tarixi sənəddə – Paris Sülh Konfransının sədrinə ünvanlanmış məktubda İrəvan quberniyası ərazisində yeni erməni-müsəlman münaqişəsinə qədərki etnik nisbət öz əksini tapmışdır. Həmin sənəddən aydın olur ki, Vedibasar nahiyəsinin də daxil olduğu İrəvan qəzası əhalisinin 60,2 faizini azərbaycanlılar, 37,4 faizini ermənilər və 2,4 faizini etnik qruplar (rus, kürd, aysoru və s.) təşkil etmişdir.

Lakin yuxarıdakı sənəddə Vedibasar mahalı ilə bağlı bir özəl açıqlama da var: "İrəvan qəzasının Ermənistan hökumətinin idarəsinə verilən Vedibasar və Millistan (**Millidərə – Ə.Ə**) rayonları əhalisinin 90 faizini müsəlmanlar təşkil edir".

Artıq 1918-20-ci illər qırğınından və ermənilərin indiki Ermənistan ərazisində apardıqları etnik soyqırımından, sovet hakimiyyətinin ilk illərində xüsusilə Türkiyədən qaçan ermənilərin kütləvi şəkildə müsəlman kəndlərində yerləşdirilməsindən sonra – 1922-ci ildə Vedibasar mahalında müsəlman əhalinin sayı 8105 nəfərə qədər, yəni 1897-ci ildəkindən az qala 4 dəfə azalır, ermənilərin sayı isə 5774 nəfərdə dayanır, yəni 1897-ci ildəkinə nisbətən az qala heç dəyişmir. 1926-cı ildə bu nisbət 8999 nəfər müsəlman və 7669 nəfər erməni, 1931-ci ildə 10524 nəfər müsəlman və 9503 nəfər erməni şəklində dəyişir.

Ermənilərin düşünülmüş məkrli planları ilə 1946-1947-ci illərdə xaricdən xeyli erməni köçürülüb, Ermənistana gətirilir. 1948-1953-cü illər deportasiyası zamanı isə Vedibasar mahalının bütün dağlıq müsəlman kəndləri (Qarabağlar rayonu), aran kəndlərinin də böyük əksəriyyəti məcburi şəkildə Azərbaycana köçürülür. Yalnız Stalinin ölümündən sonra bəzi ailələr Vətənə qayıtmaq imkanı əldə edə bilirlər. Bütün bunların nəticəsində 1959-cu ildə rayonda yaşayan azərbaycanlı əhalinin sayı 5559 nəfər hüdudunda dayanır. Ermənilərin sayı isə bundan bir neçə dəfə artıq olur. 1970-ci ildə rayonun 58,8 min nəfər əhalisindən artıq ancaq 12 min nəfərə yaxını azərbaycanlılar idilər.



Rayonda ümumi iqtisadi vəziyyətin yaxşılaşması, nisbi sakitliyin hökm sürməsi əhalinin ümumi artımına da böyük müsbət təsir göstərirdi. Belə ki, artıq 1988-ci ildə rayonda azərbaycanlıların və müsəlman kürdlərinin sayı 20700 nəfərə çatmışdı ki, bunlar da hamısı həmin il erməni vəhşiliyinin qurbanı olaraq doğma yurdlarını tərk edib Azərbaycana pənah gətirdilər. Qədim Türk-Oğuz yurdu, Böyük Azərbaycan ölkəsinin bir parçası olan Vedibasar mahalı erməni-bayquş yuvasına çevrildi.

Yuxarıda qeyd etdik ki, Vedibasar mahalının ərazisində Azərbaycan türkləri və ermənilərlə yanaşı, **müsəlman kürdləri** və **aysorular** da yaşamışlar. Vedibasara XVII-XIX yüzillərdə gəlmələri güman edilən kürdlər əsasən iki kürd qəbiləsini təmsil etmişlər: namazlı və ya mutanlı kürdləri və bruğlar. Bruğlar isə cəlali, xasın və qeyri qollara ayrılmışlar. Vaxtilə Vedibasar ərazisində qeydə alınmış Cəlali kəndi də, çox güman ki, mahalın Arazboyu hissəsini əhatə edən Aralıq nahiyəsində, Ağrı dağının ətəyindəki Cəlali kəndidir. Vedibasar ərazisindəki cəlali kürdlərinin məhz həmin kənddən gəldiyini güman etmək olar.

Mənbələrə görə, Vedibasar ərazisində əsasən Millidərə bölgəsində yaşayan kürdlər bura Qəmərli (Gərnibasar) tərəfdən gəlib məskunlaşmışlar. Vedibasarda əsasən 4 xalis kürd kəndi olub: Hacımirzə, Ağasıbəyli, Zimmi, Xaraba Kotanlı. Bunlardan başqa, qonşu Şırran, Hand və s. kəndlərdə də müəyyən sayda kürdlər yaşamışlar. Lakin ermənilərin bütün Qərbi Azərbaycan ərazisində əsrin əvvəllərində başladıqları etnik təmizləmə siyasəti burada yaşayan kürdlərdən də yan ötmədi. 1937-ci ildə Vedibasarın kürd kəndləri və qonşu kəndlərdəki bir çox kürd ailələri kütləvi şəkildə Qırğızıstana, əsasən bu respublikanın Oş vilayətinə sürgün edildilər. Sonralar onların az bir qismi geri qayıtda bildi. Onlar isə, qeyd etdiyimiz kimi, 1948-1953-cü illər deportasiyası zamanı azərbaycanlı soydaşları ilə birgə Azərbaycana köçürüldülər. Onlardan çox az bir hissəsi sonradan geri dönüb, Vedibasarın aran azərbaycanlı kəndlərində məskunlaşdı ki, onlar da 1988-ci ildə azərbaycanlılarla bir yerdə təzədən Azərbaycana qovuldular. Uşaqları Azərbaycan məktəblərində Azər-

baycan dilində təhsil alan, bu dildə danışan, azərbaycanlılarla qız verib-qız alan, kirvə, qohum olan kürd qardaş-bacılarımızı Tanrı bu dəfə də bizimlə eyni taleyə tuş elədi. Sevincimiz həmişə bir olduğu kimi, ağrı-acımız da bir oldu.

## İQTİSADİYYATI, TƏSƏRRÜFAT VƏ MƏİŞƏT HƏYATI

Vedibasar mahalının təbii-coğrafi şəraiti onun iqtisadiyyatını, təsərrüfat və məişət həyatını da şərtləndirir. Başqa sözlə, mahalın iqliminə və releyfinə görə bir-birindən kəskin şəkildə fərqlənən düzənlik və dağlıq hissələrindən ibarət olması bu bölgənin təbii ehtiyatlarında olduğu kimi, təsərrüfat və məişət həyatında da kəskin fərqlə ortaya çıxır.

Mahalın Millidərə, Cığındərə və Çanaxçıdərə bölgələrini əhatə edən dağlıq hissəsi dağlıq şəraitə uyğun bitki örtüyü və heyvanat aləmi ilə zəngindir. Buranın meşə, dağ və dərələri **palıd, şam, ardıc, ağcaqayın, ceviz, alma, armud, alça, iydə, qələmə, söyüd, yemişan, dağdağan, dəmirağac, qaraçalı, badam, saqqız ağacı, qarnıyaraq, zirinc, həmərsin, gərməşov, qoxanağac, uluğay** və s. ağac və kollarla örtülüdür.

Yamac, çaylaq və biçənəklərində çoxlu **solmaz çiçəyi, üzərrik, bənövşə, inci gülü, nərgiz, lalə, sarıçiçək, kəkotu, nanə, dovşan kələmi, əvəlik, ələyəz, quşəppəyi, acı biyan, şirin biyan, təkəsaqqalı, qazayağı, manda, çaşır, çiriş, salmanca, bozoğlan, mırçalıq, mərəçöyüz, gülxətmi, hovotu, xırpkəsən, xəmirkəsən, acıqıcı, yarğan otu, üçyarpaq, yarpız, baldırğan, qımı, toppuz, dəvədabanı, yemlik, şomu, bağayarpağı, pərpiyan, qanqal, quzuqulağı, gicitkan, dəmirtikan, sarıtikan, qatırquyruğu** və s. ot və çiçəklər bitir. Adlarından da göründüyü kimi, bu otların əksəriyyəti yeyilən və müalicəvi əhəmiyyətli bitkilərdir.

Onlardan bəzilərinin xüsusi özəlliklərini xatırlatmaq istərdik.

**Solmaz çiçəyi** (ona **solmaz gülü** də deyilirdi) çox kiçik kollar şəklində torpaqdan qalxar, xırda dairəvi sarı çiçəkləri olardı. Çiçəkləri tam açılıb pardaxlanmamış onları yığıb dəstə bağlayar, gətirib evdə asardılar. Bu dəstələr tam yeddi il öz təravətini itirməzdi. Elə bil indicə dərmisən.



**Sarıçiçəyi** toplayıb, yaylaqda pendirə qatardılar. Dələməni süzəyə töküb, suyu bir qədər çəkiləndən sonra süzəyin ağzını burub, üstünə yastı daş qoyardılar. Yastı pendir başı əmələ gələrdi. Buna **baş pendir** deyərdilər. Kəsəndə içindən sarıçiçək çıxardı, yeməkdən doymaq olmazdı.

**Əvəliyi, ələyəzi** yaylaqda yığar, qız saçı kimi hörər, asıb qurudardılar. Qışda onları doğrayıb xörəyə tökəndə dadı damaqdan getməzdi. Xüsusilə aş xörəklərində onlardan geniş istifadə olunardı. Hər ailənin qış üçün öz əvəlik, ələyəz ehtiyatı olardı.

**Manda, çaşır, çiriş** duza qoyular, turşu kimi ləzzətlə yeyilərdi.

**Baldırğan, toppuz** yaylaqda uşaqların ən sevimli bitkiləri idi. Xüsusilə baldırğan bulağın gözündə, suyun duru yerində bitərdi. Elə ki, su bulandı – o yerdə baldırğan bitməzdi.

**Kəkotu** çayının xoş ətri adama ləzzət verərdi.

**Çobankirkidi** və **qarnıyarıq** toplamaq da uşaqların sevimli məşğuliyyəti idi. **Çobankirkidi** qırraşlıq yerlərdə bitirdi, özəyi ağımtıl və tüklü, yarpaqları kirpikə oxşayırdı. Onu yığıb duza qoyurdular və bir həftəyə turşuyurdu. Yeyəndə adamın ağzını büzüşdürür, tamı gözəl və ləzzətli olurdu. Onu pendirlə də yeyir, ədviyyə kimi də istifadə edirdilər.

**Qarnıyarıq** da qırraşlıq yerlərdə bitir, tağı yerlə sürünür, yarpaqları pişik qulağı kimi sivri olurdu. Meyvələri, adətən, avqustun sonlarında iriləşir, sentyabrın axırlarında yetişir, yetişəndə qarnı yarılırdı. Qarnıyarıq adını da buradan almışdı. Qarnının içi qırmızı, tumları əncir tumlarına oxşar olan bu meyvələr başağrısına kömək edirdi.

**Şirin biyanın** zoğları yeyilir, qarınağrısına kömək edirdi. **Acı biyanın** kökünü eşələyib torpaqdan çıxarır, kökündəki yumrucuqları qoparır, ılıq suda bir gün saxlayır, sonra çeynəyirdilər. İki-üç saata acısı gedən bu saqqız növünə **qanatma,** bəzi kəndlərdə **qənətmə** deyilirdi. Bu ad təzə çeynənən zaman tərkibindəki acı mayenin xəstə damaqları qanatdığına görə ona verilmişdi. Saqqızın acılığı qurtaranda qanama da keçib-gedirdi.

Yazda **göbələk** yığanda çoxlu **mərəçöyüz** də tapardıq. Çeçələ barmaq nazikliyində uzanıb dik qalxan bu çubuq-bitkiləri göbələklə birlikdə ya odda ütüb, ya da tavada qızardıb yeyərdik.

Yayılıb yerə yapışan **quşəppəyini, yemliyi, qazayağını** və s. uşaq vaxtı duzla ovub yeməkdən doymazdıq.

Vedibasar mahalının dağlıq hissəsindəki meşələrdə **ayı, qaban, bəbir, canavar, vaşaq, tülkü, maral, cüyür, dağ keçisi, çöl qoyunu, kirpi, tısbağa, qartal, qırğı, çalağan, qızılquş, kəklik, bayquş, dələ, çil, bildirçin, sığırçın, bülbül, bağrıqara, ördək, qaz, qırqovul, qumru, qaratoyuq, sərçə, göyərçin, sarıköynək, ağacdələn, alaçöhrə** və s. vəhşi heyvan və quşlara tez-tez rast gəlmək olardı.

**Xosrov meşəsi** Vedi camaatı üçün həm də təbii yanacaq mənbəyi idi. Keçmişdə adamlar həmin meşədən dağ döşü **ardıc** ağaclarından kəsib Vedi çayına salar, üzü su aşağı axıdıb, Böyük Vedi kəndinə gətirib çıxarardılar.

Dağlıq kəndlərin iqtisadiyyatının əsasını həmişə heyvandarlıq və qismən də əkinçilik, xüsusilə tütünçülük təşkil etmişdir. Bu yerlərdə su ehtiyatının çoxluğu – bir sıra göl və çayların, saysız-hesabsız bulaqların mövcudluğu əhalinin içməli su sarıdan qıtlıq keçirməsinə imkan verməmişdir.

Vedibasarda **heyvandarlığın** inkişafı ilə bağlı iki tarixi faktı qeyd etmək istərdik. **Birincisi.** Rusiyanın Qafqaz canişini general-feldmarşal İ.V.Qudoviç 1808-ci ildə İrəvan qalasına hücum edərkən "Vedi çuxurunun rəisi Aslan Sultana" ünvanladığı 10 oktyabr tarixli məktubunda onu rus himayəsinə keçməyə dilə tutmaqla yanaşı, həm də ondan ordu üçün pul ilə yaxşı qiymətə 500 baş qoyun və 100 iribuynuzlu mal-qara satmasını xahiş etmişdi. Təbii ki, Qudoviç Şadlı bəylərinin mal-heyvanının saysız qədər olduğunu bildiyi üçün ondan bu məsələdə kömək umurdu.

**İkincisi.** İ.Şopen 1832-ci il məlumatlarında müharibədən yenicə çıxmış Vedibasarda 6122 iribuynuzlu, 21379 xırdabuynuzlu mal-qara, 1375 minik heyvanı (at-ulaq) qeydə almışdı.

Mahalın düzənlik (aran) hissəsinin iqtisadiyatının əsasını isə əsasən **əkinçilik** və **bağçılıq** təşkil edirdi. Xanlıq dövründə Vedibasar camaatı Gərnibasar camaatı ilə birgə İrəvan Sərdarına təkcə taxıl, çəltik və arpadan 158 tümən, pambıqdan 113 tümən vergi verirdi.

Vedibasarda **pambıqçılığın** geniş yayılması ilə bağlı M.Vəlilidə də qeydlər var. O, Hindistan-İran xətti ilə Cənubi Qafqaza gətirilən



pambıqçılığın burada ilkin vətənlərindən biri kimi Vedibasarın adını çəkir. Onun yazdığına görə Naxçıvan vilayətində il ərzində orta hesabla 13.500 desyatin sahədə pambıq əkilirdi ki, bunun da çox hissəsi bu vilayətin Vedibasar nahiyəsinin payına düşürdü.

Burada çoxlu meyvə və giləmeyvə – **alma, armud, ərik, şaftalı, alça, gilas, albalı, ceviz, tut, qaralı, saralı** növləri yetişdirilmişdir. **Üzüm** növləri çeşid-çeşid idi. Tərəvəz-bostan məhsullarının az qala bütün növləri burada geniş yayılmışdı.

Bütün bunlar haqqında bir qədər ətraflı məlumat verməyi vacib bilirik.

## ÜZÜMÇÜLÜK

Üzümçülükdə İrəvan çuxuru həmişə məşhur olub. Burada üzümün onlarla növü becərilib. Üzüm həm şərabçılıq, həm yemək, həm də qurutmaq üçün geniş istifadə olunub. Onu həm olduğu kimi, həm də qurudulmuş şəkildə qışa saxlayırdılar. Üzüm yığılan zaman adətən iydə, söyüd və s. ağacından bir metrlik barmaq yoğunluğunda budağı kəsər, kiçik şüvləri yarım qarış boyu buraxıb arıtlayar və üzüm salxımlarını **asma** adlanan həmin çubuğa dolayardılar. Sonra bu asmalar nə çox quru, nə də çox rütubət olmayan damlarda (son vaxtlar evlərin bağlı çardaqlarında) tavandan, dirəklərdən asılar və qışa saxlanardı. Qışda gətirilib süfrəyə qoyulan üzüm təzəcə dərilmiş üzümdən çox az fərqlənərdi.

Qışa saxlamaq üçün ən sərfəli növ **haçabaş,** qurutmaq üçün isə **sarı kişmişi** üzümü idi.

Vedibasarda üzümçülüyün inkişafı ilə bağlı bir cəhəti də qeyd etmək istərdik. Burada qışda havalar çox soyuq keçdiyindən üzüm tənəkləri (Vedidə **təyəng** deyilir) payızın sonlarında torpağın altına basdırılar, bir də yazda torpağın altından çıxarılardı.

Vedibasarda geniş yayılmış **üzüm növləri:**

1. **Ağagörməz.** Ən tez yetişən növ – Keçmişdə ağanın xəbəri olunca koldan oğurlanıb yeyildiyi üçün bu adı almışdır. Çəhrayı, yumru, sulu gilələri, seyrək salxımları vardı.

2. **Xəlili.** Xəlil şəxs adından idi. Ağagörməzlə bir vaxtda – iyulun əvvəlində yetişirdi. Gilələri ağ, qırmızı, yumru, narın dənəli, nazik dərili, sulu olur, salxımları tez qırılırdı. Az əkilirdi.

3. **Dizmarrı.** İki növü vardı: sarı və qara. Xəlilidən sonra yetişir, şirin və sulu olurdu.

4. **Xərci** (yəni balaca). Üç növü vardı:

– **Top xərci.** Şərab üçün daha sərfəli idi. Geniş yayılmışdı. Giləlәri kiçik, yumru, sulu, ağ-yaşılımtıl olurdu. Salxımda gilələri çox sıx olduğundan "top" adı almışdı. Məhsuldar növ idi.

– **Ət xərci.** Sarı, yumru, iri dənəli olurdu. Salxımları balaca olsa da, kolda onların sayı 60-65-ə çatırdı.

– **İrinci** (çox kiçik) **xərci.** Ağ, xırda giləli, nazik dərili və toxumsuz növ. Salxımları uzun, gilələri seyrək olur, əsasən qurudulurdu.



Vedi rayonunun üzüm bağlarında həmişə bol məhsul yetişərdi. Şəkildə: Qaralar kənd kolxozunun baş aqronomu Yusif Ələkbərov və briqadir Arif Məmmədov yığımqabağı məhsulu nəzərdən keçirirlər. Qaralar kəndi,1984-cü il.

5. **Əsgəri.** Əsgər şəxs adından idi. Gilələri nazik dərili, sulu olurdu. Kəmşirin dadı, nisbətən seyrək salxımları vardı. Avqustun əvvəllərində yetişir, yeyilir və qurudulurdu.

6. **Kişmişi.** Üç növü vardı:

– **Sarı kişmişi.** Ağ, yumru, tumsuz, bərk, qalın qabıqlı, çox şirin olurdu. Yemək və qurutmaq üçün əvəzsiz idi.

– **Qırmızı kişmişi.** Qırmızı, çox şirin, tumsuz olurdu. Yemək və qurutmaq üçün idi. Tələbat həmişə böyük olub.

– **Çərdəkli kişmişi.** Gilələrinin kiçikliyinə görə kişmişinin bu növünü "Nar dənəsi" də adlandırırdılar. Kiçik toxumları vardı.

7. **Haçabaş.** Yumru, ağ, iri, qalın qabıqlı, şirin, sulu, seyrək salxımlı olurdu.



Kolu böyük və məhsuldar idi. Əsasən asılıb qışa saxlanırdı.

8. **Misqalı** və ya **ağ üzüm.** Üç növü vardı:

– **Adi misqalı.** Yumru, ağ, sulu, nazik qabıqlı, şirin olurdu. Yemək və qışa saxlamaq üçün daha sərfəli idi.

– **Erkək misqalı.** Adi misqalıya nisbətən qalın qabıqlı, sıx salxımlı, yaşılımtıl giləli olurdu. Daha çox yeyilirdi.

– **Əlvan misqalı.** Misqalı adlansa da, onlara oxşamırdı. Qırmızı-sarımtıl rəngdə, misqalıdan böyük və qalın qabıqlı, şirin və dadlı olurdu. Salxımları iri və uzun idi, iyulun ortalarında yetişirdi.

9. **Tülkü quyruğu.** Yaşılımtıl, sulu, kəmşirin, nazik dərili, seyrək salxımlı olurdu. Şərabçılıq üçün daha sərfəli idi.

10. **Sahabı.** Haçabaşdan iri və uzun, ağ və qırmızı, sulu, çox nazik qabıqlı, narın tumlu idi. Salxımları iri və uzun, kolu kiçik olurdu.

11. **Ambarı** (yəni ambarlıq). Qırmızı, yumru, kəmşirin, qalın qabıqlı, iri tumlu idi. Kolları çox yer tutduğu üçün sərfəli deyildi. Ancaq yeməyə yarayır, avqustun əvvəllərində yetişirdi.

12. **Təbrizi (Təbərzi** də deyilirdi). Ağ, çox şirin, sulu, nazik dərili, narın tumlu, böyük və seyrək salxımlı olurdu. 20-30 iyul arası yetişir, daha çox qışa saxlanırdı.

13. **Şirşirə** (ikiqat şirə). Haçabaşdan xırda, şirin, ağ-sarı gilələri, kolda çoxlu iri salxımları olurdu.

14. **Keçi məməsi.** Çox dadlı, şirin, ağ, uzun, ortası nisbətən sıxılı, ipək baramasına oxşar gilələri, uzun salxımları olurdu.

15. **Gülabı.** Şirin, nazik qabıqlı, narın tumlu gilələri, kiçik salxımları vardı.

16. Kərimqəndi. Şirin, ağızda qəndtək xırçıldayan, yumru, narın tumlu gilələri, sıx salxımları olurdu.

17. **Danagözü.** Sulu, kəmşirin, qırmızı, iri tumlu, qalın qabıqlı olurdu. Şərabçılıq üçün daha sərfəli idi.

18. **Kaxet. Qara üzüm** də deyilirdi. Qara, yumru, kəmşirin, qalın qabıqlı, tumlu idi. Salxımları kiçik olur və hər kolda 20-25 ədədə çatırdı. Kolları balaca və məhsulu şərabçılıq üçün daha sərfəli idi.

19. **Molla üzümü.** Ağ, yumru, qalın qabıqlı, iri tumlu, sulu gilələri, uzun salxımları olur.

20. **Milax.** İki növü olurdu: ağ və qırmızı. Kişmişidən iri, sulu, şirin, nazik dərili olur, 15 iyulda yetişirdi.

21. **Hüseyni.** Yumru, ağ, qalın qabıqlı, iri tumlu, şirin giləli, sıx iri salxımlı olurdu. Məhsuldar növ və yemək üçün daha sərfəli idi.

## MEYVƏÇİLİK

Vedibasar iqliminə və münbit torpağına görə meyvəçilik üçün də çox sərfəli olub. Təkcə belə bir faktı qeyd etmək yetərlidir ki, İ.Şopen 1832-ci ilə aid məlumatlarında Vedibasarda 76 bağ qeydə alıb. Bu bağlardan isə təxminən 19 xalvar, 50 batman meyvə götürülüb. Bundan başqa, mahalda dövlətin də 10 bağı olub.

Vedibasar mahalında meyvəçilik geniş yayılan məhsul olmaqla yanaşı, həm də qurudularaq (buna **qax** deyərdik) qışa saxlanan azuqə idi.

Mahalda geniş yayılan meyvə növləri sırasında almanın özünəməxsus yeri vardı. Yerli alma növləri ilə yanaşı, son zamanlar məhsuldar **şafran, belflor, smerenko, Amerika alması** növləri gətirilib həyətlərdə çoxaldılmışdı.

Vedibasarda becərilən əsas yerli **alma növləri:**

1. **Cənnət alması.** Erkən – iyunun axırlarında yetişir, yaxşı ətri, nazik qabığı, şirin dadı olurdu.
2. **Girdəşirin.** Yay alması idi, ağ-sarımtıl, balaca, şirin və nazik qabıqlı olurdu.
3. **Hacı Hüseynəli.** İyulun sonu – avqustun əvvəllərində yetişirdi. Sarı-qırmızı rəngi, nazik qabığı, şirin dadı olurdu. Cənnət almasından azca balaca idi.
4. **Vahab.** Qırmızı rəngli, dadlı, ətirli idi. Avqustun sonu – sentyabrın əvvəllərində yetişirdi.
5. **Uzunsap.** Ağ rəngli, uzunsov, kəmşirin, qalın qabıqlı idi. Avqustun əvvəllərində yetişirdi.
6. **Kərbəlayı Cəfər.** Payız alması idi. Sentyabrın sonunda yetişirdi. Bir üzü qırmızı, meyxoş, bərk idi. Geniş yayılmışdı.
7. **Xosrovşahı.** Qırmızı-sarı, şirin, dadlı, həm yemək, həm də qurutmaq üçün idi. İyunun sonu – iyulun əvvəllərində yetişirdi.



### Ərik növləri

1. **Badamı ərik.** Üç növü olurdu: **ağ, sarı, qırmızı.** Ən yaxşısı ağ növ idi. Toyuq yumurtasından azca kiçik, şirin və dadlı olurdu. Şirəli, qalın qabıqlı, şirin tumlu idi.

Sarı növü azca böyük, amma nə çox şirin, nə çox dadlı, nə çox sulu idi. Daha çox qurudulurdu.

Badamı əriyin üçüncü növü **şalağ** adlanır. Toyuq yumurtasından böyük, sulu idi. Bir tərəfi qırmızı, digər tərəfi sarımtıl olurdu. İyunun 20-cən yetişirdi. Geniş yayılmışdı və məhsuldar idi. Hündür, qollu-budaqlı ağacları olur. Yemək və kompot üçün çox yararlı idi.

2. **Növrəst,** yəni tez yetişən. Ən erkən, gilasla birgə yetişən növ idi. Ağ, yumru, sulu idi. O qədər şirin olmurdu.
3. **Ağca-nabat.** Ağ, dəyirmi, çox şirin, şirəli, dadlı olurdu. Geniş yayılmışdı. Yeyilir və qurudulurdu. Qurusu plov üçün əvəzsiz idi. İyunun əvvəllərində yetişirdi.
4. **Göycə-nabat.** Göyümsov (yaşılımtıl), çox şirin, dadlı, şirəli, nazik qabıqlı olurdu. Ağca-nabata nisbətən az yayılan idi.
5. **Xosrovşahı.** Yemək və qurutmaq üçün əla növ idi. Lakin ağca-nabat və göycə-nabatdan geri qalırdı. Dəyirmi, qırmızı-sarı, şirin, dadlı olur, iyunun sonu – iyulun əvvəllərində yetişirdi.
6. **Təbərzi.** Yarı sarı-yarı qırmızı olurdu. Yemək üçün, geniş yayılan və məhsuldar növ idi.
7. **Ağ ərik.** İri, şirəli, az yayılan və kəmşirin növ idi. İyunun əvvəllərində yetişirdi.
8. **Ordubad əriyi.** Cevizdən azca böyük, sarı, şirin, şirəli, nazik qabıqlı idi. Daha çox qurudulurdu.
9. **Xərci ərik.** Xırda, sarı rəngdə olurdu. Çox şirin deyildi. Sulu olur və dağ kəndlərində çox əkilirdi. İyunun ortaları yetişir, əsasən qurudulur və yeyilirdi.
10. **Acı ərik.** Cevizdən böyük, sarı, acıtəhər, acı tumlu, şirəsiz, dadsız olurdu. Dağ kəndlərində daha çox yayılmışdı.
11. **Arı ərik.** Xırda, yumru olurdu. Çox şirin deyildi. Çox yeyilmirdi və çox yayılan deyildi. Amma çox məhsuldar olurdu.

## **Şaftalı** (Vedibasarda **şəftəli** deyirlər) **növləri**

Vedibasarda əhali tərəfindən çoxlu şaftalı becərilir, tumlar və peyvənd yolu ilə çoxaldılırdı. Martın sonları – aprelin əvvəllərində bütün kəndlər şaftalı ağaclarının çəhrayı çiçəklərinə bürünürdü. Külək bu çiçəklərin ləçəklərini yağış seli kimi kənd boyu yayırdı.

1. **Zəfəran** və ya **narıncı. Gəmirmə** də deyirdilər. Müxtəlif böyüklükdə və formada, sarı-qırmızı rəngdə olurdu. Tumdan ayrılmır. Yemək və kompot üçün əvəzsizdir. Məhsuldar və geniş yayılan idi. İyulun axırlarında yetişirdi.
2. **Yarma** (bəzən **qapaq** da deyirdilər). Üz bölünür, üzləri asanlıqla tumdan ayrılırdı. Sarı-qırmızı rəngdə olurdu. Geniş yayılan, məhsuldar növ idi. İyulun axırlarında yetişirdi.
3. **Gülü.** Erkən yetişən növ idi. Meyvəsi sulu və ağ rəngli olurdu. Ağacları soyuğa qarşı çox həssas olduğundan, nə qədər çox əkilsə də, az yayılan idi. İyunun axırı, iyulun əvvəlində yetişirdi.
4. **Payız şaftalısı.** Payızda yetişdiyi üçün bu ad verilmişdi. Lap soyuqlar düşənədək ağacda qalırdı. Çox yayılan, çox yeyilən idi.

## Armud növləri

1. **Malaça.** Erkən yetişir, sarı, uzun, lampavari, şirin, sulu, ətirli, nazik, zərif qabıqlı olurdu. Çox əkilən, çox yayılan, çox yeyilən, çox məhsuldar növ idi.
2. **Bildirçin budu.** Kiçik, uzunsov, nazik qabıqlı, yaşılımtıl, kəmşirin, ətirsiz, dadsız, yayda yetişən, az yayılan növ idi.
3. **Yay armudu.** Xırda, sarı, dadlı, yumşaq, yayda yetişən və çox yeyilən növ. Hər həyətdə uşaqların yeməyi üçün bir-iki ağacdan artıq olmazdı.
4. **Qış armudu.** Buna **payız armudu** və ya **daş armud** da deyilirdi. Orta böyüklükdə, payızda yığılanda göy, bərk, saxlanıb qışda yetişəndə sarı, yumşaq, sulu və çox yeməli olurdu. Çox məhsuldar və çox yayılan idi. Çox hündür, iri ağacları olurdu. Üzüm kimi, onu da söyüd şivələrindən düzəldilən xüsusi çubuqlara düzərdilər. Öncə armudların hər biri saplaqlarından nazik ip vasitəsilə bir-birinə bağlanardı. Sonra bu uzun düzüm çubuğa dolanar və 4-5 kiloluq çubuq-salxım – asma yaranardı. Həmin asmalar xüsusi yan damarlarında və ya evlərin çardaxlarında



göydən asılardı.
5. **Gülabı armud.** Meyvəsinin hər biri az qala yarım kilo gələn bu armudun çox xoş və güclü ətri olardı.

## Alça növləri

1. **Sarı alça.** Xırda, yumru, sulu, şirin, çox məhsuldar və çox yayılan, çox yeyilən növ idi.
2. **Sultan alçası.** Sarı, iri, ətli, sulu, mürəbbə və qurutmaq üçün əvəzsiz, çox yayılan və məhsuldar növ idi.
3. **Qırmızı alça.** Yumru, ceviz boyda, turşa-şirin, çox yayılan və məhsuldar idi.
4. **Xərci.** Balaca, xırda tumlu, qırmızımtıl-sarı rəngli, turşa-şirin idi. Yemək və qurutmaq üçün sərfəli, çox yayılan və məhsuldar idi.
5. **Göycə.** İncə qabıqlı, göy, turşaşirin, çox yayılan, məhsuldar növ idi.
6. **Ərik alçası.** Alça tinginə ərik calağından alınan hibrid növ. Şirin, sulu, dadlı, sarı-qırmızı rəngli idi. Məhsuldardı.

## Gilas növləri

1. **Sarı gilas.** Bu növə **şampan gilası** da deyirdilər. Sarı, sulu, dadlı, şirin, xırda tumlu olur. Çox yayılan, məhsuldar, çox yeyilən və mürəbbə üçün əvəzsiz idi.
2. **Ağ gilas.** Erkən – mayın sonu-iyunun əvvəlləri yetişirdi. Sarı-qırmızı rəngli, şirin, sulu, dadlı olurdu. Çox yayılan və məhsuldar idi.
3. **Qırmızı gilas.** Yəni **gilənar**. Tünd qırmızı, turşaşirin, qan-qırmızı, sulu, xırda, yumru olurdu. Məhsuldar və çox yayılan idi. Gözəl mürəbbəsi olurdu.

Bundan əlavə, Vedibasar mahalında digər meyvə növləri də geniş yayılmışdı. Məsələn, **gavalının** bir neçə növü (**xatın barmağı, albuxara, daş alı, göy alı** və s.) əkilib-becərilirdi.

Tutun **ağ tut, şah tut, xar tut, cır tut, qara tut** kimi növləri vardı. Hər həyətdə qədimi bir tut ağacı olardı. Bu ağacların gövdəsinə bir neçə adam qol dolasa ancaq çatardı.

**İydə** də Vedibasarda geniş yayılmışdı. Onun **Təbrizi** və **in-**

**nabı** növləri çox məhsuldar olub, ağacları su arxları boyunca əkilərdi. Şirin, dadlı, iri, unlu olan bu iydə növləri, adətən, meyvə quruları ilə bir sırada qışda adamların, xüsusilə uşaqların sevimli çərəzi idi.

**Ceviz** (Vedibasarda qoz sözü işlədilmirdi) də Vedibasarda geniş yayılan meyvə idi. Çox böyük olan ceviz ağaclarını bağların kənarlarında əkərdilər ki, digər ağaclara maneçilik törətməsin, çox yer tutmasın. Vedibasarda cevizin üç növü yayılmışdı:

1. **Kətan-köynək.** Qabığı çox nazik olar, əl ilə asanca qırılardı.
2. **Sucuq ceviz.** Qabığı qalın olar, ancaq ləpəsi asan çıxardı.
3. **Daş ceviz.** Qabığı daha bərk, ləpəsi də çox çətin çıxan idi.

Vedibasarda həm də çoxlu **qarpız-yemiş** becərilərdi. Qarpızın **xunu, sultan, kəvəri** növləri vardı. Tumları qırmızı və çox şirin olardı. Yayın istisində ortadan üz bölüb günün altına qoyardıq. Bir azdan buz kimi sərin olardı. Sanki indicə soyuducudan çıxarıbsan.

Yemişin **tutma, sineyvaz, şalax, sarı yemiş** növləri yadımda qalıb. Tutmaya **duz qırrası** da deyərdilər. Xırda vaxtı kiçik, göy olardı, lap xiyar kimi. Onu öz yarpağına büküb, torpağa basdırardılar. Orada böyüyər, yetişərdi. Saralar, şirinliyindən çat-çat olardı.

## MİNERAL EHTİYATLARI

Vedibasar mahalının həm dağlıq, həm də düzənlik hissəsi müxtəlif mineral ehtiyatlari ilə də zəngin olmuşdur. Bunlardan bir qismi Vedibasarda olmuş səyyahların xatirələrində və digər tarixi mənbələrdə də qeydə alınmışdır. Məsələn, XVII yüzil fransız səyyahı J.Şardən özünün "Səyatnamə"sində İrəvandan Naxçıvana gedərkən Ağrı dağları ilə üzbəüz Qaynar adlı kiçik bir şəhərdə mənzil saldıqlarından bəhs edir. Səyyahın qeydlərindən həmin yerin Dəvəli kəndi yaxınlığındakı **Şorsu** mineral bulağı ətrafına uyğun gəldiyi anlaşılır. Həmin su yerdən qaynar şəkildə çıxdığı üçün, görünür, yerli bələdçilər oranı fransız səyyahına elə "Qaynar" kimi də təqdim etmişlər.

Bu su M.Vəlilinin "Azərbaycan" kitabında isti **Dəvəli suyu** kimi qeydə alınmışdır.

Bundan başqa, həmin mənbədə Vedibasar ərazisində mədən



sularından qıcqırdan və duzlu sular sırasında **Düylün suyu** və **Ərəzin suyu** da qeydə alınmışdır.

Əslində isə Dəvəli suyundan başqa, Vedibasarda müalicəvi əhəmiyyətli iki məşhur bulaq da vardı: **Qoturbulaq, Şorbulaq.** Bunlardan birincisi Böyük Vedidən yuxarıda çılpaq qayalar arasında yerləşirdi. Bir çox xəstəliklərin dərmanı idi. Xüsusilə dəri xəstəliklərinin sağalmasında əvəzi yoxdu. Adını haradan alması barədə iki mülahizə var. Birincisi, bulağın yerləşdiyi ərazi daşlıq, çılpaqlıq idi. Duzlu suyun təsirindən burada heç bir ağac, kol, ot bitmirdi. İkincisi, bulağın suyu xüsusilə qotur xəstəliyinin müalicəsində əvəzsiz idi. Bulağın suyu gur olduğundan son zamanlar ermənilər bu sudan "Ararat" mineral suyu istehsal etməyə başlamışdılar.

Şorbulaq isə Yengicə kəndindən yuxarıdakı Qır dağının döşündə yerləşirdi. Yerdən qismən duzlu və xeyli qazlı su qaynayıb çıxırdı. Yaxınlıqda olduğu üçün qonşu kəndlərin adamları ora tez-tez gedər, sudan içər, bulaqdan azca kənarda düzəldilmiş kiçik göldə çimərdilər. Sonralar bu göl doldu. Uşaq vaxtı tez-tez velosipedlərlə dəstə ilə Şorbulağa qalxar, suyunu stəkanlara doldurub, içinə qənd atıb qarışdırar, özümüzçün "limonad" düzəldib ləzzətlə içərdik.

Təbii ehtiyatlardan M.Vəlilinin kitabında aşağıdakılar da qeydə alınmışdır: Dəvəli kəndi yaxınlığında **sal duz,** Çanaxçı kəndi yaxınlığında çoxlu **kömür** qatları, Dəvəli kəndi yaxınlığında **mərmər.** Hətta M.Vəlilidə belə bir qeyd də var ki, Vedibasar qəzasının Dəvəli kəndində hasil edilən **dəyirman daşları** Cümhuriyyətin (**ADC nəzərdə tutulur – Ə.Ə.**) un üyüdən dəyirmanlarının ehtiyaclarını ödəyir və hətta qonşu məmləkətlərə – Gürcüstana, Dağıstana, Ermənistana və İrana göndərilir.

İstifadəyə verilmiş ən böyük təbii ehtiyatlar sırasında birinci yerdə Dəvəli kəndi yaxınlığındakı böyük **kirəc-əhəng** ehtiyatları dayanır. Bu ehtiyatlar hesabına **Dəvəli sement zavodu** tikilmişdir və bu zavodun istehsal etdiyi sement bütün ətraf rayonları təmin edir.

Bundan əlavə, Böyük Vedi – Dəvəli arasında böyük **bazalt daş** ehtiyatları mövcud idi ki, evtikmə işlərində bu daşlardan geniş istifadə olunurdu.

Son zamanlar Qır dağı ətəyində iri **mərmər yatağı** istifadəyə verilmişdi.

## ADƏT-ƏNƏNƏ VƏ MƏİŞƏT HƏYATI

Vedibasar mahalı adət-ənənə və məişət həyatına görə də bir sıra özəlliklərə malik idi. Heç şübhəsiz, bu məsələdə bölgənin təbii-coğrafi şəraiti ilə bərabər səviyyədə burada yaşayan əhalinin milli-etnik xüsusiyyətləri də başlıca rol oynamışdır. Belə ki, məsələn, bölgənin sərin dağlıq və isti düzənlik (aran) hissəsinə ayrılması burada yayda arandan **yaylağa** qalxmaq, qışda isə dağdan qışlağa enmək ənənəsi formalaşdırmışdı. Hər il may ayında aran kəndlərinin əhalisi elliklə, mal-heyvanı, toyuq-cücəsi, it-pişiyi ilə yaylağa qalxar, kəndə məxsus xüsusi yurd yerlərində çadırlar qurular, adamlar sentyabra qədər burada yaşayardılar. Yaylağın güllü-çiçəkli yamaclarında otlayan inəklərin bolluca südündən çoxlu yağ-pendir tutular, qışa bəs edəcək qədər pencər yığılıb-qurudular və ya turşuya qoyular, bir sözlə, həm böyük-kiçik yaxşı istirahət edər, həm də xeyli qış azuqəsi tədarük edilərdi. Kənddə ancaq təsərrüfatla məşğul olan kişilər qalar, yaylağa gələn maşınlarla tez-tez yeşik-yeşik mer-meyvədən yaylaqdakılara göndərərdilər. Kənddən obaya yük maşını gələndə hər çadır-ailə üçün xüsusi yeşik-bağlama gəlməsi özü bir aləm, uşaqlar üçün toy-bayram olardı.

Vedibasarın şair oğlu **Musa Bağırov** özünün "Yaylaqda" şerində vedibasarlıların yaylaq həyatını belə təsvir etmişdir:

**May çıxanda biz yaylağa köçərdik,**
**Çadır qurar, dörd yanını biçərdik,**
**Axşam-səhər süd-qatıqdan içərdik,**
**Yanağımız qızarardı, yanardı,**
**Qabıq qoyar, soyulardı, qanardı.**

**Axşamüstü çoban tütək çalardı,**
**Obamızı xoş bir avaz alardı**
**Qoca nənəm xəyallara dalardı,**
**Nənəmizin əllərindən tutardıq,**
**Qucağında şirin-şirin yatardıq...**

**Balqayadan bal süzülüb axardı,**
**Tamahından ayı üzə çıxardı,**
**Kürd Abdulla ona güllə sıxardı,**



**Bütün oba kabab çəkib yeyərdi,**
**Yeli olan "sağalacam" deyərdi.**

Oba yaylaqdan dönəndə uşaqların yanaqları qıp-qırmızı, çox vaxt da yaylaq havasından qırtmıq bağlamış olardı.

Qışda isə dağ kəndlərinin mal-heyvanı mahalın aran hissəsindəki xüsusi qışlaq yerlərinə endirilərdi.

Kəndin mal-heyvanı – naxır-sürüsü adamlara nisbətən yaylaqdan bir qədər gec aşağı düşürülərdi. Elə bu vaxtlar da – payızda kənddə digər məişət mərasimi, belə demək mümkünsə, başlayardı. Bu da qış üçün ət azuqəsi tədarükü idi. Belə ki, hər ailə azı 5-6 ədəd iri, kök qoç və ya erkəklərdən alıb qovurmalıq edərdi. Yəni kəsilmiş qoçların əti doğranar, tikələr böyük qazanlarda yağın içində qızarana qədər bişirilib-qovrular, xüsusi iri qoşaqulplu küpələrə və ya şirli qazanlara yığılıb, qışa saxlanardı. Bu vaxt elə kök erkəklər alınmalı idi ki, qovurma prosesində özgə yağ işlədilməsin. Ətin öz yağında qızardılması və doldurulduğu qabda bu yağın qovrulmuş ətdən yuxarıya qalxması şərt idi. Bütün bu mərasimə kəndlərdə **qovurmalıq** deyərdilər. Kənddə ən kasıb ailə belə qovurmalıq etməmiş olmazdı.

Qışda həmin qovurmadan bir neçə tikə çıxarıb xörəyə atanda nə xörəyin, nə də ətin dadından doymaq olmurdu. Xüsusilə qovurma şorbasının ləzzəti ayrı aləm idi.

Payızda qış azuqə ehtiyatı kimi xeyli üzüm və tut **doşabı** (bəhməzi) da bişirilərdi.

Vedibasarda hər evin öz ərzaq damı olardı. Buna **yan damı** deyərdilər. Ailənin illik, xüsusilə qış azuqə ehtiyatı dama yığılardı. Bu damlar bir qədər yerdən qazıldığından və döşəmə torpaq olduğundan yayda da, qışda da nə çox isti, nə çox soyuq olardı.

Yan damından başqa hər həyətdə təndirxana da tikilərdi. Buna **təndirəsər** deyərdilər. Vedidə təndirlər yerdən, yəni təndirin ağzı yerlə bərabər olardı. Yardımçı hava yeri – **küflə** kənardan çıxardı. Adi günlərdə təndirin ağzına qapaq qoyar, küflənin ağzını isə iri əski tıxacla bağlı saxlayardılar. Təndiri yandıranda küfləni açardılar ki, yaxşı yansın, köz düşəndən sonra küfləni bağlayardılar ki, isti kənara çıxıb, od tez sönməsin.

Vedidə əsas çörək təndirdə bişən **lavaş, qalın, tapı** və **fətir**

idi. **Lavaş** bir metrə yaxın uzunluğunda, yarım metr enində nazik çörəklər idi. 15-20 günlük yapılar, quru halda yan damına yığılıb, gündəlik istifadə üçün azca su çilənib yumşaldılardı. **Qalın** – iki barmaq qalınlığında, bir qarış yarım uzunluğunda çörəklər olardı. **Tapı** nisbətən nazik və ortası deşik idi. **Çıppa** əllərdə çırpılıb açılar, rəfətənin üstünə sərilər, təndirə yapılardı. Çıppa adı da **çırpma//çırppa//çıppa** sözündən yaranmışdı. **Fətir** isə adətən süddən bişirilən, azca şəkər qatılan, qalın boyda nisbətən şirin çörək idi. Qalından fərqli olaraq o, xeyli vaxt yumşaq qalardı.

Vedibasarda kəndlər ayrı-ayrı tayfalardan ibarət və hər tayfanın öz ağsaqqalı, ağbirçəyi olduğundan hər kəsin öz yeri bilinərdi. Böyüyə hörmət burada hamı üçün yazılmamış qanun idi. Tayfalar arasında güclü **qohumluq** əlaqələri vardı. Az qala kəndlərdə hamı bir-biri ilə qohum idi. Doğrudur, keçmişdə tayfalararası düşmənçiliklər də olmuşdu. Lakin bunlar hamısı keçmişdə qalmışdı.

Vedibasar camaatı **dini adət** və **ayinlərə** də həmişə əməl və itaət edən camaat idi. "Dil içində dil, din içində din qorumuşuq" deməkdə onlar tamamilə haqlıdırlar. Belə ki, Sovet hökumətinin dinə qarşı amansızlıqla mübarizə aparmasına baxmayaraq, Vedibasarın azərbaycanlı kəndlərinin, demək olar ki, hamısında məscidlər və ya ocaqlar, pirlər fəaliyyət göstərirdi. Adamlar bu dini mərkəzlərdə öz dini bayram və ayinlərini ləyaqətlə icra edirdilər. Sünnət, toy, yas mərasimləri dini qayda-qanunlara tam əməl olunmaqla həyata keçirilirdi.

**Sünnət mərasimi** Vedibasarda böyük bir təntənə ilə icra olunurdu. Ailə başçısının ən yaxın dostu, qardaşlığı oğul uşağına kirvə tutular, bu kirvəlik nəsilbənəsil davam etdirilərdi. Hətta belə bir söz vardı ki, kirvəni dəyişməzlər, bunun düşər-düşməzi olar. Kirvəlik yaxın, hətta ondan da yuxarı səviyyədə qohumluq hesab edilirdi. Təsəvvür edin ki, əmi, dayı, xala, bibi kimi yaxın qohumların qızı ilə ailə qurmaq mümkün sayılsa da, kirvənin qızı ilə evlənmək qəti olaraq mümkün deyildi. Kirvə sünnət olunan uşağa başdan-ayağa təzə paltar alar, həm kirvə, həm qohum-əqrəba tərəfindən sünnət evinə şirniyyat dolu çoxlu xonçalar gələr, uşaq sağalandan sonra onun valideynləri kirvənin və onun bütün ailə üzvlərinin, hətta yaxın qohumlarının hər birinin adına qiymətli hədiyyələrlə (buna "xələt" deyərdilər) bunun



qarşılığını gedər, bir müddət sonra kirvə eyni ilə belə bir mərasimlə təzə kirvənin evinə qədəm basardı. Bu qarşılıqlı gediş-gəliş hər Novruz bayramında təkrar olunardı.

Vedidə **toy mərasimlərinin** də özünəməxsus xüsusiyyətləri vardı. Burada keçmişdə ən azı yeddi gün-yeddi gecə toy olardı. 1950-ci illərdə bu, üç gün-üç gecəyə qədər azalmışdı. Mənim yadıma gələn 70-80-ci illərdə isə hər toy ancaq iki gün (adətən həftənin şənbə və bazar günləri) çalınardı. Həm də toyu oğlan evi edərdi, ayrıca qız toyu olmazdı.

Toydan əvvəl oğlan evinin ağsaqqalları ilə qız evinin ağsaqqalları oturub, **xərc-xörək** deyilən bir sövdələşmə edərdilər. Qız atasına çatacaq **başlıq** (süd pulu), qız evinin toy xərci (kəbin çörəyi üçün) və s. müəyyənləşdirilərdi.

Keçmişdə gəlini üzü örtülü, atın üstündə, qayınata və ya qayınata əvəzi olan adam atın yüyənindən tutmaqla apararmışlar.

Mərhum yazıçımız Fərman Kərimzadənin "Vedinin yanı dağlar" yazısında belə bir cümlə var: "Mən gözümü açandan burada çadra görməmişəm". Bu, doğrudan da belə idi. Lakin qadınlar istisnasız olaraq hamısı yaylıq bağlayar, yaşmaq vurardılar. Kişi xeylağı ilə danışanda başını aşağı dikib, yaşmağın altından danışardılar.

Mənim yadıma gələn budur ki, şənbə günü toy axşam saat 5-6-da başlayar, gecə yarısına qədər davam edərdi. Kəndin əhalisi qadınlı-kişili hamısı mağarda bir yerdə olardı. Bir tərəfdə qadınlar, digər tərəfdə kişilər oturardı. Bazar günü toy məclisində süfrə arxasında isə ancaq kişilər əyləşərdi. Gəlin bu məclislərdə qəti iştirak etməzdi.

Şənbə günü gündüz oğlan evindən qız evinə parça biçiminə gedilər, orada məclis qurular, kəbin çörəyi verilərdi. Bu, qız toyunu əvəz edər və orada ancaq qadınlar iştirak edərdilər. Qız evinin məclis xərcini oğlan evi öz üzərinə götürərdi. Gecə isə oğlan evindən qız evinə xına aparılardı. Bazar günü gəlini gətirməyə getməzdən əvvəl oğlan evinin mağarında bəyi tərif edər, çalğıçılar bəyin yaxın adamlarından nəmər yığardılar.

Vedidə bir adət də vardı ki, nişanlı qızlar və təzə gəlinlər toya ancaq musiqi ilə dəvət olunardılar. Belə ki, çalğıçılar qapı-qapı gəzib həmin qız-gəlinlərin olduğu həyətdə dayanıb bir qədər çalar, onları toya çağırardılar. Yalnız bundan sonra həmin

qız və ya gəlin o axşam toya təşrif buyurardı.

Vedibasarda **Qurbanlıq – qurban kəsmə** mərasiminin də bir sıra özəllikləri mövcud olmuşdur. Onlardan qədim Bayburt kəndinin keçmiş sakinlərindən yazıya alınmış, Millidərə bölgəsi üçün səciyyəvi olan **Bişmə qurban, Sacarası** və **Niyaz** haqqında xüsusi bəhs etməyi son dərəcə vacib hesab edirik.

**Bişmə qurban.** Müəyyən niyyət üçün xüsusi bəslənmiş qoç kəsilərmiş. Bu mərasim kəndin ən böyük evində keçirilər və kəndin bütün əhalisi iştirak edərmiş. Mərasimə kəndin ən mötəbər ağsaqqalı və ya seyid övladı rəhbərlik edərmiş. Qurban kəsiləndə onun əti doğranmazmış, yalnız oynaqlardan ayrılar, sonra qazanlara doldurulub bişirilərmiş. Ət sümükdən ayrılana qədər bişirilər, sonra əti sümükdən ayırıb, didib, iri teştlərə yığarmışlar. Bundan sonra həmin əti lavaş çörəyin arasına qoyub kəndin bütün əhalisinə paylayarmışlar. Mərasim başlanandan qurtarana qədər duaoar oxunarmış. Ətin qazanda qalan suyuna yarma töküb bişirər, camaata paylayarmışlar. Sümükləri isə qoçun dərisinə büküb əlçatmaz yerdə torpağa dərin basdırarmışlar ki, heç vəhşi heyvanlar da tapa bilməsin.

**Sacarası.** Xəmiri yağla, südlə yoğurar, sonra ocağın üstünə sac qoyub, o sacın içinə yoğrulmuş xəmiri çörək kimi yayar və üstünü də digər sacla örtərmişlər. Sacarası bişdikdən sonra onu götürüb, hissə-hissə doğrayıb, kənd camaatına paylayarmışlar. Bişmə qurban kəsmək imkanı olmayanlar üç Sacarası bişirsə idi, o, bir Bişmə qurbana əvəz sayılarmış.

**Niyaz.** Niyazı da xəmirdən bişirərmişlər. O, həcmcə Sacarasından kiçik olar, xəmiri südlə yoğrular, bir az da şəkər və ya bal qatılarmış. Onu sacda və ya təndirdə bişirər, hissələrə bölüb camaata paylayarmışlar. Onu çox vaxt Sacarası ilə eyni vaxtda bişirib paylayarmışlar.

Sacarası və Niyazı paylayan onu iki əlinin arasında tutub verər, payı alan da həmçinin iki əlinin arasında alıb, payı öpər və Allah qəbul etsin deyərmiş. Bu payları yeyərkən gərək elə edəydin ki, bir qırığı da yerə düşməyəydi, çünki günah sayılırdı. Yerə düşərsə, götürüb, öpüb, göz üstə qoyub, sonra əl-ayaq çatmayan yerə qoyarmışlar.

Vedibasar mahalında **Novruz bayramları** xeyli təm-təraqla



qeyd olunardı. Bu bayrama əvvəldən xüsusi hazırlaşar və təntənə ilə qeyd edərdilər. Bayramqabağı bütün evlərdə **"evtökmə"** və ya **"paltartökmə"** mərasimi icra olunardı. Yəni bütün ailələr evin paltar-palazını, yorğan-döşəyini günə atar, ev-eşiyi, qapı-pəncərələri yuyar, təmizləyər, bir sözlə, bunu bayramı qarşılamağın ilk şərti hesab edərdilər. Bayramqabağı dörd çərşənbə axşamının hər birində küçələrdə iri tonqallar çatılardı. **İlaxır çərşənbə** axşamında bütün kənd **"qəbirüstü"** deyilən mərasimə çıxar, əvvəl hamı qəbiristanlığa axışıb, ölüləri ziyarət edər, mollalar yasin oxuyar, əhd edənlər orada adamlara şirniyyat paylayardı. Qəbirüstündən qayıtdıqdan sonra kənddə ili çıxmamış rəhmətə gedənlərin evlərinə gedib, başsağlığı verilər, ehsanı yeyilər və ya şərbəti içilərdi. Həmin axşam küçələrdə yenə tonqallar çatılar, hamı **"ağırlığım-uğurluğum bu odun üstünə"** deyib onun üstündən atılar, uşaqlar isə neçə gündən bəri hazırladıqları **şarlara** (əski parçaları bürülüb-bükülər, sonra məftillə möhkəm sarınıb, həmin məftildən ona uzun qol qoyular və şar adlanan bu qurama fişəng bir neçə gün qabaqdan ağ neftin içinə salınardı ki, nefti canına yaxşı çəksin) od vurub, var gücləri ilə fırladıb göyə uçurardılar. Göy üzü işığa qərq olardı. həmin gecə kəndin bir neçə ot tayasının əyri atılan şarlardan od tutub yanması da istisna təşkil etməzdi.

Həmin gün adamlar, xüsusilə qızlar niyyət tutub qapıpusduya çıxar, belə güman edərdilər ki, eşitdikləri ilk söz onların qismətindən xəbər verir. Buna görə də həmin axşam evdə hamıya tapşırardılar ki, ancaq xoş sözlər deyin, birdən qapıpusduya çıxan olar. Biz uşaqlar da zarafatla tez-tez bərkdən deyərdik: "Allah murazınızı versin!" Həmin axşam evlərdə hər adama bayram payı bölünərdi: qoz-fındıq-şirni-alma-naringi və s. Bu, daha çox rəmzi səciyyə daşıyırdı. Kim istəməsə, öz payını evdə kimə istəsə verə bilərdi. Evdə nə qədər bolluq olsa da, biz uşaqlar üçün pay hamısından şirin idi. Həmin axşam evlərdə əsasən plov bişirilərdi.

**Bayram axşamı** (ona **Kiçik bayram** və ya **Baca-baca** da deyirdilər) valideyn evindən övlad evinə pay göndərmək, belə payla qoca ata-ananı yad etmək adət idi. Cavan oğlanlarm ikibir, üçbir olub evlərə dəsmal, şal və ya papaq atması da gözəl adət idi. Bayram axşamının Baca-baca adı da buradan – keçmişdə evin bacasından şal sallamaqdan götürülmüşdü. **Böyük bayramda** isə

adamlar bir-biri ilə bayramlaşmağa gedər, öz yaxınını, qohumunu bayram payı ilə yad edərdilər. Bu pay bayram şirniyyatından və hər hansı bir "xələt"dən ibarət olardı. Bayramda qırmızı yumurta boyamaq, onu döyüşdürmək, udmaq-uduzmaq özü bir aləm idi.

Şidlili şair Bilman Qüdrət Vedibasarda Novruz bayramının gəlişini aşağıdakı kimi qələmə almışdır:

**Çiçəkli çəmənlər, çöllər güləndə,**
**Gözəllər düzlərdən gül dərərdilər.**
**Qardaşlar hər dəfə bayram gələndə**
**Bacı sovqatını göndərərdilər.**

**Düzərdi süfrəyə yeddi ləvini,**
**Nənəmin sevinci aşıb-daşardı.**
**Kinli ürəklərin sönərdi kini,**
**Hamı elə bil ki, doğmalaşardı.**

**Çərşənbə axşamı yandırıb şamı,**
**Arzuya, istəyə, kama çatardıq.**
**Gəzib bircə-bircə Novruz axşamı**
**Qonşu qapılara papaq atardıq.**

**Sanki bir-birinin girib bəhsinə,**
**Qızlar gözəlləşib, sonalaşardı.**
**Cavanlar düşərdi toy həvəsinə,**
**Qoçlar nişan üçün xınalanardı.**

**Qoşduğu nəğməni Kosa oxuyub,**
**Kisəni doldurar, payı alardı.**
**Kimi papağını tərsinə qoyub,**
**Dönüb birdən-birə "keçəl olardı".**

**Yerdə qatar düzüb, döyüşdürərdik**
**Rəngbərəng boyanmış yumurtaları.**
**Necə də həvəslə alıb geyərdik**
**Anamız tikdiyi təzə paltarı.**

**Bu sevinc selindən hamı içərdi**
**Yazın gəlişindən alıb ilhamı.**
**Bilman, necə gözəl ötüb keçərdi**
**Vedidə sevimli Novruz bayramı!**



## TƏHSİL

Keçmişdə Azərbaycan ərazisində olduğu kimi, onun İrəvan diyarında da kəndlərdə mollaxanalar fəaliyyət göstərib. Avropa təhsilinə meyl əsasən bölgənin Rusiya tərəfindən işğalından sonra meydana çıxıb. Bu məsələdə Vedibasar mahalı da istisna təşkil etmir. Doğrudur, hələ İrəvan xanlığının işğalına qədər də bəzi gözüaçıq bəylər, xanlar öz övladlarını İrana, Türkiyəyə, Yaxın Şərqin məşhur dini mərkəzlərinə təhsil almağa göndərməklə yanaşı, həm də Rusiyaya, Avropaya oxumağa yollayırdılar. Lakin bu, çox nadir hallarda baş verirdi. Məsələn, hələ 1827-ci ildə İ.Paskeviç İrəvan qalasını mühasirəyə alarkən öyrənirik ki, Vedibasarın valisi Aslan Sultanın doğma qardaşı da bu vaxt İ.Paskeviçin yanında hərbi qulluqda imiş.

Bölgənin Rusiya tərəfindən işğalından sonra isə mahalın imkanlı adamlarının övladlarını Rusiya, Avropa məktəblərində oxutması get-gedə intensiv şəkil alır.

Vedibasar mahalında ilk yeni tipli məktəb 1883-cü il sentyabrın 19-da Böyük Vedi kəndində Vedi nahiyəsinin o vaxtkı qlavası, böyük ziyalı **Ağa Süleymanovun** evində açılmışdı. Bu ikisinifli zemstvo (rus-tatar) məktəbi, bütün həmin tipli məktəblər kimi, əhalinin könüllü ianələri və qismən zemstvo vəsaiti ilə dolanırdı. Bu məktəblərdə şəriət, ana dili, rus dili, hesab, coğrafiya, tarix, ədəbiyyat və rəsm tədris olunurdu.

Böyük Vedi məktəbinin məzunları əsasən İrəvan gimnaziyasında, İrəvan və Qori seminariyalarında təhsillərini davam etdirirdilər. Bu məktəbin məzunları arasında **Şəmsəddin bəy Mahmudbəyov, Fərəməz bəy Mahmudbəyov, Ağamirzə Süleymanov, Mirzə Nəsrulla Şadlinski, Abbasqulu bəy Şadlinski, Teymur bəy Şadlinski, Seyfulla Süleymanov** və b. onlarla böyük şəxsiyyətlər vardı. Onların əksəriyyəti təkcə Vedibasar, İrəvan tarixində yox, həm də bütün Azərbaycan tarixində yeri olan şəxsiyyətlərdir.

Sonralar Vedi bəylərinin qeyrəti ilə kəndin içində ikimərtəbəli məktəb binası tikilmiş və məktəb ora köçürülmüşdü. Bu həmin bina idi ki, 1917-ci ilin dekabrında Vedibasar mahalının başı üzərini erməni işğalı təhlükəsi alanda Abbasqulu bəy Şadlinski

burada böyük müşavirə çağırmış, Vedibasar Milli Komitəsini və onun silahlı qüvvələrini təşkil etmiş, özü də həmin qurumlara rəhbərlik etmişdi. Başqa sözlə, 1919-cu ildə ermənilər tərəfindən hücumların birində yandırılana qədər bu məktəb binası Vedibasar vətənpərvərlərinin qərargahı olmuşdu.

Sovet hakimiyyəti illərində Vedibasarda, demək olar ki, bütün kəndlərdə ibtidai, yeddiillik (sonralar səkkizillik) məktəblər açılmış, bir sıra kəndlərdə isə orta məktəblər fəaliyyət göstərmişdir.

1940-cı illərdə Vedibasar mahalı ərazisində cəmi 9 orta məktəb olub: 4-ü Vedi, 5-i Qarabağlar rayonlarında. Vedi rayonundakı orta məktəblərin 2-i azərbaycanlı (Böyük Vedi və Avşar kəndlərində), 2-i erməni (Böyük Vedi və Dəvəli kəndlərində) məktəbi olub. Qarabağlar rayonundakı orta məktəblərin isə 3-ü azərbaycanlı (Çimənkənd, Kolanlı və Golaysor kəndlərində), 2-i erməni (Çanaxçı və Qaşqa kəndlərində) məktəbi olub.

Lakin 1948-1953-cü illər deportasiyasından sonra, Qarabağlar rayonu ilə birgə buradakı azərbaycanlı məktəbləri də ləğv edildi.

1960-cı illərdən sonra isə Vedibasarda (və bütün Ermənistanda) azərbaycanlıların öz dillərində orta təhsil almasına xüsusi diqqət yetirilirdi. Təbii ki, bu, azərbaycanlılara məhəbbətdən irəli gəlmirdi. Məsələ ondadır ki, ana dilində orta məktəbi bitirən yeniyetmə azərbaycanlılar təhsillərini davam etdirmək üçün mütləq Azərbaycanın ali məktəblərinə üz tutmaq məcburiyyətində qalırdılar. Bundan sonra isə Azərbaycamn dövlət orqanlarında işləyən ermənilər və ya erməni xislətlilər məcburi təyinat bəhanəsi ilə ermənistanlı ali məktəb məzunlarının "Ermənistan"a qayıtmasını əngəlləyir və onları Azərbaycanın müxtəlif kənd və şəhərlərinə göndərirdilər. Ermənиyə də elə bu lazım idi. Bir təhər geri qayıda bilənləri isə "Ermənistan"da işlə təmin etməkdən boyun qaçırırdılar. Onlar da təkrar Azərbaycana qayıtmağa məcbur olurdular. Qərbi Azərbaycan beləcə günbəgün azərbaycanlılardan təmizlənirdi.

Vedi rayonunun mərkəzi olan Böyük Vedi qəsəbəsində azərbaycanlı orta məktəbi 1970-ci ilə qədər fəaliyyət göstərmişdi. Şirazlı, Qaralar, Yengicə, Şidli, Xalisa kəndlərində isə orta məktəblər 1988-ci ilə qədər fəaliyyət göstərməkdə idi.



## TARİXİ ABİDƏ, QALA, DİNİ OCAQ VƏ ZİYARƏTGAHLARI

Vedibasar mahalının ərazisi Cənubi Qafqazda erkən məskunlaşan bölgələrdən biri kimi, həm də qədim maddi mədəniyyət nümunələri – tarixi abidələr, dini məbəd və ziyarətgahlarla zəngindir. Burada aşkar olunan qədim yaşayış yerləri, nekropollar, qəbirüstü at-qoç heykəlləri, qala və istehkam qalıqları, atəşpərəstlik məbədləri, kilsə və məscidlər, pir və ocaqlar qədim Azərbaycan tarix və mədəniyyətinin bir parçası olaraq heç vaxt öyrənilmədiyindən ciddi tədqiq və təbliğə bu gün də möhtacdır.

Belə bir faktı xatırladaq ki, 1826-1829-cu illər Rusiya-İran, Rusiya-Osmanlı müharibələri nəticəsində böyük dağıntılara məruz qalmış İrəvan xanlığı ərazisini qarış-qarış gəzən İ.Şopen yazırdı ki, Vedibasar mahalının əksəriyyəti dağıdılmış və boş qalmış dağlıq kəndləri qədim abidələrlə doludur; aran kəndlərində isə ancaq Xorvirabda və dağıdılmış Ortuk kəndində xristian məbədləri qalmaqdadır.

Həmin tarixi abidə, dini məbəd və ziyarətgahlardan haqqında məlumat toplaya bildiyimiz və ya şəxsən görüb-tanıdığımız bəzilərini oxucuların nəzərinə çatdırmağı, bu kitabın səhifələrində Millətimiz və Tariximiz üçün yaşatmağı özümüzə borc bilirik.

**AĞAGÜL ZİYARƏTGAHI.** Millidərə bölgəsinin Əlirzalar (Çəngli) kəndi yaxınlığında məşhur ocaq idi. 1949-cu ildə kənd camaatı elliklə Azərbaycana köçürülənə qədər Əlirzalar kəndinin və qonşu müsəlman kəndlərin əhalisi niyyət edib, nəzir-niyazlarını götürüb, bu ocağa gələr, arzu-niyyətlərinin həyata keçməsini bu müqəddəs ziyarətgahdan diləyərdilər.

**AĞBAL AĞA OCAĞI.** Şirazlı kəndində məşhur seyid **İqbal Miryaqub oğlu Nağıyevin** həyətində yerləşirdi. İqbal ağanın adı xalq dilində İğbal ağa//Ağbal ağa kimi tələffüz olunurdu. Əvvəllər bu ocağın sahibi Miryaqub ağa və Mirhüseyn ağa qardaşları olmuşdular. Ağır seyid olan bu nəslin mahalda, hətta qonşu rayonlarda böyük nüfuzu vardı. Yaxın-uzaq rayonlardan axışıb-gələn müsəlmanlar, hətta ermənilər bu ocağa pənah gətirər, şəfa tapıb geri dönərdilər.

Həyətdə möhrə palçıqdan ucaldılmış bu qədim Ocaq bina-

sına, təbii ki, ermənilər buraxılmır, onlar Ocaq sahibi ilə onun evində görüşməklə kifayətlənməli olurdular. Ocaqdan şəfa diləyən müsəlmanlar isə bəzən Ocağın özündə gecələyirdilər. Son zamanlar Vedi rayonu ərazisində fəaliyyət göstərən ən böyük ocaq idi.

1988-ci il mayın 11-də erməni quldurlarının Şirazlı kəndinə vəhşicəsinə hücumu zamanı Ağbal ağa ermənilər tərəfindən qəddarcasına qətlə yetirildikdən sonra onun ailəsi Goranboy rayonuna pənah gətirdi. Hazırda seyidin övladları Goranboy rayonunda və Bakı şəhərində yaşayırlar. Seyidin Goranboy rayonundakı Ocağı bu gün də el-obanın ziyarətgah yeridir. Ağbal ağanın nəvəsi Mirnəsir ağa və onun həyat yoldaşı Xalidə xanım hazırda Misirdə ali dini məktəbdə öz təhsillərini davam etdirirlər.

Ağbal ağa ocağının hökmü ilə bağlı adamların şahid olduğu belə bir faktı da xatırlatmağı lazım bilirik ki, 1988-ci il mayın 11-də bu ocağa hücum çəkən Şirazlı kəndindən 3 erməni dığasının hər 3-ü bu hadisədən sonrakı ilk həftə ərzində öz zavallarına bulmuşdular: onlardan biri suda boğulub ölmüş, digərini maşın vurub yerə suvamış, üçüncüsünün isə uşağı quyuya düşüb keçinmişdi.

**AĞCA QALA.** Məngük abidələri silsiləsindən olan bu qədim qala Məngük kəndindəki çoxlu qədim tikililərdən – qala xarabalıqlarından biri idi.

**ARDIC AĞACI OCAĞI.** Milli dərəsində ocaq. Rəvayətə görə, keçmişdə bir nəfər öz qonşusunun qoyununu oğurlayıb, gətirir bu ardıc ağacının altına. Qoyunu burada kəsib, sonra kəndə aparmaq qərarına gəlir. Lakin bıçaq qoyunun başını kəsmir. Əlləşməkdən yorulub qan-tərə batan oğru hirsindən bıçağı ardıc ağacına çırpır. Elə bu vaxt ağacın bıçaq kəsən yerindən qan fəvvarə vurur. Bu möcüzə qarşısında qalan oğru dərin peşmançılıq hissi keçirir. O, evindən beş qoyun gətirib, birini ağacın altında qurban kəsir. Yalnız bundan sonra ağacın qanı dayanır. Həmin adam evdən gətirdiyi digər dörd qoyunu da oğurladığı bir qoyuna qatıb qonşusuna verir. O vaxtdan da həmin ardıc ağacı pir kimi məşhurlaşır. Yaxın-uzaq hər yandan adamlar axışıb bura ziyarətgaha gəlirlər.

**BÖYÜK VEDİ MƏSCİDLƏRİ.** Kəndin 5 məscidi olub: 2-i



Paskili məhəlləsində, 2-i Vedili məhəlləsində, 1-i Vəliuşağı məhəlləsində. Lakin Sovet dövründə həmin məscidlərin bəziləri bağlanmış, ambara, MTS-ə çevrilmiş, qalanları isə 1948-1953-cü illər deportasiyası zamanı kəndin azərbaycanlı əhalisinin kütləvi şəkildə Azərbaycana köçürülməsi ilə bağlı sahibsiz qalmış, uçurulub-dağıdılmışdır. Onlardan yalnız biri – kəndin içindəki Vəliuşağı məscidi 1988-ci ilə qədər qalmaqda idi. Bu məscid daha fəaliyyət göstərməsə də, kəndin azərbaycanlıları tərəfindən qorunur və ziyarət olunurdu.

**ÇIĞIRQAN OCAĞI.** Çığırqan dağında ziyarətgah.

**CINDIRRI PİR.** Məngük kəndi ilə Zimmi kəndi arasında ocaq. Burada yerləşən söyüd ağacı Ocaq yeri sayılır və yolu buradan düşənlər ağacın budaqlarına niyyət edib parça tikəsi (cında) bağlayardılar.

**ƏBDÜLƏSƏR OCAĞI.** Əyricə yaylağında Qızılxaraba (Qızılverən) kəndinin üstündə qədim ziyarətgah. Qədim yaşayış yeri olan bu yerlərə yolu düşənlər bu Ocaq yerini ziyarət etməyi özlərinə borc bilirdilər.

**ƏRƏB OCAĞI.** Bayburt kəndində qədim ziyarətgah. Tarixi çox qədimlərə gedən bu ocağın sahibi keçən yüzildə **Seyid Abdulla** olmuşdur. O, dünyasını dəyişdikdən sonra ocağa oğlu **Seyid Abbas**, ondan sonra onun oğlu **Seyid Qəşəm** sahiblik etmişdir. 1948-1953-cü illər deportasiyası zamanı kəndin əksər azərbaycanlı əhalisi köçürülsə də, bu qədim ziyarətgah öz fəaliyyətini davam etdirmişdir. 1988-ci ildə kəndin sonuncu azərbaycanlı sakinləri Azərbaycana köçəndə Seyid Qəşəm də Bərdə rayonunun Kətəlparaq kəndinə köçmüş və burada rəhmətə getmişdir. Bayburtdakı Ocaqdan Kətəlparaq kəndinə gətirilmiş Ocaq daşı bu gün də Ocaq sahibinin evində saxlanmaqda, Ocaq isə öz fəaliyyətini bu gün də Kətəlparaq kəndində davam etdirməkdədir. Seyid Qəşəmdən sonra Ocağa oğlu **Seyid Abbas** sahiblik edir. Kətəlparaq kəndində Seyid Qəşəmin məzarı üstündə tikilmiş kümbəz isə əhalinin ziyarət yerinə çevrilmişdir.

Adamlar söhbət edir ki, Ərəb ocağının ilk sahibləri Seyid Abdulla və onun oğlu Seyid Abbasın yanan təndirdə qızardılmış şişi çıxarıb, dilləri ilə yalamaq və odlu-közlü təndirə ayaqyalın düşüb, közləri yalın ayaqları ilə ayaqlayıb söndürmək, bu vaxt

heç bir zədə almamaq qabiliyyətləri varmış.

**GAVUR QALASI.** Böyük Vedi ərazisində ən qədim qalalardan biri. Kəndin şimal qurtaracağındakı Sarıdolama təpəsinin başı üstündə uzanıb dövrə vuran silsilə qayalıqlardan ibarət idi. Qalamn böyük meydanmm bir tərəfindəki mağara **Divlər otağı**, digər mağara **Göyərçinlər otağı** adlanırdı. Qalanın düzənliyə açılan hissəsində isə qayalar və iri daşlarla hörülmüş qədim müdafiə istehkamı dururdu. Gavur qalasının Ağdağa doğru uzanan hissəsi isə narın qumla örtülmüşdü. Bura Gavur qalasının **Qumlucası** da deyirdilər. Qalanın günbatan tərəfində **Qoturbulaq dərəsi** yerləşirdi. Göründüyü kimi, Gavur qalası təbii istehkam tipli qala idi. Qalanm adı isə buranın islama qədərki dövrün tarixi yadigarı olduğunu təsdiq edir. Həmin ərazidə bir neçə qədim qəbiristanlığın mövcud olması da deyilənləri təsbit edir.

**GƏLİN (ŞİRİN) SARAYI.** Şirazlı kəndi ilə Reyhanlı kəndi arasında 220 m enində, 220 m uzunluğunda, 4 m hündürlüyündə təpə. Keçmişdə burada böyük bir qala-saray olmuşdu. Rəvayətə görə bu qala-sarayı İran şahı Xosrov Pərviz arvadı – Arman şahzadəsi Şirin üçün tikdirmişdi. Qalanın admın saray olması da vaxtilə burada qala-saray olmasını təsdiq edir. Vedibasarda keçmişdə yaşlı adamlar bu təpəni həm də Şirin sarayı adlandırırdılar.

**GÜLDƏRVİŞ OCAĞI.** Gölaysor kəndi yaxınlığında, qədim Güldərviş kəndinin xarabalıqları yanında məşhur ziyarətgah. Adından da göründüyü kimi, tarixin hansı dönəmindəsə bura dərviş ocağı olmuş, insanlar oranı ziyarətgaha çevirmişdilər.

**HƏSƏN QALASI.** Məngük abidələri silsiləsindən olan bu qədim qala Məngük kəndi ərazisindəki çoxlu qədim tikili qalıqlarından biri idi.

**XANOĞLU VƏ YA QAZMA QALASI.** Kotuz kəndində abidə. Abidə haqqında əlavə məlumata malik deyilik.

**XIDIR EYLAS (XIDIR İLYAS) OCAĞI.** Əzizkənd kəndinin arxa tərəfində, Heyranıs dağının döşündə böyük ziyarətgah. Burada qədim Xıdır Eylas kəndinin xarabalıqları yerləşirdi. Ətraf kəndlərdən ziyarətə gələnlər bu ocaqda niyyət edib, çoxlu qurbanlar kəsərdilər.

**XORVİRAB KİLSƏSİ.** Böyük Arman hökmdarı, qüdrətli türk sərkərdəsi Artaşın tikdirdiyi və er. əv. 2-ci yüzilin ortalarında Armaniyanın paytaxtına çevirdiyi qədim Artaşad şəhər yerində qədim qala-kilsə. Qriqorian kilsəsinin banisi Müqəddəs Qriqori Armaniyada xristianlığı yaymağa çalışanda məhz burada ilanla dolu quyu-zindana salınmışdı. Sasanilər tərəfindən qədim Artaşad şəhəri darmadağın edildikdən sonra xristian armanlar onlar üçün müqəddəs olan bu yerlərdə yeni kilsə ucaltmış və bu yeri camaatın ziyarətgahına çevirmişlər. Kilsənin monastır hissəsinin eramızın VI yüzilində çar Turadatın bacısı tərəfindən tikdirildiyi ehtimal olunur. Bu yerin ermənilərlə bərabər, həm də ətraf bölgələrin müsəlmanlarının ziyarət yeri olması, statistik məlumatlara görə, 1828-ci il işğalına qədər qalada ancaq müsəlman ailələrin yaşaması qala-məbədin XIX yüzilin ortalarına qədər kilsə kimi istifadə olunmadığını və yalnız XIX yüzildə bölgəyə ermənilərin kütləvi köçürülməsindən sonra erməniləşdirildiyini söyləməyə əsas verir.

**İNQALA QALASI.** İnqala kəndi yaxınlığında qədim qala. Qalanın eramızın ilk yüzillərində Vedibasar mahalı ərazisinə hun-xəzər tayfalarının kütləvi axını zamanı inşa edildiyi ehtimal olunur. İlkin adı Hunqala olan qala sonralar xarabalığa çevrilmiş, qalanın yaxınlığındakı yeni kənd də İnqala adlanmışdır.

**KARDAŞ OCAĞI.** Dəhnəz kəndinin yuxarısında böyük, dağ kimi iri qaya parçası vardı. Burada həm də Kardaş ocağı yerləşirdi. Bu yer ətraf kəndlərin müsəlman əhalisinin ziyarətgahı idi.

**KOLANLI ABİDƏLƏRİ.** Kolanlı və onun ətrafındakı Kom, Xartlıq, Xınıt kəndləri ərazisində çoxlu qədim yazılı daşlar mövcud idi. Bunlara Kolanlı dəyirmanının yanında iri daşlar üzərindəki qədim yazılar, Mamoşun həyətindən tapılan küp qəbirlər, Ambar deyilən yerdəki qədim tikili qalıqları, Komun qəbiristanlığı, Ocaq dərəsindəki qəbir daşları və s. daxil idi. Ümumiyyətlə, Kolanlı kəndləri (cəmi 8 kənd) ərazisində 17 qədim qəbiristanlıq qalıqları son illərə qədər qalmaqda idi. Kəndin mərkəzində bəzəkli daşlar üzərindəki xaç şəkilləri bu yerin islama qədərki yüksək xristian-arman və ya alban mədəniyyətinin əyani sübutu idi.

**KOROĞLU QALASI.** Milli dərəsində yerləşən bu qədim,

möhtəşəm qala bölgənin ən məşhur, əzəmətli qalalarından idi. Qalanın tarixi haqqında əlavə məlumata malik deyilik.

**QALABÜRC.** Böyük Vedi qəsəbəsində eni 350 m, uzunluğu 400 m, ucalığı 7-8 m olan təpə. Orta yüzillərdə burada mövcud olan qədim qalanın sonralar evlər çoxaldıqca divarları uçulub-dağıdılmış, yalnız bürc hissəsi salamat qalmışdı. Qalabürc adı da buradan yaranmışdı. Yəni həmin abidə tarixi qalanın ancaq bürc hissəsini əhatə etmişdir. XX yüzilin əvvəllərinə qədər burada qala-bürc qalmaqda idi. Enli və uca palçıq divarla əhatələnmiş bu qala-bürcün üç tərəfdən giriş-çıxış yolu olmuş, 1918-1920-ci illərdə Abbasqulu bəy Şadlinski Böyük Vedinin müdafiə döyüşlə-rini buradan müşahidə və idarə etmişdir. 1920-ci ilin yayında Böyük Vedi uğrunda gedən son döyüşlər zamanı və kənd ermənilər tərəfindən işğal olunduqdan sonra Qalabürc dağıdılmış, kəndin içində torpaq təpəsinə çevrilmişdi.

**QARA OCAQ.** Dəhnəz kəndi kənarında, Qurbanbulaq bulağının yerləşdiyi ərazidə qədim ziyarətgah. Bu ocağa ziyarətə gələnlər öz qurbanlarını bu bulağın başında kəsdikləri üçün bulaq da həmin adı almış, Qurban bulağı kimi tanınmışdı. 1949-cu ildə kənd əhalisi Azərbaycana deportasiya olunduqdan sonra ocaq yiyəsiz qalmışdır. Ocağın sonrakı taleyi haqqında məlumatımız yoxdur.

**QARALAR MƏSCİDLƏRİ.** Kənddə iki məscid vardı. Köhnə məscid kəndin mərkəzində, şose yolunun kənarında yerləşirdi. Məscid uçub-dağıdılmış, ancaq hündür divarları qalmışdı. Bununla belə, xarabalıqlarına toxunmağa heç kəs cəsarət etmirdi. Kəndin müsəlman məhəllələrinin arasında, Daşkörpü deyilən yerin yanında yerləşən ikinci məscid isə 1988-ci ilə qədər fəaliyyətini davam etdirməkdə idi. Məscidin daim öz mollası olmuş, kəndin yaşlı adamları bura ibadətə gəlmiş, hər il dini bayramları bu məsciddə keçirmişdilər. 1988-ci ildə kəndin müsəlman əhalisi kənddən qovulub çıxarılarkən məscidin qapısını bağlayıb gəlmişlər. Məscidin sonrakı taleyi haqqında məlumatımız yoxdur.

**QARASU ABİDƏSİ.** Dəvəli dəmiryol stansiyası yaxınlığında qədim yaşayış məskəni. 1970-ci ildə burada aparılan qazıntı işləri zamanı 8 metr dərinlikdə qədim yaşayış məskəni aşkar



edilmişdi. Həmin yerdən atəşpərəstliklə bağlı bir sıra qiymətli maddi mədəniyyət nümunələri əldə edilsə də, Qərbi Azərbaycan ərazisində saxtalaşdırılması mümkün olmayan bir çox qədim türk-müsəlman abidəsi kimi, bu arxeoloji tapıntı da ermənilər tərəfindən ört-basdır edilmiş, dünya ictimaiyyətindən gizlədilmişdir.

**QİDİ-QİDİ ZİYARƏTGAHI.** Qəbiristanlıq Əzizkənd kəndi yaxınlığındakı Qidi-qidi dərəsinin arxasında yerləşdiyi üçün bu adı almışdı. Çox böyük bir ərazini əhatə edirdi. Burada tarixi bilinməyən çoxlu qədim qəbirlər və onların üstündə at, qoç, gümbəz formalı başdaşılar dururdu. Saxta tarix yaratmaqda mahir olan erməni millətçiləri gözləri qabağındakı bu və bu kimi çoxlu tarixi "əşyayi-dəlillərə" niyə göz yumurdular – bu da özlüyündə aydındır.

**QIZ QALASI.** Dəhnəz kəndinin üstündə, Qarabağlar çayı ilə Vedi çayının birləşdiyi ərazidə, uca dağ başında qədim qala və sarayın xarabalıqları son illərə qədər qalmaqda idi. Erməni arxeoloqlarının bu qalanı görməməzliyə vurması qalanın və sarayın qədim türk abidəsi olduğuna ən tutarlı sübutdur.

**MƏNGÜK ABİDƏLƏRİ.** Məngük kəndi ərazisində qədim xarabalıqlar. Bu xarabalıqlar çoxlu qədim tikililərdən, Ağca qalası, Həsənqala, Məşədi Əhmədin qalası və s. qalalardan ibarət olmuşdur.

**MƏŞƏDİ ƏHMƏD QALASI.** Məngük abidələri silsiləsindən olan bu qala Məngük kəndi ərazisindəki çoxlu qədim tikili qalıqlarından biri idi.

**MİR SƏTTAR OCAĞI.** Vedibasar mahalının məşhur ocaqlarından biri idi. Haxıs kəndində yerləşən bu Ocağın sahibi **Mir Səttar ağa** və **Ət Seyid** adı ilə tanınan qardaşı olmuşlar. Ocaq yerləşən evdə əvvəllər Ət Seyid yaşayırmış. Ondan sonra bura ancaq Ocaq yeri olmuş, yaxın-uzaq kəndlərdən hamı bura ziyarətə gəlmişdir.

**MİRƏLİ OCAĞI.** Böyük Vedi kəndində ziyarətgah. Ocaq onun sahibi Mirəli ağanın adı ilə adlanırdı. Mirəli ağanın qəbri kəndin yuxarısında yerləşirdi. 1948-1953-cü illər deportasiyasına qədər Ocaq fəaliyyət göstərirdi. Deportasiya zamanı Mirəli ağanın övladları Beyləqana köçürüldüyündən sonralar oğlanları

gəlib seyidin qəbrini və ocağını köçürüb aparmışdılar. Mirəli ağanın oğlanları: Mir Kazım, Mir Həsən, Mir Hüseyn. Digər oğlu Mir Əziz isə Böyük Vətən müharibəsində həlak olmuşdu.

**MİRYAQUB AĞA GÜMBƏZİ.** Şirazlı kənd qəbiristanlığında, Ocaq sahibi Seyid Miryaqub ağanın məzarı üstündə ucaldılmışdı.

**OCAQ.** Yengicə kəndində ziyarətgah. Bu ziyarətgahın mənsub olduğu tayfa Ocaqlılar tayfası adlanırdı. Seyid ocağı olan bu Ocaq son illərə qədər adamların inam yeri idi.

**OCAQ DAŞI.** Ağsu çayının yaxınlığında, Dəvəboynu deyilən yerdə ziyarətgah.

**PİR QƏBRİ.** Kotuz dağının başında ziyarətgah. Bura ziyarətə gələn xəstələr ən müxtəlif xəstəliklərdən şəfa tapırmışlar.

**PİRƏL-MÜRSƏL OCAĞI.** Araz qırağında, Məşədi Seyfulla arxının başında **Pirəl-Mürsəl ocağı** və ya **İlğınlı ocaq** deyilən ziyarətgah vardı. Orada çoxlu ilğm kolları bitirdi. Vaxtilə Usuboğlu adlı şəxsin həyətində yerləşdiyi üçün ona **Usuboğlunun ocağı** da deyirdilər. Rəvayətə görə, ağır seyid olan Usuboğlu səhər sübh namazına qalxır. Dəstəmaz almaq üçün həyətə çıxır. Su qabına yaxınlaşanda gördüyü mənzərəyə təəccüb edir: həyətin ortasında başı kəsilmiş ceyranı və onun başı üstünə qoyulmuş gümüş saprlı iri bıçağı görür. Ceyranm qanı yerdə göllənmişdi. bir neçə vaxtdan sonra həmin qanın yerində iki ilğın bitir. Sonralar ağac böyüyüb qol-qanad atır, geniş bir ərazini tutur. Burada ağır xəstələr, övladı olmayanlar, ruhi sarsıntı keçirənlər, uşağı xəstə olanlar – hərə bir ümidlə gəlmiş, müqəddəs Allaha yalvarmış, sonralar şəfa tapmış, nəzir-niyaz, qurban kəsib paylamışlar.

Deyilənə görə, kənd yaşlıları danışırlar ki, **Kəlba Əli** adlı bir şəxs öküzü sürmək üçün həmin ocaqdan ilğın çubuğu kəsib gətirir. Onu fikrindən döndərə bilmirlər. Bir-iki çubuqdan sonra kişi tapanın altına düşür və xurd-xəşil olur. Pirəl-Mürsəl ocağı ilə bağlı belə faktlar onlarcadır.

**SEYİD QƏBRİ OCAĞI.** Kotuz kəndində Seyid qəbri adlanan yerdə ziyarətgah. Kəndin azərbaycanlı əhalisi deportasiya olunanadək bura adamlarm əsas inam yeri idi.

**SEYİD YUSİF OCAĞI.** Taytan kəndində ocaq. 1920-ci ildə kənd erməni daşnakları tərəfindən işğal ediləndə ermənilər bü-



tün evlərə od vurub yandırsalar da, Seyid Yusifin evinə və ocağına toxunmağa cəsarət etməmişdilər.

**ŞİRAZLI MƏSCİDİ.** Kəndin içində yerləşən, möhrə palçıqdan tikilmiş bu qədim məscid 1988-ci ilə qədər öz fəaliyyətini bir gün də dayandırmamışdı. Kəndin ağsaqqalları bura yığışar, dini ibadətlərini icra edərdilər.

**ŞIXLAR XARABALIQLARI.** Şıxlar dağının ətəyində, Şıxlar və Alməmməd kəndlərinin arasında qədim yaşayış məskəninin qalıqları. Araşdırmalarımız sübut edir ki, burada eramızın 350-ci ilindən etibarən Arman türk dövlətinin paytaxtı olan qədim Dvin şəhərinin xarabalıqları yerləşmişdir. El arasında bu yeri Düyün (Dvin) adlandırırdılar. Burada Düyün dəyirmanı deyilən dəyirman yeri də vardı. Dvinin qədim türk şəhəri olduğunu ört-basdır etmək üçün ermənilər illər boyu bu yerlərdəki kurqanları şumlayıb düzlətmək üçün əllərindən gələni edirdilər. Orada şum edən traktorlar isə hər dəfə bu yerdən iri küplər, qədim qəbirlər çıxarır, adamlar qızıl, gümüş sikkələri və s. tapırdılar.

**YENGİCƏ MƏSCİDİ.** 1919-cu ildə Yengicə kəndi erməni daşnaklarının vəhşi hücumlarına məruz qalanda məscid binası onlar tərəfindən od vurulub yandırılmışdır. Xarabalıqları kəndin içində, Böyük çayın kənarında son illərə qədər qalmaqda idi.

**ZİMMİ OCAĞI.** Zimii kəndinin içində, təpənin başında ziyarətgah. Burada Kəlba Həsənalının qəbri yerləşirdi. 1988-ci ilə qədər Ocaq adamlarm ziyarətgahı kimi qalmaqda idi.

## QƏRBİ AZƏRBAYCAN TÜRKLƏRİNİN VƏ MÜSƏLMAN KÜRDLƏRİNİN 1988-Cİ İL SOYQIRIMININ ACI YEKUNLARI

(ilkin hesablamalara görə)

– 1988-ci il soyqırımı zamanı Qərbi Azərbaycan ərazisində 260 azərbaycanlı kəndi boşaldıldı. Onlardan 171-i xalis azərbaycanlı kəndi, 89-u qarışıq kəndlər idi.

– Həmin kəndlərdən 187.000 azərbaycanlı, 21.000 müsəlman kürdü yurd-yuvasından didərgin salındı.

– 220 nəfərdən çox azərbaycanlı qətlə yetirildi.

– 40.000 ev boşaldıldı.

– 6.000 ev yandırılıb məhv edildi.

– 40.000 ailənin əmlakı talan edildi.

– 35.000 həyətyanı sahə, bağ-bağça ermənilər tərəfindən zəbt edildi.

– 32.000 şəxsi mal-qara, 35.000 qoyun-quzu azərbaycanlıların əllərindən alındı.

– 25.000 yaşayış evi əvəzsiz ermənilərə qaldı.

– 12.000 xüsusi ev dövlət mənzili ilə dəyişdirildi.

– 800 şəxsi maşın azərbaycanlı sahiblərinin əlindən alındı.

– 410 köç maşını qarət edildi.

– 90.000 nəfərdən çox kənd əhalisi şəhərdə beton evlərdə yaşamağa məhkum olundu.



– 16.000 ailə gəlib Azərbaycanda evsiz-eşiksiz qaldı.

– 216 azərbaycanlı kolxozunun əmlakı, 3.420 avtomaşını, 4.100 traktoru, 43.000 iri buynuzlu, 526.000 xırdabuynuzlu mal-qarası ermənilərə qaldı.

–Azərbaycanlı kəndlərində tikilmiş məktəb, klub, mağaza, idarə, uşaq bağçaları, tövlələr, bağ-bağçalar və s. haqqı ödənilmədən ermənilər tərəfindən mənimsənildi.

– 120 tarixi abidə dağıdıldı.

– 230 məscid, pir, ocaq yerlə-yeksan edildi.

– 670 qəbiristanlıq darmadağın edildi, əksəriyyəti traktor salınıb şumlandı, əkin sahəsinə çevrildi.

Qaçqınlığın ilk illərində:

– 12.000 adam əsəb və ürək xəstəliyinə tutuldu.

– 6.410 nəfər qaçqın düçar olduqları dərdə dözməyib vaxtından əvvəl dünyalırını dəyişdilər. Beləiəri arasında 45–55 yaş arası kişilər üstünlük təşkil etdilər.

## VEDİBASAR AZƏRBAYCANLILARININ 1988-ci il SOYQIRIMININ XRONOLOGİYASI

**22-25 mart.** Vedibasar ərazisindən azərbaycanlıların kütləvi çıxarılması baş verdi. Əhali əsasən qonşuluqdakı Naxçıvan Respublikasının Şərur rayonu ərazisində sığınacaq tapdı. Burada qaçqınlar qeydiyyatdan keçirildilər.

**27-30 mart.** Vedi qaçqınları doğma evlərinə geri döndülər. Lakin onlara qarşı addımbaşı təhqir və təzyiqlər davam etməkdə idi.

**26 aprel.** Axşam saat 5-də rayonun Kiçik Vedi kəndinə erməni saqqallılarının ilk mütəşəkkil hücumu baş verdi. 27 azərbaycanlı evinin qapı-pəncərəsi sındırılıb dağıdıldı. Küçəyə çıxanlar döyüldü.

**8 may.** Şirazlı kənd kolxozunun sədri Barseğyanın başçılığı ilə ermənilərdən təşkil edilmiş üç dəstə kəndin içindəki dəmiryol stansiyasında Bakı-İrəvan qatarına basqın etdilər. Qatarın hərəkəti bir saat saxlanıldı. Azərbaycanlı vaqon bələdçiləri, sərnişinlər döyüldü, söyüldü, əmlakları sındırılıb-dağıdıldı.

**11 may.** Rayonun erməni rəhbərlərinin müşayiəti ilə axşam saat 17.30-da ermənilər hər biri 400-500 nəfərdən ibarət dəstələrə bölünüb, Şirazlı kəndinə hücum etdilər. Azərbaycanlılara məxsus 8 ev yandırıldı, 64 ev dağıdıldı. 330 ailənin əmlakı talan edildi, 2 nəfər öldürüldü, 80 adam döyülüb, ağır xəsarət aldı. Ermənilərin bu vəhşiliyi gecə yarısına qədər davam etdi.

**12 may.** Gecə saat 2-də 1.200 nəfər şirazlılı arvad-uşağını götürüb Şidli tərəfə – SSRİ-Türkiyə sərhədinə üz tutdu. Tikanlı məftillər arasında çadır vurub, faciəyə siyasi qiymət verilməsini tələb etdilər.

**14 may.** Moskvadan MK-nın şöbə müdiri Polyakov, Ermənistan MK-nın ikinci katibi Koçetkov, Nazirlər Soveti sədrinin birinci müavini S.Harutunyan sərhədə gəlib, şirazlıları dilə tutub, onlardan 20 nəfərini Şirazlıdakı evlərinə dönməyə razı salsalar da, ermənilər yarıyolda bu rəsmilərin də qabağını kəsib, onları gətirdikləri azərbaycanlılarla birgə kəndə buraxmadılar.

**May-avqust.** 3 ay Türkiyə sərhədində çadırlarda qalan Şirazlı camaatı səslərinə heç kəsin səs vermədiyini, doğma kəndlərinə qayıtmağın mümkünsüzlüyünü görüb, Azərbaycana üz tutdular. Rayonun başqa kəndlərinin də hər addımda yiyəsizliyin acısını dadan, işdən çıxarılıb, bazar-dükana buraxılmayan, addımbaşı döyülüb-söyülən, öldürülən azərbaycanlı əhalisi Azərbaycana axışmaqdan başqa yol tapmadılar. Vedibasarın ermənilərlə qarışıq kəndlərində vəziyyət xüsusilə pisləşdi. Onlara təcili kəndləri tərk etmək barədə ultimatumlar verilir, kəndlərin azərbaycanlı məhəllələrinə xəbərdarlıq məqsədilə yeni-yeni lokal hücumlar təşkil edilirdi.

**30 noyabr.** Xalisa kəndində 170 azərbaycanlı ailəsi hələ yaşamaqda idi. Səhər saat 10-da raykomun katibi N.A.Akopyan, RİK sədri S.Vartanyan, prokuror Adamyan, milis rəisi Papoyan və b. başda olmaqla çoxlu erməni saqqallısı maşınlarla kəndə dolub, azərbaycanlıları görünməmiş vəhşiliklə əvvəl qarət etməyə, sonra qovub kənddən çıxarmağa başladılar. Girov götürülən əhali piyada rayon mərkəzinə tərəf aparılarkən yolda Şərurdan köməyə gələn Sovet əsgərləri onları ermənilərin əlindən alıb, Naxçıvanın Sədərək kəndinə apardılar.

**3 dekabr.** Türkiyə sərhədinə sığınmış Şidli kəndinin camaatı hərbçilərin köməyi ilə sərhəd zolağı boyunca maşınlarla daşınıb Naxçıvan ərazisinə ötürüldülər. Təkcə quru canlarını qurtarmağa macal tapan azərbaycanlılar kənddən çıxan kimi onların evləri, əmlakları dərhal kəndə doluşan ermənilər tərəfindən quldurcasına qarət edilib talandı. Həmin gün sonuncu azərbaycanlı Vedibasar ərazisini beləcə tərk etdi. Vedibasar mahalı bütünlüklə erməniləşdirildi.

# VEDİBASAR MAHALININ (VEDİ VƏ QARABAĞLAR RAYONLARININ) KƏNDLƏRİ

Abbasabad
Ağasıbəyli (Ağaslı)
Ağbulaq
Ağkənd
Ağkilsə (Ağcakilsə)
Ağkilsə
Ağviran (Ağcaviran)
Alqırıq (Əliqırıq)
Almalı (Almalıq)
Alməmməd (Əliməhəmməd qışlağı, Əliməmməd)
Arazdəyən (Qoturlu)
Armaş
Asnı (Əsni)
Aşağı Ərmik
Aşağı Qarabağlar
Avşar (Kəlbalavan)
Bağçacıq
Bayburt
Birəli (Pirəli)
Böyük bağ (Bağlar)
Böyük Gilanlar//Böyük Gilənar (Gilanlar//Gilənar)
Böyük Vedi (Vedi)
Bunut (Bunut Qaratorpaq)
Cadqıran (Çudkənd, Qaraçorlu)
Camışbasan
Cəfərli (Cəfərli Günnüt)
Cığın Qaraqoyunlu (Aşağı Qaraqoyunlu, Qaraqoyunlu)
Çanaxçı (Aşağı Çanaxçı)
Çardaqlı
Çatma (Çatmadağ)
Çəmbərək (Spandaryan, Surenavan)
Çəngli (Əlirzalar)
Çimənkənd (Qarabağlar)
Çinçavat



Çobandərə (Aşağı Çobandərə və Yuxarı Çobandərə)
Daşlı (Daşdı)
Daşnov
Dəhnəz
Dəvəli (Qaynar)
Dəvəli şəhəri (Dəvəli sement zavodu qəsəbəsi)
Dvin (Düyün)
Əfşarlı (Ovşarlı)
Əhmədli (Xanəhməd)
Ələyəz (Kiçik Şirazlı)
Əliabad
Əliqızıl
Əlimərdan
Əngiz
Ərmik (Yuxarı Ərmik)
Əzizkənd (Aşağı Camışbasan)
Goravan (Goraban, Yenikənd)
Göl
Gölaysor (Göl, Türk gölü, Aysorgöl)
Gölcığın (Cığın)
Güldərviş
Güneyyurd (Xalisa)
Günnüt (Günlük, Günnüt Cəfərli)
Hacı Baba
Hacımirzə (Kürd kəndi)
Haxıs
Haqverdi
Hand
Haramlı Şətli
Harunburun (Qarınburun)
Heyranıs (Heranos)
Həsənqala
Hortun (Yuxarı Çanaxçı)
Xaçlı (Hacılı)
Xalisa (Xalisə)
Xaraba Kotanlı
Xartlıq (Xartdıq)

Xıdıreylas (Xıdır İlyas)
Xorvirab (qədim Artaşad)
Xosrov
Xunut//Xınıt (Xunut//Xınıt Qaraqoyunlu)
İmirzik
İnqala (Kiçik Haxıs)
Karvansara
Keşişdağ (Keçiddağ)
Keşişverən (Keşişviranı)
Kənizək (Yuxarı və Aşağı Kənüz)
Kərkab
Kiçik Gilanlar//Kiçik Gilənar (Tap Gilanlar//Tap Gilənar)
Kiçik Bağçacıq
Kiçik Vedi
Kirov qəsəbəsi (2 saylı sovxoz)
Kolanlı (Cirmanis)
Kom
Kotanlı (Seyid Kotanlı)
Kotuz (Gülbudaq)
Körpükənd (Körpüqulağı, Torpaqqala)
Külağıl
Küsüs (Küsühlü Şətli)
Qaraca Abdal
Qaraxaç
Qaladibi (Qalacıq, Qalakənd)
Qarabağ
Qaraqoyunlu (Yuxarı Qaraqoyunlu)
Qaralar (Əliqara)
Qaratorpaq (Xunut Qaratorpaq)
Qaşqa
Qayçı (Qançı)
Qazançı
Qədirli (Qədili)
Qızılverən (Qızılviran, Qızılxaraba)
Qulaqsız
Lök (Lək)
Məmmədabad (Muradabad, Qaracalar)



Məmmədrəsul (Məmmədrəsul qışlağı)
Məngük
Misir Dərviş
Molla Əhməd (Molla Məhəmməd)
Musacıq (Musa Dərviş)
Nəsibli (Nəsibli qışlığı)
Ortuk (Örtük)
Reyhanlı (Sarıbaş yurdu)
Rəşoğlu (Rəşidoğlu)
Saray (Əminkənd)
Sarıxanlı
Səfəralı (Səfər qışlağı)
Şahablı (İncədərə, Gəncəli, Köhnə Şahablı)
Şahablı (Yeni Şahablı)
Şampan (Şərab zavodu qəsəbəsi)
Şəhriyar
Şidli
Şirazlı
Şıxlar
Şırran
Şorsu (Şorbulaq)
Şuğayıb
Talasavan
Taytan
Telli Baba
Tərəkəmələr
Təzəkənd (Cığın Təzəkənd)
Vəlican
Yappa
Yaycı
Yeddiqardaş
Yellicə (İllicə)
Yengicə
Yeni həyat (Nor qyank)
Yeni yol (Nor Uqi)
Yuxarı Qarabağlar (Qarabağlar)
Zəncirli (Zincirli)
Zimmi

## ABBASABAD

Vedibasar mahalının aran hissəsində, Araz sahilində kənd. Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

Kəndin adına ilk dəfə "İrəvan əyalətinin icmal dəftəri"ndə (1590) rast gəlirik. Həmin mənbədə kənd Vedibasar mahalının Arazboyu hissəsini əhatə edən Aralaq nahiyəsi tərkibində **Abbasabad** adı ilə qeydə alınmış və dövlətin müxtəlif vergilər şəklində kənddən il ərzində 3.600 axça gəlir götürdüyü göstərilmişdir.

Bu kəndin adı **Abbasabad qalası** şəklində həm də 1828-ci ildə Rusiya ilə İran arasında bağlanmış Türkmənçay bağlaşmasına düşmüş, iki ölkə arasında yeni dövlət sərhədlərinin keçdiyi məntəqələrdən biri kimi müəyyənləşdirilmişdir.

1826-1829-cu illər Rusiya-İran və Rusiya-Osmanlı müharibələri zamanı dağıdılan, İrəvan xanlığı ərazisi Rusiya tərəfindən işğal edildikdən sonra isə, görünür, olan-qalan əhalisi də baş götürüb Türkiyəyə gedən kənd 1832-ci ildə İ.Şopen tərəfindən Vedibasar mahalının dağıdılmış kəndləri siyahısına daxil edilmişdir. Bundan sonrakı mənbələrdə həmin kənd haqqında əlavə məlumata rast gəlmədik.

Kəndin adı **"Abbas"** və **"abad"** komponentlərindən ibarətdir. "Abbas" komponenti barədə iki mümkün ehtimal var: bu söz ya ərəb mənşəli **Abbas** şəxs adını, yaxud da xəzərlərin **Abas** tayfasının adını bildirir (B.Budaqov, Q.Qeybullayev). Bölgədə Xəzər türklərinin qədimdən məskunlaşdığını, xüsusilə Abbasabad kəndi yaxınlığında xəzərlərin məşhur Şadlı tayfasının adını daşıyan Şadlı (Şidli) kəndinin yerləşdiyini nəzərə alaraq, biz Abbasabad kənd adının Abas tayfa adı ilə bağlılığı fikrinə üstünlük veririk. Qalanın Şah Abbas tərəfindən tikilməsi və onun adını daşıması ehtimalı da xeyli ciddidir. **"Abad"** komponenti isə, şübhəsiz ki, **"yaşayış yeri"** anlamındadır.

İndiki Ermənistan ərazisində eyniadlı bir çox toponimlər olmuşdur. Buna İrəvan xanlığının Sürməli qəzasındakı Abbasabad, Zəngəzurun Gorus rayonundakı Abbasdərəsi kənd adlarını, Karvansaray (İcevan) rayonu ərazisindəki Abbasdərəsi qışlaq adını misal göstərmək olar. 1728-ci ildə İrəvan əyalətinin Maku nahiyəsində də Abbaskəndi adlı kənd olmuşdur.



## AĞASIBƏYLİ (AĞASLI)

Vedibasar mahalının Cığmdərə bölgəsində, Vedi rayonunun mərkəzi olan Böyük Vedi qəsəbəsindən 15 km cənub-şərqdə, Vedi çayının sağ qolu olan Xosrov çayının orta axarında, Hand dağı ətəyindəki dərədə kənd.

1918-ci ilə və 1926-cı ildən 1931-ci ilə qədər kənddə ancaq müsəlman kürdləri yaşamış, 1931-ci ildən etibarən isə müsəlman kürdləri və ermənlərin yanaşı yaşadığı qarışıq kənd olmuşdur.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590), "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) və 1832-ci il siyahıyaalmasında belə bir kənd qeydə alınmamışdır. Kənd haqqında ilk məlumata **Ağasıbəyli** adı ilə 1873-cü ilin statistik məlumatlarında rast gəlirik. Həmin məlumata görə, kənddə 11 ailədə 100 nəfər (52 kişi, 48 qadın) müsəlman kürdü yaşamışdır.

Bu məlumat əsas verir deyək ki, kənd ya XIX yüzilin ortalarına qədər mövcud olmamış, həmin illərdə İran və Türkiyədən köçüb gəlmiş kürd tayfaları tərəfindən salınmışdır, ya da XIX yüzilin ortalarına qədər başqa adla mövcud olan bu kəndi həmin tarixdə rayon ərazisinə gəlmiş kürd tayfaları Ağasıbəyli adı ilə təzədən məskunlaşdırmışlar.

Kəndin ikinci adı el arasında **Ağaslıdır**. Ağasıbəyli adının kəndin əsasını qoyan nəslin adı olduğunu ehtimal etmək olar.

Lakin belə bir faktı da xatırlatmağı lazım bilirik ki, 1918-ci ildə daşnak zabiti Hamazaspın quldur dəstəsinin Quba bölgəsində məhv etdiyi kəndlərdən birinin adı da Ağasıbəyli olmuşdur.

1886-cı ildə kənddə əhalinin sayı 13 ailədə 116 nəfərə (59 kişi, 57 qadın) çatmışdır. Kəndin iqtisadiyyatında əkinçilik və heyvandarlıq xüsusi yer tutmuşdur. Həmin ilin statistik məlumatlarına görə, kəndin 532 desyatin torpaq sahəsinin 1 desyatinini malikanə torpaqları, 0,1 desyatinini bağ sahələri, 0,9 desyatinini suvarılan, 86 desyatinini isə suvarılmayan əkin yerləri təşkil etmiş, kəndin 129 iribuynuzlu, 595 xırdabuynuzlu mal-qarası olmuşdur.

Kəndin Hand kəndindən 20 verst aralıda, Arxaşan yaylağında

215 desyatin ərazidə **Ağasıbəyli obası** adlı yurd yeri olub. Kənd əhalisi hər il kəndin bütün mal-qarasını həmin yaylağa qaldırıb. Qışda isə Böyük Vedinin Şadlinski bəylərindən hər qış mövsümü üçün o vaxtkı pulla 50 rubla qış otlaq sahəsi icarəyə götürüblər.

1897-ci ildə kənddə 142 nəfər, 1905-ci ildə 208 nəfər, 1914-cü ildə 211 nəfər əhali qeydə alınmışdır.

1918-ci ildə erməni-daşnak hücumları nəticəsində xarabalığa çevrilən kənd bir də 1926-cı ildə məskunlaşmışdır. Həmin ildə kəndə 12 kürd, 1931-ci ildə 31 erməni ailəsi köçürülmüşdür. Lakin az sonra – 1937-ci ildə kəndin bütün kürd əhalisi Orta Asiyaya – Qırğızıstanın Oş vilayətinə sürgün edilmiş, ermənilər isə qonşu kəndlərə köçürülərək kənd ləğv edilmişdir. O vaxtdan kənd xaraba qalmışdır.

Yeri gəlmişkən, xatırladaq ki, Vedibasarın qəhrəman oğlu Abbasqulu bəy Şadlinskinin arvadlarından biri – kürd qızı Nazlı xanım həmin Ağasıbəyli kəndindən olmuşdur.



## AĞBULAQ

Vedibasar mahalının Cığındərə bölgəsində, Vedi çayının sahilində, Ərmik kəndi yaxınlığında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

Vedibasar mahalı ərazisində Ağbulaq toponiminə ilk dəfə "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) **"Axurbulaq məzrəsi"** şəklində rast gəlirik. "Məzrə" sözünün "sakinləri olmayan kəndlərin əkin sahələri" mənasında işləndiyini nəzərə alsaq, deməli, Ağbulaq kəndi daha əvvəllərdən mövcud olmuş, XVI yüzilin sonlarında artıq xaraba kəndlər siyahısına düşmüşdür.

Bu kəndin adına bir də 1886-cı ilin statistik məlumatlarında **Ağbulaq** şəklində rast gəlirik. Həmin məlumata görə, Ağbulaq, Ərmik və Təzəkənd kəndlərinin bir yerdə 55 ailədən ibarət 514 nəfər (284 kişi, 230 qadın) əhalisi olub, hamısı da "tatar", yəni Azərbaycan türkü. Kənd iqtisadiyyatının əsasında əkinçilik və heyvandarlıq dayanıb. Belə ki, hər üç kəndin birlikdə 1399,5 desyatin torpaq sahəsi olub. Bundan 4,5 desyatinini malikanə torpaqları, 2 desyatinini meşə zolağı, 20,17 desyatinini suvarılan, 572 desyatinini suvarılmayan əkin yerləri təşkil edib. Kəndlərdə 691 iribuynuzlu, 912 xırdabuynuzlu mal-qara saxlanıb.

Hər üç kəndin əkin yerləri **Ağbulaq çayının** suyu ilə suvarılıb. Kəndlərin İrəvan qəzasındakı Dübəkli yaylağında 122 desyatin ərazini əhatə edən **Dübəkli** yurd yeri olub. Kəndlərin əhalisi 1883-cü ildən etibarən hər yay mal-qaranı özləri ilə birlikdə bu yaylağa qaldırıblar.

Ağbulaq, Ərmik və Təzəkənd kəndlərinin əhalisinin Qaratorpaq kəndinin mülkədarı İsmayıl bəy Mirzə Allahverən oğlundan iribuynuzlu mal-qara üçün hər baş mala 10 qəpik hesabı ilə yay otlaq yeri icarəyə götürdüyü barədə də 1886-cı ilə dair mənbədə məlumat var.

Bütün bunlar belə bir mülahizəni təsdiq edir ki, istər Ağbulaq, istərsə də Təzəkənd kəndləri XIX yüzilin ortalarında Ərmik kəndindən çıxan ailələr hesabına məskunlaşmışdır. Qədim Ağbulaq kəndinin xarabalıqları yerində salınmış yeni kənd təzədən

öz əvvəlki Ağbulaq adını daşımışdır.

Kəndin adının **"içməli su", "şirin su"** anlamında olan "ağ" və "bulaq" sözlərindən ibarət olması ehtimalı (B.Budaqov, Q.Qeybullayev) inandırıcıdır.

İrəvan diyarının Çəmbərək, Ağin, Sürməli, Şörəyel, Kəvər, Qırxbulaq, Abaran bölgələrində eyniadlı xeyli toponim – kənd və bulaq adları qeydə alınmışdır.

1897-ci ildə kənddə 95 nəfər Azərbaycan türkü yaşamışdır.

1918-1920-ci illər erməni-daşnak hücumları nəticəsində kənd dağıdılmış, o vaxtdan da xaraba qalmışdır.



## AĞKƏND

Vedibasar mahalının Millidərə bölgəsində, Xosrov kəndi yaxınlığında kiçik kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

XX-ci yüzilin əvvəllərinə qədərki mənbələrdə kəndin adına rast gəlməməyimiz belə söyləməyə əsas verir ki, kənd əsrin əvvəllərində buradakı hər hansı qədim kəndin xarabalıqları yerində **Ağkənd** adı ilə yenidən məskunlaşmış, 1918-1920-ci illər erməni daşnakları tərəfindən yerlə-yeksan edilmişdir. Elə o vaxtdan da kənd xaraba qalmışdır.

1930-1940-cı illərdə Xosrov kəndi yaxınlığında **Ağkənd** adlı kəndin xarabalıqları hələ də qalmaqda idi.

Kəndin adındakı **ağ** komponentini əsasən iki mənada yozmaq olar: 1) qədim türk dilində **kiçik** mənasında; 2) rəng mənasında. Biz birinci varianta üstünlk veririk. Tədqiqatçıların (B.Budaqov, Q.Qeybullayev) fikrincə isə, bu tipli toponimlərdə **ağ** komponenti ilkin variantında **Əxi (Əxikənd)** olmuşdur.

Qərbi Azərbaycan ərazisində Dərələyəz mahalında və Sisiyan rayonunda eyniadlı kəndlər mövcud olmuşdur.

## AĞKİLSƏ (AĞCAKİLSƏ)

Vedibasar mahalının Çanaxçıdərə bölgəsində, Qədirli kəndi yaxınlığında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

Kənd haqqında ilk məlumata "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) rast gəlirik. Burada kənd "Vedi nahiyəsində **Ağcakilsə kəndi**" şəklində qeydə alınmışdır. "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) və sonrakı bütün digər mənbələrdə isə kəndin adı **Ağkilsədir**. Lakin "İcmal dəftəri"ndə kəndin ikinci adının **Qadılı** olması barədə xüsusi qeyd də var və elə həmin yerdə də göstərilir ki, kənddə Məhəmməd adlı şəxsin timarından dövlətin müxtəlif vergilər şəklində götürdüyü illik gəlir 3.000 ağçadır.

Əslində, Vedibasar ərazisindəki Ağkilsə və Qədili (Qədirli) kəndləri bir-birinə yaxın iki müxtəlif kəndlər olmuşlar. Bunu 1886-cı il siyahıya alınmasındakı belə bir qeyd də sübut edir ki, Ağkilsə kəndinin 150 desyatin ərazisi 1 yanvar 1883-cü ildən 1 yanvar 1886-cı ilədək istifadə üçün Şıxlar kəndlisi Ağa Baba oğluna verilmişdir və bu ərazi Qədili və Heyranıs kəndlərinin yaxınlığında yerləşirdi.

Bu qeydin bir əhəmiyyəti də ondadır ki, burada artıq söhbət Qədili və Heyranıs kəndlərinin yaxınlığındakı Ağkilsə kəndindən yox, bu yerdə Ağkilsə adlı böyük bir ərazidən gedir. Deməli, bu vaxt haqqında bəhs olunan Ağkilsə kəndi yavaş-yavaş tarix səhnəsindən silinməkdə imiş. Doğrudan da, 1873-cü ilin və sonrakı dövrlərin statistik məlumatlarında adı çəkilən Ağkilsə kəndinin yeri artıq Çanaxçıdərədə yox, məhz Cığındərə bölgəsində göstərilir. Bu isə tamam başqa kənddir və bu kənd haqqında da kitabda ayrıca bəhs edəcəyik. Çanaxçıdərədə yerləşən Ağkilsə kənd adının sonrakı mənbələrdə (xüsusilə İ.Şopendə) çəkilməməsi belə söyləməyə əsas verir ki, bu kənd XVIII yüzilin sonu - XIX yüzilin əvvəllərində öz funksiyasını itiribmiş. Görünür, elə o vaxtdan da kənd xaraba qalmışdır.

Kəndin Ağkilsə adına gəldikdə isə, Vedibasar ərazisində XIX yüzilədək bir nəfər də erməninin yaşamadığını nəzər alsaq, deməli, kəndin tarixi islama qədərki dövrə gedib çıxır. Ağkilsə kənd adının **"ağ daşdan tikilmiş kilsə"** anlamında olması fikri (B.Budaqov, Q.Qeybullayev, S.Mirmahmudova) inandırıcıdır. **Kilsə** isə məlum olduğu kimi, ərəb sözü olub, vaxtilə atəşgah məbədlərinə şamil edildiyi halda, atəşpərəstlik aradan çıxdıqdan sonra digər qeyri-müsəlman, yəni bölgədəki xristian məbədlərinə də aid edilməyə başlanmışdır.

Qərbi Azərbaycan ərazisində Basarkeçər (Vardenis), Keşişkənd (Yeğeqnadzor), Düzkənd (Axuryan), Karvansaray (İcevan) rayonlarında Ağkilsə adında kəndlər vardı.

## AĞKİLSƏ

Vedibasar mahalının Cığındərə bölgəsində, Vedi çayının yuxarı axarında, Signah dağının ətəyində, Zimmi dərəsindəki meşəlikdə, Məngük kəndi yaxınlığında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

Ağkilsə toponiminin etimologiyası barədə Vedibasar mahalındakı digər eyniadlı kənddən danışarkən bəhs etmişik.

Vedi nahiyəsinin Cığındərə bölgəsindəki Ağkilsə kəndində 1873-cü ildə 13 ailədə 111 nəfər (67 kişi, 44 qadın) Azərbaycan türkü qeydə alınmışdır. Həmin ilin siyahıyaalması zamanı kənddə kilsə qalıqlarının, qədim qəbirüstü abidələrin mövcudluğu barədə qeydlər var.

1886-cı ildə kənddə əhalinin sayı 14 ailədə 152 nəfərə (93 kişi, 59 qadın) çatıb. Kənd iqtisadiyyatının əsasında əkinçilik və heyvandarlıq dayanıb. Kəndin 460,29 desyatin torpaq sahəsinin 1,5 desyatinini malikanə torpaqları, 26 desyatinini suvarılan, 102 desyatinini suvarılmayan əkin yerləri təşkil edib. Kənddə 82 iribuynuzlu, 181 xırdabuynuzlu mal-qara olub. Kəndin əkin yerləri, adətən, kənd içindəki gur bulaqların suyu ilə suvarılıb.

1897-ci ildə kənddə 165 nəfər, 1904-cü ildə 563 nəfər, 1914-cü ildə 574 nəfər azərbaycanlı yaşayıb.

1918-1920-ci illərdə erməni-daşnak hücumları nəticəsində dağıdılan kənd 1926-cı ilədək xaraba qalmışdır. Yalnız bundan sonra kəndin sağ qalmış azsaylı sakinləri yavaş-yavaş geri dönmüş, özlərinə od-ocaq qaralamağa başlamışlar. Lakin 1948-1950-ci illər köçürülməsi zamanı bu kəndin sakinləri də kənddən zorla çıxarılmış, Ağkilsə kəndinin varlığına son qoyulmuşdur. Kənd o vaxtdan xaraba qalmışdır.



## AĞVİRAN (AĞCAVİRAN)

Vedibasar mahalının Çanaxçıdərə bölgəsində, Zəncirli kəndi yaxınlığında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftər"ində (1590) kənd Vedi nahiyəsinin **Ağcaviran kəndi** şəklində qeyd olunmuşdur.

"İrəvan əyalətini icmal dəftəri"ndə (1728) isə kənd iki adla – Vedi nahiyəsində **Ağviran** və **Ağcaviran kəndləri** şəklində qeydə alınmışdır. 1728-ci ilə aid dəftərdə ("Zeamət və timarlar" bölməsində) Ağviran kəndində Süleyman Kərim oğlunun adına olan timardan dövlətin müxtəlif vergilər şəklində götürdüyü illik gəlirin 3.000 ağça olduğu göstərilmişdir.

Yeri gəlmişkən, İrəvan əyalətinə aid 1728-ci il tarixli başqa bir mənbədə Vedi nahiyəsindəki həmin kənd adları müvafiq şəkildə Ağuran və Ağcauran şəklində yazıya alınmışdır.

Tədqiqatçıların (B.Budaqov, Q.Qeybullayev) fikrincə, "viran" sözləri ilə bitən ada malik kəndlər, adətən, qədim qala və kilsələrin xarabalıqları yaxınlığında salınmış kəndlərdir. Ağviran, ilkin variantında Ağcaviran kəndi də **ağ** (rəng və ya kiçik mənalarında) və **viran** (dağıdılmış, adam yaşamayan yer anlamında) komponentlərindən ibarət olmaqla, görünür, hər hansı qədim yaşayış yerinin xarabalıqları üzərində salındığı üçün belə bir ad almışdır.

Qərbi Azərbaycan ərazisində keçmişdə Yeni Bayazid qəzasında (Göyçə mahalı) və Axta rayonunda Ağverən, Gərni nahiyəsində Ağcaviran, Qırxbulaq nahiyəsində Ağvirani-Kəbir adlı kəndlər mövcud olmuşdur.

Sonrakı yüzillərə aid yazılı mənbələrdə Vedibasar mahalı ərazisində belə bir kənd adına rast gəlmədiyimizdən, güman etməyə əsasımız var ki, o zamanlar İrəvan xanlığı ərazisini ələ keçirmək uğrunda İranla Osmanlı imperiyası arasında bitib-tükənməyən müharibələr bu bölgədəki bir çox kəndlər kimi, Ağviran kəndini də xarabalığa çevirmişdir.

# ALQIRIQ (ƏLİQIRIQ)

Vedibasar mahalının Millidərə bölgəsində, Gərnibasar mahalının sərhədində, Böyük Gilanlar kəndindən 10 km cənub-qərbdə, Pirdağ dağı ətəyində, Əliqırıq bulağı kənarında kənd.

1931-ci ilədək kənddə ancaq Azərbaycan türkləri yaşamışlar. 1931-1949-cu illərdə azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuş, 1949-cu ildə isə azərbaycanlılar məcburi şəkildə köçürülmüş, kənd bütünlüklə erməniləşdirilmişdir. Az sonra kəndin erməni əhalisi də axışıb şəhərə getmiş, kənd xaraba qalmışdır.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590), "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728), 1832-ci və 1873-cü illərin məlumatlarında kəndin adı **Əliqırıq**, 1886-cı ilə dair məlumatda isə **Alqırıq** şəklində verilmişdir.

Kəndin adı ilkin variantında **"El-Qırıq"** yəni **"Qırıq eli"** olmuşdur. Qədim türk tayfalarından birinin adı **Qırıq//Kırık,** Əfşar tayfasının bir qolu isə **"Qırıqlı"** adlanmışdır (B.Budaqov, Q.Qeybullayev). Azərbaycan Respublikasının Tərtər və Xanlar rayonlarında da bu tayfanın adını daşıyan Qırıqlı kəndləri mövcuddur.

Qərbi Azərbaycan ərazisində isə vaxtilə eyniadlı bir neçə toponim – Yeni Bayazid və Üçkilsə qəzalarında kənd adları, Qaranlıq rayonu ərazisində isə çay adı olmuşdur. Abaran rayonunda isə Qırıqlı adlı iki kənd qeydə alınmışdır.

Orta Asiyada yaşayan qaraqalpaq tayfalarmdan birinin **Krık** adlanması da nəzərdən qaçırılmamalıdır.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) kənddə Yusif Həsən oğlunun adına olan timardan dövlətin il ərzində 3.500 ağça gəlir götürdüyü göstərilmişdir.

İ.Şopendə (1832) Əliqırıq kəndinin Vedibasar (həmçinin Gərnibasar) mahalının xaraba kəndləri siyahısında verilməsi onun 1826-1829-cu illər Rusiya-İran, Rusiya-Osmanlı müharibələri zamanı böyük dağıntılara məruz qalması ilə izah oluna bilər.

Sonralar yenidən məskunlaşan kənddə 1873-cü ildə 14 təsərrüfatda 110 nəfər (66 kişi, 44 qadın) Azərbaycan türkü qeydə



alınmışdır.

1886-cı ildə kənd əhalisinin sayı 21 təsərrüfatda 175 nəfərə (99 kişi, 76 qadın) çatmış, əhalinin əsas təsərrüfat məşğuliyyəti əkinçilik və heyvandarlıq olmuşdur. Belə ki, kəndin 647,5 desyatin torpaq sahəsinin 3 desyatinini malikanə torpaqları, 140 desyatinini suvarılmayan əkin yerləri təşkil etmişdir. Kənddə 191 iribuynuzlu, 353 xırdabuynuzlu mal-qara bəslənmişdir.

1897-ci ildə kənd əhalisinin sayı 251 nəfər, 1916-cı ildə 355 nəfər olmuşdur.

1918-ci ilin mayında erməni daşnaklarının Millidərə kəndlərinə hücumu zamanı əhalisi damlara doldurulub yandırılan 7 kənddən biri də Əliqırıq kəndi olmuşdur.

1922-ci ildə kəndin qaçqın əhalisindən geri qayıdanların sayı cəmi 46 nəfər olmuş, 1926-cı ildə onların sayı 55 nəfərə çatmışdır. 1931-ci ildə kəndə 79 nəfər erməni köçürülmüş, azərbaycanlıların sayı isə təzədən 46 nəfərə düşmüşdür.

1949-cu ildə kəndin bütün azərbaycanlı əhalisi Azərbaycana köçürülmüş və kənd erməniləşdirilərək Qəmərli (Artaşat) rayonunun tərkibinə qatılmışdır.

Lakin az sonra kəndin erməni əhalisi də şəhərə köçüb getmiş, kənd o vaxtdan xaraba qalmışdır.

* * *

Alqırıq kəndindən bir çox ziyalılar çıxmışdır ki, sonralar onlar Millidərənin digər kəndlərində rəhbər vəzifələrdə çalışmışlar. Alqırıqda anadan olmuş **Ağəli Vəliyev** 1940-cı illərdə Böyük Gilanlar və Bayburt kəndlərində kolxoz sədri işləmişdir. Ağəlinin böyük təşkilatçılıq və rəhbərlik səriştəsi sayəsində o aclıq illərində bu kəndlərdə bir nəfər də olsun aclıqdan ölməmişdir. Vəliyev Ağaəli 1980-ci illərdə Göyçay rayonunda rəhmətə getmişdir.

**Allahverdi Məmmədov** Alqırıq kəndinin ilk rəhbərlərindən olmuşdur. O, 1941-45-ci illər müharibəsinə getmiş və geri qayıtmamışdır.

**Sərtib Əliyev** Bayburt kəndində 1941-ci ilə qədər kənd sovetinin sədri işləmiş, müharibəyə getmiş, geri qayıtmamışdır.

**Əhməd Cabbar oğlu Məmmədov, Məmməd Çıraq oğlu**

**Məmmədov** Moskva Dövlət Universitetini bitirmişlər. Məmmədov Əhməd bütün ömrü boyu Gəncə Kənd Təsərrüfat İnstitutunda işləmiş, tarix elmləri doktoru, professor dərəcələrinə yüksəlmişdi. Məmmədov Məmməd Moskva şəhərində yaşayıb işləmiş, elmlər doktoru səviyyəsinə qalxmışdı.

Alqırıqlı **Yunus Novruz oğlu Bünyadov** Abbasqulu bəy Şadlinskinin dəstəsində ermənilərə qarşı vuruşan Millidərə igidlərinin ən qoçağı olmuş, ermənilərin qəfil gülləsindən həlak olmuşdur. Onun adını daşıyan və Bayburt kəndinin ziyalısı kimi bu kitabda haqqında danışılan **Yunis Heydər oğlu Bünyadov** və **Cəmşid İsmayıl oğlu Bünyadov** da əslən alqırıqlıdırlar.

Alqırıqlıların böyük əksəriyyəti hazırda Xanlar rayonunun mərkəzində yaşayırlar.



## ALMALI (ALMALIQ)

Vedibasar mahalının Cığındərə bölgəsində kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) və "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Gərni nahiyəsi tərkibində **Almalı kəndi** kimi qeydə alınmışdır. İkinci mənbədə dövlətin müxtəlif vergilər şəklində kənddən götürdüyü illik gəlirin məbləğinin 3.000 ağça, kənd əhalisinin isə Qəmərli camaatından olduğu barədə məlumat var. Bu, sübut edir ki, kəndin sonrakı Almalıq adı ilkin adın deformasiya olunmuş şəklidir. Bu mənada kəndin adının "alma ağacı çox olan yer" anlamı (S.Mirmahmudova) kökündən səhvdir. Əslində, kənd Qayı türklərinin məşhur qəbilələrindən olan **Armalı tayfasının** adını daşıyır.

Vaxtilə Quba qəzasında Armalı kəndi olmuş, Qərbi Azərbaycanın Qarakilsə (Sisiyan), Paşalı (Əzizbəyov), Qafan rayonlarında Almalı kənd adları qeydə alınmışdır. Azərbaycanın Qax rayonunda da eyniadlı kənd var. Kəlbəcər rayonunda isə belə bir kənd "Almalıq" adlanır.

Ə.Novruzlunun "Şərurun arxeoloji abidələri" kitabından isə məlum olur ki, Şərur-Dərələyəz bölgəsində tapılmış Almalı qədim yaşayış yerinin tarixi eramızın IX yüzilinə qədər gedib çıxır.

Beləliklə, göründüyü kimi, Armalı türk tayfası qədimlərdə bütün Azərbaycan ərazisi boyu səpələnmişlər.

Hətta Özbəkistanın Daşkənd vilayətində də Almalıq adlı şəhər mövcuddur.

XIX-XX yüzillərə aid statistik mənbələrdə Vedibasar mahalı ərazisində kəndin adına rast gəlməsək də, kəndin xarabalıqları, bu xarabalıqlar yanında boyu bir neçə metrə çatan Oğuz qəbirləri son zamanlara qədər qalmaqda idi.

# ALMƏMMƏD (ƏLİMƏMMƏD, ƏLİMƏHƏMMƏD QIŞLAĞI )

Vedibasar mahalının aran hissəsində, Ağrıdağ vadisində, Araz çayının sahilində kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

İ.Şopendə (1832) kəndin adı Vedibasar mahalında **Əliməhəmməd qışlağı** kimi qeyd olunmuş və orada 20 təsərrüfatda 102 nəfər (49 kişi, 53 qadın) müsəlman yaşadığı göstərilmişdir. Bundan əlavə, İ.Şopendə Vedibasar ərazisindəki köçəri tayfalar sırasında **Qaraçorlu** tayfasının da adı çəkilir və bu tayfanın Əliməhəmməd qışlağı, Cadqıran və Kiçik Vedi kəndləri ərazisində qışladığı yazılır.

1873-cü ilin statistik məlumatlarında da kəndin adı **Əliməhəmməd qışlağı** kimi yazıya alınmışdır və İrəvan şəhərindən 43 verst aralıda yerləşən bu kənddə 83 təsərrüfatda 607 nəfər (331 kişi, 276 qadın) Azərbaycan türkü və 1 məscid binası qeydə alınmışdır.

Adından göründüyü kimi, kənd Əliməhəmməd adlı şəxsin qışlaq yeri olmuş, tədricən məskunlaşaraq əvvəlki adını kənd adı kimi yaşatmışdır.

1886-cı ildə kənddə (bu dəfə **Əliməmməd qışlağı** şəklində) əhalinin sayı 100 təsərrüfatda 708 nəfərə (404 kişi, 304 qadın) çatmışdır. Kənd camaatının əsas təsərrüfat məşğuliyyəti əkinçilik və heyvandarlıq olmuşdur. Kəndin 507,95 desyatin torpaq sahəsinin 19,9 desyatinini malikanə torpaqları, 214,6 desyatinini suvarılan əkin yerləri, 253,97 desyatinini mülkədar torpaqları (onun da 9,95 desyatinini malikanə torpaqları, 107,3 desyatinini suvarılan əkin yerləri) təşkil etmişdir. Kəndin 353 iribuynuzlu, 1315 xırdabuynuzlu mal-qarası olmuşdur. Bundan əlavə, kənddə 96 dəvə də qeydə alınmışdır.

Kəndin Əyricə yaylağında **Dübəkdaşı yurdu** və **Dübəkdaşlı yurdu** adlı 220 desyatin ərazini əhatə edən yurd yerləri olmuşdur. Kənddən 50 verst aralıda yerləşən bu yaylaqlardan kənd camaatı qədimdən istifadə etmişdir.

1897-ci ildə kənddə 965 nəfər, 1904-cü ildə 990 nəfər, 1914-cü ildə 1089 nəfər azərbaycanlı yaşamışdır.

1918-1920-ci illər erməni-müsəlman müharibəsi zamanı böyük dağıntılara məruz qalıb, əhalisi doğma yurd-yuvasından didərgin düşən **Əliməmməd kəndində** həyat bir də Sovet hakimiyyəti illərində bərpa olunmuşdur. 1922-ci ildə kənddə 293 nəfər, 1931-ci ildə 373 nəfər azərbaycanlı yaşamışdır. Sonralar kənd tədricən **Alməmməd** şəklinə düşmüşdür

Sovet hakimiyyətinin ilk illərində Vedibasar nahiyəsinin bütün aran kəndlərində xaricdən gəlmə ermənilər yerləşdirildiyi halda, təkcə iki kənddə – Türkiyə sərhədindəki Alməmməd və Şidli kəndlərində köçüb məskunlaşmağa ermənilər cəsarət etməmişdilər.

Vedibasar mahalmda kolxoz quruculuğuna qarşı mübarizənin ən fəal üzvləri sırasmda kəndin nüfuzlu şəxsiyyətlərindən **İqbal ağa və qardaşı Bilal ağa** da vardı.

1930-cu illərin repressiyası başlayanda ermənilərin gizli niyyətlərini başa düşən Alməmməd kənd camaatı, cəmi 2 ailəni çıxmaq şərtilə, bir gecədə bütünlüklə Arazın o tayına – Türkiyəyə keçmişlər. Hazırda da alməmmədlilərin çoxu İqdır mahalının Əlican, Daşburun və Vəlican kəndlərində yaşayırlar. Xüsusilə Daşburun kəndində vedililər çoxluq təşkil edirlər. Daşburuna Vedibasar mahalındani ilk gedənlər kolanlılar olmuşlar. **Kolanlılı Süleyman** 1931-ci ildə bura köçmüşdür. 1931-ci ildə bura Üçkilsə mahalının Qarxun kəndindən də çoxlu köçənlər olmuşdur. 1933-cü ildə isə bütün alməmmədlilər Arazın o tayına köçmüş və burada çoxluq təşkil etmişlər. Alməmməddən **Mir Sadıq ağa** ömrü boyu Arazın o tayındakı Cütlük kəndində yaşamış və Vedibasar həsrəti ilə dünyadan köçmüşdür.

1949-cu ilə qədər burada yaşayan ailələr isə həmin il zorla Azərbaycana köçürülmüşlər. Kənd Türkiyənin sərhədində yerləşdiyi üçün yenə də xaricdən gətirilən ermənilər orada gedib yaşamağa cəsarət etməmiş, kənd o vaxtdan sahibsiz qalıb xarabalığa çevrilmişdir.

* * *

Alməmmədin azərbaycanlı kadrları sırasında **İbrahim Ramazanovun** (o, uzun illər Alməmməd kənd məktəbinin direktoru olmuşdur), **Ələkbər** və **Qurban** qardaşlarmın, **Əjdər kişinin** və qardaşı oğlu **Abbasəlinin** adları yaddaşlarda qalıb.

Türkiyənin tanınmış ziyalılarından olan **Nizaməddin Onk** da əslən Alməınməd kəndindəndir.

## ARAZDƏYƏN (QOTURLU)

Vedibasar mahalının aran hissəsində, Vedi rayonunun mərkəzi olan Böyük Vedi qəsəbəsindən 28 km cənub-qərbdə, rayonun Naxçıvan MR (Şərur rayonu) ilə sərhədində, İrəvan-Naxçıvan avtomobil yolunun və İrəvan-Naxçıvan-Bakı dəmiryol xəttinin üstündə kənd.

Kənddə Arazdəyən adlı dəmiryol stansiyası vardı. Arazdəyəndən başlanan daha bir avtomobil yolu Bağırsaq dərəsi boyunca uzanıb Kərki, Keşişverən, Çanaxçı kəndlərindən keçərək Dərələyəz mahalına, oradan da Sisiyan rayonuna daxil olurdu. Bu, qədimdə Albaniya dövləti ilə Armaniya və Atropatena dövlətlərini birləşdirən ən işlək karvan yollarından olmuşdur. Arazdəyənin Şərur tərəfə uzanan torpaqları isə Vedi və Şərur rayonlarının sərhədində – Vəli dağı və Qurd ağzı deyilən yerdə bitirdi.

Kənddə əvvəllər ancaq Azərbaycan türkləri, sonra azərbaycanlılarla yanaşı müsəlman kürdləri, yezidi kürdlər və ermənilər qarışıq halda yaşamışlar.

Kəndin adının **Araz çayının daşdığı zaman suyun basdığı (döydüyü) ərazi** mənasında **Arazdöyən//Arazdəyən** şəklində olması faktı göz qabağındadır. Vaxtilə Araz çayının yatağının bu yerdən keçməsi, Arazdəyən (Arazdöyən) adının buradan əmələ gəlməsi, sonra çayın öz yatağını dəyişməsi fikri ilə isə qəti razı deyilik. Əslində, **Arazdəyən kəndi** əvvəllər indiki yerindən bir qədər aralıda, Araz çayının lap yanında yerləşmişdir. Bunu 1903-cü ilə aid hərbi-topoqrafik xəritədən də görmək olur. Sonralar yaxınlıqdakı dəmiryol stansiyası və onun kənarında salınmış qəsəbə də Arazdəyən adlanmış, Araz çayı kənarındakı köhnə Arazdəyən kəndi tarix səhnəsindən silinib getmişdir.

Kəndin ikinci adı **Qoturlu** olmuşdur ki, çox güman ki, bu da qeyri-münbitliyinə, susuzluğuna, qırraşdığına görə kəndin salındığı yerə vaxtilə verilmiş addır.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Aralıq nahiyəsinin **Qoturlu kəndi** kimi qeydə alınmış və əhalisinin Şeyikli, yəni Şeyxli camaatından olduğu, dövlətin müxtəlif vergilər şəklində kənddən il ərzində 4.300 ağça gəlir götürdüyü göstərilmişdir.

Arazdəyən adına ilk dəfə 1886-cı ilə aid mənbədə ("Zaqafqaziya diyarının dövlət kəndlilərinin iqtisadi vəziyyətinə dair materiallar" kitabının 3-cü cildində) rast gəlirik. Həmin mənbədən məlum olur ki, Dəvəli və Sədərək kəndləri arasındakı **Arazdəyən** adlanan 10.022 desyatin ərazi 4 aprel 1862-ci ildən etibarən 65 illiyinə müxtəlif ehtiyaclar (otlaq, əkin və s.) üçün **general Qaxanova** verilib. Bu yerlərin suvarılması üçün Araz çayından çəkilən məşhur su arxı – kanal son zamanlara kimi el arasmda elə **"Qaxanov arxı"** və ya **"Qaxanov kanalı"** da adlamrdı. General Qaxanov bu arxı Arazdəyən ərazisindəki ona verilmiş torpaq sahələrini suvarmaq üçün çəkmişdir. Generalın Arazdəyəndə inək ferması, şəkər zavodu olmuş, bu şəkər zavodunu məhsulla təmin etmək üçün o, həmin torpaq sahələrində çoxlu şəkər çuğunduru əkdirmişdir.

Professor Həsən Mirzəyevin "Aşıq poeziyasmda yaşayan adlarımız və tariximiz" adlı dəyərli kitabında belə bir məlumata da rast gəlirik ki, XIX yüzilin sonlarında Qaçaq Nəbi Dərələyəzdə kazak atlıları ilə döyüşdükdən sonra yerli əhalinin köməyi ilə Arazdəyənə gəlib və buradan Arazı keçib Cənubi Azərbaycana getmişdir.

1897-ci ildə kənddə 381 nəfər əhali – azərbaycanlılarla ermənilər qarışıq halda yaşamışlar.

1903-cü ildən buradakı dəmiryol stansiyası da Arazdəyən adlanmışdır.

1918-1920-ci illər erməni-müsəlman müharibəsi zamanı dəfələrlə ayaq altında qalan Arazdəyən kəndi sonralar xeyli dərəcədə öz funksiyasını itirərək kiçik kənd kimi yaşamış, 1941-1945-ci illər müharibəsindən sonra yenidən dirçəlməyə başlamışdır. 1968-ci il iyulun 3-də kəndin adı erməniləşdirilərək Yerasx qoyulmuşdur.

Son zamanlara qədər kənddə azərbaycanlılar, müsəlman kürdləri, yezidi kürdlər və ermənilər qarışıq halda yaşayırdılar. Kəndin müsəlman əhalisi 1988-ci il hadisələri zamanı doğma yurd-yuvalarından qovulmuş, Azərbaycanın ayrı-ayrı bölgələrində məskunlaşmışlar.

* * *

Arazdəyən kəndində uzun illər müxtəlif rəhbər vəzifələrdə işləyən azərbaycanlılardan **Abbas İbrahim oğlu Səfərovun, Telman Müseyib oğlu Əliyevin, Abbas Hüseynalı oğlu Həsənovun, Məmməd Niftalı oğlu Rzayevin** adlarını çəkmək olar.

**Məmməd Niftalı oğlu Rzayev** 1939-cu ildə Arazdəyən kəndində anadan olmuş, 1959-cu ildə İrəvan Kənd Təsərrüfatı Texnikumunu, 1968-ci ildə Gəncədə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunu bitirmiş, 1959-cu ildən 1973-cü ilədək Vedi rayonunun Arazdəyən və Qaraxaç kəndlərində müxtəlif vəzifələrdə çalışmışdır.

Arazdəyənin oğulları Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə də fəal iştirak etmişlər. Onlardan **Mübariz Xəlil oğlu Əliyev** 1992-ci ildə Laçın-Kəlbəcər uğrunda gedən döyüşlərdə fəal iştirak etmiş, ağır yaralanmışdır. Hazırda 1-ci qrup əlildir.

**Vüqar Firudin oğlu Qasımov** da 1993-cü ilin sonlarında könüllü olaraq cəbhəyə getmiş, Füzuli, Xocavənd uğrunda döyüşlərdə fərqlənmiş, 1994-cü ilin əvvəllərində Xocavənd rayonunun Kuropatkino kəndi uğrunda döyüşdə qəhrəmanlıqla şəhid olmuşdur.

## QAFAR XƏLİL OĞLU ƏLİYEV



1968-ci ildə Vedi rayonunda anadan olmuş, Arazdəyən kənd 8 illik, Sədərək kənd orta məktəbini bitirmişdir.

Kamçatkada hərbi xidmətdə olmuş, Omsk şəhər Politexnik İnstitutunun II kursunda oxuyarkən Qarabağ savaşının qızğın dövründə təhsilini yarımçıq qoyub, 1991-ci ilin yanvarında Vətənə qayıtmışdır.

Cəbhə bölgələrinin əksəriyyətində – Tovuzda, Ağdərədə, Tərtərdə, Ağdamda, Füzulidə, Əsgəran yaxınlığında döyüşlərdə vuruşmuşdur. Səbail rayonunda yaradılan (1992-ci il) könüllülər batalyonunun təşkilatçısı və komandiri olmuşdur. 2001-ci ilə qədər Azərbaycan Milli Ordusunun əsgəri, N saylı hərbi hissənin rota komandiri vəzifəsində qulluq etmişdir. Müharibə veteranıdır.



Yeri gəlmişkən, Qafar Əliyevin adını daşığıdığı babası **Qafar Əliyev** 1918-1921-ci illərdə erməni daşnaklarına qarşı Abbasqulu bəy Şadlinskinin başçılıq etdiyi mübarizənin fəal iştirakçısı və bu xidmətlərinə görə 1921-ci ildə Qırmızı Bayraq ordeninə layiq görülmüş 19 nəfər "Qırmızı tabor"çudan biri olmuşdur.

## Arazdəyən azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd, kolxoz-sovxoz) əmlakın siyahısı:

| | |
|---|---|
| Mal-qara üçün bina – | 4 ədəd. |
| İribuynuzlu mal-qara – | 400 baş. |
| Xırdabuynuzlu mal-qara – | 1500 baş. |
| Donuz – | 600 baş. |
| Toyuq – | 20.00 baş. |
| Üzüm bağları – | 140 ha. |
| Meyvə bağları – | 60 ha. |
| K/t maşınları – | 22 əd. |
| Avtomaşınlar – | 17 əd. |
| Qaraj – | 1 əd. |
| Taxıl ambarı – | 2 əd. |
| Yanacaq ambarı – | 1 əd. |
| Dəmirçi sexi – | 1 əd. |
| Dülgərxana – | 1 əd. |
| Artezian quyusu – | 8 əd. |
| Su nasos stansiyası – | 2 əd. |
| Enerji şəbəkəsi – | 3 əd. |
| Dəyirman – | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Məktəb – | 1 əd. |
| Klub – | 1 əd. |
| Poçt – | 1 əd. |
| Pavilyon – | 1 əd. |
| Xəstəxana - | 1 əd. |

| | |
|---|---|
| Uşaq bağçası – | 1 əd. |
| Mağaza – | 4 əd. |
| Yeməkxana – | 3 əd. |
| Hamam – | 1 əd. |
| Şərab zavodu – | 1 əd. |
| Yem kombinatı – | 1 əd. |

## ƏSLİ XƏLİL QIZI ƏLİYEVA



Arazdəyən kəndində anadan olmuşdur.

Arazdəyən kənd 8 illik məktəbini, Bakı şəhər 5 saylı kimya-biologiya təmayüllü orta məktəbi əla qiymətlərlə bitirmişdir.

1992-ci ildə N.Tusi adına Azərbaycan Pedaqoji Universitetinin filologiya fakültəsini Nizami Gəncəvi adına təqaüdlə və fərqlənmə diplomu ilə bitirmişdir.

1992-1995-ci illərdə "Aydınlıq" qəzetində işləmiş, 1995-ci ildən "Xalq qəzeti"ndə sosial həyat, ictimai rəy və məktublar şöbəsinin müdiridir.

İmzası ilə Azərbaycan jurnalistikasında özünəməxsus yeri olan, imzası oxucular tərəfindən tanınan və sevilən qələmdaşlarımızdandır.

2001-ci il oktyabrın 2-dən deportasiya olunanların "Qərbi Azərbaycan" Beynəlxalq Cəmiyyətinin qadınlar şurasının sədridir.

Bütün bunlarla yanaşı, Əsli xanım bütün qəlbi və şüuru ilə el-obasına bağlı ziyalıdır.



# ARMAŞ

Vedibasar mahalının aran hissəsində, Ağrıdağ vadisində, İrəvan-Naxçıvan avtomobil yolunun və İrəvan-Naxçıvan-Bakı dəmiryol xəttinin kənarında, rayon mərkəzi olan Böyük Vedi qəsəbəsindən 25 km cənub-qərbdə kənd.

Kənddə Azərbaycan türkləri, sonralar xaricdən köçüb gəlmiş ermənilər və müsəlman kürdləri yaşamışlar. 1988-ci il hadisələri zamanı kənddə yaşayan bütün azərbaycanlı ailələri yurd-yuvasından qovulmuş, kəndin erməniləşdirilməsi başa çatdırılmışdır.

Kəndin adının əhalinin hərəkəti ilə Türkiyədən – Anadoludan gətirilmə olması ehtimal edilir (B.Budaqov, Q.Qeybullayev). Orta əsrlərdə Türkiyədə Armaş nahiyəsinin mövcudluğu bu ehtimalı daha da möhkəmləndirir. Lakin adın etimologiyası barədə dəqiq fikir yoxdur.



Sovet dövründə kənddə əsas rəhbər vəzifələrdə azərbaycanlılar çalışmışlar. Onlardan uzun illər Armaş kəndində kolxoz sədri, rayonun Yengicə kəndində isə sovet sədri işləmiş **Vəli Qarayevin**, Armaşda sovet sədri vəzifəsində çalışmış **Qafar Əliyevin** adlarını çəkmək olar. **Mirzə Xəlilov** da uzun illər Armaş kolxozunda rəhbər vəzifələrdə işləmişdir.

Armaşı ləyaqətlə təmsil edən oğullar sırasında **BAHADUR QAFAR OĞLU ƏLİYEVİN** də adı var. O, 1940-cı ildə Armaş kəndində anadan olmuş, əmək fəaliyyətinə 1957-ci ildə fəhləlikdən başlamış, 1960-cı illərdə İrəvandakı Kənd Təsərrüfatı Texnikumunu, 1973-cü ildə Gəncədəki Azərbaycan Kənd Təsərrüfatı İnstitutunu bitirmişdir.

1973-cü ildən 1988-ci ilədək Arazdəyən mədən suları zavodunda kadrlar üzrə direktor müavini işləmiş, 1988-ci ilin məlum hadisələri zamanı Azərbaycana köçməyə məcbur olmuşdur.

Bahadur Əliyev hazırda Bakı şəhərində yaşayır.

## ASNI (ƏSNİ)

Vedibasar mahalının dağətəyi hissəsində, Şərur mahalı ilə sərhəddə, Armaş kəndi yaxınlığında, Saraybulaq dağ silsiləsinin cənub-şərqində, Asnı dağının ətəyində, Asnı dərəsində, Daşbulaq çayının mənbəyində kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) kəndin adı Vedi nahiyəsində **Əsti kəndi** kimi qeydə alınmışdır. Sonrakı bütün mənbələrdə (1727, 1832, 1873 və s.) kəndin adının **Asnı// Əsni** kimi yazılması və "Müfəssəl dəftər"in tərtibçilərinin kəndin adının qarşısında sual işarəsi qoyması əsas verir deyək ki, tərtibçilər adı düzgün oxuya bilməmişlər. Görünür, elə o vaxt da kəndin adı **Əsni** imiş.

1728-ci ilə aid "İrəvan əyalətinin icmal dəftəri"ndə Sədərək nahiyəsinə tabe kənd kimi göstərilən Əsni kəndində 29 ailənin yaşadığı qeyd olunmuşdur.

Xalq dilində ancaq **Asnı** kimi tələffüz olunan kəndin adının mənası barədə elmdə belə bir fikir var ki, o, türk dillərindəki **aska ("alınmaz qayalı dağ")** sözündəndir (B.Budaqov, Q.Qeybullayev). Kəndin adının qədim türk dilindəki **"əsən"**, yəni **"salamat"** sözündən olmasını və **"abad kənd"** mənasında işlənməsini də ehtimal etmək olar. Lakin biz şübhə etmirik ki, bu qədim toponim **Az//As** türk tayfalarının adını günümüzədək yaşadan çox dəyərli faktlardan biridir. Bizcə, kəndin adı ilkin formasında **Ason** olmaqla **on as//az** türklərinin adını bildirir. Vedibasar mahalı ərazisində **as** türklərinin (onların ağ **as** qolunun) adını daşıyan digər kənd Haxıs (Ağas) kəndidir. Türklərin yaşadığı tarixi ərazilərdə **as//az** türklərinin adını daşıyan çoxlu toponim vardır: Astara, Astarxan, Os//Oş – Qırğıstanda, Macarıstanda, Fransada), Asaxi (Yaponiyada), Aslar, Osslar (Çuvaşıstanda), Amasiya, Amazon, Ərzurum, Araz, Azərbaycan, Qafqaz, Xəzər, Asiya, Aşqabad, Azov və s.

Asm toponiminə Şərur rayonunun Qarabağlar kəndi ərazisindən axan bir çay adında vaxtilə Sürməli qəzasındakı bir kənd adında rast gəlirik.



İ.Şopendə (1832) kənddə 11 təsərrüfatda 41 nəfər (20 kişi, 21 qadın) müsəlman əhalinin yaşadığı göstərilməklə yanaşı, kəndin Həsən Sultanın tiyul kəndi olduğu da qeyd edilmişdir.

Bundan əlavə, İ.Şopendə Vedibasar ərazisindəki köçəri tayfalar sırasında 67 təsərrüfatda 324 nəfərdən ibarət Əsni kürd tayfasının da adı çəkilib.

1873-cü ilin statistik məlumatlarına görə, Əsni kəndində 11 təsərrüfatda 79 nəfər (46 kişi, 33 qadın) tatar (Azərbaycan türkü) yaşamışdır.

1886-cı ildə isə kənddə 13 təsərrüfatda 72 nəfər (43 kişi, 29 qadın) Azərbaycan türkünün yaşadığı, onlardan 17 nəfərinin (10 kişi, 7 qadın) bəy ailəsinə mənsub olduğu göstərilmişdir.

Kənd əhalisinin sayı 1897-ci ildə 208 nəfərə, 1914-cü ildə 292 nəfərə çatmışdır.

1918-1920-ci illərdə erməni-müsəlman müharibəsi zamanı daşnaklar tərəfindən darmadağın edilən kəndin əhalisinin bir hissəsi vəhşicəsinə qətlə yetirilmiş, sağ qalanlar isə doğma kəndlərindən qaçqın düşüb, İrana, Türkiyəyə və Naxçıvana pənah aparmışlar. İndi Sədərək kəndində Asnı kəndindən bir neçə amlə yaşayır.

O vaxtdan kənd xaraba qalmışdır.

* * *

Əsni dağının altında, Dəvəli tərəfki istiqamətdə **Ağgöl gölü** yerləşirdi. El arasında buna **Şirin gölü** də deyirdilər. Rəvayətə görə, Arman şahzadəsi Şirin tez-tez bu göldə çimərmiş və Xosrov Pərviz də onu məhz bu göldə çimərkən görübmüş.

## AŞAĞI ƏRMİK

Vedibasar mahalının Cığındərə bölgəsində, Vedi çayının yuxarı axarında, dəniz səviyyəsindən 2000 m yüksəklikdə, Haxıssu bulaqları yanında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

Sonralar Aşağı Ərmik və Yuxarı Ərmik adlı iki ayrıca kəndə ayrılsalar da, əvvəllər **Ərmik** adlanan bir kənd mövcud olub. Bu kənd "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) və "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Vedi nahiyəsinin **Ərmuk kəndi** şəklində qeydə alınıbdır. İkinci "dəftər"də kənddə Musa adlı şəxsin adına olan timardan dövlətin müxtəlif vergilər şəklində il ərzində 3.000 axça gəlir götürdüyü göstərilmişdir.

1832-ci ilə aid və sonrakı mənbələrdə kəndin adı **Ərmik** kimi yazılmışdır.

Kəndin "Ərmik" adının türk dillərindəki **arım ("çuxur", "çökək"** mənasında) və **ik ("küləksiz, sakit, gizli yer", "sığınacaq", "çayın aşağı axarı"** anlamlarında) komponentlərindən ibarət olması izahını (B.Budaqov, Q.Qeybullayev) inandırıcı hesab etmirik. Bizcə, kəndin adının ilkin deyimi (Ərmuk) onun adının da əsl izahının açarıdır. Yəni söhbət ya **muğ** tayfalarından getməklə **"muğlar"** anlamında kəndin adı **Ərmuğdur**, ya da sözün ikinci hissəsi **manq, manqu** olmaqla (xatırladırıq ki, həmin bölgədə Ərmik kəndindən bir qədər aralıda Məngük kəndi də var) kəndin adı əvvəllər **Ərmanqu** olmuş, sonra **Ərmuk** şəklinə düşmüşdür.

**Manqu//məngü** sözü isə 1) qədim türk dillərində **abidə, yazılı daş abidə** anlamında işlənməklə, 2) **Menqu** xan adlı böyük türk sərkərdəsinin adını daşımaqla, nəhayət, 3) manqut türk tayfa adını bildirməklə bir neçə məna daşıya bilər.

XIX yüzilin ortalarından etibarən kəndin aşağı tərəfində kənddən çıxan ailələr hesabına yeni kənd salınmışdır. Bu kənd **Aşağı Ərmik** adlandırıldığından köhnə Ərmik kəndini də bəzən Yuxarı Ərmik adlandırmışlar.

Aşağı Ərmik kəndində 1873-cü ildə 312 nəfər, 1886-cı ildə 110 nəfər, 1897-ci ildə 192 nəfər, 1905-ci ildə 156 nəfər əhali



yaşamışdır.

Vedibasar mahalının digər dağlıq kəndlərində olduğu kimi, bu kənddə də əhalinin əsas təsərrüfat məşğuliyyəti əkinçilik və maldarlıq olmuşdur.

Ağbulaq, Təzəkənd və Yuxarı Ərmik kəndləri kimi, Aşağı Ərmik kəndinin də əkin yerləri **Ağbulaq çayının** suyu ilə suvarılmışdır.

1918-1920-ci illərdə erməni-daşnak təcavüzü nəticəsində dağıdılan kənddə yaşayış bir də 1923-cü ildə bərpa olunur. Kəndin keçmiş sakinlərindən 44 nəfər geri qayıdaraq kənddə məskunlaşırlar. 1931-ci ildə kəndin azərbaycanlı əhalisinin sayı Yuxarı Ərmik kəndi ilə birlikdə 170 nəfərə çatır. Lakin 1949-cu ildə Vedibasar mahalının bütün dağlıq azərbaycanlı kəndləri kimi, Aşağı Ərmik kəndinin sakinləri də məcburi şəkildə Azərbaycana deportasiya olunur, əsasən İmişli rayonunda məskunlaşırlar. O vaxtdan kənd xaraba qalmışdır.

## AŞAĞI QARABAĞLAR

Vedibasar mahalının Cığındərə bölgəsində, Vedi rayonunun mərkəzi olan Böyük Vedi qəsəbəsindən 9 km şərqdə, Vedi çayının kənarında kənd.

Kənddə ancaq Azərbaycan türkləri, XIX yüzilin əvvəllərində isə az sayda həm də müsəlman kürdləri yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) kəndin adı Vedi nahiyəsinin **Aşağı Qarabağ**, "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) həmin nahiyənin **Kiçik Qarabağ** kəndi kimi qeydə alınmışdır. İkinci "dəftər"də Vedi nahiyəsinin Kiçik Qarabağ kəndində Hacı Vəli Abbas oğlunun adına olan timarın və Həsən Abdulla oğlunun adına olan timarın hər birindən dövlətin müxtəlif vergilər şəklində ildə 7.500 (cəmi 15.000) ağça gəlir götürdüyü göstərilmişdir.

1826-1829-cu illər Rusiya-İran, Rusiya-Osmanlı müharibələri zamanı böyük dağıntılara məruz qalan kəndin adı (**Qarabağlar-Cufla**, yəni **Aşağı Qarabağlar**) İ.Şopenin 1832-ci ilə aid məlumatlarında artıq Vedibasar mahalının xaraba kəndləri siyahısında verilmişdir.

Bir qədər sonra kənd yenidən məskunlaşmağa başlayır və bütün sonrakı mənbələrdə onun adı Aşağı Qarabağlar kimi çəkilir.

Kəndin ilkin adının Aşağı Qarabağ olması onun eramızın ilk yüzillərində Cənubi Qafqaza gəlmiş gəngər-peçeneqlərin **Qarabağ tayfasının** adını daşıması fikrini tamamilə təsdiq edir.

Qarabağ adı ilə Cənubi Qafqazda və Türkiyə ərazisində keçmişdə və indi çoxlu toponimlər olmuşdur. Məsələn, Qarabağ adı ilə İrəvan quberniyasının Üçkilsə (Eçmiədzin) qəzasında qışlaq, Qars əyalətinin Ərdəhan bölgəsində şəhər, İrəvan əyalətinin Ağcaqala və Maku nahiyələrində kəndlər qeydə alınmışdır. Qarabağlar adı ilə İrəvan xanlığının Dərəkənd-Parçenis mahalında, Azərbaycanda Göyçay, Xanlar və Şərur rayonları ərazisində kəndlər mövcud olmuşdur. Ümumiyyətlə, XIX yüzildə Cənubi Qafqazda 5 Qarabağlar kəndinin olduğu məlumdur. İrəvan quberniyasının Sürməli qəzasındakı Qarabağlı, Gərni nahiyəsindəki Qarabağlı-Kəbir və Qarabağlı-Saqir kəndləri də eyni kökdəndir.

Yeri gəlmişkən, İ.Şopen (1832) Vedibasar mahalındakı köçəri tayfalar sırasında 11 ailədə 67 nəfərdən ibarət Qarabağlı tayfasının da adını çəkir ki, çox güman, Çanaxçıdərə bölgəsindəki Qarabağ kəndinin ev-eşiyindən didərgin düşmüş keçmiş sakinlərindən ibarət olan bu adamlar sonralar həm Aşağı Qarabağlar, həm də Yuxarı Qarabağlar kəndlərində yenidən məskunlaşmışlar.



Belə ki, artıq 1873-cü ildə Aşağı Qarabağlar kəndində 80 ailədə 756 nəfər (405 kişi, 351 qadın) "tatar" (türk) əhali qeydə alınmışdır.

1886-cı ildə Aşağı Qarabağlar əhalisinin sayı 105 ailədə 936 nəfərə (492 kişi, 444 qadın) çatır. Onların arasında 12 nəfərlik (9 kişi, 13 qadın) bəy-xan, 4 nəfərlik din xadimi ailəsi də olmuşdur. Bu vaxt artıq kəndin adı ilə yanaşı, mötərizədə Çimənkənd adı da qeyd olunur. Görünür, Aşağı Qarabağlar kəndindən çıxan ailələrin kəndin aşağısında geniş çəmən-düzənlikdə saldığı bu yeni kəndi ayrıca inzibati vahid kimi göstərməyə o vaxt ehtiyac görülməmişdir.

Əkinçilik və heyvandarlaq kənd əhalisinin əsas təsərrüfat məşğuliyyəti olmuşdur.

1886-ci ildə Aşağı Qarabağlar kəndinin 810 desyatin torpaq sahəsinin 19,5 desyatinini malikanə torpaqları, 17,5 desyatinini bağ sahələri, 552 desyatinini suvarılan, 10 desyatinini suvarılmayan əkin yerləri təşkil etmişdir. Kənddə heyvandarlığa xüsusi diqqət yetirilmiş, 808 iribuynuzlu, 5700 xırdabuynuzlu mal-qara, 135 at və ulaq, 20 dəvə qeydə alınmışdır.

Kəndin 50 verst aralıdakı Əyricə yaylağında qədimdən kənd camaatına məxsus **Xaçyurd, Qoturbulaq, Daşqaya** adlı, 1155 desyatin ərazini əhatə edən yurdları olmuşdur. Qışda isə kənddən 6 verst aralıda yerləşən, 550 desyatin ərazisi olan **Quzey-ağıl**, 350 desyatin ərazidə **Yarım-ağıl**, 750 desyatin ərazisi olan **Kotuz-ağıl**, 900 desyatin əraziyə malik **Mustafazağası-ağıl**, 310 desyatin ərazidə **Aralıq-ağıl**, 270 desyatin ərazidə **Düyüdaş-ağıl** adlı qışlaq yerləri olmuşdur.

Həmin məlumatlardan o da aydınlaşır ki, Aşağı Qarabağlar kənd sakini Əmir Hacı Nəcəf oğlu ("Axırıncı aşırım" filminin məşhur qəhrəmanı Kərbəlayı İsmayılın babası) kəndin ən varlı adamı olmuşdur. Belə ki, 1885-1886-cı illərdə Əmir Hacı Nəcəf oğlu dövlət meşə idarəsindən aşağıdakı torpaq sahələrini icarəyə götürmüşdür:

– Aşağı Qarabağlar kəndi yaxınlığında **Düyüdaş** deyilən yerdə 41,67 desyatin əkin-otlaq sahəsi.

– Xosrov kəndi yanında **Aralıq** deyilən yerdə 40 desyatin otlaq sahəsi.

– Gölaysor kəndi yaxınlığında **Ovçu Nəsib** deyilən yerdə 15 desyatin əkin sahəsi.

– Gölaysor kəndi yaxınlığında **Çayqırağı** deyilən yerdə 1,5 desyatin biçənək sahəsi.

– Alqırıq kəndi yaxınlığında **Alçalıdərəsi** deyilən yerdə 70 desyatin otlaq sahəsi.

– Zimmi kəndi yaxınlığmda **Çardaqlı** deyilən yerdə 2 desyatin biçənək sahəsi.

– Hand və Çəngli kəndləri yaxınlığmda **Novçala çuxuru** deyilən yerdə 145 desyatin otlaq-biçənək sahəsi.

Bundan əlavə, hökumət qərarı ilə İrana qarşı müharibədəki xidmətlərinə görə Hacı Bağırxan Mərəndiyə (1918-20-ci illərdə ermənilərə qarşı mərdliklə vuruşan Sultan xan Mərəndinin babası) 1828-ci ildə Aşağı Qarabağlar kəndindən 48 desyatin torpaq sahəsi bağışlanmışdı.

1897-ci ildə kənddə 1260 nəfər, 1905-ci ildə 1803 nəfər azərbaycanlı yaşamışdır. 1905-ci ilin məlumatına görə, kənddə 1803 nəfər azərbaycanlı ilə yanaşı, artıq 12 nəfər müsəlman kürdü də olub.

1914-cü ildə Aşağı Qarabağlar kəndində azərbaycanlı əhalinin sayı 1750 nəfərə enir. Bu vaxt artıq Aşağı Qarabağlar kənd əhalisinin hesabına kəndin aşağısındakı düzəngah çəmənlikdə salınmış Çimən kəndi böyüməkdə idi.

1918-1920-ci illərin erməni-müsəlman davasının mərkəzlərindən biri olan Aşağı Qarabağlar kəndi böyük dağıntı və itkilərə məruz qalır, kənd ermənilər tərəfindən işğal olunduqdan sonra əhali doğma yurdundan didərgin düşür.

Sovet hakimiyyətinin ilk illərində Vətənə dönən Aşağı Qarabağlılar artıq kəndin aşığısındakı geniş düzənlikdə yerləşən Çimən kəndində məskunlaşmağa başlayırlar. Tədricən Aşağı Qarabağlar adı Çimən kəndi adı ilə əvəz olunur. Bu ad da el arasında Çimənkənd şəklinə düşür. Aşağı Qarabağlar kənd adı tarix səhnəsindən beləcə çıxır. Onun xarabalıqları son illərə qədər Çimən kəndinin yuxarısında qalmaqda idi.



## AVŞAR (KƏLBALAVAN)

Vedibasar mahalının aran hissəsində, Ağrıdağ vadisində, Vedi rayonunun mərkəzi olan Böyük Vedi qəsəbəsindən 12 km cənub-qərbdə, Vedi çayından ayrılan su arxının və İrəvan-Naxçıvan avtomobil yolunun (keçmişdə Poçt yolu və ya Padşah yolu da deyiblər) üstündə, İrəvan-Naxçıvan-Bakı dəmiryol xəttinin kənarında, dəniz səviyyəsindən 847 m yüksəklikdə kənd.

1919-cu ilə qədər kənddə ancaq Azərbaycan türkləri yaşamış, 1922-1988-ci illərdə isə azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuşdur.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) İrəvan qəzasının Vedi nahiyəsində **Avşar kəndi** kimi qeydə alınmışdır. "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə Avşar//Əfşar tayfa adını daşıyan iki kənd qeydə alınıb: **Əfşaryerli** və **Əfşar Gelevan**. Bunlardan birincisi Vedibasar mahalının Yaycı kəndi yaxınlığındakı Əfşarlı kəndi, ikincisi isə Avşar kəndidir.

1728-ci ilə aid "dəftər"in "Zeamət və timarlar" bölməsində kəndin **Əli İbrahim oğlu** adlı şəxsin timarı (timar – süvari hərbçilərə verilən torpaq sahəsi) olduğu və bu timar-kənddən dövlətin müxtəlif vergilər şəklində ildə 5.000 axça gəlir götürdüyü göstərilmişdir.

Sonrakı dövrlərə aid statistik məlumatlarda (1832, 1873, 1886 və s.) kəndin adı yenidən **Avşar** kimi qeydə alınmışdır.

Kəndin ikinci adı **Kəlbalavandır** ki, bu da bir tərəfdən Əfşar Gelevan adına uyğun gəlirsə, digər tərəfdən **Kəlbalı+van** komponentlərindən ibarət olmaqla **"Kərbəlayının kəndi"** anlamını verir (**van** – fars dilində **oba, kənd, ölkə** mənasındadır).

Kənd, heç şübhəsiz, öz adını qədim türk tayfalarından olan **Qayı türklərinin Əfşar//Avşar qolunun** adından almışdır. Əfşarlar isə, məlum olduğu kimi, IX yüzilədək Qıpçaq çöllərində yaşamış, sonra səlcuqlarla birlikdə Azərbaycana və Kiçik Asiyaya gəlmiş, burada məskunlaşmışlar. Qızılbaş tayfa birliyinə daxil olan əfşarlar Səfəvilər dövlətinin yaranmasında da fəal iştirak etmiş, bu dövlətin əsas dayaqlarından olmuşlar. Səfəvi qorçubaşılarının çoxunun Əfşar əmirlərindən olduğu da məlumdur.

Yeri gəlmişkən, Səfəvilərin hakimiyyəti illərində qızılbaşlara, o cümlədən əfşarlara Çuxur-Sakat ərazisində yaşamaq üçün torpaq sahələri ayrılmışdır.

Hazırda Azərbaycan Respublikası, Qərbi Azərbaycan, Cənubi Azərbaycan və Türkiyə ərazilərində Əfşar//Avşar adı ilə çoxlu kəndlər və digər toponimlər var. F.Sumər Türkiyədə Afşar//Əfşar adı ilə 86 kənd qeydə almışdır.

Vedibasarda Avşar və Əfşaryerli kəndləri ilə yanaşı, Əyricə yaylağında **Afşar obası** oronimi də vardı. Ağcabədi raoynundakı Ofşar, Qafan rayonundakı Əfsərli, Şərur rayonundakı Əfşar toponimik adları və Abşeron sözü də Əfşar etnosunun adı ilə bağlıdır.

İranın türkdilli əhalisi içərisində Əfşarlar çoxluq təşkil edirlər. Səfəvilər dövlətinə qədər onlar Azərbaycanda yaşamış, sonralar İranın hər yerinə yayılmışlır. Buna görə də Əfşar etnonimi ilə bağlı toponimlər (Əfşar, Əfşarcıq, Əfşaran, Teleəfşar, Əfşarlı, Qavavşar, Çəmənəfşar) hazırda İranın, demək olar ki, əksər bölgələrində mövcuddur.

Əfşar tayfasının ən böyük şəxsiyyəti məşhur İran şahı **Nadir şah Əfşar** olmuş, onun işğalçılıq və köçürmə siyasəti nəticəsində əfşarların xeyli hissəsi Əfqanıstan və Hindistana köçürülmüşlər. İranda əfşarlar daha çox Səlmas, Urmiya, Təbriz, Qəzvin, Sultaniyyə, Səncan, Qum və Kaşanda yaşayırlar. İranın cənubunda Qoşay elinin tərkibində əfşarlara məxsus bulverdi, əfşar, kirmani, qırxlı (Nadir Şah Əfşar həmin qırxlı tirəsindən idi), imirli, qasımlı, arıxlı, qumlu və ya qutulu və s. tirələri yaşayırlar. Əfqanıstanda isə əfşarlar Qabil və Qəndahar şəhərlərinin ətrafında məskunlaşmışlar.

Vedibasar mahalındakı Avşar kəndinin Nadir şah Əfşarın hakimiyyəti illərində (1736-1747) bura köçürülmüş Əfşar tayfasının nümayəndələri tərəfindən salınması fikri kökündən səhvdir. Hələ 1590-cı ildə burada Avşar adında kəndin mövcudluğu bu qədim türk tayfasının Vedibasar ərazisində çox-çox əvvəllərdən məskunlaşdığını sübut edən ciddi faktdır. Ehtimala görə, kənd bu ərazilərə Səfəvilərin ilk yürüşləri zamanı salınmışdır.

Avşar adının mənasına gəldikdə isə, Fəzlullah Rəşidəddinin (XIV yüzil) "Oğuznamə"sinə görə, Avşar – Oğuz xanın fəxri



"bozok" titulu verdiyi üç oğlundan biri olan Ulduz xanın oğlunun adıdır.

Mahmud Kaşğari (XI yüzil) isə oğuzların 22 boydan ibarət olduğunu və altıncı boyun Əfşar adlandırdığını göstərir.

Sözün mənası "çevik və vəhşi heyvan ovuna həvəsli" anlamındadır. Linqqvistik baxımdan təhlil etdikdə aydın olur ki, Avşar//Ofşar sözü **av-çı-ar** komponentlərindən ibarətdir. Av//ov lekseminə sənət, peşə bildirən -çı şəkilçisi artırılaraq **avçı//ovçu** peşəsi ilə məşğul olan tayfanın adı əmələ gəlmişdir. -çı şəkilçisi türk dillərində peşə, məşğuliyyət mənası ifadə edir: avçı (türk), avjı (qaqauz), avçu (qumuk), avşı (qazax), avçı (tatar), avsı (başqırd), ovçı (uyğur), ovçu (azər) və s. Rus dilindəki ovçarka//ovçar (ov iti) sözü də həmin kökdəndir.

Avşar//Əfşar boyuna mənsub olan adamlar mərd və döyüşkən olmuşlar. Vedibasarda belə bir deyim də vardı: "Avşarlılar kimi nə yol üstündə durmusan".

Əlimizdə olan 1832-ci il siyahıyaalmasına görə Vedi nahiyəsinin Avşar kəndində 13 ailədə 80 nəfər (42 kişi, 38 qadın) əhali yaşayıb. Kənd xalis müsəlman-türk kəndi olub.

1873-cü ildə kənddə ailələrin sayı 115-ə, əhalinin sayı 886 nəfərə (500 kişi, 386 qadın) çatıb. Həmin siyahıyaalmada kənddə bir məscid də qeydə alınıb.

1886-cı ildə bu statistika 149 ailədə 1059 nəfər (542 kişi, 517 qadın) şəklində dəyişib. Yenə də kənd əhalisinin hamılıqla "tatar" (türk) olduğu göstərilib. Kənd iqtisadiyyatının əsasında əkinçilik və heyvandarlıq dayanab. Belə ki, kəndin 577 desyatin torpaq sahəsinin 16 desyatinini malikanə torpaqları, 12 desyatinini bağ sahələri, 539,6 desyatinini suvarılan əkin yerləri təşkil edib. Kəndin 563 iribuynuzlu, 1601 xırdabuynuzlu mal-qarası olub.

Mal-qara qışda kənddən 10 verst aralıda yerləşən və 500 desyatin ərazini əhatə edən **Ağxaraba-ağıl** qışlağında saxlanıb. Yayda isə əhali mal-qarasını özü ilə birlikdə hər il Əyricə yaylağına qaldırıb. Burada Avşar kəndinin **Tikanlıyurd, Çarküsyurd, Çökəkyurd, Düzyurd, Dikyurd** adlı yurd yerləri olub. Kənddən 45 verstlik məsafədə yerləşən bu yurdların ümumi sahəsi 861 desyatin təşkil edib.

Avşar kəndində 1897-ci ildə 1166 nəfər, 1905-ci ildə 1094 nəfər, 1914-cü ildə 1107 nəfər Azərbaycan türkü qeydə alınıb.

1918-1920-ci illərdə Vedibasar mahalının başqa kəndləri kimi, Avşar kəndi də erməni daşnaklarının vəhşi hücumlarına məruz qalıb. Erməni təcavüzünə bir ildən çox mərdliklə sinə gərən avşarlılar, nəhayət, kəndi tərk etməyə məcbur olublar. Bu hadisələr zamanı kəndin dinc əhalisinin çox hissəsi ermənilər tərəfindən qəddarcasına qətlə yetirilib, sağ qalanlar isə kənddən didərgin düşüblər.

Vedibasar sovetləşəndən sonra qaçqın avşarlılar kəndlərinə dönüblər. Bu vaxt artıq kənddə Türkiyənin Van bölgəsindən qaçıb gəlmiş ilk erməni ailələri yerləşdirilmişdilər. Geri dönən 420 nəfər azərbaycanlı avşarlılar bundan sonra ermənilərlə yanaşı yaşamağa məcbur olurlar.

1926-cı ildə kənddə 533 nəfər azərbaycanlı, 317 nəfər erməni, 1931-ci ildə isə 608 nəfər azərbaycanlı, 327 nəfər erməni yaşamışdır.

1930-cu illərdə İrəvanın erməni rəhbərliyi Avşar kəndində bu respublikanın Qarakilsə (Sisiyan), Yelenovka (Sevan), Qaranlıq və Basarkeçər (Vardenis) dağ rayonlarından köçürülüb gətirilmiş xeyli erməni yerləşdirir və bu süni artımla 1939-cu ildə kənd əhalisinin ümumi sayı 1359 nəfərə çatdırılır.

1946-1947-ci illərdə kənddə Türkiyə və İrandan gətirilmiş yeni erməni ailələri yerləşdirilir.

1951-ci il aprel ayının 17-də isə Avşar kəndinin bütün azərbaycanlı əhalisi zorla Azərbaycana köçürülür. Bu vaxt Avşar kəndində 260 ev azərbaycanlı, cəmi 50 ev erməni yaşayırdı. Üç gün sonra qatar deportasiya olunanları Yevlax stansiyasına gətirib çıxarır. Burada onları 6 rayon – Salyan, Əli Bayramlı, Şəmkir, Ağcabədi, Şəki, Sabirabad arasında bölüşdürürlər. İ.Stalinin ölümündən sonra yaranmış siyasi vəziyyətdən istifadə edən 10 avşarlı ailəsi 1954-cü ilin martında geriyə – doğma kəndlərinə qayıdır. Buna baxmayaraq, artıq ermənilər istəklərinə nail olmuş, kəndi erməniləşdirmişdilər.

Ermənilərlə yanaşı yaşamağa məcbur olan həmin ailələr erməni təzyiq və təqiblərinə dözməyərək 1970-ci ildə yenidən Azərbaycana üz tutur, bu dəfə Şəki rayonunun Pyotr Babayev



adına üzümçülük sovxozunda – Üzümlü kəndində məskunlaşırlar. Hazırda bu kənddə Vedibasarın Şidli, Şirazlı, Alməmməd kəndlərindən də yaşayanlar var. Avşarlıların sayı isə hazırda burada 25 ailəyə çatır.

Ən çox avşarlı isə Ağcabədi rayonunun Hacıbədəlli kəndində yaşayırlar. Vaxtilə bura 100 avşarlı ailəsi köçürülmüşdü. İndi onların sayı xeyli çoxalıb. Alın təri ilə özünə gün-güzəran düzəldən bu zəhmətkeş camaatla görüşmək imkanımız olmasa da, ağsaqqal **Cəfər Məmmədovun,** oğlu **Fərhadın** xoş sorağını almışıq. Sağlıq olsun.

Vedi rayonunun Avşar kəndində yaşamaqda davam edən bir neçə azərbaycanlı ailəsi isə 1988-ci ildə Azərbaycana qovuldular. Bu gün avşarlılar Azərbaycanın demək olar ki, əksər bölgələrində, daha çox Ağcabədi, Bərdə, Şəki, Şəmkir, Əli Bayramlı, Abşeron və b. rayonlarında yaşayırlar.

* * *

Avşar Vedibasar mahalı ərazisində həmişə tanınmış şəxsiyyətləri ilə seçilən kəndlərdən biri olmuşdur. Məsələn, avşarlı **Məşədi Cavad** uzun illər Vedibasara qlavalıq etmişdir.

1918-1921-ci illərdə isə Avşar kəndindən bir çox igidlər Abbasqulu bəy Şadlinskinin dəstəsində ermənilərə qarşı mərdliklə vuruşmuşlar. Onlardan **Şükür Kəlba Əsgər oğlu Əsgərovun, Süleyman Əsgər oğlu İsmayılovun, Məhəmməd Hümbət oğlu Kərimovun, Musa Rəhim oğlu Əliyevin** adları bu gün də yaddaşlardan silinməyib.

Avşar kəndi Sovet dövründə də Vedi rayonu ərazisində ən böyük azərbaycanlı kəndlərindən olmuşdur. Belə ki, 40-cı illərdə rayon ərazisində mövcud olan cəmi iki azərbaycanlı orta məktəbindən biri məhz bu kənddə yerləşirdi. Yaxın kəndlərin şagirdləri 9-10-cu sinifləri bu məktəbdə oxuyurdular.

Avşar kəndindən **Əziz Nəsrullayev** uzun illər rayonun Xalisa kənd məktəbinin direktoru, **Həsən Məmmədov** Avşar kənd orta məktəbinin direktoru işləmişdir.

Avşarı ləyaqətlə təmsil edən ziyalılar sırasında **Hüseynalı Mənsimovun, İsgəndər Əsədovun** və b. da adlarını çəkmək olar.

**Firudin Rüstəmli** 1940-cı ildə Avşar kəndində anadan ol-

muş, Bakı Dövlət Universitetinin filologiya fakültəsini bitirmişdir. 1966-cı ildən 165 saylı orta məktəbdə müəllim işləyir. "Başdaşı" adlı ilk şerlər kitabı 1992-ci ildə, ikinci şerlər kitabı isə 1998-ci ildə nəşr olunmuşdur.

## KƏNDİN TAYFA ADLARI VƏ TOPONİMLƏRİ

Avşar kəndində hər tayfanın öz məhəlləsi olduğu üçün tayfa və məhəllə adları çox vaxt üst-üstə düşürdü: Qaracallar məhləsi, Ağasıllar məhləsi, Gülatan məhləsi, Zallar məhləsi, Dəlləklər, Ağamalı uşağı.

## 1941-1945-Cİ İLLƏR MÜHARİBƏSİNDƏ HƏLAK OLANLAR

1. Musa Rəhim oğlu
2. İbrahim Rəhim oğlu
3. Oruc Cabbar oğlu
4. Meydan Oruc oğlu
5. Xəlil Məşədi Fəti oğlu
6. Qurban Ağa oğlu
7. İsmayıl Məşədi Fəti oğlu
8. Süleyman Mustafa oğlu
9. Məhərrəm Rza oğlu və b.

**CƏMİ: 50 nəfər.**



# BAĞÇACIQ

Vedibasar mahalının Cığındərə bölgəsində, Vedi rayonunun mərkəzi olan Böyük Vedi qəsəbəsindən 23 km şimal-şərqdə, Vedi çayının sol kənarında, dəniz səviyyəsindən 1686 m yüksəklikdə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) Vedi nahiyəsinin **Bağçacıq kəndi**, "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə Dərələyəz nahiyəsinin **Bağçacıq kəndi** kimi qeydə alınmışdır. İkinci mənbədə dövlətin müxtəlif vergilər şəklində kənddən götürdüyü illik gəlirin 2.019 axça məbləğində olduğu da qeyd olunmuşdur.

"Naxçıvan sancağının müfəssəl dəftəri"nin (1727) Dərələyəz nahiyəsi bölməsinə də daxil edilən Bağçacıq kəndindən vergiyə cəlb olunanlar arasında 5 nəfər kənd sakininin adı çəkilir: 1. Vəli Məmmədvəli oğlu; 2. Vəlinin qardaşı Tağıvəli Məmmədvəli oğlu; 3. Bünyad Muxtar oğlu; 4. Nurəli Əbdülqasım oğlu; 5. Abdal Əbdülqasım oğlu.

1826-1829-cu illər Rusiya-İran və Rusiya-Osmanlı müharibələri zamanı Vedibasar mahalı üzrə dağıdılmış kəndlərdən biri də **Bağçacıq kəndi** olmuşdur. Belə ki, İ.Şopenin 1832-ci ilə aid məlumatlarında Bağçacıq kəndi artıq xaraba kəndlər siyahısındadır.

Kəndin ərazisinin münbit torpaqlı, bol sulu olmasını nəzərə alaraq, Bağçacıq adının **bağ-bağçalı yer** anlamında olmasını ehtimal etmək olar. Lakin bu, elmi əsası olmayan bir mülahizədir. Kəndin yanındakı **Bağçacıq dağı** isə, heç şübhəsiz, adını bu kəndin adından götürmüşdür. Xalq dilində kəndin adı **Baxçacıx** şəklində tələffüz olunurdu.

Qərbi Azərbaycan ərazisində Bağçalar (Sərdarabad), Baxçalı (Böyük Qarakilsə rayonu), Baxçacıq (Sürməli qəzasında, Qırxbulaq, Dərələyəz, Dərəçiçək, Üçkilsə nahiyələrində) adları ilə çoxlu kənd adının mövcudluğu bu adın etimologiyası barədə daha ciddi düşünməyə vadar edir. Xatırladaq ki, Krımda Baxçasaray adlı məşhur türk şəhəri olmuşdur. Goranboy rayonunda isə Bağçakürd adlı kənd mövcuddur.

Vedibasarın Bağçacıq kəndinin adı ilə bağlı mövcud ehtimallardan biri onun Cənubi Azərbaycanın Xoy mahalının Sulduz bölgəsinin Bağçacıq kəndindən gəlib Vedibasarda eyniadlı kənd salmış Qarapapaq tayfaları tərəfindən gətirilməsi fikridir.

Kəndlə üz-üzə çay kənarındakı yastanada qədim qəbiristanlığın mövcudluğu və bu qəbiristanlıqdakı üstü ərəb əlifbası ilə yazılı qədim baş daşları, at və qoç heykəlləri kəndin qədimliyinə dəlalət edir.

1832-ci ildən sonra yavaş-yavaş təzədən məskunlaşan kənddə 1873-cü ildə artıq 28 ailədə 236 nəfər (132 kişi, 104 qadın) əhali yaşamışdır. Həmin siyahıyaalmada kəndin sakinlərinin bütünlüklə "tatar" (türk) kimi qeydə alınmış, kəndin yanında iki dərin göl olduğu da göstərilmişdir.

1886-cı ildə kəndin əhalisi 36 ailədə 361 nəfərə (199 kişi, 162 qadın) çatmış, camaat əsasən heyvandarlıq və əkinçiliklə məşğul olmuşdu. Belə ki, kəndin 762,43 desyatin torpaq sahəsinin 4,5 desyatinini malikanə torpaqları, 3 desyatinini meşə zolağı, 39,33 desyatinini suvarılan, 200 desyatinini suvarılmayan əkin yerləri təşkil etmişdir. Kəndin torpaqları **Qırxbulaq bulağının** suyu ilə suvarılmışdır. Kənddə 323 iribuynuzlu, 606 xırdabuynuzlu mal-qara bəslənmişdir.

Kəndin İrəvan qəzasının **Qırxbulaq yaylağında** 206 desyatin ərazidə yurd yeri olmuş və ta qədimdən kənd əhalisi hər ilin yayında bu yaylağa qalxmışlar.

1897-ci ildə kənddə 373 nəfər, 1905-ci ildə 618 nəfər, 1914-cü ildə 680 nəfər əhali yaşamışdır.

1918-1920-ci illərdə erməni-daşnak hücumu zamanı kənd tamam dağıdılmış, əhalisi vəhşicəsinə qovulmuşdur.

Bölgədə Sovet hakimiyyəti qurulduqdan sonra kəndin qaçqın əhalisinin çox cüzi bir hissəsi, ilk vaxtlar cəmi 88 nəfər geri dönə bilmiş, 1926-cı ildə kənd əhalisinin sayı 130 nəfər, 1931-ci ildə 162 nəfər, 1939-cu ildə 270 nəfər olmuşdur.

1937-1948-ci illərdə Qarabağlar rayonu tərkibində mövcud olan kəndin əhalisi 1950-ci ildə zorla Azərbaycana, əsasən Salyan rayonunun Arabatan kəndinə köçürülmüşlər.

İ.Stalinin ölümündən sonra doğma kəndinə geri dönən bir neçə ailə isə 1950-ci illərin sonlarında Vedi rayonunun aran kəndlərinə düşürülmüş, kənd özü 1959-cu ildə rəsmi şəkildə ləğv edilmişdir. Bu vaxt kənddə təxminən 30-40 ailə yaşayırdı.



Kəndin sonrakı mənzərəsi barədə son qəmli xatirə 1980-ci illərin axırlarında burada olmuş ölməz yazıçımız Fərman Kərimzadəyə məxsusdur: "Baxçacıq dağ döşündə bağlı-bağçalı kiçik bir kənd idi. Çay kənarındakı yaşıl biçənəklər ilahi bir təmizlikdən xəbər verirdi. Bu il o yerlərə getmişdim və gördüm ki, Baxçacığın nə evləri qalıb, nə də ağacları. Təkcə kəndlə üz-üzə, çay kənarındakı yastanada qədim qəbiristanlıq qəmgin-qəmgin mürgüləyir. Ərəb əlifbası ilə yazılı daşlar böyrü üstədir. Yazılı at və qoç heykəllərinin başlarını qoparıblar. Bir dağdağan ağacı var, budaqlarından rəngli əsgilər sallanıb"...

* * *

Deyilənə görə, Bağçacıq kəndinin yerləşdiyi əraziyə gələn ilk qarapapaqlı **Kərbəlayı Nəbi** olmuşdur. O, Azərbaycanın bir çox yerlərini gəzdikdən sonra Vedibasar mahalının dağlıq bölgəsini seçib-sonalayıb. Hər tərəfi meşəlik, dərə-təpəlik, çoxlu bulaqları olan bu ərazi ilə o, özünün əvvəlki yurd yerləri – Cənubi Azərbaycanın Sulduz mahalının Bağçacıq kəndi arasında tam bir oxşarlıq tapıb. Meşəni kəsib, özlərinə ev tikmiş, adını da Bağçacıq qoymuşlar.

Burada yurd salan Kərbəlayı Nəbinin **Həsən** adlı, Həsənin **Tağı** adlı, Tağının **Əli** adlı oğlanları olmuşdur. Deyilənə görə, onların hər biri yüz yaşdan çox ömür sürmüşlər.

**Əli** təxminən 1838-1840-cı illərdə anadan olmuşdur. Təhsil almaq üçün Tehrana üz tutan Əli burada universitetin ilahiyyat fakültəsini bitirir. Eyni zamanda dünyəvi elmlərə böyük maraq göstərir, dərman bitkilərinin sirlərinə yiyələnir, Şərq təbabətini mənimsəyir. Yenə də deyilənə görə, şiş xəstəliyi olanları yaman çöpü adlandırılan otla tam müalicə edirmiş.

Universiteti bitirdikdən sonra Bağçacığa geri dönən Əli burada Nisə adlı qızla evlənir, oğul-uşaq sahibi olur. Bağçacıqda əkin sahələrinin suvarılması üçün suya böyük ehtiyac yarandığından, **Dumanlı dağının** ətəyindən axan çayı kəndə gətirmək qərara alınır. Əlinin başçılığı ilə kəndin cavanları 3 il ərzində 5 km-lik dağ-daşı yararaq çayın ağzını kəndə döndərirlər. Çaya **El**

**arxı** adı verilir.

Əlinin qardaşları **Məşədi Məhəmməd, Kərbəlayı Ələkbər** dövrünün varlı adamları olublar. Əli, qardaşı oğlu Zeynalabdin, bacısı oğlu Hüseyn Məşhəd ziyarətinə gediblər. Xalq arasında Əliyə **Məşədi Molla Əli** deyirmişlər.

Əlinin kəndin aşağısından axan Kolanlı çayının üstə böyük bir dəyirmanı olub. Deyilənə görə, bu, həmin çayın üstündəki dəyirmanların ən böyüyü, ən çox dən üyüdəni imiş. Məşədi Molla Əli çox səxavətli adam olub, o, dəyirmanı payız, qış fəsillərində kasıblara verər və həmişə deyərmiş ki, çalışıb ümidsiz adamlara kömək edin, çünki səxavət və mərhəməti Allah namazdan, orucdan üstün tutur.

Məşədi Molla Əlinin dəyirmanı 1950-ci ilə qədər işləyirmiş, XX yüzilin əvvəllərində Məşədi Hüseynlə qardaşı Bağır oğlu Əlinin birlikdə 5 min baş qoyunu, 200 baş qaramalı olub.

1918-ci il erməni təcavüzü zamanı Bağçacığın **Abbasəli Əli oğlu, Əli Bağır oğlu, Salman Qulu oğlu, Kazım Qəhrəman oğlu** və b. kimi cəsur oğulları daşnaklara qarşı mərdliklə vuruşmuş, düşməni dəfələrlə geri oturtmuşlar. **Salman Qulu oğlu** Vedibasar özünümüdafiə qüvvələrinin komandanı Abbasqulu bəy Şadlinskinin bölük komandiri olub. Vedibasarın süqutundan sonra Cənubi Azərbaycana mühacirət edən, Sovet hakimiyyətinin ilk illərində doğma kəndlərinə qayıdan bağçacıqlılar 1930-cu illər repressiyasını bütün dəhşəti ilə yaşamalı olurlar. 1930-1938-ci illərdə vergi adı ilə **Məşədi Molla Əlinin** evini 8 dəfə talan edirlər. Məşədi Molla Əlinin gəlini Zəhra xanımın bu barədəki xatirələrindən: "1938-ci ilin yanvar ayında axırıncı mal-heyvanı talan edib aparandan sonra itimiz və pişiyimiz həyətdən baş götürüb getdi. Axırıncı talan vaxtı prokuror Alı Əliyev taxıl quyusunun üstündə durmuşdu. Onun ayaqlarının altını qazmağa cürət etmədilər. Bizi həmin il aclıqdan prokuror Alı Əliyev xilas etdi. Sonra kişilər dedi ki, Alı Abbasın yeznəsidir. Abbas da bizimlə qohum idi."

Məşədi Molla Əlinin nəvəsi Səmədin xətirələrindən: "Alı Əliyev qocalmışdı. Oğlu Ənvər məni onunla tanış etdi. Alı müəllim soruşdu ki, Ənvər, bu oğlan kimdir? Ənvər dedi: “Ata, Bağçacıqdakı dəyirman kimin idi?” Alı müəllim dedi: "Məşədi Molla Əlinin". Ənvər dedi: “Ata, bu oğlan da həmin Məşədi Molla Əlinin



nəvəsi Səməddir”. Alı müəllim mənimlə öpüşüb dedi: "O kişi mənə atalıq edib. Məşədi Molla Əli çox adamın əlindən tutub".

1938-ci ildə Məşədi Molla Əlini və bütün ailəsini həbs edirlər. Məşədi Molla Əlinin özünü, Məşədi Zeynalabdini, Məşədi Hüseyni, Qəmbəri və Mirzə Abdullanı İrəvana aparıb güllələyir, qalanlarını isə Sibirə sürgün edirlər.

Həmin güllələnənlərdən **Mirzə Abdulla** da ilahiyyat üzrə universitet təhsili almışdı. Tehran universitetinin ilahiyyat fakültəsini əla qiymətlərlə bitirən Abdulla oradan İraqın Nəcəf şəhərinə göndərilmişdi. Burada da təhsilini uğurla başa vurub, Vediyə dönmüşdü. Böyük Vedi məktəbində ilahiyyatdan dərs deyirdi.

Sovet hakimiyyətinin ilk illərində Naxçıvanın Nehrəm kəndində müəllimlik edən Abdulla 1923-1924-cü illərdə Vediyə qayıdıb, o zaman Vedidə bütün dövlət sənədlərinin tərtibçisi olur. O vaxtdan onu Mirzə Abdulla adlandırırlar.

1928-ci ildə təzədən Bağçacığa köçən Mirzə Abdulla 1934-cü ildə dostu Şeyx Kazımla Türkiyəyə qaçmaq istərkən Araz qırağında həbs olunurlar. Mirzə Abdulla iki il həbs cəzası alır. 1936-cı ildə həbsdən azad olub, Bağçacığa gəlir. 1938-ci ildə həbs edilərək güllələnir. **Qızı Zöhrə** hazırda Şərur rayonunun Xanlıqlar kəndində yaşayır.



Məşədi Molla Əlinin oğlu Orucla Mirzə Abdullanın qızı Zəhra xanım ailə qurmuşdular və **ƏHƏD ORUC OĞLU ƏLİYEV** 1931-ci ilin sentyabrında bu izdivacdan doğulmuşdu.

Ə.Əliyev Kolanlı kənd 7 illik məktəbini, sonra İrəvan Pedaqoji Texnikumunu, nəhayət, 1957-ci ildə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. Əvvəl Salyan rayon Pratman-Kəncəli 7 illik məktəbinin, az sonra Qızılağac 7 illik məktəbinmn direktoru təyin edilmişdir. Onun səyi və təşkilatçılığı nəticəsində Qızılağac məktəbi orta məktəbə çevrilmişdir. Əhəd müəllim bu məktəbdə 34 il direktor işləymişdir.

Əhəd müəllim həm də 1950-ci il ildən məskunlaşdığı Arbatan kəndinin gənc yaşlarından ağsaqqalı olmuşdur. Rayon rəhbərliyi, ictimaiyyət arasında nüfuz yiyəsi idi. Lakin amansız ölüm onu vaxtsız aparmış, o, 1994-cü ildə 64 yaşında vəfat etmişdir.

**Əliyev Ələkbər Məhəmmədəli oğlu** Məşədi Molla Əlinin oğul nəvəsi idi. Əvvəl İrəvan pedaqoji məktəbini, 1956-cı ildə isə Bakıda Pedaqoji İnstitutunun filologiya fakültəsini bitirmiş, 1956-cı ildən təqaüdə çıxana qədər Salyan rayon Arbatan kənd orta məktəbində dil-ədəbiyyat müəllimi, təlim-tərbiyə işləri üzrə direktor müavini işləmişdir.

1946-cı ildə Bağçacıq kəndindən İrəvan pedaqoji məktəbinə daxil olanlara arasında **Əliyev Əziz Məhəmmədəli oğlu, Əliyev Əziz Abbas oğlu** da vardı. Onlar 1952-ci ildə texnikumu bitirmiş, **Əliyev Əziz Abbas oğlu** Gəncədə qalmış, **Əliyev Əziz Məhəmmədəli oğlu** isə təyinatla Salyan rayonuna gəlmiş və uzun illər Arbatan kəndində müəllim işləmişdir.

**Əliyev Həsən Abbasəli oğlu** İrəvanda kənd təsərrüfatı texnikumunu fərqlənmə diplomu ilə bitirmiş, ömrünün axırına kimi Salyanda baş baytar həkimi, baytar həkimi işləmişdir.

**Məmmədov Yusif Zeynalabdin oğlu** İrəvanda diş texniki təhsili almışdı. Ömrünün axırına qədər diş texniki işlədi. Gözəl ata, gözəl el ağsaqqalı idi.

**Süleymanov Əyyub Yaqub oğlu** da əvvəl İrəvan pedaqoji məktəbini, 1958-ci ildə isə Bakıda ADU-nun filologiya fakültəsini bitirmişdir. Sonuncu tarixdən Salyan rayonunun Arbatan kənd orta məktəbində ədəbiyyatdan dərs deyir.

Kəndin yetirmələri sırasında **Əziz, Əlibala** və **Əbdüləli Əhmədov** qardaşlarının da adlarını çəkmək olar. **Əziz İbrahim oğlu Əhmədov** 1917-ci ildə Bağçacıq kəndində anadan olmuş, 1938-1940-cı illərdə Leninqrad şəhərində zenit-artilleriya alayında qulluq etmiş, bu vaxt məşhur 1939-cu il fin müharibəsinin iştirakçısı olmuş, 1940-cı ilin dekabrında ordudan tərxis olunaraq doğma Bağçacığa dönmüş, lakin 1941-ci ilin iyulunda səfərbərliyə alınaraq təzədən cəbhəyə göndərilmiş, Böyük Vətən müharibəsində Qafqazdan Berlinə qədər zenit batareyasının komandiri kimi uzun döyüş yolu keçmiş, Şimali Qafqazın, Krımın, Rumıniyanın, Avstriya və Macarıstanın alman faşistlərindən



azad edilməsində fərqlənmişdir. 1945-ci ildə ordudan tərxis olunmuş, 1952-ci ildə Rostov Milis Məktəbini bitirib, uzun illər Vedi rayon milis sistemində müxtəlif vəzifələrdə işləmişdir.

**Əlibala Əhmədov** Böyük Vətən müharibəsinə qədər rayonun Goravan, Şıxlar, Alməmməd, Yengicə kəndlərində kolxoz sədri, Qaralar kəndində sovet sədri vəzifələrində çalışmışdır. 1941-1945-ci illərdə cəbhədə olmuş, qayıtdıqdan sonra uzun müddət Şirazlı kənd kolxozuna sədrlik etmiş, sonra isə rayon Neftbazasının direktoru vəzifəsində işləmişdir.

**Əbdüləli Əhmədov** da 1941-1945-ci illərdə Böyük Vətən müharibəsində döyüş yolu keçmişdir. Müharibədən sonra Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini bitirmiş, ayrı-ayrı vaxtlarda İrəvanda məhkəmə sistemində çalışmış, Amasiya, Vorontsovka (Kalinino) rayonlarında məhkəmə sədri işləmişdir.

## KƏNDİN TAYFALARI

Yuxarıda dediyimiz kimi, kəndin bünövrəsini qoyanlar Kərbəlayı Nəbinin başçılığı ilə Qarapapaq tayfa nümayəndələri olmuşlar. Sonralar, deyilənə görə, Cənubi Azərbaycandan Alapapaq adlanan bir tayfa da gəlib kəndin aşağısında məskunlaşıblar. Kiçik Bağçacıq kəndi belə yaranıb. Sonra bu iki kənd birləşib.

Beləliklə, Bağçacıq qarapapaqları əsasən **Tağı, Nağı, Mehdi** və **Əli** adlı dörd qardaşın törəmələri olmuş və **Əli uşağı** adlanmışlar. Alapapaqlar isə **Kərbəlayı Ələkbər uşağı** nəsli **kimi** tanınmışlar.

## KƏNDİN TOPONİMLƏRİ

Dumanlı dağı, Palçıqlı, Quzeydağ, Gözə, Fatma bulağı, Sarıqaya, Kiçik Bağçacıq (əvvəl kənd olub), Çuxur demi, Almalıq, Dərəyurd, Çatma, Ocaq, Gülüölən (sonra Güleylan olub), Qoşabulaq...

**Güleylan, Çatma, Ocaq, Dərəyurd** adlı yerlərin qədimdə yaşayış məntəqələri olduqlarını ehtimal etmək olar. Buradakı qədim kənd xarabalıqları, Alban mədəniyyət nümunələri olan çoxlu abidə qalıqları, 2-2,5 m uzunluğunda və 1,5 enində daşların üzərində çox səliqə ilə oyulmuş alban yazıları deyilənləri

sübut edir. Güleylan, Çatma, Ocaq və Dərəyurdda, Topdağ çayının Kolanlı tərəfində yerləşən Xınıt kəndində, Qaratorpaq kəndində belə abidələrin sayı yüzlərcə idi. Həm də Qarapapaq tayfaları bu yerlərə ayaq basanda bu daş abidələr burada çox-çox qədimlərdən mövcud imiş.

## 1930-CU İLLƏRİN REPRESSİYA QURBANLARI

1. Məşədi Molla Əli Tağı oğlu, 120 yaşlı qoca (Tehran universitetinin ilahiyyat fakültəsini bitirmişdi).
2. Məhəmməd Əli oğlu Tağıyev
3. Abbasəli Əli oğlu Tağıyev
4. Oruc Əli oğlu Tağıyev
5. Məşədi Zeynalabdin Məhəmməd oğlu
6. Məşədi Hüseyn Bağır oğlu
7. Əli Bağır oğlu
8. Qəmbər Qulu oğlu
9. Salman Qulu oğlu
10. Mirzə Abdulla Qasım oğlu (Tehran universitetinin ilahiyyat fakültəsini bitirmişdi).
11. Əliqulu Abdulla oğlu
12. Dadaş Abdulla oğlu
13. İmamverdi Məmməd oğlu Məmmədov
14. Abbasqulu
15. Qəfər Zeynalabdin oğlu Məmmədov
16. Əbdüləli İsmayılov
17. Abbas Məmmədov
18. Pato Feyzulla oğlu Allahverdiyev

## 1941-1945-Cİ İLLƏR MÜHARİBƏSİNDƏ HƏLAK OLANLAR

1. Qurban Abdulla oğlu Qasımov
2. Həsən Məmmədəli oğlu
3. Nəcəf Əliyev
4. Allahverdi Əliyev
5. Abbasəli Əli oğlu Xudiyev



6. Məmmədəli Xudaverdi oğlu Xudiyev
7. Rəhim İbrahim oğlu Şahbazov
8. İboş Kazım oğlu Əliyev
9. Abdulla Ələkbər oğlu Ələsgərov
10. Bəhmən Pənah oğlu Hüseynov
11. Bəhlul Həbib oğlu Hüseynov
12. Məcid Xudabaxış oğlu Əliyev
13. Adoş Canbaxış oğlu Allahverdiyev
14. Səməd İmamverdi oğlu Məmmədov
15. Allahverdi Xudaverdi oğlu Rəhimov
16. İsmayıl Mahmud oğlu Əliyev
17. İbrahim Mirzə oğlu Həsənov
18. İbad

## MUSA MƏŞƏDİ HÜSEYN OĞLU BAĞIROV



1929-cu ildə Bağçacıq kəndində anadan olmuşdur.

1937-ci ildə atası, əmisi, dayısı repressiyaya məruz qalaraq Sibirə sürgün edilmiş, bir daha geri qayıtmamışlar.

Böyük Vətən müharibəsindən sonra İrəvan Pedaqoji Texnikumuna daxil olmuş, sonra texnikum Xanlar rayonuna köçürüldüyündən təhsilini orada başa vurmuşdur.

1948-ci ildə bütün bağçacıqlılar kimi, onlar da ailəlikcə Azərbaycana deportasiya olunmuşlar.

Texnikumu bitirib, bir müddət Salyan şəhərində məktəb müəllimi işləyən M.Bağırov İ.Stalinin ölümündən sonra düşən ilk fürsətdə isə anasını da götürüb, doğma Vediyə qayıdır.

Təhsilini davam etdirmək ümidilə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinə daxil olur və 1959-cu ildə təhsilini başa vurub, Böyük Vedi qəsəbəsindəki onbirillik məktəbə dil-ədəbiyyat müəllimi təyin edilir. 10 il burada işlədikdən sonra "Sovet Ermənistanı" qəzetində işə dəvət olunur. Bu vaxt artıq Musa müəllim özünün

şerləri, publisist yazıları ilə tanınmaqda idi.

7 il "Sovet Ermənistanı" qəzetinin təbliğat şöbəsinə başçılıq edir, bir müddət Ermənistanın Maarif Nazirliyində metodist işləyir, 1974-cü ildə "Ürəyimin səsi ol oxu", 1979-cu ildə "Ömrün mənası" şerlər kitablarını nəşr etdirir.

1982-ci ildə Bakıya köçür.

1986-cı ildə burada "Dağlarda keçək ömür" şerlər kitabı işıq üzü görür.

"Ana səhvi" adlı dördüncü kitabını çapa hazırlamaqdadır.

## DİLSUZ SƏMƏD OĞLU MƏMMƏDOV



1941-ci il avqustun 3-də Bağçacıq kəndində anadan olmuşdur.

1948-ci ildə bağçacıqlılar Azərbaycana deportasiya olunanda Dilsuzgilin ailəsi Şirazlı kəndinə köçür və Dilsuz burada orta məktəbi bitirib, İrəvandakı Azərbaycan Kənd Təsərrüfatı Texnikumuna daxil olur. 1962-ci ildə texnikumu bitirib, hərbi xidmətə yola düşür.

Hərbi xidmətdə ikən hərbi məktəbə daxil olan Dilsuz 1966-cı ildə oranı bitirib, leytenant rütbəsi ilə Zaqafqaziya dairəsində qulluğa göndərilir. Sonra Almaniyadakı Sovet hərbi hissəsində qulluq edir.

1973-cü ildə qulluğunu Tiflis şəhərində, sonra SSRİ-nin bir sıra şəhərlərində, Monqolustanda davam etdirir.

1988-ci ildə istefaya çıxan Dilsuz Məmmədov həmin ildə Ermənistanda azərbaycanlılara qarşı başlanan növbəti soyqırımı zamanı soydaşlarımızın fəal müdafiəsinə qalxır.

1992-ci ildə yaradılan Azərbaycan Milli Ordusu sıralarına könüllü qoşulub, Ağdərə, Kəlbəcər, Laçın döyüşlərində iştirak edir.

Polkovnik Dilsuz Məmmədov bir müddət hərbi məktəbdə baş müəllim işləyib. Öz bilik və bacarığını yeni hərbi kadrların yetişdirilməsi işinə sərf edib.

2001-ci ilin əvvəlindən ehtiyata buraxılıb.

İki oğlu var, hər ikisi Qarabağ döyüşlərində iştirak edib.



## BAYBURT

Vedibasar mahalının Millidərə bölgəsində, Vedi rayonunun mərkəzi olan Böyük Vedi qəsəbəsindən şimal-şərqdə, Qəmərli (Artaşad) şəhərindən 24 km cənub-şərqdə, Dəvəgözü çayının (Gərni çayının Mil qolunun) kənarında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

Tarixən Vedibasar mahalının kəndi olan Bayburt "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Gərnibasar nahiyəsinin **Bayburd kəndi** kimi qeydə alınmış və Əli adlı şəxsin kənddəki timarından dövlətin müxtəlif vergilər şəklində götürdüyü illik gəlirin 3.500 ağça olduğu göstərilmişdir. Həmin mənbədə İrəvan əyalətinin Xınzirək nahiyəsi ərazisində də eyniadlı kəndin mövcudluğu barədə məlumat var.

Kəndin qədim türk tayfalarından olan Bayburt tayfasının adını daşıdığı şəksizdir. Bu tayfa vaxtilə **Əmirhacılı** və **Oğurbəyli** qollarına ayrılmışdır. XV yüzildə Qızılbaş tayfalarından birinin **Bayburtlu** adlanması da məlumdur. Bununla belə, Bayburt adının Anadoludan gətirilmə olması, Türkiyədə Ərzincan yaxınlığındakı qədim Bayburt şəhər-qalasının (V yüzil Arman tarixçisi Musa Xorenlidə "**Baybert**", "Kitabi-Dədə Qorqud" eposunda **Bayburt** şəklindədir) adından götürülməsi barədəki mövcud ehtimal, bizcə, ciddi tədqiqata möhtacdır. Bu fikirdə təkidli olmağımızın səbəblərindən biri də Bayburt kəndindən o qədər də uzaq olmayan məsafədə (Qəmərli rayonu ərazisində) bu tayfanın bir qolu olan Uğurbəyli adlı kəndin mövcudluğudur. XIX yüzildə Qars dairəsində, Tiflis quberniyasının Borçalı qəzasında da Bayburt kəndləri olmuşdur.

Elmi ədəbiyyatda Bayburt toponiminin türk dillərindəki bay ("böyük", "varlı" anlamında) və akkad dilindəki **birtu** ("şah qarnizonunun yerləşdiyi qala" mənasında) komponentlərindən ibarət olması fikri də (B.Budaqov, Q.Qeybullayev) mövcuddur. Bizcə, bu tipli toponimlərdəki **bay** tərkibini "varlı" kimi yozmaqdansa, "**boy**", yəni tayfa kimi izah etmək daha elmi olardı. Çünki əslində elə belədir.

İ.Şopendə (1832) kəndin adı **Bayburt** kimi qeydə alınmış və

burada 19 ailədə 96 nəfər (54 kişi, 42 qadın) müsəlman əhali yaşadığı göstərilmişdir.

Sonrakı bütün məlumatlarda kəndin adı **Bayburt** şəklindədir.

1873-cü ilin statistik məlumatlarında 21 ailədə 143 nəfər (82 kişi, 61 qadın) "tatar" (türk) əhalidən ibarət olmuş bu kənddə həm də qədim kilsə xarabalığı və qəbirüstü abidələr qeydə alınmışdır. Həmin maddi sübutlar (kilsə Arman türk-xristian kilsəsi olmaqla V yüzil abidəsi idi) kəndin daha qədim tarixə malik olduğunu və sonralar yenidən məskunlaşdığını təsdiqləyir.

1886-cı ildə kənddə 27 ailədə 184 nəfər (102 kişi, 82 qadın) əhali yaşamışdır. Onlardan 15 nəfərinin (6 kişi, 9 qadın) bəy ailəsinə mənsub olduğu barədə mənbədə qeyd var. Vedibasarın digər dağ kəndlərində olduğu kimi, burada da əhalinin əsas təsərüffat məşğuliyyəti heyvandarlıq və əkinçilik olmuşdur. Kəndin 317,06 desyatin torpaq sahəsinin 4 desyatinini malikanə torpaqları, 0,6 desyatinini bağ sahələri, 0,6 desyatinini meşəlik, 18,8 desyatinini suvarılan, 164,16 desyatinini suvarılmayan əkin sahələri təşkil etmişdir. Kəndin camaatının 173 iribuynuzlu, 217 xırdabuynuzlu mal-qarası olmuşdur. Kəndin torpaqları **Dəvəgözü** çayının suyu ilə suvarılmışdır.

Kəndin İrəvan qəzasının **Tikanlıyurd** yaylağında 250 desyatin yaylaq yeri olmuşdur. Kənddən 15 verst aralıda yerləşən bu yaylaqdan kənd camaatı qədimdən bəri istifadə etmişdir. Kəndin **Şəhriyar-ağıl** deyilən 1.000 desyatin sahədə qışlaq yerləri də olmuşdur.

Kənddə 1897-ci ildə 224 nəfər, 1914-cü ildə 284 nəfər Azərbaycan türkü yaşamışdır.

1918-ci ilin mayında erməni daşnaklarının Millidərə bölgəsinə hücumu zamanı Bayburt kəndindən olan **Canbaxış bəyin** başçılıq etdiyi Millidərə qüvvələri düşməni dəfələrlə ağır məğlubiyyətlərə uğratmışdır. Cahanbaxış bəy Abbasqulu bəy Şadlinskinin başçılıq etdiyi Vedibasar qüvvələrinin Millidərə üzrə komandiri idi. Həmin döyüşlər zamanı Bayburt kəndi ermənilər tərəfindən dağıdılmış, sağ qalan Millidərə əhalisi ilə birlikdə onlar da müvəqqəti olaraq Vedibasar mahalının aran kəndlərində məskunlaşmışlar.

Kənd bir də bu bölgədə Sovet hakimiyyəti qurulduqdan sonra



canlanmışdır. Belə ki, 1922-ci ildə kəndin qaçqın əhalisindən yalnız 22 nəfəri geri – öz doğma kəndlərinə qayıda bilmiş, 1926-cı ildə onların sayı 164 nəfərə, 1931-ci ildə 140 nəfərə çatmışdır.

1952-ci ildə kəndin əksər əhalisi məcburi surətdə Azərbaycana – Ağdaş rayonunun Ərəbocağı kəndinə köçürülmüşdür. Kənd əhalisinin rayonun məhz bu kəndini seçməsinin səbəbi isə onun Bayburtdakı Ocaqla (Ərəb ocağı) eyniadlı olması idi. Bu yerin isti iqlim şəraitinə dözə bilməyən bayburtlular bir il sonra Bərdə rayonunun Kətəlparaq kəndinə köçməyə məcbur olurlar. Bir tayfa isə Şəmkir rayonuna köçüb, orada məskunlaşır.

1952-ci ildə kənd əhalisi deportasiya olunanda kənddə 52 ailə yaşayırmış. Onlardan 5-6 ailə kçməkdən imtina etmiş və həmişəlik kənddə qalmış, 1988-ci ilə qədər orada yaşamaqda davam etmişdilər. 1988-ci il hadisələri başlayanda kəndin təxminən 150 nəfər (30-40 ev) azərbaycanlı sakini vardı. Həmin il onlar da doğma yurddan didərgin düşüb, Bərdə rayonundakı qohum-əqrəbalarının yanına üz tutdular.

* * *

Bayburt kəndi Böyük Vedidən gedəndə alçaq təpələri keçib, **Dəvəgözü çayına** düşəndə çayın sağ sahilində yerləşirdi. **Gilanlar çayı** kəndin ortasında Dəvəgözü çayına birləşirdi. Kəndin yuxarı başında isə Gilanlar çayına **Yellicə çayı** birləşirdi. Bu iki çayın birləşdiyi üçbucaqda **Çayarası** adlanan geniş meyvə və əkin sahələri uzanırdı. Gilanlar çayı ilə Dəvəgözü çayının birləşdiyi yerdən **Qara dağ** adlı dağ başlayırdı. Bu dağ Gilanlar və Körpükənd kəndlərinin arasından **Böyükdüz yaylağına** qədər gedib-çıxırdı. Bayburt kəndinin qarşısından axan Dəvəgözü çayının sol sahilində (Böyük Vedi tərəfində) Millidərədəki ən böyük dağ silsiləsi olan **Aylı Quzey dağı** yerləşirdi. Bu dağ Alqırıq kəndindən başlayaraq Bayburtun yanından və Gölaysor kəndindən keçərək Əyricə yaylağına qədər uzanırdı. Bu dağın Bayburtla üz-üzə olan zirvəsində **Ərikağacı** deyilən yastanadan keçib, **Kosamməd aşırımını** aşıb Böyük Vediyə gedirdilər.

Aylı Quzey dağının döş hissəsində, Alqırıq, Şəhriyar, Molla Əhməd kəndlərinə gedən yolun üstündə Bayburt kəndinin əkin sahələri **Böyük Ətli çuxur** və **Kiçik Ətli çuxur** torpaqları yer-

ləşirdi. Dəvəgözü çayı boyunda kəndin əkin və meşə sahələri olan **Xudonun çəmi, Nəbinin çəmi, Şkol yeri, Tərəkəməlik** və s. sahələr vardır.

Keçmişdə Bayburt kəndində **İbrahim bəy, Qara bəy, Canbaxış bəy** kimi nüfuzlu şəxsiyyətlər, **Qəriblər, Məşədi Usub tayfaları** yaşamışlar. Onların nəvə-nəticələri hazırda Azərbaycanın müxtəlif rayonlarında yaşayırlar.

Sovet hakimiyyəti qurulduqdan sonra Bayburt kənd əhalisi uzun müddət kolxoz quruluşunu qəbul etməmişdilər. Bu quruluş zorla qəbul edildikdən sonra kolxoza ilk rəhbərliyi **Qədimov Cəfər, Allahverdiyev Məhəmmədəli** (əslən Alqırıqlı), **Vəliyev Ağaəli** (əslən Alqırıqlı) etmişlər. **Cəmşid İsmayıl oğlu Bünyadov** (əslən Alqırıqlı) Bayburt məktəbinin direktoru olmuşdur. Sonralar Bayburtdan 30-dan çox cavan ali təhsil almışdır. Bunlardan **Yunis Bünyatov** haqqında kitabda ayrıca material vermişik. **Məmməd Əli oğlu Məmmədov** Bərdə rayonunda uzun müddət kolxoz sədri, **Kamal Heydər oğlu Bünyadov** həmin rayonda müxtəlif rəhbər vəzifələrdə, **Kamil Həsən oğlu Məmmədov** məktəb direktoru vəzifəsində işləmişdir. Yazıçı **İsa Rüstəm oğlu Hümmətov** uzun illər Azərnəşrdə məsul vəzifələrdə çalışmışdır, 4 kitabı nəşr olunmuşdur.

Vedibasar mahalının məşhur ocaqlarından biri də Bayburt kəndində yerləşən **Ərəb ocağı** idi. Tarixi çox qədimlərə gedən bu ocağın sahibi keçən yüzildə **Seyid Abdulla** olmuşdur. O, dünyasını dəyişdikdən sonra ocağa oğlu **Seyid Abbas,** ondan sonra onun oğlu **Seyid Qəşəm** sahiblik etmişdir. 1948-1953-cü illər deportasiyası zamanı kəndin əksər azərbaycanlı əhalisi köçürülsə də, bu qədim ziyarətgah öz fəaliyyətini davam etdirmişdir. 1988-ci ildə kəndin sonuncu azərbaycanlı sakinləri Azərbaycana köçəndə Seyid Qəşəm də Bərdə rayonunun Kətəlparaq kəndinə köçmüş və burada rəhmətə getmişdir. Bayburtdakı Ocaqdan Kətəlparaq kəndinə gətirilmiş Ocaq daşı bu gün də Ocaq sahibinin evində saxlanmaqda, Ocaq isə öz fəaliyyətini bu gün də Kətəlparaq kəndində davam etdirməkdədir. Seyid Qəşəmdən sonra Ocağa oğlu **Seyid Abbas** sahiblik edir. Kətəlparaq kəndində Seyid Qəşəmin məzarı üstündə tikilmiş kümbəz isə əhalinin ziyarət yerinə çevrilmişdir.



## KƏNDİN TOPONİMLƏRİ

Ərəb ocağı, Aylı Quzey, Böyükdüz yaylağı, Ərikağacı, Kosamməd aşırımı, Böyük Ətli çuxur, Kiçik Ətli çuxur, Yastana, Qara dağ, Tərəkəməlik (Qələməlik), Çayarası, Bənd, Xudonun çəmi, Nəbinin çəmi, Şkol yeri...

## 1930-CU İLLƏRİN REPRESSİYA QURBANLARI

1. Həbib Qara oğlu Alırzayev
2. Hətəm İbrahim oğlu İbrahimov
3. Rüstəm Tarıverdiyev
4. Rüstəm Hümbətov
5. Lətif Hüseyn oğlu və b.

## 1941-1945-Cİ İLLƏR MÜHARİBƏSİNDƏ HƏLAK OLANLAR

1. Abbasqulu İsmayıl oğlu Bünyadov
2. Sərtib Mövlanverdi oğlu Əliyev
3. Cavad Rüstəm oğlu Hümbətov
4. İsmayıl Əli oğlu İsmayılov
5. Allahverdi Nurəli oğlu İsmayılov
6. Əli Hümbətov
7. Abbasəli Məhəmməd oğlu
8. Qələndər Kəlba Məhəmməd oğlu
9. Xudakərim
10. Əli

## CƏMŞİD İSMAYIL OĞLU BÜNYADOV



1911-ci il mayın 5-də Vedi qəzasının Alqırıq kəndində anadan olmuş, 1918-1920-ci illər erməni-müsəlman müharibəsindən sonra ailəlikcə Bayburt kəndinə köçmüşlər.

1930-1938-ci illərdə Gilanlar, Bayburt və İmirzik kənd ibtidai məktəblərində müdir işlimişdir.

1938-ci ildə İrəvan Dövlət Pedaqoji İnstitutununa daxil olmuş, 1941-ci ildə təhsilini yarımçıq qoyub cəbhəyə getmiş, 1942-ci ildə yaralanaraq ordudan tərxis olunmuşdur.

1942-1952-ci illərdə Gilanlar və Bayburt kənd yeddiillik məktəblərində direktor işləyən C. Bünyadov 1945-ci ildə respublikanın Əməkdar müəllimi adına layiq görülmüş, 1947-ci ildə ali təhsilini başa vurmuşdur.

1952-ci ildə Azərbaycana deportasiya olunmuş və həmin ildən Daşkəsən rayonunun Xaçbulaq kənd orta məktəbinin direktoru, 1953-1958-ci illərdə isə həmin rayonun Qazaxyolçular kənd 7 illik və Zinzayal kənd orta məktəblərində direktor, 1958-1962-ci illərdə rayonun N.Nərimanov adına 3 nömrəli şəhər orta məktəbində dərs hissə müdiri vəzifələrində çalışmışdır.

Sonra o, Bayburt kənd camaatının məskunlaşdığı Bərdə rayonunun Kətəlparaq kəndinə gəlmiş, orada orta məktəbdə dərs hissə müdiri işləmişdir.

Bütün ömrünü gənc nəslin təlim-tərbiyəsinə həsr edən Cəmşid müəllim 1979-cu ilin yanvarında Bərdə rayonunun Kətəlparaq kəndində dünyasını dəyişmişdir.



## YUNİS HEYDƏR OĞLU BÜNYADOV



1940-cı il noyabrın 18-də Bayburt kəndində anadan olmuş, 1947-ci ildə Bayburt kəndində 1-ci sinfə getmiş, 1952-ci ildə ailələri öz doğma yurdlarından Azərbaycana deportasiya olunduğundan 7 illik təhsilini Bərdə rayonunun Kətəlparaq kəndində, 10 illik təhsilini həmin rayonun Yenidaşkənd kəndində bitirmişdir.

1957-ci ildə Gəncə (Kirovabad) şəhər İnşaat texnikumuna qəbul olunmuş, 1960-cı ildə oranı bitirərək Bərdə rayonunda tikinti sahəsində əmək fəaliyyətinə başlamışdır.

1964-cü ilin iyun ayında Bakı şəhərinə gəlmiş və Bakı şəhər Baş Tikinti İdarəsinin 23 №-li Tikinti İdarəsində inşaat ustası vəzifəsində çalışmış, həmin ilin dekabr ayında Azərbaycan SSR Nazirlər Soveti nəzdində Əmək Ehtiyatlarının uçotu, Fəhlə Toplama, İşə Düzəltmə və Köçürmə Baş İdarəsində işləməyə dəvət olunmuşdur. O bu təşkilatda əvvəl mühəndis, böyük mühəndis, bu təşkilat 1967-ci ildə Azərbaycan SSR Nazirlər Kabineti yanında Əmək Ehtiyatlarından istifadə Dövlət Komitəsinə çevriləndə isə oranın Köçürmə və Köçürmə tikintisi şöbəsinin müdiri vəzifəsinə təyin edilmişdir. O, 1965-ci ildə Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsinin axşam şöbəsinə qəbul olunmuş, 1971-ci ildə inşaatçı mühəndis ixtisası ilə oranı bitirmişdir.

1980-ci ilin sentyabrında Yunis Bünyadov respublika rəhbərliyi tərəfindən Azərbaycan Respublikası Dövlət Əmək və Sosial Məsələlər Komitəsi sədrinin müavini vəzifəsinə təyin olunmuşdur. O bu vəzifədə 13 il (1980-1992) işləmiş və kollegiyanın üzvü olmuşdur. Bu illər ərzində onun yaxından iştirakı və rəhbərliyi ilə respublika ərazisində 95 müasir tipli kənd qəsəbəsi tikilmişdir. Bu qəsəbələrə Qərbi Azərbaycandan deportasiya olunmuş azəri türkləri, Azərbaycana pənah gətirmiş mesxeti, axıska türkləri və eləcə də respublikamızın ərazisində təbii fəlakətə, uçquna məruz qalmış, su altında qalmaq təhlükəsi olan kəndlərin əhalisi köçürülmüşdür.

1993-cü ildən adı çəkilən Komitə respublika Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə çevrilmiş, Y.Bünyadov orada idarə rəisi, 1997-ci ildən isə Dövlət Əmək Müfəttişliyi rəisinin birinci müavini vəzifəsinə təyin edilmişdir. O, həm də bu idarənin yaradıcısıdır.

## BİRƏLİ (PİRƏLİ)

Vedibasar mahalının Çanaxçıdərə bölgəsində, Haçadağ dağı ətəyində, Qaraxaç kəndi yaxınlığında, bulaq kənarında kənd.

1828-ci ilə qədər kənddə ancaq Azərbaycan türkləri yaşamışlar. XIX yüzilin ortalarından etibarən kəndə İran və Türkiyədən çoxlu erməni köçürülüb gətirilmişdir. O vaxtdan kənd erməniləşdirilmişdir.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) Vedi nahiyəsinin **Pirilər kəndi**, "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) **Yuxarı Pirli kəndi** kimi qeydə alınmışdır. 1728-ci ilə aid başqa bir dəftərdə isə kəndin adı sadəcə "**Pirli**"dir.

"İrəvan əyalətənin icmal dəftəri"ndə (1728) Yuxarı Pirli kəndindəki Əli Yusif oğlunun adına olan timardan dövlətin müxtəlif vergilər şəklində il ərzində götürdüyü gəlirin məbləğinin 3.000 ağça olduğu barədə qeyd də var.

Kəndin adının **Pir** anlamında olması (**Pir-Alı, Pir-Əli, Pir-li**) barədə mülahizələr var. Lakin Qafqazda Birəli adlı çoxlu toponimin mövcudluğu (XIX yüzildə Batum əyalətində iki Brili, Tiflis quberniyasında yenə də iki Brili, Vladiqafqaz əyalətində Bira-Jenq, Zəngəzur qəzasında Birulu və s.) bu adın daha qədim köklərindən xəbər verir. Əvvəla, Altay-türk dillərində Birə sözünün "kiçik çay" anlamı məlumdur. Naxçıvanın Şərur rayonunda Birəliçay adlı çayın olması, Amur çayının iki qolunun Böyük Birə, Kiçik Birə adlanması da həmin sözün "çay" anlamının işləkliyindən xəbər verir.

Lakin vaxtilə Azərbaycan ərazisində, xüsusilə Gəncəbasarda **Peyrəlu** (yəni **Pirəli**) türk tayfasının yaşadığı da mənbələrdə qeydə alınmışdır. Hazırda Qəbələ rayonundakı Böyük Pirəli, Kiçik Pirəli kəndləri də bu tayfanın adını daşıyır.

Vedibasar mahalmdakı Birəli kəndinin ilkin adının mənbələrdə Pirilər, Pirli kimi qeyd olunması da onun **Pirəli** tayfa adından törəməsi fikrini təsdiq edir. Vedibasar mahalına orta yüzillərdə Gəncədən köçüb gələnlərin olması, burada Gəncəli (sonrakı Şahablı) adlanan kənd salmaları belə bir fikir doğurur ki, elə Pirəli tayfasının bir qolu o vaxtlar Gəncə ətrafından Vedibasara köçüb gələnlərdən olmuşlar.

İ.Şopenin 1832-ci ilə aid məlumatlarında kəndin adına rast gəlmədik. Bu və 1873-cü ilə aid mənbədə kənddə ancaq ermənilərin yaşaması barədəki faktlar sübut edir ki, 1826-1829-cu illər Rusiya-İran və Rusiya-Osmanlı müharibələri zamanı adı yer üzündən silinən kəndin xarabalıqları yerində sonralar İrandan və Türkiyədən gələn qaçqın ermənilər yerləşdirilmiş və onlar kəndin əvvəlki Pirəli adını erməni tələffüzündə **Birali//Birəli** kimi "bərpa" etmişlər. Belə ki, 1873-cü ildə kənddə 30 ailədə 404 nəfər (223 kişi, 181 qadın) qaçqın erməni yaşadığı mənbələrdə göstərilmişdir.

1886-cı ildə Qaraxaç icması tərkibindəki Birəli kəndində 35 ailədə 553 nəfər (308 kişi, 245 qadın) erməni əhalisi yaşamışdır. Onlardan da 25 nəfəri din xadimi olmuşdur. Əhalisi əsasən əkinçilik və heyvandarlıqla məşğul olan kəndin 613,98 desyatin torpaq sahəsinin 4 desyatinini malikanə torpaqları, 376,02 desyatinini isə suvarılmayan əkin yerləri təşkil etmişdir. Əhalinin 272 iribuynuzlu, 755 xırdabuynuzlu mal-qarası olmuşdur.

Vaxtilə kəndin azərbaycanlı əhalisinin İrəvan qəzasmda **Əlikuçan yurdu** adlı yaylaq yeri olmuşdur ki, kənddən 10 verst aralıda yerləşən, 200 desyatin ərazini əhatə edən bu yaylaqdan sonralar kəndin erməni əhalisi istifadə etmişdir.

Kəndin **Köhnə Kərki-ağıl** deyilən yerdə 700 desyatin qışlağı, Yuxarı Çanaxçı (Hortun) kəndi yaxınlığmda **Pirli** adlı 25 desyatin əkin-biçənək yeri də olmuşdur.

1918-1920-ci illərdə erməni-daşnak qüvvələri ilə birləşib qonşu müsəlman kəndlərinə qarşı vuruşan Birəli ermənilərinin bir hissəsi əməllərinin cəzasından qorxaraq Sovet hakimiyyətinin ilk vaxtlarında bolşevik qüvvələrin qarşısmdan qaçan daşnaklara qoşulub getsələr də, az sonra buraya Türkiyədən və Ermənistanın dağlıq rayonlarından xeyli erməni köçürülüb gətirilmişdir.

3 iyul 1968-ci il tarixdə kəndin adı dəyişdirilərək **Lancar** qoyulmuşdur.

## BÖYÜK BAĞ (BAĞLAR)

Vedibasar mahalının Cığındərə bölgəsində, Qaraqoyunlu kəndinin aşağı tərəfində kiçik kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

Qaraqoyunlu kəndinin aşağısında əvvəllər böyük əriklik olmuşdur. Bura **Böyük bağ** adlanmışdır. Qaraqoyunlu kəndindən çıxan ailələr tədricən burada evlər tikmiş, həmin əriklik kiçik kəndə çevrilmişdir. Kənd də yerin adı ilə Böyük bağ adlandırılmışdır. Bu yeri bəzən **Bağlar** da adlandırırdılar.

Sonralar kənd ona bitişik Qaraqoyunlu kəndi ilə birləşmiş, eyni kənd olmaqla Qaraqoyunlu adlanmışdır. Lakin Qaraqoyunlu kəndinin həmin aşağı hissəsi özünün Böyük bağ və ya Bağlar adını sonralar da saxlamışdır.



**Böyük Vedidən rəssam Firudin Quliyevin "Abbasqulu bəy Şadlinski" tablosu.**



## BÖYÜK GİLANLAR//BÖYÜK GİLƏNAR (GİLANLAR//GİLƏNAR)

Vedibasar mahalının Millidərə bölgəsində, Gərnibasar mahalının sərhədində, Qəmərli şəhərindən 28 km şimal-şərqdə, Mil çayının sağ sahilində, yaşıl bağlar qoynunda kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) kəndin adı **Aşağı Gilan**, "İrəvan əyalətinin icmal dəfti"ndə (1728) **Böyük Gilan** şəklində qeydə alınmışdır.

İ.Şopendə isə (1832) kəndin adı **Gilənar** kimi yazılmış və orada 28 ailədə 143 nəfər (79 kişi, 64 qadın) müsəlman əhalinin yaşadığı göstərilmişdir.

1728-ci ilə aid türk mənbələrində Böyük və Kiçik Gilan kəndlərinin adları **Gilani-Kəbir**, **Gilani-Saqir** kimi yazılmışdır.

Kəndin adının ilkin variantındakı **Gilan** komponenti bu adın bütün sonrakı formalarının (**Gilənar, Güllünar** və s.) təhrif olmasını ortaya qoyur. Əslində kəndin adı **Böyük Gilanlardır** və **gilanlılar** anlamında tarixin hansı dönəmindəsə Cənubi Azərbaycanın Gilan mahalından köçüb gələnlərin özləri ilə gətirdiyi bir addır. Xatırladırıq ki, Araz çayının qollarından birinin adı da Gilandır və Ordubad şəhərinin 6 km-liyində, Gilan çayının sol sahilində Xaraba Gilan adlı orta yüzillər şəhər xarabalığı indi də durmaqdadır.

1873-cü ilin statistik məlumatlarına görə, Böyük Gilanlar (mənbədə **Böyük Gilənar**) kəndində 16 ailədə 146 nəfər (86 kişi, 60 qadın) Azərbaycan türkü yaşamışdır. Həmin mənbədə kəndin kənarında yerləşdiyi çayın adı **Yellicə** çayı kimi qeyd edilmiş, kənddə islamaqədərki dövrə aid qədim kilsə qalıqlarının və böyük xristian qəbiristanlığının mövcudluğu göstərilmişdir.

1886-cı ildə kənddə 211 ailədə 194 nəfər (116 kişi, 78 qadın) müsəlman əhali qeydə alınmışdır. Əhali əsasən əkinçilik və maldarlıqla məşğul olmuşdur. Kəndin 443 desyatin torpaq sahəsinin 3 desyatinini malikanə torpaqları, 5 desyatinini suvarılan, 180 desyatinini suvarılmayan əkin yerləri təşkil etmiş, kənddə 113 iribuynuzlu, 370 xırdabuynuzlu mal-qara olmuşdur. Kəndin

torpaqları **Dəvəgözü (Mil)** çayının suyu ilə suvarılmışdır.

Kəndin İrəvan qəzasının **Cimmi** yaylaqlarında kənd camaatının qədimdən yayladığı 372 desyatin eyniadlı yurd yeri olmuşdur.

1897-ci ildə kənd əhalisinin sayı 310 nəfərə, 1914-cü ildə 389 nəfərə çatmışdır.

1918-1920-ci illər erməni-müsəlman davası zamanı kənd erməni daşnakları tərəfindən dağıdılmış, əhali ev-eşiyindən didərgin düşmüşdür. Yalnız mahal ərazisində Sovet hakimiyyəti qurulduqdan sonra kəndin qaçqın əhalisinin bir hissəsi geri qayıtmış, 1926-cı ildə kənddə 186 nəfər, 1931-ci ildə 230 nəfər, 1939-cu ildə 339 nəfər azərbaycanlı yaşamışdır.

1937-1948-ci illərdə Qarabağlar rayonunun tərkibində mövcud olan **Böyük Gilanlar** kəndinin əhalisi 1949-cu ildə bütünlüklə Azərbaycana köçürülmüş və Ermənistanın Qaranlıq (Martuni) rayonundan gətirilən ermənilər kənddə məskunlaşdırılmışlar. O vaxtdan kənd erməniləşdirilmişdir. Bu vaxt Böyük Gilanlar kəndi sadəcə **Gilanlar** adlandırılmış, Erməniləşdirilmiş Kiçik Gilanlar (Tap Gilanlar) kəndi isə ləğv edilərək Gilanlar kəndi ilə birləşdirilmişdir.

* * *

1918-1920-ci illərdə Millidərənin başqa kəndləri kimi, Böyük Gilanlarlılar da ermənilərə qarşı qəhrəmanlıqla vuruşmuşlar. Onlardan **Bayram, Nəcəfalı, Zal, Savalan** xüsusilə fərqlənmişlər.

Azərbaycan aşıq sənətinin görkəmli nümayəndəsi, Aşıq Ələsgərin ustadı **Aşıq Alı** əslən Böyük Gilanlar kəndindən olmuş, uşaq yaşlarında atası rəhmətə getdikdən sonra anası ilə birlikdə köçüb qonşu Göyçə mahalında yaşamışlar. Bu barədə Fərman Kərimzadənin "Vedinin yanı dağlar" əsərində də bəhs edilmişdir.

İmişlinin Şahverdili kəndində yaşayan məşhur pambıqçı, Sosialist Əməyi Qəhrəmanı **Pənah Həsənov** əslən Vedibasar mahalının Böyük Gilanlar kəndindən idi və 1949-cu ildə buradan Azərbaycana deportasiya olunmuşdular.

**Fərrux Həsən oğlu Həsənov** da Şahverdili kəndinə köçürülənlər arasında idi. O, 1948-ci ildə Böyük Gilanlar kəndində anadan olmuşdur. 1988-ci ildən pedaqoji elmlər namizədi idi.



## BÖYÜK VEDİ (VEDİ)

Vedibasar mahalının aran hissəsində, Ağrıdağ vadisində, İrəvan şəhərindən 49 km aralıda, Vedi çayının kənarında qəsəbə. Vedibasar mahalının və Vedi rayonunun inzibati mərkəzi. İrəvan-Naxçıvan-Bakı dəmiryol xəttinin Vedi rayonu ərazisindəki Şirazlı stansiyasından 7 km-lik məsafədə yerləşirdi.

1828-ci ilə qədər kənddə ancaq Azərbaycan türkləri (2 erməni ailəsi istisna olmaqla) yaşamışlar. 1828-ci ildə kəndə həm də ermənilər köçürülmüşlər. Sonralar ermənilər kənddən çıxarılmış, 1920-ci ilə qədər yenə də kənddə ancaq azərbaycanlılar yaşamışlar. 1920-1988-ci illərdə isə kənd azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuşdur. 1988-ci ildə kənd tamamilə erməniləşdirilmişdir.



**Böyük Vedi kəndinin ümumi görünüşü**

Böyük Vedi kəndinin nə vaxtdan salındığı barədə dəqiq məlumatımız yoxdur. Yazılı mənbələrdə bu ada ilk dəfə 1514-cü il hadisələri ilə bağlı "Sultan Səlimin səfər ruznaməsi"ndə rast gəlirik. Şah İsmayılın üstünə ordu yeridən Sultan Səlimin qoşunları həmin il iyul ayının 26-da məhz **Böyük Vedi kəndi** ilə ondan 15 km uzaqda yerləşən Kiçik Vedi kəndi arasındakı geniş ərazidə çadır vurub düşərgə salmışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) Vedi nahiyəsinin **Böyük Vedi kəndi,** "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə həmin nahiyənin **Vedi kəndi** şəklində qeyd edilmişdir. İkinci dəftərdə kənddən dövlətin müxtəlif vergilər şəklində

il ərzində 22.000 ağça gəlir götürdüyü göstərilmişdir. 1728-ci ilə aid türk mənbələrində Böyük Vedi – Kiçik Vedi toponimləri **Vadi Kəbir** və **Vadi Saqir** kimi yazıya alınmışdır.

İ.Şopenin 1832-ci ilə aid məlumatlarında kəndin adı **Vedi-Uliya** ("**uliya**" ərəbcə "**yuxarı**" anlamındadır) kimi göstərilmiş, kənddə 131 ailədə 799 nəfər (441 kişi, 358 qadın) müsəlman və cəmi 2 ailədə 15 nəfər (9 kişi, 6 qadın) yerli ermənінin yaşadığı qeyd olunmuşdur. Yeri gəlmişkən, həmin 15 nəfər İrəvan xanlığının Rusiya tərəfindən işğalına qədər Vedibasar mahalının bütün ərazisində yaşayan yeganə ermənilər idilər. Türkmənçay müqaviləsindən sonra isə bölgəyə İrandan yeni-yeni erməni ailələri köçürülməyə başlanıldı. Buna görə də 1832-ci ilin məlumatına görə, Böyük Vedidə həm də artıq 98 ailədə 430 nəfər (220 kişi, 210 qadın) İran ermənisi qeydə alınmışdır. Lakin sonrakı illərin (1873, 1886 və s.) statistik məlumatlarmda kənddə heç bir ermənінin qeydə alınmaması söyləməyə əsas verir ki, yerli əhali həmin erməni ailələrinin tezliklə kənddən çıxarılınalarına, başqa kəndlərdə məskunlaşdırılmalarına nail ola bilmişlər.

Kəndin adının ərəbcə **vadi** sözündən əmələ gəlməsi ehtimal olunur. Biz də əvvəllər tədqiqatlarımızda bu ehtimalı müdafiə etmişik. Doğrudan da, əgər vadi sözünün anlamı "iki dağ arasında böyük, uzun çuxur, düzən"dirsə, onda mahalın coğrafi mövqeyi onun Vedi (Vadi) adına tamamilə uyğun gəlir. Kənd həqiqətən də tarixən İrəvan çuxuru adlanan böyük vadinin **Vedi çuxuru** adlanan kiçik vadi hissəsində yerləşirdi. Lakin Şimali Qafqazda XIX yüzildə Vedena əyalətinin, Kutaisi quberniyasının Leçxum qəzasında isə Vedi kəndinin mövcudluğu və s. bu kimi ciddi faktlar bu ehtimalı bir qədər şübhə altına alır.

Xüsusilə Nuhun tufanı və Vedibasar ərazisində dünyada ilk beş bütdən biri olan **Vaddın** bütünün tapılıb ona sitayiş edilməsi barədə məlum rəvayət bu adın ən qədim mənşəyi haqqında ilkin bilgilər verir. Ərazinin Vedi (Vadi) adı isə, bizcə, Vadd adının ərəb təsirinə məruz qalmış yeni formasıdır. Biz bu etimoloji izahın tərəfdarıyıq və bu barədə bu kitabın əvvəlindəki geniş oçerkdə ətraflı bəhs etmişik. Bəzi ehtimallara görə isə Vedi adı **uti//eti** tayfa adının əvvəlinə türk dillərinə xas olaraq **v** səsinin artırılması ilə yaranan addır. Yəni qədim uti//udi tayfalarının yaşadığı ərazi... Urartu mənbələrində Göyçə gölünün cənubundakı Qərbi Azərbaycan torpaqlarının ümumi adının **Etiuni** olması da xeyli ciddi faktdır.



1873-cü ildə Böyük Vedi kəndində 241 ailədə 1743 nəfər (890 kişi, 853 qadın) Azərbaycan türkü yaşamışdır.

1886-cı ildə kəndin azərbaycanlı əhalisi 286 təsərrüfatda 2110 nəfər (1133 kişi, 977 qadın) olmuşdur. Onlardan 360 nəfərini (186 kişi, 174 qadın) Vedi bəylərinin ailə üzvləri təşkil etmişlər. Kəndin iqtisadiyyatının əsasında əkinçilik və heyvandarlıq dayanmışdır. Belə ki, kəndin 1556,13 desyatin torpaq sahəsinin 24,98 desyatinini malikanə torpaqları, 52,55 desyatinini bağ sahələri, 1360 desyatinini suvarılan, 8 desyatinini suvarılmayan əkin yerləri təşkil etmişdir. Kənd əhalisinin 1080 iribuynuzlu, 2180 xırdabuynuzlu mal-qarası, 82 atı olmuşdur.

Böyük Vedi kəndinin Əyricə yaylağında **Yalyurd, Qaragölyurd, Daşlı-Güneyyurd, Güneyyurd, Aylıyurd, Alagözdağ yurdu, Qaraçıyurd (Topdaş), Dərəyurd, Düzyurd, Sultanyurd** adlı yurdları olmuşdur. Böyük Vedi camaatı kənddən 45 verst aralıda yerləşən və 1240 desyatin ərazini əhatə edən bu yurdlardan qədimdən istifadə etmişdir.

Məşhur Şadlı bəylərindən Bala Sultana məxsus olan Sultanyurdda camaat **Sultan bulağı** və **Buzovlu bulağı** başında yurd salardı. Bulaqların suyu **Əyriçaya** tökülər, oradan da Göyçə gölünə axardı.

Kəndin **Ağsu-ağıl** deyilən yerdə 750 desyatin, **Talasovan-ağıl** deyilən yerdə 350 desyatin, **Qaş-ağıl** (Qaraquzey) deyilən yerdə 425 desyatin qışlaqları olub.

Bundan əlavə, kənd camaatının Böyük Vedi yaxınlığındakı **Ağsu-ağıl** adlanan ərazidə 40 desyatin otlaq yeri də olub və üstəlik, adamlar Şadlinski bəylərinin kəndin yaxınlığındakı torpaqlarından hər qış mövsümü 230 rubla olmaqla qış otlaq sahəsi icarəyə götürürmüşlər.

1905-ci ildə kənddə 2387 nəfər, 1914-cü ildə 246 nəfər azərbaycanlı yaşamışdır.

1917-ci ildə Abbasqulu bəy Şadlinskinin başçılığı ilə Vedibasar Komitəsi adlı Milli Hökumət və onun silahlı qüvvələri – "Mübariz dəstə" məhz Böyük Vedidə yaradılmış və buradakı ikimərtəbəli rus-tatar məktəb binasmm bir hissəsində yerləşdirilmişdir.

1920-ci ilin yayında süqut edən Böyük Vedi həmin ilin sonlarında Abbasqulu bəy Şadlinskinin "Qırmızı tabor"u tərəfindən erməni işğalçılarından azad edilmiş, Qərbi Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra kənd camaatı qaçqınlıqdan yavaş-yavaş geri – doğma yurd-yuvasına qayıtmağa başlamışdır.

Erməni daşnaklarına qarşı qəhrəmanlıqla döyüşdüklərinə görə "Qırmızı Bayraq" ordeninə layiq görülmüş 19 nəfər "Qırmızı tabor"çudan bir neçəsi – **Abbasqulu bəy Şadlinski, Xəlil Mehdiyev, Abbas Əjdərov, Müseyib Əhmədov, Muxtar İbrahimov** məhz Böyük Vedidən olmuşlar.

Sovet hakimiyyətinin ilk illərində sühacirlikdən geri qayıdan azərbaycanlı əhalinin sayı 1504 nəfər olmuşdur. Lakin bu vaxt "Sovet Ermənistanı"nın erməni rəhbərliyi bütün strateji məntəqələr kimi, Böyük Vedi kəndində də xaricdən gələn çoxlu erməni yerləşdirməyə çalışırdı. 1922-ci ildə Böyük Vedidə belə ermənilərin sayı artıq 453 nəfərə çatdırılmışdı.

1921-ci ilin ortalarında Vedi nahiyə zəhmətkeşlərinin nahiyə inqilab komitəsi, həmçinin Böyük Vedi kənd inqilab komitəsi təşkil edildi. Həm nahiyə, həm də kənd inqilab komitələrinin mərkəzi Böyük Vedi kəndi oldu.

1926-cı ildə kənddə 1545 nəfər azərbaycanlı, 261 nəfər erməni, 1931-ci ildə 1254 nəfər azərbaycanlı, 214 nəfər erməni yaşamışdır.

1930-cu il sentyabrın 9-da keçmiş Vedibasar mahalının, Vedi nahiyəsinin ərazisində Vedi rayonu təşkil edilmiş, Böyük Vedi də rəsmi olaraq bu rayonun inzibati mərkəzi seçilmişdir.

1946-cı il aprelin 4-də Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə Böyük Vedi kəndinin adı dəyişdirilərək Vedi kəndi qoyulmuşdur.

1948-1953-cü illər köçürülməsi zamanı Vedi rayonundan birincilər sırasında köçürülməsi nəzərdə tutulan kəndlərdən biri də Böyük Vedi olmuşdur. 1949-cu ildə kəndin azərbaycanlı əhalisi bütünlüklə Azərbaycana köçürülmüşdür. Həm də maraqlıdır ki, bu camaatın bir yerə köçürülməsinə məqsədli şəkildə mane olmuş, camaatı Beyləqan, İmişli, Bərdə, Şəmkir və b. rayonlara səpələmişlər.

İ.Stalinin ölümündən sonra kənd əhalisinin bir hissəsi – 122 ev geri qayıda bilmiş və təzədən dədə-baba yurdlarında məskunlaşmışlar. Lakin ermənilərin düşünülmüş siyasəti nəticəsində onlar tədricən sıxışdırılıb çıxarılmış, 1968-ci ildə kənddə cəmi 45 ev azərbaycanlı qalmışdı.



1963-cü ildə kəndə şəhər tipli qəsəbə statusu verilmişdir.

1972-ci ildə Böyük Vedi qəsəbəsində əhalinin ümumi sayı 963 ailədə 5624 nəfərdən ibarət olmuşdur.

1988-ci ildə Böyük Vedi qəsəbəsi əhalisinin sayı 10 min nəfərə yaxın idi. Bu vaxt qəsəbədə azərbaycanlılar xeyli azlıqda qalmışdılar. Qəsəbədə cəmi 40 təsərrüfat azərbaycanlı yaşayırdı. Həmin il Böyük Vedi azərbaycanlılarının başı üstünü yeni təhlükə aldı, erməni millətçiləri onları bu dəfə açıq-aşkar zorakılıqla öz doğma yurd-yuvalarından qovub-çıxardılar.

Kənd sakini Hüseyn Həsənovun evini yandırıb, özünü də məcbur etmişdilər desin ki, guya evini özü yandırıb. Bundan sonra Hüseyn qəsəbəni tərk etmişdi. Məhərrəm Haqverdiyevin mənzilinə hücum çəkmişdilər. Güc-bəla canını qurtarıb M.Haqverdiyev dörd otaqlı mənzilini Bakıdan gələn erməninin evi ilə dəyər-dəyməzinə dəyişməyə məcbur olmuşdu. C.Abbasovun, A.Məmmədəliyevin, İ.Rəhimovun, A.Məmmədovun və b.-nın qabağını kəsib rayonu təcili tərk etmələrini tələb eləmişdilər.

* * *

Böyük Vedi qəsəbəsi Vedibasar mahalının mərkəzində, mahalın dağlıq Millidərə, Cığındərə, Çanaxçıdərə bölgələri ilə düzənlik hissəsini birləşdirən yolların tən ortasında və kəsişmə yerində yerləşməklə inzibati mərkəz funksiyasına tam uyğun gəlirdi. Buradan mahalın hündür zirvələri – günbatanda Böyük və Kiçik Ağrı dağları, gündoğanda Qaraquzey, şimalda Ağdağ, Qaraquzeylə Ağdağın arasında Kotuz dağı apaydın görünürdü.

Kəndin mərkəzində diametri 1000 metr olan iri bir təpə vardı, adına **Qalabürc** deyərdilər. Əsrin əvvəllərində buradakı qala hələ dururmuş. Oradan baxanda Böyük Vedinin bütün evləri, məhəllələri ovuc içi kimi görünürmüş. Qalaça enli və uca palçıq divarla əhatə edilmiş və üç tərəfdən giriş-çıxış qoyulmuşdu. 1918-20-ci illərdə Abbasqulu bəy Şadlinski erməni daşnaklarına qarşı ən ağır döyüşləri buradan idarə etmiş, bu yerdə dəfələrlə ağır döyüşlər aparmış, qələbə çalmışdı. Vedi uğrunda sonuncu döyüşü də o, bu-

radan idarə etmiş, qeyri-bərabər döyüşdə hərbi sursatın tükəndiyini görüb, Vedini müvəqqəti tərk etməyə məcbur olmuş, üç illik qəhrəman mübarizədən sonra Şərura doğru geri çəkilmişdi. Qala da elə o vaxt uçulub-dağıdılaraq təpə əmələ gətirmişdi.

Böyük Vedi qəsəbəsinin şimal qurtaracağındakı sarı torpaqlı təpə **Sarı dolama** adlanırdı. Burada qədim Sarıdolama qəbiristanlığı yerləşirdi. Bu təpənin başı üstündə uzanıb dövrə vuran silsilə qayalıqlara **Gavur** (Vedibasarda **kafir** sözü **gavur** kimi tələffüz olunurdu) **qalası** deyilirdi. Bura təbii bir istehkam idi. 1918-1920-ci illərdə Böyük Vedi kəndi daşnakların hücumlarına məruz qalanda Abbasqulu bəyin başçılıq etdiyi Vedibasar özünümüdafiə qüvvələri dəfələrlə burada düşməni darmadağın etmişdi.

Narıncı rəngə çalan Gavurqala qayalıqlarındakı böyük meydanın bir tərəfində qaralan kaha ağzı vardı. Bu mağara **Divlər otağı** adlanırdı. Əslən Böyük Vedidən olan ölməz yazıçımız Fərman Kərimzadə həmin mağara ilə bağlı uşaqlıq yaddaşında qalanları belə xatırlayırdı: "Heç kim o mağaraya enməmişdi. Şam yandırıb gedəndə də dərhal sönürdü. Uşaqların oraya getməsini istəməyən yaşlı adamlar deyərdi: "Mağarada div oturub. O üfürüb şamı söndürür..."'

Günbatana doğru uzanan sıldırım qayalardan birinin içərisi boş idi ki, bu da **Göyərçinlər otağı** mağarası adlanırdı. Görünür, mağaranın bu adı orada həmişə çoxlu yarasa və göyərçinlərin olması ilə bağlı idi.

Gavur qalasının açılıb düzənliyə çıxan tərəfi isə qayalar və iri daşlarla hörülmüş hasarla kəsilmişdi. Bunun vaxtilə burada məskən salmış qədim insanların müdafiə istehkamı olduğu ehtimal edilirdi.

Gavur qalasının Ağdağa doğru uzanan hissəsi narın qumla örtülü olduğundan bura **Qumluq**, Gavur qalasının **Qumluğu**, **Qumlucası** da deyirdilər.

Gavur qalasının yenə günbatan tərəfində qayaların arasındakı dərə ilə çay axırdı. Həmin çaya **Qotur bulağının** mineral suyu qarışdığından dərə **Qoturbulaq dərəsi** adlanırdı. Çayın suları daşların rəngini ağappaq eləmişdi. Çayyuxarı qalxanda çayın kənarında qırmızı rəngli qayalar görünürdü. Çox güman ki, bu, Qoturbulağın mineral suyunun tərkibində dəmirin çoxluğu ilə bağlı



olmuşdur. Bir qədər aralıda isə Qotur bulağı yerləşirdi. Bu bulaq bir çox dərdlərin dərmanı olan müalicəvi suya malik idi. Xüsusilə qotur xəstəliyinin sağalması üçün əvəzsiz olduğundan bu adı almışdı. Ərazidə heç bir yaşıllığın olmaması da bu bulağın Qotur adlanmasına səbəb ola bilərdi. Çox sonralar bu bulağın suyu "Ararat" adı ilə istehsal olunub, mineral su kimi satışa buraxıldı.

Qoturbulaq dərəsinin girəcəyində **Damdıra** adlı qaya da vardı. Daşla çalınanda bu qaya çox qəribə, məhz tambur səsinə yaxın gur səs çıxarırdı ki, onu Qobustandakı Qavaldaşın əkiz qardaşı hesab etmək olar.

Bu yerlərdən bir qədər yuxarılarda isə **Süzəni dölləyi** deyilən yer vardı. Yaylaqqabağı Əyricə yaylağına yaz gec gələndə qoyunları burada saxlayardılar. Belə vaxtlar qoyunların döl mövsümü bura düşərdi. Yerin döllək adı da buradan əmələ gəlmişdi. Süzəni dölləyəndən Millidərəyə doğru uzanan yol isə **Allah-Əkbər** dağına gedirdi.

Sarı dolama təpəsini Cığındərə tərəfə aşanda isə Daşlı kəndinə çıxırdı...

Böyük Vedidə ilk yeni tipli ikisinifli rus-tatar məktəbi 1883-cü ildə qlava Ağa Süleymanovun təşəbbüsü ilə onun evində açılmışdı. Bu məktəbin yetirmələrindən **İlyas bəy Mahmudbəyov, Şəmdin bəy Mahmudbəyov, Fərəməz bəy Mahmudbəyov, Baxşəli Mahmudbəyov, Ağarza Mahmudbəyov, Ağamirzə Mahmudbəyov, Seyfulla Süleymanov, Cəfər Kərimov, İsa Mahmudbəyov, Eynulla Mahmudbəyov, Mikayıl Mahmudbəyov** və b. Qori və ya Qazax seminariyalarını, **Məmməd Mahmudov, Müseyib Mahmudov, Əli Eyvazov, Nəsrulla Zal oğlu, Abdulla Kərimov** və b. İrəvan gimnaziyasını bitirmişdilər.

**Şəmdin bəy, İlyas bəy, Molla Mirzə Abdulla, Fərəməz bəy Mahmudbəyov, Baboş bəy, Əli Eyvazov** və b. Böyük Vedidəki rus-tatar məktəbində müəllimlik etmişdilər.

Bütün Qərbi Azərbaycanda ilk qız məktəblərindən biri də (bəlkə birincisi) məhz Böyük Vedidə, **Bilal Paşayevin** evində açılmışdı. Məktəbin müəlliməsi **Həqiqət xanım Abbasova** idi. Həmin Həqiqə xanım ki, Vedidə ilk Qırmızı Əmək Bayrağı ordeni alanlardan idi. Sonralar raykomda işləmiş, 1941-1945-ci illərdə isə Böyük Vedidə uşaq evinin müdiri olmuşdu.

Sovet hakimiyyəti illərində Böyük Vedidə əvvəl bir, sonra iki azərbaycanlı orta məktəbi fəaliyyət göstərmişdi. 1948-1953-cü illər deportasiyasından sonra bu məktəblər erməni məktəbinə çevrildi.

Böyük Vedidə həmçinin 4 dəyirman olub. Onlardan 2-si Vedililər tayfasına, 2-si isə Balayevlərə məxsus idi. **Həsən bəy Balayevin Məhəmməd bəy, Əhməd bəy** və **Yüzbaşı bəy** adlı üç oğlu vardı.

Böyük Vedidə 5 qəbiristanlıq vardı. **Mahmudlu qəbiristanlığı** kəndin yuxarısında, Gavur qalasının yaxınlığında, **Kosanlı qəbiristanlığı** kəndin aşağısında, **Vedililər qəbiristanlığı** Qalabürcün dəyirmanları tərəfdə yerləşirdi. **Paskilərin** isə iki **qəbiristanlığı** vardı: biri kəndin içində, digəri Sarı dolamada.

Kosanlı və Paskili qəbiristanlıqlarınm hər birində 3 ədəd qoç heykəli 1948-1953-cü illər köçürülməsi zamanı hələ də dururdu. Bu heykəllər canlı qoç boyda olub, burma buynuzlu idilər. Sonralar ermənilər qəbiristanlıqlarla birlikdə bu heykəlləri də məhv edib, izlərini itirdilər.

Paskili məhəlləsində 2 məscid, Vəliuşağı məhəlləsində 1 məscid, Vedililər məhəlləsində 2 məscid fəaliyyət göstərirdi. Bu məscidlərdə **Şeyx Qəmbər, Şeyx Əli, Molla Məhəmmədtağı, Kəlbə Əhməd, Molla Hüseyn Nuriyev** kimi din xadimləri otururdu. Təəssüf ki, sovet dövründə həmin məscid binalarının birini MTS-ə, digərini ambara çevirdilər. O birilər isə zaman-zaman uçulub-dağıldı. Təkcə Vəliuşağı məscidi 1988-ci ilə qədər qalmaqda idi. O da daha fəaliyyət göstərməsə də, kəndin azərbaycanlıları onu qoruyub saxlayır və ziyarət edirdilər.

Böyük Vedi kəndində **Mirəli ocağı** adlı ziyarətgah da mövcud olmuşdur. Ocaq onun sahibi Mirəli ağamn adı ilə adlanırdı. Mirəli ağanın qəbri kəndin yuxarısında yerləşirdi. 1948-1953-cü illər deportasiyasına qədər Ocaq fəaliyyət göstərirdi. Deportasiya zamanı Mirəli ağanın övladları Beyləqana köçürüldüyündən sonralar oğlanları gəlib seyidin qəbrini və ocağını köçürüb aparmışdılar. Mirəli ağanın oğlanları: Mir Kazım, Mir Həsən, Mir Hüseyn. Digər oğlu Mir Əziz isə Böyük Vətən müharibəsində həlak olmuşdu.

Böyük Vedi kəndində kolxoz qurulanda əvvəl kolxoz sədri məşhur "Qırmızı tabor"çu **Xəlil Mehdi oğlu** olur. Sonra burada iki kolxoz fəaliyyət göstərir. **Qəşəm Əliyev, Məhəmmədəli



Hüseynov, Abbas Məmmədəliyev, Ağa Əliyev, Abbasqulu Kazımov** (o həm də Qaralar kəndində kolxoz sədri işləyib), **Əli Vəliyev, Məhəmməd Allahyarov** və b. bu kolxozlara sədrlik ediblər.

**Oruc Hüseyn oğlu Şumalov** 1930-cu ildə İrəvan Pedaqoji Texnikumunu bitirmiş, Yellicə kənd məktəbində əvvəl müəllim, sonra direktor işləmiş, 1936-1942-ci illərdə Qarabağlar RPK-də şöbə müdiri vəzifəsində çalışmışdır. Böyük Vətən müharibəsində zabit kimi iştirak etmiş, Berlinə qədər döyüş yolu keçmiş, onlarla orden və medallarla təltif olunmuş, müharibədən qayıdıb, 1951-ci ilə qədər Vedi rayon milis şöbəsində kapitan rütbəsi ilə cinayət axtarışı şötəsində çalışmış, sonuncu tarixdə Azərbaycana deportasiya olunaraq Beyləqan rayonunun 1-ci Şahsevən kəndində məskunlaşmışdır. 1952-1972-ci illərdə Ağcabədi rayonunun Üzeyirkənd kəndində sahə müvəkkili, 1972-1974-cü illərdə həmin kənddə sovet sədri işləmiş, 1994-cü ildə Beyləqan rayonunun 1-ci Şahsevən kəndində vəfat etmişdir.

## KƏNDİN TAYFALARI

**Şadlılar və Şadlinskilər.**

**Şad** sözünə titul və tayfa adı mənasında qədim mənbələrdə – Şumer, Asur, Urartu, hətta Orxan və Çin qaynaqlarında dönə-dönə rast gəlmək mümkündür. Bu məsələ ilə ilgili dəyərli araşdırmaları olan professor F.Ağasıoğlu sübut edir ki, "Şadılı tayfaları ən qədim türk boylarındandır". Lakin Vedibasar ərazisində bu etnonim və toponim məhz Xəzər xaqanlığının şahzadəsi – Cebu Xaqanın oğlu Şadın VII yüzilin 1-ci yarısında bu bölgəyə gəlişindən sonra tarix səhnəsində görünmüşdür. Vedibasar ərazisində Şəddadilər dövlətinin əsasını qoyan **Şadlılar** tayfası Azərbaycan tarixinə, həm də **Aslan Sultan Şadlı** kimi böyük diplomat, **Abbasqulu bəy Şadlinski** kimi xalq qəhrəmanı, böyük sərkərdə, **Nəsrulla bəy Şadlinski** kimi hərbçi bəxş etmişdir. Vedibasar mahalında ən çox torpaq, mal-mülk, var-dövlət sahibi olan Şadlinski bəylərinin Böyük Vedi, Ağasıbəyli, Heyranıs, Zimmi, Yuxarı Qarabağlar, Küsüs və b. kəndlərin ərazisində çoxlu torpaq sahələri olmuşdur.



Vedibasar maarifində xüsusi yeri olmuş **BİLAS HEYDƏR OĞLU ŞADLİNSKİ** də bu nəsildəndi. O, 1920-1921-ci illərdə "Qırmızı tabor"un tərkibində erməni daşnaklarına qarşı vuruşmuş, 1947-ci ilə qədər Vedi rayonunun müxtəlif məktəblərində müəllimlik etmiş, rayonun Kotuz, Avşar, Çimən, Böyük Vedi və s. kəndlərində məktəb direktoru işləmiş, "Zərbəçi müəllim" (1932), "Əlaçı müəllim" (1939), "Əməkdar müəllim" (1940) fəxri adlarına layiq görülmüşdür. 1948-ci ildə isə ailəlikcə Şəmkir rayonuna deportasiya olunmuş, burada Lenin qəsəbə orta məktəbində direktor müavini, Aşağı Seyfəli natamam orta məktəbində uzun illər direktor vəzifələrində çalışmışdı. 1949-cu ildə "Qırmızı Əmək Bayrağı", 1954-cü ildə "Lenin" ordenləri ilə təltif edilmişdir.

Oğlanlarından **Vaqif Şadlinski** və **Azər Şadlinski** haqqında kitabda ayrıca bəhs edilmişdir.

Bu nəsildən Abbasqulu bəy Şadlinskinin qardaşı Bəhlulun qızı **Xırda Şadlinskaya** 1964-cü ildə Azərbaycanın Əməkdar müəllimi fəxri adına layiq görülmüş, 1972-1992-ci illərdə Bərdə rayonunun 4 saylı orta məktəbinin direktoru olmuşdur.

**Qızılanlılar.**

Vedibasar mahalı ərazisində ən qədim tayfalardan biri də Qızılanlılar olmuşlar. Təsadüfi deyil ki, bu bölgədə "**qızıl**" komponentli çoxlu toponimlər qeydə alınmışdır. Şadlılar tayfası ilə bir kökdən olan bu tayfa haqqında professor **F.Ağasıoğlunun (Cəlilovun)** qiymətli araşdırmaları mövcuddur. F.Ağasıoğlu özü də Qızılanlılar tayfasındandır.

**Mahmudlular.**

Bu tayfa əsasən Mahmudlu bəylərindən ibarət idi. **Şəmdin bəy, Türmən bəy, Mürşüd bəy, Əhməd bəy, Məcid bəy, Müseyib bəy, İdris bəy, Abo bəy, Fərəməz bəy, Təvəkkül bəy** bu tayfanın sayılıb-seçilən nümayəndələri idilər. Mahmudlu tayfasının adı onun nümayəndələrinin Mahmudbəyov soyadında indiyə qədər də yaşamaqdadır.



Məşhur kinorejissor **Şamil Mahmudbəyov** bu nəsildəndir.

**Paskilər.**

Əsasən aşağıdakı qollardan ibarət olublar: **Zeynallılar, Nurməmməd uşağı, Orucməmməd uşağı, Çobanzadələr, Süleyman uşağı, Qasım uşağı, Kəlba Həbib uşağı, Abuzər uşağı** və s. Paski tayfasından **Cəmil Cabbar oğlu Əliyev** "Qırmızı tabor"-da döyüşmüş, uzun müddət Çimənkənddə sovet sədri, Böyük Vedidə kolxoz sədri işləmiş, 1951-ci ildə Beyləqanın Daşburun kəndinə köçmüşdür. Qardaşı **Cəlil Cabbar oğlu Əliyev** və övladları haqqında kitabda ayrıca bəhs edilmişdir.

**Çobanzadələr.**

**Bayram Çobanzadə** bu tayfadan idi. Vedidə xeyli müddət məktəb direktoru, rayon qəzetinin redaktoru işləmişdi. Sonra İmişliyə köçürülmüş, burada qəzet redaktoru, rayon icraiyyə komitəsinin sədri, raykom katibi və s. vəzifələrdə çalışmışdı.

**Süleyman uşağı.**

Vedinin qlavası **Ağa Süleymanovun** nəsli idi. Uzun müddət Vedinin qlavası olan A.Süleymanov Böyük Vedidə ilk rus-tatar məktəbini açmaqla yanaşı, övladlarına da mükəmməl Avropa təhsili vermişdi. Böyük oğlu **Ağamirzə bəy** Peterburqda ali mühəndis təhsili almış, sonralar Naxçıvanın duz mədənlərinin və Vedibasardakı Dəvəli sement zavodunun tikilib istifadəyə verilməsində xüsusi xidmətləri olmuşdur. Digər oğlu **Seyfulla Süleymanov** haqqında kitabda ayrıca bəhs etmişik.

**Sadıq Süleymanov, Əziz Süleymanov** kimi dəyərli şəxsiyyətlər də bu nəsildən çıxmışlar. **İnqilab Sadıq oğlu Süleymanov** Böyük Vətən müharibəsində şərəfli döyüş yolu keçmiş, deportasiyadan sonra Şəmkir rayonunda maarif müdiri işləmişdir.

**Qasım uşağı.**

Bu nəsil, əslində, **Allahqulu, İmanqulu** və **Tanrıqulu** adlı üç qardaşdan başlayır. Onlardan İmanqulunun **Əli**, Əlinin **Qasım,** Qasımın isə **İman** adlı oğlu olmuşdur. Qasım dünyasını er-

kən dəyişdiyindən oğlu İman Böyük Vedidə **Yetim İman** ləqəbi ilə tanınmışdır. Böyük Vedidə məşhur Şükür bəyin qızı **Vəsmə xanımla** ailə quran İmanın oğlu **Eylas Qasımov** uzun illər İmişlidə hüquq-mühafizə sistemində çalışıb, polis mayoru rütbəsinə yüksəlmişdir. Oğlu **Aydın Qasımov** general-mayor rütbəsində Azərbaycan xalqının və dövlətinin xidmətindədir.

**Kəlba Həbib uşağı.**

**Kəlba Həbib** Böyük Vedinin sayılan adamlarından idi. Fars və rus dillərini mükəmməl bilirdi. Övladlarından **Bəhlul Yusifov, Nəriman Yusifov** və Bəhlul Yusifovun oğlu **Yusif Yusifov** haqqında kitabda ətraflı bəhs edilmişdir. Kəlba Həbibin digər oğlu **Ağarza Yusifov** "Qırmızı tabor"un tərkibində erməni daşnaklarına qarşı qəhrəmanlıqla döyüşmüş, Böyük Vətən müharibəsinin iştirakçısı olmuş, qayıdıb bir müddət Bakıda Mənzil İstismar İdarəsinin rəisi, sonra isə uzun müddət Meşə Təsərrüfatı Nazirliyində baş aqronom işləmişdir. Övladları **Bağır Yusifov** və **Mais Yusifov** Bakıda müxtəlif məsul vəzifələrdə çalışmışlar.

Kəlba Həbibin dördüncü oğlu **Telman Yusifov** Bakı şəhər Şampan zavodunun tikintisini başlayıb, tamamlamış, istifadəyə verildikdən sonra uzun illər burada təchizat şöbəsinin müdiri işləmişdir.



Bu nəsildən **FƏRMAN NƏSİB OĞLU YUSİFOV** 1927-ci ildə anadan olmuş, Böyük Vətən müharibəsində zabit kimi döyüşmüş, qayıdıb Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini bitirmiş, uzun illər Naxçıvanda, Ağdamda, Bakıda rayon və şəhər prokuroru işləmiş, 2001-ci ilin dekabrında dünyasını dəyişmişdir. Övladlarından **RƏHMAN FƏRMAN OĞLU YUSİFOV**







Qaradağ rayon İH başçısının müavini, **Rizvan Yusifov** texnika elmləri namizədi, Azərbaycan Neft Akademiyasının müəllimi, **AKİF YUSİFOV** gömrük işçisidir.

**Abuzər uşağı.**

**Əli Abuzər oğlu** "Qırmızı tabor"un fəal üzvlərindən olub. Böyük oğlu **Şiruyə** hazırda Daşburunda yaşayır.

**Orucməmməd uşağı.**

Paski tayfasından olan bu nəsil öz adını Orucməmməd adlı şəxsdən almışdır. Nəslin nümayəndələrinin dediyinə görə, Orucməmməd Nadir şahın qoşunlarında minbaşı vəzifəsində xidmət etmişdir. Nadir şahın ölümündən sonra vaxtilə şahın ona bağışladığı Arazqırağı kəndə gələrək burada yaşamışdır. Həmin kənd Orucməmməd adı ilə indi də Araz çayının sağ sahilində, İran ərazisindədir. Anası öldükdən sonra Orucməmməd oğlu Şahsuvarı da götürüb kəndi tərk etmiş, bir müddət Gəncə yaxınlığındakı Şadılı kəndində yaşamış, sonra Vediyə qayıtmışdır. Şahsuvar da öz oğluna Orucməmməd adını vermişdir. Bu Orucməmmədin iki oğlu olmuşdur: **Məmməd** və **Abbas**. Məmməd Kərbəlanı ziyarət etmiş, dünyasını erkən yaşında dəyişmişdir. İki oğlu qalıb: **Kazım** və **İsmayıl**. Məşhur yazıçı **Məmməd Oruc** həmin Kazımın oğludur. İsmayıl isə 1940-cı ildə siyasi əqidəsinə görə represiyaya məruz qalmışdır. Üç oğlu var: **Cəlal, Ayaz, Akif.**

Abbasın üç oğlu olub: **Həsənalı, Həsən, Hüseyn. Hüseyn Orucov** fizika-riyaziyyat elmləri namizədidir.

**Məhəmməd uşağı.**

"Qırmızı Bayraq" ordenli "Qırmızı tabor"çu **Müseyib Əhmədov** bu tayfadan idi. O, Böyük Vedi rus-tatar məktəbini və İrəvan gimnaziyasını bitirmişdi. Sovet hakimiyyətinin ilk illərində Qarabağlar kəndinin sovet sədri işləyən M.Əhmədov 1928-ci ildən Vedi rayon mədəniyyət şöbəsinə rəhbərlik etmişdi. 1930-cu ildə Vedi RPK-nın 2-ci katibi vəzifəsinə təyin olunandan bir ne-

çə gün sonra işdən evə dönərkən qəfil güllə ilə qətlə yetirilmişdi. Abbasqulu bəy və Xəlillə eyni sırada dəfn edilmişdi. Nəvənəticələri Abşeronun Kürdəxanı kəndində yaşayırlar.

**Nurməmməd uşağı.**

Bu nəslin əldə olan şəcərəsi **Kərbəlayı Allahverdidən** başlayır. Onun **Nurməmməd** və **Xamo** adlı 2 oğlu, Nurməmmədin isə 7 oğlu olub. Bu nəsil həmin 7 qardaşın törəmələridir. Məşhur "Qırmızı tabor"çu **Həmid Nuriyev** həmin 7 qardaşdan biri idi. H.Nuriyevin oğlu **MƏCİD NURİYEV** respublikanın Əməkdar məşqçisi, Fəxri Bədən tərbiyəsi işçisidir və hazırda Abşeron rayonunun Xırdalan qəsəbəsində yaşayır.



1925-ci ildə Böyük Vedidə anadan olan M.Nuriyev 1941-ci ildən Vedi RİK yanında Bədən tərbiyəsi və İdman komitəsinin sədri işləmiş, 1943-1945-ci illərdə müharibə iştirakçısı olmuş, 1950-ci ildə Azərbaycana deportasiya edilmişdir. O, həm də futbol üzrə respublika dərəcəli hakim, SSRİ-nin Bədən tərbiyəsi əlaçısıdır.

**Kələşlilər (Kələşovlar).**

**Əlihüseyn Kələşov** Vedi rayonunun İcraiyyə Komitəsinin sədri işləmişdi. **Məşədi Paşa** Vedidə çox güclü pəhləvan olmuş, heç kəs onun dizini, biləyini qatlaya bilməmişdi. Dəyirmanı təmir etmək lazım gələndə 500 kq-lıq dəyirman daşını təkcə götürüb qırağa qoyarmış.

**Vəli uşağı.**

**Şıxəlioğlu nəsli** bu tayfadandır. **İsmayıl Şıxəli oğlu** "Qırmızı tabor"çu olmuş, 1930-cu illərdə Vedidə milis rəisi işləmişdi. Onun oğlu, məşhur yazıçı **Fərman Kərimzadə** bu nəsildən idi.

Çar dövründə Vedinin qlavası olmuş **Qlava Məmməd**, görkəmli partiya-dövlət xadimi **İsgəndər Xudaverdiyev**, onun oğlu professor **Karlen Xudaverdiyev** də bu tayfadandırlar.



**Məmmədəlilər.**

Bu tayfanın nümayəndələrindən **Bayram Məmmədəliyev** Vedinin müdafiəsində fəal iştirak edib. **Səfərəli Məmmədəliyev** isə "Qırmızı tabor"da erməni daşnaklarına qarşı qəhrəmanlıqla vuruşub. Səfərəlinin oğlu **Abbas Məmmədəliyev** 1930-cu illərdə Böyük Vedinin iki kolxozundan birinin sədri olub.

**Kosanlı.**

**İbrahim Novruzov** fəal "Qırmızı tabor"çu olub. Uzun illər Böyük Vedi kənd sovetinin sədri işləyib. Övladları Beyləqan rayonunda yaşayırlar.

Bu tayfadan **Əli Kərim oğlu Bağırov** da Böyük Vedinin hörmətli kişilərindən idi. O, 1870-ci ildə anadan olmuş, Abbasqulu bəyin başçılığı altında vedililərin ermənilərə qarşı apardığı müharibədə fəal iştirak etmiş, bu müharibədə yaralanmış, 1956-cı ildə rəhmətə getmişdir. Oğlanlarından **Həsən** və **Hüseyn** Böyük Vətən müharibəsinin iştirakçısı olmuşlar. Qızları **Gülnaz, Fizzə** və **Xədicə** hazırda Bakı şəhərində yaşayırlar. Oğlu **Sabir Kərimov** bu gün vedililərin seçilən şəxsiyyətlərindəndir.

**Əli Kərbəlayi İsa oğlu Məmmədov** 1912-ci ildə anadan olmuşdu. Ali təhsilli müəllim idi. Uzun illər Vedi rayonunda partiya və maarif sahələrində çalışmış, 1968-ci ildə Bakı şəhərinin Mərdəkan qəsəbəsinə köçərək burada Günəşli sanatoriyasında məsul vəzifədə işləmiş, 1992-ci ildə vəfat etmişdir. Övladlarından qızı **Zərifə xanım**, oğlanları **İsa, Rafiq, İntiqam, İlham** hazırda Bakı şəhərində yaşayırlar.

**Şanolar.**

**Əkbər bəy** və **Qoçəli bəy** adlı 2 qardaş yadda qalıb.

**Vedililər.**

Vedililər tayfasının yaşadığı Vedililər məhəlləsi Qalabürc deyilən yüksəklikdən başlayıb, Vəliuşağı məhəlləsinədək uzanırdı. Bu məhəllədə ən köklü və çoxluq təşkil edən nəsil **Kərim uşağı** idi. Bu nəsil 30-40 ailəni özündə birləşdirir, həmişə də öz qocaman ağsaqqalları ilə fərqlənirdi. Bu nəsildə Zal uşaqları – **Kəlba Rüstəm, Həsən, Hüseyn, Kəlba Xudaverdi, Mursaqulu, Xudu kişi** kimi onlarla 100 yaşlı ağsaqqallar olmuşdur.

XIX yüzilin 2-ci yarısından bu tayfaya Kəlba Xudaverdinin oğlu **Məhəmməd kişi** (1853-1949) ağsaqqallıq etmişdir. Sonralar isə onun oğlanları **Cəfər, Abdulla, Rza, Əli** nüfuz sahibi olmuşlar.

**Kəlba Rüstəmin** (1830-1910) dörd oğlu, dörd qızı olmuşdur. Qızlar dünyalarını erkən dəyişmişlər. Qardaşlardan **Qəşəm** və **Əli** erməni daşnaklarına qarşı mübarizənin iştirakçısı olmuş və bu döyüşlərdə həlak olmuşlar. **Həbib** və **Yüzbaşı** isə təsərrüfatla məşğul olublar. Bu ailələrdən bu günədək yaşayanlar da məhz Kəlba Rüstəmin oğlu **Həbib** və **Yüzbaşının** övladlarıdırlar.

**Kəlba Şükür uşağı.**

**Kəlba Şükür bəy** Vedibasarın sayılıb-seçilən varlı adamlarından idi. **Əsgər, Əsəd, Qurban, Əhməd, Mahmud, Məmməd, Teymur** adlı 7 oğlu vardı. Böyük oğlu **Əsgər ağa** XIX yüzilin sonlarında Aşxabad şəhərində qubernator işləmişdi. Digər oğlu **Əsəd ağa** Aşxabad gimnaziyasını bitirmiş, qayıdıb Böyük Vedinin ən məşhur tacirlərindən olmuşdu. Vedibasar mahalı ermənilər tərəfindən işğal edilərkən, bütün vedililər kimi, Əsəd ağa da Cənubi Azərbaycana mühacirət etmiş, bir də 1940-cı ildə Vətənə qayıtmış, 1951-ci ildə deportasiya olunmuş, 1956-cı ildə Beyləqanda vəfat etmişdi. Kəlba Şükürün oğlu **Qurban** isə Ağa Süleymanovun qızı **Gövhər xanımla** ailə qurmuşdu. Onların oğlu **Əli Rzayev** haqqında kitabda ayrıca bəhs edilmişdir.

**Eyvazlılar.**

Eyvazlılar Vedibasar mahalının ictimai-siyasi həyatında həmişə mühüm rol oynamışlar. Bu tayfadan **Kəlba Bayram** vaxtilə Vedi nahiyəsinin qlavası olmuşdur. Ondan sonra oğlu **Kəlba Oruc** Vedi nahiyəsinə qlavalıq etmişdir. Kəlba Orucun qardaşları **Əli, Cabbar, Cəlil, Hüseyn Eyvazovlar** da Vedidə hörmət sahibi olmuşlar. **Hüseyn Eyvazov** Böyük Vedi kəndinin katdası seçilmişdi.

**Əli Eyvazov** və qardaşı Hüseynin oğlu **Bilal Eyvazov** müxtəlif vaxtlarda Vedidə rəhbər vəzifələrdə çalışmışlar.

**Qasmalı uşağı.**

Nəsil **Qasımalı kişidən** və onun oğlu **Kəlba Hümbətdən** başlayırdı. Nəslin görkəmli şəxsiyyətlərindən biri **Qasım Qənbər oğlu Hümbətov** 1897-ci ildə anadan olmuş, orta məktəbi və



mollaxana məktəbini əla qiymətlərlə bitirmişdi, ərəb dilini sərbəst tərcümə edirdi.

Sovet hakimiyyəti illərində müxtəlif dövlət işlərində işləmiş, 1950-ci ildə Əli Bayramlı rayonuna deportasiya olunmuşdular.

Hümbətov Qasımın övladlarından **Lətifə Qasım qızı Qənbərova** Tibb institutunu əla qiymətlərlə bitirmişdir və hazırda Gəncə şəhərində ginikologiya üzrə məşhur veteran həkimdir.

**İsa Qasım oğlu Qənbərov** Salyan rayonunda fərdi təqaüdçüdür. Böyük oğlu **Musa İsa oğlu Qənbərov** Kənd Təsərrüfat İnstitutunu bitirib. Salyan rayonunda uzun müddət baş aqronom vəzifəsində işləmişdir. Hazırda kənd bələdiyyəsinin sədridir.

**Yusif Qasım oğlu Hümbətov** hazırda 1 №-li Bakı peşə litseyində müəllimdir. Oğlu **Hümbətov Elçin Yusif oğlu** idman sahəsində cüdo üzrə iki diplom və üç medal qazanmışdır.

## KƏNDİN TOPONİMLƏRİ

Yalyurd, Qaragölyurd, Daşlı-Güneyyurd, Qala uşağı, Paskili, Sefkarlı, Mahmudlu, Qızılanlı, Qərib uşağı, Orta məhlə, Aşağı məhlə, Məmmədəlilər məhləsi, Yuxarı məhlə, Vəli uşağı, Vedili, Şanolar, Kosanlı, Abışdılar, Eyvazlılar məhlələri, Qalabürc, Sarı dolama, Gavur qalası, Divlər otağı, Göyərçinlər otağı, Qumluca, Qotur bulaq, Qoturbulaq dərəsi, Damdıra qayası, Süzəni dölləyi...

## 1930-CU İLLƏRİN REPRESSİYA QURBANLARI

1. Şıx Qəmbər
2. Mir Həsən ağa
3. Mirzə Cəmil
4. Mirzə Abdulla
5. İsmayıl Məmməd oğlu Orucov və b.

## 1941-1945-Cİ İLLƏR MÜHARİBƏSİNDƏ HƏLAK OLANLAR

1. Feyzulla Əzimov
2. Hümbət Əzimov
3. Əli Əzimov
4. Məmməd Abbasəli oğlu Əhmədov

5. Abdulla Abbasəli oğlu Əhmədov
6. Məhərrəm Abbasəli oğlu Əhmədov
7. Müseyib Heydər oğlu Vəliyev
8. Türman
9. Bilal Əliyev
10. Qəşəm Əliyev
11. Məmmədəli Səfərəli oğlu
12. Qasım Rzayev
13. Məmməd Rzayev
14. Abdulla Rzayev
15. Məmmədəli Rzayev
16. Əsgər Rzayev
17. İman Məmmədəliyev
18. Abbas Məmmədəliyev
19. İsmayıl Məmmədəliyev
20. Yadulla Əliyev
21. Əli Qurbanov
22. Oruc Orucov
23. Bilman Şadlinski
24. Həbib Həsənov
25. Bayram Kərimov
26. Əli Əliyev.
27. Oruc Qulu oğlu Zeynalov
28. Həmid Nurməmməd oğlu Nuriyev
29. Heydərəli Nurməmməd oğlu Nuriyev
30. Bəhlul Cəlil oğlu Quliyev
31. Südeymanağa Kazımov
32. Fərəməz Kazımov
33. Əli Kazımov
34. Əli Abbasov
35. Milik Hümbətov
36. Oruc Zeynalov
37. Hüseyn Süleymanov
38. Həsən Süleymanov və b.

## QARABAĞ MÜHARİBƏSİ ŞƏHİDLƏRİ

1. Əsgər Valeh oğlu Rzayev (1964, Böyük Vedi – 1992, Ağdərə).
2. Akif Məmmədəli oğlu Əhmədov (1968, Böyük Vedi – 1992, Ağdərə).



## ABBASQULU BƏY XANBABA BƏY OĞLU ŞADLİNSKİ



1886-cı il fevral ayının 24-də Böyük Vedi kəndində anadan olmuşdu. Vedibasarın məşhur Şadlinski bəylərindən idi.

Böyük Vedidə rus-tarar məktəbini, İrəvan gimnaziyasını bitirmişdi.

1912-ci ildə Vedibasar camaatının gizli səsvermə yolu ilə onu mirab (su rəisi) vəzifəsinə seçməsi gənc bəyə camaatın böyük etimadının nəticəsi idi.

Az sonra Abbasqulu bəy İrəvan qəzası-nın Vedi nahiyəsinin (IV polis sahəsinin) rəisi vəzifəsinə irəli çəkilir.

1917-ci ildə erməni təcavüzü təhlükəsi yarandığı ilk gündən Abbasqulu bəy əhalinin təhlükəsizliyi təşəbbüsünü ələ alır və Vedibasar igidlərindən silahlı "Mübariz dəstə" yaradır. Sonra Vedibasar milli hökumətini və onun silahlı ordusunu yaradıb, ona rəhbərlik – komandanlıq edir.

1918-1920-ci illərdə erməni-daşnak hərbi birləşmələri dəfələrlə Vedibasar üzərinə nizami ordu yeritsələr də, Abbasqulu bəyin rəhbərlik etdiyi Vedibasar müdafiəçiləri hər dəfə onları darmadağın edib geri oturdur. Erməni daşnak hökumətinin Dro, Bek-Pirimov, Doluxanov, Aprosimov və b. kimi tanınmış generallarının Böyük Vedi üzərinə hücumları da bir nəticə vermir.

1920-ci ilin yayında Naxçıvanın daşnaklar tərəfindən işğalından sonra Vedibasarın tam mühasirə vəziyyətinə düşdüyünü görən Abbasqulu bəy düşmən mühasirəsini yarıb dinc əhalini itkisiz Arazın o tayına – Cənubi Azərbaycana keçirdir. 1920-ci ilin payızında Naxçıvan bolşevik hökumətinin dəvəti ilə geri qayıdıb, "Qırmızı Tabor" adı ilə əvvəlki ordusunu bərpa edən Abbasqulu bəy bir neçə ay müddətində fasiləsiz döyüşlər nəticəsində Naxçıvan, Vedi, Qəmərli, İrəvan, Dərələyəz, Zəngəzur bölgələrinin daşnaklardan tam azad olunmasına nail olur. Abbasqulu bəy və 18 nəfər digər "Qırmızı Tabor"çu bu döyüşlərə görə "Qırmızı Bayraq" ordeni ilə təltif edilir.

1921-1922-ci illərdə Naxçıvan qarnizonuna rəislik edən Abbasqulu bəy 1922-ci ilin sonlarında həmişəlik Vedibasara qayıdır və Dəvəli kəndi yaxınlığındakı kirəc təpələrinin istismarına icazə alır, kirəc mədəninə müdir təyin olunur.

1930-cu il aprelin 2-də İrəvanın erməni rəhbərliyinin müəmmalı qurğusu ilə Kərbəlayı İsmayılın başçılıq etdiyi qiyamçı qaçaqlarla danışığa göndərilir və aprelin 3-dən 4-ə keçən gecə Abbasqulu bəyin qiyamçılara xəyanət etməsi kimi yalançı məlumatla aldadılmış qaçaqlar tərəfindən qətlə yetirilir.

## MƏHƏMMƏD KƏRBƏLAYI XUDAVERDİ OĞLU KƏRİMOV VƏ ÖVLADLARI

**Məhəmməd Kərimov** 1853-cü ildə Böyük Vedi kəndinin Vedili məhəlləsində anadan olmuşdu. **Atası Kərbəlayı Xudaverdi** Vedibasar elinin seçilən kişilərindən idi. O, yeddi qızdan sonra dünyaya gəlmiş oğlu Məhəmmədi mahalda hörmət sahibi olan Molla Musanın yanında oxutmuş, Məhəmməd isə öz növbəsində atasının yolu ilə gedərək təsərrüfat və ticarət işləri ilə məşğul olmuşdu. Onun pambıq, çəltik, tütün sahələri, xeyli mal-qarası, ilxısı, İranın Xoy, Mərənd şəhərlərində dükanları vardı.

Məhəmməd oğlanlarını **(Cəfər, Sadıq, Abdulla, Rza, Əli)** Naxçıvanda, İrəvanda, Rusiyada oxutdurmuşdu. **Cəfər** İrəvanda, **Sadıq** Armavirdə gimnaziyanı bitirmişdilər. Sonra Cəfər İrəvan müəllimlər seminariyasını bitirib, Şərurda, Dərələyəzdə, Vedidə, İrəvanda müəllim işləmiş, İrəvandakı Əzizbəyov adına məktəbə müdirlik etmişdi. Xidmətlərinə görə "Əməkdar müəllim" adına layiq görülmüş, müxtəlif orden və medallarla təltif olunmuşdu. Sadıq isə Peterburqda Hərbi Akademiyada təhsilini davam etdirmiş, zabit rütbəsi almış, müharibə illərində Leninqradın müdafiəsində həlak olmuşdu.

**Qızı Sidiqə Məmmədova** İrəvan Pedaqoji texnikumunda təhsil almışdı. Sonralar Bakıdakı 30 saylı məktəbdə müəllim, direktor işləmiş, 1969-cu ildən təqaüdə çıxana qədər isə 240 saylı məktəbin direktoru olmuşdu.

**Oğlu Abdulla** Naxçıvanda Pedaqoji texnikumu bitirmiş, sonra ADU-nun kimya-biologiya fakültəsində təhsil almış, Vedidə Gənclər məktəbinin direktoru, İrəvan Pedaqoji və Kənd Təsərrüfatı texnikumlarının müəllimi, Ermənistanda Maarif Nazirliyində məktəblər şöbəsinin müdiri, Bakıdakı 56 saylı məktəbin tədris hissə müdiri, Respublika Xəzər Dənizçiliyi məkəbinin müdiri və s. vəzifələrdə çalışmışdır.

**Oğlu Rza** İrəvanda Pedaqoji texnikumu, Bakıda Dövlət Universitetinin hüquq fakültəsini bitirmiş, Zaqatala, Qax, Laçın, Naxçıvan, Abşeron rayonlarında prokuror işləmişdi.

**Oğlu Əli** isə İrəvan Pedaqoji texnikumunu bitirdikdən sonra ADU-nun filologiya fakültəsində təhsil almış, 1949-cu ildən Dövlət Təhlükəsizlik Komitəsində xidmət etmiş, mayor rütbəsinə yüksəlmişdi.



## TEYMUR BƏY ŞADLİNSKİ



Şadlinskilər nəslinin görkəmli nümayəndələrindən biri də Abbasqulu bəy Şadlinskinin əmisi **Teymur bəy Şadlinski** olmuşdur. Dövrünün qabaqcıl ziyalılarından olan, güclü riyaziyyatçı kimi tanınan Teymur bəy Şadlinski Nəriman Nərimanovun bacısı Sultan xanımın qızı **Dilşad xanımla** ailə qurmuş, xeyli vaxt Cənubi Qafqaz bankının müdiri işləmişdir. Lakin N.Nərimanovun ölümündən sonra Teymur bəy də müəmmalı şəkildə qətlə yetirilmişdir.

Teymur bəyin **Hidayət** və **Kəbutər** adlı iki övladı olmuşdur. Teymur bəyin nəvə-nəticələri bu gün daha çox Ağstafa rayonunda və Bakı şəhərində yaşayırlar. Onlar haqqında "Abbasqulu bəy Şadlinski" kitabında ətraflı məlumat vermişik. Teymur bəyin nəvələrindən biri – **Ramiz Məmməd oğlu Vəliyev** respublikanın tanınmış həkimlərindəndir. O, Tibb əlaçısı, 1990-cı ildən isə respublikanın Əməkdar həkimidir. Hazırda Hövzə poliklinikasının şöbə müdiridir.

Digər nəvəsi **Tamilla xanım Ağamirova (Şadlinskaya)** filologiya elmləri namizədidir.



**Teymur bəy Şadlinski həyat yoldaşı Dilşad xanım və qızı Kəbutərlə**

## SEYFULLA AĞA OĞLU SÜLEYMANOV



1894-cü ildə Böyük Vedi kəndində anadan olmuşdu. Əvvəl Böyük Vedidə rus-tatar məktəbini, sonra İrəvan gimnaziyasını və müəllimlər seminariyasını bitirmiş, Böyük Vedi məktəbində müəllim işləmişdi.

Vedibasar mahalının başı üzərini erməni işğalı təhlükəsi alanda gənc Seyfulla Abbasqulu bəyin başçılığı ilə milli mübarizəyə ilk qoşulanlardan olur. Vedibasar Komitəsinin rəhbərlərindən biri kimi, bu komitədə xarici işlər bölməsinə rəhbərlik edir.

Vedibasarın çətin günlərində o, Bakı ilə əlaqə yaratmaq məqsədilə Vedibasar Komitəsi tərəfindən Bakıya göndərilir. Burada Bahadur Vəlibəyovla tanışlıq onu "Hümmət" təşkilatına aparıb çıxarır.

S.Süleymanov 1920-ci ilin yayında XI Qızıl Ordunun tərkibində Naxçıvana gəlib, burada FK-nın sədri təyin olunur. Məhz onun təşəbbüsü və şəxsən iştirakı ilə A.Şadlinski mühacirətdə olduğu Cənubi Azərbaycandan geri çağırılır və özünün keçmiş ordusunu "Qırmızı tabor" adı ilə bərpa edib, daşnaklara qarşı qəhrəman mübarizəsini davam etdirir.

1924-cü ildə Bakıya çağırılan S.Süleymanov 2 il burada Xarici İşlər Komissarlığı nəzdində Xüsusi İdarənin rəisi vəzifəsində çalışır. Naxçıvanda vəziyyətin qeyri-sabitliyini nəzərə alıb, 1926-cı ildə onu yenə Naxçıvana FK-nın sədri vəzifəsinə qaytarırlar.

1930-cu ildə yenidən Bakıya çağırılır. 1941-ci ilə qədər Azərbaycan SSR Daxili İşlər Komissarlığında əks-kəşfiyyat və banditizmə qarşı mübarizə üzrə bölmə rəisi vəzifəsində işləyir.

Müharibə illərində Sovet ordusu sıralarında Cənubi Azərbaycana gedərək burada 44-cü ordunun xüsusi şöbəsinin rəisi olur.

1943-cü ildə SSRİ DİXK-da işləmək üçün Moskvaya çağırılır və az sonra SSRİ Xarici İşlər Komissarlığında mühüm bir vəzifəyə təyin olunaraq oradan İrana konsul göndərilir.

1943-cü ildə məşhur Tehran konfransının təşkilində göstərdiyi xüsusi xidmətlərinə görə S.Süleymanov SSRİ DİXK-nın 24 aprel 1943-cü il tarixli 292 saylı fərmanı ilə **Fəxri çekist** adına layiq görülür. Ömrünün sonuna qədər SSRİ-nin İranda konsulu vəzifəsində çalışan S.Süleymanov elə orada da müəmmalı şəkildə zəhərlənərək ağır vəziyyətdə Bakıya gətirilir və 1947-ci il martın 14-də 53 yaşında vəfat edir.



## FƏRƏMƏZ BƏY MAHMUDBƏYOV, ÖVLADLARI MƏRYƏM VƏ ŞAMİL MAHMUDBƏYOVLAR

**Fərəməz bəy** Böyük Vedinin məşhur Mahmudlu bəylərindən idi.

1917-1920-ci illərdə Vedibasarın erməni təcavüzündən müdafiəsində Şadlinski bəyləri ilə yanaşı, Mahmudlu bəyləri də yaxından iştirak etmişdilər. Təsadüfi deyil ki, Vedibasar Milli Komitəsinin 11 nəfər üzvündən bir neçəsi Mahmudlu bəylərindən idi. Onların arasında Şəmsəddin bəy (Şəmdin müəllim) Mahmudbəyov, İlyas bəy Mahmudbəyovla yanaşı, Fərəməz bəy Mahmudbəyov da vardı. Fərəməz bəy bu Komitədə məhkəmə heyətinin üzvü idi.

1920-ci ilin yayında Naxçıvanda Sovet hakimiyyəti qurulan zaman yaradılan Hərbi İnqilab Komitəsinin tərkibində Fərəməz bəyin də adına rast gəlirik. Abbasqulu bəyin Cənubi Azərbaycandan geri çağırılıb, "Qırmızı tabor"u təşkil etməsində, görünür, Fərəməz bəyin də xüsusi xidməti olmuşdur.

Sovet hakimiyyəti illərində Naxçıvanda qalıb işləyən Fərəməz bəy Şərur, Ordubad qəzalarında inqilab komitələrinin sədri və Naxçıvan MR kənd təsərrüfatı komissarı vəzifələrində çalışmışdır.

Qızı **Məryəm Mahmudbəyova** 1921-ci ilin yanvarında anadan olmuş, 1953-cü ildən Elmi-Tədqiqat Virusologiya, Mikrobiologiya və Gigiyena İnstitutunda işləmiş, mikrobiologiya üzrə əvvəl namizədlik, 1966-cı ildə isə doktorluq dissertasiyası müdafiə edərək tibb elmləri doktoru elmi dərəcəsi almışdır. 1973-cü ildə Azərbaycan SSR-in Əməkdar həkimi adına layiq görülmüş, 1976-1979-cu illərdə Elmi-Tədqiqat Qanköçürmə və Hematologiya şöbəsinin müdiri olmuşdur. Tibb elminə gətirdiyi yeniliklər təbabətdə geniş istifadə olunur.



Oğlu **ŞAMİL MAHMUDBƏYOV** isə Azərbaycanın tanınmış kinorejissorlarındandır. O, 1924-cü il dekabrın 5-də anadan olmuş, 1954-cü ildə Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunu bitirmiş, 1955-ci ildə "Azərbaycanfilm" kinostudiyasında rejissorluq fəaliyyətinə başlamışdır.

Kino sahəsindəki uğurlarına görə 1969-cu ildə Azərbaycan SSR Dövlət mükafatı laureatı olmuş, 1976-cı ildə respublikanın Əməkdar incəsənət xadimi adına layiq görülmüşdür.

Əsas filmləri: "Romeo mənim qonşumdu" (1963), "Qaraca qız"

(1965), "Torpaq. Dəniz. Od. Səma" (1967), "Şərikli çörək" (1969), "Həyat bizi sınayır" (1971), "Skripkanın sərgüzəşti" (1972), "Dərviş Parisi partladır" (1976), "Bayquş gələndə" (1978), "Od içində vahə" (1978) və s.

## MİRZƏ ƏLƏSGƏR OĞLU BƏŞİROV



1896-cı ildə Böyük Vedi kəndində anadan olmuş, 1913-cü ildə buradakı rus-tatar məktəbini bitirmişdi.

1922-1925-ci illərdə Böyük Vedi kəndinin sovet sədri kimi o vaxt üçün məsul vəzifədə işləmiş, 1925-1927-ci illərdə rayonun bank müdiri, 1927-1929-cu illərdə Vedi RİK-nin sədri olmuşdur.

1929-1930-cu illərdə Naxçıvanın Soyuzxleb idarəsində Ermənistanın səlahiyyətli nümayəndəsi, 1930-1933-cü illərdə Ağbaba rayonunda torpaq şöbəsinin müdiri, RİK sədrinin müavini, rayon partiya komitəsində təşkilat şöbəsinin müavini vəzifələrində çalışmışdır. 1933-1938-ci illərdə Ağbaba RİK-nin sədri, 1938-1941-ci illərdə Zəngibasar RİK-nin sədri işləmişdir.

1941-1948-ci illərdə Vedi RİK-nin sədri işləyən M.Bəşirov 1948-ci ildə Azərbaycana deportasiya olunur. 1 il Gəncə Yağ-piy kombinatında direktor müavini, sonrakı illərdə isə müxtəlif vəzifələrdə çalışır. 1960-cı ildə vəfat edir. Fəaliyyəti dövründə bir çox orden, medal, fəxri ad və s. təltiflərlə mükafatlandırılan Mirzə Bəşirovun ən böyük mükafatı elin hörməti və məhəbbəti olmuşdur.

**Böyük oğlu Lətif Bəşirov** 1938-ci ildə anadan olmuşdu. 1948-ci ildə orta məktəbi gümüş medalla, 1953-cü ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunu fərqlənmə diplomu ilə bitirmişdi. 1964-cü ildə texnika elmləri namizədi alimlik dərəcəsi alaraq həmin vaxtdan ömrünün sonuna – 1983-cü ilədək Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda çalışmışdı. 60-dan çox elmi məqalənin və xeyli səmərələşdirici təkliflərin müəllifi idi.

Digər **oğlu Firuz Bəşirov** da texnika elmləri namizədidir. 50-dən çox elmi məqalənin, xeyli ixtira və səmərələşdirici təklifin müəllifidir. Hazırda Kənd Təsərrüfatı Akademiyasında "Traktorlar və avtomobillər" kafedrasının müdiridir.



## ƏLİ EYVAZOV

Vedibasar mahalının yetişdirdiyi tanınmış şəxsiyyətlərdən biri də Əli Eyvazovdur.

O, əvvəl Böyük Vedidə rus-tatar məktəbini, sonra İrəvan gimnaziyasını bitirmişdi.

Əli Eyvazov 1918-1920-ci ildə Vedibasar Milli Komitəsinin tərkibinə daxil olan 11 nəfərdən biri kimi, bölgənin erməni daşnak hücumlarından müdafiə edilməsində mühüm rol oynamışdır.

1920-ci ildə Abbasqulu bəy Şadlinskinin mühacirətdə olduğu Cənubi Azərbaycandan geri çağırılmasında şəxsən iştirak etmiş, Naxçıvan bolşevik hökumətinin dəvətini ona çatdırmaq üçün Seyfulla Süleymanovla birlikdə Mərənd şəhərinə getmişdi.

1922-1924-cü illərdə Naxçıvan Respublikasının torpaq naziri, 1930-1937-ci illərdə Vedi və Basarkeçər rayonlarında RİK sədri işləmiş, 1938-1948-ci illərdə Qarabağlar rayonunun Kotuz kənd məktəbinin direktoru olmuşdu.

Ə.Eyvazov 1953-cü ildə vəfat etmişdir.

## ƏZİZ MƏŞƏDİ HÜSEYN OĞLU SÜLEYMANOV



Əziz Süleymanov Böyük Vedi kəndinin Paski məhəlləsində anadan olmuşdu. 1926-cı ildən mənzil-istismar sahələrində rəis və şəhər məhkəmələrində müxtəlif vəzifələrdə işləmişdi.

Böyük Vətən müharibəsi başlayarkən Bakıda vəkil işləyən Ə.Süleymanov səfərbərliyə alınaraq İranda Sovet ordusu tərkibində hərbi tribunalda işləyən Ə.Süleymanov 1945-ci ildə Vediyə qayıdır, üç il burada rayon məhkəməsinin sədri vəzifəsində çalışır.

1948-ci ildə deportasiyaya məruz qalaraq Bakıya gəlir, 1 saylı Bakı notarial kontorunda baş notariusun müavini, həmin ilin sonundan Sumqayıtın xalq hakimi, 1952-ci ildən təqaüdə çıxanadək isə Azərbaycan Həmkarlar İttifaqının hüquq şöbəsinin müdiri işləyir.

Müəssisələr arasında müştərək müqavilələr və hüquq məsələlərinə aid bir neçə kitabçanın müəllifilir. 1986-cı ildə vəfat etmişdir.

# İSGƏNDƏR BAYRAM OĞLU XUDAVERDİYEV



İsgəndər Xudaverdiyev 1912-ci ildə Böyük Vedi kəndində anadan olmuşdu.

Xudaverdiyevlər Böyük Vedinin ən böyük və ən nüfuzlu tayfalarından olan Vəli uşağı tayfasından idilər. Uzun müddət Vedi nahiyəsinin rəisi işləmiş **Qlava Məmməd** bu nəsildən idi.

Kiçik yaşlarından əmisi Qlava Məmmədin atalıq qayğısı ilə böyüyən İsgəndər oxuyub təhsil almış, gənc yaşlarından Vedidə hörmət qazanmış, əvvəlcə müəllim, sonra maarif müdiri işləmişdir.

Böyük Vətən müharibəsinin iştirakçısı olan İ.Xudaverdiyev müharibədən qayıtdıqdan sonra Çəmbərək rayonunda RİK sədri, Azərbaycana deportasiya olunduqdan sonra isə Ucar rayonunda RİK sədri işləmişdir. Sonuncu vəzifədə 1998-ci ilə qədər çalışan İ.Xudaverdiyev həm də Azərbaycan SSR Ali Sovetinin deputatı olmuş, 1974-cü ildə dünyasını dəyişmişdir.

İ.Xudaverdiyev həyat yoldaşı Rzayeva Şahzadə xanımla 7 övlad böyütmüşlər.

# NƏZƏR ABDULLA OĞLU PAŞAYEV



Böyük Vedidə anadan olmuşdu. Yeddi yaşında ikən atasını itirmiş, bir müddət uşaq evində yaşamış, əmək fəaliyyətinə erkən başlamışdı.

1927-ci ildə İrəvandakı Pedaqoji Texnikumu bitirən N.Paşayev bir müddət sonra Böyük Vedidəki Kəndli-Gənclər məktəbində müdir işləmişdi.

1932-ci ildə rayon partiya komitəsinin və Ermənistan Maarif Komissarlığının göndərişi ilə Bakıda Pedaqoji İnstituta qəbul olunmuş, 1936-cı ildə oranı bitirərək İrəvandakı Pedaqoji İnstitutun qiyabi şöbəsində və pedaqoji texnikumda müəllim kimi fəaliyyətini davam etdirmişdi.

Sonralar Bakıya gəlib, Azərbaycan Dövlət Universitetinin aspiranturasına daxil olmuş, Müəllimləri Təkmilləşdirmə İnstitutunda dərs demişdi.

1941-ci ildə aspiranturanı yarımçıq qoyub müharibəyə getmiş, 1946-ci ildə cəbhədən geri dönərək təhsilini davam etdirməklə yanaşı, universitetdə tarixdən dərs demişdi.

1949-cu ildə dissertasiya müdafiə edərək tarix elmləri namizədi olmuş, Pedaqoji İnstitutda çalışmış, sonrlar tarix elmləri doktoru, professor dərəcəsinə yüksəlmişdi.

# MANAF SÜLEYMAN OĞLU SÜLEYMANOV



Manaf Süleymanov 1910-cu ildə Böyük Vedidə anadan olmuşdu.

Bakıda jurnalistika fakültəsində oxuyarkən tərcümə işinə böyük maraq göstərmişdir.

Böyük Vətən müharibəsi başlayarkən Manaf ordu sıralarına səfərbərliyə alınır, öz jurnalistlik sənətini ordunun diviziya qəzeti redaksiyasında davam etdirir. Ordudan tərxis olunub Bakıya qayıdandan sonra "Azərbaycan pioneri" qəzetində məsul katib vəzifəsində çalışmağa başlayır.

"Kommunist" qəzetində katib və bir müddət "Azərnəşr"də direktor vəzifələrində işləyir.

Rus dilini və redaktə işini yaxşı bildiyindən onu daha məsul işə göndərirlər – ömrünün sonunadək MK nəzdindəki "Kommunist" jurnalında və Marksizm-Leninizm İnstitutunda çalışır.

**Qızı Solmaz Haqverdiyeva (Süleymanova)** uşaqlıqdan rəssamlıq sənətinə meyl göstərmiş, Ə.Əzimzadə adına Bakı rəssamlıq məktəbini bitirdikdən sonra ali təhsil almaq üçün İ.Y.Repin adına Leninqrad Dövlət Rəssamlıq Akademiyasına qəbul olunmuşdu. Təhsilini başa vurub Bakıya qayıdan Solmaz Kukla Teatrında işə başlayır, əl işləri ilə müxtəlif sərgilərdə iştirak edir. Çox keçmir ki, Rəssamlar İttifaqı-

na üzv qəbul olunur, Azərbaycan Akademik Dövlət Milli Dram Teatrında və S.Vurğun adına Bakı Rus Dram Teatrında da işləyərək teatr tamaşalarına səhnə tərtibatı verir.

Kukla Teatrının baş rəssamı olan Solmaz öz kuklaları ilə xarici ölkələrdə uğurlu qastrol səfərlərinə (İran, Türkiyə və b.) çıxır.

Təəssüf ki, bu istedadlı rəssamı ölüm aramızdan vaxtsız apardı.

## NƏRİMAN CƏLAL OĞLU ƏLİYEV



1911-ci ildə Böyük Vedidə varlı ailədə dünyaya gəlmişdi. Atası bir vaxtlar Böyük Vedi kəndinin katdası olmuşdu.

İbtidai təhsilini Böyük Vedidəki rus-tatar məktəbində alan Nəriman sonra İrəvandakı N.Nərimanov adına Türk Pedaqoji Texnikumuna daxil olur. 1929-cu ildə təhsilini başa vurub, əvvəl oxuduğu məktəbdə, sonra İrəvan şəhərindəki türk məktəbində, Kənd Təsərrüfatı Texnikumunda dərs deyir.

1930-cu ildə Azərbaycan Tibb İnstitutuna daxil olur. 1934-cü ildə oranı bitirib, rektor Əziz Əliyevin şəxsi təşəbbüsü ilə institutda saxlanır, mikrobiologiya kefedrasının aspiranturasına qəbul olunur. 1935-ci ildə Moskva Elmi-Tədqiqat Mikrobiologiya İnstitutuna göndərilir. 1937-ci ildə təhsilini başa vuraraq doğma kafedrasına qayıdır.

Böyük Vətən müharibəsi illərində həkim kimi İrana ezam olunur, Sovet ordusu tərkibində Bakıdan göndərilən həkimlər qrupuna rəhbərlik edir. 1942-ci ildə İrandan Bakıya çağırılan N.Əliyev həkim qrupu ilə Dağıstanda yayılan epidemiyanın qarşısını almaq üçün təcili bu bölgəyə göndərilir. Bu işi uğurla başa çatdırıb Bakıya dönür, burada ön cəbhə üçün lazım olan dərmanların hazırlanması işinə rəhbərlik edir. Az sonra onun rəhbərliyi ilə qonqrenaya qarşı preparat hazırlanır. Bu dərman böyük şöhrət qazanır.

Böyük Vətən müharibəsindən sonra N.Əliyev mikrobiologiya institutunda şöbə müdiri işləyir, 1948-ci ildə namizədlik, 1970-ci illərdə doktorluq dissertasiyaları müdafiə edir. Onlarla elmi məqalə və dərsliyin, çoxlu ixtiraların müəllifi olan N.Əliyev iyirmi il kafedra müdiri işləyir. Rubin, nakordin, aurantin kimi yeni bioloji aktiv maddələr



kəşf edir. Kənd təsərrüfatında ət məmulatlarının saxlanmasında geniş istifadə olunan aktiv bioloji maddələrin kəşfi, lentospiroz, madrominoz, geotrixoz, serrasioz, kantidoz xəstəliklərinin aşkarlanması və s. onlarla kəşf də onun adı ilə bağlıdır.

Professor Nəriman Əlieyv həm də əməkdar elm xadimidir. Müxtəlif orden və medallarla təltif olunub. Bu gün də elmi axtarışlarını davam etdirir.

Övladlarının hamısı ali təhsilli həkimdir. Oğlu **Namiq Əliyev** tibb elmləri doktoru, professordur. Tibb müəssisələrindən birinə rəhbərlik edir.

## BAĞIR ƏLƏŞRƏF OĞLU MARATLI



1911-ci ildə Çimən kəndində anadan olmuşdur. 1933-cü ildə Bakı Ə.Əzimzadə adına Rəssamlıq məktəbini bitirdikdən sonra ali təhsil almaq üçün Tiflis Rəssamlıq Akademiyasına qəbul olunur, 1941-ci ildə akademiyanı bitirir vaxt Böyük Vətən müharibəsi başlanır. Onu ordu sıralarına səfərbər edirlər və Şimali-Qafqaz cəbhəsində döyüşlərdə iştirak edir, hərbi-döyüş medallarına layiq görülür.

Müharibədən sonra Bakıya qayıdan B.Maratlı öz sənətində çalışmağa başlayır, ardıcıl olaraq rəssamlıq sərgilərində yeni-yeni əsərlərini nümayiş etdirir. Tematik tablolar, mənzərə, portret və natürmortlar rəssamın geniş diapazona malik olduğunu göstərir. Onun akvarel (sulu boya) tabloları tamaşası və rəssamlarda xoş təəssürat yaratmışdır.

B.Maratlı eyni zamanda Rəssamlıq məktəbində pedaqoji fəaliyyətlə də məşğul olmuşdur. İndi Azərbaycanda çox az rəssam tapılar ki, onun tələbəsi olmamış olsun. Azərbaycanın əməkdar rəssamı B.Maratlı ilk fərdi sərgisini 1968-ci ildə təşkil etmişdir. 1982-ci ildə yeni fərdi sərgisi nümayiş olunmuşdur.

Ə.Əzimzadə adına Rəssamlıq məktəbində uzun müddət müəllimlik edən B.Maratlının ailəsində bu sənətin davamçıları eyni məktəbdə müəllimlik edən qızları Səriyə və Şərqiyədir. Oğlu Ələşirəf isə Qarabağ savaşında Azərbaycan televiziyasının operatoru kimi iştirak etmişdir. Hazırda Moskva tele-studiyasında operator işləyir.

B.Maratlı 2000-ci ildə Bakı şəhərində vəfat etmişdir.

## BƏHLUL KƏLBA HƏBİB OĞLU YUSİFOV VƏ OĞLÜ YUSİF YUSİFOV



**BƏHLUL YUSİFOV** 1903-cü ildə Böyük Vedidə anadan olmuşdu. Həyat yoldaşı **Ələviyəbəyim Mir Məhəmməd qızı** Vedibasarın Xalisa kəndindən idi.

Bəhlul Yusifov Abbasqulu bəy Şadlinskinin "Qırmızı tabor"unun tərkibində daşnaklara qarşı vuruşmuş, sonra Zaqafqaziya Kommunist Universitetini bitirmişdi. Bir müddət komsomol, partiya işlərində çalışdıqdan sonra uzun müddət İrəvanda Azərbaycan Pedaqoji Texnikumunun direktoru işləmişdi. Ermənistan SSR-in Əməkdar müəllimi idi.



1946-cı ildə Bakıya köçən Bəhlul Yusifov aspiranturanı bitirib, tarix elmləri namizədi alimlik dərəcəsi almış, ömrünün sonuna – 1977-ci ilə kimi Azərbaycan Neft və Kimya İnstitutunda dosent işləmişdir.

Övladlarından **Yunis Yusifov** kimya elmləri namizədi, **Eldar Yusifov** və **Sona xanım Yusifova** texnika elmləri namizədidirlər.

Digər oğlu – **YUSİF YUSİFOV** orta məktəbi İrəvanda bitirib Bakıya köçdükdən sonra Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsinin İran dilləri bölməsinə daxil olur. Sonra Leninqrad Universitetinin şərqşünaslıq fakültəsinə dəyişilir və oranı bitirir. Qayıdıb Azərbaycan EA Tarix İnstitutuna kiçik elmi işçi vəzifəsinə götürülür və Leninqrada göndərilir. Orada aspiranturaya daxil olub, İ.M.Dyakonovun tələbəsi olur. Onun rəhbərliyi ilə mixi yazıların dilini, ilk növbədə akkad dilini mənimsəyir. 300-dən çox elam kitabəsini tərcümə edir.

1958-ci ildə akademiklər V.Struve və B.Piotrovskinin opponentliyi ilə dissertasiya müdafiə edərək tarix elmləri namizədi alimlik dərəcəsi alır, SSRİ-də elamşünaslıq üzrə yeganə və ilk mütəxəssis olur.

Sonra yunan və qədim erməni dillərini öyrənir. Azərbaycanın ən qədim dövrlərdən türk tayfalarının vətəni, kuti, lullubi etnoslarının türk tayfaları olduğunu təsdiq edir.

Namizədlik dissertasiyası müdafiə etdikdən sonra Y.Yusifov Azərbaycan EA Tarix İnstitutunda elmi fəaliyyətini davam etdirir. 1965-ci ildə Tiflisdə dissertasiya müdafiə edib, tarix elmləri doktoru elmi dərəcəsi alır.

O, Azərbaycanın erkən dövlətləri – Aratta, Kuti və Lullubinin qədim türk tayfalarının vətəni olduğunu Şumer, Urartu, Asuriya mənbələri əsasında sübuta yetirmişdir.

Daim elmi axtarışlarda olan Y.Yusifov iki monoqrafiya, beş dərslik, 150-dən çox elmi məqalənin müəllifidir.

Təəssüf ki dünyasını vaxtsız dəyişdi.



## FİRUDİN CƏLİL OĞLU QULİYEV



1925-ci ildə Böyük Vedi kəndində anadan olmuşdur.

Böyük Vedidə orta məktəbi bitirmiş, 1943-cü ildə Böyük Vətən müharibəsinə yollanıb, müxtəlif cəbhələrdə döyüşmüş, Berlinin alınmasında iştirak etmiş, 1947-ci ildə ordudan tərxis olunmuşdur.

1948-1953-cü illərdə Ə.Əzimzadə adına rəssamlıq məktəbində təhsil alan F.Quliyev 1953-cü ildə "Uşaqgəncnəşr"də rəssam kimi fəaliyyətə başlamış, "Azərnəşr"də bədii redaktor, baş bədii redaktor işləmişdir.

1961-1967-ci illərdə Moskva Poliqrafiya İnstitutunda rəssam-qrafik ixtisasına yiyələnmişdir. 1963-cü ildən Rəssamlar İttifaqının üzvüdür.

Rəssamlığın müxtəlif janrlarında (akvarel, monotopiya, monoqravyura, qrafik və s.) çoxlu sənət əsərlərinin müəllifidir.

Respublika, Ümumittifaq və Beynəlxalq sərgilərin dəfələrlə iştirakçısı olub. **Qızı Pərvin** də rəssamdır.

## CƏLİL CABBAR OĞLU ƏLİYEV



**CƏLİL ƏLİYEV** 1919-cu ildə doğulmuş, 1937-ci ildə İrəvanda Pedaqoji Texnikumu bitirmiş, Vedi rayon maarif şöbəsinin müdiri, inspektoru, 1941-1942-ci illərdə Amasiya rayon maarif şöbəsinin müdiri işləmiş, 1942-ci ildə xalq düşməni kimi həbs ediləcək 15 illik cəzaya məhkum edilmişdir. 1947-ci ildə bəraət almışdır.



1949-cu ildə Səfərəliyev rayonun Qarabağlar kəndinə deportasiya olunmuşlar. 1993-cü ildə Bakıda vəfat etmişdir.

Oğlu **FİRUZ ƏLİYEV** 1937-ci ildə Böyük Vedidə anadan olmuş, Bakıda Avtomobillərin Texniki Xidmət Stansiyasında baş mühəndis, uzun illər isə (1975-1997-ci illərdə) direktor işləmişdir.



Digər oğlu **FƏRMAN ƏLİYEV** 1942-ci ildə Böyük Vedidə anadan olmuş, Tiflisdə, Bakıda, Saratovda, Lvovda hərbi məktəbləri bitirmişdir. Uzun illər hərbi komissarlıq sistemində çalışmış, Daşkəsən, Dəvəçi rayonlarının, Gəncə şəhərinin hərbi komissarı işləmişdir. 1991-ci ildən 1994-cü ilə qədər Naxçıvanda briqada komandiri olmuşdur. Polkovnikdir. 1994-cü ildə pensiyaya göndərilmişdir.



## TƏLƏT ƏLİRZA OĞLU RZAYEV



1925-ci ildə Böyük Vedi kəndində anadan olmuşdu.

1948-1953-cü illər deportasiyası zamanı bütün Böyük Vedililər kimi, onların da ailəsi Azərbaycana köçürülmüşlər.

Tələt Rzayev Azərbaycanda uzun illər prokurorluq orqanlarında işləmiş, Lənkəran, Qazax rayonlarında prokuror müavini, Şuşa, Cəlilabad rayonlarında prokuror vəzifələrində çalışmışdır. Lakin Vedi həsrəti, Vedi nisgili onu heç vaxt tərk etməmiş, bu müqəddəs hissi öz övladlarına da aşılamışdır.

Azərbaycanın tanınmış hüquqşünaslarından olan T.Rzayev təqaüdə çıxdıqdan sonra bir müddət vəkil işləmiş, 1992-ci ilin oktyabrında dünyasını dəyişmişdir.

T.Rzayevin dörd oğlu (**Vidadi, Vaqif, İlqar, Vüqar**), dörd qızı (**Elmira, Rəhilə, Bəsirə, Rəna**) var. Özü kimi, övladları da vətəninə və xalqına sədaqətlə xidmət edirlər. Həyat yoldaşı **Tərlan Cəmil qızı** vaxtilə Ermənistan SSR Ali Sovetinin deputatı olmuşdu.

Oğlanlarından **Vidadi Rzayev** uzun illərdir hüquq-mühafizə orqanlarında çalışır. Azərbaycan Respublikasının general-mayorudur.

## VİDADİ TƏLƏT OĞLU RZAYEV



1962-ci il dekabrın 3-də Cəlilabadda anadan olmuşdur. Atası Tələt Rzayev Vedibasar mahalının tanınmış şəxsiyyətlərindən idi.

Orta məktəbi bitirdikdən sonra bir müddət müxtəlif sahələrdə fəhlə işləmiş, 1981-ci ilin noyabrında Bakıdan hərbi xidmətə çağırılmışdır.

1984-cü ildə Moskva şəhərində hərbi xidmətini başa vuran V.Rzayev 1984-cü ildə daxili işlər orqanlarına milis nəfəri kimi işə qəbul olunur, Ümumittifaq Qiyabi Hüquq İnstitutunda təhsil alarkən isə xidməti işini Moskvanın Lenin rayon Daxili İşlər İdarəsində davam etdirir. Burada o, 1992-ci ilə kimi əməliyyat müvəkkili və baş əməliyyat müvəkkili işləyir.

1992-ci ilin oktyabrında Bakıya qayıdıb, həmin vaxtdan 1993-cü ilin iyun ayına kimi Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə İdarəsində baş əməliyyat müvəkkili vəzifəsində çalışır. 1993-cü ilin iyulundan 1994-cü ilin iyuluna qədər Azərbaycan DİN-nin Cinayət Axtarışı İdarəsində xüsusi əhəmiyyətli işlər üzrə baş əməliyyat müvəkkili vəzifəsində işləyir.

1994-cü ilin iyulunda Vidadi Rzayevə yüksək etimad göstərilərək o, MDB üzvü olan dövlətlərin ərazisində Mütəşəkkil Cinayətkarlığa və Digər Təhlükəli Cinayətlərə Qarşı Mübarizəni Əlaqələndirmə Bürosunda Azərbaycan Respublikası DİN-nin nümayəndəsi vəzifəsinə təyin olunur və Moskvaya qayıdaraq bu günə kimi də həmin vəzifədə uğurla fəaliyyət göstərir.

Vəzifəsinin öhdəsindən ləyaqətlə gəldiyi üçün dəfələrlə mükafatlandırılan Vidadi Rzayev həm də "Azərbaycan Bayrağı" ordeni ilə təltif olunmuşdur. 36 yaşında – 1998-ci ilin 30 dekabrında isə ölkə Prezidenti Heydər Əliyevin fərmanı ilə ona polis general-mayoru rütbəsi verilmişdir.

Ailəlidir, iki övladı var.

## XƏLİL MEHDİ OĞLU BİNƏTALIYEV VƏ OĞLU LƏTİF MEHDİYEV



**XƏLİL MEHDİ OĞLU** 1892-ci ildə Böyük Vedi kəndində anadan olmuş, 1918-1921-ci illərdə erməni daşnaklarına qarşı mübarizənin fəal iştirakçısı, Abbasqulu bəy Şadlinskinin dostu və ən yaxın silahdaşı olmuşdur. Bu mübarizədəki qəhrəmanlığına görə 1921-ci ildə "Qırmızı Bayraq" ordeni alan 19 nəfər "Qırmızı tabor"çudan biri idi. 1921-ci ildə kənddə Sovet hakimiyyəti qurulanda kəndin ilk rəhbəri – kənd inqilab komitəsinin sədri, 1929-cu ildə Böyük Vedidə yaradılmış kolxozun ilk sədri də Xəlil Mehdi oğlu olmuşdu. 1930-cu ildə isə Abbasqulu bəylə birlikdə erməni qurğusunun qurbanı olmuş, qətlə yetirilmiş, Abbasqulu bəylə yanaşı dəfn edilmişdi.





Oğlu **LƏTİF MEHDİYEV** 1925-ci il iyulun 5-də Böyük Vedidə anadan olmuşdur.

1954-cü ildə Azərbaycan Pedaqoji İnstitutunun coğrafiya fakültəsini bitirmişdir.

1950-53-cü illərdə Xanlar rayon komsomol komitəsinin II katibi, 1956-59-cu illərdə RPK-nin təlimatçısı, 1959-65-ci illərdə Xanlar şəhər 3 saylı məktəbinin direktoru vəzifələrində işləmişdir.

1965-ci ildə təzədən partiya işinə irəli çəkilib, RPK təbliğat-təşviqat şöbəsinin müdiri vəzifəsinə təyin edilmiş və 1970-ci ilə qədər bu işdə, 1970-1978-ci illərdə isə rayon maarif şöbəsinin müdiri vəzifəsində çalışmışdır.

1978-1992-ci illərdə Xanlar rayon Qovlarsarı kənd təsərrüfatında həmkarlar təşkilatının sədri işləmiş, sonuncu tarixdə təqaüdə çıxmışdır.

## NƏRİMAN SÜLEYMAN OĞLU KAZIMOV



1926-cı ildə Böyük Vedi kəndində anadan olmuşdur.

1939-cu ildə İrəvan Pedaqoji texnikumuna daxil olmuş, müəllim kadrlarına böyük tələbat olduğundan 1941-ci ildən həm də Vedi rayonuna müəllim göndərilmişdir. 1942-ci ildə texnikumu bitirən N.Kazımov Şirazlı, Qaralar, Goravan, Taytan, Böyük Vedi kəndlərində müəllim, dərs hissə müdiri vəzifələrində işləmişdir.

1951-ci ildə Azərbaycana deportasiya olunmuşlar.

Sonralar təhsilini Bakıda APİ-nin fizika-riyaziyyat fakültəsində davam etdirən N.Kazımov 1955-ci ildə həmin fakültəni fərqlənmə diplomu ilə bitirir və institutda qalıb müəllim işləyir.

1975-ci ildə dissertasiya müdafiə edərək pedaqoji elmlər namizədi alimlik dərəcəsi alır. 12 elmi kitabın, 50-yə qədər elmi-metodik məqalənin müəllifidir.

## EYLAS İMAN OĞLU QASIMOV VƏ ÖVLADLARI



**EYLAS İMAN OĞLU QASIMOV**

1924-cü ildə Böyük Vedi kəndində anadan olmuş, Orta məktəbi Böyük Vedi kəndində, Pedaqoji Texnikumu 1941-ci ildə İrəvanda bitirib, az bir müddət müəllim işləmiş, lakin artıq Böyük Vətən müharibəsi başladığından orduya çağırılıraraq 1956-cı ilə qədər hərbi xidmətdə olmuş, sıravi əsgərdən kapitan rütbəsinə qədər yüksəlmişdir.

Milli diviziya ləğv edildikdən sonra ordudan tərxis olunub, ailələrinin, əksər qohum-əqrəbasının 1949-cu ildə deportasiya olunduğu Beyləqan rayonuna gedir. Həmin vaxtdan milis orqanlarında işə düzəlir, təqaüdə çıxana – 1983-cü ilə qədər sahə müvəkkili, baş sahə müvəkkili vəzifələrində çalışır.

Hazırda İmişli şəhərində yaşayan Eylas Qasımov həm də xoşbəxt ailə başçısıdır. 60 nəfərə qədər ailə üzvü – övladları, nəvə-nəticələri var. Oğlanları **Eyvaz**, **Arif**, **Maarif** və **Aydını**, qızları **Nailə** və **Töhfəni** elinə-obasına, nəslinə layiq övladlar kimi böyütmüşdür.

Eylas müəllimin ailə üzvlərindən bir çoxları onun yolunu davam etdirmişdir və hazırda orduda, hüquq-mühafizə orqanlarında çalışırlar.



Oğlu general **Aydın Qasımov** haqqında kitabda ayrıca bəhs edilmişdir.

Digər oğlu **EYVAZ EYLAS OĞLU QASIMOV** 1951-ci ildə Böyük Vedidə anadan olmuşdur. El-obasına və nəslinə layiq, onların adını həmişə uca tutan ziyalılarımızdandır. Ali təhsilli hüquqşünasdır. Hazırda Bakı İdarəetmə və Texnologiya kollecində direktor müavini vəzifəsində çalışır.





**MAARİF EYLAS OĞLU QASIMOV**

1958-ci ildə anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra orduda qalıb, Azərbaycan Sərhəd Qoşunlarında zastava rəisi işləmişdir.



Qarabağ müharibəsinin iştirakçısı olan Maarif Qasımov sonra Daxili Qoşunların tərkibinə daxil olmuş, Polis Akademiyasında təhsilini davam etdirmişdir. Hazırda Beyləqan rayon polis idarəsində cinayət axtarışı şöbəsinin baş əməliyyat müvəkkili, polis mayorudur.



**ARİF EYLAS OĞLU QASIMOV**

Azərbaycan Kənd Təsərrüfatı Akademiyasını bitirib, alim aqronom adına layiq görülmüşdür. Ailəlidir, dörd övladı, iki nəvəsi var.

**MEHMAN EYVAZ OĞLU QASIMOV**

1975-ci ildə anadan olmuş, orta məktəbi bitirib, sərhəd qoşunlarında, dövlət təhlükəsizlik orqanlarında xidmət etmişdir, Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini bitirmiş, leytenant rütbəsində hərbi prokurorluqda müstəntiq işləmişdir.



**RÖVŞƏN EYVAZ OĞLU QASIMOV**

1977-ci ildə anadan olmuş, orta məktəbi bitirib, daxili qoşunların tərkibində hərbi xidmətini başa vurmuşdur. Hazırda leytenant rütbəsində daxili qoşun polisində işləyir. Ali təhsilli hüquqşünasdır.

## NƏRİMAN KƏLBA HƏBİB OĞLU YUSİFOV



1929-cu ildə Böyük Vedidə anadan olmuşdur.

İrəvan Pedaqoji Texnikumunu bitirmiş, az müddət müəllim işləmiş, 1947-ci ildə ali təhsil almaq məqsədilə Bakı şəhərinə gəlib, Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsinə daxil olmuşdur. 1951-ci ildə ali təhsilini başa vurub, Qarabağ Vilayət Prokurorunun müavini təyin olunmuşdur.

1953-1961-ci illərdə Bakı şəhər prokurorluğunda baş müstəntiq, Bakı şəhər Çaparidze rayon prokururu, respublika prokururluğunda baş müstəntiq, Bakı şəhər Artyom rayon prokuroru vəzifələrində işləmişdir.

1961-ci ildə Moskvada aspiranturaya qəbul olunmuş, dissertasiya müdafiə edərək hüquq elmləri namizədi alimlik dərəcəsi almışdır.

N.Yusifov uzun müddət Moskvada SSRİ Ali Sovetində hüquq bölməsinin müdiri vəzifəsində çalışmışdır.

1977-ci ildə qayıdıb Bakı şəhər prokuroru işləmiş, 1978-ci ildə Ədliyyə naziri təyin olunmuşdur. Xeyli müddət bu vəzifədə çalışdıqdan sonra Moskvaya Azərbaycan Respublikasının daimi nümayəndəsi göndərilmiş, 1988-ci ildə Ə.Vəzirovun Azərbaycan rəhbəri təyin olunmasına etiraz əlaməti olaraq vəzifəsindən istefa vermişdir.

N.Yusifov hazırda Moskva şəhərində yaşayır və işləyir.



Oğlu **RAFAEL YUSİFOV** 1952-ci ildə anadan olmuş, Moskva Dövlət Universitetinin hüquq fakültəsini bitirmiş, uzun müddət Moskvada SSRİ Prokurorluğu sistemində çalışmışdır. Hazırda Rusiya Prokurorluğunun idarə rəisi, Baş prokurorunun köməkçisi vəzifəsində çalışır. 1990-ci ildən general-mayordur.

Digər oğlu **Rauf Yusifov** Azərbaycan Dövlət Universittinin şərqşünaslıq fakültəsini bitirib və hazırda RSFSR Xarici İşlər Nazirliyində baş müşavirdir.



## KARLEN İSGƏNDƏR OĞLU XUDAVERDİYEV



1935-ci il mayın 27-də Böyük Vedi kəndində anadan olmuşdur.

Xudaverdiyev Karlen 1943-cü ildə Çəmbərək rayonunun mərkəzində I sinfə getmiş (bu vaxt atası 31 yaşında Çəmbərək rayonunda RİK sədri idi), az sonra atası doğma Vediyə Maarif Şöbəsinin müdiri vəzifəsinə təyin olunduğundan, təhsilini Böyük Vedidə davam etdirmişdir.

1951-ci ildə Karlengilin ailəsi Azərbaycanı köçmüş və o da orta məktəbi 1953-cü ildə Ucar şəhərində qızıl medalla bitirmişdir.

Azərbaycan Dövlət Universitetinin fizika-riyaziyyat fakültəsinin riyaziyyat şöbəsinə imtahansız qəbul edilən Karlen 1958-ci ildə oranı fərqlənmə diplomu ilə bitirmiş və birbaşa aspiranturada saxlanmışdır. Hələ müdafiə etməmiş onu Universitetin Hesablama Mərkəzinə şöbə müdiri təyin etmişlər. Karlen 1962-ci ildə dissertasiya müdafiə edərək fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsi, 1965-ci ildə dosent elmi adı almışdır.

1973-cü ildə doktorluq dissertasiyasını müdafiə edərək, fizika-riyaziyyat elmləri doktoru elmi dərəcəsinə, 1978-ci ildə isə professor elmi adına layiq görülmüşdür. Bu kafedrada o, 1984-cü ilədək professor vəzifəsində işləmiş. 1984-cü ildən isə yeni yaradılmış "Riyaziyyat və onun tədrisi metodikası" kafedrasına müdir vəzifəsinə təyin olunmuşdur.

Karlen hazırda həmçinin "Odlar Yurdu" Universitetində də "Riyaziyyat" kafedrasının müdiri, Azərbaycan Riyaziyyatçılar Cəmiyyətinin vitse-prezidentidir. O, 100-dən çox elmi məqalənin, 2 monoqrafiyanın və 4 dərs vəsaitinin müəllifidir. O, 20-dən çox elmlər namizədi və 2 nəfər elmlər doktoru yetişdirmişdir.

Karlenin həyat yoldaşı Xudaverdiyev **Güləndam Abdulla qızı** 1967-ci ildən fizika-riyaziyyat elmləri namizədidir və hazırda Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Cəbr və həndəsə" kafedrasında dosent vəzifəsində çalışır.

Böyük oğlu, 1961-ci il təvəllüdlü **Xudaverdiyev Fuad Karlen oğlu** orta məktəbi qızıl medalla, BDU-nun mexanika-riyaziyyat fakül-

təsini fərqlənmə diplomu ilə bitirib, 1987-ci ildən fizika-riyaziyyat elmləri namizədidir və hazırda AMEA-nın Riyaziyyat və Mexanika İnstitutunda baş elmi işçi vəzifəsində çalışır. O, 8 dil – azərbaycan, türk, rus, ingilis, alman, fransız, italyan və ispan dillərini əla bilir.

Kiçik oğlu, 1965-ci il təvəllüdlü **Xudaverdiyev Faiq Karlen oğlu** orta məktəbi qızıl medalla, BDU-nun mexanika-riyaziyyat fakültəsini fərqlənmə diplomu ilə, sonra isə Azərbaycan Polis Akademiyasını bitirmişdir, ali təhsilli hüquqşünasdır. Hazırda Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin Mərkəzi Aparatında xidmət edir və polis mayorudur.

## HÜSEYN ABBAS OĞLU ORUCOV



1935-ci ildə Böyük Vedi kəndində anadan olmuşdur.

Atası Orucməmməd oğlu Abbas Vedinin məşhur adamlarından olmuşdur.

Hüseyn Orucov 1951-ci ildə Böyük Vedi kənd orta məktəbini, 1953-cü ildə Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Müəllimlər İnstitutunun fizik-riyaziyyat fakültəsini bitirmişdir. Bir il təyinatla indiki Beyləqan rayonunda kənd müəllimi işləmiş, sonra Bakıya gələrək Ç.İldırım adına Azərbaycan Politexnik İnstitutuna daxil olmuş, 1959-cu ildə oranı bitirərək həmin institutda asisstent vəzifəsində qalmışdır. O vaxtdan indiyə qədər ömrünü elmə və gənc nəslin təlim-tərbiyəsinə həsr etmişdir. SSRİ-nin əlaçı müəllimidir.

1982-ci ildə dissertasiya müdafiə edərək fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsi almışdır. Yaxşı işlərinə görə bir sıra mükafatlara layiq görülmüş, "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir. Hazırda Arxitektura və İnşaat Mühəndisləri İnstitutunun müəllimidir.



## CƏLİL HƏBİB OĞLU KƏRİMOV



1936-cı ildə Böyük Vedidə anadan olmuşdur.

Atası **Kəlba Rüstəm oğlu Həbibin** (1879-1975) 6 övladı olmuşdur: İslam, Ağca, Hüseyn, Pirəli, Məmmədəli və Cəlil.

**İslam** (1922-1942) İrəvan Pedaqoji Texnikumunu bitirib, Vedibasar kəndlərində müəllimlik etmiş, sonra orduya çağırılaraq Böyük Vətən müharibəsində həlak olmuşdur.

Ailənin qalan üzvləri 1948-1953-cü illərdə Beyləqan rayonuna deportasiya olunmuşlar. **Ağca** orta məktəbi Vedidə, Pedaqoji İnstitutu Bakıda qurtarmış, uzun müddət Beyləqan rayonunda müəllim işləmişdir.

**Hüseyn** (1928-ci il təvəllüd) məktəbi Vedidə qurtarıb, bir müddət rayon komsomol komitəsində işləmiş, Hortun kəndində müəllimlik etmiş, 1956-cı ildə Azərbaycan Dövlət Tibb İnstitutunu fərqlənmə ilə bitirmişdir. 1959-cu ildən Beyləqan rayon xəstəxanasında həkim işləyir.

**Pirəli** (1930-cu il təvəllüd) 1953-cü ildən Bakıda yaşayır. Bir oğlu (Tahir) və bir qızı (Mehriban) var.

**Məmmədəli** (1936-cı il təvəllüd) 1958-ci ildə İqtisad Universitetini bitirib. O vaxtdan bir müddət Beyləqan rayon sosial təminat şöbəsinin müdiri olmuş, 1975-ci ildən isə maliyyə şöbəsinin müdiri işləyir. İki oğlu var: Əhməd və Həbib.

**CƏLİL KƏRİMOV** isə 1959-cu ildə Azərbaycan Dövlət Universitetini bitirmiş, 1959-1961-ci illərdə Beyləqan rayonunun Plan şöbəsində müdir işləmişdir.

1961-ci ildən Bakıda yaşayır. İqtisad elmləri namizədi, dosentdir. 1968-ci ildən Azərbaycan Dövlət Neft Akademiyasında nəzəri iqtisadiyyatdan dərs deyir.

"Dünya iqtisadiyyatı", "Beynəlxalq iqtisadi münasibətlər", "Sahibkarlığın əsasları", "İqtisadi nəzəriyyəyə giriş" dərs vəsaitlərinin müəllifidir.

## FƏRMAN İSMAYIL OĞLU KƏRİMZADƏ



1937-ci il martın 3-də Böyük Vedi kəndində anadan olmuşdu.

**Atası İsmayıl Şıxəli oğlu** 1917-1920-ci illərdə Abbasqulu bəy Şadlinskinin rəhbərlik etdiyi "Mübariz dəstə"nin, 1920-1921-ci illərdə "Qırmızı tabor"un tərkibində erməni daşnaklarına qarşı mübarizənin fəal iştirakçısı olmuş, sovet hakimiyyəti illərində milis rəisinin müavini, milis rəisi vəzifələrində çalışmışdı.

1948-1953-cü illər deportasiyası zamanı bütün Böyük Vedililər kimi, onların da ailəsi Azərbaycana köçürülmüş, Beyləqan rayonunun Şahsevən kəndində məskunlaşmışdılar. Böyük Vedidə məktəbə gedən balaca Fərman orta təhsilini Beyləqanda başa vurmuşdu. Sonra Azərbaycan Dövlət İncəsənət İnstitutunu bitirmişdi.

1958-ci ildə qələmə aldığı "41 nömrəli ayaqqabı" hekayəsi ilə nəsrə gələn F.Kərmizadə sonra çoxlu hekayə və povestlər yazdı. Lakin 1967-ci ildə tamamladığı "Qarlı aşırım" romanı, 1969-cu ildə ekranlara çıxardığı "Axırıncı aşırım" filmi onu bütün Azərbaycanda məşhurlaşdırdı, müasir ədəbiyyatımızın canlı klassikinə çevirdi.

Bunun ardınca "Xudafərin körpüsü", "Çaldıran döyüşü", "Qoca qartalın ölümü", "Təbriz namusu" kimi məşhur romanlar yazılıb ortaya qoyuldu. "Vedinin yanı dağlar" kimi dəyərli publisistik yazı qələmə alındı və s. F.Kərimzadə həm də gözəl şair və gözəl rəssam idi.

Lakin bütün bunlarla yanaşı, F.Kərimzadə həm də böyük Ürək və Qeyrət sahibi, böyük Vətənpərvər idi. Qərbi Azərbaycan torpaqlarını kənd-kənd gəzər, ildə bir neçə dəfə Vedi kəndlərində olardı. Vedibasarda Şirazlı faciəsi baş verəndə özünü şirazlıların köməyinə Bakıdan ilk yetirən də o oldu. Şirazlılardan, vedililərdən nümayəndə heyəti təşkil edib, Bakıya, Moskvaya üz tutdu...

Qaçqınlar Azərbaycana pənah gətirəndən sonra da ev-ev, küçə-küçə, kənd-kənd, şəhər-şəhər onları arayıb-axtardı, dərdlərinə məlhəm qoymağa çalışdı. 1989-cu ilin martında elə onların arasında da dərddən ürəyi partladı. 52 yaşında şəhid oldu.



## AZƏR BİLAS OĞLU ŞADLİNSKİ



1937-ci ildə Vedi rayonunun Avşar kəndində anadan olmuşdur.

Ailələri 1948-ci ildə Böyük Vedidən Şəmkir rayonunun Çinarlı kəndinə deportasiya olunmuş və Azər 1955-ci ildə Çinarlı kənd orta məktəbini bitirmişdir.

1958-1964-cü illərdə Tibb İnstitututunda təhsil alan Azər Şadlinski institutu bitirib, Şəmkirə qayıdır. Dörd il burada həkim məntəqəsinə başçılıq edir.

1967-ci ildə Tibb İnstitutunun müalicə fakültəsinin cərrahlıq kafedrasının aspiranturasına daxil olur. 1971-ci ildə dissertasiya müdafiə edərək tibb elmləri namizədi alimlik dərəcəsi alır.

1970-ci ildən Tibb İnstitutunun müəllimi, 1976-cı ildən bu institutun dosentidir. SSRİ Qastroentroloqlar Cəmiyyətinin və Azərbaycan Cərrahlar Cəmiyyəti idarə heyətinin üzvüdür.

İki monoqrafiya, iki dərslik və 120-yə qədər elmi məqalənin müəllifidir. Rusca-azərbaycanca tibb terminləri lüğəti hazırlamışdır. Təcrübəli cərrahdır.

Həyat yoldaşı **Solmaz xanım** tibb sahəsində çalışır. Böyük oğlu **Elçin** hərbi həkimdir. Oğlu **Anar** Qarabağ müharibəsi veteranıdır, ali təhsillidir. Qızı ali təhsilli həkimdir.

## MƏMMƏD TEYMUR OĞLU ƏLİYEV



1937-ci ildə Böyük Vedi kəndində anadan olmuşdur.

1944-cü ildə Vedi rayon orta məktəbinin 1-ci sinifinə daxil olmuş, 1951-ci ilin dekabr ayında ailəlikcə indiki Beyləqan (Jdanov) rayonuna deportasiya olunmuşlar. 1955-ci ildə rayonun Şahsevən kənd orta məktəbini bitirmişdir.

1956-1959-cu illərdə respublika rəhbər kadrlar hazırlayan məktəbdə və 1959-1964-cü illərdə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda oxumuş və oranı müvəffəqiyətlə bitirmişdir.

1964-1965-ci illərdə Ümumittifaq Yalta Massandra Üzümçülük-Şərabçılıq Kombinatının 1 №-li zavodunda şərabçı, 1965-1966-cı illərdə Azərbaycan Üzümçülük-Şərabçılıq Komitəsinin Mil üzümçülük sovxozunda baş aqronom vəzifələrində çalışmışdır.

1966-cı ilin dekabr ayında əyani aspiranturaya daxil olmuş, 1971-ci ildə dissertasiya müdafiə edərək kənd təsərrüfatı elmləri namizədi alimlik dərəcəsi almışdır.

1971-1973-cü illərdə Şamaxı Üzümçülük-Şərabçılıq ET stansiyasının müdiri, 1973-1978-ci illərdə Qazax rayon Üzümçülük-Şərabçılıq Trestinin müdir müavini, 1978-1982-ci illərdə Qazax rayon k/t məhsulları üzrə Dövlət Keyfiyyət Müfəttişliyi idarəsinin rəisi işləmişdir.

1982-ci ildə Azərbaycan Dövlət Plan Komitəsinə dəvət olunaraq, 1991-ci ilədək orada şöbə rəisi vəzifəsində və həmin ildən Azərittifaqa dəvət olunaraq, Kənd Təsərrüfatı Məhsulları və xammallarının tədarükü, satışı üzrə Respublika Birliyinin Baş direktoru vəzifəsində işləmişdir.

1993-cü ildən Azərbaycan Kooperasiya İnstitutuna dəyişilərək, hazırda kafedranın dosenti vəzifəsində çalışır. 23 elmi əsərin, o cümlədən üç monoqrafiya – ali məktəb dərsliyinin müəllifidir. Ailəlidir, iki övladı var.



## RƏHMAN YÜZBAŞI OĞLU KƏRİMOV



1939-cu il iyunun 13-də Böük Vedi kəndində anadan olmuşdur.

Atası **Kəlba Rüstəm oğlu Yüzbaşı** (1900-1940) və böyük qardaşı **Vəli** Böyük Vətən müharibəsində həlak olmuş, ailə isə 1950-ci ildə Azərbaycanın Beyləqan rayonuna deportasiya edilmişdir.

Ailənin ikinci oğlu **Bəhmən Kərimov** (1925-1974) İrəvan Pedaqoji Texnikumunu bitirmiş, Beyləqan rayonuna köçdükdən sonra 1953-1957-ci illərdə rayon Komsomol Komitəsinin 1-ci katibi işləmişdir. O, 1960-cı illərdə Bakı Ali Partiya Məktəbini bitirmiş və 1974-cü ilədək RPK-də məsul vəzifədə çalışmışdır.

Ailənin üçüncü oğlu **Kərimov Soltan** (1936-1998) 1959-cu ildə Politexnik İnstitutunun inşaat fakültəsini fərqlənmə ilə bitirmiş, Beyləqanda, Xaçmazda, Bakıda inşaat sahəsində rəhbər vəzifələrdə işləmişdir.

Ailənin kiçiyi **Kərimov Salman** (1942-2002) Azərbaycan Dövlət Universitetinin fazika fakültəsini bitirmiş, Beyləqan rayonunda və Bakı şəhərində müəllim işləmişdir.

Ailənin dördüncü oğlu Rəhman Kərimov orta məktəbi bitirib, ADU-nun fizika-riyaziyyat fakültəsinə daxil olmuş, üçüncü kursu başa vurduqdan sonra Moskva Dövlət Universitetinə dəyişilmişdir. Buranı bitirdikdən sonra Kiyev Dövlət Universitetində aspiranturaya daxil olmuş, orada elmlər namizədi, sonra isə elmlər doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya müdafiə etmişdir.

Professor R.Kərimov Bakıda əvvəl ADU-da, sonra isə Xalq Təsərrüfatı İnstitutunda çalışmışdır. 1993-cü ildən Dərbənddə yaşayırdı və ADİİ Dərbənd filialının direktoru işləyirdi. 100-dən artıq elmi əsərin, o cümlədən 2 monoqrafiyanın müəllifidir.

Görkəmli alim həm də gözəl ailə başçısı idi, 4 övladı var, hamısı da ali təhsillidirlər.

Professor R.Kərimov 1999-cu ildə dünyasını dəyişmişdir.

# VAQİF BİLAS OĞLU ŞADLİNSKİ



1940-cı ildə Böyük Vedi kəndində anadan olmuş, 1948-ci ildə ailəlikcə Azərbaycanın Şəmkir rayonuna deportasiya olunmuşlar.

1958-ci ildə Şəmkir rayonunun Lenin qəsəbə orta məktəbini, 1968-ci ildə Azərbaycan Tibb İnstitutunun stomatologiya fakültəsini bitirmişdir. Ali təhsilini fərqlənmə diplomu ilə başa vuran V.Şadlinski Elmi Şuranın qərarı ilə institutda saxlanmış və o vaxtdan etibarən institutun elmi və ictimai həyatında həmişə fəal iştirak etmişdir.

1970-ci ildən institutun anatomiya kafedrasında baş laborant, assistent, baş müəllim, dosent vəzifələrində işləyən Vaqif Şadlinski 1981-ci ildə "Tibb əlaçısı" fəxri adına layiq görülmüş, 1982-ci ildə dissertasiya müdafiə edərək tibb elmləri namizədi alimlik dərəcəsi almışdır.

1988-1991-ci illərdə 1-ci müalicə-profilaktika fakültəsində dekan müavini vəzifəsində çalışmış, 1991-1994-cü illərdə ATU-nun Həmkarlar İttifaqının sədri olmuş, 1994-1995-ci illərdə ümumi işlər üzrə prorektor vəzifəsinə irəli çəkilmiş, 1995-ci ildə ATU-nun İnsan anatomiyası kafedrasının müdiri vəzifəsinə seçilmişdir.

1996-cı ildən Azərbaycan Tibb Univesitetinin tədris işləri üzrə prorektoru vəzifəsində çalışmışdır. 1999-cu ildən tibb elmləri doktorudur. 10 dərsliyin, 8 monoqrafiyanın, 220-dən çox elmi və 50-dən çox ictimai-kütləvi məqalənin müəllifidir.

1999-cu il üçün elmi və pedaqoji nailiyyətlərinə görə Y.Məmmədəliyev adına mükafata, 2000-ci ildə respublikanın Əməkdar həkimi fəxri adına, YUNESKO-nun Kadrlar Akademiyasının qızıl medalına layiq görülmüşdür.

O, həmçinin Hacı Zeynalabdin Tağıyev mükafatının laureatı, Rusiya Təbiət Elmləri Akademiyasının həqiqi üzvü, Qafqaz Akademiyasının vitse-prezidenti, Rusiyada çıxan "Morfologiya" və Gürcüstanda çıxan "Eksperimental və klinik təbabət" jurnallarının redaksiya heyətinin üzvü, Avropa və Baltikyanı ölkələr üzrə Patoloqlar Cəmiyyəti İdarə Heyətinin üzvüdür. ABŞ, İsrail, İspaniya, CAR, Rumıniya, Almaniya və Türkiyədə elmi məruzələrlə çıxış etmişdir.



# SABİR ƏLİ OĞLU KƏRİMOV



1940-cı il martın 2-də Böyük Vedi kəndində anadan olmuşdur.

Atası **Əli Kərim oğlu Bağırov** Vedinin Kosanlı tayfasının hörmətli kişilərindən idi.

S.Kərimov 1957-ci ildə Böyük Vedi orta məktəbini bitirmişdir. Sonra təhsilini artırmaq məqsədilə Bakı şəhərinə gələrək Azərbaycan Dövlət Universitetinin iqtisadiyyat fakültəsinə daxil olmuş, ali iqtisadçı ixtisasına yiyələnmişdir.

1961-ci ildən ixtisası üzrə əmək fəaliyyətinə başlayan S.Kərimov 1969-cu ildən etibarən Bakı şəhərinin bir sıra mərkəzi rayonlarında fasiləsiz olaraq rəhbər vəzifəsində işləmişdir.

Hazırda isə Bakı şəhər Suraxanı rayonunun Maliyyə İdarəsinin rəisidir. Maliyyə orqanlarında uzunmüddətli iş təcrübəsinə malik olan S.Kərimov işlədiyi sahənin bilicisi, gözəl mütəxəssisi kimi tanınmışdır. Onun rəhbərliyi altında yetişən kadrlar bu gün respublikanın müxtəlif maliyyə orqanlarındla rəhbər vəzifələrdə çalışırlar.

Ailəlidir. Kosanlı tayfasından öz dayısı Əli Məmmədovun qızı **Zərifə xanımla** xoşbəxt ailə qurmuşdur. İki övladları, beş nəvələri var.

Oğlu **Rauf Kərimov** 1962-ci ildə anadan olmuş, Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmişdir. Hazırda Abşeron Su Səhmdar Cəmiyyətində məsul vəzifədə çalışır. Ailəlidir. Həyat yoldaşı **Arifə xanım Novruz qızı** ali təhsilli həkimdir. İki övladları var: **Nəzrin, Kamran**.

Digər oğlu **Rasim Kərimov** 1965-ci ildə anadan olmuş, Azərbaycan İqtisadiyyat Universitetini bitirmişdir. Hazırda ixtisası üzrə neft sənayesi sistemində çalışır. Ailəlidir. Həyat yoldaşı **Məhbubə xanım Zeynalabdin qızı** ali təhsillidir. Üç övladları var. **Həlimə, Ayişə** və Sabir babasının adını daşıyan 5 yaşlı balaca **Sabir.**

## ÇAPAY EYVAZ OĞLU HƏSƏNOV



1940-cı ildə Böyük Vedi kəndində anadan olmuş, 1958-ci ildə Böyük Vedi kənd orta məktəbini, 1961-ci ildə Azərbaycan Pedaqoji İnstitutunun fizika və riyaziyyat fakültəsini bitirmişdir.

1966-1973-cü illərdə Zaqatala rayon Danaçı və Suvagil kənd orta məktəblərində müəllim və təlim-tərbiyə işləri üzrə direktor müavini işləmiş, 1973-cü ildə "N.Tusi adına ARU-nin eksperimental və nəzəri fizika kafedrasında böyük laborant, keçmiş Azərbaycan Mərkəzi Müəllimləri Təkmilləşdirmə İnstitutunda metodist, 1975-1994-cü illərdə Təhsil Nazirliyinin Kadrlar idarəsində inspektor, sonradan isə hal-hazıra kimi Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təhsil Problemləri İnstitutunda aparıcı mütəxəssis vəzifəsində işləyir.

## PƏNAH ALI OĞLU ƏLİYEV



1942-ci ildə Böyük Vedi kəndində anadan olmuşdur.

Ailələri 1950–ci ildə deportasiya olunaraq, Beyləqan rayonununun Şahsevən kəndində məskunlaşmışlar. Pənah Əliyev də burada orta məktəbi bitirib, Nərimanov adına Azərbaycan Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olmuş və 1968-ci ildə ali təhsilini uğurla başa vurmuşdur.

1968-1970-ci illərdə Lənkəran şəhərində hərbi xəstəxanada, 1970-1974-cü illərdə Bakıda 56 saylı poliklinikada və bir müddət təcili yardım xəstəxanasında həkim-cərrah işləyir.

Həkimlik və təşkilatçılıq bacarığını nəzərə alıb, 1975-ci ildə onu Səhiyyə Nazirliyinin Travmatologiya və Ortopediya Klinik Xəstəxanasına baş həkim təyin edirlər.

P.Əliyev hazırda 1 saylı şəhər xəstəxanasının (Semaşkonun) baş həkimidir.



## VAQİF VƏ RƏQİF İSMAYIL OĞLU ƏLİYEV QARDAŞLARI VƏ ONLARIN ÖVLADLARI



**VAQİF İSMAYIL OĞLU ƏLİYEV** 1944-cü ildə Böyük Vedi kəndində anadan olmuş, 1949-cu ildə Əli Bayramlı rayonunun Vladimirovka kəndinə deportasiya olunmuşlar. Valideynlərini erkən itirdiklərindən dayıları Eylas Qasımovun himayəsində böyümüşlər.

V.Əliyev Şahsevən kənd orta məktəbini, Ağdam mexanik məktəbini bitirib, hərbi xidmətdən sonra isə ikiillik Xarkov avtoyol müfəttişi məktəbini bitirmişdir. Qayıdıb, Bakıda, İmişlidə yol polisi müfəttişi, Yardımlıda DYP rəisi, Saatlıda DYP rəisi vəzifələrində işləmişdir. İşlədiyi müddətdə Rostov şəhərində Polis Akademiyasını bitirən V.Əliyev 2000-ci ildə polis mayoru rütbəsində təqaüdə çıxmışdır.



Oğlu **ƏLİ VAQİF OĞLU ƏLİYEV** 1973-cü ildə anadan olmuş, hərbi xidmətdən sonra Bakı Dövlət Universitetinin hüquq fakültəsini bitirmiş, leytenant rütbəsində polis orqanlarında işləmiş, xidməti vəzifəsini yerinə yetirərkən həlak olmuşdur.



Digər oğlu – **İMAN VAQİF OĞLU ƏLİYEV** 1975-ci ildə anadan olmuş, hərbi xidmətini bışa vurduqdan sonra Bakı Dövlət Universitetinin hüquq fakültəsini bitirmişdir. Hazırda baş leytenant rütbəsində ədliyyə orqanlarında çalışır.

## RƏQİF İSMAYIL OĞLU ƏLİYEV



1946-cı ildə Böyük Vedi kəndində anadan olmuşdur. Beyləqan rayonunun Şahsevən kəndində orta məktəbi bitirib, hərbi xidmətə çağırılmış, Çexoslovakiyada qulluq etmişdir. Qulluqdan qayıtdıqdan sonra İmişli dəmiryol milisində işə girmiş, Mərdəkan Milis Məktəbini bitirib, leytenant rütbəsi almışdır.

Sonralar zabit kimi, dəmiryol milisi sistemində müxtəlif vəzifələrdə çalışmış, polis kapitanı rütbəsində təqaüdə çıxmışdır. Qarabağ müharibəsi veteranıdır.

Ailəlidir, üç övladı, iki nəvəsi var.

Oğlu **Vüqar Rəqif oğlu Əliyev** 1978-ci ildə anadan olmuşdur. Hazırda polis orqanlarında çalışır.

## ƏLİ QURBAN OĞLU RZAYEV



1946-cı ildə Böyük Vedi kəndində anadan olmuşdur.

Ata babası Vedibasar mahalında seçilən şəxsiyyət olan **Kəbla Şükür bəy**, ana babası Vedinin qlavası olmuş **Ağa Süleymanovdur.** Bu iki şəxsiyyət bir-biri ilə dostluq etmiş, sonra da Kəbla Şükür bəyin oğlu **Qurban** Ağa Süleymanovun qızı **Gövhər xanımla** ailə qurmuş, Əli Rzayev bu izdivacdan dünyaya gəlmişdir.

Ə.Rzayev 1965-ci ildə orta məktəbi bitirib, əvvəlcə Azərbaycan Dövlət İncəsənət İnstitutunu, sonra isə Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini bitirmişdir.

Sonra Rusiyanın Kostroma vilayət daxili işlər idarəsində bir müddət baş müstəntiq işləmiş, 1981-ci ildə Azərbaycana qayıdıb Naxçıvanda xalq hakimi vəzifəsində çalışmışdır.

Ə.Rzayev uzun illər respublikanın məhkəmə orqanlarında çalışmış, Bakı şəhər məhkəməsinin üzvü olmuşdur. Həmçinin Azərbaycan Respublikası İnsan Hüquqları Komitəsinin təsisçilərindən biri və komitənin sədridir.



## FİRİDUN AĞASI OĞLU CƏLİLOV



1947-ci ildə Çimən kəndində anadan olmuşdur. Lakin bu vaxt kəndin adı rəsmi sənədlərdə Qarabağlar şəklində yazıldığından F.Cəlilovun doğum kağızında da doğum yeri Qarabağlar kəndi kimi qeyd olunmuşdur.

Atası Ağası kişi Böyük Vedidən, məşhur Şadlı tayfasının Qızılanlı qolundan idi. Firidun müəllimin özünün araşdırmalarına görə, həm Şadılı, həm də Qızıl tayfalarının Arazın sağ və sol torpaqları boyunca məskunlaşmasının 4 min illik tarixi var. Manna dövlətinin qonşusu olan xalqın Qızıl tayfaları (Qızılbut) və buradan axan çayın Qızıl-özən adlanması da bu məsələdə tutarlı dəlillərdir.

1948-1953-cü illər deportasiyasına məruz qalıb Azərbaycana köçürülən Cəlilovlar ailəsi sonda Bakıda məskunlaşır. Burada orta məktəbi bitirən Firidun müəllim Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində təhsil alır. Aspiranturaya daxil olur, dissertasiya müdafiə edərək əvvəl filologiya elmləri namizədi, sonra filologiya elmləri doktoru elmi dərəcələri alır, gənc yaşlarında professor olur.

Firidun müəllim çoxsaylı elmi məqalələrin, dərslik, monoqrafiya, dərs vəsaiti və s.-nin müəllifidir. "Azərbaycan dilinin morfonologiyası" monoqrafiyası dilçi alimlər tərəfindən yüksək qiymətləndirilmişdir.

1988-ci ildən xalq hərəkatının fəal iştirakçısı olan F.Ağasıoğlu respublikanını ictimai-siyasi həyatında da fəal iştirak etmişdir. 1990-cı ildə millət vəkili seçilmiş, 1992-1993-cü illərdə təhsil nazirinin müavini, Baş nazirin müavini, təhsil naziri vəzifələrində işləmişdir.

Son vaxtlara qədər Milli İstiqlal Partiyasının Mərkəzi Şurasına rəhbərlik edən Firidun müəllim hazırda İrəvan mahalının islamaqədərki qədim tarixi barədə fundamental tədqiqatlar üzərində çalışmaqdadır. "Azər xalqı" adlı irihəcmli kitabı Firidun müəllimin son illərdəki uğurlu elmi axtarışlarının nəticəsi olan dəyərli bir əsərdir.

F.Ağasıoğlu həm də Y.Məmmədəliyev adına, Müşfiq adına, Atatürkün qurduğu Dil-Tarix Qurumunun, Azərbaycanın İstiqlaliyyəti uğrunda "Qılınc qələm" mükafatlarına layiq görülmüş, Türk Törə Ocağı tərəfindən ona Bilgə titulu verilmişlir.

## MƏMMƏD ORUC



**Məmməd Kazım oğlu Orucov** 1947-ci ildə Böyük Vedi kəndində anadan olmuşdur.

1951-ci ildə ailəlikcə Azərbaycanın Beyləqan rayonunun Daşburun stansiyasına deportasiya olunmuşlar.

1965-ci ildə orta məktəbi bitirib, Bakıya gəlir və Azərbaycan Dövlət Universitetinə daxil olur. Bədii yaradıcılığa hələ orta məktəbdən başlayan, az vaxtda onlarla şer, məqalə çap etdirən Məmməd Oruc sonra ciddi şəkildə nəsrlə məşğul olur. İndiyə qədər 8 kitab nəşr etdirmişdir. Onlardan "Köçürülmə" romanının yazıçının yaradıcılığında xüsusi yeri var. Avtobioqrafik səciyyə daşıyan bu romanda 1948-1953-cü illər deportasiyası zamanı Vedibasar mahalının Böyük Vedi kənd camaatının Azərbaycana köçürülməsi, onların köçürüldükləri yerdə qarşılaşdıqları çətinliklər bütün detalları, mənəvi-psixoloji incəlikləri, fiziki-maddi itkiləri ilə qələmə alınmışdır.

## HEYDƏR MÜSEYİB OĞLU HÜSEYNOV



1950-ci ildə Böyük Vedi kəndində anadan olmuşdur. Atası Müseyib kişi mahalın sayılan kişilərindən idi. Elə həmin il ailələri Azərbaycana deportasiya olunmuş və Beyləqan rayonunun Şahsevən kəndində məskunlaşmışlar.

H.Hüseynov 1966-cı ildə Azərbaycan Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsinə daxil olmuş və 1971-ci ildə buranı bitirib, bir müddət təyinatla Cəlilabad rayonunun Sabirabad kəndində müəllim işləyir.

1979-cu ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun aspiranturasına daxil olur, 1987-ci ildə isə dissertasiya müdafiə edərək fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsi alır.

Hazırda APU-nun müəllimi, həndəsə kafedrasının dosentidir.



## AZƏR PİRƏLİ OĞLU RZAYEV



1951-ci ildə Böyük Vedi kəndində anadan olmuşdur.

1948-1953-cü illər deportasiyası zamanı bütün Böyük Vedililər kimi, onların da ailəsi Azərbaycana köçürülmüşdür.

1975-1978-ci illərdə Bakı Politexnik texnikumunda təhsil alan Azər Rzayev texnikumu fərqlənmə diplomu ilə bitirmişdir.

Sonra isə təhsilini davam etdirərək Azərbaycan Politexnik İnstitutunun avtomobil nəqliyyatı və istismarı fakültəsinə daxil olmuş, ali təhsilini uğurla başa vurmuşdur.

1978-ci ildən Daxili İşlər Orqanlarında çalışır.

Azər Rzayev DYP-də vzvod komandiri, rota komandiri vəzifələrində xidmət etmişdir.

Hazırda Azərbaycan Respublikası DİN BDYPİ-də şöbə rəisi vəzifəsində işləyir. Polis polkovnik-leytenantıdır. İşlədiyi sahənin gözəl mütəxəssisi kimi tanınmışdır.

Azər Rzayev 1979-cu ildə Vedibasar mahalının seçilən şəxsiyyətlərindən olan İsgəndər Xudaverdiyevin kiçik qızı Xanpəri xanımla ailə həyatı qurmuşdur.ı

Xanpəri xanım Az. İMET və Arxitektura institunda elmi-işçi işləyir.

2 övladları (**Lamiyə, Kənan**) və 1 nəvəsi (**Əsmər**) var. Övladlarının hər ikisi hüquqşünasdır.

Bütün bunlar Azər müəllimin quru rəqəm və qısa məlumatlarda ifadə olunan tərcümeyi-halıdır. Lakin Azər müəllim, hər şeydən əvvəl, Vətən, Millət və el-oba təəssübkeşliyi ilə çırpınan böyük bir qəlb yiyəsi, təpədən-dırnağadək səmimiyyətdən yoğrulmuş əvəzsiz insandır.

# AYDIN EYLAS OĞLU QASIMOV



1953-cü ildə Bakı şəhərində anadan olmuşdur. Əslən Böyük Vedinin Paski məhəlləsindəndir. 1948-1953-cü illər deportasiyası zamanı bütün böyük vedililər kimi, onların da ailəsi Azərbaycana deportasiya olunmuş, Beyləqan rayonunun Şahsevən kəndində məskunlaşmışlar.

Aydın Qasımovun ata babası **Əliyev İman Qasım oğlu** bütün Böyük Vedidə **Yetim İman** adı ilə tanınırdı. Ata nənəsi **Əliyeva Vəsmə Şükür qızı** Vedi mahalında məşhur **Şükür bəyin** qızı idi.

Aydın Qasımovun ana babası **Zamanov Bala Ağa Hadı oğlu** isə əslən Şamaxının tanınmış Zamanovlar nəslindəndi. 1902-ci il Şamaxı zəlzələsi zamanı əvvəl Lənkəranın Gəlmətürk kəndinə, sonra isə Bakı şəhərinə köçmüş, **Töhfə Mirzə qızı** ilə ailə həyatı qurmuşdu.

Aydın Qasımov Beyləqan rayonunun 1-ci Şahsevən kənd orta məktəbini bitirib, hərbi xidmətə yollanmış, 1972-1974-cü illərdə Lvov vilayətində qulluq etmişdir.

Ordudan qayıtdıqdan sonra Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsinə daxil olmuş, 1980-ci ildə universiteti müvəffəqiyyətlə bitirib, üç il Zəngilan rayon DİŞ cinayət axtarışı şöbəsində baş əməliyyat müvəkkili, 1983-1986-cı illərdə Tərtər rayon DİŞ-də baş əməliyyat müvəkkili vəzifələrində işləmişdir.

**Aydın müəllimin ata baba və nənəsi: Yetim İman və həyat yoldaşı Vəsmə xanım.**







**Aydın müəllimin ana baba və nənəsi: Bala ağa və həyat yoldaşı Töhfə xanım.**

1987-ci ildə Azərbaycan DİN-də əməliyyat müvəkkili vəzifəsinə irəli çəkilmiş, bir il burada uğurla işlədikdən sonra Tərtər rayon DİŞ-ə rəis müavini təyin olunmuşdur. 1991-ci ildə Bərdə rayon DİŞ-nin rəis müavini vəzifəsinə dəyişilmiş, bir il də burada işləmişdir. Tərtər və Bərdə DİŞ-də işlədiyi müddətdə əlində silah Azərbaycanın ərazi bütövlüyü uğrunda erməni daşnaklarına qarşı döyüşlərdə şəxsən iştirak etmişdir.

1992-ci ilin yayında Bakıya qayıdıb, Bakı şəhər Baş Polis İdarəsində əvvəl baş əməliyyat müvəkkili, sonra şöbə rəisinin müavini, şöbə rəisi, cinayət axtarışı idarəsinin rəisi vəzifələrində çalışmışdır.



**Aydın Qasımovun anası Möhtərəm xanım Bala Ağa qızı Zamanova**

1994-cü ilin avqustunda Qaradağ rayon polis idarəsinin rəisi vəzifəsinə təyin olunan Aydın Qasımov 1997-ci ilin martına qədər həmin vəzifədə işləmiş, 1997-ci il martın 6-da respublika prezidenti H.Əliyevin fərmanı ilə Azərbaycan Respublikası Ədliyyə nazirinin müavini, Məhkəmə Qərarlarının İcrası Baş İdarəsinin rəisi vəzifəsinə təyin edilmişdir.

Respublika prezidentinin 30 dekabr 1998-ci il tarixli fərmanı ilə polkovnik Aydın Qasımova general-mayor rütbəsi verilmişdir.



**Aydın müəllim ailə üzvləri ilə birlikdə**

Respublika prezidentinin etimadını doğrultmağa çalışaraq tutduğu vəzifənin öhdəsindən bacarıqla gələn Aydın Qasımov respublika islah-əmək strukturlarında rejimi dünya standartları səviyyəsinə uyğunlaşdırmaqla müstəqil Azərbaycan dövlətinin insan haqları sahəsində beynəlxalq imicinin yüksəlməsi üçün əlindən gələni edir.

Azərbaycanda ilk dəfə "Ədalət İlahəsi" Femidanın tunc heykəlini ucaldan, insanlarda ədalət və səmimiyyətə xüsusi önəm verən, işində və evində özü də ədalətli və səmimi olan Aydın Qasımov həm də ailəsini dərin məhəbbətlə sevən atadır. Üç övladı var: oğlanları **Ramiz**, **İman**, qızı **Jalə**. Bütün qəlbi və şüuru ilə ata-baba yurdu Vedibasar mahalına bağlı olan Aydın müəllim övladlarına da həmin ruhu aşılayır.



# AYAZ İSMAYIL OĞLU ORUCOV



1959-cu il yanvarın 1-də anadan olmuşdur.

Atası İsmayıl kişi Böyük Vedinin Paski tayfasının sayılıb-seçilən, var-dövlətli nəsillərindən olan **Orucməmməd uşağı** nəslindən Kərbəlayı Məmmədin oğlu və Sovet dövründə Vedibasar mahalının ilk ziyalılarından idi. O, 1911-ci ildə Böyük Vedidə anadan olmuş, 1937-ci ildə İrəvan Pedaqoji İnstitutunu bitirmiş, Vedi rayonunun müxtəlif məktəblərində riyaziyyat müəllimi, direktor vəzifələrində çalışmışdı.

Lakin 1940-cı ildə siyasi dünyagörüşünə görə həbs edilmiş, düz 10 il Sibirdə, Saxalində, Kuril adalarında həbs düşərgələrində olmuş, elə həmin vaxtlar Hüseyn Cavidlə yoldaşlıq etmişdi.

O, həbsdən qayıdanda artıq ailələri deportasiya olunmuş, Beyləqanın Şahsevən kəndində məskunlaşmışdılar. Lakin ona bu sərhəd kəndində yaşamağa icazə vermirlər və o, Qarabağa köçürülmüş eloğlularının arasında sığınacaq tapmağa məcbur olur.

Taleyin bir çox ağrı-acılarını dəf edə-edə yaşayan ailə 1975-ci il sentyabrın 1-də daha dəhşətli faciə ilə üz-üzə qalır, ailə başçısı İsmayıl müəllim dünyasını erkən dəyişir.

Ayaz Orucov səkkizinci sinfi Beyləqanda, 1976-cı ildə isə fizika-riyaziyyat təmayüllü orta məktəbi Bakıda bitirmişdir. Elə həmin il Azərbaycan Neft və Kimya İnstitutunun iqtisadiyyat fakültəsinə daxil olmuş, ali təhsilini tamamlayıb, ikinci ali təhsil almaq məqsədilə Azərbaycan İnşaat Mühəndisləri İnstitutuna qəbul olunmuş, oranı da uğurla bitirmişdir.

1982-1984-cü illərdə İnşaat Mühəndisləri İnstitutunun komsomol təşkilatı katibinin müavini olan, sonuncu tarixdən Bakı şəhərində təmir və tikinti sahələrində bir sıra məsul rəhbər vəzifələrdə çalışan Ayaz Orucov 1989-cu ildən özəl iqtisadi sektorda fəaliyyətə başlamış və qısa vaxtda bu sahədə böyük qabiliyyət və istedad nümayiş etdirmişdir.

1992-ci ildən "Hidromaşservis" Qapalı Səhmdar Cəmiyyəti İdarə Heyətinin sədridir. Fəaliyyətə ölkəmizə bir çox vacib sənaye məh-

sullarının, tikinti materiallarının gətirilməsi ilə başlayan bu struktur hazırda bir çox ölkələrlə biznes əlaqələri qurmuşdur.

Ayaz Orucov sırf Azərbaycan kapitalı ilə Azərbaycanda iş quran ən böyük iş adamlarındandır. Onun yaratdığı biznes strukturlarında 300 nəfərə yaxın əməkdaş çalışır.

Azərbaycan-Ukrayna iqtisadi əməkdaşlığındakı xidmətlərinə görə 2001-ci ildə Ukraynanın "Əməkdə igidliyə görə" ordeninə layiq görülmüşdür.



Keçən il Bakıda ""Ural" Ticarət Evi" Qapalı Səhmdar Cəmiyyətinin təsis edilməsi A.Orucovun yeni biznes uğurlarından xəbər verir. O, bu Cəmiyyətin də İdarə Heyətinin sədri və baş direktorudur.

A.Orucov həm də məşğul olduğu sahənin elmi əsaslarını tədqiq edir. O, 20-yə yaxın elmi əsər və monoqrafiyanın müəllifi, iqtisad elmləri namizədidir.

**Böyük qardaşı** – 1940-cı il təvəllüdlü **Cəlal İsmayıl oğlu Orucov** Xırdalan Sənaye Kombinatının direktorudur.

**Kiçik qardaşı** – 1960-cı il təvəllüdlü **AKİF İSMAYIL OĞLU ORUCOV** "Hidromaşservis" Qapalı Səhmdar Cəmiyyəti İdarə Heyəti sədrinin birinci müavinidir.

## TELLİ PƏNAH QIZI ƏLİYEVA



Böyük Vedi qəsəbəsində anadan olmuş, orta məktəbi bitirdikdən sonra Bakıya üz tutmuş, sənədlərini Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsinə verib, ali jurnalistika təhsili almışdır.

Teleradio şirkətində işə ştatdankənar müxbirlikdən başlamış, teleşirkətin informasiya üzrə sədr müavini, ikinci proqram direktoru vəzifələrinə qədər yüksəlmişdir.

Uğurlu jurnalistika fəaliyyətinə görə "Araz" ali ədəbi, "Qızıl qələm", "Həsən bəy Zərdabi", "Natəvan" mükafatlarına layiq görülmüş, "Ömrün qoşa izi" adlı publisistika və "Göydən üç alma düşdü..." adlı şer kitablarını nəşr etdirmişdir.



"Ayrılıqdan sonra çəkilmiş şəkillər" kitabında (2001) bir qrup Vedibasar ziyalısından bəhs etmişdir.

## NAZİM HÜSEYN OĞLU ŞADLİNSKİ



1941-ci ildə Böyük Vedidə anadan olmuşdur.

1968-ci ildə Azərbaycan Xarici Dillər İnstitutunu bitirib tərcüməçi, 1971-ci ildə Bakı Ali Partiya Məktəbini bitirib partiya-sovet işçisi, 1988-ci ildə isə Azərbaycan Kənd Təsərrüfatı Akademiyasını bitirib alim aqronom ixtisaslarına yiyələnmişdir.

1959-1968-ci illərdə Vedi rayonunda işləyən Nazim Şadlinski 1968-ci ildə Bakı şəhərinə köçərək burada bir sıra rəhbər vəzifələrdə çalışmışdır.

Daha sonra Azərbaycan Respublikası Meyvə-Tərəvəz Təsərrüfatı Nazirliyinin Kadrlar idarəsinin inspektoru, rəis müavini, rəisi (1980-1986-cı illər), Azərbaycan Respublikası Dövlət Aqrar-Sənaye Komitəsinin Kadrlar idarəsində baş inspektor (1986-1991-ci illər), Azərbaycan Respublikası Kənd Təsərrüfatı və Ərzaq Nazirliyinin Kadrlar idarəsində baş inspektor (1991-1992-ci illər), həmin idarənin rəis müavini (1992-1995-ci illər) vəzifələrində işləmişdir. Sonra uzun müddət Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyində Katibliyin rəisi vəzifəsində çalışmışdır. Hazırda həmin nazirliyin Kadrlar idarəsinin rəisidir.

## BUNUT (BUNUT QARATORPAQ)

Vedibasar mahalının Cığındərə bölgəsində, Vedi çayının mənbəyində, Topdağ dağının ətəyində, Qaratorpaq kəndi yaxınlığında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) Vedi nahiyəsinin **Punus kəndi**, "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Vedi nahiyəsinin **Benis kəndi** kimi qeydə alınmışdır. İkinci mənbədə kənddə Əhməd adlı şəxsin adına olan timardan dövlətin müxtəlif vergilər şəklində götürdüyü illik gəlirin 3.000 axça məbləğində olduğu göstərilmişdir.

İ.Şopendə (1832) kəndin adı **Pünüt** kimi qeydə alınmış və Vedibasarın dağıdılmış kəndləri siyahıysına salınmışdır. Bu o deməkdir ki, kənd 1826-1829-cu illər Rusiya-İran, Rusiya-Osmanlı müharibələri zamanı böyük dağıntılara məruz qalmışdır.

Sonradan yenidən məskunlaşan kənd 1873-cü ilin statistik məlumatlarında **Bnut (Bunut)** şəklində yazılmışdır. (Bəzi mənbələrdə **Binnət** kimi də qeyd olunur və Binnət, Bünyad şəxs adlarından yarandığı iddia edilir). Kənddə 23 təsərrüfatda 178 nəfər (88 kişi, 90 qadın) əhali yaşamışdır. Kəndin ərazisində həmçinin qədim kilsə qalıqları, xristian qəbiristanlığı və qəbirüstü abidələr də qeydə alınmışdır.

Kənd Qaratorpaq kəndi yanında yerləşdiyi üçün bəzən **Bunut Qaratorpaq,** yəni Qaratorpaq kəndi yanında Bunut kəndi də adlanmışdır.

Yeri gəlmişkən, Azərbaycan Respublikasının Oğuz rayonunda da Bunut kəndi mövcuddur. Bu fakt özü də Bunut (əvvəllər Bunus) toponiminin etnonim səciyyəsi barədə düşünməyə əsas verir. Burada buntürk etnonimi ilə də ciddi bağlılıq göz önündədir.

1886-cı ildə kənddə 26 təsərrüfatda 178 nəfər (104 kişi, 74 qadın) Azərbaycan türkü yaşamışdır. Kənd əhalisinin sayı 1997-ci ildə 161 nəfərə, 1905-ci ildə 397 nəfərə, 1914-cü ildə 437 nəfərə çatmışdır.

1918-1920-ci illər erməni-müsəlman qırğını zamanı kənd erməni daşnakları tərəfindən tamamilə dağıdılmış, əhalisi isə kənddən qovulmuşdur. Kənd o vaxtdan xaraba qalmışdır.



## CADQIRAN (ÇUDKƏND, QARAÇORLU)

Vedibasar mahalınm aran hissəsində, Ağrıdağ vadisində, Vedi çayından ayrılan su arxının və İrəvan-Naxçıvan avtomobil yolunun, İrəvan-Naxçıvan-Bakı dəmiryol xəttinin üstündə, Şirazlı kəndinin yanında kənd.

1920-ci ilə qədər kənddə əsasən Azərbaycan türkləri, qismən də müsəlman kürdləri yaşamışlar. 1922-ci ildən 1935-ci ilə – Şirazlı kəndinin tərkibinə qatılana qədər azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuşdur.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) Aralıq nahiyəsinin (Vedibasar mahalının Arazboyu hissəsinin) **Cadqıran kəndi** kimi, "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə Vedi nahiyəsində **Yuxarı Çadırğan** və **Aşağı Çadırğan** kəndləri şəklində qeydə alınmış, sonuncu mənbədə iki kəndin birlikdə illik gəlirinin 10.000 ağça olduğu göstərilmişdir. 1728-ci ilə aid başqa bir mənbədə kəndin adı **Çatıqıran** şəklindədir.

Cadqırandan başqa, həm də **Çudkənd, Qaraçorlu** adlanan kəndin əsl adı, görünür, **Çatqıran** olmuşdur. Buradakı "çat" komponentinin türk dillərində **"yarğanın kənarı"**, **"dağ beli"**, **"dağ çıxıntısı"**, **"qayalı yüksəklik"** və s. mənalarında işlənən söz olması barədə tədqiqatçıların (B.Budaqov, Q.Qeybullayev) irəli sürdüyü fikirlə razılaşırıq. Vaxtilə Qırxbulaq nahiyəsində Çatqıran kəndinin, XIII yüzildə indiki Dağlıq Qarabağ ərazisində Çat-Çoran kəndinin, XIX yüzildə Şimali Qafqazda Çat-Başı, Çat-Aman dağlarının, Qars dairəsində Çatköy kəndinin mövcudluğu da deyilənləri təsdiq edir. Hətta Qırğızıstanda da Çat-Bel, Sarı Çatı, Çat-Bazar dağları mövcud olmuşdur.

Toponimin **"qıran"** hissəsinə gəldikdə isə, bu, 1) türkmənşəli **Kiran** tayfasının adını da bildirə bilər (orta yüzillərdə Tovuz ərazisində Kiran qalası, sonralar isə burada Xınna Kirən, Quşçu Kirən kəndləri olmuşdur); 2) qədim türk dillərində **"hərbi düşərgə"** anlamındakı **kuren, quran, kuran** sözlərindən törəmə də ola bilər; 3) **qırılmış, kəsilmiş, sınmış** mənalarını daşıya da bilər.

İ.Şopendə (1832) Cadqıran kəndinin Vedibasar mahalının dağıdılmış kəndləri siyahısında verilməsi onun 1826-1829-cu illər

Rusiya-İran, Rusiya-Osmanlı müharibələri zamanı böyük fəlakətlərlə üz-üzə durmasından xəbər verir. Bundan əlavə, həmin mənbədə Vedibasar ərazisindəki köçəri tayfalar sırasında 140 nəfərdən ibarət 20 Qaraçorlu ailəsinin də adı çəkilir. Kəndin sonralar həm də **Qaraçorlu** adlanması, görünür, dağıdılmış Cadqıran kəndi ərazisində həmin Qaraçorlu tayfasının məskunlaşması ilə bağlıdır. (Qərbi Azərbaycanda Qaraçoran, Qaraçuran, Qaraçuranlı adlı bir neçə kənd olmuşdur).

1873-cü ildə Cadqıran kəndində 26 təsərrüfatda 212 nəfər (115 kişi, 97 qadın) Azərbaycan türkü qeydə alınmışdır.

1886-cı ildə kənd əhalisinin sayı 45 təsərrüfatda 365 nəfərə (185 kişi, 180 qadın) çatmışdır. Kəndin 393,75 desyatin torpaq sahəsinin 5 desyatinini malikanə torpaqları, 2 desyatinini bağ sahələri, 158 desyatinini suvarılan əkin yerləri təşkil etmişdir. Kənddə 229 iribuynuzlu, 847 xırdabuynuzlu mal-qara saxlanmışdır.

Kəndin Arxaşan yaylağında 290 desyatin ərazidə eyniadlı yurd yeri olmuşdur. Kənddən 38 verst aralıda yerləşən bu yaylaqdan kənd camaatı qədimdən istifadə etmişdir.

1897-ci ildə kənddə 432 nəfər, 1905-ci ildə (həmin il erməni-müsəlman qırğınından sonra) 243 nəfər, 1916-cı ildə 516 nəfər (görünür, 1905-ci ildə kənddən didərgin düşən camaat sonra geri dönmüşdür) azərbaycanlı yaşamışdır.

1918-1920-ci illər erməni-müsəlman davası zamanı erməni daşnakları tərəfindən kənd dağıdılmış, əhalisi isə qətl və qarətlərə məruz qalaraq vəhşicəsinə qovulmuşdur.

1922-ci ildə kəndin qaçqın əhalisindən cəmi 188 nəfəri geri dönə bilmişdir. Bu vaxt kənddə 160 nəfər Türkiyədən gəlmə ilk ermənilər də yerləşdirilmişdilər. 1931-ci ildə kənd əhalisinin nisbəti 243 nəfər azərbaycanlı, 165 nəfər erməni şəklində olmuşdur.

1935-ci ildə kənd Şirazlı kəndinin tərkibinə qatılaraq adı Vedi rayonunun xəritəsindən silinmişdir. Kəndin və onun əhalisinin sonrakı taleyi Şirazlı kəndinin və Şirazlı camaatının taleyi ilə eynidir.



## CAMIŞBASAN

Vedibasar mahalının Cığındərə bölgəsində, Vedi rayonunun mərkəzi olan Böyük Vedi qəsəbəsindən 20 km şərqdə, Vedi çayının sol kənarında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

İ.Şopendə (1931) Vedibasar mahalınm **Camışbasan kəndi** kimi qeydə alınmış, kənddə 9 ailədə 51 nəfər (26 kişi, 25 qadın) müsəlmanın yaşadığı göstərilmişdir.

Kəndin adının qızılbaşların **Camış-Gəzəkli** tayfasının adından yaranması ehtimalı həqiqətə daha çox uyğundur. XIX yüzildə Qars əyalətinin Qars və Kaqızman dairələrində Camuşqala və Camış-Taş toponimləri də mövcud olmuşdur. Qərbi Azərbaycanda isə Gümrü qəzasında Aşağı Camışlı və Yuxarı Camışlı, Abaran mahalında Camışlı kəndləri, Gümrü qəzasında Camışsu çay adı qeydə alınmışdır.

Vedibasar mahalının Camışbasan kəndində 1873-cü ildə 10 təsərrüfatda 94 nəfər (55 kişi, 39 qadın) Azərbaycan türkü yaşamışdır.

1886-cı ildə kənd əhalisinin sayı 12 təsərrüfatda 120 nəfərə (66 kişi, 54 qadın) çatmışdır. Kəndin 890 desyatin torpaq sahəsinin 1 desyatinini malikanə torpaqları, 0,25 desyatinini bağ sahələri, 10 desyatinini suvarılan, 117 desyatinini suvarılmayan əkin yerləri təşkil etmişdir. Kəndin 175 iribuynuzlu, 155 xırdabuynuzlu mal-qarası olmuşdur.

Kəndin torpaqları **Cığınsu (Vedi)** və **Teşbulaq** çaylarının suyu ilə suvarılmışdır.

Kəndin İrəvan qəzasının **Başaxyurd** yaylağında 125 desyatin ərazini əhatə edən **Tikanlıyurd** adlı yurd yeri olmuşdur. Kənddən 8 verst aralıda yerləşən bu yurddan Camışbasan kənd camaatı qədimdən istifadə etmişdir.

1897-ci ildə Camışbasan kəndinin əhalisi azalaraq 65 nəfərə enmişdir. Bu, onunla əlaqədar idi ki, kəndin aşağı yanında Əzizkənd (Aşağı Camışbasan) adlı kənd sürətlə böyüməkdə idi və bu kəndin sakinlərinin əksəriyyəti də Camışbasan kəndindən çıxan ailələr idi.

Buna görə də XX yüzilin əvvəllərində Camışbasan kəndi tarix səhnəsindən silinərək öz yerini Aşağı Camışbasan kəndinə vermiş oldu. Qədim Camışbasan kəndinin xarabalıqları, oradakı müsəlman qəbiristanlığının qalıqları son vaxtlara qədər də Əzizkənd (Aşağı Camışbasan) kəndinin yaxınlığında qalmaqda idi.

## CƏFƏRLİ (CƏFƏRLİ GÜNNÜT)

Vedibasar mahalının Çanaxçıdərə bölgəsində, Çanaxçı kəndi yaxınlığında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Vedi nahiyəsində **Cəfərkənd** və Dərələyəz nahiyəsində **Cəfərli** adları ilə qeydə alınmışdır. Birincinin Qarabağ kəndi yaxınlığında yerləşdiyi və illik gəlirinin 3.500 ağça olduğu, ikincinin isə illik gəlirinin 1.801 ağça olduğu qeyd edilmişdir.

"Naxçıvan sancağının müfəssəl dəftəri"ndə (1727) **Cəfərli kəndində** heç kimin yaşamadığı qeyd edilmişdir. Dövlətin müxtəlif vergilər şəklində kənddən götürdüyü 1.801 ağça verginin isə başqa yerlərdən gəlib kəndin ərazisində əkib-becərmə işləri görənlərdən alındığı göstərilmişdir.

Kəndin adının Cəfər şəxs adından düzəlməsi və ya Qazax elinin **Cəfərli** tayfasının adını əks etdirməsi (B.Budaqov, Q.Qeybullayev) versiyaları mövcuddur. Bizcə, burada toponimin İslamın **Cəfəri təriqəti** ilə bağlılığı ehtimalı da nəzərdən qaçırılmamalıdır. Azərbaycanın İmişli və Qazax rayonlarında da eyniadlı kəndlər mövcuddur.

1826-1829-cu illərdə Rusiya-İran, Rusiya-Osmanlı müharibələri zamanı böyük dağıntılara məruz qalan **Cəfərli kəndi** İ.Şopendə (1832) Vedibasar mahalının xaraba kəndləri siyahısına daxil edilmişdir. Bundan əlavə, İ.Şopendə Vedibasar ərazisindəki köçəri tayfalar sırasında 16 ailədə 82 nəfərdən ibarət olan **Cəfərli tayfasının** da adı çəkilir. Sonralar bu adamlar Cəfərli kəndinin xarabalıqlarından şərqdə, Çanaxçıdərə istiqamətində yeni Cəfərli kəndi salmışdılar və bu kənd 1886-cı ilə aid mənbələrdə artıq **Cəfərli-Günnüt** (yəni **Günnüt kəndi yaxınlığında Cəfərli kəndi**) kimi qeyd olunur və orada 34 təsərrüfatda 341 nəfər (191 kişi, 150 qadın) Azərbaycan türkünün yaşadığı göstərilir.

Həmin dövrdə kəndin 457,75 desyatin torpaq sahəsinin 3,75 desyatinini malikanə torpaqları, 280 desyatinini isə suvarılmayan əkin yerləri təşkil etmişdir. Kənddə 123 iribuynuzlu, 304



xırdabuynuzlu mal-qara saxlanmışdır.

Kəndin köhnə Cəfərli kəndinin yerində **Xaraba Cəfərli-ağıl** adlı 214 desyatin ərazini əhatə edən qışlağı da olmuşdur.

1897-ci ildə kənddə 333 nəfər, 1904-cü ildə 406 nəfər, 1916-cı ildə 383 nəfər azərbaycanlı yaşamışdır.

1918-1920-ci illərdə erməni-müsəlman davası zamanı daşnaklar tərəfindən dağıdılan, əhalisi qətl və qarətlərə məruz qalan kənd bir də Sovet hakimiyyəti illərində yenidən məskunlaşmışdır.

1931-ci ildə kənd əhalisinin sayı 156 nəfər olmuşdur.

1937-1948-ci illərdə Qarabağlar rayonunun tərkibində mövcud olan kəndin əhalisi (cəmi 40 ailə) 1949-cu ildə bütünlüklə Azərbaycana köçürülmüş və kənd o vaxtdan xaraba qalmışdır.

## CIĞIN QARAQOYUNLU (AŞAĞI QARAQOYUNLU, QARAQOYUNLU)

Vedibasar mahalının Cığmdərə bölgəsində, Vedi çayının kənarında, Kolanlı kəndi yaxmlığında, dəniz səviyyəsindən 1856 m yüksəklikdə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) Vedibasar mahalının Arazboyu hissəsini əhatə edən Aralıq nahiyəsində **Qaraqoyunlu** adı ilə iki kənd – **Yuxarı Qaraqoyunlu** və **Aşağı Qaraqoyunlu** kəndləri qeydə alınmışdır. "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) və İ.Şopendə (1832) isə Gərnibasar mahalı ərazisində **Qaraqoyunlu** adlı kənddən bəhs edilmişdir.

Vedibasar mahalında isə bir neçə **Qaraqoyunlu** kəndi olmuşdur. Lakin bunlardan ikisi "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) **Qarançа** və **Qarançа Şətli** (yəni **Qaraqoyunlu** və **Qaraqoyunlu Şidli**) kimi yazıya alınmışdır. Qarançа (ikinci adı Qaracıq) sonralar Qaralar, Qarançа Şətli isə sonralar Şidli kəndi adlanmışdır.

Vedibasar mahalının dağlıq hissəsində, Cığın dərəsində kəndin adına **Cığın Qaraqoyunlu** şəklində ilk dəfə 1873-cü ilin məlumatlarında rast gəlirik. Cığınsu (Vedi) çayı kənarında yerləşən bu kənddə 1873-cü ildə 44 ailədə 376 nəfər (205 kişi, 171 qadın) Azərbaycan türkü qeydə alınmışdır.

1886-cı ildə kənd əhalisinin sayı 464 nəfərə (249 kişi, 215 qadın) çatmışdır. Onlardan 35 nəfərinin (15 kişi, 20 qadın) bəy ailəsinə mənsubluğu barədə də mənbədə qeyd var.

Kənd əhalisinin əsas təsərrüfat məşğuliyyəti əkinçilik və maldarlıq olmuşdur. Belə ki, kəndin 1637,5 desyatin torpaq sahəsinin 4 desyatinini malikanə torpaqları, 60 desyatinini suvarılan, 420 desyatinini suvarılmayan əkin yerləri təşkil etmişdir. Kənddə 506 iribuynuzlu, 1181 xırdabuynuzlu mal-qara qeydə alınmışdır. Kəndin torpaqları **Ağbulaq** çayının suyu ilə suvarılmışdır.

Kənd adını Oğuz türklərinin məşhur **Qaraqoyunlu** tayfasının adından götürmüşdür. **Cığın Qaraqoyunlu** – **Cığındərədə** (və ya **Cığın kəndi yaxınlığında) yerləşən Qaraqoyunlu kəndi** anlamındadır. Kəndin yuxarısında yeni Qaraqoyunlu kəndi salındıqdan və bu kənd Yuxarı Qaraqoyunlu adlandıqdan sonra Cığın Qaraqoyunlu kəndi də bəzən **Aşağı Qaraqoyunlu** adlanmışdır. Bu, təxminən 1870-ci illərin sonlarına təsadüf etmişdir. Çünki 1886-cı ilə aid məlumatlarda Aşağı Qaraqoyunlu Cığın Qaraqoyunlu kəndinin ikinci adı kimi verilmişdir. Qaraqoyunlu etnotoponimi və onun Cənubi Qafqazda yayılma arealı barədə Qaraqoyunlu (Yuxarı Qaraqoyunlu) kəndindən danışarkən ətraflı bəhs etdiyimizdən burada təkrar etmirik.

1897-ci ildə Cığm Qaraqoyunlu kəndində 389 nəfər, 1904-cü ildə 551 nəfər, 1914-cü ildə 606 nəfər azərbaycanlı yaşamışdır.

Bu yerdə qeyd etmək istəyirik ki, təxminən XX yüzilin sonu - XX yüzilin əvvəllərində Qaraqoyunlu (Yuxarı Qaraqoyunlu) kəndi Cığın Qaraqoyunlu kəndi ilə qaynayıb-qarışmışdır. Kənd bir müddət əvvəlki adı ilə **Cığın Qaraqoyunlu** adlansa da, 1935-ci ildə adı dəyişdirilərək sadəcə **Qaraqoyunlu** qoyulmuşdur.

1918-1920-ci illərdə erməni-daşnak təcavüzünün qurbanı olan kənd yerlə-yeksan edilmiş, əhalisi doğma yurdundan didərgin salınmışdır.

Bölgədə Sovet hakimiyyəti qurulduqdan az sonra kənd əhalisinin cüzi bir hissəsi – 60 nəfəri geri qayıda bilmiş, yenidən özlərinə yurd-yuva tikməyə başlamışlar.

1926-cı ildə kənddə 101 nəfər, 1931-ci ildə 139 nəfər, 1939-cu ildə isə 321 nəfər azərbaycanlı əhali yaşamışdır.

Qaraqoyunlu kəndi 1937-1948-ci illərdə Qarabağlar rayonunun tərkibində mövcud olmuş, 1939-cu ildə isə qonşu Təzəkənd kəndi də ləğv edilərək əhalisi Qaraqoyunlu kəndində məskunlaşdırılmışdır.

Qaraqoyunlu kəndində yeddillik məktəb fəaliyyət göstərirdi. 1949-cu ildə Qaraqoyunlu kəndinin bütün əhalisi Azərbaycana köçürülmüş və kənd o vaxtdan xaraba qalmışdır.

* * *

Qaraqoyunlu kəndinin üstündə **Qanlı göl** adlı göl vardı. Gölə aparan yol sərt yoxuşlu idi.

Mərhum yazıçımız Fərman Kərimzadə "Xudafərin körpüsü"

romanında Qaraqoyunlu kəndini Qaraqoyunlu hökmdarı Cahan şahın nəvəsi Sultan Hüseynin saldırdığı kənd kimi təqdim edir. Onun fikrincə, Cahan şahın ölümündən sonra Uzun Həsənin təqibindən can qurtaran Sultan Hüseyn Cığın dərəsinə sığınmış, dərənin başında, Vedi çayının mənsəbində kiçik bir kənd salıb adını Qaraqoyunlu qoymuşdu. Nəhəng bir qayanın kölgəsinə sığınan kənd qala kimi möhkəm, müdafiə qabiliyyətli imiş. Kəndin yuxarısındakı göl isə Sultanın qətl yeri olmuş, o, düşmənlərini bu gölə diri-diri atdırıb öldürdüyündən göl Qanlı göl adlandırılmışdır.

Maraqlıdır ki, məşhur **Qızılqaya** deyilən qaya-dağ da burada yerləşirdi. Həm də daşı sərt qranitdən olan bu qayanın torpağı, daşı, bir sözlə, bütövlükdə özü qıpqırmızı idi.

Kəndin yaxınlığında qədim qəbiristanlıqda boyu bir neçə metrə çatan **Oğuz qəbirləri** son zamanlara qədər qalmaqda idi.

Qaraqoyunlu kəndi 1918-1920-ci illərdə erməni daşnaklarına qarşı qəhrəmanlıqla mübarizə aparan igid oğulları ilə də məşhur olmuşdur.

**Əsəd oğlu Oruc** da kəndin sayılıb-seçilən kişilərindən olmuşdur.



## ÇANAXÇI (AŞAĞI ÇANAXÇI)

Vedibasar mahalının Çanaxçıdərə bölgəsində, Vedi rayonunun mərkəzi olan Böyük Vedi qəsəbəsindən 40 km cənub-şərqdə, Hortun çayının yuxarı axarında, Hortundərə dərəsində kənd.

1828-ci ilədək kənddə ancaq Azərbaycan türkləri yaşamışlar. İrəvan xanlığının ruslar tərəfindən işğalından sonra İrandan gəlmə ermənilərin bir hissəsi də Çanaxçı kəndinə köçürülmüş və kənd bir müddət Azərbaycan türkləri ilə ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuşdur. XIX yüzilin ortalarında kəndin azlıqda qalan müsəlman əhalisi qonşu müsəlman kəndlərinə çıxıb getmiş və kənd bütünlükdə erməniləşdirilmişdir.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) kənd Dərələyəz nahiyəsi tərkibində **Çanaxçı kəndi** kimi qeydə alınmışdır. Kənddən dövlətin müxtəlif vergilər şəklində götürdüyü illik gəlirin 2.810 ağça olduğu göstərilmişdir.

"Naxçıvan sancağının müfəssəl dəftəri"ndə (1727) isə **Çanaxçı kəndində** adam yaşamadığı, bölgənin Osmanlı işğalından sonra kəndin şiə məzhəbli əhalisinin çıxıb getdikləri barədə qeyd var.



**Çanaxçı kəndinin ümumi görünüşü**

İ.Şopen də (1832) **Çanaxçı kəndini** Dərələyəz mahalı tərkibində vermiş və orada 4 təsərrüfatda 30 nəfər (17 kişi, 13 qadın) müsəlman əhali və 24 təsərrüfatda 179 nəfər (88 kişi, 91 qadın)

İrandan gəlmə qaçqın erməni yaşadığını göstərmişdir.

Çanaxçı toponiminin kənd əhalisinin peşəsi ("**ağacdan çanax qabı düzəldənlər**") ilə əlaqədar yaranması barədə geniş yayılmış fikri (B.Budaqov, Q.Qeybullayev, S.Mirmahmudova) qeyri-elmi hesab edirik. Təkcə belə bir faktı xatırlatmaq yetərlidir ki, XIX yüzildə Qafqazda Çanaxçı adlı 8 kənd olmuşdur (Əsgəranda, Qafanda, Calaloğluda, Gürcüstanda və s.). Bolqarıstanda isə hətta 11 kənd Çanaxçı adlanmışdır. Bundan başqa, Araz çayının Çanaxçı adlı qolu, Türkmənistanda Çanaxçı, Qazaxıstanda Çanak, Moldovada Çenak toponimləri qeydə alınmışdır. Türkiyədəki məşhur Çanaqqala şəhərinin adı da eyni kökdəndir.

Göründüyü kimi, ümumtürk səciyyəsi daşıyan bu toponimi adi peşə anlamı ilə məhdudlaşdırmaq (qədimdə ağac kəsiyinin içinin oyulmasmdan düzəldilən qab **çanaq** adlanır, bu qabdan xüsusilə taxıl ölçmək üçün ölçü vahidi kimi geniş istifadə edirdilər) ən azı insafsızlıqdır.

Biz professor Həsən Mirzəyevin belə bir fikri ilə razılaşırıq ki, hələ antik mənbələrdə rast gəlinən bu söz türk tayfa və qəbilə adıdır. Professorun həmin tayfanın bu adı adamların peşə mənsubiyyətindən alması **(çanaq düzəldənlər)** fikri ilə isə yenə də razı deyilik.

Toponimin ümumtürk səciyyəsi bizi bu tayfa adının daha dərin qatlarına varmağa sövq edir və xatırladırıq ki, Ağ hun türklərinə mənsub olan türkmanlar öz adlarını Oğuz xanın oğlu Dağ xanın nəslindən olan Salur xandan almışdılar. Həmin Salur xandan ki, 962-ci ildə islam dinini qəbul edərək özünü **Qara xan** və ya **Çanağ,** qəbiləsini isə bütpərəst türklərdən ayırıb, **"türkman"**, yəni **"türk imanlı"** adlandırmışdı. **Çanaxçı** tayfa adının məhz **Çanağın qəbiləsi, tərəfdarları** anlamında həmin vaxtdan yaranması və Avropadan Asiyaya qədər türklərin islamlaşmış təbəqəsinə şamil edilərək geniş yayılması tamamilə mümkündür və biz bu fikri irəli sürür və onda israrlıyıq.

1873-cü ilə dair statistik məlumatlarda kəndin adı **Aşağı Çanaxçı** kimi qeyd olunmuş (biz bunu kəndin yanındakı Hortun kəndinin 1832-ci ildən sonra yenidən məskunlaşaraq həm də Yuxarı Çanaxçı adlanması ilə bağlayırıq) və kənddə 74 təsərrüfatda 674 nəfər (386 kişi, 288 qadın) erməninin yaşadığı göstərilmişdir. Kənddə 1 kilsə də qeydə alınmışdır.



1886-cı ildə kənd əhalisinin sayı 81 təsərrüfatda 877 nəfərə çatmışdır. Kəndin 781,78 desyatin torpaq sahəsinin 5,94 desyatinini malikanə torpaqları, 1 desyatinini bağ sahələri, 119,07 desyatinini suvarılan, 356,77 desyatinini suvarılmayan əkin yerləri təşkil etmişdir. Kənddə 520 iribuynuzlu, 1917 xırdabuynuzlu mal-qara saxlanmışdır.

Kəndin torpaqları **Suluyurd** bulağının suyu ilə suvarılmışdır (hər həftənin 5 sutkası su Aşağı Çanaxçı kəndinə, 2 sutkası Yuxarı Çanaxçı (Hortun) kəndinə verilməklə).

Kəndin İrəvan qəzasının **Novçalayurd, Zeynal dərəsi** yaylaqlarında eyniadlı yurd yerləri olmuşdur. Kənddən 6 verst aralıda yerləşən, 260 desyatin ərazini əhatə edən bu yurdlardan Çanaxçının müsəlman əhalisi qədimdən istifadə etmiş, sonralar bu yurdlar ermənilərin əlinə keçmişdir.

Kəndin Qaşqa kəndi ilə birlikdə **Cəhənnəmdərəsi ağılı** adlı 197 desyatin ərazidə qışlaq yeri də olmuşdur.

## ÇARDAQLI

Vedibasar mahalının Cığındərə bölgəsində, Zimmi kəndi yaxınlığında, Çardaqlı dağının ətəyində kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) və "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Vedi nahiyəsinin **Çardaqlı kəndi** kimi qeydə alınmışdır. Üstəlik, ikinci mənbədə kənddə İsmayıl adlı şəxsin timarından dövlətin müxtəlif vergilər şəklində ildə 3.000 ağça gəlir götürdüyü göstərilmişdir.

Kəndin adı, görünür, onun coğrafi mövqeyi (bəlkə də çardaq tipli qaya altında sığındığı, yaxud kənddə belə bir təbii yer olduğu) ilə bağlı meydana çıxmışdır.

Vaxtilə Karbi mahalında da Çardaqlı qayatəpəsi adlı kənd olmuşdur.

Sonrakı mənbələrdə Vedibasar mahalının ərazisində belə bir kənd adına rast gəlmirik. Bu, söyləməyə əsas verir ki, kənd sonralar ya başqa adla tanınmış, ya da birdəfəlik yer üzündən silinmişdir.



## ÇATMA (ÇATMADAĞ)

Vedibasar mahalının Millidərə bölgəsində, Ağdağla Qızıllar dağı arasında, Çatmadağ selavı kənarında, Çatmadağ təpəsində kənd.

Kənddə əvvəllər ancaq Azərbaycan türkləri, XX yüzilin əvvəllərindən etibarən isə azərbaycanlılarla müsəlman kürdləri yanaşı yaşamışlar.

Kənd 1863-cü ildə Vedibasar mahalının Kiçik Vedi kəndindən köçüb gedən ailələr tərəfindən salınmışdır. Çatmadağ təpəsində salındığı üçün kənd uzun müddət **Çatmadağ kəndi** adlanmışdır.

Kəndin adı, göründüyü kimi, Çatma dağının adından götürülmüşdür. O isə özlüyündə **"çat"** komponentindən ibarətdir ki, bu da baş-başa gəlmək mənasında **çatma//çatmaq** felindən yarana bilərdi. Kəndin iki böyük dağ arasındakı üçüncü, nisbətən kiçik dağ zirvəsində yerləşməsi də bu fikri söyləməyə əsas verir.

Digər tərəfdən, **çat** komponenti Cadqıran toponimində olduğu kimi, türk dillərində **yarğanın kənarı, dağ beli, dağ çıxıntısı, qayalı yüksəklik** və s. mənalarını da verə bilərdi. Maraqlıdır ki, çat komponenti ilə türk yurdlarında çoxlu dağ adları olmuşdur: Tiflis qəzasında Çatma dağı, Şimali Qafqazda Çat-Başı, Çat-Aman dağları, Qırğızıstanda Çat-Bel, Sarı Çatı, Çat-Bazar dağları və s. (B.Budaqov, Q.Qeybullayev).

1873-cü ildə **Çatmadağ** kəndində 4 təsərrüfatda 41 nəfər (26 kişi, 15 qadın) Azərbaycan türkü yaşamışdır.

1886-cı ildə kənddə əhalinin sayı 6 təsərrüfatda 57 nəfərə (31 kişi, 26 qadın) çatmışdır. Kəndin 1000 desyatin torpaq sahəsinin 0,5 desyatinini malikanə torpaqları, 40 desyatinini suvarılan əkin yerləri təşkil etmişdir. Kənddə 46 iribuynuzlu, 55 xırdabuynuzlu mal-qara qeydə alınmışdır.

1897-ci ildə kənddə 162 nəfər, 1905-ci ildə (erməni-müsəlman qırğını zamanı) 51 nəfər, 1914-cü ildə 178 nəfər əhali yaşamışdır.

1918-1920-ci illər erməni-müsəlman davası zamanı kənd erməni daşnakları tərəfindən dağıdılmış, əhalisi vəhşicəsinə qo-

vulmuşdur.

Sovet hakimiyyəti illərində kənd əhalisinin az bir hissəsi geri qayıda bilmişdir. 1931-ci ildə kənddə 37 nəfər azərbaycanlı, 115 nəfər kürd yaşamışdır. Az sonra – 30-cu illərdə kənd ləğv edilmiş, əhalisi Vedi və Qəmərli rayonlarının aşağı kəndlərinə köçüb getmişlər. O vaxtdan kənd xaraba qalmışdır.

* * *

Çatma kəndinin tarixində **Pirəli tayfasının** xüsusi yeri olmuşdur. Bu tayfanın ağsaqqalı **Heydər Baba oğlu** Abbasqulu bəylə də yaxın dost olmuşdur. Abbasqulu bəy mərd, igid adamlarla oturub-durmağı xoşladığından Millidərə kəndlərinə yolu düşəndə Heydər bəygilə də tez-tez baş çəkərmiş. Onun bu ocağa ilk gəlişi isə heç vaxt yaddan çıxmırdı. Belə ki, Abbasqulu bəy ilk dəfə Heydər bəygilə gələndə Pirəli tayfası onu böyük ehtiramla qarşılamışdı. Lakin Abbasqulu bəy adəti üzrə nə məclisdə, nə də süfrə başına keçəndə silahını belindən açmamışdı. Bu, adamların diqqətindən yayınmamış, bəy onlarla görüşüb evdən çıxanda onu yola salmaq istəyən Heydər bəyə ağsaqqallardan biri belə bir atmaca atmışdı ki, tələsinə, dostu dost yola salar, düşmən yox. Abbasqulu bəy isə öz hərəkətinə haqq verərək dərhal cavab vermişdi ki, dostun dost olduğunu düşmən kimi yoxlayarlar.

O vaxtdan Abbasqulu bəy Heydər bəygilə gələndə həmişə silah-yarağını çıxarıb bir kənara qoyarmış.

İllər ötür, hərbi vəziyyətlə əlaqədar müvəqqəti olaraq Arazın o tayına – Cənubi Azərbaycana mühacirət etmiş əhali Abbasqulu bəyin başçılığı ilə 1921-1922-ci illərdə təzədən öz el-obasına qayıdıb, erməni daşnaklarının viran etdiyi ev-eşiklərini bərpa etməyə başlayır. Bu illərdə Vedibasarda bərk ərzaq qıtlığı yaranır, adamlar yoxsulluq və aclıqdan əziyyət çəkirlər. Heydər bəyin özü də bu məsələ ətrafında çox götür-qoy edir. Abbasqulu bəylə görüşlərinin birində düşüncələrini onunla bölüşür və əhalini bu vəziyyətdən çıxarmaq üçün ondan dəstək istəyir. Abbasqulu bəyin razılığını aldıqdan sonra Pirəliyevlər tayfasının imkanlı kişilərindən xeyli qızıl toplayaraq başının atlı dəstəsi ilə İrana keçir və kənd-kənd gəzərək xeyli sağmal mal-qara alıb



gətirir. Mal-qaranı Vedibasar mahalının ən çox ehtiyacı olan ailələri arasında bölüşdürürlər ki, əhali aclıqdan xilas ola bilsin. Sonra Abbasqulu bəyin məsləhəti və adamların xahişi ilə Heydər bəy daha bir neçə dəfə belə səfərlərə çıxır.

1930-cu ildə Abbasqulu bəyin öldürülməsindən sonra əl-qolu açılan erməni daşnaklarının Vedibasarda başladıqları repressiya qurbanlarının siyahısına Heydər bəyin də adı salınır. Vedibasarın vaxtilə daşnaklara qarşı vuruşmuş bir çox igid oğulları kimi, Heydər Baba oğlu da 1932-ci ildə erməni NKVD-nin əli ilə həbsə alınır. Bir gün onun adına kameraya yemək gətirilir. O, qazandakı xörəyi – dolmanı görən kimi başa düşür ki, bu dolma onların evindən gəlməyib. Dustaq yoldaşlarını xörəyi yeməkdən çəkindirməyə, xörəyin zəhərli ola biləcəyinə onları inandırmağa çalışır. Ac dustaqlar onu başa düşmək istəmirlər. Heydər Baba oğlu yoldaşlarını ölümdən qurtarmaq üçün onların gözü qarşısında ilk tikəni udur və gözlərini dünyaya əbədi yumur...

Pirəli tayfasının nümayəndələri **İsmayıl Pirəliyevin** və **Heydər bəyin uşaqlarının** şəxsində sonralar rayonun Yengicə kəndində məskunlaşırlar.

Heydər bəyin oğlu **Aydın Babayev** bu gün Pirəli tayfasının və bütün Vedibasarın ağsaqqalı kimi el-oba camaatı arasında böyük hörmət və nüfuza malikdir.

# ÇƏMBƏRƏK

Vedibasar mahalının aran hissəsində, Ağrıdağ vadisində, Vedi rayonunun mərkəzi olan Böyük Vedi qəsəbəsindən 15 km cənub-qərbdə, Armaş kəndi yaxınlığında, İrəvan-Naxçıvan avtomobil yolunun, İrəvan-Naxçıvan-Bakı dəmiryol xəttinin kənarında kənd.

1918-1920-ci illər erməni-müsəlman davasına qədər kənddə ancaq Azərbaycan türkləri yaşamışlar. 1922-1988-ci illərdə kənd azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuşdur.

Kəndin adının qədim türk dilində "**dağ döşündə böyük hamar yer**" mənası bildirən **çəmbərə** sözündən yarandığı ehtimal olunur (B.Budaqov, Q.Qeybullayev). Qərbi Azərbaycanın Göyçə mahalı rayonlarından biri (Krasnoselck) və həmin rayondakı iki kənd də Çəmbərək (Aşağı və Yuxarı) adlanmışdır. Köhnə Bakının məşhur məhəllələrindən biri isə Çəmbərəkənd adlanırdı.



**Çəmbərək kəndinin ümumi görünüşü**

1918-1920-ci illərdə Vedi rayonunun Çəmbərək kəndi erməni daşnakları tərəfindən dağıdılmış, əhalisi yurd-yuvasından qovulmuşdur.

Sovet hakimiyyəti illərində kənd yenidən məskunlaşmış, oraya xeyli Türkiyə ermənisi yerləşdirilmişdir. 1935-ci ildə Çəmbərək və qonşu Əfşarlı kəndlərinin əsasında Spandaryan adına sovxoz yaradılmış və az sonra da adı dəyişdirilərək **Surenavan** kəndi qoyulmuşdur.

1988-ci ildə kənddə yaşayan tək-tük azərbaycanlı ailəsi də Azərbaycana qovulmuş, kənd tamamilə erməniləşdirilmişdir.



# ÇƏNGLİ (ƏLİRZALAR)

Vedibasar mahalının Millidərə bölgəsində, Vedi çayının sağ qolu olan Çəngli çayının yuxarı axarında, Kotuz kəndi yaxınlığında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) Vedi nahiyəsinin **Çaklı kəndi** kimi qeydə alınmışdır. "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə kəndin adı **Çıqlı** kimidir və Musacıq kəndi yaxınlığında yerləşdiyi göstərilmişdir. Lakin "dəftəri" nəşrə hazırlayanlar elə oradaca qeyd etmişlər ki, 1728-ci ilə aid başqa bir dəftərdə kəndin adı **Çəngli** kimi yazılmışdır. Kənddə Əhməd Yusif oğlunun adına olan timardan dövlətin müxtəlif vergilər şəklində götürdüyü illik gəlirin 3.000 ağça olduğu da qeyd edilmişdir.

1873-cü və 1886-cı illərə aid statistik məlumatlarda da kəndin adı **Çənglidir**.

Kəndin adının türkcə çakıl (xırda çay daşı mənasında) sözündən olması fikri (B.Budaqov, Q.Qeybullayev) bizə inandırıcı görünmür. Adın bulqar türklərinin **Çakar//Çak** tayfasının adından əmələ gəlməsi fikrini daha inandırıcı hesab edirik.

Kənddə 1873-cü ildə 6 təsərrüfatda 57 nəfər (35 kişi, 22 qadın), 1886-cı ildə 14 təsərrüfatda 95 nəfər (57 kişi, 38 qadın) Azərbaycan türkü yaşamışdır. Kəndin 700 desyatin torpaq sahəsinin 0,5 desyatinini malikanə torpaqları, 90 desyatinini suvarılmayan əkin yerləri təşkil etmişdir. Kənddə 81 iribuynuzlu, 175 xırdabuynuzlu mal-qara qeydə alınmışdır.

Kənd əhalisinin sayı 1905-ci ildə 103 nəfərə, 1914-cü ildə 167 nəfərə çatmışdır. 1918-1920-ci illər erməni-müsəlman davası zamanı xeyli dağıntılara məruz qalan kənd Sovet hakimiyyəti illərində yenidən bərpa olunmuşdur.

1931-ci ildə kənddə cəmi 53 nəfər əhali – azərbaycanlı qeydə alınmışdır.

1935-ci ildən etibarən kənd **Əlirzalar (Alırzalar** da deyiblər) adlandırılmış, 1930-cu illərin sonlarında ləğv edilərək əhalisi qonşu Kotuz kəndinə köçürülmüşdür. O vaxtdan da kənd xaraba qalmışdır.

Əlirzalar kəndi yaxınlığında **Ağagül** adlı məşhur ziyarətgah olmuşdur.

# ÇİMƏNKƏND (QARABAĞLAR, ÇİMƏN)

Vedibasar mahalının Cığındərə bölgəsində, Vedi rayonun mərkəzi olan Böyük Vedi qəsəbəsindən 9 km şərqdə, Vedi çayının kənarında, Aşağı Qarabağlar kəndi yanında kənd.

1920-ci ilədək kənddə ancaq Azərbaycan türkləri yaşamışlar. 1922-1988-ci illərdə azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuş, kənddə qismən müsəlman kürdləri də yaşamışlar.

1870-ci illərin sonu – 1880-ci illərin əvvəllərində Aşağı Qarabağlar kəndindən çıxan ailələr tərəfindən salınmışdır. Bu iki kəndi bir-birindən **Qara qaya** adlanan nəhəng qaya ayırırdı.

Kəndin adına ilk dəfə **Çimənkənd** şəklində "Zaqafqaziya diyarının dövlət kəndlilərinin iqtisadi vəziyyətinin öyrənilməsinə dair materiallar" (1886) kitabında, Aşağı Qarabağlar kəndinin adı ilə yanaşı rast gəlirik. Həmin mənbəyə görə, Aşağı Qarabağlar və Çimənkənd kəndlərinin birgə əhalisi 85 ailədə 853 nəfər (461 kişi, 392 qadın) olmuşdur.



**Çimənkənd kəndinin ümumi görünüşü**

1886-cı ilə aid Çimənkəndə dair bütün digər məlumatlar (kəndin iqtisadi həyatı, yaylaq və yurd yerləri, qışlaqları və s.) Aşağı Qarabağlar kəndi ilə müştərək olduğundan və bu barədə Aşağı Qarabağlar kəndindən danışarkən ətraflı bəhs etdiyimizdən, deyilənləri bir daha təkrarlamaq istəmirik.

Kəndin adının mənaaçımı ilə bağlı, belə hesab edirik ki, kənd yaşıl çəmənlikli geniş ərazidə salındığından adını da buradan götürmüşdür. Lakin **çəmən, çəmənlik** sözləri yerli tələffüzdə **çimən, çimənlik** kimi tələffüz olunduğundan kəndin adı da Çəmən yox, məhz **Çimən** kimi daşlaşmışdır.

Çimənkənd adının mənşəyi ilə bağlı belə bir ehtimal da var ki, kənd Türkiyənin Qaraçəmən mahalından gələnlər tərəfindən salındığı üçün bu adı almışdır. Halbuki oxşar toponimlər bütün Türk dünyası boyu səpələnmişlər. İrəvan əyalətinin Dərəçiçək mahalında Çimən-Qut kəndi, Şərqi Anadoluda Çimən-Bel dağı, Azərbaycanın Füzuli rayonunda Çimənkənd kəndləri olmuşdur. Qazaxıstanda Çimkənd şəhəri, Çimkənd vilayəti mövcuddur. Qərbi Azərbaycanın Böyük Qarakilsə rayonundakı Həmzəçimən kəndinin və eyniadlı yaylağın adları da həmin kökdəndir.

1914-cü ildə Aşağı Qarabağlar və Çimənkənd kəndlərinin əhalisi 1879 nəfərə çatmışdır.

1918-1920-ci illərdə Aşağı Qarabağlar-Çimənkənd erməni təcavüzünün hədəfinə çevrilir. Milli müdafiə savaşına qalxıb, erməni təcavüzünə layiqli müqaviəmt göstərən Vedibasar azadlıq ordusunun ən aparıcı bölüklərindən (rotalarından) biri də Çimənkənddə yerləşirdi. Ona Vedibasar Milli Komitəsinin 11 nəfər üzvündən biri olan **Sultan xan Mərəndi** rəhbərlik edirdi.

1920-ci ildə Vedibasar erməni daşnakları tərəfindən işğal edildikdən sonra Cənubi Azərbaycana pənah aparan bütün vedibasarlılar kimi, Aşağı Qarabağlar və Çimənkənd kəndlərinin camaatı da bölgədə Sovet hakimiyyəti qurulduqdan sonra doğma yurdlarına qayıdırlar. Lakin onların əksəriyyəti Çimənkənd ərazisində məskunlaşmağa üstünlük verirlər. Aşağı Qarabağlar kəndi tədricən yerini Çimənkəndə verir və tarix səhnəsindən çəkilir.

1922-ci ildə artıq geri qayıdan çimənkəndlilərin sayı 880 nəfər idi. Lakin camaatın etirazına baxmayaraq, erməni hökuməti həmin il Çimənkəndə xaricdən gəlmiş 210 nəfər erməni mühaciri də yerləşdirmişdi.

1926-cı ildə kənddə azərbaycanlıların sayı 690 nəfər, ermənilərin sayı 141 nəfər, 1931-ci ildə azərbaycanlılar 663 nəfər, ermənilər 178 nəfər olmuşlar. 1931-ci ildə kənddə 34 nəfər müsəlman kürdü də yaşamışdır.

1937-ci ildə Vedi rayonunun iki inzibati rayona ayrılması və rayonun dağlıq hissəsində Çimənkənd mərkəz olmaqla **Qarabağlar rayonunun** yaradılması kəndin iqtisadi və məişət həyatının

sürətlə inkişaf etməsinə imkan yaratmışdır. Az vaxtda kənddə bir və ikimərtəbəli inzibati və şəxsi binalar tikilmiş, kənd xeyli abadlaşmışdır. Təkcə belə bir faktı xatırlatmaq kifayətdir ki, 1939-cu ildə kənddə azərbaycanlı əhalinin sayı 4600 nəfərə çatmışdır.

Bu yerdə Vedi rayonu ərazisində yeni yaradılmış rayonun niyə Qarabağlar adlanması məsələsinə bir qədər aydınlıq gətirməyi vacib bilirik. Məsələ ondadır ki, Vedi və yeni Qarabağlar rayonlarının mərkəzi olan Çimənkənd kəndi ilə Böyük Vedi qəsəbələri bir-birinə çox yaxın olduqları üçün bu, yuxarılarda xeyli problemlər doğura bilərdi. Buna görə də öz strateji əhəmiyyətini itirmiş olsa belə, Qarabağlar (Yuxarı Qarabağlar) kənd adını yeni rayona ad kimi seçirlər. Rayonun adı ilə onun mərkəzi olan Çimənkənd kənd adı arasındakı ad uyğunsuzluğunun yeni suallar doğurmaması üçün isə vaxtilə Aşağı Qarabağlar kəndini əvəz etmiş Çimənkənd kəndi ilə Yuxarı Qarabağlar kəndini Qarabağlar adlı vahid kənd kimi rəsmiləşdirirlər. Əslində isə rayon mərkəzi Qarabağlar (Yuxarı Qarabağlar) yox, Çimənkənd olur. Bu, Qarabağlar rayonunun ləğv olunduğu 1949-cu ilə qədər beləcə davam edir. 1948-1953-cü illərin məlum köçürülməsindən sui-istifadə edən ermənilər dərhal Qarabağlar rayonunu ləğv edirlər və Çimənkəndin azərbaycanlı əhalisi 1948-1949-cu illərdə məcburi şəkildə Azərbaycana köçürülür. Bununla belə, Stalinin ölümündən sonra bir sıra ailələr geri qayıdıb, öz doğma kəndində yaşamaqda davam edirlər. Bu vaxt kəndin adı sadəcə **Çimən** də adlanırdı.

1972-ci ildə kəndin ümumi əhalisinin sayı 1917 nəfər olmuşdur. 25 yanvar 1978-ci il tarixdə Ermənistan hökumətinin qərarı ilə Çimənkənd kəndinin adı dəyişdirilərək **Urtsadzor** qoyulmuş, 1988-ci ildə isə kəndin bütün azərbaycanlı əhalisi ata-baba yurdundan vəhşicəsinə qovulmuşdur.

* * *

Çimənkənddə tayfalar çox olsa da, əsas çoxluğu **Şərəflilər** və **Oruclular** tayfaları təşkil etmişlər. Bu iki tayfa arasında tarix boyu mövcud olan düşmənçiliyi, sonralar Şərəflilərin başçısı Kərbəlayı İsmayıl və Orucluların başçısı Usuboğlu İsmayıl davam etdirmişdilər. Bu iki İsmayıllar heç kimlə hesablaşmadan bir-biri ilə vuruşar, yüzlərcə adamın qanı axıdılardı.



Bu düşmənçilikdən bezar olan çar hökuməti 1916-cı ilin sentyabrında bir rota kazak qoşunu gətirərək Ağdaş körpüsündən və Sarı dolama təpəsindən kəndi top atəşinə tuturlar. Yenə də heç bir təsiri olmur, düşmən İsmayıllar silahı yerə qoymurlar.

Şərəflilər tayfası əslində İrəvan xanı olmuş Pənah xanın nəslindən idilər. "Apardı sellər Saranı" xalq mahnısında haqqında bəhs olunan Sara məhz həmin Pənah xanın qızı Sara xanım olmuşdur. O, yaylaqda Arpa çayına düşüb axmışdı. Xançoban isə Pənah xanın çobanı mənasında xanın çobanı imiş.

İrəvan xanlığı ruslar tərəfindən işğal edildikdən sonra Pənah xanın yaxın adamları Vedibasar mahalının etibarlı dağlıq zonasına sığınmış, burada yaşamışdılar.

Şərəflilər nəslinin ən görkəmli nümayəndəsi **Hacı Nəcəf İsmayıl oğlu** olduğundan bu tayfaya **Hacı uşağı** da demişlər. Hacı Nəcəfin Vedibasar mahalının dağlıq hissəsində çoxlu torpaq sahələri, var-dövləti olmuşdur. Bu, həmin Hacı Nəcəfdir ki, 1853-cü il Krım müharibəsində iştirak edən 4-cü süvari alayının əsasən Vedibasarın Qarabağlar kəndindən təşkil olunmuş birinci yüzlüyünə komandirlik etmişdir. Hacı Nəcəfin oğlu **Məhərrəmin** dörd oğlundan **(Pənah, Kərbəlayı İsmayıl, İsrafil, Əmir** və **Əli)** Kərbəlayı İsmayılın var-dövləti daha çox, nüfuzu daha böyük olmuşdur. 1918-1921-ci illərdə Vedibasar kəndlərinin erməni daşnaklarından müdafiəsində **Kərbəlayı İsmayılın** başçılığı ilə Hacı uşağı tayfasının igidləri xüsusi qəhrəmanlıq və cəsarət göstərmişlər. **Məhərrəm Pənah oğlu** isə "Qırmızı tabor"un rota komandiri kimi, daşnaklara qarşı fəal mübarizəsinə görə 1921-ci ildə "Qırmızı Bayraq" ordeni ilə təltif edilmişdi. 1929-1931-ci illərdə Vedibasarda kolxozlaşmaya qarşı qiyamın başında da Kərbəlayı İsmayıl dayanmışdır.

Bu gün Pənahın, Kərbəlayı İsmayılın və Əlinin nəvə-nəticələri daha çox Bakı şəhərində, Yevlax, Tərtər, Beyləqan və Samux rayonlarında yaşıyırlar.

## KƏNDİN TAYFALARI

Hacı uşağı (Şərəflilər), Əmir uşağı, Kəlba Qəhrəman uşağı, Oruclular, Abolar, Səfər uşağı, Keşkazlılar, Usub uşağı.

## KƏNDİN TOPONİMLƏRİ

Xaçyurd, Qoturbulaqyurd, Daşqayayurd, Quzey-ağıl, Yarım-ağıl, Kotuz-ağıl, Mustafazağısı-ağıl, Aralıq-ağıl, Düyüdaş-ağıl, Ağdaş körpüsü...

## 1930-CU İLLƏRİN REPRESSİYA QURBANLARI

1. Hacıyev Əsədulla Kəlba İsmayıl oğlu
2. Hacıyev Hüseyn Kəlba İsmayıl oğlu
3. Hacıyev Cəmaləddin Kəlba İsmayıl oğlu
4. Hacıyev Firudin Kəlba İsmayıl oğlu
5. Hacıyev Əli Məhərrəm oğlu
6. Hacıyev Eyyub ağa Əmir oğlu
7. Musayev Məhəmməd
8. Yusifov Yusif İsmayıl oğlu
9. Əliyev Musa Səttar oğlu
10. Əliyev Əsəd Səttar oğlu
11. Hacıyev İsrafil Məhərrəm oğlu
12. Hacıyev Həsən Kəlba İsmayıl oğlu
13. Həşim oğlu Paşa
14. Hacıyev Məhərrəm Pənah oğlu
15. Hacıyev Mahmud Pənah oğlu

## 1941-1945-Cİ İLLƏR MÜHARİBƏSİNDƏ HƏLAK OLANLAR

1. Hüseynov Ələkbər Məsim oğlu
2. Hüseynov Hüseyn Məsim oğlu
3. Səfərov Məmməd Heydər oğlu
4. İmanov Bəhman İmam oğlu
5. Məmmədov Bəhram Qasım oğlu
6. Orucov Süleyman Məhərrəm oğlu
7. Orucov Musa Məhərrəm oğlu
8. Zamanov Əhməd
9. Abdullayev Təvəkkül
10. Mikayılov İbad
11. Hüseynov Təvəkkül Məsim oğlu



## KƏRBƏLAYI İSMAYIL MƏHƏRRƏM OĞLU HACIYEV



Kərbəlayı İsmayıl Vedibasar mahalının sayılıb-seçilən kişilərindən, var-dövlət sahiblərindən idi.

Çimənkənd kəndində dünyaya gəlmişdi. 1917-1920-ci illərdə Vedibasarın xüsusilə dağlıq kəndlərinin erməni təcavüzündən müdafiəsində böyük rol oynamışdı. Bu savaşda özü ilə bərabər oğlanları **Əsədulla, Firudin, Cəmaləddin, Hüseyn,** qardaşı oğlu **Məhərrəm** də fəal iştirak etmişdilər.

Abbasqulu bəy Şadlinskinin qohumu və ailəvi dostu idi. Abbasqulu bəylə Kərbəlayı İsmayılın qardaşı Pənah bacanaq idilər.

1927-ci ildən təqib və təzyiqlərə məruz qalan Kərbəlayı İsmayıl 1929-cu ildə bu təzyiqlərin həddini aşdığını görərək dövlətə qarşı qiyam qaldırır. Vedibasarın Qəmlo, Məhərrəm, Tat Məmməd, Kərkablı Bəhlul və b. igidlərini də başına toplayaraq bir neçə il yerli sovet rejiminə qarşı mübarizə aparır.

1930-cu ildə erməni millətçilərinin qurğusu ilə Abbasqulu bəy Şadlinski qətlə yetirildikdən bir müddət sonra Kərbəlayı İsmayıl yaxın adamları ilə Araz çayını keçib Türkiyəyə gedir. Orada İqdır vilayətinin Aralaq mahalının Daşburun kəndində yaşayır. 1940-cı illərin sonlarında elə orada da vəfat edir.

Kərbəlayı İsmayılın 6 oğlu, 1 qızı olmuşdur: **Əsədulla, Yadulla, Firudin, Cəmaləddin, Hüseyn, Həsən** və **Zəhra**. Yadulla gənc yaşlarında qan düşmənçiliyi üstündə qətlə yetirilmişdi. Oğlanları Əsədulla, Firudin, Cəmaləddin, Hüseyn və qardaşı Əli 1937-ci ildə həbs edilərək İrəvana aparılmış, sorğu-sualsız güllələnmişdilər.

Arvadı Səkinəni, oğlu Həsəni, qardaşı İsrafili, qaynı Paşanı və b. isə 1941-ci ildə həbs edib, Qazaxıstanın Kustanay vilayətinə sürgünə göndərmişdilər.

1953-cü ildən sonra bəraət alan ailə Azərbaycanın Tərtər rayonuna köçür. Kərbəlayı İsmayılın kiçik oğlu Həsən hazırda da bu rayonun İrəvanlı kəndində yaşayır. Qızı Zəhra isə Yevlax rayonunda yaşayırdı və bir neçə il əvvəl burada da vəfat etmişdir.

## ƏYYUB AĞA ƏMİR OĞLU HACIYEV VƏ OĞLU MAQSUD HACIYEV



1871-ci ildə Çimən kəndində anadan olmuşdur. Kərbəlayı İsmayılın doğma qardaşı oğlu idi. 1917-1920-ci illərdə erməni daşnaklarına qarşı müharibənin fəal iştirakçılarından olmuş, 1920-1921-ci illərdə isə "Qırmızı tabor"un tərkibində daşnaklara qarşı döyüşmüşdü.

1921-1937-ci illərdə Ermənistanda banditizmə qarşı mübarizə dəstəsində komandir vəzifəsində çalışan Əyyub ağa 1937-ci ildə iş başında qəfil həbs edilərək iki gün sonra ailəlikcə Qazaxıstanın Çimkənd vilayətinə sürgün edilir.

1945-ci ildə bəraət alıb geri dönsə də, dövlət orqanları ona doğma yurdda yaşamağa icazə vermir, Azərbaycana köçməsini tələb edirlər. Yenidən Qazaxıstana qayıdan Əyyub ağa 1952-ci ildə Azərbaycana gəlir. Az sonra – 1956-cı ildə vəfat edir.



Əyyub ağanın beş övladı olmuşdur. **Oğlu MAQSUD HACIYEV** 1930-cu il fevralın 12-də Çimən kəndində anadan olmuş, ailələri (atası, anası, 2 bacısı, qardaşı və özü) 1937-ci ildə Qazaxıstan SSR-nin Cambul vilayətinin Sverdlovsk rayonunun Kenev kəndinə sürgün edilmişlər.

Maqsud 1946-cı ildə kənd 7 illik məktəbini bitirib, Cambul Pedaqoji məktəbinə daxil olmuş, 1949-cu ildə pedaqoji texnikumu bitirib, Azərbaycan Maarif Nazirliyinin sərəncamına göndərilmiş, burada da işləmək üçün təyinatını Şəmkir rayonuna vermişlər.

1949-cu ildən 1971-ci ilin noyabr ayına kimi rayonun Keçili Dəllər, Cırbaxan, Çapanlı, Niyazlı kəndlərində əvvəllər rus dili, sonra isə riyaziyyat və fizika müəllimi işləmişdir.

ADU-nun mexanika-riyaziyyat fakültəsini qiyabi bitirmişdir.

1971-ci ildən 1973-cü ilin setyabr ayına kimi Şəmkir RPK-də şöbə müdiri, Şəmkir şəhər sovetinin sədri vəzifələrində işləmişdir. 1973-cü



ildən bu günə kimi rayon Təhsil Şöbəsinin müdiri vəzifəsində çalışır.

Uğurlu fəaliyyətinə görə, müxtəlif təltiflərə – orden, medal və fəxri adlara layiq görülmüşdür.

Ailəlidir, 4 oğlu, bir qızı var. Övladlarının hamısı ali təhsillidir.

## İBRAHİM QURBANƏLİ OĞLU FƏRZƏLİYEV



1895-ci ildə Vedibasar mahalının Çimənkənd kəndində anadan olmuşdu.

Böyük Vedidəki rus-tatar məktəbini bitirmişdi.

Vedibasarın özünümüdafiə dəstələri yarandığı ilk gündən onun sıralarına qoşulmuş, Abbasqulu bəyin yaxın silahdaşı olmuş, erməni daşnaklarına qarşı bütün döyüşlərdə qəhrəmanlıqla vuruşmuşdur.

1921-ci ildə daşnaklara qarşı mübarizədə igidliyinə görə "Qırmızı tabor" ordeni alan 19 nəfər "Qırmızı tabor"çudan biri də o idi. O, bu taborda bölük (rota) komandiri olmuşdu.

Sovet hakimiyyəti illərində Naxçıvanda qalıb, hüquq-mühafizə orqanlarında çalışan İ.Fərzəliyev burada Ordubad, Culfa, Əbrəqunis, Şahbuz və b. rayonlarda milis müfəttişi, milis rəisi vəzifələrində çalışır.

1930-cu illərdə Naxçıvanda banditizmə qarşı mübarizədə göstərdiyi qəhrəmanlığa görə Naxçıvan MİK-nin 12 may tarixli qərarı ilə 32311 saylı "naqan" tapançası ilə təltif olunur.

1940-cı ildən Şərur rayonunun Danzik kəndində kolxoz sədri işləməyə başlayır. 1960-cı ildə fərdi pensiyaya çıxır, 1965-ci ildə isə vəfat edir.

Oğlu **Becan Fərzəliyev** 1988-ci ildə Azərbaycanda başlanan xalq hərəkatının fəallarından olmuş və bir müddət Naxçıvan MR-nın Baş naziri işləmişdir.

## MƏHƏRRƏM PƏNAH OĞLU VƏ OĞLU PƏNAH PƏNAHOV



1898-ci ildə Çimənkənd kəndində anadan olan Məhərrəm Pənah oğlu Kərbəlayı İsmayılın doğma qardaşı oğlu idi.

Məhərrəm 1917-ci ildə Vdibasarın müdafiəsinə ilk qoşulanlardan biri kimi, erməni daşnaklarına qarşı mərdliklə vuruşmuş, 1920-1921-ci illərdə isə bu mübarizəni "Qırmızı tabor"da batalyon komandiri kimi davam etdirmiş və taborun Qırmızı Bayraq ordeni alan 19 nəfər döyüşçüsündən biri olmuşdur.

1929-cu ildən Kərbəlayı İsmayılın məşhur "qolçomaq qiyamı"nın fəal iştirakçısı olan M.Pənahov 1937-ci ildə həbs edilərək 10 il müddətinə sürgünə göndərilmişdir. 1947-ci ildə cəzasını çəkib doğma kəndinə dönən Məhərrəm 1949-cu ildə yenidən həbs olunaraq Krasnoyarsk vilayətinin Abansk rayonuna sürgün edilir.

1950-ci ildə ailəsi Azərbaycana deportasiya olunur, əvvəl Yevlaxda, sonra Tərtər rayonunun Malbinəsi kəndində məskunlaşır.



1953-cü ildə bəraət alan Məhərrəm Pənah oğlu gəlib Tərtərdə ailəsini tapır. 1965-ci ildə burada vəfat edir.

Məhərrəm Pənah oğlu Həsən, Hüseyn, Pənah adlı üç oğul və bir qız atası olmuşdur. Xüsusilə Pənah Pənahov öz məğrurluğu, cəsarəti, el-oba təəssübkeşliyi ilə fərqlənmişdir.

**PƏNAH PƏNAHOV** 1937-ci ildə Çimən kəndində anadan olmuş, 1962-ci ildə Kooperativ Texnikumunu, 1968-ci ildə Azərbaycan Politexnik İnstitutunu bitirmişdi. Əvvəllər avtomobil nəqliyyatı trestində və 10 saylı taksi maşınları parkında məsul vəzifələrdə işləmiş, sonralar isə uzun müddət – 1997-ci ildə dünyasını dəyişənədək Kənd Təsərrüfatı Nazirliyinin 1 saylı ixtisaslaşdırılmış təchizat bazasının Baş direktoru olmuşdur.

P.Pənahovun dörd övladı var: **Fəxrəddin, Tacəddin, Gülər, Lalə.** Oğlu **Fəxrəddin** Bakı şəhər prokurorluğunda baş müstəntiq işləyir.



## PAŞA İSMAYIL OĞLU MUSAYEV (QƏLBİNUR)



Paşanın atası İsmayıl kişi Çimən kəndindən idi. O, İrəvanlı Hüseyn müəllimin qızı İldız xanımla evlənmişdi. Lakin tezliklə 1948-1953-cü illər deportasiyası başlanmış, onlar da Şəmkir rayonunda məskunlaşmağı qərara almışdılar.

Paşa da 1952-ci il martın 30-da Şəmkir rayonunun Çinarlı kəndində anadan olmuşdur.

1968-ci ildə orta məktəbi qızıl medalla bitirib, Azərbaycan Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olmuş, ali təhsilini fərqlənmə diplomu ilə başa vurduqdan sonra bir müddət Gəncə və Bakı şəhərlərində göz həkimi işləmişdir.

1978-1981-ci illərdə I Moskva Tibb İnstitutunun aspiranturasına daxil olmuş, 1981-ci ildə dissertasiya müdafiə edərək tibb elmləri namizədi alimlik dərəcəsi almış, həmin ildən Azərbaycan Tibb İnstitutunda müəllimliyə başlamışdır.

1983-cü ildə Ümumittifaq Lenin Komsomolu Mükafatına layiq görülmüşdür.

1984-cü ildə "Ay bir əlçim buluddur" adlı ilk şerlər kitabı işıq üzü görür. Sonralar daha neçə–neçə şer kitabları çap olunub şair Paşa Qəlbinurun. Lakin bu, onu elmin yolunda ləngitməyib.

1987-ci ildə dissertasiya müdafiə edərək tibb elmləri doktoru elmi dərəcəsi alır. Oftalmalogiya üzrə Ümumittifaq miqyasında ən gənc elmlər doktoru olur.

1988-ci ildən Tibb İnstitutunun göz xəstəlikləri kafedrasının professoru, 1990-cı ildən həmin kafedranın müdiridir.

Paşa Musayev tibb elminə dair 100-dən çox elmi əsərin, 7 kəşfin, ən ağır göz xəstəliyi olan qlaukomanın cərrahi üsulla müalicəsində ən effektli üsulun (Musayev üsulunun) müəllifidir.

Elmi əsərləri bir sıra xarici ölkələrdə dərc olunub. 1993-cü ildə Dünya Türk Cümhuriyyətləri Oftalmoloji Birliyinin sədri, 1994-cü ildə Amerika Oftalmologiya Akademiyasının həqiqi üzvü seçilmişdir.

Paşa Musayev həm gözəl alim, həm gözəl həkim-cərrah, həm gözəl pedaqoq, həm də gözəl şair kimi Azərbaycan xalqının qəlbində və tarixində həmişəlik yer tapmışdır.

# ÇİNÇAVAT

Vedibasar mahalının aran hissəsində, Ağrıdağ vadisində kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Vedi nahiyəsinin **Çinçavat kəndi** kimi qeydə alınmış, kəndin Aralıq nahiyəsinin Gelevan kəndi yaxınlığında yerləşdiyi qeyd olunmuş və kənddə Hacı Vəli Abbas oğlunun adına olan timardan dövlətin müxtəlif vergilər şəklində il ərzində 2.000 ağça gəlir götürdüyü göstərilmişdir.

Sürməli mahalındakı Cincavat kənd və dağ adları ilə eyni kökdən olan Çinçavat kənd adının Qərbi Azərbaycan ərazisində eramızın əvvəllərindən məskunlaşmış məşhur **Cinli//çinli** türk tayfasının adından götürüldüyü şübhəsizdir. Həmin tayfa Çin Türküstanından gəldikləri üçün belə bir ad (**çinli** və ya **cinli**) almışdılar. Tədqiqatçıların (B.Budaqov, Q.Qeybullayev) fikrincə, cinlilər həm də Çıldır, Axalkələk, Ahıska bölgələrini əhatə edən Cavax (gürcücə Cavaxeti) əyalətində yaşadıqlarından onlar Cin-Cavat, yəni "Cavaxetidə yaşayan cinlilər" adlanmışdılar.

Həmin tayfanın Vedibasar ərazisində də məskunlaşması isə həm buradakı Çinçavat kənd adı, həm də Sürməlidəki Cincavat toponimi ilə bir daha təsdiqlənir. Vedibasardakı kəndin adındakı **"çin"** komponenti **"cin"** komponentindən daha ilkin olduğundan Çinçavat kəndinin tarixi də daha qədimlərə gedib çıxır.

XIX yüzildən etabarən isə mənbələrdə kəndin adına rast gəlmirik.



# ÇOBANDƏRƏ (AŞAĞI ÇOBANDƏRƏ və YUXARI ÇOBANDƏRƏ)

Vedibasar mahalının Çanaxçıdərə bölgəsində, Bozgünnüt dağının ətəyində, Cəfərli kəndinin yaxınlığında kənd.

Kənddə Azərbaycan türkləri və müsəlman kürdləri yanaşı yaşamışlar.

Kənd iki hissədən, əslində iki kənddən ibarət olmuşdur. Birincisi **Aşağı Çobandərə** adlanmış və orada müsəlman kürdləri yaşamışlar. İkincisi – **Yuxarı Çobandərə** isə azərbaycanlı kəndi olmuşdur. Statistik məlumatlarda hər iki kəndin göstəriciləri bir kənd (**Çobandərə**) adı altında verilmişdir.

Cənubi Qafqazda, o cümlədən Qərbi Azərbaycanda **"çoban"** komponenti ilə çoxlu toponimin mövcudluğu (Zəngibasar mahalında Çobankərə, Qırxbulaq mahalında Çobangərəkməz, Dərəçiçək mahalında Çobangölü, Qafan rayonunda Çobanlı kəndləri və s.) bu sözün boyadı (etnonim) səciyyəsindən xəbər verir və biz də belə bir fikirdəyik ki, ilkin adı Çoban olan bu kənd öz adını qədim türk tayfalarından birinin – peçeneqlərin **Çupan// Çoban** tayfasının adından götürmüşdür.

Maraqlıdır ki, "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) Qırxbulaq nahiyəsindəki Çobangərəkməz kəndinin adı Çivankərəkməz kimi verilmiş, 1728-ci ilə aid icmal dəftərində isə həmin kəndin ikinci adının Qaşqayol olduğu göstərilmişdir. Bu faktı ona görə xatırlatdıq ki, Vedibasar mahalındakı Çobandərə kəndinin adı da 1873-cü ilin statistik məlumatlarında **Çivandərə** kimi təqdim olunmuşdur. Digər tərəfdən, bu kəndin qonşuluğundakı kəndlərdən biri də məhz Qaşqa adlanırdı.

1873-cü ildə Çobandərə kəndində 11 təsərrüfatda 113 nəfər (58 kişi, 55 qadın), 1886-cı ildə 16 təsərrüfatda 154 nəfər (80 kişi, 74 qadın) əhali yaşamışdır. 1886-cı ilin statistik məlumatlarında kənd əhalisinin 41 nəfərinin (19 kişi, 22 qadın) bəy ailəsinə mənsubluğu barədə qeyd də var.

XX yüzilin əvvəllərində, 1905-ci ilin erməni-müsəlman davası zamanı kənd ermənilər tərəfindən yerlə-yeksan edilmiş, elə o vaxtdan da xaraba qalmışdır.

## DAŞLI (DAŞDI)

Vedibasar mahalının Cığındərə bölgəsində, Vedi çayının kənarında, Vedi rayonunun mərkəzi olan Böyük Vedi qəsəbəsindən 3 km şimal-şərqdə kənd.

Kənddə 1920-ci ilə qədər ancaq Azərbaycan türkləri yaşamışlar. 1922-1988-ci illərdə azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuşdur. 1988-ci ildən sonra kənd bütünlüklə erməniləşdirilmişdir.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) kəndin adı Vedi nahiyəsinin **Daşlıqaya kəndi** kimi qeydə alınmışdır.

İ.Şopendə (1832) isə kəndin adı **Daşlı** kimi qeydə alınmış və kənddə 16 təsərrüfatda 84 nəfər (43 kişi, 41 qadın) müsəlman əhalinin yaşadığı göstərilmişdir.

"İcmal dəftəri"ndə kəndin adı "**daşlı**" və "**qaya**" tərkib hissələrindən ibarət olmaqla, birincisi ərazinin "**çox daş olan yer**" anlamında, ikincisi Səlcuq oğuzlarının "**Qayı**" tayfa adı mənasındadır. Yəni "**Qayı tayfasının məskunlaşdığı daşlı yer**". Xatırladırıq ki, Qayı adı ilə Türkiyədə hazırda 100-ə qədər kənd var. Təkcə Qərbi Azərbaycanda Qayı tayfa adından əmələ gəlmiş onlarla toponim olmuşdur (Qaya, Qayabas, Qayqocalı, Qayabəyli, Qayqulu və s.).

Eyni sözü Daşlı (xalq dilində **Daşdı** kimi tələffüz olunur) komponenti haqqında da demək olar. Ötən yüzillərdə təkcə Qərbi Azərbaycanda Daşağıl, Daşaltı, Daşarxı, Daşbaşı, Daşbulaq, Daşburun, Daşqala, Daşqapı, Daşdan, Daşkənd, Daşkəsən, Daşkörpü, Daşlı, Daşlıgöl, Daşlıca, Daşnov, Daşçılı, Daşxana və s. adlı çoxlu toponim – kənd, dağ, yaylaq, çay, göl adları olmuşdur.

Bu, kəndin türk tayfalarından birinin adını daşıması fikrini də ortaya qoyur. Təsadüfi deyil ki, 1832-ci ildə Vedibasar mahalı ərazisində qeydə alınmış köçəri tayfalardan biri də məhz Daşanlı tayfası adlanmışdır. Onlar 22 ailədə 117 nəfərdən ibarət olmuşlar.

Yeri gəlmişkən, Qərbi Azərbaycanın Loru mahalına daxil olan rayonlardan birinin adı da Taşirdir. Lakin bu, bizcə, tədqiqatçı Q.Qeybullayevin təkid etdiyi kimi, "daşlı yer" anlamında yox, məhz "Dədə Qorqud"da deyildiyi kimi, "Daşər", "Dışər" mənalarındadır.

Vedibasar mahalının Daşlı kəndi 1873-cü ilin statistik məlumatlarına görə mülkədar kəndi olub. Kənddə 24 ailədə 147 nəfər (83 kişi, 64 qadın) Azərbaycan türkü yaşayıb.



Kənd əhalisinin sayı 1886-cı ildə 23 təsərrüfatda 135 nəfərə (80 kişi, 55 qadın), 1897-ci ildə 184 nəfərə, 1904-cü ildə 238 nəfərə, 1914-cü ildə 261 nəfərə çatıb. Kəndin 22 desyatin ərazini əhatə edən **Çapa-ağıl** adlı qışlaq yeri olub.

1918-1920-ci illərdə erməni-daşnak təcavüzünə məruz qalan kənd dağıdılmış, əhalisinin bir hissəsi ermənilərlə döyüşlərdə həlak olmuş, sağ qalanları qaçqın düşmüş, Arazın o tayına – Cənubi Azərbaycana mühacirət etmişlər.

Bölgədə Sovet hakimiyyəti qurulduqdan sonra kənd əhalisinin az bir hissəsi geri dönmüşdür. Bu vaxt kənddə İrandan, Türkiyədən gələn ermənilər də yerləşdirilmişdilər. 1922-ci ildə kənddə 93 nəfər azərbaycanlı, 78 nəfər erməni, 1926-cı ildə 95 nəfər azərbaycanlı, 60 nəfər erməni, 1931-ci ildə 117 nəfər azərbaycanlı, 78 nəfər erməni yaşamışdır.

1937-1948-ci illərdə Qarabağlar rayonunun tərkibində mövcud olan kəndin əksər azərbaycanlı əhalisi 1948-ci ildə məcburi şəkildə Azərbaycana köçürülmüş, onların boşalmış hazır evlərində 1946-47-ci illərdə xaricdən gətirilmə ermənilər yerləşdirilmişlər.

1968-ci il iyulun 3-də kəndin adı dəyişdirilərək Daştakar qoyulmuşdur. Əslində isə ermənilər kəndin Daşdı (Daşlı) adına bir **daş** (erməncə **kar)** sözü də əlavə edib, **Daştakar** kimi qondarma ad almışdırlar. Son illərə qədər kənd Böyük Vedi qəsəbə sovetliyinin tərkibinə daxil idi.

Kənddə yaşayan sonuncu azərbaycanlı ailələri 1988-ci ildə doğma yurdlarından qovulmuş, kənd bütünlüklə erməniləşdirilmişdir.

* * *

Kəndin aşağısında **Kəhriz** adlanan bir bulaq vardı. Həmin bulağın qabağındakı dəyirmi daşa **Allah-Əkbər daşı** deyirdilər. Belə bir rəvayət vardı ki, o daşı Həzrət Əli gavurlara atmışdır.

Daşlı kənd sakinlərindən **İsmayıl Əli oğlu Ağayev** 1918-1920-ci illərdə ermənilərə qarşı vuruşmuş, sovet dövründə Daşlı kəndində kolxozun baş mühasibi işləmiş, 1941-42-ci illərdə isə vaxtilə ermənilərə qarşı vuruşduğuna görə günahlandırılıb həbs edilmişdir.

**Müseyib Məhərrəm oğlu Ağayev** Qarabağlar rayonunda İcraiyyə Komitəsinin katibi və maarif müdiri işləmiş, 1941-45-ci

illər müharibəsində həlak olmuşdur.

**Eyyub Məhərrəm oğlu Ağayev** uzun müddət Daşdı kəndində kolxoz sədri işləmişdir.

**Cabbar Nəcəfalı oğlu Rüstəmov** Vedi rayonunun Şıxlar, Daşdı kəndlərində kolxoz sədri, Dəvəli zavodunun direktoru, rayon ictimai iaşə idarəsinin sədri işləmişdir. El arasında "Ministr Cabbar" ləqəbi ilə tanınırdı.

**Telman İsmayıl oğlu Ağayev** 1934-cü ildə anadan olmuşdu, ali təhsilli iqtisadçı idi. Xanlar rayon plan şöbəsinin rəisi, statistika idarəsinin rəisi və Xanlar Aqrar Sənaye Kombinatının baş iqtisadçısı vəzifələrində işləmişdir.

## VAQİF İSMAYIL OĞLU AĞAYEV



1940-cı il iyunun 3-də Daşlı kəndində anadan olmuş, 1948-ci ildə Azərbaycan Respublikasının Xanlar rayonuna deportasiya edilmişlər.

Xanlar şəhər 3 saylı orta məktəbini, M.F.Axundov adına Pedaqoji İnstitutu, Bakı Ali Partiya məktəbini və Kənd Təsərrüfatı Akademiyasını bitirmişdir. 1957-59-cu illərdə Xanlar təmir-tikinti idarəsində, hərbi xidmətdən qayıtdıqdan sonra isə 1962-1963-cü illərdə Gəncə şəhər pambıqtəmizləmə zavodunda fəhlə işləmişdir.

1963-1973-cü illərdə pedaqoji sahədə çalışmış, 1974-1989-cu illərdə Xanlar RPK-də təlimatçı, şöbə müdiri, II katib, RİK sədrinin müavini vəzifələrində işləmişdir. 1989-cu ilin mart ayında XT və EİHİ rayon komitəsinin sədri seçilmiş və 1991-ci ilin dekabr ayınadək həmin vəzifədə çalışmışdır. 1991-ci ilin dekabrından 1992-ci ilin aprelinə qədər Xanlar RİH başçısının birinci müavini, həmin ilin aprel-dekabr aylarında rayon XDS sədri olmuş və 1993-cü ilin iyun ayından 1994-cü ilin may ayınadək RİH başçısını əvəz etmişdir.

1994-cü ilin iyun-avqust aylarında respublika Kənd Təsərrüfatı Nazirliyində heyvandarlıq məhsullarının tədarükü şöbəsinin rəisi vəzifəsində işləmişdir.



# DAŞNOV

Vedibasar mahalının Cığındərə bölgəsində, Vedi çayının kənarında, Vedi rayonunun mərkəzi olan Böyük Vedi qəsəbəsinin şərqində kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

Kəndin nə vaxtdan salındığı barədə dəqiq məlumatımız yoxdur. Ancaq İ.Şopendə (1832) **Daşnov kəndi** Vedibasar mahalının dağıdılmış kəndləri siyahısındadır. Bu, onu göstərir ki, kənd 1826-1829-cu illər Rusiya-İran və Rusiya-Osmanlı müharibələri zamanı güclü dağıntılara məruz qalmışdır. Elə dağıntılara ki, kəndin xarabalıqları yerində həyat bir də 1931-cu ildə canlanmağa başlamışdır. Həmin ilə qədər kənddə ya ümumiyyətlə yaşayış olmamış, ya da o qədər az olmuşdur ki, heç bir statistik məlumatda qeydə alınmamışdır.

Lakin bununla belə, qeyd etməyə dəyər ki, İ.Şopendə Vedibasar mahalı ərazisindəki köçəri tayfalar sırasında 117 nəfərdən ibarət 22 ailə **Daşanlı tayfası** da qeydə alınmışdır.

1931-ci ildə kənddə 72 nəfər azərbaycanlı əhali yaşamışdır.

Kəndin adı dilimizdəki **daş** və **nov (yarımdairə şəklində axıntı yolu, arx, kanal** mənasında) sözlərindən düzəldilmişdir. Eyniadlı kənd Zəngəzur qəzasında (indiki Sisian rayonunda) da olmuşdur.

1937-1948-ci illərdə Qarabağlar rayonunun tərkibində mövcud olan Daşnov kəndinin əhalisi 1949-cu ildə məcburi şəkildə Azərbaycana köçürülmüşdür. O vaxtdan kənd xaraba qalmışdır.

Daşnov kəndinin aşağısında məşhur **Ağcaölən** dərəsi yerləşirdi. Daşnov həm də yaylaq yeri idi. Əyricəyə yaylağa qalxan bəzi kəndlər Əyricədə havalar soyuq keçəndə müvəqqəti olaraq köçlərini əvvəlcə Daşnovda salar, sonra İnqalaya qalxar, lap axırda Əyricəyə köçərdilər.

# DƏHNƏZ

Vedibasar mahalının Cığındərə bölgəsində, Qarabağlar kəndindən yuxarıda, Vedi çayının sol kənarında kənd.

Kənddə XX yüzilin əvvəllərinə qədər ancaq Azərbaycan türkləri, XX yüzilin əvvəllərindən etibarən həm də müsəlman kürdləri yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) Vedi nahiyəsinin **Tinas kəndi,** "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) həmin nahiyənin **Dinaz kəndi** kimi qeydə alınmışdır. İkinci mənbədə kənddə İbrahim Oruc oğlunun adına olan timardan dövlətin müxtəlif vergilər şəklində götürdüyü illik gəlirin 3.000 ağça olduğu göstərilmişdir.

1873-cü ildən etibarən statistik məlumatlarda kəndin adı **Dəhnəz** kimi qeyd olunmuşdur. 1873-cü ildə kənddə 8 təsərrüfatda 59 nəfər (30 kişi, 29 qadın) Azərbaycan türkü yaşamışdır.

Xalq dilində **Daynaz** kimi də tələffüz olunan Dəhnəz kənd adının **"keçid"**, **"ağız"** mənasında **dəhnə** sözündən yarandığı ehtimal olunur (B.Bünyadov, Q.Qeybullayev). Kəndin coğrafi mövqeyi bu yozumu doğruldur.

1886-cı ildə kənd əhalisinin sayı 13 təsərrüfatda 103 nəfərə (54 kişi, 49 qadın) çatmışdır. Kəndin 542 desyatin torpaq sahəsinin 1,25 desyatinini malikanə torpaqları, 0,25 desyatinini bağ sahələri, 3 desyatinini suvarılmayan, 98 desyatinini suvarılan əkin yerləri təşkil etmişdir. Kənddə 73 iribuynuzlu, 593 xırdabuynuzlu mal-qara qeydə alınmışdır. Kəndin torpaqları Vedi çayının suyu ilə suvarılmışdır. Bundan başqa, kəndin **Levarx-ağıl** deyilən ərazidə 250 desyatin qışlaq yeri olmuşdur.

1905-ci ildə kənddə 306 nəfər azərbaycanlı, 79 nəfər müsəlman kürdü, 1914-cü ildə 306 nəfər azərbaycanlı, 79 nəfər müsəlman kürdü yaşamışdır.

1918-1920-ci illərdə kənd erməni-daşnak təcavüzünün qurbanı olmuş, yalnız bölgədə Sovet hakimiyyəti qurulduqdan sonra kəndin sakinlərinin cüzi bir həssəsi geri qayıda bilmişdir. Belə ki, 1931-ci ilin məlumatlarına görə, artıq kənddə 60 nəfər azərbaycanlı, 36 nəfər müsəlman kürdü yaşamışdır.

1937-1948-ci illərdə Qarabağlar rayonunun tərkibində mövcud olan kəndin camaatı 1948-ci ildə məcburi şəkildə köçürülmüş və o vaxtdan da kənd xaraba qalmışdır.

* * *

Kəndin coğrafiyası haqqında əlavə bilgimiz ondan ibarətdir ki, kənddə evlər uca ərik ağaclarının arasında yerləşirdi. Qədim **Qız qalası** dağı ilə **Kardaş** (ona **Oğlan qalası** da deyirdilər) dağı kəndi araya almışdı. Məşhur **Dorrax dağı** və **Dorrax bulağı** burada yerləşirdi.



**Köhnə yurd yerində – Dəhnəz çayının kənarında**

Burada bir **Qurbanbulaq** deyilən bulaq da olub. **Qara ocaq** adlanan ziyarətgah burada yerləşib. Bu yerə ziyarətə gələnlər qurbanlığı bu bulağın başında kəsdikləri üçün bulaq bu adı almışdır. Dəhnəz ətrafındakı bulaqlar arasında **Şirin bulaq, Saray bulağı, Nabat bulağı** adlı bulaqlar da vardı.

Dəhnəzin tarixində ən dəhşətli hadisə 1919-cu ilin ilk yanvar günlərində baş verən soyqırımı olmuşdur. Həmin vaxt Vedibasar mahalının Qaraxaç, Qədirli, Şahablı və b. kəndləri ilə yanaşı, Dəhnəz kəndi də kütləvi qırğına məruz qalmışdı.

Hadisə belə olmuşdu. Bir gün Dəhnəz və qonşu Keşişdağ

kəndlərindən bir dəstə erməni gəlir. Onlar and-aman edirlər ki, müsəlmanlarla olan bu mənasız davadan bezib, Andranikin ordusundan qaçıblar. İndi də müsəlmanlara pənah gətiriblər. Bunlara yazığı gələn müsəlmanlar onları qonaq kimi qəbul edir. Demə, kəndləri yaxşı öyrənən ermənilər gizli şəkildə öz adamlarına xəbər göndərirmişlər. Bir gün ermənilər qəfildən kəndə daxil olur və kənddəki "qonaqlarla" birləşib, dərhal müsəlmanların kütləvi qırğınına başlayırlar. İnsanları vəhşiliklə qətlə yetirir, evlərə doldurub, ot tayalarının, kərmə qalaqlarının içinə atıb diri-diri yandırırlar. Təkcə Dəhnəz kəndindən 115 nəfər azərbaycanlı erməni vəhşiliyinin qurbanı olur.

Çimən kəndindən, Böyük Vedidən Kərbəlayı İsmayılın, Abbasqulu bəyin dəstələri köməyə gəlib, erməniləri darmadağın etsə də, sağ qalan yerli camaat kəndi tərk etməyə məcbur olurlar.



1948-ci il deportasiyası zamanı Azərbaycana köçməyib, doğma rayonda qalan dəhnəzlilər Vedi rayonunun aran kəndlərində məskunlaşırlar. Doğma Vedidə qalan dəhnəzlilərdən biri də **HƏSƏNOV BAYRAM MİKAYIL OĞLU** olur. O, 1924-cü ildə Dəhnəz kəndində anadan olmuş, 1942-ci ildə Çimənkənd orta məktəbini bitirib, cəbhəyə getmiş, 1944-cü ildə yaralanıb ordudan tərxis olunmuşdur. 1-ci dərəcəli müharibə əlilidir.

Müharibədən qayıtdıqdan sonra Çimənkənd orta məktəbinə hərbi işlər üzrə direktor müavini təyin olunmuş, az sonra Qarabağlar rayon komsomol komitəsinin birinci katibi vəzifəsinə seçilmişdir.

1950-ci ildə İrəvan Pedaqoji İnstitutunu bitirmiş, 1946-1949-cu illərdə RPK-nin katibi, 1949-54-cü illərdə Vedi rayon Əmanət Bankının müdiri, 1954-80-ci illərdə ticarətdə kəndkoopun sədri, tədarük kontorunun direktoru, ictimai iaşə birliyinin direktoru, 1980-85-ci illərdə rayon həmkarlar şurasının sədri, 1985-88-ci illərdə RİK sədrinin müavini vəzifələrində işləmişdir.

1988-ci ildən Bakı şəhərində yaşayır və hazırda Nərimanov rayon Veteranlar şurası sədrinin birinci müavinidir.



## ƏLİ MUSA OĞLU ƏLİYEV



1933-cü ildə Dəhnəz kəndində anadan olmuşdur.

Atası Musa Səttarov Vedibasarda tanınmış adam, Abbasqulu bəy, Kərbəlayı İsmayıl kimi şəxsiyyətlərin dostu, silahdaşı idi. 1937-ci ildə Musa Səttarovu ailəsindən ayırıb Sibirə sürgün edirlər. Az sonra ailəsi də Qazaxıstanın Cambul vilayətinin Sverdlov rayonuna sürgün olunur. Musa kişi cəzasını başa vurub, ailəsini elə orada da tapır.

Əli Əliyev 1947-ci ildə Sverdlov rayonunda yediillik təhsilini başa vurub, Frunze şəhərində iqtisadiyyat texnikumuna daxil olur. 1953-cü ildə texnikumu fərqlənmə ilə bitirən Ə.Əliyev Saratovda Ümumittifaq Avtomobil Yolları İnstitutuna daxil olur. 1958-ci ildə Bakıya köçüb təhsilini Azərbaycan Politexnik İnstitutunun sənaye və mülki tikinti fakültəsində davam etdirir.

Ə.Əliyev Bakıda Yol Tikinti İdarəsində iş icraçısı vəzifəsindən həmin idarənin rəisliyinə qədər yüksəlir.

1972-ci ildə isə Baksovetin nəzdində xüsusiləşdirilmiş şəhər yolları tikintisi, təmiri və istismarı tresti yaradılır və Ə.Əlieyv ora rəis vəzifəsinə təyin olunur.

Ə.Əlieyv 1973-cü ildə yol tikintisi üzrə dissertasiya müdafiə edərək texnika elmləri namizədi, 1983-cü ildə isə texnika elmləri doktoru dərəcələri alır. O, 60-a yaxın elmi əsərin, o cümlədən 3 monoqrafiyanın, 9 ixtiranın müəllifidir. Beynəlxalq Ekoenerji Akademiyasına akademik seçilmişdir.

## İLYAS MUSA OĞLU ƏLİYEV

1937-ci ildə Vedi mahalından sürgün edilmiş Musa Səttar oğlunun oğludur. 1943-cü ildə Qazaxıstanın Cambul vilayətinin Sverdlov kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 1962-1965-ci illərdə Riqa hava yolları məkəbində, sonralar isə Odessada təhsil almışdır.

1975-ci ildə Bakıdakı Kosmik Tədqiqatlar Elm-İstehsalat Birliyində

fəaliyyətə başlamış, "Kaspi" Elmi Mərkəzinin laboratoriya müdiri, Təcrübə zavodunun direktoru, Kosmik tədqiqatlar Elm-İstehsalat Birliyinin baş mühəndisi vəzifələrində çalışmışdır.



1983-cü ildə dissertasiya müdafiə edərək texnika elmləri namizədi, 1992-ci ildə fizika-riyaziyyat elmlər doktoru elmi dərəcələri almışdır. 60-dan çox elmi əsərin müəllifidir. İxtiralarına görə 8 müəlliflik şəhadətnaməsi almışdır. İxtiraları xalq təsərrüfatının müxtəlif sahələrində, cürbəcür kosmik aparatlarda geniş tətbiq olunur.

İ.Əliyev 1990-1996-cı illərdə Milli Aviasiya Akademiyasına rəhbərlik etmiş, milli aviasiya kadrlarının yetişməsi işində böyük xidməti olmuşdur.

Həyat yoldaşı **Solmaz xanımla** birgə iki övlad böyütmüşlər. Qızı **Nübar** Azərbaycan Dövlət Universitetini, oğlu **Musa** isə Milli Aviasiya Akademiyasını bitirib.

## KAMİL ƏLİ OĞLU ƏLİYEV

1961-ci il mayın 18-də Bakı şəhərində anadan olmuşdur.

1978-ci ildə Bakı şəhərindəki 47 saylı orta məktəbi bitirib, Azərbaycan İnşaat Mühəndisləri İnstitutuna daxil olmuşdur.

1983-cü ildə ali təhsilini əla qiymətlərlə başa vurmuş, Moskva şəhərində İttifaqyol ETİ-nin əyani aspiranturasına qəbul olunmuşdur.

1988-ci ildə dissertasiya müdafiə edərək texnika elmləri namizədi alimlik dərəcəsi almış, həmin ildən 1991-ci ilə qədər Azərbaycan İnşaat və Memarlıq İnstitutunda çalışmış, 1991-1995-ci illərdə isə "Azəravtoyol" EİM-nin direktoru işləmişdir.

K.Əliyev 1995-ci ildə Azərbaycan-Almaniya Birgə Müəssisəsi "Azvirt"in baş direktoru olmuş, 1999-cu ildə isə "Yoltəmirtikinti" Baş İstehsalat İdarəsinə müdir təyin edilmişdir.

K.Əliyev bir neçə kitabın və elmi məqalələrin müəllifidir.

Ailəlidir. İki övladı var: oğlu **Kənan**, qızı **Günel**.



# DƏVƏLİ (QAYNAR)

Vedibasar mahalının aran hissəsində, Ağrıdağ vadisində, Vedi rayonunun mərkəzi olan Böyük Vedi qəsəbəsindən 14 km cənub-qərbdə, İrəvan şəhərindən 48 km aralıda, İrəvan-Naxçıvan-Bakı dəmiryol xəttinin və İrəvan-Naxçıvan avtomobil yolunun üstündə kənd.

1828-ci ilə qədər kənddə ancaq azərbaycanlılar yaşamış, həmin ildən 1988-ci ilə qədər azərbaycanlıların, müsəlman kürdlərinin və ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuş, 1988-ci ildən tamamilə erməniləşdirilmişdir.

"İrəvan əyalətinin məfəssəl dəftəri"ndə (1590) Vedi nahiyəsi ərazisində Dəvəli adı ilə iki kənd – **Böyük Dəvəli** və **Kiçik Dəvəli** kəndləri qeydə alınmışdır. "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə bir **Dəvəli kəndi** qeydə alınmış və dövlətin müxtəlif vergilər şəklində il ərzində kənddən 25.000 ağça gəlir götürdüyü göstərilmişdir.

Tanınmış fransız səyyahı J.Şardən 1711-ci ildə nəşr etdirdiyi məşhur "Səyahətnamə"sində Dəvəlini Dvinlə Sədərək arasında " **Qaynar** adlı kiçik bir şəhər" kimi qeyd edir. Ərazinin tarixinə dair mənbələrdə Vedibasarda belə bir məntəqə adının olmaması söhbətin qaynar mineral su çıxan Dəvəli kəndindən getdiyi ehtimalını otraya qoyur.

1826-1829-cu illər Rusiya-İran və Rusiya-Osmanlı müharibələri zamanı böyük dağıntılara məruz qalan Dəvəli kəndində 1832-ci ildə cəmi 2 təsərrüfatda 28 nəfər (11 kişi, 17 qadın) Azərbaycan türkü qeydə alınmışdır. Kəndin qalan əhalisinin isə 1828-1829-cu illərdə İranın Maku və Salmas qəzalarından köçüb gələn ermənilər (639 nəfərdən ibarət 101 ailə) olduğu və onların kənddəki boşalmış müsəlman evlərində yerləşdirildiyi də həmin mənbədə göstərilmişdir.

Kəndin adının burada vaxtilə çoxlu dəvə saxlanmasından irəli gəlməsi fikri (S.Mirmahmudova) kökündən səhvdir. Kəndin orta yüzillərdə Anadoluda mövcud olmuş Dəvəli bölgəsindən gələnlər tərəfindən salınması qənaəti də (B.Budaqov, Q.Qeybullayev) natamamdır.

Bu qənaət Vedibasar ərazisində türklərin qədimdən yaşaması həqiqəti üzərinə kölgə salır. Əslində Dəvəli kəndi türk tayfalarından Qacarların bir qolu olan **Dəvəlilər** tayfasının adını daşıyır.

Bu tayfa indinin özündə də Cənubi Azərbaycanın Qaradağ mahalında yaşamaqdadır və xüsusilə Qacarlar sülaləsinin hakimiyyəti dövründə (1796-1925) bu tayfa Azərbaycanın ictimai-siyasi həyatında mühüm rol oynamışdır. XVI yüzilə aid bir mənbədə qışı Qarabağda keçirən belə bir tayfa da qeydə alınmışdır. Şərur rayonunun Gümüşlü kəndinin şimalındakı dağ silsiləsinin Arpaçaya enən yamacında 2 ha ərazidə X-XVII yüzillərə aid Dəvəli qədim yaşayış yeri də aşkarlanmışdır.

XVII yüzil erməni mənbəyində isə Dəvəli kəndinin adı erməni tələffüzündə **Davalonots** kimi yazılmışdır.

Hazırda Azərbaycanda iki yüksəklikdən ibarət palçıq vulkanı da Dəvəlidağ adlanır.

1873-cü ildə Dəvəli kəndində 19 təsərrüfatda 207 nəfər (113 kişi, 94 qadın) Azərbaycan türkü, 24 təsərrüfatda 209 nəfər (113 kişi, 96 qadın) müsəlman kürdü, 217 təsərrüfatda 1760 nəfər( 917 kişi, 843 qadın) erməni yaşamışdır. Kənddə 1 erməni qriqorian kilsəsi və poçt stansiyası da qeydə alınmışdır.

1886-cı ildə Dəvəlinin azərbaycanlı, kürd və erməni əhalisinin birgə sayı 355 təsərrüfatda 2525 nəfər (1319 kişi, 1206 qadın) olmuşdur. Onun 35 təsərrüfatda 263 nəfərini (140 kişi, 123 qadın) Azərbaycan türkləri, 29 təsərrüfatda 287 nəfərini (143 kişi, 144 qadın) kürdlər, 291 təsərrüfatda 2075 nəfərini (1036 kişi, 939 qadın) isə ermənilər təşkil etmişlər.

Kənddə müsəlman və erməni məliklərinin ailə üzvlərinin sayı 47 nəfər (25 kişi, 22 qadın), erməni dini icmasının nümayəndələrinin sayı isə 45 nəfər olmuşdur.

Kənd iqtisadiyyatının əsasında əkinçilik və heyvandarlıq dayanmışdır. Belə ki, kəndin 1693,72 desyatin torpaq sahəsinin 42,65 desyatinini malikanə torpaqları, 65 desyatinini bağ sahələri, 1019,66 desyatinini suvarılan əkin yerləri təşkil etmişdir. Kəndin torpaqları Vedi çayından çəkilən Dəvəli arxının suyu ilə suvarılmışdır. Kənddə 1492 iribuynuzlu, 3581 xırdabuynuzlu mal-qara, 157 at olmuşdur.

Dəvəli kəndinin Əyricə yaylağında kənddən 50 verst aralıda,



1940 desyatin ərazini əhatə edən **Uzunyurd, Əmirxanlar yurdu, Aşağı İkicilər yurdu, Yuxarı İkicilər yurdu** adlı yaylaq yerləri olub.

Bundan əlavə, kənd icmasının kənddən 5 verst aralıda **Abbas-ağıl** deyilən yerdə 700 desyatin, 6 verst aralıda **Qızıl-ağıl** deyilən yerdə 600 desyatin qışlaqları olub.

1905-ci ildə Dəvəli kəndində 159 nəfər, 1914-cü ildə 263 nəfər azərbaycanlı yaşamışdır.

1918-1920-ci illər erməni-müsəlman davası zamanı Dəvəli kəndi hadisələrin ən qaynar nöqtələrindən birinə çevrilmiş, erməni daşnakları bu kənddən özlərinə dayaq kimi istifadə etmişlər. Vedi rayonu ərazisində ən böyük dəmiryol stansiyası burada yerləşdiyindən ermənilər onu əldən vermək istəmir, tez-tez ora zirehli qatar çıxarır, ətraf müsəlman kəndlərini top atəşinə tuturdular. Dəvəli kəndinin müsəlman əhalisi isə öz kəndindən tamamilə qovulmuşdular.

Sovet hakimiyyəti illərində kəndin erməniləşdirilməsi siyasəti davam etdirilmişdir. 1922-ci ildə artıq kənddə 1533 nəfər erməninin müqabilində cəmi 3 nəfər azərbaycanlı yaşamışdır. 1931-ci ildə kənddə azərbaycanlıların sayı 41 nəfərə çatmışdır.

1949-1950-ci illərdə kəndin azərbaycanlı əhalisinin əksəriyyəti məcburi şəkildə Azərbaycana köçürülmüş, yerdə qalanları isə 1988-ci ildə doğma yurdundan qovularaq kənd tamamilə erməniləşdirilmişdir. 1988-ci ildə Dəvəli kəndində yaşayan azərbaycanlıların sayı 30-40 evə çatırdı.

1935-ci il yanvarın 1-də kəndin adı dəyişdirilərək Ararat qoyulmuşdur.

* * *

Keçmişdə Vedi nahiyəsində Dəvəlidən Alməmmədə qədər aran kəndlərinin ayrıca qlavası olarmış. Dəvəli kəndindən **Qlava Qəfər** də uzun müddət bu ərazilərin qlavası olmuşdur.

# DƏVƏLİ ŞƏHƏRİ (DƏVƏLİ SEMENT ZAVODU QƏSƏBƏSİ)

Vedibasar mahalının aran hissəsində, Ağrıdağ vadisində, Vedi rayonunun mərkəzi olan Böyük Vedi qəsəbəsindən 14 km cənub-qərbdə, İrəvan şəhərindən 48 km-lik məsafədə, İrəvan-Naxçıvan-Bakı dəmiryol xəttinin və İrəvan-Naxçıvan avtomobil yolunun üstündə, Dəvəli kəndinin yanında rayon tabeli şəhər.

1988-ci ilə qədər bu yaşayış məntəqəsində azərbaycanlılar, ermənilər, kürdlər və ruslar yanaşı yaşamışlar. 1988-ci ildə şəhər bütünlüklə erməniləşdirilmişdir.

Dəvəli şəhərinin adı Dəvəli kəndinin adından götürülmüşdür və türkdilli qacarların bir qolu olan Dəvəlilər (Dəvəlu) tayfasının adını daşıyır. Dəvəli toponimi haqqında Dəvəli kəndindən danışarkən ətraflı bəhs etmişik.



**Dəvəli kəndinin ümumi görünüşü**

Şəhərin bünövrəsi 1923-cü ilin əvvəllərində Abbasqulu bəyin təşəbbüsü ilə Dəvəli kəndi kənarındakı kirəc mədəninin inşası ilə qoyulmuşdur. Belə ki, 1922-ci ilin sonlarında ordudan tərxis olunub, Böyük Vediyə dönən Abbasqulu bəy Şadlinski bir neçə ay sonra İrəvan Qəza İcraiyyə Komitəsi qarşısında Dəvəli kəndi kənarındakı kirəc təpələrinin inşaat üçün istifadə edilməsi haqqında məsələ qaldırır və müsbət cavab alır. Kirəc mədəninə müdir təyin olunan Abbasqulu bəy dərhal işə başlayır.

Kirəc mədəni Dəvəli kəndindən bir qədər aralıda və çölün düzündə yerləşdiyindən işin gedişində tez-tez ciddi çətinliklər ortaya çıxır. Xüsusilə içməli və texniki su sarıdan böyük çətinliklər olduğunu nəzərə alan Abbasqulu bəy böyük əziyyətlə Vedi çayından bura su arxı çəkdirir.



1-ci beşillik (1928-1933) dövründə burada İrəvan-Naxçıvan dəmiryol xətti üzərində **Dəvəli** adlı yeni dəmiryol stansiyası açılır.

Əvvəllər kirəc mədənində, sonralar burada tikilən sement zavodunda işçi qüvvəsinə böyük ehtiyac olduğundan tezliklə burada **Dəvəli sement zavodu** adlı iri fəhlə qəsəbəsi salınır. Qəsəbədə erməni, azərbaycanlı, kürd, rus millətlərinin nümayəndələri yaşasalar da, xüsusilə 1946-1947-ci illərdə bura xaricdən gətirilən çoxlu erməni yerləşdirilir, 1948-1950-ci illərdə isə azərbaycanlılar deportasiya olunur və nəticədə qəsəbə əhalisi arasında ermənilər böyük əksəriyyət təşkil edirlər.



**Dəvəli sement zavodu**

Dəvəli sement zavodu Abbasqulu bəyin ölümündən üç il sonra – 1933-cü ilin payızında istifadəyə verilir. Onun istifadəyə verilməsində Ağa Süleymanovun böyük oğlu, Peterburqda ali mühəndis təhsili almış Ağamirzə bəyin xüsusi rolu olur. İlk layihə gücü 120 min ton sement olan zavod 1967-ci ildə artıq 670 min ton sement, 80 milyon ədəd şifer istehsal edirdi.

1947-ci il aprelin 10-da Dəvəli sement zavodu qəsəbəsinin adı dəyişdirilərək **Ararat qəsəbəsi** qoyulur. 1962-ci ildə isə qəsəbəyə rayon tabeli şəhər statusu verilir. Dəvəli sement zavodu respublika əhəmiyyətli sement-şifer kombinatına çevrilir.

Dəvəli şəhərində yaşayan sonuncu azərbaycanlı ailələri 1988-ci il hadisələri zamanı doğma yurdlarından vəhşicəsinə qovulmuş, şəhər bütünlüklə erməniləşdirilmişdir.

## DVİN (DÜYÜN)

Vedibasar mahalının aran hissəsində, Ağrıdağ vadisində, Araz çayının sahilində, "Ermənistan"ın Türkiyə ilə sərhədində kənd.

Öncə onu qeyd etmək istərdik ki, qədim Dvin şəhəri ermənilərin iddia etdikləri, bütün tarixi xəritələrə saldırdıqları və bizim qədim dövr tarixçilərinin də kor-koranə razılaşdıqları kimi, heç də Gərnibasar mahalı ərazisində, indiki Qəmərli (Artaşat) və İrəvan şəhərləri arasında yerləşməmişdir.

Hətta N.Marr da bu səhvdən qaça bilməmiş, tarixi Dvinin indiki Qəmərli rayonunun 8 kəndini (Yuxarı Dvin, Orta Dvin, Aşağı Dvin, Ayaslı, Buzovand, Oxaber, Torpaqqala, Yuxarı Artaşad) əhatə etdiyini iddia eləmişdir.

Tarixi faktlarla reallığın üst-üstə düşmədiyini dərin intuisiya ilə hiss edən İ.Şopen isə Dvin şəhərinin ermənilərin iddia etdiyi tarixi coğrafiyası ilə bağlı özünün ciddi şübhələrini bildirməkdən çəkinməmişdir. Bu barədə bir qədər sonra.

Dvin şəhərinin salınması eramızın 350-ci ilində Arman çarı II Xosrov tərəfindən başa çatdırılmış və Armaniyanın paytaxtı Vağarşakabad şəhərindən Dvin şəhərinə köçürülmüşdür. Bu paytaxt dəyişməsinin, heç şübhəsiz, o vaxt üçün obyektiv səbəbləri vardı. Öncə, xatırladaq ki, 224-cü ildə İranda Parfiya Arsakilər sülaləsini devirib hakimiyyəti ələ keçirən Sasaniləri tanımaq istəməyən Armaniya Arsakiləri həmin vaxtdan fars sərkərdələrinin dağıdıcı hücumları qarşısında dayanmalı olmuşdular. İranın bu hücumu ardıcıl olaraq Vedibasar mahalı istiqamətində olduğundan Armaniya dövləti üçün mühüm strateji əhəmiyyətə malik bu bölgə, xüsusilə qədim Artaşad şəhəri böyük dağıntılara məruz qalmışdı. Sasani hökmdarı II Şapur IV yüzilin 1-ci yarısında hakimiyyət başına gəldikdən sonra isə belə hücumlar daha tez-tez təkrarlanmışdır. Vedibasar mahalı ərazisində onun Arman türk sərkərdələri tərəfindən bir neçə dəfə darmadağın edildiyi barədə kitabımızın giriş hissəsində də yazmışıq. Beləliklə, paytaxtın bu bölgəyə köçürülməsi Arman ölkəsinin Sasani hücumlarına qarşı daha möhkəm dayanmasına imkan verəcəkdi. Üstəlik, Müqəddəs Qriqorinin adı ilə bağlı olan qədim Artaşad



şəhər-kilsəsini (Musa Kağankataylının "Alban tarixi"ndə yazdığına görə, Müqəddəs Qriqori çar Tiridat (Diridağ) tərəfindən məhz bu şəhərdə uzun illər ilanla dolu quyu-zindanda ac-susuz saxlanmış, sağ qalmış və müqəddəsliyini sübut etmişdi) bütün Arman xristianlarının (onlar xristianlığı 301-ci ildə qəbul etmişdilər) müqəddəs ziyarətgahına çevirməklə də bölgənin müdafiə qabiliyyətini xeyli artırmaq mümkün idi. Lakin Sasani hücumları nəticəsində şəhər öz strateji əhəmiyyətini itirdiyindən, üstəlik şəhərsalma baxımından o qədər sərfəli olmadığından (qədim Artaşad Arazın lap yaxınlığında, çayın tez-tez daşıb, ətraf çökəklikləri bataqlığa çevirdiyi bir yerdə idi) II Xosrov qədim Artaşad şəhərinin bir neçə kilometrliyində, Araz çayının sahilində, Şıxlar kəndinin yaxınlığında geniş bir ərazidə yeni şəhər salmaq qərarına gəlmişdi.

Yeri gəlmişkən, II Xosrov paytaxtı Dvin şəhərinə köçürdükdən sonra bu bölgədə palıd meşəliyi saldırır. Kirakos Gəncəlinin yazdığı bu faktı M.Xorenli də öz tarix kitabının III cildinin 14-cü fəslində təsdiq edir. Bu, həmin palıd meşəliyidi ki, el onu **Xosrov meşəsi** adlandırmışdı. Mənbələr bu meşəliyin ov məqsədilə salındığını yazsalar da, inanmaq çətindir ki, ölkənin belə çətin dövründə II Xosrov kimi hökmdar ov barədə düşünsün. Biz bu fikirdəyik ki, Cığın dərəsinin Göyçə ağzında (yəni Armaniyanın Albaniya ilə sərhədində) salınmış bu meşəlik daha çox müdafiə məqsədi daşımışdır.

Tam beş yüzildən çox bir tarixi dövrdə (350-859) Arman ölkəsinin paytaxtı olaraq qalması da Dvin şəhər yerinin paytaxt kimi çox uğurlu seçilməsindən xəbər verir. Arsakilər sülaləsinin son nəsilləri, İran mərzbanları, ərəb canişinləri ölkəni məhz buradan idarə etmişlər.

Dvin şəhəri Azərbaycanın o vaxtkı üç qüdrətli dövlətini – Albaniya, Armaniya və Atropatenanı bir-birinə birləşdirən ən işlək qədim karvan yolunun üstündə yerləşdiyindən onun coğrafi yerini müəyyənləşdirmək o qədər də çətin deyil. Vedibasar mahalının Şərur mahalı ilə sərhədindəki məşhur Bağırsaqdərədən keçən bu karvan yolu Bərdədən Dvinə, Dvindən Marağaya doğru uzanırdı. Dvin-Bərdə-Marağa karvan yolunun əsas dayanacaq nöqtəsi, böyük ticarət mərkəzi idi. Yaxın İberiyadan, uzaq

Hindistandan, farsların, rumluların tabeliyində olan ən uzaq şəhərlərdən də mal gətirilib burada satılırdı. Bu, eyni zamanda Albaniya, Atropatena və Armaniyanı birləşdirən orta nöqtə idi. Ona görə də tacirlər də, fatehlər də, sənətkarlar da – hamı bura can atırdı. Burada müxtəlif dinli adamlar sərbəst yaşaya bilirdi. Buradan bütün Cənubi Qafqazı rahatca idarə etmək olurdu.

Bütün tarixi xəritələrdə (İbn Hövqəl, Müqəddəsi, İdrisi, əl-İstəxri və b.) Naxçıvandan Dvinə 4 mənzil yol olduğu göstərilir: Noraşen – Sədərək – Dəvəli – Dvin.

Bərdədən Dəbilə (Dvinə) yolun isə 7 mənzil olduğu və son üç mənzilin Sisəcan (Sisian) – Kilkuy (Kərki) – Dəbil (Dvin)-dən keçdiyi qeyd edilir.

Bu strateji mövqeyinə görə idi ki, V yüzildə burada artıq 150 min nəfər əhali yaşayırdı.

Erməni tarixçiləri Dvini özlərinin tarixi paytaxtı kimi dünyaya sırısalar da, əslində bu, belə deyil. Dvin tarixən türk şəhəri olmuşdur. Bu, şəhərin adında da öz əksini tapmışdır.

Qədim arman, türk mənbələrində **Divin, Dovin, Devin,** suriya dilində **Adabin**, yunanca **Duvios** və **Tivion**, ərəbcə **Devin** və **Dəbil**, yerli tələffüzdə **Düyün** adlandırılan bu adın etimologiyası barədə mənbələrdə özünə ən çox yer alan fikir Dvin sözünün farsca olması və "**təpə**" mənası verməsi mülahizəsidir. Doğrudur, Musa Xorenli təsdiq edir ki, şəhər təpəlikdə salınmışdır, lakin bu fikrə şübhə ilə yanaşan İ.Şopen yazır ki, bu adın izinə düşən tədqiqatçılar (o, S.Martenə istinad edir) fars dilində **"təpə"** mənası verən oxşar söz tapa bilməmişlər. O, belə mülahizə irəli sürür ki, bu söz şəhərin təpəlikdə tikilməsi ilə bağlı **"dəvə"** sözündən (**dəvə beli** mənasında) törəmiş ola bilər və **Dvin-dəvə-Dəvəli** səs oxşayışı onu yanılış olaraq qədim Dvin şəhəri ilə Dəvəli şəhərini eyniləşdirməyə aparıb çıxarır.

Adın etimologiyası ilə bağlı digər daha tutarlı mülahizələr də irəli sürmək olar. Bunlardan biri **"inzibati idarə mərkəzi"** anlamında olan **"Divan"** sözüdür ki, daim inzibati mərkəz olan şəhər bu ada uyğun gəlir. Vedibasar mahalında da buna uyğun zərb-məsəl var: **"Heç kəsin işi Düyünə (Dvinə) düşməsin".** Yəni divan-dərəyə düşməsin. Lakin bu, adın sonrakı, ən azı fars dilinin (**divan** fars sözüdür) bölgəyə gəlişindən sonrakı interpretasiyasıdır. Dvin adı isə bölgəyə çox-çox əvvəllər gəlmişdir.



Adın ikinci izahı **Div** sözü ilə bağlıdır. Qədim türklər üçün "**çox güclü**" anlamında olan bu ad qədim türk şəhəri üçün də tamamilə təbiidir. Təsadüfi deyil ki, Şah İsmayılın Çuxur-Sakat hakimi təyin etdiyi sərkərdələrindən birinin **(Div Sultan)** adında da **Div** sözü vardır.

Bundan əlavə, Oğuz xanın ulu babalarından birinin adı **Div Yabquydur.** Daha dəqiq desək, Nuhun oğlu Yafəs, Yafəsin oğlu Türk, Türkün oğlu isə Div Yabquydur.

Nəhayət, Dvin//Divin toponiminin etimologiyası ilə bağlı bizim qəti fikrimiz isə ondan ibarətdir ki, Dvin, tarixi mənbələrdə göstərildiyi kimi, kiçik dağ, təpə üzərində tikildiyindən ad da "**dağ qalası**" anlamında **tau// dau//dav** yəni **dağ** (Tovuz rayonunun adı da bu qəbildəndir) və **in** (qədim türk dilində **qala, mağara** deməkdir) komponentlərindən ibarətdir.

Yeri gəlmişkən xatırladırıq ki, Böyük Cavanşirin ölümünə mərsiyə yazan alban-türk şairi **Dəvdəkin** əsl adı da **"dağ təki"** mənasında **Davtək** olmuşdur.

Dvində 22 m enində, 43 m uzunluğunda olan dövrünə görə nəhəng məbəd mövcud olub. 572-ci ildə bu məbəd farslar tərəfindən dağıdılsa da, 602-ci ildə yenidən tikilib, 893-cü il zəlzələsi zamanı isə tamamilə yerlə-yeksan olub.

Dvinlilər qədimdən atəşpərəst olmuş, IV yüzildə Armanda xristianlığın yayılması ilə bağlı bu dini qəbul etmişlər. 450-ci ildə isə Arman knyazları Dvinə yığışaraq xristianlıqdan imtina etmiş, təzədən öz əvvəlki dinlərinə – atəşpərəstliyə qayıtmışlar.

Elə buna görə də hələ 571-ci ildən əvvəl (Musa Kağankataylı arman tarixçisi Sebeosa istinadən yazır ki, "hələ İran mərzbanı Surenin 571-ci ildə öldürülməsindən əvvəl...") Sünik (Zəngəzur) torpağının hakimi Vahan üsyan edib armanlardan ayrılır və İran şahı Xosrovdan xahiş edir ki, Sünik torpağının divanını Dvindən Paytakaran (Beyləqan) şəhərinə köçürsün və onların şəhəri də Atropatena ərazisinə daxil edilsin ki, Arman adı onların üzərindən götürülsün. Xosrov şah xristian Vahanın bu xahişini yerinə yetirib, Süniki Arman atəşpərəstlərindən ayırır.

Yenə də Musa Kağankataylının "Alban tarixi"ndən öyrənirik ki, 626-cı ilin yayında xəzər türkləri Şadın başçılığı ilə Albaniya

və Armaniyaya yürüş edərək gəlib Araz çayının sahilində, dəqiqləşdirmələrimizə görə, Dvin şəhərinin yaxınlığında, Şidli (Şadlı) kəndi ərazisində düşərgə salıb, İran hökmdarı Xosrov Pərvizlə danışıqlara girir, anlaşıb geri dönür. "Ucu-bucağı görünməyən" xəzər-hun qoşunu ilə Şad bu yerlərə bir də üç il sonra gəlir və Albaniya, Armaniya ərazisində bu dəfə həmişəlik qalır. O vaxta qədər xristian türklərlə, atəşpərəst türklərin birgə yaşadığı Dvin şəhərində həmin vaxtdan həm də yəhudi dinli xəzərlər də məskunlaşmışlar.

Maraqlıdır ki, VII yüzilin ortalarında, konkret desək, 642-ci ildə Qafqaza hücum edən ərəblər Araz çayını keçərək ilk əvvəl Artaşad (ərəb mənbələrində Ərdəşət) kəndini işğal edir, sonra Dvin şəhərini mühasirəyə alır və qanlı döyüşlər nəticəsində onu fəth edirlər. Ərəblər şəhər əhalisinin 12 min nəfərini qılıncdan keçirir, 35 min nəfərini əsir aparırlar. Ərəb qoşunlarının sərkərdəsi Həbib ibn Məsləmə Dvin şəhərinin əhalisi ilə aşağıdakı müqaviləni bağlayır: "... Mərhəmətli və rəhmdil Allahın xatirinə. Bu fərman Həbib ibn Məsləmə tərəfindən Dəbil şəhərinin xristianlarına, onun məcus (atəşpərəst) və yəhudilərinə, onun şahid və qayiblərinə verilir ki, mən sizə sizin şəxsiyyətiniz və mülkiyyətinizin, sizin kilsələrin və məbədlərin, sizin şəhərin divarının toxunulmazlığı üçün zəmanət verirəm. Sizə aman verilir və biz sizinlə olan müqaviləni o vaxtadək yerinə yetirməyi öhdəyə götürürük ki, siz də ona əməl edəcək, cizyə və xərac ödəyəcəksiniz; bu deyilənlər üçün Allahın şahidliyi ən etibarlı şahidlikdir. Fərman Həbib ibn Məsləmənin möhürü ilə təsdiq edildi". (**Bu barədə IX yüzil ərəb tarixçisi Əl-Bəlazurinin "Kitab Fütuh əl-Buldən" kitabının "Ərməniyyənin fəthi" bölməsində ətraflı bəhs edilmişdir – Ə.Ə.**).

Həbib ibn Məsləmə Dvinin fəthindən sonra Naxçıvan (ərəb mənbələrində: Nəşavə) istiqamətinə üz tutur və Dvin əhalisi ilə bağladığı məzmunda bir müqavilə də onlarla bağlayır.

Xilafətin inzibati bölgü sistemindəki 4-cü əmirlik bütün Cənubi Qafqaz ölkələrini əhatə edirdi ki, onun da paytaxtı Dvin şəhəri idi. Yəni ərəb canişini Dvində oturur, bütün Cənubi Qafqaz da buradan idarə olunurdu.

Bu barədə ərəb tarixçisi əl-İstəxri də yazırdı ki, Bərdə Arranın, Ərdəbil Azərbaycanın paytaxtı olduğu kimi, Dəbil də Ərməniyyənin paytaxtı idi. Hətta o, Dəbilin Ərdəbildən böyük olduğunu xüsusi vurğulayırdı. O, Dəbilin ətrafının hündür və heyrətamiz divarlarla əhatələndiyini, burada çoxlu xristianın yaşadığını, kilsə ilə yanaşı məscidin də olduğunu göstərirdi. Əl-İstəxri paytaxtı Dvin olan Ərməniyyənin sərhədlərini də çox aydın təsvir edir: Rum, Bərdə, Xəzər və Azərbaycan.



697-698-ci illərdə ərəblərə qarşı üsyan qaldıran yerli əhali – armanlar ərəbləri Dvin şəhərində mühasirəyə alaraq onların 62 min nəfərini qılıncdan keçirirlər. Ərəb tarixçisi İbn Əsam əl-Kufi Dvində yaşayan bu üsyançı armanların milli və dini mənsubiyyətini "xəzərlər və allahsızların başqa nümayəndələri" deyə təqdim edir ki, bu, armanların türkülüyünü və Dvinin türk şəhəri olduğunu bir daha təsdiqləyir. (**Ətraflı məlumat üçün bax: kitabın girişindəki "Qısa tarix" bölməsinə – Ə.Ə.**).

Dvinin Azərbaycan-türk şəhəri olduğunu "Azərbaycan Atabəyləri dövləti" kitabında akademik Ziya Bünyadov da dönə-dönə qeyd etmişdir: "Ərəb mənbələri Dvinin və onun ətrafının Azərbaycan torpağına mənsub olduğunu qeyd edirlər." Və ya: "Dvindəki numizmatika tapıntıları onun Azərbaycan şəhərlərindən olduğunu sübut edir" və s.

893-cü il zəlzələsi zamanı şəhər böyük dağıntılara məruz qalır. Hətta buradakı məbəd alt-üst olur.

921-ci ildə gürcü knyazları Dvin şəhərinə yenidən hücum edirlər. Şəhəri fəth edən Baqratuni sülaləsi onu cəmi 15 il işğal altında saxlaya bilir. Şəhər Müsafiri əmirləri tərəfindən geri alınır.

951-ci ildə Müsafiri əmirlərinin oturduğu Dvin şəhəri "Dvin ətrafındakı" güclü Şadlı tayfası içərisindən çıxan Məhəmməd ibn Şəddad (yəni Məhəmməd Şadlılar oğlu) tərəfindən tutulur və Azərbaycanın ən qüdrətli feodal dövlətlərindən biri olan Şəddadilər dövlətinin bünövrəsi qoyulur. Dvin bu dövlətin ilk paytaxtı olur.

Şəddadilər dövlətinin böyüməsindən narahat olan Bizans imperatoru 1045-ci ildə Dvin üzərinə qoşun çəkir, lakin Dvin yaxınlığında darmadağın edilərək geri oturdulur.

1161-ci ildə gürcü çarı III Georgi 30 minlik qoşunla Dvin üzə-

rinə hücum edir, şəhəri dağıdır, məscidlərə od vurub yandırır, 10 ininə qədər insanı qətlə yetirir, xeyli əsir alıb şəhəri tərk edir.

1163-cü ildə Atabəy Eldəniz 60 min nəfərlik qoşunla hücum edib, gürcüləri xeyli tələfata uğradır.

Dvin şəhəri sonralar da bir neçə dəfə gürcülərin hücumuna məruz qalır. Sonuncu dəfə 1225-ci ildə Xarəzmşah Sultan Cəlaləddin Dvin şəhərini gürcülərdən azad edir.

Lakin az sonra – 1236-cı ildə amansız monqol hücumu Dvin şəhərini darmadağın edir. Bununla da şəhər öz tarixi əhəmiyyətini itirir və tərdicən tarix səhnəsindən silinir. Dvinin sağ qalan müsəlman, xristian, yəhudi əhalisi köçüb indiki Qəmərli rayonu ərazisində yeni Dvin şəhəri salırlar.

Vedi rayonunun Şıxlar kəndi yaxınlığında böyük bir ərazini əhatə edən Dvin xarabalıqlarının üstü yüzillər boyu örtülü saxlanmış, buradakı təpəliklər yerli camaatın gözü qarşısında zaman-zaman bilərəkdən şumlanıb düzlənmiş, ermənilər qədim türk şəhəri olan həqiqi tarixi Dvinin yerini unutdurmağa çalışmışlar. Ermənilərin dünya ictimaiyyətinə qədim Dvin şəhəri kimi təqdim etdiyi xarabalar isə Araz yaxınlığındakı qədim Dvin dağıldıqdan sonra Qəmərli ərazisində yaranmış yeni Dvin şəhərinin (bəlkə də tamam başqa yaşayış məntəqəsinin) xarabalıqlarıdır.

Orta yüzillər Qərbi Avropa səyyahlarının öz əsərlərində bəhs etdikləri Dvin şəhəri də qədim Dvin dağıldıqdan sonra Qəmərli rayonu ərazisində salınmış Dvindir ki, bu da sonralar Türk Dvini, Erməni Dvini və Aysoru Dvini adlı üç müstəqil kəndə ayrılmışdır.

Halbuki İbn Hövqəl "Yerin surəti kitabı" əsərində də Dvinin coğrafi yerini dəqiq göstərmişdir: Ərdəbildən başlanan yol Miməz, Əhər, Varzaqan məntəqələrindən keçib Dəbilə çatır. Dəbil bir dağın yanındadır. Xəritədə bu yerdə yazılmışdır: "Əl-Haris və Əl-Huvayris dağları". Yəni Böyük Ağrıdağ və Kiçik Ağrıdağ. Nəşavə (Naxçıvan) şəhəri bu dağın sağ tərəfində onunla birləşir.

Xatırladaq ki, Vedibasar mahalı ərazisindəki həqiqi qədim Dvin şəhərinin xarabalıqları yaxınlığındakı dəyirman son illərə qədər də Dvin (Düyün) dəyirmanı adlandırılmaqda idi.



* * *

Dvin şəhərindən çox böyük şəxsiyyətlər çıxıb. Onların sırasında Şəddadilər sülaləsinin bütün hökmdarlarının özünəməxsus yeri var. Lakin bir şəxsiyyət haqqında xüsusi danışmağı vacib bilirik. O da **Sultan Səlahəddin Eyyubidir.**

Səlahəddinin babası Eyyub, ümumiyyətlə Eyyublar (Eyyubilər) nəsli Dvində Şəddadilər sarayında qulluq ediblər. Bu nəslin özü də Şəddadilərin mənsub olduğu Şadlılar tayfasından olub. Bunu Səlahəddinin babasının adının **Şadlı** (mənbələrdə **Şadi** yazılır) **Eyyub** olması da təsdiqləyir.

XII yüzilin birinci rübündə Şadlı Eyyub Sultan Mahmud sarayında saray ağası olan Bəhruz əl-Xadimin arzusu ilə İraqa Tekrit valisi göndərilir. Şadlı Eyyub bir müddət sonra vəfat edir və yerinə böyük oğlu Nəcməddin Eyyubi təyin olunur. Kiçik qardaşı Şirkuh isə Nəcməddinin köməkçisi olur.

1137-ci ildə Nəcməddin Eyyubinin Səlahəddin adlı oğlu olur. Onlar Tekritdən Mosula köçürlər. Səlahəddin böyüyüb, əmisi Şirkuhun ordusunda qulluq edir.

1169-cu ildə Şirkuh Misirin vəziri vəzifəsində vəfat edir və yerinə Səlahəddin təyin olunur.

Tezliklə Zəngilər dövlətini Eyyubilər dövləti əvəz edir. Sultan Səlahəddin Eyyubi 1187-1193-cü illərdə müsəlman dünyası üzərinə xristian səlibçilərinin xaç yürüşünün qarşısını qəhrəmanlıqla alır. Sultan Səlahəddin Tunisdən Həmədana, Yəməndən Maltaya və Malazgirdə qədər böyük bir ərazini əhatə edən böyük türk dövləti yaradır.

Səlahəddinin orduda ən çox Oğuz türklərinə arxalanması da onun özünün etnik mənsubiyyətindən – Oğuz türkü olmasından irəli gəlirdi.

## ƏFŞARLI (OVŞARLI)

Vedibasar mahalının aran hissəsində, Ağrıdağ vadisində, Vedi rayonunun mərkəzi olan Böyük Vedi qəsəbəsindən 14-16 km cənub-qərbdə, İrəvan – Naxçıvan avtomobil yolunun, İrəvan-Naxçıvan-Bakı dəmiryol xəttinin kənarında, Yaycı kəndi yaxınlığında kənd.

1918-1920-ci illər erməni-müsəlman davasına qədər kənddə ancaq Azərbaycan türkləri yaşamışlar. 1922-1988-ci illərdə azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuşdur. 1988-ci ildə kənd bütünlüklə erməniləşdirilmişdir.

Övliya Çələbinin (XVII yüzil) "Səyahətnamə"sində kəndin adı **Əfşarlı** kimi qeyd olunmuş, kənddə 1000 ev, bundan əlavə, məscid, hamam, kiçik bazar yerləşdiyi göstərilmişdir. Kəndin yeri "Araz yaxınlığında" deyə vurğulanmış və burada çoxlu çəltik əkildiyi yazılmışdır.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) də kəndin adı **Əfşarlı** kimi qeydə alınmış və dövlətin müxtəlif vergilər şəklində kənddən götürdüyü ilik gəlirin 6.000 ağça məbləğində olduğu göstərilmişdir.

Kəndin qədim türk tayfalarından olan Qayı türklərinin **Əfşar//Avşar//Ovşar** qolunun adını daşıdığı şübhəsizdir. Etnonim və onun yayılma arealı barədə kitabımızda Avşar kəndindən danışarkən bəhs etdiyimizdən bir daha təkrar etmirik. El arasında kənd həm də **Ovşarlı** adlanmışdır.

1897-ci ildə kənddə 43 nəfər, 1914-cü ildə 100 nəfər, 1916-cı ildə 300 nəfər azərbaycanlı yaşamışdır.

1918-1920-ci illər hadisələri zamanı kənd erməni daşnakları tərəfindən yerlə-yeksan edilmişdir.

Sovet hakimiyyəti illərində yenidən məskunlaşan kənddə Türkiyədən gəlmə xeyli erməni yerləşdirilmişdir. 1935-ci ildə Əfşarlı və qonşu Çəmbərək kəndlərinin bazasında **Spandaryan adına sovxoz** yaradılmış və az sonra da adı dəyişdirilərək **Surenavan** qoyulmuşdur.

1988-ci ildə kənddə yaşayan bir neçə azərbaycanlı ailəsi də Azərbaycana qovulmuş, kənd tamamilə erməniləşdirilmişdir.



## ƏHMƏDLİ (XANƏHMƏD)

Vedibasar mahalınm Millidərə bölgəsində, Gölaysor kəndi yaxınlığında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Vedi nahiyəsinin **Xanəhməd kəndi** kimi qeydə alınmış, dövlətin kənddən müxtəlif vergilər şəklində ildə 3.000 ağça gəlir götürdüyü göstərilmişdir.

XVIII yüzilə aid başqa bir mənbədə kəndin adı **Canəhməd** şəklində yazılmışdır. Sonralar kəndin adı mənbələrdə sadəcə **Əhmədli** kimi qeydə alınmışdır.

Kəndin adının **Xanəhməd** (və ya **Canəhməd**) şəxs adından yarandığı ehtimal olunur.

Lakin kəndin adının Səlcuq türklərinin Qızıl Əhməddən başlayan **Əhmədli** tayfasmm adından yaranması mülahizəsi daha inandırıcıdır. Əhmədli – Şahsevənlərin (Anadoludan gəlib, XIII yüzilin sonu – XIV yüzilin əvvəllərində Şimali Azərbaycana yayılmış Ayrım səlcuq türklərinin bir hissəsinin XVI yüzilin axırlarında Cənubi Azərbaycana köçüb, Şah Abbasdan aldıqları ad) oturaq tayfalarmdan birinin adıdır.

Qərbi Azərbaycan ərazisində vaxtilə eyniadlı bir neçə toponim mövcud olmuşdur. XIX yüzildə həmçinin Şimali Azərbaycanın Bakı, Quba, Lənkəran, Zəngəzur, Goranboy qəzalarında Əhmədli; Göyçay qəzasında Lələ Əhmədli, Mirzə Əhməd baba; Cavad qəzasında Əhmədli, Nur Əhmədli; Gəncə qəzasında Azad Əhmədli kəndləri qeydə alınmışdır. Azərbaycanın Daşkəsən, Beyləqan, Laçın, Masallı rayonlarında Əhmədli kəndləri, Bakıda Əhmədli qəsəbəsi bu gün də mövcuddur.

Xatırladaq ki, Qaşqay türklərinin tərkibində Mal Əhmədli və Məhəmməd Əhmədli tirələri də olmuşdur.

1918-ci ilin mayında erməni daşnaklarının Vedibasar mahalının Millidərə bölgəsinə ilk hücumu zamanı əhalisi damlara doldurulub yandırılaraq tamam məhv edilən 7 kənddən biri də Əhmədli kəndi olmuşdur. O vaxtdan kənd xaraba qalmış və bir daha məskunlaşmamışdır.

Kəndin və vaxtilə burada azərbaycanlıların doldurulub yandırıldığı damların xarabalıqları son illərə qədər qalmaqda idi.

## ƏLƏYƏZ (KİÇİK ŞİRAZLI)

Vedibasar mahalının Cığındərə bölgəsində, Qaratorpaq kəndi yaxınlığında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

Kəndi XIX yüzilin ikinci yarısında mahalın aran hissəsindəki Şirazlı kəndindən köçən ailələr tərəfindən salınmışdır. Kənd **ələyəz** pencəri çox bitən yer olduğu üçün **Ələyəz** adlanan dağətəyi geniş düzənlikdə salındığından elə **Ələyəz** də adlanmışdır. Bununla belə, onun sakinlərinin Şirazlı kəndindən olması kəndin **həm də Kiçik Şirazlı** adlanmasına səbəb olmuş, Taytan obası yanında yerləşən bu kənddə xeyli adam yaşamışdır.

1918-ci ildə erməni-daşnak hücumlarının gücləndiyi bir vaxtda ələyəzlilər köçüb təzədən aran Şirazlısında məskunlaşmışlar.

Elə o vaxtdan da Ələyəz kəndi xaraba qalmışdır.



## ƏLİABAD

Vedibasar mahalının aran hissəsində, Ağrıdağ vadisində kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

Kəndin adına ilk dəfə **Əliabad** şəklində İ.Şopendə (1832) Vedibasar mahalının xaraba kəndləri siyahısında rast gəlirik. Bu, o deməkdir ki, kənd 1826-1829-cu illər Rusiya-İran, Rusiya-Osmanlı müharibələrindən xeyli əvvəl mövcud olmuş və həmin müharibələr zamanı böyük dağıntılara məruz qalmışdır.

Sonralar kəndin keçmiş sakinlərindən bir hissəsi geri qayıtmış, kənd yenidən məskunlaşmışdır.

Lakin 1918-1920-ci illər erməni-müsəlman davası zamanı kənd erməni daşnakları tərəfindən yerlə-yeksan edilmişdir.

Kəndin adının **Əli** şəxs adından yarandığı şübhəsizdir.

Qərbi Azərbaycanda olduğu kimi, Şimali və Cənubi Azərbaycan ərazilərində də onlarla, yüzlərlə Əli komponentli toponimlər qeydə alınmışdır. Azərbaycan Respublikasının Zaqatala rayonunda bir kənd bu gün də Əliabad adını daşıyır.

# ƏLİQIZIL

Vedibasar mahalının aran hissəsində, Ağrıdağ vadisində kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) Aralaq nahiyəsinin (Vedibasar mahalının Arazboyu hissəsinin) **Əliqızıl kəndi,** "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) həmin nahiyənin **Əliqızıl məzrəsi** kimi qeydə alınmışdır. İkinci mənbədə Axırlı, Aşağı Axırlı və Saatlı kəndləri, Saatlı məzrəsi ilə birlikdə Əliqızıl məzrəsindən dövlətin müxtəlif vergilər şəklində il ərzində götürdüyü gəlirin 30.000 ağça olduğu da göstərilmişdir.

Kənd 1826-1829-cu illər Rusiya-İran, Rusiya-Osmanlı müharibələri zamanı yerlə-yeksan edilmişdir. Buna görə də İ.Şopendə (1832) **Əliqızıl** artıq Vedibasar (həmçinin Gərnibasar) mahalının dağıdılmış kəndləri sırasında verilmişdir.

Sonrakı mənbələrdə kəndin adına rast gəlmirik.

Kəndin adı əslində **"Eli-Qızıl"**, yəni **Qızıl eli** şəklində etnonim səciyyəlidir.

**Qızıllı** isə, məlum olduğu kimi, türkmən tayfalarından birinin adıdır. Ən böyük Oğuz tayfalarmdan birinin **Qızıl (Kızık)** adlanması da nəzərdən qaçırılmamalıdır. Təsadüfi deyil ki, Qərbi Azərbaycan ərazisində "qızıl" komponentli çoxlu toponim olmuşdur. Vedibasar mahalında isə ikinci belə kənd Qızılverən adlanmışdır. Bundan əlavə, Vedibasarda Qızılverən adlı dağ olmuş, Böyük Vedi kəndinin ən məşhur nəsillərindən biri Qızılanlılar adlanmışdır. Ümumiyyətlə, Qızıl tayfaları və Vedibasarda Qızıl toponimi barədə Qızılverən kəndindən danışarkən ətraflı bəhs etmişik.



# ƏLİMƏRDAN (ALMƏRDAN)

Vedibasar mahalının Millidərə bölgəsində, Qəmərli şəhərindən 25 km şimal-şərqdə, Gərni çayının yuxarı axarında, Mil (Dəvəgözü) çayının sahilində kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

İ.Şopendə (1832) Əlimərdan kəndi Gərnibasar mahalının xaraba kəndləri siyahısında verilmişdir. Bu, xeyli əvvəldən məskunlaşmış kəndin 1826-1829-cu illər Rusiya-İran, Rusiya-Osmanlı müharibələri zamanı böyük dağıntılara məruz qalmasına dələlət edir.

Kəndin adının ilkin variantında **"El-Mərdin" (Mərdin eli)** olduğu, Mərdin qalasından ("Dədə Qorqud"da bu qalanın adı çəkilir) gələnlər tərəfindən salındığı ehtimal olunur (B.Budaqov, Q.Qeybullayev).

Sonralar bərpa edilmiş kənddə 1873-cü ildə cəmi 52 nəfər əhali qeydə alınmışdır. 1886-cı ildə kənddə 8 ailədə 57 nəfər (41 kişi, 16 qadın) Azərbaycanlı türkü yaşamışdır. Əhalinin sayı 1897-ci ildə 153 nəfərə, 1914-cü ildə 221 nəfərə çatmışdır.

1886-cı ilə aid mənbədə Goxt kəndinin (Gərnibasar mahalı) sakinləri **Kəlbalı İbrahim** və **Kəlbalı Həsən oğlunun** 1884-1886-cı illər üçün Əlimərdan kəndi yaxınlığında **Qızqalası** adlanan yerdə 8 desyatin əkin yeri icarələdiyi barədə qeyd də var.

1918-ci ilin mayında erməni daşnaklarının Millidərəyə hücumları zamanı əhalisi damlara doldurulub yandırılan 7 kənddən biri də Əlimərdan kəndi olmuşdur.

1922-ci ildə kəndin qaçqın əhalisindən cəmi 22 nəfər geri qayıtmış, 1926-cı ildə onların sayı 41 nəfərə, 1931-ci ildə 65 nəfərə çatmışdır.

1937-1948-ci illərdə Qarabağlar rayonunun tərkibində mövcud olan kəndin əhalisi 1949-cu ildə bütünlüklə Azərbaycana köçürülmüşdür. O vaxtdan kənd xaraba qalmışdır.

* * *



Əlimərdan kəndindən bir sıra dəyərli şəxsiyyətlər çıxmışdır. Onlardan biri də **İSMAYILOV BƏHRAM HÜSEYN OĞLU** idi. O, 1908-ci ildə Əlimərdan kəndində varlı sahibkar ailəsində anadan olmuşdu. Atası **Hüseyn kişi** Gərnibasar və Millidərə kəndlərinin ən hörmətli ağsaqqallarından idi. O, kəndlərdə olan cavan və istedadlı uşaqların oxumasına kömək edərdi. Öz oğlu Bəhramı da İrəvan şəhərinə oxumağa göndərmişdi.

1930-cu ildə orta məktəbi bitirən Bəhram 1938-ci ilə qədər Vedi rayonunun Gilanlar və Bayburt kənd məktəblərində müdir və müəllim işləmiş, 1938-1941-ci illərdə İrəvan Pedaqoji İnstitutunda təhsilini davam etdirmiş, 1941-ci ildə ordu sıralarına çağırılmışdır. 1945-ci ilə qədər döyüşən ordunun ön sıralarında xidmət etmiş, müxtəlif vaxtlarda səkkiz yerindən yaralanmış, döyüş şücaətlərinə görə dəfələrlə orden və medallarla, Berlinin alınmasında iştirak etdiyinə görə isə "Berlinin alınmasına görə" medalı ilə təltif edilmişdir. 1945-ci ildə müharibədən qayıtdıqdan sonra İrəvan şəhərinin Kirov adına orta məktəbində işləməklə bərabər, 1948-ci ildə ali təhsilini başa vurmuş, 1949-1953-cü illərdə Gölaysor, Bayburt, Şidli kənd məktəbində direktor işləmişdir.

1948-1953-cü illər deportasiyasından, rayonda rəhbərliyin ermənilərin əlinə keçməsindən sonra hər addımda təzyiqlərlə üzləşən Bəhram müəllim bütün bu ağrı-acılara dözməyib Azərbaycana köçmüş, Gəncə şəhərində məskunlaşmış, sonra Xanlar rayonuna gedərək oranın Sarı-Su kəndində məktəb direktoru və müəllim işləməyə başlamışdır.

1982-ci ildə dünyasını dəyişən Bəhram müəllimin övladları bu gün atalarının adını ləyaqətlə doğruldurlar. Böyük qızı **Tamara** tibb texnikumunu, böyük oğlu **Nəriman** Azərbaycan Kənd Təsərrüfatı İnstitutunu, kiçik oğlu **Zakir** İnşaat Mühəndisləri İnstitutunu, kiçik qızı **Mənzərə** mühasibat uçotu məktəbini qurtararaq, dövlət müəssisələrində işləyirlər.

Oğlu **Zakir Bəhram oğlu İsmayılov** 1977-ci ildə DİO-da işə götürülmüş, 1978-ci ildə orta polis məktəbini qurtarmış, Qarabağ müharibəsində könüllü iştirak etmiş, keçmiş Şaumyan rayonunun ermənilərdən təmizlənməsində, Ağdərə kəndlərinin ermənilərdən azad edilməsində şəxsən iştirak etmişdir. 1998-ci ildən Gəncə Şəhər Polis İdarəsinin Kəpəz rayon polis şöbəsində sahə inspektoru vəzifəsində xidmət edir. Polis mayorudur.



---

## İSMAYILOV NƏRİMAN BƏHRAM OĞLU



1938-ci ildə Bayburt kəndində anadan olmuşdur.

1960-cı ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun zootexnik fakültəsiinə daxil olmuş, 1965-ci ildə həmin institutu fərqlənmə diplomu ilə bitirmişdir.

1965-67-ci illərdə Gəncə quşçuluq fabrikində zootexnik və sex rəisi vəzifəsində çalışmışdır.

Elmə olan həvəsi onu 1967-ci ildə Azərbaycan Elmi-Tədqiqat Heyvandarlıq İnstitutuna gətirmiş, qoyunçuluq laboratoriyasında elmi fəaliyyətə başlamışdır. 1968-ci ildə həmin institutun əyani aspiranturasına daxil olmuş, 1974-cü ildə dissertasiya müdafiə edərək kənd təsərrüfat elmləri namizədi alimlik dərəcəsi almışdır. 1975-1991-ci illərdə qoyunçuluq laboratoriyasında böyük elmi işçi işləmişdir. 1991-ci ildən həmin laboratoriyanın aparıcı elmi işçisidir. 1997-ci ildən isə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda baş elmi işçi işləyir.

N.İsmayılovun təşəbbüsü nəticəsində ilk dəfə olaraq respublikamızda (Şəki-Zaqatala bölgəsində) yarımzərifyunlu krossbredyunlu qoyunçuluğun yetişdirilməsinə başlanmışdır. Bu qoyunların diri çəkiləri orta hesabla ana qoyunlarda 50-60 kq, 1 yaşda erkək toğlularda 45-50 kq olmaqla həm də yüksək yun məhsuldarlığına (6-10 kq) malikdirlər.

N.İsmayılovun çox illik tədqiqat işlərinin nəticəsində respublikamızda yetişdirilən müxtəlif qoyun cinsləri təkmilləşdirilmişdir. O, 70-dən çox elmi əsərin, bir neçə elmi tövsiyənin müəllifidir. Onun rəhbərliyi altında bir sıra alimlər yetişmişdir.

Respublikada ilk dəfə nəşr olunan rusca-azərbaycanca "Heyvandarlıq terminləri lüğəti"nin əsas müəllifidir.

## ƏNGİZ

Vedibasar mahalının Cığındərə bölgəsində, Yuxarı Qarabağlar (Böyük Qarabağ) kəndinin yaxınlığında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) kənd Vedi nahiyəsinin **Əngiz kəndi** kimi qeydə alınmışdır.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Vedi nahiyəsinin Böyük Qarabağ kəndi yaxınlığında yerləşən Əngiz adlı bu kənddə heç kimin yaşamadığı və dövlətin kəndin ərazisinin istifadəsindən vergi şəklində götürdüyü illik gəlirin 3.000 ağça olduğu göstərilmişdir.

Sonrakı mənbələrdə kəndin adına rast gəlmirik.

Kəndin admın etimologiyası barədə dəqiq fikir yoxdur. Təkcə onu deməklə kifayətlənirik ki, Qərbi Azərbaycan ərazisindəki Ənkus (Karbi nahiyəsi), Əngüz (Dərələyəz nahiyəsi), Əngələberd (Sisiyan nahiyəsi) və s. kənd adları ilə eyni kökdəndir.



## ƏRMİK (YUXARI ƏRMİK)

Vedibasar mahalının Cığındərə bölgəsində, Vedi rayonunun mərkəzi olan Böyük Vedi qəsəbəsindən təxminən 35-40 km şərqdə, Vedi çayının yuxarı axarında, dəniz səviyyəsindən 2027 m yüksəklikdə, Haxıssu bulaqları yaxınlığında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) və "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Vedi nahiyəsinin **Ərmuk kəndi** kimi qeydə alınmışdır. İkinci "dəftər"də kənddə Musa adlı şəxsə məxsus timardan dövlətin müxtəlif vergilər şəklində il ərzində götürdüyü gəlirin 3.000 ağça olduğu barədə məlumat da var. 1832-ci ildə və sonrakı mənbələrdə isə kəndin adı **Ərmik** şəklindədir.

Aşağı Ərmik kəndindən danışarkən kəndin adının türk dillərindəki **arım** (**"çuxur"**, **"çökək"** mənasında) və **ik** (**"küləksiz, sakit, gizli yer, sığınacaq"**, **"çayın aşağı axarı"** anlamlarında) izahını (B.Budaqov, Q.Qeybullayev) qəbul etmədiyimizi yazmışıq. Bizcə, kəndin adının ilkin deyimi (Ərmuk) onun adının da əsl izahının açarıdır. Yəni söhbət ya **muğ** tayfalarından getməklə "**muğlar**" anlamında kəndin adı **Ərmuğ//Ərmuk**dur, ya da sözün ikinci hissəsi **manq, manqu** olmaqla (xatırladırıq ki, həmin bölgədə Ərmik kəndindən başqa, Məngük adlı kənd də mövcuddur) kəndin adı əvvəllər **Ərmanqu** olmuş, sonralar **Ərmik** şəklinə düşmüşdür.

Xalq etimologiyasına görə isə kəndin adı **ər** və **məkan** sözlərindən ibarət olmaqla "**kişilər, igidlər yurdu**" anlamındadır.

1832-ci ildə Ərmik kəndində 9 ailədə 44 nəfər (23 kişi, 21 qadın) Azərbaycan türkü qeydə alınmışdır. Kənddə qeyri millət yaşamamışdır.

XIX yüzilin ortalarından etibarən kəndin aşağısında salınan kənd tədricən Aşağı Ərmik adlandırıldıqca köhnə Ərmik kəndi də **Yuxarı Ərmik** adlanmağa başlanmışdır.

1873-cü ildə **Yuxarı Ərmik** kəndinin əhalisi 46 ailədə 412 nəfərə (223 kişi, 189 qadın) çatmışdır.

Bundan sonra Ərmik kəndindən çıxmış ailələr hesabına kəndin yaxınlığında yeni kəndlər – qədim Ağbulaq kəndinin xarabalıqları yerində Ağbulaq və bir qədər aralıda Təzəkənd kəni xarabalıqları yerində Təzəkənd kəndləri yaranınışdır. Buna görə

də 1886-cı ilə dair məlumatlarda hər üç kəndin adı yanaşı çəkilmiş, üç kənddə birlikdə 54 ailədə 554 nəfər (308 kişi, 246 qadın) əhali yaşadığı göstərilmişdir. Kəndlərin iqtisadiyyatının əsasını əkinçilik və heyvandarlıq təşkil etmişdir. 1399,5 desyatin torpaq sahəsinə (4,5 desyatini malikanə torpaqları, 2 desyatini suvarılmayan əkin yerləri) malik olan kəndlərdə 691 iribuynuzlu, 912 xırdabuynuzlu mal-qara saxlanmışdır.

Ağbulaq, Təzəkənd və Aşağı Ərmik kəndləri kimi, Yuxarı Ərmik kəndinin də əkin yerləri **Ağbulaq** çayının suyu ilə suvarılmışdır.

Kəndin 1883-cü ildən başlayaraq İrəvan qəzasının **Dübəkli** yaylağında **Dübəkliyurd** deyilən ərazidə 122 desyatin yaylaq yeri olmuşdur.

1897-ci ildə Yuxarı Ərmik kəndində 445 nəfər, 1916-cı ildə 822 nəfər azərbaycanlı yaşamışdır.

1918-ci ildə erməni-daşnak təcavüzünə məruz qalan kənd tamamilə dağıdılmış, əhalisinin əksər hissəsi qonşu Dərələyəz mahalının Hors kəndində müvəqqəti məskunlaşmışlar. Vedidə Sovet hakimiyyəti qurulduqdan sonra əhali beş-beş, on-on tədricən geri dönməyə başlayır. Əhalinin Ərmiyə geri qayıtmasında kəndin nüfuzlu kişilərindən Kərbəlayı Cəfərin, Kamal kişinin, Abbas kişinin, Muradalı kişinin, Fərzalı kişinin və Hüseynalı kişinin xüsusi rolu olur.

Beləliklə, 1926-cı ildə kənddə azərbaycanlıların sayı 85 nəfərə çatır. 1931-ci ildə isə Aşağı Ərmik və Yuxarı Ərmik kəndlərində birlikdə 170 nəfər azərbaycanlı qeydə alınmışdır.

1949-cu ildə Vedibasar mahalının bütün dağlıq azərbaycanlı kəndləri kimi, Yuxarı Ərmik kəndinin də əhalisi məcburi şəkildə Azərbaycana deportasiya olunmuş, həmin vaxtdan da kənd xaraba qalmışdır. Ərmiklilər əsasən İmişli rayonunda məskunlaşmışlar.

* * *

Ərmik Vebidasar mahalının ən ucqar kəndlərindən idi. Çoxlu bulaqları olan güllü-çiçəkli bu gözəl guşə Əyricə yaylağının qonşuluğunda yerləşirdi. Ərmiyin şimal-şərqində uca dağlar yerləşirdi. Bu dağların ən hündürü **Əlikuçan** dağı idi. Onun zirvəsində yayda həmişə qar olardı. Dağın adı el arasında **Ələk uçan** kimi də çağırılar və bu adın el yaylağa köçəndə bu yerdə



köçlərin birindən ələyin düşüb, dağaşağı yuvarlanması nəticəsində yaranması ehtimal olunur.

Kəndin ətrafında **Kamalın bulağı, Nigarın bulağı, Şorbulaq, Yanıxlıların bulağı, Şəfinin bulağı, Ağbulaq, Bəşirin bulağı** və s. bulaqlar yerləşirdi. Kəndin cənub-şərqindəki **Şamamın dağının** başındakı yaylaq yeri isə **Şamamın yaylağı** adlanırdı.

Ərmik kəndinin sayılıb-seçilən kişilərindən aşağıdakıların adlarını çəkmək olar.

– **Kərbəlayı Cəfər** kəndin nüfuzlu ağsaqqalı, mollası idi. 1939-cu ildə erməni fitnəsi ilə repressiyaya məruz qalıb, həbs edilmiş və bir daha geri qayıtmamışdı.

– **Abbas kişi (Molla Abbas)** Kərbəlayı Cəfərin qardaşı idi. Qardaşının "xalq düşməni" elan olunması belə heç vaxt onu oruc-namazından, quran-kitabından əl çəkməyə məcbur edə bilməmişdi. Savadlı, xeyirxah, peyğəmbər xislətli bu adam həm də böyük maarifpərvər idi, həmişə cavanlara oxumağı, savadlanmağı məsləhət görərdi.

– **Talıb kişi** Böyük Vətən müharibəsindən əvvəl və sonra uzun illər Ərmik kəndində kolxoz sədri işləmişdi, mərd, bilikli və halal adam idi.

– **Kamal kişi, Oruc kişi** və b. da kəndin hörmətli kişiləri idilər.

## ƏLİYEV İSFƏNDİYAR KAMAL OĞLU



1933-cü ildə Ərmik kəndində anadan olmuş, 1949-cu ildə Azərbaycana deportasiya edilərək İmişli rayonunda məskunlaşmışlar. 1955-ci ildə Gəncə Kənd təsərrüfatı Texnikumunu, 1962-ci ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunu bitirmişdir.

1970-ci ilə Moskva şəhərində dissertasiya müdafiə edərək kənd təsərrüfatı elmləri namizədi alimlik dərəcəsi almışdır.

1969-cu ildən 1978-ci ilə qədər Şirvan təcrübə stansiyasında seleksiya şöbəsinin müdiri işləmişdir. 1978-ci ildən bu günədək Qarabağ Elmi təcrübə bazasında baş elmi işçi vəzifəsində çalışır.

Ailəlidir, həyat yoldaşı **Xoşqədəm Quliyeva** Qaraxaçlı Məhərrəm Quliyevin qızıdır. Bir övladları var – **Rəfail Əliyev.** 1964-cü ildə anadan olmuş, 1989-cu ildə Azərbaycan Texnologiya İnstitutunu bitirmiş, 1991-1993-cü illərdə Qarabağda erməni daşnaklarına qarşı vuruşmuşdur. Müharibə veteranıdır.

## ƏLİ ABBAS OĞLU MƏMMƏDOV



1943-cü il yanvarın 16-da Ərmik kəndində anadan olmuş, 1949-cu ildə ailəlikcə Azərbaycanın İmişli rayonuna deportasiya edilərək rayonun Qaralar kəndində məskunlaşmışlar.

1959-ci ildə İmişli rayonunun Bəcirəvan kənd orta məktəbini, sonra isə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun baytarlıq fakültəsini bitirmişdir.

1970-ci ildə institutun aspiranturasına qəbul olunmuş, 1973-cü ildən institutda elmi-pedaqoji fəaliyyətə başlamış, 1977-ci ildə Rusiyanın Vladimir vilayətində dissertasiya müdafiə edərək baytarlıq elmləri namizədi alimlik dərəcəsi almışdır.

1978-ci ildə Naxçıvana göndərilmiş, əvvəl burada Elmi-Tədqiqat Baytarlıq Təcrübə Stansiyasında baş elmi işçi, sonra direktor işləmiş, 1980-1981-ci illərdə Azərbaycan KP Naxçıvan Vilayət Komitəsində təlimatçı, sonra kənd təsərrüfatı şöbəsinin müdiri vəzifələrində çalışmış, 1981-1983-cü illərdə Moskva şəhərində Sov. İKP MK yanında İctimai Elmlər Akademiyasının dinləyicisi olmuş, 1983-cü ilin sentyabrından Azərbaycan KP Naxçıvan Vilayət Komitəsində kənd təsərrüfatı və ərzaq şöbəsinin müdiri vəzifəsində fəaliyyətini davam etdirmişdir.

1983-1989-cu illərdə Culfa RPK-nin birinci katibi işləmiş, 1984-1989-cu illərdə həmçinin Naxçıvan Muxtar Respublikasının deputatı və Naxçıvan MR Ali Sovetinin sədr müavini olmuşdur.

1989-1994-cü illərdə Naxçıvan Dövlət Pedaqoji, sonra isə Naxçıvan Dövlət Universitetində dosent vəzifəsində çalışmış, 1994-cü ilin sentyabrında Azərbaycan Respublikası Prezidenti Aparatı Ərazi idarəetmə orqanları ilə iş şöbəsinə böyük məsləhətçi vəzifəsinə qəbul olunmuşdur.

1995-2000-ci illərdə İmişli rayon İH-nin başçısı işləmişdir.

11 elmi əsərin və bir səmərələşdirici təklifin müəllifidir.



# ƏZİZKƏND (AŞAĞI CAMIŞBASAN)

Vedibasar mahalının Cığındərə bölgəsində, Vedi rayonunun mərkəzi olan Böyük Vedi qəsəbəsindən 20 km şərqdə, Vedi çayının kənarında, Camışbasan kəndinin aşağı yanında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

İ.Şopendə (1832) Vedibasar mahalında köçəri tayfalar tərəfindən salınmış **Əzizanlı kəndinin** adı çəkilmiş və bu kənddə 19 təsərrüfatda 80 nəfər müsəlman əhalinin yaşadığı qeyd olunmuşdur. Sonradan kəndin adı **Əzizkənd** şəklinə düşmüşdür. Lakin Camışbasan kəndinin yanında olan bu kənd o qədər də inkişaf etməmiş, Camışbasan kəndinin kölgəsində qalmış, hətta statistik məlumatlarda belə ayrıca qeydə alınmamışdır. Bu vəziyyət XIX yüzilin sonlarına qədər davam etmişdir.

Kəndin adının nəsil adından yarandığı ehtimal olunur. Yeri gəlmişkən, Qərbi Azərbaycan ərazisində bir neçə oxşar toponimlər olmuşdur: Gərnibasar mahalında Əzizli kəndi, Zəngəzur qəzasında Əzizpəyəsi kəndi, Basarkeçər rayonunda Əzizli kəndi və s. Hətta Quba bölgəsində daşnak Hamazaspın quldur dəstəsinin 1918-ci ildə yerlə-yeksan etdiyi kəndlərdən birinin adı da Əzizli olmuşdur.

XIX yüzilin sonlarında Camışbasan kəndindən çıxan ailələr hesabına Əzizkənd kəndində yaşayanların sayı çoxalmışdır. XX yüzilin əvvəllərində Camışbasan kəndinin xarabalığa çevrilməsindən sonra isə Əzizkənd kəndi sürətlə böyümüşdür. Kənd Camışbasan kəndinin aşağısında yerləşdiyindən həm də **Aşağı Camışbasan** adlanmışdır. Bununla belə, adamlar kəndə çox vaxt sadəcə **Camışbasan** da deyirdilər. 1904-cü ildə kənddə 166 nəfər, 1914-cü ildə isə 346 nəfər azərbaycanlı yaşamışdır.

Lakin 1918-1920-ci illərdə kənd erməni-daşnak quldurlarının dağıdıcı hücumlarına məruz qalmış, ermənilər tərəfindən yandırılmış, əhalisi isə vəhşicəsinə qovulmuşdur.

Bölgədə Sovet hikimiyyəti qurulduqdan sonra kənd əhalisinin cəmi 48 nəfəri öz doğma yurdlarına qayıda bilmiş, yenidən özlərinə ev-eşik tikməyə başlamışlar.

1931-ci ildə kənd əhalisinin sayı 60 nəfərə, 1939-cu ildə 210 nəfərə çatmışdır. 1935-ci ildə kənd rəsmi olaraq **Əzizkənd** adlandırılmışdır. 1937-1948-ci illərdə Qarabağlar rayonu tərkibin-

də xeyli inkişaf edən Əzizkənd (Aşağı Camışbasan) kəndi 1948-1949-cu illərdə Qarabağlar rayonunun bütün digər azərbaycanlı kəndləri ilə birlikdə köçürülməyə məruz qalmış, əhalisi Azərbaycanda məskunlaşdırılmışdır. Həmin il kənd ləğv olunmuşdur. Son zamanlar kəndin ərazisində ancaq qoz ağacları və tək-tək evlərin xarabalıqları qalmaqda idi.

* * *

Kəndin arxa tərəfində, Heyranıs dağının döşündə, **Xıdır Eylas dərəsində** böyük ziyarətgah vardı – **Xıdır Eylas (Xıdır İlyas) ocağı.** Ətraf kəndlərdən ziyarətgaha gələnlər burada çoxlu qurbanlar kəsərdilər.

**Qidi-qidi dərəsində** – iki dərənin arasında **Gümbəz** yerləşirdi. Bu dərənin arxasında çox böyük qəbiristanlıq vardı. Bu qəbiristanlıqda 300 illik qəbirlər dururdu. Məzarların üstündə at, qoç, gümbəz formalı başdaşılar zəmanəmizə qədər gəlib çıxmışdı.

1918-1920-ci illərdə erməni daşnaklarının Vedibasara hücumları zamanı Aşığı Camışbasan kəndinin bütün əli silah tutanları Abbasqulu bəy Şadlinskinin ətrafında birləşmişlər. Onlardan **Fərzalı, Şirəli, Heydər, İsmayıl, Əmrah, Tanrıverdi, Allahverdi, Teymur** döyüşlərdə xüsusilə fərqlənmişdilər.

Maraqlıdır ki, Abbasqulu bəyin ömrünün son günü də bu kəndlə bağlıdır. Belə ki, həmin gün Abbasqulu bəy silahdaşları ilə hava qaralanda bu kəndə gəlirlər. Gecə yarısı məlum olur ki, Qəmlonun başçılığı ilə qaçaq dəstəsi kəndə Abbasqulu bəygili öldürməyə gəliblər. Gecə ikən Abbasqulu bəygil atlanıb kənddən çıxırlar. İtlərin hürüşməsindən Qəmlonun dəstəsi məsələni başa düşür və kəsə yolla qarşılarını kəsib, Ağsu çayı kənarında, Qarıuçan adlanan yerdə onları qətlə yetirirlər.

Kərbəlayı İsmayılın qaldırdığı qolçomaq qiyamında Əzizkənddən **Mehralı, Rəsul** xüsusilə fəal olmuşlar.

Kəndin sayılıb-seçilən adamları sırasında **Xudaverdiyevlər nəslindən** qardaşlar **Yusif bəyin, Xıdır bəyin, Xudaverdi bəyin, Allahverdi bəyin** xüsusi yeri vardı ki, onlar 1937-ci ildə repressiyaya məruz qalıb, Sibirə sürgün olunmuşlar.

1949-cu ildə Əzizkənd camaatı məcburi şəkildə Azərbaycana köçürüləndə kənd 60 evdən ibarət idi. Kənddə yeddillik məktəb



fəaliyyət göstərirdi. Bu məktəbə Kolanlıdan **Yavər müəllim, Goravandan Mədəd müəllim** direktorluq etmişdilər.

1949-cu ildə kənd əsasən Şəmkir rayonuna köçürülmüşdür.

Əzizkənd kəndinin yetirdiyi ziyalılar sırasında Leninqrad Eksperimental Politexnik Elmi-Tədqiqat İnstitutunun prorektoru, professor **Abdulla Əliyevin,** Lomonosov adına MDU-nun riyaziyyatçı professoru **Yusif Mahmudovun** və b. adlarını çəkmək olar.

## ƏLİ NƏSRULLA OĞLU MURADOV



1940-cı ildə Əzizkənd kəndində anadan olmuşdur.

1947-ci ildə Əzizkənd yeddiillik məktəbinin 1-ci sinfinə getmiş, bir il sonra – 1948-ci ildə deportasiyaya məruz qalaraq Azərbaycanın Şəmkir rayonunun Lenin kəndinə köçürülmüşlər.

1958-ci ildə kənd orta məktəbini, 1964-cü ildə fərqlənmə diplomu ilə H.Zərdabi adına Gəncə Dövlət Pedaqoji İnstitutunu bitirmişdir.

Bir neçə il Şəmkir rayon Dəllər kənd orta məktəbində müəllim və dərs hissə müdiri işlədikdən sonra 1967-ci ildə Azərbaycan EA Aşqarlar Kimyası İnstitutunun aspiranturasına daxil olmuşdur.

1970-ci ildən əvvəlcə Bakı Politexnik İnstitutunda, sonra isə Azərbaycan Texnologiya İnstitutunda müəllim işləmiş, 1978-ci ildə dissertasiya müdafiə edərək kimya elmləri namizədi alimlik dərəcəsi, 1982-ci illə dosent elmi adı almışdır.

1982-1989-cu illərdə Texnologiya İnstitutunun qeyri-üzvi və analitik kimya kafedrasının müdiri işləmişdir.

1988-ci ildə institutun elmi şurasında doktorluq mövzusunu təsdiq etdirmiş, 1996-cı ildə Kuybışev adına Moskva Tikinti Universitetində doktorluq işi üzrə 6 aylıq elmi yaradıcılığa dəvət olunmuş və orada növbədənkənar doktorluq dissertasiyası müdafiə etmişdir.

Ə.Muradov hazırda 70-dən çox elmi əsərin, 3 dərs vəsaitinin, 10 metodik göstəricinin müəllifidir. 4 müəlliflik şəhadətnaməsi almış, SSRİ-nin əlaçı ixtiraçısı medalı ilə təltif edilmişdir.

## GORAVAN (GORABAN, YENİKƏND)

Vedibasar mahalının aran hissəsində, Ağrıdağ vadisində, Vedi rayonunun mərkəzi olan Böyük Vedi qəsəbəsindən 1 km cənubda, Şıxo təpəsinin ətəyində, Vedi çayının üstündə kənd.

1920-ci ilədək kənddə ancaq Azərbaycan türkləri yaşamışlar. 1922-ci ildən 1988-ci ilədək azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuşdur. 1988-ci ildə kəndin bütün azərbaycanlı əhalisi qovulmuş, kənd tamamilə erməniləşdirilmişdir.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) və "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) kəndin adı Vedi nahiyəsinin **Kürəvan kəndi** kimi qeydə alınmışdır. Bundan əlavə, "İcmal dəftəri"ndə kənddən dövlətin müxtəlif vergilər şəklində götürdüyü illik gəlirin 3.000 ağça məbləğində olduğu da göstərilmişdir.

İ.Şopendə (1832) isə kəndin adı **Goravan** kimi yazılmış və kənddə 9 təsərrüfatda 59 nəfər (35 kişi, 24 qadın) müsəlman əhali siyahıya alınmışdır.

Sonrakı bütün mənbələrdə kəndin adı Goravandır. Kəndin adının etimologiyası ilə bağlı beli bir fikir var ki, kəndin ilkin adı **Quravan** oluşdur və "**qışlaqda gecə mal-qaranı salmaq üçün tikinti**" mənasında **qura**, "**kənd**", "**oba**" mənasında **avan** sözlərindən ibarətdir (B.Budaqov, Q.Qeybullayev).

Lakin belə bir mülahizə var ki, kəndin ilkin adı **Goraban// Goralbandır** və "**aban//alban yurd yeri**", "**alban qəbiristanlığı**" anlamındadır.

Xatırladaq ki, eramızdan əvvəl VII yüzildə sakların tərkibində bu yerlərə gəlmiş tayfalar arasında qarqarlarla bir sırada **Aban//alban** tayfası da olmuşdur.

Kəndin admın Vedibasar ınahalmm dağlıq hissəsində geniş məskunlaşmış Kolanı tayfasınm **Goran** qolunun adını daşıması və "**Goran tayfasının kəndi**" anlamını verməsi mülahizəsini də irəli sürmək olar.

Qərbi Azərbaycanda Goran (Sərdarabad və Hamamlı rayonlarında kəndlər), Goran qalası (Şərur–Dərələyəz mahalında dağ adı), Goranlı (Üçkilsə rayonunda kənd), Gorus (Zəngəzur mahalında şəhər) və s. oxşar adlı çoxlu toponim var. Goran adı ilə Azərbaycan Respublikasında da çoxlu toponim – kənd, çay, dağ, qışlaq və yurd adları mövcuddur.



1873-cü ilin statistik məlumatlarında Vedibasar mahalının Goravan kəndində 36 təsərrüfatda 244 nəfər (149 kişi, 95 qadın) Azərbaycan türkünün yaşadığı qeyd olunmuşdur.

Kənddə 1886-cı ildə 42 təsərrüfatda 325 nəfər (179 kişi, 146 qadın) əhali yaşamışdır. Onlar əsasən əkinçilik və heyvandarlıqla məşğul olmuşlar. Kəndin 319,92 desyatin torpaq sahəsinin 0,87 desyatinini malikanə torpaqları, 1,08 desyatinini bağ sahələri, 38,13 desyatinini suvarılan əkin yerləri təşkil etmişdir. Kənddə 304 iribuynuzlu, 730 xırdabuynuzlu mal-qara qeydə alınmışdır.

Kənddən 50 verst aralıda, Əyricə yaylağında kəndin **Gölyurd, Qəməryurd, Yalyurd** adlı yurdları olub. 587 desyatin ərazini əhatə edən bu yurdlardan Goravan camaatı qədimdən istifadə edib.

1897-ci ildə kəndin 530 nəfər, 1904-cü ildə 634 nəfər, 1914-cü ildə 698 nəfər əhalisi olub.

1918-1920-ci illərdə ermənilər tərəfindən dəfələrlə hücuma məruz qalan kənd yandırılmış və əhalisi didərgin salınmışdır.

Sovet hakimiyyətinin ilk illərində geri qayıdan Goravan camaatı (393 nəfər) kəndi yenidən bərpa etmiş, ailələri üçün yenidən od-ocaq qaralayıb yaşamağa başlamışlar.

1922-ci ildə kənddə ilk ermənilər – 164 nəfər Türkiyə (xüsusilə Van) ermənisi yerləşdirilmişdir.

1926-cı ildə kənddə 403 nəfər azərbaycanlı, 132 nəfər erməni, 1931-ci ildə 468 nəfər azərbaycanlı, 135 nəfər erməni yaşamışdır.

1946-cı il aprelin 4-də Goravan kəndinin adı dəyişdirilərək Yenikənd qoyulmuşdur. Bu vaxt kənddə cəmi 60 erməni ailəsi olsa da, az sonra xaricdən köçürülüb gətirilmiş ermənilərin hesabına erməni ailələrinin sayı 125-ə çatdırıldı.

1948-ci ildə kəndin bütün azərbaycanlı əhalisi məcburi şəkildə Azərbaycana köçürülmüş və kənd tamamilə erməniləşdirilmişdir. Kəndin əhalisi əvvəlcə bütünlüklə Dağlıq Qarabağm Martuni rayonunda yerləşdirilmişdir. Bu köçürülmənin iştirakçısı olan Goravan kənd sakini Rəhman Hüseynov həmin hadisələri belə xatırlayır: "6 avqust 1948-ci ildə Vedi rayonunda ilk dəfə bizim kəndimizdə yaşayan 250 ailəni təmsil edən 1200 azərbaycanlını bir günün ərzində tələsik dəmiryol vaqonlarına doldurub "yola saldılar". 1948-ci il avqustun 8-də Azərbaycanın

Horadiz stansiyasında bizi vaqonlardan düşürüb, yük avtomaşınları ilə Dağlıq Qarabağ Muxtar Vilayətinin Martuni rayonuna gətirib, Kişi, Kunişinaq və Çartaz kəndlərindəki daxmalara və tövlələrə yerləşdirdilər".

Bundan narahat olan İrəvan, Bakı və Moskva rəhbərliyindəki ermənilərin əli ilə 1949-cu il iyunun 14-16-da həmin camaat bir nəfər kimi Xanlar şəhərinə köçürülmüşlər. Goravanlılar indi də daha çox Xanlar rayonunda yaşayırlar.

1968-ci il iyulun 3-də kəndin adı dəyişdirilərək yenidən **Goravan** qoyulmuşdur.

* * *

Goravan kənd camaatı xeyli zarafatcıl və hazırcavab camaat olduğundan bu kəndin adamları ilə bağlı bir çox maraqlı əhvalatlar, hətta lətifələr mövcuddur. Mərhum yazıçımız Fərman Kərimzadə özünün məşhur "Vedinin yanı dağlar" publisistik yazısında belə əhvalat və lətifələrdən bir qismini qələmə almışdır. Onların bəzilərini kitabın sonunda oxuculara təqdim edirik.

1917-1920-ci illərdə Vedibasarın müdafiəsinə ilkin qoşulan, həm onda, həm də 1920-1921-ci illərdə, "Qırmızı tabor"un tərkibində erməni daşnaklarına qarşı qəhrəmanlıqla döyüşən goravanlılardan biri də **Yetim Əli oğlu Əkbər Əliyev** olmuşdur. O "Qırmızı Bayraq" ordeninə layiq görülən 19 nəfər "Qırmızı tabor"çudan biri idi. Sovet hakimiyyəti illərində o, Goravan kənd şurasının sədri işləmiş, 1949-cu illərdə isə bütün goravanlılar kimi, Azərbaycana deportasiya olunmuş, ömrünün sonuna qədər Xanlarda yaşamışdı. Oğlu **Sadıq müəllim** indi də Xanlar şəhərində yaşayır.

1930-cu illərdə **Qasım Məmmədov** Goravan kənd kolxozuna sədrlik etmişdir. Sonralar uzun illər Vedi rayonunda rəhbər vəzifələrdə işləmiş, 1939-1940-cı və 1950-1952-ci illərdə Vedi RİK-nin sədri olmuşdur.

**Süleyman Cabbar oğlu Əkbərov** uzun illər Vedi rayonunun Avşar, Taytan, Şirazlı kəndlərində müəllim, dərs hissə müdiri, direktor vəzifələrində çalışmış, daha sonra Vedi rayon maarif şöbəsində inspektor, maarif işçiləri həmkarlar təşkilatının sədri olmuşdu. 1944-cü ildə Əməkdar müəllim adı almış, 1951-ci ildə Lenin ordeni ilə təltif edilmişdi. 1948-ci il köçürülməsi zamanı



ailəlikcə Azərbaycana üz tutmuş, əvvəl Dağlıq Qarabağ Muxtar Vilayətinin Çartaz kəndində, sonra Ucar rayonunun Qaradağlı kəndində yaşamış, sonda Xanlarda məskunlaşmış, burada 3 saylı orta məktəbin direktoru işləmişdi. 1958-ci ildən respublika əhəmiyyətli pensiyaçı idi. 1982–ci ildə vəfat etmişdir.

Goravanlı **Adil Əkbərov** uzun müddət rayonun Avşar kənd orta məktəbinin, Azərbaycana deportasiya olunduqdan sonra Xanlardakı 3 saylı orta məktəbin direktoru işləmişdir. **Hilal Atayev** Goravanda kənd sovetinin sədri vəzifəsində çalışmışdır. Goravan, Qaralar kəndlərində uzun illər müəllim işləyən **Teymur Süleymanov** kəndin hörmətli ziyalılarından olmuşdur.

Goravanlılardan **Rəhman Hüseynov, Zeyqəm Abdullayev** xeyli vaxt Azərbaycanın müxtəlif rayonlarında məhkəmə sədri vəzifəsində işləmişlər. **Hidayət Vəliyev** Xanlar rayonunda raykomun 2-ci katibi, Daşkəsən, Şəmkir rayonlarında raykomun 1-ci katibi olmuşdur.

---

## VƏLİYEV HİDAYƏT CABBAR OĞLU



1926-cı il iyunun 22-də Goravan kəndində anadan olmuşdur.

1941-ci ildə orta məktəbi qurtarıb, əmək faliyyətinə elə həmin il Vedi rayonunun "Gözəl sünbül" kolxozunda kolxozçu kimi başlamışdır.

1944-1950-ci illərdə Sovet Ordusu sıralarında xidmətdə olmuş, hərbi xidmətdən sonra Azərbaycanın Xanlar rayonuna qayıdıb, Toğana kənd orta məktəbində fəaliyyətə başlamış, az sonra irəli çəkilərək 1995-ci ilə qədər partiya, sovet və təsərrüfat orqanlarında ən müxtəlif vəzifələrdə işləmişdir. Bu vəzifələr sırasında Xanlar RPK-nin təlimatçısı (1961-1965), Xanlar Kinobirliyinin baş direktoru (1965-1970), Xanlar RPK-nin 2-ci katibi (1971-1975), Daşkəsən RPK-nin 1-ci katibi (1975-1978), Şəmkir RPK-nin 1-ci katibi (1978-1983) vəzifələri də var. Həmin illərdə H.Vəliyev Azərbaycan KP XXV qurultayında

MK-nın üzvü seçilmiş, Azərbaycan SSR Ali Sovetinin deputatı olmuş, "Şərəf Nişanı", "Oktyabr inqilabı", "Qırmızı əmək Bayrağı" ordenləri, Azərbaycan SSR Ali Sovetinin Fəxri fərmanı və medallarla təltif olunmuşdur.

1961-ci ildə Bakı Ali Partiya məktəbini, 1971-ci ildə isə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunu bitirmişdir.

1994-cü ildə Xanlar rayon İcra Hakimiyyəti başçısının müavini vəzifəsində işləmiş, 1995-ci ildə təqaüdə çıxmışdır.

## RƏHMAN DADAŞ OĞLU HÜSEYNOV



1928-ci dekabrın 25-də Goravan kəndində anadan olmuşdur.

Goravan kəndində 7-ci sinfi, İrəvan şəhərində kolxoz mühasibləri hazırlayan təhsil kombinatını, 1945-ci ildə İrəvan Pedaqoji texnikumunu bitirmişdir.

1943-cü ildə Goravan kəndində mühasib köməkçisi kimi əmək fəaliyyətinə başlayan Rəhman Hüseynov 1948-ci ilin avqustunda bütün həmkəndliləri kimi, Azərbaycana – DQMV-nin Martuni rayonuna deportasiya olunmuş, Muğanlı kənd kolxozunda baş mühasib işləmişdir.

1949-cu ildə M.C.Bağırovun qəbulunda olmuş, Goravan camaatının Xanlar şəhərinə köçürülməsinə razılıq almışdır.

1949-cu ildən Xanlar rayonunun Telman adına kolxozunda baş mühasib müavini kimi əmək fəaliyyətini davam etdirən R.Hüseynov 1950-ci ildə ADU-nun hüquq fakültəsinə daxil olmuşdur. 1955-ci ildə oranı fərqlənmə diplomu ilə bitirib, 32 il müddətində Naxçıvan şəhərinin Naxçıvan rayonunda, Kirovabad şəhərində, Səfərliyev, Qasım İsmayılov, Xanlar, Ağsu və Tovuz rayonlarında məhkəmə sədri və xalq hakimi vəzifələrində işləmiş, dəfələrlə fəxri fərman və medallarla təltif edilmişdir.

1987-ci ildən Xanlar rayon hüquq məsləhətxanasında vəkil işləyir.

Rəhman Hüseynov qocaman hüquqşünas olmaqla yanaşı, həm də hörmətli el ağsaqqalı və nümunəvi ailə başçısıdır.

Qızları **Tərifə müəllimlə** və **Roza müəllimə** gənc nəslin təlim-tərbiyəsi ilə məşğuldurlar. Oğlanları – polis polkovnik-leytenantı **Yunis Hüseynov** Narkobiznes və Narkomaniyaya qarşı mübarizə idarəsində, polis mayoru **Yaşar Hüseynov isə** Gəncə Dövlət Avtomobil Müfəttişliyində uzun müddətdir qüsursuz işləyirlər.



## MAARİF SÜLEYMAN OĞLU ƏKBƏROV



1930-cu ilin fevralında Goravan kəndində anadan olmuşdur.

1944-cü ildə Goravan yeddi illik, 1947-ci ildə Böyük Vedi orta məktəbini bitirmişdir.

1947-ci ildə əmək fəaliyyətinə Taytan kənd məktəbində müəllim kimi başlamışdır.

1948-ci ildə bütün goravanlılar Azərbaycana – Dağlıq Qarabağın Martuni rayonuna, 1949-cu ildə isə oradan Xanlar rayonuna köçürülüb yerləşdirilirlər.

Maarif burada H.B.Zərdabi adına Gəncə Dövlət Pedaqoji İnstitutunun fizika-riyaziyyat fakültəsinə daxil olur və 1953-cü ildə oranı fərqlənmə diplomu ilə bitirir, institutda müəllim saxlanır. Burada 1959-cu ilə qədər çalışır və institutun elementar riyaziyyat kafedrasının müdirliyinə qədər yüksəlir.

1959-cu ildə Lomonosov adına MDU-nun əyani aspiranturasına qəbul olunur. 1962-ci ildə riyaziyyatın fəlsəfəsi üzrə namizədlik dissertasiyası müdafiə edib bu sahə üzrə ilk və yeganə azərbaycanlı mütəxəssis kimi Bakıya qayıdır və BDU-nun mexanika-riyaziyyat fakültəsində işə başlayır.

1973-cü ildə Moskvada doktorluq dissertasiyası müdafiə edərək riyaziyyatın fəlsəfəsi üzrə ilk elmlər namizədi olduğu kimi, həm də ilk elmlər doktoru olur.

Professor M.Əkbərov 1980-1993-cu illərdə universitetin cəbr və tipologiya kafedrasına rəhbərlik edir. Hazırda bu kafedranın professorudur.

Fəlsəfə üzrə namizədlik və doktorluq elmi dərəcələri olan M.Əkbərovun həm də sırf riyaziyyat üzrə dosent və professor elmi rütbələrinə layiq görülməsi elm aləmi üçün nadir hadisələrdən idi.

Fəlsəfəyə və riyaziyyata aid çoxlu sayda kitab, dərslik və elmi məqalələrin müəllifidir.

Oğlu **Vaqif** riyaziyyatın fəlsəfəsi, qızı **Maarifə** riyaziyyatla məşğuldur. Hər ikisi aspirantdırlar.

## ƏZİZ ŞÜKÜR OĞLU İSMAYILOV



1932-ci ildə Goravan kəndində anadan olmuşdur.

Atası Şükür 1920-ci illərin əvvəllərində Vedibasarın erməni daşnaklarından azad edilməsi uğrunda döyüşlərdə fəal iştirak etmişdir.

Atasını erkən itirən Əziz səkkizinci sinfi Böyük Vedidə bitirib, təhsilini Zəngibasarda davam etdirir. Lakin 1948-ci ildə başlanan deportasiya bütün goravanlıları əvvəl Dağlıq Qarabağın Martuni rayonuna sonra isə Xanlar rayonuna aparıb çıxarır.

Orta məktəbi bitirən Əziz Bakıya gəlib Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsinə qəbul olunur, bir müddət sonra burada təhsilini yarımçıq qoyub, Bakı Hərbi məktəbinə daxil olur. Hərbi Məktəbi əla qiymətlərlə bitirib, 1953-cü ildə Ukraynanın Dnepropetrovsk şəhərində hərbi xidmətə göndərilir.

1955-ci ildə Almaniya Demokratik Respublikasında xidmət edir.

1962-ci ildə Qafqazda – Gürcüstanın Axalkələk rayonunda, sonra isə Azərbaycanda qulluğunu davam etdirir.

1966-cı ildə Moskva Ali Zabitlər məktəbinə oxumağa göndərilən Əziz qayıdıb, Bakıda Azərbaycan mülki müdafiə məktəbində baş müəllim kimi fəaliyyətə başlayır. Ppolkovnik-leytenant Əziz İsmayılov nümunəvi xidmətinə görə dəfələrlə orden, medal və fərmanlarla təltif edilmişdir.

## TOFİQ SÜLEYMAN OĞLU ƏKBƏROV

1933-cü il dekabrın 22-də Goravan kəndində anadan olmuşdu. Goravan kənd yeddiillik məktəbini bitirmiş, Böyük Vedi orta məktəbində oxuyarkən – 1948-ci ildə ailələri Azərbaycana köçürüldüyündən orta təhsilini Xanlar şəhərində başa vurmuşdu.

1957-ci ildə Gəncə Pedaqoji İn-stitutunu bitirdikdən sonra əmək fəaliyyətinə Xanlardakı orta məktəbdə və Pedaqoji Texnikumda müəllimliklə başlamışdı.





Sonra Azərbaycan EA Fəlsəfə İnstitutunun aspiranturasına daxil olmuş, "Azərbaycan sovet poeziyasında gözəllik problemi" mövzusunda dissertasiya müdafiə edərək estetika ixtisası üzrə fəlsəfə elmləri namizədi alimlik dərəcəsi almışdı.

N.Nərimanov adına Azərbaycan Tibb İnstitutunun baş müəllimi kimi fəaliyyətini davam etdirən. T.Əkbərov ömrünün sonuna – 1985-ci ilədək bu ali məkəbin fəlsəfə kaferdasının dosenti olmuşdu.

Ədəbiyyatşünas, tənqidçi və filosof kimi, bir neçə kitabın, çoxlu sayda elmi məqalənin müəllifi idi. Azərbaycan estetik fikir tarixində öz əsərləri ilə əbədi yaşayacaqdır.

## RAFİQ SÜLEYMAN OĞLU ƏKBƏROV



1936-cı ildə Goravan kəndində anadan olmuşdur.

1955-ci ildə Gəncə Toxuculuq texnikumunu bitirmiş, Bakı toxuculuq kombinatında sex rəisi işləmişdir. Sonra Moskva Toxuculuq İnstitutunda təhsilini davam etdirmiş və 1966-cı ildən Azərbaycan Politexnik İnstitutunda müəllimliyə başlamışdır.

İnstitutda toxuculuq və yüngül sənaye texnologiyaları üzrə kafedraların yaranmasında müstəsna xidmətləri olmuşdur.

1983-cü ildə Leninqrad şəhərində dissertasiya müdafiə edərək texnika elmləri namizədi alimlik dərəcəsi almışdır.

R.Əkbərov 20 ildən çox dekan müavini işləmişdir. Hazırda Azərbaycan Texnologiya İnstitutunun "Ayaqqabı istehsalının texnologiyası və materialşünaslıq" kafedrasının müdiridir.

60-dan çox elmi məqalənin, neçə-neçə dərslik, dərs vəsaiti, monoqrafiya və metodik göstərişin müəllifidir.

## HƏSƏN CƏMİL OĞLU HÜSEYNOV



1937-ci il yanvarın 5-də Goravan kəndində anadan olmuşdur.

1948-ci ildə deportasiya olunaraq Xanlara köçürülüblər. Orta məktəbi Xanlarda bitirib.

1970-ci ildə fizika-riyaziyyat elmləri doktoru, 1986-cı ildə professor elmi dərəcələrinə yüksələn Həsən Hüseynov uzun illər Azərbaycan EA Fizika İnstitutunda kristallofizika laboratoriyasına rəhbərlik etmiş, 1976-cı ildə Respublika Dövlət mükafatına layiq görülmüşdür.

Fizika sahəsində böyük kəşflər etmiş, maddələrin indiyədək elmdə qeyri-mümkün sayılan bir sıra xassələrini aşkarlamışdır. "Yeni yarımkeçiricilər, fiziki hadisələr və onların əsasında çeviricilər" mövzusunda əsərlər silsiləsi elmdə böyük əks-səda vermişdir. Onun kəşf etdiyi yarımkeçiricilər, böyük və təkmil quruluşlu monokristallar elm və texnikanın tərəqqi yollarında yeni-yeni üfüqlər aça bilən nailiyyətlər sayılır. Professor dünya elmi ədəbiyyatında geniş yayılmış bir sıra anlayışların yanlışlığını aydınlaşdırmış, yarımkeçiricilər fizikası üçün yeni elmi təsəvvürlər yaradan nəticələr almışdır. O, yarımkeçiricilərin sualtı qayıqlarda, reaktiv təyyarələrdə tətbiqi üzrə tanınmış alim idi.

H.Hüseynovun elmi kəşfləri tətbiqi fizikada bu gün də geniş istifadə olunmaqdadır.

## BƏXTİYAR SÜLEYMAN OĞLU ƏKBƏROV

1938-ci ildə Goravan kəndində anadan olmuşdur.

1963-cü ildə Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini fərqlənmə diplomu ilə bitirmiş, 1964-1970-ci illərdə Respublika Ali Məhkəməsində məsləhətçi işləmişdir.

Sonralar Xaçmazda, Bakı rayonlarında xalq hakimi olmuş, 1980-82-ci illərdə məhkəmə sədri vəzifəsində çalışmışdır. Hazırda Respublika Vəkillər Kollegiyasının üzvüdür.

Bəxtiyar Əkbərov elmi fəaliyyətlə də məşğul olur. 20-dən çox elmi məqalənin, 5 kitabın müəllifidir.





Azərbaycan Milli Yaradıcılıq Akademiyasının hüquq doktoru adına layiq görülüb.

YUNESKO-nun təsis etdiyi Beynəlxalq Komissiyanın qərarı ilə ona "Hüquq elmləri magistri" elmi adı və beynəlxalq hüquqşünas dərəcəsi verilmişdir.

1995-ci ildə isə 170-dən çox alimin iştirak etdiyi müsabiqənin qalibi olaraq Azərbaycan Dövlət Quruculuğu və Beynəlxalq Münasibətlər İnstitutunun fəxri professoru adını almışdır.

Hazırda həmçinin Bakı Özəl Universitetində, Azərbaycan və Qafqaz Universitetlərində dövlət quruculuğu və konstitusiya hüququ fənlərindən dərs deyir.

Oğlanları Rövşən və Babək hər ikisi hüquqşünasdırlar, Azərbaycan Dövlət Neft Şirkətində işləyirlər.

## YUNİS RƏHMAN OĞLU HÜSEYNOV



Bütün goravanlılar kimi, onların da ailəsi 1948-ci ildə Azərbaycana deportasiya olunmuş və Yunis Hüseynov 1952-ci ildə Azərbaycanın Xanlar şəhərində anadan olmuşdur.

1969-cu ildə Xanlar şəhərində 1 saylı orta məktəbi, 1974-cü ildə Rusiyanın Omsk şəhərində Ali Milis məktəbini, 1984-cü ildə Moskva şəhərində SSRİ DİN-nin Akademiyasını bitirmişdir.

Atası məşhur hüquqşünas Rəhman Hüseynovun yolu ilə gedən Yunis müəllim 1970-ci ildən, yəni 30 ildən artıq müddətdir ki, DİO-da xidmət edir.

1974-cü ildən bu günə qədər Azərbaycn DİN-də çalışmış, burada əməliyyat müvəkkili vəzifəsindən şöbə rəisliyinə qədər yüksəlmişdir.

1988-ci ildə polis podpolkovniki rütbəsi almışdır.

1991-ci ildən DİN-nin Narkotiklərlə Mübarizə İdarəsində şöbə

rəisinin müavini vəzifəsində çalışır.

Ailəlidir, iki övladı var. Həyat yoldaşı **Rəna Hüseynova** uzun illərdir ki, Azərbaycan Respublikası Müəllimləri Təkmilləşdirmə İnstitutunda kitabxana müdiridir.

**Oğlu İlkin** bu il orta məktəbi bitirmiş, Rusiya Federasiyası DİN-nin Hüquq İnstitutuna qəbul olunmuşdur.

## VAHİD FƏRMAN OĞLU İSMAYILOV



1955-ci il iyulun 30-da Xanlar şəhərində anadan olmuşdur. Atası Fərman kişi Goravan kəndindən idi, 1948-ci ildə elindən-obasından deportasiya olunmuşdu.

Vahid 1972-ci ildə Xanlardakı 1 saylı orta məktəbi bitirdikdən sonra Tula Politexnik İnstitutuna qəbul olunur və 1977-ci ildə institutu dağ mühəndisi ixtisası üzrə bitirir.

1977-1984-cü illərdə Daşkəsən şəhərindəki Azərbaycan Dağ-Mədən kombinatında əmək fəaliyyətinə başlayıb, fəhləlikdən baş mühəndis vəzifəsinədək yüksəlir.

1984-1985-ci illərdə Minsk şəhərindəki SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin ali kurslarında təhsil almışdır.

1985-2002-ci illərdə Azərbaycan Respublikası MTN-də həqiqi hərbi xidmətdə olmuş, 2002-ci ilin mayında polkovnik-leytenant rütbəsində ehtiyata buraxılmışdır.

V.İsmayılovun xüsusilə Gədəbəy, Ağdam, Ağcabədi rayonlarındakı fəaliyyəti, erməni işğalçılarına qarşı döyüşlərin hazırlanıb həyata keçirilməsi sahəsindəki xidmətləri diqqətəlayiqdir.

Hazırda Azərbaycan Respublikası Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsində təhlükəsizlik şöbəsinin rəisi vəzifəsində işləyir.

Ailəlidir, üç övladı var.

Oğlu **Xəyal** Bakı Dövlət Universitetinin Beynəlxalq münasibətlər fakültəsini bitirib. Hazırda hərbi xidmətdədir.

Qızı **Türanə** Bakı Biznes Universitetinin tələbəsidir.

Oğlu **Ramil** orta məktəb şagirdidir.



## GÖL (GÖLKƏND, GÖLLƏR)

Vedibasar mahalının Cığındərə bölgəsində, Baxçacıq kəndi yaxınlığında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) kəndin adı Vedi nahiyəsində **Gülkənd** kimi verilmişdir.

1897-ci ildə kənddə cəmi 28 nəfər əhali qeydə alınmışdır.

sPaqirevin Qafqazın beşverstlik xəritəsində (1913) kəndin adı İrəvan qəzasında **Göl kəndi** kimi qeyd olunmuşdur.

Kəndin ərazisində iki göl yerləşdiyindən, bəzi mənbələrdə onun adı **Göllər** kimi də qeyd olunmuşdur. Ümumiyyətlə, Qərbi Azərbaycan ərazisində **"göl"** sözü ilə onlarca kənd mövcud olmuşdur.

Bura Göyçə gölünün və Göyçə mahalının qədim Gölək (Urartu mənbələrində Qelakuni) adını da əlavə etmək olar. Xatırladırıq ki, sulu yer anlamında Gölləklər toponimi Vedibasar mahalının Qaralar kəndi ərazisində də olmuşdur.

Lakin bu, göl komponentli toponimlərin türksoylu peçeneqlərin **kul//kol** tayfalarının adından yaranması ehtimalını heç də istisna etmir. Bu toponim və onun Vedibasar mahalında yayılma arealı barədə Gölaysor kəndindən danışarkən ətraflı bəhs etmişik.

Sonralar kənd qonşu Cığın kəndinə birləşmiş, Cığın kəndi isə **Gölcığın** adlanmağa başlanmışdır.

Kəndin örüşündə qəbirüstü qoç və at daş heykəlləri son zamanlara qədər qalmaqda idi.

# GÖLAYSOR (GÖL, TÜRK GÖLÜ, AYSORGÖL)

Vedibasar mahalının Millidərə bölgəsində, Dəvəgözü çayının yuxarı axarında, Həsən Sultan bulağının yanında kənd.

1828-ci ilə qədər kənd xalis azərbaycanlı kəndi, o vaxtdan 1948-ci ilə qədər azərbaycanlıların, ermənilərin və aysoruların birgə yaşadığı qarışıq kənd olmuşdur. 1949-cu ildən tamamilə erməniləşdirilmişdir.

İ.Şopendə (1832) Gərnibasar mahalının dağlıq ərazisində (Vedibasarın Millidərə bölgəsində) **Göl kəndi** kimi qeydə alınmış və kənddə 11 təsərrüfatda 62 nəfər (38 kişi, 24 qadın) müsəlman əhalinin yaşadığı göstərilmişdir. El arasında bu kənd **"Türk gölü"** də adlandırılmışdır.

1873-cü ilin statistik məlumatlarında isə artıq kənd **Göl-Aysoru** adı ilə təqdim olunur və bu məlumatlara görə kənddə 33 təsərrüfatda 240 nəfər (126 kişi, 114 qadın) Azərbaycanlı türkü, 24 təsərrüfatda 154 nəfər (77 kişi, 77 qadın) aysoru yaşamışdır. Üstəlik, kənddə 1 pravoslav kilsəsi qeydə alınmışdır.

Aysoruların Cənubi Qafqaza, o cümlədən Vedibasar ərazisinə gəlişinin də öz tarixi var. Belə ki, 1826-1828-ci illər Rusiya-İran müharibəsi zamanı ruslara bələdçilik edən aysoru Allahverdi Tumayevin xahişi ilə çar hökuməti İran aysorularına Türkmənçay bağlaşmasına əsasən Rusiyanın tabeçiliyinə keçən Azərbaycan torpaqlarına köçməyə icazə verir. Beləliklə, 1830-cu illərdə A.Tumayevin başçılığı ilə İranın Urmiya mahalının Süpürgən, Muyşəva, Yengicə, Goracaluy, Nazı, Guytafa kəndlərindən 100-dən çox aysoru ailəsi Naxçıvan qəzasına köçür. 3 il sonra oradan Şuşa qəzasının Tərtər kəndinə köçən aysorular bir müddət sonra oradan da İrəvan qəzasına köçürlər. Beləliklə, Vedibasarın Millidərə bölgəsindəki Göl kəndində aysoruların məskunlaşması təxminən XIX yüzilin 40-cı illərinə təsadüf edir. Görünür, elə bundan sonra da kəndin adı Göl-Aysoru şəklinə düşmüşdür və **"aysoruların yaşadığı Göl kəndi"** anlamındadır. Aysorular əvvəl nestorian məzhəbinə inansalar da, sonralar pravoslavlığı qəbul edirlər.



Maraqlıdır ki, kəndin adı bəzi mənbələrdə eynilə Gölaysor mənasında olan **Aysorgöl** şəklində də işlənmişdir.

1886-cı ildə kənddə (bu mənbədə kəndin adı artıq **Gölaysordur**) yaşayan əhalinin – Azərbaycan türkləri ilə aysoruların ümumi sayı 72 təsərrüfatda 522 nəfərə (311 kişi, 211 qadın) çatmışdır. Onların 44 təsərrüfatda 333 nəfəri (198 kişi, 135 qadın) Azərbaycan türkləri, 28 təsərrüfatda 189 nəfəri (113 kişi, 76 qadın) aysorular olmuşlar.

Əsas təsərrüfat məşğuliyyəti əkinçilik və maldarlıq olan kəndin 1189,54 desyatin torpaq sahəsinin 5,9 desyatinini malikanə torpaqları, 0,25 desyatinini bağ sahələri, 602,8 desyatinini suvarılmayan əkin yerləri təşkil etmişdir. Kənddə 388 iribuynuzlu, 532 xırdabuynuzlu mal-qara qeydə alınmışdır.

Bundan başqa, kəndin Ağmanqan yaylağında 66 desyatin ərazidə **Dəvəgözübaşyurd** adlanan yaylaq yeri olub. Kənddən 40 verst aralıda yerləşən və kəndə qədimdən məxsus olan bu yaylağa hər il kəndin 35 azərbaycanlı ailəsi köçmüşdür.

Kəndin **Güldərviş-ağıl** adlanan yerdə 40 desyatin qışlaq ərazisi də olub.

Kənd sakini **Molla Şaban Kəlbalı Molla Əli oğlunun** kəndin yaxınlığında **Çayqırax** adlı ərazidə 1,5 desyatin biçənək yerini icarəyə götürdüyü (1883-1886-cı illər üçün) barədə də 1886-cı ilə aid mənbələrdə məlumat var.

Gölaysor kənd sakini Məmməd Musabəy oğlu isə Qaladibi kəndi yaxınlığında **Dəvəgeri** adlanan 7 desyatin otlaq yerini icarələmişdi.

1897-ci ildə kənddə 531 nəfər azərbaycanlı, 230 nəfər aysoru, 1914-cü ildə 604 nəfər azərbaycanlı, 351 nəfər aysoru qeydə alınmışdır.

1918-1920-ci illər erməni-müsəlman müharibəsi zamanı kəndin azərbaycanlı əhalisi ev-eşiyindən didərgin düşmüş, bir hissəsi erməni daşnakları tərəfindən qətlə yetirilmişdir.

Bölgədə Sovet hakimiyyəti qurulduqdan sonra kəndin qaçqın əhalisindən 428 nəfər azərbaycanlı geri qayıtmışdır. 1931-ci ildə kənddə 304 nəfər azərbaycanlı, 183 nəfər aysoru qeydə alınmışdır.

1937-1948-ci illərdə Qarabağlar rayonunun tərkibində möv-

cud olan Gölaysor kəndinin azərbaycanlı əhalisi 1949-cu ildə məcburi şəkildə Azərbaycana köçürülmüşlər. Həmin illərdə kənddə xaricdən gələn çoxlu erməni yerləşdirilmiş və kənd tamamilə erməniləşdirilmişdir (o cümlədən aysoru əhalisi).

* * *

1918-ci ilin mayında erməni daşnak qüvvələrinin Millidərə kəndlərinə dağıdıcı hücumu Gölaysor kəndinə də böyük fəlakətlər gətirmişdi. Millidərənin 7 müsəlman kəndinin bütün əhalisinin kütləvi şəkildə qətlə yetirildiyi bu hücumda canını qurtarmaq istəyən bəzi müsəlman kəndlərinin əhalisi qaçıb qonşu Gölaysor kəndində aysoru evlərində daldalanmağa çalışmışdılar. Lakin erməni qoşun komandiri Vartanyan aysoru evlərini bir-bir axtartdırıb, müsəlmanları tapdırtdırırmış. Hansı evdən müsəlman çıxırmışsa, ev sahibini ya evindəcə güllələyirmiş, ya da yerə uzatdırıb, yarımcan olunca döydürtdürürmüş. Vəziyyəti belə görən aysoruların çoxu qorxusundan gözlətdikləri adamları təhvil verməyə məcbur olmuşdular. Təkcə Gölaysor kəndindən 80 müsəlman tapılmış, əsasən arvad-uşaq, qoca-qarı olanları aparıb qonşu Əhmədli kəndində bir dama doldurub, diri-diri yandırmışdılar. Həmin damın xarabalığı son illərə qədər qalırdı.

Gölaysor yaxınlığında qədim Güldərviş kəndinin xarabalıqları yanında **Güldərviş** adlanan məşhur ziyarətgah olub.

Vedibasardakı üç orta məktəbdən biri Gölaysorda yerləşdiyindən (digərləri Böyük Vedi və Avşar kəndlərində idi) Millidərə kəndlərinin uşaqları, adətən, bu məktəbdə orta təhsillərini başa vururdular. Gölaysor orta məktəbi beynəlmiləl məktəb idi. Burada aysorular rusca, azərilər azərbaycanca oxuyurdular.

Gölaysordan öz xalqına sədaqətlə xidmət edən bir sıra ziyalılar da çıxmışlar. Onlardan vaxtilə Qarabağlar RİK sədri işləmiş **Əli Şabanovun** və Ermənistan KP MK-da məsul vəzifədə çalışmış, sonra Qazaxıstanda atçılıq sovxozları üzrə nazir vəzifəsində işləmiş **Şaban Şabanovun** adlarını çəkmək olar.

**Hafiz Əli oğlu Şabanov** elmlər doktorudur və Gəncədə Elmi-Tədqiqat Pambıqçılıq İnstitutunun direktoru işləyir.



## ABDULLA ŞABAN OĞLU ŞABANOV



1923-cü ildə Golaysor kəndində anadan olmuşdu.

Orta məktəbi bitirdikdən sonra yüksək savadını nəzərə alıb, onu birbaşa məktəbdə erməni siniflərinə rus dili müəllimi təyin edirlər. Üç il müəllim işlədikdən sonra 1942-ci ildə müharibəyə çağırılır, artilleriya məktəbinə oxumağa göndərilir. Hərbi məktəbi bitirib, zabit kimi ön cəbhəyə yollanır. Dəfələrlə yaralanır. Sonuncu yaralanmadan sonra ordudan tərxis olunur.

Sonra Gəncə Pedaqoji İnstitutunun rus dili və ədəbiyyatı fakültəsini bitirir. Rus dilinin azərbaycanlı məktəblərində tədrisi metodikası ilə məşğul olur.

1956-cı ildə dissertasiya müdafiə edərək pedaqoji elmlər namizədi, 1968-ci ildə isə pedaqoji elmlər doktoru elmi dərəcələri alır. Professor kimi institutun rus dili kafedrasına rəhbərlik edir.

1970-ci ildən ömrünün sonunadək SSRİ Maarif Nazirliyinin Elmi Tədqiqat İnstitutunun bölmə müdiri vəzifəsində çalışan A.Şabanov 1975-ci il oktyabrın 22-də vəfat etmişdir.

# GÖLCIĞIN (CIĞIN)

Vedibasar mahalının Cığındərə bölgəsində, Vedi çayının yuxarı axarında, bu çayın sağ qolu olan Arxaşan çayının kənarında, dəniz səviyyəsindən 2.000 m yüksəklikdə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) Vedi nahiyəsinin **Ciqin kəndi,** "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) həmin nahiyənin **Ceqin** kəndi kimi qeydə alınmışdır. İkinci mənbədə kənddə **Süleymanın** adına olan timardan dövlətin müxtəlif vergilər şəklində ildə 12.000 ağça gəlir götürdüyü barədə qeyd də var.

İ.Şopendə (1832) kəndin adı **Cığın,** 1873-cü ilin statistik məlumatlarında **Gül-Cığin,** 1886-cı ildə və sonrakı illərdəki mənbələrdə **Gölcığın** kimi qeydə alınmışdır.

Kəndin adı **"göl"** və **"cığın"** tərkib hissələrindən ibarət olmaqla **"Göl yaxınlığındakı Cığın kəndi"** anlamını verir. Bunu **Göl** və **Cığın** kəndlərinin birləşməsi nəticəsində yaranmış mürəkkəb toponim də hesab etmək olar. Göl etnonimi və onun Vedibasar mahalında yayılma arealı barədə Gölaysor kəndindən danışarkən bəhs etmişik. **Cığın** isə, heç şübhəsiz, Qacar tayfasının **Çiqin (Çeqin)** qolunun adını daşıyır. Bu adın **çiqin** hissəsinin türk dillərindəki **"çayın döngəsi"** anlamı ilə birbaşa heç bir əlaqəsi yoxdur.

Azərbaycan Respublikasının Ağsu aə Ucar rayonlarındakı Çiyni (Çiqini) kənd adları, Qərbi Azərbaycanda keçən yüzillərdə mövcud olmuş Çiyinli (Çiqinli), Çikdamlı, Çikdaşlı, Çik kiçik və s. toponimlər məhz Çiqin etnonimindən törəmədir.

1832-ci ildə kənddə 37 təsərrüfatda 178 nəfər (87 kişi, 91 qadın) Azərbaycan türkü yaşamışdır.

1873-cü ildə kənd əhalisinin sayı 20 təsərrüfatda 160 nəfər (83 kişi, 77 qadın) olmuş, kəndin ərazisində qədim kilsə qalıqları, xristian qəbirüstü abidələri qeydə alınmışdır.

1886-cı ildə kənddə 21 təsərrüfatda 210 nəfər (108 kişi, 102 qadın), 1897-ci ildə 238 nəfər, 1905-ci ildə 559 nəfər, 1916-cı ildə 615 nəfər əhali yaşamışdır. Kənd əhalisinin sayının birdən-



birə artmasını yaxınlıqdakı Göl kəndinin ləğv olunub, əhalisinin Cığın kəndinə köçməsi ilə izah etmək olar.

İqtisadiyyatının əsasında əkinçilik və heyvandarlıq dayanan kəndin 886,77 desyatin torpaq sahəsinin 2 desyatinini malikanə torpaqları, 214 desyatinini suvarılmayan əkin yerləri təşkil etmişdir. Kənddə 198 iribuynuzlu, 266 xırdabuynuzlu mal-qara saxlanmışdır.

Kəndin İrəvan qəzasının **Bedoyurd** və **Daşlıyurd** yaylaqlarında qədimdən istifadə etdiyi 495 desyatin yaylaq yerləri olmuşdur.

1918-1920-ci illər erməni-müsəlman davası zamanı kənd daşnaklar tərəfindən dağıdılmış, əhalisi vuruşa-vuruşa kəndi tərk etməyə məcbur olmuşdur.

1922-ci ildə kəndin qaçqın əhalisinin cəmi 54 nəfəri geri qayıda bilmiş, kənddə yaşayanların sayı 1926-cı ildə 92 nəfərə, 1931-ci ildə 135 nəfərə çatmışdır.

1937-1948-ci illərdə Qarabağlar rayonu tərkibində mövcud olan Gölcığın kəndinin əhalisi 1949-cu ildə bütünlüklə Azərbaycana köçürülmüş və o vaxtdan da kənd xaraba qalmışdır.

* * *

1949-cu ildə deportasiya olunan Gölcığın camaatı əvvəl Şəmkir rayonunun Leninkənd kəndinə, bir-iki il sonra isə Puşkin (indiki Beləsuvar) rayonunun Arxangelovka (indiki Bağbanlar) kəndinə köçürülmüşlər. Hazırda əsasən Bağbanlar kəndində yaşayan (1200 nəfərdən çox) Gölcığınlıların çox az bir qismi Azərbaycanın digər bölgələrində məskunlaşmışlar.

Gölcığın kəndi həmişə öz ağsaqqalları ilə fəxr etmişdir. Onlardan **Hacı İsmayıl** vaxtilə 25 il Nəcəf şəhərində ruhani təhsili almış və gəlib kəndin axundu olmuşdu.

**Kərbəlayi Ağəli Sadıqov, Nağı Rəhimov** kəndin varlı-dövlətli kişilərindən olmuş, kasıb-kusuba əl tutmuş, yetim-yesirə sahib çıxmış, kənd cavanlarının oxuyub təhsil alması qayğısına qalmışlar.

**Nurəli Sadıqov** 1941-1945-ci illər müharibəsinin iştirakçısı olmuş, Berlinə qədər döyüş yolu keçmişdir.



**Camal Sadıqov, Mehdi Həsənov, Cəlal Sadıqov, Abdulla Məmmədov, İman Həsənov** da 1941-1945-ci illər müharibəsinin iştirakçısı olmuşlar. **Camal Sadıqov** həm də kəndin kalxoz sədri işləmişdir. **CƏLAL SADIQOV** isə kənd məktəbinin direktoru olmuş, müharibədən qayıtdıqdan sonra uzun müddət kolxozda rəhbər vəzifələrdə çalışmışdır.

**Pirəli Sadıqov** müharibədən sonra məktəb direktoru, **Pənah Cəfərov** kənd sovetinin sədri, **Kamal Sadıqov** kənd sovetinin katibi işləmişlər.

**Əli Qəribov** müharibədə iştirak etmiş, deportasiyadan sonra kolxoz sədri, kənd sovetinin sədri və s. vəzifələrdə çalışmışdır.

Onlardan əlavə, **Ənnağı Sadıqov, Məhərrəm Rəhimov, Yusif İsmayılov, Rəhim İsmayılov, Xəlil Həsənov, Bayram Baxşəliyev, Abuzər Sadıqov** və b. kəndin sayılıb-seçilən ağsaqqallarından olmuşlar.

Hazırda Bağbanlar kəndində deportasiyanı öz gözləri ilə görən aşağıdakı ağsaqqalar yaşayırlar: **İman Xəlilov** 1-ci qrup müharibə əlilidir, həm Ermənistanda, həm də Azərbaycanda müxtəlif partiya və təsərrüfat işlərində çalışmışdır, camaat arasında dərin hörməti var. **Məhərrəm Xudiyev** də müharibə əlilidir. **Əkbər Əliyev** deportasiyanın şahidi olan ən yaşlı adamdır, 96 yaşı var. Müharibədən əvvəl kənd sovetinin sədri işləmiş, deportasiyadan sonra müxtəlif məsul vəzifələrdə çalışmışdır. **Paşa İsmayılov, Oruc Cəfərov, Yunus İsmayılov** da həmin ağsaqqallar sırasındadırlar.

Öz zəhmətsevərlikləri ilə firavan həyat qurmuş Gölcığın camaatı arasından çıxanlar indi respublikamızın müxtəlif elm və təsərrüfat sahələrində çalışırlar. Kəndin hörmətli ağsaqqallarından olan, kolxoz sədri və başqa müxtəlif vəzifələrdə işləmiş **Nəcəf Cabbarovun** oğlu **Siracəddin Cabbarov** hazırda Bakı şəhər Binəqədi rayon İH başçısının müavinidir.

**Sərtib Abbasov** uzun illər rayon DYP-nin rəisi, **İbrahim Həsənov** Azərbaycan Təhsil nazirinin müavini, **Musa Məmmədov** Bakı şəhər Səbail rayon dövlət təhlükəsizlik şöbəsinin rəisi işləmişdir.





**YUNUS KAMAL OĞLU SADIQOV** 1956-cı ildə anadan olmuş, ATU-nun müalicə işi fakültəsini bitirmişdir. Biləsuvar rayon Mərkəzi Xəstəxanasının baş həkimi kimi məsul vəzifədə çalışır. Üç oğlu bir qızı var.

**Valeh Abbasov** rayon təhsil şöbəsinin müdiri, **Əli Sadıqov** Rusiyanın Krasnodar vilayətində kolxoz sədridir.

**Şirəli Sadıqov** rayon ət tədarükü kombinatının direktoru işləyib, hazırda Gömrük Komitəsinin əməkdaşıdır.

**Rəfiqə Pənah qızı Cəfərova** Gəncə ADPU-nin filologiya fakültəsini bitirmiş, partiya və dövlət işlərində rəhbər vəzifələrdə işləmişdir. Hazırda Beləsuvar rayon Mədəniyyət şöbəsinin müdiridir.



Onlardan **SÜLEYMAN CƏLAL OĞLU SADIQOV** 1949-cu ildə anadan olmuş, 1973-cü ildə ATU-nun müalicə işi fakültəsini bitirmişdir. Hazırda Bağbanlar kənd bələdiyyəsinin üzvü, Bağbanlar kənd xəstəxanasının baş həkimidir.

**Heydər Elqərib oğlu Qəhrəmanov** Beləsuvar rayon Meliorasiya idarəsində baş mühəndis, **Məleykə Cəlal qızı Sadıqova** Bağbanlar kənd məktəbində müəllim, **Fəxrəddin Yunus oğlu İsmayılov** Respublika Onkologiya Xəstəxanasında, **Qulam Cəlal oğlu Sadıqov** 42 saylı Yol İdarəsində baş mühasib, **Faiq Arif oğlu Əsgərov** MTN-nin Ucar rayonu üzrə kuratoru, **Tərlan Mehdi qızı Nuriyeva** Azərbaycan Slavyan Universitetində, **Rəna Cəlal qızı Sadıqova** Bakı şəhər 159 saylı məktəbində müəllim, **Şahlar Süleyman oğlu Sadıqov** Türkiyənin Antalya şəhərində turizm şirkətində menecer işləyirlər. **Qoşqar İsmayıl oğlu Vəliyev** Azərbaycan Neft Akademiyasını bitirmişdir.

## ELBRUS CƏLAL OĞLU SADIQOV



1972-ci il iyulun 2-də Azərbaycan Respublikasının Beləsuvar rayonunun Bağbanlar kəndində anadan olmuşdur.

Əslən Gölcığın kəndindəndir. Ailələri 1949-cu ildə Azərbaycana deportasiya olunmuşdur.

E.Sadıqov 1979-cu illərdə Bağbanlar kənd orta məktəbində oxumuş, 1991-1996-cı illərdə ADPU-nun tarix və hüquq fakültəsində ali təhsil almışdır.

1996-cı ildən AMEA-nın Fəlsəfə və Hüquq İnstitutunun dissertantı olmuş və 2002-ci ildə dissertasiya müdafiə edərək fəlsəfə elmləri namizədi alimlik dərəcəsi almışdır.

Hazırda Azərbaycan Tibb Universitetinin fəlsəfə kafedrasında elmi-pedaqoji fəaliyyətini davam etdirir. Subaydır.

Elbrus müəllim həm də elini-obasını dərin məhəbbətlə sevən, ona qəlbən bağlı olan ziyalılarımızdandır.



## GÜLDƏRVİŞ

Vedibasar mahalının Millidərə bölgəsində, Gölaysor kəndi yaxınlığında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) və "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Vedi nahiyəsinin **Güldərviş kəndi** kimi qeydə alınmışdır. 1728-ci ilə aid başqa bir dəftərdə kəndin adı **"Candərviş"** kimi verilmişdir.

"İcmal dəftəri"ndə Əli adlı şəxsin kənddə olan timarından dövlətin müxtəlif vergilər şəklində ildə 3.000 ağça gəlir götürdüyü göstərilmişdir.

Sonrakı mənbələrdə (1832, 1873 və s) kəndin adına rast gəlinməməsi və yalnız 1886-cı ilə aid mənbədə Gölaysor kəndi yaxınlığında **Güldərviş** adlı 10,08 desyatin əkin yeri sahəsindən bəhs olunması kəndin XVIII yüzildə artıq mövcud olmaması ilə bağlı idi.

Kəndin adının türksoylu peçeneqlərin məşhur **kul//kol** tayfasının adını daşıdığı şəksizdir. Bu etnonim və onun Vedibasar mahalında yayılma arealı barədə Gölaysor kəndindən danışarkən ətraflı bəhs etmişik. Xatırladırıq ki, Musa Xorenli də özünün tarix kitabında er. əv. 2-ci yüzilin hadisələrindən bəhs edərkən Şimali Qafqazdan bulqar türklərinin gəlib məskunlaşdığı Ağrıdağ vadisindəki **Kol vilayətindən** danışır. Doğrudur, **Kol//Kul//Qul//Gül** (hətta bəzən **Göl** variantında) Şimali Azərbaycanda və Qərbi Azərbaycanda çoxlu toponimlər olmuşdur və bu gün də var. Lakin axı, M.Xorenli Kol adlı vilayətdən danışır və məlumdur ki, Vedibasar mahalının ərazisində Kolanlı, Göl (Göllər), Gölcığın, Güldərviş, Gölaysor, Qulaqsız və s. adlı bir neçə toponim olub və bütün bu kəndlər bir-birindən o qədər də uzaqda yerləşmirdi. Bu, həmin qədim Kol vilayətini, doğrudan da, Vedibasar mahalının dağlıq bölgəsində axtarmağa əsas verir.

Yeri gəlmişkən, Qərbi Azərbaycanda **Qul** sözü ilə onlarla kənd adı olduğu kimi, hətta Üçkilsə rayonunda belə kəndlərdən biri elə Quldərviş adlanmışdır.

1918-ci ilin mayında erməni daşnaklarının Millidərə kəndlərinə hücumu zamanı əhalisi damlara doldurulub yandırılan 7 kənddən biri də Güldərviş kəndi olmuşdur. O vaxdan kənd xaraba qalmışdır.

* * *

Kəndin kənarında **Güldərviş** adlı məşhur ziyarətgah olmuşdur.

## GÜNEYYURD (XALİSA)

Vedibasar mahalının aran hissəsində, Ağrıdağ vadisində, Avşar kəndi yaxınlığında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

Kənd Xalisa kəndi yaxınlığında salındığı üçün həm **Xalisa,** həm də **Güneyyurd** adlanmışdır.

Xalisa toponiminin mənası barədə Xalisa kəndindən danışarkən bəhs edəcəyik. Güneyyurd isə, sözsüz ki, ərazinin gün tutarlığından doğmuş bir addır.

XX yüzilin əvvəllərində, 1905-ci il erməni-müsəlman davası zamanı kənd erməni daşnakları tərəfindən dağıdılmışdır. Xarabalıqları Avşar kəndi yaxınlığında qalmaqda idi.



## GÜNNÜT (GÜNLÜK, GÜNNÜT CƏFƏRLİ)

Vedibasar mahalının Çanaxçıdərə bölgəsində, Bozgünnü dağı ətəyində kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

İ.Şopendə (1832) **Günlük kəndi** şəklində Vedibasar mahalının xaraba kəndləri siyahısında verilmişdir. Bu, kəndin 1826-1829-cu illər Rusiya-İran, Rusiya-Osmanlı müharibələri zamanı böyük dağıntılara məruz qalması ilə bağlı idi.

Sonralar yenidən məskunlaşan kəndin adı 1873-cü ilin statistik məlumatlarında Vedi nahiyəsinin **Günnüt-Cəfərli** (Cəfərli kəndi yanında Günnüt) kəndi kimi verilmişdir.

Kəndin **Güünnüt** (ilkin variantında Günlük, yerli tələffüzdə **Günnük** və ya **Günnüt**) adının "**daim gün düşən yer**" anlamı özlüyündə aydındır. Maraqlıdır ki, türk dillərində, o cümlədən Vedibasar mahalının yerli şivəsində elə həmin mənada bir "**günet**" (yəni **güney**) sözü də vardır ki, o da sonradan Günnüt şəklinə düşə bilərdi.

1873-cü ildə kənddə 21 təsərrüfatda 178 nəfər (97 kişi, 81 qadın) Azərbaycan türkü yaşamışdır.

1886-cı ilə aid mənbədə də kəndin adı **Günnüt-Cəfərli** kimi verilmişdir. Kənddə 25 təsərrüfatda 209 nəfər (117 kişi, 92 qadın) əhali qeydə alınmışdır. Kəndin 120 desyatin torpaq sahəsinin 3 desyatinini malikanə torpaqları, 160 desyatinini suvarılmayan əkin yerləri təşkil etmişdir. Kənddə 130 iribuynuzlu, 605 xırdabuynuzlu mal-qara saxlanmışdır.

Kəndin Yeni Bəyazid qəzasının **Dıdvəng** yaylağında 66 desyatin ərazini əhatə edən **Qazmayurd** adlı yurd yeri olmuşdur. Kənddən 15 verst aralıda yerləşən bu yurddan kənd camaatı 1846-cı ildən etibarən istifadə etmişlər.

Sonralar kənd sadəcə **Günnüt** adlandırılmışdır.

Qonşuluqdakı Cəfərli kəndi böyüdükcə Günnüt kəndinin əhalisi tədricən oraya axışmışdır. Elə buna görə də artıq 1887-ci ildə kənddə cəmi 17 nəfər azərbaycanlı qalmışdır. XX yüzilin əvvəllərində isə kənd tamamilə boşalmış və xarabalığa çevrilmişdir.

# HACI BABA

Vedibasar mahalınm aran hissəsində, Ağrıdağ vadisində, Dəvəli kəndi yaxınlığında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

Kəndin adının onun əsasını qoymuş şəxsin (**Hacı Baba**) adından götürüldüyünü ehtimal etmək olar.

1914-cü ildə kənddə 54 nəfər azərbaycanlı yaşamışdır.

1918-1920-ci illər erməni-müsəlman davası zamanı kənd erməni daşnakları tərəfindən yerlə-yeksan edilmişdir. Xarabalıqları Dəvəli kəndi yaxınlığında son illərə qədər qalmaqda idi.



# HACIMİRZƏ (KÜRD KƏNDİ)

Vedibasar mahalının Millidərə bölgəsində, Seyid Kotanlı kəndi yaxmlığında kənd.

Kəndin adının onun əsasmı qoymuş şəxsin **(Hacı Mirzə)** adından götürüldüyünü ehtimal etmək olar.

Kənddə əsasən müsəlman kürdləri yaşadığından kənd **Kürd kəndi** da adlanmışdır.

1937-1938-ci illərdə kəndin bütün kürd əhalisi Qırğızıstanın Oş vilayətinə sürgün edilmişdir. Bu vaxt kənddə 40-45 ailə yaşamışdır. Sonralar onların bir hissəsi geri qayıtsalar da, 1950-ci ildə Vedibasarın bütün dağ kəndləri kimi, Hacımirzəlilər də Azərbaycana köçürülmüşlər. Kənd o vaxtdan xaraba qalmışdır.

## HAXIS

Vedibasar mahalının Cığındərə bölgəsində, Vedi rayonunun mərkəzi olan Böyük Vedi qəsəbəsindən 22-24 km şimal-şərqdə, Əzizkənd və İnqala kəndləri yaxınlığında, Vedi çayının sol qolu olan Haxıssu çayı kənarında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) və "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) kəndin adı Vedi nahiyəsinin **Heks kəndi** kimi qeydə alınmışdır. İkinci mənbədə həm də Xəlil adlı şəxsin kənddə olan timarından dövlətin müxtəlif vergilər şəklində götürdüyü illik gəlirin 3.000 ağça məbləğində olduğu göstərilmişdir.

1826-1829-cu illər Rusiya-İran və Rusiya-Osmanlı müharibələri zamanı kənd böyük dağıntılara məruz qaldığından İ.Şopendə (1832) **Haxıs** Vedi nahiyəsinin dağıdılmış kəndləri siyahısına daxil edilmişdir. Bu mənbədə və bütün sonrakı mənbələrdə kəndin adı **Haxıs** kimi yazılmışdır.

Haxıs kəndinin adı bölgədə türk tayfalarının qədimdən yaşadığını bir daha təsdiqləyən tutarlı faktdır. Türk dillərində **"dəstə"**, **"alay"**, **"yığın"** mənasında geniş işlədilən **"haxıs"**, **"haxış"** sözlərindən törəyən bu ad, çox güman ki, həm də böyük bir türk qövmünün adını bildirmişdir. Təsadüfi deyil ki, türklərin ən böyük anayurdlarından biri də Axıska adlanır. "Dədə Qorqud" dastanlarında Axisqa şəklində işlədilən bu sözün ilkin formasında Axisgah olması da ağılabatandır. Yeri gəlmişkən, 1548-ci ilə aid bir şah (I Təhmasib) fərmanında Qərbi Azərbaycan ərazisində Axstabad şəhərinin adı çəkilir. XVI yüzildə Gəncə əyalətində Ahistabad adlı sancaq, XVIII yüzildə isə Dağlıq Qarabağın Vərəndə mahalında Qut-Ahis adlı kənd qeydə alınmışdır (B.Budaqov, Q.Qeybullayev).

Qərbi Azərbaycan ərazisində 1728-ci ilə aid mənbədə Xınzirək nahiyəsində Haxs, sonralar Əştərək rayonunda Axis (Haxis) kəndləri olmuşdur.

Göründüyü kimi, bütün bu adların hamısının kökündə **axıs//haxıs** sözü dayanır və adın bu qədər geniş yayılması onun etnonim səciyyəsinə dəlalət edir.



Tədqiqatlarda Haxıs tipli sözləri (Asak, Arsak, Xakas, Kaspi, Kasax və s.) **ağ as//az** türklərinin (çox vaxt onlar **on ağ ərlər** kimi də qeyd olunur) adı ilə bağlamaq meyli də var ki, bizcə, burada böyük həqiqət gizlənir və bu barədə ciddi düşünmək lazımdır. Xatırladım ki, Vedibasar mahalındakı **Asnı** (Əsni, Əsin, Asın) kəndinin də adı ilkin formasında çox güman ki, **Ason** olmaqla **on as** türklərinin adını bildirir.

1832-ci ildən sonra yenidən məskunlaşan Haxıs kəndində 1873-cü ildə 33 təsərrüfatda 242 nəfər (122 kişi, 120 qadın) Azərbaycan türkü yaşamışdır. Kəndin ərazisində islamaqədərki xristian mədəniyyətinin yadigarı olan qədim qəbiristanlıq və qəbirüstü abidələr də qeydə alınmışdır.

1886-cı ildə kənd əhalisinin sayı 27 təsərrüfatda 186 nəfərə (111 kişi, 75 qadın) çatmışdır. İnqala kəndi ilə bir yerdə kəndin 1082 desyatin torpaq sahəsi olmuş, onun 6 desyatinini malikanə torpaqları, 20,58 desyatinini suvarılan, 433 desyatinini suvarılmayan əkin yerləri təşkil etmişdir. Kəndlərdə 330 iribuynuzlu, 1126 xırdabuynuzlu mal-qara saxlanmışdır. Kəndlərin torpaqları **Daşbulaq** və **Qazmabulaq** adlı kiçik çayların suyu ilə suvarılmışdır. Kəndlərin İrəvan qəzasının yaylaqlarında **Qazmayurd, Meçiddərəsi** adlı 150 desyatin ərazini əhatə edən yurd yerləri olmuşdur.

1897-ci ildə kənddə 244 nəfər, 1905-ci ildə 928 nəfər əhali yaşamışdır.

1905-ci il erməni-müsəlman davası zamanı kənd böyük itkilərə məruz qalmışdır. Bu, özünü kənd əhalisinin sonrakı siyahıya alınmaları zamanı da göstərmişdir. Belə ki, 1916-cı ildə kənddə cəmisi 334 nəfər azərbaycanlı qalmışdı.

1918-1920-ci illər erməni-müsəlman davası zamanı isə kənd bütünlüklə dağıdılmış, əhalisi yurd-yuvasından qovulmuşdur.

1931-ci ilə qədər heç kəsin yaşamadığı kəndə həmin il cəmi 92 nəfər keçmiş Haxıslı qayıdıb gəlmiş, yenidən ev-eşik düzəldib, yaşamağa başlamışlar.

1937-1948-ci illərdə kənd Qarabağlar rayonunun tərkibində mövcud olmuşdur. Lakin bu da çox çəkməmişdir.

1948-1953-cü illər deportasiyasından yaxa qurtara bilməyən

Haxıs kəndi Vedibasarın dağ kəndlərinə nisbətən gec köçürülmüşdür. Belə ki, kolxoz sədri **Əhməd Mənsiməliyev** xeyli vaxt kəndin köçürülməsini gecikdirə bilsə də, nəhayət, 1950-ci ildə onları da köçməyə məcbur ediblər. Haxıslıların əksəriyyəti Bərdə rayonunun Xan Qaraqoyunlu kəndinə köçürülmüşlər. Əhməd Mənsiməliyev də onların arasında olmuşdur.

Elə o vaxtdan da Haxıs kəndi xaraba qalmışdır.

* * *

Vedibasar mahalının məşhur ocaqlarından biri – **Mir Səttar ocağı** Haxıs kəndində yerləşirdi. Ocağın sahibi **Mir Səttar ağa** və **Ət Seyid** adı ilə tanınan qardaşı olmuşlar. Ocaq yerləşən evdə əvvəllər Ət Seyid yaşayarmış. Ondan sonra bura ancaq Ocaq yeri olmuş, yaxın-uzaq kəndlərdən hamı bura ziyarətə gəlmişdir.

Kənddə əvvəllər ancaq **Seyidlər tayfası** yaşamışlar. Bu tayfa Mir Səttar ağanın başçılığı ilə onun qohum əqrəbasından ibarət olmuşdur. **Mədinəlilər** adlı tayfa isə kəndə sonralar – Sovet hakimiyyətinin ilk illərində Cənubi Azərbaycandan – Mədinə şəhərindən köçüb gəlmişlər. Kəndin görkəmli nümayəndəsi **Əli Həsənov** bu tayfadan olmuşdur.

Haxıs kəndindən **Mir Səttar ağa** çar dövründə Dəhnəz kəndindən yuxarıdakı bütün kəndlərin katdası olub. Sovet dövründə **Əziz Haqverdiyev** rayonun hörmətli ağsaqqallarından olmuşdur. **Rüstəm Məmmədov, Hidayət Əliyev, Əhməd Mənsiməliyev, Mir Məcid ağa Hüseynov, Xudabaxış Hüseynov, Əli Quliyev** rayonun ayrı-ayrı kəndlərində müxtəlif vəzifələrdə çalışmışlar. **İsrafil müəllim, Əli Həsənov, Şirin İsmayıl oğlu Hüseynov** kəndin qabaqcıl müəllimləri olmuşlar. Əli Həsənov sonralar rayonda müxtəlif rəhbər vəzifələrdə çalışmışdır. Haxısdan **Bilman Hüseynov** Gəncə şəhərində, **Məhərrəm Məmmədov** Bakıda yaşayır və işləyirlər.

Kənd 1950-ci ildə Azərbaycana deportasiya olunanda olunanda kənddə 60-70 ev olmuşdur. 1954-cü ildə onlardan 5 ailə geri dönmüş, lakin onlara Haxıs kəndində yaşamağa imkan verilmədiyindən yaxınlıqdakı Əzizkənd kəndində yaşamağa məcbur olmuşlar.

Hazırda da haxısılar əsasən Bərdə rayonunda yaşayırlar.



## MİRİ BİLAL OĞLU HƏSƏNOV



1938-ci il fevralın 16-da Haxıs kəndində anadan olmuşdur.

Elə həmin ildə atası repressiya qurbanı olmuş, ailələri isə 1950-ci ildə deportasiya edilərək Azərbaycana köçürülmüşdür. Bütün haxıslılar Bərdənin Xan Qaraqoyunlu kəndində məskunlaşmağa məcbur olsalar da, Mirigilin ailəsi İmişli rayonunun Qaralar kəndinə üz tutmuş, lakin İ.Stalinin ölümündən istifadə edərək 1954-cü ildə yenidən Vedi rayonuna dönmüşdülər. Orta təhsilinin 4 ilini Haxıs, 1 ilini Qaralar, 2 ilini Göbəktala kəndlərində alan Miri 1958-ci ildə Vedi orta məktəbini bitirib, Bakıya gəlir. Azərbaycan Pedaqoji İnstitutuna daxil olur. Fəal ictimaiyyətçi kimi tanınır. İnstitutu bitirən il orada müəllim saxlanır.

1973-cü ildə "Dərsdə təlimin texniki vasitələrinin tətbiqinin didaktik əsasları" mövzusunda dissertasiya müdafiə edərək pedaqoji elmlər namizədi alimlik dərəcəsi alır.

1962-ci ildən bu günədək Pedaqoji Universitetdə çalışan Miri Həsənov həmçinin 100-ə yaxın elmi məqalənin, 7 kitabın, 10-a qədər metodik göstərişin müəllifidir.

Vedibasar mahalının Cığındərə bölgəsində, Təzəkənd kəndi yaxınlığında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Vedi nahiyəsinin **Haqverdi kəndi** kimi qeydə alınmış, kənddə Məhəmməd Hacı Mirzə oğlunun adına olan timardan dövlətin müxtəlif vergilər şəklində götürdüyü illik gəlirin 3.500 ağça məbləğində olduğu göstərilmişdir.

Sonrakı məlumatlarda kəndin adına rast gəlmirik.

Kəndin adının **Haqverdi** şəxs adından yarandığını ehtimal etmək olar.





Vedibasar mahalının Millidərə bölgəsində, Vedi çayının sağ qolu olan Xosrov çayının orta axarında, Hand dağı ətəyindəki dərədə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Vedi nahiyəsində **Hetut** adı ilə bir kənd qeydə alınmışdır. Üstəlik, kəndin **Xəlil Həsən oğlunun** timarı olduğu, bu kənd-timardan dövlətin müxtəlif vergilər şəklində ildə 3.000 ağça gəlir götürdüyü göstərilmişdir.

Kəndin adının bu oxunuşuna inansaq, onun **het//xet** qədim türk tayfasının adından yarandığını və **hetlər** anlamında işləndiyini ehtimal etmək olar.

İ.Şopendə (1832) birdən-birə ona qədərki mənbələrdə rast gəlmədiyimiz **Hand** kənd adının ortaya çıxması, xüsusilə onun qədim **Hun** (ut – türk dillərində cəm şəkilçisidir) tayfalarının adını daşıyan bir kənd olması belə qənaətə gəlməyimizə səbəb olur ki, **Hetut** və **Hand (Hun-ut)** müxtəlif şəkillərdə yazıya alınmış eyni kəndlərdir. Bu iki kənd adının təkcə zahiri səslənməsində yox, bu adların etnik mənsubiyyətində də böyük doğmalıq mövcuddur. Belə ki, həm hetlər, həm də hunlar qədim türk tayfaları olmuşlar.

Yeri gəlmişkən, Vedibasar mahalının dağlıq hissəsində, Hand kəndinə yaxın məsafələrdə **hun** etnonomi ilə bağlı çoxlu toponimlərin mövcudluğunu bir daha xatırladırıq: Xunut, İnqala, Hortun, Harunburun və s.

İ.Şopendə (1832) Hand kənd adının Vedibasar mahalının dağıdılmış kəndləri siyahısında verilməsi kəndin 1826-1829-cu illər Rusiya-İran, Rusiya-Osmanlı müharibələri zamanı böyük dağıntılara məruz qalması ilə əlaqədardır.

Sonrakı bütün başqa mənbələrdə də kəndin adı **Hand** kimi verilmişdir.

Kəndin adının türk dillərində **"izləmək"**, **"gözləmək"**, **"keşik çəkmək"**, **"qarovulunu çəkmək"** mənalarında işlənən **anta, anda, andı, andi** sözlərindən düzəldildiyi, **"h"**-nin isə bura-

da sözönü samit olduğu ehtimalına görə **And// Hand** toponimi **"keşik məntəqəsi"**, **"keşik qalası"** anlamındadır (B.Budaqov, Q.Qeybullayev). Biz bu mülahizə ilə razılaşmırıq və adın etnonimik səciyyə daşıması fikrindəyik.

Toponimin tarixi xeyli qədim olmaqla yanaşı, yayılma arealı da türklərin yaşadığı ərazilər qədər genişdir. Əvvəla, II Sarqonun (er. əv. 720-705-ci illər) asurca kitabəsində indiki Cənubi Azərbaycan ərazisinin Qızılüzən çayı hövzəsində Andiya əyalətinin adı çəkilmişdir. Er.əv. VIII yüzildə Urartu kitabəsində Andamaniv toponimindən, M.Kağankataylının "Alban tarixi"ndə Handu qala adından da bəhs edilmişdir. V yüzil tarixçisi Favst Buzand isə Armaniyada Alagöz dağı ətəyində Andzin kənd adını, başqa bir yerdə isə Andmiş qala adını qeyd etmişdir.

XIX yüzildə Şərqi Anadoluda Andit, Şimali Qafqazda And Ağı gölü, And çayı, Dağıstan əyalətində Andi dairəsi, Andik kəndi, Andi-Girey gölü, Tiflis quberniyasında Anda kəndi, Andakistskali çayı və s. də "And" toponiminin çox geniş yayıldığını təsdiq edir. Bundan əlavə, Naxçıvanda And-Əmiç (Əndəmiç), Qarakilsə (Sisiyan) və Zəngilan rayonlarında Hand kəndləri də mövcud olmuşdur.

**Hand, And** variantına gəldikdə isə, bizcə, bu variant yad dillərdə **Hand** sözündən **"h"** samitinin düşməsi ilə yaranmışdır.

XIX yüzilin ortalarında Vedibasar mahalının ərazisindəki **Hand kəndi** yenidən məskunlaşmış və 1873-cü ildə burada 9 təsərrüfatda 106 nəfər (58 kişi, 48 qadın) Azərbaycan türkü yaşamışdır.

1886-cı ildə kənd əhalisinin sayı 15 təsərrüfatda 158 nəfərə (87 kişi, 71 qadın) çatmışdır. Əhalisinin əsas məşğuliyyəti əkinçilik və maldarlıq olan kəndin 661 desyatin torpaq sahəsinin 1 desyatinini malikanə torpaqları, 180 desyatinini suvarılmayan əkin yerləri təşkil etmişdir. Kənddə 280 iribuynuzlu, 627 xırdabuynuzlu mal-qara qeydə alınmışdır.

Kəndin Kotanlı (sonralar Seyid Kotanlı) kəndi ilə birlikdə Yeni Bayazid qəzasının Ağmanqan yaylağında **Hacıməcli** adlı yurd yeri olmuşdur. Kotanlı kəndindən 40 verst aralıda yerləşən və 425 desyatin ərazini əhatə edən bu yurd yerindən kənd camaatı qədimdən istifadə etmişlər.



1897-ci ildə kənddə 201 nəfər, 1905-ci ildə 273 nəfər, 1914-cü ildə 297 nəfər azərbaycanlı yaşamışdır.

1918-1920-ci illər erməni-müsəlman davası zamanı kənd dağıdılmış, əhalisi qətl və qarətlərə məruz qalmışdır. Sağ qalanlar yurd-yuvasından didərgin düşmüşlər.

1922-ci ildə kəndin qaçqın əhalisindən cəmi 47 nəfər geri qayıda bilmiş, 1931-ci ildə onların sayı 73 nəfərə çatmışdır.

1937-1948-ci illərdə Qarabağlar rayonunun tərkibində mövcud olan kəndin əhalisi 1949-cu ildə bütünlüklə Azərbaycana köçürülmüş və elə o vaxtdan da kənd xaraba qalmışdır.

* * *

Vedibasar igidlərinin 1918-1921-ci illərdə erməni daşnaklarına qarşı qəhrəman mübarizəsində Hand oğullarının da özünəməxsus xidmətləri olmuşdur. Onlardan **Şahpələng, Qəmlo** və **Vəli** qardaşlarının adını xüsusi qeyd etmək lazımdır.

## QƏMLO (QƏMBƏRALI)

**Qəmbəralı Qəmbər oğlu İsmayılov** Hand kəndində anadan olmuşdu. Əsl adı Qəmbəralı olsa da, bütün mahalda Qəmlo kimi tanınırdı.

1918-1920-ci illərdə Vedibasarın erməni daşnaklarından müdafiə döyüşlərində fəal iştirak etmiş, qoçaqlığı, igidliyi ilə ad çıxarmışdı.

Sovet hakimiyyətinin ilk illərində Cığındərə bölgəsində bir müddət qaçaqçılıq edən Qəmlo hökumət adamları ilə danışıqlar nəticəsində silahı yerə qoyub, dinc həyata qayıtmışdı.

1929-cu ildə Kərbəlayı İsmayılın başçılığı ilə Vedibasarın Cığındərə kəndlərində başlanan "qolçomaq qiyamına" qoşulan Qəmlo bu qiyamın ən tanınmış dəstəbaşılarından biri olur. Onun qorxmazlığı, igidliyi, sərtliyi qiyamın gücünü qat-qat artırır.

Qiyam yatırıldıqdan sonra bir müddət hökumətdən gizlənən Qəmlo Hand kəndindəki yaxın qonşularından birinin yas yerinə getməli olur. Yasdan sonra həmkəndlilərindən birinin evində Sovet orqanlarının əli ilə qəfildən, namərdcəsinə qətlə yetirilir. Bütün bunlar barədə "Abbasqulu bəy Şadlinski" kitabımızda ətraflı yazdığımızdan bir daha təkrar etmirik.

Qəmlodan başqa, qardaşları **Şahpələng** və **Vəli** də erməni daşnaklarına qarşı qəhrəmanlaqla döyüşmüşlər. Xüsusilə Şahpələng (o, Kərbəlayı İsmayılın qardaşı Pənahın qızı Cahan xanımla ailə qurmuşdu) öz igidliyi ilə bütün mahalda şöhrət qazanmışdı.

Vəli isə Qəmlo öldürülən anda qapıdan içəri girən zaman güllə ilə vurulmuşdu.

Qəmlonun **İbrahim** adlı oğlu, **Mafərə** və **Mahı** adlı iki qızı var. Qəmlodan sonra bir müddət Hand kəndində yaşayan ailəsi qonşu Məngük kəndinə köçmüş, 1949-cu ilin dekabrında isə bütün məngüklülərlə bərabər, Azərbaycana deportasiya olunmuşlar. Onlar İmişli rayonunun Şahverdili kəndində məskunlaşmış və bu gün də orada yaşamaqdadırlar. Qəmlonun arvadı **Töyfə Qurban** qızı son vaxtlara qədər sağ imiş və Şahverdili kəndində yaşayırmış.

Oğlu **İbrahim Qəmbər oğlu İsmayılov** hazırda İmişli rayonunun Şahverdili kəndində, qızlarımn biri Bakıda, digəri İmişli rayonunda yaşayırlar.

Qəmlonun nəvə-nəticələri haqqında məlumat:

Oğlu İbrahimin övladları – **Eyvaz, Çingiz, Polad, İlham, Elçin İsmayılovlar.**

Qızı Mafərənin övladları – **İbad, Ağayar, Sülhəddin, Firudin, Elşən Həsənovlar. İbad Həsənov** İmişli rayon Göbəktala-Şahverdili Vahid-Ərazi İcra nümayəndəsidir.

Qızı Mahının övladları – **Kamil, Fəxrəddin, Tariyel Yaqubovlar.**

Qəmlonun qardaşı Vəlinin uşaqları (**Əli, İsmayıl, Vəli İsmayılovlar**) da İmişli rayonunun Şahverdili kəndində yaşayırlar. Əlinin bir oğlu – **Səxavət İsmayılov** hazırda İmişli rayonunun Göbəktala kəndinin bələdiyyə sədridir.



# HARAMLI ŞƏTLİ

Vedibasar mahalının aran hissəsində, Şidli kəndi yaxınlığında kənd.

Kənddə **Şadlı** türk tayfası yaşamışdır.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Vedi nahiyəsində üç Şadlı kəndi qeydə alınmışdır: **Haramlı Şətli, Qarança Şətli, Küsühlü Şətli.** Qarança Şətli kəndindən dövlətin müxtəlif vergilər şəklində götürdüyü illik gəlir 10.000 ağça, qalan iki kəndin hər birindən götürülən illik gəlir isə 1000+1000 ağça olmuşdur.

Əslində Şadlı tayfası VII yüzildən başlayaraq Gərnibasar, Vedibasar, Naxçıvan, Gəncəbasar əraziləri daxil olmaqla Azərbaycanın böyük bir hissəsinə yayılmışdılar.

Vedibasarda bir neçə Şadlı kəndinin olması isə bu yerlərin həmin tayfanın ana yurdu olması ilə bağlı idi.

Qarança Şətli sonralar Şidli, Küsühlü Şətli Küsüs kəndlərinə çevrildiyi halda, Haramlı Şətli kəndi Şidli kəndi ilə birləşərək, ayrıca kənd olmaq imkanını itirmişdir.

Şidli kəndindən danışarkən Şadlı etnonimi haqqında daha ətraflı bəhs edəcəyik.

## HARUNBURUN (QARINBURUN)

Vedibasar mahalının Millidərə bölgəsində, Gölaysor kəndi yaxınlığında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) və "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Gərni nahiyəsi tərkibində **Harunburun kəndi** kimi qeydə alınmışdır. İkinci mənbədə dövlətin kənddən müxtəlif vergilər şəklində il ərzində 3.000 ağça gəlir götürdüyü göstərilmişdir.

Kəndin adının sonrakı mənbələrdə **Qarınburun** kimi yazılması onun yerləşdiyi ərazidəki qarın formalı dağ burnunun adından yaranması və ya türk dillərində "**quru çay yatağı**" mənasındakı **qarın** və **dağ burnu** anlamındakı **burun** sözlərindən əmələ gəlməsi ehtimallarını (B.Budaqov, Q.Qeybullayev) doğurub.

Lakin təbii ki, biz bu fikirlə qəti razı deyilik. Sadəcə "Qarınburun" "Harunburun" adının "**h**"-"**q**" əvəzlənməsinə məruz qalmış rus tələffüz variantıdır. **Harun** komponenti, bizcə, heç şübhəsiz, **ar** (**ər**) və **hun** sözlərindən ibarətdir. Vedibasar ərazisində hun türklərinin qədimdən məskunlaşması və bölgədə hunların adı ilə çoxlu toponimlərin mövcudluğu (İnqala, Xunut, Hand, Hortun və s.) da Harunburun kənd adının "**hunların yaşadığı dağ burnu – gədik, dağ çıxıntısı**" anlamı verdiyini təsdiq edir.

Azərbaycan Respublikasının Əli-Bayramlı rayonu ərazisindəki Pir-Qarın dağ adı da, çox güman ki, eyni kökdəndir.

1897-ci ildə kənddə 99 nəfər, 1914-cü ildə 102 nəfər, 1916-cı ildə 98 nəfər Azərbaycan türkü yaşamışdır.

1918-1920-ci illər erməni-müsəlman davası zamanı kənd erməni daşnakları tərəfindən yerlə-yeksan edilmiş, əhalisi vəhşicəsinə qətlə yetirilmişdir. Kənd o vaxtdan xaraba qalmışdır. Evlərinin uçuqları və müsəlman qəbiristanlığı Golaysor kəndi yaxınlığında son illərə qədər qalmaqda idi.



## HEYRANIS (HERANOS)

Vedibasar mahalının Cığmdərə bölgəsində, Vedi rayonunun mərkəzi olan Böyük Vedi qəsəbəsindən 23-25 km şimal-şərqdə, dəniz səviyyəsindən 1963 m yüksəklikdə, Vedi çayının sol qolu olan Heyranıs çayının mənbəyində, Heyranıs bulağı yanında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) kəndin adı Vedi nahiyəsinin **Herarus kəndi**, "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə həmin nahiyənin **Heranos kəndi** şəklində qeydə alınmışdır. Bundan əlavə, ikinci mənbədə kənddə Əli Məhəmməd oğlunun adına olan timardan dövlətin müxtəlif vergilər şəklində götürdüyü illik gəlirin 4.000 ağça olduğu da göstərilmişdir.

İ.Şopendə (1832) isə Vedi nahiyəsi ərazisində belə bir kənd qeydə alınmamışdır. Lakin İ.Şopen Heyranıs adı ilə Gərnibasar mahalı ərazisində iki kənd qeydə almış (Heyranıs-Uliya və Heyranıs-Sufla) və onları mahalın dağıdılmış kəndləri siyahısına daxil etmişdir. Bundan əlavə, İ.Şopen Göyçə mahalında da bir Heyranıs kəndi qeydə almışdır. Üstəlik, Göyçə mahalındakı Heyranıs kəndində ancaq yerli (81 nəfər) və Türkiyədən gəlmə (251 nəfər) ermənilərin yaşadığını qeyd etmişdir.

Halbuki 1873-cü ilin statistik məlumatlarına görə, Vedibasar mahalının dağlıq hissəsində, Vedi çayının sol tərəfindəki **Heyranıs** kəndində 13 təsərrüfatda 113 nəfər (64 kişi, 49 qadın) Azərbaycan türkü yaşamışdır. Buradan anlaşılır ki, İ.Şopenin Göyçə və Gərnibasar mahallarında qeydə aldığı Heyranıs kəndləri Vedibasar mahalındakı eyniadlı kəndlərlə eynimənşəli olsalar da, fərqli kəndlərdirlər.

Kəndin adı türk mənşəli **Aran** tayfasının adından götürülmüşdür. Adın sonundakı "**us**", "**os**", "**ıs**" hissəciyinin isə əvvəllər "**uz**" şəklində olduğunu ehtimal etmək olar. (Xatırla: Vedibasar mahalı ərazisində Kotuz, Küsüs kəndləri). **Uz//us** sözünün isə ya Uz türk tayfa adı, ya türk dillərindəki "**dərə**" anlamında, ya "**tərəf, yan**" mənasında, ya da cəmlik bildirən şəkilçi kimi iş-

ləndiyini artıq qeyd etmişik (bax: Kotuz kəndi).

1886-cı ildə Heyranıs kəndində 14 təsərrüfatda 162 nəfər (92 kişi, 70 qadın) Azərbaycan türkü yaşamışdır. Kəndin 1223,75 desyatin torpaq sahəsinin 1,5 desyatinini malikanə torpaqları, 156 desyatinini suvarılmayan əkin yerləri təşkil etmişdir. Kənddə 204 iribuynuzlu, 955 xırdabuynuzlu mal-qara qeydə alınmışdır.

1886-cı ilin statistik məlumatlarında Heyranıs kənd əhalisinin kənddən 10 verst aralıda 40 xalvar ərazini qış otlaq yeri üçün hər qışı 20 rubla Xanbaba bəy Fəti xan oğlu Şadlinskidən 1885-1887-ci illərdə icarəyə götürdüyü barədə qeyd də var.

1897-ci ildə kənddə 236 nəfər, 1905-ci ildə 180 nəfər, 1914-cü ildə 256 nəfər azərbaycanlı əhali yaşamışdır. 1905-ci ildə əhalinin kəskin şəkildə azalması, görünür, 1905-ci ildə bölgədə baş verən erməni-müsəlman qırğını ilə bağlı olmuşdur.

1918-1920-ci illər erməni-müsəlman davası zamanı isə kənd artıq bütünlüklə dağıdılmış, yandırılmış, əhalisi qəddarlıqla yurd-yuvasından qovulmuşdur.

1926-cı ilədək xaraba qalmış kəndə həmin il keçmiş sakinlərindən cəmi 36 nəfər qayıda bilmişdir. 1931-ci ildə onların sayı 28 nəfərə qədər azalmışdır.

1937-1948-ci illərdə Qarabağlar rayonunun tərkibində mövcud olan kəndin əhalisi 1949-cu ildə zorla Azərbaycana köçürülmüş, o vaxtdan kənd xaraba qalmışdır.

* * *

Kəndin görkəmli ziyalılarmdan biri **Heyranıslı Qasım** idi. O, 1913-cü ildə Peterburq universitetinin hüquq fakültəsinə daxil olmuş, 1918-1919-cu illərdə oranı bitirərək ali hüquq təhsili almışdı. 1914-cü ildə bolşeviklər partiyasına daxil olan Qasım Sovet hakimiyyətinin ilk illərində Naxçıvanda müxtəlif vəzifələrdə işləmiş, 1925-1927-ci illərdə torpaq şöbəsinin rəisi olmuş, sonra Naxçıvan təhlükəsizlik orqanlarında çalışmışdı. 1930-cu illərdə onu Ermənistan DTK-a işə gətirmiş, elə burada da zəhərləyib öldürmüşdülər.



# HƏSƏNQALA (HƏSƏNLİ)

Vedibasar mahalının Cığındərə bölgəsində, Həsənsu çayı kənarında, Daşnov vəMəngük kəndləri arasında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

İ.Şopendə (1832) **Həsənqala** adı ilə qeyd olunan bu kənd Vedibasar mahalının dağıdılmış kəndləri siyahısına daxil edilmişdir. Bu, kəndin 1826-1829-cu illər Rusiya-İran, Rusiya-Osmanlı müharibələri zamam böyük dağıntılara məruz qalması ilə bağlı idi. Bundan başqa, İ.Şopen Cığın-Cirmanis çayından bəhs edərkən bu çayın qollarmdan birinin "Həsənqala yanından keçən Həsənsu çayı" olduğunu qeyd edir və onun yazdıqlarından Həsənqala kəndinin Daşnov kəndinə yaxın bir ərazidə yerləşdiyini təxmin etmək olur.

1886-cı ilə dair statistik məlumatlarda Vedi nahiyəsində **Həsənli kəndi** kimi qeydə alınmışdır. Kənddən bəhs olunarkən belə bir qeyd də verilmişdir: həyət yerləri yoxdur, evlər dağılıb, əhali çadırlarda yaşayır. Əhalinin sayı isə 22 təsərrüfatda 182 nəfər (91 kişi, 91 qadm) azərbaycanlı kimi göstərilmişdir. Kəndin 140 desyatin torpaq sahəsi olmuş, onun 32 desyatinini suvarılan əkin yerləri təşkil etmişdir. Kənddə cəmi 10 iribuynuzlu mal-qara qeydə alınmışdır.

Göründüyü kimi, tənəzzül ərəfəsində olan kəndin sonrakı taleyi qaranlıqdır. Doğrudan da, sonrakı heç bir mənbədə Vedibasar mahalı ərazisində belə bir kənd adına rast gəlmədik.

## HORTUN (YUXARI ÇANAXÇI)

Vedibasar mahalının Çanaxçıdərə bölgəsində, Vedi rayonunun mərkəzi olan Böyük Vedi qəsəbəsindən 40-42 km cənub-şərqdə, Hortun (və ya Alışarçay) çayının yuxarı axarında, Əlikuçan dağının ətəyində, Hortundərə dərəsində, Çanaxçı kəndinin yanında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

İ.Şopendə (1832) kənd **Hortun** adı ilə Dərələyəz mahalının dağıdılmış kəndləri siyahısında verilmişdir.

1832-ci ildən sonra yenidən məskunlaşan və Çanaxçı dərəsindəki Çanaxçı kəndinin yuxarısında yerləşdiyi üçün daha çox **Yuxarı Çanaxçı** adı ilə tanınan kənddə 1873-cü ildə 41 təsərrüfatda 276 nəfər (145 kişi, 131 qadın) Azərbaycan türkü yaşamışdır. 1873-cü ilin statistik məlumatlarında kənd Yuxarı Çanaxçı adı ilə qeydə alınmış, Hortun isə kəndin ikinci adı kimi verilmişdir. Yeri gəlmişkən, həmin mənbədə kəndin ərazisində çoxlu qədim qəbirüstü abidələrin mövcudluğundan da bəhs edilmişdir. Bütün bunlar kəndin daha qədim tarixə malik olduğunu təsdiq edir.

Çanaxçı toponiminin etimologiyasından Çanaxçı kəndi bölməsində söhbət açacağımızdan hələlik ancaq **Hortun** toponimi üzərində dayanmağa üstünlük veririk.

Əvvəla xatırladaq ki, Vedibasar mahalının Dərələyəz mahalı ilə sərhədində yerləşən Hortun kəndinin qonşuluğunda (Dərələyəzin Keşişkənd rayonu ərazisində) eyniköklü bir neçə kənd – Hors, Hosdun, Horbadıq kəndləri mövcuddur. Professor Həsən Mirzəyevin belə bir fikri maraq doğurur ki, bu adların hamısının kökündə türk tayfa adı olan **Hors** sözü durur. Mənbələrdə adı Gorus, Keros, Keriz, Qorus, Qoros, Qors, Qeros, Xoros, Xorus, Xurs, Xors, Xurusun və s. variantlarda yazıya alınan bu tayfa Azərbaycan, İran, Türküstan, Şimali Qafqaz, Rusiya, Əfqanıstan kimi çox böyük bir əraziyə yayılmışdır. Hortun sözü isə, sadəcə olaraq, Hors tayfa adı və türk dillərində isimlərə qoşulub məkan bildirən **"tun" (-un",-dun",-tun")** tərkib hissələrindən ibarətdir və tələffüzdə "s" düşmüşdür.

Zəngəzur mahalındakı Gorus rayon və şəhər adı, Meğri rayonundakı Hors kənd adı, "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) və "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə (1727) Dərələyəz nahiyəsindəki Xors kənd adları, "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Qırxbulaq əyalətindəki Hörüslü Dvin kənd adı və s. eyni kökdəndir.

Hortun toponiminin etimologiyası ilə bağlı digər versiya adın türk dillərindəki **or (qala səddi)** və **ton (təpə)** komponentlərin ibarət olmasıdır (B.Budaqov, Q.Qeybullayev). Lakin bizcə, Hortun toponiminin etimoloji izahında adın **art//ort+hun,** yəni **dağlıq ərazidə yaşayan (art** – qədim türk dillərində **dağ** mənasındadır) **hunlar** anlamını da nəzərdən qaçırmaq olmaz. Biz toponimin etimoloji izahında bu versiyaya üstünlük veririk.

Sonralar ortaya çıxan başqa bir versiyada da (Əyyub Həsənov) kəndin qədimdə Hun boyları tərəfindən salındığı ehtimalı irəli sürülmüş Hortu hunlular adlanan bu boyun təxminən 146-cı ildə Göyçə gölünün Alagöllər, Gözəldərə, İdivan və Əyricə yaylaqlarının ətəklərinə gəlib çıxdıqları, burada Hortu hun (Hortun) adlı kənd saldıqları fikri irəli sürülmüşdür.

**Yuxarı Çanaxçı (Hortun)** kəndində 1873-cü ilin statistik məlumatlarında 276 nəfər əhali qeydə alınmışdır. 1886-cı ildə isə burada 42 təsərrüfatda 341 nəfər (224 kişi, 117 qadın) əhali – Azərbaycan türkü yaşamışdır.

İqtisadiyyatının əsasında əkinçilik və heyvandarlıq duran kəndin 1340 desyatin torpaq sahəsinin 5 desyatinini malikanə torpaqları, 1 desyatinini bağ sahələri, 40 desyatinini suvarılan, 339 desyatinini suvarılmayan əkin yerləri təşkil etmişdir. Kənddə 558 iribuynuzlu, 2578 xırdabuynuzlu mal-qara qeydə alınmışdır.

Kəndin İrəvan qəzasının **Çirbanyurd, Zeynibulaqyurd, Çirbağar yurd** yaylaqlarında eyniadlı yurdları olmuşdur. Bu yurdlar 181 desyatin ərazini əhatə etmişdir.

1897-ci ildə kənddə 476 nəfər, 1905-ci ildə 355 nəfər, 1914-cü ildə 375 nəfər azərbaycanlı yaşamışdır.

1918-1920-ci illər erməni-müsəlman davası zamanı kənd erməni-daşnakları tərəfindən vəhşicəsinə dağıdılmış, əhalisi qətl və qarətlərə məruz qalmış, sağ qalanlar isə doğma yurd-yuvalarından qovulmuşlar.

1922-ci ildə kəndin qaçqın əhalisindən cəmi 138 nəfəri geri qa-

yıda bilmiş, təzədən özlərinə ev-eşik tikməyə başlamışlar. 1926-cı ildə onların sayı 171 nəfərə, 1931-ci ildə 261 nəfərə çatmışdır.

1935-ci ildə kəndin **Yuxarı Çanaxçı** adı dəyişdirilərək **Hortun** qoyulmuşdur.

1937-1948-ci illərdə Qarabağlar rayonunun tərkibində mövcud olan Hortun kəndi nisbətən inkişaf etmişdir. Kənddə yeddiillik məktəb, dəyirman, klub, kitabxana fəaliyyət göstərirdi.

1950-ci ildə kəndin əhalisi (bu vaxt kənddə 75 ev, 650 nəfər əhali olmuşdur) bütünlüklə Azərbaycana köçürülsə də, 1959-cu ildə kənddə 10 nəfərin qeydə alınması göstərir ki, heç də hamı kəndi tərk etməmiş, bəziləri qayıdıb, kənddə yaşamaqda davam etmişlər. 1960-cı illərdə isə kənd bütünlüklə xaraba qalmışdır.

* * *

**Alışar çayı** ilə **Zəyli çayı** qovuşub Hortun kəndinin içindən keçirdi. Ümumiyyətlə, Hortun kəndi ərazisindən dörd çay axırdı: **Alışar, Zəyli, Pərəkar** və **Qaraçınqıl.** Çayların ikisi kəndin tən ortasından, ikisi isə kənarından keçir, tütünün düzüldüyü və qurudulduğu **Çeranos** deyilən yerdə birləşərək Aşağı Çanaxçı çayına üz tutur, daha sonra Araza qovuşurdu.

Hortun kəndi ilə Qaraxaç kəndi arasında **Əlikuçan dağı** yerləşirdi. Çanaxçı dağı tərəfdəki dağ isə **Çaldağ** adlanırdı. Ümumiyyətlə, Hortun kəndi 4 dağın əhatəsində yerləşirdi: **Çal, Səmrov, Əlikuçan** və **Ağdağ** (bu Ağdağla mahalın şimal tərəfindəki, Qır dağı yanındakı Ağdağ ayrı-ayrı dağlardır).

Kənddə çoxlu bumbuz bulaqlar, yaşıl yamaclar vardı. Bu gözəl təbiətinə görə yayda bura yaylağa gələn şərurlular onu **Çiçəkli** də adlandırardılar.

Orta yüzillərdə Hortun kəndi türk boyları tərəfindən yenidən məskunlaşdırılanda bura hamıdan əvvəl Oğuz türklərindən olan Xan təhləsi boyunun **Kəsikbaşlılar** qolu gəlmişdir. Bayandur xanın nəslindən olan Kəsikbaşlılar kişiləri saç-birçək saxlamadığı üçün bu adı almışdılar. Əsasən heyvandarlıqla məşğul olan Kəsikbaşlıların Hortuna Kəvər mahalından gəldikləri, orada Kəsikbaş adlı kəndlərinin olduğu ehtimal edilir. Bu soydan olanların yeddinci babası **Əsgər ağa** və **Hüseyn bəy** olmuşlar.

Kəsikbaşlılardan sonra Hortuna **Tatlar** boyu gəlmişlər. Onların Cənubi Azərbaycandan Naxçıvanın Qıvraq kəndinə, oradan da Hortuna gəldikləri söylənilir. Bu boydan olanların yeddinci babası **Hacı Qasım** və qardaşı **Kəlba Abdulla** olmuşlar.



Kəndin üçüncü böyük tayfası **Seyidlər** idi. Bu boy **Seyid Əli Seyid Qaraxan oğlundan** başlayırdı. Sonra onun oğlu **Seyid Qədim ağa** əvvəl Naxçıvanın Şərur mahalının Xələc kəndində yaşamış, sonra Hortuna köçmüşdür.

Bundan əlavə, Şərurun Alışar, Göyçənin Subatan kəndlərindəki seyidlər də Hortun seyidləri ilə qohumdurlar, Seyid Əlinin törəmələridirlər.

Kəndin dördüncü tayfası **Yuxarıməhləlilər** sayılırdı. Onların Zəngibasar mahalının Ağhəmzəli kəndindən gəlib, əvvəl qonşu Qaşqa kəndində, sonra Hortunda məskunlaşdıqları yazılır.

**Gəncəlilər** tayfası **Məşədi Musadan** və onun oğlu **Kəlba Məhərrəmdən** başlayırdı.

**Xuleylilər** soyu Şərurdan gəlmə idilər. Həmin soydan kəndə ilk gələnlər **Ağaverdi, Temir** və **Qurban** olmuşdu.

Bundan başqa, kənddə **Həsənuşağı, Rza uşağı** soyları da vardı.

Kənd iqtisadiyyatının əsasını əkinçilik, heyvandarlıq və arıçılıq təşkil edib. Təsərrüfatda buğda, arpa, darı və tütün əkini əsas yer tutub. Kəndlilərin həvəslə əkdikləri noxud, mərcimək, zəyərək, pərinc bitkilərindən bəzirxanalarda yağ istehsal olunarlı. Kənddə alma, alça, ərik, armud və qoz ağacları çoxluq təşkil edirdi. Əkin sahələri Suqarışan, Sünnətolan, Böyükdüz, Arpalar, İbiölən, Qocaxan, Ortasalbi, Kolluq, Böyükdem, Başbiçənək və Qaşqaya adlanan ərazilərdə yerləşirdi.

Kəndin məktəbi, məscidi, **Ağkilsə** və **Qarakilsə** kimi tarixi abidələri vardı. Məktəbin müəllimləri **Cəlil** və **Cabbar Kərbalayi Əsgər oğlu Məmmədov** qardaşları kəndin ən savadlı adamları sayılırdılar. Cəlil Gəncə şəhər ikiillik Pedoqoji İnstitutunu bitirmişdi.

Kənddə qədim türk qəbiristanlığı, yağ istehsal sexləri – bəzirxanalar və beş dəyirman olmuşdur. Köçürülmə ərəfəsində bu dəyirmanlardan yalnız biri işləyirdi. bundan əlavə, kəndin ərazisində onun qədim insan məskənlərindən olduğunu təsdiq edən mağaralar da vardı.

1905-1906-cı illərdəki erməni müsəlman müharibəsində er-

mənilər bir neçə dəfə Hortun kəndinə hücum edərək əhalini qırmaq istəyiblər. Kəndin qorunmasında iştirak edənlərdən 5 nəfər şəhid olub: Yuxarı məhlədən **Kərbəlayi Mehdi**, Seyidlərdən **Kərbəlayi Mirhəbib**, Kəsikbaşlılardan **İsmayıl** və **Səfər** qardaşları, Rzaoğlulardan **Ələkbər Abbas oğlu**.

1950-ci ildə kənd camaatı əsasən Azərbaycanın Salyan rayonuna köçürülüblər. O vaxt cəmi 11 yaşı olmuş hortunlu İnqilab İsmayılov həmin köçürülməni belə xatırlayır: "1950-ci il mayın 2-də bizi yük maşınları ilə Hortun kəndindən Dəvəli stansiyasına gətirdilər. Qatar olmadığından 8 gün stansiyada qaldıq. Sonra yük vaqonları ilə 3 gün yol gedib Salyana çatdıq. Yollarda və stansiyalarda xeyli itki verdik. Salyanın Arbatan, Dayıkənd və Seyidlər kəndlərində yerləşdirildik və təbii ki, çətin şəraitdə yaşamağa məcbur olduq."

Buranın iqliminə öyrəşə bəlməyən hortunluların əksəriyyəti tezliklə Azərbaycan boyu dağılışmış, onların əsas hissəsi Tərtər, Bərdə və Göyçay rayonlarında məskunlaşmışlar.

İki ailə – **Qədimov Mirabbas Kərbəlayi Mirhəbib olunun** və **Hüseynov Aboşun** ailələri 1951-ci ildə Hortun kəndinə qayıdıb, 1976-cı ilə qədər burada yaşamışlar.

Naxçıvanın Şərur rayonu ilə sərhəddə yerləşdiyinə görə köçürülmə zamanı əhalinin bir qismi də Şərura – qohumlarının yanına köçüb getmişlər.

Bundan sonra da ürəyi soyumayan ermənilər 1983-cü ildə artıq erməniləşmiş Çanaxçı, Cəfərli kəndlərinin torpaqlarını suvarmaq məqsədilə Alışar çayının üstündə su bəndini elə tikiblər ki, Hortun kəndinin ərazisi bütünlüklə su altında qalıb.

Keçmişdə Hortunda aşağıdakı tayfalar üzrə sayılan, nüfuzlu ağsaqqallar olublar: Yuxarı məhlədən **Kərbəlayi Oruc, Kərbəlayi Mehdi, Məşədi Mənsim**; Seyidlərdən **Kərbəlayi Mirhüseyn, Kərbəlayi Mirismayıl, Kərbəlayi Mirhəbib, Mirəkbər**; Tatlardan **Kərbəlayi Əziz, Kərbəlayi Əsgər, Kərbəlayi Həsənalı**; Kəsikbaşlılardan **Kərbəlayi Ağa, Kərbəlayi Abdulla, Kərbəlayi Əsgər**; Gəncəlilərdən **Kərbəlayi Məhərrəm.**

Sovet dövründə kəndin **Əhməd Əhmədov, Əli Qurbanov, Səməd Əliyev, Eyvaz Rəhimov, Ağa Ağayev** və **İbad Həsənov** kimi nüfuzlu adamları olublar ki, onlar da rayonun Kotuz,



Bağçacıq, Şidli və başqa kəndlərində kolxoz sədri vəzifələrində işləyiblər. O dövrdə **Əhməd Əhmədov** Vedi rayon partiya komitəsinin katibi vəzifəsinə qədər yüksəlmişdi. Bunu gözləri götürməyən ermənilər köçürülmə ərəfəsində onu işdən kənarlaşdırdılar və ləkələmək üçün az qala cinayət məsuliyyətinə cəlb edəcəkdilər.

Hortun kəndinin ilk ali təhsillisi olan **Hüseyn Cəfərov** Bakı şəhərində ali partiya məktəbini bitirmiş, əvvəl Azərbaycan KP MK-da, sonra isə hüquq-mühafizə orqanlarında rəhbər vəzifələrdə işləmişdir. Daha sonra **İsmayıl Əli oğlu Qurbanov, İdris Eyvaz oğlu Rəhimov** və **Hilal Müseyib oğlu Orucov** da ali təhsil alıb, hüquq-mühafizə orqanlarmda çalışdılar. Lakin onların hamısı dünyadan vaxtsız köçdülər.

**Mirəkbər ağa** dövrünün mötəbər seyidlərindən, Hortunun Seyidlər nəslindən idi. O, 1880-ci ildə Hortunda anadan olmuş, 1965-ci ildə Bərdədə rəhmətə getmişdi. İmirli kənd qəbiristanlığındakı məzarı indi də camaatın ziyarət yeridir.

Oğlu **Seyid Əyyub ağa Həsənov** Mirəkbər ağanın ocağına layiq övlad, böyük inam və inanc sahibi, həm də gözəl ziyalıdır. "Nəsihət və vəsiyyət " kitabında anadan olduğu Hortun kəndi haqqında dəyərli bilgilər vermişdir.

Kəndin yetirdiyi ziyalılardan biri də **Əjdər Məmiş oğlu Əsgərovdur.** O, 1937-ci ildə Hortun kəndində anadan olmuş, 1966-cı ildə Azərbaycan Tibb İnstitutunu bitirmişdir. 1966-1970-ci illərdə Tərtər rayonunun Cəmilli kənd xəstəxanasında baş həkim işləyən Ə.Əsgərov 1970-1972-ci illərdə Ə.Əliyev adına Həkimləri Təkmilləşdirmə İnstitutunun cərrahiyə üzrə ikiillik klinik ordinaturasını bitirmiş, Bakı şəhər Qaradağ rayonunun 19 saylı birləşmiş şəhər xəstəxanasına işləməyə göndərilmişdir. O vaxtdan həmin xəstəxanada cərrah vəzifəsində çalışır.

Hortun kəndinin yetirməsi olan **Oruc Fərman oğlu Abdullayev** Hortun kəndində anadan olmuş, əmək fəaliyyətinə sıravi milis nəfəri kimi başlamış, Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini bitirmişdir. Ayrı-ayrı illərdə Dəvəçi rayon prokurorluğunda baş müstəntiq, Yevlax rayonunda prokuror müavini, Ağstafa rayon prokuroru vəzifələrində çalışan O.Abdullayev hazırda Yevlax rayonunun prokurorudur.

**Vaqif Fərman oğlu Abdullayev** isə Suraxanı rayon polis idarəsində rəis müavinidir.

**Məhərrəm Müsuyib oğlu Orucov** Xanlar rayonunda Çaykənd polis bölməsinin rəisidir.

## KƏNDİN TOPONİMLƏRİ

Alışar çayı, Zəyli çayı, Pərəkar çayı, Qaraçınqıl çayı, Əlikuçan dağı, Çirbanyurd, Zeynibulaqyurd, Çirbağaryurd, Baş bulaq, Məhərrəm bulağı, Ağkilsə bulağı, Quba dərəsi, Suluyurd dağı, Çınqıllı bulaq, Yuxarı məhlə, Tatlar məhləsi, Seyidlər məhləsi, Kəsikbaşlılar məhləsi, Suqarışan, Sünnətolan, Böyükdüz, Arpalar, İbiölən, Qocaxan, Ortasalbi, Kolluq, Böyükdem, Başbiçənək və Qaşqaya,

## KƏNDİN TAYFA VƏ NƏSİL ADLARI

Kəsikbaşlılar, Tatlar, Seyidlər, Yuxarı məhləlilər, Gəncəlilər, Xuleylilər, Həsən uşağı, Rzaoğlular.

## 1941-1945-Cİ İLLƏR MÜHARİBƏSİNDƏ HƏLAK OLANLAR

**Yuxarı məhlədən**

1. Mənsimov Əziz Niftalı oğlu
2. Hüseyn Ələkbər Kərbəlayi Mehdi oğlu

**Seyidlərdən**

3. Qədimov Mirmahmud Mirhəsən oğlu
4. Qədimov Mirmöjdüm Mirhəşim oğlu
5. Qədimov Mirmehdi Kərbəlayi Mirhüseyn oğlu

**Tatlardan**

6. Məmmədov Məmmədəli Ağabala oğlu
7. Məmmədov Əhməd Ağabala oğlu
8. Məmmədov Məşədəli Hüseyn oğlu
9. Məmmədov Xəlil Hüseyn oğlu
10. Məmmədov Cəlil Kərbəlayi Əsgər oğlu
11. Məmmədov Cabbar Kərbəlayi Əsgər oğlu



12. Abdullayev Məşədəli Məşədi İsa oğlu
13. Abdullayev Qurban Məşədi İsa oğlu
14. Nəsrullayev Nəsir Cəlil oğlu
15. Məmmədov Həsən Həmzə oğlu
16. Hüseynov Məhəmməd Abutalıb oğlu

**Kəsikbaşlılardan**

17. Hacıyev Novruz Kərbəlayi Cabbar oğlu
18. Səfərov Məmmədəli Səfər oğlu
19. Əsgərov İbrahim Məmiş oğlu

**Rzaoğlulardan**

20. Cəfərov İsmayıl Cəfər oğlu
21. Rzayev Novruz Məmmədalı oğlu

**Həsən uşağından**

22. Həsənov Əleşrəf Bayram oğlu

---

## HƏSƏN ƏLİ OĞLU AĞAYEV



1935-ci il mayın 4-də Hortun kəndində anadan olmuşdur.

Atasını erkən itirdiyindən qardaşları Ağa və Yəhyanın himayəsində böyümüşdür.

Orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin kimya fakültəsinə daxil olmuş, 1964-cü ildə oranı müvəffəqiyyətlə başa vuraraq EA-nın Neft-Kimya Prosesləri İnstitutunun aspiranturasında təhsilini davam etdirmişdir.

1968-ci ildə dissertasiya müdafiə edib, kimya elmləri namizədi alimlik dərəcəsi alan Həsən Ağayev 1973-cü ildə təbii qazın nəqlə hazırlanması və emalı üzrə Ümumittifaq Elmi-Tədqiqat və Layihə İnstitutunda (Azər. QAZPİ) yeni yaradılmış "Təbii qazın kükürd birləşmələrindən təmizlənməsi üçün proseslərin işlənib hazırlanması" laboratoriyasına müdir təyin olunur və 25 illik fəaliyyəti ərzində bu sahədə bütöv bir elmi məktəb yaratmağa

müvəffəq olur.

Həsən Ağayev 1985-ci ildə dissertasiya müdafiə edib texnika elmləri doktoru elmi dərəcəsi alır. 1989-cu ildə professor, 1990-cı ildə Əməkdar elm xadimi adlarına layiq görülür.

O, bir çox elmi məqalələrin, ixtira və kəşflərin müəllifi, respublika və keçmiş İttifaq miqyasında bir sıra elmi şuraların, müdafiə komissiyalarının üzvüdür. Həyat yoldaşı Nailə xanım kimya elmləri namizədi idi. Bu gün o, dünyada yoxdur.

Üç oğlu var. Rövşən Başqırdıstan Dölət Universitetinin hüquq fakültəsini bitirib. Respublikanını prokurorluq orqanlarında çalışır. Cavid kimyaçı, Fuad isə polis kapitanıdır, yol polisi sistemində çalışır.

## İNQİLAB ƏLİ OĞLU İSMAYILOV



Hortun kəndində anadan olmuşdur. Hortun məktəbinin 3-cü sinfində oxuyarkən – 1950-ci ildə ailələri Azərbaycana deportasiya olunduğundan orta təhsilini Salyan rayonunun Dayıkənd kəndində, sonra ailələri Bərdə rayonunun İmirli kəndinə köçdüyündən təhsilini qonşu Xanərəb və Ağdam rayonunun Xındırıstan məktəblərində davam etdirmişdir.

1962-ci ildə Azərbaycan Dövlət Universitetinin iqtisad fakültəsinə daxil olmuş, 1967-ci ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu bitirmişdir.

1972-1974-cü illərdə Marksizm-leninizm universitetində, 1974-1978-ci illərdə Azərb. SSR Dövlət Plan Komitəsi Elmi-Tədqiqat İqtisadiyyat İnstitutunun aspiranturasında təhsil almışdır. 30-dan çox elmi-publisist məqalənin müəllifidir. Qərbi Azərbaycan azərbaycanlılarının deportasiyası haqqında silsilə məqalələr çap etdirmişdir. Bu mövzuda "Tarixin acı dərsləri" adlı kitabı nəşr olunmuşdur.

Hazırda Mədəniyyət Nazirliyində aparıcı mütəxəssis işləyir.



## İSMAYIL ƏLİ OĞLU QURBANOV



1936-cı il mayın 22-də Hortun kəndində anadan olmuşdu.

1950-ci ildə ailələri Azərbaycana deportasiya olunduğundan orta məktəbi 1955-ci ildə Ağdam rayonunun Xındırıstan kənd orta məktəbində bitirmişdir.

Əmək fəaliyyətinə 1959-cu ildə sıravi milis nəfəri kimi başlayan İ.Qurbanov 1962-ci ildə Bakı Xüsusi Orta Milis Məktəbinə daxil olmuş, 1964-cü ildə təhsilini hüquqşunas ixtisası üzrə fərqlənmə diplomu ilə bitirdiyindən məktəbdə müəllim saxlanmışdı.

1965-1971-ci illərdə ADU-nun hüquq fakültəsində qiyabi təhsil almaqla yanaşı, 1966-1970-ci illərdə indiki Səbail rayon milis şöbəsinin SƏDM bölməsinin rəisi, 1971-1979-cu illərdə Azərbaycan DİN-də SƏDM idarəsinin mühüm və vacib işlər üzrə baş əməliyyat müvəkkili və şöbə rəisi, 1980-1988-ci illərdə Nərimanov rayon milis şöbəsində SƏDM bölməsinin rəisi işləmişdi. İşlədiyi dövrdə ağır infakt xəstəliyi keçirmiş, 1988-ci il mayın 16-da dünyasını dəyişmişdir.

# XAÇLI (HACILI)

Vedibasar mahalının Millidərə bölgəsində kənd. Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar. "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) kənd iki dəfə qeydə alınmışdır – Vedi nahiyəsinin **Xaçlı kəndi** kimi və Gərni nahiyəsinin **Xaçlı kəndi** kimi. Birincidə dövlətin vergi şəklində kənddən götürdüyü illik gəlirin 2.000 ağça, ikincidə isə 3.000 ağça olduğu göstərilmişdir.

Gərni nahiyəsinin Yenicə kəndi yaxınlığında yerləşən bu kəndin ikinci adının **Hacılı** olması barədə həmin mənbədəki qeyd kəndin daha öncəki tarixi haqda əlavə məlumat almağa imkan verir.

Belə ki, bizcə, bu, "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) Gərni nahiyəsi tərkibindəki **Musahacılı** kəndidir. Görünür ki, **Hacılı** tayfasının məskunlaşdığı bu kəndin adı əvvəllər Musahacılı adlansa da, sonralar dəyişikliyə uğrayaraq Xaçlı kəndi şəklinə düşsə də, yaddaşlarda kəndin əsl – Musahacılı adı yaşamış və 1728-ci ilə aid dəftərdə **Hacılı** kəndin ikinci adı kimi qeydə alınmışdır. Kəndin adının mənşəyi ilə bağlı bir versiya da ondan ibarətdir ki, kəndin adı Xacəli yəni Xəcəyə və ya Xacə Əliyə mənsub anlamındadır (B.Budaqov, Q.Qeybullayev). Lakin bu sonuncu versiya elmi həqiqətdən xeyli uzaqdır. Bunu Qərbi Azərbaycan ərazisində Hacı və Xaç komponentli çoxlu toponimin mövcudluğu da təsdiq edir. Hətta İrəvan əyalətinin Karbi və Şirakel nahiyələrində Hacılı, Karbi nahiyəsində Xaçlı kəndləri də vardı. İ.Şopendə (1832) Gərnibasar mahalının dağıdılmış kəndləri sırasına Arazın sağ sahilində yerləşən bir **Qarahacılı** kəndi də daxildir ki, bunun da həmin Hacılı tayfasının məskunlaşması hesabına yarandığını ehtimal etmək olar. Eyni tipli toponimlərə Azərbaycan Respublikası ərazisində də kifayət qədər sıx-sıx rast gəlmək mümkündür.

Sonrakı mənbələrdə kəndin adına rast gəlinməməsi onun XVIII yüzilin sonlarından etibarən xaraba qaldığını söyləməyə əsas verir.



# XALİSA (XALİSƏ)

Vedibasar mahalının aran hissəsində, Ağrıdağ vadisində, Vedi rayonunun mərkəzi olan Böyük Vedi qəsəbəsindən 10 km cənub-qərbdə, Vedi çaymdan ayrılan su arxının üstündə kənd.

1920-ci ilə qədər kənddə ancaq Azərbaycan türkləri yaşamış, 1922-1988-ci illərdə azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuş, 1988-ci ildə isə azərbaycanlı əhali kənddən qovularaq kənd tamamilə erməniləşdirilmişdi.

Kəndin adına **Xalisa** şəklində ilk dəfə İ.Şopendə (1832) rast gəlirik. Həmin mənbədə Xalisa kəndində 23 ailədə 149 nəfər (51 kişi, 68 qadın) müsəlman əhalinin yaşadığı qeyd olunmuşdur. Sonrakı bütün mənbələrdə də kəndin adı **Xalisa** şəklindədir.

Kəndin adı ərəbcə **Xalisə** sözündəndir və **dövlət torpağı, dövlət xəzinəsinə məxsus torpaq, mülk** anlamındadır.

1873-cü ilin statistik məlumatlarında kənddə 138 təsərrüfatda 864 nəfər (476 kişi, 388 qadın) Azərbaycan türkü yaşamış, 1 məscid binası qeydə alınmışdır.

1886-cı ildə kənd əhalisinin sayı 176 təsərrüfatda 960 nəfərə (535 kişi, 425 qadın) çatmışdır. İqtisadiyyatının əsasında əkinçilik və heyvandarlıq dayanan kəndin 1278,61 desyatin torpaq sahəsinin 20 desyatinini malikanə torpaqları, 8 desyatinini bağ sahələri, 600 desyatinini suvarılan əkin yerləri təşkil etmişdir. Kənddə 853 iribuynuzlu, 1442 xırdabuynuzlu mal-qara bəslənmişdir. Bundan əlavə, kənddə həmçinin 62 at, 9 dəvənin olması onun varlı kənd olduğunu təsdiqləyir.

Xalisa kəndinin Əyricə yaylağında **Güneyyurd, Düzyurd** adlı yurd yerləri olmuşdur. Kənddən 45 verst aralıda yerləşən bu yurdlardan Xalisa camaatı qədimdən istifadə etmişlər.

Bundan əlavə, kəndin 15 verst aralıda **Bəyrestar-ağıl** adlanan yerdə 300 desyatin ərazidə qışlaq yeri olub.

1897-ci ildə kənddə 1165 nəfər, 1916-cı ildə 1159 nəfər əhali yaşamışdır.

1918-1920-ci illər erməni-müsəlman davası zamanı kənd erməni daşnakları tərəfindən yerlə-yeksan edilmiş, əhalisi qətl və qarətlərə məruz qalmış, doğma yurd-yuvasından qovulmuşdur.

1922-ci ildə kəndin sağ qalmış qaçqın əhalisindən cəmi 311

nəfər geri qayıda bilmiş, lakin bu vaxt kənddə artıq xeyli sayda (Z.Korkodyanın statikasına görə, 290 nəfər erməni yerləşdiyinin şahidi olmuşlar.

1926-cı ildə kənd əhalisinin nisbəti 331 nəfər azərbaycanlı və 240 nəfər erməni, 1931-ci ildə 588 nəfər azərbaycanlı, 276 nəfər gəlmə erməni şəklində olmuşdur (yenə Z.Korkodyana görə).

1948-1953-cü illərin məcburi köçürülməsi Vedibasarın bir çox kəndlərindən fərqli olaraq Xalisa kəndinə daha az təsir etmişdir. Belə ki, 1953-cü ildə kənddən cəmi 13 ailə Azərbaycana köçürülmüş, avşarlılarla bir yerdə onlar da Beyləqanın Daşburun stansiyasında və Ağcabədi rayonunun Onüçlər və S.Vurğun sovxozlarında yerləşdirilmişlər. Az sonra isə onların əksəriyyəti yenidən doğma kəndlərinə qayıtmışlar.

Bu köçürülmə nəticəsində Vedibasarın dağlıq kəndlərindən və artıq erməniləşdirilmiş qonşu Dəvəli kəndindən bir çox ailələr də köçüb Xalisa kəndində yaşamışlar.

1972-ci ildə kənd əhalisinin ümumi sayı 370 təsərrüfatda 2135 nəfər olmuşdur.

1991-ci il aprelin 9-da Xalisa kəndinin adı dəyişdirilərək **Norakert** qoyulmuşdur.

* * *

Xalisa kəndi şimaldan Şidli, şərqdən Avşar, cənubdan Dəvəli, qərbdən isə Türkiyə ilə həmsərhəd idi. İrəvan-Naxçıvan-Bakı dəmiryol xəttinin, İrəvan-Naxçıvan avtomobil yolunun 3 kilometrliyində yerləşirdi. Bir tərəfdən **Vedi çayı,** digər tərəfdən **Selov çayı** və **Qaxanov arxı** ilə əhatə olunan kəndin əhalisi günəşi hər gün səhərlər **Asnı dağında** qarşılayıb, **Ağrı dağında** yola salmışlar.

Kəndin çox münbit torpaqları olmuş, bu torpaqlar Vedi çayından ayrılan su arxı və Kaxanov kanalının suları ilə suvarılmışdır.

Kaxanov kanalından əlavə, kəndin torpaqlarının suvarılması üçün Araz çayından su arxlarının çəkilməsinə iki dəfə cəhd edilmişdir. Əvvəlcə **Əmir bəy**, sonra isə **Məşədi Feyzulla** belə bir xeyirxah işə başlasalar da, axıra çatdıra bilməmişlər. Əmir bəyin qazdırdığı arxın yeri Xalisa ilə Dəvəli kəndləri arasında (Araz çayının yaxınlığında), Məşədi Feyzullanın arxının izi isə Xalisa



ilə Şidli kəndləri arasında son vaxtlara qədər qalmaqda idi.

Kəndin kənarındakı qədim qəbiristanlıqda üzərində ərəb əlifbası ilə, vəfat etmə tarixləri hicri tarixi ilə 480-ci, 486-cı, 494-cü illərə təsadüf edən xeyli qəbir daşları vardı. Bunlar kəndin ərazisinin daha qədimlərdən məskunlaşdığını söyləməyə əsas verir.

Kənd adamlarının dediyinə görə, kəndin hazırkı tayfalarından ən qədimi Muradxanlı tayfası olmuş, bu tayfa Türkiyədən köçüb gələn Murad xan adlı şəxsdən başlamış, o, burada kəndin əsasını qoymuşdur.

1873-cü ilin statistikasında Xalisa kəndində qeydə alınmış məscid binası o vaxtlar Xalisada dövrün tanınmış, adlı-sanlı şəxsiyyətlərindən olan **Allahverdi Məhəmməd oğlu** tərəfindən tikdirilmişdi. O, eyni zamanda Vedibasarın on iki kəndinin ağsaqqalı və kattası olmuşdu.

Xalisa kəndindən **İsgəndər kişi, Qocalı kişi, Həsən Əli oğlu, Məhərrəm oğlu İsmayıl** və **Paşa oğlu Məcid** Abbasqulu bəy Şadlinskinin erməni daşnaklarına qarşı apardığı döyüşlərdə iştirak etmişlər. Kənd ağsaqqallarının dediyinə görə Abbasqulu bəy Xalisaya gələndə kəndin hörmətli şəxslərindən olan **Əkbər Qurban oğlunun**, ya da **Qurban Baxşəli oğlunun** qonağı olarmış. Bu dövrün qəhrəmanları sırasında xalisalılardan **Nəsib, Eyvaz, Usub Alqulu oğlu** qardaşları və **Suleyman Oruc oğlunun** adlarmı da çəkmək olar.

Xalisa kəndində ermənilər yalnız ötən əsrin 20-ci illərində peyda olublar. Stalin-Mikoyan fitnə-felindən sonra Türkiyənin Van gölü ətrafından, Suriyadan bir neçə erməni ailəsi kəndə zorla yerləşdirilib. Onlara Azərbaycan türklərinin tövlələrində, yan damlarında sığınacaq verilmişdir.

1953-cü ildə yeni plan əsasında təzədən salınan Xalisa kəndi son dərəcə abad kənd olmuşdur. Asfalt küçələri, yaraşıqlı binaları olan Xalisa kəndində hələ 60-cı illərdə iki mərtəbəli, 500 nəfərlik mədəniyyət evi, üç mərtəbəli, 100 şagirdin təhsil aldığı orta məktəbi, hamamı, poçtu, müasir tipli tövlələri olmuşdur. Bütün evlərə telefon çəkilmişdi.

Xalisa kəndindən çıxan ziyalılar uzun illər Xalisa kəndində, Vedi rayonunun başqa kəndlərində və Azərbaycan Respublikasında müxtəlif rəhbər vəzifələrdə çalışmışlar.

Məsələn, **Mirələsgər İbrahimov** uzun illər Xalisa kənd məktəbinin direktoru, **Abdulla Qasımov** əvvəl Xalisada, Şirazlıda, Azərbaycana deportasiya olunduqdan sonra Xanlar rayonunda məktəb direktoru vəzifələrində çalışmışlar. **Həbib Qasımov** isə Gəncədə texnikum direktoru işləmişdir.

**Əli Heydərov** əvvəl hüquq-mühafizə orqanlarında, sonra Xalisa və Şirazlı kəndlərində kolxoz sədri, qardaşı **Xudamədət Heydərov** sə Avşar kəndində kolxoz sədri işləmişlər.

**Məmməd Novruzov** rayonun Şıxlar kəndində və Azərbaycan Respublikasında məktəb direktoru olmuşdur. **Həbib Qasımov** isə uzun müddət Gəncədə texnikum direktoru işləmişdir.



**YAQUB MİRHƏMİD OĞLU QASIMOV** Kəndin respublika səviyyəsində tanınan hörmətli şəxsiyyətlərindən idi. 1927-ci ildə anadan olmuş, ilk təhsilini Xalisa kəndində almış, 1944-cü ildə İrəvan pedaqoji texnikumunu bitirmiş, 1953-cü ilədək Şidli və Xalisa kəndlərində məktəb direktoru işləmişdir. Sonra ali təhsil almış, uzun müddət rayonun Yengicə və Xalisa kəndlərində kolxoz sədri vəzifəsində çalışmışdır.

1972-1978-ci illərdə rayon tədarük idarəsinin rəisi, 1978-1980-ci illərdə isə RİK-in sədr müavini işləmiş, 1980-ci ilin iyulunda qəflətən dünyasını dəyişmişdir. Övladlarından **Tofiq Qasımov** "Tİ-Mediya" şirkətinin rəhbəri, **Nəcəf Qasımov** iqtisadçı, **Elmira xanım** müəllimədir. **Qasım Qasımov** isə istehsalatda çalışır.

Xalisa kəndindən **Maqsud Maqsudov** rayonun Xalisa və Qaralar kəndlərində kolxoz sədri, **İbrahim Məmmədov, Yusif Maqsudov** Xalisa kəndinin kolxoz sədri, **Eldar Məmmədov** RPK-da məsul vəzifədə və Şidli kənd kolxozunun sədri işləmişlər.

1981-1988-ci illərdə Xalisa kənd kolxozuna Qaralar kəndindən **Məhərrəm Hümbətov** sədrlik etmişdir.

Azərbaycan Respublikasının Rusiyadakı səfirliyinin əməkdaşı **Mehman Məmmədov,** Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin əməkdaşı **Ramiz Əliyev,** polkovnik **Niyazi Məmmədov** bu gün xalisalıların fəxridirlər.



**Meydan Əsgərov** sənətdə öz sözünü deməkdə olan Vedibasar gənclərindəndir. O, Xalisada anadan olmuş, burada orta məktəbi bitirmiş, 1988-ci il hadisələri zamanı Bakıda məskunlaşmışdır. "Dərələyəz", "Ellilər", "Vedi" kimi yurd göynərtili mahnıları qərbi azərbaycanlılar arasında dillər əzbəridir.

Ürəkləri riqqətə gətirən şerlər yazan **Şiralı Ağayev,** Xanlarda yaşayıb yaradan **Sabir Ələkbərov,** Naxçıvanda ömür sürən, üç kitab müəllifi **Zaur Cəlilov (Vedili)** Xalisə kəndinin yetirmələridirlər.

1988-ci ildə Vedibasar mahalında erməni vəhşiliyi ilə üz-üzə dayanan kəndlərdən biri də Xalisa kəndi olmuşdur. Burada əhalinin çox böyük əksəriyyəti – 500 evə qədər azərbaycanlılar, cəmi 40 ev erməni olduğundan heç kəs kəndi tərk etmək istəmirdi. Lakin erməni təzyiqinə davam gətirməyən bəzi ailələr avtomatlı, tapançalı ermənilərə əliyalın müqavimət göstərməyin mümkünsüzlüyünü görüb, tədricən Azərbaycana pənah aparmaqda idilər. 1988-ci il payızın sonlarında artıq kənddə cəmi 170 ev azərbaycanlı qalmışdı. Nəhayət, 1988-ci il noyabrın 30-da ermənilər öz iç üzlərini tamam göstərdilər. Həmin gün səhər tezdən kənd erməni maşınları ilə mühasirəyə alındı. Bir qədər sonra rayon rəhbərləri – katib Akopyan, RİK sədri Vartanyan, prokuror Adamyan, müavini Barseqyan, milis rəisi Papoyan və b.-ları xüsusi maşınlarda kəndə daxil olub, əhalini gözlənilən hücum barədə "xəbərdar etdilər", yüngül şeylərini (yəni qızıl və pullarını) götürüb, kənddən çıxmağı məsləhət gördülər. Onları qonşu Şərur rayonuna çatdırmağa söz verdilər.

10 gündən çox mühasirədə saxlanılan kənd camaatının başqa yolu yox idi. Lakin bir qədər sonra Avşar və Dəvəli kəndləri tərəfdən erməni quldurlarının maşın karvanı göründü. 300-dən çox "saqqallı" maşınlarla kəndə doldular. Qarət və soyğunçuluq başlandı. Əvvəl adamları qorxudub, söyüb, döyüb, bütün pul və qızıl əşyalarını əllərindən aldılar. Sonra qiymətli ev əşyalarının talanına keçdilər. Nəhayət, kəndin 600-700 nəfərlik azərbaycanlı əhalisini qabaqlarına salıb, tam erməniləşmiş Şirazlı kəndinə tərəf aparmağa başladılar. Lakin Şərur rayonundan tanklarla gələn hərbçilər yolda onların qarşısını kəsib, girovları xilas etdi və onları Naxçıvanın Şərur rayonuna apardılar.

Xalisə kəndindən 1908-ci il təvəllüdlü **İsmayılova Gülgəz**

**Məhəmməd qızı, Hüseynov Hüseyn Bəbir oğlu** və **Səfərov Şirzad Qəfər oğlu** bu hadisələrin qurbanı oldu.

Xalisa kəndinin başına gələn həmin faciə barədə yazıçı İ.Vəlizadənin "Bir kəndin aqibəti" yazısında və professor S.Məmmədovun "O yerlərdə izim qaldı..." kitabında ətraflı bəhs olunmuşdur.

**Xalisa azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı:**

| | |
|---|---|
| Mal-qara üçün bina – | 8 əd. |
| İribuynuzlu mal-qara – | 900 baş. |
| Xırdabuynuzlu mal-qara – | 3000 baş. |
| Donuz – | 350 baş. |
| Toyuq – | 12000 baş. |
| Üzüm bağı – | 180 ha. |
| Meyvə bağı – | 90 ha. |
| K/t maşınları – | 40 əd. |
| Avtomaşınlar – | 32 əd. |
| Qaraj – | 1 əd. |
| Taxıl ambarı – | 2 əd. |
| Yanacaq ambarı – | 1 əd. |
| Dəmirçi sexi – | 1 əd. |
| Dülgərxana – | 1 əd. |
| Artezian quyusu – | 6 əd. |
| Su nasos stansiyası – | 4 əd. |
| Enerji şəbəkəsi – | 6 əd. |
| Dəyirman – | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Məktəb – | 1 əd. |
| Klub – | 1 əd. |
| Poçt – | 1 əd. |
| Pavilyon – | 1 əd. |
| Xəstəxana – | 1 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| Mağaza – | 3 əd. |
| Yeməkxana – | 1 əd. |
| Hamam – | 1 əd. |



## KƏNDİN TAYFA VƏ NƏSİL ADLARI

Məmməduşağı, Məhərrəmuşağı, Babauşağı, Bəşiruşağı, Heydaruşağı, Muradxanlılar (Muradqanlılar), Yasovullular, Ağarzauşağı, Nəsiruşağı, Dağlılar, İsgəndəruşağı, Alıuşağı, Sarıxanlılar, Cəliluşağı, Seyidlər, Dəvəlilər, Fərəcuşağı, Məstanuşağı.

## KƏNDİN TOPONİMLƏRİ

Əzətin bağçası, Babauşağının bağı, Xidmət, Qobu, Ağarzalar sərnəsi, Hətəmuşağı sərnəsi, Məmməduşağı sərnəsi, Muradxanlı sərnəsi, Altıhektar, Əsgərin tutu, Yuvalı məhləsi, Dəvəli məhləsi, Çuxur məhləsi, Şiddi qobusu, Əmirbəyqazan, Arazqırağı, Qarxana (Qaxanov arxı), Mator arxı, Tutluq, Arxın altı, Köhnə məktəb, İydəlik, Qulu oğlunun krantısı, Naxır yolu, Xalisa arxı, Qədəm arxı, Sor qolu, Sikonun sərnəsi, Fərəcin sərnəsi, Taharın armudu, Həlbəsənin bağı, Abbasın bağı, Qumtəpə, Orucoğlunun eyvanı, Əzətin balaxanası, Zeynonun adası, Qabanovun turbası, Şiddi körpüsü, Məmmədağanın bağı, Güneyyurd, Düzyurd, Bəyrestar-ağıl...

## 1930-CU İLLƏRİN REPRESSİYA QURBANLARI

1. Məmmədov Abbas Allahverdi oğlu
2. Feyziyev Hüseyn Mahmud oğlu
3. Məmmədov Xancan İbrahim oğlu
4. Süleymanov İsa Salman oğlu
5. Məmmədov Nəcəf Heydər oğlu
6. Mir Kərim ağa
7. Xəlilov Məhəmmədəli Məhərrəm oğlu
8. Fətəliyev Fətəli Mehdi oğlu
9. Novruzov Mənsim Novruz oğlu
10. Babayeva Sona
11. Qurbanov Allahverdi İsmayıl oğlu
12. Abbasov Bəhlul Musa oğlu
13. Molla Əziz
14. Kərbəlayi Əhməd
15. Əliyev Məmməd Məmmədtağı oğlu
16. Səməd Kərbəlayi Məhəmməd oğlu

17. Güldəstə (Məhəmməd Əliyevin qaynanası)
18. Maral (Məhəmməd Əliyevin nişanlısı)
19. Göyərçin (Məhəmməd Əliyevin baldızı)

## 1941-1945-Cİ İLLƏR MÜHARİBƏSİNDƏ HƏLAK OLANLAR

1. Bayramov Əli Meydan oğlu
2. Bayramov Sultan Meydan oğlu
3. Məmmədov Məmməd Əli oğlu
4. Əliyev İsa Məmmədtağı oğlu
5. Nəsirov Orucəli Vəli oğlu
6. Süleymanov Süleyman Ağəli oğlu
7. Babayev Ramazan Cəfəralı oğlu
8. Quliyev Qənbər Əli oğlu
9. Babayev Bəhmən Nəcəf oğlu
10. Babayev Şirəli Nəcəf oğlu
11. Əliyev İsa Əli oğlu
12. Məhərrəmov Səfər Əhməd oğlu
13. Tağıyev Əli Əsədulla oğlu
14. Abbasov İbrahim Musa oğlu
15. Məmmədov Əhməd Hümmət oğlu
16. Cahangirov Əkbər Abdulla oğlu
17. Kazımov Məhəmməd Əhməd oğlu
18. Cəlilov Səfər Süleyman oğlu
19. Ağayev Fərəməz Hüseynalı oğlu
20. Quliyev Musa Teymur oğlu
21. Quliyev Nəcəf Teymur oğlu
22. Nəsirov Ələsgər Ələkbər oğlu
23. Hüseynov Səfər Məmməd oğlu
24. Hüseynov İbrahim Məmməd oğlu
25. Maqsudov Rza Maqsud oğlu
26. Məmmədov Rəcəb
27. Allahverdiyev Talıb Kazım oğlu
28. Talıbov Əsgər Əli oğlu
29. Zeynalov Süleyman Məmməd oğlu
30. Sadıxov Məmmədəli
31. Sadıxov Mazan



## QARABAĞ MÜHARİBƏSİ ŞƏHİDLƏRİ

1. Eldar Fərman oğlu Mehdiyev (1965, Xalisa – 1992, Ağdərə)
2. Şahin Zeyqəm oğlu Məmmədov (1974, Xalisa – 1996, Ağdam)
3. Fəxrəddin Xəlil oğlu Yusifov (1956, Xalisa – 1993, Ağdərə)
4. Sərtib Lətif oğlu Ələkbərov (1967, Xalisa - 1992, Qırmızıbazar)
5. Mirələkbər Mirələsgər oğlu İbrahimov (1961, Xalisa – 1994, Füzuli)
6. Fətulla Kazım oğlu Nəsirov (Xalisa – Çaykənd)
7. Mürvət Allahverdi oğlu Məmmədov (Xalisa – Ağdərə)
8. Elman Bəhruz oğlu Mürsəlov (Xalisa – Qarabağ)

---

## SÜLEYMAN ABBAS OĞLU MƏMMƏDOV



1932-ci ildə Xalisa kəndində anadan olmuşdur. Atası 1937-ci ildə repressiyaya məruz qalmış, Sibirə sürgün olunmuşdu.

Xalisa kənd yeddiillik məktəbini bitirən Süleyman səkkizinci sinfi qonşu Avşar kəndində bitirir, sonra İrəvan Pedaqoji Məktəbinə daxil olur. 1948-ci il köçürülməsi ilə bağlı bu məktəb də Xanlar şəhərinə köçürülür və Süleyman 1951-ci ildə Xanlarda bu məktəbi fərqlənmə ilə bitirərək həmin il Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinə daxil olur. Lakin imkansızlıqdan təhsilini yarımçıq qoyub evlərinə dönür.

Az sonra hərbi xidmətə çağırılır. Üç ildən sonra qayıdıb, təzədən Azərbaycan Dövlət Universitetinə daxil olur.

1959-cu ildə universiteti bitirib Azərbaycan EA Tarix İnstitutuna təyinat alır. Qədim erməni dilini öyrənir, Ermənistana ezam olunaraq xeyli vaxt orada arxivlərdə işləyir. Qayıdıb aspiranturaya girir və 1966-cı ildə "XVII əsrin ikinci yarısı – XVIII əsrin birinci otuzilliyində Azərbaycanın sosial-iqtisadi, siyasi həyatı və Azərbaycan-erməni münasibətləri" mövzusunda dissertasiya müdafiə edərək tarix elmləri namizədi alimlik dərəcəsi alır.

1971-ci ildən Azərbaycan Dövlət Pedaqoji Universitetində daimi işə keçən Süleyman müəllim 1977-ci ildə "XV-XVIII əsrin birinci

yarısında erməni qaynaqları Azərbaycan haqqında" mövzusunda doktorluq dissertasiyasını müdafiəyə təqdim etsə də, xeyli vaxt bu müdafiəyə süni əngəllər yaradılır. Nəhayət, 1983-cü ildə S.Məmmədov doktorluq dissertasiyasını müdafiə etməyə müvəffəq olur. 1985-ci ildə isə professor adı alır.

1989-cu ildən Pedaqoji Universitetin Azərbaycan tarixi kafedrasının müdiridir.

S.Məmmədov 200-ə qədər elmi məqalənin, bir neçə dəyərli monoqrafiyanın, neçə-neçə dərslik və dərs vəsaitinin müəllifidir.

Bir sıra elmi və müdafiə şuralarının sədri və üzvü olan S.Məmmədov elmi-pedaqoji fəaliyyətinə görə "Hacı Zeynalabdin" mükafatına layiq görülmüşdür.

Süleyman müəllim həm də Qərbi Azərbaycan torpaqları ilə bağlı ciddi araşdırmalar müəllifidir.

## SƏRTİB İSLAM OĞLU MƏHƏRRƏMOV



1954-cü ildə Vedibasar mahalının Xalisa kəndində anadan olmuşdur. Orta təhsilini həmin kənddə almış, 1975-ci ildə N.Tusi adına ADPU-nun filologiya fakültəsini fərqlənmə diplomu ilə bitirmiqşdir. Bir müddət Azərbaycan Respublikasının Xaçmaz rayonunda, sonra isə anadan olduğu kənddə Azərbaycan dili və ədəbiyyat müəllimi işləmişdir.

1985-ci ildə Bakıya köçmüş və 1990-cı ilədək Azərbaycan Nazirlər Kabineti yanında Mətbuatda Dövlət və Hərbi sirləri qoruyan Baş idarənin redaktoru işləmişdir. Eyni zamanda Azərabycan Televiziyası və Radio Verilişləri Komitəsinin mətbuat mərkəzində çalışmışdır. Müxtəlif mətbu orqanlarda ədəbi-publisistik yazılarla çıxış etmişdir.

"Vedibasar" qəzetinin təsisçisi və baş redaktorudur. Ailəlidir. İki övladı var. **Qızı Vüsalə** ali məktəbdə, **oğlu Vüsal** isə orta məktəbdə təhsil alırlar.



## NİYAZİ ƏVƏZ OĞLU MƏMMƏDOV



1955-ci il sentyabrın 27-də Naxçıvan MR indiki Babək rayonunun Qahab kəndində anadan olmuşdur.

1956-cı ildən Azərbaycanın Vedi rayonunun Xalisa kəndində yaşamış, 1963-cü ildə Xalisa orta məktəbinin 1-ci sinfində təhsil almağa başlamış və 1973-cü ildə həmin məktəbi bitirdikdən sonra hərbi xidmətə çağırılmışdır.

1973-1975-ci illərdə Uzaq Şərqin Primorskiy diyarında hərbi xidmətdə olmuşdur.

1981-ci ildə Primorskiy diyarında yerləşən Vladivostokdan sonra 2-ci böyük sənaye şəhəri olan Ussuriyskdə Dövlət Pedaqoji İnstitutunun tarix, ictimaiyyət və ingilis dili fakültəsini əyani bitirdikdən sonra DİO-da müxtəlif vəzifələrdə (dəstə rəisi, sahə müvəkkili, əməliyyat müvəkkili, müstəntiq) çalışmış, həmçinin 1984-1991-ci illərdə qiyabi olaraq Uzaq Şərq Dövlət Universitetinin (Vladivostok şəhəri) hüquqşünaslıq fakültəsində təhsilini davam etdirmişdir. 1991-ci ilin oktyabr ayından 1992-ci ilin sentyabr ayınadək məlum Qarabağ hadisələri ilə əlaqədar könüllü raportla Ağdərə rayonunun Umudlu kəndinə ezam olunmuşdur.

1992-1995-ci illərdə DİN-in tədris mərkəzində müəllim, 1995-1997-ci illərdə DİN-in şəxsi heyətlə iş üzrə idarəsində baş inspektor, 1997-ci ilin iyun ayından isə Ədliyyə Nazirliyinin Məhkəmə Qərarlarının İcrası Baş İdarəsində İslah işləri və sosial müdafiə şöbəsinin rəisi vəzifəsində çalışır. Polkovnikdir, evlidir, 3 övladı var.

## MİRƏLƏKBƏR MİRƏLƏSGƏR OĞLU İBRAHİMOV



1961-ci ildə Xalisa kəndində anadan olmuşdu. Ailənin 9 övladından biri idi.

Orta məktəbi bitirdikdən sonra hərbi xidmətə çağırılmış, qayıdıb Azərbaycan Dövlət Pedaqoji Universitetinin hərbi hazırlıq fakültəsinə daxil olmuşdu. Ali təhsilini başa vurub, göndərildiyi Lənkəran şəhərində üç il müəllim işləmiş, sonra Bakı şəhərinin 153 saylı orta məktəbində müəllimlik fəaliyyətini davam etdirmişdi.

M.İbrahimov Xocalı faciəsindən sonra Yasamal rayon Hərbi Komissarlığına ərizə yazıb orduya yollanmasını xahiş edir. Onu 5-ci Yasamal taboruna komandir təyin edirlər. Mirələkbərin taboru Füzuli rayonunun Alxanlı, Kürdmahmudlu, Aşağı Seyidəhmədli kəndləri uğrunda ağır döyüşlər aparır. 1994-cü ilin martında işğal edilmiş Azərbaycan kəndlərinin erməni daşnaklarından azad edilməsi uğrunda döyüşlərin birində isə qəhrəmanlıqla həlak olur.

İgid komandir, kapitan Mirələkbər İbrahimov ölümündən sonra Milli qəhrəman adına layiq görülür. Vaxtilə müəllim işlədiyi 153 saylı orta məktəb hazırda onun adını daşıyır.

**Cavid** adlı bir oğlu var.



**Mirələkbər İbrahimovun atası Mirələsgər müəllim uzun illər Xalisa kənd məktəbinin direktoru olmuşdur.**



## XARABA KOTANLI

Vedibasar mahalının Millidərə bölgəsində, Böyük Gilanlar kəndi yaxınlığında, Allah-Əkbər dağının ətəyində kənd.

Kənddə əvvəllər ancaq Azərbaycan türkləri, sonralar isə azərbaycanlılar və müsəlman kürdləri yanaşı yaşamışlar.

1873-cü ilin statistik məlumatlarında kəndin adı **Xaraba Kotanlı** kimi qeydə alınmış və 12 təsərrüfatda 64 nəfər (34 kişi, 30 qadın) Azərbaycan türkünün yaşadığı, bu kəndin Allah-Əkbər dağı ətəyində **təzədən salındığı** qeyd olunmuşdur.

1886-cı ildə nəşr olunmuş "Zaqafqaziya diyarının dövlət kəndlilərinin iqtisadi vəziyyətini öyrənmək üçün materiallar" kitabında **Xaraba Kotanlı** kəndinin 1873-cü ildə Gərnibasar mahalının Novruzlu kəndindən köçüb gələnlər tərəfindən salındığı barədə qiymətli məlumat var.

Doğrudan da, **Xaraba Kotanlı** adı da elə **"xarabalıq yanında Kotanlı kəndi"** anlamındadır. Bəs bu, hansı kəndin xarabalığıdır ki, onun yanında Kotanlı kəndi salınmışdır – bunu dəqiqləşdirmək bizə nəsib olmadı.

O ki qaldı Kotanlı adına, heç şübhəsiz, bu, Qıpçaq türklərinin Kotan//Kotyan//Kitan tayfasının adından yaranmışdır. Nə üçün bu tayfaya mənsub ailələrin köçüb məhz Vedibasar mahalının dağlıq hissəsində kənd salmasına gəldikdə isə, məsələ ondadır ki, həmin ərazidə hələ çox-çox əvvəllərdən başqa bir Kotanlı (Seyid Kotanlı) kəndi mövcud olmuşdur və görünür, yeni gələnlər öz tayfa soydaşlarının yaxınlığında yaşamağa üstünlük vermişlər.

Yeri gəlmişkən, Dərələyəz mahalında da Kotanlı kəndi olmuşdur. Dərələyəz mahalındakı həmin kənd barədə professor Həsən Mirzəyev özünün "Aşıq poeziyasında yaşayan adlarımız və tariximiz" adlı dəyərli kitabında ətraflı məlumat vermişdir.

1886-cı ildə Xaraba Kotanlı kəndində 14 təsərrüfatda 105 nəfər (57 kişi, 48 qadın) azərbaycanlı qeydə alınmış, kəndin 851,5 desyatin torpaq sahəsinin 1,5 desyatinini malikanə torpaqları, 180 desyatinini suvarılmayan əkin yerləri təşkil etmişdir. Kənddə 96 iribuynuzlu, 150 xırdabuynuzlu mal-qara da qeydə alınmışdır.

Kəndin Yeni Bayazid qəzasının Ağdağ yaylağında **Gölyurd** adlı 105 desyatin yurd yeri olmuşdur.

1905-ci ildə kənddə 174 nəfər, 1914-cü ildə 219 nəfər azərbaycanlı yaşamışdır.

1918-ci ildə Millidərə kəndləri erməni daşnaklarının vəhşi hücumlarına məruz qalan zaman kəndin igidləri düşmənə qarşı layiqli müqavimət göstərmişlər. Bu işdə kəndin qoçaq cavanlarından olan **Eyyub Həsən oğlunun** da xüsusi rolu olmuşdur. Həmin müharibə zamanı daşnaklar tərəfindən dağıdılan, əhalisi ev-eşiyindən didərgin salınan kənd bir də Sovet hakimiyyəti illərində təzədən məskunlaşmışdır. Bu dəfə kənddə məskunlaşanların çoxu müsəlman kürdləri olmuşlar.

1931-ci ildə kənddə cəmi 29 nəfər əhali yaşamışdır.

1937-1948-ci illərdə Qarabağlar rayonu tərkibində mövcud olan kəndin əksər kürd əhalisi 1937-1938-ci illərdə Vedibasarın bütün kürd əhalisi kimi, Qırğızıstana, əsasən, bu respublikanın Oş vilayətinə sürgün edilmişlər. Seyid Kotanlı kəndində yaşamaqda davam edən əhali isə 1949-cu ildə Vedibasarın bütün dağ kəndləri deportasiya olunana qədər burada yaşamışlar. Kəndin tanınmış şəxsiyyətlərindən olan **Eyyub Həsən oğlunun** (o və oğlu **Həsən** deportasiyaya qədər qonşu Seyid Kotanlı kənd kolxozunda rəhbər işlərdə çalışırdılar) ailəsinin həmin dövr və sonrakı taleyi haqqında Seyid Kotanlı kəndindən danışarkən ətraflı bəhs etmişik.

Xaraba Kotanlı kəndi isə elə o vaxtdan – 1949-cu ildə kənd əhalisi deportasiya olunandan xaraba qalmışdır.

* * *

Xaraba Kotanlı kəndinin coğrafiyası ilə bağlı məlumatlarımızı Vedibasarın şair oğlu **Nəriman Əyyubun** şer misralarına hördüyü aşağıdakı xatirələri ilə məhdudlaşdırmaq istəyirik:

**Xaraba Kotanlı olan kəndimiz,**
**Seyid Kotanlıdan xeyli aralı.**
**Oraya getməyə var idi bir iz,**
**Dərsə getmək üçün aşırdım yalı.**

**Vedi dağlarında olan Kotanlı,**
**Xarabaya dönmüş beşinci ildə.**
**Dağıdıb yandırmış erməni qanlı,**
**Qaçqınlıq başlayıb o zaman eldə.**



## XARTLIQ (XARTDIQ)

Vedibasar mahalının Cığındərə bölgəsində, Kolanlı kəndi yaxınlığında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

Yerli camaatın dilində kəndin adı **Xartdıq** kimi tələffüz olunurdu. Kəndin ərazisində çoxlu **xart daşı** (bu daşla kərənti, mişar, bıçaq itilənərdi) olduğundan, hətta qonşu kəndlərdən belə gəlib həmin daşdan aparıb istifadə etdiklərindən ehtimal etmək olar ki, kəndin adı da həmin sözdən yaranmışdı və **"xart daşı çox olan yer"** anlamında idi.

Vedibasar kəndlərindən Əyricə yaylağına qalxan yol Kolanlıda iki qola ayrılırdı ki, onlardan biri də Xartlıqdan keçirdi.

1918-ci ildə erməni-müsəlman davası başlayanda kənddə cəmi 10-15 ev varmış. Onlar da müdafiə olunmaq üçün köçüb Kolanlı kəndinə sığınıblar. Elə o vaxtdan da kənd xaraba qalmışdır.

## XIDIREYLAS (XIDIR İLYAS)

Vedibasar mahalının Cığındərə bölgəsində, Əzizkənd kəndinin arxa tərəfində, Heyranıs dağının döşündə, Xıdıreylas dərəsində kənd.

Kəndin nə vaxt xarabalığa çevrildiyi barədə məlumat yoxdur. Onun yerində ancaq qədim yaşayış yerinin qalıqları və **Xıdıreylas (Xıdır İlyas)** adlanan ziyarətgah qalmaqda idi. Ətraf kəndlərdən ziyarətə gələnlər burada çoxlu qurbanlar kəsərmişlər.

Xıdır İlyas adının Xızır İlyasdan daha qədim, daha ilkin və türk mifik təfəkkürü üçün daha səciyyəvi olduğunu nəzərə alsaq, deyə bilərik ki, **Xıdıreylas kəndi** bölgədə ən qədim türk yurdlarından biri olmuşdur. Bu yerin kənd xarabalığa çevrildikdən sonra ocağa, pirə çevrilməsi isə bölgədə türklüyə, türk inam və inanclarına hörmətin, türk gələnəklərinə məhəbbətin apaşkar nümunəsi idi. Bu isə bölgədə türk etnosunun daim aparıcı və hakim etnos olmasından irəli gəlirdi.

Qərbi Azərbaycan ərazisində Xıdır, Xızır komponentli bir sıra toponimlərin mövcudluğu buranın Azərbaycanın ən qədim mifik-dini inam, iman və təfəkkür ocaqlarından olduğunu təsdiq edir. Zəngibasar mahalındakı kəndlərdən biri isə Hacı Eylas adlanmışdır.



## XORVİRAB//ASELİŞAD (QƏDİM ARTAŞAD)

Vedibasar mahalının aran hissəsində, Araz çayı sahilində, qədim Artaşad şəhərinin xarabalıqları yerində, qaya üstə qala-kilsə.

Arman ölkəsinin böyük hökmdarı, midiyalı türk sərkərdəsi, Artaşlar (yunanca Artaşeslər) sülaləsinin banisi Artaşın tikdirdiyi və eradan əvvəl 2-ci yüzilin ortalarında Armaniyanın paytaxtına çevirdiyi **Artaşad** şəhərində ilk gündən müxtəlif türk tayfaları yaşamışlar.

Professor S.Məmmədovun qeyd etdiyi kimi, hətta erməni mənbələri özü belə etiraf edir ki, Xorvirabda və ona məxsus yardımçı torpaqlarda yaşayanlar oğuzların **Bayat** tayfasından olmuşlar.



**Qədim Artaşad şəhərinin xarabalıqları yerində Xorvirab//Aselişad məbədi**

Qədim Artaşad şəhərinin salınması barədə mənbələrdə də maraqlı məlumatlar var. Bu şəhərin bünövrəsinin qoyulması haqda qədim yunan tarixçisi Plutarx (eramızın I-II yüzilləri) yazır: "Antioxun romalılar tərəfindən darmadağın edilməsindən sonra Hannibal Arman çarı Artasın (**Artaşın** – Ə.Ə.) sarayına doğru gəri çəkildi və onun yanında qaldığı müddətdə ona bir sıra gərəkli məsləhətlər, öyüdlər verdi. Bundan əlavə, deyirlər, ölkədə məhsuldar, sərfəli və gözəl, lakin tam səmərəsiz qalmış ərazi müşa-

hidə edib, o, şəhərin planını cızıb, şahı ora aparır. Çar həmin layihənin gerçəkləşməsi məsuliyyətini üzərinə götürməsini Hannibaldan xahiş edir. Qısa vaxtda burada çar Artasın (**Artaşın** – Ə.Ə.) adını daşıyan Artaksat (**Artaşat** – Ə.Ə.) adlı geniş və heyrətamiz şəhər – Armaniyanın paytaxt şəhəri meydana gəlir".

Qədim yunan tarixçisi Strabon (er. əv. I yüzil - b. e. I yüzili) isə həmin faktı belə yazıya alıb: "Hannibal tərəfindən seçilmiş yer çarın xoşuna gəldi, bu yer Araks və Böyük Amor çaylarının yaratdığı yarımadada, üç tərəfi su, yalnız bir tərəfi quru idi və onu da xəndək və sədlərlə möhkəmlətdilər".

Arman tarixçisi Musa Xorenli (V yüzil) isə nə I Artaş (er. əv. II yüzil) tərəfindən hansısa şəhərin salınmasından bəhs edir, nə də Karfagen sərkərdəsi Hannibalın Armaniyaya gəlişindən və onun məsləhətlərindən. O, Artaşat şəhərinin salınmasını Artaşlar sülaləsinin digər hökmdarı II Artaşın (er. əv. 30-20-ci illər) adı ilə bağlayır. M.Xorenli yazır: "Artas (II **Artaş** – Ə.Ə.) Araz və Böyük Amor çaylarının birləşdiyi yerə gələndə bu yerə heyran oldu və burada şəhər saldı, onu öz adı ilə Artaşat adlandırdı. Araz vasitəsilə meşələrdən materiallar daşındı, qısa vaxtda və hər hansı çətinliksiz yeni şəhər yarandı. Şəhərin ortasında çar tərəfindən bütpərəst məbədi tikdirildi, bura Bağarandan Diananın bütünü və bütün yerli bütləri gətirdi, təkcə Apollonun heykəlini bura gətirmədi, şəhərin eşiyində, yolun kənarında qoydu. Sonra Artaş bura Yervandaşaddan əsir yəhudiləri köçürdü, onlar əvvəl Armavirdə yaşayırdılar. Şəhər digər çoxlu abidələrlə bəzədilib, çarın iqamətgahı üçün hazırlandı".

Lakin M.Xorenli ciddi yanlışlığa yol verir, çünki mənbələrdən dəqiq məlumdur ki, Artaşat hələ Roma sərkərdəsi Lukullun (er. əv. 117 – er. əv. 56) Cənubi Qafqaza hücumu zamanı inkişaf etmiş şəhər kimi mövcud idi. Deməli, Armaniyanın paytaxtı olan qədim Artaşad şəhəri heç vaxt II Artaş tərəfindən salına bilməzdi. Bu, məhz I Artaş tərəfindən er. əv. II yüzilin ortalarında salınmışdı. Beləliklə, istər Strabon və Plutarxda, istərsə də M.Xorenli və M.Kağankataylıda haqqında bəhs olunan Artaşad şəhəri məhz er. əv. II yüzilin ortalarında I Artaş tərəfindən inşa edilmiş və eramızın II yüzilinə qədər Armaniyanın paytaxtı olmuş Artaşaddır.



İ.Şopenin "Roma və yunan salnaməçiləri Artaşatı daha tez-tez yada salırlar, nəinki erməni (**arman** – Ə.Ə.) salnaməçiləri. Axırıncılar Armavir və Vağarşabada Armaniyanın əsas paytaxtı kimi daha çox üstünlük verirlər", – qeydinə də təbii baxmaq lazımdır. Çünki birincilərin vaxtında Armaniyanın paytaxtı Artaşad olduğu halda, ikincilərə Armavir və Vağarşabad daha yaxın tarix idi.

Vedibasar mahalının Xorvirab kilsə yerində yerləşmiş qədim Artaşad şəhəri barədə bəzi əlavələri də qeyd etməyi lazım bilirik.

Er. əv. II yüzilin ortalarından b. e.-nın II yüzilinə qədər Armaniyanın paytaxtı olan Artaşad şəhəri 51-ci ildə Arman Artaşlar sülaləsinin sonuncu hökmdarı II Tiqaranı//Tiqərəni (ermənicə: Tiqranı) taxtdan salıb hakimiyyətə gələn Arman Arsaklar sülaləsinin banisi I Turadat tərəfindən təzədən bərpa olunmuş və imperator Nerona xoş gəlsin deyə onu **Neroniana** adlandırmışdı. Çoxlu ictimai binalarla yanaşı, Artaşadın hər qala qapısının önündə körpü olmuşdur. Bu körpülərdən ikisi Böyük Amor çayı üstündən idi – biri **Vağarşabad** körpüsü, ikincisi **Artaşad körpüsü**. Üçüncü körpü Araz üstündən idi və **Taper** adlanırdı.

Bütpərəstlik dövründə Artaşad şəhəri məbədləri ilə şöhrət qazanmışdı. Baş məbəd **Anan Takan** adlanırdı. Hatta belə bir rəvayət vardı ki, guya müqəddəs Qriqori bu məbədə yaxınlaşanda əlindəki xaçın əzəmətindən məbəd uçulub tökülmüşdü.

Artaşad və Vağarşabad arasında isə **Yerazmuin-tegin** və ya **Yerazdzuis-meqian** (**Yuxuyozma məbədi**) adlı yer mövcud idi. İ.Şopenin bu məbədin adında yazıya aldığı **"tegin"** və **"meqian"** (əslində **"maqlar"** anlamında **"maqian"**) sözləri və həmin məbədin adını **"Yuxuyozma məbədi"** kimi tərcümə etməsi təsdiqləyir ki, əslində məbədin adı ilkin variantında türkcə olmuşdur.

II Artaş burada başqa bir məbəd tikdirmiş, Bağarandan Yupiterin heykəlini və çoxlu bütlər gətirib burada yerləşdirmişdir.

Armaniyada xristianlığın ilk dövründə (IV yüzilin 1-ci rübündə) Artaşat çoxlu kilsələrlə bəzədilmiş, lakin Yezdəgird onların hamısını məhv etdirmişdi.

Miladın 344-cü ilində Artaşat yenidən paytaxt olmuş, lakin az sonra 350-ci ildə Arman çarı II Xosrov Araz sahilində Dvin şəhərini salaraq paytaxtı ora köçürmüşdür.

Lakin İranda hakimiyyət başına keçmiş Sasanilərlə Arman

şahları arasında yaranmış düşmənçilik, Sasani hökmdarlarının Arman ölkəsinə fasiləsiz hücumları, bu hücumların hər dəfə qədim Artaşad şəhəri istiqamətində olması ölkəni dəfələrlə çətin vəziyyətdə qoyurdu. Əhali şəhəri tərk etməkdə, ölkənin daha da içərilərinə çəkilməkdə idi. Ölkənin paytaxtı eramızın 2-ci yüzilinin əvvəllərində yeni Arman çarı – I Turadatın oğlu Sanatürkün oğlu Valarşak (Valarsak) tərəfindən tikdirilmiş Valarşak qalasına köçürüldükdən sonra Artaşad şəhəri öz strateji əhəmiyyətini daha da itirir. Hətta Musa Kağankataylının "Alban tirixi" kitabından öyrənirik ki, "Araz çayı kənarındakı bu şəhər" Sasani hökmdarı II Şapurun (309-379) vaxtında tamamilə yerlə-yeksan edilmişdir. Əslində, bu hadisə 370-ci ildə olmuş və farslar şəhərin 40 min arman, 9 min yəhudi ailəsini zorla Msfahana aparmışdılar.

Şəhər sonralar yenidən bərpa olunmuş, hətta 450-ci ildə Arman knyaz və din xadimləri bura yığışaraq farsların armanları bütpərəstliyə sitayiş etdirmək niyyətinə qarşı danışıqlar aparmışlar. Bu isə Artaşadın üçüncü və sonuncu dəfə olaraq darmadağın edilməsi ilə1 nəticələnmişdir. Belə ki, 798-ci ilə aid mənbədə artıq bu şəhərdən əhəmiyyətsiz bir kənd kimi bəhs edilir. Bununla da Artaşad şəhəri öz tarixi gərəkliyini birdəfəlik itirmişdir. XIII yüzildə Artaşad artıq heç xatırlanmır da, mənbələr ancaq Xorvirabdan bəhs edir.

Yeri gəlmişkən, bu, həmin Artaşad şəhəridir ki, əfsanəyə görə, erməni-qriqorian kilsəsinin banisi Müqəddəs Qriqori burada ilanla dolu dərin quyu-zindana salınmış və 30 il sonra quyunu açanda onu salamat tapmışdılar.

Sonralar şəhər məhv olmuş, Qriqorinin quyuya salındığı həmin yerdə kilsə tikilmiş və bu yer ətraf camaatın ziyarətgahına çevrilmişdir.

Erməni tarixçiləri **Xorvirab** adının məhz **"dərin quyu"** anlamında olduğunu iddia edirlər. Lakin bu versiya kökündən səhvdir. Ən azı ona görə ki, bu yerlərə hay-ermənilərin gəlişi çox-çox sonralara aiddir. Beləliklə, adın həqiqi etimoloji izahı ilə bağlı bir neçə versiya irəli sürmək olar.

Birincisi, bu söz qədim türk dilində od, ocaq, günəş anlamında olan **qor//kor//xor** və **"viran"** komponentlərindən ibarət ola bilər. Və Artaşad şəhəri xaraba qaldıqdan sonra **"sönmüş



ocaq", "viran qalmış yurd", "qaralmış Günəş"** mənalarında o yerə şamil edilə bilər.



**Xorvirab məbədinin yaxından görünüşü**

İkincisi, Xorvirab adının məşhur alban katolikosu **Vironun** adı ilə oxşarlığı da ciddi düşünməyə əsas verir.

Lakin bizim fikrimiz belədir ki, Xorvirab adı etnotoponimdir. Əsl variantında ad **Qar-bi-ər-oba** komponentlərindən ibarət olmaqla bölgədə sıx məskunlaşmış **"Qarqar boyundan olanların yurdu"** anlamında işlənmişdir.

Burada belə bir maraqlı cəhəti də qeyd etmək istəyirik ki, bir çox erməni mənbələri məbədin ilkin adını **Aselişad** kimi qeydə alırlar ki, bu sırf türk toponimi də məbədin, əslində, **As//Az elindən olan Şad türklərinə** mənsubluğunu bir daha təsdiq edir.

Kilsə-monastır iki hissədən ibarət idi. Kilsənin monastır hissəsinin VI yüzildə Çar Turadatın bacısı tərəfindən tikdirildiyi söylənilir.

İ.Şopendə (1832) qalada 3 təsərrüfatda 8 nəfər (4 kişi, 4 qadın) Azərbaycan türkünün və 1 təsərrüfatda 6 nəfər (3 kişi, 3 qadın) İrandan qaçıb gəlmiş erməninin yaşadığı qeyd olunmuşdur.

1873-cü ildə qala-kilsədə cəmi 1 təsərrüfatda 3 erməni kişinin yaşadığı göstərilmişdir.

1886-cı ilə aid statistik məlumatlarda isə Xorvirab Şıxlar kəndinin ikinci adı kimi verilmişdir.

Yüzillər boyu azərbaycanlıların ziyarətgahı olan Xorvirab kilsəsi çox sonralar, xüsusilə Sovet hakimiyyəti illərində bölgə erməniləşdirildikcə kilsə də erməni din xadimlərinin əlinə keçmiş və erməni-qriqorian kilsəsi kimi fəaliyyət göstərmişdir.

## XOSROV

Vedibasar mahalının Millidərə bölgəsində, Küsqayasu çayı kənarında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590), "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) və bütün sonrakı mənbələrdə kəndin adı Vedi nahiyəsinin **Xosrov kəndi** şəklində qeydə alınmışdır. 1728-ci ilə aid dəftərdə kənddə Yusif Abdulla oğlunun adına olan timardan dövlətin müxtəlif vergilər şəklində ildə 3.500 ağça gəlir götürdüyü göstərilmişdir.

Kəndin adının Anadoludan gətirilmə olması fikrini (B.Budaqov, Q.Qeybullayev) kökündən səhv hesab edirik. XIX yüzildə Qars əyalətinin Ərdəhan nahiyəsində Xosrov adlı iki toponimin – kənd və çay adının mövcudluğu da bu adın Vedibasar ərazisinə kənardan gətirilmə olması üçün əsas ola bilməz. Bizcə, kənd və onun yaxınlığındakı Xosrov meşəsinin adları Xosrov adlı hökmdarın adını daşımaqdadır. Lakin hansı Xosrovun? Bu mövzuya maraq göstərənlərin çoxu 591-628-ci illərdə İran taxtında əyləşən Sasani hökmdarı II Xosrovun (Xosrov Pərvizin) üzərində dayanırlar. Ən tutarlı dəlilləri isə Xosrov Pərvizin tərkibinə Vedibasar ərazisinin də daxil olduğu Arman ölkəsinin şahzadəsi Şirinlə evlənməsi faktıdır. 531-579-cu illərdə hakimiyyətdə olan, öz ədalətliliyi ilə tarixdə ad qoyan Sasani hökmdarı I Xosrovun – Ənuşirəvanın da adına Arman torpağında yaşayış məntəqəsi olmasını ehtimal etmək olar.

Lakin Armaniyanın özünün **Xosrov** adlı hökmdarlarının olması bu versiyaları şübhə altına alır. Xatırladırıq ki, Armaniyanın böyük çarı I Xosrov 215-ci ildə vəfat etmişdir. Onun nəticəsi, Arman çarı III Tiridat (Tiridağ) və ya III Tiridat (Diridağ) isə 330-cu ildə vəfat etdikdən sonra onun yerinə oğlu II Xosrov keçmişdir.

Bu həmin Xosrovdur ki, 350-ci ildə Dvin şəhərinin tikintisini başa çatdırmış və Arman ölkəsinin paytaxtını Valarşakabad şəhərindən bura köçürmüşdü. Bu faktı xatırladan Girakos Gəncəli II Xosrovun həm də ov üçün yaxınlıqda palıd meşəliyi saldırdığını qeyd edir. M.Xorenli də bu faktı təsdiq edir. Təbii ki, söhbət gələcək Xosrov meşəsindən gedir. Üstəlik, adları çəkilən Arman hökmdarları həmişə İran Sasani xanədanı ilə düşmənçilik mövqeyində olmuş, ona qarşı müharibə aparmışlar.

Bütün bunlar deməyə əsas verir ki, Vedibasar ərazisindəki Xosrov toponimləri Arman çarı II Xosrovun buradakı şəxsi mülkü yerində salınmış yaşayış məntəqəsidir və xalq sevimli hökmdarının adını daşıyan bu toponimləri sevə-sevə yaşatmışdır.

Hazırda Ağdam rayonunda da bir kənd Xosrov adlanır.

1826-1829-cu illərdə Rusiya-Osmanlı və Rusiya-İran müharibələri zamanı kənd böyük dağıntılara məruz qalmışdır. Buna görə də İ.Şopenin 1832-ci ilə aid məlumatlarında **Xosrov** Vedibasar mahalının xaraba kəndləri siyahısında verilmişdir.

Sonralar yenidən məskunlaşan Xosrov kəndində 1873-cü ildə 15 təsərrüfatda 155 nəfər (96 kişi, 59 qadın) Azərbaycan türkü yaşamışdır. Kənddə qədim kilsə qalıqları və qəbirüstü abidələr də qeydə alınmışdır.

1886-cı ildə isə kənd əhalisinin sayı 19 təsərrüfatda 182 nəfərə (99 kişi, 83 qadın) çatmışdır. Kəndin iqtisadiyyatının əsasını əkinçilik və heyvandarlıq təşkil etmişdir. Kəndin 735,94 desyatin torpaq sahəsinin 1,93 desyatini malikanə tropaqları, 118,96 desyatini suvarılmayan əkin yerləri olmuşdur. Kənddə 224 iribuynuzlu, 292 xırdabuynuzlu mal-qara bəslənmişdir.

Xosrov kəndinin İrəvan qəzasının **Qanlıca** yaylağında **Tikanlı** adlı yurd yeri olmuşdur. 192 desyatin ərazini əhatə edən bu yurd yerindən kənd camaatı qədimdən istifadə etmişdir.

1897-ci ildə kənddə 296 nəfər, 1914-cü ildə 388 nəfər azərbaycanlı yaşamışdır.

1918-1920-ci illər erməni-müsəlman davası zamanı kənd erməni daşnakları tərəfindən dağıdılmış, əhalisi isə qətl və qarətlərə məruz qalmış, sağ qalanları doğma yurdundan didərgin salınmışdır.

1922-ci ildə kəndin qaçqın əhalisinin cəmi 24 nəfəri geri qayıda bilmiş, 1931-ci ildə onların sayı 31 nəfər olmuşdur. Lakin 1948-ci ildə kəndin bütün əhalisi Azərbaycana köçürülmüş və kənd o vaxtdan xaraba qalmışdır.

* * *



1917-ci ildə Abbasqulu bəyin başçılığı ilə Vedibasarda yaranan ilk özünümüdafiə dəstələrinə qoşulanlardan biri də Xosrov kəndindən **NƏCƏF QULU OĞLU RÜSTƏMOV** olmuşdur. **Xosrov Xosrovski** ləqəbi ilə tanınan bu məşhur kəşfiyyatçı həm də 1920-1921-ci illərdə "Qırmızı tabor"un tərkibində erməni daşnaklarına qarşı qəhrəmanlıqla vuruşmuş və bu mübarizədə "Qırmızı bayraq" ordeni alan 19 nəfər "Qırmızı tabor"çudan biri olmuşdur.

Sonralar erməni təqib və təzyiqlərindən təngə gələn Nəcəf Rüstəmov 1930-cu ildə Azərbaycana köçmüş, uzun illər Ağstafada yaşamış, burada müxtəlif vəzifələrdə çalışmış, 1992-ci ildə 93 yaşında burada da rəhmətə getmişdir. Qızı **Əminə xanım** uzun müddət rayonda rəhbər vəzifələrdə çalışmışdır. Həm də gözəl şerləri ilə oxuculara tanışdır.



# XUNUT//XINIT (XUNUT//XINIT QARAQOYUNLU)

Vedibasar mahalının Cığındərə bölgəsində, Vedi çayının kənarında, Kolanlı kəndi yaxınlığında kənd. Cığın dərəsi boyu uzanan yolun Kolanlı kəndindən sonra haçalanan iki qolundan biri Xunut kəndindən keçərək Əyricə yaylağına qalxırdı.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) Vedi nahiyəsinin **Xəmud kəndi** şəklində qeydə alınmışdır.

İ.Şopendə (1832) kəndin adı **Xemut** şəklində Vedibasar mahalının dağıdılmış kəndləri sırasına daxil edilmişdir.

1873-cü ildən etibarən bütün mənbələrdə kəndin adı əslinə daha uyğun – **Xnut//Xunut** şəklində qeydə alınmışdır.

Kənd əslində **hun//xun** tayfalarının adını daşıyırdı. **"Hun"** sözündən və türk dillərində cəm bildirən **ut** şəkilçisindən əmələ gəlmişdir. Təsadüfi deyil ki, həm **hun**, həm də **xun** variantları ilə Qərbi Azərbaycan və bütövlükdə Cənubi Qafqaz ərazisində çoxlu toponim mövcud olmuşdur. Məsələn, Meğri (Mığrı) rayonunda Hünüt kəndi, Gədəbəy rayonunda Xunus kəndi, Tovuz rayonu ərazisində qədim Xunan şəhər qalıqları və s.

Vedibasar mahalı ərazisində Hand, İnqala, Hortun, Harunburun və s. kənd adları **"hun"** etnonimindən yaranmadır.

Qaraqoyunlu kəndi yaxınlığında yerləşdiyindən bəzən ona **Xunut Qaraqoyunlu,** yəni **Qaraqoyunlu kəndi yanında Xunut kəndi** də deyilmişdir.

Yerli dildə kəndin adı **Xınıt** kimi tələffüz olunmuşdur.

1873-cü ildə kənddə 15 təsərrüfatda 114 nəfər (67 kişi, 47 qadın) Azərbaycan türkü yaşamışdır. Həmin ilin məlumatlarında kəndin ərazisində arman-türk xristian mədəniyyətinin nümunələri olan qədim kilsə qalıqları, qəbirüstü xristian abidələri də qeydə alınmışdır.

1886-cı ildə kənddə 18 təsərrüfatda 156 nəfər (80 kişi, 76 qadın) əhali yaşamışdır. Kəndin 410 desyatin torpaq sahəsinin 1,5 desyatinini malikanə torpaqları, 60 desyatinini suvarılan, 90 desyatinini suvarılmayan əkin yerləri təşkil etmişdir. Kənddə 170

iribuynuzlu, 385 xırdabuynuzlu mal-qara qeydə alınmışdır. Kəndin torpaqları **Cirmanisçay (Kolanlı)** çayının və **Gözəlqaçan** bulağının suyu ilə suvarılmışdır.

1897-ci ildə kənddə 235 nəfər, 1905-ci ildə 315 nəfər, 1914-cü ildə 318 nəfər azərbaycanlı yaşamışdır.

1918-1920-ci illər erməni-müsəlman davası zamanı kənd dağıdılmış, əhalisi erməni daşnakları tərəfindən vəhşicəsinə qətlə yetirilmişdir. O vaxtdan kənd xaraba qalmışdır.

* * *

**Alçalığın dərəsi** Xunutdan keçirdi.

Kəndin xarabalıqları yaxınlığında boyu bir neçə metrə çatan Oğuz qəbirləri son zamanlara qədər qalmaqda idi.



## İMİRZİK

Vedibasar mahalının Millidərə bölgəsində, Gərni çaymın sol qolu olan Dəvəgözü çayı sahilində, Gölaysor kəndi yaxınlığında, İmirzik bulağı kənarında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) kəndin adı Gərni nahiyəsində **Əmirzik kəndi** kimi qeydə alınmışdır. "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə həmin nahiyənin **Merzik kəndi** kimi qeyd olunmuş və dövlətin kənddə Hüseyn bəyin adına olan timardan müxtəlif vergilər şəklində ildə 5.000 ağça gəlir götürdüyü göstərilmişdir.

İ.Şopendə (1832) kənd **Mürzük** adı ilə Gərnibasar mahalının xaraba kəndləri siyahısına daxil edilmişdir. Bu, kəndin 1826-1829-cu illərdə Rusiya-İran və Rusiya-Osmanlı müharibələri zamanı böyük dağıntılara məruz qalmasından irəli gəlirdi.

1873-cü ildən etibarən isə bütün statistik məlumatlarda kəndin adı **İmirzik** kimi verilmişdir.

Kəndin adının etimologiyası ilə bağlı müxtəlif versiyalar var. Birinci versiya ondan ibarətdir ki, kənd qədim Oğuz tayfalarından olan **İmir** tayfasının adını daşıyır. İmir isə (bəzən Eymur), məlum olduğu kimi, Oğuz xanın "üç ox" adlandırdığı üç oğlundan (Göy xan, Tək xan və Tenzik xan) ikincisinin – Tək xanın ikinci oğlunun adıdır. Qərbi Azərbaycanda İmir adı ilə bir sıra toponimlərin (XIX yüzildə Gümrü qəzasında İmirxan, Üçkilsə qəzasında İmirli kəndlərinin və s.) mövcudluğu da bu ərazidə sözügedən tayfanın geniş yayıldığını təsdiq edir. Biz bu versiyada israrlıyıq.

Digər versiya isə ondan ibarətdir ki, kəndin əsl adı **Mirzikdir,** İmirzik adın tələffüz formasıdır və bu, orta yüzillərdə Anadoluda yaşamış kürd mənşəli **Mərznik** tayfasının adını daşıyır (B.Budaqov, Q.Qeybullayev). Kəndin etnik tərkibi (mənbələrdə "şiə məzhəbli tatarlar" kimi qeyd olunur) bu versiyanı təkzib edir.

Onu da əlavə etməyi lazım bilirik ki, Şimali Azərbaycanda geniş yayılmış Əmir komponentli toponimlərin də əgər bir qismi Qaşqay türklərinin **Əmirli** tayfasının adını daşıyırsa, digər qismi məhz **İmir** etnoniminin tələffüz diyişikliyinə uğramış variantıdır. Məsələn, vaxtilə Şuşa, Cavad, Cavanşir qəzalarında qeydə alınmış Əmirli, Əmirxana, Əmirvarlar; Göyçayda Əmirxanlı kəndləri

kimi. Hətta Ərdəbil yaxınlığında belə Əmir kəndi olmuşdur.

1873-cü ildə İmirzik kəndində 19 təsərrüftda 188 nəfər (108 kişi, 80 qadın) Azərbaycan türkü yaşamışdır. Kənddə qədim kilsə xarabalıqları və qəbirüstü abidələr də qeydə alınmışdır.

1886-cı ildə kənd əhalisinin sayı 26 təsərrüfatda 232 nəfərə (144 kişi, 88 qadın) çatmışdır. Kəndin 245,74 desyatin torpaq sahəsinin 2,96 desyatinini malikanə torpaqları, 0,1 desyatinini bağ sahələri, 163 desyatinini suvarılmayan əkin yerləri təşkil etmişdir.

1905-ci ildə kənddə 254 nəfər, 1914-cü ildə 328 nəfər əhali yaşamışdır.

1918-1920-ci illərdə erməni-müsəlman davası zamanı daşnaklar tərəfindən qətl və qarətlərə məruz qalan, əhalisi didərgin salınan kənd bir də Sovet hakimiyyəti illərində məskunlaşmışdır. 1921-22-ci illərdə kəndin qaçqın əhalisindən cəmi 65 nəfər geri qayıtmış, 1931-ci ildə onların sayı 151 nəfərə çatmışdır.

1937-1948-ci illərdə Qarabağlar rayonunun tərkibində inkişaf edən kənddə 1939-cu ildə 269 nəfər azərbaycanlı əhali yaşamışdır.

1949-cu ildə kəndin bütün əhalisi zorla Azərbaycana köçürülmüş və elə o vaxtdan da kənd xaraba qalmışdır.

## NƏRİMAN ƏYYUB OĞLU MƏMMƏDOV



1938-ci il may ayının 20-də Vedibasarın İmirzik kəndində anadan olmuş, 1948-ci ildə ailəlikcə deportasiya olunaraq Azərbaycanın Yevlax rayonunun Nərimankənd kəndində məskunlaşmışlar.

Köçəndən bir ay sonra ailənin ağbirçəyi – 130 yaşlı Güllü arvad dünyasını dəyişmiş, bir müddət sonra isə Nərimanın atası Əyyub və əmisi Bəhlul cavan-cavan dünyadan köçmüşlər.

Hələ uşaqlıqdan Nərimanın qəlbində ermənilərə qarşı nifrət kök salmış, o, bu nifrəti zaman-zaman şerlərə, misralara çevirmişdir. "Ana fəryadı" (1995), "Qısqanclıqdan qətl" (1996), "Sağalmaz yara" (1997), "Vedinin yanı dağlar, arxamca baxıb ağlar" (1998), "Sənsiz" (1999), "Vedili dünyam" (2000) kitabları nəşr olunmuşdur. Bu kitablarda Vedibasar mövzusu əsas yer tutmaqla elimizin-obamızın başına gələn faciələr böyük bir yanğı ilə qələmə alınmışdır.



## İNQALA (KİÇİK HAXIS)

Vedibasar mahalının Cığındərə bölgəsində, Vedi rayonunun mərkəzi olan Böyük Vedi qəsəbəsindən 22-24 km şimal-şərqdə, Əzizkənd kəndi yaxınlığında, dəniz səviyyəsindən 2070 m yüksəklikdə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

Kəndin adına **İnqala** şəklində ilk dəfə 1886-cı ilin statistik məlumatlarında rast gəlirik. Həmin mənbəyə görə, kənddə 15 təsərrüfatda 113 nəfər (60 kişi, 53 qadın) Azərbaycan türkü yaşamışdır. Lakin şübhəsiz bu, kəndin həqiqi tarixi deyil, Haxıs kəndi yaxınlığındakı qədim İnqala qala yerində salındığından və bu qalanın adı ilə adlandığından, aydındır ki, burada lap qədimdən yaşayış olmuşdur. Bununla yanaşı, Haxıs kəndi yaxınlığında salındığı üçün Haxıs kəndinə Böyük Haxıs, İnqala kəndinə isə **Kiçik Haxıs** da deyilmişdir.

Kəndin adının etimologiyası haqqında belə bir versiya var ki, İnqala qalasının adı qədim türk dillərindəki **in (mağara)** və **qala** sözlərindən ibarətdir (B.Budaqov, Q.Qeybullayev). Lakin biz adın **Hunqala** variantına daha böyük üstünlük veririk. Qərbi Azərbaycan, o cümlədən Vedibasar ərazisində qədimdən məskunlaşan hunların (xəzərlərin) adı ilə bir çox toponimin olması da (Xunut, Hand, Hortun, Harunburun və s.) təsadüfi deyil. XV-XVI yüzillərdə Vedibasar ərazisində qeydə alınmış Haxıs kəndinin yaxınlığında hələ o vaxt qədim İnqala qalasının mövcudluğu da onun tarixinin daha qədimlərlə, ən azı eramızın ilk yüzillərində Vedibasar ərazisinə hun-xəzərlərin kütləvi axını dövrü ilə bağlı olduğunu söyləməyə əsas verir.

Adın izahında üçüncü yozum qalanın adının **Önqala** olmasıdır. Bunu qalanın coğrafi mövqeyi də şərtləndirir. Belə ki, Haxıs və Yuxarı Ərmik, Aşağı Ərmik kəndləri arasında bir **Səngər dağı** var. Əgər o, səngərdirsə deməli, İnqala da ön qaladır. Doğrudan da, Haxıs, Yuxarı Ərmik və Aşağı Ərmik kəndlərinə yol məhz İnqaladan keçir.

Kəndin iqtisadiyyatının əsasında əkinçilik və heyvandarlıq dayanmışdır. 1886-cı ildə Haxıs kəndi ilə birlikdə İnqala kəndi-

nin 1082 desyatin torpaq sahəsi olmuş, onun 6 desyatinini malikanə torpaqları, 20,58 desyatinini suvarılan, 433 desyatinini suvarılmayan əkin yerləri təşkil etmişdir. Kəndlərdə 338 iribuynuzlu, 1126 xırdabuynuzlu mal-qara saxlanmışdır.

Kəndlərin torpaqları **Daşbulaq** və **Qazmabulaq** bulaqlarının suyu ilə suvarılmışdır.

Bundan əlavə, kəndlərin İrəvan qəzasının dağlarında **Qazmayurd**, **Meçiddərəsi** adlı yaylaq yerləri olmuşdur. 150 desyatin ərazini əhatə edən bu yurdlardan İnqala və Haxıs kəndlərinin əhalisi qədimdən istifadə etmişlər.

1897-ci ildə İnqala kəndində 124 nəfər, 1914-cü ildə 148 nəfər azərbaycanlı yaşamışdır.

1918-1920-ci illərdə erməni daşnakları tərəfindən kənd qarət edilmiş, yandırılmış, əhalisi yurd-yuvasından didərgin salınmışdır.

Sovet hakimiyyəti illərində kəndin sakinlərindən cəmi 30 nəfər geri qayıda bilmiş, kənddə təzədən məskunlaşıb yaşamağa başlamışlar. 1931-ci ildə kənd əhalisinin sayı 33 nəfərə, 1939-cu ildə 127 nəfərə çatmışdır.

1937-1948-ci illərdə Qarabağlar rayonu tərkibində mövcud olan kəndin bütün əhalisi 1949-cu ildə məcburi şəkildə Azərbaycana köçürülmüşdür. Kənd o vaxtdan xaraba qalmışdır. Xarabalığı son vaxtlara qədər Əzizkənd kəndi yaxınlığında qalmaqda idi.

* * *

İnqala kəndinin torpaq quruluşu elə idi ki, burada böyük qara torpaq zolağı yerləşirdi. Buna görə də İnqala Cığındərə bölgəsində kartofçuluqla məşğul olan ilk kənd idi. Burada kartof dəmyə əkilir, yaxşı da məhsul verirdi. Həmin qara torpaq sahəsi İnqala ərazisinin uzanıb getdiyi **Sarı qaya** adlı əzəmətli qayadan başlanıb, qədim Kürd yolu deyilən Cəğındərə yoluna qədər gəlib çıxırdı.



## KARVANSARA

Vedibasar mahalının aran hissəsində, Ağrıdağ vadisində, Armaş kəndi yaxınlığında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) Vedi nahiyəsinin **Karvansara məzrəsi** şəklində qeydə alınmışdır.

Kəndin ərazisində əvvəllər karvansara olduğu və kəndin öz adını buradan aldığı güman edilir.

Sonrakı mənbələrdə kəndin adına bir daha rast gəlmirik.

Yeri gəlmişkən, Qərbi Azərbaycan ərazisində vaxtilə eyniadlı çoxlu toponim olmuşdur. İrəvan, Yeni Bayazid qəzalarında, Sürməli mahalında, Şörəyel nahiyəsində və b. yerlərdəki Karvansara kəndləri buna əyani misaldır. Hətta Qərbi Azərbaycandakı rayonlardan biri elə Karvansaray (sonralar İcevan) da adlanırdı.

## KEŞİŞDAĞ (KEÇİDDAĞ)

Vedibasar mahalının Cığındərə bölgəsində, Vedi çayının kənarında, Keşişdağ dağı ətəyində kənd.

Kənddə 1883-cü ilədək Azərbaycan türkləri və müsəlman kürdləri qarışıq halda yaşamışlar. 1883-cü ildən etibarən isə kənd sakinləri ancaq Azərbaycan türklərindən ibarət olmuşdur. İ.Şopendə (1832) **Keçikli (Keçidli) kəndi** şəklində Vedibasar mahalının dağıdılmış kəndləri sırasında verilmişdir.

1873-cü ilin statistik məlumatlarında isə Vedibasar mahalında, Vedi çayı kənarında Keşişdağ kəndi qeydə alınmış və orada 14 təsərrüfatda 97 nəfər (46 kişi, 51 qadın) müsəlman kürdünün yaşadığı göstərilmişdir.

1886-cı ilin statistik məlumatlarında belə bir qeyd var ki, 1883-cü ilə qədər kənddə cəmi 10 müsəlman kürd ailəsi qalmışdı və onlar da həmin il öz torpaqlarını Avşar kəndinin 12 sakininə satıb gediblər. 1886-cı il üçün əhalinin siyahıya alınmasında isə Keşişdağ kəndində 12 təsərrüfatda 84 nəfər (46 kişi, 38 qadın) Azərbaycan türkünün yaşadığı barədə məlumat verilmişdir. Görünür, bunlar 1883-cü ildə Avşar kəndindən köçüb gələn həmin adamlar imişlər. Bundan əlavə, kənd əhalisinin 29 nəfərinin (17 kişi, 12 qadın) bəy ailəsinə mənsub olduğu barədə də həmin mənbədə məlumat var.

Kəndin adının **Keşişdağ** dağının adından götürüldüyü şübhəsizdir. Dağın adı isə əslində **Keçiddağ** olmuş, sonralar yerli tələffüzə uyğun olaraq **Keçişdağ, Keşişdağ** şəklinə düşmüşdür. Bunu Keçiddağ kəndinin İ.Şopendəki yazılış forması **(Keçikli//Keçidli)** və bölgədəki eynitipli digər kənd adları da təsdiq edir. Bu barədə kitabın Keşişverən bölməsində ətraflı bəhs etmişik.

Xatırladırıq ki, Keşişkənd adlı, **keşiş** komponentli xeyli kənd (İrəvan əyalətinin Məzrə, Zarzəmin, Göyçə nahiyələrində, Dərələyəz qəzasında Keşişkənd kəndləri; Vedibasarda Keşişverən kəndi, Maku nahiyəsində Keşişarxı kəndi, Göyçə və Sisian mahallarında Keşiş kəndləri) olmuşdur ki, bunların da, təbii ki, Cənubi Qafqaza ermənilərin kütləvi axınından (XVIII yüzilin sonu – XIX yüzilin əvvəlləri) çox-çox öncədən mövcud olması



onların "erməni keşişi" anlamını bildirməsini istisna edir. Bu kəndlərin coğrafi mövqeyi də onların **keçid** mənalı **keçiş//keşiş** sözündən törəməsini təsdiqləyir.

* * *

Kəndin ən faciəli hadisəsi 1919-cu ilin ilk yanvar günlərində ermənilər tərəfindən kənddə törədilmiş soyqırımı olmuşdur. Hadisə aşağıdakı şəkildə baş vermişdi.

Həmin günlərdə kəndə 18-20 nəfər erməni gəlir. Onlar adamları inandırmağa çalışırlar ki, bu erməni-müsəlman davası müsəlmanlar kimi, onları da təngə gətirib və onlar daşnak ordusundan qaçıb, müsəlmanlara sığınıblar. Kənddə bir neçə gün "qonaq" qalan ermənilərə bir gün gecə ikən kömək gəlir. Onlar camaatı iclas adına yığıb, qəfil mühasirəyə alıb, gülləyə tuturlar. Bu faciədən xəbər tutan Kərbəlayı İsmayıl qardaşı oğlu Məhərrəm Pənah oğlu, öz oğlanları və dəstənin digər üzvləri ilə dərhal hadisə yerinə gəlir. O vaxt kəndə çatırlar ki, gözlərini qan örtmüş ermənilər sağ qalmış müsəlmanları balta ilə doğrayıb yandırdıqları böyük tonqala atırlar. Təzədən döyüş qızışır və daşnaklar böyük təlefat verirlər. Lakin artıq gec idi. Kənd əhalisinin əksəriyyəti qətlə yetirilmişdi. Təkcə Səttaruşağı nəslindən 27 nəfər öldürülmüşdü. Bu, həmin Səttar uşağı nəslidir ki, onun nümayəndəsi **MUSA SƏTTAROV** həmin faciədən sonra Abbasqulu bəy Şadlinskinin dəstəsinə qoşulmuş, erməni daşnaklarına qarşı mübarizənin əsas qəhrəmanlarından birinə çevrilmişdir.



1929-cu ildə Vedibasarın Cığındərə bölgəsində Kərbəlayı İsmayılın başçılığı ilə qaldırılan qiyama qoşulduğu üçün repressiya illərində həbs edilib 10 il müddətinə Qazaxıstanın Cambul vilayətinin Sverdlovsk rayonuna sürgünə göndərilən M.Səttarov 1960-cı ildə Bakıya qayıdır və 1969-cu ildə Bakı şəhərində də vəfat edir.

# KEŞİŞVERƏN (KEŞİŞVİRANI)

Vedibasar mahalının Çanaxçıdərə bölgəsində, Vedi rayonunun mərkəzi olan Böyük Vedi qəsəbəsindən 34 km cənub-şərqdə, Çanaxçı çayının sağ axarında, Ağrıdağ vadisi – Dərələyəz-Zəngəzur xətti boyunca Azərbaycanın Cənubu ilə Şimalını birləşdirən Bağırsaq dərəsindən keçən tarixi ipək yolunun üstündə kənd.

1828-ci ilə qədər kənddə ancaq Azərbaycan türkləri yaşamışlar. İrəvan xanlığı Rusiya tərəfindən işğal olunduqdan sonra kəndə İrandan gəlmə ilk erməni ailələri yerləşdirilmişdir. O vaxtdan kənddə ermənilər yaşamışlar.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) kəndin adı Dərələyəz nahiyəsinin **Keşişviranı kəndi** kimi qeyd olunmuşdur. Kənddən dövlətin müxtəlif vergilər şəklində ildə 3.000 ağça gəlir götürdüyü göstərilmişdir.

İ.Şopendə (1832) və sonrakı mənbələrdə kəndin adı **Keşişviran//Keşişverəndir.**



**Keşişverən kəndinin ümumi görünüşü**

Kəndin adının istər birinci variantında (Keşişviranı), istərsə də sonrakı variantında (Keşişverən) adın ilk komponenti **"keşiş"** sözüdür. Türk dilində olan bu sözün, əslində, Vedibasar ərazisinə çox-çox sonralar gəlmiş ermənilərə heç bir dəxli yoxdur. Dilçi professor Həsən Mirzəyev bu sözün öncə **"keçiş"** (**keçid** mənasında) formasında olub, sonralar **"keşiş"** şəklinə düşməsini və ya **keş//kiş** tayfa adı ilə bağlı olmasını elmi şəkildə sübuta yetirmişdir. (V.Radlov da **"keşiş"** sözünü **"keçid"** sözünün sinonimi hesab etmişdir). Kəndin yerləşdiyi coğrafi ərazi (Bağırsaqdərə karvan yolunun üstündə olması, bu yolun Vedibasar mahalı ərazisindən Dərələyəz mahalının dağlıq ərazisinə sonuncu keçid məntəqəsi rolunu oynaması) və bölgədə keş komponentli bir neçə toponimin mövcudluğu (Keşişverən, Keşişkənd, Keşişdağ və s.) adın etimologiyasının hər iki variantda izahını məqbul edir.

Yeri gəlmişkən, Azərbaycan Respublikasında da **keş// kiş** komponentli çoxlu toponim mövcuddur: Sumqayıtda, Siyəzəndə Keşçay çayı, Qazax rayonunda Keştəpə dağı, Şəki rayonunda Kiş çayı, Kiş qalası, Kiş kəndi, Quba rayonunda Kişbaş çayı, Bakıda Keşlə qəsəbəsi, Şərurda Keştaz kəndi, İsmayıllıda Keşkurt kəndi, Qax rayonunda Keşqutan və s. Bundan əlavə, İranda Kiş adası, Özbəkistanda Kiş qəsəbəsi (Böyük Teymurun anadan olduğu yer), Baş Qafqaz silsiləsində Keşunkar zirvəsi və s. də var.

Adın **"verən"** komponentinə gəldikdə isə, təbii ki, ilkin variantındakı **"viran"** sözündəndir və **"Keçiddəki viranə kənd"** anlamındadır. Məsələ ondadır ki, Vedibasarda **viran** sözü **veran** kimi tələffüz olunur. Bu da səhv olaraq sonrakı mənbələrdə **verən** şəklində qəbul olunmuş, yazılmışdır.

Digər tərəfdən, 1727-ci ilə aid mənbədə kənddə heç kimin yaşamadığı, buradakı 2 dəyirmanın yararsız halda olduğu barədə də qeyd var. Başqa kəndlərdən gəlib burada əkin-biçin işləri görənlərdən dövlətin müxtəlif vergilər şəklində götürdüyü illik gəlir isə 3.000 ağça təşkil edirdi.

1832-ci ildə kənddə 9 təsərrüfatda 43 nəfər (22 kişi, 21 qadın) İrandan qaçıb gəlmiş erməni qeydə alınmışdır. Bu yerdə təbii sual ortaya çıxa bilər: qədim türk tayfalarının yaşadığı bu kənddə necə olmuşdur ki, birdən-birə ermənilər peyda olmuşdur? Təbii ki, bu, Cənubi Qafqazı işğal edən rusların burada yeritdiyi qəddar imperiya siyasətinin acı nəticələri idi. Keşişverən kəndi də bu siyasətin qurbanı olmuş, 1826-1829-cu illər Rusiya-İran, Rusiya-Osmanlı müharibələrindən sonra Azərbaycan türk-

lərindən boşaldılmış Keşişverən kəndində yadelli ermənilər gətirilib yerləşdirilmişdilər.

Bundan əlavə, İ.Şopendə kənddə 1 qədim kilsə xarabalığının mövcudluğu barədə qeyd də var. Şübhəsiz ki, bunun son 2-3 ildə (1828-1830-cu illərdə) bura köçən ermənilərə heç bir aidiyyatı ola bilməzdi.

1873-cü ildə kənddə 26 təsərrüfatda 288 nəfər (163 kişi, 125 qadın) erməni və 1 kilsə qeydə alınmışdır.

1886-cı ildə kənd əhalisinin sayı 31 təsərrüfatda 344 nəfərə (222 kişi, 122 qadın) çatmışdır. Kənd iqtisadiyyatında əkinçilik və maldarlaq xüsusi yer tutmuş, kəndin 535 desyatin torpaq sahəsinin 2,5 desyatinini malikanə torpaqları, 1 desyatinini meşə zolağı, 15 desyatinini suvarılan, 249 desyatinini suvarılmayan əkin yerləri təşkil etmişdir. Kənddə 259 iribuynuzlu, 979 xırdabuynuzlu mal-qara qeydə alınmışdır.

Kəndin torpaqları **Alçalı** bulağının suyu ilə suvarılmışdır.

Kəndin 15 verstliyində, Qaşqa kəndi yaxınlığında 180 desyatin ərazidə **Gölyurd** və **Cında-Dübəkdaşyurd** adlı yaylaq yerləri olmuşdur ki, bu yaylaq yerləri kənd əhalisinin istifadəsinə 1866-cı ildə müsəlman bəylərindən alınaraq verilmişdi.

Bundan əlavə, **Ballıqaya-ağıl** adlanan yerdə kəndin 240 desyatin qışlaq yeri də olub.

1935-ci il yanvarın 3-də kəndin adı dəyişdirilərək Zovaşen, 1967-ci il oktyabrın 21-də isə yenə dəyişdirilərək Urtsalanc qoyulmuş, beləliklə, kəndin adının türkcə olan ilkin variantı itirilmişdir.



## KƏNİZƏK (YUXARI, AŞAĞI KƏNÜZ)

Vedibasar mahalında kənd. Kəndin dəqiq coğrafi koordinatlarını müəyyənləşdirə bilmədik.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) və "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) kəndin adı Vedi nahiyəsinin **Kənizək kəndi** şəklində qeydə alınmışdır. İkinci mənbədə İsmayıl adlı şəxsin kənddə olan timarından dövlətin müxtəlif vergilər şəklində götürdüyü illik gəlirin 3.000 ağça olduğu da göstərilmişdir.

1728-ci ilə aid həmin mənbədə Vedi nahiyəsində **Aşağı Kənüz** və **Yuxarı Kənüz** adlı daha iki kənd qeydə alınmış, Xəlil adlı şəxsin kəndlərdəki timarından dövlətin müxtəlif vergilər şəklində götürdüyü illik gəlirin 3.000 ağça məbləğində olması qeyd edilmişdir.

Ad oxşarlığına görə biz onları eyni kənd **(Kənizək)** hesab edirik. Sonrakı mənbələrdə kəndin adına bir daha rast gəlmirik.

Kəndin adının etimologiyasına gəldikdə isə, öncə xatırlatmaq istərdik ki, Qərbi Azərbaycan ərazisində Kənzək (Dərəkənd-Parçenis və Göyçə mahallarında), Kənizək (Qırxbulaq, Vedi, Abaran, Dərələyəz və Sürməli nahiyələrində) adlı bir çox kəndlər mövcud olmuşdur. Azərbaycan Respublikası ərazisindəki Kənizdağ (Qobustan), Gənzədağ, Kənzə kəndi (İsmayıllı rayonu), Kəzə kəndi (Naxçıvan) və başqa toponimlər də eyni mənşəlidir. Bütün bu adların kökündə ərəbcə **"atəşpərəst məbədi"** mənasını verən **"kəlisə"** sözünün dayandığı da ehtimal olunur (B.Budaqov, Q.Qeybullayev).

Lakin biz belə hesab edirik ki, adın birinci komponenti **kənd** sözündən (xatırla: Balakən və s.), ikinci komponenti isə Vedibasar toponimlərində geniş iz qoymuş **uz//az** türk tayfa adından ibarətdir. Adın **Kənüz** variantı da onun **uz** tayfalarının kəndi olmasını təsdiq edir.

## KƏRKAB

Vedibasar mahalının Cığındərə bölgəsində, Çimən kəndindən 3 km Yuxarı Qarabağlar kəndinə doğru, Vedi çayının kənarında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

Böyük Vedidən Kolanı yolu ilə gedəndə əvvəl Kərkab qayası, sonra Kərkab kəndi, sonra isə Qarabağlar kəndi gəlirdi.

Sonralar əhalisi köçüb qonşu kəndlərə getmiş, kənd xaraba qalmışdı.

Kərkab kənd adı Qərbi Azərbaycan və Azərbaycan Respublikası ərazilərindəki Kər, Kərk, Kərki komponentli çoxlu kənd adlarının əksəriyyəti ilə mənşəcə eynidir. Xatırladaq ki, Vedibasar ərazisindəki kəndlərdən biri də məhz Kərki adlanırdı. Nəzərə alsaq ki, bu toponimlərin çoxu bölgədə qədimdən məskunlaşmış **Gərgər (Qarqar)** türk tayfasının adından törəmədir, onda ehtimal edə bilərik ki, Kərkab kənd adı da bu tayfa adından yaranmışdır və bəlkə də ilkin variantlarda **Gərg-alp** və ya **Gərg-oba** şəklində olmuş, sonralar Kərkab şəklinə düşmüşdür.

1918-1921-ci illərdə Abbasqulu bəy Şadlinskinin başçılığı ilə erməni daşnaklarına qarşı qəhrəmanlıqla döyüşən Vedibasar dəliqanlılarından biri də məhz **Kərkablı Bəhlul** olmuşdur. 1929-1931-ci illərdə isə Kərbəlayı İsmayılın Sovet hökumətinə qarşı qaldırdığı qiyamın fəal üzvlərindən biri olan Kərkablı Bəhlul Abbasqulu bəyin qaçaqlar tərəfindən öldürülməsi hadisəsinin iştirakçısı olmuş, qiyam yatırıldıqdan sonra Kərbəlayı İsmayılın dəstəsi ilə birgə Türkiyəyə keçmişdir. Türkiyənin İqdır vilayətinin Aralıq mahalının Daşburun kəndində məskunlaşan Kərkablı Bəhlulun sonuncu dəfə sorağı gələndə onun 110 yaşı varmış.



## KİÇİK BAĞÇACIQ

Vedibasar mahalının Cığındərə bölgəsində, Vedi çayının sol kənarında, Bağçacıq kəndinin aşağısında, Daşnovun altında kənd.

Kənddə ancaq Azərbycan türkləri yaşamışlar.

XVII yüzildə Cənubi Azərbaycandan gələn Qarapapaq tayfa nümayəndələri Vedibasar mahalında Bağçacıq kəndi salıb, burada məskunlaşandan xeyli sonra, təxminən XVIII yüzildə yenə də Cənubi Azərbaycandan bu dəfə **Alapapaq** adlı tayfa nümayəndələri gəlib Bağçacıq kəndinin aşağısında yurd salırlar. Həmin Alapapaq nümayəndələri **Kərbəlayı Ələkbər uşağı** nəsli kimi tanınırlar.

Böyük Baxçacıq kəndinin aşağısında salınmış bu kiçik kənd elə adını da Bağçacıq kəndinin adından götürür və **Kiçik Bağçacıq** adlanır.

Az sayda evdən ibarət olduğundan onun bütün statistik göstəriciləri də Bağçacıq kəndi ilə bir yerdə qeydə alınmış və statistik məlumatlarda da belə getmişdir.

Sonralar bu kənd Bağçacıq kəndi ilə birləşmiş və eyni taleyi yaşamışlar.

Kəndin adının etimoloji izahı və bu adın yayılma arealı barədə Bağçacıq kəndindən danışarkən ətraflı bəhs etdiyimizdən bir daha təkrar eləmirik.

# KİÇİK GİLANLAR//KİÇİK GİLƏNAR (TAP GİLANLAR//TAP GİLƏNAR)

Vedibasar mahalının Millidərə bölgəsində, Qəmərli şəhərindən 28 km şimal-şərqdə, dəniz səviyyəsindən 167 m yüksəklikdə, Yellicə çayı kənarmda kənd.

1930-cu illərə qədər kənddə ancaq Azərbaycan türkləri, həmin tarixdən etibarən isə ermənilər yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) Gərni nahiyəsinin **Yuxarı Gilan,** "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) həmin nahiyənin **Kiçik Gilan** kəndi şəklində qeydə alınmışdır.

İ.Şopendə isə (1832) kəndin adı **Gilənar-Sufla** olmaqla Gərnibasar mahalının xaraba kəndləri siyahısında verilmişdir. Bu, kəndin 1826-1829-cu illər Rusiya-İran, Rusiya-Osmanlı müharibələri zamanı böyük dağıntılara məruz qalması ilə bağlı idi.

Kəndin əsl adının **Kiçik Gilanlar** olması, bu adın mənaaçımı və eyniadlı toponimlər haqqında kitabın "Böyük Gilanlar" bölməsində bəhs etdiyimizdən bu məsələyə bir daha qayıtmağı lazım bilmirik.

1873-cü ilin statistik məlumatlarına görə, Kiçik Gilanlar (mənbədə "Kiçik Gilənar") kəndində 10 ailədə 96 nəfər (58 kişi, 38 qadın) Azərbaycan türkü yaşamış, **Yellicə çayı** kənarında yerləşən bu kənddə qədim kilsə qalığı və qəbirüstü abidələr qeydə alınmışdır. Həmin vaxtlara qədər kənddə heç bir erməninin yaşamadığını nəzərə alsaq, yuxarıdakı fakt kəndin islama qədərki tarixi haqqında tutarlı bilgi verir.

1886-cı ildə kənddə əhalinin sayı 19 təsərrüfatda 167 nəfərə (84 kişi, 83 qadın) çatmışdır. Kəndin torpaq sahəsi çox az olsa da, burada əhalinin əsas məşğuliyyəti yenə də əkinçilik və heyvandarlıq olmuşdur. Kəndin 155 desyatin torpaq sahəsinin 2 desyatinini malikanə torpaqları, 90 desyatinini suvarılmayan əkin yerləri təşkil etmişdir. Kənddə 100 iribuynuzlu, 470 xırdabuynuzlu mal-qara qeydə alınmışdır.

Kiçik Gilanlar kəndinin İrəvan qəzasının **Çatmabulaq** yaylağında 347 desyatin ərazidə eyniadlı yurd yeri olmuş və kənd camaatı bu yaylaqdan qədimdən bəri istifadə etmişlər.



1897-ci ildə kənddə 178 nəfər, 1905-ci ildə 183 nəfər, 1914-cü ildə 201 nəfər azərbaycanlı yaşamışdır.

1918-1920-ci illər erməni-müsəlman davası zamanı erməni daşnakları tərəfindən məhv edilən kəndin qaçqın əhalisinin cüzi bir hissəsi – cəmi 11 nəfər bölgədə Sovet hakimiyyəti qurulduqdan sonra geri qayıdıb doğma kəndlərində yaşamağa başlamışlar. Elə həmin vaxtdan kənddə ilk qaçqın ermənilər də yerləşdirilmişlər.

Böyük Gilanlar kəndinə nisbətən dikdə, təpə üstündə salındığı üçün kənd həm də **Tap Gilanlar** adlanmışdır.

1926-cı ildə kənddəki azərbaycanlı əhalinin sayı 45 nəfər olmuşdur. Lakin tədricən onlar da kənddən çıxarılmış, kənddə ancaq ermənilər yaşamışlar.

1950-ci ildə Böyük Gilanlar kəndinin bütün əhalisi Azərbaycana deportasiya olunduqdan sonra Kiçik Gilanlar kəndi ləğv edilmiş, əhalisi Böyük Gilanlar kəndinə hazır müsəlman evlərinə köçürülmüşdür. Kiçik Gilanlar kəndi o vaxtdan xaraba qalmışdır.

# KİÇİK VEDİ

Vedibasar mahalının aran hissəsində, Ağrıdağ vadisində, İrəvan-Naxçıvan avtomobil yolunun kənarında, rayon mərkəzi olan Böyük Vedi qəsəbəsindən 15 km qərbdə, Vedi çayından ayrılan su arxının üstündə kənd.

1920-ci ilə qədər kənddə ancaq Azərbaycan türkləri yaşamışlar. 1921-ci ildən 1988-ci ilə qədər azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuşdur. 19880-ci ildə kəndin bütün azərbaycanlı əhalisi vəhşicəsinə qovulmuş, kənd bütünlüklə erməniləşdirilmişdir.

Kəndin adına ilk dəfə 1514-cü ildə tərtib edilmiş "Sultan Səlimin səfər ruznaməsi"ndə rast gəlirik. Həmin mənbədə 1514-cü il iyul ayının 26-da Sultan Səlimin Şah İsmayılla döyüşə gedən qoşunlarının Böyük Vedi və **Kiçik Vedi** kəndləri arasında düşərgə salmasından bəhs edilmişdir.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) və "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) də kəndin adı Vedi nahiyəsinin **Kiçik Vedi kəndi** kimi qeydə alınmış, üstəlik, ikinci mənbədə dövlətin müxtəlif vergilər şəklində kənddən götürdüyü illik gəlirin 10.000 ağça olduğu göstərilmişdir.



**Kiçik Vedi kəndinin ümumi görünüşü**

1728-ci ilə aid türk mənbələrində Böyük Vedi və Kiçik Vedi kənd adları həm də **Vadi-Kəbir** və **Vadi-Saqir** kimi qeyd olunmuşdur.

Kəndin Vedi adının etimoloji izahı ilə bağlı kitabın "Böyük



Vedi" bölməsində ətraflı bəhs etmişik. O ki qaldı adın "kiçik" komponentinə, təbii ki, bu, həmin ərazidə Kiçik Vedi kəndinə qədər də və ondan daha böyük başqa bir kəndin (Böyük Vedinin) mövcudluğu ilə bağlıdır.

İ.Şopendə (1832) kəndin adı **Vedi-Sufla** (yəni **Aşağı Vedi**) şəklində yazılmışdır. O vaxt kənddə 28 təsərrüfatda 166 nəfər (83 kişi, 83 qadın) müsəlman əhali qeydə alınmışdır. Xatırlatmağa dəyər ki, bu, o vaxt idi ki, Rusiya ilə İran və Osmanlı arasındakı çoxillik müharibə yenicə başa çatmışdı və bölgə ruslar tərəfindən işğal olunduğundan xüsusilə Arazboyu kəndlərin əksəriyyət əhalisi Arazın o tayına keçib getmək məcburiyyətində qalmışdılar.

1873-cü ildə kənddə 94 təsərrüfatda 639 nəfər (360 kişi, 279 qadın) Azərbaycan türkü qeydə alınmışdır.

1886-cı ildə Kiçik Vedi kəndində 106 təsərrüfatda 599 nəfər (361 kişi, 238 qadın), 1897-ci ildə 971 nəfər, 1914-cü ildə 1056 nəfər, 1916-cı ildə 1034 nəfər azərbaycanlı yaşamışdır.

1918-1920-ci illər erməni-müsəlman davası zamanı kənd daşnak təcavüzünün qurbanı olmuş, evlər yandırılmış, adamlar qətlə yetirilmiş, sağ qalanlar baş götürüb Arazın o tayına getmişlər.

1922-ci ildə kəndin qaçqın əhalisindən cəmi 186 nəfər geri qayıda bilmiş və bu vaxt artıq kənddə 193 nəfər Türkiyədən gəlmə ermənilərin yerləşdiyini görmüş, onlarla yanaşı yaşamağa məcbur olmuşlar.

1926-cı ildə kənddə 256 nəfər azərbaycanlı, elə o qədər də (256 nəfər) erməni yaşamışdır. 1931–ci ildə əhalinin nisbəti 379 nəfər azərbaycanlı, 295 nəfər erməni şəklində dəyişmişdir.

1946-cı ildə xaricdən gəlmə xeyli erməni Kiçik Vedi kəndində yerləşdirilmiş, 1949-1950-ci illərdə isə xeyli azərbaycanlı məcburi şəkildə Azərbaycana köçürülmüşlər.

1950-ci illərdə kəndin adı qeyri-rəsmi yolla sətri tərcümə edilərək **Pokr** (Kiçik) **Vedi** qoyulmuş, sonra bütün rəsmi sənədlərdə elə Pokr Vedi kimi də getmişdir.

1988-ci ildə kənddə yaşayan 200-dən çox azərbaycanlı ailəsi vəhşicəsinə kənddən qovulmuş, kənd tamamilə erməniləşdirilmişdir.

* * *

Kiçik Vedi kəndi Vedibasar mahalının ən böyük kəndlərindən biri idi. Kənddən Araz çayına qədər uzanıb gedən geniş düzənlikdə üzüm bağları, bostan, tərəvəz, taxıl sahələri yerləşirdi. Kəndin özündə meyvəçilik geniş inkişaf etmişdi. 1980-ci illərdə artıq kənd əhalisinin dörddə üçü erməni, qalanı azərbaycanlılar idi. Ermənilərin çoxu Qəmərli, Dəvəli, İrəvan şəhərlərinin sənaye müəssisələrində çalışırdılar.

Keçmişdə kənddə **Kərbəlayı İbrahim, Kərbəlayı Qəhrəman, Molla oğlu Həsən, Mehdi katda** kimi nüfuzlu şəxsiyyətlər olmuşdur.

Kiçik Vedidən **Əli İsmayılov** uzun müddət kənd orta məktəbinin direktoru işləmişdi. Lenin ordenli **Cəmil kişi, Yusif Hüseynov, Bilman Məmmədov** Sovet dövründə Kiçik Vedidə müxtəlif rəhbər vəzifələrdə çalışmışlar.

**Məhərrəm Əliyev** kənd sovetinin sədri, 1988-ci ilədək kənd kolxozunda rəhbər işlərdə işləmişdir. Kiçik Vedili **Sərtib Məmmədov** xeyli müddət Şəmkir rayonunda məktəb direktoru olmuşdur.

**Oruc Orucov, Ziba Məmmədova** son vaxtlara kimi Kiçik Vedi orta məktəbində müəllim işləyirdilər.

**Fərman Əkbər oğlu Rəhimov** 1927-ci ildə Kiçik Vedidə anadan olmuş, Böyük Vedidə 7 illik məktəbi bitirib, müəllim işləmiş, 1948-1953-cü illər deportasiyası zamanı Azərbaycanın Xanlar rayonunda məskunlaşmış, 1953-cü ildə Gəncədə kolxoz sədrləri hazırlayan üçillik məktəbi, 1964-cü ildə Kənd Təsərrüfatı İnstitutunu bitirmiş, uzun illər Xanlar rayonunda müxtəlif vəzifələrdə çalışmışdır. Oğlu **Novruz Rəhimov** 1954-cü ildə Xanlar rayonunda anadan olmuş, Azərbaycan Politexnik İnstitutunu bitirmiş, 1982-1995-ci illərdə Bakı şqəhərində MİS rəisi vəzifəsində işləmişdir. Hazırda Azərbaycan MEA Nizami adına Ədəbiyyat İnstitutunun direktor müavinidir.

1988-ci il faciəsi Vedi rayonunda iri miqyasda öncə Kiçik Vedi kəndini silkələdi. Fevral-aprel aylarında kiçik toqquşmalar, söz-söhbətlər, hədə-qorxular nəzərə alınmasa, elə bir ciddi hadisə baş verməmişdi. Aprelin 25-dən etibarən isə kənddə vəziyyət dəyişməyə başladı. Əvvəl-əvvəl kənddə erməni millə-



tindən yad adamlar göründü. Aprelin 26-da küçəyə çıxan azərbaycanlılar döyüldülər. Axşama yaxın kənd yad maşın və yad adamlarla doldu. Azərbaycanlılar küçələrdən çəkilib, öz evlərində, həyətlərində daldalandılar. Axşam saat 5-də 400-dən artıq erməni əllərində dəmir çubuq, lom, ağac, balta, daş, tüfəng, bıçaq və s. azərbaycanlı məhəllələrinə axışdı. Kənd ermənilərinin bələdçiliyi ilə azərbaycanlı evləri daş-dəmir yağışına tutuldu. Qapı-pəncərələr, damların şiferləri daş, balta ilə vurulub sındırıldı. İşıq və telefon xətləri kəsildiyindən kəndlər tamam təcrid olunmuş vəziyyətdə idi.

İnsidentə rayon milis şöbəsinin rəisi Papoyan rəhbərlik edirdi. Bir saatdan sonra onun göstərişi ilə də əməliyyat dayandırıldı. Bu müddət ərzində kənddə 27 ev daha çox dağıntılara məruz qaldı, telefon, işıq, qaz, su xətləri sıradan çıxarıldı.

Bu, xəbərdarlıq və kənd azərbaycanlılarını köçüb Azərbaycana getməyə təhrik idi.

May ayında Şirazlı kəndinə edilən daşnak hücumundan sonra isə Kiçik Vedi kəndinin əhalisi yavaş-yavaş köçüb Azərbaycana getməyə başladılar. Onlar üçün artıq aydın idi ki, Şirazlı camaatı kimi, onlar da tezliklə yeni və daha dəhşətli hücuma məruz qalacaqlar və buna görə heç kəs ermənilərə gözün üstə qaşın var deməyəcək. Azərbaycanlılara isə heç kəs sahib çıxıb, erməni təcavüzündən qorumayacaq. Çünki o vaxt Kremldə də, Bakıda da hakimiyyət başında ermənipərəstlər idi.

Həmin günlərdə kəndin sakinlərindən biri – 1958-ci il təvəllüdlü **Məmmədov Salman Məmməd oğlu** erməni daşnakları Kiçik Vedi kəndində tərəfindən işgəncə ilə qətlə yetirilmişdi.

Kiçik Vedi oğulları Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə də fəal iştirak etmişlər. Onlardan **Xanlar Bəylər oğlu Əzimov** 1994-cü ildə Beyləqan, **Əbülfət Dadaş oğlu Kərimov** isə 1994-cü ildə Tərtər istiqamətində gedən ağır döyüşlərdə qəhrəmanlıqla şəhid olmuşlar.

Kiçik Vedinin yetirməsi olan ziyalılar sırasında da öz elini-obasını ləyaqətlə təmsil edən çoxlu oğullar vardır. Təəssüf ki, onlar haqqında əlavə məlumat toplamaq cəhdlərimiz baş tutmadı. Onlardan biri – tanınmış müğənni **Nağı Bəhramoğlu** öz şux mahnıları ilə bu gün də xalqının sevimlisidir.

Kiçik vedililərin bir qismi bu gün həm də Türkiyədə, xüsusilə İqdır mahalının Cütlük kəndində yaşayırlar. İstanbulda uzun illər ali məktəb müəllimi işləmiş məşhur riyaziyyatçı alim **Əli Aran** da əslən Kiçik Vedi kəndindən idi.

**Kiçik Vedi azərbaycanlılarınının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| Mal-qara üçün bina – | 11 əd |
| İribuynuzlu mal-qara – | 1400 baş |
| Xırdabuynuzlu mal-qara – | 5000 baş |
| Donuz – | 1000 baş |
| Toyuq – | 12000 baş |
| Üzüm bağı – | 270 ha |
| Meyvə bağı – | 200 ha |
| K/t maşınları – | 70 əd |
| Avtomaşınlar – | 50 əd |
| Qaraj – | 2 əd |
| Taxıl ambarı – | 1 əd |
| Yanacaq ambarı – | 1 əd |
| Dülgərxana – | 2 əd |
| Dəmirçi sexi – | 1 əd |
| Artezian quyusu – | 10 əd |
| Su nasos stansiyası – | 6 əd |
| Enerji şəbəkəsi – | 8 əd |
| İdarə binası – | 1 əd |
| Məktəb – | 2 əd |
| Klub – | 1 əd |
| Poçt – | 1 əd |
| Pavilyon – | 1 əd |
| Xəstəxana – | 2 əd |
| Uşaq bağçası – | 1 əd |
| Mağaza – | 7 əd |
| Yeməkxana – | 2 əd |
| Hamam – | 1 əd |



## KAZIM ƏLƏKBƏR OĞLU ƏLƏKBƏROV



1960-cı il noyabrın 21-də Kiçik Vedi kəndində anadan olmuşdur.

1977-ci ildə Kiçik Vedi kənd orta məktəbini bitirib, Moskva şəhərinə getmiş və 1982-ci ildə P.Lumumba adına Xalqlar Dostluğu Universitetinə daxil olmuş, 1988-ci ildə oranı bitirmişdir.

1990-cı ildə isə Moskva şəhərində Hüquq Akademiyasına qəbul olunmuşdur. Burada da təhsilini böyük uğurla başa vuran K.Ələkbərov hazırda Rusiya Federasiyasının Ədliyyə sistemində yüksək vəzifələrin birində çalışır. Ədliyyə polkovniki rütbəsinə yüksəlmişdir.

Ailəlidir, bir oğlu, bir qızı var.

Moskva şəhərində və bütün Rusiyada Azərbaycan diasporunun təşkilatlanmasında mühüm rolu vardır.

## KİROV QƏSƏBƏSİ (2 SAYLI SOVXOZ)

Vedibasar mahalının aran hissəsində, Ağrıdağ vadisində, rayon mərkəzi olan Böyük Vedi qəsəbəsindən 14 km qərbdə, İrəvan-Naxçıvan avtomobil yolunun üstündə kənd.

Kənd Sovet hakimiyyətinin ilk illərində xaricdən gətirilən ermənilərin yerləşdirilməsi üçün salınmış, **2 nömrəli sovxoz** kimi nömrələnmiş və tanınmışdır. Kənddə ermənilər və yezidi kürdlər yaşamışlar.

1930-1932-ci illərdə sovxoz sırf pambıq əkini ilə məşğul olmuşdur. Lakin pambığın məhsuldarlığı çox aşağı olduğu üçün 1933-cü ildən etibarən sovxozun torpaqlarında üzüm bağları salınmağa başlanır. Elə o vaxtdan da sovxoz üzümçülük təsərrüfatı kimi məşhurlaşır.

Sovxoz-kənddən 2 km kənarda tikilən üzüm emalı – şərabçılıq zavodu ətrafında isə yeni Şampan (Şərab zavodu) qəsəbəsi yaranır.

1939-cu il oktyabr ayının 22-də bu 2 saylı sovxoz-kəndin adı dəyişdirilərək inqilabçı S.M.Kirovun şərəfinə **Kirov qəsəbəsi** qoyulur.



## KOLANLI (CİRMANİS)

Vedibasar mahalının Cığındərə bölgəsində, Vedi çayının kənarında, Güleylan çayının Vedi çayına töküldüyü yerin yuxarısında, Qızılvərən dağının ətəyində kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) Vedi nahiyəsinin **Cərmaris kəndi,** "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) həmin nahiyənin **Cərmanis kəndi** şəklində qeydə alınmışdır. İkinci mənbədə kənddə Süleyman və Əhməd adlı şəxslərin timarı olduğu və bu timarların hər birindən dövlətin müxtəlif vergilər şəklində götürdüyü illik gəlirin 4200+4200, cəmi 8400 ağça təşkil etdiyi göstərilmişdir.

İ.Şopendə (1832) kəndin adı **Cirmanis** kimi yazılmış, kənddə 24 təsərrüfatda 105 nəfər (61 kişi, 44 qadın) müsəlman əhalinin yaşadığı qeyd olunmuşdur.

Kəndin adının etimologiyası barədə mövcud fikirlərdən biri adın ilkin variantda **Çarma-Naus** olması və türk dillərində **"atəşpərəst məbədi"** anlamı verməsi barədəki mülahizədir (B.Budaqov, Q.Qeybullayev). Digər fikrə görə, toponim **"çətin keçilən kolluq"** mənasında **"çir"** sözündən və Manas şəxs adından əmələ gəlmişdir (B.Budaqov, Q.Qeybullayev). XIX yüzilin sonlarına aid bir mənbədə toponimin Çir Manis kimi yazılması da bu fikrə əsas vermişdir. Qərbi Azərbaycan ərazisində **"çir"** komponentli çoxlu toponimin (Çirviz, Çiriş, Çiryuxla, Çiraylı və s.) mövcudluğu isə bu adın etimologiyası üzərində daha dərindən düşünməyə təhrik edir. Xüsusilə **Çirxan** toponimi (Düzkənd rayonunda) **çir** komponentinin etnonim səciyyəsinə ciddi işarədir. Belə olan surətdə aydındır ki, toponim peçeneqlərin **Çor** tayfasının adından əmələ gəlmişdir. İlkin variantında **Çormanus** olan bu etnotoponim **Çormanlar** mənasını bildirmişdir.

1873-cü ilin statistik məlumatlarında kəndin adı Cırmanis şəklində yazılsa da, ikinci ad kimi həm də **Ce Kolanı,** yəni **Cirmanis Kolanı** qeydi var.

Həmin mənbədə kənddə 55 təsərrüfatda 545 nəfər (288 **kişi,** 257 qadın) Azərbaycan türkünün yaşadığı göstərilmişdir. Kən-

din kənarında qədim kilsə qalıqları, qəbirüstü xristian abidələri qeydə alınmışdır.

1886-cı ilin məlumatlarında Cirmanis kəndinin ikinci adı kimi bu dəfə Kolam yox, **Kolanlı** işlədilir. Həmin ildə kənddə 64 təsərrüfatda 663 nəfər (356 kişi, 307 qadın) Azərbaycan türkü yaşamışdır. Kəndin 1644,58 desyatin torpaq sahəsinin 5,2 desyatinini malikanə torpaqları, 56,63 desyatinini suvarılan, 581,25 desyatinini suvarılmayan əkin yerləri təşkil etmişdir. Kəndin 788 iribuynuzlu, 1009 xırdabuynuzlu mal–qarası olmuşdur.

Kəndin torpaqları **Qızılverən**, **Çınqıllıbulaq** və **Böyükbulaq** bulaqlarının suyu ilə suvarılmışdır.

Kolanlının İrəvan qəzasındakı **Yellicəyurd** və **Məmmədabad** yaylaqlarında 325 desyatin ərazini əhatə edən eyniadlı yurdları olmuşdur. Kənd camaatı bu yaylaqlardan qədimdən istifadə etmişlər.

O ki qaldı 1873-cü ildən sonrakı mənbələrdə Cirmanis kəndinin ikinci adı kimi işlənən və XX yüzilin əvvəllərinə qədər Cirmanis adını sıxışdırıb arxa plana keçirən Kolanlı (yəni Kolanılı) toponiminə, aydındır ki, bu toponim Kolam türk tayfasının adını daşıyır. Tarixdən məlumdur ki, XVIII yüzilin 1-ci yarısında Nadir şah Əfşar tərəfindən Cənubi Azərbaycandan Qafqaza köçürüldüyü ehtimal olunan bu tayfa öncə Qərbi Azərbaycanda, Naxçıvanda məskunlaşmış, Vedibasarın Cığın dərəsindən keçərək Qarabağda, Şirvanda yurd salmışlar. Buna görə də Kolanı tayfasının ən sıx yaşadığı yerlər Vedibasar mahalının Cığındərə bölgəsi (burada Kolanıların 8 kəndi vardı: Kolanlı, Xınıt, Qaratorpaq, Xartlıq, Qızılxaraba, Kom, Rəşoğlu, Almalıq) və Qarabağdakı Kolanlı mahalı ərazisi (təxminən 14 kənd) idi.

Qərbi Azərbaycanda isə aşağıdakı Kolanı kəndləri qeydə alınmışdır: Kolanlı (Göyçə mahalı), Kolanı Aralıq, (Eçmiədzin qəzası), Kolanıqıran (Yeni Bəyazid qəzası), Kolanı (Dərələyəz mahalı), Kolanılı (Üçkilsə rayonu) və s. Azərbaycan Respublikası ərazisində Qarabağdakı tarixi Kolanı mahalından başqa, Sabirabid, Şahbuz, Dəvəçi, Salyan rayonlarında da Kolanı kəndləri mövcuddur. Naxçıvanda Kolamçay, Kolanı kahası, Gəncəbasarda Kolandağ, Kolanı dərəsi toponimləri var. Hamazaspın öz daşnak başkəsənləri ilə Quba bölgəsində məhv ediyi kəndlərdən biri də Kolanlı adlanmışdır.



Kənddə 1897-ci ildə 886 nəfər, 1916-cı ildə 939 nəfər azərbaycanlı yaşamışdır.

1919-1920-ci illər erməni-müsəlman davası zamanı kənd daşnaklar tərəfindən dağıdılmış, əhalisi doğma yurdundan zorakılıqla qovulmuşdur.

Sovet hakimiyyətinin ilk illərində kəndin qaçqın əhalisindən cəmi 207 nəfər geri qayıda bilmişdir. Onların sayı 1926-cı ildə 300 nəfərə, 1931-ci ildə 430 nəfərə çatmışdır.

1929-1931-ci illərdə Kərbəlayı İsmayılın başçılığı ilə Sovet hakimiyyətinə qarşı silahlı qiyam qaldıran cəsur vedibasarlıların əsas dayaq məntəqələrindən biri də Kolanlı kəndi olmuşdur. Kərbəlayı İsmayıl qərargahını çox vaxt burada yerləşdirirdi.

1937-1948-ci illərdə Qarabağlar rayonunun tərkibində mövcud olmuş kəndin əhalisi 1949-cu ildə məcburi şəkildə Azərbaycana – Milin, muğanın ilan mələyən susuz çöllərinə köçürürlər. Köçürülən zaman Kolanlı kəndində 106 ev vardı ki, bunlarda da 140 ailədə 900 nəfərə qədər azərbaycanlı yaşayırdı.

Az sonra həmin ailələrdən bir qismi böyük çətinliklə geri – doğma kəndlərinə dönə bilir. Lakin artıq onların Kolanlıdakı abad evlərinə Qaranlıq (Martuni) rayonunun kəndlərindən xeyli erməni gətirilib yerləşdirilmişdi. Bir qədər sonra isə geri qayıdan azərbaycanlılar rayonun erməni rəhbərliyinin təzyiqi ilə zorla kənddən çıxarılaraq yenidən Azərbaycana geri qaytarılırlar. Bir-iki ailə qonşu Bağçacıq kəndinə pənah aparır. İ.V.Stalinin ölümündən sonra geri qayıda bilən ailələr də Bağçacıq kəndində məskunlaşırlar.

Lakin tezliklə ermənilər daha bir hiyləyə əl atırlar. Kiçik dağ kəndlərini perspektivsiz kəndlər kimi ləğv edərək, onları daha böyük aran kəndləri ilə birləşdirmək bəhanəsi ilə 1957-ci ildə Bağçacıq əhalisinin Xalisa kəndinə köçürülməsi barədə qərar çıxarırlar. Beləliklə, əslən kolanlılı olan bir sıra ailələr Xalisada məskunlaşırlar. Təbii ki, mahalın başqa aran kəndlərinə köçənlər də olur. Onlar da 1988-ci ildə Vedibasarın bütün digər əhalisi kimi, yenidən və artıq neçənci dəfə deportasiyaya məruz qalırlar.

1957-ci ildən sonra Kolanlı kəndinin özü də xarabalığa çevrilir.

* * *

Kolanlı Vedibasar mahalının ən abad, varlı, bağ-bağatlı kəndlərindən biri idi. Çay, qaya daşından tikilmiş, evləri çayın kənarı boyunca orda-burda ərik, alma, ceviz ağaclarının içinə səpələnmişdi. Kəndin aşağısından yuxarı başına qədər təxminən iki kilometrlik yol uzanırdı. Yolun hər iki tərəfi ağaclarla çətirləndiyindən bura yaşıl xiyabanı xatırladırdı.

Kolanlı kəndində 4 tayfanın – **Sədirli, Mirzəxanlı, Zamanlı, Bəylər** tayfalarının törəmələri yaşayırdılar. **Sədirli tayfası Usub uşağı, Muradlar, Vəli uşağı, Qərib uşağı qollarına, Mirzəxanlılar tayfası Qasmalılar, Qarsu qollarına** ayrılırdı. Bu tayfa adlarına uyğun olaraq da kənddə eyniadlı məhəllələr vardı.

Sədirlilər tayfasına Usubuşağı da deyirdilər. Onlar dərənin günçıxanında, kəndin yuxarısında, Zamanlılar dərənin günbatanında, kəndin aşağısındakı yastanada yerləşirdilər. Mirzəxanlılar Zamanlıdan yuxarıda, **Sarıqayada, Şiş dağının** döşündə yurd-yuva salmışdılar. Xartlıq tərəfdə, dərənin boğazında Qərib uşaqları yaşayırdılar.

Kolanlıda hər tayfanın, hətta nəslin öz qəbiristanlığı olub. Ölüləri ayrı-ayrı qəbiristanlaqlarda dəfn etsələr də, ümumə aid məsələlərdə hamısının sözü bir idi, yumruğu bir yerə vurur, birbirlərinin təəssüb və qeyrətini çəkirdilər.

Bununla belə, kəndin qədim yaşayış yeri olduğunu təsdiqləyən qədim qəbiristanlığı da vardı. Bu qəbiristanlıqda boyu 3 metrə çatan çoxlu Oğuz qəbirlərinin olması bu yerin qədimlərdən bəri türk tayfalarının vətəni olduğunu sübut edirdi. Qəbiristanlığı sel yuyub aparanda buradan iri saxsı küplər çıxmışdı. Bu küplərin içərisində insan sümükləri və ərzaq qırıntılarının izləri aşkar edilmişdi.

Kolanlıda su dəyirmanının iri daşları üzərində adamlara tanış olmayan hərflərlə çoxlu yazılar vardı. Kəndin mərkəzində bəzəkli daşlardan tikilmiş qədim məbədin divarları dururdu. Daşlar üzərindəki xaç şəkilləri, heç şübhəsiz, bu yerin islama qədərki yüksək xristian – arman və ya alban mədəniyyətinin qalıqları idi. Çünki burada tarix boyu heç vaxt ermənilər yaşamamışlar. Buradakı başqa bir qədim abidənin hasarları içərisində dəyirman daşına bənzər dairəvi, ortası deşik, nəhəng bir daş



varmış. Deyirmişlər bu, bəzirgan daşıdır, bu daş vasitəsilə keçmişdə bitkilərdən yağ alırmışlar.

Kəndin sayılıb-seçilən adamları sırasında Əsgər bəyin böyük nüfuzu vardı. Həm dövlət, həm də kənd adamları onunla hesablaşardılar. Kərbəlayı İsmayılın yaxın dostu idi.

Kolanlının üstündə **Ağ yarğan** deyilən yer vardı. Torpağı ilə evləri ağardırdılar.

Kolanlının üstündə iki sərin bulaq da vardı: bir tərəfdə **Böyük bulaq**, digər tərəfdə **Şafşarın bulağı**.

Bundan əlavə, Kolanlıdan yuxarıda **Şişdağ** adı ilə iki dağ vardı. Bu dağlardan biri kəndin Sədirli tayfasının, digəri Qasmalı tayfasının yeri idi.

Kolanlının aşağısında **Qara qaya** adlı böyük qaya vardı. Gün batanda Bağçacıq tərəfdən baxanda qayanın daşı tamam qaralır və qapqara olurdu. Buna görə də qaya Qara qaya adını almışdı.



Kolanlı kəndindən bir sıra dəyərli şəxsiyyətlər çıxmışdır. Onlardan **BƏŞİROV CƏMALƏDDİN NƏSİB OĞLU** 1921-ci ilin yanvarında Kolanlı kəndində anadan olmuş, İrəvan pedaqoji texnikumunu bitirdikdən sonra doğma kəndlərində əvvəlcə müəllim, sonra isə həmin məktəbin direktoru işləmişdir.

1943-cü ildə cəbhəyə getmiş, bölük komandirləri məktəbini bitirdikdən sonra bölük komandiri kimi ön xəttə göndərilmişdir. 1945-ci ilin dekabrında ordudan tərxis olunub qayıdaraq öz kəndlərində əvvəl dərs hissə müdiri, sonra isə məktəb direktoru işləmiş, 1950-ci ildə dövlətin qərarı ilə Azərbaycan SSR-in Salyan rayonuna köçürülmüşlər. Elə həmin il APİ-nin tarix fakültəsini bitirmişdir.

1953-cü ildə Salyan rayon Sarvan kənd 7 illik məktəbinin direktoru təyin olunmuş, 1955-1963-cü illərdə Salyan rayon Çuxanlı kənd orta məktəbinin direktoru, 1963-1965-ci illərdə Salyan şəhər 2 saylı orta məktəbinin müəllimi, 1965-1969-cu illərdə Salyan şəhər 27 saylı dəmiryol məktəbinin direktoru, 1969-1971-ci illərdə Salyan şəhər 4 saylı məktəbinin direktoru, 1971-

ci ildən təqaüdə çıxana kimi isə Çuxanlı kənd orta məktəbinin direktoru işləmiş, 1997-ci il yanvarın 10-da vəfat etmişdir.

Cəmaləddin müəllimin 7 övladı, 18 nəvəsi var. Oğlu **Şahid-din Bəşirov** 1951-ci ildə Salyan rayonunun Boranıkənd kəndində anadan olmuşdur. 1986-cı ildən "Sənayetikinti" nazirliyinin 8 saylı trestinin 251 saylı Səyyar mexanikləşdirilmiş dəstəsinin rəisi işləyir.



**ƏLİ MƏHƏRRƏM OĞLU MƏMMƏDOV** isə 1923-cü ildə Kolanlı kəndində anadan olmuş, 1936-cı ildə Kolanlı kənd məktəbini, sonra isə İrəvan pedaqoji texnikumunu bitirib, Bağçacıq kəndində müəllimlik etmişdir.

Böyük Vətən müharibəsinin iştirakçısı olmuş, 1944-cü ildə ağır yaralanaraq ordudan tərxis olunmuş, 1944-1946-cı illərdə Qarabağlar rayon hərbi şöbəsinin müdiri, 1946-1949-cu illərdə həmin rayonun komsomol komitəsinin birinci katibi işləmişdir.

1950-ci il deportasiyası zamanı ailəlikcə Azərbaycanın Salyan rayonunun Şorsulu kəndinə köçürülsələr də, aran şəraitinə dözə bilməyərək, oradan Tərtər rayonunun Hacıqərvənd kəndinə köçməyə məcbur olmuşlar.

1951-1957-ci illərdə Hacıqərvənd kənd 8 illik məktəbində dərs hissə müdiri, 1957-1960-cı illərdə Tərtər rayon PK-də hərbi şöbənin və Siyasi-maarif evinin müdiri, 1960-1974-cü illərdə rayonun Qələbə kolxozunun sədri (elə həmin dövrdə – 1966-1971-ci illərdə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda ali təhsilini uğurla başa vurmuşdur), 1974-1979-cu illərdə N.Nərimanov adına kolxozun sədri, 1979-1980-ci illərdə rayon pambıq zavodunun müdiri, 1980-1997-ci illərdə meyvətingliyi sort-sınaq idarəsinin müdiri vəzifələrində işləmişdir. 16 müxtəlif orden və medallarla təltif edilmişdir (2 dəfə Qırmızı Əmək bayrağı, 2 dəfə Şöhrət ordeni, Lenin ordeni və s.).

1997-ci ildən fərdi pensiyaya çıxmış, 2001-ci il oktyabrın 25-də ömrünün 78-ci ilində vəfat etmişdir.



## BİLAL HÜMBƏT OĞLU MURADOV



1934-cü ildə Kolanlı kəndində anadan olmuş, səkkizillik təhsilini Kolanlı məktəbində, onillik təhsilini Böyük Vedi orta məktəbində almışdır.

1947-ci ildə İrəvan Pedaqoji İnstitutunun Azərbaycan şöbəsinə daxil olmuş, 1 il sonra bu şöbəni Bakıya köçürdüklərindən Bilal Muradov da təhsilini Bakıda davam etdirmiş və 1951-ci ildə 17 yaşında Azərbaycan Pedaqoji İnstitutunun Azərbaycan dili və ədəbiyyatı fakültəsini fərqlənmə diplomu ilə bitirmişdi.

Sonra aspiranturaya daxil olmuş, oranı bitirib müəyyən vaxt işsiz qaldığından 1958-ci ildə Azərbaycan radiosunda işə düzəlmişdir. Xeyli vaxt burada işləmiş, 1962-ci ildə dissertasiya müdafiə edərək pedaqoji elmlər namizədi alimlik dərəcəsi almış, 1968-ci ildə Azərbaycan Dövlət Pedaqoji Dillər İnstitutunda elmi-pedaqoji fəaliyyətə başlamışdır.

Sonralar yenidən Azərbaycan Dövlət Pedaqoji İnstitutuna qayıdan Bilal Muradov burada dosent, 1982-1989-cu illərdə filologiya fakültəsinin dekanı vəzifələrində çalışmışdır. Hazırda ədəbiyyatın tədrisi metodikası kafedrasının dosentidir.

Bilal müəllim elinə-yurduna bağlı adamdır. 1988-ci il hadisələri zamanı elindən-yurdundan didərgin düşmüş qaçqın soydaşlarımızın ağrı-acılarının yüngülləşdirilməsi, məskunlaşma problemlərinin həlli ilə əlaqədar çəkilən zəhmətdə onun da xüsusi payı var.

Yazıçı İ.Vəlizadə ilə birlikdə "Ermənistan azərbaycanlılarının soyqırımı" kitabını yazıb nəşr etdirmişdir.

## BİLAS HÜMBƏT OĞLU MURADOV

1936-cı il noyabrın 30-da Kolanlı kəndində anadan olmuşdu.

1949-cu ildə Kolanlı camaatı ilə birlikdə onlar da deportasiya olunmuş, bir müddət Bərdə rayonunda yaşamışlar.

1950-ci illərin əvvəllərində ailəlikcə geri – Vediyə qayıtmış və Bilas 1955-ci ildə orta məktəbi burada bitirmişdir.



Hərbi xidmətini başa vurduqdan sonra 1959-cu ildə Bakıda Azərbaycan Dövlət Pedaqoji İnstitutuna daxil olmuş, 1963-cü ildə institutu bitirib, Xaçmaz rayonunda məktəb müəllimi, dərs hissə müdiri, direktor vəzifələrində çalışmışdır. Qabaqcıl iş təcrübəsini nəzərə alıb, 1966-cı ildə onu Bakıya 6 saylı İslah Əmək Müəssisəsində tərbiyəçi-müəllim vəzifəsinə dəvət edirlər. Tezliklə işində böyük uğur qazanan Bilas müəllimin iş təcrübəsi keçmiş İttifaq miqyasında yayılır, ona mayor rütbəsi verilir.

Bilas müəllim burada briqadir, bölmə rəisi vəzifələrində çalışır.

1982-ci ildə onu həddi-buluğa çatmamış gənclər üçün islah əmək müəssisəsinə rəis təyin edirlər. Burada işlədiyi 4 il ərzində məhbus uşaqların sevimlisinə çevrilir, onların dərdi-səri ilə yaşayır, onların islahı üçün əlindən gələni edir.

1986-cı il noyabrın 20-də 50 yaşında vəfat emişdir.

## İNQİLAB BƏHRAM OĞLU VƏLİZADƏ



1937-ci ildə Kolanlı kəndində anadan olmuşdur.

1949-cu ildə bütün kolanlılar kimi, onlar da ailəlikcə Azərbaycana köçürülmüş, burada orta məktəbi bitirmiş, müxtəlif işlərdə çalışmışdır. 1964-cü ildə Mədəni-Maarif Texnikumuna daxil olmuş, 1967-ci ildə oranı bitirib doğma Vediyə qayıtmış, Xalisa kənd klubunun müdiri işləmişdir.

1970-ci illərdə APİ-nin tarix fakültəsini bitirmiş, qələmə sarılaraq pyes, hekayə və novellalar yazmışdır. "Bir gecənin romantikası" adlı ilk hekayə və novellalar kitabı 1980-ci ildə İrəvanda işıq üzü görmüş, sonra "Məhəbbət yanğısı" və "Məhəbbət və nifrət" adlı romanlarını yazıb nəşr etdirmişdir.

1988-ci ilin erməni vəhşiliyi İ.Vəlizadənin ailəsindən də yan ötmür. Doğma elindən didərgin salınan İ.Vəlizadə Bakıya pənah gətirir. 1990-cı ilin 20 yanvar hadisələrindən bəhs edən "Qanlı yanvar" povestini yazıb, 1992-ci ildə nəşr etdirir. 1996-cı ildə B.Muradovla birlikdə yazdığı "Ermənistanda azərbaycanlıların soyqırımı" kitabı müəllifə şöhrət gətirir.

Daha sonra 30-cu illərin qanlı repressiyasının Vedibasar mahalına gətirdiyi faciələrdən bəhs edən "Qandal Kənan" romanı geniş oxucu kütləsi tərəfindən rəğbətlə qarşılandı. Sonra "Vedi qan içində" adlı roman epopeyasını yazıb ortaya qoydu.

"Bağlı qapı arxasında" əsəri İ.Vəlizadənin altıncı romanı oldu. Müasirlərimizin həyatından bəhs edən "Həyatım mənim, taleyim mənim", "İdealım mənim" kitabları işıq üzü gördü.

Hazırda İ.Vəlizadə Vedibasar mahalının Cığındərə və Millidərə bölgələrinin son 200 illik tarixindən bəhs edən "Qan içində həyat" adlı ikinci epopeyasını yazıb nəşriyyata təqdim etmişdir.

## TELMAN İBAD OĞLU MEHDİYEV



1939-cu il dekabrın 25-də Kolanlı kəndində anadan olub. Ailələri 1948-ci ildə doğma yurdlarından deportasiya olunaraq Naxçıvanda məskunlaşmışlar.

Orta məktəbi bitirdikdən sonra orduya çağırılıb, İrəvan yaxınlığındakı Kənəkir qəsəbəsində yerləşən alay məktəbində təhsil alıb. Sonra Macarıstanda hərbi xidmətini davam etdirib. Burada vzvod komandirindən batareya komandiri vəzifəsinə qədər yüksəlib.

1965-ci ildə hərbi akademiyanın raket və silahlar üzrə mühəndislər hazırlayan fakültəsinə qəbul olunub. Təhsilini başa vurub, Lənkərandakı motoatıcı alayın raket və artilleriya silahları idarəsinin rəisi vəzifəsinə təyin edilib. 1977-ci ildə tank alayında komandir müavini vəzifəsinə irəli çəkilib. 1982-ci ildə Leninqrad şəhərində yüksək idarəetmə mühəndislər akademiyasını bitirib, artilleriya briqadasından ibarət olan iriçaplı ağır qvardiya toplar birləşməsinin komandir müavini vəzifəsinə təyin olunub. 1991-ci ilin avqustunda könüllü olaraq Azərbaycan Milli Ordusu sıralarına daxil olub. Elə ilk gündən silahlar

üzrə paket və artilleriya şöbəsinin rəisi təyin edilib.

1991-ci ilin noyabrında Goranboya ezam olunub. Tez bir zamanda döyüşə hazır olan iki batalyon yaradıb və elə bu zaman onu Hacıkənd-Tərtər cəbhəsinin rəhbəri təyin ediblər. Başkənddə, Ortakənddə ermənilərin silah bazalarını məhv edərkən Azərbaycanda ilk dəfə "Qrad" qurğusunu tətbiq edib. Talış kəndində, Tap-Qaraqoyunluda apardığı uğurlu əməliyyatlar nəticəsində erməni terrorçuları kütləvi şəkildə geri çəkilməyə başlayıblar. Rus hərbi vertolyotları (Miq-24) günlərlə T.Mehdiyevin izinə düşüb "Qrad" qurğusunu məhv etməyə çalışıblar. Lakin buna nail ola bilməyiblər.

1992-ci il yanvarın 30-da T.Mehdiyev müdafiə naziri tərəfindən Ağdama çağırılıb və "Fərrux" əməliyyatına başçılıq edib. Erməni qüvvələrini tamamilə məğlubiyyətə uğradaraq, Rostov şəhərindən gəlmiş erməni snayperçilərini əsir alıb, televiziya vasitəsilə danışdırılmasına nail olub. Kəlbəcər, Laçın və Qubadlı bölgələrində də uğurlu hərbi əməliyyatların iştirakçısı olub.

1992-ci il noyabrın 8-də Bakıya çağırılıb, Ali Ümumqoşun Komandirləri məktəbi nəzdində açılan Akademik zabitlər kursunda baş müəllim kimi fəaliyyət göstərib. 1993-cü ilin iyununda Gəncəyə çağırılıb, cəbhə komandanının silahlar üzrə müavini vəzifəsinə təyin edilib.

Bütün briqadalarda təmir-bərpa batalyonlarının yaranmasına və onların mütəxəssislərlə təmin olunmasına nail olub.

1993-cü ilin noyabrında T.Mehdiyev 5 alay, 3 batalyondan ibarət birləşmə olan "A" qrupunun rəhbəri və baş qərargahın səlahiyyətli nümayəndəsi təyin edilib. Bu qrup ön cəbhədə vuruşub. Beyləqana hücum etmiş erməni quldurlarını T.Mehdiyev iki batalyonu vasitəsilə darmadağın edib, Ağdamdan, Kuropatkindən uzaqlara qovub.

Həmin vaxtdan döyüşlərdə ön cəbhədə iştirak edən T.Mehdiyevin döyüşçüləri başqa hərbi hissələrlə bir yerdə Füzuli rayonunun 24 kəndini, Horadiz qəsəbəsini azad edib. Bu döyüşlərdə T.Mehdiyevin hissələri erməni təcavüzkarlarının çoxlu sayda döyüş texnikasını və hərbi sursatını ələ keçirib.

Bütün bunlar polkovnik Telman Mehdiyevin hərbi uğurlarının az bir hissəsidir. Hazırda o, Bakı Ali Hərbi Ümumqoşun Komandirləri məktəbində gənc kursantlara hərb elminin sirlərini öyrədir.



## KOM

Vedibasar mahalının Cığındərə bölgəsində, Kolanlı kəndinin yuxarı tərəfində kiçik kənd.

Cığındərə bölgəsində Kolanı tayfasına mənsub 8 kənddən biri olan bu kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

Kənd kiçikliyinə görə bütün statistik məlumatlarda Kolanlı kəndinin üstündə verilmişdir.

Kəndin adının etimologiyası haqqında bir neçə versiya irəli sürə bilərik. Bunlardan birincisi **dəstə, yığın, topa** mənasında **kom** sözüdür. İkincisi dağıdılanların təpə halda yığımı, **təpə, qalaq** mənalarında **koma** sözüdür (məsələn: **komalamaq).** Üçüncüsü **ev, daxma** mənasında koma sözüdür. Biz birinci versiyaya daha çox üstünlük veririk.

1918-1920-ci illər erməni-müsəlman davası zamanı yerlə-yeksan edilən kəndin xarabalıqları Kolanlı kəndi yaxınlığında son vaxtlara qədər qalmaqda idi.

Bu xarabalıqda 2-3 metr hündürlükdə olan divarlarda bir neçə ton ağırlığında sal daşlar vardı. Keçmişdə texnikasız ucqar dağ kəndində bu böyüklükdə qaya parçalarını insanlar necə gətirib divarlara hörmüşdü – bu, sirr olaraq qaldı.

## KOTANLI (SEYİD KOTANLI)

Vedibasar mahalının Millidərə bölgəsində, Qəmərli rayon mərkəzindən 28-30 km şimal-şərqdə, Gölaysor kəndinin yaxınlığında, Allah-Əkbər dağının ətəyində, Kotanlı bulağının yanında kənd.

Kənddə ancaq Azərbaycan türkləri, Sovet hakimiyyəti illərində qismən də müsəlman kürdləri yaşamışlar.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) kəndin adı **Kəstənli** kimi qeydə alınmış, dövlətin müxtəlif vergilər şəklində kənddən götürdüyü illik gəlirin 3.600 ağça olduğu göstərilmişdir.

1873 və 1886-cı illərin statistik məlumatlarında kəndin adı artıq **Kotanlı** şəklindədir. Kənddə **Seyidlər** tayfasının məskunlaşması ilə əlaqədar kənd sonralar həm də **Seyidlər Kotanlısı** və ya qısaca **Seyid Kotanlı** adlanmışdır.

Kotanlı adı qıpçaq türklərinin **Kotan (Kotyan)** tayfasımn adından yaranmışdır. Kəndin sonralar Seyid Kotanlı adlanmasında yaxınlıqdakı xarabalıq yanında ikinci bir Kotanlı kəndinin salınması da xüsusi rol oynamışdır. Belə ki, bu kəndləri fərqləndirmək üçün Seyidlər yaşayan əvvəlki kəndi **Seyidlər Kotanlısı,** xarabahq yanındakı yeni kəndi isə **Xaraba Kotanlı** adlandırmışlar.

Dərələyəz mahalında da Kotanlı adlı kənd olmuşdur.

Vedibasar mahalının Kotanlı kəndində 1873-cü ildə 19 təsərrüfatda 156 nəfər (84 kişi, 72 qadın) azərbaycanlı yaşamışdır. 1973-cü ilin statistik məlumatlarında kəndin əhalisinin bir hissəsinin Qəmərli rayonunun Qafarlı kəndindən köçüb gələnlər olduğu barədə məlumat var.

Kənd əhalisinin sayı 1886-cı ildə 20 təsərrüfatda 201 nəfərə (116 kişi, 85 qadın), 1897-ci ildə 279 nəfərə, 1916-cı ildə 336 nəfərə çatmışdır.

Əhalisi əsasən heyvandarlıq və əkinçiliklə məşğul olan kəndin 310 desyatin torpaq sahəsinin 3 desyatinini malikanə torpaqları, 190 desyatinini suvarılmayan əkin yerləri təşkil etmişdir. Kənddə 106 iribuynuzlu, 192 xırdabuynuzlu mal-qara qeydə alınmışdır.

Kotanlı kəndinin Hand kəndi ilə birlikdə Yeni Bayazid qəzasının Ağmanqan yaylağında, Seyid Kotanlı kəndindən 40 verst aralıda, 425 desyatin ərazini əhatə edən **Hacıməcli yurdu** adlı yaylaq yeri olmuşdur.



1918-1920-ci illər erməni-müsəlman davası zamanı kənd erməni daşnakları tərəfindən yandırılmış, əhalisi ev-eşiyindən zorla qovulmuşdur. Bu döyüşlərdə kəndin əli silah tutan bütün kişiləri erməni daşnaklarına qarşı qəhrəmanlıqla vuruşmuşlar. Onlara Seyid Kotanlıda böyük hörmət və nüfuz sahibi olan, igidlikdə ad çıxaran **Seyid Əli** başçılıq etmişdir.

1922-ci ildə kəndin qaçqın əhalisindən cəmi 62 nəfər öz kəndinə qayıda bilmişdir ki, onların da sayı 1926-cı ildə 67 nəfərə, 1931-ci ildə 106 nəfərə, 1939-cu ildə 221 nəfərə çatmışdır.

1937-1948-ci illərdə Qarabağlar rayonu tərkibində mövcud olan kəndin bütün əhalisi 1949-cu ildə məcburi şəkildə Azərbaycana köçürülmüş və kənd o vaxtdan da xaraba qalmışdır. Bir sıra ailələr isə Vedi rayonunun aran kəndlərində məskunlaşmış, 1988-ci ilə qədər burada yaşamışlar.

* * *

Kəndin ən nüfuzlu tayfalarından biri və birincisi **Seyidlər tayfası** və bu tayfanın ən hörmətli nümayəndələrindən biri, el ağsaqqalı **Seyid Əli** olmuşdur. Məhz bu nəslin adı ilə Kotanlı kəndi sonralar **Seyidlər Kotanlısı** və ya sadəcə **Seyid Kotanlı** adlanmışdır.

Seyid Əli 1918-ci ildə Millidərə kəndlərinin erməni daşnaklarından müdafiəsində, Kotanlı igidlərinin bu mübarizə üçün səfərbər edilməsində xüsusi rol oynamışdır. Bu işdə qonşu Xaraba Kotanlı və digər ətraf kəndlərin igidləri də xüsusi fəallıq göstərmişlər. Onlardan Eyyub Həsənoğlunun adını xüsusilə qeyd etmək lazımdır.

Sonralar əhalinin təhlükəsizliyi naminə Çimənkəndə və Böyük Vediyə doğru geri çəkilən Millidərə dəliqanlıları erməni daşnaklarına qarşı mübarizəni burada da mərdliklə davam etdirmişlər. 1920-ci ildə bütün vedibasarlılarla birlikdə Arazın o tayına – Türkiyə və İrana mühacirət edən millidərəlilər Sovet hakimiyyətinin ilk illərində təzədən doğma yerlərə qayıtmış, ev-eşiklərini bərpa edib yaşamağa başlamışlar.

1940-cı illərdə **Seyid Əli** Kotanlı kənd kolxozunun sədri, kəndin digər hörmətli nümayəndəsi, əslən qonşu Xaraba Kotanlı kəndindən olan **Eyyub Həsən oğlu** kolxozun ferma müdiri, Eyyub kişinin oğlu **Həsən** isə kolxozda mühasib işləmişlər.

1948-1950-ci illərdə Qarabağlar rayonunun bütün azərbaycanlı

kəndləri deportasiya olunduğu üçün Eyyub Həsən oğlunun ailəsi də sonralar Şirazlı kəndində məskun laşmış, 1988-ci ilə qədər burada yaşayıb işləmişlər. Eyyub kişinin 9 oğlu vardı: **Həsən, Məmməd, Teymur, Bəhrəm, Barı, Əli, Sultan, Əhməd, Hüseyn.**

Kotanlılı el ağsaqqalı Seyid Əlinin qızı Seyid Əsli ilə ailə quran **Həsən Eyyub oğlunun** oğlanları **Eyyub, İslam, Bəylər, Nəbi, Adik, Xıdır, Rafiq** sonralar Gəncə, Bakı və Moskva şəhərlərində ali təhsil almış, çalışdıqları idarə və müəssisələrdə böyük etibar və etimad qazanmışlar. Həsən Eyyub oğlunun oğlanları 1988-ci ildə Şirazlı kəndinin və Vedibasarın digər azərbaycanlı kəndlərinin erməni daşnaklarından müdafiəsində də mərdlik və kişilik nümayiş etdirmişlər. Həmin vaxtlar Naxçıvanda polis zabiti kimi hüquq-mühafizə orqanlarında çalışan **Bəylər Həsən oğlu Eyyubov** isə hazırda general-mayor rütbəsinə qədər yüksəlmişdir və bu gün də xalqın, dövlətin xidmətindədir.



**MƏSİMOV SƏMƏD MƏMMƏDHÜSEYN OĞLU** 1922-ci ildə Vedi rayonunun Kotanlı kəndində anadan olmuş, kənd 7 illik məktəbini, 1937-ci ildə isə İrəvan Pedaqoji texnikumunu bitirmişdir. 1937-1941-ci illərdə Kotanlı kənd məktəbində direktor işləmiş, 1942-ci ilin yanvar ayında ordu sıralarına çağırılmış, Leninqrad cəbhəsində vuruşmuş və nümunəvi xidmətinə görə "Qırmızı ulduz" ordeni ilə təltif olunmuşdur.

1944-cü ilin əvvəllərində Uzaq Şərqə ezam edilərək Yaponiya ilə müharibədə iştirak etmişir, göstərdiyi xidmətlərə görə bir sıra başqa orden-medallarla da təltif edilmişdir. Baş leytenant Məsimov 1945-ci ilin axırında ordu sıralarından tərxis olunmuş, 1946-47-ci illərdə Kotanlı kənd məktəbində direktor işləmiş və 1947-ci ildə Bakıya gələrək İnstituta daxil olmuş, 1952-ci ildə oranı bitirib Naxçıvana işə göndərilmişdir. Orada bir neçə il işlədikdən sonra Bakıya dəyişilərək burada 20 il məktəb direktoru işləmişdir. 1995-ci ildən Nəsimi rayon veteranlar şurasında təhsil üzrə komissiya sədri kimi fəaliyyət göstərir. 1997-ci ildən təqaüddədir.



## KOTUZ (GÜLBUDAQ)

Vedibasar mahalının Millidərə bölgəsində, Çəngli çayının kənarında, Kotuz dağının qərb ətəyində kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

Səfəvi hökmdarı II Şah İsmayılın 1577-ci ilə aid bir fərmanında Çuxur Səd mahalında **Kutuzvəng** kəndinin adı çəkilir.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) kəndin adı Vedi nahiyəsinin **Kütüs kəndi** kimi qeydə alınmışdır. XVII yüzilin əvvəllərinə aid erməncə mənbədə kəndin adı **Kotisdir**.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə kənd **Ketus** adı ilə Gərni nahiyəsinin tərkibində göstərilmişdir. Kəndin ikinci adının **Gülbudaq** olması barədə qeyd də var. 1873-cü ilə aid və sonrakı bütün mənbələrdə kəndin adı **Kotuzdur**.

Kəndin adı **kot** və **uz** tərkib hissələrindən ibarət olmaqla, birinci hissə **kot//qot//kut** variantlarında "möhkəmləndirilmiş yer", "düşərgə", "dayanacaq" və s. mənalarında işlənilmişdir. İkinci hissə **(uz)** isə bir neçə məna daşıya bilər: 1. Qədim türk tayfalarından olan **Uz** tayfasının adını; 2. **Tərəf, yan** anlamını; 3. Türk dillərindəki **"dərə"** anlamını; 4. Cəm şəkilçisi kimi.

Həm **kot**, həm də **uz** tərkib hissələri ilə bağlı Cənubi Qafqazda, o cümlədən Azərbaycan Respublikası və Qərbi Azərbaycan ərazisində istənilən qədər toponim göstərmək olar: Ataqut kəndi (Kürdəmir rayonunda), Ataqut, Tuq-Kot və Xaşaqut kəndləri (Dağlıq Qarabağda), Burunqot kəndi (Zəngəzurun Qarakilsə rayonunda), Qotur kəndləri (Üçkilsə, Hamamlı, Keşişkənd rayonlarında), Kotgah kəndi (Barana rayonunda), Qutqaşen qəsəbəsi, (Qəbələ rayonunda), Uz kəndi (Qarakilsə rayonunda), Xartuz (Zəngilan rayonunda), Maqavuz (Ağdərə rayonunda), Daşüz (Şəki rayonunda) və s.

Bundan əlavə, Türkiyənin Qars əyalətində Qatusköy kəndi, Kotan (kotyan) tayfası, Şimali Qafqazda Kotdağ dağı və s. də qeydə alınmışdır.

Kotanlı kənd adı da buradan törəmədir (bax: Vedibasar mahalının Kotanlı və Xaraba Kotanlı kəndləri).

Deyilənə görə, Kotuz Vedibasar mahalının Millidərə bölgəsin-

də Qaladibi kəndindən sonra salınmış ikinci qədim kənddir. Qədimdə Vedibasarın Kiçik Vedi kəndindən iki qardaş köçüb, Kotuzun alt tərəfində yurd salıblar. Sonra Göyçə mahalının Gözəldərə və Damdıra kəndlərindən xeyli ailə köçüb gəliblər Kotuz kəndinə. Sonra digər kəndlər yaranıb inkişaf etməyə başlayıb.

1873-cü ildə kənddə 19 təsərrüfatda 188 nəfər (111 kişi, 77 qadın), 1886-cı ildə 22 təsərrüfatda 226 nəfər (132 kişi, 94 qadın) Azərbacan türkü yaşamışdır. 1886-cı ildə kəndin 700 desyatin torpaq sahəsinin 3 desyatinini malikanə torpaqları, 247 desyatinini suvarılmayan əkin sahələri təşkil etmişdir. Kənddə 192 iribuynuzlu, 365 xırdabuynuzlu mal-qara saxlanılmışdır.

Kəndin 200 desyatin ərazini əhatə edən **Qara-ağıl** adlı qışlaq yeri olmuşdur. Bundan başqa, Kotuz kəndinin sakinləri **Əli Süleyman oğlu, Hüseyn Məmməd oğlu** və **Abbas Kəlbalı Rü0stəm oğlunun** Kotuz və Çəngli kəndləri yaxınlığında **Qazançı** adlanan yerdə 70 desyatin ərazini əkin-biçənək kimi dövlətdən icarəyə götürdükləri barədə də 1886-cı ilə aid mənbələrdə məlumat var.

Kəndin əhalisi 1897-ci ildə 329 nəfərə, 1916-cı ildə 450 nəfərə çatmışdır.

1818-1920-ci illər erməni-müsəlman davası zamanı daşnaklar kəndi dağıtmış, əhalisini qəddarlıqla qovub kənddən çıxarmışlar.

1922-ci ildə kənd sakinlərinin cəmi 58 nəfəri doğma kəndinə qayıda bilmiş, onların sayı 1926-cı ildə 110 nəfər, 1931-ci ildə 154 nəfər olmuşdur. Lakin 1950-ci ildə Vedi rayonunun əksər kəndləri kimi, Kotuz kəndinin əhalisi də bütünlüklə Azərbaycana köçməyə məcbur edilmişlər.

1951-ci ilin sonlarında bir neçə ailə Kotuza qayıdıb, burada yaşamaqda davam ediblər. 1960-cı ilə qədər kənddə cəmi 9 ailə yaşamışdır. Onlar da bir neçə il sonra Vedi rayonunun azərbaycanlılar yaşayan Şidli və Şirazlı kəndlərinə köçməyə məcbur edilmişlər. O vaxtdan kənd xaraba qalmışdır.

* * *

Kotuz kəndinin qəbiristanlağındakı 500 illik məzarlar, buradakı qoç heykəlləri bu kəndin qədimliyinə əyani sübut idi.



Burada **Seyid qəbri** adlanan ocaq olub. Bundan əlavə Kotuz dağının başında **Pir qəbri** deyilən bir ocaq da olub. Müxtəlif cür xəstələr bu ocaqdan şəfa taparmışlar.

Kotuz kəndinin aşağısından **Quru selav çayı** axırdı.

Sovet hakimiyyətinə qədər **Kəlba Bayram, Kəlba İsmayıl, Kəlba Mirzə, Məşədi Məmməd, Alı Salman oğlu, Hümbət** kəndin sayılıb-seçilən kişilərindən olmuşlar.

Kotuz kəndindən **Yasin Bayram oğlu Qədimov** 1918-1920-ci illərdə erməni daşnaklarına qarşı mübarizənin fəal iştirakçısı olub.

1935-1950-ci illərdə **Xamo Vəli oğlu İsgəndərov, Bilal Teymur oğlu, Məcnun İsgəndərov** və **Əhməd Əhmədov** Kotuz kəndində kolxoz və kənd soveti sədrləri işləmişlər.

1950-ci ildə deportasiyaya məruz qalana qədər kənddə ayrıca sovetlik, ayrıca kolxoz, yeddiillik məktəb fəaliyyət göstərib. Kəndin 4 min hektardan çox torpaq sahəsi olub.

1950-ci ildə kəndi bütövlükdə Muğana – Əli Bayramlı rayonunun Beşdəli kəndinə köçürüblər. Buranın iqliminə dözməyən kotuzluların bir hissəsi bir il sonra Şamaxıya üz tutublar. Burada onlara geri – Muğana qayıtmaq üçün təzyiqlər göstərilib. Cəmi 9 ailə Şamaxıda qalıb, o birilər yenidən Beşdəliyə geri dönüblər. 1951-ci ilin sonlarında bir neçə ailə Kotuza qayıtmağa müvəffəq olublar. Onlar da sonralar Vedi rayonunun aran kəndlərinə köçürülüblər.

Məsələn, onlardan biri – **Məhərrəm Bayramov** 1924-cü ildə Kotuz kəndində anadan olmuşdur. 1942-1950-ci illlərdə Kotuz kənd məktəbində müəllim işləmiş, 1950-ci ildə bütün kotuzlular kimi, məcburi şəkildə Azəbaycana köçürülmüşdür. Oğlu **Asəf Bayramov** texnika elmləri namizədidir.

1951-ci ildə Şamaxıda süd zavodunda işləyən M.Bayramov həmin ilin sonlarında min bir çətinliklə doğma Kotuz kəndinə qayıtmış, 1960-cı illlərdə Kotuz perspektivsiz kənd kimi ləğv olunduğundan rayonun Şidli kəndinə köçməyə məcbur olmuşdur. 1865-ci ildən etibarən isə uzun illər Şidli kənd sovetinin katibi işləmişdir. Hazırda Bakı şəhərində yaşayır.

## KƏNDİN TOPONİMLƏRİ

Həndam, Qazançı, Tap, Ağtaplar, Kəlbayı quzeyi, Ağdərə, Qaraçallıq, Gədik, Qaraçıyurdu, Kotuzun bulağı, Təkceviz bulağı, Çınqıllı bulaq, Aşağı bulaq, Qədimlər məhləsi, Dəmirçilər məhləsi, Sulolar məhləsi, Qaybalılar məhləsi.

## KƏNDİN TAYFALARI

Qədimlər, Dəmirçilər, Sulolar, Qaybalı uşağı və b.

## 1930-CU İLLƏRİN REPRESSİYA QURBANLARI

Kotuz və Əlirzalar (Çəngli) kəndləri eyni bir sovetlikdə birləşdiklərindən repressiya qurbanlarının və 1941-1945-ci illər müharibəsi iştirakçılarının aşağıdakı siyahıları hər iki kəndi əhatə edir.

1. Qaybalıyev Həsənalı Süleyman oğlu
2. Hüseynov Əziz Hümbət oğlu
3. Əliyev Bayram Əli oğlu
4. Əliyev Alo Əli oğlu
5. Əliyev Mamo Əli oğlu

## 1941-1945-Cİ İLLƏR MÜHARİBƏSİNDƏ HƏLAK OLANLAR

1. Qədimov Ataş Əli oğlu
2. Əliyev Bəhman Ələsgər oğlu
3. Əliyev Fərman Ələsgər oğlu
4. Hacıyev Əkbər Mehdi oğlu
5. Nəsrullayev Məmmədbağır Mikayıl oğlu
6. Nəsrullayev Nəsrulla Mikayıl oğlu
7. Salmanov Əmir Əli oğlu
8. Əliyev Ələşrəf Kəlba Məhəmmədəli oğlu
9. Abbasov Fətulla Əhməd oğlu
10. Tapdıqov Daşdəmir Əsgər oğlu



11. Məmmədov Hüseyn Səməd oğlu
12. Musayev Nəbi Ağaməmməd oğlu
13. Həsənov Nəbi Əli oğlu
14. Süleymanov İbrahim Səfərəli oğlu
15. Bayramov İmran Bayram oğlu
16. Əliyev Xancan Möşdü oğlu
17. İsgəndərov Həmid Qocalı oğlu
18. İsgəndərov Müslüm Qocalı oğlu
19. Əliyev Pənah Rza oğlu
20. Əhmədov Paşa
21. Xancan Fətəli oğlu
22. Musa Əli oğlu
23. Daşdəmir Əsgər oğlu
24. Yasin Məcnun oğlu
25. Abdulla Əsgər oğlu və b.

# KÖRPÜKƏND
# (KÖRPÜQULAĞI, TORPAQQALA)

Vedibasar mahalının Millidərə bölgəsində, Gərni çayının yuxarı axarında, Gölaysor kəndi yaxınlığında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Gərni nahiyəsinin **Taxtakörpü kəndi** şəklində qeydə alınmış, Bəkir Məhəmməd oğlunun kənddə olan timarından dövlətin müxtəlif vergilər şəklində ildə 4.000 ağça gəlir götürdüyü göstərilmişdir.

İ.Şopendə (1832) kəndin adı Gərnibasar mahalı tərkibində **Körpüqulağı kəndi** şəklində qeydə alınmışdır. 1873, 1886-cı illərin statistik məlumatlarında da kəndin adı **Körpüqulağıdır.**

Qərbi Azərbaycan ərazisində geniş yayılmış **körpü** komponentli adların mənşəyində ya Şərqi Anadoluda orta yüzillərdə mövcud olan **Kerpi** mahal adının, ya İrəvan əyalətinin **Karbi (Körpü)** mahal adının, ya da çay üzərindəki **körpü** mənasının dayandığı ehtimal olunur. Vedibasar mahalı ərazisindəki Körpükənd kənd adı da bu mənada istisna təşkil etmir. Kəndin vaxtilə **Torpaqqala** adlanması isə onun qədim yaşayış yeri olmasına dəlalət edir.

1832-ci ildə kənddə 129 nəfər, 1873-cü ildə 143 nəfər, 1886-cı ildə 200 nəfər, 1897-ci ildə 351 nəfər Azərbaycan türkü yaşamışdır.

1905-ci il erməni-müsəlman davası ilə bağlı kənd əhalisinin sayı azalaraq 215 nəfərə düşmüş, 1914-cü ildə kənddə 470 nəfər azərbaycanlı qeydə alınmışdır.

1918-1920-ci illər erməni-müsəlman davası zamanı kənd yenidən erməni daşnaklarının vəhşi hücumlarına məruz qalmış, yerlə-yeksan edilmişdir.

1922-ci ildə kəndin sağ qalan əhalisinin cəmi 103 nəfəri geri qayıda bilmiş, kəndi təzədən bərpa edib yaşamağa başlamışlar. Onların sayı 1926-cı ildə 141 nəfərə, 1931-ci ildə 174 nəfərə çatmışdır.

Lakin 1949-cu ildə kəndin bütün əhalisi zorla Azərbaycana köçürülmüşdür. Elə o vaxtdan da kənd xaraba qalmışdır. Deportasiyaya qədər kənddə yeddiillik azərbaycanlı məktəbi olmuşdur.



Sonralar kəndin ərazisi Ellər (Abovyan) rayonunun tərkibinə qatılmışdır.

* * *

Vedibasar mahalının Millidərə bölgəsinin kəndlərindən ən çox bir-birinə yaxın olanları Qaladibi, İmirzik, Körpükənd və Bayburt kəndləri olmuşdur. Bu kəndlər Ağdağdan gələn **Dəvəgözü çayı**, Xosrov meşəsindən keçib gələn **Dərbənd çayı** sahilində yerləşirdi. Hər iki çay Qaladibi kəndindən bir qədər yuxarıda **Çayqovşağı** adlanan yerdə birləşirdi. Çay qovşağından bir qədər aşağıda, çayın sağ sahili boyunca, bir-birinin ardınca əvvəl Qaladibi kəndi, sonra isə İmirzik, Körpükənd və nəhayət, Bayburt kəndləri salınmışdı. Bu kəndlərin qarşısında – çayın sol sahili boyunca içərisi müxtəlif meyvə və giləmeyvə ilə dolu olan çox qalın meşə zolağı vardı. Bayburt kəndindən keçib gələn **Ludərən çayı** kəndin yaxınlığından keçən Dəvəgözü-Dərbənd çayına birləşirdi.

Yuxarıda adları çəkilən kəndlərdən bir qədər uzaq məsafədə çayın sağ sahili boyunca **Tərəkəmələr** və **Cənəti** kəndləri yerləşirdi. Özünə bir neçə kiçik çayları birləşdirən bu nəhəng çay Tərəkəmələr kəndindən keçərək, Cənəti kəndində **Nərmi çayı** ilə qovuşurdu. Adları çəkilən kəndlərin ərazisindən keçən bu nəhəng çayın üstündən yalnız bir körpü salınmışdı. Bu **Taxta körpü** Körpü kəndinin lap yaxınlığında salınmışdı və adları çəkilən kəndləri Gölaysor kəndi ilə birləşdirirdi. Çox güman ki, Körpü kəndinin adı da elə buradan götürülmüşdür. Doğma el-obanın başı üstünü 1918-1921-ci illərin qara buludları alanda, bütün Milli camaatı, bütün Vedi mahalının kişiləri kimi, Körpü kəndinin də neçə-neçə oğlanları silaha qurşanmış və azğın erməni vəhşilərinə qarşı vuruşmuşlar. Bu müharibədə Körpü kəndinin onlarla oğlanları həlak olmuşdur.

O vaxtdan on illər keçsə də, erməni daşnaklarına qarşı vuruşan Körpü kəndinin igid oğlanlarının xatirəsi onun elsevərlərinin yaddaşından heç vaxt silinməmişdir. Onlardan yadda qalanları: Körpü kəndindən **Allahverdi, Xudo, Nağı, Səməd, Cəmil, Məmməd** və başqalarınm adlarını çəkmək olar. Bu adları çəkilənlərdən **Allahverdi, Xudo, Cəmil, Məmməd** şəxsən Ab-

basqulu bəyin dəstəsində vuruşmuşlar.

Körpükənddən bir sıra dəyərli şəxsiyyətlər, ziyalılar da çıxmışdır. Onlardan biri də **Allahverdi Eyyub oğlu Haqverdiyevdir.** O, 1924-cü ildə Körpü kəndində anadan olmuş, ibtidai təhsilini həmin kənddə almışdır. Millidərə bölgəsinin 21 kəndi içərisində orta məktəb yalnız Gölaysor kəndində olduğundan, Allahverdi həmin orta məktəbin 7-ci sinfini bitirib, 1939-cu ildə İrəvan pedaqoji texnikumuna daxil olur. Lakin Böyük Vətən müharibəsinin başlanması və ailə vəziyyətinin ağır olması ilə əlaqədar Allahverdi təhsilini yarımçıq qoyaraq öz doğma kəndlərinə qayıdıb müəllim işləməyə başlayır. Ancaq Allahverdinin müəllim işləməsi çox çəkmir. O 1942-ci ildən 1945-ci ilə qədər Böyük Vətən müharibəsində (Mozdokdan Berlinə qədər) döyüş yolu keçir, 4 orden, 16 medalla təltif edilir.

Allahverdi müəllim müharibədən sonra təhsilini İrəvan pedaqoji texnikumunda davam etdirmiş və 1946-cı ildə texnikumu, 1952-ci ildə Azərbaycan Pedaqoji İnstitutunu bitirmişdir. O, doğulduğu kəndin ilk ali təhsilli Əməkdar müəllimidir. Hazırda Şəmkir rayonunun Çinarlı qəsəbəsində yaşayır, Füzuli qəsəbəsinin orta məktəbində müəllim işləyir.

## KƏNDİN TOPONİMLƏRİ

Dəvəgözü çayı, Dərbənd çayı, Ludərən çayı, Nərmi çayı, Çayqovşağı, Taxta körpü.

## 1930-CU İLLƏRİN REPRESİYA QURBANLARI

1. Eyyub Haqverdi oğlu Tarverdiyev
2. Hüseynqulu Veyfam oğlu
3. Binyətalı Cümşüd oğlu
4. Səfəralı
5. Abbasqulu
6. Allahverdi
7. Müseyib
8. Məhəmməd
9. Kərəm



# KÜLAĞIL

Vedibasar mahalının dağətəyi hissəsində, Armaş kəndindən yuxarıda, Bağırsaqdərə yaxınlığında kiçik kənd.

Kəndin ərazisi vaxtilə qışlaq yeri olmuş, sonra kəndə çevrilmişdir. Lakin 5-10 evdən ibarət olan bu kiçik kənd heç bir mənbədə müstəqil kənd kimi qeydə alınmamış, tədricən tarix səhnəsindən silinib getmiş, adı isə yaddaşlarda yaşamışdır. Bir də evlərin xarabaoıqları son illərə qədər qalmaqda idi.

Kəndin adının etimoloji izahına gəldikdə isə, şübhə etmirik ki, bu maraqlı toponim də Vedibasar ərazisində geniş yayılmış eynimənşəli digər toponimlər (Kolanlı, Göl, Gölcığın, Güldərviş, Gölaysor, Qulaqsız və s.) kimi, peçeneqlərin məşhur **Kul//Kol** tayfasının adından götürmüşdür.

## KÜSÜS (KÜSÜHLÜ ŞƏTLİ)

Vedibasar mahalının Cığmdərə bölgəsində, Vedi rayonunun mərkəzi olan Böyük Vedi qəsəbəsindən 22-24 km şimal-şərqdə, Küsüs dağının ətəyində, Əzizkənd kəndi yaxınlığında, Qasım bulağı yanında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) kəndin adı Vedi nahiyəsinin **Küsüs kəndi**, "İrəvan əyalətinin icmal dəftəri"ndə isə (1728) həmin nahiyənin **Küssüs kəndi** kimi qeydə alınmışdır. İkinci mənbədə kəndin Məngük kəndi yaxınlığında yerləşdiyi də göstərilmişdir. Kənddə Xəlil Ömər oğlunun adına olan timardan dövlətin müxtəlif vergilər şəklində il ərzində 3.000 ağça gəlir götürdüyü barədə qeyd də var. Bundan əlavə, sonuncu mənbədə Vedi nahiyəsi ərazisində illik gəliri 1.000 ağça olan Küsühlü Şətli (yəni Şadlı) adlı daha bir kənd qeydə alınmışdır ki, biz bunları eyni kənd hesab edirik.

İ.Şopendə (1832) də kəndin adı Küssüs, 1873-cü ilin statistik məlumatlarında isə Küsüsdür.

Kəndin adının **küz** (payız) sözündən düzəlib, **"küzsüz"**, yəni **"payız otlağı olmayan"** mənasını verməsi barədə elmi ədəbiyyatdakı mövcud fikir (B.Budaqov, Q.Qeybullayev) qeyri-elmidir. Kəndin qızılbaşların Ustaclı tayfasının **Küsülü** qolunun adını daşıması fikrini də (yenə də B.Budaqov, Q.Qeybullayev) qeyri-ciddi hesab edirik. Bizcə, adın kökündə **Quz** türk tayfalarının adı dayanır və Quz ilə **"tərəf, yan"** və ya türk dillərində **"dərə"** anlamında olan **"uz"** tərkib hissələrindən ibarət olub, **"Quzlar yaşayan tərəf"** və ya **"Quzlar yaşayan dərə"** mənalarındadır. **Uz** komponentinin burada cəm mənası bildirməsi də istisna təşkil etmir (Vedibasar mahalı ərazisindəki Kotuz kənd adı kimi). Bu mənada kəndin adı **Quz tayfasının kəndi, Quzlar kəndi** anlamında başa düşülməlidir.

1590-cı ilə aid mənbədə İrəvan əyalətinin Karbi nahiyəsində Küsüsüz adlı qışlaq da olmuşdur.

1832-ci ildə Vedi nahiyəsinin Küsüs kəndində 39 təsərrüfatda 211 nəfər (113 kişi, 108 qadın) Azərbaycan türkü yaşamışdır.



1873-cü ildə əhalinin sayı 15 təsərrüfatda 151 nəfərə (93 kişi, 58 qadın) qədər azalmışdır. Əhalisi bütünlüklə müsəlmanlardan ibarət olan kənddəki kilsə qalıqları və qəbirüstü abidələr kəndin islamaqədərki yüksək mədəniyyətindən xəbər verirdi.

1886-cı ildə kənddə 17 təsərrüfatda 203 nəfər (113 kişi, 90 qadın) əhali yaşamışdır. Əhalisi əsasən əkinçilik və heyvandarlıqla məşğul olan kəndin 1023,75 desyatin torpaq sahəsinin 1,75 desyatinini malikanə torpaqları, 0,75 desyatinini bağ sahələri, 178 desyatinini suvarılmayan əkin yerləri təşkil etmişdir. Kənddə 103 iribuynuzlu, 161 xırdabuynuzlu mal-qara bəslənmişdir.

Kəndin əhalisi Bala Sultan Fəti xan oğlu Şadlinskidən hər yay mövsümü üçün 100 xalvar otlaq yeri icarəyə götürmüşdür. Onlar kənddən 8 verst aralıda yerləşən bu otlaq yerindən ötrü hər iribuynuzlu mal-qara üçün 10 qəpik, hər xırdabuynuzlu mal-qara üçün 1 qəpik, cəmi hər yay mövsümü üçün 17 rubl haqq ödəmişlər.

1897-ci ildə kənd əhalisinin sayı 270 nəfər, 1904-ci ildə 792 nəfər, 1914-cü ildə 805 nəfər olmuşdur.

1918-1920-ci illər erməni–müsəlman davası zamanı kənd dağıdılmış, əhalisi vəhşicəsinə qovulmuşdur.

1922-ci ildə kəndin qaçqın əhalisindən cəmi 46 nəfər geri qayıda bilmiş, onların sayı 1926-cı ildə 62 nəfərə, 1931-ci ildə 70 nəfərə, 1939-cu ildə 149 nəfərə çatmışdır.

1949-cu ildə kəndin bütün əhalisi məcburi şəkildə Azərbaycana köçürülmüş, elə o vaxtdan da kənd xaraba qalmışdır.

## QALADİBİ (QALACIQ, QALAKƏND)

Vedibasar mahalının Millidərə bölgəsində, Gərni çayının yuxarı axarında, çayın sol qolu olan Dəvəgözü çayının sağ, Dərbənd çaymın sol kənarında, dəniz səviyyəsindən 1899 m yüksəklikdə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Gərni nahiyəsinin **Qalacıq kəndi** kimi qeydə alınmış, kənddən dövlətin müxtəlif vergilər şəklində ildə 2880 ağça gəlir götürdüyü göstərilmişdir.

İ.Şopenin (1832) məlumatlarında kənd **Qalakənd** adı ilə Gərnibasar mahalınm xaraba kəndləri siyahısında verilmişdir. Bu, kəndin 1826-1829-cu illər Rusiya-İran, Rusiya-Osmanlı müharibələri zamanı böyük dağıntılara məruz qalmasına dəlalət edir.

Kənd sonralar yenidən məskunlaşmış və 1873-cü ilin statistik məlumatlarında **Qaladibi** adlanan bu kənddə 18 ailədə 155 nəfər (96 kişi, 59 qadın) azərbaycanlı yaşadığı göstərilmişdir.

Kəndin adı **Qala** və **dibi** komponentlərindən ibarət olmaqla burada dağm başındakı qədim qala-kəndin aşağısında salındığı üçün bu adı almışdır. Qalanın qülləsi, bu qüllədən yaxmlıqdakı bulağa yeraltı yol da olmuşdur. Yeri gəlmişkən, Vedibasarın dünyagörmüş qocalarının fikrinə görə, Qaladibi bu mahalın Millidərə bölgəsində ən qədim kənd imiş.

1886-cı ildə kənddə 25 ailədə 221 nəfər (127 kişi, 94 qadm) Azərbaycan türkü yaşamışdır. Kəndin camaatı əsasən əkinçilik və maldarlıqla məşğul olmuşdur. Kəndin 334,64 desyatin torpaq sahəsinin 2,33 desyatinini malikanə torpaqları, 0,5 desyatinini bağ sahələri, 5 desyatinini suvarılan, 98,1 desyatinini suvarılmayan əkin yerləri təşkil etmişdir. Kənddə 101 iribuynuzlu, 122 xırdabuynuzlu mal-qara qeydə alınmışdır. Kəndin torpaqları **Qaladibi bulağının** suyu ilə suvarılmışdır.

Kəndin İrəvan qəzasının **Qalabaşı yurdu** yaylağında 175 desyatin yaylaq yeri, kəndin yaxınlığında **Dəvəgeri** deyilən yerdə geniş otlaq sahələri olmuşdur.

1897-ci ildə kənd əhalisinin sayı 300 nəfərə, 1916-cı ildə 428 nəfərə çatmışdır.

1918-1920-ci illər erməni-müsəlman davası zamanı kənd ermәni daşnakları tərəfindən dağıdılmış və dinc camaat ev-eşiyindən didərgin salınmışdır. Bölgədə Sovet hakimiyyəti qurulduqdan sonra kənd əhalisinin az bir hissəsi geri dönmüşdür. 1922-ci ildə onların sayı 126 nəfərə, 1926-cı ildə 130 nəfərə, 1931-ci ildə 189 nəfərə çatmışdır. Kənd uşaqları ibtidai məktəbi kəndin özündə oxuyur, yeddiillik məktəbi isə qonşu Körpükənddə bitirirdilər.

1949-cu ildə 400 nəfərdən çox azərbaycanlı yaşayan kəndin bütün əhalisi məcburi şəkildə Azərbaycana köçürülmüş, o vaxtdan kənd xaraba qalmışdır.

1949-cu il deportasiyası zamanı əvvəllər Neftçala rayonunun Qırmızıkənd kəndində məskunlaşan camaatın bir hissəsi iqlim şəraitinə dözməyərək üç il sonra Ağstafaya, Şəmkirə və s. köçməyə məcbur olmuşlar. Hazırda qaladibililər Azərbaycanın Bakı şəhərində, Ağstafa, Neftçala, Şəmkir, Bərdə rayonlarında daha sıx halda məskunlaşmışlar.

* * *

Qaladibi kəndi Vedibasar mahalının Millidərə bölgəsinin ən ucqar kəndlərindən biri idi və sıldırım dağlarla əhatə olunmuş yerdə salmmışdı.

Həmin dağlarm başında 100 hekatarlarla münbit torpaq sahəsi vardı və bu yer **Tap** adlanır. Tap kənddən 3-4 km məsafədə yerləşirdi. Kənddən Tapa getmək üçün iki yol vardı. Biri **Qaladərəsi yolu** idi, ikincisi isə kəndin ortasından geçirdi. İkinci yol təhlükəli olduğu üçün əsas gediş-gəliş Qaladərəsi yolu ilə idi.

Qışı uzun, qalan fəsillərinin ömrü qısa olan bu yerdə dağın ətəyində Qaladibi kəndini salmışlar. Burada tənha bir qəbir – **Kəblahəsənalı babanın ocağı** yerləşirdi. Qocaların dediyinə görə, qəbrin üstündə böyük bir qara daş varmış və o daş həmişə öz yerində durmurmuş, ziyarətə gələnlərin hamısına o daşı görmək nəsib olmurmuş.

İkinci ziyarətgah kənd qəbiristanındakı, məşhur **Hacınağı babanın qəbri – ocağı** idi. Vaxtilə, hər iki ocaq nəinki Cığındərə və Millidərə adamlarının, hətta bütün Vedi rayonu camaatının ziyarətgahına çevrilmişdi.

Qaladibi kəndinin tək bir adsız bulağı vardı. Bu bulağın suyu az olduğundan ondan yalnız içməli su kimi istifadə edirdilər.

Kənddən 800-1000 metr aralı qədim qala yerləşirdi. Kənd bu qalanın dibində salındığı üçün Qalidibi adlanırdı. Hündür sıldırım qayaların üstündə tikilmiş qala öz gözəl hörgüsü və gözəl bürcləri ilə adamı heyran edirdi. Qalanın divarları yonulmuş daşlarla və kəclə hörülmüşdü. Qalanın hündürlüyü 20-25 idi, ərazisi isə 10-15 hektar olardı. Qalanın qapısı günçıxana baxırdı və qapının yaxınlığında dağıdılmış evlərin xarabalıqları hələ də qalmaqda idi.

Qocaların dediyinə görə, qalaya iki yerdən su gəlirmiş. Biri günçıxan tərəfdən tünglərlə, digəri qala qapısından 80-100 metr aralıda, yerin altından gizli yolla dərədən. Həmin dərə **Qaladərəsi** adlanırdı. Qaladərəsi ilə **Qala qapısı** arasmdakı məsafə 150-200 metr idi. Qala qapısının çölündə bir alma ağacı vardı. Həmin alma ağacının dibindən yeraltı yolun olduğu açıqca bilinirdi.

Ermənilərin arasında bu qalanın Tatulun qalası olması haqda əfsanələr dolaşmaqdadır. Guya, qalanı Nadir şah dağıdıbdır. O, uzun müddət qalanı mühasirədə saxlayıb, görüb ala bilmir, Tatulunun arvadmı ələ alıb. Arvad qalanm qapısını açıq qoydurub, Nadir şahm adamları içəri girib, Tatulunu öldürüblər. Nadir şah Tatulunun arvadını isə qayadan atdırıbdır. Ermənilər bu əhvalatı çox yana-yana danışırdılar.

Kəndin tarixi ilə bağlı kənd qocaları arasında belə rəvayət vardı ki, bu yerin camaatı Mildən gəlib. Onlar üç qardaş olublar: **Şahvələd, Şahnəzər, Topacan**. Qardaşlar Mildə bəyi öldürüblər. Daha orada yaşamaları mümkün olmayıb. Üçü də qaçıb Osmanlı dövlətinə keçiblər. Orada da işləri düz gətirməyib, yenidən adam öldürüblər. Təzədən Milə qayıtmaq mümkün olmadığmdan, Osmanlıda da yaşaya bilmədiklərindən bu xəlvət yerdə kənd salıblar.

Bəli, bir neçə yüzil keçəndən sonra bu üç qardaşın törəmələri bir-birinə düşmən kəsiliblər. XX yüzilin əvvəllərində **Şahnəzər tayfası** ilə **Topacanlı tayfası** üz-üzə gəlir. Hər iki tərəfdən ölənlər olur. Bundan sonra Topacanlıların orada yaşaması mümkün olmur. Onlar Qaladibini tərk edib Azərbaycana – Goran rayonuna köçürlər. Goranda kənd salıb adını da İrəvanlı kəndi qoyurlar. Həmin kənd bu gün də yaşayır. Vaxtilə 5-10 ev olan kənd indi böyük bir kənd olmuşdur.

1937-ci ildə **Şahvələdlilərlə** Şahnəzərlilər üz-üzə gəliblər. Arada ölənlər və tutulanlar olub. Sonra da Böyük Vətən müharibəsi başlayıb, sağ qalanlar müharibəyə gedib, bununla da qalmaqal kəsilib.

1918-1921-ci illərdə Millidərə bölgəsində erməni daşnaklarına qarşı bütün əməliyyatlarda iştirak edən Qaladibi kəndinin oğullarının da xidməti az olmamışdır. Onların içərisində **Məmməd kişinin, Sultanın** və xüsusilə də ləqəbi **Keçəl** olan **Cəmilin** adlarını çəkmək olar. Hər üç igid həm Cığındərə, həm də Millidərə döyüşlərində iştirak etmiş, neçə-neçə erməni daşnakmdan qisas almışlar. Keçəl Cəmilin o illərdəki, qəhrəmanlığından bu gün də danışırlar.

Təəssüflər olsun ki, millətin bu mərd övladları uzun illər amansız təqiblərə məruz qalmış, dəfələrlə həbs edilmiş və həbsxanalarda işgəncə çəkmişlər. Onlar yalnız ömürlərinin son günlərində azadlığa buraxılmışlar. Məmməd və Cəmilin məzarları hazırda Şəmkir rayonunun Çinarlı qəsəbə qəbiristanlığında uyumaqdadır.

M.S.Ordubadi "Qanlı illər kitabında" 1905-ci ildə ermənilərin Qırxbulaq mahalı ərazisində törətdiyi vəhşiliklərdən bəhs edərkən **"Qaladibi kəndindən olan kənd ağası Cahanbəxş bəy"**dən, onun igidliyindən, yanındakı iki atlı ilə birlikdə erməni silahlarının qarşısını kəsdiyindən, müsəlman qaçqınlarının erməni təqibindən qaçıb-qurtarmasına şərait yaratdığından da ətraflı bəhs etmişdir.

## KƏNDİN TAYFALARI

Şahvələdlilər, Şahnəzərlilər, Topacanlılar.

## KƏNDİN TOPONİMLƏRİ

Tap, Qaladərəsi yolu, Kəblahəsənalı babanın ocağı, Hacmağı babanın ocağı, Qaladərəsi, Qala qapısı.

## 1930-CU İLLƏRİN REPRESSİYA QURBANLARI

1. Məmmədov Qəyibqulu və b.

## 1941-1945-Cİ İLLƏR MÜHARİBƏSİNDƏ HƏLAK OLANLAR

1. Manaf Veyis oğlu Vəliyev
2. Adil Məhərrəm oğlu Həsənov

3. Nəbi Səfərəli oğlu Məmmədov
4. Veyis İsmayıl oğlu Abbasov
5. Abuzər Əlican oğlu Mamayev
6. Qurban Ələsgər oğlu Mamoyev
7. Lətif Qəyibqulu oğlu Məmmədov
8. Sultanəli Veyis oğlu Vəliyev
9. Şadman Mərdanov
10. Alı Alıyev
11. Balasultan Canbağış oğlu
12. Qurban
13. Səməd Mərdanov
14. Bəhlul
15. Bəhmən İmanov
16. Pərvanə İmanov və b.

## FELMAN QARA OĞLU MƏCNUNOV



1939-cu ildə Qaladibi kəndində anadan olmuş, 1947-ci ilin martında Azərbaycanın Şəmkirin Lenin qəsəbəsinə köçmüşlər və 1958-ci ildə orada orta məktəbi bitirmişdir.

1963-cü ildə Azərbaycan Dövlət Universitetinin kimya və biologiya fakültəsinin axşam şöbəsinə daxil olmuş, 1964-cü ildə universitetdə oxuyarkən Azərbaycan EA Botanika İnstitutunda əvvəl laborant, sonra isə kiçik elmi işçi vəzifələrində çalışmış, 1969-cu ildə universiteti bitirmiş və 1970-ci ildə Azərbaycan EA-nın Genetika və Seleksiya İnstitutunun aspiranturasına daxil olmuşdur.

Novosibirskdə böyük bir məktəb keçən Felman Qara oğlu 1975-ci ildə Akademiyada ilk dəfə olaraq cinslərarası (taxil bitkilərində) hibridlərin meyozu üzrə dissertasiya müdafiə edərək biologiya elmləri namizədi alimlik dərəcəsi almışdır.

1991-ci ildən həmin institutda baş elmi işçi vəzifəsində çalışır. 20-yə qədər elmi məqalənin müəllifidir.

İki övladı var. Böyük qızı Sevinc ali təhsilli müəllimədir, kiçik qızı Mehriban tibb texnikumunu bitirmişdir. Hər ikisi ailəlidir.



## NİZAMİ QULU OĞLU CƏFƏROV



Atası Qulu müəllim Vedibasar mahalının Qaladibi kəndinin bütün sakinləri kimi, 1948-ci ildə deportasiya olunaraq Azərbaycana köçürülmüş, Qazax (indiki Ağstafa) rayonunda məskunlaşmışdı. Nizami də 1959-cu ilin 21 sentyabrında elə həmin rayonda dünyaya gəlmiş, 1977-ci ildə orta məktəbi bitirərək ADU-nun filologiya fakültəsinə daxil olmuş, 1982-ci ildə həmin fakültəni fərqlənmə diplomu ilə bitirib, Azərbaycan dilçiliyi ixtisası üzrə aspiranturada saxlanmışdır.

1985-ci ildə "Azərbaycan dilində sadə cümlənin struktur-semantik inkişafı" mövzusunda namizədlik dissertasiyası müdafiə etmiş, Azərb. EA Nəsimi adına Dilçilik İnstitutuna elmi işçi qəbul olunmuşdur. 1987-1991-ci illərdə "Ədəbiyyat və incəsənət" qəzetində tənqid və ədəbiyyatşünaslıq şöbəsininin müdiri vəzifəsində çalışmışdır.

N.Cəfərov 1991-ci ildə BDU-nun türkologiya kafedrasına müəllim qəbul edilmiş, həmin ilin sonlarında "XVIII əsr Azərbaycan ədəbi dili" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1992-ci ildən türkologiya kafedrasında professor əvəzi, 1993-cü ildən professordur.

N.Cəfərov 1994-2002-ci illərdə BDU-nun filologiya fakültəsinin dekanı olmuşdur. O, Azərbaycan Yazıçılar Birliyinin və onun Məclisinin üzvü, Təhsil Nazirliyi Elmi-metodik şurası "Azərbaycan dili və ədəbiyyatı" bölməsinin sədridir. Uzun müddət Azərb. EA və Təhsil Nazirliyinin Dilçilik üzrə Birləşmiş Doktorluq müdafiəsi Şurasına sədrlik etmişdir. BDU "Elmi əsərlər"i humanitar seriyasının baş redaktor müavini, Azərb. EA "Xəbərlər"inin dil, ədəbiyyat və incəsənət seriyasının, "Azərbaycan dili və ədəbiyyatının tədrisi" jurnalının, "Ədəbiyyat qəzeti"nin redaksiya heyətlərinin üzvüdür.

N.Cəfərov hazırda həm də Azərbaycan MEA müxbir üzvü, Atatürk mərkəzinin rəhbəri, AAK Dil və Ədəbiyyat üzrə Ekspert Komissiyasının sədri, Əməkdar elm xadimi və Milli Məclisin deputatıdır.

Azərbaycan dilinə, ədəbiyyatına, ümumi türkologiyaya həsr olunmuş 10-dan artıq kitabın, orta məktəb üçün "Azərbaycan dili" proqram və dərsliklərinin müəllifidir. Azərbaycanda, Türkiyədə, İranda və b. ölkələrdə yüzlərlə elmi-kütləvi məqaləsi dərc olunmuşdur. Həmin ölkələrdə keçirilən türkoloji konfranslarda, qurultaylarda dəfələrlə sədrlik etmişdir.

## QARABAĞ

Vedibasar mahalının Çanaxçıdərə bölgəsində, Cəfərli kəndi yaxmlığmda kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) Vedi nahiyəsinin Aşağı Qarabağ və Yuxarı Qarabağ kəndləri ilə yanaşı, həm də ayrıca **Qarabağ kəndi** qeydə alınmışdır.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə Vedi nahiyəsinin Böyük Qarabağ və Kiçik Qarabağ kəndləri ilə bir sırada **Qarabağ kəndinin** də adı çəkilir və kəndin Cəfərkənd (**Cəfərli – Ə.Ə.**) kəndi yaxınlığında yerləşdiyi göstərilir.

İ.Şopendə (1832) Vedibasar mahalındakı köçəri tayfalar sırasında 11 ailədə 67 nəfərdən ibarət **Qarabağlı** tayfasının da adı çəkilir ki, bizcə, sonrakı dövrlərə aid mənbələrdə Vedi nahiyəsində ayrıca Qarabağ kəndinin adına rast gəlinməməsi söyləməyə əsas verir ki, Qarabağlı tayfası kimi qeyd onunan həmin 11 ailə məhz 1926-1929-cu illər Rusiya-İran, Rusiya-Osmanlı müharibələri zamanı dağıdılmış Qarabağ kəndinin evsiz-eşiksiz qalan sakinləri imişlər. Sonralar həmin ailələrin onlara qohum tayfaların yaşadığı Böyük və Kiçik Qarabağ kəndlərində yaşadığını ehtimal etmək olar.

Kəndin adı eramızın ilk yüzillərində Cənubi Qafqaza gəlmiş gəngər-peçeneqlərin Qarabağ türk tayfasının adından əmələ gəlmişdir.

Qarabağ etnotoponiminin yayılma arealı barədə Aşağı Qarabağlar kəndindən danışarkən daha ətraflı bəhs etdiyimizdən bir daha təkrar etmirik.



## QARACA ABDAL

Vedibasar mahılında kənd. Mənbələrdə kəndin coğrafiyası ilə bağlı əlavə məlumata rast gəlmədiyimizdən onun dəqiq yerini xəritədə göstərməyə çətinlik çəkirik.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) və "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Vedi nahiyəsinin **Qaraca Abdal kəndi** kimi qeydə alınmışdır. Üstəlik, ikinci mənbədə kənddə Ömər adlı şəxsin timarından dövlətin müxtəlif vergilər şəklində il ərzində 3.000 ağça gəlir götürdüyü göstərilmişdir.

Sonrakı mənbələrdə kəndin adına rast gəlmirik. Bu, belə söyləməyə əsas verir ki, kənd bir-birini əvəz edən Osmanlı-İran müharibələri zamanı yerlə-yeksan edilmiş, adı yer üzündən silinmişdir.

Kəndin adının Qaraca Abdal şəxs adından yarandığı ehtimal olunur. Bu yerdə xatırlatmağı vacib bilirik ki, **abdal** sufiliyin mərtəbə dərəcələrindən biridir. Görkəmli folklorşünas alim Hüseyn İsmayılovun təsdiq etdiyi kimi, XV-XVI yüzillərdə abdal artıq yol-əqidə adamı, dərviş-qələndər, təriqətə təmənnasız xidmət edən gəzəri sufi mənasını bildirirdi və sufiliyin ən yüksək mərtəbələrindən biri idi. Bu təriqətin yolçusu olan Şah İsmayıl Xətainin abdal dərəcəsinə nə qədər yüksək qiymət verməsini onun məşhur göyçəli aşıq Miskin Abdala olan son dərəcə isti, doğma münasibətindən də görmək olar.

Vedibasar mahalında Qaraca Abdal kəndinin meydana gəlməsi də, şübhəsiz, sufilikdəki abdal mərtəbəsi ilə bağlıdır və bizim fikrimizcə, kənd məhz Şah İsmayılın hakimiyyəti dövründə bu adı almışdır.

# QARAXAÇ

Vedibasar mahalının Çanaxçıdərə bölgəsində, Vedi rayonunun mərkəzi olan Böyük Vedi qəsəbəsindən 27 km cənub-şərqdə, Dübəyli (İnək qayası da deyiblər) dağının ətəyində, Vedi çayının sol qolu olan Çapançay çayı üstündə, Çaşam bulağının kənarında, dəniz səviyyəsindən 2.500 m yüksəklikdə kənd.

XIX yüzilin ortalarına qədər kənddə ancaq Azərbaycan türkləri yaşamışlar. Həmin vaxtdan 1948-ci ilədək azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuşdur. 1948-ci ildə kənd bütünlüklə erməniləşdirilmişdir.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) və "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) kəndin adı Vedi nahiyəsinin **Qaraxaç kəndi** şəklində qeyd olunmuşdur. Üstəlik, ikinci mənbədə kəndin Zəncirli kəndi ilə birlikdə Abdulla Musa oğlu adlı bəyə mənsub olması barədə qeyd var.

Qaraxaç adının mənaaçımında üç versiya mövcuddur. Birincisi: **qara arxac** (yəni böyük arxac); ikincisi: **qara ağac** (yəni qara ağaclıq); üçüncüsü: **qara xaç** (yəni qara rəngli xaç daşı). Birinci və ikinci yozumu biz qəti şəkildə rədd edirik. Əvvəla ona görə ki, dəniz səviyyəsindən 2.500 m yüksəklikdə yerləşən bu yer heç vaxt arxac yeri olmayıb, əksinə, meşə zonası olub. İkincisi, bu meşə zonasında qara ağac ağacı başqa ağaclardan heç də çox olmayıb. O ki qaldı adın üçüncü mənaaçımına, heç şübhəsiz, bu, kəndin tarixini islamaqədərki xristianlığa aparıb çıxarır. Təsadüfi deyil ki, Qərbi Azərbaycanda vaxtilə çoxlu eyniadlı toponimlər olmuşdur: Gümrü qəzasında Qaraxaç dağı, Maku nahiyəsində Qaraxaç yaylağı, Şörəyel nahiyəsində Qaraxaç kəndi, Göyçə-Kəlbəcər bölgəsində Qaraxaç yaylağı və s. Adın etimoloji izahının bu versiyasında tədqiqatçılar B.Budaqov və Q.Qeybullayev israrlıdırlar.

Lakin daha bir – dördüncü və üçüncüdən heç də az əhəmiyyətli olmayan, əksinə, daha tutarlı versiya da var ki, o da adın **qara** (böyük, qüdrətli, güclü) və **kas** (türk tayfa adı) toponimlərinin birləşməsi şəklində izahıdır. Professor Həsən Mirzəyev Dərələyəz mahalındakı Ağxaç kənd adını misal gətirərək Qaraxaç adının bu mənaaçımı üzərindəki mülahizələrini daha da



möhkəmləndirir. Biz də adın **Qara-kas//Qara-xas//Qara-xaş//Qara-xaç** izahını daha elmi hesab edirik.

Vedibasar mahalının Qaraxaç kəndində 1832-ci ildə 12 təsərrüfatda 94 nəfər (52 kişi, 42 qadın) Azərbaycan türkü yaşamışdır. Kənddə bir nəfər də erməni qeydə alınmamışdır.

1873-cü ilin statistik məlumatlarında isə İrəvan şəhərindən 75 verst aralıda yerləşən bu kənddə artıq 31 təsərrüfatda 324 nəfər (154 kişi, 170 qadın) azərbaycanlı, 21 təsərrüfatda 276 nəfər (150 kişi, 126 qadın) erməni qeydə alınmışdır. Bu, onu göstərir ki, Qaraxaç kəndinə ermənilər məhz 1840-1850-ci illərdən etibarən köçürülməyə başlamışlar.

1886-cı ildə kənddə 64 təsərrüfatda cəmi 786 nəfər (431 kişi, 355 qadın) əhali yaşamışdır. Onların 34 təsərrüfatda 498 nəfəri (238 kişi, 260 qadın) azərbaycanlı, 30 təsərrüfatda 288 nəfəri (193 kişi, 95 qadın) erməni olmuşlar. Kəndin 1486,35 desyatin torpaq sahəsinin 10,28 desyatinini malikanə torpaqları, 38,6 desyatinini suvarılan, 832 desyatinini suvarılmayan əkin yerləri təşkil etmişdir. Kəndin torpaqları kəndiçi bulaqların suyu ilə suvarılmışdır. Kənddə 381 iribuynuzlu, 849 xırdabuynuzlu mal-qara qeydə alınmışdır.

Kəndin İrəvan qəzasının **Yalyurd** yaylağında qədimdən kəndə məxsus 100 desyatin yaylaq yeri olub.

1897-ci ildə kəndin əhalisi 589 nəfər azərbaycanlı, 416 nəfər erməni nisbətində olmuşdur.

1905-1906-cı illərdə erməni-müsəlman davası da kənddən yan ötməmişdir. Bu, özünü öncə kənd əhalisinin sayı haqqındakı statistik məlumatlarda göstərir. Belə ki, həm 1905-ci ildə, həm də 1915-ci ildə kənddə yaşayan azərbaycanlıların sayı (430 nəfər) nisbətən azalmış və dəyişməz qalmışdır.

1918-ci ildə isə artıq kənddə 200 ailə əhali yaşayırdı. Onun 150-i azərbaycanlı, 50-i erməni idi. Həmin il erməni daşnakları kəndin əhalisini görünməmiş vəhşiliklə qətlə yetirmişdilər.

1922-ci ildə sağ qalmış azərbaycanlılardan cəmi 22 nəfər doğma kəndinə qayıtmışdı. Sovet hakimiyyəti illərində kəndə Ermənistanın dağlıq rayonlarından və Türkiyədən yenə də çoxlu erməni gətirilib yerləşdirilmişdi. 1948-ci ildə kəndin olan-qalan azərbaycanlı əhalisi də (cəmi 16 ailədə 80-100 nəfər) məcburi

şəkildə Azərbaycana köçürülmüş və kənd tamamilə erməniləşdirilmişdi.

* * *

Qaraxaç kəndində olan erməni hücumları bu qədim saz-söz diyarının sənət aləminə də öz zərbəsini vurmuşdur. Belə ki, mahalın tanınmış aşıqlarından olan **Aşıq Cabbar** məhz birinci (1905-1906) soyqırımında şəhid olmuşdu. Onun oğlu **Aşıq Məhəmməd** isə 1918-ci il qırğınını gözü ilə görmüş, 1948-1953-cü illər deportasiyasının qurbanı olmuş, gəlib Salyanda rəhmətə getmişdi.

1919-cu ilin əvvəlində ən dəhşətli kütləvi soyqırımına məruz qalmış Vedibasar kəndlərindən biri də Qaraxaç idi. Andranikin daşnak dəstələrinin burada törətdiyi vəhşiliklər insanlaqdan çox-çox uzaq və heç bir ölçü-biçiyə gəlməyən hərəkətlər idi. Bu faciənin canlı şahidlərindən biri **Məhərrəm Hümmət oğlu Quliyev** olmuşdu. 1885-ci ildə Qaraxaçda anadan olmuş, 1950-ci ildə Azərbaycana köçürülmüş və 1966-cı ildə Xanlarda vəfat etmiş Məhərrəm Quliyevin Qaraxaç faciəsi barədəki xatirələrini oğlu **Əmir Quliyev** qələmə almış və "Andranik Qaraxaçda nələr törətdi" adı altında çap etdirmişdir ("Xalq qəzeti", 3,4, 5,6 sentyabr 1996-cı il nömrələrində). Buna görə də hadisənin qısa təsviri ilə kifayətlənirik.

Dərələyəzdə çoxlu qanlar axıdan Andranikin dəstələri Yelpin kəndindən Vedibasara keçib, burada Çanaxçı kəndində yerləşmişdilər. Qaraxaçla Çanaxçı arasında 10 km məsafə vardı. Bu məsafədə Qaşqa, Keşişverən və Birəli kəndləri yerləşirdi. Onlardan qərbdə isə Zəncirli kəndi idi. Həmin istiqamətdə erməni hücumunu gözləyən qaraxaçlılar Qlava Qəhrəmanın başçılığı ilə kəndin müdafiəsini təşkil edir, 1919-cu il yanvarın əvvəllərində Qaşqa kəndi tərəfdən Qaraxaça bir neçə dəfə hücum edən daşnaklar hər dəfə darmadağın edilərək geri oturdulurlar.

Vəziyyəti belə görən ermənilər hiyləyə əl atır, ağ bayraq qaldırıb, danışığa girir, and-aman edirlər ki, onların məqsədi müsəlmanlarla müharibə etmək yox, kənddə hökumət orqanı yaratmaqdır. Qlava Qəhrəmana da kənddə hökumətin nümayəndəsi olmağı təklif edirlər. **Qlava Qəhrəman, Molla Qafar** və b.-ları



ermənilərin hiyləsinə uyub onların kəndə buraxılmasına razılıq verirlər.

Bir neçə gün sonra daşnak silahlıları dəstə-dəstə kəndə daxil olurlar. Üç-dörd gün ərzində kəndi yaxşı öyrənən ermənilər kənddəki bütün müsəlmanların silahlarını yığır, cavanlarını tutub, Kəlba Niftalının tövləsinə doldururlar. Bundan sonra kənd camaatının kütləvi qətli başlayır. Öncə Kəlba Niftalının tövləsinə od vurulur və cavanlar burada diri-diri yandırılırlar. İmkan tapıb, özünü tövlədən bayıra atanlar isə elə yerlərindəcə güllələnirlər. Eyni vaxtda məhəllə və evlərdə kütləvi qətllər başlayır. Adamları ən vəhşi üsullarla kəsir, doğrayır, körpə uşaqları nizələrə taxırlar. Qlava Qəhrəmanın isə kürəyinə qaynar samovar bağlayıb, **Böyük bulağın** üstündəki təpədən dərəyə yuvarladıb öldürürlər. Bu vəhşiliklər səhərə qədər davam edir. M.Quliyevin xatirələrində həmin hadisə belə qələmə alınıb: "Sabaha yaxın hər şey susmuşdu: Kəlba Niftalının komu uçmuş, tavan tüstüdən boğulan və yanan meyitlərin üstünə tökülmüşdü.

Səhər açılanda evlərdən də səs-səmir kəsilmişdi. Hələ dünən axşam səksəkə ilə evlərinə doluşub tanrıdan rəhm diləyən adamların başı, qol-qıçı kəsilmiş, bədəni nizələnmiş, gözləri çıxarılmışdı. Meyidlərin arasında tək-tük zarıyanlar da vardı".

1948-1953-cü illər köçürülməsinə qədər kənddə yeddiillik beynəlmiləl məktəb fəaliyyət göstərirdi. Azərbaycanlılar köçürüldükdən sonra onlarm boşalmış evlərinə dağlıq Qaranlıq (Martuni) rayonundan xeyli erməni köçürülüb gətirilib yerləşdirildi. Köçürülən azərbaycanlı qaraxaçlılar isə əsasən Azərbaycanın Salyan rayonunun Parça-Xalaç kəndinə daşındılar. Buranın isti iqliminə dözməyən qaraxaçlılar az sonra Azərbaycanın digər rayonlarına – Ağstafaya, Goranboya, Bərdəyə, Beyləqana, Əli Bayramlıya və Bakı şəhərinə köçüb getdilər.

Qaraxaç kəndinin daşnaklar tərəfindən soyqırımının şahidlərindən biri də kəndin məşhur Xoylular tayfasından olan 1900-cü il təvəllüdlü **Xudaverən Məhərrəm oğlu Məhərrəmov** olmuşdu. Bu soyqırımı zamanı onların nəslindən 80 nəfərdən çox adam ermənilər tərəfindən qətlə yetirilmişdi. Erməni cəlladlarının əlindən təsadüf nəticəsində qaçıb canını qurtaran Xudaverən öz kəndinin və yaxınlarmın qisasını almaq üçün silaha sa-

rılmış və Sovet hakimiyyəti qurulana qədər erməni daşnaklarına qarşı qəhrəmanlıqla döyüşmüşdür. Bölgədə Sovet hakimiyyəti qurulduqdan sonra o, Qaraxaç kəndində ferma müdiri, sonralar kənd sovetinin sədri işləmişdir. Bu illərdə o, dəfələrlə erməni fitnəkarlıqları ilə üz-üzə gəlmiş, lakin mərd, cəsarətli mövqeyi ilə hər dəfə onları öz yerlərində oturtmuşdur. 1950-ci ildə həmkəndliləri kimi, onların da ailəsi Salyan rayonuna köçürüldü. Arandakı yaşayışa dözə bilmədikdərindən az sonra Ağstafanın Kalininkənd kəndinə köçdüdər. Doğma yurddan kənarda yaşaya bilməyən Xudaverən kişi 1954-cü ildə burada da vəfat etdi. Onun övladlarından **Cabbar Məhərrəmov, Yetər Məhərrəmova, Lala Vəliyeva, Şəfiqə Məhərrəmova** indi də Ağstafa rayonunda yaşayırlar.

Qaraxaç kəndinin yetirməsi olan ziyalılar sırasında **Əmir Quliyevin, Novruz Quliyevin, Həsən Abbasovun, Qəmər Quliyevanın, Müzəffər Məmmədovun** və b.-nın adlarını çəkmək olar.

**Novruz Hümmət oğlu Quliyev** Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsini və Ali Partiya məktəbini bitirib, Xanlarda RPK-da müxtəlif məsul vəzifələrdə çalışmışdır. Hazırda Xanlar konyak zavodunun direktor müavinidir.

**Əmir Məhərrəm oğlu Quliyev** 1931-ci ildə Qaraxaç kəndində anadan olmuş, İrəvanda pedaqoji məktəbi, Naxçıvanda ikiillik pedaqoji institutu, sonra Bakıda APİ-ni qurtarmışdır. 19 yaşında Salyanın Parça-Xalaç kənd məktəbinə direktor təyin olunmuş və 5 il bu vəzifədə çalışmışdır. Sonra Xanlara köçmüş, burada Bilik Cəmiyyətinin sədri, rayon maarif şöbəsi həmkarlar ittifaqının sədri işləmişdir. 20 ildən çoxdur ki, Xanlar rayon Kino Birliyinə rəhbərlik edir.

**Qəmər Məhərrəm qızı Quliyeva** Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsini bitirmiş, dövri mətbuatda çalışmışdır. Xanlar rayonunun "Göygöl" qəzetinin uzun illərdir ki, redaktorudur. Bununla yanaşı, rayon sovetinin deputatı, rayon Qadınlar Şurasının sədri olub. 3 kitab müəllifidir. Respublika Yazıçılar Birliyinin və Jurnalistlər İttifaqının üzvüdür.

**Xoşqədəm Məhərrəm qızı Quliyeva** 1970-ci ildə H.Zərdabi adına Gəncə Dövlət Pedaqoji İnstitutunu fərqlənmə diplomu ilə



bitirmişdir, ali dərəcəli müəllimdir. Hazırda Tərtər rayonunda müəllim işləyir.

**Müzəffər Fərman oğlu Məmmədov** isə 1939-cu ildə Qaraxaç kəndində anadan olmuşdu. Bakıda Neft və Kimya İnstitutunun elektrotexnika fakültəsini bitirmiş, Moskvada dissertasiya müdafiə edərək texnika elmləri namizədi alimlik dərəcəsi almışdı. Hərbi sualtı qayıqlar üzrə elmi tədqiqatlarla məşğul olurdu. 1989-cu ildə – ömrünün 50-ci yaşında vəfat etmişdir.

## KƏNDİN TAYFALARI

Kənddə əsasən üç tayfa olub: Qaraçorlular, Xoylular, Millilər.

## KƏNDİN TOPONİMLƏRİ

Dübəkli dağı, İnək qayası dağı, Fətəli bulağı, Böyükbulaq, Həsənalı bulağı, Qarabulaq, Çimən bulağı (dağ dibindəki çəmənlikdə yerləşirdi), Dübəki bulağı (Sədərək kənd camaatı buradan keçib yaylağa gedirdi), Şırran bulağı (dağın ortasından çıxıb şırıltı ilə axırdı), Dübəkli kövşəni, Qanqallı kövşən, Yaylaq kövşəni.

## 1941-1945-Cİ İLLƏR MÜHARİBƏSİNDƏ HƏLAK OLANLAR

1. Əziz Əhmədov
2. Müslüm Əhmədov
3. Məmmədbağır Əhmədov
4. Hümmət Quliyev
5. Fərman Cabbarov
6. Cəlil Abdullayev

## HƏSƏN HÜSEYN OĞLU ABBASOV



1938-ci il yanvarın 1-də Qaraxaç kəndində anadan olmuşdur. İki yaşında ikən atasını itirmiş, ailəni – iki bacı, bir qardaşı anası saxlamışdır. Anası 1982-ci ildə Salyan rayonunda vəfat etmişdir.

1950-ci ildə digər həmkəndliləri ilə birlikdə Azərbaycanın Salyan rayonunun Parça-Xalac kəndinə deportasiya olunmuşlar.

1956-cı ildə Əli-Bayramlı rayonunun Muğangəncəli kənd orta məktəbini bitirdikdən sonra Salyan rayonunun Çuxanlı sovetliyində müxtəlif vəzifələrdə işləmişdir.

1960-cı ildə Azərbaycan Dövlət Universitetinin iqtisad fakültəsinə daxil olmuş, 1966-cı ildə oranı bitirmişdir.

1966-cı ilin sentyabrından 1993-cü ilin fevralınadək Azərbaycan Dövlət Plan Komitəsinin Elmi-Tədqiqat İqtisad İnstitutunda kiçik elmi işçi vəzifəsindən şöbə müdiri vəzifəsinədək yüksəlmişdir. "Azərbaycan SSR-də məhsuldar qüvvələrin inkişafı və yerləşdirilməsi" iki cildlik proqnoz kitabının hazırlanmasının müəlliflərindən biridir.

1983-cü ildə dissertasiya müdafiə edərək iqtisad elmləri namizədi alimlik dərəcəsi almışdır. Sosial-iqtisadi problemlərə dair 50-dən çox elmi məqalə və kitabçası dərc olunmuşdur.

1993-cü ilin fevralından Azərbaycan Dövlət İqtisad İnstitutunun "Sosioloji elmi-tədqiqat" laboratoriyasının müdiri vəzifəsində çalışır. İki övlad atasıdır.

Həsən müəllimin bacısı **Zeynəb Abbasova** 17 yaşından əmək fəaliyyətinə başlamış, 1953-cü ildə Çuxanlı kənd sovetinin sədri seçilmiş və 27 il bu vəzifədə çalışmışdır. Bu müddətdə o bir sıra təltiflərə – orden, medal və fəxri fərmanlara layiq görülmüşdür. 1987-ci ildən fərdi təqaüddədir.

Digər bacısı **Qəndab Abbasova** Salyan tibb məktəbini və Bakı şəhər 1 saylı tibb texnikumunu bitirmiş, Parça-Xalac kənd feldşer-mama məntəqəsinin müdiri işləmişdir. Hazırda kənd xəstəxanasının həkimidir.



## QARAQOYUNLU (YUXARI QARAQOYUNLU)

Vedibasar mahalının Cığındərə bölgəsində, Vedi çayının kənarında, Cığın Qaraqoyunlu kəndi yaxınlığında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) Vedibasar mahalının Arazboyu hissəsini əhatə edən Aralıq nahiyəsində Qaraqoyunlu adlı iki kənd (**Aşağı Qaraqoyunlu** və **Yuxarı Qaraqoyunlu**) qeydə alınmışdır.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) və İ.Şopendə (1832) isə Gərnibasar mahalı ərazisində Qaraqoyunlu adlı kənddən bəhs olunsa da, Vedibasar mahalında Qaraqoyunlu kənd adına **Cığın Qaraqoyunlu** şəklində ilk dəfə 1873-cü ilin statistik məlumatlarında rast gəlirik.

1886-cı ilə dair mənbədə isə Vedibasar mahalı ərazisində Ərmik kənd icması tərkibindəki Cığın Qaraqoyunlu kəndi ilə yanaşı, **Qaraqoyunlu** adlı ikinci bir kənd də qeydə alınmışdır. Bu kənddə 55 təsərrüfatda 441 nəfər (223 kişi, 218 qadın) Azərbaycan türkünün yaşadığı göstərilmişdir.

Bu, söyləməyə əsas verir ki, Qaraqoyunlu kəndi 1870-ci illərin sonu – 1880-ci illərin əvvəllərində Qaraqoyunlu tayfa nümayəndələri tərəfindən salınmışdır.

Kəndin adından da göründüyü kimi, heç şübhəsiz, o, məşhur oğuz-türk tayfası olan **Qaraqoyunluların** adını daşımışdır. (Qaraqoyunlu tayfa adı isə özlüyündə **qara hunlarla** bağlı bir addır). Cığın Qaraqoyunlu kəndinin yuxarı tərəfində yerləşdiyi üçün Qaraqoyunlu kəndinə həm də **Yuxarı Qaraqoyunlu** demişlər.

XIII yüzildə, dəqiq desək, 1284-1291-ci illərdə Hulaku hökmdarı Arqun xanın zamanında Türküstandan İrana, oradan da Cənubi Qafqaza keçən, baharlı, hacılı, qaramanlı, ağacəri, bayramlı, əyinli, duhanlı, alpout və b. tayfalardan ibarət Qaraqoyunlu türk-oğuz tayfa birləşməsi Azərbaycan xalqının etnogenezində fəal iştirak etmişdir.

Qaraqoyunlu dövləti (1410-1468) Azərbaycan tarixində güc-

lü feodal dövləti kimi mühüm yer tutmuşdur. Bu dövlətin Bayram Xoca, Qara Məhəmməd, Qara Yusif, Əbu Səid, Cahanşah kimi görkəmli nümayəndələri, hökmdarları olmuşdur. Qərbi Azərbaycanda çoxlu Qaraqoyunlu kəndləri vardı. Bir hissəsi Çəmbərək (Krasnoselo), digər hissəsi Karvansaray (İcevan) rayonları tərkibinə daxil olmaqla Dilican dərəsi ilə Soyuqbulaq yaylası arasmda Qaraqoyunlu dərəsi deyilən geniş bir ərazidə dərəboyu müxtəlif adlarla 14 Qaraqoyunlu kəndi yerləşirdi.

Bundan əlavə, vaxtilə İrəvan xanlığının Dərəkənd-Parçenis mahalında, İrəvan quberniyasının Sürməli qəzasında, Basarkeçər, Üçkilsə rayonlarında da Qaraqoyunlu adlı kəndlər olmuşdur. Ümumiyyətlə isə XIX yüzildə Cənubi Qafqazda Qaraqoyunlu adında 16 kənd mövcud olmuşdur. Bu gün də Azərbaycan ərazisində müxtəlif adlarla (Qaraqoyunlu, Tap Qaraqoyunlu, Çay Qaraqoyunlu, Xan Qaraqoyunlu və s.) neçə-neçə Qaraqoyunlu kəndləri vardır.

Kənd camaatı əsasən əkinçilik və maldarlıqla məşğul olmuşdur. Belə ki, kəndin 192,28 desyatin torpaq sahəsinin 3,25 desyatinini malikanə torpaqları, 16 desyatinini bağ sahələri, 1,85 desyatinini meşə zolağı, 141,53 desyatinini suvarılan əkin yerləri təşkil etmişdir. Kənddə 152 iribuynuzlu, 15 xırdabuynuzlu mal-qara qeydə alınmışdır.

Kəndin əkin yerləri **Ağbulaq çayının** suyu ilə suvarılmışdır. Sonralar, təxminən XIX yüzilin sonu – XX yüzilin əvvəllərində kənd Cığın Qaraqoyunlu ilə qaynayıb-qarışmış və müstəqil bir kənd kimi tarix səhnəsindən silinmişdir. Qaraqoyunlu kəndini də öz qoynuna almış Cığın Qaraqoyunlu kəndinin adı 1935-ci ildə dəyişdirilərək Qaraqoyunlu qoyulmuş, bu kəndin əhalisi isə 1949-cu ildə məcburi şəkildə öz yurd-yuvalarından qoparılaraq Azərbaycana köçürülmüşlər. Kənd o vaxtdan xaraba qalmışdır.



## QARALAR (ƏLİQARA)

Vedibasar mahalının aran hissəsində, Ağrıdağ vadisində, Vedi rayonunun mərkəzi olan Böyük Vedi qəsəbəsindən 7 km cənub-qərbdə, Vedi çayının qolu olan Böyük çayın üstündə, İrəvan-Naxçıvan-Bakı dəmiryol xəttinin kənarında, İrəvan-Naxçıvan avtomobil yolunun 600-700 metrliyində kənd.

1920-ci ilə qədər kənddə ancaq Azərbaycan türkləri yaşamışlar. 1921-1988-ci illərdə isə azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuşdur. 1988-ci ildə kənd bütünlüklə erməniləşdirilmişdir.

Kəndin adına ilk dəfə "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) Vedi nahiyəsinin **Əliqara kəndi** şəklində rast gəlirik. Əslində, bu tipli toponimlərdə **"Əl"**, **"Əli"** komponentləri tayfa anlamında **"el"**, **"eli"** mənalarını bildirir. Bu baxımdan, Əliqara kəndi də **Qara eli, Qaralar eli** (tayfası) mənasında işlənmişdir.

İ.Şopendə (1832) kəndin adına **Qaralar** şəklində Vedibasar mahalının xaraba kəndləri siyahısında rast gəlirik. Bu, söyləməyə əsas verir ki, Vedibasar ərazisində belə bir kənd daha əvvəldən mövcud olmuş, 1826-1829-cu illər Rusiya-İran, Rusiya-Osmanlı müharibələri zamanı böyük dağıntılara məruz qalmışdır. "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə Qaralar kənd adına rast gəlməsək də, bizcə, bu mənbədə **Qarança** kimi qeydə alınan kənd məhz Qaralar kəndidir. Həmin ilə aid İrəvan əyalətinə dair başqa bir dəftərdə Qarança kənd adının **Qaracıq** kimi qeyd olunması da onun "Müfəssəl dəftər"dəki Əliqara kəndi ilə eyni kənd olması, sonralar Qaralar şəklinə düşməsi fikrini ortaya qoyur.

"İcmal dəftəri"ndəki məlumata görə, 1728-ci ildə dövlətin müxtəlif vergilər şəklində kənddən götürdüyü illik gəlir 4.800 ağça olmuşdur. Yeri gəlmişkən, həmin mənbədə Vedibasar ərazisində Qarança adı ilə daha iki toponim – **Qarança-Şətli** (yəni Şadlı) kəndi və **Qarança məzrəsi** (məzrə – sakinləri olmayan kəndlərin əkin sahələri) qeydə alınmışdır. Elmi ədəbiyyatda isə Qarança toponiminin qıpçaqların **Anca** tayfasının adından yarandığı, **"qara Anca"** və ya **"qəryə Anca"** mənalarını bildirməsi barədə mülahizə var (B.Budaqov, Q.Qeybullayev), lakin biz bu fikirlərlə qəti razı deyilik və belə hesab edirik ki, elə Qarança da **Qaraca** deməkdir

və bu mənada Qaracıq adı ilə eyniyyət təşkil edir.

Qaralar kəndinin adının Qara adlı bir şəxsin nəslinin adını daşıması fikri (S.Mirmahmudova) də kökündən səhvdir. Bu adın orta yüzillərdə Anadoluda yaşamış Yeryük türk tayfa birləşməsinin bir qolu olan **Qaralar tayfasının** adından götürülməsi fikri (B.Budaqov, Q.Qeybullayev) daha inandırıcıdır. Qaralar kənd adının burada məskunlaşmış **Qaraqoyunlu tayfasının** adını daşıması mülahizəsi də xeyli ciddidir.

XIX yüzildə Cənubi Qafqazda 10 Qaralar kəndi olmuşdur. Qərbi Azərbaycanda Dərələyəz və Zəngəzur mahallarında da eyniadlı kəndlər vardı. Gümrü qəzasındakı bir kəndin adı isə Qaral idi. Hazırda Azərbaycan Respublikasının İmişli və Sabirabad rayonlarında Qaralar kəndləri mövcuddur.

Vedi nahiyəsinin Qaralar kəndi 1832-ci ildən sonra yenidən məskunlaşmış, 1873-cü ildə kənddə artıq 58 ailədə 443 nəfər (253 kişi, 190 qadın) Azərbaycan türkü qeydə alınmışdır.

1886-cı ildə kənddə əhalinin sayı 64 ailədə 549 nəfərə (308 kişi, 241 qadın) çatmışdır. Mülkədar kəndi olan Qaralar kəndinin qonşu kəndlərdən fərqli olaraq torpaq sahəsi xeyli azlıq təşkil etsə də, bu kənddə də əhali əsasən əkinçilik və heyvandarlıqla məşğul olmuşdur. Kəndin 320 desyatin torpaq sahəsinin 10,4 desyatinini malikanə torpaqları, 1,25 desyatinini bağ sahələri, 250 desyatinini suvarılan əkin yerləri təşkil etmişdir. Kəndin əkin yerləri **Böyük çayın** suyu ilə suvarılmışdır. Kənd camaatının 367 iribuynuzlu, 850 xırdabuynuzlu mal-qarası, 45 atı olmuşdur.

Kəndin Əyricə yaylağında **Qaralaryurd** (sonralar **Qaralar obası**) deyilən yerdə 650 desyatin yaylaq yeri olmuşdur. Kənddən 40 verst aralıda yerləşən bu yurddan Qaralar camaatı qədimdən istifadə etmişdir.

Bundan əlavə, kənd əhalisi bir qış mövsümü 100 manata olmaqla hər qış Məmməd bəy Məhərrəm Sultan oğlunun kənddən 3 verst aralıdakı 150 xalvar qış otlaq yerini icarəyə götürmüşlər.

1897-ci ildə kənddə 557 nəfər Azərbaycan türkü yaşamışdır.

1918-1920-ci illərdə erməni daşnaklarına qarşı müharibədə fəal iştirak edən qaralarlılar Vedibasarın işğalından sonra bütün vedililərlə bərabər Arazın o tayına – Cənubi Azərbaycana mühacirət etmişlər. Kənd ermənilər tərəfindən dağıdılmış və yandırılmışdır. Bölgədə Sovet hakimiyyəti qurulduqdan sonra – 1921-ci ildə geri qayıdan qaralarlılar kəndi yenidən bərpa etmişlər. Kəndə ilk ermənilər də elə o vaxtdan köçürülüb yerləşdirilmişlər.

1922-ci ildə kənddə 241 nəfər azərbaycanlı, 273 nəfər erməni qeydə alınmışdır. 1931-ci ildə bu nisbət 297 azərbaycanlı, 292 erməni şəklində dəyişmiş, 1939-cu ildə kənd əhalisinin ümumi sayı 780 nəfərə çatmışdır. 1945-1950-ci illərdə Ermənistanın dağlıq Qaranlıq (Martuni) və Qarakilsə (Sisiyan) rayonlarından, 1946-cı ildə isə İrandan və Livandan gəlmə xeyli erməni Qaralar kəndində məskunlaşdırılmışdır. Əvəzində 1948-1953-cü illər deportasiyası zamanı bir çox azərbaycanlı ailəsi Azərbaycana köçürülmüşlər. Beləliklə, kənddə ermənilərin sayı süni şəkildə çoxaldılmış, azərbaycanlıların sayı isə azaldılmışdır.

1978-ci il yanvarın 25-də kəndin adı dəyişdirilərək Türkiyənin Van vilayətinin Lezk kəndindən gələn ermənilərin təkidilə **Aralez** qoyulmuşdur. 1988-ci ildə kəndin azərbaycanlı əhalisi zorakılıqla doğma yurdlarından qovulmuş, həmin vaxtdan kənd tamamilə erməniləşdirilmişdir.

* * *

Qaralar kəndində qədimdən türk tayfalarının yaşadığı məlumdur. Kəndin indiki nəsil azərbaycanlı əhalisinin dədə-babalarının həmin yerdə məskunlaşması tarixi isə XIX yüzilin əvvəllərinə təsadüf edir. Belə ki, kəndin ərazisi o vaxt Pənah xanın şəxsi torpaqları olub və Gərnibasar mahalının Bəcəyəzli kənd sakinlərindən bir qrupu ona müraciət edəndə ki, bizə öz torpaqlarında başqa yer ver, o da vaxtilə yaşayış yeri olmuş Qaralar kənd ərazisini onlara nişan verir.

Bəcəyəzli kəndindən Qaralara köçən ilk tayfa **Şəfi uşağı** tayfası olur. Onlar Vedi çayının qolu olan Böyük çayın kənarına düşürlər. Lakin əkdikləri məhsulu həmin il çəyirtkə yeyir. Köçüb dağ kəndi Heyranısda iki il yaşadıqdan sonra təzədən Qaralara qayıdırlar. Bu dəfə Böyük çayın kənarında ev tikib, həmişəlik məskunlaşırlar. Az sonra Bəcəyəzli kəndindən digər tayfalar köçüb gəliblər. Onların arasında **Məşədi Qurbanlı, Əbdül uşağı, Zoralı, Zallı, Məşədi Oruc uşağı, Kəlba Hacı uşağı, Həsənli** və b. olublar.

Sovet hakimiyyətinə qədərki dövrdə kəndin sayılıb-seçilən

adamları sırasında Əbdül uşağı tayfasından **Məhəmməd Məşədi Zeynal oğlu, Məşədi Xəlil, Kəlba Qəfər;** Zoralı tayfasından **Məşədi Həsən, Məşədi Cabbar;** Zallı tayfasından **Kəlba Məhəmməd, Kəlba Əsəd;** Məşədi Oruc uşağı tayfasından **Süleyman;** Şəfi uşağı tayfasından **Kəlba İbrahim Şəfi oğlu;** Məşədi Qurbanlı tayfasından **Məşədi Qurban** və b. olmuşlar.

**Qulu Şəfi oğlu** 17 il kəndin katdası olub. Sonra **Baba Alı oğlu, Hüseynalı Ələkbər oğlu, Kazım Qasım oğlu** və başqaları ayrı-ayrı vaxtlarda Qaralar kəndinin katdası olublar.

1918-1920-ci illərdə Abbasqulu bəy Şadlinskinin başçılığı ilə Vedibasarın müdafiəsinə qoşulanlar sırasında Qaralar kəndindən də xeyli adam olmuşdur. Xüsusilə **Əmir Süleyman oğlu, Abuzər Süleyman oğlu, Əli Qəhrəman oğlu, Orucəli Hüseynalı oğlu, Səfəralı Sadıq oğlu, Nəriman Qəhrəman oğlu, Qasım Qəhrəman oğlu, Kəlba Kazım uşağından Məhərrəm, Həbib Bayram oğlu, Zeynalabdin Məşədi Həsən oğlu, Abbas uşağı nəslindən Pirəli** daha çox fərqlənmişlər.

**Zeynalabdin Məşədi Həsən oğlu, Əli Əliyev, Məhəmməd Bayramov, Həmzə Hüseynalı oğlu** və b. "Qırmızı tabor"da döyüş yolu keçmişlər.

Sovet hakimiyyətinin ilk vaxtlarında kəndin qabaqcıl adamları sırasında **Əli Əliyev, Məhəmməd Bayramov, Mirismayıl Tağıyev, Oruc Məmmədov** və başqaları olublar.

**Əli Əliyev** Qaralar kənd inqilab komitəsinin ilk sədri olub.

**Məhəmməd Bayramov** 1921-1931-ci illərdə Vedi rayon torpaq şöbəsinin, raykoopittifaqın sədri, 1931-1937-ci illərdə Naxçıvanda Şahbuz rayon torpaq şöbəsinin müdiri və s. vəzifələrdə çalışıb.

1938-ci ildə kənddə yeddillik məktəb açılıb. Sonra səkkizillik məktəbə çevrilib. 1930-1950-ci illərdə kəndin ilk qabaqcıl müəllimləri sırasında **Müslüm Abbasov, Fətulla Əliyev, Qurban Hacıyev, Nəsib Məmmədov, İbrahim Qələndərov** və **Əsgər Əsgərovun** adlarını çəkmək olar.

Kəndin ilk ali təhsilli yetirmələrindən **Həsən Hümbətov** İrəvanda və Leninqradda oxuyub qayıtmışdı.

**Saleh Mirhəsən oğlu Tağıyev** kənddə ali hüquq təhsili olan ilk şəxs idi. O, sonralar uzun müddət Masallı aə Ağstafa rayonlarında müstəntiq, prokuror işləmişdi.



1960-cı illərdə kənddə ali təhsilli azərbaycanlı kənd təsərrüfatı mütəxəssislərinin sayı çoxaldı. **Yusif Ələkbərov, Fərman Ələkbərov, Məhərrəm Hümbətov, Hüseyn Hümbətov, Adil Nağıyev, Lətif Abdullayev, Tahir Ələkbərov** Gəncədə Kənd Təsərrüfatı İnstitutunu bitirib, kənddə, rayonda müxtəlif vəzifələrdə çalışdılar.



**YUSİF ƏZİZ OĞLU ƏLƏKBƏROV**

1930-cu il yanvarın 13-də Qaralar kəndində anadan olmuş, orta məktəbi bitirdikdən sonra təhsilini İrəvan Azərbaycanlı Kənd Təsərrüfatı Texnikumunda davam etdirmiş, bir müddət Qaralar kənd kolxozunda müxtəlif vəzifələrdə çalışmış, 1962-1968-ci illərdə Gəncə Kənd Təsərrüfatı İnstitutunu müvəffəqiyyətlə bitirib, alim-aqronom ixtisasına yiyələnmişdi.

Vedi rayonunda bilikli, bacarıqlı kənd təsərrüfatı mütəxəssisi kimi tanınan Y.Ələkbərov 20 ildən çox (1988-ci ilə qədər) Qaralar kənd kolxozunda ən yuxarı vəzifəli azərbaycanlı rəhbər işçi olmuş, eyni vaxtda bir neçə vəzifədə (baş aqronom, partiya təşkilat katibi, sədr müavini) işləmişdi.

Ermənistanda yuxarı-aşağı rəhbər vəzifələrdə çalışan bütün azərbaycanlı kadrlar kimi, o da tez-tez təzyiq və hücumlara məruz qalmış, lakin hər dəfə onları cəsarətlə dəf etmiş, azərbaycanlıların mənafeyini müdafiə eləmişdir. O, kəndin azərbaycanlı əhalisi arasında olduğu kimi, erməni əhalisi üzərində də həmişə öz nüfuzunu saxlamağı bacarmış, azərbaycanlı kadrların irəli çəkilməsində öz həlledici sözünü demişdi.

Y.Ələkbərovun və kənddə çalışan digər azərbaycanlı kadrların xidməti idi ki, 1988-ci ildə ermənilər Qaralar kəndinin azərbaycanlıları üzərinə açıq hücuma keçməyə cəsarət etmədilər.

1988-ci ildə ailəlikcə Bakı şəhərinə köçən Y.Ələkbərov bir müddət Abşeron rayonunda və Bakı şəhərində işlədi. Lakin onun daim Qaralar, Vedi həsrəti ilə çırpınan ürəyi ancaq 10 il dözə bildi. 1998-ci il fevralın 4-də qəfil ölüm onu aramızdan apardı. Vətəninə, xalqına üç övlad qoyub getdi: **İslam, Zakir, Əziz.** Hamısı da ali təhsillidir. Sonuncusu bu kitabın müəllifidir.



**MƏHƏRRƏM TƏVƏKKÜL OĞLU HÜMBƏTOV** 1939-cu ildə Qaralar kəndində anadan olmuş, 1969-cu ildə Kənd Təsərrüfatı İnstitutunu bitirmişdir. 1969-cu ildə rayon ərazisindəki Xosrov dövlət qoruğuna rəis təyin olunmuş, 1975-ci ildən Vedi RİK-nin sədr müavini işləmiş, 1981-1988-ci illərdə rayonun Xalisa kənd kolxozuna sədrlik etmişdir.

1988-ci il hadisələri zamanı Azərbaycana köçməyə məcbur olmuş, Tərtərin Bəyim Sarov kəndində məskunlaşmış, 1988-1990-cu illərdə Bəyim Sarov kənd kolxozunun sədri olmuş, sonuncu tarixdə Bakı şəhərinə köçmüşdür. Həmin vaxtdan da Bakı şəhərində Azərbaycan karantin dövlət müfəttişliyində mütəxəssis işləyir.



**FƏRMAN MƏHƏRRƏM OĞLU ƏLƏKBƏROV** 1930-cu ildə Qaralar kəndində anadan olmuş, sonralar İrəvan kənd təsərrüfatı texnikumunu və Gəncə Kənd Təsərrüfatı İnstitutunu bitirmişdi. 1972-ci ildən Qaralar kənd kolxozunda iqtisadçı, 1982-1988-ci illərdə Qaralar kənd sovetinin sədri işləmişdir.

1972-ci ildə kənd səkkizillik məktəbi beynəlmiləl orta məktəbə çevrildi. 1975-ci ildə bir korpusu üç, digər korpusu iki mərtəbəli yeni məktəb binası istifadəyə verildi. Ali təhsilli azərbaycanlı müəllimlərin sayı artdı. **Həsən Haqverdiyev, Məhərrəm Haqverdiyev, Yunis Məmmədov, Məmmədtağı Hacıyev, Avtandil Məmmədəliyev, Qəhrəman Hüseynov, Həsən Orucov, Kərəm Hacıyev, İlhamə müəllimə, İsmayıl Məmmədov, Şükufə Hüseynova, Qurban Nağıyev, Lətifə Haqverdiyeva, İslam Ələkbərov, Tofiq Hümbətov, Vilayət Sərdarov, Arifə Haqverdiyeva, Adilə Kərimova, Roza Qələndərova, Rəhilə Rəhimova, Rəna Süleymanova, Vahid Əhmədov, Kərim Kərimov, Nəbi müəllim** və b.-ları azərbaycanlı uşaqların təlim-tərbiyəsi üçün əllərindən gələni etdilər.





**HƏSƏN ABDULLA OĞLU HAQVERDİYEV** 1929-cu il noyabrın 18-də Qaralar kəndində anadan olmuşdu. 1950-ci ildə Xanlar şəhərində Pedaqoji Texnikumu, 1958-ci ildə Bakı şəhərində Azərbaycan Dövlət Pedaqoji İnstitutunun coğrafiya fakültəsini bitirmişdi.

1950-ci ildən başlayaraq rayonun Şıxlar, Kiçik Vedi kənd məktəblərində müəllim, Kiçik Vedi yeddiillik məktəbinin direktor müavini işləyən H.Haqverdiyev 1964-cü ildə Qaralar kənd səkkizillik məktəbinin direktoru vəzifəsinə irəli çəkilmiş, uzun illər bu vəzifədə çalışmışdır. Onun təşəbbüsü və təşkilatçılığı ilə Qaralar kənd səkkizillik məktəbi 1970-ci ildə orta məktəbə çevrilmiş, azərbaycanlı balaları burada tam orta təhsil almaq imkanı qazanmışdılar.

H.Haqverdiyev həm də nümunəvi ailə başçısı, dörd oğul, bir qız atası idi. Övladlarının hamısına ali təhsil vermişdir. Oğlanlarından ikisi – **Yaşar** və **İlqar** Qaralar kənd orta məktəbini qızıl medalla bitirmişlər, hər ikisi məsul vəzifələrdə çalışırlar. Digər oğlanları – **Oqtay** və **Haqverdi** də cəmiyyətdə öz layiqli yerlərini tutublar.



Qızı **Lətifə Haqverdiyeva** bir müddət Qaralar kənd orta məktəbində tarix müəllimi işləmiş, sonralar Zəngibasar rayonunun Dəmirçi kənd orta məktəbinin direktoru olmuşdur.

Kəndin hörmətli ağsaqqallarından olan Həsən müəllim, təəssüf ki, dünyasını çox erkən – 1981-ci ildə 52 yaşında dəyişdi.

**MƏHƏRRƏM ABDULLA OĞLU HAQVERDİYEVİN** də Vedi rayonunun təhsil sistemində özünəməxsus xidmətləri olmuşdur. O, 1951-ci ildə Bakıda Pedaqoji Məktəbi, 1957-ci ildə ADU-nun filologiya fakültəsini bitirmiş, Vedi rayonunun ayrı-ayrı kəndlərində müəllim işləmişdir. 1967-ci ildən 1988-ci ilədək rayon Təhsil Şö-

bəsinin inspektoru vəzifəsində çalışmış, rayonun azərbaycanlı məktəblərinin inkişafı üçün əlindən gələni etmişdir. 1988-ci ildə Bakı şəhərinə köçən M.Haqverdiyev 1989-cu ildən bu günədək şəhər Nizami rayon Təhsil Şöbəsində inspektor vəzifəsində çalışır.



**MƏMMƏD ŞƏFİ OĞLU QƏLƏNDƏROV** 1960-cı illərdə Vedi rayon partiya komitəsində çalışdı. Yengicə kənd səkkizillik məktəbində direktor oldu. Sonra köçüb, Xanlarda texnikumda müəllim işlədi.

Bütün Vedibasarda olduğu kimi, Qaralarda da dinə, din xadimlərinə xüsusi rəğbət olub. Kəlba Hacı tayfasından **Axund Molla Əli**, onun oğlu **Mirzə Məhəmmədəli, Seyid Ağamir Tağı, Molla Sadıq, Kəlba Mehdi, Molla Əmir, Molla Yəhya** kəndin din tarixində yadda qalan mollalar olublar. Kənddə son illər iki məscid binası vardı: köhnə məscid, təzə məscid. Köhnə məscid kəndin ortasında idi, xarabalıqları qalırdı, toxunmağa heç kəs cəsarət etmirdi. Təzə məscid binası kəndin azərbaycanlı məhəllələrinin ortasında idi. 1988-ci ilə qədər bir gün də fəaliyyətini dayandırmadı. Kəndin qocaları bura yığışar, dini bayramlarda dini mərasimlər icra olunardı.

1980-ci illərdə Qaralar kənd kolxozunun 2400 ha ümumi sahəsi vardı. **Daşnov, İnqala** və **Əyricə** yaylaqlarında isə 1821 ha yaylaq yeri olub. Kolxozun 507 ha əkin sahəsinin 360 hektarı şumlanan sahələr, 115 hektarı üzüm bağları, 29 hektarı meyvə bağları (10 ha şaftalı, 14 ha armud, 5 ha alma), 3 ha tut bağı idi. Həyətyanı sahələr 72 ha təşkil edirdi.

Kolxozun maldarlıq, qoyunçuluq və donuzçuluq fermaları, 6 ferma binası vardı. (1970-ci illərdə toyuqçuluq ferması da olmuş, sonra ləğv edilmişdi). Bu fermalarda 450 baş iribuynuzlu, 1500 baş xırdabuynuzlu mal-qara, 150 baş donuz bəslənirdi. Bundan əlavə, əhalinin özünün də yüzlərlə iribuynuzlu, 1000-ə yaxın xırdabuynuzlu mal-qarası, minlərlə baş toyuq-cücəsi vardı.

Kolxozun mexanizasiyası 5 kombayndan (taxılbiçən, otbiçən və silos üçün), 15 traktordan, 10 yük və 3 minik maşınından, digər



çoxlu yardımçı kənd təsərrüfatı maşın və aqreqatlarından ibarət idi.

Kolxozun 2 taxıl, 1 yanacaq ambarı, dəmirçi sexi, dülgərxanası, 5 artezian quyusu, 3 su nasos stansiyası, 4 enerji şəbəkəsi, 1 dəyirmanı, yeni tipli məktəb, idarə, klub, hamam binaları, 1 xəstəxanası, 1 uşaq bağçası, poçtu, pavilyonu, 5 mağazası, 2 yeməkxanası və s. tikili və sosial obyektləri vardı.

1956-1958-ci illərdə kənddə "plandirovka" aparılmış, yeni kənddə kvadrattipli yaşayış massivi tətbiq edilmiş, düz xətt üzrə təzədən salınan küçələri, bərabər ölçüdə bölünmüş torpaq sahələri, yeni tikilmiş təzə evləri ilə kənd şəhərtipli yaşayış məntəqəsinə çevrilmişdi. Sonralar bütün küçələr işıqlandırılmış, evlərə təbii qaz çəkilmişdi.

Təəssüf ki, 1988-ci il hadisələri zamanı bütün bunlar əvəzi ödənilmədən ermənilərə qaldı.

1988-ci ildə 150 azərbaycanlı, 20 müsəlman kürd ailəsi məcburi şəkildə öz doğma yurdlarından çıxarıldılar. Buna qədər isə 1948-ci ildən üzü bəri 70-ə qədər azərbaycanlı ailəsi erməni təzyiqləri nəticəsində kəndi tərk edib, Azərbaycana köçməyə məcbur olmuşdu.



**SƏRDAR NAĞIYEV** 1963-cü il iyunun 8-də Qaralar kəndində anadan olmuş, 1980-ci ildə Bakı şəhərindəki 198 saylı orta məktəbi, 1986-cı ildə Azərbaycan Politexnik İnstitutunu bitirmişdir.

1986-1990-cı illərdə Leninqrad şəhərinin "Uzaq Rabitə" Elmi-Tədqiqat İnstitutunun Bakı filialında usta, mühəndis, böyük mühəndis, bölmə müdiri vəzifələrində çalışmışdır.

1990-1996-cı illərdə Azərbaycan Texniki Universitetinin "Ümumi və nəzəri radiotexnika" kafedrasında laboratoriya müdiri, müəllim, baş müəllim işləmişdir.

1996-2000-cı illərdə Milli Təhlükəsizlik Nazirlinin Əkskəşfiyyat İdarəsində çalışmış, fəaliyyətindəki yüksək göstəricilərə görə dəfələrlə fəxri fərmanlar və təşəkkürlər almış, bir neçə ildə mayor hərbi rütbəsinə qədər yüksəlmişdir.

## İLQAR KAZIM OĞLU KAZIMOV



1988-ci il hadisələri zamanı Bakı şəhərinə köçüb, burada məskunlaşmış qeyrətli eloğlularımızdan biridir. 1988-ci ildən xalq hərəkatının fəal iştirakçılarından olan İlqar Kazım oğlu 1992-1993-cü illərdə könüllü olaraq Qarabağ uğrunda döyüşmüş, cəbhədən qayıtdıqdan sonra doğma Vedinin adını yaşatmaq məqsədilə "Vedi" adında ilk kiçik müəssisəni yaratmışdır. Bir sıra xeyriyyə tədbirləri də bu qeyrətli Vətən oğlunun adı ilə bağlıdır.

Hazırda qaralarlılar daha çox Bakı, Sumqayıt, Gəncə, Mingəçevir şəhərlərində, Quba, Xaçmaz, Abşeron, Goranboy, Samux, Salyan, Tərtər, Şəmkir rayonlarında və Naxçıvan MR-də yaşayırlar.

## KƏNDİN TAYFALARI

Məşədi Qurbanlı, Şəfi uşağı, Kəlba Kazım uşağı, Zoralı, Əlikişi uşağı, Molla Həsən uşağı, Kəlba Hüseyn uşağı, Təhməz uşağı, Kəlba Məmməd uşağı, Süleyman uşağı, Zallılar, Ocaqqulu uşağı, Dəllərlilər, Molla uşağı, Əbdül uşağı, Kəlba Hacı uşağı, Həsənlilər, Məngüstülər, Qasım katda uşağı, Məşədi Oruc uşağı, Abbas uşağı.

## KƏNDİN TOPONİMLƏRİ

Çehlər küçəsi, Məşədi Qurbanlı küçəsi, Çuxur məhlə, Qaraçı məhləsi, İtqapanlar məhləsi, Dar küçə, Məngüstülər məhləsi, Təhməzlilər məhləsi, Daş körpü, Gölləklər, Qara yer, Taytan kövşəni, Şıxlar kövşəni, Selbasan, Polad yerləri, Murad hasarı, Hacı Həsən yeri, Xanqolu, Qumarx, Dikarx, Gölləklər arxı və s.

## 1930-CU İLLƏRİN REPRESSİYA QURBANLARI

1. Məmməd Bayram oğlu Bayramov
2. Məmməd Məşədi Cabbar oğlu Mərdanov
3. Məşədi Mərdan Ramazan oğlu Mərdanov



4. İbrahim Səfər oğlu Zamanov
5. Qurban Məmməd oğlu Məmmədov
6. Molla Sadıx Baba oğlu
7. Əmir Süleyman oğlu Sərdarov
8. Məmmədəli İsa oğlu Bağırov
9. İsmayıl Mirhəsən oğlu Tağıyev
10. Mirəhməd Mirtağı oğlu İbrahimov
11. Ələşrəf Hüseyn oğlu Abdullayev
12. Miryaqub Miryusif oğlu İbrahimov

## 1941-1945-Cİ İLLƏR MÜHARİBƏSİNDƏ HƏLAK OLANLAR

1. Hüseyn Cabbar oğlu Əhmədov
2. İbrahim Həsən oğlu Hüseynov
3. Yəhya Miryusif oğlu İbrahimov
4. Cəlal Məhərrəm oğlu Cahangirov
5. Süleyman Hümbət oğlu Həsənov
6. Sadıq Əziz oğlu Ələkbərov
7. Hüseyn Məhərrəm oğlu Əliyev
8. İslam Əli oğlu Qurbanov
9. Müseyib Firudin oğlu Əkbərov
10. Abuzər Əsəd oğlu Əliyev
11. Həsən Paşa oğlu Əliyev
12. Abbas Kərim oğlu Məhərrəmov
13. Abbas Hüseyn oğlu Hüseynov
14. Oruc İsmayıl oğlu Məmmədov
15. Qurban Həbib oğlu Hacıyev
16. Müslüm Əbdüləli oğlu Abbasov
17. Məmməd Həsən oğlu Tağıyev
18. Məmmədhəsən Cabbar oğlu Kərimov
19. Məmməd Baba oğlu Əliyev
20. Teymur Rəhim oğlu İsmayılov
21. Heydərəli Məmməd oğlu Cabbarov
22. Abdulla Haqverdi oğlu Niftəliyev
23. Məmməd Məhərrəm oğlu Məmmədov
24. Tağı Muxtar oğlu Abdullayev
25. Məmmədsadıq İsmayıl oğlu Hacıyev

## QARABAĞ MÜHARİBƏSİ İŞTİRAKÇILARI

Qaraların igid oğulları Azərbaycanın ərazi bütövlüyü uğrunda da döyüşmüş, Qarabağ müharibəsinin fəal iştirakçıları olmuşlar. Xüsusilə Goranboy batalyonunun tərkibində Goranboy, keçmiş Şaumyan, Ağdərə rayonlarının erməni daşnaklarından azad edilməsi uğrunda döyüşlərdə mərdlik və qəhrəmanlıq göstərmişlər.

Qaralarlılardan **Fərəməz İsgəndərov, Afiq Kərimov, Nazim Nağıyev, Şaiq Səfərov, Müşviq Səfərov, Məhərrəm Məmmədov, Əhməd Bədiyev, İsgəndər Xəlilov, Hüseyn Kərimov, Eldar Məmmədov, Elşad İsgəndərov, İlqar Kazımov, Radik Kərimov, Firudin Bədiyev, Asim Rzayev, Əsgər Məmmədov, Kərəm Şəmilov, Heydərəli Məmmədov** Qarabağ müharibəsində xüsusilə fərqlənmişlər.



**DARVİN QƏLƏNDƏROV** Goranboy hərbi hissəsinin baş həkimi olmuş, sonra Bakı Ali Birləşmiş Komandanlıq Məktəbinin poliklinikasının rəisi vəzifəsində çalışmışdır. Hazırda Bakı şəhər Respublika xəstəxanasında həkim işləyir.

Qaralarlılardan vzvod (sonra batalyon) komandiri **Əhməd Bədiyev** və **Teymur İsmayılov** Azərbaycan Respublikası prezidentinin fərmanı ilə respublikanın ərazi bütövlüyünün qorunması və dövlətçiliyinin müdafiəsi uğrunda döyüşlərdə göstərdikləri qəhrəmanlıqlara görə **"Azərbaycan Bayrağı" ordeni** ilə təltif edilmişlər.

**Nazim Nağıyev** Ağdam rayonunun Papravənd kəndində yerləşən artilleriya batareyasının komandiri olmuş, Goranboyda bölük komandiri **Fərəməz İsgəndərov** iki dəfə Milli Qəhrəman adına layiq görülsə də bu adı ala bilməmişdir.

## QARABAĞ MÜHARİBƏSİ ŞƏHİDLƏRİ

1. Fərəməz Məmməd oğlu İsgəndərov (1963, Qaralar – 1992, Ağdərə)
2. Afiq Musa oğlu Kərimov (1965, Qaralar – 1992, Ağdərə)
3. Mübariz Məcid oğlu İsmayılov (1962, Qaralar – 1994, Ağdərə)



## ADİL BAYRAM OĞLU NAĞIYEV



1936-cı ildə Qaralar kəndində anadan olmuşdur.

Valideynlərini erkən itirdiyindən kiçik qardaşı Nağı ilə birgə xalası Sara arvadın himayəsində böyümüş, uşaq yaşından hər cür çətinlik və məhrumiyyətlərə qatlaşmışdır.

Bütün bunlara baxmayaraq, heç vaxt sınmamış, oxumuş, əvvəl İrəvandakı Azərbaycan Kənd Təsərrüfatı Texnikumunu, sonra Gəncədə Kənd Təsərrüfatı İnstitutunu bitirmişdir.

Erməni millətçilərinin şovinist hərəkətlərinə qarşı həmişə dözümsüz olan Adil Nağıyev tez-tez onlarla yumruq davasına çıxmaqdan da çəkinməmiş, nəhayət, bu təqib və təzyiqlərin son həddə çatdığını görüb, 1969-cu ildə Abşeron rayonuna köçüb gəlmişdir.

Abşeron rayonunda Ramana sovxozunun aqronomu kimi fəaliyyətə başlayan A.Nağıyev bir müddət sonra rayon istehsalat idarəsinin baş aqronomu vəzifəsinə irəli çəkilir.

1976-cı ildən başlayaraq 5 il Türkan sovxozunda, 7 il Qobu sovxozunda direktor işləyir. 1987-ci ildə Zirə sovxozuna direktor göndərilir. Sonra Ramana südçülük kompleksinə direktor təyin olunur. İşlədiyi bütün yerlərdə uğurları, qabaqcıl işi ilə ad çıxarır.

1994-cü ildə Abşeron rayonunun kənd təsərrüfatı və ərzaq idarəsinə rəis təyin edilən A.Nağıyev 1996-2000-ci illərdə Abşeron rayon İH-nin başçısı işləmişdir.

## ABBAS İBRAHİM OĞLU SƏFƏROV



1936-cı il mayın 10-da Qaralar kəndində anadan olmuşdur.

Atası və yaxın qohumları 1937-1938-ci illərdə repressiya qurbanı olduğundan erkən yaşlarından hər cür məhrumiyyətlərlə üz-üzə dayanmış, ailənin bütün çətinliklərini öz üzərinə götürmüşdür.

Sonralar İrəvandakı Azərbaycan Kənd Təsərrüfatı texnikumunu, qiyabi yolla İrəvan Kənd Təsərrüfatı İnstitutunu bitirmiş, Marksizm-Leninizm Universitetinin dinləyicisi olmuşdur.

Uzun illər Vedi rayonunun müxtəlif kəndlərində rəhbər vəzifələrdə çalışmışdır. Son illərdə Arazdəyən sovxozunda yem kombinatının direktoru vəzifəsində işləyirdi.

1988-ci il hadisələri zamanı öz eli, camaatı ilə axıradək bir yerdə olmuş, azərbaycanlıların müdafiəsi üçün əlindən gələni etmişdir.

1988-ci ildə Bakı şəhərinə köçmüş, burada da daim qaçqınların arasında olmuş, onların problemlərinin həlli üçün çalışmışdır.

Əvvəl Zəngəzur Cəmiyyətinin rəhbərlərindən olan Abbas Səfərov Azərbaycan Qaçqınlar Cəmiyyəti yarananda onun sədr müavini seçilmişdir. 1994-cü ildən isə bu Cəmiyyətin sədridir. Qaçqınların sosial-siyasi hüquqlarının müdafiəsi yolunda yorulmadan çalışmış və bu gün də çalışmaqdadır. Qaçqınlar arasında böyük hörmət və nüfuza malikdir.



## YAŞAR HƏSƏN OĞLU HAQVERDİYEV



1955-ci ildə Qaralar kəndində müəllim ailəsində anadan olmuşdur.

1972-ci ildə Qaralar kənd orta məktəbini qızıl medalla bitirib, həmin il Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsinə daxil olmuşdur. Universiteti fərqlənmə diplomu ilə başa vurduqdan sonra Naxçıvan DİN-nin sərəncamına göndərilmişdir.

Burada "Dövlət əmlakını dağıdanlara qarşı mübarizə" bölməsində işləyən Yaşar Haqverdiyev az sonra Naxçıvan MR Şahbuz rayonunda müstəntiq, Babək rayonunda baş müsəntiq vəzifələrində özünü nümunəvi orqan işçisi kimi göstərir.

Sonralar Azərbaycan DİN-ə dəvət olunan Yaşar Haqverdiyev Bakıda da öz müstəntiqlik fəaliyyətini davam etdirir. Az sonra Binəqədi rayon polis idarəsinin istintaq şöbəsinin rəisi vəzifəsinə təyin olunur. Dəfələrlə respublikanın ayrı-ayrı bölgələrində açılmamış cinayətlərin istintaqına başçılıq edir.

Biliyi, bacarığı və istintaq orqanlarındakı qüsursuz fəaliyyəti, yüksək peşəkarlıq səviyyəsi sayəsində Yaşar Haqverdiyev artıq xeyli vaxtdır ki, Bakı şəhər Baş Polis İdarəsinin istintaq şöbəsinin rəisi vəzifəsində çalışır. Polis polkovnikidir.

## ZEYQƏM MURADƏLİ OĞLU SÜLEYMANOV



1958-ci ildə Qaralar kəndində anadan olmuş, 1975-ci ildə Qaralar kənd orta məktəbini qızıl medalla bitirmişdir.

1975-ci ildə Azərbaycan Tibb İnstitutuna daxil olmuş, ali təhsilini uğurla başa vurduqdan sonra üç il Lənkəran şəhərində həkim işləmişdir.

1986-1990-cı illərdə Krım Tibb İnstitutunda əvvəlcə klinik ordenaturada olmuş, sonra isə daxili xəstəliklər kafedrasında müəllimlik etmişdir.

1990-cı ildə Kiyevdə dissertasiya müdafiə edərək tibb elmləri namizədi alimlik dərəcəsi almışdır. Elə həmin il də Azərbaycana qayıdaraq Eksperimental Cərrahiyyə İnstitutunun hemodializ və böyrəkköçürmə laboratoriyasında çalışmışdır.

1991-ci ildən Azərbaycan Tibb Universitetinin daxili xəstəliklər kafedrasında çalışır, kafedranın doktorantıdır.

Dəfələrlə beynəlxalq elmi konfranslarda məruzələrlə çıxış edib, hər dəfə yüksək mükafatlarla geri dönən, xarici jurnallarda 10-dan çox elmi məqaləsi dərc olunan Z.Süleymanovu bu gün Rusiyada, Türkiyədə, eləcə də bəzi Avropa ölkələrində yaxşı tanıyır, elmi nailiyyətlərini yüksək qiymətləndirirlər.



## ƏZİZ YUSİF OĞLU ƏLƏKBƏRLİ



1960-cı ildə Qaralar kəndində anadan olmuşdur.

1977-ci ildə Qaralar kənd orta məktəbini, 1984-cü ildə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirmişdir.

1984-1987-ci illərdə təyinatla Qax rayonunun Qum kənd orta məktəbində müəllim işləmişdir.

1988-ci ildə ailələri erməni vəhşiliyinin qurbanı olaraq, bütün digər soydaşları kimi, doğma yurdlarından didərgin salınmış, Bakı şəhərində məskunlaşmışlar.

Həmin ildən də Azərbaycan EA Ədəbiyyat İnstitutunda fəaliyyətə başlamış, baş laborant, kiçik elmi işçi, böyük elmi işçi vəzifələrində çalışmışdır. 1992-ci ildə dissertasiya müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsi almışdır. Hazırda həmin institutun şöbə müdiridir.

1991-ci ildən həm də mətbuatda çalışır. Müxtəlif qəzetlərdə müxbir, şöbə müdiri, məsul katib, redaktor, baş redaktor müavini işləmişdir. 1993-1994-cü illərdə "Ana Vətən" qəzetinin, 1997-1998-ci illərdə "Ağrıdağ" qəzetinin baş redaktoru olmuşdur. Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür.

200-dən çox elmi və publisistik məqalənin, 7 kitabın müəllifidir. Hazırkı kitab Əziz Ələkbərlinin səkkizinci kitabı, "Qədim Türk-Oğuz yurdu – "Ermənistan"" (1994) və "Abbasqulu bəy Şadlinski" (1996), "Qərbi Azərbaycan, I kitab, Vedibasar mahalı" (2000), "Qərbi Azərbaycan, II kitab, Zəngibasar, Gərnibasar və Qırxbulaq mahalları" (2002) kitablarından sonra Qərbi Azərbaycan mövzusunda qələmə aldığı altıncı kitabıdır.

Həmçinin Ə.Ələkbərli respublikamızda yaradılan ilk özəl nəşriyyatlardan birinin – müstəqil "Ağrıdağ" nəşriyyatının yaradıcısı və direktorudur. Qərbi Azərbaycan haqqında yazılmış neçə-neçə kitabın redaktoru, ön sözünün müəllifi və naşiridir.

## QARATORPAQ (XUNUT QARATORPAQ)

Vedibasar mahalının Cığındərə bölgəsində, Qaratorpaqçay çayı kənarında, Kolanlı kəndi yaxınlığında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

Kəndin adına **Qaratorpaq** şəklində ilk dəfə 1873-cü ilin statistik məlumatlarmda rast gəlirik. Həmin mənbədə kənddə 16 təsərrüfatda 138 nəfər (72 kişi, 66 qadın) Azərbaycan türkü qeydə alınmışdır.

Kəndin adının onun ərazisinin **qaratorpaq** olması ilə bağlılığı özlüyündə aydındır.

XIX yüzildə Göyçə mahalında, Şəki qəzasında Qaratorpaq kəndləri, Borçalı və Zəngəzur qəzalarında Qaratorpaq dağları, Qazax qəzasında Qaratorpaq çayı qeydə alınmışdır.

Xunut (Xınıt) kəndi yaxınlığında yerləşdiyindən kənd bəzi mənbələrdə **Xunut (Xınıt) Qaratorpaq** da adlanmışdır.

1886-cı ilin statistik məlumatlarında Vedi nahiyəsinin Ərmik icması tərkibində qeydə alınan kənddə cəmi 4 ailədə **15** nəfər (11 kişi, 4 qadın) Azərbaycan türkünün yaşadığı göstərilmişdir.

1905-ci ildə kənddə əhalinin sayı 398, 1914-cü ildə **400** nəfərə çatmışdır.

1918-1920-ci illər erməni-müsəlman müharibəsi zamanı Qaratorpaq kəndi erməni daşnakları tərəfindən yerlə-yeksan edilərək xarabalığa çevrilmiş, kəndin sakinləri doğma yurdlarından didərgin düşmüşlər.

Bölgədə Sovet hakimiyyəti qurulduqdan sonra kəndin keçmiş sakinlərinin çox az bir hissəsi geri dönmüşlər. 1931-ci ildə burada cəmi 64 nəfər azərbaycanlı yaşamışdır.

1937-1939-cu illərdə Qarabağlar rayonunun tərkibində mövcud olan kənd 1939-cu ildə ləğv edilərək əhalisi Kolanlı, Bağçacıq, Şirazlı kəndlərinə köçürülmüşdür. Kənd o vaxtdan xaraba qalmışdır.

1939-cu ildə ləğv olunarkən Qaratorpaq kəndində cəmi 20-22 ev qalmışdı. Onların, demək olar ki, hamısı eyni tayfadan – **Çoban Hüseynin** tayfasmdan olan qohumlar idi. Kənddə **Cümşüd bulağı, Ağ bulaq, Südlü bulaq, Çölmək bulağı, Kərimbulaq** adlı bulaqlar vardı.



Qaratorpağın görkəmli adamları sırasında **Qılınc Məhəmməd, Məmiş Abbasov** kimi igidlər olmuşlar. Qılınc Məhəmməd Kərbəlayı İsmayılın məşhur qolçamaq qiyamından sonra digər bir çox silahdaşları kimi, Türkiyəyə qaçmış, lakin 5 il sonra arxasınca göndərilən çekistlər tərəfindən orada öldürülmüşdür.

Qılınc Məhəmmədin qardaşları **Səfərəlı** və **Dünyamalı** isə 1937-ci ilin repressiyası zamanı həbs edilmişdilər. Səfərəlı güllələnmiş, Dünyamalı isə 1953-cü ilə qədər Sibirdə sürgündə qalmışdı.

Səfərəlının oğlu **Əli** də 1937-ci ildə Sibirə sürgün olunmuş, yalnız 1953-cü ildə sürgündən qayıtmışdı.

Dünyamalının oğlu **Mehbalı** isə 1937-ci ildə həbs edilərək güllələnmişdi.

Vedibasarın özünümüdafiə qüvvələri və "Qırmızı tabor"un tərkibində erməni daşnaklarına qarşı qəhrəmanlıqla döyüşmüş Məmiş Abbasovun oğlu **Oruc Məmiş oğlu Abbasov** 1940-cı ildən başlayaraq Vedi və Qarabağlar rayonlarının kəndlərində müəllim işləmişdir. Sonra Böyük Vətən müharibəsində şərəfli döyüş yolu keçmiş, qayıdandan sonra yenidən Vedi rayonunun Qaraqoyunlu, Qaralar, Şirazlı, Kolanlı, Avşar məktəblərində müəllimlik eləmişdir. 1950-1953-cü illərdə Ağdaş rayonu Kükəl kənd orta məktəbinin dərs hissə müdiri, 1954-1958-ci illərdə Ağdaş rayonu Pirzəkənd orta məktəbinin direktoru, 1958-1959-cu illərdə Kükəl kənd orta məktəbinin direktoru, 1961-1962-ci illərdə Ağdaş rayon Ləki kənd orta məktəbinin direktoru vəzifələrində çalışmışdır. 1962-ci ildən bu günə qədər Bakı şəhər Əzizbəyov rayonunun Binə qəsəbəsindəki 117 saylı orta məktəbdə müəllim işləyir. Azərbaycan Respublikasınm Əməkdar müəllimi adına layiq görülmüşdür.

## QAŞQA

Vedibasar mahalının Çanaxçıdərə bölgəsində, Vedi rayonunun mərkəzi olan Böyük Vedi qəsəbəsindən 35 km cənub-şərqdə, Dərələyəz mahalının sərhədində, Ağdərə dərəsində, Çanaxçı çayı kənarında kənd.

1828-ci ilə qədər kənddə ancaq azərbaycanlılar yaşamış, 1828-ci ildən XIX yüzilin ortalarına qədər azərbaycanlılarla ermənilərin birgə yaşadıqları qarışıq kənd olmuşdur. XIX yüzilin ortalarından etibarən isə kənd bütünlüklə erməniləşdirilmişdir.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Dərələyəz nahiyəsinin **Qaşqa kəndi** şəklində qeydə alınmışdır.

"Naxçıvan sancağının müfəssəl dəftəri"ndə (1727) isə **Qaşqa** adlı bu kənddə heç kimin yaşamadığı, kənddən dövlətin götürdüyü 2.000 ağça məbləğində gəlirin isə başqa yerlərdən gəlib kəndin torpaqlarında əkib-becərmə işləri görənlərdən vergi şəklində alındığı göstərilmişdir.



**Qaşqa kəndinin ümumi görünüşü**

Kəndin adının Azərbaycan xalqının etnogenezində mühüm rol oynamış Qaşqay türk tayfa birləşməsinin adından yaranması şübhəsizdir. Qədimdən Qara dənizin güney sahillərindən Kiçik



Asiyaya qədər böyük bir ərazidə yaşayan qaşqayları bəzi tədqiqatçılar Kiçik Asiyanın ən qədim yerli sakinləri sayır, onların həmin ərazidə er. əv. III minillikdə yaşamış hetlərlə qohum hesab edirlər. Hətta Het hökmdarı I Xantilinin (er. əv. 1590-1560) vaxtında qaşqaylar Het dövlətinin bəzi vilayətlərini tutmuşlar. Maraqlıdır ki, er. əv. XIII yüzildə Het dövlətini dağıdanlardan biri də qaşqaylar olmuşlar. Bir müddət sonra Qızıl İrmaq və Kelkit çayları ətrafında Qaşqay çarlığı yaranmış və bu çarlıq er. əv. VIII yüzilə (bölgəyə Qamər - Sak boylarının gəlişinə) qədər davam etmişdir.

Çox-çox sonralar həm də Gəncədə və ətraf bölgələrdə məskunlaşan qaşqaylar Azərbaycan başqa torpaqlarına da səpələnmişlər. Hazırda qaşqayların çox böyük hissəsi İran və İraq ərazisində yaşamaqdadırlar. Təkcə İranın cənubunda 1970-ci ilin məlumatlarına görə, 350 min nəfər **qaşqay** türkü yaşamışdır. Onların əcdadlarının Hulaku xanın zamanında Kaşqardan gəldikləri də güman edilir. Qaşqayların tayfa birləşmələrinə irsi **İlxan**, ayrı-ayrı tayfalara isə **kələntərlər** başçılıq etmişlər.

İrandakı türk boyları içərisində sayca üstünlük təşkil edən və "döyüşkən xalq" kimi tanınan qaşqaylar son zamanlara qədər tayfa-nəsil bölgüsünü saxlayaraq əkinçilik və maldarlıqla məşğul olurdular. İndinin özündə də burada Qaşqay boy birləşmələrinin başında qəbilə başçılarının seçdiyi İlxan durur.

Qaşqay tayfa adı **qaşqa** və **ay** tərkiblərindən yaranmışdır ki, bu da türkoloji ədəbiyyatda **yandırmaq, işıq vermək, işıldamaq və ulduz, nişan, ay, xoşbəxt, müqəddəs** mənalarında yozulmaqdadır.

Dilimizdə **qaşqa** sözü indi də **alının tam ortası** və **alında ağ ləkə** mənalarında geniş işlənməkdədir.

Qaşqay etnonimi, onun mənası və s. barədə professorlar Həsən Mirzəyevin, Firidun Ağasıoğlunun və mərhum Mirəli Seyidovun tədqiqatlarında ətraflı bəhs edilmişdir.

Professor F.Ağasıoğlu Qaşqay tayfa adının qədim het mənbələrində **qaşqa//kaska** və **qaşqay** şəklində verildiyini və bu tayfanın Qafqaz ərazisində hələ miladdan öncə məskunlaşdığını yazır. Qaşqay sözünün tərkibindəki **"ay"** komponentini önə çəkən, het dilində Ayın **kaşka** adlandığını əsas götürən professor

F.Ağasıoğlu qaşqayların qədimdə Aya sitayiş etmələri ehtimalını irəli sürür.

Hazırda Qafqazda, o cümlədən Azərbaycanda Qaşqay etnonimi ilə bağlı çoxlu toponimlər vardır: Qaşqaçay, Qaşqatala, Qoşqar dağı, Qoşqar çayı və s.

Hətta Özbəkistanda bu gün də Qaşqadərya adlı vilayət və çay mövcuddur.

Vedibasar mahalının Qaşqa kəndi 1826-1829-cu illərin Rusiya-İran və Rusiya-Osmanlı müharibələri zamanı böyük dağıntılara məruz qalmışdır. Üstəlik, həmin müharibələrdən dərhal sonra İrandan Cənubi Qafqaza köçürülən ermənilərin bir hissəsi də Vedibasar mahalının Qaşqa kəndi ərazisində, boşaldılmış müsəlman evlərində məskunlaşdırılmışlar. Belə ki, 1832-ci ilin statistik məlumatlarında Qaşqa kəndində cəmi bir təsərrüfatda 8 nəfər (5 kişi, 3 qadın) azərbaycanlı, 10 təsərrüfatda 65 nəfər (36 kişi, 29 qadın) İrandan köçürülmüş erməni qeydə alınmışdır.

1873-cü ilin statistik məlumatlarında isə kənddə ancaq ermənilərin yaşadığı, 34 təsərrüfatda 454 nəfər erməni və 1 kilsə olduğu göstərilmişdir.

1886-cı ildə Qaraxaç icması tərkibindəki Qaşqa kəndində 37 təsərrüfatda 416 nəfər erməni yaşamışdır. Onların istifadəsində 972,76 desyatin torpaq sahəsi, 129 iribuynuzlu, 513 xırdabuynuzlu ınal-qara olmuşdur.

Kəndin torpaqları **Qoşabulaq** bulağının suyu ilə suvarılmışdır.

Kəndin (Aşağı Çanaxçı kəndi ilə birlikdə) **Cəhənnəmdərəsi-ağıl** deyilən ərazidə 197 desyatin qışlaq yeri olub.

1918-1920-ci illərdə Vedibasarın Çanaxçıdərə kəndlərinə hücum edən daşnak qoşunları Qaşqa erməni kəndindən qərargah kimi istifadə etmiş, Vedibasarın qonşu Qaraxaç, Şahablı, Qədirli və s. azərbaycanlı kəndlərinin soyqırımı buradan idarə olunmuşdur.

1948-ci il sentyabrın 10-da kəndin adı dəyişdirilərək ermənicə **Vardaşat** qoyulmuşdur.



## QAYÇI (QANÇI)

Vedibasar mahalında kənd. Kənd haqqında qədərincə məlumatımız olmadığından onun dəqiq coğrafi yerini göstərməkdə çətinlik çəkirik.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Vedi nahiyəsində **Qayçı** kəndi kimi qeydə alınmış, dövlətin müxtəlif vergilər şəklində kənddən götürdüyü illik gəlirin 4.000 ağça məbləğində olduğu göstərilmişdir.

Həmin mənbədə kəndin ikinci adının **İmamqulu** olduğu da qeyd edilmişdir. XVIII yüzilə aid başqa mənbədə kəndin Qayçı adı **Qançı** kimi verilmişdir.

Sonrakı mənbələrdə kəndin adına bir daha rast gəlmədik.

## QAZANÇI

Vedibasar mahalının Millidərə bölgəsində, Hand kəndindən aşağıda kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

İ.Şopendə (1832) **Qazançı** adı ilə Vedi nahiyəsinin xaraba kəndlərin siyahısında verilmişdir. Bu fakt özü söyləməyə əsas verir ki, Vedibasar ərazisində belə bir kənd xeyli əvvəldən mövcud olmuş və 1826-1829-cu illər Rusiya-İran, Rusiya-Osmanlı müharibələri zamanı güclü dağıntılara məruz qalaraq xarabalığa çevrilmişdir. Sonrakı mənbələrdə həmin kənd adına bir daha rast gəlmirik.

Lakin 1886-cı ilin statistik məlumatlarında belə bir qeyd var ki, Kotuz kəndinin **Əli Süleyman oğlu, Hüseyn Məmməd oğlu** və **Abbas Kəlbalı Rüstəm oğlu** adlı sakinləri Kotuz və Çəngli kəndləri yaxınlığında **Qazançı** adlanan ərazidən 70 desyatin torpaq sahəsini dövlətdən icarəyə götürüblər. Bu isə Qazançı kəndinin coğrafi yeri ilə tam üst-üstə düşür.

Kəndin adı **Qazan//Qazançı** türk tayfasının adından götürülmüşdür. Qazan tayfası er. əv. 2-ci yüzildən etibarən Qərbi Azərbaycan ərazisində məskunlaşmağa başlamış bulqar türklərinin bir qolu olmuşdur. V yüzildə Albaniyaya öz tayfası ilə gəlmiş bir elbəyin adı da Qazan olmuşdur (Q.Qeybullayev).

Xatırladırıq ki, "Kitabi-Dədə Qorqud"da əsərin baş qəhrəmanı məhz Qazan xandır və o, keçmiş İrəvan xanlığı ərazisini, o cümlədən Vedibasar mahalını əhatə edən İç Oğuzun başında duran bir igiddir. Dərəçiçək-Göyçə-Vedibasar-Ağrıdağ ərazisi Qazan xanın əsas oylağı olmuşdur.

Bundan əlavə, 1295-1304-cü illərdə tərkibinə Vedibasar mahalının da daxil olduğu Hulakular dövlətinin başında Qazan xan adlı hökmdar durmuşdur. Hulaku xanları içərisində müsəlmanlığı ilkin qəbul edən də məhz həmin Qazan xan olmuşdur.

Görünür, təsadüfi deyil ki, Qərbi Azərbaycan ərazisində çoxlu Qazançı (Sürməli, Zəngəzur, Şörəyel mahallarında, Məzrə nahiyəsində, Gümrü qəzasında, Artik rayonunda kənd adları; Sürməli mahalında dağ adı) toponimləri olmuşdur.



Bundan başqa, Qırxbulaq nahiyəsində Qazançılı kəndi, Qafan rayonu ərazisində Qazangöl gölü, Məzrə nahiyəsində Qazanlıqdərə kəndi də qeydə alınmışdır.

Ümumiyyətlə, XIX yüzildə Qafqazda tərkibində "Qazan" komponentli 24 toponim qeydə alınmışdır. Ağdərə və Culfa rayonlarında məhz Qazançı adlı kəndlər mövcuddur. Hətta Culfadakı Qazançı kəndi yaxınlığında, Əlincə çayının sahillərində er. əv. II-I minilliyə aid qala və 40 ha sahədə abidələr kompleksi də aşkar edilmişdir.

## QƏDİRLİ (QƏDİLİ)

Vedibasar mahalının Çanaxçıdərə bölgəsində, Vedi rayonunun mərkəzi olan Böyük Vedi qəsəbəsindən 22 km cənub-şərqdə, Varsax dağının ətəyində, Çapançay çayının kənarında, Qədirli arxının üstündə kənd.

1918-ci ilə qədər kənddə ancaq Azərbaycan türkləri yaşamış, 1921-1930-cu illər arasında azərbaycanlılarla ermənilərin birlikdə yaşadığı qarışıq kənd olmuşdur. 1930-cu illərdən etibarən kənd bütünlüklə erməniləşdirilmişdir.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə Vedi nahiyəsində (1590) **Qədli kəndi**, "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) həmin nahiyədə **Qadılı kəndi** şəklində qeydə alınmışdır. Üstəlik, ikinci mənbədə Qadılı Ağkilsə kəndinin ikinci adı kimi verilmişdir. Əslində isə, Qədili və Ağkilsə kəndləri Vedibasar mahalı ərazisində bir-birindən xeyli aralı kəndlər olmuşlar. Ağkilsə kəndinin həm də Qədili adlanmasına gəldikdə isə, bu, Ağkilsədə yaşayanların əsasən **Qədirli** türk tayfasına mənsub olması ilə bağlı idi. Bunu Çanaxçı dərəsindəki Qədirli kənd ərazisinin vaxtilə Ağkilsə kəndinə məxsusluğu barədəki fakt da təsdiq edir.

Bu barədə Ağkilsə kəndindən danışarkən daha ətraflı bəhs etmişik.

1832, 1873 və 1886-cı illərə aid statistik məlumatlarda da kəndin adı **Qədili** kimi verilmişdir.

Kəndin adı Səlcuq türklərinin **Qədirli** tayfa birləşməsinin adından əmələ gəlmişdir. Bu barədə R.İsmayılovun "Azərbaycan tarixi" kitabında da bəhs edilmişdir: "Səlcuq qəbilələri Azərbaycanda 130-dan ziyadə kənd abad etmişlər və həp bu köylər qəbilələrin namını daşıyırmış, məsələn, Şahsevən, Bayədəli, Uduqlu, Murad, Təkə, Qədirli və qeyri".

Yeri gəlmişkən, Qaşqay tayfalarının bir qolu da Qadıllı adlanmışdır. Azərbaycanın oturaq Şahsevən tayfası da Qədirli adlandırılmışdır. Təsadüfi deyil ki, orta yüzillərdə Qədirli tayfasının Qars əyalətində Dəmirçilər, Qaramanlı, Zakirli, Varsaq, Qovurcalı, Zəlmanlı və Əkinçilər tirələri yaşamışlar.



XIX yüzildə Azərbaycanın Cavad, Lənkəran və Qazax qəzalarında Qədirli, Şamaxı, Cəbrayıl qəzalarında Hacı Qədirli adlı kəndlər mövcud olmuşdur. Bundan əlavə, Cənubi Azərbaycanın Meşgin, Zəncan bölgələrində Qadırlı kəndləri olmuşdur.

İ.Şopendə (1832) Vedi nahiyəsinin **Qədili kəndində** 11 təsərrüfatda 45 nəfər (24 kişi, 21 qadın), 1873-cü ilin statistik məlumatlarında 49 təsərrüfatda 389 nəfər (229 kişi, 160 qadın) Azərbaycan türkünün yaşadığı göstərilmişdir.

1886-cı ildə kənd əhalisinin sayı 58 təsərrüfatda 497 nəfərə (302 kişi, 195 qadın) çatmışdır. Kəndin 1103 desyatin torpaq sahəsi olmuş, onun 10 desyatinini malikanə torpaqları, 11,42 desyatinini suvarılan, 300 desyatinini suvarılmayan əkin yerləri təşkil etmişdir. Kənddə 258 iribuynuzlu, 619 xırdabuynuzlu mal-qara qeydə alınmışdır. Kəndin torpaqları **Qaragöl** bulağından başlayan **Çanaxçıçay** çayının suyu ilə suvarılmışdır.

Kənddə 1897-ci ildə 588 nəfər, 1905-ci ildə 827 nəfər, 1914-cü ildə 839 nəfər azərbaycanlı yaşamışdır.

1918-ci ilin sonlarında Andranikin "Sasun" və "Van" polklarının daşnak silahlı quldur dəstələri Qədirli kənd camaatını vəhşicəsinə qətlə yetirərək kəndə od vurub yandırmışlar.

1920-1930-cu illərdə Qədirli kəndinə xaricdən və dağlıq rayonlardan xeyli erməni gətirilib yerləşdirilmişdi. 1926-cı ildə onların sayı 377 nəfərə, 1931-ci ildə isə 515 nəfərə çatdırılmışdı. 1920-ci illərdə kəndə qayıdan tək-tək azərbaycanlı ailələri isə 1930-cu illərdə kəndi təzədən tərk etməli olmuşdular. Kənd o vaxtdan tamamilə erməniləşdirilmişdi.

1968-ci il iyulun 3-də kəndin adı dəyişdirilərək **Lancanist** qoyulmuşdur.

# QIZILVERƏN (QIZILVİRAN, QIZILXARABA)

Vedibasar mahalının Cığmdərə bölgəsində, Kolanlı kəndinin yuxarısında, Qızılverən dağının ətəyində kənd. Cığmdərədə Kolanı tayfasına məxsus 8 kənddən biri idi.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) və "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Vedi nahiyəsinin **Qızılviran kəndi** kimi qeydə alınmışdır. İkinci mənbədə dövlətin müxtəlif vergilər şəklində kənddən götürdüyü illik gəlirin 3.000 ağça olduğu göstərilmişdir.

Hər iki mənbədə kəndin "Qızılviran" adlanması bu yerdə daha qədimlərdən yaşayış məntəqəsi olması barədə fikir söyləməyə əsas verir.

1728-ci ilə aid İrəvan əyalətinə dair başqa bir mənbədə kəndin adı **Qızıluran** şəklində yazılmış və kənddə heç kimin yaşamadığı göstərilmişdir.

İ.Şopendə (1832) kəndin adı **Qızılverəndir** və Vedibasar mahalının dağıdılmış kəndləri siyahısında verilməsi onun 1826-1829-cu illər Rusiya-İran, Rusiya-Osmanlı müharibələri zamanı böyük fəlakətlərlə üz-üzə qalmasına dəlalət edir. Təsadüfi deyil ki, sonrakı illərə (1873, 1886...) aid mənbələrdə kəndin adına artıq **Qızılxaraba** şəklində rast gəlirik.

1873-cü ilin statistik məlumatlarında İrəvan quberniyasının Yeni Bayazid qəzasında Arxaşan və Əbdüləsər dağları arasında qeydə alınan **Qızılxaraba** kəndində 24 təsərrüfatda 188 nəfər (102 kişi, 86 qadın) azərbaycanlının yaşadığı göstərilmişdir.

1886-cı ildə **Qızılxaraba** kəndində əhalinin – azərbaycanlıların sayı 18 təsərrüfatda 136 nəfər (70 kişi, 66 qadın) şəklində dəyişmiş, XX yüzilin əvvəllərində isə kənd ermənilər tərəfindən məhv edilmişdir.

Kəndin adının etimologiyasına gəldikdə isə, öncə xatırlatmağa dəyər ki, vaxtilə Qərbi Azərbaycan ərazisində, məsələn, Ağcaqala, Gərni, Karbi, Abaran, Qırxbulaq nahiyələrində Qızılviran adlı kəndlər olmuşdur. İlkin formasının "Qızıl viranə" şəklində olması, "qırmızı qala xarabalığı" mənasını bildirməsi ehtimal olunur (B.Budaqov, Q.Qeybullayev). Kəndin yaxınlığında qırmızı daşdan tikilmiş qala xarabalıqlarının mövcudluğu (el ona **Qızqala** deyirdi) bu ehtimalı bir az da dərinləşdirir.



Bununla belə, Qərbi Azərbaycan ərazisində "qız", "qızıl" komponentli onlarla toponimin mövcudluğu (hətta rayonlardan biri də Qızılqoç adlanırdı) bu adın həm də etnonim səciyyəsi barədə düşünməyə əsas verir. Bu yerdə ən böyük Oğuz tayfalarından birinin **Qızıl** adlanması, Anadoluda **Kızık** adlı onlarla kəndin mövcudluğu, türkmən tirələrindən birinin **Qızıllı** olması faktlarını da xatırlatmaq yerinə düşər.

Professor Firidun Cəlilov **Qızıl** tayfasının İrəvan çuxurunda miladdan əvvəl məskunlaşan türk tayfalarından olduğunu yazır.

O ki qaldı Qərbi Azərbaycanda bir neçə Qızılviran, Qızılverən toponimlərinin olmasına (Gərni, Ağcaqala, Karbi, Abaran, Qırxbulaq nahiyələrində), bu fakt özü də **"viran qalmış Qızıl kəndi"** anlamında adın yuxarıdakı yozumuna dəstək verir. Kənd adının Qızılverən variantındakı **verən** komponenti də tədqiqatçıları çaşdırmamalıdır. Əslində, bu, viran sözünün yerli dildə tələffüz formasıdır. Belə ki, **viran** xalq arasında **veran** kimi tələffüz olunur, o da **verən** şəklinə düşmüşdür.

Yeri gəlmişkən, xatırladaq ki, Vedibasar mahalında yaşayan məşhur tayfalardan biri də Şadlılar tayfası ilə qaynayıb-qarışmış **Qızılanlılar** tayfası idi. Böyük Vedi kəndinin tayfaları sırasında bu tayfadan da bəhs etmişik.

Kənd xaraba qaldıqdan sonra el arasında onun **Qızılxaraba** kimi tanınması da adın əvvəlki məzmununa **(Qızıl viranə)** tamamilə uyğun gəlir.

Kəndin yuxarısında **Əbdüləsər ocağı** adlanan qədim ziyarətgah var idi. Buralara yolu düşənlər Ocaq yerini ziyarət etməyi özlərinə borc bilərdilər.

## QULAQSIZ

Vedibasar mahalının Millidərə bölgəsində, Gərnibasar mahalı ilə sərhədində kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

Adına ilk dəfə 1728-ci ilə aid mənbədə rast gəlinən kənd 1826-1829-cu illər Rusiya-İran, Rusiya-Osmanlı müharibələri zamanı böyük dağıntılara məruz qalıb xarabalığa çevrildiyindən İ.Şopendə (1832) **Qulaqsız** adı ilə Gərnibasar mahalı ərazisində xaraba kəndlər siyahısına daxil edilmişdir. Çox sonralar yenidən məskunlaşan kənddə 1897-ci ildə 27 nəfər Azərbaycan türkü qeydə alınmışdır.

1905-ci il erməni-müsəlman davası zamanı kənd erməni daşnakları tərəfindən yerlə-yeksan edilmiş və o vaxtdan da xaraba qalmışdır.

Kəndin adının əslində **Qulaqsaz** olduğu, türk dillərində **dərə, çökəklik, çuxur** mənaları bildirən **kulak//qulaq** və **qamışlıq** mənası bildirən **saz** sözündən yarandığı ehtimal olunur (B.Budaqov, Q.Qeybullayev). XIX yüzildə Şimali və Cənubi Qafqazda eynimənşəli çoxlu toponimin mövcudluğu (Stavropol quberniyasında Açi-Kulak dairəsi, Dərələyəz qəzasında Qulaqlıca və İrəvan qəzasında Körpi-Qulaq toponimləri) yuxarıdakı ehtimalı bir qədər şübhə altına alır və adın etnonim səciyyəsi daşıması fikrini doğurur. Qars əyalətindəki Qurd-Qulaq, Cənubi Azərbaycandakı Alma Qulağı, Qazaxıstandakı Kos-Kulak toponimlərini də bura əlavə etmək olar.

Bizim fikrimizcə, Qulaqsız toponiminin mənşəyində peçeneqlərin **kul//qul** tayfasının adı dayanır. Bu tayfanın er.əv. Vedibasar ərazisində məskunlaşması, burada **Kol vilayəti** yaratması, bu tayfanın adı ilə Vedibasarda bir neçə kəndin mövcudluğu (Göl, Gölcığın, Gölaysor, Güldərviş, Kolanlı, Qulaqsız və s.) barədə Güldərviş kəndindən danışarkən ətraflı bəhs etmişik.

Bununla belə, xatırladırıq ki, Qərbi Azərbaycan ərazisində **qul//kul//kol** komponentli onlarla kənd olmuşdur. Belə toponimlər Şimali və Cənubi Azərbaycan ərazisində də kifayət qədərdir.



## LÖK (LƏK)

Vedibasar mahalının Çağmdərə bölgəsində, Məngük kəndi yaxınlığında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Vedi nahiyəsinin Məngük kəndi yaxınlığında **Lök kəndi** kimi qeydə alınmışdır. Üstəlik kənddə Mahmud Yusif oğlunun adına olan timardan dövlətin müxtəlif vergilər şəklində il ərzində 3.000 ağça məbləğində gəlir götürdüyü qeyd olunmuşdur.

Kəndin adının XVI yüzildə Şərqi Anadoluda yaşamış Boz-Ulus tayfasının **Lök** qolunun adından götürüldüyü ehtimal olunur (B.Budaqov, Q.Qeybullayev).

Bu faktı bir qədər də dəqiqləşdirib, deyə bilərik ki, məlum olduğu kimi, məşhur Qayı türk tayfa birləşməsinin Qacar, Əfşar, Arman, Ustaclı, **Lək** və s. qəbilələri mövcud olmuşdur. Tarixdən də bəllidir ki, Vedibasar mahalında bu qəbilələrin, demək olar ki, hamısı sıx halda yaşamış və adlarını bu mahalın toponimlərində yaşatmışlar. Heç şübhəsiz, əsl adı **Lək** olan bu kənd də Vedibasarda həmin qəbilənin adını daşımışdır.

Vaxtilə Zəngibasar mahalında, Cavanşir və Yelizavetpol (Gəncə) qəzalarında Lək kənd adlarının, Borçalıda Lək adlı dağ və çayın mövcud olması da **Lök//Lək** adının etnonimik səciyyəsindən irəli gəlmişdir.

XVIII yüzildən sonrakı mənbələrdə Vedibasar mahalı ərazisində belə bir kənd adına rast gəlmirik.

# MƏMMƏDABAD (YENİ KARYER, MURADABAD, QARACALAR)

Vedibasar mahalının dağlıq hissəsində, Vedi çayının mənbəyində kənd.

Kənddə ancaq Azər türkləri yaşamışlar.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Gərni nahiyəsinin **Yeni Karyer kəndi** kimi qeydə alınmış, kəndin ikinci adının **Məhəmmədabad** olduğu, kənddən dövlətin müxtəlif vergilər şəklində ildə 3.000 ağça gəlir götürdüyü göstərilmişdir.

İ.Şopendə (1832) kəndin adı **Muradabad** şəklində Vedibasar mahalının xaraba kəndləri siyahısında verilmişdir. Sonrakı mənbələrdə kəndin adı **Məmmədabaddır.**

1873-cü ilin statistikasında Vediçay diyarının dağlıq hissəsində **Məmmədabad kəndi** kimi siyahıya alınan kəndin mülkədar kəndi və ikinci adının **Qaracalar** olması barədə qeyd də var. Həmin mənbədə kənddə 6 təsərrüfatda 34 nəfər (18 kişi, 16 qadın) Azərbaycan türkünün yaşadığı göstərilmişdir.

Göründüyü kimi, kəndin ilkin (Yeni Karyer) adı tədricən öz yerini kəndin ikinci (Məhəmmədabad) adınan vermişdir. Belə ki, 1873-cü ilə aid mənbədə Qaracalar (bizcə elə **Karyer** oykonimi də **Qarayer** deməkdir ki, bu da sonralar **Qaracalar** şəklinə düşmüşdür) adı artıq Məmmədabad oykoniminin ikinci adı kimi verilmişdir.

Kəndin **Məmmədabad** adı, heç şübhəsiz, **Məhəmməd** şəxs adından və **yaşayış iəntəqəsi** anlamında **"abad"** sözündəndir. Qaracalar adı isə kənddə məskunlaşmış əhalinin tayfa mənsubiyyəti ilə bağlıdır. Qaracalar, məlum olduğu kimi, Cənubi Qafqazda, o cümlədən Qərbi Azərbaycanda geniş yayılmış etnotoponimdir.

Keçmişdə İrəvan xanlığının Seyidli-Ağsaxlı mahalında, İqdır, Qırxbulaq, Dərəçiçək nahiyələrində, Eçmiədzin qəzasında eyniadlı kəndlər qeydə alınmışdır. Zarzəmin və Qırxbulaq nahiyələrində isə Qaracalı adlı kəndlər mövcud olmuşdur.

Maraqlıdır ki, sonrakı mənbələrdə Vedibasar mahalının dağlıq hissəsində Məmmədabad kənd adına rast gəlmirik, amma



1886-cı ildən etibarən Zəngibasar mahalında eyniadlı kənd qeydiyyata alınmağa başlayır. Bu, söyləməyə əsas verir ki, kəndin əhalisi 1880-ci illərdə bütövlükdə köçüb, yeni yurdda eyniadlı kənd salmışdır.

Əslində, məsələ belədir ki, həm Zəngibasar mahalının Qaracalar kəndində, həm də Vedibasar mahalının Məhəmmədabad (Qarayer) kəndində Qaracalar tayfasından olanlar yaşamışlar. Ona görə də bölgənin ruslar tərəfindən işğalı nəticəsində Zəngibasar mahalının xaraba qalmış Qaracalar kənd camaatı məhz Vedibasarın Məhəmmədabad kəndindəki həmtayfalarına sığınmışlar. 1880-ci illərin əvvəllərində isə bütün Qaracalar kənd camaatı geri qayıdarkən Məmmədəbadlılar da onlarla birgə getmişlər. Bu səbəbdən 1880-ci ildə Zəngibasarda bərpa olunan Qaracalar kəndi artıq Məmmədəbad adı ilə tarixə düşmüşdür.

Beləliklə, Vedibasar mahalının Məmmədəbad kəndi elə o vaxtdan – 1880-ci illərdən xaraba qalmışdır.

# MƏMMƏDRƏSUL (MƏMMƏDRƏSUL QIŞLAĞI)

Vedibasar mahalının aran hissəsində, Ağrıdağ vadisində, Dəvəli kəndi yaxınlığında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

Kəndin əsl adı **Məmmədrəsul qışlağıdır** və şübhəsiz ki, kənd öz adını bu qışlağın adından, qışlaq isə mənsub olduğu şəxsin adından götürmüşdür.

1897-ci ildə kənddə 73 nəfər azərbaycanlı yaşamışdır.

XX yüzilin əvvəllərində – 1905-ci il erməni-müsəlman davası zamanı kənd erməni daşnakları tərəfindən yerlə-yeksan edilmişdir. Xarabalıqları son illərə qədər Dəvəli kəndi yaxınlığında qalmaqda idi.



# MƏNGÜK

Vedibasar mahalının Cığındərə bölgəsində, Vedi çayının yuxarı axarında, Zimmi dərəsində, Signah dağı ətəyində kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) kəndin adı Vedi nahiyəsinin **Mənkik kəndi**, "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə həmin nahiyənin **Mənkük kəndi** kimi qeydə alınmışdır. İkinci mənbədə kənddə Hüseyn Muçurlu oğlunun adına olan timardan dövlətin müxtəlif vergilər şəklində il ərzində 8.000 ağça məbləğində gəlir götürdüyü göstərilmişdir.

1873-cü ilin statistik məlumatlarında və sonrakı bütün mənbələrdə kəndin adı **Məngük** kimi verilmişdir.

Kəndin adının etimologiyası barədə bir neçə mülahizə irəli sürmək olar. Birincisi, **mengü//menü** sözü qədim türklərdə **abidə, yazılı daş abidə, əbədi abidə** anlamında işlənmişdir. (Sonralar bu söz **vəng** şəklinə düşmüşdür). Kəndin yerli tələffüzdə **Məngüy** adlanması isə onun, bəzi mənbələrdəki kimi, əvvəlcə məhz **Məngüköy** adı daşıdığını təsdiq edir. 1873-cü ilin statistik məlumatlarında kəndin ərazisində qədim qəbirüstü abidələrin, kilsə xarabalıqlarının qeydə alınması da kənd adının bu izahını məqbul edir. İkincisi, **Manqu//Məngü xan** böyük türk sərkərdələrindən birinin adıdır. Həmin Məngü xan ki, monqol-tatar xanı Batı xanın ən yaxın silahdaşlarından biri idi və monqol-tatar işğalından sonra Vedibasar mahalının da daxil olduğu Qərbi Azərbaycan torpaqları Məngü xanın hakimiyyəti altında olmuşdur. Üçüncüsü, **manqut** türk tayfalarından birinin adıdır.

1873-cü ildə Məngük kəndində 21 təsərrüfatda 100 nəfər (11 kişi, 89 qadın) Azərbaycan türkü yaşamışdı.

1886-cı ildə kənd əhalisinin sayı 23 təsərrüfatda 259 nəfərə (145 kişi, 114 qadın) çatmışdır.

Kənd əhalisi əsasən əkinçilik və heyvandarlıqla məşğul olmuşdur. Kəndin 847,46 desyatin torpaq sahəsinin 3 desyatinini malikanə torpaqları, 48 desyatinini suvarılan, 180 desyatinini suvarılmayan əkin yerləri təşkil etmişdir. Kənddə 169 iribuynuzlu, 296 xırdabuynuzlu mal-qara bəslənmişdir.

Kəndin torpaqları **Şahinbulaq** bulağının suyu ilə suvarılmışdır.

İrəvan qəzasının **Arxaşan** yaylağında kəndin qədimdən istifadə etdiyi 200 desyatin yurd yeri olmuşdur.

1897-ci ildə kənddə 291 nəfər, 1916-cı ildə 280 nəfər azərbaycanlı yaşamışdır.

1918-1920-ci illər erməni-müsəlman davası zamanı daşnaklar tərəfindən dağıdılan, əhalisi yer-yurdundan didərgin salınan kənd bir də Sovet hakimiyyəti illərində məskunlaşmışdır. 1922-ci ildə kəndin keçmiş sakinlərindən cəmi 94 nəfər geri qayıda bilmiş, 1931-ci ildə onların sayı artıb 135 nəfərə çatmışdır.

1937-1948-ci illərdə Qarabağlar rayonu tərkibində mövcud olan kəndin əhalisi 1949-cu ilin dekabrında Azərbaycana deportasiya olunmuşlar. Kənddə cəmi bir neçə ev qalmış, onlar da 1964-cü ildə köçüb, rayonun aran kəndlərində məskunlaşmışlar.

* * *

Məngük kəndi şərti olaraq iki hissəyə ayrılırdı: kəndin **İlan qayasından** aşağıdakı hissəsi **Aşağı kənd**, İlan qayasından yuxarıdakı hissəsi **Yuxarı kənd** adlanırdı.

Yuxarı kənddə evlərin sayı daha çox idi. Vedidən gələn yol hələ kəndə (Aşağı kəndə) çatmamış burada **Teltel** deyilən bir ərazi vardı. Telteldə yumşaq, ipək kimi, saçaqlı sayaq otlar bitdiyindən və külək vuranda bu otlar tel kimi dalğalandığından ərazi bu adı almışdı. Aşağı kəndin yanında **Yamac** adlı bir yer də vardı. Anqar tipli, uzunluğu bir neçə kilometrə çatan bu yamacda heç bir ağac bitməzdi, hər cür ot, çiçək, kəklikotu və s. isə bol olardı. Bu Yamacın qurtaracağındakı yer **Qaş** adlanırdı. Qaşdan baxanda Aşağı kəndə gələn yol ovuc içi kimi görünürdü.

Yamacın arxasında kiçik bir meşəlik yerləşirdi. Burada gərməşov ağacları, ayıqarası bitərdi. Yamacın kənarında **Bəsti bulağı** adlı çox soyuq, bol sulu bulaq vardı. Kəndin lap yuxarılarındakı **Dibyurd** yaylağından axıb gələn **Böyük çay** bulağın yanından axıb gedirdi. İkinci bir bulaq – **Qələndər bulağı** isə meşənin içində yerləşirdi.

Kəndin aşağısındakı qumsallıq ərazidə həm də kəndin qəbiristanlığı yerləşirdi. Yamac deyilən yerin üstündə isə hündür xaç daşları vardı. Qəbir daşlarına oxşayan bu daşların üzərində ermənilərin belə oxuya bilmədiyi yazılar mövcud idi. Xaçların quruluşu – yuxarı, sağ və sol çıxıntıların naxışlı olması onların erməni-qriqorian dininə dəxli olmadığını əyani sübut edirdi. Burada 10-12 qəbir də vardı ki, boylarının uzunluğundan onların Oğuz qəbirləri olduğu aydın idi. **Həsən qalası, Ağca qalası, Məşədi Əhmədin qalası** və s. qalalar Məngük abidələri kompleksinə daxil idi.



Kəndin yuxarısında, kənddən bir neçə kilometr aralı, Kolanlıya gedən yolun üstündə Məngüyün biçənəkləri yerləşirdi və orada çoxlu qəribə daş abidələr vardı – başı, çiyinləri, qolları olan bu daşlar sanki insan əli ilə düzəldilmişdi. Burada da xeyli xaç daşları səpələnib qalmışdı.

Məngük kəndi – yerləşdiyi dərədə, demək olar ki, sonuncu kənd idi. Kəndin sol tərəfində – dəyirmanın yanında bir göl vardı. Adına elə **Göl** də deyrdilər. Gölün yanında Ağkilsə kəndinin xarabalıqları son zamanlara qədər qalmaqda idi. Gölün yanında boyu 2 metrə çatan xaç daşı vardı. Ağkilsə kəndindən sonra **Dibyurd yaylağı** başlayırdı. Oradan o yana, dağların o üzündə Əyricə yaylağı yerləşirdi.

1949-cu ildə bütün Məngüklülər Azərbaycana deportasiya olunanda bir neçə ailə kənddən çıxmaqdan imtina edir. Onlar **Yaqub kişi,** qardaşı oğlu **meşəbəyi Bayram, İsrafil müəllim** və b. idi. Yaqub kişinin Haxıs kəndində sovet sədri işləyən oğlu **İbrahim Əliyev** də 1951-ci ildə köçüb Məngüyə gəlir. Beləliklə, 1964-cü ildə kənddə beş-altı ev mövcud idi. Həmin il onlar da kəndi tərk etməyə, Vedinin Şirazlı kəndində məskunlaşmağa məcbur olurlar. Bir ailə isə Şərurun Kərimbəyli kəndinə köçüb gedir.

Məngük kəndinin yetirməsi olan igidlərdən **Tat oğlu Məmməd** 1918-1921-ci illərdə Vedibasar mahalının erməni daşnaklarına qarşı qəhrəmanlıqla vuruşan qeyrətli oğullarından idi. O, 1928-1931-ci illər Kərbalayı İsmayıl qiyamının da fəal iştirakçısı olmuşdu.

## KƏNDİN TAYFALARI

Misirlilər, Əmirxanlılar, İlanlılar, Cəfərqulular...

## KƏNDİN TOPONİMLƏRİ

Aşağı kənd, Yuxarı kənd, Demin qayası, Həsən qayası, Şehin dağı, Həsən qalası, Ağca qalası, Məşədi Əhmədin qalası, İlan qa-

yası, Sarı qaya, Cabbarın dərəsi, Komun dərəsi, Tosluğun dərəsi, Qanatmalığın dərəsi, Soyuq bulaq, Südlü bulaq, Tək bulaq, Haqverdi bulağı, Almalıq bulağı, Bəsti bulaq, Səkinənin bulağı, Şirin bulaq, Damcılı bulaq, Qələndər bulağı, Böyük bulaq, Savalan zağası, Zəyliyin zağası, Köhlənin çuxuru, Dibyurd, İstiyurd, Teltel, Tatyer, Dilmələr, Göl kövşəni, Zaloyeri, Ayıqıran, Sarıçiçək, Pirin dağı, Şüşəqıran, Buxzana, Teltel, Yamac, Qaş və s.

## XƏLİL YAQUB OĞLU XƏLİLOV



1932-ci il dekabrın 21-dən Məngük kəndində anadan olmuşdu.

1949-cu ildə Böyük Vedi orta məktəbini bitirib, Məngük kənd yeddillik məktəbində müəllimlik etmişdi.

1950-1952-ci illərdə C.Məmmədquluzadə adına Naxçıvan Müəllimlər İnstitutunda təhsil alan X.Xəlilov oranı fərqlənmə diplomu ilə bitirib, Böyük Vedi orta məktəbində müəllimlik fəaliyyətini davam etdirmişdi.

1957-1962-ci illərdə Azərbaycan Pedaqoji İntitutunun fizika-riyaziyyat fakültəsində təhsilini davam etdirmiş, 1962-ci ildə oranı da fərqlənmə diplomu ilə bitirib, kafedrada əməkdaş kimi saxlanmışdı.

1963-cü ildə aspiranturaya daxil olmuş, dissertasiya müdafiə edərək, fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsi almışdı.

1966-1975-ci illərdə Azərbaycan Tibb İnstitutunun fizika kafedrasının dosenti, 1975-1981-ci illərdə APİ-nin partiya komitəsinin katibi vəzifələrində çalışmışdı.

1981-ci ildən 1989-cu ilədək Bakı şəhərinin keçmiş 26 Bakı komissarı (indiki Səbail) rayonu partiya komitəsinin 1-ci katibi işləyən Xəlil Xəlilov 10-cu və 11-ci çağırış Ali Sovetin, dəfələrlə rayon və Bakı şəhər XDS-nin deputatı olmuş, Ali Sovetin Rəyasət Heyətinin Fəxri Fərmanları, orden və medallarla təltif edilmişdir.

X.Xəlilov 1993-cü ildə vəfat etmişdir.



## ABBAS İBRAHİM OĞLU MƏCLUMOV



1947-ci ildə Məngük kəndində anadan olmuşdur.

Orta təhsilini rayonun Qarabağlar, Qaralar və Şirazlı kəndlərində almışdır.

1965-ci ildə orta məktəbi bitirib, Bakı şəhərinə gəlmiş, burada tikintidə fəhlə işləmiş, 1967-ci ildə Azərbaycan Tibb İnstitutunun sanitar-gigiyena fakültəsinə daxil olmuş, 1974-cü ildə ali təhsilini başa vurub, Qarabağ rayonunda sanitariya həkimi kimi işə başlamışdır.

Tezliklə bölmə, şöbə müdiri vəzifələrinə irəli çəkilən A.Məclumov 1978-ci ildə Suraxani rayonunun Sanitar-epidemologiya stansiyasına baş həkim təyin olunur.

1983-cü ildə Binəqədi rayon SES-nə baş həkim vəzifəsinə dəyişdirilir və 1998-ci ilədək burada çalışır.

1998-ci ildən Abşeron rayon Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru vəzifəsində işləyir.

Evlidir. Bir qızı, iki nəvəsi var.

## QƏLƏNDƏR HƏSƏN OĞLU ALLAHVERDİYEV



1939-cu ildə Məngük kəndində anadan olmuşdur.

1949-cu ilin dekabrında ailələri Azərbaycana deportasiya olunaraq, İmişli rayonunda məskunlaşmışlar.

Q.Allahverdiyev 1959-cu ildə orta məktəbi, 1965-ci ildə Azərbaycan Dövlət Universitetinin ticarətin təşkili və əmtəəşünaslıq fakültəsini bitirmişdir.

O, əmək fəaliyyətinə 1959-cu ildə fəhləlikdən başlamış, satıcı, baş satıcı, mağaza müdiri, müfəttiş, baş əmtəəşünas, ticarət şöbəsinin müdiri, direktor müavini vəzifələrin-

də işləmiş və nəhayət, Azərbaycan Respublikası üzrə Zərgərlik İdarəsinin baş direktoru vəzifəsində çalışmışdır. Hazırda Bakı şəhər Mərkəzi Univermağında ticarətin təşkili şöbəsində baş müfəttiş işləyir.

İlk gündən Yeni Azərbaycan Partiyasının yaranmasında iştirak edən Q.Allahverdiyev hazırda YAP-ın Bakı şəhər Mərkəzi Univermağı üzrə ilk təşkilatının sədridir.

Qardaşı **Qəhrəman Allahverdiyev** 1943-cü ildə Məngük kəndində anadan olmuş, İmişli rayonununda orta iəktəbi bitirdikdən sonra Ali Milis Məktəbini bitirmiş, təqaüdə çıxana qədər Bakı şəhərində müxtəlif polis orqanlarında işləmişdir.

## VAQİF İBRAHİM OĞLU MƏMMƏDOV



1956-cı il aprelin 5-də Məngük kəndində anadan olmuşdur.

1973-cü ildə Şərur rayonunun Kərimbəyli kəndində orta məktəbi, 1978-ci ildə İrkutsk şəhərində milis məktəbini, 1980-ci ildə Novosibirsk şəhərində orta milis məktəbini, 1984-cü ildə Xabarovsk Ali Milis Məktəbini bitirmişdir.

Uzun illər Xabarovsk şəhərində milis orqanlarında əməliyyat-axtarış müvəkkili, müstəntiq vəzifələrində işləmişdir.

1993-cü ildən Azərbaycana köçmüş, Azərbaycan Respublikası Ali Dövlət Hakimiyyəti və İdarəetmə Orqanlarının Baş Mühafizə İdarəsində fəaliyyətə başlamışdır. Hazırda da orada məsul vəzifədə çalışır.



# MİSİR DƏRVİŞ

Vedibasar mahalında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) Vedi nahiyəsinin **Misir Dərviş** kəndi kimi qeydə alınmışdır.

Sonrakı mənbələrdə kəndin adına rast gəlmədiyimizdən onun mahal ərazisində dəqiq coğrafi yerini də müəyyənləşdirə bilmədik.

Kəndin adının **Misir** adlı **dərvişin** adından götürüldüyünü ehtimal etmək olar.

## MOLLA ƏHMƏD (MOLLA MƏHƏMMƏD)

Vedibasar mahalının Millidərə bölgəsində, Qəmərli şəhərindən 30 km şimal-şərqdə, Böyük Gilanlar kəndinin yaxınlığında, Molla Əhməd bulağı yanında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) Gərni nahiyəsində **Pir Əhməd Abdal** kəndinin adı çəkilir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə kəndin adı **Alqırıq kəndi yaxınlığında Molla Mahmud kəndi** kimi yazıya alınmış, kəndin **İbrahim** adlı şəxsin timarı olduğu və kənddən dövlətin ildə 3000 ağça gəlir götürdüyü göstərilmişdir. Nəhayət, İ.Şopendə (1832) kənd Molla Əhməd adı ilə Gərnibasar mahalı üzrə xaraba kəndlər siyahısına daxil edilmişdir.

Kəndin mənsub olduğu şəxsin (**Molla Əhmədin**) adını daşıdığını güman etmək olar.

Lakin unutmaq olmaz ki, Səlcuq türklərinin adını Qızıl Əhməddən alan məşhur tayfalarından biri məhz **Əhmədli** tayfasıdır. Bundan başqa, Qaşqay türklərinin tərkibində **Mal Əhmədli** və **Məhəmməd Əhmədli** tirələri də olmuşdur. Bunlar barədə Vedibasarın Əhmədli kəndindən danışarkən ətraflı bəhs etmişik.

Yeri gəlmişkən, XVIII yüzildə İrəvan əyalətinin İqdır nahiyəsində də **Molla Əhməd** adlı kənd qeydə alınmışdır. Əhmədli adı ilə isə həm Qərbi Azərbaycanda, həm də Şimali Azərbaycanda neçə-neçə kənd mövcuddur.

1873-cü ilin siyahıyaalmalarında kəndin adı yenə də Molla Əhməddir və onun **Molla Əhməd** bulağı yanında yerləşdiyi göstərilmişdir. Həmin məlumatlara əsasən, kənddə 4 təsərrüfatda 28 nəfər (12 kişi, 10 qadın) Azərbaycan türkü yaşamışdır.

1886-cı ildə kənd əhalisinin (həmin ilin statistik məlumatlarında kəndin adı bir yerdə **Molla Əhməd**, başqa mənbədə **Molla Məhəmmədir**) sayı 6 təsərrüfatda 34 nəfər (18 kişi, 16 qadın) olmuşdur. Kəndin 200 desyatin torpaq sahəsinin 0,5 desyatinini malikanə torpaqları, 62 desyatinini suvarılmayan əkin yerləri təşkil etmişdir. Kənddə 72 iribuynuzlu, 200 xırdabuynuzlu mal-



qara qeydə alınmışdır.

Kəndin Yeni Bayazid qəzasının Çatmabulaq yaylağında **Yelliyurd** adlı 207 desyatin yurd yeri olmuşdur. Kənddən 40 verst aralıda yerləşən bu yurddan kənd camaatı qədimdən istifadə etmişlər.

1897-ci ildə kənddə 65 nəfər, 1914-cü ildə 88 nəfər əhali yaşamışdır.

1918-ci ilin mayında erməni daşnaklarının Millidərə bölgəsinə hücumu zamanı əhalisi damlara doldurulub yandırılan 7 azərbaycanlı kəndindən biri də Molla Əhməd kəndi olmuşdur.

1922-ci ildə kəndin qaçqın əhalisindən cəmi 25 nəfər geri qayıda bilmiş, 1926-cı ildə onların sayı 37 nəfərə çatmışdır. Lakin 1931-ci ildə kənddə cəmi 10 nəfər əhali yaşamışdır. Bir neçə il sonra isə kənd tamam boşalmış və xaraba kəndə çevrilmişdir.

# MUSACIQ (MUSA DƏRVİŞ)

Vedibasar mahalının Millidərə bölgəsində, Çəngli kəndi yaxınlığında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) kəndin adı Vedi nahiyəsinin **Musa Dərviş** kəndi, "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə həmin nahiyənin **Musacıq kəndi** kimi qeydə alınmışdır. Üstəlik, ikinci mənbədən kəndin Çəngli kəndi yaxınlığında yerləşdiyini öyrənirik. Kənddə Əziz Əhməd oğlunun adına olan timardan dövlətin müxtəlif vergilər şəklində götürdüyü illik gəlirin 3.000 ağça məbləğində olduğu da həmin mənbədə göstərilmişdir. 1728-ci ilə aid dəftərdə kəndin adı həm də **Sarı Musalı** kimi verilmişdir.

Bütün bunlar kəndin adının şəxs (nəsil) adından yarandığını söyləməyə əsas verir.

İ.Şopendə (1832) **Musacıq** kəndinin Vedibasar mahalının xaraba kəndləri siyahısına daxil edilməsi isə onun 1826-1829-cu illər Rusiya-İran, Rusiya-Osmanlı müharibələri zamanı yerləyeksan olunmasına dəlalət edir.

Sonrakı mənbələrdə kəndin adına bir daha rast gəlməməyimiz onun həmin vaxtdan sonra məskunlaşmadığını və həmişəlik xaraba qaldığını təsdiqləyir.



# NƏSİBLİ (NƏSİBLİ QIŞLAĞI)

Vedibasar mahalının aran hissəsində, Ağrıdağ vadisində, Qaralar kəndi yaxınlığında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Vedi nahiyəsində Qarança **(Qaralar – Ə.Ə)** kəndi yaxınlığında **Nəsibli qışlığı** kimi qeydə alınmışdır. Bu qışlaq-kənddən dövlətin müxtəlif vergilər şəklində götürdüyü illik gəlirin 4.000 ağça olduğu barədə də həmin mənbədə məlumat var.

Sonrakı mənbələrdə kəndin adına rast gəlmirik.

## ORTUK

Vedibasar mahalınm aran hissəsində, Ağrıdağ vadisində kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

İ.Şopendə (1832) **Ortuk** adı ilə Vedibasar mahalının dağıdılmış kəndləri siyahısında verilmişdir. Bu, kəndin 1826-1829-cu illər Rusiya-İran, Rusiya-Osmanlı müharibələri zamanı xaraba qaldığını təsdiq edir. Eyni zamanda İ.Şopendə belə bir qeyd də var ki, Vedibasar mahalının aran hissəsində Xorvirabdan başqa, yalnız dağıdılmış Ortuk kəndində qədim xristian məbədi mövcuddur. Bu fakt kəndin qədimliyinə və mahalın əsas mədəniyyət mərkəzlərindən biri olmasına dəlalət edir.

Azərbaycan müəllifləri İ.Şopendə Ortuk kimi qeydə alınan bu kəndin adını azərbaycancada **Örtük** kimi yazırlar.

Sonrakı mənbələrdə kəndin adına rast gəlməməyimiz isə onun sonralar bir daha bərpa olunmadığını təsdiqləyir. Elə buna görə də kəndin dəqiq coğrafi yerini müəyyənləşdirə bilmədik.

Ortuk kənd adının etimologiyası ilə bağlı iki versiya irəli sürə bilərik. Birincisi, bu sözün əsasında **ordu** sözü durur və **ordunun oturduğu** və ya **ordunun toplandığı yer, ordu qərargahı** anlamındadır. İkinci adın mənşəyində **Ar-türk** komponentləri dayanır və "**Türklər**" anlamını verir.

XVIII yüzildə Sisiyan mahalında qeydə alınmış Ortukiş kəndi ilə eynimənşəlidir.



## REYHANLI (SARIBAŞ YURDU)

Vedibasar mahalının aran hissəsində, Ağrıdağ vadisində, Vedi rayonunun mərkəzi olan Böyük Vedi qəsəbəsindən 7 km cənub-qərbdə, İrəvan-Naxçıvan-Bakı dəmiryol xəttinin və Vedi çayından ayrılan su arxının üstündə kənd.

1828-ci ilə qədər kənddə ancaq Azərbaycan türkləri yaşamış, 1832-ci ildən 1988-ci ilə qədər azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuşdur. 1988-ci ildə kənd tamamilə erməniləşdirilmişdir.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Vedi nahiyəsinin **Reyhanlı kəndi** kimi qeydə alınmış, kəndin illik gəlirinin 2.312 ağça olduğu göstərilmişdir.

El arasında bəzən **Sarıbaş yurdu** da adlanan Reyhanlı kəndinin adı Səlcuq oğuzlarının Boyat tayfasının **Reyhanlı** qolunun adını daşıyır. Böyük bir hissəsi (300 çadır) Anadoluda yaşamış bu türk soyunun müəyyən hissəsi də vaxtilə Qərbi Azərbaycanda məskunlaşmışdır.

Zəngibasar mahalı ərazisindəki Reyhanlı kəndinin adı da həmin soyun adındandır.

1826-1829-cu illər Rusiya-İran və Rusiya-Osmanlı müharibələri zamanı Vedibasar mahalında ən çox dağıntılara məruz qalan kəndlərdən biri də Reyhanlı olmuşdur. Buna görə də İ.Şopen (1832) **Reyhanlı kəndini** Vedibasar mahalının xaraba kəndləri siyahısına daxil etmişdir. Bu da ondan irəli gəlirdi ki, Reyhanlı kəndinin camaatı rus işğalçılarına qarşı axıradək mübarizə aparmış, qırılan qırılmış, sağ qalanlar rus tabeçiliyini qəbul etməyərək elliklə Arazın o tayına – Cənubi Azərbaycana, Türkiyəyə keçib getmişdilər.

1832-ci ildən sonra kənddə Türkiyədən gəlmə xeyli erməni yerləşdirilmişdir. Bununla da Reyhanlı kəndi Vedibasar mahalında erməniləşdirilən ilk iki kənddən biri (digəri Dəvəli kəndi idi) olmuşdur.

1873-cü ildə kənddə 23 təsərrüfatda 204 nəfər, 1886-cı ildə 48 təsərrüfatda 325 nəfər əhali yaşamışdır. Camaatı əsasən heyvandarlıq və əkinçiliklə məşğul olan kəndin 420,2 desyatin tor-

paq sahəsinin 5,85 desyatinini malikanə torpaqları, 7,8 desyatinini bağ sahələri, 384 desyatinini əkin yerləri təşkil etmişdir. Kənddə 461 iribuynuzlu, 1140 xırdabuynuzlu mal-qara qeydə alınmışdır.

Kəndin Novobayazid qəzasının Əyricə yaylağında adlı yurd yerləri olmuşdur. Kənddən 45 verst aralıda yerləşən, 290 desyatin ərazini əhatə edən bu yurdlar Reyhanlı kəndinə qədimdən məxsus olmuşdur.

1897-ci ildə kənddə 320 nəfər erməni, 123 nəfər azərbaycanlı yaşamışdır.

1918-1920-ci illər erməni-müsəlman davası zamanı kəndin erməni əhalisi daşnaklarla əlbir olub, onlara dəstək verdiyindən Abbasqulu bəy tərəfindən kənddən köçürülmüşlər. Sonradan ermənilər Vedibasarın başqa kəndləri ilə birlikdə Reyhanlı kəndini də işğal etmişlər.

Sovet hakimiyyəti illərində kəndin keçmiş sakinlərinin bir hissəsi geri qayıtmışdır. Lakin 1948-1953-cü illər deportasiyası Reyhanlı kəndindən də yan ötməmiş, 1949-cu ildə kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana köçürülmüşdür. 1988-ci ilə qədər kənddə yaşayan bir neçə ailə isə həmin il erməni millətçiləri tərəfindən vəhşicəsinə qovulmuş, kəndin erməniləşdirilməsi başa çatdırılmışdır.

Kəndin adı 1946-cı il aprelin 4-də dəyişdirilərək **Aygevan (Haykavan** – yəni **"erməni yurdu"**) qoyulmuşdur.



## RƏŞOĞLU (RƏŞİDOĞLU)

Vedibasar mahalının Cığındərə bölgəsində, Kolanlı kəndi yaxınlığında kiçik kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

Kənd Kolanlı kəndindən yuxarıda, Sarıqayanın üstündə, Əyricə yaylağına aparan Selim yolunun üstündə yerləşirdi.

Kənd Cığın dərəsində Kolanı tayfasının məskunlaşdığı 8 kənddən biri olmuş və bütün statistik məlumatlarda Kolanlı kəndinin üstündə verilmişdir.

Xarabalıqları Kolanlı kəndi yaxınlığında son illərə qədər qalmaqda idi.

Kəndin adının nəsil adından yaranması göz önündədir. **Rəşoğlu** adı isə **Rəşidoğlu** adının xalq dilində qısaldılmış deyim variantıdır.

## SARAY (ƏMİNKƏND)

Vedibasar mahalının aran hissəsində, Dəvəli kəndinin yuxarısında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) Vedi nahiyəsində **Salmansaray** adı ilə qeydə alınmışdır. Həmin mənbədə kəndin ikinci adının **Əminkənd** olması barədə qeyd də var.

1826-1829-cu illər Rusiya-İran, Rusiya-Osmanlı müharibələri zamanı yerlə-yeksan edilən kənd İ.Şopendə (1832) **Saray** adı ilə Vedibasar mahalının dağıdılmış kəndləri siyahısında verilmişdir.

Sonrakı mənbələrdə kəndin adına rast gəlinməməsi onun bir daha bərpa olunmaması ilə bağlıdır.

Kəndin adının XIII yüzildə monqolların tərkibində Cənubi Qafqaza gəlmiş **Saray** tayfasının adını daşıması fikri (B.Budaqov, Q.Qeybullayev) inandırıcıdır. Abşeronda Saray kənd, Yuqoslaviyada Sarayevo şəhər adları da həmin mənşədən törəmədir. Qərbi Azərbaycanda da **saray** komponentli bir sıra toponimlər olmuşdur: Zarzəmin nahiyəsində Saray kəndi, Talin nahiyəsində Saraycıq kəndi, Dərəçiçək nahiyəsində Sarayiğ kəndi və s.

Son zamanlara qədər Dəvəli kəndi yaxınlığında Saray kəndinin xarabalıqları qalmaqda idi.



## SARIXANLI

Vedibasar mahalınm aran hissəsində, Ağrıdağ vadisində, Vedi rayonunun mərkəzi olan Böyük Vedi qəsəbəsindən 14-16 km cənub-qərbdə, Araz çayı kənarında, Araz çayı ilə İrəvan-Naxçıvan avtomobil yolu arasında, Xalisa kəndi yaxınlığında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

Kəndin adına Vedibasar mahalımn Arazboyu hissəsini əhatə edən Aralıq nahiyəsində **Sarıxan atları məzrəsi** şəklində ilk dəfə "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) rast gəlirik. 1873-cü ildən etibarən isə bütün mənbələrdə kəndin adı **Sarıxanlı** şəklindədir.

Kəndin adı Şahsevən türklərinin **Sarıxanlı** (**Sarı xanın eli** və ya **Sarı xanın tayfası** mənalarında) tayfasının adından yaranmışdır. Qərbi Azərbaycan ərazisində bir sıra eyniadlı toponimlərin (Sarıxan atları məzrəsi, Sarıxan kəndi, Sarıxanlı kəndi və s.) mövcudluğu da bu adın etnonim səciyyəsindən irəli gəlir.

1886-cı ilə aid mənbədə kəndin 1872-ci ildə Xalisa kəndindən çıxanlar tərəfindən məskunlaşdırıldığı qeyd olunmuşdur.

Sarıxanlı kəndində 1873-cü ildə 38 təsərrüfatda 288 nəfər (146 kişi, 142 qadın) Azərbaycan türkü yaşamışdır. Həmin ilin statistikasında kəndin dəqiq coğrafi mövqeyi – Araz çayı ilə poçt yolu arasında yerləşdiyi də göstərilmişdir.

1886-cı ildə kənd əhalisinin sayı 47 təsərrüfatda 338 nəfərə (181 kişi, 157 qadın) çatmış, kəndin 440 desyatin torpaq sahəsinin 6 desyatinini malikanə torpaqları, 0,5 desyatinini bağ sahələri, 120 desyatinini suvarılan əkin yerləri təşkil etmişdir.

1897-ci ildə kənddə 358 nəfər azərbaycanlı əhali qeydə alınmışdır.

1905-ci il erməni-müsəlman davası zamanı kənd dəhşətli faciə ilə üz-üzə durmuş, dinc əhalinin çox hissəsi erməni vəhşiləri tərəfindən qətlə yetirilmişdir. Elə həmin faciənin nəticəsidir ki, 1905-ci ildə kənddə cəmi 160 nəfər, 1914-cü ildə cəmi 161 nəfər əhali qeydə alınmışdır.

1918-1920-ci illər erməni-müsəlman davası zamanı isə kənd təzədən darmadağın edilmiş, elə o vaxtdan da xaraba qalmışdır.

## SƏFƏRALI (SƏFƏR QIŞLAĞI)

Vedibasar mahalının aran hissəsində, Dəvəli kəndi yaxınlığında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Aralıq nahiyəsi (Vedibasar mahalının Arazboyu hissəsi) tərkibində **Səfər qışlağı** şəklində qeydə alınmışdır. Yəni Səfər adlı şəxsə məxsus qışlaq yeri. Dövlətin müxtəlif vergilər şəklində kənddən götürdüyü illik gəlirin 4.500 ağça məbləğində olduğu da həmin mənbədə göstərilmişdir. Mənbədə kəndin adı qarşısında belə bir qeyd də var: "Əhalisi Şamdangələnli Quzuçu arxı camaatındandır".

Sonralar kəndin adı sadəcə **Səfərəli kəndi** şəklində işlənmişdir.

Kəndin adının şəxs (nəsil) adından yarandığı göz qabağmdadır.

1897-ci ildə kənddə 40 nəfər Azərbaycan türkü yaşamışdır.

XX yüzilin əvvəllərində, daha dəqiq desək, 1905-ci il erməni-müsəlman davası zamanı kənd erməni daşnakları tərəfindən yerlə-yeksan edilmişdir. Xarabalıqları son illərə qədər Dəvəli kəndi yaxınlığında qalmaqda idi.



## ŞAHABLI (İNCƏDƏRƏ, GƏNCƏLİ, KÖHNƏ ŞAHABLI)

Vedibasar mahalının Çanaxçıdərə bölgəsində, Vedi rayonunun mərkəzi olan Böyük Vedi qəsəbəsindən 12–14 km cənub-şərqdə, Vedi çayının sol qolu olan Çapançay çayının kənarında, Zəncirli kəndi yanında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) Vedi nahiyəsində **İncədərə kəndinin** adı çəkilir və onun ikinci adının **Gəncəli** olduğu göstərilir. Əgər kəndin ilkin adı doğrudan da İncədərə olubsa, onda onun Qıpçaq türklərinin **Əncə** tayfasının məskunlaşdığı dərə mənası daşımasını ehtimal etmək olar. Kəndin ikinci adı (Gəncəli) bu tayfanın ya Gəncə tərəfdən köçüb gəldiyinə dəlalət edir, ya da **Əncə//Əncəli** adları sonralar Gəncəli şəklinə düşmüşdür (Gəncə şəhər adında olduğu kimi).

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) artıq kəndin birinci adı unudulmuş və **Gəncəli** adı önə keçmişdir. Lakin mənbədə Zəncirli kəndi yaxınlığında yerləşdiyi vurğulanan bu kəndin ikinci adının **Şahablı** olması barədə qeyd var. Kənddə Məhəmməd Yusif oğlunun adına olan timardan dövlətin vergi şəklində götürdüyü illik gəlirin 3.000 ağça məbləğində olması da göstərilmişdir.

1728-ci ilə aid başqa bir mənbədə isə kəndin adı **Sarablı** kimi yazılmışdır ki, bu da Cənubi Azərbaycanın **Sərab** (yerli tələffüzdə Sarab) şəhərindən köçüb gələnlərin kənddə məskunlaşması ilə bağlı ortaya çıxan ad ola bilər.

Yeri gəlmişkən, həmin mənbədə dövlətin müxtəlif vergilər şəklində kənddən götürdüyü illik gəlirin 2.000 ağça olması barədə qeyd də var.

Lakin kəndin bəzi mənbələrdə **Şaqablı** kimi yazılması, Qərbi Azərbaycanda Şaqab (Qırxbulaq mahalı), Şağanlı (Şörəyel mahalı), Şaqarda (Hamamlı rayonu), Şaqalı (Böyük Qarakilsə rayonu) adlı kəndlərin mövcudluğu bu sözün etnonimik (tayfa adı) səciyyə daşıdığı ehtimalını ortaya qoyur. Maraqlıdır ki, Naxçıvan şəhərinin məhəllələrindən birinin adı da Şaqab//Şahab ol-

muşdur. Buna görə də biz toponimin **şaq//şak//sak** kökünü önə çəkərək adın ilkin variantında Sakevli və ya **Sakobalı** olduğu fikrindəyik. O isə öz növbəsində dil qanunlarına uyğun olaraq sonradan **Sakablı-Şakablı-Şahablı** şəklinə düşmüşdür. Qərbi Azərbaycan ərazisinin qədimdə sakların ən sıx yaşadığı bölgələrdən olması da bunu sübut edir.

1826-1829-cu illər Rusiya-İran, Rusiya-Osmanlı müharibələri zamanı kənd böyük dağıntılara məruz qalmış və İ.Şopendə (1832) artıq Vedibasar mahalının dağıdılmış kəndləri siyahısına daxil edilmişdir.

Sonradan geri qayıdıb kəndi təzədən bərpa etmək istəyən camaat kəndin yerlə-yeksan olunduğunu görüb, yaxınlıqda yeni kənd salmaq məcburiyyətində qalırlar. Köhnə kənddə isə çox az adam ev tikib yaşayır. Yeni salınmış kənd Şahablı (bəzən Yeni Şahablı da deyiblər) adlandırıldığından köhnə kənd də yavaş-yavaş Köhnə Şahablı adlandırılmış və öz mövqeyini tədricən yeni salınmış Şahablı kəndinə tərk etməyə başlamışdır.

1897-ci ildə Köhnə Şahablı kəndində artıq cəmi 46 nəfər əhali qalmışdı.

XX yüzilin əvvəllərində, 1905-ci il erməni-müsəlman hadisələri zamanı isə onlar da köçüb Yeni Şahablı kəndinə gedirlər. Köhnə Şahablı kəndi o vaxtdan xaraba qalmışdır.



## ŞAHABLI (YENİ ŞAHABLI)

Vedibasar mahalının Çanaxçıdərə bölgəsində, Vedi rayonunun mərkəzi olan Böyük Vedi qəsəbəsindən 13 km cənub-şərqdə, Vedi çayının Çapançay qolunun kənarında, Şahablı (Köhnə Şahablı) kəndi yaxınlığında kənd.

1918-ci ilə qədər kənddə ancaq Azərbaycan türkləri yaşamışlar. 1922-1949-cu illərdə kənd azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuşdur. 1949-cu ildə kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana köçürüldükdən sonra kənd bütünlüklə erməniləşdirilmişdir.

Kənd öz adını yaxınlığında salındığı Şahablı (Köhnə Şahablı) kəndinin adından götürmüşdür. Şahablı adının etimologiyası haqqında isə bu kitabın "Şahablı (Köhnə Şahablı)" bölməsində ətraflı məlumat vermişik.

1826-1829-cu illər Rusiya-İran, Rusiya-Osmanlı müharibələri zamanı Şahablı (Köhnə Şahablı) kəndi böyük dağıntılara məruz qaldığından İ.Şopendə (1832) Şahablı kəndi Vedibasar mahalının xaraba kəndləri siyahısında verilmişdir.



**Şahablı kəndinin ümumi görünüşü**

Sonralar geri qayıdıb kəndi bərpa etmək istəyən kənd camaatı bunun çox çətin olduğunu görüb, yaxınlıqda yeni kənd salmağa başlamışlar. Köhnə Şahablı kəndində isə çox az ailə yaşamaqda davam etmişdir. Yeni yaranmış kənd **Şahablı** adını daşıdığı üçün (bəzən **Yeni Şahablı** da deyiblər) köhnə Şahablı elə

Köhnə Şahablı da adlanmışdır.

Çox sürətlə böyüyən yeni **Şahablı kəndində** 1873-cü ildə 55 təsərrüfatda 437 nəfər (260 kişi, 177 qadın) Azərbaycan türkü yaşamışdır.

1886-cı ildə kənd əhalisinin sayı 62 təsərrüfatda 606 nəfərə (345 kişi, 261 qadın) çatmışdır. Onlardan 9 nəfəri (3 kişi, 6 qadın) bəy ailəsinə mənsub olmuşlar. Əsasən əkinçilik və maldarlıqla məşğul olan kəndin 1591,58 desyatin torpaq sahəsinin 9,9 desyatinini malikanə torpaqları, 2 desyatinini bağ sahələri, 2 desyatinini meşə zolağı, 60 desyatinini suvarılan, 591,68 desyatinini suvarılmayan əkin yerləri təşkil etmişdir. Kəndin 318 iribuynuzlu, 730 xırdabuynuzlu mal-qarası olmuşdur.

Kəndin torpaqları **Süleymanbulaq** bulağının suyu ilə suvarılmışdır. Bundan əlavə, kəndin İrəvan qəzasının Dəhnə dağı yaxınlığında **Dübəkliyurd, Dərəyurd** yaylaqlarında 67 desyatin ərazidə eyniadlı yurd yerləri olmuşdur. Bu yurdlardan kənd camaatı qədimdən istifadə etmişdir.

Kəndin 468 desyatin ərazini əhatə edən **Varşağ-ağıl**, 737 desyatin ərazini əhatə edən **Arşağ-ağıl** adlı iki qışlağı da olub.

1897-ci ildə kənddə 853 nəfər, 1905-ci ildə 827 nəfər, 1914-cü ildə 840 nəfər azərbaycanlı yaşamışdır.

1918-ci ildə kənd Andranikin quldur dəstələrinin hücumuna məruz qalmış, dağıdılmış, qarət edilmiş, yandırılmış, əhalisi qəddarlıqla qətlə yetirilmiş, sağ qalanlar birtəhər qaçıb canlarını qurtarmışlar. Elə o vaxtdan da kənddə ilk ermənilər məskunlaşmağa başlamışlar.

1922-ci ildə kənd əhalisindən sağ qalan 64 nəfər azərbaycanlı geri qayıdarkən Türkiyədən gəlmə 65 nəfər erməninin artıq kənddə yerləşdirildiyini görmüşlər. Sonrakı illərdə kəndin erməniləşdirilməsi məqsədli şəkildə sürətləndirilmiş, "Ermənistan"ın dağ rayonlarından xeyli sayda erməni köçürülüb buraya gətirilmişdir. Belə ki, artıq 1931-ci ildə kəndə 222 nəfər erməni, cəmi 79 nəfər azərbaycanlı qeydə alınmışdır. Süni artım göz qabağındadır.

1937-1948-ci illərdə Qarabağlar rayonunun tərkibində mövcud olan kəndin bütün azərbaycanlı əhalisi 1949-cu ildə zorla Azərbaycana köçürülmüş, kənd tamamilə erməniləşdirilmişdir.



1968-ci il iyul ayının 3-də kəndin adı dəyişdirilərək erməni tələffüzünə uyğun olaraq **Şağap (Şahab)** qoyulmuşdur.

* * *

1919-cu il yanvar ayının əvvəllərində Andranikin "Van" və "Sasun" polklarının Vedibasarın Çanaxçıdərə bölgəsində törətdiyi vəhşiliyə, müsəlmanların kütləvi soyqırımına məruz qalan kəndlərimizdən biri də Şahablı olmuşdur. Bölgəyə daxil olan daşnaklar əvvəl müsəlman kəndlərini mühasirəyə alaraq digər kəndlərdən təcrid etmiş, sonra da sülh, əmin-amanlıq yaratmaq adı altında kənd nümayəndələri ilə danışıqlara girmiş, iclas bəhanəsi ilə onları iri damlara yığıb, od vurub yandırmışlar. Ermənilər bu soyqırımı zamanı, demək olar ki, bütün kəndlərdə eyni taktika ilə hərəkət edirdilər. Onlar adamlar yığılmış damların qapısını qəfildən bağlayır, neft töküb həmin damlara od vurur, qapı-pəncərədən bayıra qaça bilənləri güllə, nizə ilə yaralayıb, təzədən içəri atır, uşaqları tüfənglərin süngüsü ucunda qaldırıb tonqalların içinə tullayır, qoca və qadınları ot tayaları içərisində diri-diri yandırırdılar. Kəndlərin var-dövlətini, mal-heyvanını talayıb aparırdılar.

Həmin soyqırımı zamanı daşnaklar şahablılı **Aşıq Cəlili** də vəhşicəsinə qətlə yetirmişdilər. Onlar əsir götürdükləri aşığa əvvəl təklif edirlər ki, Andranikin şərəfinə bir qoşma desin. O isə, əksinə, üzünü Böyük Vediyə tərəf tutub, Abbasqulu bəyi haraya çağıran məşhur şerini söyləyir. Bundan qəzəblənən ermənilər elə oradaca aşığı yerə yıxıb, dilini dibindən qoparır, sonra da üstünə neft töküb, sazı ilə birliklə kərmə qalağı içərisində diri-diri yandırırlar.

Doğrudur, elə həmin gecə Çanaxçıdərə kəndlərində baş verən bu dəhşətli soyqırımı barədə Çimənkənddə Kərbəlayı İsmayıla, Böyük Vedidə Abbasqulu bəyə xəbər çatır və dərhal köməyə tələsən Vedibasar qüvvələri düşməni Şahablıda mühasirəyə alıb, bir qismini darmadağın edirlər, xmbabet Vahan öldürülür, digər daşnak qüvvələri başıpozuq halda Qaraxaça doğru geri çəkilirlər, lakin artıq düşmən öz işini görmüş, Şahablı kəndinin əhalisi kütləvi şəkildə qətlə yetirilmişdi. Təsadüf nəticəsində xilas olanların, əsrlikdən salınanların, hadisə zamanı

kənddən kənarda olanların, bir sözlə Şahablıdan sağ qalanların sayı isə heç yüz nəfərə də çatmırdı.

Beləliklə, 1918-ci ildə erməni qırğınından sonra kəndin azərbaycanlı əhalisindən təxminən cəmi 20 ailə sağ qalmışdısa, indi Salyan, Əli Bayramlı, Beyləqan və s. rayonlarda 100 ailəyə yaxın şahablılı yaşayır. Onların çoxu (təxminən 70 ailə) hazırda Salyan rayonunun Qaraçala kəndindədir.

Şahablının yetirmələri sırasında xalqımızı ləyaqətlə təmsil edənlərdən **Tahirov Bəhlul Müseyib oğlunun** adını çəkə bilərik. Onun oğlu **Tahirov Tahir** Moskva tibb mühitinin tanınmış uroloqlarındandır. Qızı **Tahirova Aybəniz** isə ali məktəb müəllimidir.

**Orucov Telman Teymur oğlu** isə Əli Bayramlının tanınmış ziyalılarındandır.



## ŞAMPAN (ŞƏRAB ZAVODU QƏSƏBƏSİ)

Vedibasar mahalının aran hissəsində, Ağırdağ vadisində, Kirov qəsəbəsindən 2 km şərqdə, Yeni yol qəsəbəsi yanında qəsəbə.

Qəsəbədə Azərbaycan türkləri, müsəlman kürdləri və ermənilər yaşamışlar. 1988-ci ildə kənd bütünlüklə erməniləşdirilmişdir.

Sovet hakimiyyəti illərində burada şərab zavodu tikilmiş və zavodun nəzdində tədricən yaşayış məntəqəsi yaranmışdır. Bu məntəqə isə yavaş-yavaş böyümüş, qəsəbəyə çevrilmişdir. Bu zavodda əsasən **şampan içkisi** istehsal olunduğundan zavod **Şampan zavodu,** qəsəbə isə **Şampan qəsəbəsi** adlandırılmışdır.

Qəsəbədə daha çox 1946-1947-ci illər xarici ölkələrdən köçürülüb gətirilmiş ermənilər yerləşdirilmiş, sonralar isə yaxın kəndlərdən də xeyli erməni köçüb burada məskunlaşmışdır.

Qəsəbə son illərə qədər Kirov qəsəbə sovetliyinin tərkibinə daxil idi.

Lakin belə bir faktı da xatırlatmağı vacib bilirik ki, bu qəsəbənin salındığı ərazidə qədim yaşayış məskəninin qalıqları qalmaqda idi. Bu, hansı qədim kəndin, qalanın xarabalıqları idi – bunu müəyyənləşdirmək bizim üçün çətindir. Goreşən xislətli ermənilərin isə gözləri qabağındakı bu fakta soyuq və laqeyd yanaşması təsdiq edir ki, burada türk mədəniyyətinin faktı olan qədim yaşayış məntəqələrindən biri yerləşmişdir.

1988-ci ildə kənddə yaşayan bir neçə müsəlman ailəsi də qovulmuş və kənd tamam erməniləşdirilmişdir.

## ŞƏHRİYAR

Vedibasar mahalının Millidərə bölgəsində, Gölaysor və Harunburun kəndləri yaxınlığında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Gərni nahiyəsinin **Şəhriyar kəndi** kimi qeydə alınmış və kənddə Osmanın adına olan timardan dövlətin ildə 5.000 ağça gəlir götürdüyü göstərilmişdir.

İ.Şopendə (1832) isə Şəhriyar kəndi Gərnibasar mahalının dağıdılmış kəndləri siyahısına daxil edilmişdir. Bu, kəndin 1826-1829-cu illər Rusiya-İran və Rusiya-Osmanlı müharibələri zamanı yerlə-yeksan edilməsindən irəli gəlirdi.

Kəndin adının şəxs adından və yaxud Cənubi Azərbaycandakı Şəhriyar qala adından yaranması mülahizələri mübahisəlidir. Əslində, burada söhbət Şəhriyar toponiminin Cənubi Azərbaycandakı eyniadlı qala adından yox, bu toponimlərin eyni kökdən törəməsindən gedə bilər. XIX yüzildə İrəvan quberniyası ərazisində Şəhriyar adlı 5 kəndin olması isə bu toponimin şəxs adından yaranması fikrini bütünlüklə heçə endirir. Xatırladaq ki, bu ərazidə eyniadlı toponim hələ XII yüzilə aid mənbədə müşahidə olunmuşdur.

1897-ci ildə kənddə 93 nəfər Azərbaycan türkü yaşamışdır.

1918-1920-ci illər erməni-müsəlman davası zamanı kənd yerlə-yeksan edilmişdir.

Xeyli sonralar yenidən məskunlaşan kənddə 1931-ci ildə cəmi 37 nəfər azərbaycanlı qeydə alınmışdır. 1949-cu ildə kəndin bütün əhalisi zorla Azərbaycana köçürülmüş və kənd o vaxtdan xaraba qalmışdır.



## ŞİDLİ (QARAQOYUNLU ŞİDLİ)

Vedibasar mahalının aran hissəsində, Ağrıdağ vadisində, Ağrı dağı ilə üzbəüz, Araz çayının sahilində, Vedi rayonunun mərkəzi olan Böyük Vedi qəsəbəsindən 13 km cənub-qərbdə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Vedi nahiyəsində üç Şadlı kəndi qeydə alınmışdır: **Haramlı Şətli** (illik gəliri 1.000 ağça), **Küsühlü Şətli** (illik gəliri 1.000 ağça) və **Qarança Şətli** (illik gəliri 10.000 ağça). Şübhə etmirik ki, bunlardan Qarança (yəni Qaraqoyunlu) Şətli kəndi məhz Şidli kəndidir. **Qarança Şətli (Qaraqoyunlu Şidli** və ya indiki **Şidli) kəndi** yaxınlığında yerləşən Haramlı Şətli kəndi isə sonralar Şidli kəndi ilə qaynayıb-qarışaraq tarix səhnəsindən çıxmışdır. Maraqlıdır ki, "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) hər iki kənd məhz Qaraqoyunlu kimi qeydə alınmışdır – Vedibasar mahılının Arazboyu hissəsini əhatə edən Aralıq nahiyəsinin **Yuxarı Qaraqoyunlu** və **Aşağı Qaraqoyunlu** kəndləri.



**Şidli kəndinin ümumi görünüşü**

1832-ci ildən başlayaraq bütün mənbələrdə kəndin adı **Şidli** kimi verilmiş, xalq dilində isə bu ad **Şiddi** şəklində tələffüz olunmuşdur.

Şidli kəndinin adı Xəzər türklərinin Şadlı tayfasının adından götürülmüşdür. 626-cı ilin yayında Şadın (**Şad** – xəzər türklərində IX yüzilə qədər dövlətdə hökmdardan sonra ikinci şəxsin daşıdığı titul idi, bütün silahlı qüvvələrə o, başçılıq edirdi; IX yüzildən sonra Şad titulu **Bəg (Bəy)** titulu ilə əvəzləndi) başçılığı ilə Cənubi Qafqaza hücum edən Xəzər türkləri "Albaniyanın bü-

tün vilayətlərini və Atropatenanın bir hissəsini yağmalayıb, çoxlu xristian və bütpərəstləri qılıncdan keçirir". Bu məlumatı aldığımız "Alban tarixi" əsərinin müəllifi Musa Kağankataylı sonra sözünə davam edərək yazır ki, Şad "düşərgəsini Araz çayının sahilində salaraq" İran hökmdarı Xosrov şahla danışıqlara başladı.

Şadın öz qoşunu ilə düşərgə saldığı Araz çayı sahilindəki yerə məhz Vedibasarın Şidli (Şadlı) kəndi uyğun gəlir.

Maraqlıdır ki, 951-ci ildə tarix səhnəsinə çıxan və Şəddadilər dövlətinin əsasını qoyan **Məhəmməd ibn Şəddad** da Şidli kəndindən çıxmışdır. Belə ki, Məhəmməd ibn Şəddadın "**Dvin ətrafından**" olması və yaxmlıqdakı Dvin şəhərinə hücum edib (tarixi Şidli kəndi ilə tarixi Dvin şəhəri arasındakı məsafə cəmi bir neçə kilometr olmuşdur) oranı ələ keçirərək yeni – Şəddadilər dövlətinin əsasını qoyması faktı ilə Şəddad adının mənaaçımı ("**Şəddad**" sözü ərəbcədir, **Şədd** – **Şadlı, at** isə alınma sözlərə artırılan **cəm şəkilçisidir**, başqa sözlə, **Şədd+at,** yəni **Şadlılar**; **ibn Şəddat** isə **Şadlılar oğlu** mənasında Məhəmmədin tayfa mənsubiyyətini bildirməkdədir; bu ad **Şadlı kəndinin yetirməsi** anlamında da izah oluna bilər) Məhəmmədin Şidli kəndindən və bu kənddə yaşayan Şadlılar tayfasından olması fikrini təsdiqləyən çox güclü dəlildir.

Bu, həmin tayfadır ki, XX yüzilin əvvəllərində Azərbaycan tarixinə **Abbasqulu bəy Şadlinski** kimi böyük şəxsiyyət, qəhrəman sərkərdə bəxş etmişdir.

Yeri gəlmişkən, Azərbaycan ərazisində Şadlı tayfasınm adını daşıyan bir çox toponimlər günümüzə qədər gəlib çıxmışdır. Bərdə rayonunda Şatırlı kəndi, Goranboyda Şətəl//Şatar qalasının xarabalıqları və Şadılı kəndi, Şahbuz rayonunda Şada kəndi, Dərələyəz mahalında Şadıvəng abidəsi və s. Xatırladırıq ki, XI yüzilin böyük Azərbaycan şairi Qətran Təbrizi isə Təbriz yaxınlığındakı Şadiabad kəndindən olmuşdur.

Vedibasar mahalının Şidli kəndində 1832-ci ildə 35 ailədə 263 nəfər (135 kişi, 128 qadın), 1873-cü ildə isə 106 ailədə 806 nəfər (453 kişi, 353 qadın) Azərbaycan türkü yaşamışdır.

Əhalinin sayı 1886-cı ildə 127 təsərrüfatda 823 nəfərə (460 kişi, 363 qadın), 1897-ci ildə 993 nəfərə çatmışdır. 1918-1920-ci illər erməni-müsəlman müharibəsi zamanı kənd daşnaklar tərəfindən dağıdılmış, kəndin sağ qalan əhalisi Arazın o tayına



mühacirət etmişdir.

Bölgədə Sovet hakimiyyəti qurulduqdan sonra geri qayıdan 571 nəfər kənd sakini kəndi yenidən bərpa etmiş, dinc həyata başlamışlar. 1926-cı ildə kənddə 607 nəfər, 1931-ci ildə 465 nəfər əhali qeydə alınmışdır.

Şidli kəndi Vedibasar mahalımn aran hissəsində iki kənddən biridir (digəri Almәmməd kəndidir) ki, Sovet hakimiyyətinin ilk illərində ora xiricdən gələn ermənilər köçürülməmişdilər. Daha doğrusu, ermənilər Türkiyə ilə bu sərhəd kəndlərdə məskunlaşmağa cəsarət etməmişdilər.

1930-cu illər repressiyası da Şidli kəndindən öz günahsız qurbanlarını aparmışdır. Bununla yanaşı, ölümün caynağından qurtarmağa macal tapan 20 ailəyə qədər şidlili gecə ikən Araz çayını keçib həmişəlik Türkiyəyə getmişdilər.

1948-1953-cü illər köçürülməsi zamanı Şidli kəndindən 100-ə qədər ailə Jdanov (indiki Beyləqan), Şəki və Ağdaş rayonlarına köçürülmüşlər. Stalinin ölümündən sonra onlarm təxminən 40 faizi yenidən doğma kəndlərinə qayıtmışlar.

Sovet hakimiyyəti illərində kənd inkişaf etmiş, burada orta məktəb, klub, kitabxana, məişət xidməti emalatxanası, kino qurğusu, tibb məntəqəsi fəaliyyət göstərmişdir.

Kəndin Əyricə yaylağında Şidli obası adlı yurd yeri vardı. Hər yay kənd camaatı yaylağa qalxardı.

1972-ci ilin məlumatına görə kənddə 236 təsərrüfatda 1357 nəfər azərbaycanlı yaşamışdır.

Şidli kəndi 1988-ci il hadisələrinə qədər Vedi rayonu ərazisində yeganə xalis azərbaycanlı kəndi idi.

Sürətlə inkişaf edən kənddə 1988-ci ildə əhalinin sayı artıq 400-ə yaxın təsərrüfatda 1900 nəfərə çatmışdı. Bununla yanaşı qeyd etmək lazımdır ki, 1950-1980-ci illərin "dinc" dövründə də müxtəlif təzyiq və təqiblər nəticəsində Şidlidən 100-dən çox ailə Azərbaycana köçmək məcburiyyətində qalmışdı.

Vedibasar mahalı ərazisində yeganə xalis azərbaycanlı kəndi olan Şidlinin əhalisi 1988-ci il dekabrın 3-də bütünlüklə kənddən çıxarılıb Azərbaycana qovulmuşdur. 1991-ci il aprelin 9-da isə kəndin adı dəyişdirilərək **Yexeqnavan** qoyulmuşdur.

* * *

Araz çayından cəmi 1 km-lik, Vedi çayından 500 m-lik məsafədə yerləşən Şidli kəndi tarixən öz yerini üç dəfə dəyişmişdir. İlk dəfə kənd Araz çayının lap kənarında yerləşmişdir. Qədim Şidli kəndinin xarabalıqları indi də həmin yerdə qalmaqdadır. Araz tez-tez daşdığından sonralar camaat kəndin yerini dəyişmiş, Arazdan 2 km aralıda, Qaxanov kanalının yuxarı üzündə yeni evlər tikib, buraya köçmüşlər. Bu, həmin kanal idi ki, başlanğıcını Alməmməd kəndinin yaxınlığında Araz çayından götürürdü. 1950-ci illərə qədər burada qalmaqda olan iri daş parçasının üzərindəki yazılar, at və qoç şəkilləri Şidli kəndinin 1300-1350 il əvvəlki tarixinin nişanələri idi. Lakin təəssüf ki, ermənilər tarixi abidə adı ilə həmin daşı oradan apardılar və sonralar heç harada o daşın izi-tozu belə tapılmadı.

Şidli torpaqlarının suvarılmasında **Qaxanov kanalı** ilə **Məşədi Seyfulla arxının** xüsusi rolu olmuşdur. Kanalla arxın arasında **Qoçdaşı** deyilən ərazi yerləşirdi. Bu ad oradakı iri qoç daşına görə həmin yerə verilmişdi.

Kəndin iki qəbiristanlığı vardı. Köhnə qəbiristanlıq **Sünnü qəbiristanlığı** adlanırdı. Maraqlıdır ki, kənd əhalisi bütünlüklə şiə idi. Kəndin yaşlı adamları xatırlayırlar ki, keçmişdə Arazın sağ sahilindəki kəndlərdən vəfat edənləri bəzən gətirib bu qəbiristanlıqda dəfn edərdilər. Bu fakt söyləməyə əsas verir ki, vaxtilə İran-Osmanlı müharibələri zamanı kəndin sünnü əhalisi köçüb Arazın o tayına – Osmanlı ərazisinə keçmiş, kənd şiələr tərəfindən təzədən məskunlaşmışdır. Elə ona görə də kəndin o taydakı sakinləri, görünür, bəzən öz ölülərini gətirib, dədə-baba qəbiristanlıqlarında dəfn edərmişlər.

Sünnü qəbiristanlığında çoxlu daşlar vardı. Onlardan biri **Atdaşı** adlanırdı və həqiqətən kiçik at böyüklükdə yəhərli-yüyənli daş at heykəli idi.

Araz qırağında, Məşədi Seyfulla arxının başında **Pirəl-Mürsəl ocağı** və ya **İlğınlı ocaq** deyilən ziyarətgah vardı. Orada çoxlu ilğın kolları bitirdi. Vaxtilə Usuboğlu adlı şəxsin həyətində yerləşdiyi üçün ona **Usuboğlunun ocağı** da deyirdilər. Rəvayətə görə, ağır seyid olan Usuboğlu səhər sübh namazına qalxır. Dəstəmaz almaq üçün həyətə çıxır. Su qabına yaxınlaşanda gördüyü



mənzərəyə təəccüb edir: həyətin ortasında başı kəsilmiş ceyranı və onun başı üstünə qoyulmuş gümüş saprlı iri bıçağı görür. Ceyranın qanı yerdə göllənmişdi. bir neçə vaxtdan sonra həmin qanın yerində iki ilğın bitir. Sonralar ağac böyüyüb qol-qanad atır, geniş bir ərazini tutur. Burada ağır xəstələr, övladı olmayanlar, ruhi sarsıntı keçirənlər, uşağı xəstə olanlar – hərə bir ümidlə gəlmiş, müqəddəs Allaha yalvarmış, sonralar şəfa tapmış, nəzir-niyaz, qurban kəsib paylamışlar.

Deyilənə görə, kənd yaşlıları danışırlar ki, **Kəlba Əli** adlı bir şəxs öküzü sürmək üçün həmin ocaqdan ilğın çubuğu kəsib gətirir. Onu fikrindən döndərə bilmirlər. Bir-iki çubuqdan sonra kişi tapanın altına düşür və xurd-xəşil olur. Pirəl-Mürsəl ocağı ilə bağlı belə faktlar onlarcadır.

Şidli kəndindən **Mirhəmid ağanın** qızı **Məsməbəyim Əliyeva** hazırda Naxçıvanın Babək rayonunun Çalxanqala kəndində yaşayır və Çalxanqala kəndinin və ətraf kəndlərin camaatının inam və inanc yeridir.

Kəndin aşağısında **Küllük təpələr** yerləşirdi. 4 ədəd olan bu təpələr əvvəllər Vedi çayının Araza töküldüyü yerdə idi və geniş bir sahəni əhatə edən bu təpələrdən təndir qalıqları, saxsı, kaşı qablar tapılırdı.

Kəndin Xalisa kəndi tərəfdən Vedi çayı üstündə **Daş körpü** adlanan körpü də yerləşirdi. Körpünün altından Qaxanov kanalı keçirdi. Deyilənə görə, bu körpünün ti-kintisində məşhur usta, indiki millət vəkili Şadman Hüseynin babası **Usta Hüseynalı** da iştirak etmişdi. Həmin Usta Hüseynalı ki, Şidli kənd məscidinin də tikintisi onun adı ilə bağlıdır.

Nəhayət, 1956-1958-ci illərdə kəndlərin "plandirovka"sı zamanı Şidli kəndi üçüncü dəfə yerini dyişdi və indiki yerində daha gözəl, daha abad kənd salındı. Kəndin İrəvan-Naxçıvan mərkəzi avtomobil yoluna çıxışı 5 km aralıdakı Reyhanlı kəndindən, İrəvan-Naxçıvan dəmiryol xəttinə çıxışı isə 7 km-lik məsafədəki Şirazlı dəmiryol stansiyasından idi.

Sovet hakimiyyətinə qədər kənd həm böyüklüyünə, həm də şəxsiyyətlərinə görə Arazqırağı kəndlər arasında həmişə üstün mövqeyə malik olmuşdur. Dəvəlidən Alməmmədə qədər kəndlərin qlavası adətən Şidlidən seçilərdi. Əmioğlular **Kəlba Mə-**

**həmməd** və **Məşədi Cavad** ayrı-ayrı vaxtlarda xeyli müddət həmin kəndlərin qlavası olmuşdular. Xüsusilə Məşədi Cavadın camaat arasında xüsusi hörməti olub.

**Hacı Cəlal oğlu** da qlava olmuşdu. O, çar hökumətinin İrəvandakı mühəndisi ilə əlaqə yaradıb Şidli kəndi ilə Alməmməd kəndi arasında çayın üstündən körpü saldırmışdı. Körpünün tikintisinə o vaxt üçün böyük məbləğ olan 300 min manat pul xərclənmişdi.

**Süleyman katda, Axund Cəfər, Kəlba Fətullah, Kəlba Xudaverdi, Əli katta, Kəlba Musa katta, Ələsgər Novruzov, Ələsgər Cəmil oğlu, Şeyx İsmayıl** və b. çar hökuməti dövründə kəndin sayılıb-seçilən kişilərindən olublar. Kəlba Fətullahın oğlu Kəlba Xudaverdinin çoxlu pambıq, üzüm sahələri olub. Yaşlı adamlar danışırmış ki, Şidli kənd camaatı 1919-1920-ci illər mühacirətindən xeyli vaxt sonra geri dönəndə görüblər ki, Kəlba Xudaverdinin ermənilər tərəfindən od vurulmuş pambıq anbarı hələ tüstülənir. Kəlba Xudaverdinin Şidli camaatı üçün xidmətlərindən biri o idi ki, o, Kaxanov kanalının üstündən yeni daş körpü saldırmışdı.

Kənddən **Məmmədəli Kəlba Xudaverdi oğlu Fətullayev** və **Şirzad Məşədi Cavad oğlu Əliyev** İrəvanda gimnaziya bitirmişdilər.

Sovet dövründə Şidlidə **Abuzər Novruzov, Musa Fətiyev, Səfər Novruzov, Teymur Sadıqov, Məcid Tarverdiyev, Zeynal Zeynalov, Məmməd Əziz oğlu** kənd sovetinin sədri, **Bəhram Mahmudov, Yaqub Qasımov, Əli Həsənov, Talıb Musayev, Məcid Tarverdiyev, Eldar Məmmədov, Müseyib Əliyev** kolxoz sədri işləmişlər.

Məmmədalı tayfasından **Novruzalı** mahalda tanınmış kişilərdən olub. O, at sürməkdə və at bəsləməkdə el arasında tanınmışdır. Novruzalı kişinin bəslədiyi atları Varşava atraksionlarında görənlər olub.

**Abuzər Novruzov** 20-30-cu illərdə Milli-Cığındərə nim rayonunun icraiyyə sədri olub və burada işlədiyi müddətdə "kulak" adı ilə nə tutulan, nə də sürgünə gedən olub. Buna görə də onu işdən azad edib, Vedi rayon bankına müdir təyin etmişlər.

Abuzər Novruzov 1918-20-ci illərdə ermənilərin yurdumuza basqını zamanı Kiçik Vedi, Şıxlar, Alməmməd kəndləri yaxınlığında gedən döyüşlərdə erməni gülləsindən yaralanmışdı.



Əli Tağızadə Vedibasar rayonuna katib göndərildikdən sonra çox keçmir ki, onu bankın müdiri vəzifəsindən uzaqlaşdırıb, Şıxlar kəndinə kolxoz sədri vəzifəsinə təyin edirlər. A.Novruzov 1940-ci ildə vəfat etmişdir.

1929-cu ildə kənddə yeni tipli dördsinifli məktəb açılmış, sonra o, yeddiillik, daha sonra səkkizillik məktəbə çevrilmişdir. 1935-ci ildə kənddə məktəb binası tikilənə qədər bu iş üçün Məhəmməd kişi özünün iki otağını uşaqların ixtiyarına vermişdir. İlk vaxtlar müəllimlər Böyük Vedidən gəlsələr də, az sonra kəndin ilk müəllimləri **Əli Kərimov, Hacı Sultanov** Şidli məktəbində fəaliyyətə başlayırlar. Sonralar Hacı Sultanov Böyük Vətən müharibəsinə yollanır və orada həlak olur.

Kəndin ilk ziyalılarından olan kimya elmləri namizədi **Ramazan Şükür oğlu Əliyev** də Böyük Vətən müharibəsində həlak olub.

Müharibədən sonrakı dövrdə Şidli məktəbində Şidlinin öz yetirmələri – **Əsədulla Cavadov, Məmmədbağır Mahmudov, Sərtib Heydərov, Oruc Sadıqov, Məcid Tarverdiyev, Hüseyn Məhərrəmov, Hüseyn Mustafayev** və b. müəllimlik ediblər.

1961-1962-ci illərdə kənddə yeni tipli ikimərtəbəli məktəb binası tikilib istifadəyə verilmiş, 1965-ci ildə kənd səkkizillik məktəbi orta məktəbə çevrilmişdi. Məhz bu məktəbin, orada çalışan müəllimlərin xidmətləridir ki, 1988-ci il hadisələrindən əvvəl Şidli kəndində 135 nəfərdən çox ali təhsilli mütəxəssis vardı. Bu məktəbin məzunlarından 10 nəfəri elmlər doktoru və elmlər namizədi alimlik dərəcəsi almışdı.

Şidli kənd məktəbinin qabaqcıl müəllimlərindən **Oruc Abbasovun, Əsədulla Cavadovun, Yaqub Abbasovun, Gözəl Əliyevanın, Musa Mehdiyevin, Nəcibə Vəliyevanın, Oruc Həsənovun, Musa Fərəcovun, Qurban Nağıyevin, Əli Vəliyevin** və b.-nın adlarını çəkmək olar.

1988-ci ildə Şidli kənd orta məktəbində 700 nəfərə qədər azərbaycanlı şagird təhsil alırdı.

**Məmmədbağır Mahmudov, Müseyib Əliyev, Oruc Sadıqov** müxtəlif vaxtlarda Şidli kənd məktəbinin direktoru, **Bəhram Mahmudov, Əli Həsənov, Talıb Musayev, Yaqub Qasımov, Müseyib Əliyev** Şidli kolxozunun sədri vəzifələrində işləmişlər.

**Məcid Tarverdiyev** müharibədən sonra Şıxlar kəndində məktəb direktoru, 1970-1984-cü mllərdə isə Şidli kolxozunun sədri olmuşdur.

1988-ci il hadisələri başlayanda Şidli kəndində **Müseyib Əliyev** kolxoz sədri, **Maral İsmayılova** kənd sovetinin sədri, **Oruc Sadıqov** məktəb direktoru idi.

Şidli kəndi xalis azərbaycanlı yaşayış məntəqəsi olduğundan və Türkiyə sərhədinin yanında yerləşdiyindən erməni terror dəstələri onları kənddən qovub çıxarmağa bir o qədər də cəsarət etmirdilər. Nəhayət, rayonun bütün qarışıq kəndləri azərbaycanlılardan təmizləndikdən sonra növbə Xalisa və Şidli kəndlərinə gəlib çatdı. 1988-ci il noyabrın 30-da Xalisa kəndinə edilən hücumlardan, Xalisa camaatı ermənilərə xas vəhşiliklə qarət edilib, yurdundan qovulandan sonra Şidli kəndi tamam təkləndi. Ermənilər kəndi mühasirədə saxlasalar da, ora hücum etməyə yenə də cəsarətləri çatmırdı. Dekabrın 3-də Şərur tərəfdən tanklar və BTR-lərlə gələn hərbçilər mühasirəni yararaq kəndə girib, hər 3-4 ailəni bir zirehli maşına doldurub, sərhəd zolağı ilə camaatı sağ-salamat çıxarıb Naxçıvan ərazisinə çatdırdılar. Vedi rayonunun sonuncu azərbaycanlı kəndi beləcə boşaldıldı. Adamlar quru canlarından başqa, bütün əşyalarını buraxıb çıxdılar.

Azərbaycana köçdükdən sonra Şidlinin igid oğulları burada da torpaqlarımızın azadlığı uğurunda mübarizəyə özlərinin layiqli töhfələrini vermişlər. Təkcə 1990-cı ilin 20 Yanvar hadisələrində Şidlidən iki gənc – **Zahid Bayram oğlu Əliyev** və **Əyyub Mahmud oğlu Abdullayev** müstəqilliyimiz uğrunda mübarizədə həyatlarını qurban vermişdir. Qarabağ müharibəsində isə Şidli kəndindən onlarla oğlan və qız erməni işğalçılarına qarşı qəhrəmanlıqla döyüşmüş, onlardan 10 nəfər şəhid olmuşdur.

**Eylas Hümbət oğlu Mirzəyev** 1992-ci ildən etibarən baş leytenant rütbəsi ilə Ağdam cəbhəsində dəfələrlə qanlı döyüşlərin iştirakçısı olmuş, yaralanmışdır. Hazırda polis mayorudur.

**Akif Həsən oğlu Məmmədov** Daşaltı əməliyyatında ağır yaralanmış, sonra sağalaraq Ağdərə, Ağdam, Laçın, Kəlbəcər döyüşlərində qəhrəmanlıqla vuruşmuş, Zəngilan, Qubadlı, Füzuli, Horadiz uğrunda döyüşlərin fəal iştirakçısı olmuşdur. Hazırda Prezidentin Təhlükəsizliyi Xidmətində çalışır, mayordur.



Hazırda şidlilər Azərbaycanın Bakı, Sumqayıt, Gəncə şəhərlərində, Beyləqan, Şəki, İsmayıllı, Tərtər, Şərur, Abşeron və s. rayonlarında daha sıx halda yaşayırlar. Türkiyənin İqdır mahalında da xeyli sayda şidlili yaşamaqdadır.



Şidli kəndinin şair oğullarından **Əhməd Vedilinin, Bilman Qüdrətin, Kamil Novruzun, İsmayıl Hüseynoğlunun, Musa Mehdiyevin** və **Qurban Hüseynlinin** adlarını xüsusilə çəkmək olar.

**Kamil Novruz "Həsrət"** və **"Xan Araz"** adlı iki şerlər və poemalar kitabının müəllifidir.

**BİLMAN QÜDRƏT** "Ağrıdağ ağrısı", "Sinəmin çarpaz dağı" şer və poema kitablarını, **İsmayıl Hüseynoğlu "Bir kəndin şəhidləri"** publisistik kitabını nəşr etdirmişlər.

**Qurban Hüseynlinin "Vətənimdir Vedibasar", "Bir Qurban Hüseynli varlı Vedidə"** adlı şer kitablarında isə müəllifin Vedibasar yanğılı şerləri toplanmışdır.

### Şidli azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı

| | |
|---|---|
| Mal-qara üçün bina – | 4 əd. |
| İribuynuzlu mal-qara – | 600 baş. |
| Xırdabuynuzlu mal-qara – | 2500 baş. |
| Toyuq – | 6000 baş. |
| Üzüm bağı– | 120 ha. |
| Meyvə bağı – | 50 ha. |
| K/t maşınları – | 20 əd. |
| Avtomaşınlar – | 18 əd. |
| Qaraj – | 1 əd. |
| Taxıl ambarı – | 2 əd. |
| Yanacaq ambarı – | 1 əd. |

| | |
|---|---|
| Dəmirçi sexi – | 1 əd. |
| Dülgərxana – | 1 əd. |
| Artezian quyusu – | 4 əd. |
| Su nasos stansiyası – | 3 əd. |
| Enerji şəbəkəsi – | 4 əd. |
| İdarə binası – | 1 əd. |
| Məktəb – | 1 əd. |
| Klub – | 1 əd. |
| Poçt – | 1 əd. |
| Pavilyon – | 1 əd. |
| Xəstəxana – | 1 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| Mağaza – | 1 əd. |
| Yeməkxana – | 1 əd. |
| Hamam – | 1 əd. |

## KƏNDİN TAYFA VƏ NƏSİL ADLARI

Şəildilər, Yağbalılar, Məmmədalılar, Xəbərlilər, Zamanlılar, Kosacalar, İmamvaylar, Sadıx uşağı (Sərdarabadın Canfida kəndindən gəlmə), Məmililər, Gəncəli uşağı, Məmməd uşağı (Türkiyənin Arazqırağı İydəli kəndindən gəlmə), Kotuzlular, Əli uşağı (Sonanın uşağı), Məsimli uşağı (Qəmərlinin Məsimli kəndindən gələnlər), Həsən Zeynalabdin uşağı, Əlibəy uşağı, Kəlba Nəcəf uşağı, Nəsrulla uşağı, Bayram uşağı (bəzən Tat uşağı da deyirdilər), Səfərov Məhərrəm uşağı (Kiçik Vedidən gəlmə), Mühacir Əli uşağı (Türkiyədən gəlmə), Novruzalı uşağı, Səfəralı uşağı, Şıxlar uşağı (Tarverdiyevlər), Süleyman uşağı, Hüseynli (Hüsənli) uşağı, Əlvəllər, Süsənnilər.

## KƏNDİN TOPONİMLƏRİ

Pirəlmürsəl ocağı və ya İlğınlı ocaq, Məşədi Feyzulla kanalı, Kaxanov kanalı, Qoçdaşı, Sünnü qəbiristanlığı, Məşədi Seyfullanın arxı, Daş körpü, Küllük təpələr, Kəlba Fətullahın yeri, Kəlba Məhəmmədin yeri, Kəlba Musanın yeri, Həsən körpüsü, Kəlba Xudaverdinin yoncalığı, Atıcı Əhmədin üzüm bağı, Kəlba Əlinin üzüm bağı və s.



## 1930-CU İLLƏRİN REPRESSİYA QURBANLARI

1. Muxtar Məhərrəm oğlu
2. Həsən Səməd oğlu
3. Həsən Hüseyn oğlu
4. Həsən Nurulla oğlu
5. Bağır Zamanov
6. Muxtar Zamanov
7. Hüseyn Oruc oğlu
8. Əli Həsən oğlu
9. Kəlba Xudaverdi Hacı oğlu
10. Əmir Allahverdiyev
11. Əsəd Nəcəf oğlu
12. Əziz Rüstəm oğlu
13. Cəlal Abbasqulu oğlu
14. Rəfi Rəfiyev
15. Həmid Əliyev (Başkəndli)

## 1941-1945-Cİ İLLƏR MÜHARİBƏSİNDƏ HƏLAK OLANLAR

1. Ələsgər Mehdiyev
2. İsa Mehdiyev
3. Qurban Nəsrullayev
4. Abdulla Həsənov
5. Əbdüləli Yolçuyev
6. Vəli Usub oğlu
7. Qiyas Əliyev
8. Abbas Əsgər oğlu (Əskonun oğlu)
9. İsmayıl Məşədi Məmmədcəfər oğlu
10. Almədəd Rəfiyev
11. Allahverdi Alı oğlu
12. Əbdüləli Əliyev
13. Qurban Abbas oğlu Kazımov
14. Əziz Abdulla oğlu
15. Hacı Məmmədbağırov
16. Oruc Kəlba Əli oğlu Əliyev
17. Əsəd Əliyev
18. Seyfulla Əliyev
19. İsmayıl Qərib oğlu
20. Məhəmməd Əhmədov

21. Hüseyn Cəlilov
22. Bayram Zeynalabdin oğlu Bayramov
23. Xanlar Cəlilov
24. Ələsgər Dibirov
25. Bayram Nəcəfov
26. Məmmədhüseyn Cavadov
27. Ramazan Əliyev
28. Qulu
29. Vəli Əhməd oğlu
30. Rza müəllim

## QARABAĞ MÜHARİBƏSİ İŞTİRAKÇILARI

Şidlilər öz doğma kəndlərinin müdafiəsi zamanı arxasız, köməksiz qalıb, dədə-baba yurdlarını gözüyaşlı tərk etməyə məcbur olsalar da, Azərbaycana pənah gətirəndən sonra buranın ağrı-acılarına laqeyd qala bilmədilər. Öz dərd-sərlərini bir qırağa qoyub, onlarla şidlili silaha sarıldı, Azərbaycanın ərazi bütövlüyü uğrunda erməni terrorçularına qarşı mübarizəyə qoşuldular. **Eylas Mirzəyev, Akif Məmmədov, Əbdül Xəbərov, Oruc Bayramov, Xanımzər Həsənova, Nizami Nəcəfov, Rəcəb və Əbülfəz Əsədov** qardaşları, **İsmayıl Məmmədov, Fikrət Cəfərov, Bədrəddin Səməndov, Səkinə Əliyeva, Rafiq Abdullayev, Əlyar Məmmədov, Fazil Əliyev, Vidadi Məmmədov, Qurban Abbasov, Arzuman Abbasov, İsmayıl Alməmmədov, Siyafər Cavadov, Rasim Abdullayev, Hümbət Əliyev, Hüseyn Hüseynov, Vaqif Baxşəliyev, Məhərrəm Əliyev, Hicran Əliyev, Roman Əliyev, Elçin Nəcəfov, Vasif Əhmədov, Rafiq Əliyev, Hüseyn Paşayev, Qurban Həsənov, Oruc Bayramov, Mustafa Nəcəfov, Səbülfət Cavadov, Ceyhun Novruzov, Asif Əliyev, İsməddin Cavadov, Həbib Məmmədov, Bəxtiyar Cəfərov, Zeynalabdin Paşayev, Sabit Cəfərov, Əli Həsənov, Rəhman Hüseynalıyev, Vəli Cavadov, Xaqani Fətullayev, Əsədulla Abbasov, Abdulla Nəcəfov, Hüseynalı Səməndov, Fərzəndə Məmmədov, Habil Orucov, Polad Mirzəyev, Məhəmməd Əhmədov, Tahir Sadiqov, Mahmud İsmayılov, Mehdi Əhmədov, Abdulla Nəcəfov, Məhəmməd Əhmədov, Həbib Əhmədov, Seymur Əliyev, Qadir Novruzov, Şamil Zeynalabdinov, Ayaz Əliyev, Şəmsi Hüseynov, Xeyrulla Bayramov, Ələsgər və İsa Mehdiyev qardaşları** və b. Qarabağ müharibəsinin odu-alovu içindən şücaətlə keçmişlər.

Bundan əlavə, Şidli oğullarından 10 nəfər bu müharibədə qəhrəmanlıqla şəhid olmuşlar.



## 20 YANVAR VƏ QARABAĞ MÜHARİBƏSİ ŞƏHİDLƏRİ

1. Zahid Bayram oğlu Əliyev (1963, Şidli - 1990, Bakı).
2. Əyyub Mahmud oğlu Abdullayev (1967, Şidli - 1990, Bakı).
3. Zöhrab Mirzə oğlu Mirzəyev (1974, Şidli - 1992, Ağdam).
4. Elmar Məhərrəm oğlu Səfərov (1962, Şidli - 1992, Ağdərə).
5. Yusif Ələşrəf oğlu Əliyev (1975, Şidli - 1994, Ağdərə).
6. Nəriman Məhərrəm oğlu Allahverdiyev (1967, Şidli - 1994, Füzuli).
7. Etibar Bilal oğlu Fərəcov (1969, Şidli - 1992, Laçın).
8. Əjdər Hüseyn oğlu Hüseynov (1966, Şidli - 1994, Ağdam).
9. Hasil Sultanəli oğlu Bayramov (1975, Şidli - 1994, Zəngilan).
10. Əbülfət Hüseyn oğlu Məmmədov (1970, Şidli - 1993, Ağdam)
11. Hidayət Əziz oğlu Mirzəyev (1943, Şidli - 1993, Ağdərə).
12. Muxtar Knyaz oğlu Şahgəldiyev (1972, Şidli - 1994, Murovdağ)

---

## MUXTAR İSMAYIL OĞLU VƏLİYEV



1926-cı ildə Şidli kəndində anadan olmuşdur.

1950-ci ildə rayonun Avşar kənd orta məktəbini, 1952-ci ildə Naxçıvan şəhərində ikiillik müəllimlər institutunu bitirmişdir.

1952-1954-cü illərdə Şərur rayonunda Yengicə kənd orta məktəbində müəllim, Çərçiboğan kənd səkkizillik məktəbində dərs hissə müdiri işləmişdir.

1954-1959-cu illərdə Azərbaycan Dövlət Universitetinin fizika fakültəsində təhsil almış, təyinatla Azərbaycan EA Fizika İnstitutunda elmi işə göndərilmişdir.

1968-ci ildə "Selenin istilik və elektrik xassələrinə natrium aşqarlarının və termik işlənmənin təsirinin tədqiqi" mövzusunda dissertasiya müdafiə edərək fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsi almışdır.

Fizikanın müxtəlif sahələrinə həsr olunmuş bir neçə kitabın və 100-ə qədər elmi, elmi-kütləvi məqalənin müəllifidir.

Qızı **Zeynəb Vəliyeva** 1976-cı ildən Azərbaycan EA Torpaqşünaslıq İnstitutunda çalışır. 1993-cü ildən həmin institutun böyük elmi işçisi, 1991-ci ildən kənd təsərrüfatı elmləri namizədidir.

## MÜSEYİB MUXTAR OĞLU ƏLİYEV



1940-cı ildə Şidli kəndində anadan olmuşdur.

1958-ci ildə Şidli kənd orta məktəbini, 1964-cü ildə Gəncə Pedaqoji İnstitutunun kimya-biologiya fakültəsini bitirmişdir. Ali təhsilini başa vurub, doğma kəndlərinə dönən M.Əliyev 1967-ci ilə qədər məktəbdə kimya-biologiya müəllimi işləmiş, 1967-1976-cı illərdə Şidli kənd orta məktəbinin direktoru vəzifəsində çalışmışdır.

1976-ci ildə Şidli kolxozuna azad partiya təşkilatı katibi, sonra kolxoz idarə heyətinin sədri vəzifələrinə irəli çəkilir. 1988-ci ilə qədər sədr vəzifəsində çalışır.

Eyni zamanda istehsalatdan ayrılmadan Bakıda Torpaqşünaslıq və Aqrokimya İnstitutunun aspiranturasına daxil olan Müseyib müəllim 1984-cü ildə dissertasiya müdafiə edərək kənd təsərrüfatı elmləri namizədi alimlik dərəcəsi almışdır.

Lakin 1988-ci il hadisələri Müseyib müəllimgili də el-obasından didərgin saldı. Həmin il Bakıya gələn M.Əliyev Dövlət Aqrar-Sənaye Komitəsinin 2 saylı tədris kurs kombinatına direkor müavini vəzifəsinə təyin olunur. Sonra Suraxanı rayonundakı 104 saylı orta məktəbə direktor göndərilir və 6 il bu vəzifədə çalışır.



## ƏHMƏD PAŞA OĞLU MƏMMƏDOV



1940-cı il fevralın 12-də Şidli kəndində anadan olmuş, İbtidai təhsilini Şidli kənd orta məktəbində, orta təhsilini Ağdaş rayon Qolqatı kənd orta məktəbində almışdır.

1962-ci ildə Azərbaycan Dövlət Universitetinin mexaniki-riyaziyyat fakültəsini fərqlənmə diplomu ilə bitirmiş, 1962-1965-ci illərdə aspiranturada oxumuş, 1966-ci ildə namizədlik dissertasiyası müdafiə edərək fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsi almış, 1970-ci ildə isə dosent elmi adına layiq görülmüşdür.

34 elmi məqalənin və 7 elmi-metodiki kitabçanın müəllifidir. 1965-1974-cü illərdə Azərbaycan Dövlət Universitetində müxtəlif vəzifələrdə: asisstent, baş müəllim, dosent, mexanika-riyaziyyat fakültəsinin dekan müavini, fakültənin həmkarlar təşkilatının sədri vəzifələrində çalışmışdır.

1974-cü ildən Naxçıvan Dövlət Universitetində kafedra müdiri, dekan müavini və dekan vəzifələrində işləmişdir. 1993-cü ildən Bakı şəhər "Xəzər" özəl universitetində dosent vəzifəsində çalışır.

## ƏLİ MUSA OĞLU MƏHƏRRƏMOV



1945-ci ildə Şidli kəndində anadan olmuşdu.

1959-cu ildə Şidli kənd yeddiillik məktəbini bitirib, qonşu Şirazlı kəndində səkkizinci sinfi, Şərur rayonunun Siyaqut kəndində orta məktəbi əla qiymətlə başa vurmuşdu. Riyaziyyata böyük marağı 1962-ci ildə onu Azərbaycan Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsinə gətirib çıxarmışdı.

1967-ci ildə universiteti fərqlənmə diplomu ilə bitirən Əli Məhərrəmov elə həmin il Azərbaycan EA Mexanika-Riyaziyyat İnstitutunun aspiranturasına dixil olur.

1972-ci ildə dissertasiya müdafiə edərək fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsi alır.

1972-1980–ci illərdə Naxçıvan Pedaqoji İnstitutunda dosent, kafedra müdiri, fizika-riyaziyyat fakültəsinin dekanı vəzifələrində çalışır.

1984-cü ildə Moskva Dövlət Universitetində "Funksional analiz və onun differensial tənliklər nəzəriyyəsinə tətbiqi" mövzusunda dissertasiya müdafiə edərək fizika-riyaziyyat elmləri doktoru alimlik dərəcəsinə layiq görülür.

1988-ci ildə Azərbaycan Politexnik İnstitutuna dəvət olunub, burada riyaziyyat kafedrasının dosenti, tətbiqi riyaziyyat kafedrasının müdiri vəzifələrində işləyir, institutun həmkarlar təşkilatına rəhbərlik edir.

Professor Əli Məhərrəmov riyaziyyat elminə gətirdiyi yenilikləri ilə keçmiş İttifaq və dünya miqyasında xeyli tanınmış, dəfələrlə Ümumittifaq və Beynəlxalq elmi konfranslarında məruzələrlə çıxış etmişdi.

Təəssüf ki, yaradıcılığının ən məhsuldar dövründə avtomobil qəzasında həlak oldu. Xatirəsi həmkarlarının, tələbələrinin və eloğlularının qəlbində bu gün də ehtiramla yad edilməkdədir.

## ƏHMƏD VEDİLİ



Əhməd İsmayıl oğlu Əhmədov 1946-cı ildə Şidli kəndində anadan olmiuşdur.

Ali təhsillini Bakıda Xalq Təsərrüfatı İnstitutunda almışdır. 1963-cü ildən etibarən mətbuatda satirik şerləri, publisist yazıları ilə müntəzəm çıxış edir.

1988-ci il hadisələri zamanı Qərbi Azərbaycandakı digər soydaşlarımız kimi o da doğma yurdu tərk etmək məcburiyyətində qalmış və Bakı şəhərində məskunlaşmışdır. Burada xalq hərəkatının fəal üzvlərindən biri olmuş, "Vətən səsi" qəzetinin xüsusi müxbiri kimi, daim qaçqınların problemləri ilə məşğul olmuş, mətbuatda kəskin yazıları ilə çıxış etmişdir.

Əhməd Vedilinin vətənpərvərliyi, sözü üzə şax deməyi onu tanıyanlara yaxşı məlumdur.

Hazırda o, "Vətən səsi" qəzetinin xüsusi müxbiri olmaqla yanaşı, həm də "Qorqud" nəşriyyatının baş redaktoru, İnsan Hüquqlarını Müdafiə Komitəsinin informasiya və mətbuat şöbəsinin müdiri, Azərbaycan KİVİHİ-nin "Araz" Ali Ədəbi və "Vətən" Media mükafatları laureatı, Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür.



"Xalqın oğlu - xalqın atası" şerlər kitabı 2002-ci ildə "Qorqud" nəşriyyatında çap olunmuşdur.

## SEYFULLA İMAMƏLİ OĞLU HÜSEYNOV



1955-ci il may ayının 20-də Şidli kəndində anadan olmuşdur.

1971-ci ildə Şidli kənd orta məktəbini qurtarmış və həmin il rayonun Yengicə kənd səkkizillik məktəbində kimya-biologiya müəllimi işləmişdir.

1972-ci ildə Azərbaycan Dövlət Universitetinin kimya fakültəsinə daxil olmuş və 1977-ci ildə oranı bitirmiş, akademik Cəlal Əliyevin təkidi ilə təyinatını Kənd Təsərrüfatı Nazirliyinin Elmi-Tədqiqat Əkinçilik İnstitutuna almışdır. Bir neçə il akademik Cəlal Əliyevin rəhbərlik etdiyi bitki fiziologiyası laboratoriyasında çalışdıqdan sonra biologiya ixtisası üzrə aspiranturanın əyani şöbəsinə daxil olmuşdur.

"Soya bitkisinin müxtəlif sortlardan və əkilmə şəraitindən asılı olaraq biokimyəvi xarakteristikası" mövzusu üzrə akademik Cəlal Əliyevin rəhbərliyi ilə elmi–tədqiqat işi aparmış və 1989-cu ilin aprel ayında Gürcüstanın Biokimya İnstitutunda dissertasiya müdafiə edərək elmlər namizədi alimlik dərəcəsi almışdır.

Hazırda Əkinçilik İnstitutunda aparıcı elmi işçi vəzifəsində çalışır. İKARDO təşkilatından gətirilmiş çoxlu müxtəlif yumşaq və bərk buğda növlərinin respublikamızın müxtəlif zonalarında elmi sınağı ilə məşğuldur.

40-dan çox elmi əsərin müəllifidir. Keçmiş SSRİ-nin bir sıra şəhərlərində dəfələrlə elmi konfranslarda çıxış etmiş, Ümumittifaq jurnallarında və Türkiyədə çoxlu məqalələri nəşr olunmuşdur.

İlk dəfə olaraq Azərbaycanda soyadan yağ, kofe və kakao alınması texnologiyasını hazırlamışdır.

## MƏNSİM ZEYNALABDİN OĞLU MƏMMƏDOV



1956-cı ildə Şidli kəndində anadan olmuşdur.

1973-cü ildə Şidli kənd orta məktəbini, 1977-ci ildə fərqlənmə diplomu ilə Y.Məmmədəliyev adına Naxçıvan Dövlət Pedaqoji İnstitutunun fiziki-riyaziyyat fakültəsini bitirmişdir.

Bir neçə il Vedi rayonunun müxtəlif kənd məktəblərində müəllim işləmiş, 1982-ci ildə Bakı şəhərinə köçərək Azərbaycan EA Riyaziyyat və Mexanika İnstitutunun Xüsusi Konstruktor Bürosunda işə qəbul olunmuşdur. Hazırda həmin institutda şöbə müdiri vəzifəsində çalışır.

1988-ci ildə dissertasiya müdafiə edib, fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsi almışdır. 10-a qədər elmi məqalənin müəllifidir. Bir çox səmərəli elmi-texniki təklifləri respublikanın müxtəlif istehsalat müəssisələrində tətbiq edilmişdir ki, bu da istehlak məhsullarının keyfiyyətcə daha da yaxşılaşdırılmasına köməklik göstərmişdir.

Evlidir, üç oğlu var. Böyük oğlu **Rasim** Azərbaycan Kooperasiya İnstitutunun iqtisadiyyat fakültəsinin, ortancıl oğlu **Vəli** "Odlar Yurdu" Universitetinin hüquq fakültəsinin tələbəsidirlər. Kiçik oğlu **Ələkbər** orta məktəb şagirdidir.



## ŞİRAZLI

Vedibasar mahalının aran hissəsində, Ağrıdağ vadisində, Vedi rayonunun mərkəzi olan Böyük Vedi qəsəbəsindən 9 km cənub-qərbdə, Vedi çayından ayrılan su arxının, İrəvan-Naxçıvan avtomobil yolunun və İrəvan-Naxçıvan-Bakı dəmiryol xəttinin (Aygevan stansiyası) üstündə kənd.

1920-ci ilədək kənddə ancaq Azərbaycan türkləri yaşamışlar. 1922-1988-ci illərdə kənd azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuşdur. 1988-ci ildə kəndin bütün azərbaycanlı əhalisi qovularaq kənd tamamilə erməniləşdirilmişdir.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) kənd Aralıq nahiyəsinin (Vedibasar mahalının Arazboyu hissəsi) **Şirazlı kəndi**, "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə Vedi nahiyəsinin **Şirazlı kəndi** kimi qeydə alınmışdır. İkinci mənbədə dövlətin müxtəlif vergilər şəklində kənddən ildə 8.000 ağça gəlir götürdüyü göstərilmişdir.

İ.Şopendə (1832) **Şirazlı** Vedibasar mahalının xaraba kəndləri siyahısında verilmişdir. Bu, kəndin 1826-1829-cu illər Rusiya-İran və Rusiya-Osmanlı müharibələri zamanı böyük dağıntılara məruz qaldığını sübut edir.

Kəndin adının türk tayfalarının Cənubdan Şimala hərəkəti zamanı İrandan gətirildiyi, Şiraz şəhərindən gələnlər mənasını bildirdiyi şübhəsizdir. M.Vəlili bu prosesi Səfəvilər zamanından başlayır və Vedibasarın Şirazlı kəndinin də öz adını o vaxtkı köçürülmədən aldığını yazır.

1832-ci ildən sonra yenidən məskunlaşan kənddə 1873-cü ildə 19 təsərrüfatda 150 nəfər (100 kişi, 50 qadın) Azərbaycan türkü qeydə alınmışdır. Kənd mülkədar kəndi olmuşdur.

1886-cı ildə kənddə 35 təsərrüfatda 234 nəfər (158 kişi, 76 qadın), 1905-ci ildə 229 nəfər, 1914-cü ildə 237 nəfər azərbaycanlı yaşamışdır.

1918-1920-ci illər erməni-müsəlman davası zamanı kənd erməni daşnaklarının vəhşi hücumlarına nə qədər mətanətlə sinə gərsə də, axırda dağıdılmış, əhalisi ev-eşiyindən didərgin salınmış, bütün Vedibasar camaatı kimi, müvəqqəti olaraq Cənubi Azərbaycana mühacirət etmişdir.

1922-ci ildə kənd camaatı (216 nəfər) geriyə dönmüş, kəndi yenidən bərpa etmişlər. Bu vaxt kəndə 114 nəfər Türkiyədən gəlmə erməni də yerləşdirilmişdi.

1926-cı ildə kənddə yaşayan əhalinin nisbəti 243 nəfər azərbaycanlı, 130 nəfər erməni, 1931-ci ildə 250 nəfər azərbaycanlı, 182 nəfər erməni şəklində olmuşdur.

1935-ci ildə qonşu Cadqıran kəndi ləğv edilərək Şirazlı kəndinin tərkibinə qatılmış, az vaxtda kənd sürətlə böyümüşdür.

1946-1947-ci illərdə xaricdən gətirilən bir çox erməni ailələrinin Şirazlı kəndində də məskunlaşdırılması kənddə əhalinin nisbətinin ermənilərin xeyrinə sürətlə artmasına səbəb olmuşdur. Bununla belə, 1972-ci ildə kənddə 583 təsərrüfatda 3489 nəfər əhali yaşamışdır ki, bunlardan 300 təsərrüfatdan çoxu azərbaycanlılar idi. Lakin 1988-ci il hadisələri Şirazlı camaatının da ev-eşiyindən qovulması ilə nəticələndi. Kənd tamamilə erməniləşdirildi.

1991-ci il aprelin 9-da kəndin adı dəyişdirilərək **Vosgetap** qoyulmuşdur.

* * *



Vedibasar mahalının ən məşhur ocaqlarından olan Ağbal ağa ocağı Şirazlı kəndində yerləşirdi. Əvvəllər **Miryaqub ağa** və **Mirhüseyn ağa** qardaşlarının oturduğu bu ocaqda sonralar onların varisi **İQBAL AĞA** (camaat **AĞBAL AĞA** kimi tələffüz edirdi) otururdu. Bütün bölgədə məşhur olan bu ocağa yaxın-uzaq rayonlardan təkcə müsəlmanlar yox, həm də ermənilər pənah gətirirdilər.

1988-ci ilin 11 mayında Şirazlı kəndi erməni-daşnak terrorçularının vəhşi hücumuna məruz qalanda 80 yaşlı **Ağbal ağa (İqbal Miryaqub oğlu)** sinəsindən vurulmuş daş parçası ilə ağır yaralanmış və kənd camaatının gecə ikən kənddən çıxıb sığındığı Türkiyə sərhədində – Araz qırağında şəhid olmuş, orada da dəfn edilmişdi. Ağbal ağanın bu faciəsi Vedibasarın bütün



müsəlman əhalisini həyəcana gətirmişdi.

Şirazlı kəndində keçmişdə **İqbal ağa** və **Bilal ağa** qardaşları, **Məşədi Xamo, Məşədi Məhərrəm, Kərbəlayı Fərəc, Paşa Məmmədov** kimi varlı, nüfuzlu şəxsiyyətlər olmuşdur.

1918-1921-ci illərdə bütün vedibasarlılar kimi, Şirazlının da mərd, igid oğulları silaha sarılıb, erməni daşnaklarına qarşı mübarizə aparmışlar. Onların arasında misilsiz şücaətləri ilə fərqlənən **Paşa Məmmədovun, Abdulla Əliyevin** və b. adları bu gün də ehtiramla yad edilir. Xüsusilə Paşa Məmmədovun igidliyi, mərdliyi və dönməzliyi barədə çoxlu söhbətlər günümüzə qədər gəlib çıxmışdır.

20-ci illərin əvvəllərində, Sovet hakimiyyətinin ilk illərində Vedibasar mahalının İrəvan xanlığı ərazisində yaradılmış qondarma erməni hökumətinin (Ermənistan SSR) tərkibində qalması, respublikanın yeni erməni rəhbərliyinin rayonun kəndlərində xaricdən gələn erməniləri yerləşdirmək siyasəti yeritməsi yerlərdə çoxlarının narazılığına səbəb olurdu. Çox adam baş götürüb Arazın o tayına, Türkiyəyə gedirdi. Şirazlıdan **Xamo oğlu İsrafil ağa** isə yazda mal-qarasını götürüb yaylağa qalxdı, payızda isə kəndə dönməyib Əzizkənddə dayandı. "Burada qulağım daha dinc olar", – deyib aşağı düşmədi.

İsrafil ağa **Əli katdanın** oğlu idi. Xamo oğlu onun ləqəbiydi. Erməni daşnaklarına qarşı illərlə qəhrəmanlıqla vuruşmuşdu.

Kolxozlaşma zamanı onu dilə tutub, Şirazlıya enməyə razı salmış, 15 illik ayrılıqdan sonra kəndə qayıdan İsrafil ağanın bütün var-dövlətini, naxır və sürülərini dərhal əlindən alıb, özünü də həbs etmişdilər. Sonra Şirazlıdan həbs olunmuş daha 15 nəfər "xalq düşməni" ilə birlikdə aparılıb Qəmərlidə ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirilmişdi.

Sovet hakimiyyəti illərində kənd xeyli inkişaf etmiş, uzun müddət kənd rəhbərliyində azərbaycanlı kadrlar çalışmışlar. Onlardan **Həsən Məmmədov, İmran Bayramov, Bəylər Haqverdiyev, Əlibala Əhmədov, Teymur Haqverdiyev, Talıb Musayev, Hüseyn Hüseynov, Mahmud Yusifov** və b. ayrı-ayrı illərdə Şirazlı kolxozuna sədrlik etmişlər. **Həsən Məmmədov, Əbdül İbrahimov, Məhərrəm Məmmədov, Sura Ramazanova, Ağamir Əsədov, Bəhman Səfərov, Qurban Sultanov** və

b. isə Şirazlı kəndində sovet sədri vəzifəsində işləmişlər. **Həsən Məmmədov** həmçinin azərbaycanlıların nümayəndəsi kimi, Ali Sovetinin deputatı olmuşdur. Şirazlının Molla Abbaslılar tayfasının tanınmış nümayəndələrindən olan **Əbdül İbrahimov** isə Almәmməd kəndində kolxoz sədri də işləmişdir.

**İmran Musa oğlu Bayramov** Şirazlı kəndinin ağır günlərində – Böyük Vətən müharibəsi ərəfəsində kənd kolxozuna sədrlik etmişdir. Müharibənin ilk illərində cəbhəyə getmiş, 1943-cü ildə yaralanaraq geri qayıtmış, sonra uzun illər kənddə müxtəlif vəzifələrdə çalışmışdır. El-oba içində hörmət və nüfuzu ilə seçilən İmran Bayramov 1982-ci ildə dünyasını dəyişmiş, Vətənə səkkiz övlad (oğlanları – **Mübariz, İdris, Ədalət,** qızları - **Zivər, Rayə, Səmayə, Nərminə** və **Azadə)** qoyub getmişdir. Ailənin üçüncü oğlu **Ədalət Bayramov** hazırda Binəqədi qəsəbə sovetinin sədridir.

**Hüseyn Hüseynov** sonralar Bakı şəhərinə köçüb gəlmiş, burada Bakı şəhər Baş Yaşıllaşdırma İdarəsində işləmişdir. Övladlarından **Zeyqəm Hüseynov** uzun illərdir məhkəmə orqanlarında çalışır, Zəngilan, Füzuli rayonlarında xalq hakimi, Xaçmaz rayonunda məhkəmə sədri işləmişdir. **Arif müəllim** və **Şükufə xanım** pedaqoji fəaliyyətlə məşğuldurlar. **Ramiz Hüseynov** isə atasının yolunu davam etdirərək Bakı şəhər Baş Yaşıllaşdırma İdarəsində müxtəlif vəzifələrdə işləmişdir.

1956-cı ilin sonlarında Şirazlı kənd kolxozuna təcrübəli təsərrüfatçı **Talıb Musayevin** sədr təyin edilməsi ilə kəndin iqtisadi vəziyyəti xeyli güclənmişdi. Belə ki, 1956-cı ildə pambıq sahələrinin hər hektarından 12 sentner, üzüm bağlarının hər hektarından 45 sentner məhsul götürüldüyü halda, bir il sonra bu rəqəmlər hər hektardan 22,5 sentner pambıq, 83 sentner üzüm şəklində dəyişdi. Kolxozun üzüm bağlarının sahəsi 60 hektardan 125 hektara çatdırıldı. Kolxozun illik pul gəliri 1956-cı ildə 1,6 milyon manatdan 1957-ci ildə 3,6 milyon manata yüksəldi.

1958-ci ildə Şirazlı kolxozu 233 ha sahədə pambıq əkmişdi. **Cahan Haqverdiyeva, Sura Ramazanova** kimi pambıqçılar hər hektardan 35 sentner pambıq yığırdılar.

Təkcə 1958-ci ildə kolxoz 480 ton süd istehsal etmişdi. Həmin il kolxozda 200 baş iribuynuzlu, 3.300 baş xırdabuynuzlu mal-qara, 200 baş donuz, 4 min ədəd toyuq saxlanırdı. Kolxozun



10 avtomaşını, 5 kombaynı, 14 traktoru və s. kənd təsərrüfatı maşınları vardı. Xatırladırıq ki, bu, hələ 1958-ci ildə idi. Sonralar bu rəqəmlər dəfələrlə artmışdı.

Vedibasar mahalının bütün müsəlman əhalisi kimi, Şirazlı camaatı da həmişə din-iman sahibi olmuş, din xadimlərinə, dini ocaqlara ehtiramla yanaşmışdılar. Şirazlı kəndində Ağbal ağa ocağından başqa, böyük məscid də fəaliyyət göstərirdi. Möhrə palçıqdan tikilmiş bu qədim məscidə kəndin ağsaqqalları yığışar, ibadət edərdilər.

Şirazlı kəndinin iki müsəlman qəbiristanlığı vardı. Qədim qəbiristanlığın yerində sonralar kolxoz üçün bir sıra tikililər salınmış, qəbiristanlıq ləğv edilmişdi. Lakin burada məşhur seyid Miryaqub ağanın qəbri üsündə tikilmiş gümbəzə toxunmağa heç kəs cəsarət etməmişdi.

Şirazlı kəndinin camaatı da tarix boyu yayda yaylağa qalxardılar. Kəndin yurd yerləri əvvəlcə Əyricə yaylağmda yerləşsə də, son vaxtlar kəndin çadırları əsasən **Kotuz, Bağçacıq, Almalıq, Dumanlı, Şərdibulağı** yurdlarında qurulardı.

Lakin bütün bunlar sanki bir nağıldı. Elə bil heç olmamışdı. Saflıq, təmizlik, düzlük murdarlıq götürmür, – deyiblər. Ermәni murdarlarının ayağı toxunduğu gündən elə bil bu yurdun da xeyir-bərəkəti göylərə çəkildi. Çəkilə-çəkilə də gəlib çıxdı 1988-ci ilə.

Şirazlı kəndində Sovet hakimiyyətinin ilk illərindən etibarən yeddiillik azərbaycanlı məktəbi fəaliyyət göstərmişdi. 1947-1948-ci illərdə kənd yeddiillik məktəbi beynəlmiləl orta məktəbə çevrilmiş, 1980-ci illərin əvvəllərindən isə, bu məktəb iki müstəqil – azərbaycanlı və erməni orta məktəblərinə ayrıldı.

Şirazlı kəndinin ilk müəllimləri sırasında **Teymur Haqverdiyevin, Cabbar Həsənovun, Bulud Zeynalovun** və b. adlarını çəkmək olar. Böyük Vətən müharibəsinin ilk illərində Şirazlı məktəbinin direktoru **Heydər Hüseynov** olmuşdur. Sonrakı onilliklərdə **İsmayıl Məmmədov, Abdulla Qasımov** bu məktəbə direktorluq etmişlər. Şirazlı orta məktəbi uzun illər klassik Azərbaycan şairi Nəsiminin adını daşımışdır. **Pənah Əliyev, Abbas Məmmədov, Bulud Zeynalov, Mahmud Yusifov, Əli Balıyev, Mahin İbrahimov, Sidiqə Məmmədova, Faiq Haqverdiyev, Abdulla Həsənov, Rəşid Hacıyev, Eldar Yusifov, Mübariz Yusifov, El-**

**mira Yusifova, Yusif Muradov, Tərlan Yusifova** və b. onlarla ali təhsilli, təcrübəli müəllimlər bu məktəbdə azərbaycanlı balalarının təlim-tərbiyəsi ilə məşğul olmuşlar.



**Rəssam Cabbar Quliyev. Şirazlı faciəsi, 1988-ci il.**

1988-ci ilin dəhşətli Şirazlı faciəsi nəinki bütün Vedi rayonunu, həm də bütün Qərbi Azərbaycanı silkələdi, azərbaycanlıların Qərbi Azərbaycan ərazisindən kütləvi şəkildə qovulub çıxarılmasının başlanğıcını qoydu. Şirazlı faciəsindən sonra Ermənistan azərbaycanlıları üçün bir daha aydın oldu ki, Azərbaycanın o vaxtkı satqın rəhbərliyi onları heç vaxt müdafiə etməyəcək.

Şirazlı hadisələri 1988-ci ilin mayında baş verdi. Xüsusilə həmin ilin aprelində Kiçik Vedi hadisələrindən sonra quduzlaşmış ermənilər qonşu azərbaycanlı kəndlərini tez-tez təhdid edirdilər. Dörd yol ayrıcında, magistral avtomobil yolunun və İrəvan-Bakı dəmiryol xəttinin üstündə yerləşdiyi üçün Şirazlı daha çox diqqət mərkəzində və həm də bir növ ayaq altında idi. 1948-1953-cü illər köçürülməsindən sonra kəndə xaricdən çoxlu erməni köçüb gəlmişdi. 1988-ci ildə artıq kəndin 900 təsərrüfatından cəmi 310-u azərbaycanlılar, qalanı ermənilər idi.

1988-ci il mayın ilk günlərində kənddə milli qarşıdurma artıq xeyli dərəcədə ciddi şəkil almışdı. Hər an toqquşma baş verə bilərdi. Kolxoz sədri A.Barseqyan Qarabağ Komitəsinin göstərişi ilə işləyirdi.



Mayın 8-də Bakı-İrəvan qatarı saxlanıb, bir saat ərzində ona basqın edildi, vaqon bələdçiləri, azərbaycanlı sərnişinlər döyülüb-söyüldülər. Rayonda vəziyyətin gərginliyi o həddə çatmışdı ki, sabahısı – mayın 9-da SSRİ Ali Soveti sədrinin müavini Demiçev, Ermənistan KP MK-nın ikinci katibi Koçetkov, Nazirlər Soveti sədrinin müavini (o, həm də Vedi rayonuna təhkim olunmuşdu) S.Harutunyan Vediyə gəlib burada geniş müşavirə keçirdilər. Xalisa kənd kolxozunun sədri **Məhərrəm Hümbətov** və Şirazlı kənd sovetinin sədri **Sura Ramazanova** çıxış edib, vəziyyəti olduğu kimi açıqladılar. Sura Ramazanova ermənilərin hadisələri milli qırğına apardıqlarını, milli ədavət və düşmənçiliyi yaydıqlarını onların üzünə dedi. Lakin heç bir tədbir görülmədi.

Mayın 10-da da davam edən gərginlik mayın 11-də Şirazlı kəndinə ermənilərin dağıdıcı hücumları ilə nəticələndi. Gün ərzində hazırlıq işləri görən (küçələrə evləri daşlamaq üçün lafetlərlə daş gətirilməsi, erməni evlərinin üstünə xüsusi bayraqlar taxılması, kəndə qıraq yerlərdən maşınlarla saqqallıların daşınıb gətirilməsi, milis işçilərinin yolları bağlaması və s.) ermənilər axşam hava qaralanda dörd dəstəyə ayrılıb, hər dəstə 400-500 nəfər olmaqla azərbaycanlı məhəllələrinə yeridilər. Dəstələrə milis zabitləri başçılıq edirdilər. Rayonun bütün rəhbərləri Şirazlıda idilər. Demək olar ki, bütün azərbaycanlı evləri dağıdıldı və qarət edildi. Adamlar qaranlıqda bağçada, dalda yerdə gizlənib erməni vəhşiliyini müşahidə edirdilər. Ermənilər evlərdən apara bildiklərini aparır, yerdə qalanını sındırır və ya yandırırdılar. Bəzi həyətlərdə erməni vəhşiliyinə dözməyən azərbaycanlılar ermənilərlə əlbəyaxa olmaqdan da çəkinmirdilər. 1930-cu illərin repressiya qurbanı, vaxtilə Vedibasarın məşhur ağsaqqalı olmuş İqbal ağanın nəvəsi **Aydın Əhmədov** həyətə doluşan ermənilərin başı üstündən güllə atmaqla onları geri çəkilməyə məcbur etmiş, İslam Eyyubovun arvadı Məyri Cəfərova kənddəki talanın təşkilatçılarından olan milis rəisi Papoyanın paqonunu çəkib qoparmış, maşınını vurub əzmişdi. Kənd kişilərindən **Eyyub** və **İslam Eyyubov qardaşları, Aydın Əhmədov, Fazil Əliyev, Mehman Əliyev, Cəmşid İbrahimov, Əli Ba-**

bayev, **Mübariz Ramazanov, Hidayət Əliyev, Həmid Əliyev** və b. əhalinin müdafiəsi və sağ-salamat kənddən çıxarılması üçün əllərindən gələni etmiş, hətta dəfələrlə həyatlarını təhlükə qarşısında qoymuşdular. Gecə saat 3-ə qədər davam edən erməni vəhşiliyi həmin vaxt kəndə girən hərbçilərin gəlişindən sonra dayandırıldı. Əhali evləri dağıdıldıqdan və təhlükəsizliklərinə təminat olmadığından Türkiyə ilə sərhəddəki Şidli kəndinə tərəf hərəkət etdilər, SSRİ-Türkiyə sərhədinə sığındılar.

Şirazlı faciəsi zamanı kəndin 64 azərbaycanlı evi tamam dağıdılmış, 8 ev yandırılmış, 330 ailənin əmlakı məhv edilmiş, 80-dən çox adam döyülmüşdü.

Sərhədə sığınmış camaata rayonun bütün azərbaycanlı kəndlərindən ərzaq yardımı çatdırılırdı. Şirazlılar Şərur (o vaxtkı İliç) rayonu raykomunun birinci katibi Tahir Əliyevin, Şərur prokuroru Rəşid Həsənovun camaata böyük maddi və mənəvi yardımını bu gün də minnətdarlıqla xatırlayırlar. Şirazlıya hücum zamanı ağır bədən xəsarəti almış məşhur ocaq sahibi Seyid Ağbal ağa və Əkbərin iki aylıq övladı burada vəfat etdi və Şidli qəbiristanlığında dəfn olundular.

Əslən vedili olan görkəmli yazıçı **Fərman Kərimzadə** şirazlıların harayına gəldi, Şirazlı və kənar kəndlərdən 20 nəfər dilbilən ziyalı götürüb, Bakıya, Moskvaya üz tutdu. Lakin nə Bakıdan, nə də Moskvadan onların dərdinə şərik çıxan tapılmadı. Azərbaycan mətbuatı və televiziyası bu faciəni gizlətdi, xalqa çatdırmaqdan qorxdu.

Ermənisan SSR Ali Sovetinin o vaxtkı deputatı, şirazlılı **Xuraman Əkbərova** həmin günləri belə xatırlayır: "Bütün rəhbər orqanların qapılarını döydük. SSRİ Ali Soveti Rəyasət Heyəti sədrinin, ölkə prokurorunun, MK katibinin və başqalarının yanında olduq. Bizi soyuq gözlərlə dinləyir, qeydlər edir, vəd verirdilər. Lakin tədbir görən yox idi. Şirazlı camaatı yenə sərhəd çəpərləri arasında çadırlarda istidən təntiyirdi, qocalar, uşaqlar, xəstələr buradaca əzab çəkirdi".

Üç ay Araz çayı sahilində, Türkiyə sərhədində çadırlarda yaşayan Şirazlı camaatı, nəhayət, yiyəsizlik ucbatından Azərbaycana axışıb gəlməyə məcbur oldu. Qədim Şirazlı kəndi beləcə boşaldı, yiyəsiz qaldı, erməniləşdi...



**Şirazlı azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| Mal-qara üçün bina – | 10 əd. |
| İribuynuzlu mal-qara – | 1200 baş. |
| Xırdabuynuzlu mal-qara – | 4000 baş. |
| Donuz – | 800 baş. |
| Toyuq – | 15000 baş. |
| Üzüm bağı – | 250 ha. |
| Meyvə bağı – | 120 ha. |
| K/t maşınları – | 60 əd. |
| Avtomaşınlar – | 45 əd. |
| Qaraj – | 2 əd. |
| Taxıl ambarı – | 2 əd. |
| Yanacaq ambarı – | 1 əd. |
| Dəmirçi sexi – | 1 əd. |
| Dülgərxana – | 1 əd. |
| Artezian quyusu – | 7 əd. |
| Su nasos stansiyası – | 2 əd. |
| Enerji şəbəkəsi – | 4 əd. |
| Dəyirman – | 1 əd. |
| İdarə binası – | 1 əd. |
| Məktəb – | 2 əd. |
| Klub – | 1 əd. |
| Poçt – | 1 əd. |
| Pavilyon – | 1 əd. |
| Xəstəxana – | 1 əd. |
| Uşaq bağçası – | 1 əd. |
| Mağaza – | 6 əd. |
| Yeməkxana – | 2 əd. |
| Hamam – | 1 əd. |
| Şərab zavodu – | 1 əd. |
| Yem kombinatı – | 1 əd. |

## KƏNDİN TAYFALARI

Molla Abbaslılar, Məhərrəm uşağı, Seyidlər, Ramazan uşağı, Əli uşağı, Sapannılar, Ağləyər uşağı və s.

## KƏNDİN TOPONİMLƏRİ

Cadqıran məhləsi, Sapannı məhləsi, Aşağı məhlə, Bağçacıq məhləsi.

## 1930-CU İLLƏRİN REPRESSİYA QURBANLARI

1. İqbal Əliyev
2. Əli Allahverdi oğlu
3. Hüseyn Salman oğlu
4. Məşədi İsmayıl Səfər oğlu
5. Məşədi Xamo Məhərrəm oğlu
6. Əli Mirzə oğlu
7. Məşədi Məhərrəm Məmməd oğlu
8. Ağəli Abbas oğlu
9. Bayram Əli oğlu
10. Hüseyn Məmməd oğlu
11. İsrafil Əli oğlu

## 1941-1945-Cİ İLLƏR MÜHİRİBƏSİNDƏ HƏLAK OLANLAR

1. Məhərrəm Fərəc oğlu Xəlilov
2. Səməd İbrahim oğlu Namazov
3. Abbas Xudaverən oğlu Hümbətov
4. Pənah Şamrad oğlu Sultanov
5. Yadulla Qulu oğlu Quliyev
6. Cəfərqulu
7. Fərman İsmayıl oğlu Əliyev
8. Bəhlul Bağırov
9. Məməd Məmmədov
10. Lətif Məhəmməd oğlu Əliyev
11. Mirseyid Əhmədov



12. Abuzər Əhmədov
13. Bəylər ƏHmədov
14. Cəlil Əhmədov
15. Hüseyn Abbasəli oğlu
16. Nəriman Rzayev
17. Bayram Rzayev
18. Bayraməli Orucov
19. Məhərrəm Əkbərov
20. İsrafil Hüseynov
21. Əli Məhərrəm oğlu Məmmədov
22. İsmayıl Abbasov
23. Vilayət Nağıyev
24. Cəlil İbrahimov
25. Qəfər Nağıyev
26. Cavad Əsədov
27. Məhərrəm Zeynalov
28. Bəylər Haqverdi oğlu Həsənov
29. Cabbar Həsən oğlu Əliyev
30. Abbasqulu Əliyev
31. İmamverdi Rzayev
32. Xudaverdi Əliyev
33. Əkbər İqbal oğlu Əliyev
34. İsmayıl Fərəc oğlu
35. Əkbər Əli oğlu
36. Hüseyn Muradov
37. Nəbi Cəlil oğlu Quliyev
38. Cəmil Mollaverdi oğlu
39. Müseyib Nağıyev
40. Məhərrəm Məmmədov
41. Cabbar Hüseynov

## QARABAĞ MÜHARİBƏSİ İŞTİRAKÇILARI

1988-ci ildə Azərbaycanın müxtəlif bölgələrində məskunlaşan Şirazlı qaçqınlarının, demək olar ki, əksər əli silah tutan cavanları Azərbaycanın ərazi bütövlüyü uğrunda Qarabağ müharibəsinin fəal iştirakçısı olmuşlar. Onlar daha çox Tərtər və Goranboy cəb-

hələrində könüllü olaraq ordu sıralarına yazılmış və ən ağır döyüşlərdə iştirak etmişlər. Onlardan **İsmət Əhmədovun, İsmayıl Ələkbərovun, Rasim və Əhməd Həşimov qardaşlarının, İsbo Məhərrəm oğlunun, Ələsgər Məmmədovun, Eldəniz İbrahimovun** və bir çox başqalarının adlarını çəkmək olar.

## QARABAĞ MÜHARİBƏSİ ŞƏHİDLƏRİ

1. Fəxrəddin Yusif oğlu İbrahimov (1970, Şirazlı -1992, Ağdərə).
2. Tarıverdi Oruc oğlu Bayramov (1972, Şirazlı -1991, Zəngilan).
3. Nəriman Hüseyn oğlu Süleymanov (Şirazlı - Ağdam)

## SƏTTAR İSMAYIL OĞLU SƏFƏROV



1937-ci il iyulun 18-də Şirazlı kəndində anadan olmuşdur.

Atası İsmayıl Səfərov Vedibasar mahalının sayılan kişilərindən olmuş, Abbasqulu bəy Şadlinski ilə dostluq etmişdir. 1930-cu ildə qətlə yetirilmiş Abbasqulu bəyin cənazəsini gedib Böyük Vediyə gətirənlərən biri də məhz İsmayıl kişi olmuşdu. 1937-ci ildə Vedibasarın bir çox qeyrətli oğulları kimi, İ.Səfərov də repressiya olunaraq güllələnmişdir.

Səttar Səfərov Şirazlı məktəbində bir neçə il oxuduqdan sonra 1949-cu ildə onların da ailəsi deportasiyaya məruz qalmış, Azərbaycanın Ağdaş rayonunun Qolqatı kəndinə köçürülmüşlər.

1954-cü ildə Qolqatı kəndində orta məktəbi bitirən S.Səfərov 4 il fəhlə işlədikdən sonra 1959-cu ildə Azərbaycan Dövlət Universitetinə daxil olur. Ali təhsilini başa vurub, 1967-ci ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun aspiranturasına daxil olur. 1970-ci ildə dissertasiya müdafiə edərək iqtisad elmləri namizədi alimlik dərəcəsi alır.

1984-cü ildə Moskvada İctimai Elmlər Akademiyasında dövlətin iqtisadi funksiyaları sahəsi üzrə doktorluq dissertasiyası müdafiə edir.

Ali məktəblərdə assistent, müəllim, baş müəllim, kafedra müdiri,



prorektor, rektor vəzifələrində çalışır.

Üç monoqrafiyanın, 100-ə qədər elmi məqalənin müəllifidir.

1995-ci il parlament seçkiləri zamanı Milli Məclisin deputatı seçilmişdir. MM-in Büdcə məsələləri komissiyasının sədridir.

## ORUC PAŞA OĞLU MƏMMƏDOV



1946-cı ildə Şirazlı kəndində anadan olmuşdur.

Atası Paşa kişi gənc yaşlarından Abbasqulu bəy Şadlinskinin dəstəsinə qoşulub, Vedibasarın aran kəndlərinin, xüsusilə Şirazlının erməni təcavüzündən müdafiəsi işində yaxından iştirak etmiş, döyüşlərdə öz qəhrəmanlığı ilə fərqlənmişdir.

1948-ci ildə Şirazlı kəndindən deportasiya olunan digər ailələr kimi, onların da ailəsi Azərbaycanın Ağdaş rayonuna köçürülmüş, Qolqatı kəndində məskunlaşmışlar.

1964-cü ildə Qolqatı kənd orta məktəbini bitirən Oruc Məmmədov 1965-ci ildə Azərbaycan Politexnik İnstitutuna daxil olur. 1970-ci ildə ali təhsilini başa vurub, Sabunçu maşınqayırma zavodunda əmək fəaliyyətinə başlayır.

1982-ci illədək həmin zavodda bütün vəzifə pillələrinə qalxan Oruc Məmmədov gözəl mütəxəssis və ədalətli, qayğıkeş, işgüzar kadr kimi tanınır, kollektivin hörmət və məhəbbətini qazanır. 1982-ci ildə zavoda direktor vəzifəsinə irəli çəkilir, az vaxtda zavodun şöhrətini İttifaq miqyasına qaldırır. SSRİ-nin dağılması ilə ölkə iqtisadiyyatının günbəgün tənəzzül etdiyi, dağıldığı illərdə Sabunçu maşınqayırma zavodu Oruc müəllimin gərgin əməyi və bacarığı sayəsində öz fəaliyyətini davam etdirir.

## ŞIXLAR (ŞEYXLƏR)

Vedibasar mahalının aran hissəsində, Araz çayının kənarında, Vedi rayonunun mərkəzi olan Böyük Vedi qəsəbəsindən 10 km cənub-qərbdə, Vedi çayından ayrılan su arxının üstündə kənd.

1920-ci ilədək kənddə ancaq Azərbaycan türkləri yaşamışlar. 1922-1988-ci illərdə azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuş, 1988-ci ildə bütün azərbaycanlı əhalisi qovularaq kənd tamamilə erməniləşdirilmişdir.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) Vedi nahiyəsinin **Şeyxçiq kəndi**, "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) həmin nahiyənin **Şıqşıq kəndi** kimi qeydə alınmışdır. İkinci mənbədə dövlətin kənddən vergi şəklində götürdüyü illik gəlirin 3.000 ağça olduğu göstərilmişdir.

İ.Şopendə (1832) Vedibasar mahalındakı köçəri tayfalar sırasında 34 ailədə 232 nəfər Azərbaycan türkündən ibarət **Şeyxlər tayfasının** da adı çəkilir. Həmin tayfanın Xorvirab yaxınlığında (Şıxlar kəndi yerində) qışlağı olduğu da mənbədə göstərilmişdir.

Yeri gəlmişkən, xatırladaq ki, İ.Şopen bu köçəri tayfanın adını həm **Şeyxlər**, həm də **Şıxlar** şəklində yazıya almışdır. Əslində isə, hər iki variant Ağqoyunlu tayfa birliyinə daxil olan **Şeyxli** qəbiləsinin adından törəmədir.

Qərbi Azərbaycanda və Azərbaycan Respublikası ərazisində **Şıxlar** toponiminin geniş yayılması (Qarakilsə rayonunda kənd, Qaradağ rayonu ərazisində qədim yaşayış yeri, Ağdam, Xaçmaz, Cəbrayıl, Şamaxı rayonlarında kəndlər, Goranboy rayonunda su anbarı və s.) bu tayfanın yayılma arealının genişliyinə dəlalət edir. "**Şıx**" komponentli yer-yurd adlarının (məsələn, Qazax rayonunun Şıxlı kəndləri, Kürdəmirin Şıxımlı kəndi, Talin rayonunda Şıxhacı kəndi və s.) sayını isə istənilən qədər artıra bilərik. Şıx komponentli şəxs adlarından düzəlmə bəzi toponimlərdəki "**şıx**" kəlməsinin məhz dini rütbə, titul anlamı bildirməsi də istisna olunmur.

1873-cü ilin statistik məlumatlarında Vedibasar mahalındakı **Şıxlar kəndi** mülkədar kəndi kimi qeydə alınmış və Xorvirap (qədim Artaşad) kəndi ilə birlikdə burada 79 təsərrüfatda 649 nəfər (371 kişi, 278 qadın) Azərbaycan türkünün yaşadığı, hətta kənddə 1 məscid binasının olduğu da göstərilmişdir.

1886-cı ildə kənddə 97 təsərrüfatda 714 nəfər (382 kişi, 332 qadın), 1897-ci ildə 790 nəfər, 1905-ci ildə 802 nəfər, 1914-cü ildə 815 nəfər əhali yaşamışdır.

1918-1920-ci illər erməni-müsəlman davası zamanı kənd erməni daşnakları tərəfindən dağıdılmış, qarət edilmiş, əhalisi qətl və qarətlərə məruz qalmış, qəddarlıqla qovulmuşdur.

1922-ci ildə kəndin qaçqın əhalisindən 216 nəfər geri qayıtmışdır. Həmin il kənddə Türkiyədən gəlmə 144 nəfər erməni də yerləşdirilmişdir. Kənddə əhalinin nisbəti 1926-cı ildə 115 nəfər azərbaycanlı, 48 nəfər erməni, 1931-ci ildə 167 nəfər azərbaycanlı, 94 nəfər erməni şəklində olmuşdur.

1930-cu illərdə kənddə yaradılmış kolxoz 1950-ci illərin axırlarında sovxoza çevrilmiş və qədim Dvin şəhərinin xarabalıqları ərazisini əhatə etdiyindən bu sovxoz **Dvin sovxozu** adlandırılmışdır.

1949-cu il köçürülməsi zamanı kəndin bütün azərbaycanlı əhalisi zorla Azərbaycana köçürülsə də, sonralar onların bir hissəsi geri – öz doğma kəndinə qayıtmış, 1988-ci ilə qədər burada yaşamışlar.

Yerli tələffüzdə **"İşıxlar"** kimi çağırılan kəndin adı 1968-ci il dekabrın 26-da dəyişdirilərək **Lusarat** (ermənicə "**işıqlı kənd**" məzmununda) qoyulmuşdur.

1972-ci ildə kəndin ümumi əhalisi 276 təsərrüfatda 1700 nəfərdən ibarət olmuşdur.

1988-ci ildə kəndin azərbaycanlı əhalisi ermənilərə xas vəhşiliklə kənddən qovulmuş və kəndin erməniləşdirilməsi başa çatdırılmışdır.

* * *

Şıxlar kəndində keçmişdə **Mustafa katda**, oğlanları **Paşa, Əhməd, Mehdi** kimi nüfuzlu kişilər olmuşdur. **Abbas Zeynalov** Abbasqulu bəy Şadlinskinin başçılıq etdiyi “Qırmızı tabor“un fəal üzvlərindən biri kimi, erməni daşnaklarına qarşı qəhrəmanlıqla döyüşmüş və “Qırmızı Bayraq“ ordeninə layiq görülən 19 nəfərdən biri olmuşdur. Sonralar o, uzun illər kənd sovetinin

sədri işləmiş, oğlu **Zeynal Zeynalov** və **Əli Hacı Rüstəm oğlu** kolxozda müxtəlif vəzifələrdə çalışmışlar. **Qasım İsmayılov, Qurbanəli Hacı Rüstəm oğlu** ayrı-ayrı vaxtlarda Şıxlar kənd məktəbinin direktoru, **Məhərrəm İsmayılov** və **Bilal kişi** kolxoz və kənd soveti sədri vəzifələrində işləmişlər.

## KAMAL İBRAHİM OĞLU MƏMMƏDOV



1935-ci ildə İrəvan şəhərində anadan olmuşdur. Əslən Vedi rayonunun Şıxlar kəndindəndir.

İlk təhsilini İrəvandakı M.F.Axundov adına orta məktəbdə almış, 1954-cü ildə İrəvan Pedaqoji İnstitutunun fizika-riyaziyyat fakültəsinə qəbul olunub, 1959-cu ildə oranı uğurla bitirmiş, bir müddət təyinatla Paşalı rayonunun Köçbəy kənd yeddiillik məktəbində əvvəl müəllim, sonra isə direktor işləmişdir.

1961-1970-ci illərdə respublika Müəllimləri Təkmilləşdirmə İnstitutunda əvvəlcə metodist, sonra isə azərbaycanlı məktəbləri üzrə metodkabinənin müdiri işləmişdir. Sonra bir müddət Zəngibasar RPK-də siyasi maarif kabinetinin müdiri olmuş, 1970-1972-ci illərdə Bakıda Ali Partiya məktəbində oxumuş, qayıdıb Zəngibasar RPK-də təlimatçı vəzifəsində çalışmışdır.

1973-1978-ci illərdə Haçaparaq kəndində təsərrüfata rəhbərlik etmiş, yenidən Zəngibasar RPK-də təlimatçı olmuş, Həbilkənddə sovxoz direktoru işləmişdir.

1978-1983-cü illərdə Zəngibasar RPK-nin katibi vəzifəsində çalışan K.Məmmədov 1984-1989-cu illərdə Ermənistan Nazirlər Sovetində baş referent işləmiş, 1988-ci il hadisələri ilə əlaqədar Bakı şəhərinə köçmüşdür.

1989-1992-ci illərdə Azərbaycan Respublikası Nazirlər Kabinetində 1-ci dərəcəli mütəxəssis, 1993-cü ilin sentyabrından indiyə qədər Azərbaycan Respublikası Prezidenti İcra Aparatında çalışır.



## ORUC İSMAYIL OĞLU ABDULLAYEV



Ailələri 1949-cu ildə Vedi rayonunun Şıxlar kəndindən Azərbaycana deportasiya olunmuş, O.Abdullayev də 1953-cü il yanvarın 9-da Şəmkir rayonunun Təzəkənd kəndində anadan olmuşdur.

1976-cı ildə Gəncə Dövlət Pedaqoji İnstitutunun tarix fakültəsini bitirmiş, 1979-1983-cü illərdə Azərbaycan Dövlət Universitetinin aspiranturasında təhsilini davam etdirmişdir. 1983-cü ildən fəlsəfə elmləri namizədi, 1994-cü ildən fəlsəfə elmləri doktoru, 1996-cı ildən professordur.

1988-ci ildən Azərbaycan Texnologiya İnstitutunun "Fəlsəfə və politologiya" kafedrasının müdiri, 1996-cı ildən həmin institutun prorektoru, 1998-ci ildən həm də Nyu-York Elmlər Akademiyasının həqiqi üzvüdür.

O.İ.Abdullayevin bir monoqrafiyası, dörd tədris-metodik vəsaiti, yüzə yaxın elmi və elmi-kütləvi məqaləsi çapdan çıxmışdır.

Ailəlidir, iki oğlu, iki qızı, iki nəvəsi var. Həyat yoldaşı Aslanova Ema Əli qızı Gəncə Dövlət Universitetinin Azərbaycan tarixi kafedrasının baş müəllimidir. Böyük qızı Aynur Azərbaycan Texnologiya Universitetinin biologiya kafedrasında müəllim işləyir. Kiçik qızı **Vəfa** ali təhsilli həkim, oğlanları **Rəşad** və **Müşviq** isə hüquqşünasdırlar.

## ŞIRRAN

Vedibasar mahalının Millidərə bölgəsində kənd.

Kənddə Azərbaycan türkləri və müsəlman kürdləri yaşamışlar.

1886-cı ilə aid mənbədə kəndin adı **Şiran** (əslində **Şırran**) kimi yazılıb. Qəmərli kənd sakini, keşiş oğlu Ter Qriqoriyanın həmin kənddə 125 desyatin otlaq yerini 1 yanvar 1883-cü ildən 1 yanvar 1886-cıilədək icarəyə götürdüyü, bu ərazinin isə Xaraba Kotanlı və Şuğayıb kəndləri yaxınlığında yerləşdiyi də həmin mənbədə qeyd olunmuşdur.

1905-ci ildə **Şırran kəndində** 80 nəfər, 1914-cü ildə 185 nəfər əhali qeydə alınmışdır.

Şırran kəndində yaşayan müsəlman kürdləri 1937-ci ildə Millidərədəki başqa kürdlərlə birlikdə Qırğızıstanın Oş vilayətinə deportasiya olunmuşlar.

Kəndin adının oradakı iri **su şırranının** – dağ şəlaləsinin adından götürüldüyünü güman edirik.

Azərbaycanda da eyniadlı (Şuşa rayonunda Şırran, Ordubad rayonunda Şırransu) kəndlər mövcuddur.



## ŞORSU (ŞORBULAQ)

Vedibasar mahalının aran hissəsində, Ağrıdağ vadisində, Dəvəli kəndinin yuxarı kənarında, Şorsu bulağının yanında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

**Şorsu bulağı** adlı bu bulaq və bulağın yerləşdiyi ərazi bəzən **Şorbulaq** da adlanmışdır. Burada əvvəl qışlaq olmuş, sonra bu qışlaq yerində kənd yaranmışdır.

1826-1829-cu illər Rusiya-İran, Rusiya-Osmanlı müharibələri zamanı ayaq altında qalıb məhv olan kənd İ.Şopendə (1832) **Şorsu** adı ilə Vedibasar mahalının xaraba kəndləri sırasında verilmişdir.

Sonrakı mənbələrdə kəndin adına bir daha rast gəlinməməsi onun yenidən məskunlaşmamasına dəlalət edir.

Yeri gəlmişkən, Vedibasar mahalı ərazisində Yengicə kəndi yaxınlığındakı Qır dağında digər bir mineral bulaq da Şorsu bulağı və ya Şorbulaq adlanmışdır ki, bir mahalın ərazisindəki eyniadlı bu iki bulağı bir-biri ilə qarışdırmaq olmaz.

## ŞUĞAYIB

Vedibasar mahalının Millidərə bölgəsində, Gərni çayının yuxarı axarında, dəniz səviyyəsindən 1472 m yüksəklikdə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Gərni nahiyəsi ərazisində bir **Şaqaiq kəndi** qeydə alınmışdır. Şuğayıb kəndinin məhz Millidərə ərazisində, keçmişdə Gərni nahiyəsi tərkibində yerləşdiyini nəzərə alsaq, deməli, Şaqaiq və Şuğayıb eyni kəndlərdir. 1728-ci ilə aid mənbədə kənddə Hacı Mustafanın adına olan timardan dövlətin müxtəlif vergilər şəklində ildə 3.000 ağça gəlir götürdüyü barədə də məlumat var.

İ.Şopendə (1832) isə Gərnibasar mahalı üzrə dağıdılmış kəndlər siyahısında **Şoğayıb** şəklində Şuğayıb kəndinin də adı çəkilir.

Kəndin adının etimologiyası barədə mövcud fikirlə (guya o, qırğızca **"konusvari zirvə"** mənasında **çoku** və ya qazaxca **şoku** sözündən və **"yüksəklik"** mənasında **ib (ıb)** komponentindən ibarətdir və **"konusvari zirvəsi olan dağ"** anlamındadır) (B.Budaqov, Q.Qeybullayev) qəti razı deyilik. Adın etimoloji izahında biz 1728-ci il "dəftərinə" üstünlük veririk (Şaqaiq) və bu işdə köməyimizə Qafqaz hərbi dairəsinin 1903-cü ildə Tiflisdə nəşr etdirdiyi hərbi-topoqrafik xəritəsi çatır. Belə ki, həmin xəritədə kənd **Şaquib** adı ilə qeydə alınmışdır. Göründüyü kimi hər iki adın kökündə **Şaq (Sak)** sözü durur və bu, Sak türklərinin qədim anayurdu olan bir diyarda (Çuxur Səd// Sakad yurdunda), bizcə, təbiidir.

Beləliklə, bizcə bütün variantlarda kəndin adı **"Sakların yurdu"** anlamında əvvəllər **Sakuz//Şaquz**, sonralar **Sakoba//Şakoba** şəklində olmuş, tədricən **Şaqaib-Şuqaib-Şuğayıb** şəklinə düşmüşdür.

Maraqlıdır ki, hazırda Ağsu rayonunun Pirhəsənli kəndində **Şuğayıblı** adlı böyük bir nəsil var. Bu nəslin adının necə, haradan törəməyi heç həmin nəslin öz nümayəndələrinə də məlum deyil. Təkcə onu bilirlər ki, nə vaxtsa Ağdam rayonunun Pirhəsənli-Kəngərli kəndindən köçüb gəliblər. Azərbaycan Yazıçılar



Birliyi Sumqayıt filialının sədri, istedadlı gənc **şair Sabir Sarvanın** bir tərəfi həmin nəsildəndir.

1883-cü ildə Gərnibasar mahalının Qafarlı kəndindən köçübgələnlər hesabına yenidən məskunlaşan Şuğayıb kəndində 1886-cı ildə 13 təsərrüfatda 109 nəfər (57 kişi, 52 qadın) Azərbaycan türkü yaşamışdır.

Əsasən əkinçilik və heyvandarlıqla məşğul olan kəndin 612 desyatin torpaq sahəsinin 2 desyatinini malikanə torpaqları, 140 desyatinini suvarılmayan əkin yerləri təşkil etmişdir. Kənddə 60 iribuynuzlu, 55 xırdabuynuzlu mal-qara qeydə alınmışdır.

Bundan əlavə, kəndin Yeni Bayazid qəzasındakı **Ağdağ yaylağında** 168 desyatin ərazini əhatə edən Əyrigör adlı yurd yeri olmuşdur. Kənddən 40 verst aralıda yerləşən bu yaylaqdan kənd camaatı qədimdən istifadə etmişdir.

1897-ci ildə kənddə 163 nəfər, 1905-ci ildə 90 nəfər, 1914-cü ildə 200 nəfər azərbaycanlı yaşamışdır.

1918-1920-ci illər erməni-müsəlman davası zamanı kənd erməni daşnakları tərəfindən dağıdılmış, əhalisi qəddarlıqla kənddən qovulmuşdur.

1922-ci ildə kəndin qaçqın əhalisindən cəmi 44 nəfəri geri qayıtmışdır. 1926-cı ildə onların sayı 35 nəfər, 1931-ci ildə 47 nəfər olmuşdur.

1949-cu ildə kəndin bütün əhalisi zorla Azərbaycana köçürülmüş, elə o vaxtdan da kənd xaraba qalmışdır.

## TALASAVAN

Vedibasar mahalının Çanaxçıdərə bölgəsində, Talasavan dağ silsiləsinin qoynunda kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1828-1829-cu illər Rusiya-İran, Rusiya-Osmanlı müharibələri zamanı kənd dağıdılmış və İ.Şopen (1832) **Talasavan** adlanan bu kəndi Vedibasar mahalının xaraba kəndləri siyahısına daxil etmişdir. İ.Şopen Sürməli mahalında da Talasavan adlı kənd qeydə almışdır.

Sonrakı illərə aid mənbələrdə Vedibasar mahalı ərazisində Talasavan kənd adına rast gəlmirik.

Kəndin adının monqol-tatarların tərkibində bu yerlərə gəlmiş **Tulas//Talas** türk tayfasının adından və **kənd, oba** anlayışında olan "**avan**" sözündən yarandığı ehtimal olunur (B.Budaqov, Q.Qeybullayev). Yeri gəlmişkən, sonluğunda "avan" söz-şəkilçili (məsələn, Vedibasarda həm də Goravan) toponimlərin qədim türklərdəki yazılı daş abidə anlamında məng//vəng sözündən düzəlməsi fikrinə hökm kimi yanaşmaq olmaz. Əslində bu tipli sözlər **ban** şəkilçili sözlərdir ki, erməni mənbələrində "**van**" kimi tələffüz olunmuşdur. Bunu **alban** sözünün erməni tələffüzündə "**ağvan**" şəklində yazılması da sübut edir. Bunu Goravan kənd adının xalq dilində Goraban kimi tələffüz olunması da təsdiqləyir.

Vedibasar mahalında **Talasavan** adlı dağ silsiləsi də mövcud idi. Böyük Vedi kəndinin yuxarısındakı Sarıdolama təpəsini aşdıqdan sonra Vedi çayının sol və sağ sahillərində qonur rəngli iki böyük qaya parçası vardı. Sağdakı **Əli daşı**, soldakı **Ömər daşı** adlanırdı. Ömər daşından Qaraquzey dağına qədər uzanan dağ silsiləsi **Talasavan dağları** idi. Talasavanın yuxarısındakı böyük düzə isə (Böyük Vedi ilə Çimən kəndinin arasında) **Güdüyün düzü** deyilirdi. Abbasqulu bəy Şadlinskinin torpaq sahələri bu düzdə yerləşirdi. O düzün yanı ilə uzanan boz dağların zirvələri sanki başlarına qayadan tac qoymuşdular. Bu taclı-papaqlı dağlar sırasında Kiçik Kərsən, Böyük Kərsən dağları ucalırdı.



## TAYTAN

Vedibasar mahalının aran hissəsində, Vedi rayonunun mərkəzi olan Böyük Vedi qəsəbəsindən 4 km cənub-şərqdə, Vedi çayının kənarında, İrəvan-Vedi avtomobil yolunun üstündə kənd.

1920-ci ilə qədər kənddə ancaq Azərbaycan türkləri yaşamışlar. 1922-1988-ci illərdə kənd azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuşdur. 1988-ci ildə kənd tamamilə erməniləşdirilmişdir.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) Aralıq nahiyəsində **Taptan**, "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə Gərni nahiyəsində **Tantaq** kənd adlarına rast gəlirik. İ.Şopendə (1832) isə Gərni nahiyəsindəki kənd **Taytan** kimi və nahiyənin xaraba kəndləri siyahısında verilmişdir.

1873-cü ilin statistik məlumatlarında Vedibasar mahalının aran hissəsində, indiki **Taytan kəndi** yerində eyniadlı kənd haqqında ilk məlumatlara rast gəlirik.

Kəndin adının mənşəyi ilə bağlı belə bir fikir var ki, əvvəllər burada tək bir ev olduğundan bu yer **Tək dam** adlanmışdır. Yerli dildə "**Təydam**" kimi tələffüz olunan bu ad sonradan Taytan şəklinə düşmüşdür. Lakin Vedibasar mahalı ərazisində bu kəndin yaranmasına qədər Taytan adlı kəndin Gərni nahiyəsində mövcud olması bu deyiləni şübhə altına alır. Diqqət yetirsək, Gərni nahiyəsində kəndin adı 1728-ci ildə **Tantaqdır**. Yəni **Tantək, Tantay.** Başqa sözlə, "**Tan kimi**", "**Tana tay**".

Yüz il sonra həmin ad komponentlərinin yerdəyişməsi ilə öz mənasını qoruyur: **Taytan**. Yəni yenə də "**Tana tay**", "**Tan kimi**". **Tan** isə belə ehtimal etmək olar ki, monqol-tatar işğalından (XIII yüzil) sonra burada məskunlaşmış türk-tatar tayfalarından birinin adıdır. Lakin Taytan çox ehtimal ki, elə "Tanrıya tay", "Tanrıya layiq" yer, məkan mənasındadır. Bundan əlavə, maraqlıdır ki, "Kitabi-Dədə Qorqud"da Tatyan qalası da var. Türkiyənin bölgələrindən biri isə Diadin adlanır.

Vedibasar mahalının Taytan kəndində 1873-cü ildə 18 təsərrüfatda 166 nəfər (91 kişi, 75 qadın) Azərbaycan türkü yaşamışdır.

1886-cı ildə kənddə 23 təsərrüfatda 177 nəfər (110 kişi, 67

qadın) əhali yaşamış, onların da 15 nəfəri (7 kişi, 8 qadın) bəy ailəsinə mənsub olmuşlar. Əhilinin sayı 1897-ci ildə 316 nəfərə, 1916-cı ildə 366 nəfərə çatmışdır.

1918-1920-ci illər erməni-müsəlman davası zamanı kənd erməni daşnakları tərəfindən dağıdılmış, əhalisi isə yurd-yuvasından qovulmuşdur.

1922-ci ildə kəndin qaçqın əhalisindən cəmi 183 nəfər geri qayıda bilmişdir. Həmin il kənddə Türkiyədən gəlmə 81 nəfər erməni mühaciri də yerləşdirilmiş və kənd qarışıq kəndə çevrilmişdir.

Kənddə yaşayan əhalinin nisbəti 1926-cı ildə 175 nəfər azərbaycanlı, 114 nəfər erməni, 1931-ci ildə 217 nəfər azərbaycanlı, 224 nəfər erməni şəklində olmuşdur. Göründüyü kimi, kənddə azərbaycanlıların təbii, ermənilərin isə süni artımı göz qabağındadır. Bu proses sonrakı illərdə davam etdirilmişdir. Xüsusilə 1946-1947-ci illərdə xaricdən gətirilən xeyli erməninin kənddə yerləşdirilməsi, 1949-cu ildə isə kəndin azərbaycanlı əhalisinin zorla Azərbaycana köçürülməsi Taytanın erməniləşdirilməsində həlledici rol oynamışdır.

1978-ci il yanvar ayının 25-də kəndin adı dəyişdirilərək Türkiyənin Van şəhərindən gəlmiş ermənilərin adına **Vanaşen** qoyulmuşdur.

Kənddə azlıqda yaşayan azərbaycanlı əhali (cəmi 24 ev) 1988-ci ildə sonuncu nəfərinə qədər qovulmuş, kəndin erməniləşdirilməsi başa çatdırılmışdır.

* * *

Taytan kəndində aşağıdakı tayfalar yaşayıb: **Qaramamoşlular, Yediyarlı, Kosanlı, Çölməkli, Şindivarlı** və s.

Sovet hakimiyyətinə qədər kəndin bir çox tanınmış bəyləri, ziyalıları, din xadimləri olub.

Onların arasında **Ağamirzə bəyin** xüsusi yeri olmuşdur. O, Böyük Vedidə rus-tatar məktəbini, İrəvan gimnaziyasını bitirmişdi. Bacısı **Maçan xanım** Vedibasarın məşhur sərkərdəsi Abbasqulu bəy Şadlinskinin arvadı idi. Abbasqulu bəyin Maçan xanımdan İsfəndiyar, Məmməd adlı oğlanları, Tacirə adlı qızı dünyaya gəlmişdi.



Ağamirzə bəydən başqa, Taytanda **Həsən bəy, Əliqulu bəy, Məmmədəli bəy** kimi bəylər də yaşayıb.

**Vəli Abbas oğlu** Abbasqulu bəy Şadlinskiin ən yaxın silahdaşlarından olub, daşnaklara qarşı döyüşlərdə igidlik və şücaət göstərib.

**Seyid Yusif** kəndin nüfuzlu iman sahiblərindən olub. Vedibasarın işğalından sonra bütün vedililər kimi Cənubi Azərbaycana mühacirət edən Seyid Yusif bir daha geri qayıtmamışdır. Maraqlıdır ki, kəndi işğal edən ermənilər o vaxt bütün evlərə od vurub yandırsalar da, təkcə Seyid Yusifin evinə, ocağına toxunmağa cəsarət etməmişdilər.

1937-ci ilin repressiya qurbanlarından ancaq iki adı dəqiqləşdirə bildik: **Molla Baxşəli, Talıb Rəsulov.**

**İbrahim ağa, Rəhim ağa** və **Bəhram ağa** qardaşları kəndin bəy nəsillərinin nümayəndələri idi.

Taytan kəndinin ilk azərbaycanlı müəllimləri sırasında **Bayramov Zeynalabdin Məhəmməd oğlunun** və **Bayramov İsrafil Məhəmməd oğlunun** adlarını çəkə bilərik. **Fərman İsmayılov** isə uzun müddət Vedi rayon qəzetinin redaktoru vəzifəsində çalışmışdır. Taytan kəndindən **Abuzər Rzayev** uzun müddət Taytan və Qaralar kəndlərində, **Heydər Hüseynov** Şirazlı kənd orta məktəbində direktor vəzifələrində çalışmışlar.



**ƏLİ İBRAHİM OĞLU HƏSƏNOV**

1913-cü ildə Taytan kəndində anadan olmuş, 1936-1937-ci illərdə Taytanda kənd sovetinin sədri, 1937-1941-ci illərdə Dəvəli pambıq məntəqəsinin müdiri, 1941-42-ci illərdə Vedi rayon torpaq şöbəsinin müdiri, 1943-1946-cı illərdə yenidən pambıq məntəqəsinin müdiri, 1946-1947-ci illərdə Alməmməd, 1947-1950-ci illərdə isə Taytan kənd kolxozlarının sədri işləmişdir.

1950-ci ildə Salyan rayonuna deportasiya olunmuş, 1954-cü ildə yenidən Vedi rayonuna qayıdıb, 1954-1956-cı illərdə Şirazlı kənd sovetinin sədri, 1956-1962-ci illərdə Vedi rayon KOOP-nin şöbə

müdiri, 1962-1965-ci illərdə Şidli kolxozunun sədri işləmişdir.

1966-cı ildə Qazax rayonunun Kirovka kəndinə köçmüşlər. 1979-cu il iyun ayının 9-da vəfat etmişdir.

1949-cu ildə Taytan kəndinin azərbaycanlı əhalisi əsasən Salyan rayonuna və Gəncəbasara köçürülmüşdülər. İ.Stalinin ölümündən sonra isə taytanlılardan cəmi bir neçə ailə geri – Vətənə qayıda bildilər.

**Həmid İskəndər oğlu Hüseynov** 1906-cı ildə Taytan kəndində anadan olmuş, sonralar Taytan kəndində sovet sədri və partiya təşkilatının katibi vəzifələrində işləmişdir. 1945-ci il müharibəsindən II qrup əlil kimi qayıtmış, 1950-ci ildə Azərbaycanın Salyan rayonuna, oradan Şəmkirə deportasiya olunmuş, az sonra yenidən Taytan kəndinə dönmüşdür.

**İskəndər Həmid oğlu İskəndərov** 1945-ci ildə Taytan kəndində anadan olmuş, orta təhsilini Vedi rayonunun 1 saylı məktəbində almış, 1967-ci ildə GDPİ-nin tarix-filologiya fakültəsini bitirmiş, Vedi rayonunun Yengicə kənd məktəbində dərs hissə müdiri vəzifəsində işləmişdir. 1988-ci il hadisələri ilə əlaqədar Bakıya gəlmiş və burada məskunlaşmışdır. İskəndər müəllim hazırda Binəqədi rayon Təhsil Şöbəsində çalışır.

1988-ci il hadisələri zamanı doğma el-obasından növbəti dəfə didərgin salınanda Taytanda cəmi 24 ev azərbaycanlı yaşayırdı. Onlar bu dəfə daha çox Salyan rayonuna və Bakı şəhərinə üz tutdular.

1950-ci illərdən 1967-ci ilədək Taytan kəndində azərbaycanlılar üçün altıillik məktəb mövcud idi. 1967-ci ildə isə o da ləğv edilərək, yalnız 3-cü sinfə qədər ibtidai məktəb saxlanıldı. 3-cü sinifdən sonra uşaqlar təhsillərini qonşu Şirazlı, Yengicə və Qaralar kənd məktəblərində davam etdirməli olurdular.

Taytan kəndinin yetirməsi olub, rayonun ayrı-ayrı kəndlərində azərbaycanlı balalarına dərs demiş müəllimlər arasında **Qəhrəman müəllim, Bəhram Süleymanov, İsmayıl Məmmədov, İskəndər İskəndərov** və b.-nın adlarını xüsusi çəkmək olar.

Taytan kəndinin yetirmələri sırasında çoxlu alimlər də var ki, kitabın sonunda Vedibasar alimlərinin siyahısında onların adları verilmişdir.



## FƏRMAN MƏMMƏD OĞLU İSMAYILOV VƏ ÖVLADLARI



1913-cü ildə Taytan kəndində anadan olmuşdur.

İrəvanda müəllimlik məktəbini bitirmiş, sonra Şirazlı kəndində müəllim işləmişdir. 1931-ci ildə Vedi rayonunda Azərbaycan dilində ilk rayon qəzeti – "Zərbəçi kolxozçu" nəşr olunmağa başlayanda Fərman müəllim 10 il həmin qəzetin baş redaktoru olmuş, 1942-1947-ci llərdə "Sovet Ermənistanı" qəzetində şöbə müdiri işləmişdir.

1947-ci ildə Bakı şəhərində 2 illik partiya məktəbinə daxil olmuş, 1949-cu ildə həmin məktəbi bitirmiş, 1949-1953-cü illərdə Ağcabədi rayonunun Hindarx kəndində partkom, 1953-1959-cu illərdə isə Vedi RPK-də şöbə müdiri, 1959-1962-ci illərdə Vedi rayon Şidli kəndi kolxoz partiya təşkilatında, 1963-1968-ci illərdə isə yenidən Vedi RPK-də məsul vəzifədə işləmişdir.

Həyat yoldaşı **İsmayılova Sura Salman qızı** evdar qadındır. 8 övladları var: **Səmayə, Tamaşa, Dilman, Qəhrəman, Tamam, İsmayıl, Nəriman, Novruz**. Uşaqlarının 6-sı ali təhsillidir ki, onlardan da 2-si elmlər namizədi alimlik dərəcəsi almışlar.



Fərman müəllim ömrünün sonunadək xalq arasında böyük hörmət sahibi olmuşdur. Ömrü boyu etdiyi yaxşılıq və hörmətin nəticəsi olaraq həmişə el-oba tərəfindən hörmətlə yad edilir. Ömrü boyu halal zəhmətlə dolanan Fərman müəllim 2000-ci ildə vəfat etmişdir.

Oğlu **QƏHRƏMAN FƏRMAN OĞLU MƏMMƏDOV** 1953-cü il aprel ayının 1-də anadan olmuşdur. Ali təhsillidir.

1984-cü ildə əyani aspiranturada təhsil aldıqdan sonra Ukraynanın paytaxtı Kiyev şəhərindəki Elmi-Tədqiqat Psixologiya İnstitutunda namizədlik dissertasiyası müdafiə edərək psixologiya elmləri namizədi adına layiq görülmüşdür. 20-dən çox el-

mi əsər, metodik tövsiyə və 1 dərslik müəllifidir.

1974-1996-cı illərdə müəllim, elmi işçi və peşəyönümü sahəsində mütəxəssis işləmişdir. 1984-1988-ci illərdə Azərbaycan Respublikası Maarif Nazirliyində məsul vəzifədə çalışmışdır. 1997-ci ildən Şəbail rayon Fəvvarələr və Yeraltı keçidlərin İstismarı İdarəsinin rəisi işləyir.



Qızı **TAMAM FƏRMAN QIZI BAYATLI (MƏMMƏDLİ)** Vedi rayonunun Taytan kəndində anadan olmuş, ibtidai məktəbi həmin kənddə bitirmiş, orta təhsilini Vedi rayonunun Şirazlı kənd məktəbində və Bakı şəhər 39 saylı məktəbində davam etdirmiş, məktəbi bitirdikdən sonra Azərbaycan Xarici Dillər İnstitutunun ingilis dili fakültəsinə daxil olmuşdur.

Ali məktəbdən sonra təhsilini həmin institutun əyani aspiranturasında davam et miş, ingilis dilinin qrammatikası üzrə n zədlik dissertasiyasını Tiflis Dövlət Un sitetində müdafiə etmişdir. Filologiya ləri namizədi kimi bir sıra elmi məqalələr müəllifidir və həmi işlərinə görə dosent elmi adını almışdır.

Azərbaycan xarici Dillər İnstitutunda müəllim, baş müəllim, do sent və kafedra müdiri vəzifələrində çalışmışdır. İnstitutda kafedra müdiri işləyərkən paralel olaraq dövlət qərarı ilə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətində ingilis dilində verilişlər şöbəsini yaratmış və ona rəhbərlik etmişdir.

## ƏLİZAMAN TALIB OĞLU RƏSULOV

1938-ci ildə Taytan kəndində anadan olmuşdur. IV sinfə kimi Taytan kəndində oxumuş, ailələri 1950-ci ildə Biləsuvar rayonunun Arxangelovka kəndinə deportasiya olunduqlarından orta məktəbi Biləsuvarda bitirmişdir. Sonra ailələri İmişli rayonunun Bəcrəvan kəndinə köçüb getmişlər.

Ə.Rəsulov 1963-cü ildə Azərbaycan Kənd Təsərrüfat İnstitutunun meyvə-tərəvəzçilik və üzümçülük fakültəsini bitirmiş, Sədərəkdə əmək fəaliyyətinə başlamış, Üzümçülük şöbəsinin müdiri, Naxçıvan rayonunun baş aqronomu, Naxçıvan Üzümçülük-Şərabçılıq Trestinin rəis müavini, Arpaçay sovxozunun direktoru, 1977-84-cü illərdə Azər-





baycan Elmi-Tədqiqat Üzümçülük və Şərabçılıq İnstitutunun elmi işçisi, 1984-1991-ci illərdə Naxçıvan Aqrar-Sənaye Birliyi Üzümçülük İdarəsinin rəisi, 1991-1992-ci illərdə Naxçıvan MR Ali Məclisinin bölmə müdiri, 1993-1998-ci illərdə Naxçıvan MR Meyvə-Tərəvəz və Kartofçuluq İdarəsinin rəisi, sonra Bakı şəhər Elmi-Tədqiqat Üzümçülük və Şərabçılıq İnstitututunda elmi işçi işləmişdir.

Hazırda Respublika Ekoloji Tərbiyə və Təcrübəçilik Mərkəzinin direktor müavini, kənd təsərrüfatı elmləri namizədidir. "Şərəf nişanı ordeni", Naxçıvan MR Ali Sovetinin Fəxri fərmanı ilə təltif edilmiş, "Maarif əlaçısı" adına layiq görülmüşdür.

## ŞADMAN BƏHLUL OĞLU HÜSEYNOV



1945-ci il dekabrın 4-də Taytan kəndində anadan olmuşdur.

Babası **Hüseyn** gənc yaşlarında Təbrizdən Vedibasara köçmüş, burada bənnalıqla məşğul olaraq Usta Hüseynalı kimi tanınmışdır.

Atası **Bəhlul Hüseyn oğlu Əhmədov** Vedibasarın sayılıb-seçilən kişilərindən olmuşdur.

Ailələri 1950-ci ildə bütün taytanlılar kimi Salyan rayonunun Qırmızıkənd kəndinə deportasiya olunmuş, sonra oradan Gəncə şəhərinə köçmüşlər.

1964-cü ildə Gəncədə 25 saylı rus orta məktəbini, 1970-ci ildə Saratov Tibb İnstitutunu bitirmiş, 1970-1972-ci illərdə Sovet ordusu sıralarında hərbi həkim kimi qulluq etmiş, hərbi xidmətdən qayıdıb, Gəncə dəmiryol xəstəxanasında həkimlik fəaliyyətini davam etdirmişdir. Sahə həkimliyindən şöbə müdirliyinə qədər bütün vəzifə pillələrini keçən Şadman Hüseynov 1977-ci ildə xəstəxanaya baş həkim təyin edilir və 14 il bu vəzifədə işləyir. 1991-ci ildən Milli Məclisin deputatı, hazırda həm də "Qərbi Azərbaycan" Beynəlxalq Cəmiyyətinin sədridir.

## TELLİ BABA

Vedibasar mahalının Cığındərə bölgəsində, Məngük kəndi yaxınlığında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Vedi nahiyəsinin Məngük kəndi yaxınlığında **Telli Baba məzrəsi** kimi qeydə alınmışdır. Kənddə Hüseyn Muçurlu oğlunun adına olan timardan dövlətin müxtəlif vergilər şəklində götürdüyü illik gəlirin məbləğinin 1.200 ağça olduğu göstərilmişdir.

Sonrakı mənbələrdə kənd haqqında məlumata rast gəlmirik.



## TƏRƏKƏMƏLƏR

Vedibasar mahalının Millidərə bölgəsində, Qəmərli rayon mərkəzindən 28-30 km şimal-şərqdə, Böyük Gilanlar kəndinin yaxınlığında, Gərnisu çayının kənarında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Gərni nahiyəsinin tərkibində **Qoturvəng** kəndindən bəhs edilmiş və kəndin ikinci adının **Tərəkəmələr** olduğu göstərilmişdir. Mənbədə kənddə Hacı Abdulla oğlunun adma olan timardan dövlətin müxtəlif vergilər şəklində ildə 3.500 ağça gəlir götürdüyü barədə qeyd də verilmişdir.

XVIII yüzilə aid başqa bir mənbədə kəndin adı **Tərəkəmə**, İ.Şopendə (1832) və sonrakı mənbələrdə isə **Tərəkəmələr** şəklindədir. İ.Şopenin Tərəkəmələr kəndini Gərnibasar mahalı üzrə dağıdılmış kəndlər siyahısına daxil etməsi onun 1826-1829-cu illər Rusiya-İran, Rusiya-Osmanlı müharibələri zamanı böyük dağıntılara məruz qalması ilə əlaqədar olmuşdur.

Kəndin adının azərbaycanlıların etnogenezində iştirak etmiş **Tərəkəmələr** türk tayfasının adından əmələ gəldiyi şübhəsizdir. Tərəkəmələr Oğuz türklərinin bir qolu olmaqla ərəbcə **türkmən** sözünün cəmidir. Azərbaycanda Kür-Araz ovalığında, Mil-Qarabağ, Muğan və Şirvan düzlərində yaşayan, əsasən heyvandarlıq və əkinçiliklə məşğul olan Tərəkəmələr həm də Qərbi Azərbaycan ərazisində məskunlaşmışlar. Ona görə də istər Şimali və Cənubi, istərsə də Qərbi Azərbaycan ərazisində çoxlu eyniadlı toponimlər qeydə alınmışdır. 1873-cü ilin statistik məlumatlarında Gərnibasar mahalının dağlıq hissəsinə aid edilmiş Tərəkəmələr kəndinin Gərnisu çayının kənarında, Goravan (?) dağının ətəyində yerləşdiyi göstərilməklə yanaşı, kənddə 4 təsərrüfatda 32 nəfər (19 kişi, 13 qadın) Azərbaycan türkünün yaşadığı da qeyd olunmuşdur.

1886-cı ildə Tərəkəmələr kəndində 7 təsərrüfatda 46 nəfər (24 kişi, 22 qadın) əhali yaşamışdır. Kəndin 341 desyatin torpaq sahəsinin 0,5 desyatinini malikanə torpaqları, 6 desyatinini suvarılan, 34 desyatinini suvarılmayan əkin yerləri təşkil etmişdir.

Kənddə 26 iribuynuzlu, 20 xırdabuynuzlu mal-qara qeydə alınmışdır.

1886-cı ilə aid məlumatlarda kənd sakini Əhməd Həsən oğlunun kəndin yaxınlığındakı Millidərə adlanan yerdən 1 desyatin qamışlıq ərazini icarəyə götürdüyü barədə qeyd də var.

1897-ci ildə kənddə 33 nəfər, 1905-ci ildə 50 nəfər, 1914-cü ildə 83 nəfər azərbaycanlı yaşamışdır.

1918-ci ildə kənd erməni daşnakları tərəfindən dağıdılmış, əhalisi qəddarlıqla qətlə yetirilmişdir. O vaxtdan kənd xaraba qalmışdır.



## TƏZƏKƏND (CIĞIN TƏZƏKƏND)

Vedibasar mahalının Cığındərə bölgəsində, Ərmik kəndi yaxınlığında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) Vedi nahiyəsinin **Təzəkü kəndi**, "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) həmin nahiyənin **Təzəki kəndi** kimi qeydə alınmışdır. Üstəlik, ikinci mənbədə kənddə artıq heç kimin yaşamadığı və Məhəmməd Hacı Mirzə oğlunun adına olan timardan dövlətin müxtəlif vergilər şəklində il ərzində 3.000 ağça gəlir götürdüyü göstərilmişdir.

1875-1880-ci illərdə Ərmik kəndindən çıxmış ailələr hesabına Təzəkəndin xarabalıqları yerində köhnə kənd bərpa olunmuşdur. Buna görə də 1886-cı ilin statistik məlumatlarında Ərmik, Ağbulaq və **Təzəkənd** kəndlərinin adları yanaşı verilmiş, üç kənddə birlikdə 55 ailədə 514 nəfər (284 kişi, 230 qadın) Azərbaycan türkünün yaşadığı göstərilmişdir. Kəndlərin 1399,5 desyatin torpaq sahəsinin 4,5 desyatinini malikanə torpaqları, 2 desyatinini meşə zolağı, 20,17 desyatinini suvarılan, 572 desyatinini suvarılmayan əkin yerləri təşkil etmişdir. Kəndlərin 691 iribuynuzlu, 912 xırdabuynuzlu mal-qarası olmuşdur.

Hər üç kəndin İrəvan qəzasının **Dübəyli** yaylağında eyniadlı müştərək yurd yeri olmuşdur. 122 desyatin ərazini əhatə edən bu yurd yerindən kəndlər 1884-cü ildən başlayaraq istifadə etmişlər.

1897-ci ildə Təzəkənd kəndində cəmi 55 nəfər əhali yaşamışdır.

1918-ci ildə erməni-daşnak hücumlarının gücləndiyi bir vaxtda təzəkəndlilər Qaratorpaq kəndinə sığınmağa məcbur olmuşlar. 1920-ci ildə isə, bütün vedibasarlılar kimi, müvəqqəti Cənubi Azərbaycana mühacirət etmişlər.

Sovet hakimiyyətinin ilk illərində kənd əhalisinin bir hissəsi yenidən doğma kəndə qayıtsalar da, 1939-cu ildə onlar bütövlükdə Qaraqoyunlu kəndinə köçürülmüşlər. O vaxtdan da kənd xaraba qalmışdır.

## VƏLİCAN

Vedibasar mahalının aran hissəsində, Ağrıdağ vadisində kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

1826-1829-cu illər Rusiya-İran, Rusiya-Osmanlı müharibələrindən sonra kənd dağıldığından İ.Şopen də (1832) **Vəlican kəndini** Vedibasar mahalının xaraba kəndləri siyahısına daxil etmişdir.

Kəndin adının Qızılbaşların Ustaclı tayfasının əmiri **Vəlican bəy Türkimanın** adını daşıması ehtimal olunur (B.Budaqov, Q.Qeybullayev). O Vəlican bəy ki, 1514-cü ildə məşhur Çaldıran döyüşündə öldürülmüşdü. Çuxur-Sakat bəylərbəyliyi, o cümlədən Vedibasar mahalı ərazisində Ustaclı tayfasının daha çox məskunlaşması tarixi faktı Vəlican kəndinin, doğrudan da, **Vəlican bəyin** adını daşıması fikrini daha da möhkəmləndirir.

Eyniadlı kənddən biri də İrəvan xanlığının Sürməli mahalı ərazisində olmuşdur.

Sonrakı mənbələrdə kəndin adına rast gəlmədik. Bu sübut edir ki, 1828-ci ildən sonra kənd bir daha bərpa olunmamış və tarix səhnəsindən həmişəlik silinmişdir.



## YAPPA

Vedibasar mahalının Millidərə bölgəsində, Ağdağ dağı ilə Qızıllı dağı arasında, Çatma kəndi yaxınlığında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

Əlimizdə olan bütün mənbələrdə kəndin adı **Yappa** kimi qeyd olunmuşdur. Doğrudur, "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) Gərni nahiyəsində **Alpaq məzrəsi** toponimi dərhal diqqəti çəkir. Lakin onun məhz Yappa kənd adının ilkin variantı olduğunu söyləməyə hələ kifayət qədər əsasımız yoxdur. Ona görə də mülahizələrimizi **Yappa** variantı üzərində cəmləşdirməklə kifayətlənirik.

Elmi ədəbiyyatda adın mənşəyi barədə dəqiq fikir yoxdur. Təkcə onu ehtimal etmək olar ki, yerli dialektdə **yappa** sözü **yastı** mənasında işlənirdi və çox mümkündür kənd coğrafi yerinə – yastanada yerləşdiyinə görə bu adı almışdır.

Kənd 1826-1829-cu illər Rusiya-İran, Rusiya-Osmanlı müharibələri zamanı böyük dağıntılara məruz qalmış və İ.Şopen (1832) onu Gərnibasar mahalının xaraba kəndləri sırasına daxil etmişdir.

1886-cı ilə aid statistik məlumatlarda Qəfərli kəndinin dövlət kəndliləri icmasının 1885-ci il üçün **Yappa kəndi** ərazisində 282 desyatin əkin-otlaq yeri icarəyə götürməsindən bəhs edilir. Yappa kəndinə məxsus bu ərazinin Xaraba Kotanlı və Çatmadağ kəndləri yaxınlığında yerləşməsi barədə də mənbədə qeyd var.

1897-ci ildə Yappa kəndində 62 nəfər, 1905-ci ildə 55 nəfər, 1914-cü ildə 104 nəfər azərbaycanlı yaşamışdır.

1918-1920-ci illərdə kənd erməni daşnaklarının vəhşi hücumlarına məruz qalmış, darmadağın edilmişdir.

Sovet hakimiyyətinin ilk illərində kənd əhalisinin çox az bir hissəsi doğma yurda qayıtsa da, 30-cu illlərdə kollektivləşmə ilə bağlı kənd ləğv edilmiş, o vaxtdan da xaraba qalmışdır.

## YAYCI

Vedibasar mahalının aran hissəsində, Ağrıdağ vadisində, İrəvan-Naxçıvan avtomobil yolunun, İrəvan-Naxçıvan-Bakı dəmiryol xəttinin kənarında, Armaş kəndinin yaxınlığında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

Kəndin adı Oğuz türklərinin **Yaycı** tayfasının adından yaranmışdır. Xatırladırıq ki, XIX yüzildə təkcə Cənubi Qafqazda səkkiz Yaycı kəndi olmuşdur. Onların əksəriyyəti Qərbi Azərbaycan ərazisində yerləşmişdir. Belə ki, Vedibasardan başqa, Dərələyəz, Qırxbulaq, Dərəçiçək, Zəngəzur və Sürməli mahallarında da Yaycı adlı kəndlər qeydə alınmışdır.

Vedibasar mahalının **Yaycı kəndində** 1897-ci ildə 18 nəfər, 1914-cü ildə 157 nəfər Azərbaycan türkü yaşamışdır.

Kəndin adı **Yaycı** şəklində 1903-cü ilin hərbi-topoqrafik xəritəsində də öz əksini tapmışdır.

1918-1920-ci illər erməni-müsəlman davası zamanı kənd erməni daşnakları tərəfindən yerlə-yeksan edilmişdir. O vaxtdan kənd xaraba qalmışdır.

1925-ci ildə kəndin kənarında **Armaş** adlı yeni kənd salınaraq Türkiyədən qaçıb gəlmiş xeyli erməni orada yerləşdirilmişdir. Yaycı kəndinin xarabalıqları son illərə qədər Armaş kəndinin kənarında qalmaqda idi.



## YEDDİQARDAŞ

Vedibasar mahalının Cığındərə bölgəsində, Dəhnəz kəndindən 7 km aralıda, uca dağlar qoynunda güllü-çiçəkli bir dərədə kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

Kənd qədimdə **yeddi qardaş** tərəfindən salındığı üçün bu adı almışdır.

XIX yüzilin əvvəllərində qohumu Ələsgərin təkidi ilə Təbrizin Güney kəndindən köçüb gələn **Bəkir bəy** Yeddiqardaşda məskunlaşmış, sonralar Bəkir bəyin oğlu **Səttar** Ələsgərin qızı ilə evlənib Vedibasarda məşhur olan **Səttaruşağı** nəslinin bünövrəsini qoymuşdur. Bu nəsildən Səttarın oğlu **Əli,** Əlinin oğlu **Musa** ayrı-ayrı vaxtlarda erməni daşnaklarına qarşı mərdliklə vuruşmuşlar.

1905-ci ildə erməni-müsəlman davası zamanı **Əli Səttaroğlunun** başçılığı ilə yeddiqardaşlılar düşmənə qarşı nə qədər qəhrəmanlıqla vuruşsalar da, kənd daşnaklar tərəfindən darmadağın edilmiş, o vaxtdan da həmişəlik xaraba qalmışdır. Ara sakitləşəndən sonra yeddiqardaşlılar Dəhnəz kəndi yaxınlığındakı Keşişdağ müsəlman kəndinə köçüb burada məskunlaşmışlar.

Yeddiqardaş kəndinin xarabalıqları son illərə qədər qalmaqda idi.

## YELLİCƏ (İLLİCƏ)

Vedibasar mahalının Millidərə bölgəsində, Yellicə dağı ətəyində, Yellicə çayı kənarında, Qəmərli rayon mərkəzindən 28 km şimal-şərqdə, Böyük Gilanlar kəndi yaxınlığında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

Yerli tələffüz forması **"İllicə"** olsa da, İ.Şopendə (1832) **Emincə**, 1873-cü ilin statikasında Yemincə//Yellicə və bütün digər mənbələrdə **Yellicə** kimi yazıya alınmışdır. Adın etimologiyası ilə bağlı dəqiq fikir yoxdur. Qərbi Azərbaycanda İlli kəndi, Ellidərə dərəsi (Amasiya rayonunda), Yellidərə kəndi, Yellidərə çayı (Qızılqoç rayonunda), Yellicə kəndi (Zəngəzurda) və s. toponimlərin mövcudluğu, XIX yüzildə Qərbi Azərbaycanda təkcə Yellicə adı ilə 5 kəndin, üstəlik İ.Şopendə kəndin adının **Ellicə** şəklində olması – bunlar adın **Elli (illi)** tayfa adı ilə bağlılığı fikrini doğurur.

İrəvan dialektində **"külək"** sözü əvəzinə **"yel"**, **"küləkli"** əvəzinə **"yelli"** ifadəsi işləndiyindən **Yellicə** adının **"küləkli yer"** anlamında olması da mümkün ehtimallardan biridir.

İ.Şopendə (1832) Gərnibasar mahalının Emincə kəndi kimi qeydə alınan Yellicə kəndində o vaxt 11 təsərrüfatda 45 nəfər (26 kişi, 19 qadın) Azərbaycan türkü yaşamışdır.

1873-cü ilin statistik məlumatlarında kəndin əhalisinin 19 təsərrüfatda 197 nəfər (106 kişi, 91 qadın) olduğu göstərilmişdir. Bundan əlavə, kəndin yanındakı **Yellicə dağı** təpəsində Bizans üslubunda "Müqəddəs Stefan kilsəsi monastrı" və heyrətamiz qəbirüstü xaçlar da qeydə alınmışdır ki, bu da ərazinin islamaqədərki arman-türk yüksək xristian mədəniyyətindən xəbər verir.

1886-cı ildə kənddə 23 təsərrüfatda 197 nəfər (138 kişi, 59 qadın) azərbaycanlı yaşamışdır. Camaatı əsasən əkinçilik və maldarlıqla məşğul olan kəndin 570,6 desyatin torpaq sahəsinin 2 desyatinini malikanə torpaqları, 1 desyatinini bağ sahələri, 4 desyatinini suvarılan, 120 desyatinini suvarılmayan əkin yerləri təşkil etmişdir. Kənddə 127 iribuynuzlu, 288 xırdabuynuzlu mal-qara qeydə alınmışdır. Kəndin torpaqları kəndiçi bulaqların



suyu ilə suvarılmışdır.

Yellicə kəndinin İrəvan qəzasının **Muğdusiyurd** yaylağında kənd əhalisinin qədimdən istifadə etdiyi 375 desyatin ərazidə eyniadlı yurd yeri olub.

1886-cı ilin göstəricilərində belə bir məlumat da var ki, Qoxt kəndinin kəndliləri **Kərbəlayı İbrahim** və **Kəlbalı Həsən oğlu** Yellicə kəndi yaxınlığında **Qızqalası** adlanan yerdə biçənək üçün meşə idarəsinə məxsus 6 desyatin torpaq sahəsini 1884-1887-ci illər üçün icarəyə götürmüşdür.

1897-ci ildə kənddə 327 nəfər, 1916-cı ildə 407 nəfər azərbaycanlı yaşamışdır.

1918-1920-ci illər erməni-müsəlman davası zamanı kənd daşnaklar tərəfindən qarət edilmiş, yandırılmış, əhalisinin bir hissəsi qətlə yetirilmiş, sağ qalanlar ev-eşiyindən didərgin düşmüşlər.

1922-ci ildə kəndin qaçqın əhalisindən cəmi 58 nəfəri geri qayıda bilmiş, 1931-ci ildə kənddə yaşayanların sayı 96 nəfərə, 1939-cu ildə 181 nəfərə çatmışdır. 1937-1948-ci illərdə Qarabağlar rayonunun tərkibində mövcud olan kəndin əhalisi 1949-cu ildə zorla Azərbaycana köçürülmüş, o vaxtdan da kənd xaraba qalmışdır.

Qarabağlar rayonu ləğv edildikdən sonra kəndin ərazisi Qəmərli rayonunun tərkibinə verilmişdir.

## YENGİCƏ

Vedibasar mahalının aran hissəsində, Ağrıdağ vadisində, Vedi rayonunun mərkəzi olan Böyük Vedi qəsəbəsindən 5 km cənub-qərbdə, Vedi çayının qolu olan Böyük çayın üstündə kənd.

1920-ci ilə qədər kənddə ancaq Azərbaycan türkləri yaşamışlar. 1922-ci ildən 1988-ci ilədək azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuşdur. 1988-ci ildə kəndin azərbaycanlı əhalisi qovulmuş, kənd bütünlüklə erməniləşdirilmişdir.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) Vedibasar mahalının Arazboyu hissəsində yerləşən Aralıq nahiyəsində **Yenicə** adı ilə bir neçə toponim qeydə alınmışdır: **Yenicə məzrəsi, Yenicəyi-islamiyyət kəndi, Yenicəyi-İsa Çələbi məzrəsi.**

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) kəndin adı Vedi nahiyəsinin **Yenicək kəndi** kimi qeyd olunmuş, kəndin Kiçik Qarabağ kəndinin yaxınlığında yerləşdiyi göstərilmiş, kənddə Əlinin adına olan timardan dövlətin müxtəlif vergilər şəklində götürdüyü illik gəlirin 5.000 ağça olduğu qeyd edilmişdir. Həmin ilə aid başqa bir dəftərdə kəndin adı **Yenəciqdir**.

1832-ci ildən etibarən isə bütün mənbələrdə kəndin adı **Yengicə** kimi verilmişdir ki, bu da türk dillərində "yengi" – təzə anlamında "Təzəkənd" deməkdir. Keçmişdə hər hansı bir kənddən çıxan ailələr həmin kəndə məxsus torpaqlarda köçüb məskunlaşanda bu yeni məntəqənin adı Yengicə adlanırdı. Görünür, buna görədir ki, Qərbi Azərbaycanda (Dərələyəz, Zəngibasar, Gərnibasar, Dərəçiçək, Qırxbulaq mahallarında) Yengicə, Yenikənd, Yenicə adları ilə çoxlu kənd olmuşdur.

Şimali Azərbaycanda da eyniadlı neçə-neçə kənd mövcuddur (Şərur, Ağdaş və s. rayonlarda).

Lakin bütün bunlar kəndin bölgədə heç də ən cavan kənd olmağına dəlalət etmir. Kəndin yanındakı boyu üç metrə çatan Oğuz qəbirləri də buraların Oğuz türklərinin çox-çox qədimlərdən bəri anayurdları olduğunu təsdiqləyir.

1826-1829-cu illər Rusiya-İran və Rusiya-Osmanlı müharibələri zamanı böyük dağıntılara məruz qalan Yengicə kəndində 1832-ci ildə cəmi 4 təsərrüfatda 37 nəfər (18 kişi, 19 qadın) müsəlman əhali qeydə alınmışdır.



1873-cü ilə dair statistik məlumatlarda kənddə 18 təsərrüfatda 189 nəfər (104 kişi, 85 qadın) Azərbaycan türkünün yaşadığı göstərilmişdir.

1886-cı ildə kənddə 23 təsərrüfatda 197 nəfər (138 kişi, 59 qadın), 1897-ci ildə 313 nəfər, 1904-cü ildə 470 nəfər, 1914-cü ildə 475 nəfər azərbaycanlı yaşamışdır.

1918-1920-ci illər erməni-müsəlman davası zamanı ən çox dağıntılara məruz qalan kəndlərdən biri də Yengicə kəndi olmuşdur. Doğma yurdunu müvəqqəti tərk etməyə məcbur olan bütün vedibasarlılar kimi, Yengicə kəndinin qaçqın əhalisi də yalnız Sovet hakimiyyəti illərində geri qayıtmaq imkanı qazanmışdır.

1922-ci ildə kəndin qaçqın əhalisindən geri qayıdanların sayı artıq 162 nəfər idi. Lakin elə həmin il dövlət kənddə Türkiyədən gəlmə 187 nəfər erməni də yerləşdirmişdir.

1931-ci ildə isə kənd əhalisinin sayı aşağıdakı nisbətdə idi: 182 nəfər azərbaycanlı, 192 nəfər erməni.

1948-1953-cü illərdə Vedibasar ərazisində deportasiyaya məruz qalan kəndlərdən biri də Yengicə olmuşdur. Kənd əhalisinin bir hissəsi Azərbaycana köçürülmüş, boşalmış azərbaycanlı evlərinə isə xaricdən gətirilən ermənilər yerləşdirilmişlər.

1988-ci ildə kəndin azərbaycanlı əhalisi vəhşicəsinə qovulmuş və kənd bütünlüklə erməniləşdirilmişdir. 1991-ci ildə kəndin Yengicə adı dəyişdirilərək **Sisavan** qoyulmuşdur.

* * *

Kənddə əsasən iki böyük tayfa yaşamışdır: **Ocaqlılar** və **Məmmədlilər**. Kənddə həmin tayfaların yaşadığı küçələr də Ocaqlılar və Məmmədlilər adlanmışdır.

Ocaqlılar tayfası öz adını bu nəslin pir-ocaq sahibi olmasından götürüb. Yaxın vaxtlara qədər fəaliyyət göstərən bu Ocaq adamların iman yeri, ziyarətgahı olmuşdur.

Ocaq sahibləri **Almalı seyidləri** adlanırdılar. Həmin tayfanın nümayəndələri onların ulu babalarının qonşu Dərələyəz mahalının Almalı kəndindən köçüb gəlmələri barədə dəqiq məlumata malikdirlər. Seyidlərin nəslinin bir qolu bu gün də **Seyidov** soyadı daşıyırlar.

Ocaqlılar tayfasının nümayəndələrindən olan **Bəhram kişi** kəndin sayılıb-seçilən, ağıllı adamlarından idi. Onun böyük qar-

daşı **Kərim** isə kənddə igidliyi, qorxmazlığı ilə tanınırdı. 1918-1920-ci illərdə Vedibasar erməni hücumlarına məruz qalanda ilk gündən əlinə silah alanlardan və Abbasqulu bəy Şadlinskinin ordusunda daşnaklara qarşı ölüm-dirim müharibəsinə qoşulanlardan biri də Kərim olmuşdu.

1919-cu ildə Yengicə kəndi güclü erməni hücumuna məruz qalmış, elə o vaxtdan da kəndin məscid binası daşnaklar tərəfindən yandırılmışdı. 1988-ci ilə qədər həmin məscid binasının xarabalıqları kəndin içində, Böyük çayın yanı ilə uzanan küçənin qırağında qalmaqda idi.

Kəndin kənarından keçən məşhur **Stalin kanalı** 1930-cu illərdə tikilmişdi. Kanalın o tərəfində isə Ağdağa qədər **Qır dağı** uzanıb gedirdi. Bu iki dağ arasındakı düzənlik **Yovşanlı düz** adlanırdı. Qır dağında müalicəvi suyu olan **Şorbulaq** yerləşirdi.

Xatırladaq ki, qədim türk dilində **"təpəlik"**, **"dağlıq yer"** anlamını verən **"qır"** komponentli toponimlərə türklərin yaşadıqları ərazilərdə, xüsusilə Qafqazda və Türküstanda tez-tez rast gəlmək mümkündür. Qərbi Azərbaycan ərazisində isə vaxtilə Qıran (Sürməli nahiyəsi), Qırqı (Şəmşəddin rayonu) və s. kəndlər qeydə alınmışdır. Vedibasar mahalı ilə həmsərhəd olan Şərurda isə Daşarxdan Dizə kəndinə gedən yolun ikinci döngəsində məşhur Qırlar nekropolu aşkar edilmişdir.

Yengicənin yuxarısındakı təpəliklərdə ferma tikintisi apararmaq istərkən geniş ərazidə qədim qəbiristanlaq aşkar edilmişdi. Bu qəbirlərin ölçüsü (uzunluğu 3 metrə qədər) onların Oğuz qəbirləri olduğunu aşkar sübut edirdi. Adamlar bura **Oğuzlar qəbiristanlığı** deyirdilər. Lakin ermənilər bu faktı ört-basdır edib, ictimaiyyətdən gizlətdilər.

Yengicə kənd müsəlmanlarının qəbiristanlığı əvvəllər Yengicə və Qaralar kəndləri arasındakı Qaralar kənd qəbiristanlığına yapışıq idi. 1950-ci illərdə ermənilər bu qəbiristanlığın yengicəlilərə aid olan hissəsini dövlətin əli ilə ləğv edib, yerində Qaralar kənd kolxozunun alma bağlarını salmağa nail oldular. Yengicə kəndinin yeni qəbiristanlığı kəndin kənarında salındı.

1930-cu illərdə Yengicədə ibtidai məktəb fəaliyyət göstərib. **Əli Məmmədov** bu məktəbin direktoru olub. Kənd ibtidai məktəbini bitirən yengicəlilər yeddiilliyi qonşu Taytan, onilliyi isə



Böyük Vedi kəndlərində bitirərdilər. Sonra Yengicədə səkkizillik məktəb açıldı. Qaralarlı **Məmməd Qələndərov** bu məktəbin direktoru oldu. Şagirdlər tam orta təhsillərini əvvəllər Şirazlı, sonralar Qaralar kənd orta məktəbində almağa başladılar. 1976-cı ildə isə Yengicədə onillik beynəlmiləl məktəb açıldı və ikimərtəbəli məktəb binası tikilib istifadəyə verildi.



1948-1953-cü illər deportasiyası zamanı kənddən 10 təsərrüfat Ağstafaya köçürülüb. Lakin az sonra həmin ailələr geri qayıdıblar. Bundan başqa, Vedibasar mahalının dağlıq bölgələrində yaradılmış Qarabağlar rayonunun həmin illərdə bütünlüklə köçürülmüş kəndlərinin bəzi sakinləri sonradan geri qayıdıb, kəndlərini ləğv edilmiş görüb, rayonun aran kəndlərində məskunlaşırlar.

Yengicə kəndində azərbaycanlılardan **ƏLİ BAYRAMOV, Nemət Seyidov, Fərəməz Süleymanov, Rəşid Hətəmov** və b. ayrı-ayrı vaxtlarda müxtəlif rəhbər vəzifələrdə çalışıblar.



**İSMAYIL PİRƏLİYEV** Vedibasar mahalının məşhur Pirəli tayfasının nümayəndəsi və Yengicə kəndinin nüfuzlu ağsaqqallarından idi. Uzun illər Qaralar kənd məktəbində müəllim işləmişdi.

1988-ci ildə Yengicə kəndində artıq 130-a qədər azərbaycanlı ailəsi, 1860 nəfər azərbaycanlı yaşayırdı. Kənddə həmçinin 16 müsəlman kürd ailəsi vardı. 1988-ci ilə qədər də təqib və təzyiqlərə dözməyən onlarla yengicəli ailəsi artıq Azərbaycanda yaşayırdı.

1988-ci ildə bütün vedililər kimi, yengicəlilər də növbəti dəfə vətəndən didərgin salındılar. Əsasən Tərtər rayonunun Bəyim Sarov, Goranboy rayonunun Veyisli kəndlərində məskunlaşan yengicəli qaçqınlar Azərbaycanın ərazi bütövlüyü uğrunda Qa-

rabağ müharibəsinin də fəal iştirakçısı oldular. Hazırda yengicəlilər Bakı, Gəncə, Sumqayıt şəhərlərində, Tərtər, Goranboy, Xaçmaz, Beyləqan, İsmayıllı və b. rayonlarda daha çox yaşayırlar.

**Yengicədə azərbaycanlıların 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd-kolxoz) əmlakın siyahısı**

| | |
|---|---|
| Mal-qara üçün bina – | 4 əd |
| İribuynuzlu mal-qara – | 600 baş |
| Xırdabuynuzlu mal-qara – | 2500 baş |
| Donuz – | 450 baş |
| Toyuq – | 4000 baş |
| Üzüm bağı – | 110 ha |
| Meyvə bağı – | 80 ha |
| K/t maşınları – | 20 əd |
| Avtomaşınlar – | 22 əd |
| Qaraj – | 1 əd |
| Taxıl ambarı – | 1 əd |
| Yanacaq ambarı – | 1 əd |
| Dəmirçi sexi – | 1 əd |
| Dülgərxana – | 1 əd |
| Artezian quyusu – | 5 əd |
| Su nasos stansiyası – | 3 əd |
| Enerji şəbəkəsi – | 2 əd |
| İdarə binası – | 1 əd |
| Məktəb – | 1 əd |
| Klub – | 1 əd |
| Poçt – | 1 əd |
| Pavilyon – | 1 əd |
| Xəstəxana – | 1 əd |
| Uşaq bağçası – | 1 əd |
| Mağaza – | 3 əd |
| Yeməkxana – | 1 əd və s. |

## 1930-CU İLLƏRİN REPRESSİYA QURBANLARI

1. İbrahim Həsənov və b.



## 1941-1945-Cİ İLLƏR MÜHARİBƏSİNDƏ HƏLAK OLANLAR

1. Xəlil Nəbiyev
2. Xəlil Məmməd oğlu Mərdanov
3. Vəli Bəhram oğlu Bayramov
4. Fəti Əli oğlu Nəsrullayev
5. Firudin Həsənalı oğlu Nəbiyev
6. Cabbar Süleyman oğlu Süleymanov
7. Ağacan Cabbar oğlu Hacıyev
8. Abdulla Kərim oğlu Cəfərov
9. Yunis Həsənalı oğlu Nəbiyev
10. Qurban Əli oğlu Nəsrullayev
11. Bağır Abbasov
12. Dünyamalı Pirmurad oğlu Həsənov
13. Hüseynalı Pirmurad oğlu Həsənov

## QARABAĞ MÜHARİBƏSİ İŞTİRAKÇILARI

Yuxarıda qeyd etdiyimiz kimi, 1988-ci il hadisələri zamanı yenigicəlilər daha çox Goranboy və Tərtər rayonlarında məskunlaşdığından Yengicə oğulları da əsasən bu bölgədə erməni daşnaklarına qarşı müharibənin fəal iştirakçıları olublar.

Onlardan iki dəfə Azərbaycan Bayrağı ordeni almış, Goranboyda batalyon komandiri, polk komandirinin müavini olmuş **Xosrov Mustafayev,** qardaşları **Alo, Avdo, Əgid Mustafayevlər, Ziyadxan Məmmmədov, Zeyqəm Bayramov, Mehdi Bayramov, Ağalar Seyidov** və b. uzun döyüş yolu keçmiş, erməni təcavüzkarlarına qarşı qəhrəmanlıqla vuruşmuşlar.

## QARABAĞ MÜHARİBƏSİ ŞƏHİDLƏRİ

1. İbrahim Əvəz oğlu Cəfərov (1965, Yengicə – 1992, Ağdərə)
2. Şahvələd Əvəz oğlu Cəfərov (1963, Yengicə – 1992, Ağdərə)
3. İslam Dilman oğlu Vəliyev (1960, Yengicə – 1993, Goranboy)
4. Həbib Hüseyn oğlu Cəfərov (1967, Yengicə – 1993, Ağdərə)
5. Alo Ramazan oğlu Mustafayev (1961, Yengicə – 1994, Goranboy).

## AYDIN HEYDƏR OĞLU BABAYEV



1930-cu ildə Yengicə kəndində anadan olmuşdur.

Atası Heydər Baba oğlu Vedibasar mahalının sayılıb-seçilən şəxsiyyətlərindən olmuş, mənsub olduğu Pirəli tayfasına başçılıq, ağsaqqallıq etmişdir. Bu pəhləvan cüssəli igidin mərdliyi, qəhrəmanlığı barədə söhbətlər günümüzə qədər gəlib çatmışdır.

Abbasqulu bəy Şadlinskinin yaxın dostu, silahdaşı olan Heydər bəy Vedibasar oğullarının erməni daşnaklarına qarşı mübarizəsinin də fəal iştirakçısı olmuşdur. O, Abbas-qulu bəyin etamadını o dərəcədə qaza-mış ki, böyük sərkərdə yalnız onun ev qonaq olarkən öz silah-yarağını belindən açıb bir kənara qoyarmı

Abbasqulu bəyin ölümündən sonra Vedibasarın bir çox qəhrə oğulları kimi, Heydər bəy də erməni DTK-nın qara siyahısına d 1932-ci ildə onu xalq düşməni kimi həbs edirlər. Sonra elə həbsx daca zəhərləyib qəddarcasına qətlə yetirirlər.

Heydər bəyin oğlu Aydın, qızları Nəcibə və Tərlan əmiləri İsmayıl Pirəliyevin himayəsində böyüməli olurlar.

Aydın Babayev 1948-ci ildə Yengicə kənd yeddiillik məktəbini, sonra Gəncə tibb texnikumunu əla qiymətlərlə bitirir. Güləşçi kimi SSRİ-nin bir çox şəhərlərində idman yarışlarının iştirakçısı və qalibi olur. 1956-cı ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu bitirir. Elə həmin ildən Bakı şəhər 26 Bakı Komissarı (indiki Səbail) rayon İcraiyyə Komitəsinin idman şöbəsinə rəhbərlik etməyə başlayır.

Tarix fənninə həvəsi 1957-ci ildə onu Azərbaycan Dövlət Pedaqoji İnstitutunun tarix fakültəsinə gətirir. Oranı bitirib, 1962-ci ildən 26-lar rayon partiya komitəsində məsul vəzifələrdə çalışır, Bakı Ali Partiya Məktəbində təhsil alır.

1971-ci ildə Bakı trikotaj fabrikinə direktor təyin olunur.

Hazırda Karton-Etiket Məhsulları Səhmdar Cəmiyyəti İdarə Heyətinin sədridir.

40 illik qüsursuz fəaliyyətinə görə dövlət tərəfindən dəfələrlə orden, medal və fəxri fərmanlarla təltif edilmişdir.



Aydın Babayev həm də gözəl ailə başçısıdır. Həyat yoldaşı **Xədicə xanım** uzun illər istehsalatda rəhbər vəzifələrdə çalışmış, yüksək dövlət təltiflərinə layiq görülmüşdür. Böyük oğlu **Heydər Babayev** Kiyevdə Beynəlxalq Əlaqələr İnstitutunu bitirmiş, uzun illər xaricdə bank-maliyyə sistemində rəhbər vəzifələrdə işləmişdir. Hazırda Azərbaycan Respublikası Prezidenti yanında Dövlət Qiymətli Kağızlar Komitəsinin sədridir. Ortancıl oğlu **Yaşar Babayev** Xalq Təsərrüfatı İnstitutunu bitirib, Bakı şəhər Neft bazasının rəisi vəzifəsində çalışır. Kiçik oğlu **Elçin Babayev** Leninqradda Meşə Təsərrüfatı Akademiyasını bitirmişdir və hazırda kömrük sistemində işləyir, polkovnik-leytenantdır.

Bu gün Aydın Babayev və onun övladları ilə bütün nəsil, el-oba fəxr edir. Təsadüfi deyil ki, Aydın müəllimi nəinki tanıyanlar, hətta bəzən tanımayanlar da yaxınlıq, doğmalıq, minnətdarlıq əlaməti olaraq ona “Aydın dayı“ deyə müraciət edirlər. Bu haqqı o, səmimiyyəti, xeyirxahlığı, alicənablığı və el-oba yanğısı ilə qazanıb. Bütöv bir nəslin ağsaqqallıq yükünü bu gün də öz çiyinlərində, Vedibasar həsrətini isə ürəyində daşıyır.

## FƏRƏMƏZ CABBAR OĞLU SÜLEYMANOV



1935-ci ildə Yengicə kəndində anadan olmuşdur.

Ali təhsilli iqtisadçıdır.

1970-ci ildən 1988-ci ilə qədər Qərbi Azərbaycanda müxtəlif vəzifələrdə çalışmışdır.

1988-ci il hadisələri zamanı erməni daşnaklarının millətçilik siyasətinə qarşı kənd azərbaycanlılarını səfərbər edən, azərbaycanlıların daşnak hücumlarından müdafiəsi üçün təsirli tədbirlər görən, axıradək kənd camaatına ağsaqqallıq eləyən qeyrətli eloğlularımızdandır.

F.Süleymanov həmin il doğma kəndini tərk etməyə məcbur olmuş və Bakı şəhərində məskunlaşmışdır.

1989-cu ildən Suraxanı rayon İcra Hakimiyyətinin Qaraçuxur qəsəbə nümayəndəsidir. Altı övladı – iki oğlu, dörd qızı var.

## BAYRAM ƏLİ OĞLU BAYRAMOV



1950-ci ildə Yengicə kəndində anadan olmuşdur.

Orta məktəbi bitirdikdən sonra Bakı şəhərinə gəlmiş, Xalq Təsərrüfatı İnstitutunun maliyyə-kredit fakültəsinə daxil olaraq, oranı müvəffəqiyyətlə bitirmişdir.

Sonralar uzun müddət maliyyə-vergi orqanlarında çalışmış, Bakı şəhərinin Səbail rayonunda maliyyə şöbəsinə və Dövlət Vergi Müfəttişliyinin rayon şöbəsinə uzun illər rəhbərlik etmişdir. Hazırda Bakı şəhər Sabunçu rayon maliyyə idarəsinin rəisidir.

Oğlu **Samir**, qızı **Səkinə** ali təhsillidirlər. Kiçik oğlu **Rövşən** orta məktəbdə oxuyur.

## ELMAN ƏZİZ OĞLU QASIMOV



1957-ci il fevralın 20-də Yengicə kəndində anadan olmuşdur.

1974-cü ildə Qaralar kənd orta məktəbini, 1982-ci ildə Kalmıkiya Respublikasının Elista şəhərində avtonəqliyyat texnikumunu, 1985-ci ildə Həştərxan Xüsusi Milis Məktəbini, 1990-cı ildə Volqoqrad Ali Milis məktəbini bitirmişdir.

1979-cu ildən Rusiyanın ayrı-ayrı bölgələrində polis orqanlarında çalışan E.Qasımov 1990-cı ildə Azərbaycana qayıtmış, 1991-ci ilin sonunadək Naxçıvanın Şərur rayon polis şöbəsində işləmişdir.

1992-ci ildə təzədən Elistaya dönən E.Qasımov 1995-ci ilədək burada polis şöbəsində baş müstəntiq vəzifəsində çalışır. 1995-ci ildə təzədən və bu dəfə həmişəlik Azərbaycana qayıdır və Bakı şəhər baş Polis İdarəsində fəaliyyətini davam etdirir. Hazırda bu idarənin xüsusilə mühüm işlər üzrə baş müstəntiqi, polis polkovnik-leytenantıdır.

Bir oğlu, bir qızı var. Oğlu **İslam Qasımov** Rusiyanın Volqoqrad şəhərində İstintaq Akademiyasında təhsil alır.



## YENİ HƏYAT (NOR QYANK)

Vedibasar mahalının aran hissəsində, Ağrıdağ vadisində, İrəvan-Naxçıvan-Bakı dəmiryol xəttinin 1 km-liyində, İrəvan-Naxçıvan avtomobil yolunun üstündə, Qaralar kəndi yaxınlığında kənd.

Kənddə ermənilər və müsəlman kürdləri yaşamışlar.

Kənd 1946-1947-ci illərdə xaricdən köçürülüb gətirilən ermənilərin yerləşdirilməsi üçün salınmışdır. O vaxtdan kənddə ermənilər və müsəlman kürdləri məskunlaşmışlar. Əvvəllər **Yeni həyat kəndi** Kiçik Vedi kənd sovetliyinin tərkibində mövcud olmuş, sonralar ayrılıb müstəqil sovetliyə çevrilmişdir.



**Yeni həyat kəndinin ümumi görünüşü**

Kəndin **Yeni həyat** adı ermənicə tərcümə olunaraq **Nor** (yeni) **qyank** (həyat) şəklinə düşmüşdür.

1988-1990-cı illərdə "Ermənistan SSR"də yaşayan azərbaycanlıların məruz qaldığı dəhşətli soyqırımı Yeni həyat kəndində də öz qanlı izini qoymuşdur. Belə ki, kəndin varlı kürd ailələrindən biri – **Süleymanov Şamo** və arvadları **Seyran Kəlo qızı** və **Gözəl Həsən qızı** erməni daşnakları tərəfindən üstlərinə benzin tökülərək od vurulub yandırılmışdır. Bundan sonra ermənilər onların var-dövlətlərini, çoxlu mal-heyvanlarını talayıb aparmışlar.

Qonşu Qaralar kəndinin İrəvana gedən avtobus dayanacağı bu kəndin girişində yerləşirdi.

## YENİ YOL (NOR UQİ)

Vedibasar mahalının aran hissəsində, Ağrıdağ vadisində, Kirov qəsəbəsindən 3 km şərqdə, Şampan qəsəbəsi yanında kənd.

Qəsəbədə əsasən ermənilər və kürdlər yaşamışlar.

Sovet dövründə əvvəllər burada dövlət tinglik təsərrüfatı yaradılmış, sonra onun bazasında yeni yaşayış məntəqəsi salınmış, həmin qəsəbə tədricən qəsəbəyə çevrilmişdir. Kəndin adı Sovet ideologiyasına əsasən **Yeni yol** (ermənicə **nor** – **yeni**, **uqi** – **yol** deməkdir) adlandırılmışdır.

Qəsəbədə əsasən 1946-1947-ci illərdə xarici ölkələrdən köçürülüb-gətirilmiş ermənilər yerləşdirilmiş, qəsəbə böyüdükcə qonşu kəndlərdən də bəzi erməni və kürd ailələri köçüb burada yaşamışlar.

Qəsəbə uzun illər Kirov qəsəbə sovetliyinin tərkibində mövcud olmuşdur.



## YUXARI QARABAĞLAR (QARABAĞLAR)

Vedibasar mahalının Cığındərə bölgəsində, Vedi rayonunun mərkəzi olan Böyük Vedi qəsəbəsinin şərqində, Vedi çayının sağ kənarında, Dəhnəz kəndindən 300 m aralıda kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) kəndin adı **Yuxarı Qarabağ**, "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) **Böyük Qarabağ** kimi qeydə alınmışdır. İkinci dəftərdə Vedi nahiyəsinin Böyük Qarabağ kəndində Hacı Vəli Abbas oğlunun adına olan timardan il ərzində dövlətin müxtəlif vergilər şəklində 1.500 ağça gəlir götürdüyü göstərilmişdir.

1826-1829-cu illər Rusiya-İran və Rusiya-Osmanlı müharibələri zamanı Vedibasar mahalının bir çox kəndləri kimi, Yuxarı Qarabağlar kəndi də böyük dağıntılara məruz qalmış, İ.Şopenin 1832-ci ilə aid məlumatlarında **Qarabağlar-Uliya**, yəni **Yuxarı Qarabağlar** adı ilə Vedibasar mahalının xaraba kəndləri siyahısında verilmişdir.

Sonralar yenidən məskunlaşan kənd bundan sonrakı mənbələrdə də **Yuxarı Qarabağlar** adlandırılır.

Kənddə 1873-cü ildə 16 ailədə 135 nəfər (74 kişi, 61 qadın) əhali yaşamışdır. Həmin siyahıyaalmada kənd əhalisinin milliyyəti bütünlüklə "tatar", yəni Azərbaycan türkü kimi qeyd olunmaqla yanaşı, kəndin yaxınlığında kilsə qalıqlarının varlığından da bəhs edilmişdir. Vedibasar mahalında ən qədim dövrlərdən bəri erməni və rusların yaşamadığını nəzərə alsaq, deməli, bu, islamaqədərki arman (ərmən) türk-xristian kilsəsinin qalıqları imiş.

Kəndin adı eramızın ilk yüzillərində Cənubi Qafqaza gəlmiş gəngər-peçeneqlərin **Qarabağ** tayfasının adından götürülmüşdür. Cənubi Qafqaz, Türkiyə və İran ərazilərində Qarabağ, Qarabağlı, Qarabağlar toponimləri ilə bağlı bu kitabın "Aşağı Qarabağlar" bölməsində ətraflı bəhs etdiyimizdən təkrara ehtiyac görmürük.

1886-cı ilin məlumatlarında kənd əhalisinin 19 ailədə 175 nəfər (97 kişi, 78 qadın) olduğu göstərilmişdir. Kəndin təsərrüfat həyatının əsasında isə əkinçilik və heyvandarlıq dayanmışdır. Belə ki, kəndin 102,5 desyatin torpaq sahəsinin 2 desyatinini malikanə torpaqları, 2 desyatinini bağ sahələri, 38 desyatinini suvarılan, 20 desyatinini suvarılmayan əkin yerləri təşkil etmişdir. Kənddə 137 iribuynuzlu, 513 xırdabuynuzlu mal-qara olmuşdur.

Kənd əhalisi qışda **Getgedə-ağıl** deyilən yerdə 170 desyatinlik qışlaq ərazisinə malik olub. Yayda isə camaat kənddən 50 verst aralıda, Əyricə yaylağındakı **Şahbulaq** yurduna qalxmışlar. Yuxarı Qarabağlar kəndinin o vaxt 20 ildən bəri istifadə etdiyi bu yaylaq yeri 250 desyatin ərazini əhatə etmişdir. Bundan əlavə, kənd əhalisi həmin vaxtlar **Xanbaba bəy Fəti xan oğlu Şadlinskidən** hər ili 100 rubla əkin-otlaq sahəsi də icarəyə götürmüşdür.

Kənddə 1905-ci ildə 420 nəfər, 1914-cü ildə 426 nəfər azərbaycanlı yaşamışdır.

1918-1920-ci illər erməni-müsəlman qırğını zamanı kənd dağıdılmış, Sovet hakimiyyəti illərində yenidən bərpa olunmuşdur. Lakin adamların çoxu bu dəfə Aşağı Qarabağlar kəndi yaxınlığındakı Çimən kəndində məskunlaşmış, Yuxarı Qarabağlar kəndi yavaş-yavaş öz mövqeyini itirməyə başlamışdır. Bunu 1931-ci ildə kənddə cəmi 84 nəfər əhalinin yaşaması faktı da təsdiq edir. Halbuki bu vaxt Çimənkənd (Aşağı Qarabağlar) kəndində 8-10 dəfə çox əhali vardı.

Lakin burada bir məsələyə aydınlıq gətirmək lazımdır. Məsələ ondadır ki, mövqeyini Çimən kəndinə güzəştə gedən Aşağı Qarabağlar kəndi artıq bir kənd kimi sıradan çıxdığından Yuxarı Qarabağlar kənd adında da daha "Yuxarı" sözünə ehtiyac qalmamışdı və o, artıq sadəcə Qarabağlar adlandırılırdı.

1937-ci ildə Vedibasarın dağlıq zonasında yeni rayon yaradılarkən ermənilər daha bir hiyləyə əl atırlar. Belə ki, rayon mərkəzi Çimənkənd Vedi rayonunun mərkəzi olan Böyük Vedi qəsəbəsinə həddən artıq yaxın olduğundan bütün rəsmi sənədlərdə guya rayon mərkəzinin Qarabağlar kəndi olduğu göstərilir. Rayonun adı da Qarabağlar kəndinin adı ilə **Qarabağlar rayonu** adlandırılır. Bu vaxt Çimənkəndin qeyri-rəsmi Aşağı Qarabağlar adı da köməyə çatır. Ermənilər Qarabağlar və Çimənkənd (Aşağı Qarabağlar) kəndlərini Qarabağlar adlı vahid kənd kimi rəsmiləşdirirlər. Faktiki isə rayon mərkəzi Qarabağlar (Yuxarı Qarabağlar) yox, Çimənkənd olur.

1950-ci ildə Qarabağlar rayonunun bütün kəndləri kimi, bu kəndin də əhalisi məcburi şəkildə Azərbaycana deportasiya olunmuşdur. Bu vaxt kənddə 70-80 ev, dördillik ibtidai məktəb vardı. O vaxtdan da kənd xaraba qalmışdır.

Kəndin örüşündə qəbirüstü qoç və at daş heykəlləri son zamanlara qədər qalmaqda idi.



## ZƏNCİRLİ (ZİNCİRLİ)

Vedibasar mahalının Çanaxçıdərə bölgəsində, Çapançay çayının yaxınlığında, Saraybulaq (Zəncirli) dağ silsiləsinin ətəyində, İlan dağının döşündə kənd.

1828-ci ilə qədər kənddə ancaq Azərbaycan türkləri, 1832-ci ildən sonra isə ermənilər yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) və "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Vedi nahiyəsinin **Zəncirli kəndi** kimi qeydə alınmışdır.

1826-1829-cu illər Rusiya-İran və Rusiya-Osmanlı müharibələri zamanı böyük dağıntılara məruz qalan Zəncirli kəndi artıq İ.Şopendə (1832) Vedibasar mahalının xaraba kəndləri siyahısında verilmişdir.

1873-cü ilin statistik məlumatlarında isə Zəncirli kəndində 91 təsərrüfatda 707 nəfər (320 kişi, 387 qadın) erməninin yaşadığı, kənddə bir daş kilsənin olduğu göstərilmişdir. Kəndin yaxınlığında xaraba kəndin və xaraba kilsənin (çox güman ki, alban və ya arman kilsəsinin) olması barədə qeyddən aydınlaşır ki, 1832-ci ildə İ.Şopenin qeydə aldığı Zəncirli xaraba müsəlman kəndi sonradan bərpa olunmamış, İrandan köçürülən qaçqın ermənilər kəndin kənarında evlər tikərək yeni kənd salmışlar ki, yerli əhali bu yeni kəndi də keçmiş Zəncirli kəndinin adı ilə çağırmağa başlamışdır.

Yerli dildə **Zincirli** kimi tələffüz olunan kəndin adı ətəyində yerləşdiyi Zəncirli dağının adından götürülmüş, dağın adı isə onun **zəncirvari** görünüşü ilə əlaqədar meydana çıxmışdır.

Qərbi Azərbaycanda eyniadlı bir neçə toponim olmuşdur. Dərəçiçək mahalında Zəncirli kəndi, Novobayazid qəzasında Zəncirli dağı bu sıradandır. Türkiyənin cənub-şərqində, Qarasu çayının yuxarı axarında da Zəncirli adlı yaşayış yeri mövcud olmuşdur.

1886-cı ildə kənddə 108 təsərrüfatda 1277 nəfər (741 kişi, 536 qadın) əhali yaşamış, kəndin 2605,79 desyatin torpaq sahəsinin 16,23 desyatinini suvarılan, 1263 desyatinini suvarılmayan əkin yerləri təşkil etmişdir. Kənddə 518 iribuynuzlu, 1736 xırdabuynuzlu mal-qara saxlanmışdır. Kəndin torpaqları Qaraxaç çayından ayrılan su arxı ilə suvarılmışdır.

Kəndin qədimdən bəri İrəvan qəzasının **Dərəyurd** yaylağında 65 desyatin yurd yeri, **Nabatbulaq-ağıl** deyilən ərazidə isə 170 desyatin qışlaq yeri olmuşdur. Üstəlik, kənd camaatı erməni mülkədarı Əmirxanovdan hər qışı 120 rubla olmaqla 250 xalvar qış otlaq yeri icarəyə götürürmüş.

## ZİMMİ

Vedibasar mahalının Cığındərə bölgəsində, Məngük kəndi yaxınlığında, Yağan dağı ətəyində, Zimmi dərəsində kənd.

Kənddə Azərbaycan türkləri və müsəlman kürdləri yaşamışlar. "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) kəndin adı Vedi nahiyəsində **Zimmi kəndi** kimi qeydə alınmış, kənddən dövlətin müxtəlif vergilər şəklində götürdüyü illik gəlirin 12.000 ağça olduğu göstərilmişdir. Bundan əlavə, həmin dəftərdə kənddə Osman Həsən oğlunun adına olan timardan dövlətin ildə 3.000 ağça gəlir götürməsi barədə də qeyd var.

1826-1829-cu illərdə Rusiya-İran, Rusiya-Osmanlı müharibələri zamanı güclü dağıntılara məruz qalan kənd artıq İ.Şopendə (1832) Vedibasar mahalının xaraba kəndləri siyahısında verilmişdir.

Zimmi kəndinin adı VII yüzilin ortalarına – burada müsəlman dininin yayıldığı dövrə gedib çıxır. Belə ki, işğal etdikləri ərazilərin əhalisi ilə dərhal müqavilələr bağlayan ərəblər bu müqavilələrdə yerli torpaq sahiblərinin maraqlarını da gözləyir, həmin torpaqların öz sahiblərində qalmasına təminat verirdilər. Başqa dinə mənsub olan belə sahibkarlar **zimmi** statusu ilə müsəlman icmasının himayəsində qalır, torpaq sahibkarı kimi torpaq vergisi – xərac, qeyri-müsəlman olduqları üçün isə can vergisi ödəyirdilər. Bundan başqa, müsəlmanlardan fərqli olaraq, zimmilər torpaq vergisini ikiqat ödəyirdilər. Bir müddət sonra ərəblər zimmilərdən döyüşçü kimi də istifadə etməyə başladılar. Orduda müqavilə ilə vuruşan zimmilər, adətən, ən çətin döyüş əməliyyatlarını yerinə yetirir, haqlarını qənimətin bölüşdürülməsində iştirak etməklə alırdılar. Bəzən zimmilər ərəb ordusunda qulluq etməklə öz vergilərini ödəmiş hesab olunurdular.

Sonrakı yüzillərdə kəndin əhalisi müsəlmanlığı qəbul etsə də, kənd öz Zimmi adını saxlamışdır.

1873-cü ilin statistik məlumatlarında kənddə 29 təsərrüfatda 184 nəfər (100 kişi, 84 qadın) Azərbaycan türkünün yaşadığı qeyd olunmuşdur. Bundan əlavə, kənddə qədim kilsə qalıqları, qəbirüstü abidələr də qeydə alınmışdır.



1886-cı ildə kənd əhalisinin sayı 30 təsərrüfatda 231 nəfərə (127 kişi, 104 qadın) çatmışdır. Yenə də kənd əhalisinin bütünlüklə "tatar"lardan, yəni Azərbaycan türklərindən ibarət olduğu qeyd edilmişdir. Əhalisi əsasən heyvandarlıq və əkinçiliklə məşğul olan kəndin 904,17 desyatin torpaq sahəsi olmuş, onun 3 desyatinini malikanə torpaqları, 300 desyatinini suvarılmayan əkin yerləri təşkil etmişdir. Kənddə 245 iribuynuzlu, 630 xırdabuynuzlu mal-qara qeydə alınmışdır.

Kənd əhalisi Vedi bəyi Məmməd bəy Hüseyn bəy oğlu Şadlinskidən hər ili 60 rubla 30 xalvar əkin-biçənək yeri icarəyə götürmüşdür.

Kənddə 1905-ci ildə 259 nəfər, 1914-cü ildə 263 nəfər əhali yaşamışdır.

1918-1920-ci illərdə erməni-müsəlman müharibəsi zamanı daşnaklar tərəfindən dağıdılan kəndin qaçqın əhalisinin çox az hissəsi – cəmi 24 nəfər Sovet hakimiyyəti illərində geri qayıda bilmişdi. 1931-ci ildə kənddə yaşayanların sayı artıq 31 nəfər təşkil edirdi. 1937-ci ildə Vedibasar mahalında yaşayan kürd əhalisi ilə birgə Zimmi kəndinin kürdləri də Qırğızıstanın Oş vilayətinə sürgün edilmişlər. Kənddə yaşamaqda davam edən azərbaycanlı əhalisi isə 1949-cu ildə məcburi şəkildə Azərbaycana köçürülmüşlər. Kənd o vaxtdan xaraba qalmışdır.

* * *

Zimii kəndinin içində, təpənin başında **Zimmi ocağı** adlanan ziyarətgah vardı. Burada Kəlba Həsənalının qəbri yerləşirdi. 1988-ci ilə qədər Ocaq adamların ziyarətgahı kimi qalmaqda idi.

Zimmi kəndindən bir qədər aralıda **Çardaqlı dağı** adlı dağ yerləşirdi.

## Mənbələrdə Vedi nahiyəsi üzrə adı çəkilən, lakin yerini müəyyənləşdirə bilmədiyimizdən Vedibasar kəndləri siyahısına daxil etmədiyimiz toponimlər

### "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590):

Acısu ciftliyi
Molla Seyfəddin kəndi
Görçü viranı məzrəsi
Qızılbulğun məzrəsi
Çukəndər kəndi
Bakir məzrəsi
Axurbulaq məzrəsi
Axirəs kəndi
Sənasir məzrəsi
Qamışlıçuxur kəndi
At ağılı məzrəsi
Dikmədaş məzrəsi
At qışlağı məzrəsi
Yaraqlıbucaq kəndi

### "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728):

Böyük Meralar kəndi
Kiçik Meralar kəndi
Çovkəndiz kəndi
Bədənayin kəndi
Piri-qayib qışlağı



## VEDİBASAR MAHALINDA İŞLƏDİLƏN SÖZLƏRİN DİALEKTOLOJİ LÜĞƏTİ

**ağ gilas** – gilasın bütün (ağ, sarı, qırmızı) növləri; meyvələri gilənardan ("vişnə"dən) iri və şirin olardı
**ağçamaya** – ağappaq//kök, gözəl qadın
**ağızəmməz** – əfəl, iş bacarmayan, kəsərsiz
**ağnamax** – 1) dalı üstə uzanıb ayaqlarını yuxarı qaldıraraq, o üz – bu üzə çevrilmək; 2) uçmaq, yıxılmaq, dağılmaq, tökülmək
**ağuz** – heyvanların doğuşdan sonra iki-üç gün ərzində sağılan südü və bu süddən bişirilən xüsusi dələmə
**ağzı pis** – hamilə olmaq
**ağzıisti** – qorxmaz, sözünü deyən, sonu yaxşı görməyən
**axlo** – oxlov
**akuşka** – pəncərə
**anqullağı çıxmaq** – çox arıqlamaq
**aramın-qərəmin olsun** – yəni bir dincəl, fasilə et, səbrli ol
**araşqın** – araqçın
**arğı** – ağrı
**asma** – üzümün, armudun qış üçün asılıb saxlandığı xüsusi çubuq- meyvə; **asmaq** sözündəndir
**ayama** – ləqəb
**ayran aşı//qatıq aşı** – dovğa
**azğıntı** – əsli-nəsli bəlli olmayan adam
**bab** – tay, özünə bərabər
**bad** – kürənin, təndirin divarı, kərpici.
**badamça** – cır badam
**bağ** – biçilmiş ot dəstəsi
**basma** – keçmişdə mal peyininin bayıra tökülüb, ayaq altda tapdanmış halı, bundan sonra o, bel ilə kəsilib kərməyə çevrilir və yanacaq kimi istifadə olunurdu; **basmaq** sözündəndir
**başayax** – kəlləpaça, xaş
**başdıx** – oğlan evi tərəfindən qız evinə toydan qabaq verilən pul, qoyun, varidat, südpulu
**batırma** – yemək növü
**batman** – çəki ölçüsü, 14 girvənkə
**bavar eləmək** – davam gətirmək, dözmək

**bayanqu olmaq** – yuxudan vaxtsız oyanmaq
**bayramçalıq** – bayram payı
**bazburt** – boy-buxun
**beddam** – bədnam, biabır, rüsvay
**beləti** – bir bel ağzının yer qazan zaman götürə biləcəyi torpaq yükü
**bezar olma** – təngə gəlmə
**bəbə** – körpə uşaq
**bələngaz** – kasıb, acından ölənin biri
**bəlim** – darı və çəltik küləşi
**bəllə** – qulağı xırda qoyun, quzu
**bəndəm** – taxıl dərzini, ot xorumunu bağlamaq üçün ip kimi hörülmüş küləş
**bərk (adam)** – xəsis (adam)
**bərrədayı** – özbaşına (adam)
**bəttəmək** – bənd eləmək, bağlamaq; birinə calamaq, sırımaq
**bicənnə** – çoxbilmiş, dəcəl uşaqlara verilən ad
**bir soluğa** – bir nəfəsə, ara vermədən, fasiləsiz
**birəti** – bir yerdə, birlikdə
**bir dəfəmə//bir dəhəmə** – bir dəfəyə
**bişməcə** – istidən səpmiş dəri, istidən bədəndə əmələ gəlmiş yara
**bıçqı** – mişar
**bıdıq** – üzüm bağının uralanması
**bocca (bozca)** – üzə düşən ağ rəngli ləkə
**boğaz olmaq** – kiminsə yanında nəyə görəsə gözükölgəli olmaq
**boğma istəkan** – armudu stəkan
**bordax** – bəslənmiş, kökəldilmiş ev heyvanları
**boy vermək** – özünü öymək, təriflənmək
**boylum** – beləliklə (məs.: boylum, başladı söhbətə)
**boyundurux** – öküzün boynuna keçirilən, qoyulan ağac, taxtadan qayrılmış alət
**bozay** – qışın son ayı, 22 fevraldan 21 marta qədər olan dövr
**böyük çillə** – qışın ilk 40 günü
**buğ** – buxar
**buğal** – bu tərəf
**bulama** – təzə doğan mal və qoyunun südündən hazırlanan yemək
**bulamac** – çörçk bişirmək üçün acıxamradan hazırlanan un horrası
**burcutma** – 1) rəqs edən zaman sındırmaq növü; 2) fikrindən daşınmaq
**burunlamaq** – boz sifət göstərmək
**bülöv daşı** – bıçaq, ocaq, kərənti, balta, kərki itiləyən daş
**bülövləmək** – itiləmək
**cad** – darı unundan bişirilən çörək
**can köynəyi** – alt köynəyi
**canbəsər** – ölümcül
**caydax** – çox uzun, ucaboy
**cecim** – ipək və ya yundan toxunmuş zolaqlı parça
**ceviz//cəviz** – qoz (Vedibasarda qoz sözü işlədilmirdi)
**cəbə** – söyüd şivləri ilə hörülmüş, rəfətənin içinə qoymaq üçün nəzərdə tutulmuş məişət əşyası
**cərcənək olmaq** – hər ayağı bir tərəfə düşmək, haça-paça qalmaq
**cil** – rişə
**ciyarrı (adam)** – ürəkli (adam)
**cılfır** – qazayağı bitkisi ilə düyünün bişirilməsindən alınan sıyıq
**cılız** – arıq
**cılxa** – xalis
**cında** – əski, parça
**cırbağana** – xırda, cansız, çəlimsiz uşaq
**cırtqoz** – tez əsəbləşən, hər sözə cavab verən
**cıvrıx** – tamam soyulmuş (dərisi cıvrıx çıxmaq)
**cız** – cizgi, xətt
**cumcuma olmaq** – başdan-ayağa islanmaq
**cummaq** – üstünə yüyürmək, hücum çəkmək
**cuvar** – su paylayan, suvarma üçün suyu idarə edən
**çalağan çardağı** – yöndəmsiz tikilmiş hündür bina
**çalası** – qatıq mayası; ara vuran adam
**çamır** – palçıqlıq, bataqlıq
**çanaq** – 1) ölçü qabı, ağacdan qayrılmış ölçü qabı; 2) 16 kq-a bərabər ölçü vahidi
**çapacaq** – xırda balta
**çappa istəkan** – iri stəkan
**çardax** – talvar
**çarxeyçi** – aravuran, araqarışdıran
**çatı** – o qədər də uzun olmayan toxunma yoğun ip
**çayotu** – quru çay
**çəçik** – iri qızıl boyunbağı

**çəkəcək** – şkafın, stolun çəkilib çıxarılan gözü, siyirmə
**çətən** – bir dəstə (məsələn: bir çətən uşaq)
**çim** – qazon; axan suyun qabağına qoyulan, ot kökləri ilə bərkimiş torpağın bir bel ağzı götürülən hissəsi
**çimən** – çəmən, çəmənlik
**çırtdama** – tum
**çırtdamaq** – 1) çırtlamaq; 2) tez özündən çıxmaq
**çırtmıq** – çırtıx, çırtma
**çölmək** – kiçik küp
**çöngütmək** – çöküb oturmaq
**çuvaldız** – yoğun, uzun iynə (çuval ağzı tikmək üçün)
**dadaş** – ata, qardaş
**dalağı sancmaq** – şübhəyə düşmək
**dalağını sancmaq** – incitmək
**dalan** – giriş otağı
**dam** – ev
**dambat** – lovğa, dikbaş, mədəniyyətsiz, kobud (adam)
**danaburnu** – danadişi
**danqa** – iri, yekə; yekəbaş, qanmaz (adam)
**darqursaq** – hövsələsiz
**daşqa** – araba
**davar** – qoyun-quzu
**dayaz boşqab** – boşqab (salat üçün)
**dəbbələmək** – nala-mıxa vurmaq, fikrindən dönmək, verdiyi sözü danmaq, inkar etmək, cığallıq eləmək
**dədə** – ata
**dəhləmək** – qovmaq
**dəmdəməki** – tez-tez fikrini dəyişən adam, ağılsız
**dəmyə yer** – susuz əkin yeri
**dənə** – tum, toxum, meyvə çəyirdəyi; say, ədəd
**dərbətmək** – tərpətmək
**dərin boşqab** – boşqab (xörək yemək üçün)
**dərz** – biçilən buğda, arpa bağlarının 10 – 15-ni bir yerə tayalamaq, yığmaq
**dəsmal** – yaylıq (həm əl–üz həm də cib üçün)
**dəstər** – kiçik əl dəyirmanı
**dəstərxan** – çörək bükülən dəsmal; kiçik süfrə
**dəvədəlləyi** – uzundraz; hər şeyə qarışan (adam)



**dəvələmək** – etiraz forması (məs.: "yox bir dəvələdi")
**dəvikmək** – döyükmək
**didəgöz etmək** – gözümçıxdıya salmaq
**dilbaz** – dilli, qılıqlı adam
**dingə** – 1) qadınların başlarına qoyduqları bəzək; 2) ting
**dınqılı//cınqılı//çıqqılı** – bapbalaca
**dırdan** – gödən, mədə, tamah
**dıydıx** – yüngül təbiətli
**dızqo** – qorxaq, ağciyər
**dolama** – barmaqda xəstəlik
**donquz** – donuz
**dölək** – qoyunların bala verdiyi arxac
**dördböyrək** – qorxmaz, ürəkli
**dörddəmə** – dərhal, dördnala
**döyməc** – dağ edilmiş sarı yağın (bax: sarı yağ) içinə çörək doğranıb, yağa hopdurulub, üzərinə şəkər tozu səpməklə alınan yemək növü
**durba** – truba
**dübür** – dibir, erkək keçi
**düdəmə** – axmaq, sarsaq, səfeh, heç nədən başı çıxmayan, zırrama
**dümbələndüz** – düpdüz
**dümsük** – dürtmə, vurmaq, çimdik götürmək
**dümsükləmək** – tərpətmək, yerindən qaldırmaq, hərəkətə gətirmək
**düymək** – bağlamaq
**düzavadan** – düz-əməlli
**düzəmməli** – düzgün (adam, iş və s.)
**eşik qapı** – darvaza
**evixalab** – bədbəxt, yazıq
**evnə//öynə** – dəfə, kərə (məs.: bir öynəsi, yəni bir dəfəsi)
**əbəjdad** – dədə–baba, abavü–əcdad
**əcəm** – kürdlərin yerli türk əhaliyə verdiyi ad
**əcr (vermək)** – əzab-əziyyət (vermək)
**əcr çəkmək** – can çəkmək, bir işi görməyə tənbəllik etmək
**əlbəhəm** – o saat, o andaca
**əlçim** – daranmış əl boyda yun
**əneybət//neybət** – çox çirkin
**əngənək** – böyük saxsı qab (paltar suya çəkmək üçün)
**əngəzdəmək** – ənginə-əngine vurmaq, döymək

**ətənə** – məməlilərin doğandan sonra ıfraz etdikləri bir parça ət
**əvədimək** – eşələnmək
**əvnə** – öynə
**əzvay** – 1) aciz, bacarıqsız; 2) yumru meyvə; 3) acı,
**faraş** – erkən yetişən
**genə//gənə** – yenə
**geymə** – çuxa növü, geyəcək
**gəvəzə** – söyüşcül
**gəzəyən** (qadın) – ayağı sürüşkən (qadın)
**gic** – sarsaq, axmaq, özünü idarə edə bilməyən
**gicbəsər** – başdan xarab, sarsaq
**gicimək** – döyülməyi gəlmək
**girəvə** – fürsət
**gobud** – kobud
**göllək** – sulu yer
**gülbəsər** – xiyar (Vedibasarda xiyar sözü işlədilmirdi)
**güzəm** – payızda qırxılan yun
**halbahal** – çətinliklə, hələm-hələm
**haraba** – araba
**havar** – haray
**havar təpmək** – haray çəkmək
**havara gəlmək** – köməyə gəlmək, haya gəlmək
**hayıxmaq** – qudurğanlığı tutmaq, həyasızlaşmaq, bolluqdan qudurmaq
**hayta** – həyasız qadın
**helləmək** – 1) yuvarlatmaq; 2) itələmək
**hellənmək** – yumbalanmaq
**hellən** – məftildən düzəldilmiş təkərli oyuncaq
**hers** – hirs
**həkkək** – inad, hirs
**hələm-qələm** – hiyləgər, yalançı
**həmi** – həm, həm də
**həndəvər** – ətraf, yaxınlıqdakı
**hənək** – zarafat
**hərsin** – bir tərəfi çəngəlli, bir tərəfi dəyirmi, yastı, təndirdən çörək çıxarmaq üçün nəzərdə tutulmuş məişət əşyası
**həsləmək** – geri çəkilmək
**həvə** – xalça//kəbə, palaz toxumaq üçün ağacdan hazırlanan alət



**həvədiş** – iri diş
**həyə** – elçi gedib qızın "hə"sini almaq mərasimi
**him** – bünövrə, özül (binada və s.)
**hırı tutmaq** – şitliyi tutmaq
**hozu** – kobud, qanmaz
**höl** (adam) – boş, tutamsız (adam)
**hövsəmə** – sovurma, təmizləmə. Dənli bitgilərin təmizlənməsi
**hövürə gəlmək** – buğaya gəlmək
**huyuxmaq** – hürkmək
**xaço** – erməni (hay)
**xalx** – 1) camaat, xalq; 2) yad adam(lar), özgə(lər)
**xamra//xəmrə** – xəmir mayası
**xamralı** – çörək növü, sacda bişirilən dairəvi və qalın çörək
**xapamaq** – qapamaq
**xapan qalmaq** – kimsəsiz, tək, yrlqız qalmaq
**xapdan** – qəfildən
**xaral** – iri kisə, iri torba, yundan toxunan böyük çuval
**xart daşı** – kərənti, mişar, bıçaq itiləmək üçün təbii bülöv daşı
**xaşal** – sallaq, qarnı böyük, qarnı yekə
**xədim** – burulmuş, axtalanmış canlı
**xəçirgət** – ocaq üstünə, qazanın altına qoyulan dəmir atma; qapqara
**xəfə** – bürkü
**xəkəndaz** – zibil götürmək üçün qısa dəstəli alət
**xəlbət** – xəlvət
**xəlbir** – xırda torpağı, taxılı ələyən alət, ələkdən böyük, şadaradan kiçik gözü olan alət
**xənnas** – xəbis
**xəyəti** – üzüm tənəyinə dolaşan yabanı ot; onu təmizləmə
**xılam** – xarab
**xıl** – xeyli çox, dəstə
**xılt** – çöküntü
**xımxım** – qapalı, məqsədi bilinməyən adam
**xındirətçilik etmək** – nökərçilik etmək
**xırs//xıs** – his
**xışdamaq** – döymək
**xızan** – çoxlu uşaq
**xocan** – fırıldaqçı
**xon açmaq** – geniş süfrə düzəltmək

**xorum** – ot topası
**xorumlamaq** – biçilib qurumuş otu qucaq-qucaq toplayıb bağlamaq
**xozan** – biçilmiş, uralanmış yer
**xösək** – kiçik ev, daxma
**xubun** – bir xeyli (məs: bir xubun ağladı)
**xum** – iri küp
**xunik** – ılıq
**xurduna girmək** – qılığına girmək
**idimindən** – görkəmindən
**incəvara** – yaxşı ki (ara sözü)
**ipliyi üzülmək** – əlləşib-çalışmaqdan əldən düşmək
**irz-irəng** – rəng-ruh
**irzə** – çəftə
**irzələmək** – çəftələmək
**it xılı** – çoxlu sayda
**işdəngi** (uşaq) – şuluq, nadinc (uşaq)
**kağ** – alaq etmək
**kalafa** – xaraba yer
**kallax** – qoca kişi
**karsala** – qalınbaş, söz təsir etməyən adam
**kefqom** – kefcil
**kertmen** – kətmən
**kədo** – balqabaq
**kərdi** – lək
**kərə** – 1) buynuzsuz xırda qulaq qoyun; 2) ərinməmiş (şit) yağ; 3) dəfə
**kərənti** – dəryaz
**kərki** – ağac kəsən, ağac yonan dəmir alət
**kərmə//gərmə** – keçmişdə mal peyini basmasının bellə kəsilmiş forması, yanacaq kimi istifadə olunardı.
**kərti** – boyat (çörək)
**kəsə** – kəsmə yol, yaxın yol, qısa
**kiçik çillə** – qışın ikinci ayının axırıncı 20 günü
**kifsəmək** – kif atmaq
**kikkə** – ağac qabığında yumrulanıb bərkimiş şirə
**kirt yarı** – tən yarı
**kirtik** – ərilişi sabunun kiçik hissəsi
**kolabasma** (iş) – başdansovdu (iş)



**kölgənək** – kölgə yer
**kömbə** – mağaza çörəklərinə verilən ümumi ad
**körrü-köməşdi** – köklü-köməcli
**krantı** – su kranı
**küflə** – təndirdə köməkçi hava yolu
**küpə** – kiçik küp
**kürüşnə** – balıqların, böcəklərin bir yerə tökdüyü çoxlu yumurta
**kürsəyə gəlmək** – itlərin cütləşmək meylinə düşməsi
**küt** – təndirin divarlarından düşüb od və ya kül içində bişən yöndəmsiz çörək
**qabaq stolu** – stol
**qabarmaq** – adamın üzünə qayıtmaq
**qalaq** – keçmişdə kəsilmiş kərmələrin və yapılmış yappaların qüllə kimi hörüldüyü tığ
**qalet** – peçenye
**qalın** – təndirdə bişirilən qalın çörək növü
**qalın adam** – qanmaz adam
**qanatma** – saqqız kolunun şirəsindən alınan təbii saqqız növü
**qanbağır olmaq** – ürəyi üzülmək
**qanırmax** – burmaq, arxaya əymək
**qanov** – həyət çəpəri ilə yol arasında kiçik arx
**qantar** – iri tərəzi
**qara badımcan** – badımcan
**qarabat** – çarpayı (rusca **kravat** sözündəndir)
**qarasaqqız** – saqqız növü
**qarayandı** – qaramtıl
**qarınqarta** – malın içalatı
**qarmalamaq** – qamarlamaq
**qatma** – ip, kəndir
**qəbirsandıq** – qəbiristanlıq
**qəcələ** – çox danışan
**qəcəmədaş** – xırda yumru daşla olan oyun növü
**qəçi** – qayçı
**qəfədan** – kiçik, hündür çaydan (**qəhvədan** sözündəndir)
**qəhət** – tapılmayan
**qələmə** – ağac növü, bəzi rayonlarda əbrişim, səhv olaraq çinar da deyilir.
**qələndər** – təqvim, kalendar

**qəmbər** – ağlağan
**qərəmət basmaq** – tənbəllik tutmaq, həvəssiz olmaq
**qərrahlanmaq** – qürrələnmək, kimə və nəyə isə ümidli olmaq
**qəyaxmaq** – karıxmaq
**qəyiş** – qayış
**qəzəl oxumaq** – boş-boş danışıb zəhlə tökmək
**qidik//qıdıq** – keçi balası, çəpiş
**qıcqırmaq** – kiminsə üstünə şeşələnmək
**qığılamaq** – qorxub geri çəkilmək
**qıloyşa** – yaltaq, sürtük (adam)
**qıncıtmaq** – tamın bir hissəsini qopartmaq, kəsib götürmək
**qıra** – kal yemiş
**qırcın** – yararsız ot-ələf
**qırmızı badımcan** – pomidor
**qırmızı gilas** – gilənar, turş gilas, "vişnə"
**qırraşdıq** – ot bitməz, daşlı-qumlu, susuz yerlər
**qırsaqqız (adam)** – tutduğundan əl çəkməyən (adam)
**qırtağan** – özünü çəkən
**qırtdatmaq** – özünü çəkmək
**qırtmıx** – 1) başda kəpək; 2) dəridə qaysaq
**qıvla** – qiblə
**qıyımsız** – simic, heç kəsə heç nə qıymayan
**qıypınmaq** – diksinmək, ürpənmək
**qızırqalanmaq** – bir şeyi başqasına əsirgəmək, xəsislik etmək
**qolay** – münasib, rahat
**qolçax** – çörəyi təndirə yaparkən qola keçirilən xüsusi parça tikmə
**qom** – topa, kom halda
**qomarmaq** – qəflətən başına yığılmaq, mühasirəyə almaq
**qonqutmaq** – çöməlib oturmaq
**qorabişirən** – yayın orta ayı – 15 iyuldan 15 avqusta qədər olan dövr
**qoroz** – özündən razı, xudbin adam
**qovalamaq** – qovmaq
**qovra** – yiyə
**qovurma//qorma** – qovrulub qışa saxlanan ət.
**qovurmalıq** – 1) qovurma hazırlanması prosesi; 2) qovurma üçün nəzərdə tutulmuş heyvan
**qrant** – su kranı
**qulağagirən** – 1) cücü növü; 2) hiuləgər, qılıqlı adam



**qulunc** – bel ağrısı, əzələ ağrısı
**qundaq** – qarğıdalı məhsulunun qabıqlı vəziyyəti
**qurd ürəyi yemək** – qorxmaz olmaq
**qurdyeməz** – çirkin (adam)
**qursaq** – canlıların mədəsində olan bir hissə
**quzulamaq** – 1) torpağın nəm, yaş olması nəticəsində uçub dağılmışı, dağılıb tökülməsi; 2) yumşalmaq, sözünü geri götürüb razılaşmaq
**ləhləmək** – töyşümək
**ləlik olmaq** – yorulub əldən düşmək
**ləmpə** – 1) lampa; 2) tavan
**ləvərə** – iri (dodaq)
**licim** – görünüş, sir-sifət
**lığırs** – yaxşı bişməmiş, içi xamırlı
**lıx** – lax (yumurta)
**lırt (bədən, paltar)** – boş, gen (bədən, paltar)
**lobu** – lobya
**lopux** – barmaqların ucu ilə şişirdilmiş ovurda vurulan yüngül zərbə
**löppəz** – özündən razı, gopçu
**lül-qəmbər** – sərxoş
**mac** – kotanın, cütün, xışın dəstəyi
**mağıl** – heç olmazsa, yaxşı ki (ara sözü)
**mağmun** – fağır
**mahna** – bəhanə
**mansıra** – mühasirə
**meçid** – məscid
**məhlə** – məhəllə
**məxləs** – xülasə
**mələfə** – döşək ağı, prostın, uşaq anadan olduğu zaman büküldüyü parça
**mərək** – ot, saman saxlanılan yer
**mərəkə** – yığmcaq
**millətmək** – gizlətmək
**mitil** – döşək, yastıq torbası, ağı
**mındar** – murdar
**mırız** – qaş-qabaq
**mırt** – çirk

**mırtdanmaq//mırtıldamaq** – mızıldaya-mızıldaya deyinmək, öz-özünə danışmaq
**mırtlı** – çirkli
**mısmaq** – susmaq, səsini içinə çəkmək
**möhrə** – divar palçığı
**möv** – üzüm tənəyi
**naqqal** – çox danışan adam
**nəfit** – neft
**nıx dayanmaq** – yorulub əldən düşmək
**nırxız** – başqasının pisliyini istəyən, xənnas (adam)
**oğal** – o tərəf
**oma** – omba
**ovduq** – içərisinə quru çörək, xiyar, göyərti və s. doğranmış ayran – yemək növü.
**ovşarı** – xəncərə oxşayan iri bıçaq.
**öddək** – qorxaq
**öfgə** – ağ ciyər
**öfgələnmək** – əsəbiləşmək
**öyəc** – üçdən artıq yaşı olan erkək qoyun
**padoş** (adam) – üzübərk (adam)
**parç** – su içmək üçün birqulplu qab
**pasdan** – tənbəl
**pazı** – çuğundur
**pçax** – bıçaq
**pencər** – göyərti
**peyvas** – peyvənd
**pəl vurmaq** – mane olmaq
**pəmpəçə** – pəncə, qapaz
**pəmpəçəli** – əlli-ayaqlı, qoçaq
**pəndəm olmaq** – qəbiz olmaq, düz bağırsağın tutulması
**pərdi** – tavan
**pin** – hin
**pışka** – kibrit (rusca "spiçka" sözündəndir)
**pota** – yastı-yapalaq, kök, dolu
**poşa** – çığırqan, əxlaqsız, tərbiyəsiz (qadın)
**pöşələmək** – pörşələmək
**puşqax** – bucaq, künc
**pülük** – sünnət dərisi



**püstəqarın** – azyeyən
**rəfətə** – ellipis şəkilli, içi pambıqla dolu, təndirə çörək yapmaq üçün istifadə olunan məişət əşyası
**sacayağı** – üstünə qazan qoymaq üçün dəmirdən hazırlanmış üçayaqlı dayaq
**sallaxana** – avara-avara gəzən
**sapılca** – qulplu tava
**seşmə** – qırma
**sevələmək** – oxşamaq
**səki** – sanki
**sələ** – söyüd şivlərindən hörülmüş, məişətdə işlənən uzunsov və ya dəyirmi iri tas; çörək sələsi
**siftəmək** – ətin müəyyən hissəsini bıçaqla sümükdən ayırmaq
**silə** – dolu, ağızbağız
**sirillah** (qalmaq) – mat-məətəl (qalmaq)
**sitardan düşmüş** – geyilib köhnəlmiş
**sitilləmək** – üşümək, soyuqdan titrəmək
**sıxcalamaq** – silkələmək, bərkə-boşa çəkmək
**sıpıxmaq** – bir küncə qısılmaq
**sısqa** – çox arıq
**sofu** – çox təmizkar adam
**soluq vermək** – fasilə vermək, ara vermək, yardımçı olmaq
**sonqullamaq** – şikayət etmək (güzərandan və s.)
**sortux** – bir udum
**sortuxlamaq** – acgözlüklə sümürmək
**sosur** – vasvası
**soy-sop** – nəsil-kök
**stol** – stul
**südəcər** – hər il dalbadal, ildə biri doğulan uşaq
**sülü** – corab, paltar toxumaq üçün xüsusi uzun mil
**sürütmə** – çəkələk, şap-şap
**sütül** – yetişməkdə olan
**şadara** – taxılı ələmək üçün alət; iri gözlü xəlbir
**şahad** – şahid
**şaqqıldaq** – qoyunun quyruğu altındakı tüklərə yapışıb qurumuş peyin
**şana** – yaba
**şapalaq** – sillə

**şəftəli** – şaftalı
**şəhrə** – sarı yağın üstünə çıxmış şirə
**şəhrəli** – yağlı
**şəkər** – qənd (Vedibasarda qənd sözü işlədilmirdi)
**şətə** – əkini kağlamaq üçün alət
**şətəsi işləmək** – bacarmaq, gücü çatmaq
**şılxor** – ayağını sürüyən adam
**şillə** – sillə
**şiş** – bir tərəfi başı çəngəlli, o biri tərəfi nazik, iti uclu, daha çox təndirdə közü qurdalamaq və ya təndirin içinə düşmüş çörəyi (kütü) çıxarmaq üçün istifadə olunan uzun dəmir alət
**şortlamaq** – ordan-burdan tikiş vurmaq
**şoş** – şose
**şüv** – şiv
**taxtasız adam** – yüngül xasiyyətli adam
**tapuşka** – yüngül ayaqqabı, ket (rusca **tapoçka** sözündəndir)
**tar** – 1) hində toyuqların yatması üçün düzəldilən taxta yer; 2) dərəyə toplanmış qar yığını
**taya** – bir yerə toplanan ot yığını
**təbənnəşmək** – salamlaşmaq
**təəsib** – təəssüb
**təlfəl (adam)** – əlləm-qülləm (adam)
**tələmək** – tovlamaq
**təndirəsər** – təndirxana
**tənikə** – tənəkə (nazik dəmir)
**tənzif** – nazik ağ parça, cuna
**təpcək** – belin dəmir hissəsindən yuxarıda ayaq vurmaq üçün xüsusi taxta ayaqlıq
**təs** – atın zibili, atın peyini
**tətələbaz** – fırıldaqçı
**təyəng** – tənək (üzüm kolu)
**tifar** – divar
**tilişgə** – ilişgən, hər hansı bir şeyin düzlüyünə əngəl törədən, ilişən hissə; doğranan odundan çıxan nazik parçalar;
**tinyət** – əməl, hərəkət, niyyət (pis mənada)
**tığlamaq** – çərləmək
**tıxlama** – qatığa çörək doğramaqla alınan yemək növü.
**toba** – tövbə



**toy** – nağara (Vedibasarda nağara sözü işlədilmirdi)
**tovlamaq** – 1) aldatmaq; 2) qovurmaq; 3) ipi əyirmək; 4) hərləmək, fırlamaq
**tozanqı** – toz halında yağan (yağış)
**törəli** – o qədər də xoşa gəlməyən şey
**tulamazdı** (atmaq) – tolazlama
**tutacaq** – isti qab götürmək üçün bir-birinə bağlı olan iki parça tikməsi
**tülə** – yetişməmiş yemiş, qıra
**tülü** – hiyləgər, oğru, cibgir, əqidəsi məlum olmayan.
**uçqunmaq** – körpə uşağın nədən və ya kimdən ötrüsə uçunması
**uçux** – dodaqlarda əmələ gələn çat-yara
**urcah olmaq** – rast gəlmək
**urvat** – hörmət
**üşkürək** – fit
**üsrət** – çətinlik
**vam** – bir qayda ilə, az isti ilə, az hərarətlə
**vayıs** – pislik edən, səbəbkar; bais sözündəndir
**vaynaçar** – əlacsız, son məqamda
**veran** – viran, xaraba
**vərdənə** – kündəni yaymaq üçün istifadə olunan yoğun, silindrşəkilli taxta alət
**virdini salmaq** – meylini salmaq, fikrini-zikrini bir şey yönəltmək
**yaxçı//yaxcı** – yaxşı
**yağır** – sürtünmə nəticəsində əmələ gələn yara, üstü açılmış, dərisi getmiş yara
**yağır olmaq** – yorulmaq, çox işləmək, əldən düşmək
**yan damı** – köməkçi dam, ərzaq damı
**yanımlı** – canı yanan
**yanımını verməmək** – tərəfini saxlamaq, təəssübünü verməmək
**yappa** – keçmişdə əllə yastılanıb yerə, divara yapılmış mal peyini, qurudulduqdan sonra yanacaq kimi istifadə olunardı
**yappa** – yastı
**yasdanmaq** – sərələnib uzanmaq
**yarımmənsil etmək** – xarab etmək, zay etmək, məhsulun yarısını itkiyə vermək

**yatax** – çöldə qoyun, mal, at dəvə saxlanılan yer, heyvan yatağı
**yatır** – dövlət, qızıl-gümüş, pul
**yayxalamaq** – su ilə yüngülvari yumaq
**yayın cırcıraması** – yayın istisi
**yavannıx** – pendir, yağ, qovurma növündən az-az istifadə etmək, az istifadə olunan yemək növü
**yel** – külək (Vedibasarda külək sözü işlədilmirdi)
**yelin** – heyvan əmcəyi
**yelmik** – yemlik (yabanı bitki, pencər növü)
**yenmək** – enmək, aşağı düşmək
**yerikləmək** – ürəyi turş yeməklər istəmək, hamiləliyin ilk büruzəsi
**yeznə** – kürəkən (Vedibasarda kürəkən sözü işlədilmirdi)
**yolmalamaq** – yoluşdurmaq
**yun çubuğuna dönmək** – arıqlamaq
**zəqqum** – çox acı; zəhrimar
**zing** – oynaq sümükləri (dirsək və dizdə)
**zir** – nəlbəki
**zircik** – şuluq, nadinc (uşaq)
**zığ** – palçıq
**zoğ** – ağacın yeni cücərtisi, pöhrə
**zoxma** – dürtmə, başqasını böyründən vurma
**zol** – hissə, şırım, mal, camış, at gönlərinin hissə-hissə, uzununa kəsilmiş, bölünmüş gön, dəri
**zolax** – 1. Qamçı yeri; 2. əkin yerinin, biçənəyin, otlağın, meşəliyin müəyyən bir hissəsi
**zoncuxlamaq** – şıllax atmaq
**zülü getmək** – sino getmək



## VEDİBASARLI VƏ VEDİBASAR MƏNŞƏLİ AZƏRBAYCANLI ALİMLƏR

**Azərbaycan MEA müxbir üzvü**

Cəfərov Nizami Qulu oğlu – fil. e.d., professor, Qaladibi k.

**Elmlər doktorları**

Abdullayev Oruc İsmayıl oğlu – fəl. e.d., professor, Şıxlar k.
Ağayev Həsən Əli oğlu – tex. e.d., professor, Azərb. Resp. Əməkdar elm xadimi, Hortun k.
Cəlilov Firidun Ağası oğlu – fil. e.d., prfessor, Çimən k.
Əkbərov Maarif Süleyman oğlu – fəl.e.d., professor, Goravan k.
Əliyev Əli Musa oğlu – tex. e.d., Dəhnəz k.
Əliyev İlyas Musa oğlu – f/r e.d., Dəhnəz k.
Əliyev Namiq Nəriman oğlu – tibb e.d., professor Böyük Vedi k.
Əliyev Nəriman Cəlil oğlu – tibb e.d., professor Böyük Vedi k.
Hüseynov Həsən Cəlil oğlu – f/r e.d., professor, Goravan k.
Xudaverdiyev Karlen İskəndər oğlu – f/r. e.d., professor, Böyük Vedi k.
Kərimov Rəhman Yüzbaşı oğlu – f/r. e.d., professor, Böyük Vedi k.
Mahmudbəyova Məryəm Fərəməz qızı – tibb e.d., Böyük Vedi k.
Məhərrəmov Əli Musa oğlu – f/r. e.d., professor, Şidli k.
Məmmədov Əhməd Cabbar oğlu – k/t e.d., professor, Alqırıq k.
Məmmədov Məmməd Çıraq oğlu – e.d., Alqırıq k.
Məmmədov Süleyman Abbas oğlu – tarix e.d., professor, Xalisa k.
Muradov Əli Nəsrulla oğlu – kimya e.d., Əzizkənd k.
Musayev Paşa İsmayıl oğlu – tibb e.d., professor, Çimən k.
Musayeva Sevinc İsmayıl qızı – tibb e. d., Çimən k.
Paşayev Nəzər Abdulla oğlu – tarix e.d., professor, Azərb. Resp. Əməkdar elm xadimi, Böyük Vedi k.
Şabanov Abdulla Şaban oğlu – ped. e.d., professor, Gölaysor k.
Şabanov Hafiz Alı oğlu – texn. e.d., Gölaysor k.
Şadlinski Vaqif Bilas oğlu – tibb e.d., professor, Böyük Vedi k.
Sayadov Sayad Ataş oğlu – tarix e.d., professor, Böyük Vedi k.
Səfərov Səttar İslam oğlu – iqt. e.d., professor, Şirazlı k.
Yusifov Nəriman Kəlba Həbib oğlu – hüquq e.d., Böyük Vedi k.
Yusifov Yusif Bəhlul oğlu – tarix e.d., professor, Böyük Vedi k.

**Elmlər namizədləri**

Abbasov Həsən Hüseyn oğlu – iqt. e.n., Qaraxaç k.
Abbasov Rauf Oruc oğlu – riy. e.n., Şidli k.
Abbasov Rəşid Haqnəzər oğlu – Şirazlı k.
Ağamirova (Şadlinskaya) Tamilla Hidayət qızı – fil. e.n., Böyük Vedi k.

Ağayeva (Şadlinskaya) Şəfiqə Kiçikağa qızı – fil. e.d., Böyük Vedi k.
Allahverdiyev Allahverdi Şükür oğlu – tex. e.n., Taytan k.
Babayev Məmməd Süleyman oğlu – k/t e.n., Dəvəli k.
Bağırov Həsən Qəmbər oğlu – tarix e.n., Böyük Vedi k.
Bayramov Asəf Məhərrəm oğlu – tex. e.n., Kotuz k.
Bəşirov Firuz Mirzə oğlu – tex. e.n., Böyük Vedi k.
Bəşirov Lenduruş Mirzə oğlu – tex. e.n., Böyük Vedi k.
Bəşirov Lətif Mirzə oğlu – tex. e.n., Böyük Vedi k.
Əkbərov Bəxtiyar Süleyman oğlu – hüquq e.n., Goravan k.
Əkbərov Rafiq Süleyman oğlu – tex. e.n., Goravan k.
Əkbərov Tofiq Süleyman oğlu – fəl. e.n., Goravan k.
Əkbərov Vaqif Maarif oğlu – fəl. e.n., Goravan k.
Ələkbərli Əziz Yusif oğlu – fil. e.n., Qaralar k.
Əliyev Ağa Bayram oğlu – tex. e.n., Taytan k.
Əliyev Etibar Qasım oğlu – fəl. e.n., Şirazlı k.
Əliyev Ənvər Alı oğlu – k/t e.n., Böyük Vedi k.
Əliyev İsfəndiyar Kamal oğlu – k/t e.n., Ərmik k.
Əliyev Kamil Əli oğlu – tex. e.n., Dəhnəz k.
Əliyev Məmməd Teymur oğlu – k/t e.n., Böyük Vedi k.
Əliyev Mirabdulla Mirəziz oğlu – tarix e.n., Taytan k.
Əliyev Müseyib Muxtar oğlu – k/t. e.n., Şidli k.
Əliyev Ramazan Şükür oğlu – kimya e.n., Şidli k.
Əsədov İsa Həbib oğlu – k/t. e.n., Avşar k.
Fərzəliyev Becan İbrahim oğlu – fizika e.n., Çimənkənd k.
Hacıyev Ziya Əyyub oğlu – fil. e.n., Çimən k.
Həsənov Fərrux Həsən oğlu – ped. e.n., Gilanlar k.
Həsənov Həsən Məmməd oğlu – kimya e.n., Gilanlar k.
Həsənov Miri Əli oğlu – ped. e.n., dosent, Haxıs k.
Həsənov Musa Mehbalı oğlu – fil. e.n., Avşar k.
Həsənov Zülfüqar Hüseyn oğlu – fil. e.n., Goravan k.
Həsrətov Məmməd Həsən oğlu – f/r. e.n., Böyük Vedi k.
Hüseynov Heydər Müseyib oğlu – f/r e.n., Böyük Vedi k.
Hüseynov İmamverdi Ağa oğlu – fil. e.n., Şirazlı k.
Hüseynov Seyfulla İmaməli oğlu – k/t e.n., Şidli k.
Xəlilov Xəlil Yaqub oğlu – f/r. e.n., Məngük k.
Xudaverdiyev Fuad Karlen oğlu – f/r e.n., Böyük Vedi k.
Xudaverdiyev Oqtay İsgəndər oğlu – g/m. e.n., Böyük Vedi k.
Xudiyev Əmir Yusif oğlu – k/t e.n. Gilanlar k.
İbrahimova Qızılı Kazım qızı – fil. e.n., Taytan k
İbrahimova Nəzifə Kazım qızı – f/r. e.n., Taytan k.
İsmayılov Nəriman Bəhram oğlu – k/t e.n., Bayburt k.
Kazımov Nəriman Süleyman oğlu – f/r. e.n., Böyük Vedi k.



Kazımov Sabir Ağabala oğlu – b.e.n., Böyük Vedi k.
Kazımov Süleyman Bilman oğlu – fizika e.n. Böyük Vedi
Kərimov Cəlil Həbib oğlu – iqt. e.n., Böyük Vedi k.
Qasımov Musa Talıb oğlu – f/r. e.n., Şidli k.
Məcnunov Felman Qara oğlu – biol. e.n., Qaladibi k.
Məmmədov Allahverdi Həsən oğlu – kimya e.n., Ərmik k.
Məmmədov Əhməd Paşa oğlu – f/r e.n., Şidli k.
Məmmədov Əli Abbas oğlu – k/t e.n., Ərmik k.
Məmmədov Əziz Bəhram oğlu – iqt. e.n., Çimən k.
Məmmədov Qəhrəman Fərman oğlu – ped. e.n. Taytan k.
Məmmədov Müzəffər Fərman oğlu – tex. e.n., Qaraxaç k.
Məmmədov Oruc Paşa oğlu – tex. e.n. Şirazlı k.
Məmmədov Rasim Rəcəb oğlu – tex. e.n., Alqırıq k.
Məmmədova Tamam Fərman qızı – fil. e.n., Taytan k.
Muradov Bilal Hümbət oğlu – ped. e.n., Kolanlı k.
Muradov Əli Nəsrulla oğlu – kimya e. n., Əzizkənd k.
Nuriyeva Nuranə Məcid qızı – fil. e.n., Böyük Vedi k.
Musayev Nazim İsmayıl oğlu – biol. e.n., Çimən k.
Musayev Şənlik Ələşrəf oğlu – kimya e.n., Çimən k.
Orucov Hüseyn Abbas oğlu – f/r e.n., dosent, Böük Vedi
Paşayev Ağamirzə Müqəddəs oğlu – g/m. e.n., Böyük Vedi k.
Rəsulov Əlizaman Talıb oğlu – k/t e.n., Taytan k.
Sadıqov Elbrus Cəlal oğlu – fəl. e.n., Gölcığın k.
Sayadov Oqtay Sayad oğlu – tarix e.n., Böyük Vedi k.
Səfərov Fəxrəddin Həmid oğlu – f/r e.n., Şirazlı k.
Səfərov Rafiq Ələşrəf oğlu – biol. e.n., Goravan k.
Səməndov Cəfər Hüseynalı oğlu – ped. e.n., Şidli k.
Süleymanov İmran Qurbanəli oğlu – tex. e.n., Taytan k.
Süleymanov Manaf Atabala oğlu – fil. e.n., Goravan k.
Süleymanov Zeyqəm Muradəli oğlu – tibb e.n., Qaralar k.
Şadlinski Azər Bilas oğlu – tibb. e.n., Böyük Vedi k.
Şadlinskaya Gülzar Vəsəd qızı – kimya e.n., Böyük Vedi k.
Vəliyev İnqilab Ələsgər oğlu – fəl. e.n., Məngük k.
Vəliyev Muxtar İsmayıl oğlu – f/r. e.n., Şidli k.
Vəliyeva Zeynəb Muxtar qızı – k/t e.n., Şidli k.
Yusifov Bəhlul Kəlba Həbib oğlu – tarix e.n., Böyük Vedi k.
Yusifov Eldar Bəhlul oğlu – tex. e.n., Böyük Vedi k.
Yusifov Rizvan Fərman oğlu – tex. e.n., Böyük Vedi k.
Yusifov Yunis Bəhlul oğlu – kimya e.n., Böyük Vedi k.
Yusifova Sonaxanım Bəhlul qızı – tex. e.n., Böyük Vedi k.
Zeynalov Bəşir Həşim oğlu – k/t. e.n., Şidli k.
Zeynalov Razim Əbdül oğlu – tex. e.n., Böyük Vedi k.

# SOVET DÖVRÜNDƏ VEDİ VƏ QARABAĞLAR RAYONLARINDA RƏHBƏR VƏZİFƏLƏRDƏ İŞLƏMİŞ AZƏRBAYCANLILAR

## VEDİ RAYONU ÜZRƏ

1. 1921-1922-ci illər – **Saleh Güllücinski** (HİK sədri, RİK sədri).
2. 1922-ci ilin son ayları – **Camal Ömərov** (RİK sədri).
3. 1923-cü il – **Əli Əkərəkli** (RİK sədri).
4. 1923-cü ilin son ayları – **İsa Muğanlinski** (RİK sədri).
5. 1923-cü ilin sonları-1925-ci illər – **Abbas Salahov** (RİK sədri).
6. 1925-1930-cu illər – **Alı Şabanov** (RİK sədri, RPK-nın I katibi)
7. 1930-1934-cü illər – **Əli Tağızadə** (RPK-nın I katibi).
   **Əli Eyvazov** (RİK sədri)
8. 1934-cü il – **Haqverdi Haqverdiyev** (RPK-nın I katibi)
9. 1934-1935-ci illər – **Məmməd İsgəndərov** (RPK-nın I katib
10. 1935-1938-ci illər – **Rza Vəlibəyov** (RPK-nın I katibi).
    **Hüseyn Abdullayev** (RİK sədri).
    **Əhməd Əhmədzadə** (RİK sədri).
11. 1938-1941-ci illər – **Ələmdar Həşimov** (RPK-nın I katil
12. 1939-1940-cı illər – **Qasım Məmmədov** (RİK sədri)
13. 1941-1942-ci illər – **Məmməd Məmmədov** (RPK I katibi).
14. 1942-1945-ci illər – **Hüseyn Məmmədov** (RPK I katibi).
15. 1945-1948-ci illər – **Əli Məmmədov** (RPK I katibi), **sonuncu**.
16. 1941-1948-ci illər – **Mirzə Bəşirov** (RİK sədri).
17. 1948-1950-ci illər – **Əli Məmmədov** (RİK sədri).
18. 1950-1952-ci illər – **Qasım Məmmədov** (RİK sədri).
19. 1952-1959-ci illər – **Hüseyn Məmmədov** (RİK sədri).
20. 1959-1964-cü illər – **Talıb Musayev** (RİK sədri), **sonuncu**.

Siyahıdan göründüyü kimi, rayon rəhbərliyində 1-ci şəxs vəzifəsində (RPK-nın I katibi) sonuncu azərbaycanlı kadr 1948-ci ildə bu vəzifədən kənarlaşdırılan **Əli Məmmədov** olmuşdur.

Rayon rəhbərliyində 2-ci şəxs vəzifəsində (RİK sədri) sonuncu azərbaycanlı kadr isə 1964-cü ildə bu vəzifədən uzaqlaşdırılan **Talıb Musayev** olmuşdur.



## Rayon üzrə azərbaycanlı kadrların sonuncu dəfə rəhbərlik etdiyi vəzifələr və həmin kadrların işdən çıxarılma tarixi

Xəlil Xəlilov – maarif müdiri, 1948-ci il.
Nəcəf **Məmmədov** – prokuror, 1948-ci il.
**Əziz Süleymanov** – məhkəmənin sədri, 1948-ci il.
**İsmayıl Bayramov** – səhiyyə şöbəsinin müdiri, 1948-ci il.
**Qasım Məmmədov** – tədarük şöbəsinin müdiri, 1948-ci il.
**Məhərrəm Rzayev** – milis rəisinin müavini, 1948-ci il.
**İnqilab Süleymanov** – cinayət axtarışı şöbəsinin müdiri, 1948-ci il.
**Xəlil Xəlilov** – RPK-nın II katibi, 1949-cu il.
**Fərman İsmayılov** – rayon qəzetinin redaktoru, 1949.

## Rayonda müxtəlif vaxtlarda rəhbər vəzifələrdə işləmiş digər azərbaycanlı kadrlar

**Yusif Abbasov** – milis rəisi
**İsmayıl Şıxəli oğlu** – milis rəisi
**Hüseyn Ələsgərov** – milis rəisi
**Bilal Eyvazov** – RPK III katibi
**Şükür Məmmədov** – maarif müdiri, prokuror
**Alı Əliyev** – prokuror
**İsgəndər Xudaverdiyev** – maarif müdiri
**Məmməd Kazımov** – maarif müdiri
**Abbas Məmmədov** – maarif müdiri
**Adil Cəlilov** – maarif müdiri
**Bağır Bağırov** – maarif müdiri
**Məmməd Bayramov** – torpaq şöbəsinin müdiri
**Əli Həsənov** (Taytanlı) – torpaq şöbəsinin müdiri
**Ağa Əliyev** – torpaq şöbəsinin müdiri
**İsmayıl Tağıyev** – rayon kooperativlər ittifaqının sədri

## QARABAĞLAR RAYONU ÜZRƏ

1. 1937-1941-ci illər – **İbiş Abbasov** – (RPK I katibi).
2. 1937-1947-ci illər – **Musa Vəlibəyov** (RİK sədri), **sonuncu.**
3. 1942-1946-cı illər – **Talıb Musayev** (RPK I katibi).
4. 1946-cı il, 3 ay – **Gülü Məmmədov** (RPK I katibi).
5. 1947-1948-ci illər – **Cəfər Vəlibəyov** (RPK I katibi), **sonuncu.**

### Rayonda müxtəlif vaxtlarda rəhbər vəzifələrdə işləmiş digər azərbaycanlı kadrlar

**Həsən Ələsgərov** – milis rəisi
**Mehdi Əhmədov** – milis rəisi
**Hüseyn Babayev** – prokuror
**Cabbar Babayev** – məhkəmə sədri
**Əli Seyidov** – məhkəmə sədri
**Qəşəm Şahbazov** – RPK-nın III katibi
**Əhməd Əhmədov** – RPK-nın III katibi
**Bəhram Bünyatov** – RPK-nın II katibi
**Musa Qafarov** – hərbi komissar
**Ağamalı Məmmədov** – RPK şöbə müdiri
**İsfəndiyar Hüseynov** – RPK şöbə müdiri



## VEDİ RAYONU ÜZRƏ ERMƏNİSTAN SSR ALİ SOVETİNİN DEPUTATLARI

**Həsən Məmmədov** (Şirazlı k., 2 çağırış)
**Hüseyn Məmmədov** (RİK sədri, 2 çağırış)
**Gülnaz Sadıqova** (Şidli k., 1 çağırış)
**Mayaxanım Nəbiyeva** (Şirazlı k., 2 çağırış)
**Qənirə Zeynalova** (Qaralar k., 1 çağırış)
**Xuraman Əkbərova** (Şirazlı k., 1 çağırış)

## VEDİ RAYONU ÜZRƏ ERMƏNİSTAN SSR ƏMƏKDAR MÜƏLLİMLƏRİ

**Abbasova Həqiqət İbrahim qızı** – Böyük Vedi məktəbinin müəllimi, 22.02.1940.

**Eyvazov Abbas Qulam oğlu** – Taytan kənd məktəbinin müəllimi, 22.11.1940.

**Mahmudov İdris Məmməd oğlu** – Gölaysor kənd məktəbinin müəllimi, 22.11.1940.

**Şadlinski Bilas Heydər oğlu** – Böyük Vedi məktəbinin direktoru, 22.11.1940.

**Yusifov Bəhlul Kəlba Həbib oğlu** – İrəvan şəhər N.Nərimanov adına Pedaqoji Texnikumun direktoru, 22.11.1940 (Böyük Vedi kəndi).

**Hacıyev Cəbrayıl Mikayıl oğlu** – Böyük Vedi kənd məktəbinin dərs hissə müdiri, 04.07.1944.

**Əkbərov Süleyman Cabbar oğlu** – Goravan kənd məktəbinin müəllimi, 04.07.1944.

**Bünyatov Cəmşid İslam oğlu** – Gilanlar kənd məktəbinin direktoru, 20.11.1945.

**Kərimov Cəfər Məmməd oğlu** – Böyük Vedi kənd məktəbinin müəllimi, 10.11.1947.

**Məmməmdova Ofelya Qüdrət qızı** – Böyük Vedi kənd məktəbinin dərs hissə müdiri, 22.05.1968.

# Ə L A V Ə L Ə R

## "İRƏVAN ƏYALƏTİNİN MÜFƏSSƏL DƏFTƏRİ"NDƏ (1590) VEDİBASAR KƏNDLƏRİ

### VEDİ NAHİYƏSİ ÜZRƏ

Böyük Vedi kəndi
Acısu ciftliyi
Əsti (**Asnı – Ə.Ə**) kəndi
Kiçik Vedi kəndi
Qarabağ kəndi
Ciqin kəndi
Bağçacıq kəndi
Molla Seyfəddin kəndi
Xosrov kəndi
Görçü viranı məzrəsi
Böyük Dəvəli kəndi
Qızılbulğun məzrəsi
Kiçik Dəvəli kəndi
Çukəndər kəndi
Yuxarı Qarabağ kəndi
Aşağı Qarabağ kəndi
Avşar kəndi
Qızılviran kəndi
Zəncirli kəndi
İncədərə kəndi (başqa adı Gəncəlidir)
Ağcakilsə kəndi
Kütüs kəndi
Bakir məzrəsi
Heks kəndi
Çaklı kəndi
Cərmaris kəndi
Axurbulaq və Dikmədaş məzrələri
Küsüsüz kəndi
Çardaqlı kəndi
Punus kəndi
Qaraca Abdal kəndi
Gülkənd
Tinas kəndi



Şeyxçiq kəndi
Kənizək kəndi
Axirəs kəndi
Xəmud kəndi
Karvansara kəndi
Sənasir məzrəsi
Qədli kəndi
Tizəkü kəndi
Əngiz kəndi
Musa Dərviş kəndi
Salmansaray kəndi
Əliqara kəndi
Misir Dərviş kəndi
Şiranqoç kəndi
Qaraxaç kəndi
Herarus kəndi
Ərmük kəndi
Güldərviş kəndi
Qamışlıçuxur kəndi
Kürəvan kəndi
At ağılı və At qışlağı məzrələri
Yaraqlıbucaq kəndi
Pirilər kəndi
Dəlikli (**Dübəkli – Ə.Ə**) yaylağı

### GƏRNİ NAHİYƏSİ ÜZRƏ

Əmirzik kəndi
Yuxarı Gilan kəndi
Aşağı Gilan kəndi
Əliqırıq kəndi
Harunburun kəndi
Almalı kəndi

### ARALIQ NAHİYƏSİ ÜZRƏ

Cadqıran kəndi
Əliqızıl kəndi
Şirazlı kəndi

### YAYLAQLAR

Kərəmlər və Ərəfşan yaylaqları. Burada Vedi camaatı yaylayır.

## "İRƏVAN ƏYALƏTİNİN İCMAL DƏFTƏRİ"NDƏ (1728) VEDİBASAR KƏNDLƏRİ

### VEDİ NAHİYƏSİ ÜZRƏ

Vedi kəndi
Kiçik Vedi kəndi
Zimmi Vedisi kəndi
Kəstənli kəndi
Qarança kəndi (başqa adı Şəbiklidir)
Qarança məzrəsi
Böyük Meralar kəndi
Qarança Şətli kəndi
Haramlı Şətli kəndi
Küsühlü Şətli kəndi
Kiçik Meralar kəndi
Dəvəli kəndi
Nəsibli qışlağı (Qarança kəndi yaxınlığında)
Əfşaryerli kəndi
Qayçı kəndi (başqa adı İmamquludur)
Piri-qayib qışlağı (başqa adı Qayçıdır)
Xaçlı kəndi (başqa adı Çiçəklidir)
Sarablı kəndi
Sarı Musalı kəndi
Şirazlı kəndi
Daşlıqaya kəndi
Kürəvan kəndi
Yuxarı Çadırğan kəndi
Aşağı Çadırğan kəndi
Reyhanlı kəndi
Çovgəndiz kəndi
Şıqşıq kəndi
Cəfərkənd kəndi (Qarabağ kəndi yaxınlığında)
Qızılviran kəndi
Xanəhməd kəndi
Əngiz kəndi (Böyük Qarabağ kəndi yaxınlığında)
Zəncirli kəndi
Qaraxaç kəndi
Əfşar Gelevan kəndi



Böyük Qarabağ kəndi
Kiçik Qarabağ kəndi
Çınçavat kəndi (Gelevan kəndi yaxınlığında)
Ağviran kəndi
Ağcaviran kəndi
Dinaz kəndi
Heranos kəndi
Xosrov kəndi
Yenicək kəndi (Kiçik Qarabağ kəndi yaxınlığında)
Ərmük kəndi
Heks kəndi
Hetut kəndi
Benis kəndi
Ceqin kəndi
Cərmanis kəndi
Gəncəli kəndi (başqa adı Şahablıdır, Zəncirli kəndi yaxınlığında yerləşir)
Ağkilsə kəndi (başqa adı Qadılıdır)
Təzəki kəndi
Haqverdi kəndi
Lök kəndi (Mənkük kəndi yaxınlığında)
Zimmi kəndi (Mənkük kəndi yaxınlığında)
Çardaqlı kəndi
Küssüs kəndi (Mənkük kəndi yaxınlığında)
Mənkük kəndi
Telli Baba məzrəsi (Mənkük kəndi yaxınlığmda)
Musacıq kəndi
Güldərviş kəndi
Qaraca Abdal kəndi
Çıqlı kəndi (Musacıq kəndi yaxınlığında)
Yuxarı Pirli kəndi
Kənizək kəndi
Bədənayin kəndi
Yuxarı Kənüz kəndi
Aşağı Kənüz kəndi

### GƏRNİ NAHİYƏSİ ÜZRƏ

Almalı kəndi
Harunburun kəndi
Qızılvəng kəndi (başqa adı Tarmusdur)

Taxtakörpü kəndi
Tərəkəmələr kəndi (başqa adı Qoturvəngdir)
Şəhriyar kəndi
Şəqaiq kəndi
Əliqırıq kəndi
Qalacıq kəndi
Merzik kəndi
Kiçik Gilan kəndi
Böyük Gilan kəndi
Bayburd kəndi

### DƏRƏLƏYƏZ NAHİYƏSİ ÜZRƏ

Bağçacıq kəndi
Çanaqçı kəndi
Keşişviranı kəndi
Cəfərli kəndi
Qaşqa kəndi

### ARALIQ NAHİYƏSİ ÜZRƏ

Atlı qışlağı (əhalisi Reyhanlı camaatındandır)
Qoturlu kəndi (əhalisi Şeyikli (Şeyxli – Ə.Ə) camaatındandır)
Abbasabad kəndi
Əliqızıl məzrəsi



## İRƏVAN XANLIĞININ RUSİYA TƏRƏFİNDƏN İŞĞALINDAN SONRA VEDİBASAR MAHALINDA QEYDƏ ALINMIŞ KƏNDLƏRİN SİYAHISI
(1832-ci ilə olan məlumat – İ.Şopenə görə)

### DAĞIDILMIŞ KƏNDLƏR

**Vedibasar mahalı üzrə**

1. Reyhanlı
2. Şirazlı
3. Qaralar
4. Saray
5. Cadqıran
6. Qarabağlar-uliya
7. Qarabağlar-sufla
8. Talasavan
9. Şahablı
10. Zəncirli
11. Püntün
12. Şorsu
13. Daşnov
14. Həsənqala
15. Cəfərli
16. Ortuk
17. Vəlican
18. Keşağlı
19. Abbasabad
20. Əliqızıl
21. Muradabad
22. Əliabad
23. Əliqırıq
24. Günlük
25. Bağçacıq
26. Hemut
27. Qızılverən
28. Zimmi
29. Musacıq
30. Hand
31. Qazançı

32. Xosrov
33. Haxıs

### Gərnibasar mahalı üzrə

1. Qulaqsız
2. Kürdkəndi
3. Mürzük
4. Gilənar-sufla
5. Molla Əhməd
6. Şəhriyar
7. Şoqaib
8. Yappa
9. Əlimərdan
10. Əliqırağı
11. Ellicə
12. Qalakəndi
13. Tərəkəmələr

## YAŞAYIŞ OLAN KƏNDLƏR

### Vedibasar mahalı üzrə

1. Xorvirab
2. Vedi-sufla
3. Əliməhəmməd qışlağı
4. Şidli
5. Xalisa
6. Dəvəli
7. Vedi-uliya
8. Daşlı
9. Goravan
10. Yengicə
11. Avşar
12. Sədərək
13. Asnı
14. Kərki
15. Qədili
16. Qaraxaç
17. Camışbasan
18. Cığın



19. Cirmanis
20. Küssüz
21. Ərmik

### Gərnibasar mahalı üzrə

1. Bayburt
2. Gilanlar
3. Körpüqulağı
4. Göl

### Dərələyəz mahalı üzrə

1. Çanaxçı
2. Qaşqa
3. Keşiş-veran

## 1948-1953-CÜ İLLƏRDƏ VEDİBASAR MAHALI ƏRAZİSİNDƏN DEPORTASİYA OLUNMUŞ AZƏRBAYCANLI KƏNDLƏRİ VƏ ONLARIN SONRAKI TALEYİ

### VEDİ RAYONU ÜZRƏ

1. Əliməmməd – xaraba qalıb
2. Avşar – əsasən köçürülüb
3. Aşağı Ərmik – xaraba qalıb
4. Yuxarı Ərmik – xaraba qalıb
5. Kiçik Vedi – qismən köçürülüb
6. Böyük Vedi – əsasən köçürülüb
7. Goravan – erməniləşdirilib
8. Daşlı – əsasən köçürülüb
9. Taytan – əsasən köçürülüb
10. Şıxlar – əsasən köçürülüb
11. Ağkilsə – xaraba qalıb
12. Yengicə – qismən köçürülüb
13. Qaralar – qismən köçürülüb
14. Şirazlı – qismən köçürülüb
15. Şidli – qismən köçürülüb
16. Xalisa – qismən köçürülüb
17. Dəvəli – əsasən köçürülüb

### QARABAĞLAR RAYONU ÜZRƏ

1. Əzizkənd – xaraba qalıb
2. Əliqırıq – xaraba qalıb
3. Əlimərdan – xaraba qalıb
4. Bağçacıq – xaraba qalıb
5. Bayburt – xaraba qalıb
6. Böyük Gilanlar – xaraba qalıb
7. Dəhnəz – xaraba qalıb
8. Gölcığın – xaraba qalıb
9. Daşnov – xaraba qalıb
10. Zimmi – xaraba qalıb
11. İmirzik – xaraba qalıb



12. İnqala – xaraba qalıb
13. Haxıs – xaraba qalıb
14. Hand – xaraba qalıb
15. Hortun – xaraba qalıb
16. Qaladibi – xaraba qalıb
17. Qaraqoyunlu – xaraba qalıb
18. Məngük – xaraba qalıb
19. Yellicə – xaraba qalıb
20. Heyranıs – xaraba qalıb
21. Şahablı – erməniləşdirilib
22. Şuğayıb – xaraba qalıb
23. Çimənkənd – əsasən köçürülüb
24. Cəfərli – xaraba qalıb
25. Seyid Kotanlı – xaraba qalıb
26. Kotuz – xaraba qalıb
27. Kolanlı – xaraba qalıb
28. Küsüs – xaraba qalıb
29. Gölaysor – erməniləşdirilib
30. Çatmadağ – xaraba qalıb

## 1988-Cİ İLƏ QƏDƏR VEDİ RAYONUNDA MÖVCUD OLAN AZƏRBAYCANLI YAŞAYIŞ MƏNTƏQƏLƏRİ

**Xalis azərbaycanlı yaşayış məntəqəsi**
1. Şidli (Yexeqnavan - 1991)

**Qarışıq yaşayış məntəqələri**
1. Avşar
2. Arazdəyən (Yerasx - 1968)
3. Armaş
4. Bayburt - Qəmərli rayonu ərazisində qalmışdı
5. Böyük Vedi (Vedi - 1946)
6. Qaralar (Aralez - 1978)
7. Daşlı (Daştakar - 1968)
8. Dəvəli kəndi (Ararat k. - 1935)
9. Dəvəli şəh. (Ararat şəh. - 1947)
10. Yeni həyat
11. Yengicə
12. Kiçik Vedi (Pokr Vedi - ...)
13. Taytan (Vanaşen - 1978)
14. Xalisa
15. Çəmbərək (Surenavan - ...)
16. Çimənkənd (Urdzadzor - 1978)
17. Şampan
18. Şirazlı
19. Şıxlar (Lusarat - 1978)



## 1988-1990-CI İLLƏRDƏ VEDİ RAYONUNDA ERMƏNİLƏR TƏRƏFİNDƏN ÖLDÜRÜLƏN AZƏRBAYCANLILAR

1. **Nağıyev İqbal Miryaqub oğlu,** 1908-ci il təvəllüd, **Şirazlı kəndi,** 1988-ci ildə işgəncə ilə öldürülmüşdür.
2. **Əkbərin iki aylıq oğlu,** 1988-ci il təvəllüd, **Şirazlı kəndi,** 1988-ci ildə işgəncə ilə öldürülmüşdür.
3. **Məmmədov Məhərrəm Səfər oğlu,** 1908-ci il təvəllüd, **Böyük Vedi qəsəbəsi,** 1988-ci ildə işgəncə ilə öldürülmüşdür.
4. **Orucov Nizami İnqilab oğlu,** 1956-cı il təvəllüd, **Böyük Vedi qəsəbəsi,** 1988-ci ildə işgəncə ilə öldürülmüşdür.
5. **Cavadov İsmayıl Məhəmmədhüseyn oğlu,** 1930-cu il təvəllüd, **Dəvəli şəhəri,** 1988-ci ildə işgəncə ilə öldürülmüşdür.
6. **İsmayılova Gülgəz Məhəmməd qızı,** 1908-ci il təvəllüd, **Xalisa kəndi,** 1988-ci ildə işgəncə ilə öldürülmüşdür.
7. **Hüseynov Hüseyn Bəbir oğlu,** 1937-ci il təvəllüd, **Xalisa kəndi,** 1988-ci ildə ermənilər tərəfindən vəhşicəsinə döyülmüş, aldığı yaralardan bir neçə ay sonra ölmüşdür.
8. **Səfərov Şirzad Qəfər oğlu,** 1941-ci il təvəllüd, **Xalisa kəndi,** 1988-ci ildə ermənilər tərəfindən vəhşicəsinə döyülmüş, aldığı yaralardan bir neçə ay sonra ölmüşdür.
9. **Əliyev Məmməd Nəsrulla oğlu,** 1893-cü il təvəllüd, **Dəvəli şəhəri,** 1988-ci ildə güllə ilə öldürülmüşdür.
10. **Məmmədov Salman Məmməd oğlu,** 1958-ci il təvəllüd, **Kiçik Vedi kəndi,** 1988-ci ildə işgəncə ilə öldürülmüşdür.
11. **Süleymanov Şamo Əli oğlu,** 1914-cü il təvəllüd, **Yeni həyat kəndi,** 1988-ci ildə işgəncə ilə öldürülmüşdür.
12. **Yusifova Seyran Kəlo qızı,** 1916-cı il təvəllüd, **Yeni həyat kəndi,** 1988-ci ildə işgəncə ilə öldürülmüşdür.
13. **Həsənova Gözəl Həsən qızı,** 1920-ci il təvəllüd, **Yeni həyat kəndi,** 1988-ci ildə işgəncə ilə öldürülmüşdür.

## VEDİBASARIN 20 YANVAR VƏ QARABAĞ MÜHARİBƏSİ ŞƏHİDLƏRİ

1. Vüqar Firudin oğlu Qasımov (1967, Arazdəyən – 1994, Xocavənd)
2. Əsgər Valeh oğlu Rzayev (1964, Böyük Vedi – 1992, Ağdərə)
3. Akif Məmmədəli oğlu Əhmədov (1968, Böyük Vedi – 1992, Ağdərə)
4. Hökumət İnqilab oğlu İsmayılov (Böyük Vedi//Şəmkir – Qarabağ)
5. Fərəməz Məmməd oğlu İsgəndərov (1963, Qaralar – 1992, Ağdərə)
6. Afiq Musa oğlu Kərimov (1965, Qaralar – 1992, Ağdərə)
7. Mübariz Məcid oğlu İsmayılov (1962, Qaralar – 1994, Ağdərə)
8. İslam Dilman oğlu Vəliyev (1960, Yengicə – 1993, Goranboy)
9. Həbib Hüseyn oğlu Cəfərov (1967, Yengicə – 1993, Ağdərə)
10. Alo Ramazan oğlu Mustafayev (1961, Yengicə – 1994, Goranboy)
11. İbrahim Əvəz oğlu Cəfərov (1965, Yengicə – 1992, Tərtər)
12. Şahvələd Əvəz oğlu Cəfərov (1963, Yengicə – 1992, Tərtər)
13. Xanlar Bəylər oğlu Əzimov (1965, Kiçik Vedi – 1994, Beyləqan)
14. Əbülfət Dadaş oğlu Kərimov (1967, Kiçik Vedi – 1994, Tərtər)
15. Cəlal Bilal oğlu Qurbanov (1969, Kiçik Vedi – 1994, Füzuli)
16. Eldar Fərman oğlu Mehdiyev (1965, Xalisa – 1992, Ağdərə)
17. Şahin Zeyqəm oğlu Məmmədov (1974, Xalisa – 1996, Ağdam)
18. Fəxrəddin Xəlil oğlu Yusifov (1956, Xalisa – 1994, Ağdərə)
19. Sərtib Lətif oğlu Ələkbərov (1967, Xalisa – 1992, Qırmızıbazar)
20. Mirələkbər Mirələsgər oğlu İbrahimov (1961, Xalisa – 1994, Füzuli)
21. Fətulla Kazım oğlu Nəsirov (Xalisa – Çaykənd)
22. Elman Bəhruz oğlu Mürsəlov (1963, Xalisa – 1991, Qarabağ)
23. Mürvət Allahverdi oğlu Məmmədov (Xalisa – Ağdərə)
24. Zahid Bayram oğlu Əliyev (1963, Şidli – 1990, Bakı)
25. Əyyub Mahmud oğlu Abdullayev (1967, Şidli – 1990, Bakı)
26. Zöhrab Mirzə oğlu Mirzəyev (1974, Şidli – 1992, Ağdam)
27. Elmar Məhərrəm oğlu Səfərov (1962, Şidli – 1992, Ağdərə)
28. Yusif Ələşrəf oğlu Əliyev (1975, Şidli – 1994, Ağdərə)
29. Nəriman Məhərrəm oğlu Allahverdiyev (1967, Şidli – 1994, Füzuli)
30. Etibar Bilal oğlu Fərəcov (1969, Şidli – 1992, Laçın)
31. Əjdər Hüseyn oğlu Hüseynov (1966, Şidli – 1994, Ağdam)
32. Hasil Sultanəli oğlu Bayramov (1975, Şidli – 1994, Zəngilan)
33. Əbülfət Hüseyn oğlu Məmmədov (1970, Şidli – 1993, Ağdam)
34. Hidayət Əziz oğlu Mirzəyev (1943, Şidli – 1993, Ağdərə)
35. Muxtar Knyaz oğlu Şahgəldiyev (1972, Şidli – 1994, Murovdağ)
36. Fəxrəddin Yusif oğlu İbrahimov (1970, Şirazlı – 1992, Ağdərə)
37. Nəriman Hüseyn oğlu Süleymanov (Şirazlı – Ağdam).
38. Tarıverdi Oruc oğlu Bayramov (1972, Şirazlı – 1991, Zəngilan).



## SOVET DÖVRÜNDƏ (1920-1991-ci illərdə) VEDİBASAR MAHALI ÜZRƏ ADLARI DƏYİŞDİRİLMİŞ YAŞAYIŞ MƏNTƏQƏLƏRİ

| Əvvəlki adı | Yeni adı | Dəyişdirildiyi tarix |
|---|---|---|
| Çəmbərək | Surenavan | – |
| Dəvəli kəndi | Ararat k. | 03.01.1935 |
| Keşişverən | Zovaşen | 03.01.1935 |
| Yuxarı Çanaxçı | Hortun | 03.01.1935 |
| 2 nömrəli sovxoz | Kirov qəs. | 22.10.1939 |
| Böyük Vedi | Vedi | 04.04.1946 |
| Goravan | Yenikənd | 04.04.1946 |
| Reyhanlı | Aygevan | 04.04.1946 |
| Dəvəli sement zavodu | Ararat şəh. | 10.04.1947 |
| Qaşqa | Vardaşat | 10.09.1948 |
| Çanaxçı | Sovetaşen | 10.09.1948 |
| Zovaşen (Keşişverən) | Urtsalanc | 21.10.1967 |
| Arazdəyən | Yerasx | 03.07.1968 |
| Kiçik Vedi | Pokr Vedi | – |
| Birəli | Lancar | 03.07.1968 |
| Daşlı | Daştakar | 03.07.1968 |
| Yenikənd (Goravan) | Goravan | 03.07.1968 |
| Qədirli | Lancanist | 03.07.1968 |
| Şahablı | Şağap | 03.07.1968 |
| Şıxlar | Lusarat | 26.12.1968 |
| Qaralar | Aralez | 25.01.1978 |
| Qaraxaç | Lusaşoğ | 25.01.1978 |
| Taytan | Vanaşen | 25.01.1978 |
| Çimənkənd | Urdzadzor | 25.01.1978 |
| Şirazlı | Vosgetap | 09.04.1991 |
| Yengicə | Sisavan | 09.04.1991 |
| Xalisa | Norakert | 09.04.1991 |
| Şidli | Yexeqnavan | 09.04.1991 |

## VEDİBASAR MAHALININ TOPONİM VƏ ETNONİMLƏRİ*

### DAĞ, YAYLAQ, YURD, QAYA, TƏPƏ, YARĞAN, AŞIRIM, MAĞARA VƏ S. ADLARI

**A**

Ağ yarğan
Ağasıbəyli yurdu
Ağbulaqyurd
Ağcaölən dərəsi
Ağdağ
Ağdərə
Ağrı (Nuh, Ararat) dağı
Ağrı görünməz aşırımı
Ağyal dağı
Alagözdağ yurdu
Alçalı dərəsi
Alırzalar yurdu
Allah-Əkbər (Ələkbər) dağı
Almalığın dərəsi
Alyoldaş yurdu
Arxaşan yaylağı
Arxaşanyurd
Asnı dağı
Asnı dərəsi
Aşağı İkicilər yurdu
Ayı dərəsi
Aygörməz (Aydoğmaz) dərəsi
Ayıqıran
Aylı dağı
Aylı Quzey dağı
Aylıyurd
Aynalı yurd
Alməmməd yurdu

**B**

Bağırsaqdərə
Ballı qaya
Başaxyurd
Bedoyurd
Bədir bəyin yurdu
Bozgünnüt dağı
Böyük Ətli çuxur
Böyük Kərsən dağı
Böyükdüz yaylağı
Buz qaya

**C**

Cabbarın dərəsi
Camışbasan dağı
Cəhənnəm dərəsi
Civirliyin dərəsi
Cığın dərəsi
Cığıngölü yurdu
Cında-Dübəkdaşyurd

**Ç**

Çaldağ
Çanaxçı dərəsi
Çimliyurd
Çirbağaryurd

-----------------

* Bu toponim və etnonimlərin hamısı haqqında kitabın içində bəhs edilmişdir.



Çardaxlı dağı
Çarküsyurd
Çatma dağı
Çatmabulaq yaylağı
Çirbanyurd
Çığırqan dağı
Çökəkyurd

**D**

Damdıra qayası
Daşqaya yurdu
Daşlıyurd
Daşnov yaylağı
Dev zağası
Dev zağasının dərəsi
Demin qayası
Dəmirçi yurdu
Dərəyurd
Dərin yarğan
Dəvəboynu aşırımı
Dəvəgözübaşyurd
Dəvəli yurdu
Dibyurd
Didvan dağı
Dikdaş yurdu
Dikyurd
Divlər otağı mağarası
Dorrax dağı
Dumanlı (dağ, yurd)
Dübəkli//Dübəyli (dağ, yurd)
Dübəkdaşı yurdu
Düzyurd

**Ə**

Əhməd dərəsi
Ələyəz dağı
Əli bəyin yurdu
Əlidaşı qayası
Əlikuçan (dağ, yurd)
Əmirxanlar yurdu
Ətlidağ
Əyricə (yaylaq, yurd)

**G**

Gədik
Göyərçinlər otağı mağarası
Gölaysor dağı

**H**

Hand (dağ, dərə, yurd)
Hacı Mirzə Məcnun yurdu
Haçadağ
Heyranıs dağı
Həsən qayası

**X**

Xaçyurd
Xanım yurdu
Xartlığın dərəsi
Xınıt dərəsi
Xudu bəyin yurdu

**İ**

İlan qayası
İnqala yaylağı

İlanlı dağı
İnəkqayası dağı

İstiyurd

**K**

Kardaş dağı
Keşişdağ
Kəpəz dağı
Kərkab qayası
Kəhkəşan dağı
Kərbəlayı İsmayılın yurdu
Kiçik Ətli çuxur
Kiçik Kərsən dağı
Kiçik Vedi yurdu

Kolanlı yurdu
Komun dərəsi
Kosamməd aşırımı
Kotan dağı
Kotuz dağı
Köhlən çuxuru
Küsüs dağı
Küllük təpələr

**Q**

Qaladibi dağı
Qala qapısı
Qala dərəsi
Qalabaşı yurdu
Qanatmalığın dərəsi
Qanlıca yaylağı
Qap dağı
Qara qaya
Qara dağ
Qaraçıyurd
Qaragölyurd
Qaraquzey dağı
Qaralaryurd
Qarıuçan aşırımı
Qazmayurd
Qəməryurd
Qidi-qidi dərəsi

Qız qalası
Qızılqaya
Qızılvcrən dağı
Qızıllı (Qızıllar) dağı
Qızılziyarət dağı
Qılçıqlının qayası
Quzeydağ
Qızıltəpə dağı
Qızqayası dağı
Qırxbulaq yurdu
Qır dağı
Qoçdaşı
Qotur bulaq
Qoturbulaq yurdu
Quba dərəsi
Qurd ağzı

**M**

Meçiddərəsi yurdu
Məmməd bəyin yurdu
Məmmədabad yurdu
Məmmədrəsul qışlağı

Milli dərəsi
Muğdusuyurd
Muradların dərəsi

**N**

Nəsibli qışlağı

Novçala (çuxuru, yurd)



**O**

Oğlan qalası
Ocaq dərəsi

Ovşar yurdu

**Ö**

Öküzuçan dərəsi

Ömərdaşı qayası

**P**

Palçıqlı dağı
Pirdağ (Pirin) dağı

Postuğun dərəsi

**S**

Samroyurd
Saraybulaq dağı
Sarı qaya
Sarıbaba dağı
Sarıdolama təpəsi
Sultanyurd

Səfkarlı yurdu
Səmray dağı
Səngər dağı
Signah dağı
Suluyurd dağı

**Ş**

Şahbulaqyurd
Şehin dağı
Şəhriyar-ağıl

Şidli obası
Şişdağ
Şıxlar (Şıxo təpəsi)

**T**

Talasavan dağı
Tap
Taplar

Taytan obası
Tikanlıyurd
Topdağ

**U**

Usuboğlu İsmayılın yurdu

Uzunyurd

**Ü**

Üçtəpə dağı

**V**

Varsax dağı
Vəlidağ

Vəliuşağının dərəsi

**Y**

Yağan dağı
Yalyurd
Yarım-ağıl

Yelliceyurd
Yelliyurd
Yuxarı İkicilər yurdu

Yellicə dağı

**Z**

Zarıncı dağı
Zeynal dərəsi
Zeynal dərəsi yurdu
Zeynibulaqyurd
Zəyliyin zağası
Zimmi dərəsi

## MEŞƏ, DÜZƏNLİK, QIŞLAQ, OTLAQ VƏ BİÇƏNƏK ADLARI

**A**

Abbas-ağıl
Ağxaraba-ağıl
Ağkənd meşəsi
Ağrıdağ (Ararat) vadisi (düzənliyi)
Ağsu-ağıl
Ağtaplar
Almalıq kövşəni
Alçalıdərəsi kövşəni
Aralıq kövşəni
Aralıq-ağıl
Arpalar
Arşağ-ağıl
Ayıqıran (meşə, otlaq)

**B**

Ballıqaya-ağıl
Başbiçənək
Bəyrestar-ağıl
Böyükdem
Böyükdüz
Buzxana kövşəni

**Ç**

Çapa-ağıl
Çardaxlı biçənəyi
Çatmadağ selavı
Çayarası
Çayqırağı biçənəyi
Çayqovşağı
Cəhənnəmdərəsi-ağıl
Çuxur demi

**D**

Dəvəgeri otlağı
Dərbənd meşəsi
Dilmələr kövşəni
Dübəkli kövşəni
Düyüdaş kövşəni
Düyüdaş-ağıl

**Ə**

Ərikağacı

**G**

Getgedə-ağıl
Göl kövşəni
Gölləklər kövşəni
Güdüyün düzü
Güldərviş biçənəyi
Güldərviş-ağıl



**H**

Hacı Həsən yeri
Həndam

**X**

Xaraba Cəfərli-ağıl
Xosrov meşəsi
Xudonun çəmi

**İ**

İlanlı meşəsi
İbiölən

**K**

Kəlba Məmmədin yeri
Kəlba Musanın yeri
Kəlba Fətullanın yeri
Kəlba Xudaverdinin yeri
Kəlbayı quzeyi
Kolluq
Kotuz-ağıl
Köhnə Kərki-ağıl

**Q**

Qara-ağıl
Qaladibi meşəsi
Qanqallı kövşən
Qara yer
Qaraçallıq
Qaçaq meşəsi
Qaş-ağıl
Qazançı kövşəni
Qardaxlı meşəsi
Qaş
Qaşqaya
Qızıl-ağıl
Qızqalası biçənəyi
Qocaxan
Qumluq (Qumluca)
Quzey-ağıl

**L**

Levarx-ağıl

**M**

Məmmədrəsul qışlağı
Məngük meşəsi
Murad hasarı
Mustafazağası-ağıl

**N**

Nabatbulaq-ağıl
Nəbinin çəmi
Nəsibli qışlağı
Novçala çuxuru biçənəyi

**O**

Ovçu Nəsib kövşəni
Ortasalbi

**P**

Pirli biçənəyi
Polad yerləri

**S**

Sarıçiçək otlağı
Selbasan kövşəni
Suqarışan
Süzənni dölləyi
Sünnətolan

**Ş**

Şəhriyar-ağıl
Şıxlar kövşəni
Şkol yeri
Şüşəqıran

**T**

Talasavan-ağıl
Tap
Tatyer kövşəni
Taytan kövşəni
Teltel kövşəni
Tərəkəməlik

**V**

Varşağ-ağıl

**Y**

Yamac
Yarım-ağıl
Yaylaq kövşəni

**Z**

Zalo yeri
Zimmi meşəsi
Zülfü meşəsi

## GÖL, ÇAY, ARX, KANAL VƏ BULAQ ADLARI

**A**

Ağ bulaq
Ağbulaq çayı
Ağkilsə bulağı
Ağgöl (Şirin) gölü
Ağsu çayı
Alışar (Hortun) çayı
Alçalı bulağı
Alçalığın gölü
Almalığın çayı
Araz çayı
Arxaşan çayı
Asnı çayı
Aşağı bulaq
Almalıq bulağı

**B**

Başbulaq
Bəsti bulağı
Böyük bulaq
Böyükçay
Buzovçu bulağı
Bozbulaq

**C**

Cığın çayı
Cümşüd bulağı



**Ç**

Çanaxçı çayı
Çapanarx (Çapançay) çayı
Çaşam bulağı
Çəngli çayı
Çimən bulağı
Çığınnılı bulaq
Çölmək bulağı

**D**

Damcılı bulaq
Daşbulaq çayı
Dəvəgözü çayı
Dəvəli arxı
Daşlı bulağı
Dərbənd çayı
Dikarx
Dorrax bulağı
Dübəkli bulağı

**E**

El arxı

**Ə**

Əyriçay
Əliqırıq bulağı

**F**

Fatma bulağı
Fətəli bulağı

**G**

Gərni (Gərnisu, Azad) çayı
Gilanlar çayı
Gölləklər arxı
Gülbulaq çayı
Güleylan çayı

**H**

Haqverdi bulağı
Handdərəsu çayı
Haxıssu çayı
Heyranıs bulağı
Həsən Sultan bulağı
Həsənalı bulağı
Həsənsu çayı

**X**

Xanqolu çayı
Xosrov çayı

**İ**

İmirzik bulağı

**K**

Kərimbulaq
Kəhriz bulağı
Kolanlı (Cirmanis) çayı
Komun çayı
Kotanlı bulağı
Kotuzun bulağı
Küsqayası çayı
Küsüs çayı

Q

Qazmabulaq çayı
Qanlı göl
Qarabulaq
Qaragöl
Qaragöl bulağı
Qarasu çayı
Qaratorpaq çayı
Qaraçalı gölü
Qasım bulağı
Qaxanov kanalı
Qədirli arxı
Qızılverən bulağı
Qırxbulaq
Qoturbulaq
Qoşabulaq
Qumarx
Qurbanbulaq
Qurugöl
Qurusclav çayı
Qələndər bulağı

L

Ludərən çayı

M

Məhərrəm bulağı
Məşədi Feyzulla kanalı
Məşədi Seyfullanın arxı
Mil çayı
Molla Əhməd bulağı
Musanın gölü
Mıstıxlı bulaq

N

Nabat bulağı
Nərmi çayı

R

Rəşoğlunun gölü

S

Saray bulağı
Selimin gölü
Səkinənin bulağı
Soyuq bulaq
Stalin kanalı
Sultan bulağı
Suluyurd bulağı
Südlü bulaq
Sülcymanbulaq

Ş

Şahablı çayı
Şahinbulaq
Şafşarın bulağı
Şirin bulaq
Şırran bulağı
Şorbulaq
Şorsu bulağı

T

Teşbulaq
Təkceviz bulağı
Tək bulaq
Topdağ çayı

V

Vedi (Cığınsu, Fərhad, Goravan) çayı

Y

Yellicə çayı
Yastı bulaq
Yeddibulaq

Z

Zəyli çayı

## YOL, KÜÇƏ, MƏHƏLLƏ VƏ KÖRPÜ ADLARI

A

Abışdılar məhləsi
Ağamalıuşağı məhləsi
Ağasılar məhləsi
Ağdaş körpüsü
Aşağı məhlə

B

Baybalılar məhləsi
Bəylər məhləsi

Ç

Çehlər məhləsi
Çuxur məhlə

D

Dar küçə
Daş körpü
Dəlləklər məhləsi
Dəmirçilər məhləsi

E

Eyvazlılar məhləsi

G

Gülatan məhləsi

H

Həsən körpüsü

İ

İtqapanlar məhləsi

K

Kəsikbaşlılar məhləsi
Kolanlı (Cığındərə, Kürd) yolu
Kosanlı məhləsi

Q

Qalauşağı məhləsi
Qaladərəsi yolu
Qaraçı məhləsi
Qaracallar məhləsi
Qəribuşağı məhləsi
Qədimlər məhləsi
Qızılanlılar məhləsi

M

Mahmudlu məhləsi
Məmmədəlilər məhləsi
Məngüstülər məhləsi
Məşədi Qurbanlı məhləsi
Məşədəlilər məhləsi
Mirzəxanlı məhləsi

O

Orta məhlə
Ocaqlılar məhləsi

P

Padşah (Poçt) yolu
Paskili məhləsi

S

Seyidlər məhləsi
Sefkarlı məhləsi
Sədirli məhləsi
Sulolar məhləsi

Ş

Şanolar məhləsi

T

Tatlar məhləsi
Taxta körpü
Təhməzlilər məhləsi

V

Vedili məhləsi
Vəliuşağı məhləsi

Y

Yuxarı məhlə

Z

Zallar məhləsi
Zamanlı məhləsi

## QALA, MƏBƏD, ABİDƏ, OCAQ VƏ ZİYARƏTGAHLAR

A

Ağagül ziyarətgahı
Ağbal ağa ocağı
Ağkilsə
Ağca qala
Ardıc ağacı ocağı



B

Böyük Vedi məscidləri

Ç

Çığırqan ocağı

G

Gavur qalası
Gəlin (Şirin) sarayı
Güldərviş ocağı

H

Həsən qalası
Hacınağı babanın ocağı

X

Xanoğlu və ya Qazma qalası
Xıdır Eylas ocağı
Xorvirab kilsəsi

Ə

Əbdüləsər ocağı
Ərəb ocağı

İ

İnqala qalası

K

Kardaş ocağı
Kəlba Həsənalı künbəzi
Kəblahəsənalı babanın ocağı
Kolanlı abidələri
Koroğlu qalası

Q

Qalabürc
Qara ocaq
Qaralar məscidləri
Qarakilsə
Qarasu abidəsi
Qidi-qidi ziyarətgahı
Qız qalası

M

Məngük abidələri
Məşədi Əhməd qalası
Mirəli ocağı
Miryaqub ağa kümbəzi

O

Ocaq
Ocaq daşı

P

Pir qəbri
Pirəlmürsəl ocağı//İlğınlı ocaq

**S**

Seyid qəbri ocağı
Sünnü qəbiristanlığı
Seyid Yusif ocağı

**Ş**

Şirazlı məscidi
Şıxlar xarabalıqları

**Y**

Yengicə məscidi

## TAYFA VƏ NƏSİL ADLARI

**A**

Abbas uşağı
Abışdılar
Abolar
Abuzər uşağı
Avşarlar
Ağamalı uşağı
Ağasılar
Armalı

**B**

Bəylər

**C**

Cəfərqulular

**Ç**

Çoban Hüseyn uşağı
Çobanzadələr
Çölməkli

**D**

Daşanlı
Dəvəlilər
Dəlləklər
Dəllərlilər
Dəmirçilər

**E**

Eyvazlılar

**Ə**

Əbdül uşağı
Əlvəllər
Əlikişi uşağı
Əmir uşağı
Əmirxanlılar

**G**

Gülatanlar



**H**

Hacı uşağı
Həsənli

**X**

Xəbər uşağı
Xoylular
Xuleylilər

**İ**

İlanlılar
İmamvaylar

**K**

Keşkazlılar
Kəlba Qəhrəman uşağı
Kəlba Kazım uşağı
Kəlba Məmməd uşağı
Kəlba Hacı uşağı
Kəlba Həbib uşağı
Kəlba Hüseyn uşağı
Kələşlilər
Kəsikbaşlılar
Kolanı
Kosanlı
Kosacalar

**Q**

Qaybalı uşağı
Qala uşağı
Qaramamoşlu
Qarasular
Qaracalar
Qaraçorlu
Qasım katda uşağı
Qasım uşağı
Qasımalılar
Qədililər
Qədirli
Qərib uşağı
Qızılanlı

**M**

Mahmudlu
Məmmədəlilər
Məmmədlilər
Məhəmməd uşağı
Məşədəlilər
Məngüstülər
Məşədi Qurbanlı
Məşədi Oruc uşağı
Milli
Mirzəxanlı
Misirlilər
Molla Həsən uşağı
Molla uşağı
Muradlar

**O**

Oruclular
Orucməmməd uşağı
Ocaqqulu uşağı
Ocaqlılar

**N**

Nurməmməd uşağı

**P**

Paskili

**R**

Rəşidoğlu

**S**

Sadıq uşağı
Sarıxanlı
Seyidlər
Sefkarlı
Sədirli
Səfər uşağı
Sulolar
Süleyman uşağı
Süsənilər

**Ş**

Şadlılar
Şadlinskilər
Şanolar
Şahvələdlilər
Şahnəzərlilər
Şərəflilər
Şofi uşağı
Şindivarlı
Şoildilər

**T**

Tatlar
Tərəkəmələr
Tohmoz uşağı
Topacanlılar

**U**

Usub uşağı

**V**

Vedili
Vəli uşağı

**Y**

Yağbaşlılar
Yediyarlı

**Z**

Zallar
Zallı
Zaman uşağı
Zamanlı
Zeynallılar
Zoralı



# VEDİBASAR FOLKLORUNDAN SEÇMƏLƏR

## MİFLƏR

* * *

Nuh Nəbi yer üzünü su bürüyəcəyini qabaqcadan bildiyi üçün böyük bir gəmi qayıtdırmışdı. Hər cins heyvandan, insandan bir cüt götürüb gəmiyə yığmışdı. Yer üzünü su alanda gəmi suyun üzünə qalxdı. Nuh Nəbi yetmiş beş günlük azuqə də götürmüşdü. Gəmi yetmiş beş gün suyun üzündə qaldı. Bir gün Nuh Nəbi gördü ki, bir dağın başı qaralır, gəmisini dağa tərəf sürdü.

Dağın başı darısqallıq idi, gəmidəki insan və heyvanları tuta bilməzdi. Deyirlər, başı görünən dağa o zaman Qasırdağ deyərmişlər. Onun övladı olmur, qısır qalırmış. Nuhun yanında xəcalət çəkdi. Ona görə xəcalət çəkdi ki, gəmidə olan insan və heyvanı yerləşdirə bilmirdi. Öz-özünə dedi ki, niyə mənim övladım olmasın, Nuhun yanında olanlara hörmət eləyim. Nuh Nəbi onun xəcalət çəkdiyini bilib dedi:

– Ey Qısırdağ, sən qısır olmayacaqsan. Sənin övladın olacaq.

Həmin gün Qısırdağ hamilə qaldı, az sonra ağrı çəkdi, bir oğlu oldu. O ağrı çəkdiyi üçün adını Nuh Nəbi Ağrıdağ qoydu. Oğlunun adını Bala Ağrı qoydular. Bala Ağrı da anasının yanında baş qaldırdı. Gəmidə olanlara yer verdilər, onlara hörmət elədilər. O zamandan Ağrıdağ oğlu Bala Ağrı ilə yan-yana durub göylərə baş qaldırdı.

* * *

Bir çoban Ağrı dağının ətəyində heyvan otarırmış. Günorta baxır ki, həm özü, həm də sürü suzundan ölür. Heç yanda da su yoxdu. Allaha yalvarır ki, burda bir çeşmə yarat, yeddi qoyun qurban kəsim.

Bir də görür ki, qabağında bir çeşmə yarandı, özü də içir, sürü də içir. Sonra fikirləşir ki, bir sudan yana yeddi heyvanı niyə kəsim, dəli deyiləm ki?!

Qoltuğundan yeddi dənə bit tapır, öldürüb deyir ki, bu da Allahın yeddi qurbanı.

Elə bu dəmdə çoban sürüsü ilə bir yerdə daşa çevrilir. Ağrı dağının ətəyindəki daşlar o vaxtdan qalmadı.

* * *

Yaylaq vaxtıymış. Bir oba köçür dağda yurd tutur, çadırların qurur. Elə bu vaxt gücdü yel əsir, yağış yağır, boran olur. Camaat bir

də baxır ki, göydən boynu zincirli bir əjdaha endi. Tez gətirib buna öküz qurban kəsirlər.

Əjdəha heç kimə dəymir, ancaq bir cavan igidə deyir ki, mən hara getsəm, sən də dalımca gəl.

Bunnar yola düzəlib gedirlər. Xeylək gedəndən sonra Asnı dağına çatırlar. Asnı dağında bu əjdəha üzün tutur Ağrı dağına sarı, bir üşkürək atır. Ağrı dağından bir əjdəha yenir ki, bunnan da yekə. Demiyəsən, bu əjdəhalar düşmandılar. Neçə dəfə vuruşmuşdular. Hər dəfə də Ağrı dağındakı gücdüyübmüş. İndi bu əjdəha oğlanı özünə arxa gətiribmiş.

Əjdəhalar başdıyır vuruşmağa. Ağrı dağının ajdəhası bu birin az qala basırmış. Bu əjdəha oğlana işarə eliyir. Oğlan qılıncın siyirib Ağrı dağının əjdəhasını öldürür.

Sonra əjdəha oğlana deyir ki, dalımca gəl. Bunnar gəlib bir zağaya girirlər. Oğlan görür ki, burda üç xum var, qızılla doludu. Əjdəha oğlana deyir ki, nə qədər bacarırsan götür. Ancaq elə götür ki, bir də peşmanlayıb bura qayıtmayasan. Yoxsa zərər çəkərsən.

Oğlan bütün ciblərini, qol-qoltuğunu doldurur qızılla, sonra çıxıb gedir. Bir müddət keçir. Oğlan bu qızılları sağa-sola xərcləyib qurtarır. Təzədən durub qayıdır həmin zağaya. Görür ki, əjdəha başını qoyub qızıl xumlarının üstünə, yatıb.

Oğlan yavaşca yaxınlaşır, xumun ağzın açıb gizlicə qızıllardan götürmək istəyir. Bu dəmdə əjdəha oyanır. Baxır ki, oğlan qızıl götürür. Tüpürür bunun üzünə ki, adam oğurruq eləməz. Ta oğlan heç zad götürmüyüb dala qayıdır. Ancaq əjdəhanın tüpürdüyü sifəti qap-qara qaralıb çürüyür.

# MARAQLI ƏHVALATLAR

## SARI ŞİNEL

Goravanlı Mustafa kişinin oğlu Böyük Vedidən qız qaçırıbmış. Bir neçə gün sonra oğlanın mənsub olduğu tayfanın ağsaqqalı Heydər kişinin başçılığı ilə bir dəstə adam el adəti ilə barışığa gedir. Heydər kişinin əynindəki sarı şinel dərhal diqqəti çəkir. Nə isə, barışıq baş tutmur.

Bir neçə gün sonra Heydər kişinin qardaşı Mədət müəllim yenə bir neçə nəfərlə təzə qohumlarıgilə yola düşür. Onun da əynində həmin sarı şinel.

Axır ki, qohumlar barışır və adət üzrə kürəkən qayınata evinə qonaq çağırılır. Kürəkənin də əynində həmin sarı şineli görəndə təzə qohumlar başa düşürlər ki, Goravan kəndində cəmi bir şinel varıymış...



## MƏHƏMMƏD KİŞİNİN CANAVARI

Goravan kəndində bir Məhəmməd kişi, bunun da vardan-yoxdan, dünya malından bir qoçu var imiş. Bir gün səhər tezdən gəlib tövlənin qapısını açanda görür ki, qoç-zad yoxdur, bir tox canavar var, o da şöngüyüb oturub tövlənin ortasında. Məhəmməd kişi bir açıq bacaya baxır, bir də qoçun sür-sümüyünə. Məsələnin nə yerdə olduğunu başa düşür.

Bu xəbər bir azdan bütün kəndə yayılır. Axışıb gələnlər canavarı öldürmək üçün Məhəmməd kişini nə qədər dilə tuturlar, razı olmur. Qoçun zınqırovunu canavarın boynuna bağlayıb, buraxır çöllüyə.

Canavar haradan keçirsə, xəbər gəlir ki, Məhəmməd kişinin canavarı filan yerdən keçdi. Gəlişindən qabaq bu gəlişi xəbər verən zınqırov canavarı beləcə acından öldürür.

## "ŞÜMÜR" KEŞİŞ

Goravan kəndində Aşura günü şəbbeh çıxarırmışlar. Heç kim Şümürün rolunu oynamaq istəmir. Ona görə də qonşu kəndin keşişini çağırırlar. Başına dəbilqə qoyur, belinə qılınc qurşayırlar. O soruşur:

– Mən nə iş görməliyəm?

Deyirlər:

– Bu körpə uşaqlar ağlaşıb səndən su istəyəcəklər, sən də verməzsən.

Keşiş də çox ürəyiyumşaq olur. Uşaqlar ağlaşanda o kövrəlib, deyir:

– Ara, vallah, man siza su veraram, amba bu musurmannar qoymur...

## BİR AZ DÖZÜN!

Otuz il əri Qaçaq Kərəmlə qaçaqçılıq edəndən sonra doğma Böyük Vedi kəndinə qayıtmış Şahpəri arvadı hamı xala, bibi yox, "dayı" deyə çağırır. Kişilərlə bərabər döyüşlərdə olan bu qoçaq qadınla bağlı çox əhvalatlar danışılırdı. Onlardan biri də budur ki, bir dəfə daldalandıqları mağarada uşağı olan zaman qaçaqları mühasirəyə alırlar. Bu vaxt atışma səsini eşidən Şahpəri qışqırır: "Bir az dözün da, ay qırılasınız!" Sonra körpəni doğur, yuyur, bələyir, belinə sarıyır və atın yəhərinə qalxır.

## ŞAHPƏRİ "DAYI"NIN PLOV BİŞİRMƏYİ

Qoca vaxtlarında kəndin bəyləri Şahpəri "dayı"nın qoçaqlığını sınamaq istəyirlər. Vedibasar kəndlərində qış aylarında belə bir adət vardı ki, hər axşam qonşular bir evə yığılar, maraqlı söhbətlərə qulaq asardılar. Şahpəri "dayı"nın söhbətlərinə qulaq asmaq istəyənlər də az deyil-

miş. Belə axşamların birində mübahisə salırlar ki, kim gedib köhnə qəbiristanlıqdakı uçuq qəbirin yanında gecə plov bişirib gətirə bilər?

Heç kim dinmir.

Şahpəri deyir:

– İçinizdə igid var ki?! Mən gedərəm.

Sabahkı gecə odunu, qazanı, düyünü, bir sözlə, plova lazım olan nə varsa, aparıb qəbiristanlığın yanına qoyurlar.

O, aşı süzüb, dəmə qoyandan sonra uçuq qəbirdən bir əl uzanır. Şahpəri nənə bu ovuca bir az düyü qoyur.

Əl ikinci dəfə uzanır, yenə verir.

– Acsan, ye.

Əl üçüncü dəfə uzananda çömçə ilə vurur:

– Bəsdi də, bəs oradakılara nə aparacağam?

Sonradan məlum olur ki, bir nəfəri uçuq qəbirə salıb, üstəlik keşiyini də çəkirmişlər ki, qorxmasın.

Beləcə, cavanlar Şahpəri "dayı"nı qorxuzmaq istəyibmişlər. Amma baş tutmayıb.

## İKİ DÜŞMƏN

Kərbəlayı İsmayılın qolçomaq qiyamı yatırıldıqdan sonra o, Arazın o tayına keçmək məcburiyyətində qalır. Amma gəlini ağırayaq olduğuna görə apara bilmir. Heç kimə də ürəyi qızmır. Tərəfdarlarının bir hissəsi döyüşlərdə həlak olmuş, digər hissəsi isə eldən-obadan didərgin salınmışdı. Birdən yadına düşür ki, bəs onun Usuboğlu adlı bir düşməni var. Aralarında qan düşmənçiliyi olubmuş. Amma çox namuslu adam imiş. Onun qapısına gedir, gəlinini qan düşməninə tapşırır. Usuboğlu da vaxtı çatanda gəlinə mamaça çağırtdırır. Gəlin azad olanda ona muştuluğa gəlirlər. Usuboğlu soruşur:

– Oğlan oldu, ya qız?

– Oğlandı.

Usuboğlu ikiəlli başına bir qapaz vurub:

– Düşmənimin biri də artdı, – deyir.

## KƏNDİRİNİ SALLA

Goravan kəndində Mustafa kişinin oğlu Məhəmməd mədəniyyət evində rollar oynayırdı. Ona "artist Mamed" deyirdilər. Bir gecə evlərinə qayıdır. Anasına çox deyir ki, mənə qovurma ver, anası Gülsənəm arvad vermir. Məhəmməd əlini göyə qaldırıb deyir:



- Ay Allah, kəndirini salla!

Bir də görürlər ki, bacadan kəndir enir. O, kəndiri anasının belinə bağlayır. Deyir:

- Allah, kəndirini çək.

Kəndir dartılır. Gülsənəm arvadın ayaqları yerdən üzülür. Gülsənəm arvad oğluna yalvarır. Məhəmməd yenə bacaya üzünü tutub deyir:

- Allah, bu dəfə anamın günahından keç.

Gülsənəm arvad qovurma çıxarıb ocaqda təzələyir. Məhəmməd kəndirini sallayan "Allah"la bir yerdə ləzzətlə qovurmanı yeyirlər.

## LÜLƏSİ GÖYƏ BAXIR

1918-ci ildə Böyük Vedi kəndinin erməni daşnakları tərəfindən hücuma məruz qaldığı ağır günlərdə Yetim Əkbər yoldaşları ilə erməni nizami orusundan bir top ələ keçirir. Çox çətinliklə öküzlərə qoşub gətirirlər. Yetim Əkbər Abbasqulu bəyə deyir:

– Abbasqulu bəy, topumuz yoxuydu, tutub gətirmişik. Özü də əyripilan vurmaq üçündü. Lüləsi göyə baxır.

Abbasqulu bəy baxıb gülür:

– Oyunun olsun, ay Əkbər. Bu ki, qazandı.

## SİZİ AC QOYMAYACAQDIM Kİ...

Şahpəri əri ilə qaçaqçılıq edirmiş. Bir gün döyüşdən sonra yaranmış sakitlikdən istifadə edən uşaqlarmm ac olduğunu görüb, qayalığın arasında ocaq çatıb qazan asır. Uşaqlar səbirsizliklə xörəyin bişməsini gözləyirlər. Xörək bişib süfrə salınanda atışma təzədən başlayır. Şahpəri də silahı götürür. Onları mühasirəyə salırlar.

Qaçaqlar atları minib tez-tələsik aradan çıxmalı olurlar. Qaça-qov başlanır. Gözdən itdikdən sonra uzaq meşədə dayanırlar ki, dincələrini alsınlar. Bu zaman uşaqlar aclıqdan şikayətlənirlər. Heyfsilənirlər ki, xörəklərini yeməyə imkanları olmadı. Bu vaxt Şahpəri arvad gətirib süfrə açır. İki yerdən deşilmiş qazanı ortaya qoyur. "Gəlin yeyin, mən sizi ac qoymayacaqdım ki," - deyir.

Demə, ara qarışanda qazanı yəhərin qaşına qoyub aradan çıxarıbmış.

## DÜŞMƏNÇİLİK

Vedibasarda Səttaroğlu Əli ilə Soltanın düşmən olduğunu hamı bilirdi. Bir gün Əlini Böyük Vediyə qonaq çağırırlar. Söhbətin şirin yerində qonağa xoş gəlsin deyə ev sahibi Əlini tərifləyir, Soltanı isə yamanlayır. Bun-

dan qəzəblənən Əli ev sahibinin söhbətini yarımçıq kəsib ayağa qalxır.

– Məgər burada Soltanla bağlı söz oldu ki, söhbəti o kişinin üstünə gətirdin? Yəqin ki, indi burada mənim əvəzimdə Soltan olsaydı, bu söz onda mənim ünvanıma deyiləcəkdi, – deyə Əli məclisi tərk edir.

Böyük Vedidə bəzi vacib xırda-para işlərini görüb yola çıxır. Kərkab qayasına yaxınlaşanda qarşısına silahlı-yaraqlı Soltan çıxır. Məclisdəki söhbətdən hələ də hirsi soyumayan Əli hövsələsiz halda Soltanın üstünə qışqırır:

– Nə yolkəsənlik eləyirsən, Soltan? Belə çıx yolumdan!

Soltan gülümsəyir:

– Səttar oğlu, yol kəsmək fikrim yoxdur. Bir neçə saat qabaq Böyük Vedidə qonaqlıqda elədiyin kişiliyi mənə çatdırdılar. Bir heyvan götürüb gətirdim ki, ayağının altında qurban kəsim.

Əli yumşalır:

– Heç nə lazım deyil, Soltan.

– Lazımdır, Səttar oğlu. Mərd düşmən namərd qohumdan irəlidir.

Soltanın işarəsi ilə adamları Səttaroğlunun ayağı altında qurban kəsirlər...

## BU Kİ ADAMDIR!

Yüzillər boyu Vedibasar mahalında, onun bir çox kəndlərində isə lap XX yüzilin əvvəllərinə qədər erməni adlı məxluq yaşamayıb. Bunu olmuş belə bir əhvalat da təsdiq edir.

1918-ci ilə qədər erməni-daşnak qüvvələri Vedibasar kəndlərinə hücum eləməyə cəsarət etmirlər. Hərdən kəşfiyyata adam göndərib, müsəlman kəndlərinin etibarlı müdafiə olunduğunu eşidib, çəkilib yerlərində otururmuşlar.

Bir gün Taytan kəndinə xəbər yayılır ki, kəndin kənarında bir erməni cəsədi var. Kənd bir-birinə dəyir. Erməni görmək marağı adamlara güc gəlir. Hamı qaçır göstərilən yerə. Adamlardan biri irəli keçib, üzü üstə yerə sərilmiş cəsədi arxası üstə çevirir. "Bu ki adamdır!" – deyə camaat heyrət içində bir-birinə baxır.

## KƏRİM KİŞİNİN MƏNTİQİ

Bir gün bağçacıqlı Kərim kişinin arvadı ərinə deyir:

– Ay kişi, yəqin qismətdəndir. Bu il fermanın çobanı kürd Abdullanın qoyunlarından hamısı ekiz doğur. Yaxşı qonşudur. Allah ruzusunu bol eləsin.



Kərim kişi arvadını mənalı-mənalı süzüb dillənmir.

Bir neçə gün sonra kolxozun ümumi yığıncağında kolxozun sədri ferma müdirini qoyunçuluqda yaranmış acınacaqlı vəziyyətə görə tənqid edir. Ferma müdiri də öz növbəsində günahı zootexnikin üstünə atır, yemin azlığından şikayət edir.

Bayaqdan bəri bir küncdə oturub dinləyən Kərim kişi söz alıb deyir:

– Zəhmət çəkib özünüzü yormayın. Neçə ki, kürd Abdullanın qoyunları ekiz doğur, fermanın planı dolan deyil.

## GƏLƏN İL DƏ SƏRASƏR

Birinin evinə qonaq gəlir. Üstündən bir neçə gün keçir. Ev sahibi baxır ki, qonaq heç getmək fikrində deyil.

Otaqda yerə sərilmiş palazın üstündə oturub söhbət eləyəndə ev sahibinin pişiyi gəlib durur bunların ortasında. Ev sahibi pişiyi qucağına götürür, əlini başına çəkib qonağa eyhamla deyir:

**Pişiyim, pişiyim mavına,**
**Çaxmağına, qovuna,**
**Qonaq bu gün burdadır,**
**Sabah gedər evinə.**

Qonaq isə heç halını da pozmur. Pişiyi ev yiyəsindən alır, başını tumarlayıb deyir:

**Pişiyim, pişiyim mavisər,**
**Çıxma eşiyə, yel əsər,**
**Bu il qonaq burdadır,**
**Gələn il də sərasər.**

# D E Y İ M L Ə R

## DALINCA QIRMIZI ALMA GÖNDƏRMİŞƏM?

Keçmişdə dəvətnamə yox idi. Vedibasar kəndlərində belə bir adət vardı ki, toya çağıran tərəfdən bir nəfər at belinə qalxıb, bir torba qırmızı alma götürüb, toya çağırılan adamlara verərdi. Qırmızı alma verilən adam toy sahibinə kömək etməli idi. Vedililər arasında "Dalınca qırmızı alma göndərmişdim?" – zərb-məsəli o vaxtdan yaranıb. Gəlişi ilə qarşısındakına minnət qoyan adamlara həmişə bu sual ünvanlanardı: dalınca qırmızı alma göndərmişəm?

## BATBAT YEMİSƏN?

Batbat tikan növüdür. Narkotik maddə ilə zəngin olduğu üçün belə bir fikir formalaşmışdır ki, batbatı yeyən adam dəli olur. Ona görə də sözünün yerini bilməyənə "Batbat yemisən?" – deyirdilər.

## AYAQYALINLIĞI DA GÖRMÜŞÜK, DƏMİRTİKANLIĞI DA

Dəmirtikan tikanının kolu torpaqla sürünüb, böyük ərazini tuturdu. Sonra tikanları yetişib koldan qopurdu, kolu isə quruyub torpağa qarışırdı. Tikanlar altı künclü, bərk və diş-diş idi. Bir növ qədim döyüş silahı olan toppuzların kiçik modelinə oxşayırdı. Dəmirtikan bitən sahədən ayaqyalın salamat keçmək qeyri-mümkün idi. Bu məsəl də buradan yaranmışdı. Çətinlikdən qorxmamaq mənasında işlənirdi.

## LAP ŞƏDDADDIR

Zalım adam haqqında işlədilən ifadə. Görünür, bu deyim vedili Şəddadilər sülaləsinin zülmkarlığı ilə əlaqədar yaranmışdı.

## İŞİ DÜYÜNƏ DÜŞÜB

Düyün Vedi ərazisindəki qədim Dvin şəhərinin yerli tələffüzdə adıdır. İşi dolaşığa, süründürməçiliyə, çıxılmazlığa düşən adam haqqında deyilərdi.

## ALLAH HEÇ KƏSİN İŞİNİ DÜYÜNƏ SALMASIN!

Alqışdır. Burada da Düyün Vedi ərazisindəki Dvin şəhərinin yerli tələfffüzdə adıdır. Görünür, adamlar həmişə divan-dərə yerləşən bu yerə işi düşməyi böyük bir bəla hesab ediblər.

## QARACALI KOLU KİMİ NƏ BİTİBSƏN GÖZÜMÜN QABAĞINDA?

Qaracalı-tikan kolu idi. Xoşa gəlməyən adam tez-tez qarşıya çıxanda deyərdilər.

## LƏLƏ KÖÇÜB, YURDU QALIB

1500-cü ildə İsmayıl Xətai qoşun toplamaq məqsədi ilə Ərzincana gedərkən yolüstü Göyçə mahalında düşərgə salır. Bunu eşidən Qara-



yunlu hökmdarı Sultan Hüseyn onu öldürmək qərarına gəlir. Hiylə lədərək onu qonaq çağırır. Qonaqlıqda iştirak edən Hüseyn bəy Lələ yləni başa düşür, özünü o yerə qoymur. Məclisdə ev yiyəsi ilə qoqlar bir-birlərinə mehribanlıq göstərirlər. Qonaqlıqdan dönən qızılaşlar obanın tonqallarını gur çatıb, gecə ikən yola düşür, Cığın dərəsi lə Vedibasardan enib Arazı keçirlər. Səhərə qədər tonqalların sönməsini gözləyən Sultan Hüseyn səhər tezdən hücuma keçir. Lakin gəlib görür ki, Lələ köçüb, yurdu qalıb. Bu zərb-məsəl Əyricə yaylağının Sultan yurdunda beləcə əmələ gəlib.

## AYI MƏRGİZDƏN QAÇIB

Ayı lap əvvəllər əkinçi olub. Bostan arxlarını düzəltmək üçün mərgiz adlı bir alət varmış. Eni yarım metr, ağzının uzunluğu bir metr olan mərgizin içərisindəki halqaya kəndir bağlanardı. Bir nəfər mərgizin sapından tutub yerə sancar, qarşıdakı isə iplərin bağlandığı ağacdan tutub dartar, torpağı çıxarırdı. Bu alətlə işləmək o qədər çətin idi ki, deyirdilər ayı da mərgizə dözməyib, qaçıb.

## ŞEYTANLA ÇİLİNG-AĞAC OYNAMAQ

Vedibasarda çiling-ağac məşhur uşaq oyunlarından idi. İki barmaq yoğunluğuna bir qarışlıq ağacın hər iki ucunu yonub yerə atar, digər bir ağacla həmin künclərdən vurub göyə qaldırar, göydə əlimizdəki ağacla vurub ən uzaq məsafəyə atardıq. Gödək ağac çiling, uzun ağac elə sadəcə ağac adlanardı.

"Şeytanla çiling-ağac oynamaq" deyimi bu oyundan ad almışdı və şeytanla mənasız bəhsə girmək anlamında idi.

## ÖZÜNƏ BOY VERMƏK

Özünü öymək, özünü tərifləmək mənasında işlədilirdi. Sırf "Dədə Qorqud" deyimidir. Dədə Qorqud qopuz götürüb, Oğuz igidlərinə boy verərdi, yəni onları tərifləyərdi.

Vedibasarda özünü çox tərifləyən adama "Özünə az boy ver" deyərdilər. Adamın boyu (ucalığı) və böyümək sözləri də həmin ifadə ilə eyni kökdəndir.

## BULAQ SƏSƏ GƏLƏR

Vedibasarda, xüsusilə onun dağlıq kəndlərində çoxlu bulaqlar

olub. Yayda el yaylaqlara qalxanda da obalar adətən bulaq ətrafında salınardı. Payızın ilk ayında isə adamlar yaylaqdan enər, geriyə köç edərdilər. Yaylaq vaxtının başa çatdığını bulaqlar hamıdan əvvəl xəbər verərdi. Belə ki, əvvəl-əvvəl bulaqların suyu azalardı. Adamlar başa düşərdi ki, arana enmək vaxtıdır. Gur bulaqların suyu get-gedə azalıb sısqalaşardı. Hətta bəziləri tamam quruyardı. Yaz ağzı isə bulaqlar yenidən qaynaşardı. Səs-küy, şenniklik artdıqca sanki bulaqlar da daha gur çağlayardı. Ona görə də deyərdilər ki, bulaq səsə gələr.

## VEDİLİYİK, DEDİYİMİZ DEDİKDİR...

Tarix boyu mübarizələr, müharibələr meydanı olmuş Vedibasar mahalının bu tarixi taleyi onun adamlarının xarakterinə də öz möhürünü vurmuşdu. Belə ki, Vedibasar camaatı öz dönməzliyi, mübarizliyi, əyilməzliyi, bir az da inadkarlığı, tərsliyi ilə bütün bölgədə tanınırdı. Vedililərin xarakterinin güzgüsü olan aşağıdakı deyim də buradan yaranmışdı:

**Vediliyik,**
**Bir elliyik.**
**Dediyimiz dedikdir,**
**Ölərik,**
**Dediyimizdən dönmərik.**

## VEDİNİN QURU BƏYLƏRİ

Vedibasarda bu, çox məşhur deyimdir. Vedibasar ərazisinin Rusiya işğalı altına keçməsindən sonra əmələ gəlmişdir. Belə ki, rusların Qafqazda yeritdiyi siyasət nəticəsində bəylər bir neçə kateqoriyaya bölünmüşdü. Bunlardan bir qismi böyük torpaq sahələri, bəylik titulu, varı-dövləti, başqa sözlə, hakimiyyəti və hökmü olan həqiqi bəylər idi. Vedibasarda, məsələn, Şadılı (Şadlinski) bəyləri. İkinci kateqoriyaya çarın yerlərdəki siyasəti nəticəsində müflis olmuş, var-dövləti əldən çıxmış, ancaq quru bəylik titulu qalmış bəylər daxil idi. Nəhayət, üçüncüsü, çar xəzinəsinə pul (bəylik haqqı) ödəməklə bəy titulu alan bəylər idi. XIX yüzilin ikinci yarısında tətbiq edilən bu qanundan Vedidə də bir sıra adamlar istifadə etmiş, rəsmi bəy titulu almışdılar. Lakin onlarm da bəyliyi quru bəylikdən o yana getmirdi. Çünki nə torpaq sahələri, nə elə bir mülkləri, var-dövlətləri vardı. Cibi boş olsalar da, daim bəy yerişi yeriməyə çalışdıqlarından "Vedinin quru bəyləri" deyimi meydana gəlmişdi. Sonralar bu deyim həmin xasiyyətli adamların hamısına ünvanlanmışdı.



## XUMUN DİBİNDƏ YATMAQ

Vedibasar mahalında **xum** iri çaxır küplərinə deyilərdi. Bu küplərin ortası çox yoğun, hündürlüyü adam boyda olardı. İçkiyə çox aludə olmağa "xumun dibində yatmaq", içkiyə çox meyilli adamlara isə "xumun dibində yatan" deyərdilər.

## SEYİD YASİN KİMİ HƏMİŞƏ ƏLİN AÇIQDIR

Al əli olub, ver əli olmayan adam haqqında deyilən sözdür. Vedibasar kəndlərinə hərdən qapı-qapı dilənən seyidlər gələrdi. Görünür, bu deyim də belə üzlü seyidlərdən hansınasa ad olaraq yaranmışdı.

## ÇALASI

Ara qarışdıran, ara vuran adam haqqında deyilən ifadədir. Görünür, çalasının (qatıq mayasmın) südün mahiyyətini (südlüyünü) dəyişmək (qatığa çevirmək) xüsusiyyətindən irəli gəlir.

## BAY OLMAQ, BAY ELƏMƏK

Bir işi başa çatdırmaq, bir işdən barımmaq, tutduğu işdən yarımaq mənasında işlənir: "Yaman bay oldum", "Bu işi çox bay elədik, qaldı o biri!"

## AVŞARLILAR KİMİ NƏ YOL ÜSTÜNDƏ DURMUSAN?

Avşarlılar tarixən mərd, döyüşkən tayfa olmuşlar. Səfəvi qorçubaşılarının (şah qvardiya başçılarının) çoxunun Əfşar əmirlərindən olduğu da məlumdur.

Görünür, Vedibasar mahalı ərazisində məskunlaşan, burada Avşar və Əfşarlı adlı kəndlər salan avşarlıların igidliyi, dönməzliyi, qorxmazlığı, döyüşkənliyi, davakarlığı Vedibasarda belə bir ifadənin yaranmasına və zərb-məsələ çevrilməsinə səbəb olmuşdur.

## GEC GƏLMİŞƏM, YOXSA AZ GƏTİRMİŞƏM?

Vedibasarın aran kəndlərində mal-qaranı Araz qırağında otarardılar. Ötən əsrin əvvəllərində Türkiyə ilə Sovet hökumətinin arasında sərhəd xətlərinin hələ olmadığı vaxtlarda naxırçı 400-500 mal-qaralıq böyük bir naxırı otarmağa aparır. Arazın o tayından beş-altı qaçaq-quldur çayı keçir, naxırçının əl-qolunu bağlayır, naxırı da qabaqlarına

qatıb aparırlar. Yazıq naxırçı heç cınqırını da çıxartmır. Buna baxmayaraq, qaçaqlardan ikisi geri dönür və onu (naxırçını) verirlər valayın deminə, yəni başlayırlar döyməyə. Naxırçı qayıdır ki:

– Gec gəlmişəm, yoxsa az gətirmişəm? Naxırı aparırsınız, bəs məni niyə döyürsünüz?

İndi bu zərb-məsəli haqsız incidilənin dilindən tez-tez eşitmək olar.

## TECONUN QANI OLMADI Kİ?

Vedibasarın iki qonşu aran kəndi arasında torpaq üstündə münaqişə olur. Danışıqlar heç bir nəticə vermir, iş gəlib çıxır silahlı toqquşmaya. Hər iki tərəfdən itkilər olur. Öldürülənlərdən birinin adı Teco olur. Davanı dayandırmaq, sülh yaratmaq üçün ağsaqqallar işə qarışmalı olurlar. Sakitlik yaranır. Amma iki gün keçməmiş Teconun adamları qarşı tərəfdən bir nəfəri öldürürlər. Bir gün sonra daha iki nəfəri də qətlə yetirirlər. Ağsaqqallar bir də işə qarışmalı olur, bu hərəkətlərinin səbəbini soruşurlar. Cavabında deyirlər ki, Teconun qanını alırıq.

Növbəti qətldən sonra ağsaqqallar bir də işə qarışıb səbəbini soruşduqda onlara eyni cavabı qaytarırlar. Onlarsa əsəbiləşib deyirlər:

– Əşi, bu Teconun qanı nə qədərdir ki, qurtarmadı?!

Bu gün biri səbəbsiz, boş yerdən dava etmək istədikdə bu məsəli işlədirlər:

– Teconun qanı olmadı ki?!

## BU XINA O XINADAN DEYİL

Ata-anasını itirmiş bir qız uşağı nənəsi ilə yaşayırmış. Nənəsi hər gün onu sevələyər, əzizləyər, yatmamışdan qabaq nəvəsinin barmaqlarına xına qoyarmış. Qayğısız böyüyən nəvə isə həmişə xınadan sonra ürəkdən rəqs edib yaratmış. Günlər keçir, qız gündə bir arpa boyu böyüyür, gözəl bir qız olur. Axşamlar yatmazdan qabaq xınalı əllərini süzdürə-süzdürə rəqs etməsi isə artıq adətə çevrilir.

Günlərin birində qıza elçi gəlir, onun "hə"sini alırlar. Xınayaxdı mərasimi zamanı qızın barmaqlarına xınanı qoyan kimi o, adəti üzrə başlayır rəqs etməyə. Oğlan evinin adamları qızın bu yersiz hərəkətinə pərt olurlar. Qızın nənəsi işin nə yerdə olduğunu bildiyi üçün tez nəvəsinə yaxınlaşır və qulağına pıçıldayır:

– Qızım, oynama, ayıbdır, bu xına o xınadan deyil.

İndi biri yersiz, təəccüblü hərəkət edəndə bu deyimi işlədirlər.



## ELƏ BİL ŞABI QARININ İTİDİR

Deyilənə görə, Vedibasar kəndlərinin birində Qurbanəli adlı bir nəfər evlənir, arvad-uşaq sahibi olur. Onun baxtı gətirir. İşindən, həyat tərzindən, dolanışığından razılıq edir. Övladlarından heç bir narazılığı olmur. Təkcə arvadı tənbəl və çox gəzən imiş. Ev işlərini görməz, silib-süpürməzmiş. Səhər əri işə gedən kimi evdən çıxar, kəndin arvadları ilə laqqırtı vurar, onun-bunun qiybətini qırar, axşama yaxın evə dönərmiş. Onun bu hərəkətindən əri Qurbanəli kişi də, oğlanları da təngə gəlirlər.

Bir dəfə arvad yenə axşam hamıdan sonra evə gəlir. Kişi artıq dözə bilmir, qayıdır arvadına ki:

- Harada idin? Şabı qarının iti kimi kəndi niyə dörd dolanırsan?

O vaxtdan da el içində, veyil-veyil gəzənlərə "Elə bil Şabı qarının itidir" zərb-məsəlini ünvanlayırlar.

## KÜRÜŞNƏSİNƏ OD DÜŞMƏK və ya KÜRÜŞNƏSİ YANMAQ

**"Kürüşnəsinə od düşmək"** deyimi **"kürkünə birə düşmək"** mənasındadır. Kürüşnə noxudun məhsuldar növlərindən birinin adıdır. Keçmişdə Vedibasar ərazisində dənli bitkilərdən həm də çoxlu noxud əkilərmiş. Görünür, bu deyimin kökündə də noxud tığına od düşmüş adamın narahat vəziyyəti ilə bağlı hər hansı konkret hadisə durur.

**"Kürüşnəsi yanmaq"** deyimi də, çox güman ki, həmin ifadədən doğub. Susuzluqdan yanan, çox su içən adama ünvanlanan bu deyimin noxud-kürüşnə tarlasının susuzluqdan yanması mənasından yaranmasını ehtimal etmək olar.

## MƏNƏ İTİ-QURDU GÖSTƏRMƏ, KƏLBA ƏLİNİ GÖSTƏR!

Vedibasarda kənd təsərrüfatının başqa sahələri ilə yanaşı, üzümçülüklə də həmişə məşğul olublar. Böyük Vedidə bir nəfərə xəstəsi üçün yaxşı doşab lazım olur. Tanışları ona deyirlər ki, Şidlidə Kəlba Əli var. Ondan doşab ala bilərsən. Həmin adam səhər tezdən piyada yola düşür. Günortaya yaxın Şidliyə çatır. Məscidin qarşısında dörd-beş adam söhbət edirmiş. Salam verib Kəlba Əlini soruşur. Deyirlər ki, Kəlba Əli bağındadır. Ona yolu nişan verirlər. Vedili qonaq gəlib bağı tapır. Görür ki, bağda ucaboylu, başına iri dəsmal bağlamış, köhnə paltar geymiş bir adam doşab bişirir. Qonaq bu adamı Kəlba Əlinin nökəri hesab edir. Sa-

lam verir. Kalba Əli başını qaldırıb onun salamını alır. "Xoş gəldin" deyib oturmağa yer göstərir. Kəlba Əli ondan nə istədiyini soruşur. Qonaq məqsədini deyir. Kəlba Əli yaxasına bağladığı önlüyün ətəyi ilə istidən tərləmiş üzünü, əlini silib deyir: "Kəlba Əli mənəm". Qonaq bu sözdən çaşıb qalır. Elə bilir ki, doşab bişirən onu yaxşı eşitmədi. Yenə deyir: "Mənə Kəlba Əli lazımdır". Kəlba Əli bayaq dediyini bir də təkrar edir: "Kalba Əli mənəm". Qonaq Kaəba Əlini bu qiyafədə düşünmürmüş. Ona elə gəlir ki, bu adam onu ələ salır. Səsini qaldırıb əsəbi halda deyir: "Mənə iti-qurdu göstərmə, Kəlba Əlini göstər".

O vaxtdan bu söz Şidilidə bir zərb-məsələ çevrilmişdir. Kiminsə istəyincə olmayan, xoşuna gəlməyən, ürəyinə yatmayan bir adam haqqında danışdıqda: "Mənə iti-qurdu göstərmə, Kəlba Əlini göstər!" – deyirlər.

## ŞAHVERDİ, YAR DA ŞİRİNDİ, CAN DA ŞİRİNDİ

Ötən yüzilin əvvəllərində məlum erməni-müsəlman davası zamanı Vedibasarın əhalisi məcburi Arazın o tayına köçməli olur. Çayı keçərkən qarışıqlıq düşür və Şahverdi kişinin inəyini Arazın iti suları aparır. Şahverdi kişi inəyi çıxartmaq üçün özünü çaya vurur. Su onu da batırır. Bunu görən Şahverdi kişinin arvadı qışqır-bağır salır və ərinə kömək etmək üçün Araz çayına tərəf dartınır. Camaat onu tutub saxlayır, qadın isə: "Ötürün, mən də özümü Şahverdinin dalınca atacam, onsuz yaşamaq istəmirəm" - deyir. Qadın dartınır, camaat qoymur. Bu hal bir qədər davam edir. Təngə gəlmiş ağsaqqallardan biri deyir ki, ötürün onu, görək neyləyir. Qadın özünü irəli atır, dizə qədər Araz çayına girir və dayanır. Ərinin arxasınca baxır, əllərini irəli uzadıb deyir:

- Şahverdi, məni bağışla, yar da şirindi, can da şirindi.

Bu gün iş görərkən ikiürəkli olanda, tərəddüd edəndə bu zərbməsəl işlədilir: "Şahverdi, yar da şirindi, can da şirindi".

## OĞRUNUN YADINA DAŞ SALIRSAN

Kəndin ağıldan seyrək cavanlarından biri meyvə bağına oğurluğa gedir. Bağ yiyəsi onu görür və arxasınca düşür. Xeyli qovandan sonra baxır çata bilməyəcək, naəlac qalıb qışqıra-qışqıra deyir:

- Dayan sənə deyirəm. Yoxsa daşı götürüb başına vuracam.

"Daş" sözü oğrunun beyininə batır. Əyilib yerdən bir daş götürür və bağ yiyəsinin başına vurur. O yıxılır, oğru isə aradan çıxır.

Hal-hazırda qarşı tərəf üçün sərfəli bir söz deyiləndə belə deyilir: "Oğrunun yadına daş salırsan?"



## YENƏ BİR GÜL AXITDI

Bəd əməlinə görə cənnətdən qovulandan sonra şeytan insanların içərisinə gəlir. Peşəsindən isə əl çəkmir. İşi-gücü onun-bunun arasını vurmaq, camaat arasında düşmənçilik salmaq, xəta törətmək olur.

Şeytan kənddə bir nəfərlə yaxından dostluq edirmiş. Günlərin birində dostu ona deyir ki, sabah mən oğlumu evləndirirəm. Səndən xahiş eləyirəm ki, bircə sabahlığa kənddən çıx. Mən səni yaxşı tanıyıram. Qalsan, aləmi qatacaqsan.

Dostunun sözünü yerə salmayan şeytan sabahısı kənddən çıxır, amma uzağa getmir. Kəndə gələn su arxının başında oturur. Əli dinc durmur, ətrafdakı gülləri bir-bir qoparıb suda axıdır. Su arxı isə şənlik evinin kənarından keçirmiş. Kənd uşaqları suda axan gülləri görüb özlərini arxa atırlar. Aləm qarışır, məclis dayanır, uşaqları birtəhər sudan çıxarırlar. Dostu baxır ki, şeytan budur kəndin başından gəlir. Ona yaxınlaşır və deyir:

– Mən səndən xahiş etmədim ki, bu gün sakit dur?

Şeytan isə halını pozmadan deyir:

– Mən neyləmişəm ki, təkcə gül axıtmışam da.

İndi də aranı qatan bir söz danışanda belə deyirlər:

- Yenə bir gül axıtdın.

## MALINI VERMƏ PİS ADAM OL

Vedibasarın aran kəndlərinin birində Qubad adlı bir kişi varmış. Zəhmət adamı olan Qubad kişinin təsərrüfatda işləmək üçün lazım olan hər cür aləti varmış. Beli, lapatkası, şanası, baltası həmişə saz olarmış.

Bir gün qonşusu gəlib Qubad kişiyə deyir:

– Ay qonşu, belini ver, qoy uşaqlar həyəti bellәsin, axşam qaytaracam. Qubad kişi qonşusunun məsuliyyətsiz adam olduğunu yaxşı bildiyindən beli vermək istəmir. Bilir ki, qonşusu beli ya sındıracaq, ya da itirəcək. Kəsə söz ki, beli salamat geri qayıtmayacaq. Qonşular arasında inciklik olacaq. Son nəticədə yenə pis adam Qubad kişi olacaq. O, heç nə demədən yan damına keçir, durur belin qarşısında və deyir:

– Ay bel, mən səni verim pis adam olum, yoxsa verməyim pis adam olum?

Qubad kişi səs tonunu dəyişərək belin əvəzinə özü-özünə cavab verir:

– Yaxşısı budur ki, vermə pis adam ol.

Qubad kişi yan damından çıxır, gəlir qonşusunun yanına və deyir:

– Qonşu, mən beldən soruşdum, cavabında dedi ki, hər iki tərəfdən sən Qubad kişi pis adam olacaqsan. Elə, yaxşısı budur ki, malını vermə pis adam ol.

## NƏ GƏZİRSƏN MOLLA ƏLİNİN HASARININ ÜSTÜNDƏ Kİ, QARNINA DA ŞÜŞƏ KEÇƏ?

Vedibasarda kolxoz qurulana qədər hərənin öz torpaq payı olarmış. Zəhmətkeş camaat da bu sahələrdə meyvə, üzüm bağları salarmış. Mahalın başqa kəndlərində olduğu kimi, Xalisa kəndində də yaranma tarixi yüz ildən çox olan bağlar vardı. Əzət qarının bağı, Cəbonun bağı, Babauşağının bağı və onlarla belə bağ adla idi. Bu bağlardan biri də Molla Əlinin bağı idi. Molla Əli bağın ətrafına möhrə palçıqdan hasar çəkibmiş. Hasarın üstündən də şüşə parçalarını düzübmüş ki, həyətə oğru girməsin.

Günlərin birində tamahı güc edən cavanlardan biri özünü hasardan içəri atır. Elə istəyir ki, üzüm qopartsın, həyətdəki it duyuq düşüb hürmə yə başlayır. Molla Əli oğruya tərəf gələndə o başlayır qaçmağa. Tələs hasardan aşmaq istəyəndə şüşələrdən biri keçir qarnına. Oğru qarn tutub yıxılır. Molla Əli hay-küylə ağlayan oğruya yaxınlaşır və deyir:

– Nə gəzirsən Molla Əlinin hasarının üstündə ki, qarnına da şüşə kc

Sözünün, söhbətinin, hərəkətinin yerini bilməyib pis vəziyyətə qalanda bu məsəli işlədirlər.

## İ N A N C L A R

Kəklik quşunun ayaqları qırmızı olduğundan, deyirdilər ki, o, Kərbəla çölündə dimdiyində susuzluqdan yanan yaralı imama su gətirəndə ayaqları onun qanına batıb.

* * *

Canavarı vurandan sonra bir uşaq onu islatmalıydı. Deyirdilər ki, qurd yağı pis şeydi. Onu arvadın üstünə sürtsələr, ərindən zəhləsi gedər, ailə dağılar. Ona görə də onu murdarlamaq lazımdır.

* * *

Hər dəfə yaylaq mövsümü qurtaranda bir qoyun kəsib itləri yedirərdilər. Bu da itlərin mükafatıydı. Sürüləri salamat saxladıqları, obanın keşiyini yaxşı çəkdikləri üçün.



# VEDİBASAR MÖVZUSUNDA ŞERLƏR

AŞIQ ALI

## AĞRI DAĞI

Havalanıb ərş üzünə qalxmısan,
Dağların sultanı nər Ağrı dağı.
Bahar əyyamıdı, zimistan keçib,
Əskilməz sərindən qar, Ağrı dağı.

Ormanında xan atlanar, xan düşər,
Leşkər gələr, mahallara qan düşər.
Cümlə dağdan günəş sənə dan düşər,
Eylərəm şöhrətin car, Ağrı dağı.

Yenə yada düşdü cənnətin bağı,
Neçə qapısı var, neçə otağı.
Nuh gəmisi, peyğəmbərin bulağı,
Saysız sirrilərin var, Ağrı dağı.

Ərinməz buz dağın, il üstən keçər,
Elə ormanın var gülüstan keçər.
Sərindən açılmaz zimistan keçər,
Ətəyində baxça-bar, Ağrı dağı.

Müəmman var, Alı üçün sirridi,
Şamdan əvvəl bir tərəfin yeridi.
Tozun qalxıb İrəvanı bürüdü,
Etdin Axuranı xar, Ağrı dağı.

## QEYRƏT GÜNÜDÜR!

Vedinin dağları düşüb araya,
Düşmən cəhd eləyir kəndi talaya.
Naməni yazmışam Abbas ağaya,
Yazmışam, durmasın, haraya gəlsin,
Yağı salıb bizi araya, gəlsin!
Çat haraya, bəyim, nicat günüdür,
Vedinin davası, qeyrət günüdür!

Vedinin dağları batıbdı yasa,
Daşnaklar istəyir Vedini basa.
Bir məktub yazmışam o xan Abbasa,
Yazmışam, durmasın, haraya gəlsin,
Yağı salıb bizi araya gəlsin!
Çat haraya, bəyim, nicat günüdür,
Vedinin davası, qeyrət günüdür!

Vedinin dağları batıb dumana,
Qana dönsün görüm, belə zamana.
Abbasqulu qan uddurar düşmana,
Yazmışam, durmasın, haraya gəlsin,
Yağı salıb bizi araya, gəlsin.
Çat haraya, bəyim, nicat günüdür,
Vedinin davası, qeyrət günüdür!

Vedinin dağları batıbdı qana,
Daşnakı qırmaqla biz gəldik cana.
Yazmışam Vətənin o mərd oğluna
Yazmışam, durmasın, haraya gəlsin,
Yağı salıb bizi araya gəlsin!
Çat haraya, bəyim, nicat günüdür,
Vedinin davası, qeyrət günüdür!

Vedinin dağları qar-boranlıdır,
Düşmən silahlıdı, əli qanlıdır.
Mənim bəyim igid, adlı-sanlıdır,
Yazmışam, durmasın, haraya gəlsin,
Yağı salıb bizi araya, gəlsin.
Çat haraya, bəyim, nicat günüdür,
Vedinin davası, qeyrət günüdür!





## ABBASQULU BƏY

Haqq evinə ziyarətə
Varıbdı Abbasqulu bəy!
Öz gücünü yaradandan
Alıbdı Abbasqulu bəy!
Döyüş vaxtı neçə köhlən
Yorubdu Abbasqulu bəy!
Zəhmət çəkib nizam ordu
Qurubdu Abbasqulu bəy!

Vedibasar yeriyibdi,
Bir qanlı davadan deyim.
Dəstəsində şir oğullar,
Bu eldən, obadan deyim.
Məhərrəmlə İbrahimdən,
Xəlillə Nəbodan deyim.
Andranikin bağrını
Yarıbdı Abbasqulu bəy!

Nəcəf Koroğlu dəlisi,
Vedidə Qəmlo bir igid.
Hamını bir-birmi sayım,
Sayıqda burda hər igid.
Bu torpaq şahin yuvası,
Kəblə İsmayıl nər igid.
Daşnakları bəndə salıb,
Qırıbdı Abbasqulu bəy!

Tanrı ona nüsrət versin,
Müsəlmanın dayağıdır!
Yoxsulların,fağırların
Evlərinin çırağıdır!
Ay Xudayar, bu mərd oğul
Qoçaqların qoçağıdır!
Bu millətin xilasına
Durubdu Abbasqulu bəy!

## CAN ABBASQULU

Abbasqulu bəy tez havara çatdı,
Njdenin qoşunu al-qana batdı.
Yüzlərlə daşnaqı qırıb da çatdı,
Yağının cəsədi yan-yana yatdı,
Qılıncı əlində Xan Abbasqulu,
Xalqının ümidi can Abbasqulu.

Abbasqulu bəy dönüb aslana, şirə,
Qoymur ki, yağılar Vediyə girə.
Tağı bəy göndərmir qoşuna cirə,
Zeyvə-Düdəngini eyləyib Şürə.
Qılıncı əlində Xan Abbasqulu,
Xalqının ümidi can Abbasqulu.

Tağı bəyin tüfəngi də uyuxdu,
Namusu da yoxdu, qanı soyuxdu.
Övnədə yediyi bircə toyuxdu,
Abbas bəyi görcək qorxdu, huyuxdu.
Qılıncı əlində Xan Abbasqulu,
Xalqının ümidi can Abbasqulu.





## HANI QƏBİRLƏRİN, SARI DOLAMA

Hanı qəbirlərin, Sarı dolama,
Onlar ki, əbədi yatmalıydılar.
İgid yurdumuzda minib atlara
İqlimdən iqlimə çapmalıydılar!

Şahpəri nənəmin atlı başdaşı,
Babamız Kərimin çatlı başdaşı.
Suçu Məhəmmədin saplı başdaşı,
Burdan ayaq tutub haraya getdi?

Qaşıqçı Usubun qisməti buymuş,
Aşıq Muxtar sazsız, sözsüz uyumuş.
O nə düyün imiş, o nə toy imiş,
Yatanlar oyanıb oraya getdi?

Bu daş ümmanında daşını az idi?
Gözdən bura axan yaşını az idi?
Bəyəm görülməyən işmi az idi?
Daşlar bostan kimi uraya getdi.

Yatanlar elindən düşəndə uzaq,
Qəbirlərdə onlar sakit yatacaq?
Əbədi məskəndən düşərək qaçaq,
Bu eldən o elə haraya getdi.

Vedinin yanı dağlar,
Ürəyi, canı dağlar.
Burda bir el varıdı,
Siz deyin, hanı dağlar?

Hanı qəbirlərin, Sarı dolama,
Onlar ki, əbədi yatmalıydılar.
İgid yurdumuzda minib atlara
İqlimdən iqlimə çapmalıydılar!

## BU QAYALAR QORQUD NƏĞMƏLƏRİYMİŞ...

Pələng keçdi, bəbir keçdi, dəymədin,
Qartalların vüqarını əymədin.
Bəs hiyləgər tülküləri neylədin?
Gör dağlar da rast gələrmiş kələyə,
Tələsovan, özün düşdün tələyə.

Dədəm Qorqud bu dərədən keçibdi,
Buz bulaqdan, gur bulaqdan içibdi,
Bu qayanı tambur kimi seçibdi.
O daşlarda mahnısını çalıbdı,
Qorqud gedib, tambur burda qalıbdı.

Təzanəsi daşdandı bu tamburun,
Əzəməti başdandı bu tamburun,
Səsi qızıl quşdandı bu tamburun.
O Qazan xan nərəsidi, daşlaşıb,
Əbədiyyət körpəsidi, daşlaşıb.

Lal qayalar, kar qayalar baş-başa,
Dünya qopsa söz deyərmi daş-daşa?!
Tambur qalxır sükunətlə savaşa –
Qayalarda Qorqud qəlbi dil açır,
Əsrlərdən nəsillərə yol açır.

Oğuz elim, söz-söhbətin şirinmiş,
Gördüyün iş əbədiymiş, dərinmiş.
Bu qayalar Qorqud nəğmələriymiş –
Pərdəsi daş, qundağı daş, simi daş,
Bu tamburu çalan lazım, a qardaş!

## YAMANCA GETMİŞSƏN DİV YUXUSUNA...

Yamanca getmişsən div yuxusuna,
Ellərdən əbədi arxayın kimi.
Zaman başın üstən çalxanıb keçib,
Bir vaxt vıyıldayan ox-yayın kimi.



Qorqud babamızın qopuzu vardı,
Burla nəslimizin namusu vardı.
Qara, ağ qoçların buynuzu vardı,
Min il əvvəl doğan gün-ayın kimi.

Ağrı qəbrin üstə başdaşındımı?
Ağ daş ovxarlanan yaddaşındımı?
Yağışlar ananın göz yaşıdırmı,
Qismətinə düşən az payın kimi?

Babam, qəbrin kimi adın böyükdü!
Düşmənlər nərəndən qorxdu, döyükdü.
Allah, daşıdığın nə ağır yükdü,
Yüz eldə qurduğun sarayın kimi.

Ellərin yaşayar səndən uzaqda,
Şəkidə, Şirvanda, Gəncə, Qazaxda.
Od olub, yanarıq milyon çıraqda
Sənin tükənməyən harayın kimi.

## GÖRDÜN, GÖRMƏDİN?

Abbas kişi, bu dağları gəzirsən,
O vüqarda qəmi gördün, görmədin?
Bulaqları anaların gözləri,
O gözlərdə nəmi gördün, görmədin?!

Ağrı dağı Nuh Nəbidən qalmadı,
Zaman keçdi, Nuh Nəbi də qalmadı.
O zirvələr yelkən, yoxsa çalmadı?
Bu dağlarda gəmi gördün, görmədin?!

Əyricədə dağdan ağır elimiz,
Öz dağımız, öz çayımız, selimiz.
Danışanda şirin-şirin dilimiz,
Məclislərdə dəmi gördün, görmədin?!

Çayımızda yayda ada kəsərdik,
Qızıl-ala balıq kimi üzərdik.

Toyumuzu daş dibində süzərdik,
Çiləkəni, çimi gördün, görmədin?!

O davanın qızğın çağı, ac çağı
Kiprik ilə götürərdik başağı.
Adıgözəl çox qovardı uşağı,
O bolluqda zəmi gördün, görmədin?

Davadaydı igidlərin çoxusu,
Bağçadaydı oğulların qoxusu.
"Qara kağız" anaların qorxusu,
Qəlbdə sınan simi gördün, görmədin?

Ocaq üstə sulu cılvar bişərdi,
Xatın nənə xəstəlikdən şişərdi.
Çox evlərə qara gölgə düşərdi,
Vaxtsız sönən şamı gördün, görmədin?

Nəzrə xala üç körpənin ümidi,
Ürək verən, çörək verən kim idi?!
Quru cımıx şaha layiq yem idi,
Qəm qüssəli damı gördün, görmədin?

## BU ÇAY NİYƏ QURUDU?

Bulaqları guruydu,
Nurdan doğan nuruydu.
Pəhləvandan zoruydu –
Bu çay niyə qurudu?

Başlardı nilufərdən,
Baldırğan, qantəpərdən.
Bəs kim saldı təpərdən,
Bu çay niyə qurudu?

Ağır elləri vardı,
Coşğun selləri vardı,
Pələng qolları vardı,
Bu çay niyə qurudu?



Sağı dağ, solu qaya,
Kimi salardı saya?!
Bəyəm göz dəydi çaya?
Bu çay niyə qurudu?

O naşı ki, deyildi,
İlbaşı ki, deyildi.
Göz yaşı ki, deyildi,
Bu çay niyə qurudu?

## BURA QARAQUZEYDİ...

Mələmə, körpə əlik,
Perikər bala kəklik.
Qarabağda deyilik,
Bura Qaraquzeydi.

Şahablı şahdan uzaq,
Çimənsə şehdən uzaq,
Çobanı neydən uzaq,
Bura Qaraquzeydi.

Anadan qara gəldi,
Köksündə yara gəldi.
Köçməyir hara gəldi,
Bura Qaraquzeydi.

Göylərə uzanan əl,
Şimşəyi ucuz əcəl.
Hələ yat, hələ dincəl –
Bura Qaraquzeydi.

## SALAM, DƏRƏYURD

Salam, ey Dərəyurd! Salam, Dolayı!
Salam, Qara qaya! Salam, Yurd çayı!
Xoş gördük, Dumanlı, xoş gördük, Səngər,
Nə tez gəlib keçdi, vəfasız illər!
Gəl bir qucaqlaşaq, uşaqlığım, gəl,
Boylan yamaclardan, boylan, ay dəcəl!
Gəl o günlərimin təzə müjdəsi,
Güzgülü daşlarda qalan lövhəsi.
Salam, Mozalgənin çınqıllıqları!
Burda nəfəs alım doyunca barı.
Bu dar cığırları gəzmişəm bir-bir,
Bircə göbələkçün ürəyim əsir...
Gəl ey uşaqlığım, bir az dərdləşək,
Yenə cil otundan papaqlıq eşək.
Bəlkə tanımadın? Çox dəyişmişəm?
Sənsə həminkisən – qayğısız, xürrəm.
Sənin uşaq qəlbin gec anlar məni,
Çünki qocaldıbdır nadanlar məni.
Hanı Kürd Abdulla, qoy tulum çalsın,
Yorulmuş ürəyim bir az güc alsın...

## QUZEYDAĞ

Gör bir nələr çəkib, çarpazsinədir,
Cığırlar elə bil bir qərinədir,
Bilmirəm doğrusu, qocalıb-nədir,
Bax, necə xəyala dalıb Quzeydağ.

Bulud topalaşsa, şimşək şığısa,
Kövrələr, hönkürər üzünə baxsa,
Göylər bircə anda gözünü sıxsa,
Görərsən min haray salıb Quzeydağ

Başının üstündə duman, çən, çisək,
Dərə çiçək-çiçək, daş çiçək-çiçək.



Oğlunu gözləyən qoca atatək
Boylana-boylana qalıb Quzeydağ.

Çoxdandır sorğum var gen dərələrdən
Atamın izini axtarıram mən.
Mən necə ayrılım bu bərələrdən,
Bir zaman laylamı çalıb Quzeydağ.

## VEDİ

Düz ilqar görmədim bu ellər qədər,
Yaman ad üzülər, yaxşı ad gedər.
Sənə ayaq basan səndən şad gedər,
Alqışlı, minnətli, "sağol"lu Vedi

Tarixdə həmişə üzün ağ olub,
Otun da, suyun da igid doğulub.
Demə: adım batıb, elim dağılıb,
Hər yanda söhbətli, nağıllı Vedi.

Qonaqlı-qaralı, minbir nemətli,
Qocası-cavanı açıqsifətli,
Qayğıkeş analar Həcər qeyrətli,
Qızların Şirintək ağıllı Vedi.

Heç zaman başını əyməz o dağlar,
Qədim vüqarını özündə saxlar.
Neçə ki, dünya var, sənin adın var,
Abbasqulu bəy tək oğullu Vedi...

## VEDİNİN

Gül-çiçəkdir hər bucağı, guşəsi,
Gəlin kimi bəzənməkdir peşəsi,
Xosrovunun, Məngüyünün meşəsi
Yan-yanadır, bel-belədir Vedinin.

Yaz da, yay da yaylaqları yağışlı,
Əyricəsi cığır-cığır, naxışlı,
"Dərə yolu" çox enişli-yoxuşlu,
Qayaları əl-ələdir Vedinin.

Səhər-səhər nur almamış günəşdən
Qanlı gölə baxıbsanmı de heç sən!
Ağbulaqdan, Gülbulaqdan su içən,
Hansı dadı bir belədir Vedinin?

Qarşı dağlar qış donundan çıxanda,
Gözəlqaçan gözlərini sıxanda,
Heyrannazdan dağ suları axanda
Hər sızağı şəlalədir Vedinin.

Keçən günlər! Ham sirrin, sirdaşın!
Güllə izi köksündədir hər daşın.
Söhbəti var bu təpənin, o qaşın,
Şiş dağları silsilədir Vedinin.

Ağır yüklü, imtahanlı o illər,
Abbasqulu, Xəlil sanlı o illər,
Şir sınaqlı, Aslan canlı o illər.
Ürəyini düyünlədi Vedinin

Biz onunuq o el bizi atsa da,
Qaraxaçı, Qədirlini sal yada.
Koroğlutək ad qoydular dünyada
Məhərrəmi, Şahvələdi Vedinin

Can ay Bakım! Açdın bağlı dilimi,
Qoy bir öpüm torpağımı, elimi,
Səndə neçə oğlu, qızı, alimi
Bir adını yüz elədi Vedinin.





## BU YOLLARIN İŞIĞI NƏM, GÖZÜ NƏM...

***Əmim Əlinin xatirəsinə***

Ta "əmi" deməyə əmim qalmayıb,
Ağrı dağında da gəmim qalmayıb,
İrəvan çuxuru, Çimən olmayıb,
Olmayıb, olmayıb, olmayıb, əmi.

Gündüzlərin sənnən öc oldu, oldu,
Gecələrin sənnən öc oldu, oldu,
Göyçə gölü, Dərəçiçək necoldu!
Olmayıb, olmayıb, olmayıb, əmi.

Oğul əsgər paltarında
Gəlib-gəlib qayıdanda.
Yuxu-yuxu, çimdik-çimdik
Ürəyini yedi-yedi.
Çimən - dedin... gavur – dedin –
Çörəyimi yedi-yedi...

Bu yuvadan uçan qızlar
Özləriylə dimdik-dimdik
Ömür bükdü boxçasına.
(Onlar, onlar bilmədilər
Sən həm də mənimkisən,
Sən həm də bizimkisən).

Ömrün şirin qovun kimi
Cadar-cadar, dilim-dilim.
Gör nə qədər şirindi ki,
yanır dilim...
Şax boyuyla çinarlara –
Əyil – deyən əmim, əmim.
Dəryalardan
Qənd yüküylə gələn gəmim –
Yavaş-yavaş,
Sən bu qədər göz yaşından

İslanarsan...
Çimənin dağları duman göndərib,
Sarı dolaması yaman gündədi.
Həsən xan gavura qılınc endirib,
Dillənmirsən, əmi, əmi.

A məclislər yaraşığı!
Öz məclisi – Əli – deyib,
Səslən səni!
Dillənmirsən, əmi, əmi,
Allah, Allah,
Sözlər elə acıdı ki,
Zəhər kimi...

Bu yolların işığı nəm, gözü nəm.
Bu yollar Xudu gedən,
Bu yollar Fərman gedən,
Bu yollar Hafiz gedən...
Düzəm, həqqəm, güclüyəm!
Lazım gəlsə yollara
Milyon-milyon düzlənib –
Bu dünyanı kəmər kimi sıxaram!
Ürəyimnən, qeyrətimnən sıyrılıb,
Qılınc kimi çıxaram!...
Bu yolların işığı nəm, gözü nəm,
Bu yollar əmim gedən...

1989

## ÇƏMƏN...

"Sarı dolama"sı – sarı qolbağım
Sarala-sarala qaldı "Çimən"də.
Əlvida, əlvida, a Kotuz dağım,
O duzlu, o buzlu bulaqlarından
Birini də mən apardım sinəmdə.

1977



* * *

Salam,
Salam, Ağrı dağım.
Mənim əlim sol döşümdə
sən də şişmiş ürəyisən bu torpağın.
Salam, salam, Ağrı dağı.
Mən bu tayda,
Sən o tayda.
Buralarda
Göylər dolu – bulud-bulud,
ürək dolu.
Aramızda
Görünməyən ağrı yolu.

Salam, salam, Ağrı dağı
Heç ürəyə qar yağarmı?
Heç ürək də ağararmı?
Qabar görüm,
Qaral görüm...
Qoy göylərdən qaya yağsın
Qaya – dolu,
Partlaginən,
Axsın qanın,
Axsın sənin qara qanın.
Hanı sənin Babəklərin
Səttarxanın?!.
Hanı, hanı?..

***Vedi, Qaralar kəndi,***
***1977***

## VEDİLİLƏR DAĞILDILAR VEDİDƏN

Ay ellər, dərdimdən olunuz halı,
Gör necə dağıldı Vedi mahalı.
Bir-bir sayacağam bu qeylü-qalı,
Vedililər dağıldılar Vedidən.

Keçmiş Vedi indi olub Ararat,
Dəyişib zəmanə, dəyişib həyat.
Dedilər evini unut, tamam at,
Vedililər dağıldılar Vedidən.

Dəvəlinin dağılışdı dəvəsi,
Çönüb oldu Araratın nəvəsi.
Azaldılıb el-obanın gur səsi,
Vedililər dağıldılar Vedidən.

Mirziklə, Körpükənd, Böyük Gilənar;
Yox olubdur onlar, yoxdur Şəhriyar.
"Qeyibə" çəkilib Kiçik Gilənar,
Vedililər dağıldılar Vedidən.

Harınburun, Qaladibi, Kotanlı,
Hacımirzə, Ağasbəyli, Kolanlı.
Dağıldılar, heç qalmadı bir canlı,
Vedililər dağıldılar Vedidən.

Qarabağlar, Şırran, Şuğayıb, Alrza,
Cənnətli, Əzizkənd, Dəhnəz, Kotuza.
Bayburt ilə Çatma döndülər buza,
Vedililər dağıldılar Vedidən.

Gərgab, Məngük, Xosrov – yox nişanəsi;
Seyid Kotanlının kəsildi səsi.
Handın çoxdan susub xoş təranəsi,
Vedililər dağıldılar Vedidən.



Söküldü Şirazlı, Daşdı, Qaralar,
Şidili, Xalisa, o gözəl diyar.
Buludlar ağladı, yağdı güclü qar,
Vedililər dağıldılar Vedidən.

Yaman Şıxsız qaldı Şıxlar, Reyhanlı,
Allahəkbər küsdü, yandı İlanlı.
Yappa yas bağladı – qəlbidir qanlı,
Vedililər dağıldılar Vedidən.

Yengicə, Alməmməd, Alqırıx hanı?
Mollaəhməd, Alrza dağların canı.
Aylı, Quzey, Kotuz, Üçtəpə – tanı,
Vedililər dağıldılar Vedidən.

Dəvəgöz, Ayıdərə, Gilənar çayı,
Şır-şırı məst edir hər yazı, yayı.
Oradan kəsildi xalqın harayı,
Vedililər dağıldılar Vedidən.

Şahablı, Qədirli, Qaraxaç, Ərmik,
O gözəl insanlar, başları şax, dik.
Dərdə şərik oldu hər dərə, gədik,
Vedililər dağıldılar Vedidən.

Arazdəyən, Avşar, Qaraqoyunlu,
Başları bəlalı, min cür oyunlu.
Küsüs, Göl, Bağçacıq oldular kinli,
Vedililər dağıldılar Vedidən.

Zincirli, Yellicə, Daşlı, Goravan,
Yerevana çöndü köhnə İrəvan.
Qazaxdan gen düşdü dərə Dilican,
Vedililər dağıldılar Vedidən.

...Dəvəgözü çayı, Allahəkbər dağı,
Tapın bol yemliyi, Por-por bulağı.
Qaldı gözəl dağlar, Ağmanqan yağı,
Vedililər dağıldılar Vedidən.

Yadıma düşdükcə manda, baldırğan,
Ələyəz, əvəlik, gözəl yemişan.
Həmərsin dərmandır, salxım burnu qan,
Vedililər dağıldılar Vedidən.

Kəkotu, qantəpər, narın zirəçay,
Doymazdın içsəydin onu neçə ay.
Kəsildi o nemət, aman, ay haray,
Vedililər dağıldılar Vedidən.

Min dərdin dərmanın yetirən dağlar,
Südlü inəklərdən alınan yağlar.
Getdi gözəl vaxtlar, o gözəl çağlar,
Vedililər dağıldılar Vedidən.

O Milli, Kolanlı, Cığın dərəsi,
Orda yaşayanın qoçdu hərəsi.
İgidlərin kəsiləndə nəfəsi,
Vedililər dağıldılar Vedidən.

Ham o cavanlar, hanı o canlar?
Mehriban insanlar, o isti qanlar.
Bürüdü Vedini çiskin-dumanlar,
Vedililər dağıldılar Vedidən.

Mən bircə mahaldan yazmışam bir az,
Başqa mahallar da olubdur nasaz.
Böhtan lazım deyil, yazsan, düzgün yaz.
Vedililər dağıldılar Vedidən...





## AĞRIDAĞ AĞRISI
**(poemadan parça)**

Sənə doğru qanad çalan bir quşam,
Yamacdakı gül ətrinə bihuşam,
Ətəyində dayanmışam, durmuşam,
Həqiqət yox, bu xəyaldı, Ağrıdağ,
O xoş günlər harda qaldı, Ağrıdağ?

Qucağında bir daş kaha ver mənə,
Bəs eləmir elə bil ki, yer mənə,
Qartal olub, bir də qalxım zirvənə,
İstəyirəm, gələmmirəm, Ağrıdağ,
Səndən ayrı güləmmirəm, Ağrıdağ

O yerləri kimə qoyub gəlmişik,
Ayrılığı bəlkə duyub gəlmişik,
Elə bilmə səndən doyub gəlmişik,
Həsrətinə yanır sinə, Ağrıdağ,
Dönəcəyik bir də sənə, Ağrıdağ.

Tuşlamışdı sinəmizə naqanı,
Məhv edirdi ağsaqqalı, çağanı,
Güllələdi yazıq Ağbal ağanı,
Evim uçub, tikəmmirəm, Ağrıdağ,
Mən bu dərdi çəkəmmirəm, Ağrıdağ.

El yaz vaxtı köç edərdi yaylağa
Səs düşərdi hər qayaya, hər dağa.
O xoş günə tamarzıyıq biz daha,
Bilirsənmi nə çəkirik, Ağrıdağ,
Didərginik, didərginik, Ağrıdağ!

Mən də elçün həm şəhid, həm qazıyam,
Torpağına gömülməyə razıyam,
Ələsgərin haray çəkən sazıyam
Bas sinənə həzin-həzin çal məni,
Övladınam, öz qoynuna al məni.

Zirvələri qatı duman basıbdı,
Ömrümüzü həsrət, güman basıbdı,
Vətən dərdi bizi yaman basıbdı,
Bağrım dərdə nişan olub, Ağrıdağ,
Ürəyimiz şan-şan olub, Ağrıdağ.

İnsandılar bu dığalar, ya birə?
Gör necə də daraşıblar hər yerə,
Belə qalmaz, fırlanacaq kirkirə,
Belə qalmaz, gün gələcək, Ağrıdağ,
Sən güləssən, el güləcək, Ağrıdağ.

Yazıq bilib, biz onlara yer verdik,
Yaxşı sanıb, dərd bölüşdük, sirr verdik,
Bu torpaqda dədəsinə gor verdik,
Axır bizə ağ oldular, Ağrıdağ,
Köksümüzdə dağ oldular, Ağrıdağ.

Araz boyu tikanlı sədd çəkdilər,
Uçan quşlar qanad salıb səkdilər,
Xoş çağları gözümüzdən tökdülər,
O zamandan biz bölündük, Ağrıdağ,
Doğmalarla yada döndük Ağrıdağ.

Yurd yerimdə yerləşdirib "yanları",
Əllərilə axıtdılar qanları,
Elə burada çıxacaqdır canları,
Əziləcək ilan başı, Ağrıdağ.
Türk olmayıb heç vaxt naşı, Ağrıdağ.

Milyon insan çadırlara qısılıb,
Milyon insan ümidindən asılıb,
Elə bilmə türk oğlu türk basılıb,
Düşmən qalib olmayacaq, Ağrıdağ,
Bu qan yerdə qalmayacaq, Ağrıdağ.

Ürəyimə ağrı yazdım bu qədər,
Öz sinəmə qəbir qazdım bu qədər,
Ağrımasan, ağrımazdım bu qədər,



Dərdlərinə ollam şərik, Ağrıdağ,
Gəlləm yenə dərdləşərik, Ağrıdağ.

Vedi dərdi qoymur rahat yatmağa,
Can atıram vüsalına çatmağa,
Qucağında gül ətrinə batmağa,
Qəlb döyünür, can tələsir, Ağrıdağ,
Göylərimdə dan tələsir, Ağrıdağ.

Mərd babamın heykəlisən, mərd dayan,
Düşmənimin qarşısında sərt dayan.
Bir əsgərdi elə bil ki, hər qayan,
Tarixlərə sinə gərdin, Ağrıdağ,
Hər an ömrə müntəzirdin, Ağrıdağ.

Daim türkə oylaq olub gen sinən,
Könül açan yaylaq olub gen sinən,
Türkiyənin sanki bizə söykənən
Arxasısan, kürəyisən, Ağrıdağ,
Torpağımın ürəyisən, Ağrıdağ.

Dəli nərə hələ yatır selində,
Bülbüllərin gözü qalıb gülündə,
Araz sənin kəmərindi belində,
Xandan sənə miras qalıb, Ağrıdağ,
Zirvələri bulud alıb, Ağrıdağ,

Qucağında bir gün məclis qurulsun,
Hər cığırın işıq olsun, nur olsun,
Qonaq gələk, kefin yenə durulsun,
Türk oğluna üzün gülsün, Ağrıdağ,
Dost sevinsin, düşmən ölsün, Ağrıdağ.

Baxışları sən tərəfə zillənib,
Yaz çağıdır, Vedibasar güllənib,
Duyğularım dilə gəlib, dillənib,
Bu həsrətə nəğmə qoşur, Ağrıdağ,
Arzularım yaman coşur, Ağrıdağ.

Bir söz ilə budur sözün qısası,
Daşıb daha səbrimizin kasası,
Qiyamətə qoymaq olmaz qisası,
Ayaq üstə qalxmalıyıq, Ağrıdağ,
Şimşək olub çaxmalıyıq, Ağrıdağ.

Babaların məzarları səsləyir,
Yazıq ruhlar arxa, dayaq istəyir,
Qəribsəmiş yurd yerimiz "gəl" deyir
Dönəcəyik nəğmələrlə, Ağrıdağ,
Dönəcəyik biz zəfərlə, Ağrıdağ.

## AĞRIDAĞIN DÖŞÜNDƏ

Həsrət gözdə yaş olub,
Sevincim çaş-baş olub,
Uşaqlığım daş olub
Ağrıdağın döşündə.

Günü aham-amanam,
İnildəyən kamanam,
Çəkilməyən dumanam
Ağrıdağın döşündə.

Nə zamandı uzağam,
Yad ellərdə qonağam,
Ağlar közəm, bulağam
Ağrıdağın döşündə.

Taleyin üzü dönüb,
Yanan ocağım sönüb,
Eşqim çənə bürünüb
Ağrıdağın döşündə.

Göyündə dan olaydım,
Bir də mehman olaydım.
Daşa dönüb qalaydım
Ağrıdağın döşündə.



## VƏTƏN OĞLU, AYAĞA QALX!

Vedililər dərd içində çəkir haray,
Gözləməkdən tükənibdir səbirləri.
Düşmən üstə hücum çəkin halay-halay,
Nigarandır babaların qəbirləri.

Hər məzardan bir inilti, bir səs gəlir:
"Harda qalıb bu yerlərin ərənləri!"
Sonsuz həsrət qəlb dağlayır, sinə dəlir,
Daha bəsdir, Vətən oğlu, marş, irəli!

Əsir düşən kəndlərimə ağlar Araz,
Şidilinin, Şirazlının min dərdi var.
Əgər geri qaytarmasaq bağışlamaz,
Bizi heç vaxt Arazdəyən, Vedibasar.

Şimşək çaxsın, Araz çıxsın məcrasından,
Qoy eşitsin səsimizi Dəvəli də.
Diz çökəcək qarşımızda azğın düşmən,
Xalisada, Qaralarda, Dəvəlidə.

Vətən oğlu! Oyan, oyan, ayağa qalx!
Bilman, səslə igidləri hazır olsun.
Yurdumuzdan dığaları əzib, qovaq,
Torpağımız düşmənlərə məzar olsun.

## HORTUN

Dağları bir zaman gəlim-gedimli,
İndi kimsəsizdi, boş qalıb Hortun.
Dağılıb tifağı, köçüb elləri,
Yerində bir koma daş qalıb, Hortun.

Kəkliyi yox olub qaqqıldaşmayır,
Qumrovlu dəvələr gədik aşmayır,
Bulaqlar batıbdır, çaylar daşmayır,
Kimsəsiz halına çaş qalıb Hortun.

Sürülər mələşmir, bərəsi hanı?
Qırqovul tək gəzir, fərəsi hanı?
Qumralı, kərəsi, kürəsi hanı?
Sürülər yox olub, boş qalıb Hortun.

Atlar kişnəməyir toyda-düyündə,
Yuxumu görürəm orda bu gün də,
Vətən həsrətində, Vətən iyində,
Ağlaram, gözlərim yaş qalıb Hortun.

## HORTUNA BAXDIM

Tənəzzül baş verir, dəyişir zaman,
Haqsızlıq çoxalıb, artıbdır yaman.
Əcəl yaxınlaşır, verməyir aman,
Ömür tükənibdi, yetibdi vaxtım,
Kənardan dayanıb Hortuna baxdım.

Qılışqaya, Orta Silvi, İbeylən
Əvəzsizdi laləsiynən, gülüynən,
Tərifini necə deyim dilinən,
Yaman düşdük elimizdən aralı,
Yaşayırıq qəlbi sınıq, yaralı.



Çal daşının aşrımıydı Ardaraz,
Ətir saçar gül-çiçəyi bahar-yaz,
Cənnət belə bu yerlərə tay olmaz,
Mürgüləyib yuxumuzda görürük,
Yada salıb diri-diri ölürük.

Ələyuçan, Ərmik, Haxıs, İnqala,
Çətindi ki, bu mənzərə bir ola,
İllər ötür, kim qırıla, kim qala,
Ərsə gələn bunları yad edərmi?
Dədə-baba yurd yerinə gedərmi?

Böyk düzdən dolayıdı Arpalar,
Buzxananın bərabəri harda var?
Yay girəndə əriməzdi burda qar,
Sərin sular bal dadırdı ağızda,
Heç olmasa yazım qalsın kağızda.

Alışardan çay adlayıb keçərdik,
Ovcumuzu doldurardıq, içərdik
Üç ay yayı Sulu yurda köçərdik,
Çalışardıq, yayda məhsul tutardıq,
Qış uzunu yeyib içib yatardıq.

Qoca Xandan toplayardıq xaşxaşı,
Yal yolunda oynayardıq beşdaşı,
Yeməliydi ələyəznən çəkmaşı,
Ağ lavaşı bürüb, büküb yeyərdik,
Allah sənə şükür olsun deyərdik.

Bacalardan tüstü çıxar, burular,
Qız gəlinlər hana toxur yorular,
Gün batmamış kürsülər də qurular,
Tez-tələsik yerə keçə atardıq,
İsti vurar, xumarlanıb yatardıq.

## BAYATILAR

Qəribin gözü ağlar,
Dilində sözü ağlar.
Yağı əlində qalan
Yurdunda izi ağlar.

Qərib eldə barım var,
Bəhərim var, barım var.
Yurd adlı, vətən adlı
Dilimdə qabarım var.

Doğma yurdda izim var,
Ürəyimdə dözüm var.
Geriyə yollar tapsam,
Sürünməyə dizim var.

İçin-için ağlama,
Coşub-coşub çağlama.
Tarixdən ibrət götür,
Namərdə bel bağlama.

Göz yaşım yaz yağışı,
Ürəyim qarlı qışım.
Ulu tanrım görürmü
Bizə olan qarğışı.

Gözlərdə həsrət duman
Geriyə yollar güman.
Bir gün hökmünü verər
Ulu Tanrımla zaman.

Ocaq daşım! Yurd daşım!–
Tarix olan yaddaşım.
Köküm səndən başlanır,
Axı, necə yadlaşım?!

*1999*





## MƏKANIMDIR VEDİBASAR

Min bir bağı-baxçası,
Əyricədir xonçası.
Qanlı göldən Küsüzə
Yayda yaylaqdır bizə.

Nər oğullu kəndi var,
Bərələrdə bəndi var.
Döyüş vaxtı səngərə
Gündə girər min kərə.

Ölümündən qorxmayan,
Həqiqətdən çıxmayan
Şir ürəkli oğullar
Yetiribdir Qaralar.

Hər evində qəhrəman
Böyüdübdür Goravan.
Vedim ilə hər zaman
Fəxr eləyib İrəvan.

Unutmayaq Taytanı,
Mərd oğullar meydanı.
Daşlı kənddən Kotuza
Toy yoludur hər qıza.

Çimənkənddən çıxanda,
Yamaclara baxanda –
Dağlar qoynunda dağlar
Könlünü sənə bağlar.

Qarlı dağlar qoynundan,
Qotur bulaq suyundan.
Çil-kəklikli dağlardan
Dəhnəz Qarabağlardan.

Camışbasan yoluyla,
Cığın gölün soluyla.
Keşişdağa qalxasan,
Yastı yerə baxasan.

Qaladibi, Körpükənd,
Füsünkardır Əzizkənd.
Qaraqoyun, Bağçacıq
Aralıdır azacıq.

Dağları ağ dumanlı,
Qədim tayfa Kotanlı.
Göy türkdü Kolanlı,
Məğrur yurddu Kolanlı.

Milli dərə məğrurdu,
Əyilməyən qürurdu.
Bayburt – ərənlər yurdu,
Bu günəcən dururdu.

Harunburun dərəsi,
Gilanar dar bərəsi.
Ağkilsə və Yellicə,
Dağ yaylağı Əyricə.

Onun suyu murazdı,
Yengicə və Şirazlı.
Yayda bura axışar,
Reyhanlı və Avşar.

Keçmiş Şəddad hökmdar
Paytaxt edib bu yurdu,
Şəddadlar dövlətini
Gəlib bu yerdə qurdu.

Alməmməd dağıldı,
Bu başqa cür nağıldı.
Kolxoz vaxtı getdilər,
Oranı tərk etdilər.

Bolşeviklər əlindən
Qərib düşdü elindən.
Gözlərində murazı, –
Gecə keçdi Arazı.

Türkiyənin Daşburun
Məkanına getdilər.



Orda məskən salaraq
Arzu-kama yetdilər.

El onda anladı ki,
Ayrı düşüb soyundan.
Bu yolla qurtardılar
Kolxoz adlı oyundan.

Alməmməddən Şiddiyə
Həmsərhəddir Türkiyə.
Sərhəd burda Arazdı, –
Bu qanunu kim yazdı?!

Kəndləri saya-saya,
Şidlidən keç Xalisaya.
Sarı dağda dayan-dur,
Sağlıq deyib, badə vur.

Ağgöldəki ağ sudan,
Büllur, mineral sudan
Tox qarına içəsən,
Böyük göldə çiməsən.

Min-bir dərdin dərmanı,
Gümrah edər adamı,
Soyuq su səni sıxar,
Xəstəlik candan çıxar.

Bizim Vedi elinin
Aranı var, dağı var.
Mərd igidlər yetirən
Qeyrətli torpağı var.

Aranında yetişən
Ağ alması, üzümü.
Yaylağında örüşlər
Əmlik edər quzunu.

Şirin, dadlı yemişi,
Sultan adlı qarpızı.
Hünərvərdir hər kişi,
Namusludur hər qızı.

Aranında, dağında
Yaylaq suyu içilər.
Qızı da, oğlanı da
Hər sənətdə seçilər.

Sınaqlarda sınanmış
Qeyrət sahibidirlər.
Tarixlərdə tanınmış
Şöhrət sahibidirlər.

Dağlarında dağ otu,
Dağ çiçəyi dərərlər.
Dərmandır yarpaq otu,
Dərib daşa sərərlər.

Bir də gördün qaçırlar
Dağ keçisi, qoyunu.
Tamaşadır, tamaşa
Kəkliklərin oyunu.

Dərdlərin dərmanıdır,
Həmərsini bol olar.
Süfrələrin bəzəyi
Çiçəkləri yığılar.

Aranında bal dadar
Qoyun gözü üzümü,
Şərabı doşab dadar
Xumar edər gözünü.

Vedi min bəla çəkdi
İyirminci əsrdə.
Vedi dərdi yazılsın
Gərək min bir əsərdə.

Vedililər Vedidən
Yaman düşdü didərgin.
Vedililər Vedisiz...
Keçər ömür, keçər gün.





## VEDİ MARŞI

Sadiq qalıb babaların andına,
Ocağına, alovuna, oduna.
Köməksizin çox çatmışıq dadına,
Vediliyik, dediyimiz dedikdir,
Əldə silah, çəkdiyimiz tətikdir.

Vətənimin fəxri olub igidlər,
Düşmənin üstünə ər tək gediblər,
Xalqımın başın uca ediblər,
Vediliyik, dediyimiz dedikdir,
Əldə silah, çəkdiyimiz tətikdir.

Ərən yetirib ulu torpağım,
Yad tapdağa dözməyibdir bu dağım.
Alovsuz da qalmayıbdır ocağım,
Vediliyik, dediyimiz dedikdir,
Əldə silah, çəkdiyimiz tətikdir.

Bu gün yenə həsrət qalsaq vətənə,
Sözümüzü deməmişik düşmənə.
Qayıdarıq, gələcəkdir vaxt yenə,
Vediliyik, dediyimiz dedikdir,
Əldə silah, çəkdiyimiz tətikdir.

Vüsalın yolları uzunmuş, uzun,
Qəddi bükülməyib hələ Oğuzun.
Yuxusu çin olar Kamil Novruzun,
Vediliyik, dediyimiz dedikdir,
Əldə silah, çəkdiyimiz tətikdir.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. **Abdullayev Ə. Ermənistanın Azərbaycana qarşı təcavüzkarlıq siyasəti,** B., 1998.
2. **Ağasıoğlu F. Azərbaycan dilinin morfonologiyası,** B., 1988.
3. **Ağasıoğlu F. İrəvan mahalının qədim tayfaları,** "Ağrıdağ" qəzeti, 22-28 aprel, 29 aprel-5 may, 6-12 may 1998-ci il, №6,7,8.
4. **Ağasıoğlu F. Azər xalqı,** Bakı, "Ağrıdağ", 2000.
5. **Акты собранные Кавказскою археографическою комиссиею.** (АКАК), **VII т,** Тифлис 1878; **VIII т,** Тифлис, 1881; **IX т,** Тифлис, 1884; **X т.** Тифлис, 1885.
6. **Армяно-татарская смута на Кавказе, как один из фазисов армянского вопроса,** Тифлис, 1915.
7. **Армянская ССР (административно-территориальное деления, на 1-ое мая 1971 года),** Ереван, 1971.
8. **Arzumanlı V. 1918-ci il: Quba qırğını,** Bakı, "Elturan" jurn., 1994-cü il, №1-2.
9. **Arzumanlı V., Mustafa N. Tarixin qara səhifələri (deportasiya, soyqırımı, qaçqınlıq),** B., 1998.
10. **Azərbaycan dilinin izahlı lüğəti,** I-IV cildlər, Bakı, 1966-1987.
11. **Azərbaycan dilinin Naxçıvan qrupunun dialekt və şivələri,** B., 1962.
12. **Azərbaycan klassik ədəbiyyatı kitabxanası, I c.,** B., 1982.
13. **Azərbaycan mifoloji mətnləri,** B., 1988.
14. **Azərbaycan Sovet Ensiklopediyası, I-X cildlər,** Bakı, 1976-1987.
15. **Azərbaycan SSR EA-nın Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası,** 1988-ci il №3; 1989-cu il №4; 1990-cı il, №2.
16. **Azərbaycan tarixi (Z.Bünyadovun və Y.Yusifovun redaktəsi ilə),** B., 1994.
17. **Azərbaycan tarixi sənədlər və nəşrlər üzrə,** B., "Elm", 1990.
18. **Azərbaycan tarixi üzrə qaynaqlar,** B., 1989.
19. **Azərbaycan toponimləri (Ensiklopedik lüğət),** Bakı, 1999.
20. **Azərbaycanda kim kimdir (sorğu-məlumat kitabı),** B., 1999.
21. **Bağırov M. Dağlarda keçən ömür,** B., 1986.
22. **Bağırov M. Ürəyimin səsi,** İrəvan, 1974.
23. **Bayramov A. "Kitabi-Dədə Qorqud" və Qafqaz,** B., 2001.
24. **Bayramov İ. Qərbi Azərbaycan toponimlərinin tərkibində işlənən söz və coğrafi terminlər lüğəti,** B., 2000.
25. **Bayramov İ. Qərbi Azərbaycanın türk mənşəli toponimləri,** B., 2002.
26. **Budaqov B.Ə., Qeybullayev Q.Ə. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti,** B., 1998.





27. **Budaqov B.Ə. Türk uluslarının yer yaddaşı,** B., "Elm", 1994.
28. **Bünyadov Z. Azərbaycan Atabəyləri dövləti,** B., 1983.
29. **Bünyadov Z. Azərbaycan VII-IX əsrlərdə,** B., 1989.
30. **Çəmənzəminli Y.V. Tarixi, coğrafi və iqtisadi Azərbaycan,** B., 1993.
31. **Deportasiya (azərbaycanlıların Ermənistan ərazisində tarixi-etnik torpaqlarından deportasiyası),** B., 1998.
32. **Deportasiya (Konfrans materialları),** B., ADPU,1998.
33. **Didərginlər.** B., 1990.
34. **Джафаров Ю. Гунны и Азербайджан,** Б., 1993.
35. **Дьяконов М.М. Очерк истории дневного Ирана,** М., 1961.
36. **Eldəgəz O. İrəvan cokeri,** "525-ci qəzet", 7 yanvar 1998-ci il.
37. **Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası,** B., 1995.
38. **Əbdürrəşid əl-Bakuvi. "Abidələrin" xülasəsi və qüdrətli hökmdarın möcüzələri,** B., 1992.
39. **Əbülqazi Bahadır xan. Şəcəreyi-Tərakimə (Türkmənlərin soy kitabı),** B.,2002.
40. **Əkbərov B. Vedibasarda bir el var idi...** (Abbasqulu bəy Şadlinski kitabının müəllifi Ə.Ələkbərliyə açıq məktub), "Xalq qəzeti", 26 iyun 1997–ci il.
41. **Ələkbərli Ə. Abbasqulu bəy Şadlinski,** B., 1996.
42. **Ələkbərli Ə. Qədim Türk-Oğuz yurdu – "Ermənistan",** B., 1994.
43. **Ələkbərli Ə. Ermənilərin Qafqazda hiyləgərlikləri,** "Vətən səsi" qəzeti, 18 iyul-14 noyabr 1988-ci il, № 5,6,7,8,9,13.
44. **Ələkbərli Ə. Qərbi Azərbaycan, I c, Vedibasar mahalı,** B., 2000.
45. **Ələkbərli Ə. Qərbi Azərbaycan, II c, Zəngibasar, Gərnibasar və Qırxbulaq mahalları,** B., 2002.
46. **Ələkbərli Ə. Qərbi Azərbaycanın erməniləşdirilməsi,** Vedibasar qəz., 16-31 may, 1-15 iyun, 15-30 iyun, 1-15 iyul, 15-30 iyul, 1-15 avqust 2003-cü il, №6,7,8,9,10,11.
47. **Əliyev F., Həsənov U. İrəvan xanlığı,** B., Azərnəşr, 1997.
48. **Əliyev M.B. Qanlı günlərimiz,** B., 1993.
49. **Əliyev Ə. Vedinin "dəmir axını",** B., 1984.
50. **Əliyev Ə. Qırmızı tabor,** B., 1990.
51. **Əliyev V. Azərbaycan toponimiyası,** B., 1999.
52. **Əliyeva A. Paşa Qəlbinur,** B., 1996.
53. **Əsədoğlu F. Avşar – ulu tariximizin canlı şahidi,** "Vedibasar" qəz., 19 mart-2 aprel 2003-cü il.

54. **Əsədoğlu F. Xalqımızın adını özündə yaşadan tarixi abidə – Asnı toponimi,** "Vedibasar" qəz., 16-30 aprel 2003-cü il.
55. **Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti,** B., 1993.
56. **Əhmədov M. Nrxçıvan şivələrinin lüğəti,** B., 2001.
57. **Fərzəli Ə. Dədə Qorqud yurdu,** B., 1989.
58. **Hacıyev A. Qars və Araz-Türk respublikalarının tarixindən,** B., 1994.
59. **Hacıyev T. Azərbaycan dilinin tarixinə bir nəzər,** "Azərbaycan və azərbaycanlılar" jurn, 2001, №1
60. **Hacılı E. Qaraqoyunlular,** B., 1999.
61. **Heyət Cavad. Türklərin tarix və mədəniyyətinə bir baxış,** B., 1993.
62. **Həbiboğlu V. Türk dünyasının qüdrətli hökmdarları, xaqanları, sərkərdələri,** B., 1995.
63. **Hüseynov R. Biz niyə və necə didərgin olduq?** "Azərbaycan" qəz., 15 fevral 1998-ci il.
64. **Hüseynoğlu İ. Ağrı dağı ilə üzbəüz (Vedibasar mahalının Şiddi kəndi),** "Ağrıdağ" qozeti, 20-26 may 1998-ci il.
65. **Hüseynoğlu İ. Bir kəndin şəhidləri,** B., 1998.
66. **Hüseynoğlu İ. Vedinin yanı dağlar,** "Vətən səsi" qəz., 12 mart 1993-cü il.
67. **Хоренский Моисей. Истории Армении (перевод Н.О.Эмина),** М., 1893.
68. **İbrahimov T.Ə. Qaşqaylar,** B., 1988.
69. **İrəvan əyalətinin icmal dəftəri,** B., 1996.
70. **İsmayıl E. Ermənistan türklərinin 1988-ci il soyqırımı,** B., 1995
71. **İsmayıl E. Səttar oğlu,** B., 1997.
72. **İsmayılov Rəşid bəy. Azərbaycan tarixi,** B., 1993.
73. **İsmayılov M. Sənin ulu baban,** B., 1989.
74. **İsmayılov İ. Yaddaşımızın yaralı səhifələri,** B., 2000.
75. **İsmayılov İ. İrəvan ərazilərinin dünəni və bu günü,** B., 2001.
76. **İsmayılov H. Miskin Abdalın şəxsiyyəti və taleyi.** "Azərbay can şifahi xalq ədəbiyyatına dair tədqiqlər" (VIII c.) kit-da, B., 1999
77. **Историческая география Азербайджана,** Б., 1987.
78. **История армянского народа,** Ереван, 1951.
79. **Kalankatuklu Moisey. Albaniya tarixi,** B., 1989.
80. **Карта Кавказа. Составлена и литографирована в военно-топографическом отделе Кавказского Военного Округа,** Тифлис, 1903.
81. **Качазнуни Ов. Дашнагсүтуна бир иш галмады,** Б., 1990 (русча).
82. **Kərimzadə Fərman. Vedinin yanı dağlar...** "Azərbaycan" jurn., 1988-ci il, №9.
83. **Kərimzadə Fərman. Qarlı aşırım,** B., 1987.
84. **Kərimzadə Fərman. Çaldıran döyüşü,** B., 1987.
85. **Kərimzadə Fərman. Xudafərin körpüsü,** B., 1982.
86. **Kitabi-Dədə Qorqud,** B., 1977.
87. **"Kitabi-Dədə Qorqud"un izahlı lüğəti,** B., "Elm", 1999.
88. **Köçərli T., Rzayev A. "Oğuz-türk diyarı. Babamızın qışlağı, yaylağı...",** "Xalq qəzecti" qəz., 24 dekabr 1997-ci il.
89. **Köçərli F.B. Azərbaycan ədəbiyyatı, II c.,** B., 1981.
90. **Qasımov Ə. Sönməz ocaqlar, B., 2001.**
91. **Qeybullayev Q. Azərbaycan türklərinin təşəkkülü tarixindən,** B., 1994.
92. **Qeybullayev Q. Qədim türklər və Ermənistan,** B., 1992.
93. **Гейбуллайев Г.А. К этногенезу азербайджанцев,** Б., 1994.
94. **Qəzvini Zeynəddin bin Həmdullah. "Seçilmiş tarix"ə əlavə,** B., Elm, 1990.
95. **Qızılbaşlar tarixi,** B., 1993.
96. **Глинка С. Описание переселения армян Аддербайджанских в пределы России,** Москва, 1931.
97. **Qoş Mxitar. Alban salnaməsi,** B., Elm, 1993.
98. **Quliyev Ə. Andranik Qaraxaçda nələr törətdi,** "Xalq qəzeti", 3,4,5,6 sentyabr 1996-cı il.
99. **Quliyev Ə. Ermənilərin tarixi-coğrafi vətəni haradır?** "Azərbaycan" qəz., 25 iyun 1999-cu il.
100. **Quliyev V. Azərbaycanda erməni zülmü,** B., 1999.
101. **Гюрюн К. Армянское досье,** Б., Язычы, 1993.
102. **Məmmədov S. Azərbaycan XV-XVIII əsrin birinci yarısında,** B., 1981.
103. **Мамедов С.А. Азербайджан по источникам XV-первой половины VIII вв.,** Б., 1993.
104. **Məmmədov S.** O yerlərdə izim qaldı, B., 1997.
105. **Материалы для изучения экономического быта государственных крестьян Закавказского края, III ч.,** Тифлис, 1886.
106. **Məmməd Oruc. Köçürülmə,** B., 1992.
107. **Məmmədov İ. Ermənistan azərilərinin həyat salnaməsindən səhifələr,** İrəvan, 1970.
108. **Məmmədov İ. Qərb bölgəsi azərbaycanlılarının soyqırımına daha bir nəzər,** "Vətən səsi" qəzeti, 26 noyabr 1999-cu il - 6 yanvar 2000-ci il , № 47,48,49,50,52,53.
109. **Məmmədov İ. Tariximiz, torpağımız, taleyimiz,** B., 2002.
110. **Məmmədov İ. Sovet Ermənistanında Azərbaycan kitabı,**

İrəvan, 1985.
111. Məmmədov N. Azərbaycanın yer adları, B., 1993.
112. Məmmədova F. Azərbaycanın siyasi tarixi və tarixi coğrafiyası, B., 1993.
113. Mirzəyev H. Aşıq poeziyasında yaşayan adlarımız və tariximiz, B., 1997.
114. Mirmahmudova S. Ermənistanda türk mənşəli yer adları, B., 1995.
115. Musayev T. XX əsrdə ermənilər tərəfindən xalqımızın başına gətirilmiş faciələr, B., 1999.
116. Naxçıvan sancağının müfəssəl dəftəri, B., 1997.
117. Nemətova M. Əsrlərin daş yaddaşı, B., 1987.
118. Nəbiyev N. Coğrafi adlar, B., 1982.
119. Nəzirli Ş. Azərbaycan generalları, B., 1991.
120. Nəcəfov B. Deportasiya, III hissə, B., 1998.
121. Novruzlu Ə. Baxşəliyev V. Şərurun arxeoloji abidələri, B., 1993.
122. Ordubadi M.S. Qanlı illər, B., 1991.
123. Пагирев Д.Д. Алфавитный указатель к пятиверстной карте Кавказа, Тифлис, 1913.
124. Pənahqızı T. Ayrılıqdan sonra çəkilmiş şəkillər, B., 2001.
125. Петрушевский И.П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI-начале XIX вв., Л., 1949
126. Rəşidəddin Fəzlullah. Oğuznamə, B., 1992.
127. Rəhimoğlu H. Silinməz adlar, sağalmaz yaralar, B., 1997.
128. Саркисян Г, Худавердян К, Юзбашян. Потомки Хайка, Ереван, 1998.
129. Сборник сведений о Кавказе, 5 т, Тифлис, 1879.
130. Свод статических данных о населении Закавказского края, извлеченных из посемейных списков 1886 г., Тифлис, 1893.
131. Seyid Əyyub Ağa. Nəsihət və vəsiyyət, B., 2001.
132. Seyidov M. Azərbaycan xalqının soykökünü düşünərkən, B., 1989.
133. Seyidov M. Azərbaycan-erməni ədəbi əlaqələri, B., 1976.
134. Selaniki Mustafa Əfəndi. Tarixi Selaniki (1563-1600), B., 1992
135. Sədi Koçaş M. Tarixdə ermənilər və və türk-erməni münasibətləri, B., 1998.
136. Səməndər R. Şəhidlər, B., 1990.
137. СМОМПК. Вып 4, Тифлис, 1884.
138. СМОМПК. Вып 29, Тифлис. 1902.
139. СМОМПК. Вып 40, Тифлис, 1909.



140. Sultanov Z. Orada bir el varıydı, "Xalq qəzeti", 10 iyun 1997-ci il
141. Süleymanov M. İrəvan xanlığının Rusiyaya birləşdirilməsi tarixindən, B., 1997.
142. Sümər Faruq. Oğuzlar, B., 1992.
143. Şardən Jan. Səyahətnamə, B., 1994.
144. Шавров Н.Н. Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа Мугани инородцам, СПБ, 1911.
145. Şahmar E. Daxili İşlər Orqanları generalları, B., 1999.
146. Şahsoylu B. Haykanlar Qafqazda və panermənilik, "Vətən səsi", 6 iyun 1990-cı il.
147. Шопен И. Исторический памятник состояния Армянской области (Эриванской губернии) в эпоху присоединения к Российской Империи, СПБ, 1852.
148. Tehrani Əbubəkr. Kitabi-Diyarbəkriyyə, B., "Elm", 1998.
149. Təhməzoğlu Rəşid. "Ağrıdağ" adı necə yaranıb? "Ağrıdağ" qəzeti, 18-24 mart 1998-ci il, № 1 və 25-31 mart 1998-ci il, №2.
150. Təhməzoğlu Rəşid. "Araks" – "Araçay"dan doğulub... "Ağrıdağ" qəzeti, 8-14 aprel 1998-ci il, №4 və 15-21 aprel 1998-ci il, №5.
151. Unutsaq unudularıq, B., 2001.
152. Величко В.Л. Кавказ (Русское дело и междуплеменные вопросы), С-Петербург, 1904.
153. Veliçko V.L. Qafqaz (Rus mşm və tayfalararası məsələlər), B., 1995.
154. Вейдембаум Е. Путоводитель по Кавказу, Тифлис, 1888.
155. Vəlibəyov R. Keçmişdən səhifələr, İrəvan, 1969.
156. Vəlizadə İ. Vedi qan içində, B., 1998.
157. Vəlizadə İ. Qandal Kənan, B., 1997.
158. Vəlizadə İ. Muradov. B. Ermənistan azərbaycanlılarının soyqırımı, B., 1996.
159. Vəliyev İ. Qaçqınlıq, B., 1996.
160. Vəlili Məhəmmədhəsən. Azərbaycan (coğrafi-təbii, etno qrafik və iqtisadi mülahizələr), B., 1993.
161. Vəlixanlı N. IX-XII əsr ərəb coğrafiyaşünas səyyahları Azərbaycan haqqında, B., "Elm", 1974.
162. Vəlixanlı N. Ərəb xilafəti və Azərbaycan, B., 1993.
163. Yusifov Yusif. Qədim Şərq tarixi, B., 1993.
164. Zeynalov Ə. İrəvan ziyalıları, B., 1999.
165. Zeynaloğlu Cahangir. Müxtəsər Azərbaycan tarixi, B., 1992.

# KİTABIN İÇİNDƏ İSTİFADƏ OLUNMUŞ BƏZİ ARXAİK ÖLÇÜ VƏ TOPONİMİK VAHİDLƏRİN MƏNALARI

**Ağça** – 1328-1687-ci illərdə Osmanlı imperiyasında dövriyyədə olmuş gümüş pul; sonuncu tarixdən etibarən isə ağça sadəcə pul vahidi kimi işlənmişdir

**Batman** – ağırlıq ölçü vahidi: 1 batman = 7.7 kq

**Bəylərbəy** – əyaləti idarə edən şəxs. Əyalətin mülki və hərbi işləri üçün məsul şəxs hesab edilən bəylərbəyə xidməti qarşılığında illik gəliri 600.000-1.300.000 ağça arasında dəyişən xas və eyni zamanda paşa və yaxud mirmiran hərbi rütbəsi və vəzir mülki adı verilirdi

**Desyatin** – sahə ölçü vahidi: 1 desyatin = 1,09 ha

**Əyalət** – bəylərbəyi tərəfindən idarə olunan ən böyük ərazi inzibati vahid

**Fərsəx** – uzunluq ölçü vahidi: 1 fərsəx = təxminən 6-8 km

**Fut** – uzunluq ölçü vahidi: 1 fut = 30,479 sm

**Xalvar** – 1) ağırlıq ölçü vahidi: 1 xalvar = 25 pud; 2) sahə ölçü vahidi: 1 xalvar = 1 xalvar toxum əkiləcək torpaq sahəsi, təxminən 2,5 ha

**Xass** – başda sultan olmaqla yüksək vəzifəli dövlət məmurlarına dirlik verilən torpaq sahələri

**Qəza** – qazı tərəfindən idarə olunan inzibati vahid. Adətən, qazilərin iqamətgahı qəzanın mərkəzində yerləşirdi

**Liva** – əyalətə tabe olan ərazi-inzibati vahid. Sinonimi "sancaq" olan liva mirliva (sancaqbəy) tərəfindən idarə olunurdu

**Mərhələ** – uzunluq ölçü vahidi: 1 mərhələ = təxminən 25 km

**Məzrə** – sakinləri olmayan kəndlərin əkin sahələri

**Nahiyə** – əyalət tərkibindəki ən xırda ərazi-inzibati vahid

**Pud** – ağırlıq ölçü vahidi: 1 pud = 16,4 kq

**Timar** – süvarilərə (sipahilərə) dirlik verilən, illik gəliri 19.999 ağçaya qədər olan torpaq sahəsi

**Verst** – uzunluq ölçü vahidi: 1 verst = 1,06 km

**Vəqf** – gəliri də daxil olmaqla dini və xeyriyyə işləri üçün ayrılmış daşınan və daşınmaz əmlak

**Zeamət** – aşağı rütbəli dövlət məmurlarma dirlik verilən illik gəliri 20 mindən 99.999 ağçaya bərabər olan torpaq sahəsi



# KİTABIN İÇİNDƏKİLƏR


**Müəllifdən** ....6
**Ön söz** ....7

**"1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" Azərbaycan Respublikası prezidentinin fərmanı** ....11
**"Azərbaycanlıların soyqırımı haqqında" Azərbaycan Respublikası prezidentinin fərmanı** ....14

**Görkəmli şəxsiyyətlər və mənbələr ermənilər (haylar) haqqında** ....19

**VEDİBASAR MAHALI**

Ərazisi və coğrafiyası ....28
Qısa tarixi ....47
Əhalisi ....116
İqtisadiyyatı, təsərrüfat və məişət həyatı ....126
Tarixi abidə, qala, dini ocaq və ziyarətgahları ....147

**Qərbi Azərbaycan türklərinin və müsəlman kürdlərinin 1988-ci il soyqırımının acı yekunları** ....156
**Vedibasar azərbaycanlılarının 1988-ci il soyqırımının xronologiyası** ....158

**VEDİBASAR MAHALININ (VEDİ VƏ QARABAĞLAR RAYONLARININ) KƏNDLƏRİ**

Abbasabad ....164
Ağasıbəyli (Ağaslı) ....165
Ağbulaq ....167
Ağkənd ....169
Ağkilsə (Ağcakilsə) ....170
Ağkilsə ....170
Ağviran (Ağcaviran) ....173
Alqırıq (Əliqırıq) ....174
Almalı (Almalıq) ....177
Almәmmәd (Əlimәhәmmәd qışlağı, Əlimәmmәd) ....178

Arazdəyən (Qoturlu)....180
Armaş....185
Asnı (Əsni)....186
Aşağı Ərmik....188
Aşağı Qarabağlar....190
Avşar (Kəlbalavan)....193
Bağçacıq....199
Bayburt....209
Birəli (Pirəli)....216
Böyük bağ (Bağlar)....218
Böyük Gilanlar//Böyük Gilənar (Gilanlar, Gilənar)....219
Böyük Vedi (Vedi)....221
Bunut (Bunut Qaratorpaq)....280
Cadqıran (Çudkənd, Qaraçorlu)....281
Camışbasan....283
Cəfərli (Cəfərli Günnüt)....284
Cığın Qaraqoyunlu (Aşağı Qaraqoyunlu, Qaraqoyunlu)....286
Çanaxçı (Aşağı Çanaxçı)....289
Çardaqlı....292
Çatma (Çatmadağ)....293
Çəmbərək....296
Çəngli (Əlirzalar)....297
Çimənkənd (Qarabağlar, Çimən)....298
Çinçavat....308
Çobandərə (Aşağı Çobandərə və Yuxarı Çobandərə)....309
Daşlı (Daşdı)....310
Daşnov....313
Dəhnəz....314
Dəvəli (Qaynar)....319
Dəvəli şəhəri (Dəvəli sement zavodu qəsəəbəsi)....322
Dvin (Düyün)....324
Əfşarlı (Ovşarlı)....332
Əhmədli (Xanəhməd)....333
Ələyəz (Kiçik Şirazlı)....334
Əliabad....335
Əliqızıl....336
Əlimərdan (Almərdan)....337
Əngiz....340
Ərmik (Yuxarı Ərmik)....341
Əzizkənd (Aşağı Camışbasan)....345



**Goravan (Goraban, Yenikənd)**....348
**Göl (Gölkənd, Göllər)**....359
**Gölaysor (Göl, Türk gölü, Aysorgöl)**....360
**Gölcığın (Cığın)**....364
**Güldərviş**....369
**Güneyyurd (Xalisa)**....370
**Günnüt (Günlük, Günnüt Cəfərli)**....371
**Hacı Baba**....372
**Hacımirzə (Kürd kəndi)**....373
**Haxıs**....374
**Haqverdi**....378
**Hand (Hetut)**....379
**Haramlı Şətli**....383
**Harunburun (Qarınburun)**....384
**Heyranıs (Heyranos)**....385
**Həsənqala (Həsənli)**....387
**Hortun (Yuxarı Çanaxçı)**....388
**Xaçlı (Hacılı)**....398
**Xalisa (Xalisə)**....399
**Xaraba Kotanlı**....411
**Xartlıq (Xartdıq)**....413
**Xıdıreylas (Xıdır İlyas)**....414
**Xorvirab (qədim Artaşad)**....415
**Xosrov**....420
**Xunut//Xınıt (Xunut//Xınıt Qaraqoyunlu)**....423
**İmirzik**....425
**İnqala (Kiçik Haxıs)**....427
**Karvansara**....429
**Keşişdağ (Keçiddağ)**....430
**Keşişverən (Keşişviranı)**....432
**Kənizək (Yuxarı və Aşağı Kənüz)**....435
**Kərkab**....436
**Kiçik Bağçacıq**....437
**Kiçik Gilanlar//Kiçik Gilənar (Tap Gilanlar//Tap Gilənar)**....438
**Kiçik Vedi**....440
**Kirov qəsəbəsi (2 saylı sovxoz)**....446
**Kolanlı (Cirmanis)**....447
**Kom**....457
**Kotanlı (Seyid Kotanlı)**....458
**Kotuz (Gülbudaq)**....461

Körpükənd (Körpüqulağı, Torpaqqala)....466
Külağıl....469
Küsüs (Küsühlü Şətli)....470
Qaladibi (Qalacıq, Qalakənd)....472
Qarabağ....478
Qaraca Abdal....479
Qaraxaç....480
Qaraqoyunlu (Yuxarı Qaraqoyunlu)....487
Qaralar (Əliqara)....489
Qaratorpaq (Xunut Qaratorpaq)....506
Qaşqa....508
Qayçı (Qançı)....511
Qazançı....512
Qədirli (Qədili)....514
Qızılverən (Qızılviran, Qızılxaraba)....516
Qulaqsız....518
Lök (Lək)....519
Məmmədabad (Yeni Karyer, Muradabad, Qaracalar)....520
Məmmədrəsul (Məmmədrəsul qışlağı)....522
Məngük....523
Misir Dərviş....529
Molla Əhməd (Molla Məhəmməd)....530
Musacıq (Musa Dərviş)....532
Nəsibli (Nəsibli qışlağı)....533
Ortuk....534
Reyhanlı (Sarıbaş yurdu)....535
Rəşoğlu (Rəşidoğlu)....537
Saray (Əminkənd)....538
Sarıxanlı....539
Səfəralı (Səfər qışlağı)....540
Şahablı (İncədərə, Gəncəli, Köhnə Şahablı)....541
Şahablı (Yeni Şahablı)....543
Şampan (Şərab zavodu qəsəbəsi)....547
Şəhriyar....548
Şidli (Qaraqoyunlu Şidli)....549
Şirazlı....567
Şıxlar....580
Şırran....584
Şorsu (Şorbulaq)....585
Şuğayıb....586



Talasavan....588
Taytan....589
Telli Baba....596
Tərəkəmələr....597
Təzəkənd (Cığın Təzəkənd)....599
Vəlican....600
Yappa....601
Yaycı....602
Yeddiqardaş....603
Yellicə (İllicə)....604
Yengicə....606
Yeni həyat (Nor qyank)....615
Yeni yol (Nor Uqi)....616
Yuxarı Qarabağlar (Qarabağlar)....617
Zəncirli (Zincirli)....619
Zimmi....620
**Mənbələrdə Vedi nahiyəsi üzrə adı çəkilən, lakin yerini müəyyənləşdirə bilmədiyimizdən Vedibasar kəndləri siyahısına daxil etmədiyimiz toponimlər....622**

**Vedibasarda işlədilən sözlərin dialektoloji lüğəti....623**
**Vedibasarlı və Vedibasar mənşəli azərbaycanlı alimlər**
Elmlər doktorları....639
Elmlər namizədləri....639
**Sovet dövründə Vedi və Qarabağlar rayonlarında rəhbər vəzifələrdə işləmiş azərbaycanlılar....642**
**Vedi rayonu üzrə Ermənistan SSR Ali Sovetinin deputatları....645**
**Vedi rayonu üzrə Ermənistan SSR Əməkdar müəllimləri....645**

## ƏLAVƏLƏR

**"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) Vedibasar kəndləri....646**
**"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Vedibasar kəndləri....648**
**İrəvan xanlığının Rusiya tərəfindən işğalından sonra Vedibasar mahalında qeydə alınmış kəndlərin siyahısı (1832)....651**

**1948-1953-cü illərdə Vedibasar mahalı ərazisindən deportasiya olunmuş azərbaycanlı kəndləri və onların sonrakı taleyi....654**
**1988-ci ilə qədər Vedi rayonunda mövcud olan azərbaycanlı yaşayış məntəqələri....656**
**1988-1990-cı illərdə Vedi rayonunda ermənilər tərəfindən öldürülən azərbaycanlılar....657**
**Vedibasarın 20 Yanvar və Qarabağ müharibəsi şəhidləri....658**
**Sovet dövründə (1920-1991) Vedibasar mahalı üzrə adları dəyişdirilmiş yaşayış məntəqələri....659**

## VEDİBASAR MAHALININ TOPONİM VƏ ETNONİMLƏRİ

Dağ, dərə, yaylaq, yurd, qaya, təpə, yarğan, aşırım, mağara və s. adları....660
Meşə, düzənlik, qışlaq, otlaq və biçənək adları....664
Göl, çay, arx, kanal və bulaq adları....666
Yol, küçə, məhəllə və körpü adları....669
Qala, məbəd, abidə, ocaq və ziyarətgahlar....670
Tayfa və nəsil adları....672

## VEDİBASAR FOLKLORUNDAN SEÇMƏLƏR

Miflər....675
Maraqlı əhvalatlar....676
Deyimlər....681
İnanclar....690

## VEDİBASAR MÖVZUSUNDA ŞERLƏR

**Aşıq Alı.** Ağrı dağı....691
**Şahablı Aşıq Cəlil.** Qeyrət günüdür....692
**Aşıq Xudayar.** Abbasqulu bəy....693
Can Abbasqulu....694
**Fərman Kərimzadə.** Hanı qəbirlərin, Sarı dolama?....695
Bu qayalar Qorqud nəğmələriymiş....696
Yamanca getmişsən div yuxusuna....696
Gördün, görmədin?....697
Bu çay niyə qurudu?....698
Bura Qaraquzeydi....699
**Musa Bağırov.** Salam, Dərəyurd....700
Quzeydağ....700



Vedi....701
Vedinin....701
**Paşa Qəlbinur.** Bu yolların işığı nəm, gözü nəm....703
Çəmən....704
Salam, Ağrı dağım....705
**Nəriman Əyyub.** Vedililər dağıldılar Vedidən....706
**Bilman Qüdrət.** Ağrıdağ ağrısı....709
Ağrıdağın döşündə....712
Vətən oğlu, ayağa qalx!....713
**Əyyub Həsənov.** Hortun....714
Hortunun....714
**Əminə xanım Nəcəfqızı.** Bayatılar....716
**Əhməd Vedili.** Məkanımdır Vedibasar....717
**Kamil Novruz.** Vedi marşı....712

**İstifadə olunmuş ədəbiyyat....722**
**Kitabın içində istifadə olunmuş bəzi arxaik ölçü və toponimik vahidlərin mənaları....728**

**Əziz Yusif oğlu Ələkbərli.**
**Qərbi Azərbaycan, I cild,**
**Vedibasar mahalı (Vedi və Qarabağlar rayonları),**
Bakı, "Ağrıdağ" nəşriyyatı, 2003.

| | |
|---|---|
| **Nəşriyyatın direktoru:** | *Əziz Ələkbərli* |
| **Nəşriyyat redaktoru:** | *Natiq Abbasov* |
| **Korrektorları:** | *Gülnar Həsənova* |
| | *Humay İslamqızı* |
| **Kompüterdə yığdılar:** | *Tərana İbadova* |
| | *Ülviyyə Qaybaliyeva* |
| | *Ruhəngiz Əfəndiyeva* |
| **Kompüter tərtibçisi və texniki redaktoru:** | *Baxşəli Süleymanov* |
| **Bədii tərtibatçı:** | *Firudin Quliyev* |

Kağız formatı: 60/84 1/16
Mətbəə kağızı: №1
Həcmi: 46 ç/v
Tirajı: 1000
Sifariş:
Qiyməti müqavilə ilə.

**Kitab Azərbaycan MEA Folklor İnstitutunun kompüter mərkəzində yığılmış, "Nurlan" NPM-də hazır diapozitivlərdən çap edilmişdir.**

# VEDİBASAR MAHALI

